# الأَدَبُ المُفْرَد

للإِمَام الحَافِظ أَبِي عَبْدِ الله

مُحَمَّدِ بْنِ إِسْمَاعِيل بْنِ إِبْرَاهِيمَ البُخَارِي

(١٩٤-٢٥٦ هـ)

المترجم: علي خان موسايوف

المجلد الثاني

قَالَ الله تَعالى:

﴿ لَّقَدْ كَانَ لَكُمْ فِي رَسُولِ ٱللَّهِ أُسْوَةٌ حَسَنَةٌ
لِّمَن كَانَ يَرْجُواْ ٱللَّهَ وَٱلْيَوْمَ ٱلْآخِرَ وَذَكَرَ ٱللَّهَ كَثِيرًا ﴾

**Uca Allah ﷿ buyurur:**
**“Allahın rəsulu sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir.”**

İmam hafiz Əbu Abdullah
Muhəmməd ibn İsmail
ibn İbrahim əl-Buxari
(194-256 h)

# Peyğəmbərin ﷺ əxlaqı

(əl-Ədəbul-Mufrad və onun şərhi)

Ərəb dilindən tərcümə edən
Əlixan Musayev

İkinci cild

**Redaksiya heyəti**

**Ə. Z. Musayev**
**M. N. Qarayev**
**A. X. Salehli**
**S. Z. Səfərbəyov**
**F. H. Bağırova**
**R. M. Ağayev**
**G. İ. Musayeva**

**Kompüter tərtibatı**

**M. N. Qarayev**
**E. Q. Rüstəmov**

**Bu kitab Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin razılığı ilə çap edilmişdir.**
**(DK-550/B 12.11.2013)**

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

**Mərhəmətli və Rəhmli Allahın adı ilə!**

قال الحافظ أبو عبد الله محمد بن إسماعيل بن إبراهيم البخاري:

## ٢٩١ – بَابُ دَعَوَاتِ النَّبِيِّ ﷺ

## 291-ci fəsil. Peyğəmbərin ﷺ duaları

٦٨٨– حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الْمَلِكِ بْنُ الصَّبَّاحِ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ أَبِي إِسْحَاقَ، عَنِ ابْنِ أَبِي مُوسَى، عَنْ أَبِيهِ، عَنِ النَّبِيِّ ﷺ، أَنَّهُ كَانَ يَدْعُو بِهَذَا الدُّعَاءِ: ((رَبِّ اغْفِرْ لِي خَطِيئَتِي وَجَهْلِي، وَإِسْرَافِي فِي أَمْرِي كُلِّهِ، وَمَا أَنْتَ أَعْلَمُ بِهِ مِنِّي، اللَّهُمَّ اغْفِرْ لِي خَطَئِي كُلَّهُ، وَعَمْدِي وَجَهْلِي وَهَزْلِي، وَكُلُّ ذَلِكَ عِنْدِي. اللَّهُمَّ اغْفِرْ لِي مَا قَدَّمْتُ وَمَا أَخَّرْتُ، وَمَا أَسْرَرْتُ وَمَا أَعْلَنْتُ، أَنْتَ الْمُقَدِّمُ وَأَنْتَ الْمُؤَخِّرُ، وَأَنْتَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ)).

**(688)** ........ Əbu Musa əl-Əşari ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ belə dua edərdi: “Ey Rəbbim, mənim günahımı və bilməyərəkdən etdiyim xətamı, bütün işlərimdəki israfımı[1] və məndən daha yaxşı bildiyin[2] (pis) əməllərimi bağışla! Allahım, bütün xətalarımı – bilərəkdən, bilməyərəkdən və zarafatla etdiklərimi bağışla. Bunların hamısı məndə vardır.[3] Allahım, əvvəl

---

[1] İsraf etmək: artıq və lazımsız yerə sərf etmək, xərcləmək, işlətmək, dağıtmaq.

[2] Bu, dəlildir ki, insan etdiyi günahları unutsa da, Allah onları unutmur, əksinə, hamısını hesaba alır. Quranda belə buyurulur: **“*Allah* onların nə etdiklərini nəzarəti altında saxlayır və hər şeyi ayrı-ayrılıqda hesaba alır”** (əl-Cinn, 28); **“*Hər kəsin* kitabı *qarşısına* qoyulacaq və sən günahkarların orada *yazılmış* olanlardan qorxduqlarını görəcəksən. Onlar deyəcəklər: “Vay halımıza! Bu necə bir kitab imiş! O nə bir kiçik, nə də bir böyük günahı buraxmadan hamısını sayıb yazmışdır!” Onlar etdikləri əməlləri öz qarşılarında görəcəklər. Rəbbin heç kəsə haqsızlıq etməz!”** (əl-Kəhf, 49).

[3] Bu, Peyğəmbərin ﷺ olduqca təvazökar insan olduğunu bir daha sübuta yetirir.

etdiyim və sonra edəcəyim, gizlin saxladığım və üzə çıxardığım qəbahətlərimi bağışla! Əvvələ çəkən də Sənsən, təxirə salan da Sənsən. Hər şeyə qadir olan da Sənsən.[4]"[5]

٦٨٩- حَدَّثَنَا ابْنُ الْمُثَنَّى قَالَ: حَدَّثَنَا عُبَيْدُ اللَّهِ بْنُ عَبْدِ الْمَجِيدِ قَالَ: حَدَّثَنَا إِسْرَائِيلُ قَالَ: حَدَّثَنَا أَبُو إِسْحَاقَ، عَنْ أَبِي بَكْرِ بْنِ أَبِي مُوسَى، وَأَبِي بُرْدَةَ، أَحْسَبُهُ عَنْ أَبِي مُوسَى الأَشْعَرِيِّ، عَنِ النَّبِيِّ ﷺ، أَنَّهُ كَانَ يَدْعُو: ((اللَّهُمَّ اغْفِرْ لِي خَطِيئَتِي وَجَهْلِي وَإِسْرَافِي فِي أَمْرِي، وَمَا أَنْتَ أَعْلَمُ بِهِ مِنِّي، اللَّهُمَّ اغْفِرْ لِي هَزْلِي وَجِدِّي، وَخَطَئِي وَعَمْدِي، وَكُلُّ ذَلِكَ عِنْدِي)).

**(689)** ........ Əbu Musa əl-Əşari رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ belə dua edərdi: "Allahım, mənim günahımı və bilməyərəkdən etdiyim xətamı, işlərimdəki israfımı və məndən daha yaxşı bildiyin qəbahətlərimi bağışla! Allahım, zarafatca və ciddi olaraq etdiyim günahı, xətalarımı və bilərəkdən etdiyim səhvləri bağışla. Bunların hamısı məndə vardır.[6]"[7]

٦٩٠- حَدَّثَنَا أَبُو عَاصِمٍ، عَنْ حَيْوَةَ قَالَ: حَدَّثَنَا عُقْبَةُ بْنُ مُسْلِمٍ، سَمِعَ أَبَا عَبْدِ الرَّحْمَنِ الْحُبُلِيَّ، عَنِ الصُّنَابِحِيِّ، عَنْ مُعَاذِ بْنِ جَبَلٍ قَالَ: أَخَذَ بِيَدِي النَّبِيُّ ﷺ فَقَالَ: ((يَا مُعَاذُ))، قُلْتُ: لَبَّيْكَ، قَالَ: ((إِنِّي أُحِبُّكَ))، قُلْتُ: وَأَنَا وَاللَّهِ أُحِبُّكَ، قَالَ: ((أَلاَ أُعَلِّمُكَ كَلِمَاتٍ تَقُولُهَا فِي دُبُرِ كُلِّ صَلاَتِكَ؟)) قُلْتُ: نَعَمْ، قَالَ: ((قُلِ: اللَّهُمَّ أَعِنِّي عَلَى ذِكْرِكَ، وَشُكْرِكَ، وَحُسْنِ عِبَادَتِكَ)).

---

[4] Transkripsiyası: Rabbiğ-firli xatiəti və cəhli, və israfi fi əmri kullih, və mə əntə ə'ləmu bihi minni. Allahumməğ-firli xətai kulləh, və amdi və cəhli və həzli və kullu zəlikə indi. Allahumməğ-firli mə qaddəmtu və mə əxxart, və mə əsrartu və mə ə'lənt, əntəl-Muqəddimu və əntəl-Muəxxiru və əntə alə kulli şeyin qadir.

[5] Bu hədisi Buxari (6398) və Muslim (2719) rəvayət etmişdir.

[6] Transkripsiyası: Allahumməğ-firli xatiəti və cəhli, və israfi fi əmri, və mə əntə ə'ləmu bihi minni. Allahumməğ-firli həzli və ciddi, və xətai və amdi, və kullu zəlikə indi.

[7] Bu hədisi Buxari (6399) və Əhməd (4/417) rəvayət etmişdir.

**(690)** ........ Muaz ibn Cəbəl ﷺ demişdir: "(Bir dəfə) Peyğəmbər ﷺ mənim əlimdən tutub[8] dedi: "Ey Muaz!" Mən: "Buyur!"– dedim. O, dedi: "Mən səni sevirəm!" Mən dedim: "Vallahi ki, mən də səni sevirəm!" O, dedi: "Hər namazın sonunda[9] deyəcəyin bəzi kəlmələri sənə öyrədimmi?" Mən: "Bəli!"– dedim. O buyurdu: "De: "Allahım, Səni zikr etmək, Sənə şükür etmək və Sənə gözəl tərzdə ibadət etmək üçün mənə yardım et![10]"[11]

**٦٩١-** حَدَّثَنَا مُسَدَّدٌ، وَخَلِيفَةُ قَالاَ: حَدَّثَنَا بِشْرُ بْنُ الْمُفَضَّلِ قَالَ: حَدَّثَنَا الْجُرَيْرِيُّ، عَنْ أَبِي الْوَرْدِ، عَنْ أَبِي مُحَمَّدٍ الْحَضْرَمِيِّ، عَنْ أَبِي أَيُّوبَ الأَنْصَارِيِّ قَالَ: قَالَ رَجُلٌ عِنْدَ النَّبِيِّ ﷺ: الْحَمْدُ لِلَّهِ حَمْدًا كَثِيرًا طَيِّبًا مُبَارَكًا فِيهِ. فَقَالَ النَّبِيُّ ﷺ: ((مَنْ صَاحِبُ الْكَلِمَةِ؟)) فَسَكَتَ، وَرَأَى أَنَّهُ هَجَمَ مِنَ النَّبِيِّ ﷺ عَلَى شَيْءٍ كَرِهَهُ، فَقَالَ: ((مَنْ هُوَ؟ فَلَمْ يَقُلْ إِلاَّ صَوَابًا))، فَقَالَ رَجُلٌ: أَنَا، أَرْجُو بِهَا الْخَيْرَ، فَقَالَ: ((وَالَّذِي نَفْسِي بِيَدِهِ، رَأَيْتُ ثَلاَثَةَ عَشَرَ مَلَكًا يَبْتَدِرُونَ أَيُّهُمْ يَرْفَعُهَا إِلَى اللَّهِ عَزَّ وَجَلَّ)).

---

[8] Peyğəmbərin ﷺ səhabəsinin əlindən tutması və onu adı ilə çağırması, üstəlik, ona: "Mən səni sevirəm" deməsi, onun olduqca lütfkar və mərhəmətli insan olduğunu bir daha sübuta yetirir.

[9] İslam alimləri bu hədisdəki "sonunda" kəlməsi barədə iki rəy söyləmişlər. Bəziləri bu duanın salamdan əvvəl, bəziləri isə salamdan sonra deyildiyini bildirmişlər. Bu xüsusda, İbn Teymiyyə ﷺ demişdir: "Səhih"lərdə, "Sunən"lərdə və "Musnəd"lərdə varid olmuş hədislərin hamısında xəbər verilir ki, Peyğəmbər ﷺ namazın sonunda salamları verməmişdən qabaq dua edər, üstəlik, səhabələrinə də bunu öyrədər, onlara da belə etməyi buyurardı. Səhabələrdən heç biri Peyğəmbərin ﷺ istər fəcrdə, istər əsrdə, istərsə də başqa namazlarda camaata namaz qıldırıb tamamladıqdan sonra nə özünün, nə də səhabələrinin dua etdiyini nəql etməmişdir. Əksinə, "səhih" hədislərdə xəbər verilir ki, Peyğəmbər ﷺ namazı bitirdikdən sonra səhabələrinə tərəf çevrilib Allahı zikr edər və onlara da namazdan sonra Allahı zikr etməyi öyrədərdi" (Məcmu Fətavə, 22/492).

[10] Transkripsiyası: Allahummə əinni alə zikrikə və şukrikə və husni ibadətik.

[11] Bu hədisi Əbu Davud (1522) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

**(691)** ........ Əbu Əyyub əl-Ənsari ﷛ demişdir: "Bir nəfər Peyğəmbərin ﷺ yanında ikən[12] dedi: "Həmd Allaha məxsusdur! (Özü də) çoxlu,[13] xoş,[14] mübarək[15] bir həmd!"[16] Peyğəmbər ﷺ soruşdu: "Kim idi bu sözü deyən?" Adam susdu və elə güman etdi ki, o, Peyğəmbərin ﷺ xoşuna gəlmədiyi bir sözü demişdir.[17] Peyğəmbər ﷺ yenə soruşdu: "Kim idi o? O adam haqdan başqa bir şey söyləmədi." Adam dedi: "(O sözü deyən) mənəm. Mən bununla ancaq xeyir əldə etmək istəyirdim." Peyğəmbər ﷺ buyurdu: "Canım Əlində[18] Olan *Allaha* and olsun ki, (sən bu sözü deyərkən) mən on üç mələk

---

[12] Digər hədisdə bu hadisənin namazda baş verdiyi xəbər verilmişdir. Rəvayət edilir ki, Ənəs ﷛ demişdir: "*Bir dəfə biz namazda ikən* bir nəfər gəlib nəfəsi kəsilə-kəsilə cərgəyə daxil oldu və: "Əlhəmdulilləh, həmdən, kəsiran, tayyibən, mubarəkən fih"– dedi. Peyğəmbər ﷺ namazını bitirdikdən sonra soruşdu: "Bu kəlmələri deyən kim idi?" Camaat susdu. Peyğəmbər ﷺ təkrar soruşdu: "Bu kəlmələri deyən kim idi?" Adam: "Mən təngnəfəs gəlib bu kəlmələri söylədim"– dedi. Onda Peyğəmbər ﷺ buyurdu: "Mən on iki mələk gördüm ki, bu sözü hansı *daha tez Rəbbinin hüzuruna* qaldıracaq deyə, bir-birini ötməyə çalışırdılar" (Səhih Muslim, 1357).

[13] Salman əl-Farisinin ﷛ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "Bir nəfər: "Əlhəmdulilləhi kəsira (Allaha coxlu həmdlər olsun!)"– dedi. (Bu sözü eşidən) mələk bunun savabını necə yazacağına heyrət etdi və buna görə öz Rəbbinə ﷻ müraciət etdi. Rəbbi də ona belə buyurdu: "Qulum dediyi kimi də yaz: "Çoxlu" (Mocəmul-Ovsat, 3/44/2082; Silsilətul-Əhadisis-Səhihə, 3452).

[14] Burada "xoş" deyildikdə, pak, təmiz, salamat və s. buna yaxın mənalar qəsd edilir.

[15] Bərəkət diləmək: mövcud olan bir şeyin sabit qalmasını, üstəlik, onun artmasını diləmək deməkdir.

[16] Transkripsiyası: Əlhəmdulilləhi həmdən, kəsiran, tayyibən, mubarəkən fih.

[17] Diqqət edin! Burada səhabə bu cür gözəl dua etməsinə baxmayaraq, bu duanın Peyğəmbərin ﷺ Sünnəsinə zidd olan bir dua olduğunu düşünür və Peyğəmbər ﷺ onun dediyini təsdiqləyənədək onun qarşısına çıxmaqdan çəkinir. Bu da, səhabələrin bidət xüsusunda necə həssas olduqlarından xəbər verir. Bu hədisi diqqətlə oxuyub anladıqdan sonra arxayınlıqla demək olar ki, Peyğəmbərin ﷺ Sünnəsinə zidd olan duaların hamısı batil sayılır. Bidət xüsusunda Rəsulullah ﷺ belə buyurmuşdur: "Kim bizim bu işimizə (dinimizə) ondan olmayan bir şeyi əlavə edərsə, o rədd olunar" (Səhih Muslim, 1718).

[18] Bu, dəlildir ki, Allahın həqiqi mənada necəliyi Özündən başqa heç kəsə bəlli olmayan Əli vardır. Bu fikri isbat edən ayədə Uca Allah buyurur: **"Allahın hər iki Əli**

gördüm. Hansı biri bu sözü daha tez Allaha ﷻ yüksəldəcək[19] deyə, bir-biri ilə ötüşürdülər."[20]

٦٩٢- حَدَّثَنَا أَبُو النُّعْمَانِ قَالَ: حَدَّثَنَا سَعِيدُ بْنُ زَيْدٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ صُهَيْبٍ قَالَ: حَدَّثَنِي أَنَسٌ قَالَ: كَانَ النَّبِيُّ ﷺ إِذَا أَرَادَ أَنْ يَدْخُلَ الْخَلَاءَ قَالَ: ((اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الْخُبْثِ وَالْخَبَائِثِ)).

**(692)** ........ Ənəs ؓ rəvayət edir ki,[21] Peyğəmbər ﷺ ayaqyoluna daxil olmaq istədikdə deyərdi: "Allahım, erkək və dişi xəbislərdən[22] Sənə sığınıram![23]"

---

**açıqdır və O, *Öz lütfündən* istədiyi kimi sərf edir"** (əl-Maidə, 64); digər ayədə O, İblisə belə buyurur: **"Ey İblis! Sənə Mənim iki Əlimlə yaratdığıma səcdə etməyə mane olan nə idi?!"** (Sad, 75).

[19] Peyğəmbərin ﷺ bu sözü Allahın yüksəkdə olduğuna dəlalət edir. Bu fikri isbat edən ayədə Uca Allah buyurur: **"Gözəl söz Allaha tərəf yüksəlir və onu ucaldan yaxşı əməldir"** (Fatir, 10); digər ayədə O, buyurur: **"Mələklər və Ruh *Cəbrail* Ona doğru sayı əlli min ilə bərabər bir gün ərzində qalxırlar"** (əl-Məaric, 4).

[20] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih li-ğeyrihi" olduğunu demiş, habelə, bu rəvayətdəki "on üç" kəlməsinin yanlış (yəni isnaddakı ravilərdən birinin səhvi olduğunu), doğru ləfzin isə "otuzdan çox" sözü olduğunu bildirmiş, sonra da bu rəyi İmam Buxarinin öz "Səhih"indəki rəvayət etdiyi "səhih" hədislə əsaslandırmışdır. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: "Mən otuzdan çox mələk gördüm ki, bu sözü hansı biri daha tez yazacaq deyə, bir-birini ötməyə çalışırdılar" (Səhih əl-Buxari, 799).

[21] Bu hədisi Buxari (142), Muslim (831), Əbu Davud (4), Tirmizi (5), Nəsai (19), İbn Macə (298) və Əhməd (3/99) rəvayət etmişdir.

[22] Burada "xəbislər" deyildikdə, cinlərdən olan şeytanlar nəzərdə tutulur. Belə ki, başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Bu ayaqyolularına gələnlər vardır. Odur ki, biriniz ayaqyoluna daxil olmaq istədikdə, qoy: "Allahummə inni əuzu bikə minəl-xubsi vəl-xəbais"– desin" (Sunən Əbu Davud, 1/3; Silsilətul-Əhadisis-Səhihə, 1070). Bu hədisdə "ayaqyolularına gələnlər" deyildikdə, şeytanlar nəzərdə tutulur (Şərh Əbu Davud).

٦٩٣– حَدَّثَنَا مَالِكُ بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا إِسْرَائِيلُ، عَنْ يُوسُفَ بْنِ أَبِي بُرْدَةَ، عَنْ أَبِيهِ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: كَانَ رَسُولُ اللَّهِ ﷺ إِذَا خَرَجَ مِنَ الْخَلَاءِ قَالَ: ((غُفْرَانَكَ)).

**(693)** ........ Aişə ﵂ rəvayət edir ki, Rəsulullah ﷺ ayaqyolundan çıxdıqda deyərdi: "(Allahım,) məni bağışla![24]"[25]

٦٩٤– حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ الْمُنْذِرِ قَالَ: حَدَّثَنَا بَكْرُ بْنُ سُلَيْمٍ الصَّوَّافُ قَالَ: حَدَّثَنِي حُمَيْدُ بْنُ زِيَادٍ الْخَرَّاطُ، عَنْ كُرَيْبٍ مَوْلَى ابْنِ عَبَّاسٍ قَالَ: حَدَّثَنَا ابْنُ عَبَّاسٍ قَالَ: كَانَ النَّبِيُّ ﷺ يُعَلِّمُنَا هَذَا الدُّعَاءَ كَمَا يُعَلِّمُنَا السُّورَةَ مِنَ الْقُرْآنِ: ((أَعُوذُ بِكَ مِنْ عَذَابِ جَهَنَّمَ، وَأَعُوذُ بِكَ مِنْ عَذَابِ الْقَبْرِ، وَأَعُوذُ بِكَ مِنْ فِتْنَةِ الْمَسِيحِ الدَّجَّالِ، وَأَعُوذُ بِكَ مِنْ فِتْنَةِ الْمَحْيَا وَالْمَمَاتِ، وَأَعُوذُ بِكَ مِنْ فِتْنَةِ الْقَبْرِ)).

**(694)** ........ İbn Abbas ﵄ demişdir:[26] "Peyğəmbər ﷺ Qurandan bir surə öyrətdiyi kimi bu duanı bizə öyrədərdi: "(Allahım!) Cəhənnəm əzabından Sənə sığınıram! Qəbir əzabından Sənə sığınıram! Dəccal məsihin fitnəsin-

---

[23] Transkripsiyası: "Allahummə inni əuzu bikə minəl-xubsi vəl-xəbais." Yeri gəlmişkən, qeyd edək ki, ayaqyoluna girmək istədikdə bu duadan əvvəl "bismilləh" demək də Sünnəyə aiddir. Əli ibn Əbu Talibin ﵁ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "Cinlərin gözləri ilə insanların ayıb yerləri arasına çəkilən örtük, birinizin ayaqyoluna daxil olmaq istədiyi zaman "bismilləh" deməsidir" (Sunən ət-Tirmizi, 606; şeyx Albani bu hədisin "səhih" olduğunu demişdir. Bax: Səhih əl-Cami, 3611).

[24] Transkripsiyası: "Ğufranək." Burada bağışlanma diləməkdə hikmət, adamın ayaqyolunda olduğu müddət ərzində Allahı yad etmədiyinə görə, habelə, Allahın verdiyi nemətlərə görə Ona layiqincə şükür edə bilmədiyi üçün məğfirət diləməsidir.

[25] Bu hədisi Əbu Davud (30), Tirmizi (7), İbn Macə (300), Əhməd (6/155), İbn Xuzeymə (90), İbn Hibban (1444), İbn Əbu Şeybə (7) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[26] Bu hədisi Təbərani (10/101/11991) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

dən Sənə sığınıram! Həyatın və ölümün fitnəsindən[1] Sənə sığınıram! Qəbir Qəbir fitnəsindən[2] Sənə sığınıram![3]"

**٦٩٥–** حَدَّثَنَا عَلِيُّ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا ابْنُ مَهْدِيٍّ، عَنْ سُفْيَانَ، عَنْ سَلَمَةَ بْنِ كُهَيْلٍ، عَنْ كُرَيْبٍ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: بِتُّ عِنْدَ مَيْمُونَةَ، فَقَامَ النَّبِيُّ ﷺ فَأَتَى حَاجَتَهُ، فَغَسَلَ وَجْهَهُ وَيَدَيْهِ ثُمَّ نَامَ، ثُمَّ قَامَ فَأَتَى الْقِرْبَةَ فَأَطْلَقَ شِنَاقَهَا، ثُمَّ تَوَضَّأَ وُضُوءًا بَيْنَ وُضُوءَيْنِ، لَمْ يُكْثِرْ وَقَدْ أَبْلَغَ، فَصَلَّى، فَقُمْتُ فَتَمَطَّيْتُ كَرَاهِيَةَ أَنْ يَرَى أَنِّي كُنْتُ أَبْقِيهِ، فَتَوَضَّأْتُ، فَقَامَ يُصَلِّي، فَقُمْتُ عَنْ يَسَارِهِ، فَأَخَذَ بِأُذُنِي فَأَدَارَنِي عَنْ يَمِينِهِ، فَتَتَامَّتْ صَلاَتُهُ مِنَ اللَّيْلِ ثَلاَث عَشْرَةَ رَكْعَةً، ثُمَّ اضْطَجَعَ فَنَامَ حَتَّى نَفَخَ، وَكَانَ إِذَا نَامَ نَفَخَ، فَآذَنَهُ بِلاَلٌ بِالصَّلاَةِ، فَصَلَّى وَلَمْ يَتَوَضَّأْ، وَكَانَ فِي دُعَائِهِ: ((اللَّهُمَّ اجْعَلْ فِي قَلْبِي نُورًا، وَفِي سَمْعِي نُورًا، وَعَنْ يَمِينِي نُورًا، وَعَنْ يَسَارِي نُورًا، وَفَوْقِي نُورًا، وَتَحْتِي نُورًا، وَأَمَامِي نُورًا، وَخَلْفِي نُورًا، وَأَعْظِمْ لِي نُورًا)).

قَالَ كُرَيْبٌ: وَسَبْعٌ فِي التَّابُوتِ. فَلَقِيتُ رَجُلًا مِنْ وَلَدِ الْعَبَّاسِ، فَحَدَّثَنِي بِهِنَّ، فَذَكَرَ: عَصَبِي، وَلَحْمِي ، وَدَمِي، وَشَعْرِي، وَبَشَرِي، وَذَكَرَ خَصْلَتَيْنِ.

**(695)** ........ İbn Abbas ﵄ demişdir: "(Bir dəfə mən xalam) Məymunənin[4] evində gecələdim.[1] (Gecənin bir vaxtı) Peyğəmbər ﷺ qalxıb su başına

---

[1] Burada "həyatın fitnəsi" deyildikdə, həyatda ikən insanı haqq yolundan çıxaracaq bütün fitnələr, "ölümün fitnəsi" deyildikdə isə ölüm bihuşluğu gəldikdə, habelə, bundan sonra baş verən fitnələr qəsd edilir.

[2] Burada "qəbir fitnəsi" deyildikdə, Nəkir və Munkir adlı iki mələyin bərzəx aləminə köçmüş hər kəsə: "Rəbbin kimdir?", "Peyğəmbərin kimdir?" və "dinin nədir?"– deyə verdiyi suallar nəzərdə tutulur.

[3] Transkripsiyası: Əuzu bikə min əzabi Cəhənnəm, və əuzu bikə min əzabil-qabr, və əuzu bikə min fitnətil-məsihid-dəccal, və əuzu bikə min fitnətil-məhya vəl-məmat, və əuzu bikə min fitnətil qabr.

[4] Məymunə bint Haris ibn Həzn əl-Hilaliyyə ﵂ möminlərin anası və Peyğəmbərin ﷺ zövcəsidir. Peyğəmbər ﷺ hicrətin 7-ci ilində qəza ümrəsindən sonra onunla ev-

başına çıxdı, sonra üzünü və əllərini yuyub, yenə uzanıb yatdı. (Bir müddətdən) sonra qalxıb su tuluğuna yaxınlaşdı və onun ağzındakı ipi açıb suyu israf etmədən kamil şəkildə dəstəmaz aldı və namaza durdu. Onu güddüyümü başa düşməsin deyə, qalxıb gərnəşdim, sonra dəstəmaz alıb namaz qılmaq üçün onun solunda durdum. O, qulağımdan tutub məni sağ tərəfinə keçirdi.[2] Peyğəmbər ﷺ gecə (qıldığı) namazı on üç rükətdə tamamladı.[3] Sonra uzanıb yatdı. Nəhayət, xoruldamağa başladı.

lənmişdir. Məymunə hicrətin 61-ci ilində səksən yaşında vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 27-ci tərcümeyi-hal).

[1] Hərçənd, İbn Abbas ﵄, xalası Məymunədən ﵂ Peyğəmbərin ﷺ gecə namazı barəsində soruşa bilərdi, lakin o bunu öz gözləri ilə müşahidə etmək istədiyindən onun evində gecələmişdir. Bu, uşağın gecə namazını qılmağa həris olması, onun nə dərəcədə fəzilətli bir insan olduğunu bir daha sübuta yetirir.

[2] Bu, dəlildir ki, iki kişi bir yerdə namaz qıldığı zaman imam solda, ona tabe olan kimsə isə onun sağında, həm də yanaşı durmalıdırlar. Və əgər kimsə bilməməzliyi üzündən namaz əsnasında gəlib imamın solunda durarsa, imamın o kimsəni özünün sağ tərəfinə keçirməsi namazı batil edən artıq hərəkətlərdən sayılmaz. Onu da qeyd edək ki, həmin adamın qulağından tutmaq vacib deyil, qolundan və ya başından tutmaq da kifayət edər. Muslimin "Səhih"ində (1824) Rəsulullahın ﷺ İbn Abbasın ﵄ əlindən tutub sağ tərəfinə keçirdiyi rəvayət edilmişdir. Və əgər üçüncü bir adam da gəlib imama qoşularsa, onda imam onların hər ikisini arxa tərəfinə keçirməlidir. Bu xüsusda, varid olmuş hədisdə Cabir ﵁ demişdir: "*Bir dəfə* Rəsulullah ﷺ qalxıb namaz qıldı və mən də gəlib onun sol tərəfində namaza durdum. Onda o mənim əlimdən tutub sağ tərəfinə keçirtdi. Daha sonra Cabbar ibn Saxr gəlib onun sol tərəfində durdu. Onda Rəsulullah ﷺ əlimizdən tutub bizi arxa tərəfinə keçirtdi" (Səhih Muslim, 3010). Lakin xüsusilə vurğulamaq gərəkdir ki, bu keçirmə imamın önündən deyil, arxa tərəfindən olmalıdır. Bir də ki, bu hədis nafilə namazının camaat şəklində qılınmasının caiz olduğuna dəlalət edir.

[3] Başqa bir rəvayətdə İbn Abbas ﵄ demişdir: "Sonra iki rükət, sonra yenə iki rükət, sonra yenə iki rükət, sonra yenə iki rükət, sonra yenə iki rükət, sonra yenə iki rükət, sonra da bir rükət *namaz* qıldı" (Şəmailun-Nəbi, 265). Ma'n demişdir: "O bu iki rükətləri altı kə-

(Ümumiyyətlə) o, yatarkən xoruldayardı. Sonra Bilal onu namaza çağırdı[1] və o, qalxıb dəstəmaz almadan[2] namaz qıldı və belə dua etdi: "Allahım, qəlbimə nur saç! Qulağıma nur saç! Sağımdan nur saç! Solumdan nur saç! (Başımın) üstündən nur saç! (Ayağımın) altından nur saç! Önümə nur saç! Arxama nur saç! Mənim üçün böyük bir nur saç![3]"[4]

Kureyb demişdir: "Yeddi şey də vardır ki, onlar sandıqda qalıb."[5]

(Bu hədisi Kureybdən rəvayət etmiş Sələmə ibn Kuheyl demişdir): "Sonra mən Abbasın ﵁ oğlanlarından biri[6] ilə rastlaşdım və o, bunları mənə söylədi: sinirimə, ətimə, qanıma, saçıma və dərimə (nur saç). O, daha iki şeyi də zikr etdi.[7]

٦٩٦– حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنِي عَبْدُ الْعَزِيزِ بْنُ مُحَمَّدٍ، عَنْ عَبْدِ الْمَجِيدِ ابْنِ سُهَيْلِ بْنِ عَبْدِ الرَّحْمَنِ، عَنْ يَحْيَى بْنِ عَبَّادٍ أَبِي هُبَيْرَةَ، عَنْ سَعِيدِ بْنِ جُبَيْرٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَبَّاسٍ

---

rə təkrar etmişdir." Bu, dəlildir ki, gecə namazlarında hər iki rükətdən bir salam verib namazı tamamlamaq və təkrükətli vitri ayrıca qılmaq daha əfzəldir.

[1] Burada "namaz" deyildikdə, sübh namazı nəzərdə tutulur.

[2] Bu yalnız Peyğəmbərə ﷺ aiddir. Belə ki, digər insanlardan fərqli olaraq, Peyğəmbərin ﷺ yatması onun dəstəmazını pozmurdu. Çünki Peyğəmbərin ﷺ gözləri yatsa da, qəlbi yatmırdı. Hədislərin birində Peyğəmbər ﷺ Aişəyə ﵂ demişdir: "Ey Aişə, mənim gözlərim yatsa da, qəlbim yatmır" (Səhih əl-Buxari, 1147).

[3] Transkripsiyası: Allahumməc'al fi qalbi nuran və fi səm'i nuran və an yəmini nuran və an yəsari nuran və fövqi nuran və təhti nuran və əmami nuran və xəlfi nuran və ə'zim li nuran.

[4] Bu hədisi Buxari (6316), Muslim (763), Əbu Davud (5043), İbn Macə (508) və Əhməd (1/330) rəvayət etmişdir.

[5] Yəni yadımda deyil.

[6] Burada söhbət Abdullah ibn Abbasın ﵄ oğlu Əlidən gedir (Umdətul-Qari).

[7] Bundan başqa neçə-neçə "səhih" hədislərdə digər xislətlər də varid olmuşdur (Bax: "Müsəlmanın qalası", Məscidə gedərkən edilən dua, 19).

قَالَ: كَانَ النَّبِيُّ ﷺ إِذَا قَامَ مِنَ اللَّيْلِ، فَصَلَّى فَقَضَى صَلاَتَهُ، يُثْنِي عَلَى اللَّهِ بِمَا هُوَ أَهْلُهُ، ثُمَّ يَكُونُ فِي آخِرِ كَلاَمِهِ: ((اللَّهُمَّ اجْعَلْ لِي نُورًا فِي قَلْبِي، وَاجْعَلْ لِي نُورًا فِي سَمْعِي، وَاجْعَلْ لِي نُورًا فِي بَصَرِي، وَاجْعَلْ لِي نُورًا عَنْ يَمِينِي، وَنُورًا عَنْ شِمَالِي، وَاجْعَلْ لِي نُورًا مِنْ بَيْنَ يَدَيَّ، وَنُورًا مِنْ خَلْفِي، وَزِدْنِي نُورًا، وَزِدْنِي نُورًا، وَزِدْنِي نُورًا)).

**(696)** ........ İbn Abbas ﷺ demişdir: "Peyğəmbər ﷺ gecə qalxıb namaz qılar və namazını bitirdikdən sonra[1] Allahı layiqincə tərifləyər, axırda da dua edib deyərdi: "Allahım, mənim qəlbimə nur saç, qulağıma nur saç, gözümə nur saç, sağıma nur saç, soluma nur saç, önümə nur saç, arxama nur saç. Nurumu artır, nurumu artır, nurumu artır![2]"[3]

**٦٩٧-** حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ أَبِي الزُّبَيْرِ، عَنْ طَاوُسٍ الْيَمَانِيِّ، عَنْ عَبْدِ اللَّهِ ابْنِ عَبَّاسٍ: كَانَ رَسُولُ اللَّهِ ﷺ إِذَا قَامَ إِلَى الصَّلاَةِ مِنْ جَوْفِ اللَّيْلِ قَالَ: ((اللَّهُمَّ لَكَ الْحَمْدُ، أَنْتَ نُورُ السَّمَاوَاتِ وَالأَرْضِ وَمَنْ فِيهِنَّ، وَلَكَ الْحَمْدُ، أَنْتَ قَيَّامُ السَّمَاوَاتِ وَالأَرْضِ، وَلَكَ الْحَمْدُ أَنْتَ رَبُّ السَّمَاوَاتِ وَالأَرْضِ وَمَنْ فِيهِنَّ، أَنْتَ الْحَقُّ، وَوَعْدُكَ الْحَقُّ، وَلِقَاؤُكَ الْحَقُّ، وَالْجَنَّةُ حَقٌّ، وَالنَّارُ حَقٌّ، وَالسَّاعَةُ حَقٌّ. اللَّهُمَّ لَكَ أَسْلَمْتُ، وَبِكَ آمَنْتُ، وَعَلَيْكَ تَوَكَّلْتُ، وَإِلَيْكَ أَنَبْتُ، وَبِكَ

---

[1] Bundan əvvəlki rəvayətdə (habelə, Muslimin "Səhih"ində, 1793) Peyğəmbərin ﷺ bu duanı namaz əsnasında – səcdədə oxuduğu, bu rəvayətdə onun bu duanı namazı bitirdikdən sonra oxuduğu və başqa bir rəvayətdə (Səhih Muslim, 1799) onun bu duanı məscidə gedərkən oxuduğu varid olmuşdur. Bu rəvayətlər, hər üç halda bu duanı oxumağın caiz olduğuna dəlalət edir.

[2] Transkripsiyası: Allahumməc'al li nuran fi qalbi, vəc'al li nuran fi səm'i, vəc'al li nuran fi bəsari, vəc'al li nuran an yəmini, və nuran an şimali, vəc'al li nuran min beynə yədeyyə, və nuran min xalfi, və zidni nuran, və zidni nuran, və zidni nuran!

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

خَاصَمْتُ، وَإِلَيْكَ حَاكَمْتُ، فَاغْفِرْ لِي مَا قَدَّمْتُ وَمَا أَخَّرْتُ، وَمَا أَسْرَرْتُ وَمَا أَعْلَنْتُ، أَنْتَ إِلَهِي، لا إِلَهَ إِلا أَنْتَ)).

**(697)** ........ Abdullah ibn Abbas ﷺ rəvayət edir ki,[1] Rəsulullah ﷺ gecə qalxıb namaza başladığı[2] zaman deyərdi: "Allahım, həmd Sənə məxsusur. Sən göylərin, yerin və onlarda olanların nurusan.[3] Həmd Sənə məxsusdur. Sən göylərin və yerin Qəyyumusan. Həmd Sənə məxsusdur. Sən göylərin, yerin və onlarda olanların Rəbbisən. Sən Haqsan.[4] Verdiyin vəd haqdır. Sənə qovuşmaq haqdır.[5] Cənnət haqdır. Cəhənnəm haqdır.[6] Qiyamət saatı haqdır. Allahım, Sənə təslim oldum, Sənə iman gətirdim, Sənə təvəkkül etdim, tövbə edib Sənə döndüm, Sənin uğrunda mübarizə apardım və Sənin hökmünə üz tutdum. Əvvəl etdiyim, sonra edəcəyim, gizlin saxladığım və

---

[1] Bu hədisi Buxari (1120), Muslim (1808) və Əhməd (1/308) rəvayət etmişdir.

[2] Buna "istiftah duası" deyilir.

[3] Mubarəkfuri bu hədisi izah edərkən demişdir: "Yəni göyləri və yeri nurlandıran, onların nurunu yaradan. İbn Abbas ﷺ demişdir: "Göylərdə və yerdə olanlara hidayət verən." Bəziləri də belə izah etmişlər: "Yəni göylərdə və yerdə olanları nöqsanlardan təmizləyən, şübhələrdən uzaq edən." Əbul-Aliyə demişdir: "Göyləri günəş, ay və ulduzlarla, yeri isə alimlər və övliyalarla bəzəyən" (Tohfətul-Əhvəzi).

[4] Yəni "Sənin mövcud olmağına heç bir şəkk-şübhə yoxdur" (Tohfətul-Əhvəzi). "Haqq" – Allahın gözəl adlarından biridir. Bu ad Qurani Kərimdə on yerdə zikr edilmişdir. Həmin ayələrdən birində Uca Allah buyurur: **"Bu belədir. Çünki Allah Haqdır. *Kafirlərin* Ondan başqa yalvardıqları isə batildir. Həqiqətən, Allah Ucadır, Böyükdür"** (əl-Həcc, 62).

[5] Burada "qovuşmaq" deyildikdə, Qiyamət günü dirilib Allahın hüzuruna gəlmək və ya Onu görmək qəsd edilir (Tohfətul-Əhvəzi).

[6] İmam Buxarinin "Səhih"indəki (1120) rəvayətdə "Cəhənnəm haqdır" sözündən sonra Peyğəmbər ﷺ: "Peyğəmbərlər haqdır. Muhəmməd ﷺ haqdır" demişdir.

üzə çıxardığım (pis) əməllərimi bağışla! Sən mənim məbudumsan, Səndən başqa (ibadətə layiq) məbud yoxdur.[1]”

**٦٩٨-** حَدَّثَنَا الْوَلِيدُ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنَا عُبَيْدُ اللَّهِ بْنُ عَمْرٍو، عَنْ زَيْدِ بْنِ أَبِي أُنَيْسَةَ، عَنْ يُونُسَ بْنِ خَبَّابٍ، عَنْ نَافِعِ بْنِ جُبَيْرِ بْنِ مُطْعِمٍ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: كَانَ النَّبِيُّ ﷺ يَدْعُو: ((اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْعَفْوَ وَالْعَافِيَةَ فِي الدُّنْيَا وَالْآخِرَةِ، اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْعَافِيَةَ فِي دِينِي وَأَهْلِي، وَاسْتُرْ عَوْرَتِي، وَآمِنْ رَوْعَتِي، وَاحْفَظْنِي مِنْ بَيْنَ يَدَيَّ، وَمِنْ خَلْفِي، وَعَنْ يَمِينِي، وَعَنْ يَسَارِي، وَمِنْ فَوْقِي، وَأَعُوذُ بِكَ أَنْ أُغْتَالَ مِنْ تَحْتِي)).

**(698)** ........ İbn Abbas رضي الله عنهما rəvayət edir ki,[2] Peyğəmbər ﷺ belə dua edərdi:[3] “Allahım, dünyada və Axirətdə Səndən əfv və salamatlıq diləyirəm![4] Allahım, dinim və ailəm[5] üçün Səndən salamatlıq diləyirəm! Eyiblərimi ört[1]

---

[1] Transkripsiyası: Allahummə ləkəl-həmd, əntə nurus-səmavati vəl-ərdi və mən fihinn, və ləkəl həmd, əntə qəyyamus-səmavati vəl-ərd, və ləkəl-həmd, əntə Rabbus-səmavati vəl-ərdi və mən fihinn, əntəl-həqqu və və'dukəl-həqqu və liqaukəl-həqq, vəl-Cənnətu həqqun vən-Naru həqqun vəs-Saatu həqq. Allahummə ləkə əsləmtu və bikə aməntu və aleykə təvəkkəltu, və ileykə ənəbtu, və bikə xasamtu və ileykə hakəmt, fəğfir li mə qaddəmtu və mə əxxart, və mə əsrərtu və mə ə'lənt, əntə ilahi, lə ilahə illə ənt.

[2] Bu hədisi Əbu Davud, (5074), İbn Macə (3871), Əhməd (2/25) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “səhih” olduğunu demişdir.

[3] İmam Əhmədin və Əbu Davudun nəql etdiyi rəvayətlərdə İbn Abbas رضي الله عنهما demişdir: “Peyğəmbər ﷺ səhər açıldıqda və axşam düşdükdə bu zikri buraxmazdı...”

[4] Burada “dünyada salamatlıq” deyildikdə, fitnədən, şərdən və ümumiyyətlə, insanı haqq yoldan sapdırıb məhv edən bütün pis əməllərdən qorunmaq, “Axirətdə salamatlıq” deyilikdə isə Qiyamət günü üz verəcək sıxıntılardan, rüsvay olmaqdan, Allahın qəzəbinə gəlməkdən və Cəhənnəm əzabına düçar olmaqdan qurtulmaq nəzərdə tutulur.

[5] Burada “dində salamatlıq” deyildikdə, zəlalətə düşməkdən, küfrə və şirkə yol verməkdən, bidətlərə uymaqdan və başqa bu kimi şəriətə zidd əməllərdən qorunmaq, “ailə-

və qorxularımdan məni xatircəm et![2] Məni önümdən, arxamdan, sağımdan, solumdan və başımın üstündən qoru.[3] Ayağımın altının qazılmasından[4] Sənə[5] sığınıram![6]"

**٦٩٩-** حَدَّثَنَا عَلِيٌّ قَالَ: حَدَّثَنَا مَرْوَانُ بْنُ مُعَاوِيَةَ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَاحِدِ بْنُ أَيْمَنَ قَالَ: حَدَّثَنَا عُبَيْدُ بْنُ رِفَاعَةَ الزُّرَقِيُّ، عَنْ أَبِيهِ قَالَ: لَمَّا كَانَ يَوْمُ أُحُدٍ وَانْكَفَأَ الْمُشْرِكُونَ قَالَ رَسُولُ اللَّهِ ﷺ:

---

nin salamatlığı" deyildikdə isə onların şərdən, fitnədən, günahlardan və müsibətlərdən qorunmağı qəsd edilir.

[1] Bunu deyən müsəlman bu duanı etməklə yanaşı, başqalarının eyiblərini örtməlidir ki, Allah da Qiyamət günü onu rüsvay etməsin. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Kim bir müsəlmanın eyiblərini örtərsə, Allah da Qiyamət günü onun eyiblərini örtər" (Səhih əl-Buxari, 2442). Burada "eyib" deyildikdə, həmçinin, ayıb yerlərinin qorunması da buna aid edilir.

[2] Həqiqətən, əmin-amanlıq və salamatlıq böyük nemətdir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Kim əminlik içində, canı sağlam, yanında da həmin günün yeməyi olduğu halda səhərə çıxmışsa, ona sanki dünya bəxş edilmişdir" (Sunən ət-Tirmizi, 2347; Silsilə-tul-Əhadisis-Səhihə, 2318).

[3] Burada bütün bəlalardan, ələlxüsus da İblisin fitnəsindən və onun vəsvəsələrindən qorunmaq qəsd edilir. Belə ki, İblis Allaha söz verib demişdir: **"Mən Sənin düz yolunun üstündə oturub *insanları* tovlayacağam. Sonra onların yanına önlərindən və arxalarından, sağlarından və sollarından gələcəyəm və Sən onların əksəriyyətini şükür edən görməyəcəksən"** (əl-Əraf, 16-17).

[4] Burada "ayağın altının qazılması" deyildikdə, yerdə baş verən yarılmalar, qasırğalar, zəlzələlər və s. buna bənzər bəlalar nəzərdə tutulur.

[5] İmam Əbu Davudun nəql etdiyi hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ: "Əuzu bi azəmətikə (Sənin əzəmətinə sığınıram!)"– demişdir.

[6] Transkripsiyası: Allahummə, inni əs'əlukəl-afvə vəl-afiyətə fid-dunya vəl-axira. Allahummə, inni əs'əlukəl-afiyətə fi dini və əhli, vəstur ovrəti və amin rov'əti, vəhfəzni min bəyni yədeyyə və min xalfi və an yəmini və an yəsari və min fovqi və əuzu bikə ən uğtalə min təhti.

((اسْتَوُوا حَتَّى أُثْنِيَ عَلَى رَبِّي عَزَّ وَجَلَّ))، فَصَارُوا خَلْفَهُ صُفُوفًا، فَقَالَ: ((اللَّهُمَّ لَكَ الْحَمْدُ كُلُّهُ، اللَّهُمَّ لاَ قَابِضَ لِمَا بَسَطْتَ، وَلاَ مُقَرِّبَ لِمَا بَاعَدْتَ، وَلاَ مُبَاعِدَ لِمَا قَرَّبْتَ، وَلاَ مُعْطِيَ لِمَا مَنَعْتَ، وَلاَ مَانِعَ لِمَا أَعْطَيْتَ. اللَّهُمَّ ابْسُطْ عَلَيْنَا مِنْ بَرَكَاتِكَ وَرَحْمَتِكَ وَفَضْلِكَ وَرِزْقِكَ، اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ النَّعِيمَ الْمُقِيمَ الَّذِي لاَ يَحُولُ وَلاَ يَزُولُ. اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ النَّعِيمَ يَوْمَ الْعَيْلَةِ، وَالأَمْنَ يَوْمَ الْحَرْبِ، اللَّهُمَّ عَائِذًا بِكَ مِنْ سُوءِ مَا أَعْطَيْتَنَا، وَشَرِّ مَا مَنَعْتَ مِنَّا. اللَّهُمَّ حَبِّبْ إِلَيْنَا الإِيمَانَ وَزَيِّنْهُ فِي قُلُوبِنَا، وَكَرِّهْ إِلَيْنَا الْكُفْرَ وَالْفُسُوقَ وَالْعِصْيَانَ، وَاجْعَلْنَا مِنَ الرَّاشِدِينَ. اللَّهُمَّ تَوَفَّنَا مُسْلِمِينَ، وَأَحْيِنَا مُسْلِمِينَ، وَأَلْحِقْنَا بِالصَّالِحِينَ، غَيْرَ خَزَايَا وَلاَ مَفْتُونِينَ. اللَّهُمَّ قَاتِلِ الْكَفَرَةَ الَّذِينَ يَصُدُّونَ عَنْ سَبِيلِكَ، وَيُكَذِّبُونَ رُسُلَكَ، وَاجْعَلْ عَلَيْهِمْ رِجْزَكَ وَعَذَابَكَ. اللَّهُمَّ قَاتِلِ الْكَفَرَةَ الَّذِينَ أُوتُوا الْكِتَابَ، إِلَهَ الْحَقِّ)).

قَالَ عَلِيٌّ: وَسَمِعْتُهُ مِنْ مُحَمَّدِ بْنِ بِشْرٍ، وَأَسْنَدَهُ وَلا أَجِيءُ بِهِ.

**(699)** ........ Rifaə əz-Zuraqi (رضي الله عنه) demişdir: "Uhud döyüşündə müşriklər geri çəkilərkən Rəsulullah ﷺ belə buyurdu: "Cərgə-cərgə düzülün ki, Rəbbimə ﷻ tәriflər deyim." (Səhabələr) onun arxasında cərgələrə düzüldükdən sonra Rəsulullah ﷺ dedi: "Allahım, bütün həmdlər Sənə məxsusdur. Allahım, Sənin (Öz nemətlərindən) verdiyini alan, uzaqlaşdırdığını yaxınlaşdıran, yaxınlaşdırdığını uzaqlaşdıran, mane olduğunu verən, verdiyinə də mane olan (bir kimsə) yoxdur.[1] Allahım, bizə verdiyin bərəkətlərini,

---

[1] Burada Rəsulullah ﷺ Allahın hər şeyə qadir olduğunu və kainatda olan bütün işləri idarə etdiyini etiraf edir, beləliklə, hər bir işdə yalnız Ona təvəkkül etdiyini bildirir. Hədislərin birində rəvayət edilir ki, Peyğəmbər ﷺ İbn Abbasa (رضي الله عنهما) belə buyurmuşdur: "İstədikdə, yalnız Allahdan istə. Kömək dilədikdə də ancaq Allahdan kömək dilə. Bil ki, bütün ümmət sənə xeyir vermək üçün əlbir olsa belə, Allahın sənin lehinə yazdığı xeyirdən başqa bir şeylə sənə fayda verə bilməz. Həmçinin, onlar sənə zərər vurmaq üçün əlbir olsalar belə, Allahın sənin əleyhinə yazdığından başqa bir şeylə sənə zərər yetirə bilməz-

rəhmətini, lütfünü və ruzini artır.[1] Allahım, Səndən dəyişməyən və yox olmayan tükənməz nemətlər diləyirəm.[2] Allahım, Səndən çətin gündə[3] nemət və döyüş günündə əmniyyət diləyirəm. Allahım, bizə verdiyin şeylərin pisliyindən və vermədiyin şeylərin şərindən[4] Sənə sığınıram. Allahım, bizə imanı sevdir və qəlbimizdə onu gözəlləşdir, bizdə küfrə, günaha və asiliyə qarşı nifrət oyat və bizi doğru yolda gedənlərdən et.[5] Allahım, bizim canımızı müsəlman olduğumuz halda al, bizi müsəlman olduğumuz halda dirilt və bizi rüsvay etmədən, fitnəyə salmadan əməlisalehlərə qovuşdur.[6] Allahım, *insanları* Sənin yolundan döndərən və Sənin elçilərini ya-

---

lər. Qələmlər qaldırılmış, səhifələr də qurumuşdur" (Sunən ət-Tirmizi, 2516; Musnəd Əhməd, 1/293; Səhih əl-Cami, 7957).

[1] Uca Allah buyurur: **"Şübhəsiz ki, lütf Allahın Əlindədir və onu istədiyinə verir!"** (Ali-İmran, 73).

[2] Burada söhbət Cənnət nemətlərindən gedir. Uca Allah buyurur: **"İman gətirib yaxşı əməl işləyənləri tükənməz nemətlər gözləyir"** (Fussilət, 8); digər ayədə O, buyurur: **"Müttəqilərə Cənnət bağlarında heç bir yorğunluq toxunmayacaq və onlar oradan çıxarılmayacaqlar"** (əl-Hicr, 48).

[3] Burada "çətin" deyildikdə, fəqirlik nəzərdə tutulur.

[4] Çünki ola bilər ki, insana verilən var-dövlət ona xeyir gətirmək əvəzinə onu bəlaya düçar etsin, habelə, kasıblığa məruz qalması da onun günah işlər görməsinə, hətta dindən çıxmasına səbəb olsun.

[5] Bu xüsusda, Uca Allah buyurur: **"Allah sizə imanı sevdirmiş, onu qəlbinizə gözəl göstərmiş, sizdə küfrə, günaha və asi olmağa qarşı nifrət oyatmışdır. Doğru yolda olanlar da bunlardır. Bunlar Allahın lütfü və neməti sayəsindədir. Allah Biləndir, Hikmət sahibidir"** (əl-Hucurat, 7-8).

[6] Bir zaman İbrahim aleyhissəlam dua edib demişdi: **"Ey Rəbbim! Mənə hikmət ver və məni əməlisalehlərə qovuşdur! Sonra gələnlər arasında *həmişə yad edilim deyə* mənə yaxşı ad qismət elə! Məni Nəim bağının varislərindən et! Atamı bağışla! Çünki o, azmışlardandır. Onların dirildiləcəyi gün məni rüsvay etmə! O gün ki, nə var-dövlət, nə də oğul-uşaq bir fayda verməyəcək. Ancaq sağlam bir qəlblə Allahın hüzuruna gə-**

lançı sayan kafirləri öldür, onları cəzalandır və onlara əzab ver. Allahım, özlərinə Kitab verilmiş kafirləri öldür. Ey haqq İlah![1]"

Əli[2] demişdir: "Mən bu hədisi Muhəmməd ibn Bişrdən eşitmişəm. O bunu istinad edərək rəvayət etmişdir. Mən isə həmin isnadı yadda saxlamamışam."[3]

---

**lənlərdən başqa!"** (83-89); həmçinin, Yusuf aleyhissəlam dua edib demişdir: **"Ey Rəbbim! Sən mənə hakimiyyət verdin və mənə yuxuları yozmağı öyrətdin. Ey göyləri və yeri yaradan! Sən dünyada da, axirətdə də mənim Himayədarımsan. Mənim canımı müsəlman kimi al və məni əməlisalehlərə qovuşdur"** (Yusuf, 101).

[1] Transkripsiyası: Allahummə, ləkəl-həmdu kulluh. Allahummə, lə qabidə limə bəsətt, və lə muqarribə limə baədt, və lə mubaidə limə qarrabt, və lə mu'tiyə limə məna't, və lə maniə limə ə'tayt. Allahumməb-sut aleynə min bərakatikə və rahmətikə və fədlikə və rizqik. Allahumə, inni əs'əlukən-nəiməl-muqiməlləzi lə yəhulu və lə yəzul. Allahummə, inni əs'əlukən-nəimə yovməl-aylə, vəl-əmnə yovməl-hərb. Allahummə, aizən bikə min sui mə ə'taytənə, və şərri mə məna'tə minnə. Allahummə, həbbib ileynəl-imana və zeyyinhu fi qulubinə, və kərrih ileynəl-kufra vəl-fusuqa vəl-isyan, vəc'alnə minər-raşidin. Allahummə təvəffənə muslimin, və əhyinə muslimin, və əlhiqnə bis-salihin, ğayra xazaya və lə məftunin. Allahummə, qatilil-kəfəratəlləzinə yəsuddunə an səbilik, və yukəzzibunə rusulək, vəc'al aleyhim riczəkə və azəbək. Allahummə, qatilil-kəfəratəlləzinə uutul-kitab, ilahəl-Haqq.

[2] Bu, İmam Buxarinin şeyxi Əlidir.

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٢٩٢– بَابُ الدُّعَاءِ عِنْدَ الْكَرْبِ

## 292 -ci fəsil. Sıxıntı üz verdikdə edilən dua

٧٠٠– حَدَّثَنَا مُسْلِمٌ قَالَ: حَدَّثَنَا هِشَامٌ قَالَ: حَدَّثَنَا قَتَادَةُ، عَنْ أَبِي الْعَالِيَةِ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: كَانَ النَّبِيُّ ﷺ يَدْعُو عِنْدَ الْكَرْبِ: ((لاَ إِلَهَ إِلاَّ اللَّهُ الْعَظِيمُ الْحَلِيمُ، لاَ إِلَهَ إِلاَّ اللَّهُ رَبُّ السَّمَاوَاتِ وَالأَرْضِ وَرَبُّ الْعَرْشِ الْعَظِيمِ)).

**(700)** ........ İbn Abbas ﷺ demişdir: "Peyğəmbər ﷺ sıxıntı anında[1] belə dua edərdi: "Əzəmətli və Həlim Allahdan başqa (haqq) məbud yoxdur![2]

---

[1] Peyğəmbərin ﷺ sıxıntı anında etdiyi bu duasına və bu mövzuya aid olan digər dualarına diqqət yetirsək, bu duaların tövhidlə bağlı olduğunu görərik. Bu da, o deməkdir ki, tövhid insanı sıxıntıdan qurtaran və onun kədərini aradan qaldıran yeganə vasitədir. Tövhidsiz insanın bu həyatda da, Axirətdə də xoşbəxt və xatircəm olması mümkün deyil. Belə ki, insan tövhid üçün yaranmışdır. Bu xüsusda, Uca Allah buyurur: **"Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım"** (əz-Zariyat, 56). Demək, tövhid sıxıntıya düşmüş kimsələrin sığınacağıdır. Hətta müşriklər belə sıxıntı anında Tək Allaha yalvarırlar. Bu xüsusda, Uca Allah buyurur: **"Onlar gəmiyə mindikləri zaman, dini yalnız Allaha məxsus edərək, Ona yalvarırlar. *Allah* onları xilas edib quruya çıxaran kimi, yenə də *Ona* şərik qoşurlar"** (əl-Ənkəbut, 65). Bundan belə nəticə çıxır ki, həqiqi mənada tövhidi yaşayan mömin əhval-ruhiyyəsi həmişə yaxşı olar və hətta başına müsibət gəlsə və sıxıntıya düşsə belə, yalnız Allahdan kömək diləyər, Onun yazdığı qədərdən razı qalar və buna görə yalnız Rəbbinə şükür edər. Həmçinin, bu hədisdəki duaya diqqətlə nəzər salsaq görərik ki, Peyğəmbər ﷺ bu duada tövhidin hər üç qismini cəm etmişdir. Duada keçən "göylərin və yerin Rəbbi" kəlməsi "Rububiyyə" tövhidinə, "Allahdan başqa (haqq) məbud yoxdur" kəlməsi "Uluhiyyə" tövhidinə, "Əzəmətli və Həlim" kəlməsi isə "əl-Əsma vəs-Sifat" tövhidinə aiddir.

[2] "Lə ilahə illəllah"– bu, kəlmələrin ən əzəmətlisi, mütləq şəkildə ən möhtəşəmi sayılan tövhid kəlməsidir. Bu kəlmənin mənasını özündə əks etdirən əqidədən başqa heç bir şey tövhid sayıla bilməz. Bu kəlmə iki rükn üzərində dayanır: inkar və isbat. Bu kəlmənin əvvəlindəki "Lə ilahə (yoxdur ilah)"– ümumi inkar və bir də onun axırındakı "illəllah

(Allahdan başqa)" – xüsusi isbat deməkdir. Bu kəlmənin əvvəlindəki ümumi inkar, – "Lə ilahə (yoxdur ilah)" Allahdan başqa ibadət edilən ilahların hamısını inkar edir. "İlləllah" kəlməsi isə ibadətin bütövlüklə Tək Allaha məxsus olduğunu isbat edir. "Lə ilahə" sözündəki "ilah" kəlməsi, "məbud" deməkdir. Demək, sən: "lə ilahə" yəni "lə məbudə" deyəndə, Allahdan başqa ibadət edilən ilahların hamısını inkar edirsən. Bu cümlədəki "lə" inkar ədatı cinsə, yəni qondarma ilahların hamısına aid edilir. Demək, "lə ilahə illəllah" – "Allahdan başqa ibadətə layiq məbud yoxdur" deməkdir. Odur ki, Allah Təbarəkə və Təalədən başqa olan ilahların hamısı – nə cür olursa olsun, kim olursa olsun – batil sayılır. (Bundan aydın olur ki,) ibadət yalnız Allah Təbarəkə və Təalənin haqqıdır və heç kəs heç bir vəchlə bu haqqa şərik ola bilməz. Odur ki, "lə ilahə illəllah" kəlməsini həqiqi mənada, sidq-ürəkdən deyən adam ibadətdən sayılan heç bir əməli Allahdan qeyrisinə yönəltməməlidir. Beləsi istədiyini yalnız Allahdan istəyər, yalnız Allahdan kömək diləyər, yalnız Allahdan mədəd və yardım diləyər, beləliklə də, ibadəti yalnız Allaha yönəldər. Demək, adam dili ilə "lə ilahə illəllah" desə, sonra da Allahdan qeyrisinə yalvarsa, Allahdan qeyrisindən kömək diləsə, Allahdan başqasından mədəd diləsə, Allahdan qeyrisi üçün qurban kəssə və s. ibadəti Allahdan qeyrisinə yönəltsə, bütün əməllərini puç etmiş olar. Odur ki, "lə ilahə illəllah" kəlməsini deyən adam Allaha şərik qoşduğu halda, bu kəlməni onlarca, yüzlərcə, minlərcə kərə təkrar etsə belə, bu ona heç bir fayda verməz. Fayda verən yalnız odur ki, bu kəlmənin məğzini təkAllahlıq etiqadı ilə səmimi-qəlbdən yalnız Allah Təbarəkə və Təaləyə yönəltmiş olsun. Ancaq dildə bu kəlməni deyib, əməldə onu puç etmək isə onu deyən adama heç bir fayda verməyəcək. Bu da, bizə, avam adamları zəlalətə çağıran dəvətçilərin nə dərəcədə qorxulu olduqlarını bəyan edir. Onlar "lə ilahə illəllah" kəlməsinin mənasını avamlara yanlış şəkildə öyrədirlər. Məsələn, bəziləri deyirlər ki: "Lə ilahə illəllah (Allahdan başqa yaradan yoxdur)" deməkdir, yaxud: "Lə ilahə illəllah (Allahdan başqa ruzi verən yoxdur)" deməkdir. Beləliklə də "lə ilahə illəllah" deyən və bunu "Allahdan başqa yaradan yoxdur" və ya "Allahdan başqa ruzi verən yoxdur" kimi başa düşən adam elə güman edir ki, əgər Allahdan savayı ruzi verənin və ya yaradanın olmadığına etiqad edirsə, demək, o, Allahdan qeyrisinə ibadət etsə də, təkAllahlığı təsdiqləyən tövhid əhlindən sayılır. Bu ona görədir ki, zəlalətə çağıran dəvətçilər Allaha ibadət etmək və dini ixlasla Allaha yönəltmək məfhumunu bu kəlmənin anlamından çıxarmışlar. Beləliklə də, batili yayan dəvətçilərin sayəsində bir çox insanlar aşkar sapıntıya düşür və böyük fəsada uğrayırlar. Odur ki, həqiqi mənada və səmimi-qəlb-

Göylərin və yerin Rəbbi, habelə, əzəmətli Ərşin Rəbbi olan Allahdan başqa (haqq) məbud yoxdur![1]"[2]

٧٠١– حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الْمَلِكِ بْنُ عَمْرٍو قَالَ: حَدَّثَنَا عَبْدُ الْجَلِيلِ، عَنْ جَعْفَرِ بْنِ مَيْمُونٍ قَالَ: حَدَّثَنِي عَبْدُ الرَّحْمَنِ بْنُ أَبِي بَكْرَةَ، أَنَّهُ قَالَ لِأَبِيهِ: يَا أَبَتِ، إِنِّي أَسْمَعُكَ تَدْعُو كُلَّ غَدَاةٍ: اللَّهُمَّ عَافِنِي فِي بَدَنِي، اللَّهُمَّ عَافِنِي فِي سَمْعِي، اللَّهُمَّ عَافِنِي فِي بَصَرِي، لاَ إِلَهَ إِلاَّ أَنْتَ، تُعِيدُهَا ثَلاَثًا حِينَ تُمْسِي، وَحِينَ تُصْبِحُ ثَلاَثًا، وَتَقُولُ: اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الْكُفْرِ وَالْفَقْرِ، اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ عَذَابِ الْقَبْرِ، لاَ إِلَهَ إِلاَّ أَنْتَ، تُعِيدُهَا ثَلاَثًا حِينَ تُمْسِي، وَحِينَ تُصْبِحُ ثَلاَثًا، فَقَالَ: نَعَمْ، يَا بُنَيَّ، سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ بِهِنَّ، وَأَنَا أُحِبُّ أَنْ أَسْتَنَّ بِسُنَّتِهِ.

قَالَ: وَقَالَ رَسُولُ اللَّهِ ﷺ: ((دَعَوَاتُ الْمَكْرُوبِ: اللَّهُمَّ رَحْمَتَكَ أَرْجُو، وَلاَ تَكِلْنِي إِلَى نَفْسِي طَرْفَةَ عَيْنٍ، وَأَصْلِحْ لِي شَأْنِي كُلَّهُ، لاَ إِلَهَ أَلاَ أَنْتَ)).

**(701)** ........ Rəvayət edilir ki, bir dəfə Abdur-Rəhman ibn Əbu Bəkrə öz atasına dedi: "Atacan, mən hər[3] səhər və hər axşam sənin üç dəfə belə dua etdiyini eşidirəm:[4] "Allahım, bədənimi salamat et! Allahım, qulağımı sala-

---

dən "lə ilahə illəllah" deyən kimsə yalnız Allaha yalvarar, yalnız Allahdan kömək istəyər, yalnız Allahdan mədəd və yardım diləyər, yalnız Allaha rüku və səcdə edər, yalnız Allah üçün qurban kəsər və yalnız Allah üçün nəzir verər. **"De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür! Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən müsəlmanların birincisiyəm"** (əl-Ənam, 162-163).

[1] Transkripsiyası: Lə ilahə illəllahul-azimul-həlim, lə ilahə illəllahu Rabbus-səmavati vəl-ard, və Rabbul-arşil-azim.

[2] Bu hədisi Buxari (6345) və Əhməd (1/228) rəvayət etmişdir.

[3] Bu, dəlildir ki, Əbu Bəkrə Nufey ibn Haris əs-Səqəfi ﵁ bu duanı davamlı edərmiş.

[4] Atanın etdiyi duanı öz övladına eşitdirməsi, onu xeyrə yönəltməsi və ona düzgün tərbiyə verməsi deməkdir.

mat et! Allahım, gözümü salamat et! Səndən başqa (haqq) məbud yoxdur. Allahım, küfrdən[1] və yoxsulluqdan Sənə sığınıram! Allahım, qəbir əzabından Sənə sığınıram! Səndən başqa (haqq) məbud yoxdur!"[2] O, dedi: "Elədir ki, var! Oğlum, mən Peyğəmbərin ﷺ belə dua etdiyini eşitdim və istəyirəm ki, onun tutduğu yolla gedim.[3] Peyğəmbər ﷺ demişdir. Bəlaya düşmüş kimsənin duası belədir: "Allahım, Sənin mərhəmətini diləyirəm. Məni bir göz qırpımı belə başlı-başına buraxma![4] Mənim bütün işlərimi yoluna qoy! Səndən başqa *ibadətə layiq* məbud yoxdur.[5]"[6]

٧٠٢- حَدَّثَنَا مُحَمَّدُ بْنُ عَبْدِ الْعَزِيزِ قَالَ: حَدَّثَنَا عَبْدُ الْمَلِكِ بْنُ الْخَطَّابِ بْنِ عُبَيْدِ اللهِ بْنِ أَبِي بَكْرَةَ قَالَ: حَدَّثَنِي رَاشِدٌ أَبُو مُحَمَّدٍ، عَنْ عَبْدِ اللهِ بْنِ الْحَارِثِ قَالَ: سَمِعْتُ ابْنَ عَبَّاسٍ يَقُولُ: كَانَ النَّبِيُّ ﷺ يَقُولُ عِنْدَ الْكَرْبِ: ((لاَ إِلَهَ إِلاَّ اللهُ الْعَظِيمُ الْحَلِيمُ، لاَ إِلَهَ إِلاَّ اللهُ رَبُّ الْعَرْشِ الْعَظِيمِ، لاَ إِلَهَ إِلاَّ اللهُ رَبُّ السَّمَاوَاتِ وَرَبُّ الأَرْضِ وَرَبُّ الْعَرْشِ الْكَرِيمِ، اللَّهُمَّ اصْرِفْ شَرَّهُ)).

---

[1] Bundan aydın olur ki, mömin adam arxayın olmamalı, küfrdən uzaq olmaq üçün Rəbbinə sığınmalıdır. Peyğəmbərlərin atası sayılan İbrahim aleyhissəlamın duasına diqqət edin: **"Ey Rəbbim! Bu şəhəri əmin-amanlıq *yurdu* et. Məni və oğullarımı bütlərə tapınmaqdan uzaqlaşdır"** (İbrahim, 35). İbrahim ət-Teymi bu ayəni izah edərkən demişdir: "İbrahim aleyhissəlam: "Məni və oğullarımı bütlərə tapınmaqdan uzaqlaşdır" deyəndən sonra kim bu bəladan arxayın ola bilər" (Təfsir əl-Qurtubi).

[2] Transkripsiyası: Allahummə, afini fi bədəni. Allahummə, afini fi səm'i. Allahummə, afini fi bəsari. Lə ilahə illə ənt. Allahummə, inni əuzu bikə minəl-kufri vəl-fəqri, və əuzu bikə min əzabil-qabri, lə ilahə illə ənt.

[3] Bu, səhabənin Sünnəyə möhkəm sarıldığından xəbər verir.

[4] Bundan aydın olur ki, mömin adam heç bir işdə öz gücünə və qüdrətinə arxayın olmamalı, əksinə, ancaq Allaha təvəkkül etməlidir.

[5] Transkripsiyası: Allahummə, rahmətəkə ərcu, və lə təkilni ilə nəfsi tarfətə ayn, və əslih li şə'ni kulləh, lə ilahə illə ənt.

[6] Bu hədisi Əbu Davud (5090), Əhməd (5/42) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "həsən" olduğunu demişdir.

**(702)** ........ İbn Abbas ﷺ rəvayət edir ki,[1] sıxıntı anında Peyğəmbər ﷺ belə dua edərdi: "Əzəmətli və Həlim Allahdan başqa (haqq) məbud yoxdur! Əzəmətli Ərşin Rəbbi olan Allahdan başqa (haqq) məbud yoxdur! Göylərin Rəbbi, yerin Rəbbi və kəramətli Ərşin Rəbbi olan Allahdan başqa (haqq) məbud yoxdur! Allahım, bu sıxıntının şərini (məndən) uzaq elə.[2]"

---

[1] Şeyx Albani "Silsilətul-Əhadisis-Daifə" əsərində (5443) bu hədisin isnadının "zəif" olduğunu demiş, sonra da bu hədisin isnadında keçən Abdul-Məlik ibn Xattabın "məqbul", Raşid ibn Nəcih Əbu Muhəmmədin isə "bəzən xətalara yol vermiş səduq" ravi olduğunu, üstəlik, də mətnindəki "Allahumməsrif şərrah" əlavəsinin "munkər" olduğunu bildirmişdir. Sonra demişdir: "Bu hədis "Allahım, bu sıxıntının şərini (məndən) uzaq elə" əlavəsi zikr olunmadan, İbn Abbasdan "səhih" isnadla rəvayət edilmişdir. Hədisi Buxari (6346 və 7326), Muslim (8/85), Tirmizi (3431), Nəsai (Aməlul-Yovm vəl-Leylə, 4/652-653), İbn Macə (3883), Təyalisi (2651), Əhməd (1/228, 254, 339, 356), İbn Əbu Şeybə (10/196/9204) və Təbərani (Mocəmul-Kəbir, 12/158 və "Dua" 2/1274, 1023, 1024) rəvayət etmişdir.

[2] Transkripsiyası: Lə ilahə illəllahul-azimul-həlim, lə ilahə illəllahu Rabbul-arşil-azim, lə ilahə illəllahu Rabbus-səmavati və Rabbul-ardı və Rabbul-arşil-kərim. Allahumməsrif şərrah.

## ٢٩٣- بَابُ الدُّعَاءِ عِنْدَ الأسْتِخَارَةِ

## 293-cü fəsil. İstixarə[1] etmək istədikdə oxunan dua

٧٠٣- حَدَّثَنَا مُطَرِّفُ بْنُ عَبْدِ اللَّهِ أَبُو الْمُصْعَبِ قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ أَبِي الْمَوَالِ، عَنْ مُحَمَّدِ بْنِ الْمُنْكَدِرِ، عَنْ جَابِرٍ قَالَ: كَانَ النَّبِيُّ ﷺ يُعَلِّمُنَا الاِسْتِخَارَةَ فِي الْأُمُورِ كَالسُّورَةِ مِنَ الْقُرْآنِ: إِذَا هَمَّ بِالأَمْرِ فَلْيَرْكَعْ رَكْعَتَيْنِ ثُمَّ يَقُولُ: ((اللَّهُمَّ إِنِّي أَسْتَخِيرُكَ بِعِلْمِكَ، وَأَسْتَقْدِرُكَ بِقُدْرَتِكَ، وَأَسْأَلُكَ مِنْ فَضْلِكَ الْعَظِيمِ، فَإِنَّكَ تَقْدِرُ وَلاَ أَقْدِرُ، وَتَعْلَمُ وَلاَ أَعْلَمُ، وَأَنْتَ عَلاَّمُ الْغُيُوبِ. اللَّهُمَّ إِنْ كُنْتَ تَعْلَمُ أَنَّ هَذَا الأَمْرَ خَيْرٌ لِي فِي دِينِي، وَمَعَاشِي، وَعَاقِبَةِ أمري، أَوْ قَالَ: فِي عَاجِلِ أَمْرِي وَآجِلِهِ، فَاقْدُرْهُ لِي، وَإِنْ كُنْتَ تَعْلَمُ أَنَّ هَذَا الأَمْرَ شَرٌّ لِي فِي دِينِي، وَمَعَاشِي، وَعَاقِبَةِ، أَوْ قَالَ: عَاجِلِ، أَمْرِي وَآجِلِهِ فَاصْرِفْهُ عَنِّي وَاصْرِفْنِي عَنْهُ، وَاقْدُرْ لِيَ الْخَيْرَ حَيْثُ كَانَ، ثُمَّ رَضِّنِي بِهِ))، وَيُسَمِّي حَاجَتَهُ.

**(703)** ........ Cabir ibn Abdullah ﵄ demişdir:[2] "Peyğəmbər ﷺ bizə Qurandan bir surə öyrətdiyi kimi[3] istixarə duasını da öyrədib deyərdi: "(Sizdən biriniz) bir işə başlamaq istədikdə iki rükət namaz qılsın,[4] sonra desin: "Allahım, Səndən Öz elminlə mənə kömək etməyi və Öz qüdrətinlə mənə

---

[1] İstixarə: görüləcək bir işin uğurlu olub-olmayacağını öyrənmək üçün Allahdan buna dair bir əlamət göstərməsini diləməkdir. Cahiliyyət dövründə müşriklər fal oxları ilə yaxud quş uçurtmaqla və ya başqa bu kimi xurafatlarla qismət axtarar, son nəticədə də öz talelərini Allahın qədərinə yox, bu cür cəfəng işlərə bağlayardılar.

[2] Bu hədisi Buxari (1162) rəvayət etmişdir.

[3] Cabir ibn Abdullah ﵁ demək istəyir ki, istixarə etmək istəyən adam bu duanı Peyğəmbərin ﷺ öyrətdiyi ləfz ilə, yəni bu duanın bir hərfini belə dəyişmədən oxumalıdır. Əzbərdən bu duanı bilməyən kəs onu üzündən də oxuya bilər.

[4] Bu, qadağan olunmuş vaxtlar istisna olmaqla, istənilən vaxt fərz namazlarından başqa qılınan namazdır. Qeyd edək ki, istixarə duasını oxuduqdan sonra görəcəyi işin xeyirli olub-olmadığı bəlli olmazsa, bir daha namaz qılıb bu duanı oxumaq olar, başqa cür desək, bunu iki və ya üç kərə təkrar etmək caizdir.

qüdrət verməyi diləyirəm. Səndən Sənin böyük lütfünü diləyirəm. Sənin (hər şeyə) qüdrətin çatır, mənimsə qüdrətim çatmır. Sən (hər şeyi) bilirsən, mən isə bilmirəm. Qeybləri bilən Sənsən. Allahım, bu işin mənim dinim, yaşayışım və işimin aqibəti üçün – yaxud deyir:[1] dünyam və axirətim üçün – xeyirli olduğunu bilirsənsə,[2] onu mənə nəsib et (asanlaşdır, sonra da onu mənim üçün bərəkətli et).[3] Bu işin mənim dinim, yaşayışım və işimin aqibəti üçün – yaxud deyir: dünyam və axirətim üçün – zərərli olduğunu bilirsənsə, onu məndən, məni də ondan uzaq et! Harada olsam, mənə xeyir nəsib et, sonra məni ondan razı sal!"[4] Bunu deyərkən[1] dilədiyi şeyin adını çəksin."

---

[1] Bu, hədisi nəql etmiş ravilərdən birinin şəkkidir. Yəni istixarə duasını oxuyan adam bu ikisindən birini – ya "Allahummə, in kuntə tə'ləmu ənnə həzəl-əmra xayrun li fi dini və məaşi və aqibəti əmri... (Allahım, bu işin mənim dinim, yaşayışım və işimin aqibəti üçün xeyirli olduğunu bilirsənsə...), ya da "Allahummə, in kuntə tə'ləmu ənnə həzəl-əmra xayrun li fi acilihi və əcilihi... (Allahım, bu işin mənim dünyam və axirətim üçün xeyirli olduğunu bilirsənsə...)" deməlidir. Belə ki, "dinim, yaşayışım və aqibətim" və "dünyam və axirətim" ifadələrinin hər ikisi eyni mənanı verir.

[2] Burada "bilirsənsə" sözü əslində bəndəyə aiddir. Belə ki, adam görəcəyi işin aqibətinin necə olacağını bilmir deyə, hər şeyi Bilən Allaha müraciət edir. İbn Həcər bu hədisi izah edərkən demişdir: "Bu sözün zahiri adamı çaşbaş salır. Belə ki, mömin adam yəqin bilir ki, Allah istənilən bir işdə xeyir olub-olmadığını bilir. Bunun cavabı belədir ki, istixarəni edən adam görəcəyi işin aqibətinin necə olacağını, Allah yanında həmin işin dəyəri olub-olmadığını bilmir. Sanki demək istəyir ki, əgər mənim bu əməlim qəbul olacaqsa, duamı qəbul et" (Fəthul-Bari).

[3] Mötərizələrin arasındakı sözlər Buxarinin "Səhih"ində öz təsdiqini tapmışdır.

[4] Transkripsiyası: Allahummə, inni əstəxirukə bi ilmik, və əstəqdirukə bi qudratik, və əs'əlukə min fadlikəl-azım, fəinnəkə təqdiru və lə əqdir, və tə'ləmu və lə ə'ləm, və əntə alləmul-ğuyub. Allahummə, in kuntə tə'ləmu ənnə həzəl-əmra xayrun li fi dini və məaşi və aqibəti əmri, acilihi və əcilihi – fəqdurhu li (və yəssirhu li, summə bərik li fih). Və in kuntə tə'ləmu ənnə həzəl-əmra şərrun li fi dini və məaşi və aqibəti (əmri), yaxud acili əmri və əcilihi – fasrifhu anni, vəsrifni anhu, vəqdur liyəl-xayra heysu kənə, summə raddini bihi.

**٧٠٤**- حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ الْمُنْذِرِ قَالَ: حَدَّثَنَا سُفْيَانُ بْنُ حَمْزَةَ قَالَ: حَدَّثَنِي كَثِيرُ بْنُ زَيْدٍ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ كَعْبٍ قَالَ: سَمِعْتُ جَابِرَ بْنَ عَبْدِ اللَّهِ يَقُولُ: دَعَا رَسُولُ اللَّهِ ﷺ فِي هَذَا الْمَسْجِدِ، مَسْجِدِ الْفَتْحِ، يَوْمَ الِاثْنَيْنِ وَيَوْمَ الثُّلَاثَاءِ وَيَوْمَ الْأَرْبِعَاءِ، فَاسْتُجِيبَ لَهُ بَيْنَ الصَّلَاتَيْنِ مِنْ يَوْمِ الْأَرْبِعَاءِ.

قَالَ جَابِرٌ: وَلَمْ يَنْزِلْ بِي أَمْرٌ مُهِمٌّ غَائِظٌ إِلاَّ تَوَخَّيْتُ تِلْكَ السَّاعَةَ، فَدَعَوْتُ اللَّهَ فِيهِ بَيْنَ الصَّلَاتَيْنِ يَوْمَ الْأَرْبِعَاءِ فِي تِلْكَ السَّاعَةِ، إِلا عَرَفْتُ الإِجَابَةَ.

**(704)** ........ Cabir ibn Abdullah رضي الله عنهما demişdir: "Rəsulullah ﷺ bazar ertəsi, çərşənbə axşamı və çərşənbə günü bu Fəth məscidində[2] dua etdi. Çərşənbə günü iki namaz[3] arasında etdiyi dua qəbul oldu.[4]

---

[1] Burada "bunu deyərkən" deyildikdə, dilədiyi şeyin adını duadan sonra yox, dua əsnasında "innə həzəl-əmra (bu işin)" sözünə çatdıqda demək nəzərdə tutulur.

[2] Bu məscid, hazırda "yeddi məscid" kimi tanınan məscidlərdən biridir. Peyğəmbərin ﷺ bu məsciddə dua etməsi, heç də həmin məscidin fəzilətli olduğuna dəlalət etmir. Belə ki, bu yeddi məscidin fəzilətinə dair nə bir hədis, nə də səhabələrdən bir əsər varid olmuşdur. Mədinə şəhərində ziyarət ediləsi cəmi iki məscid vardır ki, bunlar da Peyğəmbərin ﷺ məscidi və bir də Quba məscididir. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Üç məsciddən başqa heç bir yerə *ibadət məqsədi ilə* səfər etmək olmaz: *bu,* Məscidülhəram, Rəsulullahın ﷺ məscidi və Məscidüləqsadır" (Səhih əl-Buxari, 1189); digər hədisdə o, demişdir: "Mənim bu məscidimdə qılınan *bir* namaz, Məscidülhəram istisna olmaqla, digər məscidlərdə qılınan min namazdan daha xeyirlidir" (Səhih əl-Buxari, 1190); o, həmçinin demişdir: "Hər kim bu məscidə – Quba məscidinə gəlib orada namaz qılsa, ona ümrə ziyarətinin savabı qədər savab çatar" (Sunən Nəsai, 1/113-114; Musnəd Əhməd, 3/487; Sunən İbn Macə, 1412; Mustədrək əl-Hakim, (3/12) Silsilətul-Əhadisis-Səhihə, 3446); başqa bir hədisdə rəvayət edilir ki, İbn Ömər رضي الله عنهما hər şənbə günü Quba məscidinə gedər və iki rükət namaz qılmamış oradan çıxmazdı. O, Peyğəmbərin ﷺ *şənbə günləri* istər minik üstündə, istərsə də piyada bu məscidə getdiyini rəvayət edərdi" (Səhih əl-Buxari, 1191).

[3] Beyhəqinin "Şəabul-İman" əsərində (3591) bu iki namazın – zöhr və əsr namazları olduğu xəbər verilmişdir.

[4] İmam Buxari bu hədisi varid etməklə sanki demək istəyir ki, istixarə duasını imkan daxilində duaların qəbul olduğu vaxtlarda etmək məqsədəuyğundur. Aşağıdakı zamanları və yerləri buna misal çəkmək olar:

Sonralar mən başıma gələn hər bir ağır müsibətə görə çərşənbə günü həmin vaxt iki namazın arasında Allaha dua edərdim və duamın qəbul olduğunu görərdim.”[1]

٧٠٥- حَدَّثَنَا عَلِيٌّ، عَنْ خَلَفِ بْنِ خَلِيفَةَ قَالَ: حَدَّثَنِي حَفْصُ ابْنُ أَخِي أَنَسٍ، عَنْ أَنَسٍ: كُنْتُ مَعَ النَّبِيِّ ﷺ، فَدَعَا رَجُلٌ فَقَالَ: يَا بَدِيعَ السَّمَاوَاتِ، يَا حَيُّ يَا قَيُّومُ، إِنِّي أَسْأَلُكَ. فَقَالَ: ((أَتَدْرُونَ بِمَا دَعَا؟ وَالَّذِي نَفْسِي بِيَدِهِ، دَعَا اللَّهَ بِاسْمِهِ الَّذِي إِذَا دُعِيَ بِهِ أَجَابَ)).

**(705)** ........ Ənəs ؓ rəvayət edir ki, mən Peyğəmbərlə ﷺ bir yerdə idim. Bir kişi belə dua etdi:[2] “Ey göyləri Yaradan! Ey *əbədi* Yaşayan, ey Qəyyum![1]

---

Qədr gecəsində, gecənin son üçdə birində, fərz namazlarının sonunda – təşəhhüddən sonra və salamdan əvvəl, azanla iqamə arasında, yağış yağdığı zaman, cümə günü, zəm-zəm suyunu içdikdə, səcdəyə qapıldıqda, Ərəfat günündə, elm məclisində, müsibət gəl-dikdə, zülmə məruz qaldıqda, səfərdə olduqda, valideynin övladı və övladın valideyni üçün etdiyi dua, iftardan qabaq, iftar zamanı, Kəbənin içərisində, Səfa və Mərva təpələri-nin üstündə və s.

[1] Bu hədisin isnadında keçən Kəsir ibn Zeyd “xətalara yol vermiş səduq” ravidir. Üs-təlik, hədisin mətnində də qarışıqlıq vardır. Belə ki, başqa bir isnadla ondan nəql edilmiş rəvayətdə həmin məscidin “Əhzab” məscidi olduğu xəbər verilir (Şoəbul-İman, 3591). Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “hə-sən” olduğunu demişdir.

[2] Başqa bir hədisdə bu dua daha geniş ləfz ilə rəvayət edilmişdir. Həmin hədisdə Ənəs ibn Malik ؓ demişdir: “Peyğəmbər ﷺ bir nəfərin

((اللهُمَّ إِنِّي أَسْأَلُكَ بِأَنَّ لَكَ الْحَمْدَ، لَا إِلَهَ إِلَّا أَنْتَ، وَحْدَكَ لَا شَرِيكَ لَكَ، الْمَنَّانُ، يَا بَدِيعُ السَّمَوَاتِ وَالْأَرْضِ، يَا ذَا الْجَلَالِ وَالْإِكْرَامِ، يَا حَيُّ يَا قَيُّوم، إِنِّي أَسْأَلُكَ الْجَنَّةَ وَأَعُوذُ بِكَ مِنَ النَّارِ))

“Allahummə, inni əs'əlukə bi ənnə ləkəl-həmd, lə ilahə illə ənt, vəhdəkə lə şərikə lək, əl-Mənnan, ya bədias-səmavati vəl-ərd, ya zəl-cəlali vəl-ikram, ya Həyyu, ya Qayyum, inni əs'əlukəl-cənnətə və əuzu bikə minən-nər (Allahım, mən yalnız Səndən diləyirəm. Həqi-qətən, həmd yalnız Sənə məxsusdur. Səndən başqa *ibadətə layiq* məbud yoxdur, Təksən, heç bir şərikin yoxdur. Sən Minnətdarsan! Ey göyləri və yeri Yaradan! Ey əzəmətli və kəramətli

*Rəbbim*! Ey *əbədi* Yaşayan, ey Qəyyum! Səndən Cənnəti diləyirəm və Cəhənnəmdən Sənə sığınıram!"– deyə dua etdiyini eşitdi və ona belə buyurdu: "Sən Allaha, Onun ən əzəmətli adı ilə dua etdin. Elə bir ad ki, (adam) onunla Allaha dua etsə, O, (bu duanı) qəbul edər, onunla Allahdan istəsə, Allah (ona) istədiyini verər" (Sunən Əbu Davud, 1/234; Musnəd Əhməd, 3/120; Mustədrək, 1/503; Silsilətul-Əhadisis-Səhihə, 3411).

[1] Qəyyum: kainatı yaradan və onu idarə edən, bəndələrinin işlərini yoluna qoyan və onları qoruyan. Bu duada Allahın iki gözəl adı çəkilir: əl-Həyy və əl-Qayyum. Bu adlar "əl-Bəqərə" surəsinin 255-ci, "Ali-İmran" surəsinin 2-ci və bir də "Ta ha" surəsinin 111-ci ayələrində zikr olunmuşdur. İslam alimlərinin bəzisi bu hədisi və bu mənada varid olmuş hədisləri əsas götürərək bu iki adın Allahın ən əzəmətli adları olduğunu söyləmişlər. Əbu Umamə əl-Bahilinin ﵁ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "Allahın ən əzəmətli adı Qurandakı üç surədə zikr olunur: əl-Bəqərə, Ali-İmran və Ta ha" (Silsilətul-Əhadisis-Səhihə, 746). Bəziləri də iki əzəmətli adın – əl-Əhəd və əs-Saməd olduğunu söyləmiş və aşağıdakı hədisi əsas gətirmişlər:

Bureydə əl-Əsləmi ﵁ demişdir: "Peyğəmbər ﷺ bir nəfərin

((اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ يَا اللهُ بِأَنَّكَ الْوَاحِدُ الْأَحَدُ الصَّمَدُ الَّذِي لَمْ يَلِدْ وَلَمْ يُولَدْ وَلَمْ يَكُنْ لَهُ كُفُوًا أَحَدٌ،

أَنْ تَغْفِرَ لِي ذُنُوبِي، إِنَّكَ أَنْتَ الْغَفُورُ الرَّحِيمُ))

"Allahummə inni əs'əlukə, ya Allah, bi ənnəkəl-Vahidul-Əhədus-Samədul-ləzi ləm yəlid və ləm yuləd və ləm yəkun ləhu kufuvən əhəd, ən təğfirə li zunubi, innəkə əntəl-Ğafurur-Rahim (Allahım, Səndən diləyirəm! Ey Allah, Sən Vahidsən, Təksən, *heç kəsə və heç nəyə* Möhtac olmayansan, doğmayan, doğulmayan və tayı-bərabəri olmayansan. Günahlarımı mənə bağışla! Şübhəsiz ki, Sən Bağışlayansan, Rəhmlisən"– deyə dua etdiyini eşitdi və belə buyurdu: "Bu adam Allaha, Onun ən əzəmətli adı ilə dua etdi. Elə bir ad ki, *adam* onunla Allaha dua etsə, O, *bu duanı* qəbul edər, onunla Allahdan istəsə, Allah *ona* istədiyini verər" (Sunən Əbu Davud, 1/156; ən-Nəsai, 1/191; Musnəd Əhməd, 4/338; Mustədrək, 1/267; Səhih ət-Tərğib vət-Tərhib, 1640).

Mən yalnız Səndən diləyirəm.”[1] Peyğəmbər ﷺ dedi: “Bilirsinizmi nə dua etdi? Canım Əlində Olana and olsun! O, Allaha elə bir Adı ilə dua etdi ki, onunla nə dua edilərsə, qəbul olar.”[2]

٧٠٦– حَدَّثَنَا يَحْيَى بْنُ سُلَيْمَانَ قَالَ: حَدَّثَنَا ابْنُ وَهْبٍ، قَالَ: أَخْبَرَنِي عَمْرٌو، عَنْ يَزِيدَ بْنِ أَبِي حَبِيبٍ، عَنْ أَبِي الْخَيْرِ، أَنَّهُ سَمِعَ عَبْدَ اللَّهِ بْنَ عَمْرٍو قَالَ: قَالَ أَبُو بَكْرٍ رَضِيَ اللَّهُ عَنْهُ لِلنَّبِيِّ ﷺ: عَلِّمْنِي دُعَاءً أَدْعُو بِهِ فِي صَلاَتِي، قَالَ: ((قُلِ: اللَّهُمَّ إِنِّي ظَلَمْتُ نَفْسِي ظُلْمًا كَثِيرًا، وَلاَ يَغْفِرُ الذُّنُوبَ إِلاَّ أَنْتَ، فَاغْفِرْ لِي مِنْ عِنْدِكَ مَغْفِرَةً، إِنَّكَ أَنْتَ الْغَفُورُ الرَّحِيمُ)).

**(706)** ........ Abdullah ibn *Amr ibnul-As* رضي الله عنهما rəvayət edir ki, (bir dəfə) Əbu Bəkr Peyğəmbərə ﷺ dedi: “Mənə elə bir dua öyrət[3] ki, mən onu na-

---

[1] Transkripsiyası: Ya bədias-səmavat, ya Heyyu, ya Qayyum, inni əs'əluk.

[2] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “səhih” olduğunu demişdir.

[3] Hərçənd, Əbu Bəkr əs-Siddiq رضي الله عنه namazda özü istədiyi duanı edə bilərdi, lakin istəyir ki, bunu ona Peyğəmbər ﷺ öyrətsin. O yəqin bilirdi ki, Peyğəmbər ﷺ ona yığcam və geniş mənaları əhatə edən, üstəlik, dünya və axirəti üçün xeyirli olan bir dua öyrədəcək. Bu da, səhabənin Peyğəmbərin ﷺ Sünnəsinə möhkəm sarıldığını bir daha sübuta yetirir. Bundan da belə nəticə çıxır ki, Peyğəmbərin ﷺ öyrətmədiyi, habelə, özündə Sünnəyə zidd mənalar əks etdirən duaları insanlara öyrətmək, üstəlik, həmin duaları müəyyən vaxtlarda və müəyyən sayda etməyi onlardan tələb etmək bidətdir. Bilərəkdən bunu edənlərin isə yeri Cəhənnəmdir. Bu xüsusda, rəvayət edilmiş hədisdə Cabir ibn Abdullah رضي الله عنهما demişdir: “Peyğəmbər ﷺ hər dəfə xütbə verərkən Allaha həmd-sənalar edib Ona layiqincə təriflər deyəndən sonra belə buyurardı: “Allah kimi doğru yola yönəldərsə, onu *bu yoldan* sapdıran tapılmaz, kimi də sapdırarsa, onu doğru yola yönəldən tapılmaz. Şübhəsiz ki, ən doğru kəlam Allahın Kitabıdır və ən düz yol Muhəmmədin ﷺ yoludur. Görülən işlərin ən pisi (dinə əlavə edilən) yeniliklərdir. Hər bir yenilik bidətdir, hər bir bidət zəlalətdir və hər bir zəlalət Cəhənnəm oduna (aparan bir) səbəbdir” (Sunən ən-Nəsai, 1/243; Xutbatul-Hacə, 1/25). Peyğəmbərin ﷺ bu hədisini başa düşən ağıllı mömin hər hansı bir duanın bə-

mazda[1] oxuyum."[2] Peyğəmbər ﷺ buyurdu: "De: "Allahım, mən özümə çoxlu zülm etdim.[3] Günahları da yalnız Sən bağışlayırsan. Özün günahımdan keçməklə məni bağışla. Həqiqətən, Sən Bağışlayansan, Rəhmlisən![4]"[5]

---

lağətli və fəsahətli olduğuna, habelə, gözəl xətlə yazıldığına və gözəl qafiyələrlə tamamlandığına yox, məhz Peyğəmbərin ﷺ Sünnəsinə müvafiq olmasına diqqət yetirməlidir.

[1] Burada "namazda" deyildikdə, namaz əsnasındakı səcdələrdə və bir də təşəhhüdü tamamladıqdan sonra, salamları verməmişdən qabaq dua oxumaq nəzərdə tutulur. Hər ikisi "səhih" hədislərdə öz təsdiqini tapmışdır. Abdullah ibn Məsud رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ təşəhhüdü onlara öyrətmiş və: "Bundan sonra duadan dilədiyini seçsin"– demişdir" (Səhih Muslim, 897). Peyğəmbərin ﷺ bu sözü açıq-aşkar dəlalət edir ki, namazın axırında salamdan əvvəl axirətə və ya dünya işlərinə aid istənilən duanı etmək olar. Digər bir hədisdə Rəsulullah ﷺ demişdir: "Qulun Rəbbinə ən yaxın olduğu hal – səcdəyə qapandığı halıdır. Elə isə, *səcdədə* duanı çoxaldın" (Səhih Muslim, 1083).

[2] Qeyd edək ki, bu duanı həm namazda, həm də evdə oxumaq olar. Belə ki, İmam Muslimin rəvayət etdiyi hədisdə Əbu Bəkr رضي الله عنه Peyğəmbərə ﷺ dedi: "Mənə elə bir dua öyrət ki, mən onu həm namazda, həm də evimdə oxuyum..." (Səhih Muslim, 7045).

[3] Bu söz hər bir möminə öz günahlarını yada salmağa və buna görə peşmançılığını bildirməyə təşviq edir.

[4] Transkripsiyası: Allahummə, inni zaləmtu nəfsi zulmən kəsira, və lə yəğfiruz-zunubə illə ənt, fəğfir li min indikə məğfirah, innəkə əntəl-Ğafurur-Rahim.

[5] Bu hədisi Buxari (834), Tirmizi (3531) və Əhməd (1/3) rəvayət etmişdir. Qeyd edək ki, İmam Buxarinin "Səhih"indəki rəvayətdə "vərhəmni (mənə rəhm et)" sözü də əlavə edilmiş və bu duanın tam variantı belə nəql edilmişdir: "Allahummə, inni zaləmtu nəfsi zulmən kəsira, və lə yəğfiruz-zunubə illə ənt, fəğfir li məğfirətən min indik, vərhəmni, innəkə əntəl-Ğafurur-Rahim."

## ٢٩٤- بَابُ إِذَا خَافَ السُّلْطَانَ

## 294-cü fəsil. Sultanın[1] (zülmündən) qorxduqda edilən dua

٧٠٧- حَدَّثَنَا مُحَمَّدُ بْنُ عُبَيْدٍ قَالَ: حَدَّثَنَا عِيسَى بْنُ يُونُس، عَنِ الأَعْمَشِ قَالَ: حَدَّثَنَا ثُمَامَةُ ابْنُ عُقْبَةَ قَالَ: سَمِعْتُ الْحَارِث بْنَ سُوَيْدٍ يَقُولُ: قَالَ عَبْدُ اللَّهِ بْنُ مَسْعُودٍ: إِذَا كَانَ عَلَى أَحَدِكُمْ إِمَامٌ يَخَافُ تَغَطْرُسَهُ أَوْ ظُلْمَهُ، فَلْيَقُلِ: اللَّهُمَّ رَبَّ السَّمَاوَاتِ السَّبْعِ، وَرَبَّ الْعَرْشِ الْعَظِيمِ، كُنْ لِي جَارًا مِنْ فُلاَنِ بْنِ فُلاَنٍ وَأَحْزَابِهِ مِنْ خَلاَئِقِكَ، أَنْ يَفْرُطَ عَلَيَّ أَحَدٌ مِنْهُمْ أَوْ يَطْغَى، عَزَّ جَارُكَ، وَجَلَّ ثَنَاؤُكَ، وَلاَ إِلَهَ إِلاَ أَنْتَ.

**(707)** ........ Abdullah ibn Məsud ﷺ demişdir:[2] "Qoy, sizlərdən biri öz rəhbərinin təkəbbüründən və zülmündən[3] qorxduğu zaman desin: "Allahım, yeddi qat səmanın Rəbbi, böyük Ərşin Rəbbi![4] Filankəsin oğlu filankəsdən[5] və yaratdıqların arasında onun köməkçilərindən mənim üçün himayəçi ol ki, onlardan heç biri mənimlə ədavət aparmasın və ya mənə təcavüz etməsin.[6] Sənin himayən altına aldığın kimsə qüdrətlidir. Uca təriflər Sənədir və Səndən başqa (ibadətə layiq) məbud yoxdur![1]"

---

[1] Burada söhbət insanların haqqına girən, onlara zülm edən, təkəbbürlü və qəddar rəhbərdən gedir.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[3] Burada "zülm" deyildikdə, adamın malına yaxud canına və ya namusuna təcavüz etmək nəzərdə tutulur.

[4] Buna "rububiyyət" tövhidi ilə təvəssül etmək – Allahdan mədəd diləmək deyilir.

[5] Duanın bu yerində həmin zalımın adı çəkilir. Məsələn, Abdullahın oğlu Zeyd adında birisindən çəkinirsənsə, deyirsən: "...kun li caran min Zeyd ibn Abdullah, və..."

[6] Bir zaman Musa ﷺ və qardaşı Harun ﷺ Firondan Allaha sığınıb: **"Ey Rəbbimiz! Biz, onun bizimlə ədavət aparmasından və ya təcavüz etməsindən qorxuruq"** demiş,

٧٠٨- حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا يُونُسُ، عَنِ الْمِنْهَالِ بْنِ عَمْرٍو قَالَ: حَدَّثَنِي سَعِيدُ بْنُ جُبَيْرٍ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: إِذَا أَتَيْتَ سُلْطَانًا مَهِيبًا، تَخَافُ أَنْ يَسْطُوَ بِكَ، فَقُلِ: اللَّهُ أَكْبَرُ، اللَّهُ أَعَزُّ مِنْ خَلْقِهِ جَمِيعًا، اللَّهُ أَعَزُّ مِمَّا أَخَافُ وَأَحْذَرُ، أَعُوذُ بِاللَّهِ الَّذِي لاَ إِلَهَ إِلاَّ هُوَ، الْمُمْسِكُ السَّمَاوَاتِ السَّبْعَ أَنْ يَقَعْنَ عَلَى الأَرْضِ إِلاَّ بِإِذْنِهِ، مِنْ شَرِّ عَبْدِكَ فُلاَنٍ، وَجُنُودِهِ وَأَتْبَاعِهِ وَأَشْيَاعِهِ مِنَ الْجِنِّ وَالإِنْسِ، اللَّهُمَّ كُنْ لِي جَارًا مِنْ شَرِّهِمْ، جَلَّ ثَنَاؤُكَ، وَعَزَّ جَارُكَ، وَتَبَارَكَ اسْمُكَ، وَلاَ إِلَهَ غَيْرُكَ، ثَلاَثَ مَرَّاتٍ.

**(708)** ........ İbn Abbas ﵄ demişdir:[2] "Sənə təzyiq göstərməsindən qorxduğun qəddar rəhbərin yanına getdikdə üç dəfə belə de: "Allah ən Böyükdür! Allah bütün yaratdıqlarından qüdrətlidir.[3] Allah qorxduğum və həzər etdiyim hər kəsdən qüdrətlidir.[4] (Allahım,) Sənin filan qulunun[5] şərin-

---

Rəbbi də onlara belə buyurmuşdu: **"Qorxmayın, çünki Mən sizinləyəm, eşidirəm və görürəm!"** (Ta ha, 45-46).

[1] Transkripsiyası: Allahummə, Rabbəs-səmavatis-səbi və Rabbəl-arşil-azim, kun li caran min fulan ibn fulan, və əhzabihi min xalaiqik, ən yəfruta aleyyə əhədun minhum əv yətğa, azzə caruk, və cəllə sənauk, və lə ilahə illə ənt.

[2] Bu əsəri İbn Əbu Şeybə (10/203/29787) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[3] Bu sözü deyəndə möminin qəlbi rahatlıq tapır və beləliklə, o, yəqin edir ki, rəhbər nə qədər qüdrətli olsa da, ondan da qüdrətli olan böyük Allah vardır.

[4] Bu xüsusda, Uca Allah belə buyurur: **"Qüdrətli və Rəhmli *Allaha* təvəkkül et!"** (əş-Şuəra, 217); digər ayədə O, buyurur: **"Allah istədiyinə kömək edir. O, Qüdrətlidir, Rəhmlidir"** (ər-Rum, 5); Qüdrəti isə Allah ancaq möminlərə bəxş edir: **"Qüdrət yalnız Allaha, Onun Rəsuluna və möminlərə məxsusdur, lakin münafiqlər *bunu* bilmirlər"** (əl-Munafiqun, 8).

[5] Burada həmin zalımın adı çəkilir. Məsələn, Zeyd adında birisinin sənə təzyiq göstərməsindən çəkinirsənsə, deyirsən: "...əuzu billəhilləzi lə ilahə illə huvə, əl-mumsikus-səmavatis-səb'ə ən yəqa'nə aləl-ərdi illə bi iznih, min şərri abdikə Zeyd, və..."

dən, onun cinlərdən və insanlardan olan qoşunundan, onun köməkçilərindən və havadarlarından Özündən başqa (haqq) məbud olmayan, Öz izni olmadan yer üzərinə düşməsin deyə yeddi göyü saxlayan Allaha sığınıram! Allahım, onların şərindən məni himayə et. Uca tariflər Sənədir. Sənin himayə etdiyin kimsə qüdrətlidir. Sənin adın mübarəkdir və Səndən başqa *ibadətə layiq* məbud yoxdur![1]"

**٧٠٩-** حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا سُكَيْنُ بْنُ عَبْدِ الْعَزِيزِ بْنِ قَيْسٍ، أَخْبَرَنِي أَبِي، أَنَّ ابْنَ عَبَّاسٍ حَدَّثَهُ قَالَ: مَنْ نَزَلَ بِهِ هَمٌّ أَوْ غَمٌّ أَوْ كَرْبٌ أَوْ خَافَ مِنْ سُلْطَانٍ، فَدَعَا بِهَؤُلاَءِ اسْتُجِيبَ لَهُ: أَسْأَلُكَ بِلاَ إِلَهَ إِلاَّ أَنْتَ، رَبَّ السَّمَاوَاتِ السَّبْعِ، وَرَبَّ الْعَرْشِ الْعَظِيمِ، وَأَسْأَلُكَ بِلاَ إِلَهَ إِلاَّ أَنْتَ، رَبَّ السَّمَاوَاتِ السَّبْعِ، وَرَبُّ الْعَرْشِ الْكَرِيمِ، وَأَسْأَلُكَ بِلاَ إِلَهَ إِلاَّ أَنْتَ رَبَّ السَّمَاوَاتِ السَّبْعِ وَالأَرَضِينَ السَّبْعِ وَمَا فِيهِنَّ، إِنَّكَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، ثُمَّ سَلِ اللَّهَ حَاجَتَكَ.

**(709)** ........ İbn Abbas ﵄ demişdir: "Hər kim özünə bir sıxıntı, yaxud bir kədər, yaxud bir müsibət üz verdiyi və ya rəhbərdən qorxduğu zaman bu duanı oxusa, duası qəbul olar: "Səndən başqa *ibadətə layiq olan* bir məbud yoxdur" sözü ilə səndən diləyirəm, ey yeddi qat göyün Rəbbi və böyük Ərşin Rəbbi! "Səndən başqa heç bir məbud yoxdur" sözü ilə səndən diləyirəm, ey yeddi qat göyün Rəbbi və möhtəşəm Ərşin Rəbbi! "Səndən başqa heç bir məbud yoxdur" sözü ilə səndən diləyirəm, ey yeddi qat gö-

---

[1] Transkripsiyası: Allahu əkbər, Allahu əazzu min xalqihi cəmia, Allahu əazzu mimmə əxafu və əhzər, əuzu billəhilləzi lə ilahə illə huvə, əl-mumsikus-səmavatis-səb'ə ən yəqa'nə aləl-ərdi illə bi iznih, min şərri abdikə fulan, və cunudihi və ətbaihi və əşyaihi minəl-cinni vəl-ins. Allahummə, kun li caran min şərrihim, cəllə sənauk, və azzə caruk, və təbarəkəs-muk, və lə ilahə ğayruk.

yün, yeddi qat yerin və onların arasındakıların Rəbbi! Həqiqətən, Sən hər şeyə qadirsən."[1] Sonra Allahdan ehtiyacını istə."[2]

[1] Transkripsiyası: Əs'əlukə bi lə ilahə illə ənt, Rabbus-səmavatis-səbi və Rabbul-arşil-azim, və əs'əlukə bi lə ilahə illə ənt, Rabbus-səmavatis-səbi və Rabbul-arşil-kərim, və əs'əlukə bi lə ilahə illə ənt, Rabbus-səmavatis-səbi vəl-ərdinəs-səbi və mə fihinn, innəkə alə kulli şey'in qadir.

[2] Bu hədisin isnadında keçən İbn Qeys "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Bu hədisin isnadı "zəif" olsa da, qeyd etmək lazımdır ki, Peyğəmbər ﷺ bu ümmətə sıxıntı anında, o cümlədən də zalım rəhbərin təzyiqindən çəkindikdə nə dua edəcəklərini öyrətmişdir (700-cü və 702-ci hədislərə bax).

## ٢٩٥- بَابُ مَا يُدَّخَرُ لِلدَّاعِي مِنَ الأَجْرِ وَالثَّوَابِ

## 295-ci fəsil. Dua edən adam üçün hazırlanmış mükafat və savab

٧١٠- حَدَّثَنَا إِسْحَاقُ بْنُ نَصْرٍ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ أُسَامَةَ، عَنْ عَلِيِّ بْنِ عَلِيٍّ قَالَ: سَمِعْتُ أَبَا الْمُتَوَكِّلِ النَّاجِيَّ قَالَ: قَالَ أَبُو سَعِيدٍ الْخُدْرِيُّ، عَنِ النَّبِيِّ ﷺ: ((مَا مِنْ مُسْلِمٍ يَدْعُو، لَيْسَ بِإِثْمٍ وَلاَ بِقَطِيعَةِ رَحِمٍ، إِلاَّ أَعْطَاهُ إِحْدَى ثَلاَثٍ: إِمَّا أَنْ يُعَجِّلَ لَهُ دَعْوَتَهُ، وَإِمَّا أَنْ يَدَّخِرَهَا لَهُ فِي الْآخِرَةِ، وَإِمَّا أَنْ يَدْفَعَ عَنْهُ مِنَ السُّوءِ مِثْلَهَا))، قَالَ: إِذًا نُكْثِرُ، قَالَ: ((اللَّهُ أَكْثَرُ)).

**(710)** ........ Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Hər hansı bir müsəlman, ibarəsində[1] günaha və qohumluq əlaqələrinin kəsilməsinə aid olmayan[2] bir dua edərsə, *Allah* ona üç şeydən birini verər:[3] ya onun istədiyini ona *bu dünyada* verər, ya ona verəcəyini Axirət gününə saxlayar, ya da onun mislində başına gələcək bir müsibəti ondan uzaq edər."

(Onda Əbu Səid) dedi: "Elə isə, duaları çoxaldaq." Peyğəmbər ﷺ dedi: "Allah daha çox əta edəndir."[4]

٧١١- حَدَّثَنَا ابْنُ شَيْبَةَ قَالَ: أَخْبَرَنِي ابْنُ أَبِي الْفُدَيْكِ قَالَ: حَدَّثَنِي عَبْدُ اللَّهِ بْنُ مَوْهَبٍ، عَنْ عَمِّهِ عُبَيْدِ اللَّهِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَا مِنْ مُؤْمِنٍ يَنْصِبُ وَجْهَهُ إِلَى اللَّهِ يَسْأَلُهُ

---

[1] İbarə: kəlam, iki və ya bir neçə kəlmədən ibarət tərkib.

[2] Bu sözün əks anlamından aydın olur ki, günah iş görmək və ya qohumluq əlaqələrini kəsmək üçün dua edən kimsənin duası qəbul olunmur.

[3] 628-ci hədisin qeydlərinə bax.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

مَسْأَلَةً، إِلاَّ أَعْطَاهُ إِيَّاهَا، إِمَّا عَجَّلَهَا لَهُ فِي الدُّنْيَا، وَإِمَّا ذَخَّرَهَا لَهُ فِي الْآخِرَةِ مَا لَمْ يَعْجَلْ))، قَالَ: يَا رَسُولَ اللَّهِ، وَمَا عَجَلَتُهُ؟ قَالَ: ((يَقُولُ: دَعَوْتُ وَدَعَوْتُ، وَلاَ أُرَاهُ يُسْتَجَابُ لِي)).

**(711)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Hər hansı bir mömin Allaha üz tutub Ondan bir şey diləsə, *Allah* ona dilədiyini verər: ya istədiyini ona bu dünyada verər ya da ona verəcəyini, o, tələsmədikcə Axirət gününə saxlayar." (Əbu Hureyrə) soruşdu: "Ya Rəsulullah, tələsmək nədir?" O, dedi: "Dua etdim, dua etdim, amma qəbul olduğunu görmədim[1]"– (deməkdir)."[2]

---

[1] 654-cü və 655-ci hədislərə bax.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin əvvəlki hədislə bərabər "səhih" olduğunu demişdir.

## ٢٩٦– بَابُ فَضْلِ الدُّعَاءِ

## 296-cı fəsil. Duanın fəziləti

٧١٢– حَدَّثَنَا عَمْرُو بْنُ مَرْزُوقٍ قَالَ: أَخْبَرَنَا عِمْرَانُ، عَنْ قَتَادَةَ، عَنْ سَعِيدِ بْنِ أَبِي الْحَسَنِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((لَيْسَ شَيْءٌ أَكْرَمَ عَلَى اللَّهِ مِنَ الدُّعَاءِ)).

**(712)** ........ Əbu Hureyrə ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Allah yanında duadan daha fəzilətli şey[1] yoxdur."[2]

٧١٣– حَدَّثَنَا خَلِيفَةُ قَالَ: حَدَّثَنَا أَبُو دَاوُدَ قَالَ: حَدَّثَنَا عِمْرَانُ، عَنْ قَتَادَةَ، عَنْ سَعِيدِ بْنِ أَبِي الْحَسَنِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((أَشْرَفُ الْعِبَادَةِ الدُّعَاءُ)).

**(713)** ........ Əbu Hureyrə ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "İbadətlərin ən şərəflisi duadır."[3]

٧١٤– حَدَّثَنَا أَبُو الْوَلِيدِ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ مَنْصُورٍ، عَنْ ذَرٍّ، عَنْ يُسَيْعٍ، عَنِ النُّعْمَانِ ابْنِ بَشِيرٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِنَّ الدُّعَاءَ هُوَ الْعِبَادَةُ، ثُمَّ قَرَأَ: ﴿ادْعُونِي أَسْتَجِبْ لَكُمْ﴾.

**(714)** ........ Noman ibn Bəşir ﵄ rəvayət edir ki,[4] Peyğəmbər ﷺ: "Həqiqətən, dua ibadətdir"– dedi, sonra da bu ayəni oxudu: **"Mənə dua edin, Mən də sizə cavab verim."[1]**

---

[1] Buradakı "şey" sözü bütün ibadətləri və zikrləri əhatə edir. Yəni ibadətlərin və zikrlərin ən fəzilətlisi dua hesab edilir. Çünki mömin adam Allaha dua etməklə özünün möhtac və aciz olduğunu, üstəlik, Rəbbi qarşısında əyildiyini izhar edir, habelə, Onun qüvvətli və qüdrətli olduğunu etiraf edir (Tohfətul-Əhvəzi).

[2] Bu hədisi Tirmizi (3370), Əhməd (2/362), Hakim (1/490) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "həsən" olduğunu demişdir.

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

[4] Bu hədisi Əhməd (4/271), İbn Macə (3828) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

٧١٥- حَدَّثَنَا عُبَيْدُ اللهِ، عَنِ مُبَارَكِ بْنِ حَسَّانَ، عَنْ عَطَاءٍ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ:
سُئِلَ النَّبِيُّ ﷺ: أَيُّ الْعِبَادَةِ أَفْضَلُ؟ قَالَ: ((دُعَاءُ الْمَرْءِ لِنَفْسِهِ)).

---

[1] "Ğafir" surəsi, 60. Bu ayənin tamamında Allah buyurur: **"Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər."** Ayədən aydın başa düşülür ki, dua ibadətdir. Duanın ibadət olmasına dəlalət edən digər bir ayədə Uca Allah buyurur: **"Allahı qoyub Qiyamət gününədək özünə cavab verə bilməyən bütlərə yalvaran kimsədən daha çox azmış kim ola bilər? Halbuki,** ***o bütlər*** **onların yalvarışından xəbərsizdirlər. İnsanlar məhşərə toplanılacaqları zaman** ***bütlər*** **onlara düşmən kəsiləcək və onların ibadətini inkar edəcəklər"** (əl-Əhqaf, 5-6). Dua Allahın haqqıdır və bu ibadəti Allahdan başqasına yönəltmək şirk hesab edilir. Bu xüsusda, Uca Allah buyurur: **"Sizin Ondan başqa yalvardıqlarınız xurma çəyirdəyinin pərdəsinə belə sahib deyillər. Əgər siz onları çağırsanız, onlar sizin duanızı eşitməzlər, eşitsələr də cavab verə bilməzlər. Özləri də Qiyamət günü sizin** ***onlara*** **ibadət etdiyinizi danacaqlar. Heç kəs** ***hər şeydən*** **Xəbərdar olan** ***Allah*** **kimi sənə xəbər verə bilməz"** (Fatir, 13-14); O, həmçinin, buyurur: **"De: "Allahdan başqa məbud saydıqlarınıza yalvarın. Onlar bəlanı sizdən nə uzaqlaşdırmağa, nə də** ***onu başqasına*** **yönəltməyə qadir deyillər"** (əl-İsra, 56); O, həmçinin, buyurur: **"De: "Allahdan başqa məbud saydıqlarınıza yalvarın." Onlar nə göylərdə, nə də yerdə zərrə qədər olan bir şeyə də sahib deyillər. Onların** ***göylərin və yerin yaradılışında*** **heç bir şərikliyi yoxdur və onlardan Allaha yardımçı olanı da yoxdur. Onun qarşısında, izin verdiyi kəslərdən başqa, heç kimin şəfaəti fayda verməz"** (əl-İsra, 22-23). Əgər biz mənbəyi bəlli olmayan bəzi dua kitablarına diqqətlə nəzər salsaq, orada yazılan dualarda açıq-aşkar şirk və küfr sözlər olduğunu görərik. Əllərində heç bir dəlil-sübut olmadan belə kitabları yazanların vay halına! Onlar ya məqsədyönlü şəkildə, ya da savadsızlıqları üzündən zəif və uydurma hədislərə əsaslanaraq, bəziləri də hətta cürət edib Peyğəmbərin ﷺ adından dualar uydураraq bu ümməti şirkə və küfrə yaxud ən azı günah qazanmağa sürükləyirlər. Belələri barədə Peyğəmbər ﷺ demişdir: "Ümmətim üçün ən çox qorxduğum şey zəlalətə aparan imamların *fitnəsidir*" (Musnəd Əhməd, 1/42; Silsilətul-Əhadisis-Səhihihə, 1582); həmçinin, o, demişdir: "Mənim adımdan yalan danışmayın! Hər kim mənim adımdan yalan danışarsa, Cəhənnəmə girər" (Səhih Muslim, 2).

**(715)** ........ Aişə ﵂ demişdir:[1] (Bir dəfə) Peyğəmbərdən ﷺ: soruşdular: "Hansı ibadət ən fəzilətli (ibadət) sayılır?" O dedi: "Adamın özü üçün etdiyi dua.[2]"

**٧١٦–** حَدَّثَنَا عَبَّاسٌ النَّرْسِيُّ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَاحِدِ قَالَ: حَدَّثَنَا لَيْثٌ قَالَ: أَخْبَرَنِي رَجُلٌ مِنْ أَهْلِ الْبَصْرَةِ قَالَ: سَمِعْتُ مَعْقِلَ بْنَ يَسَارٍ يَقُولُ: انْطَلَقْتُ مَعَ أَبِي بَكْرٍ الصِّدِّيقِ رَضِيَ اللَّهُ عَنْهُ إِلَى النَّبِيِّ ﷺ، فَقَالَ: ((يَا أَبَا بَكْرٍ، لَلشِّرْكُ فِيكُمْ أَخْفَى مِنْ دَبِيبِ النَّمْلِ))، فَقَالَ أَبُو بَكْرٍ: وَهَلِ الشِّرْكُ إِلاَّ مَنْ جَعَلَ مَعَ اللَّهِ إِلَهًا آخَرَ؟ فَقَالَ النَّبِيُّ ﷺ: ((وَالَّذِي نَفْسِي بِيَدِهِ، لَلشِّرْكُ أَخْفَى مِنْ دَبِيبِ النَّمْلِ، أَلاَ أَدُلُّكَ عَلَى شَيْءٍ إِذَا قُلْتَهُ ذَهَبَ عَنْكَ قَلِيلُهُ وَكَثِيرُهُ؟ قَالَ: قُلِ: اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ أَنْ أُشْرِكَ بِكَ وَأَنَا أَعْلَمُ، وَأَسْتَغْفِرُكَ لِمَا لا أَعْلَمُ)).

---

[1] Bu hədisin isnadında keçən Mubarək ibn Həssan "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Qeyd edək ki, hədisin mənası "səhih"dir (712-ci hədisə bax).

[2] İnsanın özü üçün dua etməsi barədə Qurani Kərimdə Uca Allah belə buyurur: **"Nuhu da *yada sal!* Daha öncə o dua etmişdi. Biz onun duasını qəbul etmiş, onu və onun ailəsini böyük qəm-qüssədən qurtarmışdıq!"** (əl-Ənbiya, 76); **"Əyyubu da *yada sal!* Bir zaman o, Rəbbinə yalvarıb demişdi: "Mənə, həqiqətən də, bəla düçar olubdur. Sən rəhmlilərin ən rəhmlisisən!" Biz onun duasını qəbul etdik və ona düçar olmuş bəlanı aradan qaldırdıq. Öz tərəfimizdən bir mərhəmət və ibadət edənlərə bir ibrət olsun deyə, ailəsini ona qaytardıq, üstəlik, bir o qədər də əlavə etdik"** (əl-Ənbiya, 83-84); **"Zün-Nunu da *yada sal!* Bir zaman o qəzəbli halda *qövmündən* ayrılıb getmiş və onu sıxıntıya salmayacağımızı güman etmişdi. Sonra da zülmətlər içində yalvarıb demişdi: "Səndən başqa *ibadətə layiq olan* heç bir məbud yoxdur! Sən paksan, müqəddəssən! Mən isə həqiqətən, zalımlardan olmuşam! Biz onun duasını qəbul etdik və onu qəm-qüssədən qurtardıq. Biz möminləri belə xilas edirik!"** (əl-Ənbiya, 87-88); **"Zəkəriyyanı da *yada sal!* Bir zaman o yalvarıb demişdi: "Ey Rəbbim! Məni tənha buraxma. Sən varislərin ən xeyirxahısan! Biz onun duasını qəbul etdik, ona Yəhyanı bəxş etdik və zövcəsini ona *uşaq doğmağa* qadir etdik. Həqiqətən, onlar yaxşı işlər görməyə tələsər, ümid və qorxu ilə Bizə yalvarardılar. Onlar Bizə müti *qullar* idilər"** (əl-Ənbiya, 89-90).

**(716)** ........ Mə'qil ibn Yəsar ﷺ demişdir:[1] “(Bir gün) mən Əbu Bəkr əs-Siddiq ﷺ ilə birgə Peyğəmbərin ﷺ yanına getdim. Peyğəmbər ﷺ dedi: “Ey Əbu Bəkr! Şirk[2] sizin aranızda qarışqanın ayaq səsindən daha gizlindir.” Əbu Bəkr dedi: “Məgər şirk Allahla yanaşı başqa bir məbud qəbul etmək deyilmi?” Peyğəmbər ﷺ buyurdu: “Canım Əlində Olan *Allaha* and olsun ki, şirk qarışqanın ayaq səsindən daha gizlindir. Sənə elə bir şey öyrədimmi ki,

---

[1] Bu hədisin isnadında keçən Leys ibn Əbu Suleym “zəif” olduğundan, bəsrəli ravinin də “kimliyi bəlli olmayan” ravi olduğundan,” Muhəmməd Nasirəddin əl-Albani “Silsilətul-Əhadisid-Daifə” əsərində (3755) onun isnadının “zəif” olduğunu demiş, sonra isə bu mənada varid olmuş digər hədislərin bu hədisi qüvvətləndirdiyini, beləliklə də, hədisin mətninin “səhih” dərəcəsinə yüksəldiyini bildirmişdir. Həmçinin, “Səhih əl-Ədəbul-Mufrad” əsərində də onun “səhih” olduğunu demişdir.

[2] Burada “şirk” deyildikdə, riya nəzərdə tutulur. Buna dair Uca Allah Quranda belə buyurur: **“Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı işlər görsün və yerinə yetirdiyi ibadətlərində Rəbbinə heç kəsi şərik qoşmasın!”** (əl-Kəhf, 110); **“Halbuki, onlara, dini məhz Allaha məxsus edərək, hənniflər kimi ibadət etmək, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu. Doğru din də elə budur!”** (əl-Beyyinə, 5); **“Şübhəsiz ki, məscidlər Allaha məxsusdur. Elə isə, Allahla yanaşı heç kəsə dua etməyin!”** (əl-Cinn, 18). Şirkin bu növü çox təhlükəlidir. Bu xüsusda, rəvayət edilmiş hədislərin birində Əbu Səid əl-Xudri ﷺ demişdir: “*Bir gün* biz məsihi-dəccal barədə söhbət edərkən Peyğəmbər ﷺ bizim yanımıza gəldi və dedi: “Sizin üçün məsihi-dəccaldan daha qorxulu olan bir şey barədə sizə xəbər verimmi?!” Biz: “De, (ya Rəsulullah!)”– deyə cavab verdikdə, o buyurdu: “(Bu,) gizli şirkdir. Belə ki, adam qalxıb namaz qılır və başqa birisinin ona baxdığını görüb namazını gözəlləşdirir” (Sunən İbn Macə, 4204; Musnəd Əhməd, 3/30; şeyx Albani “Səhih əl-Cami” əsərində bu hədisin “həsən” olduğunu demişdir). Bu ayələrdən və hədislərdən aydın olur ki, daim sağlam niyyətli olmaq çox çətindir. Bunun üçün adam gecə-gündüz niyyətinin yalnız Allaha yönəlməsinə diqqət yetirməlidir. Sələflər hər şeydən əvvəl niyyətlərinin islah olunmasına diqqət yetirərdilər. Bu xüsusda, Sufyan əs-Sovri demişdir: “İslah etdiyim əməllərim arasında mənim üçün niyyətimdən daha çətin bir əməl olmamışdır. Çünki o dəyişkəndir” (Hilyə, 7/5).

onu dediyin zaman şirkin azı da, çoxu da səndən uzaq olsun?” *Sonra o, davam edib* buyurdu: “De: “Allahım, bilərəkdən Sənə şərik qoşmaqdan Sənə sığınıram və bilməyib etdiyim *şirkə*[1] görə Səndən bağışlanma diləyirəm.[2]”

[1] Burada “bilərəkdən” deyildikdə, aşkarda edilən şirk, “bilməyib etdiyim” deyildikdə isə gizli şirk nəzərdə tutulur. Adamın hər hansı bir ibadəti özünü insanlara göstərmək yaxud bunu onlara eşitdirmək yaxud bunun sayəsində şan-şöhrət qazanmaq yaxud da bunun müqabilində dünya malı əldə etmək məqsədilə yerinə yetirməsi gizli şirk sayılır. İmam Buxari bu hədisi bu fəsildə varid etməklə duanın nə dərəcədə fəzilətli olduğunu göstərmək istəyir və sanki, oxucuya demək istəyir ki, ən pis və ən təhlükəli əməl sayılan şirkdən yalnız dua etməklə qurtulmaq olar. Bu da, duanın olduqca fəzilətli bir əməl olduğuna dəlalət edir.

[2] Transkripsiyası: Allahummə, inni əuzu bikə ən uşrikə bikə və ənə ə'ləm, və əstəğfirukə limə lə ə'ləm.

## ٢٩٧- بَابُ الدُّعَاءِ عِنْدَ الرِّيحِ

## 297-ci fəsil. Külək əsərkən edilən dua

٧١٧- حَدَّثَنَا خَلِيفَةُ قَالَ: حَدَّثَنَا ابْنُ مَهْدِيٍّ قَالَ: حَدَّثَنَا الْمُثَنَّى هُوَ ابْنُ سَعِيدٍ، عَنْ قَتَادَةَ، عَنْ أَنَسٍ قَالَ: كَانَ النَّبِيُّ ﷺ إِذَا هَاجَتْ رِيحٌ شَدِيدَةٌ قَالَ: ((اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ مِنْ خَيْرِ مَا أُرْسِلَتْ بِهِ، وَأَعُوذُ بِكَ مِنْ شَرِّ مَا أُرْسِلَتْ بِهِ)).

**(717)** ........ Ənəs ﷺ demişdir: “Şiddətli külək[1] əsdiyi zaman Peyğəmbər ﷺ deyərdi: “Allahım, küləklə göndərilən xeyri Səndən diləyirəm və küləklə göndərilən şərdən Sənə sığınıram![2]”[3]

٧١٨- حَدَّثَنَا أَحْمَدُ بْنُ أَبِي بَكْرٍ قَالَ: حَدَّثَنَا مُغِيرَةُ بْنُ عَبْدِ الرَّحْمَنِ، عَنْ يَزِيدَ، عَنْ سَلَمَةَ قَالَ: كَانَ إِذَا اشْتَدَّتِ الرِّيحُ يَقُولُ: ((اللَّهُمَّ لاَقِحًا، لاَ عَقِيمًا)).

---

[1] Küləyin əsməsi Allahın bu kainatı kamil şəkildə yaratmasına və onu idarə etməsinə dəlildir. Üstəlik, Peyğəmbərin ﷺ bu sözü dəlildir ki, Uca Allah külələri ya mərhəmət, ya da əzab olaraq göndərir. Bunlara aşağıdakı ayələri misal çəkmək olar:

**“Sizə Öz mərhəmətindən daddırsın, əmri ilə gəmilər üzsün, Onun lütfünü arayasınız və *sizə verdiyi nemətlərə* şükür edəsiniz deyə külələri müjdəçi göndərməsi də Onun dəlillərindəndir”** (ər-Rum, 46);

**“Ad *tayfası* isə hədsiz soyuq və şiddətli küləklə yox edildi. *Allah* onu yeddi gecə, səkkiz gün fasilə vermədən onların üstündə əsdirdi. *Sən orada olsaydın,* o tayfanı xurma ağacının yıxılmış çürük gövdələri kimi yerə sərilmiş görərdin. Sən onlardan qalan bir kimsəyə heç rast gəlmisənmi?”** (əl-Həqqa, 6-8).

[2] Transkripsiyası: Allahummə, inni əs'əlukə min xayri mə ursilət bih, və əuzu bikə min şərri mə ursilət bih.

[3] Bu hədisi Təhavi (Muşkilul-Asar, 1/400), ƏbuYə’la (Musnəd, 2/763) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “səhih” olduğunu demişdir.

**(718)** ........ Sələmə ﷺ demişdir: "Külək şiddətlənərkən (Peyğəmbər ﷺ) deyərdi: "Allahım, (bunu) xeyir-bərəkətsiz yox, döllənidirən[1] *bir külək et!*[2]"[3]

---

[1] Döllənidirmək: erkək və dişi hüceyrələrini birləşdirməklə ruşeym əmələ gətirmək, mayalandırmaq deməkdir. Burada Peyğəmbər ﷺ Rəbbindən küləkləri camaata əzab olaraq yox, buludlarda su əmələ gətirən və bitkiləri tozlandıran bir vasitə olaraq göndərməsini diləyir. Çünki küləkləri xeyir-bərəkətlə göndərən yalnız Allahdır: **"Biz küləkləri döllənidirici – *buludlarda su əmələ gətirən, bitkiləri tozlandıran bir vasitə* kimi göndərdik, göydən yağmur yağdırıb onu sizə içirtdik. *Belə olmasaydı,* siz onu yığıb saxlaya bilməzdiniz"** (əl-Hicr, 22); həmçinin, onları bir əzab olaraq göndərən də məhz Odur: **"Ad *qövmünün* hekayətində də *ibrət* vardır. O zaman Biz onların üstünə xeyir-bərəkətsiz bir külək göndərmişdik. O *külək* üstündən keçdiyi hər bir şeyi sovurub külə döndərirdi"** (əz-Zariyat, 41-42).

[2] Transkripsiyası: Allahummə, laqihən, lə aqimə.

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٢٩٨- بَابُ لا تَسُبُّوا الرِّيحَ

## 298-ci fəsil. Küləyi söyməyin

٧١٩- حَدَّثَنَا ابْنُ أَبِي شَيْبَةَ قَالَ: حَدَّثَنَا أَسْبَاطٌ، عَنِ الأَعْمَشِ، عَنْ حَبِيبِ بْنِ أَبِي ثَابِتٍ، عَنْ سَعِيدِ بْنِ عَبْدِ الرَّحْمَنِ بْنِ أَبْزَى، عَنْ أَبِيهِ، عَنْ أَبِي قَالَ: لاَ تَسُبُّوا الرِّيحَ، فَإِذَا رَأَيْتُمْ مِنْهَا مَا تَكْرَهُونَ فَقُولُوا: اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ خَيْرَ هَذِهِ الرِّيحِ، وَخَيْرَ مَا فِيهَا، وَخَيْرَ مَا أُرْسِلَتْ بِهِ، وَنَعُوذُ بِكَ مِنْ شَرِّ هَذِهِ الرِّيحِ، وَشَرِّ مَا فِيهَا، وَشَرِّ مَا أُرْسِلَتْ بِهِ.

**(719)** ........ Ubeyy[1] ﷺ demişdir:[2] “Küləyi söyməyin![3] Onda xoşunuza gəlməyən şeylər görsəniz, deyin: “Allahım, Səndən bu küləyin xeyrini, onda olanın xeyrini və onunla birlikdə göndərilənin xeyrini diləyirik! Bu

---

[1] Əbu Munzir Ubeyy ibn Kəb ibn Qeys əl-Ənsari ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Bədr döyüşündə, Əqəbə beyətində iştirak etmişdir. (Siyər Əlam ən-Nubələ, 82-ci tərcümeyi-hal). Onun ﷺ fəzilətinə dair rəvayət edilmiş hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: “Quranı yalnız dörd nəfərdən öyrənin: Abdullah ibn Məsuddan, Əbu Huzeyfənin azad etdiyi köləsi Salimdən, Ubeyy ibn Kəbdən və Muaz ibn Cəbəldən” (Səhih əl-Buxari, 3758); digər bir hədisdə Ənəs ﷺ rəvayət etmişdir ki, *bir dəfə* Peyğəmbər ﷺ Ubeyy ibn Kəbə dedi: “Allah mənə: **“Kitab əhlindən və müşriklərdən inkar edənlər...”** (əl-Beyyinə) surəsini sənə oxumağı buyurdu.” *Ubeyy* soruşdu: “O mənim adımı çəkdi?” Peyğəmbər ﷺ: “Bəli!” deyəndə *Ubeyy* ağlamağa başladı” (Səhih əl-Buxari, 3809).

[2] Muhəmməd Nasirəddin əl-Albani “Silsilətul-Əhadisis-Səhihə” əsərində (2756) bu hədisin “səhih” olduğunu demiş, sonra da bu hədisin mətninin digər mənbələrdə “mərfu” isnadla rəvayət edildiyini bildirmişdir. Yəni bu söz əslində Peyğəmbərin ﷺ sözüdür (Bax: Sunən ət-Tirmizi, 2253; Musnəd Əhməd, 5/123).

[3] Küləyi söymək, əslində, onu yaradanı və onu idarə edəni söymək deməkdir. Həmçinin, lənətləmək də bu qadağaya aiddir. İbn Abbasın ﷺ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ bir nəfərin küləyi lənətlədiyini görüb ona demişdir: “Küləyi lənətləmə! Çünki ona *əsmək* əmr edilmişdir. Kim lənətə layiq olmayan bir şeyi lənətləyərsə, lənət onun özünə qayıdar” (Sunən Əbu Davud, 4708; Silsilətul-Əhadisis-Səhihə, 528).

küləyin şərindən, onda olanın şərindən və onunla birlikdə göndərilənin şərindən Sənə sığınırıq![1]"

٧٢٠- حَدَّثَنَا مُسَدَّدٌ، عَنْ يَحْيَى، عَنِ الأَوْزَاعِيِّ قَالَ: حَدَّثَنِي الزُّهْرِيُّ قَالَ: حَدَّثَنِي ثَابِتٌ الزُّرَقِيُّ قَالَ: سَمِعْتُ أَبَا هُرَيْرَةَ يَقُولُ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((الرِّيحُ مِنْ رَوْحِ اللَّهِ، تَأْتِي بِالرَّحْمَةِ وَالْعَذَابِ، فَلاَ تَسُبُّوهَا، وَلَكِنْ سَلُوا اللَّهَ مِنْ خَيْرِهَا، وَتَعَوَّذُوا بِاللَّهِ مِنْ شَرِّهَا)).

**(720)** ........ Əbu Hureyrə ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Külək Allahın mərhəmətindəndir. O, həm rəhmətlə, həm də əzabla[2] gəlir. Elə isə, onu söyməyin. Sadəcə onun xeyrini Allahdan diləyin və onun şərindən *Allaha* sığının."[3]

---

[1] Transkripsiyası: Alahummə, innə nəs'əlukə xayra həzihir-riyh, və xayra mə fihə, və xayra mə ursilət bih, və əuzu bikə min şərri həzihir-riyh, və şərri mə fihə, və şərri mə ursilət bih.

[2] Zalımlara əzabın gəlməsi Allahın möminlərə göstərdiyi bir mərhəmətdir. Tiybi demişdir: "Uca Allahın bu ayəsi (əl-Ənam, 45) bu mənaya dəlalət edir: ***"Bəlaliklə də* zalım qövmün kökü kəsildi. Həmd olsun aləmlərin Rəbbi Allaha!"** (Mişkatul-Məsabih, 1529-cu hədisin şərhi).

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٢٩٩- بَابُ الدُّعَاءِ عِنْدَ الصَّوَاعِقِ

## 299-cu fəsil. İldırım çaxanda edilən dua

٧٢١- حَدَّثَنَا مُعَلَّى بْنُ أَسَدٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَاحِدِ بْنُ زِيَادٍ قَالَ: حَدَّثَنَا الْحَجَّاجُ قَالَ: حَدَّثَنِي أَبُو مَطَرٍ، أَنَّهُ سَمِعَ سَالِمَ بْنَ عَبْدِ اللَّهِ، عَنْ أَبِيهِ قَالَ: كَانَ النَّبِيُّ ﷺ إِذَا سَمِعَ الرَّعْدَ وَالصَّوَاعِقَ قَالَ: ((اللَّهُمَّ لاَ تَقْتُلْنَا بِصَعْقِكَ، وَلاَ تُهْلِكْنَا بِعَذَابِكَ، وَعَافِنَا قَبْلَ ذَلِكَ)).

**(721)** ........ Salim ibn Abdullah ﵁ atasından rəvayət edir ki, Peyğəmbər ﷺ göy gurultusu və ildırım[1] çaxdığını eşitdikdə deyərdi: "Allahım, ildırımınla bizi öldürmə, əzabınla bizi məhv etmə və bundan öncə bizə salamatlıq ver![2]"[3]

---

[1] İldırım barədə Quranda deyilir: ***"Allah* ildırımlar göndərib istədiyini vurur"** (ər-Rəd, 13); digər ayədə deyilir: **"Onlar öz Rəbbinin əmrindən çıxdılar və onları gözləri baxa-baxa ildırım vurdu"** (əz-Zariyat, 44).

[2] Transkripsiyası: Allahummə, lə təqtulnə bi sa'qik, və lə tuhliknə bi əzabik, və afinə qablə zalik.

[3] Bu hədisi Tirmizi (4/245), Nəsai (927, 928), İbnus-Sunni (Əməlul-Yovm vəl-Leylə, 298), Hakim (4/286), Beyhəqi (3/362) və Əhməd (2/100-101) rəvayət etmişdir. Hədisin isnadında keçən Əbu Mətar "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "zəif" olduğunu demişdir. Qeyd etmək istəyirik ki, ildırıma aid xüsusi bir duanın varid olduğu bizə məlum deyil. Lakin ümumən ildırımdan qorunmaq üçün Allaha sığınmaq caizdir.

## ٣٠٠- بَابُ إِذَا سَمِعَ الرَّعْدَ

## 300-cü fəsil. Göy gurultusu eşitdikdə oxunan dua

٧٢٢- حَدَّثَنَا بِشْرٌ قَالَ: حَدَّثَنَا مُوسَى بْنُ عَبْدِ الْعَزِيزِ قَالَ: حَدَّثَنِي الْحَكَمُ قَالَ: حَدَّثَنِي عِكْرِمَةُ، أَنَّ ابْنَ عَبَّاسٍ كَانَ إِذَا سَمِعَ صَوْتَ الرَّعْدِ قَالَ: سُبْحَانَ الَّذِي سَبَّحْتَ لَهُ، قَالَ: إِنَّ الرَّعْدَ مَلَكٌ يَنْعِقُ بِالْغَيْثِ، كَمَا يَنْعِقُ الرَّاعِي بِغَنَمِهِ.

**(722)** ........ İkrimə rəvayət etmişdir ki, İbn Abbas göy gurultusunu eşitdikdə deyərdi: "Şəninə təriflər dediyin[1] Allah pak və müqəddəsdir, (ey göy gurultusu)!" Sonra (davam edib) deyərdi: "Göy gurultusu bir mələkdir.[2] Çoban qoyunları səslədiyi kimi, bu mələk də buludları səsləyir."[3]

٧٢٣- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكُ بْنُ أَنَسٍ، عَنْ عَامِرِ بْنِ عَبْدِ اللَّهِ بْنِ الزُّبَيْرِ، عَنْ عَبْدِ اللَّهِ بْنِ الزُّبَيْرِ، أَنَّهُ كَانَ إِذَا سَمِعَ الرَّعْدَ تَرَكَ الْحَدِيثَ وَقَالَ: سُبْحَانَ الَّذِي ﴿يُسَبِّحُ الرَّعْدُ بِحَمْدِهِ وَالْمَلَائِكَةُ مِنْ خِيفَتِهِ﴾، ثُمَّ يَقُولُ : إِنَّ هَذَا لَوَعِيدٌ شَدِيدٌ لأَهْلِ الأَرْضِ.

**(723)** ........ Rəvayət edilir ki, Abdullah ibn Zubeyr ﷺ göy gurultusunu eşitdiyi zaman söhbətini yarımçıq qoyub deyərdi: "Pak və müqəddəsdir O *Allah* ki, **"Göy gurultusu həmd edərək Ona təriflər deyir. Həmçinin, mələklər də, Onun qorxusundan** *həmd edərək Ona təriflər deyirlər.***"[4]** Sonra (davam edib) deyərdi: "Bu, yer əhli üçün şiddətli bir xəbərdarlıqdır."[5]

---

[1] Bu xüsusda, Quranda belə buyurulur: **"Göy gurultusu həmd edərək Ona təriflər deyir"** (ər-Rəd, 13).

[2] Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Göy gurultusu Allahın buludları idarə etmək üçün müvəkkil etdiyi mələkdir ki, əlindəki odlu qamçı ilə buludları dağıdıb, Allahın əmr etdiyi yerə aparır. Ondan eşidilən o səs isə buludları Allahın əmr etdiyi yerə qədər dağıtması nəticəsində çıxan səsdir" (Sunən ət-Tirmizi, 4/129; Musnəd Əhməd, 1/274; Silsilətul-Əhadisis-Səhihə, 1872).

[3] Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif", lakin ilk cümləsinin mənasının "səhih" olduğunu demişdir.

[4] "ər-Rə'd" surəsi, 13.

[5] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٣٠١– بَابُ مَنْ سَأَلَ اللَّهَ الْعَافِيَةَ

## 301-ci fəsil. Allahdan salamatlıq diləyən kimsə

٧٢٤– حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شُعْبَةُ قَالَ: حَدَّثَنَا سُوَيْدِ بْنِ حُجَيْرٍ قَالَ: سَمِعْتُ سُلَيْمَ بْنَ عَامِرٍ، عَنْ أَوْسَطَ بْنِ إِسْمَاعِيلَ قَالَ: سَمِعْتُ أَبَا بَكْرٍ الصِّدِّيقَ رَضِيَ اللَّهُ عَنْهُ بَعْدَ وَفَاةِ النَّبِيِّ ﷺ: قَامَ النَّبِيُّ ﷺ عَامَ أَوَّلَ مَقَامِي هَذَا، ثُمَّ بَكَى أَبُو بَكْرٍ، ثُمَّ قَالَ: ((عَلَيْكُمْ بِالصِّدْقِ، فَإِنَّهُ مَعَ الْبِرِّ، وَهُمَا فِي الْجَنَّةِ، وَإِيَّاكُمْ وَالْكَذِبَ، فَإِنَّهُ مَعَ الْفُجُورِ، وَهُمَا فِي النَّارِ، وَسَلُوا اللَّهَ الْمُعَافَاةَ، فَإِنَّهُ لَمْ يُؤْتَ بَعْدَ الْيَقِينِ خَيْرٌ مِنَ الْمُعَافَاةِ، وَلاَ تَقَاطَعُوا، وَلاَ تَدَابَرُوا، وَلاَ تَحَاسَدُوا، وَلاَ تَبَاغَضُوا، وَكُونُوا عِبَادَ اللَّهِ إِخْوَانًا)).

**(724)** ........ Ovsat ibn İsmail rəvayət edir ki,[1] Peyğəmbərin ﷺ vəfatından (bir il) sonra Əbu Bəkr (camaata nəsihət edərkən) dedi: “Keçən il Peyğəmbər ﷺ mənim dayandığım bu yerdə durdu...” Bunu deyəndə Əbu Bəkr ağlamağa başladı. (Sonra davam edib dedi:) “...və belə buyurdu: “Həmişə doğruçul olmağa çalışın![2] Çünki doğruluq yaxşı işlərlə bərabərdir və hər ikisi (insanı) Cənnətə aparır. Yalandan çəkinin! Çünki yalan günah işlərə bərabərdir və hər ikisi (insanı) Cəhənnəmə aparır.[3] Allahdan salamatlıq di-

---

[1] Bu hədisi İbn Macə (3849), Əhməd (1//5) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “səhih” olduğunu demişdir.

[2] Bu xüsusda, Uca Allah buyurur: “**Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz danışın ki, O, sizin əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun rəsuluna itaət etsə, böyük bir uğur qazanar**” (əl-Əhzab, 70-71); **“Ey iman gətirənlər! Allahdan qorxun və düz danışanlarla birlikdə olun”** (ət-Tovbə, 119). Burada doğru söz danışmaq deyildikdə, ilk əvvəl Allaha asi olmamaq, başqa cür desək, “lə ilahə illəlah” kəlməsini deyib İslam dinini qəbul etdikdən sonra Allahla aramızda olan əhdə sadiq qalmaq, Onun buyuruqlarını yerinə yetirmək, habelə, insanlara yalan danışmamaq, onları aldatmamaq qəsd edilir.

[3] 386-cı hədisin qeydlərinə bax.

ləyin.[1] Çünki (heç kəsə) yəqinlikdən[2] sonra salamatlıqdan daha xeyirli bir şey verilməmişdir. Bir-birinizlə əlaqələri kəsməyin, bir-birinizə arxa çevirməyin, bir-birinizə həsəd aparmayın, bir-birinizə nifrət etməyin. Ey Allahın qulları, qardaş olun![3]"

**٧٢٥–** حَدَّثَنَا قَبِيصَةُ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنِ الْجُرَيْرِيِّ، عَنْ أَبِي الْوَرْدِ، عَنِ اللَّجْلاَجِ، عَنْ مُعَاذٍ قَالَ: مَرَّ النَّبِيُّ ﷺ عَلَى رَجُلٍ يَقُولُ: اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ تَمَامَ النِّعْمَةِ، قَالَ: ((هَلْ تَدْرِي مَا تَمَامُ النِّعْمَةِ؟)) قَالَ: تَمَامُ النِّعْمَةِ دُخُولُ الْجَنَّةِ، وَالْفَوْزُ مِنَ النَّارِ. ثُمَّ مَرَّ عَلَى رَجُلٍ يَقُولُ: اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الصَّبْرَ، قَالَ: ((قَدْ سَأَلْتَ رَبَّكَ الْبَلاَءَ، فَسَلْهُ الْعَافِيَةَ)). وَمَرَّ عَلَى رَجُلٍ يَقُولُ: يَا ذَا الْجَلاَلِ وَالإِكْرَامِ، قَالَ: ((سَلْ)).

**(725)** ........ Muaz ﷺ rəvayət edir ki, [4] (bir dəfə) Peyğəmbər ﷺ: Səndən nemətin tamamını istəyirəm"– deyən bir adamın yanından keçdi və ondan: "Bilirsənmi nemətin tamamı nədir?"– deyə soruşdu. Adam de-

---

[1] Peyğəmbərin ﷺ bu ümmətə yalandan çəkinməyi buyurduqdan sonra onlara Allahdan salamatlıq diləməyi əmr etməsi dəlildir ki, mömin adamın hər zaman buna ehtiyacı vardır. Yəni yalandan və başqa bu kimi pis əməllərdən qorunmaq üçün Allahdan salamatlıq diləmək gərəkdir. Və əgər mömin adam səmimi-qəlbdən "Allahummə, inni əs'əlukəl-afiyə" yaxud "Allahummə, inni əs'əlukəl-muafəh" deyərsə, Allah onu yalandan uzaq edər, habelə, mömin qardaşından əlaqəni kəsməkdən, ona arxa çevirməkdən, ona həsəd aparmaqdan, ona nifrət etməkdən qoruyar və onları qardaş edər.

[2] Burada söhbət Allaha və Onun buyurduqlarına yəqinliklə iman gətiməkdən gedir. Demək, mömin olduqdan sonra insana verilən ən böyük nemət salamatlıqdır.

[3] 398-ci və 410-cu hədislərin qeydlərinə bax.

[4] Bu hədisi Tirmizi (3/268) və Əhməd (5/231) rəvayət etmişdir. Hədisdə keçən Əbul-Vərd "kimliyi bəlli olmayan" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani bu hədisin "zəif" olduğunu demişdir (bax: Silsilətul-Əhadisid-Daifə, 3416).

di: “Nemətin tamamı Cənnətə girmək və Cəhənnəmdən qurtulmaqdır.”[1] Sonra o: “Allahım, Səndən səbir diləyirəm”– deyən birisinin yanından keçdi və ona: “Sən Rəbbindən bəla dilədin?! (Əksinə,) Ondan salamatlıq dilə”– deyə buyurdu.[2] Daha sonra o: “Ey əzəmət və ehtiram sahibi!”– deyən birisinin yanından keçdi və ona: “İstə!”– deyə buyurdu.[3]”

٧٢٦– حَدَّثَنَا فَرْوَةُ قَالَ: حَدَّثَنَا عَبِيدَةُ، عَنْ يَزِيدَ بْنِ أَبِي زِيَادٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ الْحَارِثِ، عَنِ الْعَبَّاسِ بْنِ عَبْدِ الْمُطَّلِبِ، قُلْتُ: يَا رَسُولَ اللَّهِ، عَلِّمْنِي شَيْئًا أَسْأَلُ اللَّهَ بِهِ، فَقَالَ: ((يَا عَبَّاسُ، سَلِ اللَّهَ الْعَافِيَةَ))، ثُمَّ مَكَثْتُ قَلِيلاً، ثُمَّ جِئْتُ فَقُلْتُ: عَلِّمْنِي شَيْئًا أَسْأَلُ اللَّهَ بِهِ يَا رَسُولَ اللَّهِ، فَقَالَ: ((يَا عَبَّاسُ، يَا عَمَّ رَسُولِ اللَّهِ، سَلِ اللَّهَ الْعَافِيَةَ فِي الدُّنْيَا وَالآخِرَةِ)).

---

[1] Burada Peyğəmbərin ﷺ susması həmin adamın verdiyi cavabın doğru olması deməkdir. Cənnətə daxil olmağın və Cəhənnəm əzabından qurtulmağın böyük nemət olması xüsusunda Uca Allah belə buyurur: **“Kim Cəhənnəmdən uzaqlaşdırılıb, Cənnətə daxil edilərsə, o uğur qazanmış olar. Dünya həyatı isə aldadıcı ləzzətdən başqa bir şey deyildir”** (Ali-İmran, 185).

[2] Müsibətə səbir edib, savab qazanmaq məqsədilə Allahdan bəla diləməyin bəyənilməməsi 728-ci və 729-cu hədislərdə öz təsdiqini tapmışdır.

[3] Burada həmin adamın təkrar-təkrar: “Ya zəl-cəlali vəl-ikram”– deyərək Allahı zikr edib Ondan heç nə istəməməsi, yəni yarımçıq ibarələrlə Allaha müraciət etməsi İslam şəriətinə ziddir. Belə ki, dua xüsusunda Quran və Sünnədə varid olmuş xitabların hamısı tamdır. Yəni həmin ayə və hədislərdə Allahın gözəl adı və ya kamil sifəti zikr edildikdən sonra istək də zikr olunur. Məsələn, **“Ey Rəbbimiz! Bizə gözümüzün aydınlığı olan zövcələr və övladlar bəxş et və bizi müttəqilərə imam et!”** (əl-Furqan, 74). Demək, təkrar-təkrar “Ey Rəbbimiz!” deyib Allahdan heç bir şey diləməmək bidətdir. Buna, təriqətçilərin “Allah, Allah, Allah” yaxud “hu, hu, hu” və başqa bu kimi bənzər kəlmələri zikr etmələrini də misal çəkmək olar. Hərçənd, onlara elə gəlir ki, bu zikrləri etməklə savab qazanırlar, lakin Allah bunu qəbul etmir. Quran və Sünnəyə zidd olan istənilən bir duanın batil olması barədə Rəsulullah ﷺ belə buyurmuşdur: “Kim bizim bu işimizə (dinimizə) ondan olmayan bir şeyi əlavə edərsə, o rədd olunar” (Səhih Muslim, 1718).

**(726)** ........ Abbas ﷺ demişdir: “(Bir gün mən Peyğəmbərə ﷺ) dedim: “Ya Rəsulullah! Mənə bir dua öyrət ki,[1] onunla Allaha yalvarım.” Rəsulullah ﷺ buyurdu: “Ey Abbas, Allahdan salamatlıq dilə!” Mən bir müddətdən sonra yenə onun yanına gəlib dedim: “Ya Rəsulullah! Mənə bir dua öyrət ki, onunla Allaha yalvarım.” O buyurdu: “Ey Abbas, ey Rəsulullahın əmisi, Allahdan dünya və Axirətdə salamatlıq dilə![2]”[3]

---

[1] Hərçənd, Abbas ﷺ özü istədiyi duanı edə bilərdi, lakin istəyirdi ki, bunu ona Peyğəmbər ﷺ öyrətsin. O, yəqin bilirdi ki, Peyğəmbər ﷺ ona yığcam və geniş mənaları əhatə edən, üstəlik, dünya və axirəti üçün xeyirli olan bir dua öyrədəcək. Bu da, səhabənin Peyğəmbərin ﷺ Sünnəsinə möhkəm sarıldığını bir daha sübuta yetirir. Ağıllı mömin hər hansı bir duanın bəlağətli və fəsahətli olduğuna, habelə, gözəl xətlə yazıldığına və gözəl qafiyələrlə tamamlandığına yox, onun məhz Peyğəmbərin ﷺ Sünnəsinə müvafiq olmasına diqqət yetirməlidir.

[2] 698-ci hədisin qeydlərinə bax.

[3] Bu hədisi Tirmizi (2/266), Əhməd (1/209) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “səhih” olduğunu demişdir.

## ٣٠٢- بَابُ مَنْ كَرِهَ الدُّعَاءَ بِالْبَلاَءِ

## 302-ci fəsil. Bəla diləməyin bəyənilməməsi

٧٢٧- حَدَّثَنَا أَحْمَدُ بْنُ يُونُسَ قَالَ: حَدَّثَنَا أَبُو بَكْرٍ، عَنْ حُمَيْدٍ، عَنْ أَنَسٍ قَالَ: قَالَ رَجُلٌ عِنْدَ النَّبِيِّ ﷺ: اللَّهُمَّ لَمْ تُعْطِنِي مَالًا فَأَتَصَدَّقَ بِهِ، فَابْتَلِنِي بِبَلاَءٍ يَكُونُ، أَوْ قَالَ: فِيهِ أَجْرٌ، فَقَالَ: ((سُبْحَانَ اللَّهِ، لاَ تُطِيقُهُ، أَلاَ قُلْتَ: اللَّهُمَّ آتِنَا فِي الدُّنْيَا حَسَنَةً، وَفِي الْآخِرَةِ حَسَنَةً، وَقِنَا عَذَابَ النَّارِ)).

**(727)** ........ Ənəs ﷺ demişdir: "Bir nəfər Peyğəmbərin ﷺ yanında ikən dedi: "Allahım, Sən mənə mal-dövlət bəxş etmədin ki, ondan sədəqə ve-rim. Elə isə, mənə bəla göndər ki, (ona səbir edib) savab qazanım."[1] Pey-ğəmbər ﷺ də ona belə buyurdu: "Subhanəllah! Sən buna dözə bilməzsən. Niyə demirsən: "Allahım, bizə həm *bu* dünyada, həm də Axirətdə gözəl nemətlər ver və bizi Cəhənnəm əzabından qoru![2]"[3]

٧٢٨- حَدَّثَنَا أَحْمَدُ بْنُ يُونُسَ قَالَ: حَدَّثَنَا زُهَيْرٌ قَالَ: حَدَّثَنَا حُمَيْدٌ، عَنْ أَنَسٍ قَالَ: دَخَلَ، قُلْتُ لِحُمَيْدٍ النَّبِيُّ ﷺ؟ قَالَ: نَعَمْ، دَخَلَ عَلَى رَجُلٍ قَدْ جُهِدَ مِنَ الْمَرَضِ، فَكَأَنَّهُ فَرْخٌ مَنْتُوفٌ، قَالَ: ((ادْعُ اللَّهَ بِشَيْءٍ أَوْ سَلْهُ))، فَجَعَلَ يَقُولُ: اللَّهُمَّ مَا أَنْتَ مُعَذِّبِي بِهِ فِي الْآخِرَةِ، فَعَجِّلْهُ فِي الدُّنْيَا، قَالَ: ((سُبْحَانَ اللَّهِ، لاَ تَسْتَطِيعُهُ، أَوَ قَالَ: لاَ تَسْتَطِيعُوا، أَلاَ قُلْتَ: اللَّهُمَّ آتِنَا فِي الدُّنْيَا حَسَنَةً، وَفِي الْآخِرَةِ حَسَنَةً، وَقِنَا عَذَابَ النَّارِ؟)) وَدَعَا لَهُ، فَشَفَاهُ اللَّهُ عَزَّ وَجَلَّ.

**(728)** ........ Ənəs ﷺ demişdir: "Bir gün Rəsulullah ﷺ müsəlmanlardan birinə baş çəkdi. Adam (xəstəliyindən dolayı) əriyib çöpə dönmüşdü. Pey-

---

[1] Diqqət edin! Burada həmin adam savab qazanmaq istəyir, o, elə düşünür ki, başına bir müsibət gəlsə və o bu imtahana səbir etsə, savabı artacaq. Lakin bu cür dua etmək Sünnəyə zidd olduğundan, Peyğəmbər ﷺ ona belə dua etməyi məsləhət görmür.

[2] 633-cü və 677-ci hədislərin qeydlərinə bax.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "həsən-səhih" olduğunu demişdir.

ğəmbər ﷺ (ona): "Allaha dua et, yaxud Ondan bir şey dilə!"– deyə buyurdu. Adam dedi: "Allahım, Axirətdə mənə nə cəza verəcəksənsə, elə bu dünyada ver!" (Bunu eşidəndə) Rəsulullah ﷺ dedi: "Subhanəllah! Axı sən buna dözə bilməyəcəksən (və ya bu yükü daşıya bilməyəcəksən). Niyə demirsən: "Allahım, bizə həm bu dünyada, həm də axirətdə gözəl nemətlər bəxş et və bizi Cəhənnəm əzabından qoru!"[1] Sonra Peyğəmbər ﷺ onun üçün dua etdi və Allah ﷻ ona şəfa verdi."[2]

---

[1] Transkripsiyası: Allahummə, atinə fid-dunyə həsənə, və fil-axirati həsənə, və qinə əzabən-nər.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir. Bu hədisi İmam Muslim öz "Səhih"ində tam ləfz ilə rəvayət etmişdir. Həmin rəvayətdə Ənəs ibn Malik ؓ demişdir: "Bir gün Rəsulullah ﷺ müsəlmanlardan birinə baş çəkdi. Adam *xəstəliyindən dolayı* əriyib çöpə dönmüşdü. Rəsulullah ﷺ ondan soruşdu: "Olmaya, dua etmisən və ya nə isə diləmisən?!" Adam dedi: "Bəli, dua edib demişəm: "Allahım, Axirətdə mənə nə cəza verəcəksənsə, elə bu dünyada ver!" Onda Rəsulullah ﷺ belə buyurdu: "Subhanəllah! Axı sən buna dözə bilməyəcəksən. Niyə demirsən: "Allahım, bizə həm bu dünyada, həm də Axirətdə gözəl nemətlər bəxş et və bizi Cəhənnəm əzabından qoru!" Sonra Rəsulullah ﷺ o adam üçün Allaha dua etdi və Allah ona şəfa verdi" (Səhih Muslim, 8/67).

## ٣٠٣- بَابُ مَنْ تَعَوَّذَ مِنْ جَهْدِ الْبَلاءِ

## 303-cü fəsil. Dözülməz bəladan Allaha sığınan kimsə

٧٢٩- حَدَّثَنَا عُمَرُ بْنُ حَفْصٍ قَالَ: حَدَّثَنَا أَبِي قَالَ: حَدَّثَنَا الأَعْمَشُ قَالَ: حَدَّثَنِي مُجَاهِدٌ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو قَالَ: يَقُولُ الرَّجُلُ: اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ جَهْدِ الْبَلاَءِ، ثُمَّ يَسْكُتُ، فَإِذَا قَالَ ذَلِكَ فَلْيَقُلْ: إِلاَّ بَلاَءً فِيهِ عَلاَءٌ.

**(729)** ........ Abdullah ibn Amr ﷺ demişdir: "Adam: "Allahım, dözülməz bəladan Sənə sığınıram[1]"– deyə dua edib, sonra susur. Bu duanı deyirsə, qoy, ona bunu da əlavə etsin: "Ancaq yüksək dərəcəyə qaldıran bəladan başqa.[2]"[3]

٧٣٠- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: حَدَّثَنَا سُفْيَانُ بْنُ عُيَيْنَةَ، عَنْ سُمَيٍّ، عَنْ أَبِي صَالِحٍ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ النَّبِيَّ ﷺ كَانَ يَتَعَوَّذُ مِنْ جَهْدِ الْبَلاَءِ، وَدَرَكِ الشَّقَاءِ، وَشَمَاتَةِ الأَعْدَاءِ، وَسُوءِ الْقَضَاءِ.

**(730)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ dözülməz bəladan, bədbəxt olmaqdan, düşmənlərin sevinməsindən və xoşagəlməz aqibətdən Allaha sığınardı."[4]

---

[1] Transkripsiyası: Allahummə, inni əuzu bikə min cəhdil-bəla.

[2] Qeyd edək ki, bu əlavə Peyğəmbərin ﷺ Sünnəsinə uyğun deyil. Çünki o, Allahdan özünə bəla diləyib, bunun müqabilində savab qazanmaq istəyən kimsəyə belə dua etməməyi məsləhət bilmişdir (727-ci hədisə bax). Bir də ki, Peyğəmbərin ﷺ dua etdiyi kimi dua etmək kifayətdir (730-cu hədisə bax).

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[4] 669-cu hədisin isnadına bax.

# ٣٠٤- بَابُ مَنْ حَكَى كَلاَمَ الرَّجُلِ عِنْدَ الْعِتَابِ

## 304-cü fəsil. Bir adamı qınamaq istədikdə, onun sözünü təkrar etmək[1]

٧٣١- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ أَبِي بَكْرٍ، وَمُسْلِمٌ نَحْوَهُ، قَالاَ: حَدَّثَنَا الأَسْوَدُ بْنُ شَيْبَانَ، عَنْ أَبِي نَوْفَلِ بْنِ أَبِي عَقْرَبَ، أَنَّ أَبَاهُ سَأَلَ النَّبِيَّ ﷺ عَنِ الصَّوْمِ، فَقَالَ: ((صُمْ يَوْمًا مِنْ كُلِّ شَهْرٍ))، قُلْتُ: بِأَبِي أَنْتَ وَأُمِّي، زِدْنِي، قَالَ: ((زِدْنِي، زِدْنِي، صُمْ يَوْمَيْنِ مِنْ كُلِّ شَهْرٍ))، قُلْتُ: بِأَبِي أَنْتَ وَأُمِّي، زِدْنِي، فَإِنِّي أَجِدُنِي قَوِيًّا، فَقَالَ: ((إِنِّي أَجِدُنِي قَوِيًّا، إِنِّي أَجِدُنِي قَوِيًّا))، فَأُفْحِمَ، حَتَّى ظَنَنْتُ أَنَّهُ لَنْ يَزِيدَنِي، ثُمَّ قَالَ: ((صُمْ ثَلاَثًا مِنْ كُلِّ شَهْرٍ)).

**(731)** ........ Rəvayət edilir ki, Əbu Nofəl ibn Əbu Əqrəb demişdir: “(Bir gün) atam[2] Peyğəmbərdən ﷺ oruc barədə soruşdu. Peyğəmbər ﷺ də (ona): “Hər ayın bir gününü oruc tut”– deyə buyurdu. Mən dedim: “Atam-anam sənə fəda olsun! (Bunu) mənim üçün artır.” Peyğəmbər ﷺ: “Artır, artır!”– deyə söyləndi və ona: “Hər ayın iki gününü oruc tut”– deyə buyurdu. Mən dedim: “Atam-anam sənə fəda olsun! Yenə artır. Çünki mən özümdə güc hiss edirəm.” Peyğəmbər ﷺ yenə: “Mən özümdə güc hiss edirəm, mən özümdə güc hiss edirəm!”– deyə söyləndikdən sonra susdu və mən elə güman etdim ki, o, mənim üçün (onun sayını) artırmayacaq. Sonra o buyurdu: “Hər ayın üç gününü oruc tut.[3]”[4]

---

[1] 1086-cı hədisə bax.

[2] Əbu Əqrəb Xuveylid ibn Bəhir əl-Bəkri əl-Kinani ؓ Peyğəmbərin ﷺ səhabəsidir (Təhzib əl-Kəmal, 34/96).

[3] Hər ayın üç gününü oruc tutmağın Sünnə olması barədə kifayət qədər hədislər varid olmuşdur. Həmin hədislərin birində Əbu Hureyrə ؓ demişdir: “Ən əziz dostum (Rəsulullah ﷺ) mənə üç şeyi nəsihət etmişdir ki, mən ölənədək onları buraxan deyiləm: hər ayın üç gününü oruc tutmaq, duha namazını qılmaq və yatmazdan əvvəl vitri qılmaq” (Səhih əl-Buxari, 1178).

[4] Bu hədisi Əhməd (5/67) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “səhih” olduğunu demişdir.

# ٣٠٥- بَابُ

## 305-ci fəsil.

(٧٣٢- حَدَّثَنَا أَبُو مَعْمَرٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَارِثِ، عَنْ وَاصِلٍ مَوْلَى أَبِي عُيَيْنَةَ قَالَ: حَدَّثَنِي خَالِدُ بْنُ عُرْفُطَةَ، عَنْ طَلْحَةَ بْنِ نَافِعٍ، عَنْ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ قَالَ: كُنَّا مَعَ رَسُولِ اللَّهِ ﷺ وَارْتَفَعَتْ رِيحٌ خَبِيثَةٌ مُنْتِنَةٌ، فَقَالَ: ((أَتَدْرُونَ مَا هَذِهِ؟ هَذِهِ رِيحُ الَّذِينَ يَغْتَابُونَ الْمُؤْمِنِينَ)).

**(732)** ........ Cabir ibn Abdullah ﷺ demişdir: "*Bir gün* biz Peyğəmbərin ﷺ yanında ikən pis iyli, üfunətli bir meh gəldi. Peyğəmbər ﷺ dedi: "Heç bilirsiz bu nə iydir?! Bu, möminlərin qeybətini[1] edənlərin iyidir.[2]"[3]

(٧٣٣- حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا فُضَيْلُ بْنُ عِيَاضٍ، عَنْ سُلَيْمَانَ، عَنْ أَبِي سُفْيَانَ، عَنْ جَابِرٍ قَالَ: هَاجَتْ رِيحٌ مُنْتِنَةٌ عَلَى عَهْدِ رَسُولِ اللَّهِ ﷺ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: ((إِنَّ نَاسًا مِنَ الْمُنَافِقِينَ اغْتَابُوا أُنَاسًا مِنَ الْمُسْلِمِينَ، فَبُعِثَتْ هَذِهِ الرِّيحُ لِذَلِكَ)).

---

[1] Qeybətin tərifi xüsusunda rəvayət edilmiş hədisdə xəbər verilir ki, bir dəfə Rəsulullah ﷺ səhabələrindən: "Bilirsinizmi qeybət nədir?"– deyə soruşdu. Onlar: "Allah və Onun rəsulu daha yaxşı bilir"– deyə cavab verdikdə, Rəsulullah ﷺ dedi: "(Müsəlman) qardaşını, onun xoşuna gəlmədiyi bir şeylə xatırlamağındır." Səhabələrdən biri soruşdu: "Bəs, əgər mən deyənlər qardaşımda olsa necə?" Rəsulullah ﷺ dedi: "Sən deyənlər onda olarsa, onun qeybətini qırmış, yox dediklərinin ona aiddiyyəti olmazsa, ona böhtan atmış sayılarsan" (Səhih Muslim, 8/21; Sunən ət-Tirmizi, 1/351-352; Sunən əd-Darimi, 2/299; Musnəd Əhməd, 2/230, 384, 386 və 358). Uca Allah möminlərə qeybət etməyi qadağan edib buyurur. "**Ey iman gətirənlər! Zənnə çox qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır. Bir-birinizi güdməyin, bir-birinizin qeybətini qırmayın.**" (əl-Hucurat, 12).

[2] Bu, qeybətin yer üzündə fəsad törədən amillərdən olmasına dəlildir. Uca Allah buyurur: **"İnsanların öz əlləri ilə etdiyi əməllərinin nəticəsi olaraq quruda və dənizdə fəsad törəyir ki, *Allah* onlara, etdiklərinin bir qismini daddırsın. Bəlkə, onlar *haqqa* qayıdalar"** (ər-Rum, 41).

[3] Bu hədisi Əhməd (5/67) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "səhih" olduğunu demişdir.

**(733)** ........ Cabir ﷺ demişdir: "Peyğəmbərin ﷺ dövründə üfunətli bir meh gəldi. Onda Peyğəmbər ﷺ dedi: "Münafiqlərdən olan bir dəstə adam müsəlmanlardan bir qisminin qeybətini qırdı. Elə buna görə də bu iy gəldi."[1]

**٧٣٤-** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي مُعَاوِيَةُ بْنُ صَالِحٍ، عَنْ كَثِيرِ بْنِ الْحَارِثِ، عَنِ الْقَاسِمِ بْنِ عَبْدِ الرَّحْمَنِ الشَّامِيِّ، سَمِعْتُ ابْنَ أُمِّ عَبْدٍ يَقُولُ: مَنِ اغْتِيبَ عِنْدَهُ مُؤْمِنٌ فَنَصَرَهُ جَزَاهُ اللَّهُ بِهَا خَيْرًا فِي الدُّنْيَا وَالْآخِرَةِ، وَمَنِ اغْتِيبَ عِنْدَهُ مُؤْمِنٌ فَلَمْ يَنْصُرْهُ جَزَاهُ اللَّهُ بِهَا فِي الدُّنْيَا وَالْآخِرَةِ شَرًّا، وَمَا الْتَقَمَ أَحَدٌ لُقْمَةً شَرًّا مِنِ اغْتِيَابِ مُؤْمِنٍ، إِنْ قَالَ فِيهِ مَا يَعْلَمُ، فَقَدِ اغْتَابَهُ، وَإِنْ قَالَ فِيهِ بِمَا لاَ يَعْلَمُ فَقَدْ بَهَتَهُ.

**(734)** ........ İbn Ummu Abd[2] ﷺ demişdir: "Yanında bir möminin qeybəti edildiyi zaman onu müdafiə edən kimsəyə Allah mükafat olaraq dünya və Axirətdə xeyir nəsib edər.[3] Yanında bir möminin qeybəti edildiyi zaman onu müdafiə etməyən kəsə isə Allah cəza olaraq dünya və Axirətdə şər nəsib edər. Heç kəs möminin qeybətini qırmaqdan daha pis loxma uda bilməz.[4] Əgər onun haqqında olan şeyi danışarsa, qeybətini etmiş olar. Yox əgər olmayan bir şeyi deyərsə, onda ona böhtan atmış olar."[5]

---

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

[2] Bu, Peyğəmbərin ﷺ məşhur səhabəsi Abdullah ibn Məsuddur ﷺ. Bu səhabənin anasının kunyəsi Ummu Abd olduğundan, ona İbn Ummu Abd deyərdilər.

[3] Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Hər kim (mömin) qardaşının şərəfini qoruyarsa, Allah da onun üzünü Cəhənnəm odundan qoruyar" (Sunən ət-Tirmiz, 1931; Səhih əl-Cami, 6262).

[4] Bu xüsusda, Uca Allah buyurur: "**Bir-birinizin qeybətini qırmayın. Sizdən biriniz ölmüş qardaşının ətini yemək istəyərmi? Siz ki, bundan iyrənirsiniz**" (əl-Hucurat, 12).

[5] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٣٠٦- بَابُ الْغِيبَةِ، وَقَوْلِ اللَّهِ عَزَّ وَجَلَّ: ﴿وَلاَ يَغْتَب بَعْضُكُم بَعْضًا﴾

## 306-cı fəsil. Qeybət və Allahın ﷻ "Bir-birinizin qeybətini qırmayın" sözü[1]

٧٣٥- حَدَّثَنَا مُحَمَّدُ بْنُ يُوسُفَ قَالَ: حَدَّثَنَا النَّضْرُ قَالَ: حَدَّثَنَا أَبُو الْعَوَّامِ عَبْدُ الْعَزِيزِ بْنُ رَبِيعٍ الْبَاهِلِيُّ قَالَ: حَدَّثَنَا أَبُو الزُّبَيْرِ مُحَمَّدٌ، عَنْ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ قَالَ: كُنَّا مَعَ رَسُولِ اللَّهِ ﷺ، فَأَتَى عَلَى قَبْرَيْنِ يُعَذَّبُ صَاحِبَاهُمَا، فَقَالَ: ((إِنَّهُمَا لاَ يُعَذَّبَانِ فِي كَبِيرٍ، وَبَلَى، أَمَّا أَحَدُهُمَا فَكَانَ يَغْتَابُ النَّاسَ، وَأَمَّا الْآخَرُ فَكَانَ لاَ يَتَأَذَّى مِنَ الْبَوْلِ))، فَدَعَا بِجَرِيدَةٍ رَطْبَةٍ، أَوْ بِجَرِيدَتَيْنِ، فَكَسَرَهُمَا، ثُمَّ أَمَرَ بِكُلِّ كِسْرَةٍ فَغُرِسَتْ عَلَى قَبْرٍ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: ((أَمَا إِنَّهُ سَيُهَوَّنُ مِنْ عَذَابِهِمَا مَا كَانَتَا رَطْبَتَيْنِ، أَوْ لَمْ تَيْبَسَا)).

**(735)** ........ Cabir ibn Abdullah رضي الله عنهما demişdir: "(Bir dəfə) biz Peyğəmbərin ﷺ yanında ikən o, sahiblərinə əzab verilən iki qəbrin yanına gəlib[2] dedi: "Bunlara böyük bir günaha görə əzab verilmir.[3] Əksinə, (bunlar böyük günahlardır). Onlardan biri camaatın qeybətini edərdi, digəri isə (subaşına çıxdıqda) sidik sıçrantılarından qorunmazdı." Sonra Peyğəmbər ﷺ bir və ya iki yaş budaq gətizdirib onları (iki yerə) böldü. Daha sonra onun əmri

---

[1] "əl-Hucurat" surəsi, 12.

[2] Digər rəvayətdə deyilir: "Peyğəmbər ﷺ Mədinə bostanlarından birinin yanından keçərkən qəbirlərində əzab çəkən iki adamın səsini eşitdi..." (Səhih əl-Buxari, 216).

[3] İbn Həcər demişdir: "Yəni söz gəzdirən və sidikdən qorunmayan həmin iki nəfərin iddiasına görə bunlar böyük bir şey deyil. Lakin şəriətə görə bu əməllərin hər ikisi böyük günahlardan sayılır. Bu fikir İbn Abbasdan nəql edilmiş rəvayətdə öz təsdiqini tapmışdır. Həmin rəvayətdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Bunlar əzab çəkirlər, amma böyük bir şeyə görə əzab çəkmirlər. Əslində isə bu böyük günahdır..." (Səhih əl-Buxari, 6055; Fəth əl-Bari, 1/78).

ilə bu bölünmüş budaqların hər biri bir qəbrin üstünə sancıldı. Sonra dedi: "Bu budaqlar yaş qaldığı müddətcə və ya quruyanadək onlara verilən əzab[1] yüngülləşəcəkdir.[2]"[3]

**٧٣٦–** حَدَّثَنَا ابْنُ نُمَيْرٍ قَالَ: حَدَّثَنِي أَبِي قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ، عَنْ قَيْسٍ قَالَ: كَانَ عَمْرُو ابْنُ الْعَاصِ يَسِيرُ مَعَ نَفَرٍ مِنْ أَصْحَابِهِ، فَمَرَّ عَلَى بَغْلٍ مَيِّتٍ قَدِ انْتَفَخَ، فَقَالَ: وَاللَّهِ، لَأَنْ يَأْكُلَ أَحَدُكُمْ هَذَا حَتَّى يَمْلَأَ بَطْنَهُ، خَيْرٌ مِنْ أَنْ يَأْكُلَ لَحْمَ مُسْلِمٍ.

**(736)** ........ Amr ibn As ﷺ öz yoldaşlarından bir dəstə ilə ölmüş və artıq şişmiş bir qatırın yanından keçərkən dedi: "Vallahi ki, sizlərdən birinin qarnını doldurana qədər bu qatırın ətindən yeməsi, müsəlmanın ətini yeməkdən daha xeyirlidir.[4]"[5]

---

[1] Bu, söz gəzdirməyin və sidikdən qorunmamağın böyük günahlardan olduğuna dəlalət edir.

[2] Bu hədisdə qeyd olunan üç xüsusiyyət vardır ki, Uca Allah bunları yalnız Peyğəmbərimizə ﷺ məxsus etmişdir. Allah ona bu günah sahiblərinə öz qəbirlərində əzab verildiyini, bu əzabın onlara nə səbəbdən verildiyini və bir də qəbirlərinin üstünə yaş budaq sancmasını və bu budaqlar quruyanadək onların əzabının yüngülləşəcəyini bildirmişdir. Bunun Peyğəmbərimizə ﷺ xas olması o deməkdir ki, ondan başqa bu ümmətdən kimsənin belə etməsi qadağandır. Belə ki, əgər buna icazə verilsəydi, hamıdan qabaq səhabələr bunu edərdilər. Hazırki dövrdə bir çox insanlar tər gülləri qəbirin üstə qoyur və elə güman edirlər ki, bu güllər quruyanadək qəbirdəkinin əzabı yüngülləşdirilir. Halbuki, Peyğəmbər ﷺ demişdir: "Hər kim bizim dinimizə zidd olan bir əməl edərsə, bu əməl rədd edilər" (Səhih Muslim, 1718). Bu hədisdən aydın olur ki, bunu edən kimsələrin əməli qəbul olunmur və üstəlik, etdikləri bu bidətə görə günah qazanırlar.

[3] Bu hədisi Buxari (216) və Muslim (677) rəvayət etmişdir.

[4] Burada səhabə qeybətin haram olduğunu yanındakılara xatırlatmaq üçün buna münasib olan bir mənzərəni misal çəkir. Bunu da onlara Peyğəmbər ﷺ öyrətmişdir (634-cü hədisə bax).

[5] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٣٠٧- بَابُ الْغِيبَةِ لِلْمَيِّتِ

## 307-ci fəsil. Ölmüş adamın qeybətini qırmaq

٧٣٧- حَدَّثَنَا عَمْرُو بْنُ خَالِدٍ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلَمَةَ، عَنْ أَبِي عَبْدِ الرَّحِيمِ، عَنْ زَيْدِ ابْنِ أَبِي أُنَيْسَةَ، عَنْ أَبِي الزُّبَيْرِ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ الْهَضْهَاضِ الدَّوْسِيِّ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: جَاءَ مَاعِزُ بْنُ مَالِكٍ الأَسْلَمِيُّ، فَرَجَمَهُ النَّبِيُّ ﷺ عِنْدَ الرَّابِعَةِ، فَمَرَّ بِهِ رَسُولُ اللَّهِ ﷺ وَمَعَهُ نَفَرٌ مِنْ أَصْحَابِهِ، فَقَالَ رَجُلاَنِ مِنْهُمْ: إِنَّ هَذَا الْخَائِنَ أَتَى النَّبِيَّ ﷺ مِرَارًا، كُلُّ ذَلِكَ يَرُدُّهُ، حَتَّى قُتِلَ كَمَا يُقْتَلُ الْكَلْبُ، فَسَكَتَ عَنْهُمُ النَّبِيُّ ﷺ حَتَّى مَرَّ بِجِيفَةِ حِمَارٍ شَائِلَةٍ رِجْلُهُ، فَقَالَ: ((كُلاَ مِنْ هَذَا))، قَالاَ: مِنْ جِيفَةِ حِمَارٍ يَا رَسُولَ اللَّهِ؟ قَالَ: ((فَالَّذِي نِلْتُمَا مِنْ عِرْضِ أَخِيكُمَا آنِفًا أَكْثَرُ، وَالَّذِي نَفْسُ مُحَمَّدٍ بِيَدِهِ فَإِنَّهُ فِي نَهْرٍ مِنْ أَنْهَارِ الْجَنَّةِ يَتَغَمَّسُ)).

**(737)** ........ Əbu Hureyrə ﵁ demişdir: "Maiz ibn Malik əl-Əsləmi dördüncü dəfə Peyğəmbərin ﷺ yanına gəldikdə, o, Maizi daşqalaq etdi.[1] (Bir müddət) sonra Rəsulullah ﷺ bir dəstə səhabə ilə onun (qəbrinin) yanına gəldi. Səhabələrdən ikisi dedi: "Bu xain dəfələrlə Peyğəmbərin ﷺ yanına gəldi, o da hər dəfə onu geri qaytardı. Nəhayət, it öldürüldüyü kimi öldürüldü." Peyğəmbər ﷺ heç nə demədi. Nəhayət, ayaqları yuxarı qalxmış eşşək cəmdəyinin yanından keçdikləri zaman Peyğəmbər ﷺ (hər ikisinə) "Bundan yeyin!"– deyə buyurdu. Onlar dedilər: "Eşşək leşindən (yeyək), ya Rəsulullah?!" Peyğəmbər ﷺ dedi: "Bir az əvvəl qardaşınızın haqqını tapdalayıb qazandığınız (günah) daha böyükdür. Muhəmmədin canı Əlində Olan *Allaha* and olsun ki, o, Cənnət çaylarından birində çimir."[2]

---

[1] Maiz ibn Malikin ﵁ zina etdiyinə görə daşqalaq olunduğu Buxari (6824) və Muslimin (1695) "Səhih"lərində öz əksini tapmışdır.

[2] Bu hədisin isnadında keçən Abdur-Rəhman ibn Dahdah əd-Dovsi "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisid-Daifə" əsərində (6318) bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ٣٠٨- بَابُ مَنْ مَسَّ رَأْسَ صَبِيٍّ مَعَ أَبِيهِ وَبَرَّكَ عَلَيْهِ

## 308-ci fəsil. Uşağın atasının yanında onun başını sığallamaq və onun üçün bərəkət diləmək

**٧٣٨-** حَدَّثَنَا إِسْحَاقُ قَالَ: أَخْبَرَنَا حَنْظَلَةُ بْنُ عَمْرٍو الزُّرَقِيُّ الْمَدَنِيُّ قَالَ: حَدَّثَنِي أَبُو حَزْرَةَ قَالَ: أَخْبَرَنِي عُبَادَةُ بْنُ الْوَلِيدِ بْنِ عُبَادَةَ بْنِ الصَّامِتِ قَالَ: خَرَجْتُ مَعَ أَبِي وَأَنَا غُلاَمٌ شَابٌّ، فَلَقِيْنَا شَيْخًا، قُلْتُ: أَيْ عَمِّ، مَا مَنَعَكَ أَنْ تُعْطِيَ غُلاَمَكَ هَذِهِ النَّمِرَةَ، وَتَأْخُذَ الْبُرْدَةَ، فَتَكُونَ عَلَيْكَ بُرْدَتَانِ، وَعَلَيْهِ نَمِرَةٌ؟ فَأَقْبَلَ عَلَى أَبِي فَقَالَ: آبْنُكَ هَذَا؟ قَالَ: نَعَمْ، قَالَ: فَمَسَحَ عَلَى رَأْسِي وَقَالَ: بَارَكَ اللَّهُ فِيكَ، أَشْهَدُ لَسَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: ((أَطْعِمُوهُمْ مِمَّا تَأْكُلُونَ، وَاكْسُوهُمْ مِمَّا تَكْتَسُونَ))، يَا ابْنَ أَخِي، ذَهَابُ مَتَاعِ الدُّنْيَا أَحَبُّ إِلَيَّ مِنْ أَنْ يَأْخُذَ مِنْ مَتَاعِ الْآخِرَةِ، قُلْتُ: أَيْ أَبَتَاهُ، مَنْ هَذَا الرَّجُلُ؟ قَالَ : أَبُو الْيَسَرِ بْنُ عَمْرٍو.

**(738)** ........ Ubadə ibn Vəlid ibn Ubadə ibn Samit demişdir: "Mən cavan ikən atamla birgə (ənsarın qaldığı yerə) gəldik və (orada) bir ixtiyar kişiyə rast gəldik. *Onun əynində bir əba və bir məafir libası var idi. Köləsinin də əynində bir əba və bir məafir libası var idi.* Mən dedim: "Əmican! Niyə sən öz kölənə məafir libasını verib, əbanı ondan almırsan ki, sənin əynində iki əba, onun da əynində iki məafir libası olsun." O, üzünü atama tərəf çevirib soruşdu: "Bu sənin oğlundur?" Atam: "Bəli!"– deyə cavab verdi. Onda o mənim başımı sığallayıb dedi: "Allah sənə bərəkət versin! Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: "Yediyinizdən kölələrə yedirdin, geydiyinizdən onlara geyindirin!" Ey qardaş oğlu! Mənim üçün dünya malından ona verməyim, Qiyamət günü onun mənim savabımdan nəsə götürməyindən daha sevimlidir." Mən (atamdan): "Atacan, bu kişi kimdir?"– deyə soruşdum. O, dedi: "(Bu,) Əbul-Yəsar ibn Amrdır."[1]

---

[1] 187-ci hədisə və onun qeydlərinə bax.

## ٣٠٩- بَابُ دَالَّةِ أَهْلِ الإِسْلامِ بَعْضُهُمْ عَلَى بَعْضٍ

## 309-cu fəsil. Müsəlmanların bir-birilərinə olan isti münasibəti

٧٣٩- حَدَّثَنَا عَبْدَةُ قَالَ: حَدَّثَنَا بَقِيَّةُ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ زِيَادٍ قَالَ: أَدْرَكْتُ السَّلَفَ، وَإِنَّهُمْ لَيَكُونُونَ فِي الْمَنْزِلِ الْوَاحِدِ بِأَهَالِيهِمْ، فَرُبَّمَا نَزَلَ عَلَى بَعْضِهِمُ الضَّيْفُ، وَقِدْرُ أَحَدِهِمْ عَلَى النَّارِ، فَيَأْخُذُهَا صَاحِبُ الضَّيْفِ لِضَيْفِهِ، فَيَفْقِدُ الْقِدْرَ صَاحِبُهَا فَيَقُولُ: مَنْ أَخَذَ الْقِدْرَ؟ فَيَقُولُ صَاحِبُ الضَّيْفِ: نَحْنُ أَخَذْنَاهَا لِضَيْفِنَا، فَيَقُولُ صَاحِبُ الْقِدْرِ: بَارَكَ اللَّهُ لَكُمْ فِيهَا، أَوْ كَلِمَةً نَحْوَهَا

قَالَ بَقِيَّةُ: وَقَالَ مُحَمَّدٌ: وَالْخُبْزُ إِذَا خَبَزُوا مِثْلُ ذَلِكَ، وَلَيْسَ بَيْنَهُمْ إِلاَّ جُدُرُ الْقَصَبِ. قَالَ بَقِيَّةُ: وَأَدْرَكْتُ أَنَا ذَلِكَ: مُحَمَّدَ بْنَ زِيَادٍ وَأَصْحَابَهُ.

**(739)** ........ Bəqiyyə[1] rəvayət etmişdir ki, Muhəmməd ibn Ziyad[2] demişdir: “Mən sələflərin[3] dövründə yaşamışam. Onlar öz aralarında bir külfət kimi idilər. Onlardan birinin evinə qonaq gəldikdə, digərinin qazanı odun üstündə olar və evində qonağı olan adam qonağına yemək vermək üçün qardaşının evindəki qazanı götürərdi. Qazan sahibi (gəlib) onu odun üstündə görmədikdə: “Qazanı kim götürüb?”– deyə soruşar, evinə qonaq gəlmiş dostu da ona belə cavab verərdi: “Qazanı biz götürmüşük ki, qonağa yemək verək.” Qazan sahibi də ona: “Allah sizə onun bərəkətini versin!” yaxud buna bənzər bir söz deyərdi.”

Bəqiyyə rəvayət edir ki, Muhəmməd dedi: “Onlar çörək bişirdikdə də belə edərdilər. Aralarında da ancaq qamışlardan toxunmuş divar olardı.”

Bəqiyyə dedi: “Mən də bu isti münasibəti Muhəmməd ibn Ziyadla onun dostları arasında görmüşəm.”[4]

---

[1] Bu, Buxarinin şeyxinin şeyxi Bəqiyyə ibn Vəlid əl-Himsidir.

[2] Bu, Humsun mühəddisi Muhəmməd ibn Ziyad əl-Əlhanidir. Əbu Umamə əl-Bahilidən ﷺ, Abdullah ibn Busrdan ﷺ, Əbu İnəbə əl-Xovlanidən ﷺ və Əbu Raşid əl-Hubranidən ﷺ neçə-neçə hədislər rəvayət etmişdir.

[3] Burada “sələflər” deyildikdə, səhabələr nəzərdə tutulur.

[4] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “səhih” olduğunu demişdir.

## ٣١٠- بَابُ إِكْرَامِ الضَّيْفِ وَخِدْمَتِهِ إِيَّاهُ بِنَفْسِهِ

## 310-cu fəsil. Qonağa ehtiram[1] göstərmək və onun xidmətində durmaq

---

[1] Qonağa ehtiram göstərmək peyğəmbərlərin və onlardan sonra haqq yolu tutub gedən möminlərin əxlaqındandır. İbrahim aleyhissəlamın qonaqpərvərliyi barədə Quranda belə buyurulur: "**İbrahimin möhtərəm qonaqlarının əhvalatı sənə gəlib çatdımı? Onlar onun yanına daxil olub: "***Sənə* **salam olsun!"– dedilər.** ***İbrahim:*** **"Sizə də salam olsun! Siz yad adamlara oxşayırsınız!"– dedi. O, təşviş içində ailəsinin yanına getdi və kök bir buzov** ***qızardıb*** **gətirdi. Onu qabaqlarına qoyub: "Yemək yeməyəcəksinizmi?"– dedi**" (əz-Zariyat, 24-27). Ayədən aydın görünür ki, İbrahim aleyhissəlam öz qonaqlarına həm sözlə, həm də öz əməli ilə ehtiram göstərmişdir. Yəni onlara salam vermiş, sonra da gedib onlara yemək gətirməklə özü onların xidmətində durmuşdur. Digər ayədə bu qonaqların mələklər olduğu xəbər verilir: **"Elçilərimiz İbrahimə** ***İshaqın doğulacağı barədə*** **müjdə gətirdilər və: "Salam!"– dedilər. O da: "Salam!"– dedi və dərhal** ***gedib*** **qızardılmış bir buzov gətirdi"** (Hud, 69). Həmçinin, Yusuf aleyhissəlam barədə Uca Allah buyurur: **"***Yusuf* **qardaşların ərzaq yüklərini hazırlayarkən dedi: "Atabir qardaşınızı yanıma gətirin! Məgər görmürsünüzmü ki, mən ölçüyə tam riayət edirəm və mən qonaqpərvərlərin ən yaxşısıyam?"** (Yusuf, 59). Peyğəmbərimiz səllallahu aleyhi və səlləm nəinki İslamda, hətta İslamdan qabaq belə qonaqpərvər insan olmuşdur. O, mağarada başına gələnləri zövcəsi Xədicəyə ﵂ xəbər verdiyi zaman zövcəsi ona demişdir: "Vallahi ki, Allah səni heç vaxt rüsvay etməz. Çünki sən qohumluq əlaqələrini möhkəm saxlayır, zəiflərin yükünü daşıyır, yoxsula pay verir, qonağa ehtiram göstərir və haqq yolunda insanlara yardım edirsən" (Səhih əl-Buxari, 3); həmçinin, onun iki əziz dostu da qonaqpərvər olmuşlar. Əbu Bəkr ﵁ Məkkə müşriklərinin təzyiqlərindən cana gəlib, öz yurdundan çıxıb getmək istədiyi zaman İbn Dəğinə onu öz himayəsi altına almış və qureyşlilərin zadəganlarına belə demişdir: "Əbu Bəkr kimi bir adam nə öz şəhərini tərk etməlidir, nə də buradan qovulmalıdır! Əcəba, siz imkansızlara yardım göstərən, qohumları ilə əlaqə saxlayan, zəiflərə ağır yüklərini daşımaqda kömək edən, insanlara qonaqpərvərlik göstərən və onlara taleyin müsibətlərindən çıxmağa kömək edən bir insanımı qovursunuz?!" (Səhih əl-Buxari, 3906); bir vaxt Ömər ibn Xattab ﵁ Əbu Hureyrəyə ﵁ belə demişdir: "Vallahi, səni evimə dəvət edib, *yemək-içməyə qonaq etməyim* mənim üçün qırmızı dəvələrdən daha sevimlidir" (Səhih əl-Buxari, 5375).

٧٤٠- حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ دَاوُدَ، عَنْ فُضَيْلِ بْنِ غَزْوَانَ، عَنْ أَبِي حَازِمٍ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَجُلًا أَتَى النَّبِيَّ ﷺ، فَبَعَثَ إِلَى نِسَائِهِ، فَقُلْنَ: مَا مَعَنَا إِلاَّ الْمَاءُ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: ((مَنْ يَضُمُّ، أَوْ يُضِيفُ، هَذَا؟)) فَقَالَ رَجُلٌ مِنَ الأَنْصَارِ: أَنَا. فَانْطَلَقَ بِهِ إِلَى امْرَأَتِهِ فَقَالَ: أَكْرِمِي ضَيْفَ رَسُولِ اللَّهِ ﷺ، فَقَالَتْ: مَا عِنْدَنَا إِلاَّ قُوتُ لِلصِّبْيَانِ، فَقَالَ: هَيِّئِي طَعَامَكِ، وَأَصْلِحِي سِرَاجَكِ، وَنَوِّمِي صِبْيَانَكِ إِذَا أَرَادُوا عَشَاءً، فَهَيَّأَتْ طَعَامَهَا، وَأَصْلَحَتْ سِرَاجَهَا، وَنَوَّمَتْ صِبْيَانَهَا، ثُمَّ قَامَتْ كَأَنَّهَا تُصْلِحُ سِرَاجَهَا فَأَطْفَأَتْهُ، وَجَعَلاَ يُرِيَانِهِ أَنَّهُمَا يَأْكُلاَنِ، وَبَاتَا طَاوِيَيْنِ، فَلَمَّا أَصْبَحَ غَدَا إِلَى رَسُولِ اللَّهِ ﷺ، فَقَالَ ﷺ: ((لَقَدْ ضَحِكَ اللَّهُ، أَوْ: عَجِبَ، مِنْ فَعَالِكُمَا))، وَأَنْزَلَ اللَّهُ: ﴿وَيُؤْثِرُونَ عَلَى أَنْفُسِهِمْ وَلَوْ كَانَ بِهِمْ خَصَاصَةٌ وَمَنْ يُوقَ شُحَّ نَفْسِهِ فَأُولَئِكَ هُمُ الْمُفْلِحُونَ﴾

**(740)** ........ Əbu Hureyrə ؓ demişdir:[1] “(Bir dəfə) Peyğəmbərin ﷺ yanına qonağı gəldi[2] və o, (səhabələrindən birini) zövcələrinin yanına göndərdi.[3] Onların hamısı: “Evdə sudan başqa heç nə yoxdur”– dedilər. Onda Rəsulullah ﷺ dedi: “Kim bu adama qayğı göstərər və ya onu evində qonaq saxlayar?”[4] Ənsardan olan bir nəfər:[5] “Mən!”– deyib onu evinə apardı və zövcəsinə: “Rəsulullahın ﷺ qonağına[6] layiqincə hörmət et!”– deyə buyurdu.

---

[1] Bu hədisi Buxari (3798 və 4889), Muslim (2054), Tirmizi (3304), Nəsai (Sunən əl-Kubra, 6/484 11582), Beyhəqi (4/185) rəvayət etmişdir.

[2] İmam Buxarinin “Səhih”indəki rəvayətdə (4889) deyilir ki, qonağı ona: “Heyim qalmayıb”– demişdir.

[3] Burada Peyğəmbər ﷺ evdə yemək olub-olmadığını bilmək istəyir ki, qonağına özü ehtiram göstərsin.

[4] İmam Muslimin “Səhih”indəki rəvayətdə (2054) Peyğəmbər ﷺ: “Kim onu bu gecə evində qonaq saxlasa, Allah ona rəhm edər”– demişdir. Bundan da aydın olur ki, qonağa ehtiram göstərmək Allahın mərhəmətinə qovuşmaq üçün səbəbdir.

[5] Muslimin rəvayətində bu səhabənin Əbu Talhə əl-Ənsari ؓ olduğu xəbər verilir.

[6] Bundan belə aydın olur ki, qonağa daha çox ehtiram göstərilsin deyə, onun fərqli cəhətini demək – “filankəsin qonağıdır”, “filan alimdir”, “filan xəlifənin elçisidir” və s. buna bənzər ifadələr işlətmək müstəhəbdir.

Qadın dedi: "Evdə uşaqların yeməyindən başqa bir yemək yoxdur!" (Səhabə) dedi: "Yeməyini hazırla, çırağını yandır, uşaqlar da axşam yeməyini istəsələr, onları yatızdır!" Qadın yeməyi hazırladı, çırağı yandırdı, uşaqları da yatızdırdı. Sonra ayağa qalxıb özünü guya çırağı düzəldirmiş kimi göstərdi və bilərəkdən onu söndürdü.[1] Sonra hər ikisi (əllərini qaba uzadaraq) özlərini (qonağa) guya yemək yeyirlərmiş kimi göstərdilər. Beləliklə, həmin gecə hər ikisi ac yatdı. Səhər açıldıqda hər ikisi Peyğəmbərin ﷺ yanına gəldi və Peyğəmbər ﷺ (ona): "Allah sizin[2] dünənki əməlinizə güldü və ya ondan təəccübləndi!"[3]– dedi. Onda Allah bu ayəni nazil etdi: **"Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır."**[4]

---

[1] Əbu Talhənin ﷺ zövcəsinin bu hərəkəti onun əməlisaleh və olduqca itaətkar bir qadın olduğuna dəlalət edir.

[2] Burada "sizin" deyildikdə, Əbu Talhə ﷺ və onun əhli-əyalı nəzərdə tutulur.

[3] Burada "gülmək" və "təəccüblənmək" deyildikdə, insana aid olan naqis vəsflər yox, Allahın Özünə layiq, necəliyi Özündən başqa heç kəsə məlum olmayan Uca sifətlər nəzərdə tutulur. Allahın istər zatı, istərsə də feli sifətləri olduğu kimi qəbul edilməlidir. Bu sifətləri nə başqa mənaya yozmaq, nə inkar etmək, nə necəliyini vəsf etmək, nə də ki yaradılanlara bənzətmək olar. Bu xüsusda, Uca Allah buyurur: **"Onun heç bir bənzəri yoxdur"** (əş-Şura, 11); **"Heç kəsi Allaha oxşatmayın"** (ən-Nəhl, 74); ***"heç kəsi*** **Allaha tay tutmayın"** (əl-Bəqərə, 22); **"Heç Ona oxşarını tanıyırsanmı?!"** (Məryəm, 65).

[4] "əl-Həşr" surəsi, 9. Bu ayənin əvvəlində Uca Allah buyurur: "***Mühacirlərdən*** **əvvəl** ***Mədinədə*** **yurd salmış,** ***sonra da*** **iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar**"

## ٣١١- بَابُ جَائِزَةِ الضَّيْفِ

## 311-ci fəsil. Qonağa bəxşiş vermək

٧٤١- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ يُوسُفَ قَالَ: حَدَّثَنَا اللَّيْثُ قَالَ: حَدَّثَنِي سَعِيدٌ الْمَقْبُرِيُّ، عَنْ أَبِي شُرَيْحٍ الْعَدَوِيِّ قَالَ: سَمِعَتْ أُذُنَايَ، وَأَبْصَرَتْ عَيْنَايَ، حِينَ تَكَلَّمَ النَّبِيُّ ﷺ فَقَالَ: ((مَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ فَلْيُكْرِمْ جَارَهُ، وَمَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ فَلْيُكْرِمْ ضَيْفَهُ جَائِزَتَهُ))، قَالَ: وَمَا جَائِزَتُهُ يَا رَسُولَ اللَّهِ؟ قَالَ: ((يَوْمٌ وَلَيْلَةٌ، وَالضِّيَافَةُ ثَلَاثَةُ أَيَّامٍ، فَمَا كَانَ وَرَاءَ ذَلِكَ فَهُوَ صَدَقَةٌ عَلَيْهِ. وَمَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ فَلْيَقُلْ خَيْرًا أَوْ لِيَصْمُتْ)).

**(741)** ........ Əbu Şureyh əl-Ədəvi ﷺ demişdir: “Peyğəmbərin ﷺ belə dediyini qulaqlarım eşitdi, gözlərim gördü: “Kim Allaha və Axirət gününə iman gətirirsə, qonşusuna yaxşılıq etsin. Kim Allaha və Axirət gününə iman gətirirsə, qonağının bəxşişini versin.” (Səhabələrdən biri) soruşdu: “Ya Rəsulullah! Qonağın bəxşişi nədir?” O buyurdu: “Bir gecə və bir gündüz.[1] Qonaq saxlamağın müddəti üç gündür. Sonrakı günlər isə sədəqədir.[2] Kim Allaha və Axirət gününə iman gətirirsə, ya xeyir söyləsin, ya da sussun.[3]”[4]

---

[1] İbn Useymin ﷺ demişdir: “Evə qonaq gəlmiş adamı bir gün və bir gecə saxlamaq vacib, bundan çox saxlamaq isə müstəhəbdir” (əl-Ərbəun ən-Nəvəviyyə).

[2] Yəni qonağı üç gündən artıq saxlamaq ev yiyəsi üçün sədəqə sayılır.

[3] 102-ci hədisin şərhinə bax.

[4] Bu hədisi Buxari (9019), Muslim (4610), Tirmizi (1967) rəvayət etmişdir.

## ٣١٢- بَابُ الضِّيَافَةُ ثَلاثَةُ أَيَّامٍ

## 312-ci fəsil. Qonaq saxlamağın (müddəti) üç gündür

٧٤٢- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا أَبَانُ بْنُ يَزِيدَ قَالَ: حَدَّثَنِي يَحْيَى هُوَ ابْنُ أَبِي كَثِيرٍ، عَنْ أَبِي سَلَمَةَ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((الضِّيَافَةُ ثَلاَثَةُ أَيَّامٍ، فَمَا كَانَ بَعْدَ ذَلِكَ فَهُوَ صَدَقَةٌ)).

**(742)** ........ Əbu Hureyrə ﷠ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Qonaq saxlamağın müddəti üç gündür. Bundan sonrakı günlər isə sədəqədir.[1]"[2]

---

[1] Əvvəlki hədisin qeydlərinə bax.

[2] Bu hədisi Əhməd (2/288, 354, 510, 534; 3/21, 64) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ٣١٣- بَابُ لا يُقِيمُ عِنْدَهُ حَتَّى يُحْرِجَهُ

## 313-cü fəsil. Ev sahibinə əziyyət verənə qədər onun yanında qalmaq olmaz

٧٤٣- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ سَعِيدٍ الْمَقْبُرِيِّ، عَنْ أَبِي شُرَيْحٍ الْكَعْبِيِّ، أَنَّ رَسُولَ اللهِ ﷺ قَالَ: ((مَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ فَلْيَقُلْ خَيْرًا أَوْ لِيَصْمُتْ، وَمَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ فَلْيُكْرِمْ ضَيْفَهُ جَائِزَتَهُ يَوْمٌ وَلَيْلَةٌ. وَالضِّيَافَةُ ثَلَاثَةُ أَيَّامٍ، فَمَا بَعْدَ ذَلِكَ فَهُوَ صَدَقَةٌ، وَلَا يَحِلُّ لَهُ أَنْ يَثْوِيَ عِنْدَهُ حَتَّى يُحْرِجَهُ)).

**(743)** ........ Əbu Şureyh əl-Kə'bi[1] ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ dedi: “Kim Allaha və Axirət gününə iman gətirirsə, ya xeyir söyləsin, ya da sussun. Kim Allaha və Axirət gününə iman gətirirsə, bir gecə və bir gündüz qonağını (evində saxlamaqla) onun bəxşişini versin. Qonaq saxlamağın müddəti üç gündür. Bundan sonrakı günlər isə sədəqədir. Qonağa da ev sahibini əziyyətə salanadək onun yanında qalmaq halal deyildir.”[2]

---

[1] Qeyd etmək lazımdır ki, 102-ci, 741-ci və bu 743-cü hədisləri rəvayət edən səhabə – Əbu Şureyh əl-Xuzai, Əbu Şureyh əl-Ədəvi və Əbu Şureyh əl-Kəbi eyni adamdır.

[2] Bu hədisi Buxari (6135), Əbu Davud (3748) və Tirmizi (2095) rəvayət etmişdir.

## ٣١٤- بَابُ إِذَا أَصْبَحَ بِفِنَائِهِ

## 314-cü fəsil. Adamın həyatinə (müsafir) gəldiyi zaman (o nə etməlidir?)

٧٤٤- حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ مَنْصُورٍ، عَنِ الشَّعْبِيِّ، عَنِ الْمِقْدَامِ أَبِي كَرِيمَةَ الشَّامِيِّ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((لَيْلَةُ الضَّيْفِ حَقٌّ وَاجِبٌ عَلَى كُلِّ مُسْلِمٍ، فَمَنْ أَصْبَحَ بِفِنَائِهِ فَهُوَ دَيْنٌ عَلَيْهِ إِنْ شَاءَ، فَإِنْ شَاءَ اقْتَضَاهُ، وَإِنْ شَاءَ تَرَكَهُ)).

**(744)** ........ Əbu Kərimə əs-Şami ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Müsafiri bir gecə evdə qonaq saxlamaq hər bir müsəlmanın üzərinə düşən haqdır. Odur ki, (sizlərdən birinin) həyatinə müsafir gəldiyi zaman onu (bir gecə) evində qonaq saxlaması boynuna düşən borcdur. Müsafir istər borcunu tələb edər, istərsə də onu tərk edər."[1]

---

[1] Bu hədisi Əbu Davud (3750), İbn Macə (3677), Əhməd (4/130) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ٣١٥- بَابُ إِذَا أَصْبَحَ الضَّيْفُ مَحْرُومًا

## 315-ci fəsil. Qonaq (öz haqqından) məhrum qaldıqda (nə etməlidir?)

٧٤٥- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي اللَّيْثُ، عَنْ يَزِيدَ بْنِ أَبِي حَبِيبٍ، عَنْ أَبِي الْخَيْرِ، عَنْ عُقْبَةَ بْنِ عَامِرٍ قَالَ: قُلْتُ: يَا رَسُولَ اللَّهِ، إِنَّكَ تَبْعَثُنَا فَنَنْزِلُ بِقَوْمٍ لَا يَقْرُونَا، فَمَا تَرَى فِي ذَلِكَ؟ فَقَالَ لَنَا: ((إِنْ نَزَلْتُمْ بِقَوْمٍ فَأُمِرَ لَكُمْ بِمَا يَنْبَغِي لِلضَّيْفِ فَاقْبَلُوا، فَإِنْ لَمْ يَفْعَلُوا فَخُذُوا مِنْهُمْ حَقَّ الضَّيْفِ الَّذِي يَنْبَغِي لَهُمْ)).

**(745)** ........ Uqbə ibn Amir ﷺ demişdir: "Mən (Peyğəmbərdən ﷺ) soruşdum: "Ya Rəsulullah, sən bizi (bir yerə) göndərdiyin zaman, bəzən olur ki, o yerin adamları bizi evlərində qonaq saxlamırlar. Bu haqda nə deyə bilərsən?" Peyğəmbər ﷺ bizə buyurdu: "Siz bir qövmün yanına gəldiyiniz zaman, əgər onlar sizə qonağa lazım olan qayğını göstərsələr, (bu ziyafəti) qəbul edin. Yox əgər (bundan) boyun qaçırsalar, onların boynuna düşən qonaq haqqını onlardan götürün.[1]"[2]

---

[1] Hədisin zahirindən aydın olur ki, müsafiri qonaq saxlamaq istəməyən kimsədən bunu tələb etmək vacibdir. İmam Əhməd demişdir: "Yerli sakinlər istisna olmaqla, evinə gələn adamı bir gecə və bir gün qonaq saxlamaq vacibdir." İmam Əbu Hənifə, Malik və Şafii isə bunun təkid olunmuş Sünnə olduğunu demişlər (Şərh ən-Nəvəvi; Haşiyətus-Sindi). Abdul-Muhsin Abbad demişdir: "Peyğəmbərin ﷺ bu sözü Hind bint Utbəyə ﷺ dediyinə bənzəyir. Bu qadın "Ya Rəsulullah, Əbu Sufyan xəsis adamdır. Əgər mən *xəlvətcə* onun malından götürüb uşaqlarımıza xərcləsəm, mənə günah sayılarmı?"– deyə soruşduqda, Peyğəmbər ﷺ ona belə buyurmuşdur: "Xeyr, *sayılmaz*. Sən ancaq özünə və uşaqlarına bəs edəcək qədər götürə bilərsən!" (Səhih əl-Buxari, 3825).

[2] İmam Buxari bu hədisi öz "Səhih"ində (1122) rəvayət etmişdir.

## ٣١٦- بَابُ خِدْمَةِ الرَّجُلِ الضَّيْفَ بِنَفْسِهِ

## 316-cı fəsil. Ev yiyəsinin özünün qonağın xidmətində durması

٧٤٦- حَدَّثَنَا يَحْيَى بْنُ بُكَيْرٍ قَالَ: حَدَّثَنَا يَعْقُوبُ بْنُ عَبْدِ الرَّحْمَنِ، عَنْ أَبِي حَازِمٍ قَالَ: سَمِعْتُ سَهْلَ بْنَ سَعْدٍ، أَنَّ أَبَا أُسَيْدٍ السَّاعِدِيَّ دَعَا النَّبِيَّ ﷺ فِي عُرْسِهِ، وَكَانَتِ امْرَأَتُهُ خَادِمَهُمْ يَوْمَئِذٍ، وَهِيَ الْعَرُوسُ، فَقَالَتْ، أَوْ قَالَ: أَتَدْرُونَ مَا أَنْقَعْتُ لِرَسُولِ اللَّهِ ﷺ؟ أَنْقَعْتُ لَهُ تَمَرَاتٍ مِنَ اللَّيْلِ فِي تَوْرٍ.

**(746)** ........ Səhl ibn Səd rəvayət edir ki,[1] Əbu Useyd əs-Saidi[2] Peyğəmbəri ﷺ öz toyuna dəvət etdiyi gün Useydin xanımı gəlin olduğu halda onlara xidmət etmişdir.[3] Qadın demişdir: “Heç bilirsiniz mən Rəsulullah ﷺ üçün nədən şirə düzəltmişdim?! Mən onun üçün gecədən (mis) qabın içində xurma isladıb şirə düzəltmişdim.[4]”

---

[1] Bu hədisi Buxari (5591) və Muslim (2006) rəvayət etmişdir.

[2] Əbu Useyd Malik ibn Rəbiə ibn Bədən əl-Ənsari ؓ Peyğəmbərin ﷺ səhabəsidir.

[3] Bu hadisə, habelə, Əbu Talhənin ؓ öz zövcəsi ilə bərabər Rəsulullahın ﷺ qonağına xidmət etməsi hicab ayəsi nazil olmamışdan əvvəl baş vermişdir. Hicab ayəsi nazil olduqdan sonra isə qadının yad kişinin qabağına çıxması qadağan edilmişdir.

[4] Buna “nəbiz” deyilir. Nəbiz: xurmanı, üzümü, buğdanı, arpanı və s. yumşalanadək suda saxladıqdan sonra onu sıxmaqla hazırlanan içkidir (Tohfətul-Əhvəzi, 5/86). Rəvayət edilir ki, İbn Abbas ؓ demişdir: “Peyğəmbər ﷺ üçün gecənin əvvəlində şirə çəkərdilər. Sonra o, bu şirəni ya ertəsi gün səhər, ya həmin günün axşamı, ya növbəti gün günortaüstü, və ya axşamı, ya da o biri gün əsr vaxtınadək içərdi. Sonra yerdə qalanını xidmətçisinə verər, *qıcqırdığı təqdirdə isə* onun əmri ilə bu içkini *zibilliyə* boşaldardılar” (Səhih Muslim, 3739). Bu hədislərdən belə nəticə çıxır ki, istənilən nəbizi üç gün ərzində – yəni şirinliyi qaldığı müddətcə içmək olar. Üç gündən sonra isə bu nəbiz qıcqırıb sərxoşedici içkiyə çevrilir. Bunu da içməyi həm Allah, həm də Peyğəmbər ﷺ haram buyurmuşdur. Bu xüsusda, Uca Allah buyurur: **“Ey iman gətirənlər! Şübhəsiz ki, sərxoşedici *içki* də, qumar da, *tapınmaq məqsədilə* dik qoyulmuş daşlar da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız. Həqiqətən, şeytan sərxoşedici *içki* və qumar vasitəsilə sizin aranıza ədavət və kin salmaq, sizi Allahı yad etməkdən və namazdan ayırmaq istəyər. Siz *buna* son qoyacaqsınızmı?”** (əl-Maidə, 90-91). Hədislərin birində Əbu Musa əl-Əşari ؓ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ onu Yəmənə göndərdikdə, Əbu Musa ondan orada düzəldilən içkilər barədə soruşdu. Peyğəmbər ﷺ soruşdu: “Nədir onlar?” Əbu Musa: “Bal və arpa şərabıdır”– dedi. Onda Peyğəmbər ﷺ buyurdu: “Sərxoşedici hər bir şey haramdır” (Səhih əl-Buxari, 4343).

## ٣١٧- بَابُ مَنْ قَدَّمَ إِلَى ضَيْفِهِ طَعَامًا فَقَامَ يُصَلِّي

## 317-ci fəsil. Qonağına yemək verdikdən sonra qalxıb namaz qılan adam

٧٤٧- حَدَّثَنَا أَبُو مَعْمَرٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَارِثِ قَالَ: حَدَّثَنِي الْجُرَيْرِيُّ قَالَ: حَدَّثَنَا أَبُو الْعَلاَءِ ابْنُ عَبْدِ اللَّهِ، عَنْ نُعَيْمِ بْنِ قَعْنَبٍ قَالَ: أَتَيْتُ أَبَا ذَرٍّ فَلَمْ أُوَافِقْهُ، فَقُلْتُ لِامْرَأَتِهِ: أَيْنَ أَبُو ذَرٍّ؟ قَالَتْ: يَمْتَهِنُ، سَيَأْتِيكَ الْآنَ، فَجَلَسْتُ لَهُ، فَجَاءَ وَمَعَهُ بَعِيرَانِ، قَدْ قَطَرَ أَحَدَهُمَا بِعَجُزِ الْآخَرِ، فِي عُنُقِ كُلِّ وَاحِدٍ مِنْهُمَا قِرْبَةٌ، فَوَضَعَهُمَا ثُمَّ جَاءَ، فَقُلْتُ: يَا أَبَا ذَرٍّ، مَا مِنْ رَجُلٍ كُنْتُ أَلْقَاهُ كَانَ أَحَبَّ إِلَيَّ لُقْيًا مِنْكَ، وَلاَ أَبْغَضَ إِلَيَّ لُقْيًا مِنْكَ، قَالَ: لِلَّهِ أَبُوكَ، وَمَا جَمَعَ هَذَا؟ قَالَ: إِنِّي كُنْتُ وَأَدْتُ مَوْءُودَةً فِي الْجَاهِلِيَّةِ أَرْهَبُ إِنْ لَقِيتُكَ أَنْ تَقُولَ: لاَ تَوْبَةَ لَكَ، لاَ مَخْرَجَ لَكَ، وَكُنْتُ أَرْجُو أَنْ تَقُولَ: لَكَ تَوْبَةٌ وَمَخْرَجٌ، قَالَ: أَفِي الْجَاهِلِيَّةِ أَصَبْتَ؟ قُلْتُ: نَعَمْ، قَالَ: عَفَا اللَّهُ عَمَّا سَلَفَ. وَقَالَ لِامْرَأَتِهِ: آتِينَا بِطَعَامٍ، فَأَبَتْ، ثُمَّ أَمَرَهَا فَأَبَتْ، حَتَّى ارْتَفَعَتْ أَصْوَاتُهُمَا، قَالَ: إِيهْ، فَإِنَّكُنَّ لاَ تَعْدُونَ مَا قَالَ رَسُولُ اللَّهِ ﷺ، قُلْتُ: وَمَا قَالَ رَسُولُ اللَّهِ فِيهِنَّ؟ قَالَ: ((إِنَّ الْمَرْأَةَ خُلِقَتْ مِنْ ضِلَعٍ، وَإِنَّكَ إِنْ تُرِيدُ أَنْ تُقِيمَهَا تَكْسِرُهَا، وَإِنْ تُدَارِهَا فَإِنَّ فِيهَا أَوَدًا وَبُلْغَةً))، فَوَلَّتْ فَجَاءَتْ بِثَرِيدَةٍ كَأَنَّهَا قَطَاةٌ، فَقَالَ: كُلْ وَلاَ أُهُولَنَّكَ فَإِنِّي صَائِمٌ، ثُمَّ قَامَ يُصَلِّي، فَجَعَلَ يُهَذِّبُ الرُّكُوعَ، ثُمَّ انْفَتَلَ فَأَكَلَ، فَقُلْتُ: إِنَّا لِلَّهِ، مَا كُنْتُ أَخَافُ أَنْ تَكْذِبَنِي، قَالَ: لِلَّهِ أَبُوكَ، مَا كَذَبْتُ مُنْذُ لَقِيتَنِي، قُلْتُ: أَلَمْ تُخْبِرْنِي أَنَّكَ صَائِمٌ؟ قَالَ: بَلَى، إِنِّي صُمْتُ مِنْ هَذَا الشَّهْرِ ثَلاَثَةَ أَيَّامٍ فَكُتِبَ لِي أَجْرُهُ، وَحَلَّ لِي الطَّعَامُ.

**(747)** ........ Nueym ibn Qa'nəb demişdir: "(Bir dəfə) mən Əbu Zərrin yanına gəldim, lakin onu evdə tapmadım. Zövcəsindən: "Əbu Zərr haradadır?"– deyə soruşdum. O, dedi: "Ev işlərinə görə çıxıb, (gözlə) indi gələr." Mən oturub onu gözlədim. Çox keçmədən Əbu Zərr gəldi. Yanında da iki dəvə var idi. O, dəvələrdən birini digərinin arxasına bağlamışdı. Hər biri-

nin də boynunda bir su tuluğu var idi.[1] Əbu Zərr bu tuluqları (dəvələrin boynundan çıxardıb) yerə qoyduqdan sonra (yanıma) gəldi. Mən dedim: "Ey Əbu Zərr! Görüşdüyüm elə bir adam yoxdur ki, bu (görüş) mənim üçün səninlə görüşməkdən daha sevimli olsun,[2] habelə, mənim üçün səninlə görüşməkdən daha xoşagəlməz olsun." O, dedi: "Halal olsun atana! (Bir-birinə zidd olan) bu iki duyğunu (öz qəlbində) cəm etməyə səni vadar edən nədir?" Dedim: "Mən cahiliyyət dövründə bir qızımı diri-diri torpağa gömmüşəm. Elə buna görə də qorxurdum ki, səninlə görüşdükdə (mənə): "Sənin tövbən qəbul olmayacaq, sənin üçün heç bir çıxış yolu yoxdur"– deyəsən. Ümid edirdim ki: "Tövbən qəbul olar, sənin üçün çıxış yolu var"– deyəsən. O, soruşdu: "Sən bu günahı[3] cahiliyyət dövründəmi etmisən?" Mən: "Bəli!"– deyə cavab verdim. O, dedi: "Allah (sənin) keçmiş günahlarını bağışlamışdır."[4] Sonra o, zövcəsinə: "Bizə yemək gətir"– deyə buyurdu. Lakin qadın (yemək gətirməkdən) imtina etdi.[5] Bir də ona buyurdu, lakin qadın yenə imtina etdi. Hər ikisinin səsi qalxdıqda, Əbu Zərr dedi: "Danış, danış! Siz qadınlar Peyğəmbərin ﷺ (barənizdə) dediyindən

---

[1] Bundan aydın olur ki, Əbu Zərrin ؓ zövcəsi "ev işlərinə görə çıxıb" deyəndə, onun ailəsi üçün su gətirəcəyini qəsd edirmiş.

[2] Nueymin bu sözü dəlildir ki, o, Əbu Zərri ؓ çox istəyirmiş.

[3] Bu, dəlildir ki, qız uşağını diri-diri torpağa gömmək haramdır (297-ci hədisin qeydlərinə bax).

[4] Bu xüsusda, Uca Allah buyurur: **"Kafir olanlara de ki, əgər *küfrə* son qoysalar, olub-keçənlər onlara bağışlanar. Yox, əgər *küfrə* qayıtsalar, əvvəlkilərin başına gələn aqibəti gözləsinlər"** ("əl-Ənfal" surəsi, 38). Həmçinin, Peyğəmbər ﷺ demişdir: "İslam özündən əvvəlki günahları yox edir?!" (Səhih Muslim, 321).

[5] Abdur-Rəzzaq əl-Abbad demişdir: "Ola bilsin ki, qadın Nueymin cahiliyyət dövründə etdiyi bu günahdan dolayı hiddətlənmiş və elə bu səbəbdən də, ona yemək verməK istəməmişdir" (əl-Ədəbul-Mufradın şərhi).

yan keçə bilməzsiniz." Mən dedim: "Peyğəmbər ﷺ onlar barədə nə demişdir ki?" O, dedi: "Peyğəmbər ﷺ demişdir: "Qadın qabırğadan yaranmışdır. Əgər sən onu dümdüz etmək istəsən, sındıracaqsan.[6] Onunla yumşaq davrandığın[7] təqdirdə isə, onda nöqsanla yanaşı, səni razı salacaq xislətlər də görəcəksən." Sonra qadın gedib şorba gətirdi. Deyəsən, o, çöl göyərçinindən hazırlanmışdı. Əbu Zərr dedi: "Ye! Səni qorxutmaq istəmirəm. Mən orucam."[8] Sonra qalxıb namaz qıldı, rükuları tez-tez etməyə başladı.[9] Sonra da namazı bitirib yemək yeməyə başladı.[10] Mən dedim: "Biz Allaha

---

[6] Peyğəmbər ﷺ demək istəyir ki, kişinin öz istəyinə uyğun qadını tam düzəltməsi mümkün deyil. Və əgər kişi güclə buna nail olmağa cəhd göstərərsə, axırda bu sərtlik ailənin dağılmasına səbəb ola bilər. Buxarinin "Səhih"indəki rəvayətdə (5186) bu cümlənin tamamında Peyğəmbər ﷺ demişdir: "...onu düzəltməsən, əyri qalacaq." Yəni yeri gəldikdə, qadına nəsihət etmək lazımdır ki, özbaşınalıq edib həddini aşmasın.

[7] Mülayim olmaq barədə Peyğəmbər demişdir: "Allah mülayimdir və mülayimliyi sevir. Sərtliyə görə vermədiyini, mülayimliyə görə verər" (əl-Ədəbul-Mufrad, 472); digər bir hədisdə o, demişdir: "Həqiqətən, yumşaqlıq *hansı* bir işdə olarsa, onu ancaq gözəlləşdirər. Və nədən gedərsə, onu ancaq alçaldar" (əl-Ədəbul-Mufrad, 469).

[8] Səhabə belə deyir ki, qonaq öz qabağına qoyulmuş yemək barədə şübhə etməsin.

[9] Yəni rükətləri xəfif qılmağa başladı.

[10] Burada Əbu Zərr رضي الله عنه tovriyə edir (ikibaşlı danışır) ki, qonaq yeməkdən doyunca yesin. İmam Əhmədin "Musnəd" əsərindəki (5/150) rəvayətdə Nueym demişdir: "O, istəyirdi ki, mən yeməkdən doyunca yeyim." Bu fəsildəki hədisin sonunda Əbu Zərrin رضي الله عنه dediyi sözdən aydın olur ki, o, həmin ayın üç gününü oruc tutmağı bir ay oruc tutmağa bərabər hesab etmiş, beləliklə, həmin günü də sanki oruc tutduğunu qəsd etmişdir. Əbu Zərrin رضي الله عنه rəvayət etdiyi digər bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim hər ayın üç gününü oruc tutarsa, il boyu oruc tutmuş sayılar. Uca Allah Öz Kitabında bunu təsdiq edən ayə nazil etmişdir: **"Kim yaxşılıq gətirərsə, ona gətirdiyinin on qat əvəzi verilər"** (əl-Ənam, 160). Bir günün (orucu) on günə bərabədir" (Sunən ət-Tirmizi, 762; Səhih ət-Tərğib vət-Tərhib, 1035).

məxsusuq. Mən sənin mənə yalan danışacağından ehtiyat etmirdim." Əbu Zərr dedi: "Halal olsun atana! Səni görəndən bəri yalan söyləmədim." Mən dedim: "Məgər, sən mənə oruclu olduğunu demədinmi?!" O, dedi: "Elədir. Mən artıq bu ayın üç gününü oruc tutmuşam deyə, bu ayın savabı mənə yazıldı və (səninlə bir yerdə)[11] yemək mənə halal oldu."[12]

---

[11] Bu əlavə İmam Əhmədin "Musnəd" əsərində (5/150) varid olmuşdur.

[12] Bu hədisi Nəsai (5/364), Əhməd (5/8), Darimi (2/150) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "həsən" olduğunu demişdir.

## ٣١٨- بَابُ بَابُ نَفَقَةِ الرَّجُلِ عَلَى أَهْلِهِ

## 318-ci fəsil. Adamın (öz malından) ailəsinə xərcləməsi

٧٤٨- حَدَّثَنَا حَجَّاجٌ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ زَيْدٍ، عَنْ أَيُّوبَ، عَنْ أَبِي قِلاَبَةَ، عَنْ أَبِي أَسْمَاءَ، عَنْ ثَوْبَانَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِنَّ مِنْ أَفْضَلِ دِينَارٍ أَنْفَقَهُ الرَّجُلُ عَلَى عِيَالِهِ، وَدِينَارٌ أَنْفَقَهُ عَلَى أَصْحَابِهِ فِي سَبِيلِ اللَّهِ، وَدِينَارٌ أَنْفَقَهُ عَلَى دَابَّتِهِ فِي سَبِيلِ اللَّهِ)).

قَالَ أَبُو قِلاَبَةَ: وَبَدَأَ بِالْعِيَالِ، وَأَيُّ رَجُلٍ أَعْظَمُ أَجْرًا مِنْ رَجُلٍ يُنْفِقُ عَلَى عِيَالٍ صِغَارٍ حَتَّى يُغْنِيَهُمُ اللَّهُ عَزَّ وَجَلَّ؟

**(748)** ........ Sovban ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Ən fəzilətli dinar kişinin ailəsinə xərclədiyi dinar,[13] sonra onun Allah yolunda olan dostlarına xərclədiyi dinar, sonra da Allah yolunda (cihadda olan) heyvanına xərclədiyi dinardır."

Əbu Qilabə demişdir: "Peyğəmbər ﷺ öncə ailədən başladı. Hansı adam öz malından ailəsindəki körpələrə – Allah ﷻ onları ehtiyacdan qurtarana qədər –xərcləyən kişidən daha böyük savab qazana bilər?!"[14]

٧٤٩- حَدَّثَنَا حَجَّاجٌ قَالَ: حَدَّثَنَا شُعْبَةُ قَالَ: أَخْبَرَنِي عَدِيُّ بْنُ ثَابِتٍ قَالَ: سَمِعْتُ عَبْدَ اللَّهِ ابْنَ يَزِيدَ يُحَدِّثُ، عَنْ أَبِي مَسْعُودٍ الْبَدْرِيِّ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَنْ أَنْفَقَ نَفَقَةً عَلَى أَهْلِهِ، وَهُوَ يَحْتَسِبُهَا، كَانَتْ لَهُ صَدَقَةً)).

---

[13] Bu, dəlildir ki, adam öz ailəsini dolandırmalı və onların heç kəsə möhtac olmamaları üçün qazanc dalınca getməlidir. Kişinin öz ailəsinin qayğısına qalması onun üçün sədəqə sayılır (Növbəti hədisə bax).

[14] Bu hədisi Beyhəqi (Şoəbul-İman, 3149) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

**(749)** ........ Əbu Məsud əl-Bədri ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Hər kim, savabını *yalnız Allahdan* umaraq,[15] öz varından ailəsinə xərcləsə, bu onun üçün sədəqə sayılar.”[16]

**٧٥٠–** حَدَّثَنَا هِشَامُ بْنُ عَمَّارٍ قَالَ: حَدَّثَنَا الْوَلِيدُ قَالَ: حَدَّثَنَا أَبُو رَافِعٍ إِسْمَاعِيلُ بْنُ رَافِعٍ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُنْكَدِرِ، عَنْ جَابِرٍ قَالَ: قَالَ رَجُلٌ: يَا رَسُولَ اللَّهِ، عِنْدِي دِينَارٌ؟ قَالَ: ((أَنْفِقْهُ عَلَى نَفْسِكَ))، قَالَ: عِنْدِي آخَرُ، فَقَالَ: ((أَنْفِقْهُ عَلَى خَادِمِكَ))، أَوْ قَالَ: ((عَلَى وَلَدِكَ))، قَالَ: عِنْدِي آخَرُ، قَالَ: ((ضَعْهُ فِي سَبِيلِ اللَّهِ، وَهُوَ أَخَسُّهَا)).

**(750)** ........ Cabir ﷺ rəvayət edir ki, bir nəfər: “Ya Rəsulullah, mənim bir dinarım var”– dedi. Peyğəmbər ﷺ: “Onu özünə xərclə”– dedi. Adam: “Məndə biri də var”– dedi. Peyğəmbər ﷺ: “Onu öz xidmətçinə” yaxud[17] “öz övladına xərclə”– dedi. Adam: “Məndə biri də var”– dedi. Peyğəmbər ﷺ: “Onu Allah yolunda sərf et. Bu da, bunların ən kiçiyidir”– dedi.”[18]

---

[15] Hər bir müsəlman bu şərtə diqqət yetirməlidir. Quranda xəbər verilir ki, **“Allaha *itaət edən* möminlər özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə verər və deyərlər: “Biz sizi yalnız Allahın Üzü xatirinə (ixlasla, savabını Allahdan umaraq) yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləyirik!”** (əl-İnsan, 8-9). Bu, dəlildir ki, əməllər niyyətlərə görədir. Bu xüsusda, ayrıca bir hədisdə Peyğəmbər ﷺ demişdir: “Əməllər ancaq niyyətlərə görədir. Hər kəsə də yalnız niyyət etdiyi şey qalacaqdır. Kim hicrəti əldə edəcəyi dünya (malından) və ya evlənəcəyi qadından ötrü etmişsə, onun hicrəti (Allah və Onun peyğəmbərinin ﷺ razı qalması üçün deyil), hicrət etdiyi şeyə aiddir” (Səhih əl-Buxari, 1).

[16] Bu hədisi İmam Buxari öz “Səhih”ində də (55) rəvayət etmişdir.

[17] Bu, ravilərdən birinin şəkkidir.

[18] Şeyx Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin mətnindəki “Onu Allah yolunda sərf et. Bu da, bunların ən kiçiyidir” cümləsinin “zəif”, yerdə qalan hissəsinin isə “səhih li-ğeyrihi” olduğunu demişdir (62-ci, 196-cı və 197-ci hədislərə və onların qeydlərinə bax).

**٧٥١-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ يُوسُفَ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ مُزَاحِمِ بْنِ زُفَرَ، عَنْ مُجَاهِدٍ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((أَرْبَعَةُ دَنَانِيرَ: دِينَارًا أَعْطَيْتَهُ مِسْكِينًا، وَدِينَارًا أَعْطَيْتَهُ فِي رَقَبَةٍ، وَدِينَارًا أَنْفَقْتَهُ فِي سَبِيلِ اللَّهِ، وَدِينَارًا أَنْفَقْتَهُ عَلَى أَهْلِكَ، أَفْضَلُهَا الَّذِي أَنْفَقْتَهُ عَلَى أَهْلِكَ)).

**(751)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Dörd dinar[19] vardır: kasıba verdiyin dinar, qul azad etmək üçün verdiyin dinar, Allah yolunda *cihada* xərclədiyin dinar və ailənə xərclədiyin dinar. Bunların ən fəzilətlisi ailənə xərclədiyindir."[20]

---

[19] Burada söhbət möminə savab qazandıracaq fəzilətli dinarlardan gedir.

[20] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٣١٩– بَابُ يُؤْجَرُ فِي كُلِّ شَيْءٍ حَتَّى اللُّقْمَةُ يَرْفَعُهَا إِلَى فِي امْرَأَتِهِ

## **319-cu fəsil.** (Adamın xərclədiyi) **hər şeydə,[21] hətta, həyat yoldaşının ağzına qoyduğu loxmada belə savab vardır**

٧٥٢– حَدَّثَنَا أَبُو الْيَمَانِ قَالَ: حَدَّثَنَا شُعَيْبٌ، عَنِ الزُّهْرِيِّ قَالَ: حَدَّثَنِي عَامِرُ بْنُ سَعْدٍ، عَنْ سَعْدِ بْنِ أَبِي وَقَّاصٍ أَنَّهُ أَخْبَرَهُ، أَنَّ النَّبِيَّ ﷺ قَالَ لِسَعْدٍ: ((إِنَّكَ لَنْ تُنْفِقَ نَفَقَةً تَبْتَغِي بِهَا وَجْهَ اللَّهِ عَزَّ وَجَلَّ إِلاَّ أُجِرْتَ بِهَا، حَتَّى مَا تَجْعَلُ فِي فَمِ امْرَأَتِكَ)).

**(752)** ........ Səd ibn Əbu Vəqqas ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ ona demişdir: "Sən Allahın ﷻ Üzünü diləyərək[22] xərclədiyin hər şeyin, hətta, həyat yoldaşının ağzına qoyduğun loxmanın belə əvəzini mütləq alacaqsan."[23]

---

[21] Burada söhbət Allah yolunda verilən sədəqədən gedir.

[22] Bunun əks anlamından belə nəticə çıxır ki, əgər adam malından özünə, valideyninə, ailəsinə, xidmətçisinə və s. xərclədiyi zaman niyyəti Allahın razılığını qazanmaq yox, başqa bir şey olarsa, əməli puç olar.

[23] İmam Buxari bu hədisi öz "Səhih"ində də (1295) rəvayət etmişdir.

# ٣٢٠- بَابُ الدُّعَاءِ إِذَا بَقِيَ ثُلُثُ اللَّيْلِ

## 320-ci fəsil. Gecənin (son) üçdə birində edilən dua

٧٥٣- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنِ ابْنِ شِهَابٍ، عَنْ أَبِي عَبْدِ اللَّهِ الأَغَرِّ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((يَنْزِلُ رَبُّنَا تَبَارَكَ وَتَعَالَى فِي كُلِّ لَيْلَةٍ إِلَى السَّمَاءِ الدُّنْيَا، حِينَ يَبْقَى ثُلُثُ اللَّيْلِ الْآخِرُ، فَيَقُولُ: مَنْ يَدْعُونِي فَأَسْتَجِيبَ لَهُ؟ مَنْ يَسْأَلُنِي فَأُعْطِيَهُ؟ مَنْ يَسْتَغْفِرُنِي فَأَغْفِرَ لَهُ؟))

**(753)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Uca və ulu Rəbbimiz hər gecənin son üçdə birində dünya səmasına enir[24] və

---

[24] Bu hədis "mütavatir" hədislərdəndir. Yəni bu, yalan danışacaqları təsəvvür olunmayan, isnadın əvvəlindən axırınadək bir toplumun digərindən rəvayət etdiyi hədisdir. Bu hədisi Peyğəmbərdən ﷺ otuza yaxın səhabə rəvayət etmişdir (Məaricul-Qəbul, 1/166; İhtimam əl-Muhəddisin, 1/141-142).

Muhəmməd ibn Saleh ibn Useymin ﵀ demişdir: "Bu, Peyğəmbərin ﷺ sözüdür. Biz onun Allahı ən gözəl tanıyan, habelə, yaradılanlar arasında ən düz danışan, onlara ən doğru yolu göstərən və bəlağəti hamıdan yüksək olan bir kimsə olduğuna iman gətirməliyik... Və əgər o, "Rəbbimiz hər gecənin son üçdə birində dünya səmasına enir" deyirsə, Allahın Özünün həqiqi mənada enməsini qəsd edir... Səhabələrin hamısı yekdil fikirdə olmuşlar ki, Allahın Özü dünya səmasına enir (Buna "icma" deyilir). Səhabələrin yekdil fikirdə olmasına dəlil budur ki, heç bir kitabda onlardan birinin: "Burada Allahdan qeyrisinin enməsi nəzərdə tutulur"– dediyi varid olmamışdır. Halbuki, onların hamısı bu hədisi bilirdi. Və əgər səhabələr bu hədisi "hər gecənin son üçdə birində Rəbbimizin rəhməti və ya Onun mələklərindən biri yerə enir" deyə başqa mənaya yozmamışlarsa, demək, onlar Allahın Özünün dünya səmasına endiyini təsdiqləmişlər... Səhabələrin zamanında bu hədisi yanlış mənaya yozub: "Burada enir deyildikdə, Rəbbimizin əmri, yaxud rəhməti, yaxud da Onun mələklərindən biri yerə enir qəsd edilir"– deyən bidət əhli yox idi. Odur ki, həmin dövrdə səhabələrin: "Allah Özü dünya səmasına enir"– deməsinə lüzum yox idi. Hər kəs bu hədisdə "enir" deyildikdə, nə qəsd edildiyini bilirdi... Demək, Rəbbimiz hər gecənin axır üçdə birində həqiqi mənada Özünə layiq şəkildə dünya səmasına enir...

Bu mövzuya aid toxunacağımız digər məsələ də budur ki, Allah dünya səmasına endiyi zaman Ərşin üstü boşmu qalır? Bunun cavabı budur ki, ümumiyyətlə, belə sual vermək olmaz. Kim deyə bilər ki, o, Allahı tanımağa səhabələrdən daha çox hərisdir. Və əgər səhabələr bu haqda Rəsulullaha ﷺ sual verməmişlərsə, biz də həmçinin: "belə sual vermək olmaz"– deməli və bu cür sual verən kimsələri "bidət əhli"– adlandırmalıyıq... Bir nəfər İmam Malikdən ﵀: "Ər-Rəhman Ərşin üzərinə necə istiva etmişdir (necə yük-

buyurur: "Mənə dua edən varmı, onun duasını qəbul edim?[25] Məndən istəyən varmı, ona istədiyini verim?[26] Məndən bağışlanma diləyən varmı, onu bağışlayım?[27]"[28]

---

səlmişdir)?"– deyə soruşduqda, o, demişdir: "İstiva məlumdur, necəliyi məchuldur, buna iman gətirmək vacibdir, onun necəliyi barədə soruşmaq isə bidətdir."

(Xülasə budur ki,) bu hədisi yanlış mənaya yozub "Rəbbimizin əmri yaxud rəhməti yaxud da Onun mələklərindən biri yerə enir"– deyənlərə belə cavab veririk:

Birincisi, sizin bu yozumunuz Peyğəmbərin ﷺ "Rəbbimiz hər gecənin son üçdə birində dünya səmasına enir" sözünə ziddir. Belə ki, burada açıq-aydın "Rəbbimiz"– deyilir;

İkincisi, sizin bu sözünüz həm də: "Mənə dua edən varmı, onun duasını qəbul edim?" sözünə də ziddir. Belə ki, nə mələk, nə də başqa bir məxluq bu sözü deyə bilməz. Çünki Allahdan başqa heç bir kəs duanı qəbul etməyə qadir deyil. Və kim bunu deyərsə, özünü Allaha şərik qoşmuş olar. Habelə, "Allahın rəhməti enir" demək də, batil fikirdir. Belə ki, Allahın rəhmətinin enməsində məqsəd, onun yer üzündəkilərə yetişməsidir. Onun dünya səmasına enməsinin bizə nə faydası ola bilər ki?! Bundan başqa, niyə Allahın rəhmətinin təkcə gecənin son üçdə birində endiyini deməliyik?! Axı rəhmət hər zaman enir. Əgər biz bu rəhmətin ancaq gecənin son üçdə birində nazil olduğunu xüsusiləşdirsək, onda, belə çıxacaq ki, günün yerdə qalan hissəsində rəhmət enmir. Həmçinin, onu da vurğulamaq lazımdır ki, rəhmət: "Mənə dua edən varmı, onun duasını qəbul edim? Məndən istəyən varmı, ona istədiyini verim? Məndən bağışlanma diləyən varmı, onu bağışlayım?"– deyə bilməz" (Şərhul-Əqidətis-Səffariniyyə, 1/204-212).

[25] Bu xüsusda, Quranda belə buyurulur: **"Rəbbiniz buyurur: "Mənə dua edin, sizin duanızı qəbul edim. Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər"** (Ğafir, 60).

[26] Digər hədisdə Peyğəmbər ﷺ İbn Abbasa رضي الله عنهما belə buyurmuşdur: "İstədikdə yalnız Allahdan istə. Kömək dilədikdə də, ancaq Allahdan kömək dilə. Bil ki, bütün ümmət sənə xeyir vermək üçün əlbir olsa belə, Allahın sənin lehinə yazdığı xeyirdən başqa bir şeylə sənə fayda verə bilməz. Həmçinin, onlar sənə zərər vurmaq üçün əlbir olsalar belə, Allahın sənin əleyhinə yazdığından başqa bir şeylə sənə zərər yetirə bilməzlər. Qələmlər qaldırılmış, səhifələr də qurumuşdur" (Sunən ət-Tirmizi, 2516; Musnəd Əhməd, 1/293; Səhih əl-Cami, 7957).

[27] Bu xüsusda, Uca Allah buyurur: **"Allahdan bağışlanma dilə! Şübhəsiz ki, Allah Bağışlayandır, Rəhmlidir"** (ən-Nisa, 106); O, həmçinin, buyurur: **"Rəbbinizdən bağışlanmağınızı diləyin! Həqiqətən, O, çox Bağışlayandır!"** (Nuh, 10).

[28] Bu hədisi Buxari (1145), Muslim (758), Əbu Davud (1315), Tirmizi (498), Nəsai (Aməlul-Yovm vəl-Leylə, 480), Əhməd (2/267), Malik (1/214), İbn Hibban (920) və İbn Xuzeymə (127) rəvayət etmişdir. Yeri gəlmişkən, qeyd edək ki, İbn Teymiyyə رحمه الله bu hədisi bir cilddən ibarət kitabda şərh etmişdir.

## ٣٢١– بَابُ قَوْلِ الرَّجُلِ: ((فُلانٌ جَعْدٌ، أَسْوَدُ، أَوْ طَوِيلٌ، قَصِيرٌ)) يُرِيدُ الصِّفَةَ وَلا يُرِيدُ الْغِيبَةَ

## 321-ci fəsil. Adamın bir kimsənin qeybətini qırmaq deyil, sadəcə olaraq, onu tanıtmaq üçün "Filankəs qıvrımsaçdır, zəncidir, yaxud hündürboydur, alçaqboydur" deməsi (caizdir)[29]

٧٥٤– حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ سَعْدٍ، عَنْ صَالِحِ بْنِ كَيْسَانَ، عَنِ ابْنِ شِهَابٍ قَالَ: أَخْبَرَنِي ابْنُ أَخِي أَبِي رُهْمٍ كُلْثُومُ بْنُ الْحُصَيْنِ الْغِفَارِيُّ، أَنَّهُ سَمِعَ أَبَا رُهْمٍ، وَكَانَ مِنْ أَصْحَابِ رَسُولِ اللَّهِ ﷺ الَّذِينَ بَايَعُوهُ تَحْتَ الشَّجَرَةِ، يَقُولُ: غَزَوْتُ مَعَ رَسُولِ اللَّهِ ﷺ غَزْوَةَ تَبُوكَ، فَقُمْتُ لَيْلَةً بِالأَخْضَرِ، فَصِرْتُ قَرِيبًا مِنْهُ، فَأُلْقِيَ عَلَيْنَا النُّعَاسُ، فَطَفِقْتُ أَسْتَيْقِظُ وَقَدْ دَنَتْ رَاحِلَتِي مِنْ رَاحِلَتِهِ، فَيُفْزِعُنِي دُنُوُّهَا خَشْيَةَ أَنْ تُصِيبَ رِجْلَهُ فِي الْغَرْزِ، فَطَفِقْتُ أُؤَخِّرُ رَاحِلَتِي حَتَّى غَلَبَتْنِي عَيْنِي بَعْضَ اللَّيْلِ، فَزَاحَمَتْ رَاحِلَتِي رَاحِلَةَ رَسُولِ اللَّهِ ﷺ، وَرِجْلُهُ فِي الْغَرْزِ، فَأَصَبْتُ رِجْلَهُ، فَلَمْ أَسْتَيْقِظْ إِلاَّ بِقَوْلِهِ: حَسِّ، فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ، اسْتَغْفِرْ لِي، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: ((سِرْ)). فَطَفِقَ رَسُولُ اللَّهِ ﷺ يَسْأَلُنِي عَنْ مَنْ تَخَلَّفَ مِنْ بَنِي غِفَارٍ فَأُخْبِرُهُ، فَقَالَ، وَهُوَ يَسْأَلُنِي: ((مَا فَعَلَ النَّفَرُ الْحُمْرُ الطِّوَالُ الثِّطَاطُ))؟ قَالَ: فَحَدَّثْتُهُ بِتَخَلُّفِهِمْ، قَالَ: ((فَمَا فَعَلَ السُّودُ الْجِعَادُ الْقِصَارُ الَّذِينَ لَهُمْ

---

[29] Bu, caiz olsa da, bunun şərtləri vardır. Birincisi budur ki, birisinin eyibini deyən adamın məqsədi bununla onun qeybətini qırmaq yox, sadəcə, onu vəsf etmək olsun. İkincisi də budur ki, vəsf olunan həmin adam ancaq bu vəsflə tanınmış olsun. İbn Həcər bu mövzudan danışarkən demişdir: "Əbu Hatim ər-Razi rəvayət etmişdir ki, Abdə ibn Abdur-Rəhim demişdir: "Mən Abdulllah ibn Mubarəkdən bir adamın başqa birisinə "Uzundıraz Humeyd və ya axsaq Humeyd"– deməsi barədə soruşdum. O, dedi: "Əgər məqsədi onun eyibini demək yox, sadəcə, onu tanıtmaqdırsa, olar." Həmçinin, Əsrəm demişdir: "Əhməd ibn Hənbəldən birisini ləqəbi ilə çağırmaq barədə soruşulduqda, o, belə cavab vermişdir: "Əgər ancaq bu ləqəblə tanınırsa, olar" (Nuzhətul-Əlbab fil-Əlqab, 1/45).

نَعَمْ بِشَبَكَةِ شَدَخٍ؟)) فَتَذَكَّرْتُهُمْ فِي بَنِي غِفَارٍ، فَلَمْ أَذْكُرْهُمْ حَتَّى ذَكَرْتُ أَنَّهُمْ رَهْطٌ مِنْ أَسْلَمَ، فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ، أُولَئِكَ مِنْ أَسْلَمَ، قَالَ: ((فَمَا يَمْنَعُ أَحَدَ أُولَئِكَ، حِينَ يَتَخَلَّفُ، أَنْ يَحْمِلَ عَلَى بَعِيرٍ مِنْ إِبِلِهِ امْرَءًا نَشِيطًا فِي سَبِيلِ اللَّهِ؟ فَإِنَّ أَعَزَّ أَهْلِي عَلَيَّ أَنْ يَتَخَلَّفَ عَنِّي الْمُهَاجِرُونَ مِنْ قُرَيْشٍ وَالأَنْصَارُ، وَغِفَارٌ وَأَسْلَمُ)).

**(754)** ........ Peyğəmbərin ﷺ səhabələrindən ağac altında beyət edən[1] Əbu Əbu Ruhm[2] ؓ demişdir: "Mən Peyğəmbərlə ﷺ birgə Təbuk döyüşündə vuruşmuşam. (Səfər əsnasında) bir gecə mən Əxdərdə[3] Rəsulullaha ﷺ yaxınlaşdım. Hamımızın gözündən yuxu tökülürdü. Mən yuxumu qaçırtmağa çalışırdım. (Elə bu vaxt) dəvəm Rəsulullahın ﷺ dəvəsinə yaxınlaşdı. Mən dəvənin ona yaxınlaşmasından narahat idim, qorxurdum ki, Rəsulullahın ﷺ ayağı üzəngiyə ilişə. Odur ki, dəvəni geri çəkməyə

---

[1] Bu xüsusda, Uca Allah buyurur: **"Möminlər ağac altında sənə beyət edərkən Allah Allah onlardan razı qaldı"** (əl-Fəth, 18). Bu beyətə "Ridvan beyəti" deyirlər. Ərəbcə "Ridvan" – razı qalmaq, "beyət" isə – söz vermək deməkdir. Burada söhbət hicrətin 6-cı ilində Hudeybiyədə səhabələrin Rəsulullaha ﷺ beyət etməsindən gedir. Həmin beyətin səbəbi bu olmuşdur: müşriklər Hudeybiyədə Peyğəmbərin ﷺ yolunu kəsib, onu Məkkəyə buraxmadıqları zaman o, ümrə ziyarətini yerinə yetirmək üçün gəldiyini Məkkə əhlinə bildirmək məqsədi ilə Osmanı ؓ onların yanına göndərmiş, bir müddət sonra Osmanın ؓ ölüm xəbəri ona yetişdikdə: "Əgər onlar Osmanı öldürmüşlərsə, biz də onların layiqli cəzasını verəcəyik"– demiş və səhabələrini buna beyət etməyə çağırmışdır. Onlar da bu döyüşdən qaçmayacaqlarına dair ona söz vermişlər (Fəthul-Bari, 7/569-570). Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Ağac altında beyət edən kimsələrdən heç kəs Cəhənnəm oduna girməyəcək" (Səhih Muslim, 7/169; Sunən Əbu Davud, 4653; Sunən ət-Tirmizi, 3860; Musnəd Əhməd, 3/350).

[2] Bu, Peyğəmbərin ﷺ səhabəsi və məşhur səhabə Əbu Musa əl-Əşarinin ؓ doğma qardaşı Məcdi ibn Qeys əl-Əşaridir ؓ (Fəthul-Bari, 7/485).

[3] Təbuk yaxınlığındakı yerin adıdır.

başladım. Nəhayət, gecənin bir aləmində məni yuxu tutdu və dəvəm Rəsulullahın ﷺ dəvəsinə dəydi. Rəsulullahın ﷺ ayağı üzəngidə ikən mənim ayağım onun ayağına çırpıldı. Nəhayət, mən onun: "Ah!" deməsinə oyandım. Dedim: "Ya Rəsulullah, mənim üçün bağışlanma dilə." Rəsulullah ﷺ mənə: "Yoluna davam et!"– dedi. Sonra Rəsulullah ﷺ məndən Ğifar qəbiləsindən kimlərin döyüşdən yayındığını soruşmağa başladı. Mən də (bu haqda) ona xəbər verdim. Yenə soruşdu: "Qırmızıdərili, hündürboy kosalar nə etdi?" Mən onların da döyüşdən yayındıqlarını ona bildirdim. Yenə soruşdu: "Şəbəkətu Şədəxdə[1] dəvələri olan qıvrımsaçlı, alçaqboy zəncilər nə etdi?" Mən onların Ğifar qəbiləsindən olduqlarını düşündüm, (lakin yəqin xatırlamadığım üçün) bunu ona bildirmədim. Nəhayət, onların Əsləm qəbiləsindən olduqlarını xatırlayıb dedim: "Ya Rəsulullah, onlar Əsləm qəbiləsindəndirlər." Rəsulullah ﷺ dedi: "Döyüşdən yayınarkən cəsur bir adamı dəvəyə mindirib (döyüşə göndərməyə) onlara mane olan nədir?! Həqiqətən də, Qureyş mühacirlərindən və ənsardan, habelə, Ğifar və Əsləm qəbilələrindən olan kimsələrin döyüşdən yayınması mənə ağır gəlir."[2]

**٧٥٥–** حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ مُحَمَّدِ بْنِ عَمْرٍو، عَنْ أَبِي سَلَمَةَ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتِ: اسْتَأْذَنَ رَجُلٌ عَلَى النَّبِيِّ ﷺ فَقَالَ: ((بِئْسَ أَخُو الْعَشِيرَةِ))، فَلَمَّا دَخَلَ انْبَسَطَ إِلَيْهِ، فَقُلْتُ لَهُ؟ فَقَالَ: ((إِنَّ اللَّهَ لاَ يُحِبُّ الْفَاحِشَ الْمُتَفَحِّشَ)).

**(755)** ........ Aişə رضي الله عنها rəvayət edir ki,[3] bir kişi Peyğəmbərin ﷺ yanına daxil olmaq üçün izin istədi. Peyğəmbər ﷺ (onun haqqında): "Əşirətin[1] qardaşı

---

[1] Hicazda yer adıdır.

[2] Bu hədisin isnadında keçən Əbu Ruhmun qardaşı oğlu "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində onun "zəif" olduğunu demişdir.

[3] Bu hədisi Buxari (5780), Muslim (2591), Əbu Davud (4791), Tirmizi (1997) və Əhməd (6/38) rəvayət etmişdir.

necə də pis adamdır!"– dedi. Kişi içəri daxil olduqda isə onu gülərüzlə qarşıladı. (Adam çıxıb getdikdən) sonra mən ona dedim: ("Ya Rəsulullah, sən əvvəlcə belə dedin, sonra da onunla nəzakətlə davrandın?!") O buyurdu: "Allah ədəbsiz və kobud adamı sevmir.[2]"

**٧٥٦–** حَدَّثَنَا مُحَمَّدُ بْنُ كَثِيرٍ قَالَ: أَخْبَرَنَا سُفْيَانُ قَالَ: حَدَّثَنِي عَبْدُ الرَّحْمَنِ، عَنِ الْقَاسِمِ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: اسْتَأْذَنَتْ رَسُولَ اللَّهِ ﷺ سَوْدَةُ لَيْلَةَ جَمْعٍ، وَكَانَتِ امْرَأَةً ثَقِيلَةً ثَبِطَةً، فَأَذِنَ لَهَا.

**(756)** ........ Aişə ﵂ demişdir: "(Camaatın) toplandığı gecə[3] Sevda[4] Peyğəmbərdən ﷺ izin istədi.[5] Sevda ağır[6] və astagəl bir qadın idi. Odur ki, Peyğəmbər ﷺ ona izin verdi."[7]

---

[1] 338-ci hədisin qeydlərinə bax.

[2] Tirmizinin nəql etdiyi hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: "Ey Aişə, insanların ən pisi o kəslərdir ki, onların yaramaz əxlaqına görə insanlar onları tərk edirlər" (Şəmailun-Nəbi, 350).

[3] Burada söhbət həcc ziyarətində olan zəvvarların Muzdəlifəyə toplandığı gecədən gedir. İmam Muslimin "Səhih"indəki (2271) rəvayətdə Sevdanın ﵂ Muzdəlifədə ikən izin istədiyi xəbər verilir. Muzdəlifə – Məkkə yaxınlığındakı vadinin adıdır.

[4] Sevda bint Zəm'a ibn Qeys əl-Amiriyyə əl-Quraşiyyə ﵂ Peyğəmbərin ﷺ zövcəsi və möminlərin anasıdır. Xədicənin ﵂ vəfatından sonra Peyğəmbərin ﷺ evləndiyi ilk qadındır (Siyər Əlam ən-Nubələ, 40-cı tərcümeyi-hal).

[5] Həmin vaxt Sevda ﵂ izdihama düşməsin deyə, səhərə yaxın Minaya getmək üçün Peyğəmbərdən ﷺ izin istəmişdi.

[6] Burada Aişə ﵂ onun kök olduğunu və ağır tərpəndiyini xəbər verir. Aişənin ﵂ Sevdanı ﵂ bu cür vəsf etməkdə məqsədi onu pisləmək yox, sadəcə, onun izin istəməsinin səbəbini bildirmək olmuşdur.

[7] Bu hədisi Muslim (2271) rəvayət etmişdir.

## ٣٢٢- بَابُ مَنْ لَمْ يَرَ بِحِكَايَةِ الْخَبَرِ بَأْسًا

## 322-ci fəsil. Bir hadisəni danışmağı[1] ayıb saymayan kimsə

٧٥٧- حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ زَيْدٍ، عَنْ عَاصِمِ بْنِ بَهْدَلَةَ، عَنْ أَبِي وَائِلٍ، عَنِ ابْنِ مَسْعُودٍ قَالَ: لَمَّا قَسَّمَ رَسُولُ اللَّهِ ﷺ غَنَائِمَ حُنَيْنٍ بِالْجِعْرَانَةِ ازْدَحَمُوا عَلَيْهِ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: ((إِنَّ عَبْدًا مِنْ عِبَادِ اللَّهِ بَعَثَهُ اللَّهُ إِلَى قَوْمٍ، فَكَذَّبُوهُ وَشَجُّوهُ، فَكَانَ يَمْسَحُ الدَّمَ عَنْ جَبْهَتِهِ وَيَقُولُ: اللَّهُمَّ اغْفِرْ لِقَوْمِي، فَإِنَّهُمْ لاَ يَعْلَمُونَ)).

قَالَ عَبْدُ اللَّهِ بْنُ مَسْعُودٍ: فَكَأَنِّي أَنْظُرُ إِلَى رَسُولِ اللَّهِ ﷺ يَحْكِي الرَّجُلَ يَمْسَحُ عَنْ جَبْهَتِهِ.

**(757)** ........ İbn Məsud ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ Huneyn döyüşündə əldə edilmiş qənimətləri Ciranədə[2] bölüşdürərkən (səhabələr) onun başına toplaşdılar. Onda Peyğəmbər ﷺ dedi: "Allah Öz qullarından birini bir qövmün yanına göndərdi, onlar isə onu yalançı saydılar və onu (daşa basıb) başını yaraladılar. O, alnına axan qanı silə-silə deyirdi: "Allahım, mənim qövmümü bağışla. Çünki onlar (haqqı) bilmirlər."[3]

Abdullah ibn Məsud demişdir: "Rəsulullahın ﷺ o adamın[4] hekayəsini danışa-danışa alnını silməsi (indi də) gözümün qabağındadır."[5]

---

[1] Qeyd etmək lazımdır ki, hər hansı bir hadisəni və ya birisinin etdiyi qəbahəti ibrət üçün danışmaq caiz, bunu lağa qoymaq və ya təhqir etmək məqsədilə etmək isə qadağandır. Bu xüsusda, Uca Allah buyurur: **"Ey iman gətirənlər! Bir camaat digərini məsxərəyə qoymasın. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Qadınlar da qadınları *lağa qoymasınlar*. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Bir-birinizə tənə vurmayın və bir-birinizi pis ləqəblərlə çağırmayın"** (əl-Hucurat, 11).

[2] Məkkə ilə Taif arasında, Məkkənin yeddi kilometrliyindəki yer adıdır (Tac vəl-Buldan). Bu yerə, həmçinin, "Ciirranə" də deyilir.

[3] Bu dua həmin peyğəmbərin olduqca səbirli olduğuna dəlalət edir.

[4] Digər rəvayətdə İbn Məsud demişdir: "Rəsulullahın ﷺ qövmü tərəfindən daş-qalaq edilmiş bir peyğəmbərin başına gələni danışa-danışa alnını silməsi indi də gözümün qabağındadır" (Səhih əl-Buxari, 3477; Səhih Muslim, 5/179; Sunən İbn Macə, 4025; Musnəd Əhməd, 1/ 380, 432 və 441).

[5] Bu hədisi Əhməd (1/ 427 və 456) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "həsən" olduğunu demişdir.

## ٣٢٣- بَابُ مَنْ سَتَرَ مُسْلِمًا

## 323-cü fəsil. Müsəlmanın eybini örtən kimsə (haqqında)[1]

٧٥٨- حَدَّثَنَا بِشْرُ بْنُ مُحَمَّدٍ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ قَالَ: حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ نَشِيطٍ، عَنْ عُقْبَةَ بْنِ عَلْقَمَةَ، عَنْ أَبِي الْهَيْثَمِ قَالَ: جَاءَ قَوْمٌ إِلَى عُقْبَةَ بْنِ عَامِرٍ فَقَالُوا: إِنَّ لَنَا جِيرَانًا يَشْرَبُونَ وَيَفْعَلُونَ، أَفَنَرْفَعُهُمْ إِلَى الإِمَامِ؟ قَالَ: لاَ، سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: ((مَنْ رَأَى مِنْ مُسْلِمٍ عَوْرَةً فَسَتَرَهَا، كَانَ كَمَنْ أَحْيَا مَوْءُودَةً مِنْ قَبْرِهَا)).

**(758)** ........ Əbul Heysəm demişdir:[2] "Bir dəstə adam Uqbə ibn Amirin yanına gəlib dedi: "Bizim qonşularımız şərab içir və yaramaz işlər görürlər. Onların bu hərəkətini ixtiyar sahiblərinə şikayət edə bilərikmi?" O, dedi: "Xeyr, mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Bir müsəlmanın eyibini görüb onu ört-basdır edən kimsə[3] (gömülmüş) qız uşağını qəbirdən çıxarıb dirildən kimsə kimidir."

---

[1] İmam Buxari bu fəsilə belə ünvan verməklə müsəlmanın eyibini örtməyin fəzilətli əməllərdən olduğunu bildirmək istəyir.

[2] Bu hədisin isnadında keçən Əbul-Heysəm "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir. Lakin qeyd edək ki, müsəlmanın eyibini örtməyin fəzilətlinə dair kifayət qədər "səhih" hədislər varid olmuşdur. Bu hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: "Kim bir müsəlmanın eyibini örtərsə, Allah da Qiyamət günü onun eyibini örtər" (Səhih əl-Buxari, 2442).

[3] Müsəlmanın eyibini ört-bastır etmək barədə İbn Useymin demişdir: "Yalnız, məsləhət bildikdə müsəlmanın eyibini ört-basdır etmək bəyənilən əməllərdən sayılır. Və əgər bu eyibi gizlətmək cəmiyyət arasında fəsada gətirib çıxaracaqsa, onu gizlətmək qadağandır. Məsələn, şər işlər görmək və fəsad törətməklə tanınan bir cinayətkar cinayət etmişdirsə bunu ört-basdır etmək olmaz. Lakin əməlisaleh mömin adam (qəsdi olmadan) bir qələt iş tutmuşsa, onun eyibini ört-basdır etmək gərəkdir." (Təliqat aləl-Ərbain). Beləsinə, nəsihət etmək, nəsihəti qəbul etməzsə, onu Allahın əzabı ilə təhdid etmək, bunun da nəticəsi olmazsa, onun barəsində ixtiyar sahiblərinə xəbər vermək gərəkdir. Mömin adamın eyibini axtarıb onu ifşa etmək və beləliklə, onu rüsvay etmək istəyən kimsəni isə Allah alçaldar. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Ey dili ilə iman gətirmiş, lakin qəlbinə iman daxil olmamış kimsələr, müsəlmanların qeybətini qırmayın və onların eyiblərini arayıb axtarmayın! Hər kim müsəlman qardaşının eyibini arayıb axtararsa, Allah da onun eyibini arayar. Allah da kimin eyibini arayarsa, bu eyib onun evinin içində olsa belə onu ifşa edər" (Sunən Əbu Davud, 4880; Səhih əl-Cami, 7984).

## ٣٢٤- بَابُ قَوْلِ الرَّجُلِ: ((هَلَكَ النَّاسُ))

## 324-cü fəsil. Adamın: "İnsanlar həlak oldu!" deməsi

٧٥٩- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ سُهَيْلِ بْنِ أَبِي صَالِحٍ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((إِذَا سَمِعْتَ الرَّجُلَ يَقُولُ: هَلَكَ النَّاسُ، فَهُوَ أَهْلَكُهُمْ)).

**(759)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Bir adamın: "İnsanlar həlak oldu!"[1]– dediyini eşitsən, (bil ki,) o, özü (insanların) ən çox həlak olanıdır.[2]"[3]

[1] İbn Useymin demişdir: "Bu sözü deyən adam iki şeydən birini qəsd edir: ya, kiməsə canı yandığından, onun halına acıdığından və ona rəhmi gəldiyindən bunu deyir, ya da, özünü yüksək tutub başqasına yuxarıdan aşağı baxaraq onu məzəmmət edir. Birincisini demək caiz, ikincisini demək isə haramdır. Malik ibn Ənəs, Xattabi, Humeydi və digərləri bu hədisi belə izah etmişlər" (Şərh Riyadus-Salihin).

[2] Qeyd edək ki, burada ərəbcə varid olmuş ( أَهْلَكُهُمْ ) "ən çox həlak olanıdır" kəlməsi həm damma ilə ( أَهْلَكُهُمْ ), həm də fəthə ilə ( أَهْلَكَهُمْ ) rəvayət edilmişdir. Daha məşhuru isə damma ilə olan rəvayətdir. İkinci ləfzin mənası budur ki, hər kim: "İnsanlar həlak oldu!"– desə, o onları həlak edər", yəni insanların günah işlər gördüyünü tez-tez yada salmaqla camaat arasında fəsad törədər və onların ümidsizliyə qapılmasına səbəbkar olar. Bu hədisdən aydın olur ki, insanlara: "zaman dəyişib", "cəmiyyət korlanıb", "bunlara nəsihət etməyin xeyri yoxdur", "onlar düzələn deyil" və başqa bu kimi məyusedici sözlər demək olmaz. Elə bu səbəbdən də, bir çox alimlər xətiblərin, vaizlərin və dəvətçilərin öz dəvətlərində insanların günah işlər gördüklərini və bu səbəbdən də, həlak olduqlarını tez-tez xatırlamalarını qadağan edirlər. Belə ki, pis əməllər və şər işlər artdığından tez-tez danışmaq mömininin qəlbini məyus edir və tədricən onu məhv edir. Müdrik dəvətçi isə, əksinə, insanları pis işlərdən çəkindirməklə yanaşı, onlara ümid də verməli, mömin üçün hər bir işdə xeyir olduğunu, onun İslamda olduğu müddətcə xeyir içində olacağını və bu xeyirin Qiyamətədək davam edəcəyini bildirməlidir. Məsələn, deyə bilər ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Bu ümmətdən olan *bir dəstə mömin* Allahın əmri gəlincəyə qədər (Qiyamət qopanadək) Allahın dini üzərində sabit qalacaq və belələrinə müxalif olanlar onlara heç bir zərər verə bilməyəcəklər" (Səhih əl-Buxari, 71).

[3] Bu hədisi Malik (Muvatta, 3/148), Muslim (8/36), Əbu Davud (4983), İbn Hibban (5732), Əhməd (2/272, 342, 465 və 517), Əbu Nueym (əl-Hilyə, 7/141), Bəğəvi (Şərhus-Sünnə, 13/144) rəvayət etmişdir.

## ٣٢٥– بَابُ لا يُقَالُ لِلْمُنَافِقِ: ((سَيِّدٌ))

## 325-ci fəsil. Münafiqə: "Seyid" deyilməz

٧٦٠– حَدَّثَنَا عَلِيُّ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا مُعَاذُ بْنُ هِشَامٍ قَالَ: حَدَّثَنِي أَبِي، عَنْ قَتَادَةَ، عَنْ عَبْدِ اللَّهِ بْنِ بُرَيْدَةَ، عَنْ أَبِيهِ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((لاَ تَقُولُوا لِلْمُنَافِقِ: سَيِّدٌ، فَإِنَّهُ إِنْ يَكُ سَيِّدَكُمْ فَقَدْ أَسْخَطْتُمْ رَبَّكُمْ عَزَّ وَجَلَّ)).

**(760)** ........ Bureydə ؓ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Münafiqə "seyid" deməyin.[1] Əgər o, sizin seyidiniz olsa, siz Rəbbinizi ﷻ qəzəbləndirmiş olarsınız.[2]"[3]

---

[1] 107-ci fəsilin və 211-ci hədisin qeydlərinə bax.

[2] Abdul-Muhsin əl-Abbad demişdir: "Əgər bir münafiq, həqiqətən də, bir qövmün böyüyü olsa və camaat da ona seyid (ağa) desə, Allahı qəzəbləndirmiş olarlar. Çünki beləsinə seyid demək olmaz. Və əgər o, öz qövmünün başçısı olmadığı halda ona "seyid" desələr, günah üstə günah qazanmış olarlar. Birinci günahı münafiqə seyid dediklərinə görə, ikincisini isə yalan danışdıqlarına – böyük olmayan bir kimsəni özlərinə böyük hesab etdiklərinə görə qazanarlar. Beləliklə də, hər iki yöndən Allahı qəzəbləndirmiş olarlar. Münafiq heç bir vəchlə seyid sayıla bilməz, əksinə, beləsi zəlil və alçaq kimsələrdir. Təəssüflər olsun ki, hazırki dövrdə hər yoldan keçənə, hətta kafirə belə seyid deyənlər vardır" (Şərh Sunən Əbu Davud).

[3] Bu hədisi Əbu Davud (2/311), Əhməd (5/346-347), İbnus-Sunni (Əməlul-Yovm vəl-Leylə, 385), Beyhəqi, (Şoəbul-İman, 2/58/2), Nueym ibn Həmmad (Zəvaiduz-Zuhd, 186) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

# ٣٢٦- بَابُ مَا يَقُولُ الرَّجُلُ إِذَا زُكِّيَ

## 326-cı fəsil. Adam tərif olunduğu zaman nə deməlidir

٧٦١- حَدَّثَنَا مَخْلَدُ بْنُ مَالِكٍ قَالَ: حَدَّثَنَا حَجَّاجُ بْنُ مُحَمَّدٍ قَالَ: أَخْبَرَنَا مُبَارَكُ بْنُ فَضَالَةَ، عَنْ بَكْرِ بْنِ عَبْدِ اللَّهِ الْمُزَنِيِّ، عَنْ عَدِيِّ بْنِ أَرْطَاةَ قَالَ: كَانَ الرَّجُلُ مِنْ أَصْحَابِ النَّبِيِّ ﷺ إِذَا زُكِّيَ قَالَ: ((اللَّهُمَّ لاَ تُؤَاخِذْنِي بِمَا يَقُولُونَ، وَاغْفِرْ لِي مَا لا يَعْلَمُونَ)).

**(761)** ........ Ədiy ibn Ərtah rəvayət edir ki, Peyğəmbərin ﷺ səhabələrindən biri[1] *həddən ziyadə* tərif olunduğu zaman belə deyərdi: "Allahım, onların bu sözünə görə məni qınama və bilmədikləri şeyləri[2] *mənə* bağışla."[3]

---

[1] İbn Əbu Şeybənin "Musənnəf" (36853) əsərindəki rəvayətdə "bu ümmətin öndə gedənləri"– deyilir.

[2] Burada "bilmədikləri şeylər" deyildikdə, dua edən adamın özünün etdiyi gizli günahlar nəzərdə tutulur.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir. Beyhəqinin "Şoəbul-İman" əsərində (4/228) bu duanın tam variantı rəvayət edilmişdir. Həmin rəvayətdə Əvzai demişdir: "Onlardan biri o birinin üzünə tərif etdikdə tərif olunan adam deyərdi:

(( اللَّهُمَّ لاَ تُؤَاخِذْنِي بِمَا يَقُولُونَ، وَاجْعَلْنِي خَيْراً مما يَظُنُّونَ، وَاغْفِرْ لِي مَا لا يَعْلَمُونَ ))

"Allahummə, lə tuaxizni bimə yəqulun, vəc-alni xayran mimmə yəzunnun, vəğ-firli mə lə yə'ləmun (Allahım, onların bu sözünə görə məni qınama, məni onların barəmdə zənn etdiklərindən də xeyirli et və onların bilmədikləri şeyləri *mənə* bağışla."

Səhabələr əməlisaleh olmaqlarına baxmayaraq, belə hallarda qəlblərinə riya girəcəyindən qorxardılar. İbn Əbu Muleykə demişdir: "Mən Peyğəmbərin ﷺ otuz səhabəsini görmüşəm. Onların hamısı münafiq olmaqdan qorxurdular" (Səhih əl-Buxari, İman Kitabı, 33-cü fəsil. Möminin özü də hiss etmədən əməlinin puç olmağından qorxması). Bu xüsusda, Həsən əl-Bəsri demişdir: "Mömin yaxşı işlər görməyi və *Allahdan* qorxmağı *özündə* cəm etmiş, münafiq isə pis işlər görməyi və arxayın olmağı *özündə* cəm etmişdir" (Təfsir İbn Kəsir, "əl-Muminun" surəsinin, 57-61-ci ayələrinin təfsiri).

٧٦٢- حَدَّثَنَا أَبُو عَاصِمٍ، عَنِ الأَوْزَاعِيِّ، عَنْ يَحْيَى بْنِ أَبِي كَثِيرٍ، عَنْ أَبِي قِلاَبَةَ، أَنَّ أَبَا عَبْدِ اللَّهِ قَالَ لِأَبِي مَسْعُودٍ، أَوْ أَبُو مَسْعُودٍ قَالَ لِأَبِي عَبْدِ اللَّهِ: مَا سَمِعْتَ النَّبِيَّ ﷺ فِي (زَعَمَ)؟ قَالَ: ((بِئْسَ مَطِيَّةُ الرَّجُلِ)).

**(762)** ........ Əbu Abdullah[1] ﷺ Əbu Məsuddan ﷺ və ya Əbu Məsud Əbu Abdullahdan: "İddia etmək[2] barəsində Peyğəmbərdən ﷺ nə eşitmisən"– deyə soruşdu. O belə cavab verdi: "(Bu haqda Peyğəmbər ﷺ demişdir:) "(Bu,) insan üçün necə də pis minikdir.[3]"[4]

٧٦٣- حَدَّثَنَا يَحْيَى بْنُ مُوسَى قَالَ: حَدَّثَنَا عُمَرُ بْنُ يُونُسَ الْيَمَامِيُّ قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ عَبْدِ الْعَزِيزِ، عَنْ يَحْيَى بْنِ أَبِي كَثِيرٍ، عَنْ أَبِي قِلاَبَةَ، عَنْ أَبِي الْمُهَلَّبِ أَنَّ عَبْدَ اللَّهِ بْنَ عَامِرٍ قَالَ: يَا أَبَا مَسْعُودٍ، مَا سَمِعْتَ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ فِي (زَعَمُوا)؟ قَالَ: سَمِعْتُهُ يَقُولُ: ((بِئْسَ مَطِيَّةُ الرَّجُلِ))، وَسَمِعْتُهُ يَقُولُ: ((لَعْنُ الْمُؤْمِنِ كَقَتْلِهِ)).

---

[1] Bu, Peyğəmbərin ﷺ məşhur səhabəsi Huzeyfə ibn Yəməndir ﷺ.

[2] Əslində, həqiqiliyi bilinməyən bir işə iddia deyilir. Bu kəlmənin mənası zənn sözünün mənasına yaxındır (Avnul-Məbud, 4321-ci hədisin şərhi). Peyğəmbər ﷺ əsassız iddia edən insanın yalançı olduğu barədə belə buyurmuşdur: "Hər eşitdiyini danışması kişiyə yalançı olması üçün kifayət edər" (Səhih Muslim, 7); əslində isə Allaha və Axirətə iman gətirmiş adam ya xeyir danışmalı, ya da susmalıdır.

[3] Xattabi demişdir: "Adam hər hansı bir şəhərə səfər etmək istədikdə miniyinə minir ki, bu minik onu istədiyi yerə aparıb çatdırsın. Peyğəmbər ﷺ də bu hədisdə, iddia edən kimsənin məqsədinə çatması üçün hər cür yalana əl atdığını bildirir" (Avnul-Məbud, 4321-ci hədisin şərhi). Beləsi haqlı-haqsız bir şeyin üstündə inad edərək onu başqalarına da qəbul etdirməyə çalışır.

[4] Bu hədisi Əbu Davud (4972), Əhməd (5/401), Təhavi (Muşkilul-Asar, 1/68) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "səhih" olduğunu demişdir.

**(763)** ........ Abdullah ibn Amir demişdir: (Mən Uqbədən[1] soruşdum): "Ey Əbu Məsud, (insanların əsassız) iddia etmələri barəsində Rəsulullahdan ﷺ nə eşitmisən?" O dedi: "Mən onun belə dediyini eşitmişəm: "(Bu,) insan üçün necə də pis minikdir." Həmçinin, onun belə dediyini də eşitmişəm: "Mömini lənətləmək onu öldürmək sayılır.[2]"[3]

---

[1] Əbu Məsud Uqbə ibn Amr ibn Sələbə əl-Bədri ؓ Peyğəmbərin ﷺ azyaşlı səhabələrindəndir.

[2] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu əlavənin "səhih li-ğeyrihi" olduğunu demişdir.

[3] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində (866) məhz bu rəvayətin isnadının "şəzz", hətta "munkər" olduğunu demişdir.

## ٣٢٧- بَابُ لا يَقُولُ لِشَيْءٍ لا يَعْلَمُهُ: ((اللَّهُ يَعْلَمُهُ))

## 327-ci fəsil. İnsan (yəqin) bilmədiyi bir şeyə: "Allah onu bilir" deməməlidir

٧٦٤- حَدَّثَنَا عَلِيُّ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا سُفْيَانُ قَالَ: قَالَ عَمْرٌو: عَنِ ابْنِ عَبَّاسٍ: لاَ يَقُولَنَّ أَحَدُكُمْ لِشَيْءٍ لاَ يَعْلَمُهُ: اللَّهُ يَعْلَمُهُ؛ وَاللَّهُ يَعْلَمُ غَيْرَ ذَلِكَ، فَيُعَلِّمَ اللَّهَ مَا لاَ يَعْلَمُ، فَذَاكَ عِنْدَ اللَّهِ عَظِيمٌ.

**(764)** ........ İbn Abbas ﷺ demişdir: "Sizdən biriniz bilmədiyi bir şeyə: "Allah onu bilir"– deməsin.[1] Allah bundan başqa şeyləri də bilir. Belə desə, sanki, Allaha bilmədiyini öyrətmiş olar. Bu isə, Allah yanında böyük günah hesab olunur."[2]

---

[1] Yəni baş verib-vermədiyindən yəqin xəbəri olmadığı bir işə yaxud mövcud olub-olmadığını yəqin bilmədiyi bir şeyə: "Allah onu bilir"– deməsin. Belə ki, o zaman bəzi adamlar bu sözü adət halına gətirib ucuz tuturdular, bəziləri də birisini inandırmaq məqsədilə and yerinə bu kəlməni işlədirdilər deyə, İbn Abbas ﷺ bu sözü deməyin böyük günahlardan olduğunu bildirmişdir. Çünki əgər adam yəqinbilmədiyi bir şey haqqında "filan şey filan cür olub, Allah onu bilir" desə və qəsd etdiyi şey onun iddia etdiyi kimi olmazsa, sanki Allaha bilmədiyini öyrətmiş olar. Bu da, böyük günahlardan sayılır. Birincisi, ona görə ki, o, bu sözü deməklə Allahı yanlış vəsf edir, sanki Onun elmində naqislik olduğunu – başqa cür desək, Allahın yəqin bildiyi bir şeyi, başqa cür bildiyini iddia edir. İkincisi də budur ki, o, Allaha yalandan iftira yaxır. Bu da, bu sözün olduqca təhlükəli bir söz olduğundan xəbər verir. Məsələn, ona: "and iç ki, filan şeyi sən etməmisən"– deyən adama, "Allah bilir ki, bunu mən etməmişəm"– deyir və beləliklə, Allaha iftira yaxır. İmam Nəvəvi bu mövzudan danışarkən demişdir: "Ən yaramaz sözlərdən biri də, bəzi insanların and içmək lazım gəldiyi zaman "vallahi" kəlməsinin yerinə, "Allah bilir ki, (filan şey) belə olmayıb" və ya "belə olub" və s. deməsidir. Belə deyirlər ki, and içib günah qazanmasınlar və yalan anda görə kəffarə verməsinlər. Əgər adam yəqin bildiyi bir məsələ barədə bu sözü deyərsə, bu onun üçün qəbahət sayılmaz. Yox əgər şəkk etdiyi bir iş barədə "Allah onu bilir" deyərsə, ən qəbih sözlərdən birini danışmış olar. Çünki o bunu deməklə Uca Allaha yalan isnad etmiş və özünün yəqin bilmədiyi bir şey barəsində Allahın bildiyini xəbər vermiş olar. Üstəlik, bu sözdə daha qəbih bir anlam vardır ki, bu da, həmin sözü deyən adamın Allahı, Ona yaraşmayan bir vəsflə vəsf etməsidir. Bununla o, Allahın həmin işi olduğu kimi yox, əksinə, başqa cür olduğunu bildiyini iddia edir. Və əgər o buna etiqad edərsə, kafir olmuş olar. Bundan aydın olur ki, bu söz olduqca təhlükəli bir sözdür. Odur ki, adam belə sözlərdən çəkinməlidir" (əl-Əzkar, 1/366-367).

[2] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٣٢٨- بَابُ قَوْسِ قُزَحٍ

## 328-ci fəsil. Quzəh[1] qurşağı

**٧٦٥-** حَدَّثَنَا الْحَسَنُ بْنُ عُمَرَ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَارِثِ، عَنْ عَلِيِّ بْنِ زَيْدٍ قَالَ: حَدَّثَنِي يُوسُفُ بْنُ مِهْرَانَ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: الْمَجَرَّةُ: بَابٌ مِنْ أَبْوَابِ السَّمَاءِ، وَأَمَّا قَوْسُ قُزَحٍ: فَأَمَانٌ مِنَ الْغَرَقِ بَعْدَ قَوْمِ نُوحٍ عَلَيْهِ السَّلَامُ.

**(765)** ........ İbn Abbas ﷺ demişdir: "Ağ yol[2] göy qapılarından biridir. Quzəh qurşağı isə Nuh aleyhissəlamın qövmündən sonra suda boğulmaqdan qoruyan mühafizəçidir."[3]

---

[1] Bəzi şərhçilər "Quzəh" kəlməsinin şeytanın adı olduğunu demiş və bunu uydurma bir hədislə əsaslandırmışlar. Həmin hədisdə Peyğəmbər ﷺ guya demişdir: "(Göy qurşağına) quzəh qurşağı deməyin, çünki quzəh şeytandır. Lakin deyin: "Allahın qurşağı. Bu, yer əhlini suda boğulmaqdan qoruyan mühafizəçidir" (Silsilətul-Əhadisid-Daifə, 872). Bəziləri də bunu Muzdəlifədəki dağa isnad etmişlər. Peyğəmbər ﷺ Vida həccində Muzdəlifədə ikən, səhər açıldıqda həmin dağın üstünə qalxmış və: "Bu, Quzəhdir..."– demişdir (Sunən Əbu Davud, 1935; Səhih əl-Cami, 6996).

[2] Ağ yol: aydınlıq gecələrdə göy üzündə işıq zolağı kimi görünən ulduzlar topası; buna süd yolu, kəhkəşan, hacılar yolu da deyirlər.

[3] Bu hədisin isnadında keçən Əli ibn Zeyd ibn Cud'an "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ٣٢٩- بَابُ الْمَجَرَّةِ

## 329-cu fəsil. Ağ yol[1]

٧٦٦- حَدَّثَنَا الْحُمَيْدِيُّ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنِ ابْنِ أَبِي حُسَيْنٍ وَغَيْرِهِ، عَنْ أَبِي الطُّفَيْلِ سَأَلَ ابْنُ الْكَوَّا عَلِيًّا عَنِ الْمَجَرَّةِ، قَالَ: هُوَ شَرَجُ السَّمَاءِ، وَمِنْهَا فُتِحَتِ السَّمَاءُ بِمَاءٍ مُنْهَمِرٍ.

**(766)** ........ Əbu Tufeyl[2] rəvayət etmişdir ki, İbn Kəvva, Əlidən Ağ yol barədə soruşmuş, o da, ona belə cavab vermişdir: "Bu, səma məcrasıdır.[3] Oradan göyün qapıları sel kimi axan bir yağışla açılır."[4]

٧٦٧- حَدَّثَنَا عَارِمٌ قَالَ: حَدَّثَنَا أَبُو عَوَانَةَ، عَنْ أَبِي بِشْرٍ، عَنْ سَعِيدِ بْنِ جُبَيْرٍ، عَنِ ابْنِ عَبَّاسٍ: الْقَوْسُ: أَمَانٌ لِأَهْلِ الأَرْضِ مِنَ الْغَرَقِ، وَالْمَجَرَّةُ: بَابُ السَّمَاءِ الَّذِي تَنْشَقُّ مِنْهُ.

**(767)** ........ İbn Abbas ﷺ demişdir: "Göy qurşağı[5] (yer sakinlərini) suda boğulmaqdan qoruyan mühafizəçidir. Ağ yol isə göy qapılarından biridir. (Elə bir qapı) ki, göy oradan yarılır."[6]

---

[1] 765-ci əsərin qeydlərinə bax.

[2] Əbu Tufeyl Amir ibn Vasilə ibn Abdullah əl-Leysi əl-Kinani ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Peyğəmbər ﷺ Mədinəyə hicrət etdikdən sonra dünyaya gəlmiş və mömin olduğu halda Vida həccində Peyğəmbəri ﷺ görmüşdür (Siyər Əlam ən-Nubələ, 97-ci tərcümeyi-hal).

[3] Məcra: suyun axdığı yataq, yol.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[5] Göy qurşağı: işığın sınması nəticəsində havadakı su damcılarında görünən optik hadisə.

[6] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٣٣٠- بَابُ مَنْ كَرِهَ أَنْ يُقَالَ: ((اللَّهُمَّ اجْعَلْنِي فِي مُسْتَقَرِّ رَحْمَتِكَ))

## 330-cu fəsil. "Allahım, məni Öz rəhmətinin qərar tutduğu yerə yerləşdir"[1]– deyilməsini bəyənməyən kimsə

[1] İbn Qeyyim ﷺ bu mövzudan danışarkən demişdir: "Uca Allah buyurur: **"Əgər insana Özümüzdən bir mərhəmət daddırsaq, sonra da ondan onu geri alsaq, o, naümid və nankor olar"** (Hud, 9). O, həmçinin, yağışı da rəhmət adlandırıb, buyurur: **"Küləkləri Öz mərhəməti önündə (yağışdan qabaq) müjdəçi olaraq göndərən – Odur"** (əl-Əraf, 57). Bu ayələrə əsasən demək olar ki, həm qədimdə, həm də hazırki dövrdə insanlar arasında yayılmış: "Allahım, bizi Öz rəhmətinin qərar tutduğu yerdə cəm et!" dua ilə Allaha xitab etmək caizdir. *İmam* Buxari özünün "əl-Ədəbul-Mufrad" əsərində sələflərdən bəzisinin belə dua etdiyini, habelə, belə dua etməyin bəyənilmədiyini və Allahın rəhmətinin qərar tutduğu yerin elə Allahın Özü olduğunu nəql etmişdir. Bu, rəhmət sifətə aid edildiyinə görə (yəni Allahın rəhmətinin elə Allahın Özünə aid olduğundan) belə dua etmək məkruh sayılır. Lakin bir çox hallarda adam bu duanı etdikdə Allahın rəhmətini yox, rəhmətinə aid olan məxluqat – Cənnəti qəsd edilir. Qeyd edək ki, belə dua etməyi məkruh sayanların olduqca dəqiq iradı vardır. Bu da odur ki, əgər rəhmət deyildikdə, Cənnət qəsd edilirsə, qərar tutulan bir yerin qərar tutulan bir yerə izafə edilməsi doğru məna vermir. Odur ki, "bizi Öz Cənnətindəki qərar tutulacaq yerdə cəm et" demək bəyənilmir. Çünki Cənnətin özü elə içində qərar tutulacaq bir yer hesab olunur. (Bu xüsusda,) Uca Allah buyurur: **"Ora nə gözəl qərar tutulacaq yer, necə də gözəl iqamətgahdır!"** (əl-Furqan, 76). Belə olduqda qərar tutulacaq yeri qərar tutulacaq yerə necə izafə etmək olar?! Elə bu səbəbdən də, dua edən adamın Cənnətdəki qərar tutulacaq yerdə qərar tutmaq diləməsi düzgün sayılmır. Buna diqqət yetirmək gərəkdir. Elə buna görə də, həmin əsərdə (Əbu Rəca) Allahın rəhmətinin qərar tutduğu yerin elə Allahın Özü olduğunu bildirmişdir. Lakin daha doğru rəy budur ki, hətta açıq-aşkar: "Bizi Öz Cənnətindəki qərar tutulacaq yerdə cəm et"– deyə dua etmək caizdir. Çünki qərar tutulacaq yer sözü geniş mənanı əhatə edir, rəhmətə aid edildiyi kimi, əzaba da aid edilir (bax: "Sad" surəsi, 60). Və əgər "qərar tutulacaq yer" sözü bu ikisindən birinə izafə edilirsə, doğru sayılar. Belə dua etməklə sanki "Bizi digər qərar tutulacaq yerdə (Cəhənnəmdə) yox, məhz Sənin rəhmətin sayılan qərar tutulacaq yerdə (Cənnətdə) cəm et!"– demiş olar (Bədaiul-Fəvaid, 2/409). Cənnətin Allahın rəhməti olduğuna dair 554-cü hədisə və onun qeydlərinə bax.

٧٦٨- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنِي أَبُو الْحَارِثِ الْكِرْمَانِيُّ قَالَ: سَمِعْتُ رَجُلًا قَالَ لِأَبِي رَجَاءٍ: أَقْرَأُ عَلَيْكَ السَّلَامَ، وَأَسْأَلُ اللَّهَ أَنْ يَجْمَعَ بَيْنِي وَبَيْنَكَ فِي مُسْتَقَرِّ رَحْمَتِهِ، قَالَ: وَهَلْ يَسْتَطِيعُ أَحَدٌ ذَلِكَ؟ قَالَ: فَمَا مُسْتَقَرُّ رَحْمَتِهِ؟ قَالَ: الْجَنَّةُ، قَالَ: لَمْ تُصِبْ، قَالَ: فَمَا مُسْتَقَرُّ رَحْمَتِهِ؟ قَالَ: قُلْتُ: رَبُّ الْعَالَمِينَ.

**(768)** ........ Əbul-Haris əl-Kirmani demişdir: "(Bir gün) bir nəfər Əbu Rəcaya[1]: "Sənə salam olsun! Allahdan istəyirəm ki, bizi Öz rəhmətinin qərar tutduğu yerdə cəm etsin"– dedi. Əbu Rəca soruşdu: "Kimin buna gücü çatar? (Heç bilirsən) Onun rəhmətinin olduğu yer nədir?" Adam: "Cənnətdir"– deyə cavab verdi. Əbu Rəca dedi: "Düz demədin." Adam soruşdu: "Bəs, onda, Onun rəhmətinin olduğu yer nədir?" Əbu Rəca dedi: "Aləmlərin Rəbbidir."[2]

---

[1] Əbu Rəca İmran ibn Milhan əl-Utaridi ət-Təmimi ﷺ. Əbu Rəca səhabə olmasa da, muxədrəmlərə – Peyğəmbərin ﷺ zamanında İslamı qəbul etmiş, lakin onu görməmiş insanlara aiddir (Siyər Əlam ən-Nubələ, 93-cü tərcümeyi-hal).

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٣٣١- بَابُ لا تَسُبُّوا الدَّهْرَ

## 331-ci fəsil. Dəhri söyməyin[1]

٧٦٩- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ أَبِي الزِّنَادِ، عَنِ الأَعْرَجِ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ النَّبِيَّ ﷺ قَالَ: ((لاَ يَقُولَنَّ أَحَدُكُمْ: يَا خَيْبَةَ الدَّهْرِ، فَإِنَّ اللَّهَ هُوَ الدَّهْرُ)).

**(769)** ........ Əbu Hureyrə ﷛ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Sizlərdən heç biriniz: "Zəhrimara qalmış dəhr!"[2]– deməsin. Çünki Allah Özü dəhrdir.[3]"[4]

٧٧٠- حَدَّثَنَا مُحَمَّدُ بْنُ عُبَيْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا حَاتِمُ بْنُ إِسْمَاعِيلَ، عَنْ أَبِي بَكْرِ بْنِ يَحْيَى الأَنْصَارِيِّ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((لاَ يَقُلْ أَحَدُكُمْ: يَا خَيْبَةَ الدَّهْرِ، قَالَ اللَّهُ

---

[1] Dəhr: zaman, dövran deməkdir. Zamanı söymək deyildikdə onu pisləmək, onun xeyirsiz olduğunu iddia etmək və s. buna bənzər nalayiq sözlər demək nəzərdə tutulur.

[2] Bu hədisdə təkcə bu sözü deməyin qadağan edildiyi nəzərdə tutulmur. Həmçinin, zamana aid olan hər bir nalayiq sözlər, məsələn, "Allah kəssin bu zamanı", "nə pis vaxtdır", "nə xeyirsiz gündür" və s. buna bənzər sözlər demək də qadağandır.

[3] İbn Teymiyyə ﷬ demişdir: "Dəhr zamandır. Zamanı söyən adam, əslində, müsibəti onun başına gətirəni qəsd edir və beləliklə də, bu söyüşü Allaha aid etmiş olur. Çünki həqiqətdə bu müsibəti onun başına gətirən Allahdır. Deməli: "Zaman Allahdır"– dedikdə, zamana aid etdiyi hər bir şeyin Allaha aidliyi qəsd edilir" (Sarimul Məslul, 3/922). Bu xüsusda, varid olmuş digər hədisdə Peyğəmbər ﷺ demişdir: "Qüdrətli və əzəmətli Allah buyurur: "Adəm övladı dəhri söyməklə Mənə əziyyət verir. *Çünki* dəhr Mənəm! Hər şey Mənim Əlimdədir, gecəni gündüzə, gündüzü də gecəyə çevirən Mənəm!" (Səhih əl-Buxari, 4826). Təbərinin təfsirində bu hədisin əvvəli "səhih" isnadla belə rəvayət edilmişdir: "Cahiliyyət dövründə insanlar: "Bizi, gecə və gündüz həlak edir! Bizi həlak edən də, öldürən də, diriIdən də odur!"– deyərdilər." Allah da Öz Kitabında (əl-Casiyə, 24) belə buyurdu: "Onlar dedilər: ***"Həyat* ancaq bizim dünya həyatımızdır. *Kimimiz* ölür, *kimimiz də* doğulur. Bizi öldürən ancaq zamandır." Bu haqda onların heç bir biliyi yoxdur. Onlar ancaq zənnə qapılırlar"**– onlar dəhri (yəni zamanı) söyürlər..."

[4] Bu hədisi Muslim (7/45) və Əhməd (2/394) rəvayət etmişdir.

عَزَّ وَجَلَّ: أَنَا الدَّهْرُ، أُرْسِلُ اللَّيْلَ وَالنَّهَارَ، فَإِذَا شِئْتُ قَبَضْتُهُمَا. وَلاَ يَقُولَنَّ لِلْعِنَبِ: الْكَرْمَ، فَإِنَّ الْكَرْمَ الرَّجُلُ الْمُسْلِمُ)).

**(770)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Sizdən heç biriniz: "Zəhrimara qalmış dəhr!"– deməsin. (Çünki) Allah ﷻ buyurur: "Dəhr Mənəm.[1] Gecəni və gündüzü göndərən Mənəm. İstəsəm, onları tutub saxlayaram."

(Peyğəmbər ﷺ davam edib dedi: "Sizdən heç biriniz) üzümə kərm deməsin. Çünki kərm, müsəlman adama deyilir.[2]"[3]

---

[1] Burada Allahın "Dəhr Mənəm" deməsi heç də dəhrin, Allahın adlarından biri olması demək deyildir. Buna dəlil budur ki, Allahın adlarının hamısı gözəldir. Allahın adlarının gözəl olması da o deməkdir ki, bu adlardan hər biri Onun kamil sifətinə dəlalət edir. Məsələn, "əs-Səmi (Eşidən)" Allahın hər şeyi eşitdiyinə, "əl-Bəsir (Görən)" Allahın hər şeyi gördüyünə, "əl-Alim (Bilən)" Allahın hər şeyi bildiyinə dəlalət edir. Və əgər kimsə "Dəhr" Allahın adıdır desə, ona: "Elə isə, göstər görək bu adın dəlalət etdiyi sifət nədir?"– deyə etiraz edilməlidir. Bu hədisdə dəhr sözünün Allaha izafə edilməsi Onun zamanı idarə etməsi, istədiyi vaxt onu çevirməsi deməkdir.

[2] Burada üzümə "kərm" deyildikdə, onun çox faydalı olması nəzərdə tutulur. Peyğəmbərin ﷺ: "heç biriniz üzümə kərm deməsin"– söyləməsi, heç də üzüm meyvəsinin faydasız olduğuna dəlalət etmir. Sadəcə olaraq, müsəlmanın daha kərimli, onun kərəm və səxavət, lütf və ehsan sahibi olduğuna dəlalət edir. Bu, eyni ilə Peyğəmbərin ﷺ: "*Hamını* yıxmaq güclü olmaq demək deyildir. Güclü o kəsdir ki, qəzəbləndikdə, özünü ələ ala bilsin" sözünə bənzəyir. Yəni bu sözdən elə başa düşülməməlidir ki, fiziki cəhətdən güclü olan adam güclü adam sayılmır, əksinə, o da, güclü adam sayılır, lakin qəzəbini boğan kimsə daha güclü hesab olunur.

[3] Bu hədisi Muslim (7/45) və Əhməd (2/138, 272, 275) rəvayət etmişdir.

## ٣٣٢- بَابُ لا يُحِدُّ الرَّجُلُ إِلَى أَخِيهِ النَّظَرَ إِذَا وَلَّى

## 332-ci fəsil. Adamın qardaşı dönüb getdiyi zaman o, ona kəskin baxışla baxmamalıdır

٧٧١- حَدَّثَنَا بِشْرُ بْنُ مُحَمَّدٍ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ زَيْدٍ، عَنْ لَيْثٍ، عَنْ مُجَاهِدٍ قَالَ: يُكْرَهُ أَنْ يُحِدَّ الرَّجُلُ إِلَى أَخِيهِ النَّظَرَ، أَوْ يُتْبِعَهُ بَصَرَهُ إِذَا وَلَّى، أَوْ يَسْأَلَهُ: مِنْ أَيْنَ جِئْتَ، وَأَيْنَ تَذْهَبُ؟

**(771)** ........ Leys rəvayət edir ki, Mucahid demişdir: "Adamın (mömin) qardaşı dönüb getdiyi zaman ona kəskin baxışla baxması və ya arxasınca gözünü ona zilləməsi, yaxud ondan: "Haradan gəlib hara gedirsən?" soruşması bəyənilmir."[1]

---

[1] Bu hədisin isnadında keçən Leys ibn Əbu Suleym "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ٣٣٣- بَابُ قَوْلِ الرَّجُلِ لِلرَّجُلِ: ((وَيْلَكَ))

## 333-cü fəsil. Bir adamın başqa birisinə: "Vay sənin halına!"– deməsi[1]

٧٧٢- حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا هَمَّامٌ، عَنْ قَتَادَةَ، عَنْ أَنَسٍ، أَنَّ النَّبِيَّ ﷺ رَأَى رَجُلًا يَسُوقُ بَدَنَةً، فَقَالَ: ((ارْكَبْهَا))، فَقَالَ: إِنَّهَا بَدَنَةٌ، قَالَ: ((ارْكَبْهَا))، قَالَ: إِنَّهَا بَدَنَةٌ، قَالَ: ((ارْكَبْهَا))، قَالَ: فَإِنَّهَا بَدَنَةٌ، قَالَ: ((ارْكَبْهَا، وَيْلَكَ)).

**(772)** ........ Ənəs ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ bir nəfərin qurbanlıq dəvəni sürüb apardığını görüb *ona*: "Dəvəyə min!"– deyə buyurdu. Adam: "Axı bu, qurbanlıq dəvədir"– dedi. Peyğəmbər ﷺ yenə: "Dəvəyə min!"– deyə buyurdu. Adam: "Axı bu, qurbanlıq dəvədir"– dedi. Peyğəmbər ﷺ yenə: "Dəvəyə min!"– deyə buyurdu. Adam yenə: "Axı bu, qurbanlıq dəvədir"– dedi. Peyğəmbər ﷺ də *ona*: "Vay sənin halına, dəvəyə min!"[2]– deyə buyurdu."[3]

٧٧٣- حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ الْمُنْذِرِ قَالَ: حَدَّثَنَا أَبُو عَلْقَمَةَ عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدِ بْنِ عَبْدِ اللَّهِ بْنِ أَبِي فَرْوَةَ، حَدَّثَنِي الْمِسْوَرُ بْنُ رِفَاعَةَ الْقُرَظِيُّ قَالَ: سَمِعْتُ ابْنَ عَبَّاسٍ، وَرَجُلٌ يَسْأَلُهُ، فَقَالَ: إِنِّي أَكَلْتُ خُبْزًا وَلَحْمًا، فَهَلْ أَتَوَضَّأُ؟ فَقَالَ: وَيْحَكَ، أَتَتَوَضَّأُ مِنَ الطَّيِّبَاتِ؟

---

[1] İmam Buxari bu fəslə belə ünvan verməklə bildirmək istəyir ki, lazım gəldikdə və məsləhət bildikdə bu, "vay sənin halına" ifadəsini işlətmək caizdir. Burada "vay" deyildikdə, həqiqi mənada vay, yəni əzab və s. yox, sadəcə, xətanı bəyan etmək qəsd edilir.

[2] Bu, dəlildir ki, ehtiyac olduqda, qurbanlıq dəvəyə minmək caizdir. Bir şərtlə ki, bu halda ona zərər verilməsin (Şərh Sunən Əbu Davud). Bundan o da aydın olur ki, birisini yanlış fikirdən və ya əməldən çəkindirmək üçün, həqiqi mənanı qəsd etmədən, belə ifadələr işlətmək olar.

[3] Bu hədisi Buxari (1689), Muslim (1322), Əbu Davud (1760) və Əhməd (2/245, 487) rəvayət etmişdir.

**(773)** ........ Rəvayət edilir ki,[1] bir nəfər İbn Abbasdan: "Mən çörək və ət yemişəm. Buna görə dəstəmaz almalıyammı?"– deyə soruşdu. İbn Abbas dedi: "Vay sənin halına! Məgər, pak şeylərdən dolayı dəstəmaz alınır?![2]"

**٧٧٤–** حَدَّثَنَا عَلِيٌّ قَالَ: حَدَّثَنَا سُفْيَانُ قَالَ: حَدَّثَنِي أَبُو الزُّبَيْرِ، عَنْ جَابِرٍ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ يَوْمَ حُنَيْنٍ بِالْجِعْرَانَةِ، وَالتِّبْرُ فِي حِجْرِ بِلَالٍ، وَهُوَ يَقْسِمُ، فَجَاءَهُ رَجُلٌ فَقَالَ: اعْدِلْ، فَإِنَّكَ لَا تَعْدِلُ، فَقَالَ: ((وَيْلَكَ، فَمَنْ يَعْدِلُ إِذَا لَمْ أَعْدِلُ؟)) قَالَ عُمَرُ: دَعْنِي يَا رَسُولَ اللَّهِ، أَضْرِبُ عُنُقَ هَذَا الْمُنَافِقِ، فَقَالَ: ((إِنَّ هَذَا مَعَ أَصْحَابٍ لَهُ، أَوْ: فِي أَصْحَابٍ لَهُ، يَقْرَؤُونَ الْقُرْآنَ، لَا يُجَاوِزُ تَرَاقِيَهُمْ، يَمْرُقُونَ مِنَ الدِّينِ كَمَا يَمْرُقُ السَّهْمُ مِنَ الرَّمِيَّةِ)).

---

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[2] Bu xüsusda, rəvayət edilmiş hədisdə Ummu Sələmə ﵂ demişdir: "Bir dəfə mən Rəsulullahın ﷺ qabağına bir parça qızardılmış ət qoydum. O, ətdən yedikdən sonra qalxıb dəstəmaz almadan namaz qıldı" (Sunən ət-Tirmizi, 1829; Şəmailun-Nəbi, 164). Bu, dəlildir ki, odda bişmiş yeməyi yemək dəstəmazı pozan amillərdən deyildir. O ki qaldı, "Odda bişmiş şeylər *yedikdən sonra* dəstəmaz alın" hədisinə, bu hədisin hökmü ləğv edilmişdir. Bu da, alimlərin əksəriyyətinin rəyidir. Səhabələrdən Əbu Bəkr əs-Siddiq, Ömər ibn Xattab, Osman ibn Əffan, Əli ibn Əbu Talib, Abdullah ibn Məsud, Əbu Dərda, İbn Abbas, Abdullah ibn Ömər, Ənəs ibn Malik, Cabir ibn Səmurə, Zeyd ibn Sabit, Əbu Musa, Əbu Hureyrə, Ubeyy ibn Kəb, Əbu Talhə Amir ibn Rəbi, Əbu Umamə, Aişə (Allah onların hamısından razı olsun!), habelə, tabiinlərin əksəriyyəti, həmçinin, Əbu Hənifə, Malik, Şafii, Əhməd, İshaq ibn Rahuyə, Yəhya ibn Yəhya, Əbu Sövr, Əbu Xeysəmə (Allah onların hamısına rəhmət etsin!) bu rəyi dəstəkləmişlər (Nəvəvinin Şərhi). Yalnız dəvə əti istisnadır. Çünki bu xüsusda, "səhih" hədis varid olmuşdur. Cabir ibn Səmura ﵁ rəvayət etmişdir ki, bir nəfər Peyğəmbərdən ﷺ: "Qoyun əti yedikdən sonra dəstəmaz almalıyammı?"– deyə soruşdu. Peyğəmbər ﷺ: "İstərsən al, istərsən alma"– deyə buyurdu. Adam *yenə* soruşdu: "Bəs, dəvə əti yedikdən sonra necə, dəstəmaz almalıyammı?" Peyğəmbər ﷺ: "Bəli, dəvə ətindən sonra dəstəmaz almalısan"– deyə buyurdu..." (Səhih Muslim, 802).

ثُمَّ قَالَ سُفْيَانُ: قَالَ أَبُو الزُّبَيْرِ: سَمِعْتُهُ مِنْ جَابِرٍ. قُلْتُ لِسُفْيَانَ: رَوَاهُ قُرَّةُ، عَنْ عَمْرٍو، عَنْ جَابِرٍ

قَالَ: لاَ أَحْفَظُهُ عَنْ عَمْرٍو، وَإِنَّمَا حَدَّثَنَاهُ أَبُو الزُّبَيْرِ، عَنْ جَابِرٍ.

**(774)** ........ Cabir ﷺ demişdir: "Rəsulullah ﷺ Huneyn günü (döyüşdən sonra) Ciranədə[1] ikən qızıl külçələr[2] Bilalın[3] qucağında idi. Peyğəmbər ﷺ onları bölüşdürərkən bir nəfər onun yanına gəlib: "Ədalətli ol! Həqiqətən, sən ədalətsizlik edirsən"– dedi.[4] Peyğəmbər ﷺ buyurdu: "Vay sənin halına! Mən ədalətli olmayandan sonra kim ədalətli ola bilər." Ömər dedi: "Ya Rəsulullah, burax, bu münafiqin boynunu vurum." Peyğəmbər ﷺ buyurdu:[5] "Bu adam dostları[6] ilə bərabər Quran oxuyur, lakin (oxuduqları) kör-

---

[1] 757-ci hədisin qeydlərinə bax.

[2] Burada söhbət Huneyn döyüşündən əldə edilmiş qənimətlərdən gedir.

[3] Əbu Abdullah Bilal ibn Rəbah əl-Həbəşi ﷺ Peyğəmbərin ﷺ müəzzini, habelə, İslamı ilk əvvəl qəbul etmiş və bu yolda işgəncələrə məruz qalmış səhabələrindəndir. Hicrətin 20-ci ilində Şamda vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 76-cı tərcümeyi-hal).

[4] Digər rəvayətdə deyilir ki, bu adam: "Vallahi ki, bu bölgüdə ədalətsizliyə yol verilmişdir və bu bölgü Allahın Üzünü diləmək məqsədilə həyata keçirilməmişdir"– demiş və səhabələr onun bu sözünü Peyğəmbərə ﷺ xəbər verdikdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Allah və Onun Rəsulu ədalətli olmasa, kim ədalətli ola bilər? Allah Musaya rəhmət eləsin! Ona bundan da artıq əziyyət verilmişdir, lakin o səbir etmişdir" (Səhih əl-Buxari, 3150).

[5] İmam Muslimin öz "Səhih"ində (2496) nəql etdiyi hədisdə deyilir ki, Peyğəmbər ﷺ Ömərə ﷺ demişdir: "(Belə davranmaqdan) Allaha sığınıram! Yoxsa camaat deyəcək ki, mən öz səhabələrimi öldürürəm."

[6] Peyğəmbər ﷺ burada xavariclər qəsd edir (8-ci, 369-cu və 474-cü hədislərin qeydlərinə bax). Hədislərin birində Peyğəmbər ﷺ belə insanların bu ümmət üçün ən təhlükəli insanlardan olduqlarını xəbər verib demişdir: "Sizin üçün ən çox qorxduğum şey odur ki, birisi olduqca gözəl Quran oxuyacaq və İslam dininə dayaq olduğunu göstərəcək. Sonra *ox ovunu dəlib keçdiyi kimi* bu dindən sürüşüb çıxacaq, onu arxasına atacaq, qonşusunun üstünə qılınc çəkəcək və *zənnə qapılaraq,* onun müşrik olduğunu iddia edəcək." Səhabə

pücük sümüklərindən[1] o yana keçmir.[2] Ox ovu dəlib keçdiyi kimi, onlar da dindən çıxacaqlar."[3]

(Əli[4] demişdir:) "Sufyan rəvayət etmişdir ki, Əbu Zubeyr demişdir: "Mən bu hədisi Cabirdən ﵁ eşitmişəm." Mən Sufyana dedim: "Bu hədisi Qurra Amrdan, o da, Cabirdən ﵁ rəvayət etmişdir." Sufyan dedi: "Mən Amrın bu hədisi rəvayət etdiyini bilmirəm. Əbu Zubeyr bu hədisi bizə Cabirdən ﵁ rəvayət etmişdir."

**٧٧٥-** حَدَّثَنَا سَهْلُ بْنُ بَكَّارٍ قَالَ: حَدَّثَنَا الأَسْوَدُ بْنُ شَيْبَانَ، عَنْ خَالِدِ بْنِ سُمَيْرٍ، عَنْ بَشِيرِ ابْنِ نَهِيكٍ، عَنْ بَشِيرٍ، وَكَانَ اسْمُهُ زَحْمَ بْنَ مَعْبَدٍ، فَهَاجَرَ إِلَى النَّبِيِّ ﷺ، فَقَالَ: ((مَا اسْمُكَ؟)) قَالَ: زَحْمٌ، قَالَ: ((بَلْ أَنْتَ بَشِيرٌ))، قَالَ: بَيْنَمَا أَنَا أَمْشِي مَعَ رَسُولِ اللَّهِ ﷺ إِذْ مَرَّ بِقُبُورِ الْمُشْرِكِينَ فَقَالَ: ((لَقَدْ سَبَقَ هَؤُلاَءِ خَيْرًا كَثِيرًا)) ثَلاَثًا، فَمَرَّ بِقُبُورِ الْمُسْلِمِينَ فَقَالَ: ((لَقَدْ أَدْرَكَ هَؤُلاَءِ خَيْرًا

---

soruşdu: "Ey Allahın peyğəmbəri! Onlardan hansı biri müşrik olmağa daha yaxındır, ittiham edənmi, yoxsa ittiham olunanmı?" Peyğəmbər ﷺ buyurdu: "İttiham edən kəs (müşrik sayılmağa daha yaxındır)" (Səhih İbn Hibban, 81; Silsilətul-Əhadisis-Səhihə, 3201).

[1] Körpücük: döş sümüyü ilə kürəyi birləşdirən sümük.

[2] Digər hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: "Vaxt gələcək sizin aranızdan elə insanlar meydana çıxacaq ki, siz onların namazları yanında öz namazlarınızı, orucları yanında öz oruclarınızı, digər əməlləri yanında öz əməllərinizi heç nə hesab edəcəksiniz (yəni onlar o qədər çox ibadət edəcəklər ki, siz buna baxıb özünüzün onlara nisbətdə az ibadət etdiyinizi güman edəcəksiniz). Onlar Quran oxuyacaqlar, *amma* oxuduqları *ayələr* xirtdəklərindən o yana keçməyəcəkdir. Ox şikarı dəlib keçdiyi kimi onlar da İslamdan çıxacaqlar. *Necə ki, oxu atan adam* oxun ucuna baxır, lakin heç bir şey görmür, oxun gövdəsinə baxır, yenə də heç bir şey görmür, oxun ləlÉkli tərəfinə baxır, yenə də heç bir şey görmür, axırda oxun lap arxasına baxır və (oxun şikara dəyib-dəymədiyindən) şübhələnir" (Səhih əl-Buxari, 5058).

[3] Bu hədisi Buxari (3150) və Muslim (2496) rəvayət etmişdir.

[4] Bu, Əli Buxarinin şeyxidir.

كَثِيرًا)) ثَلاثًا، فَحَانَتْ مِنَ النَّبِيِّ ﷺ نَظْرَةٌ، فَرَأَى رَجُلًا يَمْشِي فِي الْقُبُورِ، وَعَلَيْهِ نَعْلانِ، فَقَالَ: ((يَا صَاحِبَ السِّبْتِيَّتَيْنِ، أَلْقِ سِبْتِيَّتَيْكَ))، فَنَظَرَ الرَّجُلُ، فَلَمَّا رَأَى النَّبِيَّ ﷺ خَلَعَ نَعْلَيْهِ فَرَمَى بِهِمَا.

**(775)** ........ Bəşir ibn Nəhik rəvayət etmişdir ki, əvvəllər adı Zəhm ibn Mə'bəd olmuş Bəşir ﷺ Peyğəmbərin ﷺ yanına hicrət etdiyi zaman Peyğəmbər ﷺ (ondan):"Adın nədir?"– deyə soruşmuş, o: "Zəhmdir"– deyə cavab vermiş, Peyğəmbər ﷺ də (onun adını dəyişdirib) belə buyurmuşdu: "Xeyr, sən Bəşirsən!"[1]

(Bəşir ibn Mə'bəd dedi): "Bir dəfə mən Peyğəmbərlə ﷺ yol gedərkən, o, müşriklərin qəbirlərinin yanından keçdi və üç dəfə: "Bunlar çox xeyirdən məhrum olmuşlar"[2]– dedi. Sonra möminlərin qəbirlərinin yanından keçdi və üç dəfə: "Bunlar çox xeyirə nail olmuşlar"[3]– dedi. Sonra o, ətrafa nəzər saldı və qəbirlərin arası ilə gedən bir adam gördü. Onun ayağında ayaqqabı var idi. Peyğəmbər ﷺ dedi: "Ey ayaqqabı sahibi,[4] ayaqqabılarını çı-

---

[1] "Zəhm" çətinləşdirən, sıxışdıran, "Bəşir" isə müjdə verən deməkdir. Peyğəmbərin ﷺ onun adını dəyişdirməsi dəlildir ki, belə adları dəyişdirmək gərəkdir (814-cü, 816-cı, 817-ci, 820-ci, 821-ci, 822-ci, 824-cü, 825-ci, 826-cı, 829-cu və 841-ci hədislərə bax).

[2] Bu, dəlildir ki, müşrik adam heç bir xeyir əldə etməyəcək və etdikləri əməllərin hamısı puç olub gedəcək. Bu xüsusda, Uca Allah buyurur: **"Əgər *Ona* şərik qoşsaydılar, əlbəttə, etdikləri əməllər puç olardı"** (əl-Ənam, 88); O, həmçinin, buyurur: **"Sizlərdən hər kim dinindən dönüb kafir olaraq ölsə, onun əməlləri dünyada və axirətdə puça çıxar. Onlar Od sakinləridirlər və orada əbədi qalacaqlar"** (əl-Bəqərə, 217).

[3] Bu xüsusda, Uca Allah buyurur: **"Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq"** (ən-Nəhl, 97).

[4] Hərçənd, bu hədisdə fəsilin ünvanına dəlalət edən ləfz varid olmamışdır, lakin İmam Əbu Davudun "Sunən" əsərində (3230) nəql edilmiş bu hədisdə Peyğəmdərin ﷺ: "Ey ayaqqabı sahibi, vay sənin halına, ayaqqabılarını çıxart!"– dediyi rəvayət edilmişdir.

xart!"[1] Adam (bizə tərəf) baxıb, Peyğəmbəri ﷺ gördükdə, ayaqqabılarını çıxardıb kənara atdı."[2]

Və ola bilsin ki, bu kəlmə "əl-Ədəbul-Mufrad" kitabını nəsx edənlərin nəzərindən qaçmışdır. Daha doğrusunu Allah bilir.

[1] Bu, ayaqqabıyla qəbirlər arasında gəzməyin qadağan olunmasına dəlalət edir. Yalnız adamın sağlamlığına xətər toxunduracaq zəruri halda – məsələn, yerdə tikan və s. olarsa, yaxud yağışlı soyuq havada və s. buna bənzər hallarda ayaqqabıyla qəbirlərin arasından keçmək caizdir.

[2] Bu hədisi Əbu Davud (3230) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ٣٣٤– بَابُ الْبِنَاءِ

## 334-cü fəsil. Tikililər[1]

٧٧٦– حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ الْمُنْذِرِ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ أَبِي فُدَيْكٍ، عَنْ مُحَمَّدِ بْنِ هِلَالٍ، أَنَّهُ رَأَى حُجَرَ أَزْوَاجِ النَّبِيِّ ﷺ مِنْ جَرِيدٍ مَسْتُورَةً بِمُسُوحِ الشَّعْرِ، فَسَأَلْتُهُ عَنْ بَيْتِ عَائِشَةَ، فَقَالَ: كَانَ بَابُهُ مِنْ وِجْهَةِ الشَّامِ، فَقُلْتُ: مِصْرَاعًا كَانَ أَوْ مِصْرَاعَيْنِ؟ قَالَ: كَانَ بَابًا وَاحِدًا، قُلْتُ: مِنْ أَيِّ شَيْءٍ كَانَ؟ قَالَ: مِنْ عَرْعَرٍ أَوْ سَاجٍ.

**(776)** ........ Muhəmməd ibn Əbu Fudeyk demişdir:[2] "Muhəmməd ibn Hilal Peyğəmbərin ﷺ zövcələrinin hücrələrini[3] görmüşdü. Hücrənin divarı xurma ağacının budaqlarından hörülmüş, çöl tərəfdən də içinə *heyvan* tükü qatışdırılmış palçıqla suvanmışdı. Mən ondan Aişənin evi barədə soruşdum. O, dedi: "Evin qapısı Şama tərəf[4] açılırdı."[5] Mən soruşdum: "Qapı bir

---

[1] İmam Buxarinin fəslə belə ünvan verməsindən və bu fəsildə varid etdiyi hədislərdən tikililərin həddən ziyadə böyük tikilməsinin və ifrat dərəcədə bəzədilməsinin, beləliklə, də israfa yol verilməsinin şəriətə zidd olduğu aydın olur.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[3] 450-ci hədisin qeydlərinə bax.

[4] 451-ci hədisin şərhində Davud ibn Qeys demişdir: "Mən Aişənin *evinin* qapısında durdum və gördüm ki, bu qapı günbatan tərəfə açılır." Bu iki rəvayəti cəm edib demək olar ki, Aişənin رضي الله عنها hücrəsinin iki qapısı var imiş və bu qapılardan biri günbatan tərəfə, digəri isə Şama tərəf açılırmış. Bu deyilənləri aşağıdakı hədislə sübuta yetirmək olar:

Rəsulullahın ﷺ cənazə namazında iştirak etmiş Bəhz رضي الله عنه demişdir: "Səhabələr (Əbu Bəkrdən) Rəsulullahın ﷺ cənazə namazını necə qılaq"– deyə soruşduqda o dedi: "Dəstə-dəstə içəri daxil olub (bu namazı qılın). Beləliklə, onlar dəstə-dəstə bir qapıdan içəri daxil olub cənazə namazını qılır, sonra da o biri qapıdan bayıra çıxırdılar" (Musnəd Əhməd, 5/811; Şueyb əl-Arnaut bu hədisin isnadının "səhih" olduğunu demişdir).

[5] 451-ci hədisin qeydlərinə bax.

lay idi, ya iki lay?" O: "Bir lay idi"– dedi. Mən soruşdum: "Qapı nədən düzəldilmişdi?" O: "Ardıc[1] yaxud qarağac[2] ağacından düzəldilmişdi"– dedi."

٧٧٧– حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ الْمُنْذِرِ قَالَ: حَدَّثَنَا ابْنُ أَبِي فُدَيْكٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ أَبِي يَحْيَى، عَنْ سَعِيدِ بْنِ أَبِي هِنْدَ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((لاَ تَقُومُ السَّاعَةُ حَتَّى يَبْنِيَ النَّاسُ بُيُوتًا يُوشُونَهَا وَشْيَ الْمَرَاحِيلِ)).

قَالَ إِبْرَاهِيمُ : يَعْنِي الثِّيَابَ الْمُخَطَّطَةَ.

**(777)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "İnsanlar evlər tikib, onları bəzəkli qumaşlara oxşatmayınca,[3] Qiyamət qopmayacaq."[4]

İbrahim demişdir: "Qumaş – üstündə cizgilər olan libasdır."

---

[1] Ardıc: sərvkimilər fəsiləsindən iynəyarpaqlı bitki cinsi olub, dikduran və ya yerə yatan həmişəyaşıl ağac və ya koldur.

[2] Qarağac: meşə zonalarında təsadüf edilən oduncağı bərk, qol-budaqlı böyük ağac.

[3] Burada evlərin istər çöl tərəfdən, istərsə də içəridən üzərinə naxışlar vurulmuş daşlarla, xalçalarla, divar kağızlarıyla və s. bəzək əşyalarıyla bəzədilməsi qəsd edilir.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٣٣٥- بَابُ قَوْلِ الرَّجُلِ: ((لا وَأَبِيكَ))

## 335-ci fəsil. Adamın: "Atan haqqı!"– deməsi

٧٧٨-حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلامٍ قَالَ: أَخْبَرَنَا مُحَمَّدُ بْنُ فُضَيْلِ بْنِ غَزْوَانَ، عَنْ عُمَارَةَ، عَنْ أَبِي زُرْعَةَ، عَنْ أَبِي هُرَيْرَةَ: جَاءَ رَجُلٌ إِلَى رَسُولِ اللَّهِ ﷺ فَقَالَ: يَا رَسُولَ اللَّهِ، أَيُّ الصَّدَقَةِ أَفْضَلُ أَجْرًا؟ قَالَ: ((أَمَا وَأَبِيكَ لَتُنَبَّأَنَّهُ: أَنْ تَصَدَّقَ وَأَنْتَ صَحِيحٌ شَحِيحٌ تَخْشَى الْفَقْرَ، وَتَأْمُلُ الْغِنَى، وَلاَ تُمْهِلْ حَتَّى إِذَا بَلَغَتِ الْحُلْقُومَ قُلْتَ: لِفُلاَنٍ كَذَا، وَلِفُلاَنٍ كَذَا، وَقَدْ كَانَ لِفلانٍ)).

**(778)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah, savabı ən böyük olan sədəqə hansıdır?" Peyğəmbər ﷺ buyurdu: "Atan haqqı, bu haqda sənə xəbər veriləcək. Bu, sənin sağlam[1] və xəsis olduğun, kasıb olmaqdan ehtiyat etdiyin və varlanacağına ümid bəslədiyin halda verdiyin sədəqədir. Bir də ki, sədəqə verməyi, can boğaza yetişən vaxta, özün də "filankəsə bu qədər, filankəsə də bu qədər (verin)"– (deyə vəsiyyət edəcəyin günə) saxlama. (Çünki) həmin gün (sənin mal-dövlətin) başqalarına (miras) qalacaq."[2]

---

[1] Belə ki, adam sağlam ikən öz malından xərcləməyə əli gəlmir, malından xərcləyəcəyi təqdirdə kasıblayacağını, əks halda isə, varlanacağını düşünür. Xəstə olduqda isə dünya malı onun gözündə kiçilir və malından sədəqə verməyə başlayır. Hər iki halda savab qazanmış olsa da, əlbəttə ki, birincisinin savabı ikincisindən böyük olacaq. Və əgər adam tezliklə öləcəyini, bu dünyanın fani olduğunu düşünərsə, sağlam olduğu halda belə, malından Allah yolunda sədəqə verər.

[2] Bu hədisi Buxari öz "Səhih"ində (1419) rəvayət etmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, həmin rəvayətin mətnində "atan haqqı" kəlməsi zikr olunmamışdır. Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" və "Silsilətul-Əhadisid-Daifə" (4992) əsərlərində bu kəlmənin "munkər" olduğunu demişdir. Üstəlik, bir çox hədislərdə Peyğəmbər ﷺ Allahdan qeyrisinə and içməyi qadağan etmişdir. Həmin hədislərin birində İbn Ömər ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Qoy, and içmək istəyən *hər* kəs ancaq Allaha and içsin!" Qureyşlilərə gəlincə, onlar atalarına and içərdilər. Odur ki, Peyğəmbər ﷺ buyurdu: "Atalarınıza and içməyin!" (Səhih əl-Buxari, 3836; Muslim, 1646); o, həmçinin, demişdir: "Atalarınıza və ya analarınıza, ya da bütlərə and içməyin. Yalnız Allaha and için..." (Sunən Əbu Davud, 3248; Səhih əl-Cami, 7249).

## ٣٣٦- بَابُ إِذَا طَلَب فَلْيَطْلُبْ طَلَبًا يَسِيرًا وَلا يَمْدَحُهُ

## 336-cı fəsil. İnsan istədiyi zaman az istəməli və xahiş etdiyi şəxsi tərifləməməlidir

٧٧٩- حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنِي الأَعْمَشُ، عَنْ أَبِي إِسْحَاقَ، عَنْ أَبِي الأَحْوَصِ، عَنْ عَبْدِ اللَّهِ قَالَ: إِذَا طَلَبَ أَحَدُكُمُ الْحَاجَةَ فَلْيَطْلُبْهَا طَلَبًا يَسِيرًا، فَإِنَّمَا لَهُ مَا قُدِّرَ لَهُ، وَلاَ يَأْتِي أَحَدُكُمْ صَاحِبَهُ فَيَمْدَحَهُ، فَيَقْطَعَ ظَهْرَهُ.

**(779)** ........ Abdullah ﷺ demişdir: "Qoy, sizlərdən biri öz ehtiyacını istədikdə onu az istəsin. Çünki onun qədərinə nə yazılmışsa, ona da nail olacaq.[1] Həmçinin, dostunun yanına gəlib onu tərifləməsin, yoxsa, onun belini qırmış olar.[2]"[3]

٧٨٠- حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ، عَنْ أَيُّوبَ، عَنْ أَبِي الْمَلِيحِ بْنِ أُسَامَةَ، عَنْ أَبِي عَزَّةَ يَسَارِ بْنِ عَبْدِ اللَّهِ الْهُذَلِيِّ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِنَّ اللَّهَ إِذَا أَرَادَ قَبْضَ عَبْدٍ بِأَرْضٍ، جَعَلَ لَهُ بِهَا، أَوْ: فِيهَا أَوْ حَاجَةً)).

---

[1] Bu xüsusda, Uca Allah buyurur: **"Allah insanlara mərhəmətindən nəyi nəsib edərsə, heç kəs onun qarşısını ala bilməz. Onun göndərmədiyi bir şeyi də Ondan başqa heç kəs verə bilməz. O, Qüdrətlidir, Hikmət sahibidir."** (Fatir, 2); digər ayədə O, buyurur: **"De: "Əgər Allah sizə bir zərər yetirmək və ya bir xeyir vermək istəsə, Onun *edəcəyi işin* qarşısını kim ala bilər?"** (əl-Fəth, 11).

[2] Abdullah ibn Məsudun ﷺ bu nəsihətindən aydın olur ki, ehtiyacdan dolayı mömin qardaşına müraciət edən kimsə iki şeyə riayət etməlidir: istədiyi şeyin miqdarı çox olmamalı və bir də ona əl tutan adamı tərifləməməlidir. Belə ki, şəriət adamın üzünə tərifləməyi qadağan etmişdir (333, 334, 335 və 336 hədislərə bax).

[3] Bu əsəri Beyhəqi (Şoəbul-İman, 206) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "səhih" olduğunu demişdir.

**(780)** ........ Əbu Azzə Yəsar ibn Abdullah əl-Huzəli ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Allah *dilədiyi* bir yerdə qulunun canını almaq istədiyi zaman, həmin yerdə o qul üçün onun ehtiyacı olduğu şeyləri yaradır.[1]"[2]

---

[1] Və əgər insanın ehtiyacını yaradan, ona istədiyini verən Allahdırsa, deməki, Allahdan başqasına yalvarıb məhz onun yardımına ümid bəsləmək günahdır. Mömin adam yalnız Allaha təvəkkül etməli və istədiyini də yalnız Allahdan istəməlidir. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "İstədikdə, yalnız Allahdan istə..." (Sunən ət-Tirmizi, 2516; Musnəd Əhməd, 1/293; Səhih əl-Cami, 7957); o, həmçinin, demişdir: "Allahdan istəməyən kimsəyə Allah qəzəblənər" (Sunən ət-Tirmizi 2/342; əl-Ədəbul-Mufrad, 658). Peyğəmbər ﷺ bizlərə yalnız Allaha ümid etmək üçün gözəl bir dua öyrətmişdir:

((اللَّهُمَّ اكْفِنِي بِحَلاَلِكَ عَنْ حَرَامِكَ وَأَغْنِنِي بِفَضْلِكَ عَمَّنْ سِوَاكَ))

"Allahım, halal nemətlərin sayəsində məni haramdan uzaq et və Öz lütfün sayəsində məni Özündən başqa heç kəsə möhtac etmə!" (Sunən ət-Tirmizi, 4/276; Mustədrək əl-Hakim, 1/538; Musnəd Əhməd, 1/153; Silsilətul-Əhadisis-Səhihə, 266).

[2] Bu hədisi İbn Ədiy (əl-Kamil, 2/236), Əbu Nueym (əl-Hilyə, 8/374) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ٣٣٧- بَابُ قَوْلِ الرَّجُلِ: ((لا بُلَّ شَانِئُكَ))

## 337-ci fəsil. Adamın (başqa birisinə): "Düşmənin sağ qalmasın!"– deməsi

٧٨١- حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا الصَّعْقُ قَالَ: سَمِعْتُ أَبَا جَمْرَةَ قَالَ: أَخْبَرَنِي أَبُو عَبْدِ الْعَزِيزِ قَالَ: أَمْسَى عِنْدَنَا أَبُو هُرَيْرَةَ، فَنَظَرَ إِلَى نَجْمٍ عَلَى حِيَالِهِ فَقَالَ: وَالَّذِي نَفْسُ أَبِي هُرَيْرَةَ بِيَدِهِ، لَيَوَدَّنَّ أَقْوَامٌ وَلَوْا إِمَارَاتٍ فِي الدُّنْيَا وَأَعْمَالًا أَنَّهُمْ كَانُوا مُتَعَلِّقِينَ عِنْدَ ذَلِكَ النَّجْمِ، وَلَمْ يَلُوا تِلْكَ الإِمَارَاتِ، وَلاَ تِلْكَ الأَعْمَالَ. ثُمَّ أَقْبَلَ عَلَيَّ فَقَالَ: لاَ بُلَّ شَانِئُكَ، أَكُلُّ هَذَا سَاغَ لِأَهْلِ الْمَشْرِقِ فِي مَشْرِقِهِمْ؟ قُلْتُ: نَعَمْ وَاللَّهِ، لَقَدْ قَبَّحَ اللَّهُ وَمَكَرَ، فَوَالَّذِي نَفْسُ أَبِي هُرَيْرَةَ بِيَدِهِ، لَيَسُوقُنَّهُمْ حُمُرًا غِضَابًا، كَأَنَّمَا وُجُوهُهُمُ الْمَجَانُّ الْمُطْرَقَةُ، حَتَّى يُلْحِقُوا ذَا الزَّرْعِ بِزَرْعِهِ، وَذَا الضَّرْعِ بِضَرْعِهِ.

**(781)** ........ Əbu Abdul-Aziz demişdir: "Bir gecə Əbu Hureyrə bizdə qaldı. *Həmin vaxt o,* qarşı tərəfdəki ulduza baxıb dedi: "Əbu Hureyrənin canı Əlində olan *Allaha* and olsun ki, bu dünyada məmləkətlərə və işlərə rəhbərlik edən bir sinif insan olacaq ki, onlar: "Kaş, o ulduzdan asılı qalaydıq, amma bu məmləkətlərə və bu işlərə rəhbərlik etməyəydik"– deyəcəklər. Sonra o mənə üz tutub dedi: "Düşmənin sağ qalmasın! Məgər, bunların hamısı məşriqlilər üçün onların Şərq diyarında baş vermədimi?"[1] Mən: "Vallahi ki, belədir!"– deyə cavab verdim. O, dedi: "Allah onları zəlil etmiş və hiylələrini öz başlarına çevirmişdir. Əbu Hureyrənin canı Əlində *olan Allaha* and olsun ki, *o fitnəkarlar* üst-üstə yığılmış qalxan kimi üzləri qızarıb hiddətlənmiş olduğu halda sürüləcəklər. Nəhayət, əkinçi öz tarlasına, çoban da öz sürüsünə qovuşdurulacaqdır."[2]

---

[1] Burada söhbət məşriqdə baş vermiş fitnələrdən gedir.

[2] Bu hədisin isnadında keçən Əbu Abdul-Aziz Nəsr ibn İmran "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin

isnadının "zəif" olduğunu bildirmiş, sonra da bu hədisin ilk cümləsinin "səhih" olduğunu demişdir. Rəvayət edilir ki, Mərvan ibn Həkəm, Əbu Hureyrəya: "Rəsulullahdan ﷺ eşitdiyin hədislərdən birini bizə danış"– demiş, o da, ona belə cavab vermişdir: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: "(Vaxr gələcək) adam: "Kaş, Surəyya ulduzundan yerə yıxılaydım, amma camaata rəhbərlik etməyəydim"– deyə təmənna edəcək" (Mustədrək əl-Hakim, 4/91; Musnəd Əhməd, 2/377, 520 və 536; Musnəd əl-Bəzzar, 2/255/1643; Silsilətul-Əhadisis-Səhihə, 2620).

## ٣٣٨- بَابُ لا يَقُولُ الرَّجُلُ: ((اللَّهُ وَفُلانٌ))

## 338-ci fəsil. Adam: "Allah və filankəs" deməməlidir

٧٨٢- حَدَّثَنَا مَطَرُ بْنُ الْفَضْلِ قَالَ: حَدَّثَنَا حَجَّاجٌ، قَالَ ابْنُ جُرَيْجٍ: سَمِعْتُ مُغِيثًا يَزْعُمُ، أَنَّ ابْنَ عُمَرَ سَأَلَهُ: مَنْ مَوْلاَهُ؟ فَقَالَ: اللَّهُ وَفُلاَنٌ، قَالَ ابْنُ عُمَرَ: لاَ تَقُلْ كَذَلِكَ، لاَ تَجْعَلْ مَعَ اللَّهِ أَحَدًا، وَلَكِنْ قُلْ: فُلاَنٌ بَعْدَ اللَّهِ.

**(782)** ........ Muğis rəvayət edir ki, Abdullah ibn Ömər ondan mövlası barədə soruşmuş, o da: "Allah və filankəsdir"– deyə cavab vermişdir. Onda İbn Ömər (ona) demişdir: "Belə demə, heç kəsi Allaha tay tutma! Lakin de: "Allahdan sonra filankəsdir.[1]"[2]

---

[1] Bundan aydın olur ki, ayrı-ayrılıqda "mövlam Allah, sonra da filankəsdir"– demək caizdir. Allahın möminlərin mövlası olması Quranda belə buyurulur: **"Allah möminlərin mövlasıdır. Kafirlərin isə heç bir mövlası yoxdur"** (Muhəmməd, 11). Mövla kəlməsinin mənasını əvvəlki fəsillərdə izah etmişik (39-cu və 40-cı fəsillərin qeydlərinə bax).

[2] Bu hədisin isnadında keçən Muğis "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Bu hədisin isnadı "zəif" olsa da mənası "səhih"dir. Belə ki, neçə-neçə "səhih" hədislərdə Peyğəmbər ﷺ bu mənada olan ifadələri – məsələn, "Allah və filankəs istəsə" və s. deməyi qadağan etmişdir (növbəti fəsildəki hədisə bax).

## ٣٣٩- بَابُ قَوْلِ الرَّجُلِ: ((مَا شَاءَ اللَّهُ وَشِئْتَ))

## 339-cu fəsil. Adamın *birisinə*: "Allah və sən istəsən!"[1]– deməsi

٧٨٣- حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنِ الأَجْلَحِ، عَنْ يَزِيدَ، عَنِ ابْنِ عَبَّاسٍ: قَالَ رَجُلٌ لِلنَّبِيِّ ﷺ: مَا شَاءَ اللَّهُ وَشِئْتَ، قَالَ: ((جَعَلْتَ لِلَّهِ نِدًّا، مَا شَاءَ اللَّهُ وَحْدَهُ)).

**(783)** ........ İbn Abbas ﵄ demişdir: "Bir nəfər Peyğəmbərə ﷺ: "Allah və sən istəsən *olar*"– dedi. Peyğəmbər ﷺ ona belə buyurdu: "Sən məni Allaha tay tutdun?! (Əksinə, de ki,) Təkcə Allah istəsə."[2]

---

[1] Bu söz Allaha şərik qoşmağa aiddir. Belə ki, insan istəsə də, istəməsə də Allahın istədiyi iş baş verir. İnsan istəyi isə yalnız Allahın istəyi ilə gerçəyə çevrilir. Bu xüsusda, Uca Allah buyurur: **"Bu, aləmlərə yalnız bir nəsihətdir – sizlərdən doğru *yolda* olmaq istəyənlər üçün. Aləmlərin Rəbbi Allah istəməyincə, siz istəyə bilməzsiniz!"** (ət-Təkvir, 27-29). İmam Şafii gözəl şeir parçasında demişdir:

Mən istəməsəm də, Sən istədiyin oldu,
Sən istəmədin deyə, mən istədiyim olmadı (Divan 1/107).

[2] Bu hədisi İbn Macə (2117), Beyhəqi (3/217), Əhməd (1/214, 224, 283 və 347), Təbərani (Mocəmul-Kəbir, 3/186/1), Əbu Nueym (Hilyə, 4/99) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində (139) onun "səhih" olduğunu demişdir.

## ٣٤٠- بَابُ الْغِنَاءِ وَاللَّهْوِ

## 340-cı fəsil. Musiqi və əyləncə[1]

٧٨٤- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي عَبْدُ الْعَزِيزِ بْنُ أَبِي سَلَمَةَ، عَنْ عَبْدِ اللَّهِ بْنِ دِينَارٍ قَالَ: خَرَجْتُ مَعَ عَبْدِ اللَّهِ بْنِ عُمَرَ إِلَى السُّوقِ، فَمَرَّ عَلَى جَارِيَةٍ صَغِيرَةٍ تُغَنِّي، فَقَالَ: إِنَّ الشَّيْطَانَ لَوْ تَرَكَ أَحَدًا لَتَرَكَ هَذِهِ.

**(784)** ........ Abdullah ibn Dinar demişdir: "(Bir dəfə) mən Abdullah ibn Ömərlə birgə bazara getdim. İbn Ömər çalıb-oxuyan bir qız uşağının yanından keçdikdə (onu göstərib) dedi: "Əgər şeytan[2] bir kimsədən əl çəkmiş olsaydı, bundan əl çəkərdi."[3]

٧٨٥- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلامٍ قَالَ: أَخْبَرَنَا يَحْيَى بْنُ مُحَمَّدٍ أَبُو عَمْرٍو الْبَصْرِيُّ قَالَ: سَمِعْتُ عَمْرًا مَوْلَى الْمُطَّلِبِ قَالَ: سَمِعْتُ أَنَسَ بْنَ مَالِكٍ يَقُولُ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((لَسْتُ مِنْ دَدٍ، وَلاَ الدَّدُ مِنِّي بِشَيْءٍ))، يَعْنِي: لَيْسَ الْبَاطِلُ مِنِّي بِشَيْءٍ.

---

[1] Burada "əyləncə" deyildikdə faydasız boş vaxt keçirmək qəsd edilir. İmam Buxari bu fəsilə belə ad verməklə musiqinin və əyləncənin şeytan əməlindən olmasını bildirir. Xüsusilə qeyd etmək lazımdır ki, musiqi və əyləncə insanı Allahı zikr etməkdən yayındıran və qəlbi öldürən ən böyük fəsadlardan sayılır.

[2] İbn Ömərin bu sözündən aydın olur ki, musiqinin arxasında şeytan durur. Şeytan musiqi vasitəsi ilə insanın qəlbinə yol tapır və onu Allahı zikr etməkdən yayındırır. Bu xüsusda, nazil olmuş ayədə Uca Allah buyurur: **"Onlardan gücün çatdığı kimsələri öz səsinlə *günah*a təhrik et, atlı və piyadanı onların üstünə yerit, mallarına və övladlarına şərik ol, onlara vədlər ver. Şübhəsiz ki, şeytan onlara ancaq yalan vədlər verər"** (əl-İsra, 64). Bir çox təfsirçilər bu ayədə keçən **"səsinlə"** kəlməsinin musiqi olduğunu demişlər. Musiqi adamın qəlbinə mərəz salır və bu xəstəlik onun qəlbində çoxaldıqca, başqa cür desək, musiqiyə olan sevgisi artdıqca, Quran oxumağa və Allahı zikr etməyə olan sevgisi azalır.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

**(785)** ........ Ənəs ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Mən əyləncədən uzağam, əyləncə də məndən uzaqdır."

Yəni batil şeylər mənə aid deyil.[1]

٧٨٦– حَدَّثَنَا حَفْصُ بْنُ عُمَرَ قَالَ: أَخْبَرَنَا خَالِدُ بْنُ عَبْدِ اللَّهِ قَالَ: أَخْبَرَنَا عَطَاءُ بْنُ السَّائِبِ، عَنْ سَعِيدِ بْنِ جُبَيْرٍ، عَنِ ابْنِ عَبَّاسٍ: ﴿وَمِنَ النَّاسِ مَنْ يَشْتَرِي لَهْوَ الْحَدِيثِ﴾، قَالَ: الْغِنَاءُ وَأَشْبَاهُهُ.

**(786)** ........ İbn Abbas ﷺ:[2] **"İnsanlar arasında elələri də var ki, heç bir biliyi olmadan *başqalarını* Allah yolundan sapdırmaq və *Allahın ayələrini* lağa qoymaq üçün boş-boş sözləri satın alırlar. Məhz onları alçaldıcı bir əzab gözləyir"[3]** ayəsini oxuyub demişdir: "(Bu ayədə "boş-boş sözlər" deyildikdə,) musiqi və ona bənzər şeylər qəsd edilir.[4]"

---

[1] Bu hədisin isnadında keçən Yəhya ibn Muhəmməd Əbu Amr əl-Bəsri "çoxlu xətalara yol vermiş səduq" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Hədisin isnadı "zəif" olsa da mənası "səhih"dir. Batil şeylərin Peyğəmbərdən ﷺ uzaq olması dəlil-sübutsuz da aydındır. İmam Buxarinin bu hədisi varid etməkdə qəsdi musiqinin və əyləncənin batil şeylərə aid olduğunu göstərməkdir.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[3] "Loğman" surəsi, 6.

[4] İbn Abbasdan ﷺ başqa bir çox səhabələr və tabiinlər bu ayədə zikr olunan "boş sözlər" kəlməsinin musiqi və bunun bənzəri olduğunu söyləmişlər. Hətta, İbn Məsud demişdir: "Özündən başqa ibadətə layiq məbud olmayan Allaha and olsun ki, bu (ayədəki boş sözlər) musiqidir" (Təbərinin, Qurtubinin və İbn Kəsirin təfsirlərinə bax). Qoy, hər bir müsəlman vicdanla özünə sual versin: "Məgər musiqiyə qulaq asmaq adamı məscidə getməyə yaxud valideynlərin qayğısına qalmağa yaxud qohumlarla əlaqələri möhkəmləndirməyə yaxud yaxşı işlər görməyə və pis işlərdən çəkinməyə təşviq edir?" Cavab: "Yox, yox, yox!" Bundan başqa ağıllı mömin Peyğəmbərin ﷺ bu hədisindən özü üçün nəticə çıxarmalıdır: "Qiyamət günü Adəm övladı dörd şey barədə soruşulmayınca, addımını kənara qoya bilməyəcək: ömrünü nəyə sərf etdiyi, nə əməllər etdiyi, malını haradan

٧٨٧– حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: أَخْبَرَنَا الْفَزَارِيُّ، وَأَبُو مُعَاوِيَةَ، قَالاَ: أَخْبَرَنَا قَنَانُ بْنُ عَبْدِ اللَّهِ النَّهْمِيُّ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ عَوْسَجَةَ، عَنِ الْبَرَاءِ بْنِ عَازِبٍ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((أَفْشُوا السَّلاَمَ تَسْلَمُوا، وَالأَشَرَةُ شَرٌّ)).

قَالَ أَبُو مُعَاوِيَةَ: وَالأَشَرُ: الْعَبَثُ.

**(787)** ........ Bəra ibn Azib ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: “Salamı yayın ki, salamat olasınız.[1] Nankorluq şərdir.”[2]

Əbu Muaviyə demişdir: “Nankorluq: hədər işdir.”

٧٨٨– حَدَّثَنَا عِصَامٌ قَالَ: حَدَّثَنَا حَرِيزٌ، عَنْ سَلْمَانَ بْنِ سُمَيْرٍ الأَلْهَانِيِّ، عَنْ فَضَالَةَ بْنِ عُبَيْدٍ، وَكَانَ بِجَمْعٍ مِنَ الْمَجَامِعِ، فَبَلَغَهُ أَنَّ أَقْوَامًا يَلْعَبُونَ بِالْكُوبَةِ، فَقَامَ غَضْبَانَ يَنْهَى عَنْهَا أَشَدَّ النَّهْيِ، ثُمَّ قَالَ: أَلاَ إِنَّ اللاَّعِبَ بِهَا لِيَأْكُلُ قَمْرَهَا كَآكِلِ لَحْمِ الْخِنْزِيرِ، وَالمتَوَضِّئُ بِالدَّمِ.

يَعْنِي بِالْكُوبَةِ: النَّرْدَ.

**(788)** ........ Rəvayət edilir ki, Fədalə ibn Ubeyd məclislərdən birində ikən ona bir dəstə adamın nərd[3] oynadığı xəbər verildi. O, qəzəbli halda ayağa

---

qazandığı və nəyə xərclədiyi və bir də sağlamlığını nəyə sərf etdiyi barədə” (Sunən ət-Tirmizi, 2417; Səhih əl-Cami, 7300). Musiqini halal sayanların başlarına gələcək müsibət barədə Peyğəmbər ﷺ əvvəlcədən xəbər vermişdir (484-cü hədisin qeydlərinə bax).

[1] Bu söz salam verməyin nə dərəcədə fəzilətli olduğuna dəlalət edir. Bəzi alimlər bu mənanın Quranda da öz əksini tapdığını söyləmişlər: “**Sən *pisliyi* yaxşılıqla dəf et!**” (Fussilət, 34). Mucahid bu yaxşılığın salamı yaymaq olduğunu demişdir. Yəni salamı yaymaq sayəsində şəri dəf etmək olar.

[2] Bu hədisi Əhməd (4/286), Əbu Yə’la (2/101), İbn Hibban (1934), Əbu Nueym (Əxbar Əsbəhan, 1/277) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “həsən” olduğunu demişdir.

[3] Nərd: 24 xanası olan iki çərçivəli taxtadan, 30 daşdan və iki zərdən ibarət oyun alət; həmin alətlə oynanılan oyun (615-ci fəsildəki hədislərə bax). Nərd oynamağın iki halı

qalxdı və olduqca sərt şəkildə bunu qadağan etdi. Sonra dedi: "Nərddən əldə etdiyini yemək üçün onu oynayan kəs donuz ətini yemiş, üstəlik, qanı ilə yuyunmuş kimsəyə bənzəyir."[1]

---

vardır: pul ilə və pulsuz. Pul qoyub oynamaq qumar sayıldığına görə haram sayılır. Pulsuz oynamaq da həmçinin, aşağıdakı səbəblərə görə qadağandır:

1) Harama aparıb çıxartdığına görə;

2) Vaxta israf olduğuna görə; bir çox hallarda oyuna başı qarışmış adam vacib buyurulmuş əməlləri tərk edir;

3) Onu oynayan kimsələrin mübahisə etməsinə və bir-birini söyməsinə görə;

4) Onu oynayan kimsələrin arasına ədavət saldığına görə;

5) Adamı Allahı zikr etməkdən, Quran oxumaqdan və ibadətdən yayındırdığına görə.

(1269-cu, 1270-ci, 1271-ci, 1273-cü, 1274-cü, 1275-ci və 1277-ci hədislərə bax).

[1] Bu hədisin isnadında keçən Salman "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ٣٤١- بَابُ الْهَدْيِ وَالسَّمْتِ الْحَسَنِ

## 341-ci fəsil. Düz yolla getmək və gözəl görünüşlü olmaq[1]

٧٨٩- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ أَبِي الأَسْوَدِ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَاحِدِ بْنُ زِيَادٍ قَالَ: حَدَّثَنَا الْحَارِثُ ابْنُ حَصِيرَةَ قَالَ: حَدَّثَنَا زَيْدُ بْنُ وَهْبٍ قَالَ: سَمِعْتُ ابْنَ مَسْعُودٍ يَقُولُ: إِنَّكُمْ فِي زَمَانٍ: كَثِيرٌ فُقَهَاؤُهُ، قَلِيلٌ خُطَبَاؤُهُ، قَلِيلٌ سُؤَّالُهُ، كَثِيرٌ مُعْطُوهُ، الْعَمَلُ فِيهِ قَائِدٌ لِلْهَوَى. وَسَيَأْتِي مِنْ بَعْدِكُمْ زَمَانٌ: قَلِيلٌ فُقَهَاؤُهُ، كَثِيرٌ خُطَبَاؤُهُ، كَثِيرٌ سُؤَّالُهُ، قَلِيلٌ مُعْطُوهُ، الْهَوَى فِيهِ قَائِدٌ لِلْعَمَلِ، اعْلَمُوا أَنَّ حُسْنَ الْهَدْيِ، فِي آخِرِ الزَّمَانِ، خَيْرٌ مِنْ بَعْضِ الْعَمَلِ.

**(789)** ........ İbn Məsud ﷛ demişdir:[2] “Siz elə bir zamanda[3] yaşayırsınız ki, bu zamanda alimlər çox, *hər nə gəldi* danışan isə azdır;[4] dilənçilər az, *malını Allah yolunda* xərcləyənlər isə çoxdur. *Bu zamanda* əməllər nəfsin istəyini idarə edir. Sizdən sonra elə bir zaman gələcək ki, o zamanda alimlər az, danışanlar isə çox olacaq; dilənçilər çox, *malını Allah yolunda* xərcləyənlər isə az olacaq. *Həmin vaxt* nəfsin istəyi əməlləri idarə edəcək. Bilin ki, axır zamanda gözəl əxlaqlı olmaq,[5] bir çox əməllərdən xeyirli olacaq.”

---

[1] Burada əxlaqlı və gözəl görünüşlü olmağın fəzilətli olması qəsd edilir.

[2] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “həsən” olduğunu demişdir.

[3] Söhbət səhabələrin və tabiinlərin yaşadığı dövrdən gedir. Həmin dövr barədə Peyğəmbər ﷺ demişdir: “Ən xeyirli insanlar mənim dövrümdə yaşayan *səhabələrim*, sonra onların ardınca gələnlər, sonra da onların ardınca gələnlərdir” (Səhih əl-Buxari, 2652).

[4] Alimlər demişlər: “Sələflərin danışdığı söz az, bərəkəti isə çox olardı. İndikilərin isə danışdığı söz çox, bərəkəti isə azdır” (Şərhul-Əqidətut-Təhaviyyə, İbn Əbul-İz, 1/69).

[5] Burada “əxlaqlı olmaq” deyildikdə, Peyğəmbərin ﷺ yolunda olmaq qəsd edilir. Digər bir rəvayətdə Abdullah ibn Məsud ﷛ demişdir: “Sünnəyə aid əməllərdə qənaət etmək bidət sayılan işlərdə canfəşanlıq göstərməkdən daha xeyirlidir” (Sunən əd-Darimi, 1/72; Mustədrək əl-Hakim, 1/103; Sunən əl-Beyhəqi, 3/19; Səhih ət-Tərğib vət-Tərhib, 41); digər rəvayətdə İbn Məsud ﷛ demişdir: “Fitnə sizi bürüdüyü zaman halınız necə olacaq?! Elə bir fitnə ki, onun içində yaşlılar qocalacaq, uşaqlar böyüyəcək və insanlar o fit-

**٧٩٠**- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: أَخْبَرَنَا خَالِدُ بْنُ عَبْدِ اللَّهِ، عَنِ الْجُرَيْرِيِّ، عَنْ أَبِي الطُّفَيْلِ، قَالَ: قُلْتُ لَهُ: رَأَيْتَ النَّبِيَّ ﷺ؟ قَالَ: نَعَمْ، وَلاَ أَعْلَمُ عَلَى ظَهْرِ الأَرْضِ رَجُلاً حَيًّا رَأَى النَّبِيَّ ﷺ غَيْرِي، قَالَ: وَكَانَ أَبْيَضَ، مَلِيحَ الْوَجْهِ.

وَعَنْ يَزِيدَ بْنِ هَارُونَ، عَنِ الْجُرَيْرِيِّ قَالَ: كُنْتُ أَنَا وَأَبُو الطُّفَيْلِ نَطُوفُ بِالْبَيْتِ، قَالَ أَبُو الطُّفَيْلِ: مَا بَقِيَ أَحَدٌ رَأَى النَّبِيَّ ﷺ غَيْرِي، قُلْتُ: وَرَأَيْتَهُ؟ قَالَ: نَعَمْ ، قُلْتُ: كَيْفَ كَانَ؟ قَالَ: كَانَ أَبْيَضَ مَلِيحًا مُقَصَّدًا.

**(790)** ........ (Səid) əl-Cureyri demişdir: "Mən Əbu Tufeyldən[1] ﷺ soruşdum: "Sən Peyğəmbəri ﷺ görmüsənmi?" O dedi: "Bəli. (Bu gün) yer üzündə məndən başqa Peyğəmbəri ﷺ görən bir kimsənin həyatda olduğunu bilmirəm.[2]" Sonra o (davam edib) dedi: "Peyğəmbər ﷺ ağ (dərili), xoşsifət bir adam idi."

---

nəni Sünnə hesab edəcəklər. O, dəyişdirildiyi zaman insanlar: "Sünnə dəyişdirildi"– deyəcəklər. (Tabiinlər) soruşdular: "Bu, nə zaman baş verəcək, ey Əbu Abdur-Rahmən?" İbn Məsud dedi: "Qarilərininiz çoxaldığı və alimləriniz azaldığı, habelə, əmirləriniz çoxaldığı və etibarlı kimsələriniz azaldığı zaman. O zaman dünya işləri Axirət əməllərinə qarışacaq, üstəlik, elm Allah rizası üçün öyrənilməyəcəkdir" (Sunən əd-Darimi, 1/64; Səhih ət-Tərğib vət-Tərhib, 111). Bu rəvayətlər elmə yiyələnməyin, dili qorumağın, ibadət və itaətin – Sünnəyə əməl etməyin, var-dövlətdən Allah yolunda xərcləməyin nə dərəcədə əhəmiyyətli olduğuna dəlalət edir.

[1] Əbu Tufeyl Amir ibn Vasilə ibn Abdullah əl-Leysi əl-Kinani ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Peyğəmbər ﷺ Mədinəyə hicrət etdikdən sonra dünyaya gəlmiş və mömin ikən Vida həccində Peyğəmbəri ﷺ görmüşdür (Siyər Əlam ən-Nubələ, 97-ci tərcümeyi-hal).

[2] Əbu Tufeyl ﷺ hicrətin 110-cu ilində vəfat etmişdir. O, bu dünyadan ən axırıncı köçmüş səhabədir. İbn Ömər ﷺ demişdir: "Peyğəmbər ﷺ ömrünün axırında (hicrətin 10-cu ilində) bizə işa namazını qıldırdı və salam verdikdən sonra ayağa qalxıb dedi: "Bilirsinizmi, bu gecə hansı gecədir?! Həqiqətən, yüz ilin tamamında bu gün yer üzündə olanlardan heç bir kimsə qalmayacaq." Bunu deyəndə o, həmin gecədən etibarən yüz ilin tamamını qəsd edirdi" (Səhih əl-Buxari, 601). Bu da Peyğəmbərin ﷺ, həqiqətən də, Allahın Rəsulu ﷺ olduğunu, həmçinin, dediyi hər bir sözün haqq olduğunu və gec-tez gerçəyə çevrildiyini bir daha sübuta yetirir.

Digər rəvayətdə əl-Cureyri demişdir: “Mən Əbu Tufeyl ilə birgə Kəbəni təvaf edərkən, o dedi: “Artıq məndən başqa *yer üzündə* Peyğəmbəri ﷺ görən bir kimsə qalmamışdır.” Mən soruşdum: “Sən onu görmüsənmi?” O dedi: “Bəli, (görmüşəm).” Mən soruşdum: “O, necə adam idi?”[1] O dedi: “Peyğəmbər ﷺ ağ (dərili), olduqca yaraşıqlı və ortaxilqətli[2] bir adam idi.”[3]

**٧٩١**- حَدَّثَنَا فَرْوَةُ قَالَ: حَدَّثَنَا عَبِيدَةُ بْنُ حُمَيْدٍ، عَنْ قَابُوسَ، عَنْ أَبِيهِ، عَنِ ابْنِ عَبَّاسٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((الْهَدْيُ الصَّالِحُ، وَالسَّمْتُ الصَّالِحُ، وَالِاقْتِصَادُ، جُزْءٌ مِنْ خَمْسَةٍ وَعِشْرِينَ جُزْءًا مِنَ النُّبُوَّةِ)).

**(791)** ........ İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Doğru yolla getmək, gözəl görünüşlü olmaq və orta yol tutmaq peyğəmbərliyin iyirmi beş hissəsindən biridir.[4]”[5]

**(...)**-حَدَّثَنَا أَحْمَدُ بْنُ يُونُسَ قَالَ: حَدَّثَنَا زُهَيْرٌ قَالَ: حَدَّثَنَا قَابُوسُ، أَنَّ أَبَاهُ حَدَّثَهُ، عَنِ ابْنِ عَبَّاسٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِنَّ الْهَدْيَ الصَّالِحَ، وَالسَّمْتَ الصَّالِحَ، وَالِاقْتِصَادَ، جُزْءٌ مِنْ سَبْعِينَ جُزْءًا مِنَ النُّبُوَّةِ)).

**(...)** ........ İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Doğru yolla getmək, gözəl görünüşlü olmaq və orta yol tutmaq peyğəmbərliyin yetmiş hissəsindən biridir.”[6]

---

[1] Digər rəvayətdə “onu mənə vəsf et”– deyilir (Şəmailun-Nəbi, 14).

[2] Yəni, o, nə çox hündürboy, nə də bəstəboy, nə çox kök, nə də arıq idi.

[3] Bu hədisləri Muslim (2340) rəvayət etmişdir.

[4] 468-ci hədisin qeydlərinə bax.

[5] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “həsən” olduğunu demişdir.

[6] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Cami” əsərində (1992) bu hədisin “həsən” olduğunu demişdir.

## ٣٤٢- بَابُ ((وَيَأْتِيكَ بِالأَخْبَارِ مَنْ لَمْ تُزَوِّدِ))

## 342-ci fəsil. "Sənə xəbər gətirər təmin etmədiyin kəs"[1]

٧٩٢- حَدَّثَنَا مُحَمَّدُ بْنُ الصَّبَّاحِ حَدَّثَنَا الْوَلِيدُ بْنُ أَبِي ثَوْرٍ، عَنْ سِمَاكٍ، عَنْ عِكْرِمَةَ قَالَ: سَأَلْتُ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا: هَلْ سَمِعْتِ رَسُولَ اللَّهِ ﷺ يَتَمَثَّلُ شِعْرًا قَطُّ؟ فَقَالَتْ: أَحْيَانًا، إِذَا دَخَلَ بَيْتَهُ يَقُولُ: ((وَيَأْتِيكَ بِالأَخْبَارِ مَنْ لَمْ تُزَوِّدِ)).

**(792)** ........ İkrimə demişdir: "Mən Aişədən soruşdum: "Heç, Peyğəmbərin ﷺ şeir oxuduğunu eşitmisənmi?" O, dedi: "Peyğəmbər ﷺ evə daxil olduqda hərdən deyərdi: "Sənə xəbər gətirər, təmin etmədiyin kəs.[2]"[3]

٧٩٣- حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ لَيْثٍ، عَنْ طَاوُسٍ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: إِنَّهَا كَلِمَةُ نَبِيٍّ: وَيَأْتِيكَ بِالأَخْبَارِ مَنْ لَمْ تُزَوِّدِ.

**(793)** ........ İbn Abbas رضي الله عنهما demişdir: "Bu, peyğəmbər sözüdür: "Sənə xəbər gətirər, təmin etmədiyin kəs.[4]"[5]

---

[1] Burada "təmin etməmək" deyildikdə, gətirdiyi xəbərə görə zəhmət haqqı verməmək nəzərdə tutulur. Müəllifin bu fəsildə varid etdiyi hədislər dəlildir ki, deyilən sözü gözəl şeir parçası ilə təsdiqləmək caizdir.

[2] Digər hədisdə Şureyh rəvayət etmişdir ki, (bir dəfə) Aişədən soruşdular: "Peyğəmbər ﷺ şeir deyərdimi?" Aişə dedi: "Peyğəmbər ﷺ (hərdən) İbn Rəvahənin şeirlərindən oxuyar, onun bu sözlərini deyərdi: "Sənə xəbər gətirər, təmin etmədiyin kəs" (Şəmailun-Nəbi, 241). Bu şeir parçası, əslində, Tərfə ibn Abdın şeiridir (Divan, 96; Şərh əl-Qəsaid əl-Məşhura, 1/94). Bu şeirin əvvəlki beyti belədir: "Nə qədər ki cahilsən, günlər sənə görünər." Kitablarda məşhur olan budur ki, Peyğəmbər ﷺ Tərfənin: "Sənə xəbər gətirər təmin etmədiyin kəs" şeirini oxuyardı. Bəziləri Peyğəmbərin ﷺ əsla şeir oxumadığını iddia edirlər. Bu hədis onların iddiasını rədd edir (Səhih əl-Ədəbul-Mufrad, səh: 295). İmam Əhmədin "Musnəd" əsərində (6/31) rəvayət edilmiş hədisdə Aişə رضي الله عنها demişdir: "Peyğəmbər ﷺ kimdənsə bir xəbər gözlədikdə, Tərfənin bu şeirini deyərdi: "Sənə xəbər gətirər, təmin etmədiyin kəs" (Şeyx Albani bu hədisin "həsən" olduğunu demişdir. Bax: Silsilətul-Əhadisis-Səhihə, 2057). Ehtimal edilir ki, Abdullah ibn Rəvahə رضي الله عنه bu şeir parçasını Tərfədən götürmüşdür.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[4] Yəni bu söz peyğəmbərlərin dediyinə uyğun gələn sözlərdəndir.

[5] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih li-ğeyrihi" olduğunu demişdir.

## ٣٤٣- بَابُ مَا يُكْرَهُ مِنَ التَّمَنِّي

## 343-cü fəsil. Təmənna edilənlər arasında bəyənilməyən şeylər[1]

٧٩٤- حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا أَبُو عَوَانَةَ، عَنْ عُمَرَ بْنِ أَبِي سَلَمَةَ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((إِذَا تَمَنَّى أَحَدُكُمْ فَلْيَنْظُرْ مَا يَتَمَنَّى، فَإِنَّهُ لاَ يَدْرِي مَا يُعْطَى)).

**(794)** ........ Əbu Hureyrə ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Sizdən biriniz (nə isə) təmənna etmək istədikdə, təmənna edəcəyi şeyə diqqət yetirsin.[2] Çünki o özünə nə veriləcəyini bilmir."[3]

---

[1] Bundan aydın olur ki, təmənna ediləcək şeylər arasında həm bəyənilənləri, həm də bəyənilməyənləri vardır. Məsələn, ölüm diləmək yaxud kiminsə evinə yaxud miniyinə və s. sahib olmağı arzulamaq qadağan edilmiş təmənnalara aiddir. Bu xüsusda, Uca Allah buyurur: "**Allahın birinizi digərinizdən üstün etdiyi şeyi təmənna etməyin** (ona tamah salmayın)" (ən-Nisa, 32). Həmçinin, Peyğəmbər ﷺ demişdir: "Sizdən heç kəs özünə ölüm diləməsin. *Əgər o, həyatda qalarsa,* əməlisaleh adamdırsa yaxşı işlər görüb savabını artırar, yox, günahkar adamdırsa, ola bilər ki, tövbə etsin" (Səhih əl-Buxari, 7235). Lakin xeyir arzulamaq, əməlisaleh bir adamda olan xeyirli şeyin eynisini təmənna etmək caizdir. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Yalnız iki şəxsə həsəd aparmaq olar: o adama ki, Allah ona Quranı öyrətmiş, o da, onu gecə-gündüz oxuyur. Qonşusu bunu eşidib deyər: "Kaş, ona verilənin bənzəri mənə də veriləydi, onun etdiyi əməli mən də edərdim." Bir də o adama ki, Allah ona var-dövlət bəxş etmiş, o da, onu Allah yolunda lazımi yerlərə xərcləyir. Onu görən adam deyər: "Kaş, ona verilənin bənzəri mənə də veriləydi, onun etdiyi əməli mən də edərdim" (Səhih əl-Buxari, 5026). Yeri gəlmişkən, qeyd edək ki, sadəcə, arzulamaq insana heç bir fayda vermir. Yəni günah iş görən adam yaxşı işlər görməyi təmənna etsə belə, bunun ona heç bir faydası olmayacaq və etdiyi günahlara görə mütləq cəzasını alacaq. Bu xüsusda, Uca Allah buyurur: ***"Bu nemətə nail olmaq*** **nə sizin arzunuzla, nə də Kitab əhlinin arzusu ilədir. Pislik edən kəs, onun cəzasını alacaq və o, Allahdan başqa özünə nə bir himayədar, nə də bir yardımçı tapacaqdır"** (ən-Nisa, 123).

[2] Yəni ağıllı adam təmənna etməzdən əvvəl təmənna edəcəyi şey barədə məlumat əldə etməli, onun xeyirli olub-olmadığını araşdırıb öyrənməlidir. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Adam dostunun dini üzərindədir. Qoy, sizlərdən hər kəs kiminlə dostluq etdiyinə diqqət yetirsin!" (Sunən Əbu Davud, 2/293; Sunən ət-Tirmizi, 2/278; Silsilətul-Əhadisis-Səhihə, 927).

[3] Bu hədisi Tirmizi (3605), Əhməd (2/357 və 387), Təyalisi (Musnəd, 2341), Əbu Yə'la (5907), İbn Adiy (2/244) və Beyhəqi (Şoəbul-İman) rəvayət etmişdir. Hədisin isnadında keçən Amr ibn Əbu Sələmə "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

## ٣٤٤– بَابُ لا تُسَمُّوا الْعِنَبَ الْكَرْمَ

## 344-cü fəsil. Üzümə “kərm” deməyin

٧٩٥– حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ سِمَاكٍ، عَنْ عَلْقَمَةَ بْنِ وَائِلٍ، عَنْ أَبِيهِ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((لاَ يَقُولَنَّ أَحَدُكُمْ: الْكَرْمَ، وَقُولُوا الْحَبَلَةَ))، يَعْنِي: الْعِنَبَ.

**(795)** ........ Əlqəmə ibn Vail atasından[1] rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: “Sizlərdən heç kəs kərm deməsin.[2] (Ona): “Meynə”[3]– deyin.” Yəni (heç biriniz) üzüm meyvəsinə (kərm deməsin).[4]

---

[1] Bu, Peyğəmbərin ﷺ səhabəsi Əbu Huneydə Vail ibn Hucr ibn Səd əl-Hədrəmidir ؓ (Siyər Əlam ən-Nubələ, 122-ci tərcümeyi-hal).

[2] 770-ci hədisin qeydlərinə bax.

[3] Meynə: üzüm tənəyi.

[4] Bu hədisi Muslim (5831) rəvayət etmişdir.

## ٣٤٥- بَابُ قَوْلِ الرَّجُلِ: ((وَيْحَكَ))

## 345-ci fəsil. Bir adamın (başqa birisinə): "Vay sənin halına!"– deməsi[1]

٧٩٦- حَدَّثَنَا أَحْمَدُ بْنُ خَالِدٍ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ إِسْحَاقَ، عَنْ عَمِّهِ مُوسَى بْنِ يَسَارٍ، عَنْ أَبِي هُرَيْرَةَ، مَرَّ النَّبِيُّ ﷺ بِرَجُلٍ يَسُوقُ بَدَنَةً، فَقَالَ: ((ارْكَبْهَا))، فَقَالَ: يَا رَسُولَ اللَّهِ، إِنَّهَا بَدَنَةٌ، فَقَالَ: ((ارْكَبْهَا))، قَالَ: إِنَّهَا بَدَنَةٌ، قَالَ فِي الثَّالِثَةِ أَوْ فِي الرَّابِعَةِ: ((وَيْحَكَ ارْكَبْهَا)).

**(796)** ........ Əbu Hureyrə ﷺ rəvayət etmişdir ki, (bir dəfə) Peyğəmbər ﷺ bir nəfərin qurbanlıq dəvəni sürüb apardığını görüb (ona): "Dəvəyə min!"– deyə buyurdu. Adam: "Ya Rəsulullah, axı bu, qurbanlıq dəvədir"– dedi. Peyğəmbər ﷺ yenə: "Dəvəyə min!"– deyə buyurdu. Adam: "Axı bu, qurbanlıq dəvədir"– dedi. Üçüncü yaxud dördüncü dəfə Peyğəmbər ﷺ (ona): "Vay sənin halına, dəvəyə min!"– deyə buyurdu.[2]"[3]

---

[1] 333-cü fəsil ilə bu fəsilin ünvanındakı fərq ancaq bu ifadələrin ərəbcəsindəki ləfzindədir. Belə ki, o fəsildə ((وَيْلَكَ)) bu fəsildə isə ((وَيْحَكَ)) kəlməsi işlənmişdir.

[2] 772-ci hədisə bax.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٣٤٦– بَابُ قَوْلِ الرَّجُلِ: ((يَا هَنْتَاهُ))

## 346-cı fəsil. Adamın (qadına): "Ay qız!"[1]– deməsi

٧٩٧– حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ شَرِيكٍ قَالَ: حَدَّثَنِي أَبِي، عَنْ عَبْدِ اللَّهِ بْنِ مُحَمَّدِ بْنِ عَقِيلٍ، عَنْ إِبْرَاهِيمَ بْنِ مُحَمَّدٍ، عَنْ عِمْرَانَ بْنِ طَلْحَةَ، عَنْ أُمِّهِ حَمْنَةَ بِنْتِ جَحْشٍ قَالَتْ: قَالَ النَّبِيُّ ﷺ: ((مَا هِيَ؟ يَا هَنْتَاهُ)).

**(797)** ........ Həmnə bint Cəhş ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Bu nədir, ay qız?"[2]

٧٩٨– حَدَّثَنَا قُتَيْبَةُ قَالَ: حَدَّثَنَا جَرِيرٌ، عَنِ الْأَعْمَشِ، عَنْ حَبِيبِ بْنِ صُهْبَانَ الْأَسَدِيِّ: رَأَيْتُ عَمَّارًا صَلَّى الْمَكْتُوبَةَ ثُمَّ قَالَ لِرَجُلٍ إِلَى جَنْبِهِ: يَا هَنَاهْ، ثُمَّ قَامَ.

**(798)** ........ Həbib ibn Suhban əl-Əsədi demişdir: "Mən Ammarı görmüşəm. O, fərz namazını qılıb qurtardıqdan sonra yanındakı adama: "Ay kişi!"– dedi, sonra da ayağa qalxdı."[3]

---

[1] Ərəbcə (يَا هَنْتَاهُ) qadın xeylağına olan müraciət olub "ay qız", "ay arvad", "ay xanım" və s. kimi işlənir.

[2] Bu hədisin isnadında keçən Abdullah ibn Muhəmməd "səduq", Şərik ibn Abdullah isə "hafizəsi zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir. Bu hədisin isnadı "zəif" olsa da, qadına (يَا هَنْتَاهُ) "ay qız", "ay arvad", "ay xanım" və s. deyə müraciət etmək caizdir. Bu da, İmam Buxarinin rəvayət etdiyi başqa bir hədisdə öz əksini tapmışdır. Həcc ziyarəti ilə bağlı uzun bir hədisdə Peyğəmbər ﷺ Aişənin ﷺ ağladığını görüb, ona: "Səni ağladan nədir, ay qız?" – demişdir (Səhih əl-Buxari, 1560).

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

٧٩٩- حَدَّثَنَا عَلِيُّ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ إِبْرَاهِيمَ بْنِ مَيْسَرَةَ، عَنْ عَمْرِو بْنِ الشَّرِيدِ، عَنْ أَبِيهِ قَالَ: أَرْدَفَنِي النَّبِيُّ ﷺ فَقَالَ: ((هَلْ مَعَكَ مِنْ شِعْرِ أُمَيَّةَ بْنِ أَبِي الصَّلْتِ؟)) قُلْتُ: نَعَمْ. فَأَنْشَدْتُهُ بَيْتًا، فَقَالَ: ((هِيهِ))، حَتَّى أَنْشَدْتُهُ مِئَةَ بَيْتٍ.

**(799)** ........ Şərid[1] ﵁ demişdir: "Mən Peyğəmbərin ﷺ tərkində[2] olarkən, o, (mənə): "Umeyyə ibn Əbu Səltin[3] şeirlərindən əzbər bildiyin varmı?"–

---

[1] Şərid ibn Suveyd ﵁ Peyğəmbərin ﷺ səhabəsidir.

[2] Əbu Zəkəriyya Yəhya ibn Abdul-Vəhhab ibn Məndə "Mərifətu Əsami Ərdafin-Nəbi səllallahu aleyhi və səlləm" adlı kitabında, Peyğəmbərin ﷺ qırxa yaxın səhabəsini tərkinə aldığını demiş və onların adlarını bir-bir zikr etmişdir.

[3] Umeyyə ibn Əbu Səlt əs-Səqəfi İslam dininin gəldiyi dövrlərdə yaşamış, lakin müsəlmançılığı qəbul etməmişdir. Buna rəğmən, o, öz şeirlərində həqiqətləri əks etdirmiş və haqqı bəyan etmiş, etiqadı müsəlman əqidəsinə yaxın olmuşdur. Digər rəvayətdə bu hədisin tamamında Peyğəmbər ﷺ Umeyyənin barəsində: "O, az qala ki, müsəlman olacaqdı"– demişdir (Şəmailun-Nəbi, 249).

İbn Kəsir demişdir: "İbn Əsakirin Zuhridən rəvayət etdiyi əsərdə deyilir ki, Umeyyə ibn Əbu Səlt Məkkəyə gəlib Peyğəmbərlə ﷺ görüşmüş və ondan nə təbliğ etdiyini soruşmuş, Peyğəmbər ﷺ ona: "Mən Allahın Rəsuluyam, Allahdan başqa haqq məbud yoxdur"– demişdir. Bundan sonra o, Peyğəmbərlə ﷺ vədələşib görüş təyin etmiş, bu görüş əsnasında ona öz şeirlərindən oxumuş və şeiri oxuyub qurtardıdan sonra ona: "Mənə cavab ver"– demişdir. Peyğəmbər ﷺ də ona "Ya sin" surəsini başdan axıradək oxumuşdur. Nəhayət, qureyşlilər ondan: "(Muhəmməd ﷺ barəsində) nə deyə bilərsən, ey Umeyyə?"– deyə soruşduqda, demişdir: "Mən şahidlik edirəm ki, o, haqq yoldadır." Qureyşlilər ondan: "Sən də onun yolunu gedəcəksən?"– deyə soruşduqda, o: "Buna hələ baxarıq"– demişdir. Bu hadisədən sonra Umeyyə Şama gedir, Peyğəmbər ﷺ də Mədinəyə hicrət edir. Umeyyə Bədr döyüşündən sonra Şamdan geri qayıdır. Həmin vaxt o, İslam dinini qəbul etmək üçün Peyğəmbərin ﷺ yanına getmək istəyir. Bu vaxt müşriklərdən biri ona müsəlmanların Bədr döyüşündə onun xala uşaqlarını – Utbə ibn Rəbiəni və Şeybə ibn Rəbiəni öldürdüklərini xəbər verir. Umeyyə bundan bərk qəzəblənir və dönüb çıxıb gedir, beləliklə də, inadkarlıq edib müsəlman olmaqdan imtina edir (əl-Bidayə vən-Nihayə, 2/285).

dedi. Mən: "Bəli!"– deyib, ona bir beyt oxudum.[1] Peyğəmbər ﷺ mənə: "Davam et!"– deyə buyurdu. Nəhayət, mən ona yüz beyt oxudum."[2]

---

[1] Şərid ؓ əvvəlcə bir beyt oxuyur ki, görsün, əgər Peyğəmbərin ﷺ xoşuna gəlsə, davam eləsin, əks təqdirdə isə, davamını oxumasın. Başqa bir rəvayətdə Şərid ؓ demişdir: "Mən hər dəfə bir beyt oxuduqda, o mənə: "Davam et!"– deyirdi" (Şəmailun-Nəbi, 249). İslam alimləri bu hədisə və bu mənada olan hədislərə əsaslanaraq, (şəriətə zidd olmayan) şeirlərə qulaq asmağın caiz olduğunu söyləmişlər. Lakin xüsusilə qeyd etmək lazımdır ki, buna aludə olmaq və beləliklə də, Quran oxumaqdan və zikrləri vaxtlı-vaxtında yerinə yetirməkdən yayınmaq qadağandır.

[2] Bu hədisi Muslim (2255), Nəsai (998), İbn Macə (3758) və Əhməd (4/388, 389, 390) rəvayət etmişdir.

## ٣٤٧- بَابُ قَوْلِ الرَّجُلِ: ((إِنِّي كَسْلانُ))

## 347-ci fəsil. Adamın: “Həvəsim yoxdur”– deməsi

**٨٠٠-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ قَالَ: حَدَّثَنَا أَبُو دَاوُدَ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ يَزِيدَ بْنِ خُمَيْرٍ قَالَ: سَمِعْتُ عَبْدَ اللَّهِ بْنَ أَبِي مُوسَى قَالَ: قَالَتْ عَائِشَةُ: لاَ تَدَعْ قِيَامَ اللَّيْلِ، فَإِنَّ النَّبِيَّ ﷺ كَانَ لاَ يَدَرُهُ، وَكَانَ إِذَا مَرِضَ أَوْ كَسِلَ صَلَّى قَاعِدًا.

**(800)** ........ Abdullah ibn Əbu Musa rəvayət edir ki, Aişə ﵂ demişdir: “Gecə namazını buraxma. Çünki Peyğəmbər ﷺ onu tərk etməzdi. Xəstələndikdə və ya həvəsi olmadıqda, namazını oturmuş vəziyyətdə qılardı.[1]”[2]

---

[1] Aişə ﵂ gecə namazının nə dərəcədə fəzilətli olduğunu və Peyğəmbərin ﷺ bu namazı buraxmadığını xəbər verir. Aişə ﵂ bunu deməklə Peyğəmbərin ﷺ çox vaxt belə etdiyini xəbər verir. Belə ki, bəzən o, bərk ağrıdığından bu namazı qılmaz, lakin səhəri gün onun qəzasını qılardı. Aişə ﵂ demişdir: “Rəsulullah ﷺ xəstələndiyindən və ya başqa bir səbəbdən dolayı gecə namazını buraxdıqda, gündüz vaxtı on iki rükət namaz qılardı” (Səhih Muslim, 1743).

[2] Bu əsəri Əbu Davud (1307) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun isnadının “səhih” olduğunu demişdir.

## ٣٤٨- بَابُ مَنْ تَعَوَّذَ مِنَ الْكَسَلِ

## 348-ci fəsil. Tənbəllikdən Allaha sığınan kimsə

٨٠١- حَدَّثَنَا خَالِدُ بْنُ مَخْلَدٍ قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ بِلاَلٍ قَالَ: حَدَّثَنِي عَمْرُو بْنُ أَبِي عَمْرٍو قَالَ: سَمِعْتُ أَنَسَ بْنَ مَالِكٍ يَقُولُ: كَانَ النَّبِيُّ ﷺ يُكْثِرُ أَنْ يَقُولَ: ((اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الْهَمِّ وَالْحَزَنِ، وَالْعَجْزِ وَالْكَسَلِ، وَالْجُبْنِ وَالْبُخْلِ، وَضَلَعِ الدَّيْنِ، وَغَلَبَةِ الرِّجَالِ)).

**(801)** ........ Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbər ﷺ bu duanı çox edərdi: "Allahım, üzüntüdən və kədərdən, acizlikdən və tənbəllikdən, qorxaqlıqdan və xəsislikdən, borc altında qalmaqdan və insanların (məni) sıxışdırmasından Sənə sığınıram!""[1]

[1] 672-ci hədisə bax.

## ٣٤٩- بَابُ قَوْلِ الرَّجُلِ: ((نَفْسِي لَكَ الْفِدَاءُ))

## 349-cu fəsil. Adamın (birisinə): "Canım sənə qurban!"– deməsi

٨٠٢- حَدَّثَنَا عَلِيُّ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنِ ابْنِ جُدْعَانَ قَالَ: سَمِعْتُ أَنَسَ بْنَ مَالِكٍ يَقُولُ: كَانَ أَبُو طَلْحَةَ يَجْثُو بَيْنَ يَدَيْ رَسُولِ اللَّهِ ﷺ وَيَنْثُرُ كِنَانَتَهُ وَيَقُولُ: ((وَجْهِي لِوَجْهِكَ الْوِقَاءُ، وَنَفْسِي لِنَفْسِكَ الْفِدَاءُ)).

**(802)** ........ Ənəs ﷺ rəvayət edir ki, Əbu Talhə[1] Rəsulullahın ﷺ qarşısında diz çökmüş və ox qabını kənara atıb demişdir: "Üzüm üzünə sipərdir, canım da canına qurbandır!"[2]

٨٠٣- حَدَّثَنَا مُعَاذُ بْنُ فَضَالَةَ، عَنْ هِشَامٍ، عَنْ حَمَّادٍ، عَنْ زَيْدِ بْنِ وَهْبٍ، عَنْ أَبِي ذَرٍّ قَالَ: فَانْطَلَقَ النَّبِيُّ ﷺ نَحْوَ الْبَقِيعِ، وَانْطَلَقْتُ أَتْلُوهُ، فَالْتَفَتَ فَرَآنِي فَقَالَ: ((يَا أَبَا ذَرٍّ))، فَقُلْتُ: لَبَّيْكَ يَا رَسُولَ اللَّهِ، وَسَعْدَيْكَ، وَأَنَا فِدَاؤُكَ، فَقَالَ: ((إِنَّ الْمُكْثِرِينَ هُمُ الْمُقِلُّونَ يَوْمَ الْقِيَامَةِ، إِلاَّ مَنْ قَالَ

---

[1] Əbu Talhə Zeyd ibn Səhl əl-Ənsari ən-Nəccari əl-Xəzrəci ﷺ Peyğəmbərin ﷺ həm səhabəsi, həm dayılarından birinin oğlu, həm də birinci Əqəbə beyətində iştirak edən on iki nəfərdən biridir. Məşhur səhabə Ənəs ibn Malikin ﷺ atalığıdır (Siyər Əlam ən-Nubəla, 5-ci tərcümeyi-hal). Bu səhabənin fəzilətinə dair varid olmuş hədislərin birində rəvayət edilir ki, Ənəs ﷺ demişdir: "Uhud döyüşündə *bəzi* adamlar Peyğəmbəri ﷺ qoyub geri çəkildikdə, Əbu Talhə onun önündə dayanıb, öz qalxanı ilə onu qoruyurdu. Əbu Talhə yaxşı oxatan, yayının kirişini olduqca möhkəm dartıb *oxu* atan birisi idi. *Bu döyüşdə Əbu Talhə* iki ya üç yay sındırdı. *Həmin vaxt* kim əlində ox qabı ilə *onların yanından* keçirdisə, Peyğəmbər ﷺ ona: "Ox qabını Əbu Talhənin qabağına sər!"– deyirdi. Peyğəmbər ﷺ Əbu Talhənin arxasından boylanıb düşmənə baxmaq istəyəndə, Əbu Talhə ona deyirdi: "Ey Allahın peyğəmbəri, atam-anam sənə qurban, baxma, yoxsa onların atdıqları ox sənə dəyər, qoy, mənim sinəm sənin üçün sipər olsun" (Səhih əl-Buxari, 3811).

[2] Bu hədisin isnadında keçən Əli ibn Zeyd ibn Cud'an "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "zəif" olduğunu demişdir.

هَكَذَا وَهَكَذَا فِي حَقٍّ))، قُلْتُ: اللَّهُ وَرَسُولُهُ أَعْلَمُ، فَقَالَ: ((هَكَذَا)) ثَلَاثًا، ثُمَّ عَرَضَ لَنَا أُحُدٌ فَقَالَ: ((يَا أَبَا ذَرٍّ))، فَقُلْتُ: لَبَّيْكَ يَا رَسُولَ اللَّهِ وَسَعْدَيْكَ، وَأَنَا فِدَاؤُكَ، قَالَ: ((مَا يَسُرُّنِي أَنَّ أُحُدًا لِآلِ مُحَمَّدٍ ذَهَبًا، فَيُمْسِي عِنْدَهُمْ دِينَارٌ، أَوْ قَالَ: مِثْقَالٌ))، ثُمَّ عَرَضَ لَنَا وَادٍ، فَاسْتَنْتَلَ فَظَنَنْتُ أَنَّ لَهُ حَاجَةً، فَجَلَسْتُ عَلَى شَفِيرٍ، وَأَبْطَأَ عَلَيَّ. قَالَ: فَخَشِيتُ عَلَيْهِ، ثُمَّ سَمِعْتُهُ كَأَنَّهُ يُنَاجِي رَجُلًا، ثُمَّ خَرَجَ إِلَيَّ وَحْدَهُ، فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ، مَنِ الرَّجُلُ الَّذِي كُنْتَ تُنَاجِي؟ فَقَالَ: ((أَوَ سَمِعْتَهُ؟)) قُلْتُ: نَعَمْ، قَالَ: ((فَإِنَّهُ جِبْرِيلُ أَتَانِي، فَبَشَّرَنِي أَنَّهُ مَنْ مَاتَ مِنْ أُمَّتِي لَا يُشْرِكُ بِاللَّهِ شَيْئًا دَخَلَ الْجَنَّةَ))، قُلْتُ: وَإِنْ زَنَى وَإِنْ سَرَقَ؟ قَالَ: ((نَعَمْ)).

**(803)** ........ Əbu Zərr ﷺ rəvayət edir ki, *bir dəfə* Peyğəmbər ﷺ Bəqi qəbiristanlığına tərəf getdi. Mən də onun dalınca getdim. O, arxaya dönüb məni gördükdə dedi: "Ey Əbu Zərr!" Mən dedim: "Hüzurundayam, ya Rəsulullah, əmrinə müntəzirəm, canım sənə qurban!" O, dedi: "(Bu dünyada var-dövlətlərini) artıranlar Qiyamət günü (savablarını) azaldacaqlar.[1] Yalnız haqq yolda belə və belə edənlər[2] müstəsnadır." Mən dedim: "Allah və

[1] Beləl追ri barədə Uca Allah buyurur: **"*Var-dövlət* çoxluğuna hərisliyiniz başınızı o qədər qatdı ki, *gömülməklə* qəbirləri ziyarət etdiniz"** (ət-Təkasur, 1-2); digər ayədə O, buyurur: **"Qızıl-gümüş yığıb onları Allah yolunda sərf etməyənləri ağrılı-acılı bir əzabla müjdələ. O gün bu *yığdıqları sərvətlər* Cəhənnəm odunda qızdırılacaq və bununla onların alınlarına, böyürlərinə və kürəklərinə damğa vurulacaq və *onlara:* "Budur özünüz üçün yığdıqlarınız. Elə isə, dadın yığdıqlarınızı!"*– deyiləcəkdir*"** (ət-Tovbə, 34-35).

[2] Burada "belə və belə edənlər" deyildikdə, malını Allah yolunda hər yana xərcləyənlər nəzərdə tutulur. Başqa bir hədisdə Əbu Zərr ﷺ demişdir: "*Bir dəfə* mən Peyğəmbərin ﷺ yanına gedib *gördüm ki,* o, Kəbənin kölgəsində oturub təkrar-təkrar deyir: "Kəbənin Rəbbinə and olsun ki, onlar ziyana uğrayacaqlar! Kəbənin Rəbbinə and olsun ki, onlar ziyana uğrayacaqlar!" Mən *öz-özümə*: "Mən nə etmişəm? Olmaya, məndə bir nöqsan görüb? Axı, mən nə etmişəm?"– dedim, sonra gəlib onun yanında oturdum. O, *dayanmadan bu sözləri* təkrar edirdi. Mən narahat olduğumdan özümü saxlaya bilməyib dedim: "Atam-anam sənə qurban, ya Rəsulullah, kimdir onlar?" O buyurdu: "Mal-dövləti çox olanlar! Yalnız belə, belə və belə edənlər (Allahın rizasını qazanmaq üçün malını xeyirxah işlərə xərcləyənlər) istisnadır" (Səhih əl-Buxari, 6638).

Onun Rəsulu daha yaxşı bilir.” O: “Belə” sözünü üç dəfə təkrar etdi.[1] Sonra qarşımıza Uhud dağı çıxdı. O, dedi: “Ey Əbu Zərr!” Mən dedim: “Hüzurundayam, ya Rəsulullah, əmrinə müntəzirəm, canım sənə qurban!” O, dedi: “Uhud dağının Muhəmməd ailəsi üçün qızıla çevrilib, bir gecə onların yanında ondan bircə qızıl, yaxud bircə misqal qalması məni sevindirməz.”[2] Sonra qarşımıza bir vadi çıxdı. Peyğəmbər ﷺ qabağa keçdi. Mən onun subaşına çıxmaq istədiyini zənn etdim və buna görə də bir kənarda oturub onu gözlədim. O, bir qədər gec qayıtdı və mən onun başına bir iş gəlməsindən qorxdum. Sonra mən onun kiminləsə pıçıldaşdığını eşitdim. Lakin o mənim yanıma tək gəldi. Mən soruşdum: “Ya Rəsulullah, sənin pıçıldaşdığın adam kim idi?” O soruşdu: “Sən bunu eşitdinmi?” Mən: “Bəli!”– deyə cavab verdim. O, dedi: “Bu, Cəbrail idi. Gəlmişdi mənə müjdə versin ki, ümmətimdən hər kim Allaha şərik qoşmadığı halda ölsə, Cənnətə daxil olacaq.”[3] Mən dedim: “Zina etsə, oğurluq etsə belə?”[4] O: “Bəli!”– dedi.”[5]

---

[1] İmam Buxarinin “Səhih”indəki digər rəvayətdə (5963) Peyğəmbər ﷺ: “...belə, belə və belə edənlər – sağından, solundan və arxadan”– demiş, beləliklə də, hər istiqamətdə yaxşı işlər görənlərə işarə etmişdir.

[2] Peyğəmbər ﷺ evində bu qədər qızılın olduğu təqdirdə onları bircə gün belə evində saxlamayacağını və hamısını Allah yolunda xərcləyəcəyini xəbər verir. Bu da, Peyğəmbərin ﷺ olduqca səxavətli olduğuna dəlalət edir.

[3] 411-ci hədisin qeydlərinə bax.

[4] İmam Buxarinin “Səhih”indəki rəvayətdə Əbu Zərr ؓ demişdir: “Mən soruşdum: “Zina etsə, oğurluq etsə belə?” O dedi: “Zina etsə, oğurluq etsə belə!” *Yenə* soruşdum: “Zina etsə, oğurluq etsə belə?” O dedi: “Zina etsə, oğurluq etsə belə!” *Bir də* soruşdum: “Zina etsə, oğurluq etsə belə?” O dedi: “Zina etsə, oğurluq etsə belə, Əbu Zərrin xoşuna gəlməsə belə!” (Sonralar) Əbu Zərr hər dəfə bu hədisi danışarkən deyərdi: “Əbu Zərrin xoşuna gəlməsə belə!” (Səhih əl-Buxari, 5827). Bu, tövhidin fəzilətinə dəlalət edir.

[5] Bu hədisi Əhməd (1/301) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “səhih” olduğunu demişdir.

## ٣٥٠- بَابُ قَوْلِ الرَّجُلِ: ((فِدَاكَ أَبِي وَأُمِّي))

## 350-ci fəsil. Adamın (birisinə): "Atam-anam sənə fəda olsun!"– deməsi

٨٠٤- حَدَّثَنَا قَبِيصَةُ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ سَعْدِ بْنِ إِبْرَاهِيمَ قَالَ: حَدَّثَنِي عَبْدُ اللَّهِ بْنُ شَدَّادٍ قَالَ: سَمِعْتُ عَلِيًّا رَضِيَ اللَّهُ عَنْهُ يَقُولُ: مَا رَأَيْتُ النَّبِيَّ ﷺ يُفَدِّي رَجُلًا بَعْدَ سَعْدٍ، سَمِعْتُهُ يَقُولُ: ((ارْمِ، فِدَاكَ أَبِي وَأُمِّي)).

**(804)** ........ Əli ﷺ demişdir:[1] "Mən Peyğəmbərin ﷺ Səddən başqa kimsəyə (ata-anasını) fəda qıldığını görməmişəm.[2] Mən Peyğəmbərin ﷺ *ona* belə buyurduğunu eşitmişəm: "Atam-anam sənə fəda olsun,[3] oxla vur *onu*."

---

[1] Bu hədisi Buxari (2905) və Muslim (4431) rəvayət etmişdir.

[2] Bu hadisə Uhud döyüşündə baş vermişdir. Səd ibn Əbu Vəqqas ﷺ demişdir: "Uhud döyüşündə müşriklərdən biri müsəlmanları qırıb-çatırdı. Onda, Peyğəmbər ﷺ mənə dedi: "Atam-anam sənə fəda olsun, vur *onu*!" Mən onu vurmaq üçün *ox qabından* ucu olmayan bir ox çıxartdım *və bu oxla* onu böyründən vurdum. *Ox ona dəyən kimi* o, arxası üstə yerə yıxıldı və üst-başı açıldı. Onda Rəsulullah ﷺ güldü və mən onun arxa dişlərini gördüm" (Səhih Muslim, 4431). Qeyd edək ki, Abdullah ibn Zubeyrin ﷺ rəvayət etdiyi hədisdə Peyğəmbərin ﷺ Zubeyr ibn Əvvama ﷺ da həmçinin, "atam-anam sənə fəda olsun!"– dediyi xəbər verilir (Səhih əl-Buxari, 3720). İbn Həcər bu iki hədisi cəm edib demişdir: "Əli ibn Əbu Talib bu hədisdə "görməmişəm" deməklə, Peyğəmbərin ﷺ Zubeyrə "atam-anam sənə fəda olsun!" dediyinin şahidi olmadığını xəbər verir. Ya da, ancaq Uhud döyüşünü qəsd edir, yəni Peyğəmbər ﷺ bu döyüşdə ancaq Səd ibn Əbu Vəqqasa ﷺ belə demişdir" (Fəthul-Bari, 7/84).

[3] İmam Nəvəvi bu hədisi izah edərkən demişdir: "Bir çox alimlər bu ifadəni işlətməyi caiz hesab etmiş, Ömər ibn Xattab ﷺ və Həsən əl-Bəsri bunu deməyi məkruh hesab etmiş, bir çoxları da, ümumiyyətlə, müsəlman valideyni barədə bu sözü işlətməyi məkruh saymışlar" (Şərh ən-Nəvəvi alə Muslim). Abdul-Muhsin əl-Abbad bu xüsusda, demişdir: "Mən kimsənin Rəsulullahdan ﷺ başqa birisinə "atam-anam sən qurban!"– dediyini eşitməmişəm və buna dair heç bir dəlilim yoxdur... Bu ifadə yalnız Rəsulullaha ﷺ aid edilmişdir. Çünki Rəsulullah ﷺ möminlərə onların atalarından və analarından da əzizdir. Çünki Allahın onun əli ilə müsəlmanlara bəxş etdiyi İslam neməti daha əzəmətli və fəzi-

٨٠٥- حَدَّثَنَا عَلِيُّ بْنُ الْحَسَنِ قَالَ: أَخْبَرَنَا الْحُسَيْنُ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ بُرَيْدَةَ، عَنْ أَبِيهِ: خَرَجَ النَّبِيُّ ﷺ إِلَى الْمَسْجِدِ وَأَبُو مُوسَى يَقْرَأُ، فَقَالَ: ((مَنْ هَذَا؟)) فَقُلْتُ: أَنَا بُرَيْدَةُ جُعِلْتُ فِدَاكَ، قَالَ: ((قَدْ أُعْطِيَ هَذَا مِزْمَارًا مِنْ مَزَامِيرِ آلِ دَاوُدَ)).

**(805)** ........ Bureydə ﷺ demişdr: "(Bir dəfə) Əbu Musa[1] məsciddə Quran oxuyarkən Peyğəmbər ﷺ (yanıma) gəldi və: "Bu kimdir?"– deyə soruşdu. Mən dedim: "Mənəm Bureydə, canım sənə qurban." O, dedi: "Buna Davudun[2] səsi tək məlahətli bir səs bəxş edilmişdir!"[3]

---

lətli nemətdir. Elə buna görə də, hər bir müsəlmanın ona olan sevgisi öz valideyninə olan sevgisindən üstün olmalıdır. Bu xüsusda, Rəsulullah ﷺ belə buyurmuşdur: "Canım Əlində olan Allaha and olsun ki, sizdən biriniz məni valideynindən, övladından və bütün insanlardan çox istəməyincə, iman gətirmiş olmaz" (Səhih əl-Buxari, 14). Ola bilsin ki, adamın başqa birisinə "canım sənə qurban!" deməsi caiz olsun... Lakin adamın öz valideynlərini başqa birisinə fəda etməsi bəyənilmir (Şərh Sunən Əbu Davud).

[1] Əbu Musa Abdullah ibn Qeys ibn Suleym əl-Əşari ət-Təmimi ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. İslam dinini Məkkədə qəbul etmiş, sonra Həbəşistana hicrət etmiş və nəhayət, Xeybərin fəthindən üç gün sonra Peyğəmbərin ﷺ yanına gəlmişdir. Peyğəmbər ﷺ onu Muaz ibn Cəbəl ilə birgə Yəmənə dəvətə göndərmişdir. Ömər ibn Xattabın ﷺ xilafəti dövründə Bəsrənin, Osman ibn Əffanın ﷺ xilafəti dövründə isə Kufənin valisi olmuşdur. Əbu Musa hicrətin 42-ci ilində vəfat etmişdir. (Siyər Əlam ən-Nubələ, 82-ci tərcümeyi-hal).

[2] Burada Peyğəmbər ﷺ Əbu Musa əl-Əşarinin səsinin Davud aleyhissəlamın gözəl səsinə bənzədiyini xəbər verir.

[3] Bu hədisi Muslim (2/192-193), Əhməd (5/351), İbn Əbu Şeybə (12/122/12308) və İbn Səd (ət-Təbəqat, 4/107) rəvayət etmişdir. İmam Nəsainin "əs-Sunən əl-Kubra" əsərindəki (5/23/8058) eynimənalı bu hədisin tamamında deyilir ki, "Səhəri gün Peyğəmbərin ﷺ bu sözü barədə Əbu Musaya xəbər verildikdə, o demişdir: "Ya Rəsulullah, əgər mən sənin mənə qulağ asdığını bilsəydim, onu daha gözəl səslə oxuyardım."

## ٣٥١- بَابُ قَوْلِ الرَّجُلِ: ((يَا بُنَيَّ))، لِمَنْ أَبُوهُ لَمْ يُدْرِكِ الإِسْلاَمَ

## 351-ci fəsil. Adamın, atası müsəlman olmamış birisinə "oğlum"[1] deməsi

٨٠٦- حَدَّثَنَا بِشْرُ بْنُ الْحَكَمِ قَالَ: حَدَّثَنَا مَحْبُوبُ بْنُ مُحْرِزٍ الْكُوفِيُّ قَالَ: حَدَّثَنَا الصَّعْبُ بْنُ حَكِيمٍ، عَنْ أَبِيهِ، عَنْ جَدِّهِ قَالَ: أَتَيْتُ عُمَرَ بْنَ الْخَطَّابِ رَضِيَ اللَّهُ عَنْهُ، فَجَعَلَ يَقُولُ: يَا ابْنَ أَخِي، ثُمَّ سَأَلَنِي؟ فَانْتَسَبْتُ لَهُ، فَعَرَفَ أَنَّ أَبِي لَمْ يُدْرِكِ الإِسْلاَمَ، فَجَعَلَ يَقُولُ: يَا بُنَيَّ يَا بُنَيَّ.

**(806)** ........ Sab ibn Həkim atasından, o da, öz atasından belə rəvayət etmişdir: "(Bir gün) mən Ömər ibn Xattabın yanına gəldim və o, mənə: "Ey qardaş oğlu!"[2]– deyə müraciət etdi. Sonra məndən (kim olduğumu) soruşdu. Mən də kimin oğlu olduğumu ona söylədim. O, atamın müsəlman olmadığını biləndən sonra mənə: "Oğlum! Oğlum!"– dedi."[3]

٨٠٧- حَدَّثَنَا مُحَمَّدٌ، قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ قَالَ: أَخْبَرَنَا جَرِيرُ بْنُ حَازِمٍ، عَنْ سَلْمٍ الْعَلَوِيِّ قَالَ: سَمِعْتُ أَنَسًا يَقُولُ: كُنْتُ خَادِمًا لِلنَّبِيِّ ﷺ، قَالَ: فَكُنْتُ أَدْخُلُ بِغَيْرِ اسْتِئْذَانٍ، فَجِئْتُ يَوْمًا، فَقَالَ: ((كَمَا أَنْتَ يَا بُنَيَّ، فَإِنَّهُ قَدْ حَدَثَ بَعْدَكَ أَمْرٌ، لا تَدْخُلَنَّ إِلا بِإِذْنٍ)).

---

[1] Uşağa "oğlum"– demək ona göstərilən mərhəmətə aiddir. Belə ki, yetim qalmış və bir kimsədən "oğlum" sözünü eşitməyən uşağa belə müraciət etmək, əlbəttə ki, ona rəhm etmək deməkdir. İslam dini də hər bir müsəlmana uşaqlara rəhm etməyi buyurur (Əlavə məlumat üçün 173-cü fəsildəki hədislərə bax).

[2] Ömər ibn Xattab ﷺ əvvəlcə bu uşağa mərhəmət göstərmək üçün ona belə müraciət edir. Sonra onun atasının müşrik olduğunu yəqin etdikdə, artıq ona "Oğlum!" – deməyə başlayır. Bu da, ona görədir ki, heç bir müşrik müsəlmana qardaş sayıla bilməz.

[3] Bu hədisin isnadında keçən Məhbub "leyyin", Sab və onun atası isə "məchul" ravilər olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

**(807)** ........ Ənəs ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ xidmətçisi olmuşam. Mən onun yanına izinsiz daxil olardım. Bir gün mən onun yanına gəlib, (izinsiz içəri daxil olmaq istədikdə) o buyurdu: "Yerində dur, oğlum.[1] Çünki sən gedəndən sonra bir hadisə baş verdi.[2] Odur ki, bundan sonra izinsiz içəri girmə."[3]

**٨٠٨-** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي عَبْدُ الْعَزِيزِ بْنُ أَبِي سَلَمَةَ، عَنِ ابْنِ أَبِي صَعْصَعَةَ، عَنْ أَبِيهِ، أَنَّ أَبَا سَعِيدٍ الْخُدْرِيَّ قَالَ لَهُ: يَا بُنَيَّ.

**(808)** ........ Əbu Sa'saə rəvayət edir ki, Əbu Səid əl-Xudri ﷺ ona: "Oğlum" – demişdir.[4]

---

[1] Bu, dəlildir ki, uşağa "Oğlum!"– demək caizdir.

[2] Burada söhbət hicab ayəsinin nazil olmasından gedir. Bu xüsusda, Uca Allah buyurur: "**Ey iman gətirənlər! Sizə yeməyə izin verilməyincə Peyğəmbərin evlərinə girməyin və *əvvəlcədən gəlib* yeməyin hazırlanmasını da gözləməyin. Lakin dəvət olunduqda girin və yemək yedikdən sonra bir-birinizlə söhbətə dalmadan dağılışın. Çünki bu *hərəkətiniz* Peyğəmbəri narahat edir və o sizdən utanır. Allah isə sözün açığını *sizə bəyan etməkdən* utanmır. *Peyğəmbərin* zövcələrindən bir şey soruşduqda, pərdə arxasından soruşun...**" (əl-Əhzab, 53).

[3] Bu hədisi Əhməd (3/199 və 209), Təhavi (Şərhul-Məani, 2/393), Beyhəqi (Şoəbul-İman, 6/164-165) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih li-ğeyrihi" olduğunu demişdir.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٣٥٢- بَابُ لا يَقُلْ: ((خَبُثَتْ نَفْسِي))

## 352-ci fəsil. Adam: "Nəfsim alçaldı" deməməlidir

٨٠٩- حَدَّثَنَا مُحَمَّدُ بْنُ يُوسُفَ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ هِشَامٍ، عَنْ أَبِيهِ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((لاَ يَقُولَنَّ أَحَدُكُمْ: خَبُثَتْ نَفْسِي، وَلَكِنْ لِيَقُلْ: لَقِسَتْ نَفْسِي)).

**(809)** ........ Aişə ﵂ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Sizlərdən heç kəs: "Nəfsim alçaldı"– deməsin. Lakin: "Nəfsim daraldı" – desin.[1]"[2]

٨١٠- حَدَّثَنَا عَبْدُ اللَّهِ قَالَ: حَدَّثَنِي اللَّيْثُ قَالَ: حَدَّثَنِي يُونُسُ، عَنِ ابْنِ شِهَابٍ، عَنْ أَبِي أُمَامَةَ، عَنْ أَبِيهِ، عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ: ((لاَ يَقُولَنَّ أَحَدُكُمْ: خَبُثَتْ نَفْسِي، وَلْيَقُلْ: لَقِسَتْ نَفْسِي)).

قَالَ مُحَمَّدٌ : أَسْنَدَهُ عُقَيلٌ.

**(810)** ........ Əbu Umamə öz atasından rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Sizlərdən heç kəs: "Nəfsim alçaldı"– deməsin, qoy: "Nəfsim daraldı"– desin."

Muhəmməd dedi: "Uqeyl bu hədisi isnad edərək rəvayət etmişdir."[3]

---

[1] Bundan aydın olur ki, İslam dinini insanlara öyrədən adam onların xəta etdiyini gördükdə, bunu onlara qadağan etməli və bu məqamda doğru olanını onlara öyrətməlidir. Buna Uca Allahın bu ayəsini misal göstərmək olar: **"Ey iman gətirənlər!** ***Peyğəmbərə:*** **"Bizə qayğı göstər!"– deməyin; "Bizə nəzər yetir!"– deyin və** ***Allahın əmrini*** **eşidin!"** (əl-Bəqərə, 104).

[2] Bu hədisi Buxari (5711) və Muslim (6015) rəvayət etmişdir.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu bildirmiş, sonra demişdir: "Bu, Muhəmməd ibn İsmail əl-Buxaridir. Uqeyl əl-Əyli isə Xalidin oğludur. Özü də Buxari və Muslimin ravilərindəndir. Burada Buxarinin "Uqeyl bu hədisi isnad edərək rəvayət etmişdir" sözü aydın olmasa da, öz "Səhih"indəki (6180): "Uqeylin rəvayəti bunu qüvvətləndirir sözü daha aydındır (Səhih əl-Ədabul-Mufrad).

## ٣٥٣– بَابُ كُنْيَةِ أَبِي الْحَكَمِ

## 353-cü fəsil. Əbul-Həkəm kunyəsi[1]

٨١١– حَدَّثَنَا أَحْمَدُ بْنُ يَعْقُوبَ قَالَ: حَدَّثَنَا يَزِيدُ بْنُ الْمِقْدَامِ بْنِ شُرَيْحِ بْنِ هَانِئٍ الْحَارِثِيُّ، عَنْ أَبِيهِ الْمِقْدَامِ، عَنْ شُرَيْحِ بْنِ هَانِئٍ قَالَ: حَدَّثَنِي هَانِئُ بْنُ يَزِيدَ، أَنَّهُ لَمَّا وَفَدَ إِلَى النَّبِيِّ ﷺ مَعَ قَوْمِهِ، فَسَمِعَهُمُ النَّبِيُّ ﷺ وَهُمْ يُكَنُّونَهُ بِأَبِي الْحَكَمِ، فَدَعَاهُ النَّبِيُّ ﷺ فَقَالَ: ((إِنَّ اللَّهَ هُوَ الْحَكَمُ، وَإِلَيْهِ الْحُكْمُ، فَلِمَ تَكَنَّيْتَ بِأَبِي الْحَكَمِ؟)) قَالَ: لاَ، وَلَكِنَّ قَوْمِي إِذَا اخْتَلَفُوا فِي شَيْءٍ أَتَوْنِي فَحَكَمْتُ بَيْنَهُمْ، فَرَضِيَ كِلاَ الْفَرِيقَيْنِ، قَالَ: ((مَا أَحْسَنَ هَذَا))، ثُمَّ قَالَ: ((مَا لَكَ مِنَ الْوَلَدِ؟)) قُلْتُ: لِي شُرَيْحٌ، وَعَبْدُ اللَّهِ، وَمُسْلِمٌ، بَنُو هَانِئٍ، قَالَ: ((فَمَنْ أَكْبَرُهُمْ؟)) قُلْتُ: شُرَيْحٌ، قَالَ: ((فَأَنْتَ أَبُو شُرَيْحٍ))، وَدَعَا لَهُ وَوَلَدِهِ.

وَسَمِعَ النَّبِيُّ ﷺ قَوْمًا يُسَمُّونَ رَجُلًا مِنْهُمْ: عَبْدَ الْحَجَرِ، فَقَالَ النَّبِيُّ ﷺ: ((مَا اسْمُكَ؟)) قَالَ: عَبْدُ الْحَجَرِ، قَالَ: ((لاَ، أَنْتَ عَبْدُ اللَّهِ)).

قَالَ شُرَيْحٌ: وَإِنَّ هَانِئًا لَمَّا حَضَرَ رُجُوعُهُ إِلَى بِلاَدِهِ أَتَى النَّبِيَّ ﷺ فَقَالَ: أَخْبِرْنِي بِأَيِّ شَيْءٍ يُوجِبُ لِيَ الْجَنَّةَ؟ قَالَ: ((عَلَيْكَ بِحُسْنِ الْكَلاَمِ، وَبَذْلِ الطَّعَامِ)).

**(811)** ........ Hani ibn Yezid ﷺ demişdir: "Mən öz qövmümlə birgə Peyğəmbərin ﷺ yanına gəldikdə, Peyğəmbər ﷺ həmqəbilələrimin məni Əbul-Həkəm çağırdıqlarını eşitdi. Onda, Peyğəmbər ﷺ məni çağırıb dedi: "Əl-Həkəm ancaq Allahdır, hökm də yalnız Ona məxsusdur. Elə isə, nə üçün özünə Əbul-Həkəm ləqəbi götürmüsən?!" Mən dedim: "Yox.[2] Fəqət qövmüm arasında ixtilaf düşdüyü zaman onlar mənim yanıma gəlir, mən də

---

[1] Kunyə: ismin əvvəlinə "əbu (ata)", yaxud "ummu (ana)" sözlərindən birini qoşmaqla əmələ gələn ləqəb və ya ayamadır.

[2] Səhabə demək istəyir ki, o, özünə bu ləqəbi götürməklə Allahın Tək Hakim olduğunu və hökmün də yalnız Ona məxsus olduğunu inkar eləmir.

onların arasında hökm verirəm. Beləliklə də, hər iki tərəf bu hökmdən razı qalır. Peyğəmbər ﷺ dedi: "Bu nə gözəldir!"[1] Sonra soruşdu: "Övladın varmı?" Mən dedim: "Haninin[2] oğulları Şureyh, Abdullah və Muslimdir." Peyğəmbər ﷺ soruşdu: "Onların ən böyüyü hansıdır?" Mən dedim: "Şureyhdir." Peyğəmbər ﷺ (mənə): "Elə isə, sən Əbu Şureyhsən"– deyə buyurdu.[3] Sonra həm mənim üçün, həm də övladlarım üçün dua etdi.

Peyğəmbər ﷺ bir qövmün özlərindən olan biri kişini Abdulhəcər[4] çağırdıqlarını eşitdi. Peyğəmbər ﷺ *həmin kişidən*: "Adın nədir?"– deyə soruşdu. Adam: "Abdulhəcərdir"– deyə cavab verdi. Peyğəmbər ﷺ də (ona) belə buyurdu: "Xeyr, sən Abdullahsan."

---

[1] Bunun gözəl əməl olduğu barədə Quranda belə buyurulur: **"Onların gizli söhbətlərinin çoxunda xeyir yoxdur. Sədəqə verməyi və ya yaxşılıq etməyi, yaxud da insanlar arasında sülh yaratmağı əmr edən şəxsin *pıçıldaması* isə istisnadır. Kim bunu Allahın razılığını qazanmaq üçün edərsə, Biz ona böyük mükafat verərik"** (ən-Nisa, 114).

[2] Səhabə bunu deyəndə, özünü qəsd edir. Yəni Hani ibn Yezid ؓ.

[3] Bu, dəlildir ki, adama Əbul-Həkəm kunyəsi vermək qadağandır. Çünki əl-Həkəm Allahın adlarından biridir. Elə bu səbəbdən də, Peyğəmbər ﷺ Hani ibn Yezidə ؓ özünə belə kunyə götürməyi qadağan etmişdir. Lakin qeyd etmək lazımdır ki, tərəflər arasında Allahın hökmü ilə hökm verən adama hakim demək caizdir. Bu xüsusda, Uca Allah buyurur: **"Əgər ər-arvad arasında ixtilaf olacağından qorxsanız, onda kişinin ailəsindən bir hakim və qadının ailəsindən bir hakim göndərin. Əgər bunlar islah etmək istəsələr, Allah da onları barışdırar"** (ən-Nisa, 35).

[4] Abdulhəcər: Daşın qulu deməkdir. Allahdan qeyrisinin qulu olduğunu iddia etmək şirk sayılır. Allaha şərik qoşmaq isə ən böyük günahdır. Bundan aydın olur ki, insana belə ad qoymaq haramdır. Bu xüsusda, Uca Allah buyurur: **"Şübhəsiz ki, Allah Ona şərik qoşmağı bağışlamayacaq. Bundan başqa olan *günahları* isə istədiyi kimsəyə bağışlayacaqdır. Allaha şərik qoşan şəxs əlbəttə ki, dərin bir azğınlığa düşmüşdür"** (ən-Nisa, 116); digər ayədə O, buyurur: **"Həqiqətən də, Allaha şərik qoşan kimsəyə, Allah Cənnəti haram etmişdir və onun sığınacağı yer Oddur. Zalımlara kömək edən olmayacaqdır"** (əl-Maidə, 72); O, həmçinin, buyurur: **"Əgər *Allaha* şərik qoşsaydılar, əlbəttə, etdikləri əməllər puç olardı"** (əl-Ənam, 88).

Şureyh dedi: "(Atam) Hani yurduna qayıtmaq üçün hazırlıq gördüyü zaman Peyğəmbərin ﷺ yanına gəlib dedi: "De görüm, mən nə edim ki, Cənnət mənə vacib olsun."[1] Peyğəmbər ﷺ dedi: "Xoş söz söylə[2] və (ehtiyacı olanlara) çoxlu yemək ver.[3]"[4]

---

[1] Bundan aydın olur ki, səhabələr Cənnəti qazanmaq üçün xeyirxah işlər görməyə tələsər və Peyğəmbərdən ﷺ bunun yollarını öyrənərdilər. Buna bənzər digər bir hədisdə rəvayət edilir ki, Abdul-Qeys qəbiləsinin nümayəndələri Peyğəmbərin ﷺ yanına gəlib ona: "Bizə *haqqı batildən ayırd edən* bəlli bir şey əmr et ki, onu geridə qalanlarımıza xəbər verək, onun sayəsində Cənnətə girək" – deyir, Peyğəmbər ﷺ də onlara Tək Allaha iman gətirməyi – şəriki olmayan Tək Allahdan başqa *ibadətə haqqı olan* heç bir məbudun olmadığına və Muhəmmədin Onun Rəsulu olduğuna şəhadət verməyi, namaz qılmağı, zəkat verməyi, Ramazan orucunu tutmağı və qənimətlərdən beşdə birini (xüms) verməyi buyurur, habelə, onlara həntəmi, dubbanı, nəqiri və müzəffəti qadağan edir" (Səhih əl-Buxari, 53)

[2] İnsanlara gözəl söz demək əvvəlki ümmətlərə də əmr edilmişdir: **"Bir zaman Biz İsrail oğulları ilə: "Allahdan qeyrisinə ibadət etməyəcək, valideynlərə, qohum-əqrəbaya, yetimlərə və kasıblara xeyirxahlıq edəcək, insanlara xoş söz deyəcək, namaz qılacaq və zəkat verəcəksiniz!"–** ***deyə*****, əhd bağladıq. Sonra az bir qisminiz istisna olmaqla,** ***haqdan*** **üz çevirib döndünüz"** (əl-Bəqərə, 83).

[3] 981-ci hədisə bax.

[4] Bu hədisi Buxari (Xalqu Əfailil-İbad, səh: 79), İbn Hibban (1937 və 1938), Hakim (1/23) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ٣٥٤– بَابُ كَانَ النَّبِيُّ ﷺ يُعْجِبُهُ الاسْمُ الْحَسَنُ

## 354-cü fəsil. Gözəl ad Peyğəmbərin ﷺ xoşuna gələrdi[1]

٨١٢– حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُثَنَّى قَالَ: حَدَّثَنَا سَلْمُ بْنُ قُتَيْبَةَ قَالَ: حَدَّثَنَا حَمَلُ بْنُ بَشِيرِ بْنِ أَبِي حَدْرَدٍ قَالَ: حَدَّثَنِي عَمِّي، عَنْ أَبِي حَدْرَدٍ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((مَنْ يَسُوقُ إِبِلَنَا هَذِهِ؟)) أَوْ قَالَ: ((مَنْ يُبَلِّغُ إِبِلَنَا هَذِهِ؟)) قَالَ رَجُلٌ: أَنَا، فَقَالَ: ((مَا اسْمُكَ؟)) قَالَ: فُلاَنٌ، قَالَ: ((اجْلِسْ))، ثُمَّ قَامَ آخَرُ، فَقَالَ: ((مَا اسْمُكَ؟)) قَالَ: فُلاَنٌ، فقَالَ: ((اجْلِسْ))، ثُمَّ قَامَ آخَرُ، فَقَالَ: مَا اسْمُكَ؟ قَالَ: نَاجِيَةُ، قَالَ: ((أَنْتَ لَهَا، فَسُقْهَا)).

**(812)** ........ Əbu Hədrəd ؓ demişdir: “Bir dəfə Peyğəmbər ﷺ (səhabələrdən) soruşdu: “Kim bizim bu dəvəmizi (filan yerə) sürüb aparar?” və ya “Kim bizim bu dəvəmizi (filan yerə) çatdırar?” Bir nəfər: “Mən (apararam)”– dedi. Peyğəmbər ﷺ soruşdu: “Adın nədir?” O, dedi: “Filankəsdir.” Peyğəmbər ﷺ (ona): “Otur!”– deyə buyurdu. Sonra başqa birisi ayağa qalxdı. Peyğəmbər ﷺ soruşdu: “Sənin adın nədir?” O, dedi: “Filankəsdir.” Peyğəmbər ﷺ (ona da): “Otur!”– deyə buyurdu. Sonra başqa birisi ayağa qalxdı. Peyğəmbər ﷺ soruşdu: “Sənin adın nədir?” O, dedi: “Naciyədir.[2]” Peyğəmbər ﷺ (ona): “Sən buna layiqsən, sür apar”– deyə buyurdu.”[3]

---

[1] Rəvayət edilir ki, Aişə ؓ demişdir: “Peyğəmbər ﷺ qəbih adı dəyişərdi” (Sunən ət-Tirmizi, 2/137; Silsilətul-Əhadisis-Səhihə, 207). Yəni bir adamın adının qəbih olduğunu gördükdə, onu gözəl adla əvəz edərdi.

[2] Naciyə: nicat tapmış, xilas edilmiş, qurtulmuş deməkdir.

[3] Bu hədisin isnadında keçən Həml ibn Bəşir və onun əmisinin “məchul” ravilər olduğundan, Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “zəif” olduğunu demişdir. Hədisin isnadı “zəif” olsa da, bu fəsilin ünvanına dəlalət edən neçə-neçə “səhih” hədislər varid olmuşdur (814-cü, 816-cı, 817-ci, 820-ci, 821-ci, 822-ci, 824-cü, 825-ci, 826-cı, 829-cu və 841-ci hədislərə bax).

## ٣٥٥- بَابُ السُّرْعَةِ فِي الْمَشْيِ

## 355-ci fəsil. Tez-tez yerimək

٨١٣- حَدَّثَنَا إِسْحَاقُ قَالَ: أَخْبَرَنَا جَرِيرٌ، عَنْ قَابُوسَ، عَنْ أَبِيهِ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: أَقْبَلَ نَبِيُّ اللَّهِ ﷺ مُسْرِعًا وَنَحْنُ قُعُودٌ، حَتَّى أَفْزَعَنَا سُرْعَتُهُ إِلَيْنَا، فَلَمَّا انْتَهَى إِلَيْنَا سَلَّمَ، ثُمَّ قَالَ: ((قَدْ أَقْبَلْتُ إِلَيْكُمْ مُسْرِعًا، لِأُخْبِرَكُمْ بِلَيْلَةِ الْقَدْرِ، فَنَسِيتُهَا فِيمَا بَيْنِي وَبَيْنَكُمْ، فَالْتَمِسُوهَا فِي الْعَشْرِ الأَوَاخِرِ)).

**(813)** ........ İbn Abbas ﷻ demişdir: "(Bir dəfə) biz bir yerdə oturmuşduq. Elə bu vaxt Allahın Peyğəmbər ﷺ tələsik bizim yanımıza gəldi. Biz onun yanımıza belə tələsik gəldiyindən əndişəyə düşdük. O, bizə yaxınlaşdıqda salam verib dedi: "Mən tələsik sizin yanınıza gəldim ki, Qədr gecəsi barədə sizə xəbər verim. Lakin sizin yanınıza gəlib çatanadək bunu unutdum. Odur ki, siz onu axır on gündə axtarın.[1]"[2]

---

[1] Burada söhbət ramazanın axır on günündən gedir.

[2] Bu hədisin isnadında keçən Qabus "leyyin" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir. Hədisin isnadı "zəif" olsa da, Qədr gecəsinin ramazanın son on günündən birinə təsadüf etdiyi digər "səhih" hədislərdə öz təsdiqini tapmışdır. Rəvayət edilir ki, Əbu Səid ﷺ demişdir: "Biz Peyğəmbərlə ﷺ birlikdə ramazan ayının orta on gününü *məsciddə etikaf etdik*. İyirminci günün səhəri o, *minbərə* qalxıb xütbə verdi və dedi: "Qədr gecəsinin nə zaman olacağı mənə göstərildi, sonra isə bu, mənə unutduruldu" (Səhih əl-Buxari, 2016).

## ٣٥٦- بَابُ أَحَبِّ الأَسْمَاءِ إِلَى اللهِ عَزَّ وَجَلَّ

## 356-cı fəsil. Allahın ﷻ ən çox sevdiyi adlar

٨١٤- حَدَّثَنَا مُحَمَّدُ بْنُ يُوسُفَ قَالَ: حَدَّثَنَا أَحْمَدُ قَالَ: حَدَّثَنَا هِشَامُ بْنُ سَعِيدٍ قَالَ: أَخْبَرَنَا مُحَمَّدُ بْنُ مُهَاجِرٍ قَالَ: حَدَّثَنِي عَقِيلُ بْنُ شَبِيبٍ، عَنْ أَبِي وَهْبٍ، وَكَانَتْ لَهُ صُحْبَةٌ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((تَسَمَّوْا بِأَسْمَاءِ الأَنْبِيَاءِ، وَأَحَبُّ الأَسْمَاءِ إِلَى اللهِ عَزَّ وَجَلَّ: عَبْدُ اللهِ، وَعَبْدُ الرَّحْمَنِ، وَأَصْدَقُهَا: حَارِثٌ، وَهَمَّامٌ، وَأَقْبَحُهَا: ((حَرْبٌ، وَمُرَّةُ)).

**(814)** ........ Əbu Vəhb رضي الله عنه rəvayət edir ki,[1] Peyğəmbər ﷺ demişdir: "Özünüzə peyğəmbərlərin adlarını qoyun.[2] Allahın ﷻ ən çox sevdiyi adlar Abdullah[3] və Abdur-Rəhmandır.[1] Adların ən doğrusu Haris[2] və Həmmamdır.[3] Ən pisi isə Hərb[4] və Murradır.[5]"

---

[1] Bu hədisi Əbu Davud (4950) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[2] Quranda adları zikr olunan peyğəmbərlər bunlardır:

**Adəm** عليه السلام (əl-Bəqərə, 31), **İdris** عليه السلام (Məryəm, 56), **Nuh** عليه السلام (əl-Ənam, 84), **Hud** عليه السلام (Hud, 50), **Saleh** عليه السلام (ən-Nəml, 45), **İbrahim** عليه السلام (əl-Ənam, 83), **İsmail** عليه السلام (əl-Ənam, 86), **İshaq** عليه السلام (əl-Ənam, 84), **Lut** عليه السلام (əl-Ənam, 86), **Şueyb** عليه السلام (əl-Əraf, 85), **Yəqub** عليه السلام (əl-Ənam, 84), **Yusuf** عليه السلام (əl-Ənam, 84), **Zulkifl** عليه السلام (əl-Ənbiya, 85), **Əyyub** عليه السلام (əl-Ənam, 84), **Yunus** عليه السلام (əl-Ənam, 86), **Musa** عليه السلام (əl-Ənam, 84), **Harun** عليه السلام (əl-Ənam, 84), **İlyas** عليه السلام (əl-Ənam, 85), **Əlyəsə** عليه السلام (əl-Ənam, 86), **Davud** عليه السلام (əl-Ənam, 84), **Suleyman** عليه السلام (əl-Ənam, 84), **Zəkəriyya** عليه السلام (əl-Ənam, 85), **Yəhya** عليه السلام (əl-Ənam, 85), **İsa** عليه السلام (əl-Ənam, 85) və **Muhəmməd** ﷺ (Ali-İmran, 144).

Peyğəmbər olub-olmadığında ixtilaf edilmiş əməlisaleh möminlər isə bunlardır:

**Zulqərneyn** عليه السلام (əl-Kəhf, 83), **Uzeyr** عليه السلام (ət-Tovbə, 30) və **əl-Xədir** عليه السلام (əl-Kəhf, 67; Səhih əl-Buxari, 122).

Hədislərdə adları varid olmuş peyğəmbərlər də bunlardır:

**Yuşə ibn Nun** عليه السلام (Fəthul-Qədir, 4/406; Səhih əl-Buxari, 122; Fəthul Bari, 6/221), **Daniyal** عليه السلام (Fadailuş-Şam, 1/18).

[3] Abdullah: Allahın qulu.

٨١٥- حَدَّثَنَا صَدَقَةُ قَالَ: حَدَّثَنَا ابْنُ عُيَيْنَةَ قَالَ: حَدَّثَنَا ابْنُ الْمُنْكَدِرِ، عَنْ جَابِرٍ قَالَ: وُلِدَ لِرَجُلٍ مِنَّا غُلاَمٌ فَسَمَّاهُ: الْقَاسِمَ، فَقُلْنَا: لاَ نُكَنِّيكَ أَبَا الْقَاسِمِ وَلاَ كَرَامَةَ، فَأُخْبِرَ النَّبِيُّ ﷺ فَقَالَ: ((سَمِّ ابْنَكَ عَبْدَ الرَّحْمَنِ)).

**(815)** ........ Cabir ﷺ demişdir: "Bizlərdən birinin oğlu oldu və o, uşağa Qasim[6] adını verdi. Biz də (ona): "Sənə Əbul-Qasim kunyəsini verməyəcəyik, üstəlik, (buna görə sənə) hörmət göstərilməyəcək"– dedik. Sonra bu haqda Peyğəmbərə ﷺ xəbər verildikdə o, (bu adama): "Oğluna Abdur-Rəhman adını ver[7]"– deyə buyurdu."[8]

---

[1] Abdur-Rəhman: ər-Rəhmanın qulu.

[2] Haris: qoruyan, gözətçi.

[3] Həmmam: çalışqan, fəal, yorulmaz, yorulmaq bilməyən.

[4] Hərb: müharibə.

[5] Murra: acı.

[6] 839-cu hədisə bax.

[7] Bir çox hədislərdə Peyğəmbər ﷺ müsəlmanlara özlərinə Əbul-Qasim kunyəsini qoymağı qadağan etmişdir (836-cı, 837-ci və 842–ci hədislərə bax).

[8] Bu hədisi Buxari (6186) və Muslim (5718) rəvayət etmişdir.

## ٣٥٧- بَابُ تَحْوِيلِ الاسْمِ إِلَى الاسْمِ

## 357-ci fəsil. Bir adı başqa bir adla dəyişmək[1]

٨١٦- حَدَّثَنَا سَعِيدُ بْنُ أَبِي مَرْيَمَ قَالَ: حَدَّثَنَا أَبُو غَسَّانَ قَالَ: حَدَّثَنِي أَبُو حَازِمٍ، عَنْ سَهْلٍ قَالَ: أُتِيَ بِالْمُنْذِرِ بْنِ أَبِي أُسَيْدٍ إِلَى النَّبِيِّ ﷺ حِينَ وُلِدَ، فَوَضَعَهُ عَلَى فَخِذِهِ، وَأَبُو أُسَيْدٍ جَالِسٌ، فَلَهَى النَّبِيُّ ﷺ بِشَيْءٍ بَيْنَ يَدَيْهِ، وَأَمَرَ أَبُو أُسَيْدٍ بِابْنِهِ فَاحْتُمِلَ مِنْ فَخِذِ النَّبِيِّ ﷺ، فَاسْتَفَاقَ النَّبِيُّ ﷺ فَقَالَ: ((أَيْنَ الصَّبِيُّ؟)) فَقَالَ أَبُو أُسَيْدٍ: قَلَبْنَاهُ يَا رَسُولَ اللَّهِ، قَالَ: ((مَا اسْمُهُ؟)) قَالَ: فُلَانٌ، قَالَ: ((لَا، لَكِنِ اسْمُهُ الْمُنْذِرُ))، فَسَمَّاهُ يَوْمَئِذٍ الْمُنْذِرَ.

**(816)** ........ Səhl[2] ﷺ demişdir: "Munzir ibn Əbu Useyd[3] doğulduqda onu Peyğəmbərin ﷺ yanına gətirdilər.[4] Peyğəmbər ﷺ körpəni ayağının üstündə qoydu. Əbu Useyd də onların yanında oturmuşdu. (Həmin vaxt) Peyğəm-

---

[1] Yəni qəbih adı gözəl adla dəyişmək.

[2] Əbul-Abbas Səhl ibn Səd əl-Ənsari əl-Xəzrəci ﷺ.

[3] 35-ci hədisin qeydlərinə bax.

[4] Səhabələrdən birisinin övladı olduqda, onu Peyğəmbərin ﷺ yanına gətirərdilər ki, Peyğəmbər ﷺ onun üçün Allahdan xeyir-bərəkət diləsin. Rəvayət edilir ki, Əsma bint Əbu Bəkr ﷺ demişdir: "Mən hamiləliyimin son ayında Mədinəyə hicrət etdim və gəlib Qubada qonaq qaldım. Elə orada da Abdullahı dünyaya gətirdim. Sonra uşağı Peyğəmbərin ﷺ yanına gətirdim və onu Peyğəmbərin ﷺ qucağına qoydum. Peyğəmbər ﷺ bir xurma gətizdirdi, sonra onu ağzında əzdi və *bu əzməni* uşağın ağzına qoydu. Beləliklə də, bu körpənin mədəsinə gedən ilk şey, Peyğəmbərin ﷺ ağız suyu oldu. Sonra Peyğəmbər ﷺ xurma əziyini körpənin damağına sürtdü və onun üçün dua edib Allahdan xeyir-bərəkət dilədi. Beləcə, o, İslamda doğulmuş ilk körpə (Mədinədə doğulmuş ilk müsəlman uşağı) oldu" (Səhih əl-Buxari, 3909). Yeri gəlmişkən, qeyd edək ki, Rəsulullahın ﷺ ağız suyu ilə təbərruk etmək – bunun sayəsində Allahdan bərəkət diləmək yalnız Rəsulullaha ﷺ xasdır və ondan başqa, kimliyindən asılı olmayaraq, heç bir kimsənin vasitəsilə təbərruk etmək olmaz. Odur ki, Rəsulullahın ﷺ vəfatından sonra səhabələrdən və tabiinlərdən heç biri öz övladını təbərruk etmək məqsədilə nə Əbu Bəkrin ﷺ, nə Ömərin ﷺ, nə Osmanın ﷺ, nə Əlinin ﷺ, nə də başqa birisinin yanına aparmışlar.

bərin ﷺ başı başqa bir işə qarışdığından körpəyə diqqət yetirmədi. Onda Əbu Useyd uşağın *sakitcə* onun qucağından götürülməsini xahiş etdi.[1] Çox keçmədən Peyğəmbər ﷺ işdən asudə oldu və soruşdu: "Uşaq haradadır?" Əbu Useyd dedi: "Biz onu *evə* apardıq, ya Rəsulullah!" Rəsulullah ﷺ: "Onun adı nədir?"– deyə soruşdu. Əbu Useyd dedi: "Filankəsdir.[2]" Onda, Rəsulullah ﷺ buyurdu: "Yox, onun adı Munzirdir.[3]"

Beləliklə, həmin gün Rəsulullah ﷺ ona Munzir adını verdi.[4]

---

[1] Səhabə belə edir ki, uşaq Peyğəmbəri ﷺ narahat etməsin.

[2] Olsun ki, bu hədisi nəql etmiş ravilərdən biri bu adı unutmuş, ya da bu ad qəbih olduğundan onu hədisin mətnində zikr etmək istəməmişlər. Rəsulullahın ﷺ bu adı dəyişdirməsi onun xoşagəlməz bir ad olduğuna dəlalət edir (Fəthul-Bari).

[3] Munzir: xəbərdarlıq edən, pis işlərdən çəkindirən. Uca Allah Quranda Öz peyğəmbərlərini bu vəsf ilə vəsf edib buyurur: **"Biz elçiləri yalnız müjdə verən və xəbərdarlıq edənlər kimi göndəririk"** (əl-Ənam, 48); O, həmçinin, buyurur: **"İnsanlar tək bir ümmət idi. Allah *onlara* müjdə verən və qorxudan peyğəmbərlər göndərdi"** (əl-Bəqərə 213).

[4] Bu hədisi Buxari (6191) və Muslim (5745) rəvayət etmişdir.

## ٣٥٨- بَابُ أَبْغَضِ الأَسْمَاءِ إِلَى اللَّهِ عَزَّ وَجَلَّ

## 358-ci fəsil. Allahın ﷻ ən çox nifrət etdiyi adlar[1]

٨١٧- حَدَّثَنَا أَبُو الْيَمَانِ قَالَ: حَدَّثَنَا شُعَيْبُ بْنُ أَبِي حَمْزَةَ قَالَ: حَدَّثَنَا أَبُو الزِّنَادِ، عَنِ الأَعْرَجِ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((أَخْنَى الأَسْمَاءِ عِنْدَ اللَّهِ رَجُلٌ تَسَمَّى مَلِكَ الأَمْلاكِ)).

**(817)** ........ Əbu Hureyrə رضي الله عنه rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Allah yanında[2] adların ən çirkini, adama hökmdarlar hökmdarı[3] adının verilməsidir."[4]

[1] Necə ki, Allahın qulu mənasını ifadə edən adlar Allahın ﷻ ən çox sevdiyi adlar sayılır, eləcə də, bunun əksi, özündə təkəbbürlüyü əks etdirən adlar Allahın ﷻ ən çox nifrət etdiyi adlar hesab edilir.

[2] Buxarinin "Səhih"ində bura "Qiyamət günü" ləfzi də əlavə edilmişdir.

[3] Bundan aydın olur ki, bir adama hökmdarlar hökmdarı və ya buna bənzər adlar vermək, məsələn, padşahlar padşahı, şahənşah, şahlar şahı, əmirlər əmiri, seyidlər seyidi, qazılar qazısı, hakimlər hakimi və s. demək haramdır (Tohfətul-Əhvəzi). Başqa isnadla rəvayət edilmiş bu hədisin tamamında Peyğəmbər ﷺ demişdir: "Allahdan başqa (haqq) hökmdar yoxdur" (Səhih Muslim, 2143).

[4] Bu hədisi Buxari (6205), Muslim (2143), Əbu Davud (4961) və Əhməd (2/244) rəvayət etmişdir.

## ٣٥٩- بَابُ مَنْ دَعَا آخَرَ بِتَصْغِيرِ اسْمِهِ

## 359-cu fəsil. Birisini onun kiçildilmiş adı ilə[1] çağıran kimsə

٨١٨- حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا الْقَاسِمُ بْنُ الْفَضْلِ، عَنْ سَعِيدِ بْنِ الْمُهَلَّبِ، عَنْ طَلْقِ بْنِ حَبِيبٍ قَالَ: كُنْتُ أَشَدَّ النَّاسِ تَكْذِيبًا بِالشَّفَاعَةِ، فَسَأَلْتُ جَابِرًا، فَقَالَ: يَا طُلَيْقُ، سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: ((يَخْرُجُونَ مِنَ النَّارِ بَعْدَ دُخُولٍ، وَنَحْنُ نَقْرَأُ الَّذِي تَقْرَأُ)).

**(818)** ........ Talq ibn Həbib[2] demişdir: "Mən şəfaəti[3] inkar edən adamların ən şiddətlisi idim. Bu haqda Cabirdən soruşdum. O, dedi: "Ey Tuleyq!

---

[1] İmam Buxarinin fəslə qoyduğu bu ünvandan aydın olur ki, adamı kiçildilmiş adı ilə çağırmaq olar. Məsələn, Salim – Suveylim, Xalid – Xuveylid və s. Adı kiçiltməkdə məqsəd isə onun sahibini əzizləmək yaxud onu nədənsə çəkindirmək yaxud da başqa şey ola bilər. Necə ki, Peyğəmbər ﷺ Ənəs ibn Maliki ؓ əzizləyərək onu: "Ey Uneys"– deyə çağırardı (Səhih əl-Buxari, 2725). Və necə ki, bu fəsildəki rəvayətdə Cabir ؓ Talq ibn Həbibi yanlış fikirdən çəkindirmək istədikdə ona: "Ey Tuleyq"– deyir.

[2] Talq ibn Həbib əl-Ənəzi əl-Bəsri ؒ böyük tabiinlərdən olmuşdur.

[3] Şəfaət: birisinin mənfəət əldə etməsi və ya ziyana düşməməsi üçün onunla başqa birisinin arasında vasitəçilik etmək deməkdir.

Birincisinə – mənfəət əldə etməyə, Cənnət əhlinin Cənnətə daxil olmasında Peyğəmbərimizin ﷺ onlar üçün şəfaət etməsini misal çəkmək olar.

İkincisinə – zərəri dəf etməyə isə Cəhənnəmə girənlərin oradan çıxarılmasında Peyğəmbərimizin ﷺ onlar üçün şəfaət etməsini misal çəkmək olar.

Deməli, şəfaət, ya xeyir əldə etmək, ya da zərəri dəf etmək üçün edilir.

Onu da qeyd etmək lazımdır ki, şəfaət iki qismə bölünür:

a) Şəriətə uyğun şəfaət; b) Şirk sayılan şəfaət.

Şəriətə uyğun şəfaət yalnız üç şərtlə gerçəkləşə bilər:

1. Allahın şəfaət edən kimsədən razı qalması;
2. Allahın şəfaət edilən kimsədən razı qalması;
3. Və Allahın şəfaət etməyə izin verməsi ilə.

Bu şərtlərə aşağıdakı ayələri dəlil göstərmək olar:

**– "Onlar yalnız Allahın razı qaldığı şəxslərdən ötrü şəfaət diləyir və Onun qorxusundan tir-tir əsirlər"** (əl-Ənbiya, 28).

– **"Göylərdə neçə-neçə mələklər vardır ki, onların şəfaəti Allahın istədiyi və Özünün razı qaldığı kimsələrdən başqa,** ***heç kəsə*** **heç bir fayda verməz"** (ən-Nəcm, 26); **"O gün Mərhəmətli** ***Allahın*** **izin verdiyi və söz deməsinə razı olduğu şəxslərdən başqa, heç kimin şəfaəti fayda verməyəcəkdir"** (Ta ha, 109).

– **"Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər?"** (əl-Bəqərə, 255).

Şirk sayılan şəfaətə gəlincə, bu, müşriklərin öz tanrılarını Allaha yaxınlaşmaq üçün vasitə tutmasıdır. Onlar iddia edirlər ki, guya tanrılardan yox, məhz Allahdan xeyir umurlar və onlardan sadəcə şəfaət etmələrini diləyirlər...

Şəriətə uyğun şəfaət iki qismə bölünür – ümumi və xüsusi.

Xüsusi şəfaət Peyğəmbərimizə ﷺ xas olan şəfaətdir. Bunun özü də üç qismə bölünür:

1. Məhşər günü onun yanına gələn insanlar üçün edəcəyi ən böyük şəfaət (Səhih Muslim, 478, 479, 480 və 482);

2. Cənnət əhlinin Cənnətə daxil olması üçün şəfaət etməsi (Səhih Muslim, 486);

3. Əmisi Əbu Talibin əzabının yüngülləşdirilməsi üçün şəfaət etməsi (Səhih Muslim, 510, 511 və 513).

Ümumi şəfaətə gəldikdə isə bu, Peyğəmbərimizə ﷺ və digər peyğəmbərlərə, habelə, mələklərə və möminlərə aid olan şəfaətdir. O da, həmçinin, üç qismə bölünür:

1. Cəhənnəmə layiq olan müsəlmanların Cəhənnəmə girməməsi üçün şəfaət etmək; Peyğəmbər ﷺ demişdir: "Vəfat etdikdən sonra cənazəsinin başında Allaha heç bir şeyi şərik qoşmayan qırx kişi durmuş elə bir müsəlman yoxdur ki, Allah onların şəfaəti sayəsində o müsəlmana mərhəmət etməsin" (Səhih Muslim, 2242);

2. Cəhənnəmə giriftar olanların oradan çıxması üçün şəfaət etmək (Səhih Muslim, 457 və 459);

3. Cənnət əhlinin Cənnətdəki dərəcələrinin artması üçün şəfaət etmək; Peyğəmbər demişdir: "Allahım! Əbu Sələməni bağışla, doğru yolda olanlar arasında onun dərəcəsini yüksəlt, geridə qalanlara (onun yaxınlarına) vəkil ol! Ey aləmlərin Rəbbi! Bizi də, onu da bağışla! Onun qəbrini geniş et və oranı onun üçün nurlandır!" Səhih Muslim, 2169 (Şərh Əqidətu əs-Səffariniyyə, 1/389-392; Şərh Lumatul-İtiqad, 1/36; əl-Qovl əl-Mufid, 1/333).

Qeyd edək ki, Talq ibn Həbib burada tövhid əhlindən olan böyük günah sahiblərinin şəfaət sayəsində Cəhənnəmdən çıxmayacaqlarını qəsd edir. Bundan da aydın olur ki, fitnə baş verdiyi o dövrdə, Talq ibn Həbib kimi alimlər belə xəvariclərin gətirdiyi şübhələrdən təsirlənmişdi. Lakin onun səhabəyə – Cabir ibn Abdullaha ﷺ müraciət etməsi onun haqqa müvəffəq olduğuna dəlalət edir. Əlbəttə ki, Allahdan qorxan mömin adam bilmədiyini bilənlərdən, böyük alimlərdən soruşduqda, Allah onu haqq yola yönəlməyə müvəffəq edir (8-ci hədisə və onun qeydlərinə də bax). Bu xüsusda, İbn Məsud ﷺ demişdir:

Mən Peyğəmbərin ﷺ belə dediyini eşitdim: "Onlar oda girdikdən sonra (oradan) çıxacaqlar[1]" və biz də sənin oxuduğunu (Quranı) oxuyuruq."[1]

---

"İnsanlar Muhəmmədin ﷺ səhabələrinin təbliğ etdiyi elmdən, habelə, böyük alimlərinin elmindən möhkəm yapışdıqları müddətcə əməlisaleh qalar, balacalarından elm aldıqları təqdirdə isə həlak olarlar" (Musənnəf Abdur-Rəzzaq, 1/246/20446; Mocəmul-Kəbir, 9/114/8589-8592; Məcməuz-Zəvaid, 1/135).

Buna bənzər digər hadisədə Yezid əl-Fəqir demişdir: "Xəvariclərin fikirlərindən bir fikir qəlbimi coşdurmuşdu. *O zaman* biz həcc etmək, sonra da insanları xəvaricliyə dəvət etmək məqsədilə bir dəstə adamla bərabər yola düşdük. Nəhayət, gəlib Mədinəyə çatdıq. Baxdıq ki, Cabir ibn Abdullah bir dirəyin yanında oturub camaata Peyğəmbərdən ﷺ hədis danışır. Bu əsnada o, cəhənnəmlikləri zikr etdi (yəni tövhid-əhlindən olmuş, lakin böyük günah etdiyinə görə Cəhənnəmə düşənlərin nə vaxtsa oradan çıxacaqlarını xəbər verdi). Onda, mən ona dedim: "Ey Rəsulullahın səhabəsi! Bu nə *hədisdir* danışırsan?! Axı, Allah buyurur: **"Sən Oda saldığın kəsi rüsvay edərsən..."** (Ali-İmran, 192) və **"Hər dəfə onlar oddan çıxmaq istədikdə, yenidən ora qaytarılacaqlar"** (əs-Səcdə, 20). *Buna əsasən* bu danışdıqlarınız nədir?!" Cabir soruşdu: "Sən Quran oxuyursanmı?" Mən: "Bəli!"– dedim. Yenə soruşdu: "Muhəmmədin ﷺ məqamı, yəni Allahın onu çatdıracağı yer barəsində eşitmisənmi?" Mən: "Bəli!"– deyə cavab verdim. O dedi: "Bu, Muhəmmədin ﷺ həmin təriflənən məqamıdır ki, Allah onun vasitəsilə *Cəhənnəmdən* çıxaracaqlarını çıxaracaq." Sonra Cabir qıl körpüsünün harada yerləşdiyini və insanların onun üstündən nə cür keçəcəklərini vəsf etdi. Bunları yadda saxlamamış olduğumdan qorxuram. Ancaq onu deyə bilərəm ki, o, bunları söyləmişdir: "Bir qrup adam *bir müddət* Cəhənnəmdə qaldıqdan sonra oradan çıxacaqdır. Onlar sanki simsim çubuqları kimi *qaralmış halda* çıxacaqlar. Sonra Cənnət çaylarından birinə daxil olub orada yuyunacaq və oradan kağız kimi *ağappaq* çıxacaqlar."

Sonra biz *həcc ziyarətindən* geri döndük və *səhv fikirdə olanlara* dedik: "Vay sizin halınıza! Yoxsa o şeyxin (Cabir ibn Abdullahın رضي الله عنه) Peyğəmbərin ﷺ adından yalan danışdığını güman edirsiniz?!" Beləliklə, biz *xəvariclikdən* vaz keçdik. Vallahi, aramızda bir nəfərdən başqa, xəvaric fikirlərində qalan olmamışdı" (Səhih Muslim, 473).

[1] Neçə-neçə "səhih" hədislərdə böyük günah sahiblərinin Cəhənnəm odundan çıxacağı xəbər verilmişdir. Həmin hədislərdən birində rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: "Cəhənnəm əhlindən olacaq kimsələrə gəlincə, onlar orada nə ölüb *əzabdan qurtula biləcəklər*, nə də yaşayıb *həyatdan zövq ala biləcəklər*. Ancaq *orada* günahları *və ya xətaları* üzündən atəşə giriftar olmuş bir toplum insan olacaq ki, Allah *bu insanlara bir müddət əzab verdikdən sonra* onları öldürəcək. Nəhayət, kömür kimi olduqları zaman *onlara* şəfaət edil-

məsinə izin veriləcək və onlar dəstə-dəstə Cənnət çaylarının başına gətiriləcəklər. Sonra belə buyurulacaq: "Ey Cənnət əhli! Bunların üstünə *su* tökün." Beləliklə, onlar selin gətirdiyi *çör-çöp* içində olan toxumların cücərib yetişdiyi kimi diriləcəklər..." (Səhih Muslim, 459).

[1] Bu hədisi Muslim (1/122-123) və Əhməd (3/330 və 355) rəvayət etmişdir. İmam Əhmədin nəql etdiyi bu hədisin tam variantında rəvayət edilir ki, Talq ibn Həbib demişdir: "Mən Cabir ibn Abdullahla görüşüb, Allahın Quranda zikr etdiyi, Cəhənnəm əhlinin əbədi olaraq Odda qalacaqlarına dəlalət edən ayələrin hamısını ona oxudum. O, (məni dinlədikdən sonra) dedi: "Ey Talq, yoxsa sən, Allahın Kitabını məndən çox oxuduğunu və Rəsulullahın ﷺ Sünnəsini məndən yaxşı bildiyini düşünürsən?!" Mən başımı aşağı salıb dedim: "Vallahi, yox, əksinə, sən, Allahın Kitabını məndən çox oxuyur və Rəsulullahın ﷺ Sünnəsini məndən yaxşı bilirsən." O, dedi: "Sən oxuduğun ayələrin hamısı müşriklərə aiddir. Lakin (Cəhənnəmdən çıxan kimsələr o kəslərdir ki,) onlar cəzalarını çəkdikdən sonra oradan çıxacaqlar. Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: "Onlar Oda girdikdən sonra oradan çıxacaqlar." İbn Hibbanın İbn Uyeynəyə istinad edərək rəvayət etdiyi əsərdə o: "Mən Amr ibn Dinarın: "Mən Cabirin belə dediyini eşitmişəm"– deyərək, bu hədisin bənzərini rəvayət etdiyini xəbər vermişdir. Həmin rəvayətdə adam Cabirə demişdir: "Uca Allah buyurur: **"Onlar Oddan çıxmaq istərlər, lakin onlar oradan çıxan deyillər. Onları əbədi bir əzab gözləyir"** (əl-Maidə, 37). Cabir رضي الله عنه də ona belə cavab vermişdir: "Siz xüsusi olaraq zikr olunmuş ayələri ümümiləşdirirsiniz. Bu ayələr kafirlərə aiddir. Ondan əvvəlki ayəni oxusanız bunun təsdiqini tapacaqsınız: **"Əgər yer üzündə olan hər şey, üstəlik, bir o qədəri də kafirlərə məxsus olsaydı və onlar bunu Qiyamət gününün əzabından qurtarmaq üçün fidyə versəydilər, onlardan qəbul olunmazdı. Onlar üçün ağrılı-acılı bir əzab hazırlanmışdır"** (əl-Maidə, 36). Bu ayə kafirlərə aiddir" (Səhih İbn Hibban, 9/283).

## ٣٦٠- بَابُ يُدْعَى الرَّجُلُ بِأَحَبِّ الأسْمَاءِ إِلَيْهِ

## 360-cı fəsil. Adamı onun ən çox sevdiyi adla çağırmaq

**٨١٩-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ أَبِي بَكْرٍ الْمُقَدَّمِيُّ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ عُثْمَانَ الْقُرَشِيُّ قَالَ: حَدَّثَنَا ذَيَّالُ بْنُ عُبَيْدِ بْنِ حَنْظَلَةَ قَالَ: حَدَّثَنِي جَدِّي حَنْظَلَةُ بْنُ حِذْيَمَ قَالَ: كَانَ النَّبِيُّ ﷺ يُعْجِبُهُ أَنْ يُدْعَى الرَّجُلُ بِأَحَبِّ أَسْمَائِهِ إِلَيْهِ، وَأَحَبِّ كُنَاهُ.

**(819)** ........ Hənzələ ibn Hizyəm ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ adamı onun ən çox sevdiyi adı və ən çox sevdiyi kunyəsi ilə çağırmağı xoşlayardı."[1]

---

[1] Bu hədisin isnadında keçən Muhəmməd ibn Osman əl-Qurəşi "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir. Bu hədisin isnadı "zəif" olsa da mənası "səhih"dir.

## ٣٦١- بَابُ تَحْوِيلِ اسْمِ عَاصِيَةَ

## 361-ci fəsil. Asıyə[1] adını dəyişdirmək

٨٢٠- حَدَّثَنَا صَدَقَةُ بْنُ الْفَضْلِ قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ سَعِيدٍ الْقَطَّانُ، عَنْ عُبَيْدِ اللَّهِ، عَنْ نَافِعٍ، عَنِ ابْنِ عُمَرَ، أَنَّ النَّبِيَّ غَيَّرَ اسْمَ عَاصِيَةَ وَقَالَ: ((أَنْتِ جَمِيلَةُ)).

**(820)** ........ İbn Ömər ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ Asiyanın adını dəyişdirib[2] demişdir: "(Bu gündən) sən Cəmiləsən.[3]"[4]

٨٢١- حَدَّثَنَا عَلِيُّ بْنُ عَبْدِ اللَّهِ، وَسَعِيدُ بْنُ مُحَمَّدٍ، قَالاَ: حَدَّثَنَا يَعْقُوبُ بْنُ إِبْرَاهِيمَ قَالَ: حَدَّثَنَا أَبِي، عَنْ مُحَمَّدِ بْنِ إِسْحَاقَ قَالَ: حَدَّثَنِي مُحَمَّدُ بْنُ عَمْرِو بْنِ عَطَاءٍ، أَنَّهُ دَخَلَ عَلَى زَيْنَبَ بِنْتِ أَبِي سَلَمَةَ، فَسَأَلَتْهُ عَنِ اسْمِ أُخْتٍ لَهُ عِنْدَهُ؟ قَالَ: فَقُلْتُ: اسْمُهَا بَرَّةُ، قَالَتْ: غَيِّرِ اسْمَهَا، فَإِنَّ النَّبِيَّ ﷺ نَكَحَ زَيْنَبَ بِنْتَ جَحْشٍ وَاسْمُهَا بَرَّةُ، فَغَيَّرَ اسْمَهَا إِلَى زَيْنَبَ، وَدَخَلَ عَلَى أُمِّ سَلَمَةَ حِينَ تَزَوَّجَهَا،

---

[1] Asıyə: asi qadın. Qeyd etmək lazımdır ki, ərəbcə ( عَاصِيَة ) və Asiyə ( آسِيَة ) adları arasında fərq vardır. Birincisi, "asi qadın", ikincisi isə "dərdli qadın" deməkdir. Onu da qeyd edək ki, "dərdli qadın" mənasında olan ad, Cənnətlə müjdələnmiş qadının adıdır. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Cənnətdəki qadınların ən hörmətlisi dörd qadındır: Xuveylidin qızı Xədicə, Muhəmmədin qızı Fatimə, Müzahimin qızı və Fironun həyat yoldaşı Asiyə və bir də İmranın qızı Məryəm" (Musnəd Əhməd, 1/293; Mustədrək, 2/594; Silsilətul-Əhadisis-Səhihə, 1508).

[2] Bundan aydın olur ki, belə adları dəyişdirmək gərəkdir. Buna həmçinin Xatiə (xəta edən), Fasiqə (fasiqlik edən), Facirə (günah işlər görən), Tukəzziban (yalan sayan) və s. bu mənada olan adları misal göstərmək olar. Şəriət bizə qız uşaqlarına belə adlar qoymağı qadağan etmiş, habelə belə adı olan qadınların adlarını dəyişməyi buyurmuşdur. Xüsusilə qeyd etmək lazımdır ki, Peyğəmbər ﷺ pis adı gözəl adla dəyişdirdiyi zaman əksər hallarda həmin adı ləfzini dəyişdirəcəyi adın ləfzi ilə uyğunlaşdırardı və bu iki kəlmənin quruluş baxımından eyni olmasını saxlayardı.

[3] Cəmilə: gözəl qadın .

[4] Bu hədisi Muslim (6/173), Əbu Davud (4952), Tirmizi (2/137) və Əhməd (2/18) rəvayət etmişdir.

وَاسْمِي بَرَّةُ، فَسَمِعَهَا تَدْعُونِي: بَرَّةَ، فَقَالَ: ((لاَ تُزَكُّوا أَنْفُسَكُمْ، فَإِنَّ اللهَ هُوَ أَعْلَمُ بِالْبَرَّةِ مِنْكُنَّ وَالْفَاجِرَةِ، سَمِّيهَا زَيْنَبَ))، فَقَالَتْ: فَهِيَ زَيْنَبُ، فَقُلْتُ لَهَا: أُسَمِّي؟ فَقَالَتْ: غَيِّرْهُ إِلَى مَا غَيَّرَ إِلَيْهِ رَسُولُ اللهِ ﷺ، فَسَمِّهَا زَيْنَبَ.

**(821)** ........ Muhəmməd ibn İshaq demişdir: "(Bir gün) Muhəmməd ibn Amr ibn Əta Zeynəb bint Əbu Sələmənin yanına gəldi. Zeynəb Muhəmməddən onun himayəsində olan bacısının adını soruşdu. Muhəmməd: "(Onun) adı Bərradır[1]"– deyə cavab verdi. Zeynəb dedi: "Onun adını dəyiş. Çünki Peyğəmbər ﷺ Zeynəb bint Cəhş ilə evləndikdə onun adı Bərra idi. Peyğəmbər ﷺ onun adını dəyişdirib Zeynəb qoydu. Həmçinin, o, Ummu Sələmə ilə nikah kəsdikdən sonra onun yanına daxil olduqda mənim adım Bərra idi. Ummu Sələmənin məni Bərra çağırdığını eşidib dedi: "Özünüzü təmizə çıxartmayın![2] Allah sizin aranızdakı kimsələrdən xeyirxahlıq edənləri də yaxşı tanıyır, günahkarları da. Onun adını Zeynəb qoy." Onda Ummu Sələmə dedi: "(Bu gündən) o Zeynəbdir.[3]"

(Muhəmməd dedi:) Mən dedim: "Bacıma nə ad verim?" Zeynəb dedi: "Rəsulullah ﷺ nə ad vermişsə, sən də o adı ver. Adını Zeynəb qoy."[4]

---

[1] Bərra: zahid, dindar, xeyirxah qadın.

[2] Bu xüsusda, Uca Allah buyurur: "**Özünüzü təmizə çıxartmayın! Çünki Allah kimin *Allahdan* qorxduğunu yaxşı bilir**" (ən-Nəcm, 32). Peyğəmbər ﷺ demək istəyir ki, adama, əsl mənada "bərra" yəni zahid, dindar, mömin olması üçün, Allahın və Onun rəsulunun ﷺ buyuruqlarını yerinə yetirməsi gərəkdir. Bu mənaya dəlalət edən Quran ayəsində belə buyurulur: **"Xeyirxah əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin xeyirxah əməl *sahibləri* Allaha, Axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman gətirən, sevdiyi malı qohum-əqrəbaya, yetimlərə, kasıblara, müsafirlərə, dilənənlərə və kölələrin azad edilməsinə sərf edən, namaz qılıb zəkat verən, əhd bağladıqda, əhdlərini yerinə yetirən, sıxıntı və xəstəlik üz verdikdə, habelə, döyüşdə səbir edən şəxslərdir. Onlar imanlarında doğru olanlardır. Müttəqi olanlar da elə məhz onlardır"** (əl-Bəqərə, 177).

[3] Bu, dəlildir ki, səhabələr Peyğəmbərin ﷺ əmrini dərhal yerinə yetirərdilər.

[4] Bu hədisi Muslim (6/173-174) və Əbu Davud (4953) rəvayət etmişdir.

## ٣٦٢- بَابُ الصَّرْمِ

## 362-ci fəsil. Sarm[1] adı

٨٢٢- حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ الْمُنْذِرِ قَالَ: حَدَّثَنَا زَيْدُ بْنُ حُبَابٍ قَالَ: حَدَّثَنِي عُمَرُ بْنُ عُثْمَانَ ابْنِ عَبْدِ الرَّحْمَنِ بْنِ سَعِيدٍ الْمَخْزُومِيُّ، حَدَّثَنِي جَدِّي، عَنْ أَبِيهِ، وَكَانَ اسْمُهُ الصَّرْمَ، فَسَمَّاهُ النَّبِيُّ ﷺ سَعِيدًا، قَالَ: حَدَّثَنِي جَدِّي قَالَ: رَأَيْتُ عُثْمَانَ رَضِيَ اللَّهُ عَنْهُ مُتَّكِئًا فِي الْمَسْجِدِ.

**(822)** ........ Ömər ibn Osman ibn Abdur-Rəhman ibn Səid əl-Məxzumi demişdir: "Babam öz atasından mənə rəvayət etmişdir ki, onun adı Sarm olmuş, sonradan Peyğəmbər ﷺ bu adı dəyişdirib, ona Səid[2] adını vermişdir.

Babam mənə demişdir: "Mən Osmanı ﷺ məsciddə söykəndiyi halda görmüşəm."[3]

٨٢٣- حَدَّثَنَا أَبُو نُعَيْمٍ، عَنْ إِسْرَائِيلَ، عَنْ أَبِي إِسْحَاقَ، عَنْ هَانِئِ بْنِ هَانِئٍ، عَنْ عَلِيٍّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: لَمَّا وُلِدَ الْحَسَنُ رَضِيَ اللَّهُ عَنْهُ سَمَّيْتُهُ: حَرْبًا، فَجَاءَ النَّبِيُّ ﷺ فَقَالَ: ((أَرُونِي ابْنِي، مَا سَمَّيْتُمُوهُ؟)) قُلْنَا: حَرْبًا، قَالَ: ((بَلْ هُوَ حَسَنٌ)). فَلَمَّا وُلِدَ الْحُسَيْنُ رَضِيَ اللَّهُ عَنْهُ سَمَّيْتُهُ حَرْبًا، فَجَاءَ النَّبِيُّ ﷺ فَقَالَ: ((أَرُونِي ابْنِي، مَا سَمَّيْتُمُوهُ؟)) قُلْنَا: حَرْبًا، قَالَ: ((بَلْ هُوَ حُسَيْنٌ)). فَلَمَّا وُلِدَ الثَّالِثُ سَمَّيْتُهُ: حَرْبًا، فَجَاءَ النَّبِيُّ ﷺ فَقَالَ: ((أَرُونِي ابْنِي، مَا سَمَّيْتُمُوهُ؟)) قُلْنَا: حَرْبًا، قَالَ: ((بَلْ هُوَ مُحَسِّنٌ))، ثُمَّ قَالَ: ((إِنِّي سَمَّيْتُهُمْ بِأَسْمَاءِ وَلَدِ هَارُونَ: شَبَّرٌ، وَشُبَيْرٌ، وَمُشَبِّرٌ)).

---

[1] Sarm: əlaqələri kəsən.

[2] Səid: xoşbəxt.

[3] Bu hədisin isnadında keçən Ömər ibn Osman "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu bildirmiş, sonra demişdir: "Sarm adının dəyişdirilməsinin doğru olması "Mişkatul-Məsabih" əsərində (4775) "ceyyid" isnadla rəvayət edilmiş hədisdə öz təsdiqini tapmışdır." Həmin rəvayətdə Peyğəmbər ﷺ Sarm adlı bir səhabənin adını dəyişdirib ona: "Əksinə, sən Zur'asan"– deyə buyurdu.

**(823)** ........ Əli ﷺ demişdir: "Həsən anadan olduqda mən ona Hərb[1] adını qoydum. Sonra Peyğəmbər ﷺ gəlib: "Övladımı mənə göstərin, ona nə ad qoymusunuz?"– deyə soruşdu. Biz dedik: "Onun adını Hərb qoymuşuq." Peyğəmbər ﷺ buyurdu: "Xeyr o Həsəndir.[2]" Sonra Hüseyn anadan oldu və ona da Hərb adını verdim. Yenə Peyğəmbər ﷺ gəlib: "Övladımı mənə göstərin, ona nə ad qoymusunuz?"– deyə soruşdu. Biz dedik: "Onun adını Hərb qoymuşuq." Peyğəmbər ﷺ buyurdu: "Xeyr o Hüseyndir.[3]" Nəhayət, üçüncü oğlum anadan olduqda, ona da Hərb adını verdim. Yenə Peyğəmbər ﷺ gəlib: "Övladımı mənə göstərin, ona nə ad qoymusunuz?"– deyə soruşdu. Biz dedik: "Onun adını Hərb qoymuşuq." Peyğəmbər ﷺ buyurdu: "Xeyr o Muhsindir.[4]" Sonra Peyğəmbər ﷺ (davam edib) dedi: "Mən onlara Harunun[5] oğlanlarının adlarını verdim: Şəbər[6], Şubeyr[7] və Muşbir.[8]"[9]

---

[1] Hərb: müharibə.

[2] Həsən: yaxşı.

[3] Hüseyn: yaxşı sözünün kiçildilmiş formasıdır.

[4] Muhsin: yaxşılıq edən.

[5] Burada söhbət Allahın rəsulu Harun aleyhissəlamdan gedir.

[6] Şəbər: hədiyyə.

[7] Şubeyr: hədiyyə sözünün kiçildilmiş formasıdır.

[8] Muşbir: hədiyyə verən.

[9] Bu hədisin isnadında keçən Hani ibn Hani "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu bildirmişdir. Hərçənd, bu hədisin isnadı "zəif"dir, lakin Hərb adını dəyişdirmək "səhih" rəvayətlərdə öz təsdiqini tapmışdır (814-cü hədisə bax). Həsən və Hüseynin ﷺ adları xüsusunda varid olmuş, Muhəmməd ibn Əlinin rəvayət etdiyi hədisdə deyilir ki, Əli ibn Əbu Talib ﷺ demişdir: "Həsən dünyaya gəldikdə, mən ona Həmzə adını, Hüseyn doğulduqda isə ona əmisinin adını – Cəfər adını qoymuşdum. Sonra Peyğəmbər ﷺ məni çağırıb dedi: "Mənə bunların adlarını dəyişdirmək əmr olundu!" Mən dedim: "Allah və Onun rəsulu daha yaxşı bilir!" Onda, Peyğəmbər ﷺ onlara Həsən və Hüseyn adını qoydu" (Müsnəd İmam Əhməd 1/159, 1370-ci hədis; Müsnəd Əbu Yə'la, 1/147; Mocəm əl-Kəbir, 2780; Müstədrək, 4/277; Məcməuz-Zəvaid, 8/52; Silsilətul-Əhadisis-Səhihə, 2709).

## ٣٦٣- بَابُ غُرَابٍ

## 363-cü fəsil. Ğurab[1] adı

٨٢٤- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سِنَانٍ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ الْحَارِثِ بْنِ أَبْزَى قَالَ: حَدَّثَتْنِي أُمِّي رَائِطَةُ بِنْتُ مُسْلِمٍ، عَنْ أَبِيهَا قَالَ: شَهِدْتُ مَعَ النَّبِيِّ ﷺ حُنَيْنًا، فَقَالَ لِي: ((مَا اسْمُكَ؟)) قُلْتُ: غُرَابٌ، قَالَ: ((لَا، بَلِ اسْمُكَ مُسْلِمٌ)).

**(824)** ........ Muslim ﷺ demişdir: "Mən Peyğəmbərlə ﷺ birgə Huneyn döyüşündə iştirak etdim. Peyğəmbər ﷺ məndən soruşdu: "Adın nədir?" Mən dedim: "Adım Ğurabdır." Peyğəmbər ﷺ (mənə) belə buyurdu: "Xeyr, adın Muslimdir.[2]"[3]

---

[1] Ğurab: qarğa.

[2] Muslim: müsəlman.

[3] Bu hədisin isnadında keçən Raita "kimliyi bilinməyən" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir. Hədisin isnadı "zəif" olsa da, mənası "səhih"dir. Yəni adama xoşagəlməz heyvan adı vermək olmaz. Məsələn, adama – it, siçovul, eşşək, donuz, ilan və s. demək olmaz (Bu xüsusda, əlavə məlumat almaq üçün İbn Həcərin "əl-İsabə" kitabına bax). Odur ki, biri o birini söymək istəyəndə heç vaxt ona "şirdir" yaxud "pələngdir" və ya buna bənzər söz demir, əksinə, "eşşəkdir", "donuzdur", "itdir" və s. deyir. Elə bu səbəbdən də, şəriət bu xoşagəlməz sözləri müsəlmana ünvanlamağı qadağan edir. Baxın, görün Peyğəmbər ﷺ pis əməli nəyə bənzədir. Rəvayət edilir ki, Əbu Hureyrə ؓ demişdir: "Əziz dostum ﷺ mənə üç şeyi qadağan etmişdir: o, mənə xoruz kimi dənləməyi, it kimi dirsəklənməyi və tülkü kimi o yan-bu yana baxmağı qadağan etmişdir" (Musnəd İmam Əhməd, 2/311; Səhih Tərğib vət-Tərhib, 555). Burada söhbət namazda qadağan edilmiş hərəkətlərdən gedir. Peyğəmbər ﷺ namazda tez-tez səcdə etməyi xoruzun dən dimdikləməsinə, səcdədə dirsəkləri yerə qoymağı it kimi dirsəklənməyə, habelə, qiyamda qiblədən çönməyi tülkü tək o yana-bu yana baxmağa bənzədir. Onu da qeyd edək ki, Peyğəmbər ﷺ heyvana aid yaxşı mənanı ifadə edən adları dəyişdirməmişdir. Məsələn, Əsəd (şir) yaxud Useyd (şirciyəz), Nəmr (pələng və ya bəbir), Fəhd (leopard) və s.

## ٣٦٤- بَابُ شِهَابٍ

## 364-cü fəsil. Şihab[1] adı

٨٢٥- حَدَّثَنَا عَمْرُو بْنُ مَرْزُوقٍ قَالَ: حَدَّثَنَا عِمْرَانُ الْقَطَّانُ، عَنْ قَتَادَةَ، عَنْ زُرَارَةَ بْنِ أَوْفَى، عَنْ سَعْدِ بْنِ هِشَامٍ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا، ذُكِرَ عِنْدَ رَسُولِ اللَّهِ ﷺ رَجُلٌ يُقَالُ لَهُ: شِهَابٌ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: ((بَلْ أَنْتَ هِشَامٌ)).

**(825)** ........ Aişə ﵂ demişdir: "Bir dəfə Rəsulullahın ﷺ yanında Şihab adlı birisinin adı çəkildi. Onda, Rəsulullah ﷺ (ona) belə buyurdu: "Xeyr, sən Hişamsan.[2]"[3]

---

[1] Şihab: şölə, od parçası. Bir çox hədislərdə Peyğəmbər ﷺ öz ümmətinə Oddan həzər etməyi buyurmuşdur (1224, 1225, 1226 və 1227-ci hədislərə bax). Pis ad, həqiqətən də, adama pis təsir göstərir. Ərəb məsəlində deyilir ki, "adlar, mənaların qəlibləridir" yaxud "hər kəsin öz adından payı vardır" (Daru Təarudul-Aql vən-Nəql, 4/126; Məsabihut-Tənvir, 1/262). Rəvayət edilir ki, Yəhya ibn Səid demişdir: "Bir dəfə Ömər ibn Xattab ﵁ bir kişidən soruşdu:

– Adın nədir?

– Cəmradır (közdür).

– Kimin oğlusan?

– Şihabın (Şölənin) oğluyam.

– Kimlərdənsən?

– Huraqadan (yananlardan).

– Evin hardadır?

– "Hərratun-Nar"da (Mədinənin dörd milliyində, Xeybərin yaxınlığındakı yer adıdır, bu adın hərfi tərcüməsi: atəşin istisi).

– Harasında?

– Zatu-Ləza deyilən yerdə (Ləza: Cəhənnəmin adlarından biridir – alovlu od deməkdir).

Onda Ömər dedi: "Get əhli-əyalının yanına, onlar artıq yanmışlar." Adam evinə qayıtdı və Ömər ibn Xattabın ﵁ dediyinin gerçək olduğunu gördü" (əl-Muvatta, 2/974). Yeri gəlmişkən, qeyd edək ki, adama Şihabuddin və buna bənzər adlar qoymaq olmaz.

[2] Hişam: səxavətli, əliaçıq.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٣٦٥- بَابُ الْعَاصِ

## 365-ci fəsil. əl-As[1] adı

٨٢٦- حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ سَعِيدٍ، عَنْ زَكَرِيَّا قَالَ: حَدَّثَنِي عَامِرٌ، عَنْ عَبْدِ اللَّهِ بْنِ مُطِيعٍ قَالَ: سَمِعْتُ مُطِيعًا يَقُولُ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ، يَوْمَ فَتْحِ مَكَّةَ: ((لاَ يُقْتَلُ قُرَشِيٌّ صَبْرًا بَعْدَ الْيَوْمِ إِلَى يَوْمِ الْقِيَامَةِ))، فَلَمْ يُدْرِكِ الإِسْلاَمَ أَحَدٌ مِنْ عُصَاةِ قُرَيْشٍ غَيْرُ مُطِيعٍ، كَانَ اسْمُهُ الْعَاصَ فَسَمَّاهُ النَّبِيُّ ﷺ مُطِيعًا.

**(826)** ........ Muti رضي الله عنه demişdir: "Mən Məkkənin fəthi günü Peyğəmbərin ﷺ belə dediyini eşitdim: "Bu gündən ta Qiyamət gününədək heç bir qureyşli amansızcasına öldürülməyəcəkdir.[2]"

(Amir əş-Şəbi[3] demişdir:) "Mutidən başqa əl-As adını daşıyanlardan heç biri (Məkkənin fəthindən qabaq) müsəlman olmamışdı. Onun adı əl-As idi. Peyğəmbər ﷺ ona Muti[4] adı verdi."[5]

---

[1] As: asilik edən.

[2] Bundan aydın olur ki, həmin gün Məkkə əhlindən heç kəs İslamdan üz çevirməmiş, hamılıqla bu dini qəbul etmişlər. Bu həm də dəlildir ki, Məkkə şəhəri Qiyamətədək İslam diyarı olaraq qalacaqdır.

[3] Amir bu hədisin ravilərindən biridir.

[4] Muti: itaətkar.

[5] Bu hədisi Muslim (3334), Tirmizi (1611), Hakim (3/627) və Əhməd (3/412 və 4/343) rəvayət etmişdir.

## ٣٦٦- بَابُ مَنْ دَعَا صَاحِبَهُ فَيَخْتَصِرُ وَيُنْقِصُ مِنَ اسْمِهِ شَيْئًا

## 366-cı fəsil. Dostunun adından[1] bir şey azaldıb qısaldaraq onu çağıran kimsə

٨٢٧- حَدَّثَنَا أَبُو الْيَمَانِ قَالَ: حَدَّثَنَا شُعَيْبٌ، عَنِ الزُّهْرِيِّ قَالَ: حَدَّثَنِي أَبُو سَلَمَةَ، أَنَّ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((يَا عَائِشْ، هَذَا جِبْرِيلُ يَقْرَأُ عَلَيْكِ السَّلاَمَ))، قَالَتْ: وَعَلَيْهِ السَّلاَمُ وَرَحْمَةُ اللَّهِ وَبَرَكَاتُهُ، قَالَتْ: وَهُوَ يَرَى مَا لاَ أَرَى.

**(827)** ........ Aişə ﵂ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Ey Aiş! Bu, Cəbraildir, sənə salam söyləyir."[2] Aişə dedi: "Ona Allahın salamı olsun, Onun rəhməti və bərəkəti yetişsin! O[3] mənim görmədiyimi görür.[4]"[5]

٨٢٨- حَدَّثَنَا مُحَمَّدُ بْنُ عُقْبَةَ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ إِبْرَاهِيمَ الْيَشْكُرِيُّ الْبَصْرِيُّ قَالَ: حَدَّثَتْنِي جَدَّتِي أُمُّ كُلْثُومٍ بِنْتُ ثُمَامَةَ، أَنَّهَا قَدِمَتْ حَاجَّةً، فَإِنَّ أَخَاهَا الْمُخَارِقَ بْنَ ثُمَامَةَ قَالَ: ادْخُلِي عَلَى عَائِشَةَ، وَسَلِيهَا عَنْ عُثْمَانَ بْنِ عَفَّانَ، فَإِنَّ النَّاسَ قَدْ أَكْثَرُوا فِيهِ عِنْدَنَا، قَالَتْ: فَدَخَلْتُ عَلَيْهَا فَقُلْتُ: بَعْضُ بَنِيكِ يُقْرِئُكِ السَّلاَمَ، وَيَسْأَلُكِ عَنْ عُثْمَانَ بْنِ عَفَّانَ، قَالَتْ: وَعَلَيْهِ السَّلاَمُ وَرَحْمَةُ اللَّهِ،

---

[1] Yəni addakı hərflərdən. Bu qrammatik qaydaya ərəbcə "tərxim" deyilir. Bu hədisdə Peyğəmbər ﷺ xitab edərkən bir hərfi demir. Başqa hədislərdə onun, səhabəsinin adından birdən çox hərfi demədiyi də varid olmuşdur. Buna Peyğəmbərin ﷺ Əbu Hureyrəyə ﵁ də: "Ey Əbu Hirr" (Səhih əl-Buxari, 6453) deməsini misal çəkmək olar.

[2] Bu, Aişənin ﵂ fəzilətinə dəlalət edir.

[3] Burada Cəbrail ﵇ nəzərdə tutulur.

[4] Digər rəvayətdə deyilir ki, Aişə ﵂ Peyğəmbərə ﷺ: "Sən mənim görmədiyimi görürsən"– demişdir (Səhih əl-Buxari, 3217).

[5] Bu hədisi Buxari (6201), Muslim (2447), Nəsai (əl-Kubra, 8851), Əhməd (6/88) və Darimi (2680) rəvayət etmişdir.

قَالَتْ: أَمَّا أَنَا فَأَشْهَدُ عَلَى أَنِّي رَأَيْتُ عُثْمَانَ فِي هَذَا الْبَيْتِ فِي لَيْلَةٍ قَائِظَةٍ، وَنَبِيُّ اللَّهِ ﷺ وَجِبْرِيلُ يُوحِي إِلَيْهِ، وَالنَّبِيُّ ﷺ يَضْرِبُ كَفَّ، أَوْ كَتِفَ، ابْنِ عَفَّانَ بِيَدِهِ: ((اكْتُبْ، عُثْمُ))، فَمَا كَانَ اللَّهُ يُنْزِلُ تِلْكَ الْمَنْزِلَةَ مِنْ نَبِيِّهِ ﷺ إِلاَّ رَجُلًا عَلَيْهِ كَرِيمًا، فَمَنْ سَبَّ ابْنَ عَفَّانَ فَعَلَيْهِ لَعْنَةُ اللَّهِ.

**(828)** ........ Ummu Kulsum bint Sumamə demişdir:[1] "Mən həcc ziyarətində olarkən qardaşım Muxariq ibn Sumamə mənə dedi: "Aişənin yanına daxil ol və ondan Osman ibn Əffan barədə soruş. Çünki biz tərəfin adamları[2] onun barəsində çox söz danışırlar." Mən Aişənin yanına daxil olub dedim: "Övladlarından[3] biri sənə salam söyləyir və səndən Osman ibn Əffan barədə soruşur." Aişə dedi: "Ona da salam olsun və Allahın rəhmətinə yetişsin. Mən şahidlik edirəm ki, çox isti bir gecədə Osmanı bu evdə gördüm. Həmin vaxt Cəbrail, *burada* Allahın peyğəmbərinə ﷺ vəhyi çatdırırdı. Peyğəmbər ﷺ də İbn Əffanın əlinə yaxud çiyninə vurub: "Yaz, ey Osm!"– deyirdi. Allah yalnız hörmətli adama Peyğəmbərinin ﷺ yanında belə bir şərəfə nail olmağı nəsib edər. İbn Əffanı söyənə Allah lənət eləsin.[4]"

---

[1] Bu hədisin isnadında keçən Ummu Kulsum "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində onun "zəif" olduğunu demişdir.

[2] Burada söhbət xəvariclərdən gedir (8-ci hədisin qeydlərinə bax).

[3] Uca Allah bu xüsusda, buyurur: **"Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır. Zövcələri isə möminlərin analarıdır"** (əl-Əhzab, 6).

[4] Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Mənim səhabələrimi söyənə Allah, mələklər və bütün insanlar lənəti eləsin!" (hədis "həsən"dir. Bax: Silsilətul-Əhadisis-Səhihə, 2340; Səhih əl-Cami, 6285). Səhabəni söyən adam öz boynuna günah yığır və səhabələrin haqqına girdikcə, onların yalnız savabını artırır. Rəvayət edilir ki, bir dəfə möminlərin anası Aişəyə رضي الله عنها xəbər verdilər ki, bəzi adamlar Peyğəmbərin ﷺ səhabələrini söyür, hətta Əbu Bəkr və Ömərə belə dil uzadırlar. Onda Aişə رضي الله عنها onlara belə cavab verdi: "Siz buna təəccüb edirsiniz?! O səhabələrin əməl dəftəri bağlanmış, lakin Allah onların savablarının

artmasını istəmişdir" (əl-Fiqhu fi Ahdis-Səhabə, 1/18); həmçinin, rəvayət edilir ki, bir dəfə Peyğəmbər ﷺ səhabələrindən: "Bilirsiniz, müflis kimdir?"– deyə soruşdu. Onlar: "Müflis, ya Rəsulullah, nə bir dirhəmi, nə də bir malı olan kimsələrimizdir"– deyə cavab verdilər. Onda, Rəsulullah ﷺ dedi: "Ümmətimin müflisləri o kəslərdir ki, onlar Qiyamət günü namazla, orucla və zəkatla, habelə, birisini söymüş, birisinə böhtan atmış, birisinin malını yemiş, birisinin qanını tökmüş, birisini də vurmuş olduğu halda *Allahın hüzuruna* gələcək və *zülm etdiyi* bu adamlar ondan qisas alaraq onun savablarından götürəcəklər. Əgər ondan tam olaraq qisas alınmadan öncə savabları qurtararsa, həmin adamların günahlarından götürülüb onun günahları üzərinə əlavə edilər, sonra da bu adam Cəhənnəm oduna atılar" (Sunən ət-Tirmizi, 248; Səhih Tərğib vət-Tərhib, 2843).

## ٣٦٧- بَابُ زَحْمٍ

## 367-ci fəsil. Zəhm[1] adı

٨٢٩- حَدَّثَنَا سُلَيْمَانُ بْنُ حَرْبٍ قَالَ: حَدَّثَنَا الأَسْوَدُ بْنُ شَيْبَانَ قَالَ: حَدَّثَنَا خَالِدُ بْنُ سُمَيْرٍ قَالَ: حَدَّثَنِي بَشِيرُ بْنُ نَهِيكٍ قَالَ: حَدَّثَنَا بَشِيرٌ قَالَ: أَتَى النَّبِيَّ ﷺ، فَقَالَ: ((مَا اسْمُكَ؟)) قَالَ: زَحْمٌ، قَالَ: ((بَلْ أَنْتَ بَشِيرٌ))، فَبَيْنَمَا أَنَا أُمَاشِي النَّبِيَّ ﷺ، فَقَالَ: ((يَا ابْنَ الْخَصَاصِيَةِ، مَا أَصْبَحْتَ تَنْقِمُ عَلَى اللَّهِ؟ أَصْبَحْتَ تُمَاشِي رَسُولَ اللَّهِ ﷺ))، قُلْتُ: بِأَبِي وَأُمِّي، مَا أَنْقِمُ عَلَى اللَّهِ شَيْئًا، كُلَّ خَيْرٍ قَدْ أَصَبْتُ. فَأَتَى عَلَى قُبُورِ الْمُشْرِكِينَ فَقَالَ: ((لَقَدْ سَبَقَ هَؤُلَاءِ خَيْرًا كَثِيرًا))، ثُمَّ أَتَى عَلَى قُبُورِ الْمُسْلِمِينَ فَقَالَ: ((لَقَدْ أَدْرَكَ هَؤُلَاءِ خَيْرًا كَثِيرًا))، فَإِذَا رَجُلٌ عَلَيْهِ سِبْتِيَّتَانِ يَمْشِي بَيْنَ الْقُبُورِ، فَقَالَ: ((يَا صَاحِبَ السِّبْتِيَّتَيْنِ، أَلْقِ سِبْتِيَّتَكَ))، فَخَلَعَ نَعْلَيْهِ.

**(829)** ........ Bəşir ibn Nəhik rəvayət etmişdir ki, (əvvəllər adı Zəhm ibn Mə'bəd olmuş) Bəşir ﷺ Peyğəmbərin ﷺ yanına hicrət etdiyi zaman Peyğəmbər ﷺ (ondan): "Adın nədir?"– deyə soruşmuş, o: "Zəhmdir"– deyə cavab vermiş, Peyğəmbər ﷺ də (ona): "Xeyr, sən Bəşirsən!"– demişdir."

(Bəşir ibn Mə'bəd demişdir): "Bir dəfə mən Peyğəmbərlə ﷺ yol gedərkən o mənə dedi: "Ey Xəsasiyənin[2] oğlu! Sən Allahdan narazı qalmadığın üçün Allahın Rəsulu ﷺ ilə yol gedirsən." Mən dedim: "Atam-anam sənə qurban, heç mən Allahdan narazı qala bilərəmmi? Axı mən (Allahın köməyi ilə) hər bir xeyrə nail olmuşam." Sonra Peyğəmbər ﷺ müşriklərin qəbirlərinin yanından keçdi və: "Bunlar çox xeyirdən məhrum olmuşlar"– dedi. Sonra müsəlmanların qəbirlərinin yanından keçdi və: "Bunlar çox xeyirə nail olmuşlar"– dedi. Sonra o, ətrafa nəzər saldı və qəbirlərin arası

---

[1] Zəhm: çətinləşdirən, sıxışdıran.

[2] Xəsasiyə Bəşir ibn Mə'bədin ﷺ nənəsidir.

ilə gedən bir adam gördü. Onun ayağında ayaqqabı var idi. Peyğəmbər ﷺ (ona): "Ey ayaqqabı sahibi, ayaqqabılarını çıxart!" – dedi, o da, ayaqqabılarını çıxardıb (kənara atdı).[1]

**٨٣٠–** حَدَّثَنَا سَعِيدُ بْنُ مَنْصُورٍ قَالَ: حَدَّثَنَا عُبَيْدُ اللَّهِ بْنُ إِيَادٍ، عَنْ أَبِيهِ قَالَ: سَمِعْتُ لَيْلَى امْرَأَةَ بَشِيرٍ تُحَدِّثُ، عَنْ بَشِيرِ ابْنِ الْخَصَاصِيَةِ، وَكَانَ اسْمُهُ زَحْمًا، فَسَمَّاهُ النَّبِيُّ ﷺ بَشِيرًا.

**(830)** ........ Ubeydullah ibn İyad öz atasından rəvayət edir ki, Bəşirin həyat yoldaşı Leyla رضي الله عنها Bəşir ibn Xəsasiyə barədə danışarkən demişdir: "Onun adı Zəhm idi. Sonra Peyğəmbər ﷺ ona Bəşir adını verdi."[2]

---

[1] 775-ci hədisin qeydlərinə bax.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٣٦٨- بَابُ بَرَّةَ

## 368-ci fəsil. Bərra[1] adı

٨٣١- حَدَّثَنَا قَبِيصَةُ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ مُحَمَّدِ بْنِ عَبْدِ الرَّحْمَنِ مَوْلَى آلِ طَلْحَةَ، عَنْ كُرَيْبٍ، عَنِ ابْنِ عَبَّاسٍ، أَنَّ اسْمَ جُوَيْرِيَةَ كَانَ بَرَّةَ، فَسَمَّاهَا النَّبِيُّ ﷺ جُوَيْرِيَةَ.

**(831)** ........ İbn Abbas ﵄ demişdir: “Cuveyriyanın adı Bərra idi. Sonra Peyğəmbər ﷺ ona Cuveyriya[2] adını verdi.”[3]

٨٣٢- حَدَّثَنَا عَمْرُو بْنُ مَرْزُوقٍ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ عَطَاءِ بْنِ أَبِي مَيْمُونَةَ، عَنْ أَبِي رَافِعٍ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: كَانَ اسْمُ مَيْمُونَةَ بَرَّةَ، فَسَمَّاهَا النَّبِيُّ ﷺ مَيْمُونَةَ.

**(832)** ........ Əbu Hureyrə ﷺ demişdir: “Məymunənin adı Bərra idi. Sonra Peyğəmbər ﷺ ona Məymunə[4] adını verdi.”[5]

---

[1] Bərra: zahid, dindar, mömin (647-ci hədisin qeydlərinə bax).

[2] Cuveyriya: təqsirkar.

[3] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “səhih” olduğunu demişdir.

[4] Məymunə: xoşbəxt, bəxtiyar.

[5] Bu hədisin isnadında keçən Amr ibn Mərzuqun bu rəvayəti bir çox etibarlı ravilərin rəvayətinə müxalif olduğundan bu isnad “şəzz” sayılır. Elə buna görə də, Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “zəif” olduğunu demişdir.

# ٣٦٩– بَابُ أَفْلَحَ

## 369-cu fəsil. Əfləh[1] adı

٨٣٣– حَدَّثَنَا عُمَرُ بْنُ حَفْصٍ قَالَ: حَدَّثَنَا أَبِي قَالَ: حَدَّثَنَا الأَعْمَشُ قَالَ: حَدَّثَنَا أَبُو سُفْيَانَ، عَنْ جَابِرٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِنْ عِشْتُ نَهَيْتُ أُمَّتِي، إِنْ شَاءَ اللَّهُ، أَنْ يُسَمِّي أَحَدُهُمْ بَرَكَةَ، وَنَافِعًا، وَأَفْلَحَ))، وَلاَ أَدْرِي قَالَ: رَافِعًا أَمْ لاَ؟، يُقَالُ: هَا هُنَا بَرَكَةُ؟ فَيُقَالُ: لَيْسَ هَا هُنَا، فَقُبِضَ النَّبِيُّ ﷺ وَلَمْ يَنْهَ عَنْ ذَلِكَ.

**(833)** ........ Cabir ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Əgər yaşasam, inşaAllah, ümmətimə qadağan edəcəyəm ki, onlardan heç biri Bərəkə,[2] Nafi[3] və Əfləh adlarını qoymasınlar.[4]”

---

[1] Əfləh: nicat tapan.

[2] Bərəkə: bərəkət.

[3] Nafi: fayda verən.

[4] Digər hədisdə Cabir ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Əgər yaşasam, ümmətimə Rəbah, Nəcih, Əfləh, Nafi və Yəsar adlarını qadağan edəcəyəm” (Sunən ət-Tirmizi, 2/136; Silsilətul-Əhadisis-Səhihə, 2143). Hərçənd, bu hədisdə bu adların qoyulmasının məkruh olduğu aydın olmasa da, başqa hədisdə Peyğəmbər ﷺ bunu qadağan etmiş və səbəbini də bəyan etmişdir. Həmin hədisdə Peyğəmbər ﷺ Səmurə ibn Cundəbə ﷺ belə buyurmuşdur: “Xidmətçinə nə Yəsar (işləri avand gələn), nə Rəbah (xeyir qazanan), nə Nəcih (uğur qazanan), nə də Əfləh (nicat tapan) adı qoy. Çünki (əgər sən ona bu adı qoysan,) sonra: “(Yəsar yaxud Rəbah yaxud Nəcih yaxud Əfləh) ordadırmı?”– deyə onu çağırdıqda, sənə: “Xeyr (yoxdur)”–deyəcəklər” (Səhih Muslim, 5724; Sunən Əbu Davud, 4958; Sunən ət-Tirmizi, 2836). Burada varid olmuş qadağa bu adları qoymağın haram deyil, sadəcə, məkruh olduğuna dəlalət edir (Məsabihut-Tənvir alə Səhihil-Camiis-Səğir, 2/51). Muhəmməd Nasirəddin əl-Albani bu hədisi təhqiq edərkən demişdir: “Cabir ibn Abdullahın ﷺ Peyğəmbər ﷺ vəfat edənədək bu adları qadağan etmədi”– deməsi ancaq Cabirə ﷺ aiddir (yəni o bu qadağanı eşitməmişdir). Belə ki, Səmurə ibn Cundəb ﷺ Peyğəmbərin ﷺ bunu qadağan etdiyini eşitmişdir” (Silsilətul-Əhadisis-Səhihə, 5/176). Bu

(Ravilərdən biri demişdir:) "Mən bilmirəm, o, Rafi[1] adını dedi, ya yox." Soruşurlar: "Bərəkə buradadırmı?" (Onlar): "Burada deyildir"– deyə cavab verirlər. Peyğəmbər ﷺ vəfat edənədək bu adları qadağan etmədi."[2]

**٨٣٤-** حَدَّثَنَا الْمَكِّيُّ قَالَ: حَدَّثَنَا ابْنُ جُرَيْجٍ، عَنْ أَبِي الزُّبَيْرِ، سَمِعَ جَابِرَ بْنَ عَبْدِ اللَّهِ يَقُولُ: أَرَادَ النَّبِيُّ ﷺ أَنْ يَنْهَى أَنْ يُسَمَّى بِيَعْلَى، وَبِبَرَكَةَ، وَنَافِعٍ، وَيَسَارٍ، وَأَفْلَحَ، وَنَحْوِ ذَلِكَ، ثُمَّ سَكَتَ بَعْدُ عَنْهَا، فَلَمْ يَقُلْ شَيْئًا.

**(834)** ........ Cabir ibn Abdullah رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ Yə'la,[3] Bərəkə, Nafi, Yəsar,[4] Əfləh və buna bənzər adları qoymağı qadağan etmək istədi, lakin sonra bu barədə susdu və heç bir şey söyləmədi."[5]

---

adları qoymağın haram yox, məkruh olduğu növbəti hədisdə öz təsdiqini tapmışdır. Belə ki, Peyğəmbər ﷺ öz xidmətçisnin Rəbah adını dəyişdirməmişdir.

[1] Rafi: yüksəldən deməkdir.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[3] Yə'la: yüksəlmək.

[4] Yəsar: rifah, xoş güzaran, firavanlıq.

[5] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

# ٣٧٠- بَابُ رَبَاحٍ

## 370-ci fəsil. Rəbah[1] adı

٨٣٥- حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُثَنَّى قَالَ: حَدَّثَنَا عُمَرُ بْنُ يُونُسَ بْنِ الْقَاسِمِ قَالَ: حَدَّثَنَا عِكْرِمَةُ، عَنْ سِمَاكٍ أَبِي زُمَيْلٍ قَالَ: حَدَّثَنِي عَبْدُ اللَّهِ بْنُ عَبَّاسٍ قَالَ: حَدَّثَنِي عُمَرُ بْنُ الْخَطَّابِ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: لَمَّا اعْتَزَلَ النَّبِيُّ ﷺ نِسَاءَهُ، فَإِذَا أَنَا بِرَبَاحٍ غُلَامِ رَسُولِ اللَّهِ ﷺ، فَنَادَيْتُ: يَا رَبَاحُ، اسْتَأْذِنْ لِي عَلَى رَسُولِ اللَّهِ ﷺ.

**(835)** ........ Rəvayət edilir ki, Ömər ibn Xattab[2] ﷺ demişdir: "Rəsulullah ﷺ bir müddət zövcələrini tərk etdi. Mən Rəsulullahın ﷺ yanına gəldikdə

---

[1] Rəbah – xeyir, qazanc, mənfəət deməkdir.

[2] Əbu Həfs, Ömər ibn Xattab ibn Nufeyl əl-Qurəşi əl-Faruq ﷺ fil ilindən on üç il sonra, yəni Muhəmməd səllallahu aleyhi və səlləmə peyğəmbərlik verilməmişdən iyirmi yeddi il əvvəl dünyaya gəlmişdir. Cənnətlə müjdələnmiş on nəfərdən biridir. O, Peyğəmbərin ﷺ həm ən yaxın iki dostundan biri, həm də onun qayınatası, möminlərin anası – Həfsənin ﷺ atasıdır. Ömər ibn Xattab ﷺ, demək olar ki, Peyğəmbərlə ﷺ birlikdə bütün döyüşlərdə iştirak etmiş və ələlxüsus da, ağac altında ona beyət gətirənlərdən olmuşdur. Ömər ibn Xattab ﷺ Rəsulullahın ﷺ ikinci xəlifəsi olmuş və məhz onun xilafəti dövründə o dövrün ən böyük imperiyaları, habelə, Peyğəmbərimizin ﷺ arzuladığı Qüds fəth edilmişdir. Peyğəmbər ﷺ onu tərifləyib demişdir: "Əgər məndən sonra peyğəmbər göndərilmiş olsaydı, o, Ömər olardı" (Sunən ət-Tirmizi, 2/293; Silsilətul-Əhadisis-Səhihə, 327); digər hədisdə o, belə buyurmuşdur: "Ey Xattabın oğlu! Canım Əlində olan Allaha and olsun ki, şeytan sənə rast gəldiyi zaman yolunu dəyişdirib başqa yol ilə gedir" (Səhih əl-Buxari, 7683); başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "*Yuxuda* gördüm ki, Cənnətdəyəm. Birdən qarşıma bir qəsr və bu qəsrin həyətində bir cavan qız çıxdı. Soruşdum: "Bu *qəsr* kimindir?" Dedilər: "Ömərindir!" Mən qəsrin içinə girib ora göz gəzdirmək istədim, lakin sənin qısqanclığın yadıma düşdü *və mən dönüb oradan uzaqlaşdım." Bunu eşidəndə* Ömər dedi: "Atam-anam sənə qurban, ya Rəsulullah, heç sənə qısqana bilərəmmi?!" (Səhih əl-Buxari, 3679). Abdullah ibn Məsud ﷺ demişdir: "Ömər İslamı qəbul edənədək müşriklər bizə Kəbənin yanında namaz qılmağa imkan vermirdilər. Ömər müsəlman olduqdan

onun xidmətçisi Rəbahla qarşılaşdım. Mən dedim: "Ey Rəbah, Peyğəmbərdən ﷺ izin istə ki, onun yanına daxil olum."[1]

---

sonra qureyşlilərin müqavimətini sındırıb, Kəbənin yanında namaz qıldı, biz də onunla birgə namaz qıldıq" (Səhih Sirə ən-Nəbəviyyə, 1/188). Ömər ibn Xattab hicrətin 13-cü ilində xilafətə gəlmiş, 10 il 6 ay möminlərə layiqincə əmirlik etmiş və nəhayət, hicrətin 23-cü ilində Mədinə şəhərində məcusi Əbu Lulu Firuz tərəfindən vurulmuş və üç gündən sonra altmış üç yaşında şəhid olmuşdur. Bundan sonra onu əziz iki dostunun: Peyğəmbərin ﷺ və Əbu Bəkrin ؓ yanında dəfn etmişlər.

[1] Bu hədisin tam variantında rəvayət edilir ki, Ömər ibn Xattab ؓ demişdir: "Peyğəmbər ﷺ zövcələrini müvəqqəti olaraq tərk etmişdi. Mən məscidə daxil olduqda, orada olanların kədərlə: "Rəsulullah zövcələrini boşayıb!"– dediklərini eşitdim. O vaxt hələ qadınlara hicab geyinmək əmr edilməmişdi. Mən öz-özümə dedim: "Bu gün mən bu məsələni mütləq öyrənməliyəm." Sonra Aişənin yanına gəlib dedim: "Ey Əbu Bəkrin qızı! Deyirlər, sən Allahın rəsuluna ﷺ əziyyət verirsən?" Aişə dedi: "Mənim elədiklərimin sənə heç bir aidiyyəti yoxdur. Yaxşı olar ki, sən öz qızına öyüd-nəsihət verəsən." Mən Həfsənin yanına gəlib dedim: "Ey Həfsə! Deyirlər, sən Allahın rəsuluna ﷺ əziyyət verirsən? Allaha and olsun ki, Peyğəmbərin ﷺ səni sevmədiyini bilirəm. Əgər mən olmasaydım, o, səni boşayardı." Həfsə bunu eşitdikdə ağladı. Mən ondan Peyğəmbərin ﷺ harada olduğunu soruşduqda o: "Yuxarıda, eyvanındadır!"– dedi. Mən içəri daxil olduqda Peyğəmbərin ﷺ xidmətçisi Rəbahı gördüm. O, eyvanın astanasında oturmuş, ayaqlarını da kötüyün üstünə uzatmışdı. Mən onu çağırıb dedim: "Ey Rəbah, Rəsulullahdan ﷺ izin istə onun yanına daxil olum." O, əvvəlcə eyvana, sonra da mənə baxıb heç nə demədi. Mən yenə onu çağırıb dedim: "Ey Rəbah, Rəsulullahdan ﷺ izin istə, onun yanına daxil olum." O, əvvəlcə eyvana, sonra da mənə baxıb heç nə demədi. Mən onu uca səslə çağırıb dedim: "Ey Rəbah, Rəsulullahdan ﷺ izin istə, onun yanına daxil olum. Yəqin ki, Rəsulullah ﷺ mənim Həfsəni müdafiə etmək üçün gəldiyimi güman edir. Vallahi ki, əgər o, mənə əmr etsəydi, Həfsənin boynunu vurardım. Bu dəfə Rəbah başı ilə mənə işarə edib Peyğəmbərin ﷺ yanına daxil olmağa izin verdi. Mən Peyğəmbərin ﷺ yanına daxil olduqda, o, həsirin üstündə uzanmışdı, əynində də izardan başqa bir şey yox idi. Sonra o, qalxıb oturdu. Həsirin izi onun çiynində və böyründə qalmışdı. Mən onun otağına nəzər salıb dörd ovuc arpa, bir o qədər akasiya ağacının qabığı və bir də aşılanmış dəridən başqa bir şey görmədim. Onun bu halını görəndə mənim gözlərim yaşla doldu." Peyğəmbər ﷺ dedi: "Ey Xattabın oğlu, səni ağladan nədir?" Mən dedim: "Nə üçün ağlamayım, ya Rəsulullah! Gör həsir sənin bədənini nə hala salıb, otağında da bu gördüklərimdən başqa bir şey

yoxdur. Qeysər və Xosrov cah-calal içində yaşayır. Sən isə Allahın seçdiyi bir elçi olduğun halda, belə bir şəraitdə yaşayırsan." Peyğəmbər ﷺ dedi: "Ey Xattabın oğlu! İstəmirsən ki, dünya onların, Axirət isə bizim olsun?" Mən: "Bəli, *istəyirəm*!"– dedim. Sonra mən ondan qəzəblənməsinin səbəbini soruşub dedim: "Zövcələrin nəyə görə narazılıq edir? Əgər sən onları boşasan, bil ki, Uca Allah, Onun mələkləri, Cəbrail, Mikail, mən, Əbu Bəkr və bütün möminlər səninləyik!" Mən çox nadir hallarda Allahdan diləyərdim ki, mənim dediklərimi təsdiq eləsin. Mən bunu Allahdan dilədikdə, Uca Allah bu ayəni nazil etdi: **"Əgər ikiniz də Allaha tövbə etsəniz, *yaxşı olar*. Çünki hər ikinizin qəlbi *günaha* meyil etmişdir. Əgər ona qarşı bir-birinizə dəstək versəniz, *bilin ki,* Allah, Cəbrail və əməlisaleh möminlər onun dostu və yardımçısıdır. Bunlardan başqa mələklər də onun yardımçılarıdır. Əgər o sizi boşasa, Rəbbi sizin əvəzinizə ona sizdən daha yaxşı zövcələr – müsəlman, mömin, itaətkar, tövbə edən, ibadət edən, oruc tutan dul qadınlar və bakirə qızlar verə bilər"** (ət-Təhrim, 4-5).

Aişə və Həfsə Peyğəmbərin ﷺ digər zövcələrini ona qarşı qaldırmaqla bir-birinə kömək edirdilər. Mən dedim: "Ya Rəsulullah, sən onları boşadınmı?" O: "Xeyr!"– deyə cavab verdi. Mən dedim: "Ya Rəsulullah! Mən məscidə girəndə orada olanların kədərlə: "Allahın rəsulu ﷺ zövcələrini boşayıb!"– dediklərini eşitdim. Bunun doğru olmadığını onlara bildirimmi? Peyğəmbər ﷺ dedi: "İstəyirsənsə, bildir!" Peyğəmbərin ﷺ qəzəbi soyuyub, üzündə təbəssüm hiss olunana qədər mən onunla söhbət etdim. O, oturduğu kötüyün üstündən qalxıb getdikdə, mən dedim: "Ya Rəsulullah, iyirmi doqquz gündür ki, otağındasan." O, dedi: "Ay (bəzən) iyirmi doqquz gündən ibarət olur!" Mən məscidin qapısının önündə dayanıb uca səslə dedim: "Allahın rəsulu ﷺ zövcələrini boşamayıb!" Uca Allah da bu ayəni nazil etdi: **"Onlara əmin-amanlıq və ya qorxu xəbəri gəldikdə, onu yayarlar. Halbuki, bunu Peyğəmbərə və özlərindən olan nüfuz sahiblərinə çatdırsaydılar, içərilərindən onun mahiyyətinə varan kəslər o xəbəri bilərdilər. Əgər sizə Allahın lütfü və rəhmi olmasaydı, əlbəttə, az bir qisminiz istisna olmaqla, *hamınız* şeytana uyardınız"** (ən-Nisa, 83).

Mən, mahiyyətinə varan kimsələrdən idim" (Səhih Muslim, 1479).

## ٣٧١- بَابُ أَسْمَاءِ الأَنْبِيَاءِ

## 371-ci fəsil. Peyğəmbərlərin adları

٨٣٦- حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا دَاوُدُ بْنُ قَيْسٍ قَالَ: حَدَّثَنِي مُوسَى بْنُ يَسَارٍ: سَمِعْتُ أَبَا هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((تَسَمُّوا بِاسْمِي، وَلاَ تَكَنُّوا بِكُنْيَتِي، فَإِنِّي أَنَا أَبُو الْقَاسِمِ)).

**(836)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "*Özünüzə* mənim adımı qoya bilərsiniz, lakin kunyəmi[1] qoymayın.[2] Çünki Əbul-Qasım mənəm."[3]

٨٣٧- حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ حُمَيْدٍ الطَّوِيلِ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ قَالَ: كَانَ النَّبِيُّ ﷺ فِي السُّوقِ، فَقَالَ رَجُلٌ: يَا أَبَا الْقَاسِمِ، فَالْتَفَتَ إِلَيْهِ النَّبِيُّ ﷺ، فَقَالَ: يَا رَسُولَ اللَّهِ، إِنَّمَا دَعَوْتُ هَذَا، فَقَالَ النَّبِيُّ ﷺ: ((سَمُّوا بِاسْمِي، وَلاَ تُكَنُّوا بِكُنْيَتِي)).

**(837)** ........ Ənəs ibn Malik ﷺ rəvayət etmişdir ki, *bir dəfə* Peyğəmbər ﷺ bazarda ikən bir nəfər: "Ey Əbul-Qasim"– deyə çağırdı və Peyğəmbər ﷺ ona tərəf döndü. Adam: "Ya Rəsulullah, mən (səni yox), bu adamı çağırdım"– dedi. Onda, Peyğəmbər ﷺ buyurdu: "*Özünüzə* mənim adımı qoya bilərsiniz, lakin kunyəmi qoymayın."[4]

---

[1] 24-cü fəsilin qeydlərinə bax.

[2] Bu, dəlildir ki, adama Peyğəmbərin ﷺ adlarından birini qoymaq müstəhəb, ona Peyğəmbərin ﷺ kunyəsini verməkisə qadağandır. Bu adlardan bir neçəsi barədə hədislərin birində Rəsulullah ﷺ demişdir: "Mənim (bir çox) adlarım var: mən həm Muhəmməd, həm də Əhmədəm, mən Allahın mənim vasitəmlə küfrü yox etdiyi Mahiyəm. Mən Haşirəm, o Haşir ki, insanlar onun arxasınca gedib məhşərə toplanacaqlar. Və mən Aqibəm, o Aqib ki, özündən sonra bir peyğəmbər gəlməyəcək" (Səhih əl-Buxari, 3339, Səhih Muslim, 2354, Sunən ət-Tirmizi, 3842 və Musnəd Əhməd, 4/80).

[3] Bu hədisi Buxari (110), Muslim (5713), Əbu Davud (4965) və Əhməd (3/301) rəvayət etmişdir.

[4] Bu hədisi Buxari (2120) rəvayət etmişdir.

٨٣٨- حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ أَبِي الْهَيْثَمِ الْقَطَّانُ قَالَ: حَدَّثَنِي يُوسُفُ بْنُ عَبْدِ اللَّهِ بْنِ سَلاَّمٍ قَالَ: سَمَّانِي النَّبِيُّ ﷺ يُوسُفَ، وَأَقْعَدَنِي عَلَى حِجْرِهِ وَمَسَحَ عَلَى رَأْسِي.

**(838)** ........ Yəhya ibn Əbul-Heysəm əl-Qattan rəvayət edir ki, Yusuf ibn Abdullah ibn Səlam[1] demişdir: "Peyğəmbər ﷺ mənə Yusuf[2] adını vermiş, məni qucağında otuzdurmuş və mənim başımı sığallamışdır.[3]"[4]

٨٣٩- حَدَّثَنَا أَبُو الْوَلِيدِ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ سُلَيْمَانَ، وَمَنْصُورٍ، وَفُلاَنٍ، سَمِعُوا سَالِمَ بْنَ أَبِي الْجَعْدِ، عَنْ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ، قَالَ: وُلِدَ لِرَجُلٍ مِنَّا مِنَ الأَنْصَارِ غُلاَمٌ، وَأَرَادَ أَنْ يُسَمِّيَهُ مُحَمَّدًا، قَالَ شُعْبَةُ فِي حَدِيثِ مَنْصُورٍ: أَنَّ الأَنْصَارِيَّ قَالَ: حَمَلْتُهُ عَلَى عُنُقِي، فَأَتَيْتُ بِهِ النَّبِيَّ ﷺ، وَفِي حَدِيثِ سُلَيْمَانَ: وُلِدَ لَهُ غُلاَمٌ فَأَرَادُوا أَنْ يُسَمِّيَهُ مُحَمَّدًا، قَالَ: ((تَسَمُّوا بِاسْمِي، وَلاَ تَكَنُّوا بِكُنْيَتِي، فَإِنِّي إِنَّمَا جُعِلْتُ قَاسِمًا، أَقْسِمُ بَيْنَكُمْ)). وَقَالَ حُصَيْنٌ: ((بُعِثْتُ قَاسِمًا أَقْسِمُ بَيْنَكُمْ)).

**(839)** ........ Cabir ibn Abdullah رضي الله عنهما demişdir: "Bizlərdən – ənsardan bir nəfərin oğlu oldu və o bu uşağa Muhəmməd adını vermək istədi.

(Hədisin ravilərindən olan) Şöbə demişdir: "Mənsurun rəvayət etdiyi hədisdə deyilir ki, ənsardan olan bu adam dedi: "Mən uşağı boynuma alıb Peyğəmbərin ﷺ yanına gətirdim."

Suleymanın rəvayət etdiyi hədisdə isə deyilir: "Onun oğlu oldu və ona Muhəmməd adını vermək istədi. Onda, Peyğəmbər ﷺ belə buyurdu: "Özü-

---

[1] Əbu Yəqub Yusuf ibn Abdullah ibn Səlam ibn Yusuf ibn Haris əl-İbrahimi əl-İsraili əl-Mədəni رضي الله عنه (Siyər Əlam ən-Nubələ, 119).

[2] Yusuf aleyhissəlam Quranda adı keçən iyirmi beş peyğəmbərdən biridir. Bu peyğəmbərin adı ilə bağlı Quranda ayrıca bir surə nazil olmuşdur. Bu da, dəlildir ki, uşağa peyğəmbər adı vermək mübah sayılan əməllərdəndir.

[3] Peyğəmbərin ﷺ uşaqla bu tərzdə rəftar etməsi onun təvazökar insan olduğunu bir daha sübuta yetirir.

[4] Bu hədisi Əhməd (4/35) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

nüzə mənim adımı qoya bilərsiniz, amma kunyəmi qoymayın. Çünki mən sizin aranızda (qənimətləri ədalətlə) bölmək üçün qasim[1] təyin edildim."

Husaynın rəvayətində isə deyilir: "Çünki mən sizin aranızda (qənimətləri ədalətlə) bölmək üçün qasim göndərildim."[2]

٨٤٠– حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْعَلَاءِ قَالَ: حَدَّثَنَا أَبُو أُسَامَةَ، عَنْ بُرَيْدِ بْنِ عَبْدِ اللَّهِ بْنِ أَبِي بُرْدَةَ، عَنْ أَبِي بُرْدَةَ، عَنْ أَبِي مُوسَى قَالَ: وُلِدَ لِي غُلَامٌ، فَأَتَيْتُ بِهِ النَّبِيَّ ﷺ، فَسَمَّاهُ إِبْرَاهِيمَ، فَحَنَّكَهُ بِتَمْرَةٍ، وَدَعَا لَهُ بِالْبَرَكَةِ، وَدَفَعَهُ إِلَيَّ وَكَانَ أَكْبَرَ وَلَدِ أَبِي مُوسَى.

**(840)** ........ Əbu Musa ؓ demişdir:[3] "Mənim oğlum oldu və mən onu Peyğəmbərin ﷺ yanına gətirdim.[4] Peyğəmbər ﷺ uşağa İbrahim adını verdi.[5] Sonra *öz ağzında* bir xurma əzib, onu körpənin ağzına qoydu, onun üçün (Allahdan) xeyir-bərəkət dilədi[6] və onu mənə qaytardı."

---

[1] Ərəbcə "Qasim" əslində, bölən və bölüşdürən deməkdir. Peyğəmbər ﷺ demək istəmişdir ki, o, nə isə verdikdə və ya imtina etdikdə bunu ancaq Allahın izni və istəyi ilə edir.

[2] Bu hədisi Buxari (3114) və Muslim (5714) rəvayət etmişdir.

[3] Bu hədisi Buxari öz "Səhih"ində (5467) rəvayət etmişdir.

[4] Bu hədis yeni doğulmuş körpəyə aid olan neçə-neçə əhkamları özündə cəm edir. Hədisdən aydın olur ki, dünyaya gəlmiş körpəyə ad vermək və s. şəriətə aid olan əhkamlar xüsusunda elm əhli ilə məşvərət etmək, onlardan məsləhət almaq gərəkdir. Belə ki, bir çox hallarda adam məsləhətsiz iş görür, sonra etdiyi bu işin şəriətə – Allahın və Onun peyğəmbərinin ﷺ buyruğuna müxalif olduğunu öyrənir və beləliklə də, tutduğu işdən peşman olur. Bu peşmançılıqdan və bu cür günaha batmaqdan qaçmaq istəyən kimsə gərək bilmədiyini bilənlərdən soruşsun. Yeri gəlmişkən, qeyd edək ki, doğulan körpəyə aid olan əhkamlar xüsusunda yazılmış ən gözəl kitablardan biri İbn Qeyyimin "Tohfətul-Movdud bi Əhkamil-Movlud" kitabıdır.

[5] Bu, dəlildir ki, uşağa elə doğulan günü ad qoymaq olar. İbn Qeyyim öz kitabında bu mövzu barədə danışarkən demişdir: "Digər hədislərdə uşağa üçüncü və ya yeddinci günündə ad qoymağın caiz olduğuna dair hədislər varid olmuşdur. Bundan da belə nəticə çıxır ki, uşağa istər doğuldu gün, istər üçüncü, yaxud yeddinci günündə, istərsə də bundan əvvəl, yaxud bundan sonra ad qoymaq caizdir" (Tohfətul-Movdud bi Əhkamil-Movlud, 1/102).

[6] Həsən əl-Bəsri yeni doğulan körpə üçün dua edib deyərmiş:

(Ravilərindən biri) demişdir: "Bu, Əbu Musanın böyük oğlu idi.[1]"

---

(( بَارَكَ اللهُ لَكَ فِي الْمَوْهُوبِ لَكَ، وَشَكَرْتَ الْوَاهِبَ، وَبَلَغَ أَشُدَّهُ، وَرُزِقْتَ بِرَّهُ ))

Transkripsiyası: Bərakəllahu ləkə fil-məuhubi lək, və şəkərtəl-vahibə və bələğa əşuddəhu və ruziqtə birrah.

Tərcüməsi: Allah sənə bəxş etdiyi *bu uşağı* sənin üçün mübarək etsin, *onu sənə* verən Allaha şükür edəsən, *övladın* gəncliyin ən yetkin çağına çatsın və sən onun qayğısını dadasan!

Təbrik edilən adam da onu təbrik edən kimsəyə belə cavab verir:

(( بَارَكَ اللهُ لَكَ وَبَارَكَ عَلَيْكَ، وَجَزَاكَ اللهُ خَيْرًا، وَرَزَقَكَ اللهُ مِثْلَهُ، وَأَجْزَلَ ثَوَابَكَ ))

Transkripsiyası: Barakəllahu lək, və barakə aleyk, və cəzakəllahu xayran və razəqakəllahu misləh, və əczələ səvabək.

Tərcüməsi: Allah mübarək eləsin, sənin üçün bərəkətli etsin! Allah səni xeyirlə mükafatlandırsın! Allah sənə də beləsini bəxş etsin və savabını da artırsın! (əl-Əzkar, ən-Nəvəvi, səh: 349).

[1] Bundan aydın olur ki, yaşca böyük olan övladın adı ilə kunyə götürmək vacib deyil. Belə ki, Əbu Musanın kunyəsi onun böyük oğlu İbrahimin adı ilə bağlı olmamış və Peyğəmbər ﷺ buna görə ona irad tutmamışdır. Yeri gəlmişkən, qeyd edək ki, adam özünə başqa bir adla da kunyə götürə bilər. Məsələn, nə Əbu Bəkr əs-Siddiqin ؓ Bəkr adlı, nə Əbu Həfs Ömər ibn Xattabın ؓ Həfs adlı, nə Əbu Zərrin ؓ Zərr adlı, nə Əbu Suleyman Xalid ibn Vəlidin ؓ Suleyman adlı, nə də möminlərin anası Ummu Abdullah Aişənin ؓ Abdullah adlı bir övladı olmuşdur.

## ٣٧٢– بَابُ حَزْنٍ

## 372-ci fəsil. Həzn[1] adı

٨٤١– حَدَّثَنَا عَلِيٌّ قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّزَّاقِ قَالَ: أَخْبَرَنَا مَعْمَرٌ، عَنِ الزُّهْرِيِّ، عَنْ سَعِيدِ بْنِ الْمُسَيِّبِ، عَنْ أَبِيهِ، عَنْ جَدِّهِ، أَنَّهُ أَتَى النَّبِيَّ ﷺ فَقَالَ: مَا اسْمُكَ؟ قَالَ: حَزْنٌ، قَالَ: ((أَنْتَ سَهْلٌ))، قَالَ: لاَ أُغَيِّرُ اسْمًا سَمَّانِيهِ أَبِي. قَالَ ابْنُ الْمُسَيِّبِ: فَمَا زَالَتِ الْحُزُونَةُ فِينَا بَعْدُ.

**(841)** ........ Səid ibn əl-Museyyib[2] öz atasından, o da, öz atasından rəvayət etmişdir ki, (bir gün) o,[3] Peyğəmbərin ﷺ yanına gəldi və Peyğəmbər ﷺ ondan: “Adın nədir?”– deyə soruşdu. (Babam): “Həzndir”– deyə cavab verdikdə, Peyğəmbər ﷺ (ona): “Xeyr, sən Səhlsən[4]”– deyə buyurdu. (Babam isə ona) belə cavab verdi: “Atamın mənə verdiyi adı dəyişdirməyəcəyəm.”

Səid ibn əl-Museyyib demişdir: “O vaxtdan bəri ailəmizdən hüzn əskik olmamışdır.”[5]

(...)– حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ مُوسَى قَالَ: حَدَّثَنَا هِشَامُ بْنُ يُوسُفَ، أَنَّ ابْنَ جُرَيْجٍ أَخْبَرَهُ قَالَ: أَخْبَرَنِي عَبْدُ الْحَمِيدِ بْنُ جُبَيْرِ بْنِ شَيْبَةَ قَالَ: جَلَسْتُ إِلَى سَعِيدِ بْنِ الْمُسَيِّبِ فَحَدَّثَنِي، أَنَّ جَدَّهُ حَزْنًا قَدِمَ عَلَى النَّبِيِّ ﷺ، فَقَالَ: مَا اسْمُكَ؟ قَالَ: اسْمِي حَزْنٌ، قَالَ: ((بَلْ أَنْتَ سَهْلٌ))، قَالَ: مَا أَنَا بِمُغَيِّرٍ اسْمًا سَمَّانِيهِ أَبِي قَالَ ابْنُ الْمُسَيِّبِ: فَمَا زَالَتْ فِينَا الْحُزُونَةُ.

---

[1] Həzn: kədər.

[2] Əbu Muhəmməd Səid ibn əl-Museyyib ibn Həzn əl-Qurəşi əl-Məxzumi ﵀ Mədinənin alimlərindən və ən hörmətli tabiinlərdən biri olmuşdur.

[3] Burada söhbət Səid ibn əl-Museyyibin babasından gedir.

[4] Səhl: asan, yüngül.

[5] Bu hədisi Buxari öz “Səhih”ində (5836) rəvayət etmişdir. Bu hədis belə ad qoymağın məkruh olduğuna dəlalət edir.

(...) ........ Səid ibn əl-Museyyib demişdir: “(Bir gün) babam Həzn Peyğəmbərin ﷺ yanına gəldi və Peyğəmbər ﷺ ondan: “Adın nədir?”– deyə soruşdu. (Babam): “Həzndir”– deyə cavab verdikdə, Peyğəmbər ﷺ (ona): “Xeyr, sən Səhlsən”– deyə buyurdu. (Babam isə ona) belə cavab verdi: “Mən atamın mənə verdiyi adı dəyişdirən deyiləm.”

Səid ibn əl-Museyyib demişdir: “Elə buna görə də o vaxtdan bəri ailəmizdən hüzn əskik olmamışdır.”[1]

---

[1] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu rəvayətin isnadın “səhih” olduğunu demişdir.

## ٣٧٣– بَابُ اسْمِ النَّبِيِّ ﷺ وَكُنْيَتِهِ

## 373-cü fəsil. Peyğəmbərin ﷺ adı və kunyəsi[1]

٨٤٢– حَدَّثَنَا مُحَمَّدُ بْنُ يُوسُفَ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنِ الأَعْمَشِ، عَنْ سَالِمِ بْنِ أَبِي الْجَعْدِ، عَنْ جَابِرٍ قَالَ: وُلِدَ لِرَجُلٍ مِنَّا غُلاَمٌ فَسَمَّاهُ الْقَاسِمَ، فَقَالَتِ الأَنْصَارُ: لاَ نُكَنِّيكَ أَبَا الْقَاسِمِ، وَلاَ نُنْعِمُكَ عَيْنًا، فَأَتَى النَّبِيَّ ﷺ فَقَالَ لَهُ: مَا قَالَتِ الأَنْصَارُ، فَقَالَ النَّبِيُّ ﷺ: ((أَحْسَنَتِ الأَنْصَارُ، تَسَمُّوا بِاسْمِي، وَلاَ تَكْتَنُوا بِكُنْيَتِي، فَإِنَّمَا أَنَا قَاسِمٌ)).

**(842)** ........ Cabir رضي الله عنه demişdir: “Bizlərdən birinin oğlu oldu və o, uşağa Qasım adını verdi. Ənsar da (ona): “Biz sənə Əbul-Qasim kunyəsini verməyəcək və sənin üçün gözaydınlığı diləməyəcəyik”– dedi. Onda o, Peyğəmbərin ﷺ yanına gəlib ənsarın dediyini ona xəbər verdi. Peyğəmbər ﷺ də (ona) belə buyurdu: “Əhsən ənsara! Özünüzə mənim adımı qoya bilərsiniz, lakin kunyəmi qoymayın. Çünki qasim ancaq mənəm.[2]”[3]

---

[1] İbn Qeyyim demişdir: “Bu mövzuya dair alimlər dörd rəy söyləmişlər. Bəziləri Peyğəmbərin ﷺ kunyəsini götürməyin mütləq şəkildə qadağan olunduğunu, bəziləri onun adı ilə kunyəsini bərabər götürməyin qadağan edildiyini, ayrı-ayrılıqda isə bunlardan birini götürməyin caiz olduğunu, bəziləri onun adı ilə kunyəsini bərabər götürməyin caiz olduğunu, bəziləri də bu kunyəni götürməyin Peyğəmbərin ﷺ sağlığında qadağan edildiyini, onun vəfatından sonra isə bunun caiz olduğunu demişlər. Dorğu rəy budur ki, Peyğəmbərin ﷺ adını qoymaq caiz, kunyəsini götürmək isə qadağandır. O, həyatda ikən bu qadağa hökmü daha şiddətli olmuşdur. Habelə, hər ikisini cəm etmək də (yəni onun həm adını, həm də kunyəsini götürmək) qadağandır (Zadul-Məad, 2/345-348). Və çox maraqlıdır ki, İmam Buxari bu fəsildə bu rəylərin hər birinə dəlalət edən hədislər nəql etmişdir.

[2] 839-cu hədisin qeydlərinə bax.

[3] Bu hədisi Buxari (3115) və Muslim (5715) rəvayət etmişdir. Qeyd etmək lazımdır ki, İbn Qeyyimin nəql etdiyi birinci rəyi – Peyğəmbərin ﷺ kunyəsini götürməyin mütləq şəkildə qadağan olunduğunu deyən alimlər bu hədisə və bu mənada varid olmuş digər hədislərə əsaslanmışlar.

٨٤٣– حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا فِطْرٌ، عَنْ مُنْذِرٍ قَالَ: سَمِعْتُ ابْنَ الْحَنَفِيَّةِ يَقُولُ: كَانَتْ رُخْصَةً لِعَلِيٍّ، قَالَ: يَا رَسُولَ اللَّهِ، إِنْ وُلِدَ لِي بَعْدَكَ أُسَمِّيهِ بِاسْمِكَ، وَأُكَنِّيهِ بِكُنْيَتِكَ؟ قَالَ: ((نَعَمْ)).

**(843)** ........ İbnul-Hənəfiyyə[1] demişdir: "(Atam) Əliyə rüsxət verilmişdi.[2] Odur ki, o, (Peyğəmbərdən ﷺ) soruşdu: "Ya Rəsulullah, səndən sonra oğlum olsa, ona sənin adını və sənin kunyəni verə bilərəmmi?" Peyğəmbər ﷺ (ona): "Bəli!"– deyə cavab verdi."[3]

٨٤٤– حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ يُوسُفَ قَالَ: حَدَّثَنَا اللَّيْثُ قَالَ: حَدَّثَنِي ابْنُ عَجْلَانَ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: نَهَى رَسُولُ اللَّهِ ﷺ أَنْ نَجْمَعَ بَيْنَ اسْمِهِ وَكُنْيَتِهِ، وَقَالَ: ((أَنَا أَبُو الْقَاسِمِ، وَاللَّهُ يُعْطِي، وَأَنَا أَقْسِمُ)).

**(844)** ........ Əbu Hureyrə رضي الله عنه demişdir: "Rəsulullah ﷺ bizə həm onun adını, həm də kunyəsini eyni zamanda götürməyi qadağan edib demişdir: "Əbul-Qasim mənəm! Allah mənə (mal və qənimət) verir, mən də onu (ədalətlə) bölürəm."[4]

---

[1] 130-cu hədisin qeydlərinə bax.

[2] Bu, dəlildir ki, bu xüsusda, ancaq Əli ibn Əbu Talibə رضي الله عنه izin verilmişdir. İbn Qeyyim bu hədisdən və bu mənada varid olmuş hədislərdən belə nəticə çıxarmışdır ki, uşağa ad qoymaq ancaq atanın haqqıdır.

[3] Bu hədisi Beyhəqi (Sunənul-Kubra, 19330) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir. Qeyd edək ki, İbn Qeyyimin nəql etdiyi üçüncü rəyi – Peyğəmbərin ﷺ adı ilə kunyəsini bərabər götürməyin caiz olduğunu deyən alimlər bu hədisə və bu mənada varid olmuş digər hədislərə əsaslanmışlar.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "həsən-səhih" olduğunu demişdir. Digər rəvayətdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Özünüzə mənim həm adımı, həm də kunyəmi – ikisini birdən qoymayın" (Sunən ət-Tirmizi, 2843; Səhih İbn Hibban, 5784; Musnəd Əhməd, 2/433; Silsilətul-Əhadisis-Səhihə, 2946). Qeyd edək ki, İbn Qeyyimin nəql etdiyi ikinci rəy – Peyğəmbərin ﷺ adı ilə kunyəsini

**٨٤٥-** حَدَّثَنَا أَبُو عُمَرَ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ حُمَيْدٍ، عَنْ أَنَسٍ قَالَ: كَانَ النَّبِيُّ ﷺ فِي السُّوقِ، فَقَالَ رَجُلٌ: يَا أَبَا الْقَاسِمِ، فَالْتَفَتَ النَّبِيُّ ﷺ، فَقَالَ: دَعَوْتُ هَذَا، فَقَالَ: ((سَمُّوا بِاسْمِي، وَلاَ تُكَنُّوا بِكُنْيَتِي)).

**(845)** ........ Ənəs  rəvayət etmişdir ki, *bir dəfə* Peyğəmbər ﷺ bazarda ikən bir nəfər: "Ey Əbul-Qasim"– deyə çağırdı və Peyğəmbər ﷺ ona tərəf döndü. Adam: "(Ya Rəsulullah,) mən bu adamı çağırdım"– dedi. Onda, Peyğəmbər ﷺ buyurdu: "*Özünüzə* mənim adımı qoya bilərsiniz, lakin kunyəmi qoymayın."[1]

---

bərabər götürməyin qadağan edildiyini, ayrı-ayırlıqda isə bunlardan birini götürməyin caiz olduğunu deyən alimlər bu hədisə və bu mənada varid olmuş digər hədislərə əsaslanmışlar.

[1] 837-ci hədisin təxricinə bax. Qeyd edək ki, İbn Qeyyimin nəql etdiyi dördüncü rəy – Peyğəmbərin ﷺ sağlığında onun kunyəsini götürməyin qadağan edildiyini, onun vəfatından sonra isə bunun caiz olduğunu deyən alimlər bu hədisə və bu mənada varid olmuş digər hədislərə əsaslanmışlar.

## ٣٧٤- بَابُ هَلْ يُكَنَّى الْمُشْرِكُ

## 374-cü fəsil. Müşrikə kunyə verilirmi?

٨٤٦- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي اللَّيْثُ قَالَ: حَدَّثَنِي عَقِيلٌ، عَنِ ابْنِ شِهَابٍ، عَنْ عُرْوَةَ بْنِ الزُّبَيْرِ، أَنَّ أُسَامَةَ بْنَ زَيْدٍ أَخْبَرَهُ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ بَلَغَ مَجْلِسًا فِيهِ عَبْدُ اللَّهِ بْنُ أُبَيِّ بْنُ سَلُولٍ، وَذَلِكَ قَبْلَ أَنْ يُسْلِمَ عَبْدُ اللَّهِ بْنُ أُبَيٍّ، فَقَالَ: لاَ تُؤْذِينَا فِي مَجْلِسِنَا، فَدَخَلَ النَّبِيُّ ﷺ عَلَى سَعْدِ ابْنِ عُبَادَةَ فَقَالَ: ((أَيْ سَعْدُ، أَلاَ تَسْمَعُ مَا يَقُولُ أَبُو حُبَابٍ))؟، يُرِيدُ عَبْدَ اللَّهِ بْنَ أُبَيٍّ ابْنَ سَلُولٍ.

**(846)** ........ Usamə ibn Zeyd ﷺ demişdir: "(Bir gün) Peyğəmbər ﷺ Abdullah ibn Ubeyy ibn Səlul[1] olan məclisə gəldi. Bu hadisə Abdullah ibn Ubeyyin (zahirən) müsəlman olmasından əvvəl baş vermişdi. (Abdullah ona): "Məclisimizdə bizə əziyyət vermə!"– dedi. Onda, Peyğəmbər ﷺ Səd ibn Ubadənin[2] yanına gəlib dedi: "Ey Səd, Əbu Hubabın[3] nə dediyini eşitmirsənmi?"[4]

---

[1] Bu adam münafiqlərin başçısı olmuşdur.

[2] Əbu Qeys Səd ibn Ubadə ibn Duleym ibn Harisə əl-Ənsari əl-Xəzrəci əl-Mədəni Peyğəmbərin ﷺ məşhur səhabəsi və Xəzrəc qəbiləsinin böyüyü olmuşdur (Siyər Əlam ən-Nubələ, 55-ci tərcümeyi-hal).

[3] Bu, dəlildir ki, müşrikə və ya kafirə kunyə vermək caizdir. Lakin xüsusilə qeyd etmək lazımdır ki, müşrikə və ya kafirə kunyə verməkdə məqsəd onu tanıtmaq və ya onun qəlbini İslam dininə isinişdirmək olmalıdır (Fəthul-Bari). Uca Allahın Musaya ﷺ və Haruna ﷺ buyurduğunu buna misal çəkmək olar: **"Fironun yanına gedin. Çünki o, həddini aşmışdır. Onunla yumşaq danışın. Bəlkə öyüd-nəsihət qəbul edə və yaxud qorxa!"** (Ta ha, 43-44). Əli ibn Əbu Talib ﷺ və İbn Abbas ﷺ bu ayədəki "yumşaq davranın" sözünün təfsirində demişdir: "Onu kunyə ilə çağırın" (Təfsir İbn Kəsir, Fəthul-Qədir). Müşriki və ya kafiri uca tutmaq və ona ehtiram göstərmək məqsədilə ona kunyə vermək haram sayılır.

[4] Bu hədis Buxarinin və Muslimin "Səhih"lərində tam olaraq rəvayət edilmişdir. Həmin hədisdə Usamə ibn Zeyd ﷺ demişdir: "Hələ Bədr döyüşündən əvvəl Peyğəmbər ﷺ üstünə Fədəkdə hazırlanan palan qoyulmuş uzunqulağına mindi, Usaməni də tərkinə

Peyğəmbər ﷺ "Əbu Hubab" deyəndə, Abdullah ibn Ubeyy ibn Səlulu qəsd edirdi.

---

alıb, Bənu Haris ibn Xəzrəc qəbiləsindəki Səd ibn Ubadəni ziyarət etdi. Yolda Peyğəmbər ﷺ Abdullah ibn Ubeyy ibn Səlulun olduğu bir məclisin yanından keçdi. O vaxt Abdullah ibn Ubeyy ibn Səlul hələ (zahirən) İslamı qəbul etməmişdi. Bu məclisdə həm müsəlmanlar, həm Allaha şərik qoşan bütpərəstlər, həm də yəhudilər iştirak edirdilər. Abdullah ibn Rəvaha da həmin məclisdə idi. Uzunqulağın qaldırdığı tozanaq məclisi bürüdükdə Abdullah ibn Ubeyy ibn Səlul bürüncəyi ilə burnunu tutub: "Bizi tozlamayın!"– dedi. Peyğəmbər ﷺ onlara salam verib dayandı, sonra *uzunqulaqdan* yerə enib, onları Allahın *dininə* dəvət etdi və onlara Quran oxudu. Abdullah ibn Ubeyy ibn Səlul dedi: "Ay adam, əgər sənin dediklərin doğrudursa, demək, bundan gözəl şey yoxdur. Ancaq məclisimizdə belə şeylərlə bizə əziyyət vermə, get otur yerində və belə şeyləri sənin yanına gələn adamlara danış." Bu vaxt Abdullah ibn Rəvaha dedi: "Fikir vermə, ya Rəsulullah. Sən məclislərimizdə bizə Qurandan danış, biz onu *dinləməyi çox* sevirik." *Bu vaxt ara qarışdı,* müsəlmanlar, müşriklər və yəhudilər bir-birinə nalayiq sözlər söyləməyə başladılar və iş o yerə gəlib çatdı ki, onlar az qala vuruşacaqdılar. Peyğəmbər ﷺ onları sakitləşdirməyə başladı. Haçandan-haçana onlar sakitləşdilər. Bundan sonra Peyğəmbər ﷺ uzunqulağına minib yoluna davam etdi. Nəhayət, gəlib Səd ibn Ubadənin ؓ *evinə* daxil oldu və dedi: "Ey Səd, sən Əbu Hubabın nə dediyini eşitmədinmi? O, belə-belə dedi." *Bunu deyəndə* Peyğəmbər ﷺ Abdullah ibn Ubeyy ibn Səlulu qəsd edirdi. Səd ibn Ubadə ؓ dedi: "Ya Rəsulullah, onu əfv et, onun təqsirindən keç. Kitabı sənə nazil edən Allaha and olsun ki, Allah səni, sənə nazil etdiyi haqq ilə göndərdi. Halbuki, *bir az əvvəl* bu şəhərin əhalisi *Abdullah ibn Ubeyyin* yanına gedib onun başına əmmamə qoymağa razılıq vermişdilər (Yəni onu başçı seçmək istəyirdilər). Allah sənə bəxş etdiyi haqq sayəsində bu işi alt-üst etdikdə isə *Abdullahın* buna paxıllığı tutdu. Elə bu da, onu gördüyün belə bir işi tutmağa vadar etdi." Beləliklə, Peyğəmbər ﷺ onu bağışladı..." (Səhih əl-Buxari, 4566; Səhih Muslim, 4760).

# ٣٧٥- بَابُ الْكُنْيَةِ لِلصَّبِيِّ

## 375-ci fəsil. Uşağa kunyə vermək

٨٤٧- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ ثَابِتٍ، عَنْ أَنَسٍ قَالَ: كَانَ النَّبِيُّ ﷺ يَدْخُلُ عَلَيْنَا، وَلِي أَخٌ صَغِيرٌ يُكَنَّى: أَبَا عُمَيْرٍ، وَكَانَ لَهُ نُغَرٌ يَلْعَبُ بِهِ فَمَاتَ، فَدَخَلَ النَّبِيُّ ﷺ فَرَآهُ حَزِينًا، فَقَالَ: ((مَا شَأْنُهُ؟)) قِيلَ لَهُ: مَاتَ نُغَرُهُ، فَقَالَ: ((يَا أَبَا عُمَيْرٍ، مَا فَعَلَ النُّغَيْرُ؟))

**(847)** ........ Ənəs ﷺ demişdir: "Peyğəmbər ﷺ tez-tez bizim evimizə gələrdi. Mənim Əbu Umeyr kunyəli balaca qardaşım, onun da bir quşcuğazı var idi.[1] Qardaşım onunla oynayardı. Nəhayət, quşcuğaz öldü. Peyğəmbər ﷺ evimizə gələrkən onun kədərli olduğunu gördü və: "Buna nə olub?"– deyə soruşdu. Ona: "Uşağın quşcuğazı ölüb"– deyə cavab verdilər. Onda, Peyğəmbər ﷺ dedi: "Ey Əbu Umeyr, quşcuğaza nə oldu?[2]"[3]

---

[1] Peyğəmbərin ﷺ uşağa quş saxlamağı qadağan etməməsi quş saxlamağın caiz olmasına dəlalət edir (178-ci fəsilin qeydlərinə bax).

[2] 269-cu hədisə və onun qeydlərinə bax. Hədisdən aydın olur ki, uşağa kunyə vermək caizdir. Bu, həm də onu əzizləmək üçün olan vasitələrdən biri sayılır. Yeri gəlmişkən, qeyd edək ki, qız uşağına da kunyə vermək caizdir. Bu xüsusda, varid olmuş hədisdə rəvayət edilir ki, Ummu Xalid bint Xalid ibn Səd ﷺ demişdir: "*Bir gün* Peyğəmbərə ﷺ üzərində qara rəngli xırda naxışlar olan bir paltar gətirdilər. Peyğəmbər ﷺ (səhabələrindən): "Nə deyirsiniz, bunu kimə geyindirək?"– deyə soruşdu. Heç kəs cavab vermədi. Onda, Peyğəmbər ﷺ: "Ummu Xalidi yanıma gətirin"– deyə buyurdu. Uşağı onun yanına gətirdilər və o öz əli ilə bu paltarı ona geyindirdi. Sonra da dua edib dedi: "*Bu paltarı* köhnələnədək və *Allah sənə* yenisini verənədək geyəsən!" Həmin paltarın üstündə yaşıl və ya sarı rəngli bəzəklər də vardı. Peyğəmbər ﷺ (əynimdəki bu paltara baxıb) dedi: "Bu qəşəngdir, ey Ummu Xalid!" (Səhih əl-Buxari, 5823).

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٣٧٦- بَابُ الْكُنْيَةِ قَبْلَ أَنْ يُولَدَ لَهُ

## 376-cı fəsil. Adamın övladı olmamışdan əvvəl ona kunyə vermək[1]

٨٤٨- حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ مُغِيرَةَ، عَنْ إِبْرَاهِيمَ، أَنَّ عَبْدَ اللَّهِ كَنَّى عَلْقَمَةَ: أَبَا شِبْلٍ، وَلَمْ يُولَدْ لَهُ.

**(848)** ........ İbrahim (ən-Nəxəi) demişdir: "Abdullah (ibn Məsud) Əlqəməyə[2] Əbu Şibl[3] kunyəsini vermişdir. Halbuki, onun övladı yox idi."[4]

٨٤٩- حَدَّثَنَا عَارِمٌ قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ الأَعْمَشُ، عَنْ إِبْرَاهِيمَ، عَنْ عَلْقَمَةَ قَالَ: كَنَّانِي عَبْدُ اللَّهِ قَبْلَ أَنْ يُولَدَ لِي.

**(849)** ........ Əlqəmə demişdir: "Mənin övladım olmadığı halda Abdullah mənə kunyə vermişdi."[5]

---

[1] Əvvəlki fəsildəki hədislərdə qeyd edildiyi kimi Peyğəmbərin ﷺ uşağa Əbu Umeyr və Ummu Xalid deməsi, habelə, digər hədislərdə xəbər verildiyi kimi Ənəs ibn Malikin ؓ Əbu Həmzə, Abdur-Rəhman ibn Saxrın ؓ Əbu Hureyrə, Suheybin ؓ Əbu Yəhya və başqa neçə-neçə səhabənin övladı olmadan kunyə ilə çağırılması, adamın övladı olmamışdan əvvəl ona kunyə verməyin caiz olduğuna dəlalət edir. Hətta, sonsuz olan kimsəyə belə kunyə vermək caizdir.

[2] Əbu Şibl Əlqəmə ibn Qeys ibn Abdullah ən-Nəxəi əl-Kufi, İbrahim ən-Nəxəinin dayısıdır. Əlqəmə, Abdullah ibn Məsudun ؓ tələbələrindən olmuşdur. Ömər, Osman, Əli, Aişə, Huzeyfə, Əbu Musa və başqa səhabələrdən (Allah onların hamısından razı olsun!) hədislər rəvayət etmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, Əlqəmənin övladı olmamışdır. Abdullah ibn Məsudun ؓ ona Əbu Şibl kunyəsini verməsi dəlildir ki, sonsuz adama belə kunyə vermək olar (Siyər Əlam ən-Nubələ, 14-cü tərcümeyi-hal).

[3] Şibl: şir balası.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[5] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٣٧٧- بَابُ كُنْيَةِ النِّسَاءِ

## 377-ci fəsil. Qadınların kunyəsi[1]

٨٥٠- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: حَدَّثَنَا أَبُو مُعَاوِيَةَ قَالَ: حَدَّثَنَا هِشَامُ بْنُ عُرْوَةَ، عَنْ يَحْيَى بْنِ عَبَّادِ بْنِ حَمْزَةَ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: أَتَيْتُ النَّبِيَّ ﷺ فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ، كَنَّيْتَ نِسَاءَكَ، فَاكْنِنِي، فَقَالَ: ((تَكَنِّي بِابْنِ أُخْتِكِ عَبْدِ اللَّهِ)).

**(850)** ........ Aişə ﵁ demişdir: "Mən Peyğəmbərin ﷺ yanına gəlib dedim: "Ya Rəsulullah, qadınlarına kunyə vermisən, mənə də kunyə ver." Peyğəmbər ﷺ dedi: "Bacın oğlu Abdullahın[2] adı ilə özünə kunyə götür."[3]

---

[1] İslam alimlərindən bir çoxu bu mövzudan danışarkən insana kunyə verməyin İslam şəriətinə aid olduğunu, bu dinin xüsusiyyətlərindən olduğunu, başqa ümmətlərdə bu ədəbin olmadığını xüsusilə vurğulamışlar. Şeyx Muhəmməd Nasirəddin əl-Albani demişdir: "Bu hədis övladı olmayan adama belə kunyə verməyin İslam şəriətinə aid olduğuna dəlalət edir. Bu da, İslam ədəbidir ki, bildiyimə görə, başqa ümmətlərin heç birində bunun bənzəri yoxdur. Odur ki, müsəlmanlar – istər kişi, istərsə qadın olsun – bu İslam ədəbindən möhkəm yapışmalı, üstəlik, əcəmilərin adətlərindən onlara sirayət etmiş – bəy, əfəndi, paşa, misyö, seyid, madam və başqa bu kimi ayamaları tərk etməlidirlər. (Təəssüflər olsun ki,) bunların hamısı müsəlmanlar arasında yayılmaqdadır. Halbuki, hənəfi fəqihləri öz kitablarında "əfəndi" ləqəbinin işlədilməsini məkruh hesab etmişlər. Belə ki, bu sözdə təzkiyə (yəni özünü təmizə çıxarma) vardır. Bu da, İbn Abidinin "Haşiyə"sində öz əksini tapmışdır..." (Silsilətul-Əhadisis-Səhihə, 1/205).

[2] Burada Aişənin ﵁ bacısı Əsmanın ﵁ Zubeyrdən ﵁ olan oğlu Abdullah ﵄ nəzərdə tutulur. Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Xala, ana yerindədir!" (Səhih əl-Buxari, 2699).

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin mənasının "səhih", lakin hədisdə keçən "qadınlarına kunyə vermisən, mənə də kunyə ver" əlavəsinin isə "munkər" olduğunu demişdir.

٨٥١- حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا وُهَيْبٌ قَالَ: حَدَّثَنَا هِشَامٌ، عَنْ عَبَّادِ بْنِ حَمْزَةَ بْنِ عَبْدِ اللَّهِ ابْنِ الزُّبَيْرِ، أَنَّ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: يَا نَبِيَّ اللَّهِ، أَلاَ تُكَنِّينِي؟ فَقَالَ: اكْتَنِي بِابْنِكِ، يَعْنِي: عَبْدَ اللَّهِ بْنَ الزُّبَيْرِ، فَكَانَتْ تُكَنَّى: أُمَّ عَبْدِ اللَّهِ.

**(851)** ........ Aişə ﵂ demişdir: "Ey Allahın peyğəmbəri, mənə kunyə verməyəcəksənmi?" Peyğəmbər ﷺ dedi: "(Bacın) oğlunun, (yəni Abdullah ibn Zubeyrin ﵄) adı ilə özünə kunyə götür."

(Hədisin ravisi demişdir:) "(Bundan) sonra onu Ummu Abdullah[1] çağırmağa başladılar."[2]

---

[1] Ummu Abdullah: Abdullahın anası.

[2] Bu hədisi Əhməd (6/151) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ٣٧٨- بَابُ مَنْ كَنَّى رَجُلًا بِشَيْءٍ هُوَ فِيهِ أَوْ بِأَحَدِهِمْ

## 378-ci fəsil. Adamın özünə aid olan bir şeylə, yaxud hər hansı birindən ona kunyə verən şəxs

٨٥٢- حَدَّثَنَا خَالِدُ بْنُ مَخْلَدٍ قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ بِلَالٍ قَالَ: حَدَّثَنِي أَبُو حَازِمٍ، عَنْ سَهْلِ بْنِ سَعْدٍ، إِنْ كَانَتْ أَحَبَّ أَسْمَاءِ عَلِيٍّ رَضِيَ اللَّهُ عَنْهُ إِلَيْهِ لَأَبُو تُرَابٍ، وَإِنْ كَانَ لَيَفْرَحُ أَنْ يُدْعَى بِهَا، وَمَا سَمَّاهُ أَبَا تُرَابٍ إِلاَّ النَّبِيُّ ﷺ، غَاضَبَ يَوْمًا فَاطِمَةَ، فَخَرَجَ فَاضْطَجَعَ إِلَى الْجِدَارِ إِلَى الْمَسْجِدِ، وَجَاءَهُ النَّبِيُّ ﷺ يَتْبَعُهُ، فَقَالَ: هُوَ ذَا مُضْطَجِعٌ فِي الْجِدَارِ، فَجَاءَ النَّبِيَّ ﷺ وَقَدِ امْتَلأَ ظَهْرُهُ تُرَابًا، فَجَعَلَ النَّبِيُّ ﷺ يَمْسَحُ التُّرَابَ عَنْ ظَهْرِهِ وَيَقُولُ: ((اجْلِسْ أَبَا تُرَابٍ)).

**(852)** ........ Səhl ibn Səd ﷺ demişdir: “Əlinin ən çox[1] sevdiyi kunyəsi Əbu Turab[2] idi. O, bu kunyə ilə çağırıldıqda sevinərdi. (Çünki) bu kunyəni ona Peyğəmbər ﷺ vermişdi. (Bir gün) Əlinin Fatiməyə acığı tutdu. Odur ki, evdən çıxdı və (gedib) məscidin divarının dibində yerə uzandı.[3] Peyğəm-

---

[1] Bundan aydın olur ki, Əli ibn Əbu Talibin ﷺ Əbu Turabdan başqa kunyələri də olmuşdur. Ona Əbul-Həsən və Əbu Sibteyn də deyərdilər.

[2] Əbu Turab “torpaq atası” və ya “torpağa bulaşmış” deməkdir. Peyğəmbər ﷺ ona bu ayamanı verməklə onu əzizləmiş, həqiqi mənada zarafat etmişdir.

[3] Bundan aydın olur ki, ən ideyal sayılan ailələrdə belə bəzən mübahisələrin baş verməsi qaçılmazdır və ərlə arvad arasında inciklik olduğu vaxt kişinin müvəqqəti olaraq – hər ikisinin qəzəbi soyuyanadək evdə qalmaması məsləhətdir. Belə etməlidir ki, şeytan bu fitnəni alovlandırıb, ailənin dağılması dərəcəsinə çatdırmasın. Qəzəbləndikdə, nəfsi cilovlamağın yolunu Peyğəmbər ﷺ bizə öyrətmişdir. Hədislərin birində o, belə buyurmuşdur: “Qoy, sizlərdən biri qəzəbləndiyi zaman sussun!” (Səhih əl-Cami, 693); o, həmçinin, demişdir: “Qoy, sizlərdən biri qəzəbləndiyi zaman otursun. Qəzəbi soyumasa, uzansın” (Səhih əl-Cami, 694). Əli ibn Əbu Talib ﷺ də belə etmiş, gedib məsciddə uzanmışdır.

bər ﷺ onu axtarmağa başladı. (Peyğəmbərə ﷺ): "O, divarın dibində yerə uzanıb"– deyə xəbər verdilər. Peyğəmbər ﷺ Əlinin yanına gəldikdə, onun kürəyi torpağa batmışdı. Peyğəmbər ﷺ onun kürəyindən torpağı silə-silə dedi: "Otur, ey Əbu Turab![1]"[2]

---

[1] İbn Həcər bu hədisi izah edərkən demişdir: "Bu, bir adama bir neçə kunyə verməyin caiz olduğuna dəlalət edir. Bu kunyəyə gəlincə, bu adamın halına aid ona verilən kunyələrə şamil edilir" (Fəthul-Bari). Bundan o da, aydın olur ki, Peyğəmbər ﷺ belə vəziyyətlərdə səhabələrinə qarşı sərt olmamış, əksinə, onlarla olduqca mülayim rəftar etmişdir.

[2] İmam Buxari bu hədisi öz "Səhih"ində belə rəvayət etmişdir: "Səhl ibn Səd ﷺ demişdir: "*Bir gün* Peyğəmbər ﷺ *qızı* Fatimənin evinə gəlib Əlini orada tapmadı və: "Əmim oğlu haradadır?"– deyə soruşdu. Fatimə dedi: "Aramızda mübahisə baş verdi, onun mənə açığı tutdu və günorta mənim yanımda yatmaqdan imtina etdi." Peyğəmbər ﷺ bir nəfərə: "Bax gör, o haradadır?"– deyə buyurdu. *Adam* qayıdıb dedi: "Ya Rəsulullah, o, məsciddə yatıb." Peyğəmbər ﷺ oraya getdi. (Gəlib gördü ki,) Əli böyrü üstə uzanıb, bürüncəyi üstündən sürüşüb düşüb, kürəyi də torpağa bulaşıb. Peyğəmbər ﷺ *ona*: "Qalx, ey Əbu Turab, qalx, ey Əbu Turab!"– deyərək onun *kürəyindəki* tozu çırpmağa başladı" (Səhih əl-Buxari, 441).

## ٣٧٩- بَابٌ كَيْفَ الْمَشْيُ مَعَ الْكُبَرَاءِ وَأَهْلِ الْفَضْلِ؟

## 379-cu fəsil. Böyüklərlə və fəzilətli adamlarla yol gedərkən nəyə riayət edilməlidir?

٨٥٣- حَدَّثَنَا أَبُو مَعْمَرٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَارِثِ قَالَ: حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ، عَنْ أَنَسٍ قَالَ: بَيْنَمَا النَّبِيُّ ﷺ فِي نَخْلٍ لَنَا، نَخْلٍ لِأَبِي طَلْحَةَ، تَبَرَّزَ لِحَاجَتِهِ، وَبِلَالٌ يَمْشِي وَرَاءَهُ، يُكْرِمُ النَّبِيَّ ﷺ أَنْ يَمْشِيَ إِلَى جَنْبِهِ، فَمَرَّ النَّبِيُّ ﷺ بِقَبْرٍ فَقَامَ، حَتَّى تَمَّ إِلَيْهِ بِلَالٌ، فَقَالَ: ((وَيْحَكَ يَا بِلَالُ، هَلْ تَسْمَعُ مَا أَسْمَعُ؟)) قَالَ: مَا أَسْمَعُ شَيْئًا، فَقَالَ: ((صَاحِبُ هَذَا الْقَبْرِ يُعَذَّبُ، فَوُجِدَ يَهُودِيًّا)).

**(853)** ........ Ənəs ؓ demişdir: “(Bir dəfə) Peyğəmbər ﷺ bizim xurma bağımızda (yəni Əbu Talhənin xurma bağında) ikən təbii ehtiyacını rəf etmək üçün subaşına çıxdı. Bilal da Peyğəmbərin ﷺ arxasınca getdi[1] ki, onun yanında olsun və ona xidmət göstərsin. (Yolda) Peyğəmbər ﷺ bir qəbrin yanından keçərkən dayandı. Nəhayət, Bilal ona yaxınlaşdıqda, o dedi: “Vay sənin halına,[2] ey Bilal! Sən mənim eşitdiyimi[3] eşidirsənmi?” Bilal dedi: “Mən heç nə eşitmirəm, (ya Rəsulullah).” Onda, Peyğəmbər ﷺ dedi: “Bu qəbirin sahibinə əzab verilir.” Sonradan qəbirdəkinin yəhudi olduğu məlum oldu.”[4]

---

[1] Bundan aydın olur ki, böyüklərlə və fəzilət sahibləri ilə yol gedərkən, onların önündə yox, əksinə, arxasınca getmək İslam ədəblərindəndir (44-cü hədisin qeydlərinə bax).

[2] 333-cü fəsilin qeydlərinə bax.

[3] Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: “Əgər sizin öz ölülərinizi basdırmayacağınızdan ehtiyat etməsəydim, Allaha dua edərdim ki, qəbir əzabından bəzisini sizə eşitdirsin” (Səhih Muslim, 7393).

[4] Bu hədisi Əhməd (3/151) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “səhih” olduğunu demişdir.

## ٣٨٠- بَابُ

## 380-ci fəsil.

٨٥٤- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ إِسْمَاعِيلَ، عَنْ قَيْسٍ قَالَ: سَمِعْتُ مُعَاوِيَةَ يَقُولُ لِأَخٍ لَهُ صَغِيرٍ: أَرْدِفِ الْغُلَامَ، فَأَبَى، فَقَالَ لَهُ مُعَاوِيَةُ: بِئْسَ مَا أُدِّبْتَ، قَالَ قَيْسٌ: فَسَمِعْتُ أَبَا سُفْيَانَ يَقُولُ: دَعْ عَنْكَ أَخَاكَ.

**(854)** ........ Qeys (ibn Əbu Hazim) demişdir: "Mən Muaviyənin,[1] balaca qardaşına belə dediyini eşitdim: "Bu xidmətçini miniyinin tərkinə al." O, bundan imtina etdikdə, Muaviyə ona dedi: "Sən necə də ədəbsizsən!" Əbu Sufyan dedi: "Dəymə ona. O sənin qardaşındır."[2]

٨٥٥- حَدَّثَنَا سَعِيدُ بْنُ عُفَيْرٍ قَالَ: حَدَّثَنِي يَحْيَى بْنُ أَيُّوبَ، عَنْ مُوسَى بْنِ عَلِيٍّ، عَنْ أَبِيهِ، عَنْ عَمْرِو بْنِ الْعَاصِ قَالَ: إِذَا كَثُرَ الْأَخِلَّاءُ كَثُرَ الْغُرَمَاءُ، قُلْتُ لِمُوسَى: وَمَا الْغُرَمَاءُ ؟ قَالَ: الْحُقُوقُ.

**(855)** ........ Amr ibn As ﷺ demişdir: "(Bir-birinə can deyib-can eşidən) dostlar[3] çoxaldığı zaman borclar da çoxalar."

(Yəhya) dedi: "Mən Musadan[4]: "Borclar nədir?"– deyə soruşdum. O, dedi: "Haqlardır.[5]"[6]

---

[1] Söhbət məşhur səhabə Muaviyə ibn Əbu Sufyandan ﷺ gedir.

[2] Bu əsəri Əbu Bəkr əş-Şeybani (əl-Ahad vəl-Məsani, 508) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "səhih" olduğunu demişdir.

[3] Belə dostlar barədə Uca Allah buyurur: **"O gün müttəqilərdən başqa *bütün* dostlar bir-birinə düşmən kəsiləcəklər"** (əz-Zuxruf, 67).

[4] Yəhya ibn Əyyub və Musa ibn Əli – hər ikisi bu əsəri nəql etmiş ravilərdir.

[5] Belə ki, adamın Allah rizası üçün sevdiyi dostları artdıqca, onun boynuna düşən vəzifəsi, yəni hər bir mömin dostunun haqqını ödəmək məsuliyyəti də artır. Müsəlmana salam verməyi, xəstələndikdə, ona baş çəkməyi, vəfat etdikdə, dəfnində iştirak etməyi, dəvət etdikdə, bu dəvəti qəbul etməyi, nəsihət istədikdə, ona nəsihət verməyi, asqırıb "əlhəmdulilləh" dedikdə, ona "yərhəmukəllah" deməyi və başqa bu kimi əməlləri müsəlmanın müsəlman üzərində olan haqlara aid etmək olar.

[6] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٣٨١- بَابٌ مِنَ الشِّعْرِ حِكْمَةٌ

## 381-ci fəsil. Şeirdən[1] bir qismi hikmətdir[2]

٨٥٦- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا أَبُو عَامِرٍ قَالَ: حَدَّثَنَا أَيُّوبُ بْنُ ثَابِتٍ، عَنْ خَالِدٍ هُوَ ابْنُ كَيْسَانَ قَالَ: كُنْتُ عِنْدَ ابْنِ عُمَرَ، فَوَقَفَ عَلَيْهِ إِيَاسُ بْنُ خَيْثَمَةَ قَالَ: أَلاَ أُنْشِدُكَ مِنْ شِعْرِي يَا ابْنَ الْفَارُوقِ؟ قَالَ: بَلَى، وَلَكِنْ لاَ تُنْشِدْنِي إِلاَّ حَسَنًا. فَأَنْشَدَهُ حَتَّى إِذَا بَلَغَ شَيْئًا كَرِهَهُ ابْنُ عُمَرَ، قَالَ لَهُ: أَمْسِكْ.

**(856)** ........ Xalid ibn Keysan demişdr: "Mən İbn Ömərin yanında ikən İyas ibn Xeysəmə (gəlib) onun qarşısında durdu və: "Ey Faruqun oğlu, sənə öz şeirimdən oxuyummu?"– deyə soruşdu. İbn Ömər dedi: "Bəli, ancaq gözəl olanını oxu.[3]" İyas ona şeir oxudu. Nəhayət, şeirin xoşagəlməyən bir yerinə çatdıqda İbn Ömər: "Saxla"– dedi.[4]

٨٥٧- حَدَّثَنَا عَمْرُو بْنُ مَرْزُوقٍ قَالَ: أَخْبَرَنَا شُعْبَةُ، عَنْ قَتَادَةَ، سَمِعَ مُطَرِّفًا قَالَ: صَحِبْتُ عِمْرَانَ بْنَ حُصَيْنٍ مِنَ الْكُوفَةِ إِلَى الْبَصْرَةِ، فَقَلَّ مَنْزِلٌ يَنْزِلُهُ إِلاَّ وَهُوَ يُنْشِدُنِي شِعْرًا، وَقَالَ: إِنَّ فِي الْمَعَارِيضِ لَمَنْدُوحَةً عَنِ الْكَذِبِ.

**(857)** ........ Mutarrif[5] demişdir: "Mən Kufədən Bəsrəyə qədər İmran ibn Husaynə[6] yol yoldaşı oldum. Dəmək olar ki, yetişdiyimiz hər bir mənzil-

---

[1] Şeir: nəzmə çəkilmiş bədii əsər. İmam Buxarinin bu fəsildə varid etdiyi hədislər şeirin hökmünü – hansının caiz, hansının da qadağan olduğunu bəyan edir.

[2] 858-ci hədisin qeydlərinə bax.

[3] Deməк, şeirin pis olanı da vardır. Bundan da aydın olur ki, pis şeiri oxumaq olmaz.

[4] Bu hədisin isnadında keçən Əyyub ibn Sabit "leyyin" və Xalid ibn Keysan "məqbul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

[5] Mutarrif ibn Abdullah ibn Şixxir məşhur tabiinlərdən və böyük alimlərdəndir.

[6] Əbu Nuceyd İmran ibn Husayn əl-Xuzai ﷺ Peyğəmbərin ﷺ səhabəsidir.

də, o, mənə şeir oxuyardı. Sonra o, dedi: "Eyhamla[1] danışmaqda, yalan sözdən qaçma vardır.[2]"[3]

٨٥٨- حَدَّثَنَا أَبُو الْيَمَانِ قَالَ: أَخْبَرَنَا شُعَيْبٌ، عَنِ الزُّهْرِيِّ قَالَ: أَخْبَرَنِي أَبُو بَكْرِ بْنُ عَبْدِ الرَّحْمَنِ، أَنَّ مَرْوَانَ بْنَ الْحَكَمِ أَخْبَرَهُ، أَنَّ عَبْدَ الرَّحْمَنِ بْنَ الأَسْوَدِ بْنِ عَبْدِ يَغُوثَ أَخْبَرَهُ، أَنَّ أُبَيَّ بْنَ كَعْبٍ أَخْبَرَهُ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((إِنَّ مِنَ الشِّعْرِ حِكْمَةً)).

**(858)** ........ Ubeyy ibn Kəb ﷺ demişdir: "Rəsulullah ﷺ demişdir: "Şeirdən bir qismi hikmətdir.[4]"[5]

٨٥٩- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا أَبُو هَمَّامٍ مُحَمَّدُ بْنُ الزِّبْرِقَانِ قَالَ: حَدَّثَنَا يُونُسُ بْنُ عُبَيْدٍ، عَنِ الْحَسَنِ، عَنِ الأَسْوَدِ بْنِ سَرِيعٍ: قُلْتُ: يَا رَسُولَ اللَّهِ، إِنِّي مَدَحْتُ رَبِّي عَزَّ وَجَلَّ بِمَحَامِدَ، قَالَ: ((أَمَا إِنَّ رَبَّكَ يُحِبُّ الْحَمْدَ)) وَلَمْ يَزِدْهُ عَلَى ذَلِكَ.

---

[1] Eyham: ikimənalı, üstüörtülü söz və ya ifadə; işarə.

[2] Yəni şair öz şeirindən ikibaşlı söz işlətməklə, əslində yalan olan bir şeyi doğru kimi ifadə edir.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "Səhih-movquf" olduğunu demişdir.

[4] Burada "hikmət" deyildikdə, vəz etmək, nəsihət etmək, yada salmaq, haqqı bəyan etmək və s. bu kimi həqiqətlər nəzərdə tutulur. Bunun əks anlamından aydın olur ki, şeirin hikmət sayılmayan tərəfi də vardır. Qeyd edək ki, şeirin bu tərəfi daha çoxdur. Belə ki, şeirlərin əksəriyyəti cəfəngiyatdır, hətta arasında küfr sayılanı da vardır. Bu xüsusda, Uca Allah buyurur: **"Şairlərə gəldikdə isə, onlara ancaq azğınlar uyar. Məgər görmürsənmi ki, bu şairlər hər vadidə veyl-veyl gəzir** (hər mövzuda şeir uydurur) **və etmədikləri şeylərə aid söhbət açırlar? Təkcə iman sahibi olub saleh əməllər edən, Allahı tez-tez yada salan və haqsızlığa məruz qaldıqdan sonra *dini* müdafiə edənlərdən başqa. Zalımlar isə qayıdacaqları yeri mütləq biləcəklər"** (əş-Şuəra, 224-227).

[5] Bu hədisi Buxari (6145), Əbu Davud (2/315), Darimi (2/296-297), İbn Macə (2/410), Təyalisi (556) və Əhməd (3/456 və 5/125) rəvayət etmişdir.

**(859)** ........ Əsvəd ibn Səri ﷺ demişdir: “(Bir dəfə) mən Peyğəmbərə ﷺ dedim: “Ya Rəsulullah, mən Rəbbimə ﷻ təriflər dedim.” O: “Rəbbin həmd edilməyi sevir[1]”– deyə buyurdu və buna heç nə əlavə etmədi.”[2]

٨٦٠– حَدَّثَنَا عُمَرُ بْنُ حَفْصٍ قَالَ: حَدَّثَنَا أَبِي قَالَ: حَدَّثَنَا الأَعْمَشُ قَالَ: سَمِعْتُ أَبَا صَالِحٍ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((لَأَنْ يَمْتَلِئَ جَوْفُ رَجُلٍ قَيْحًا حَتَّى يَرِيَهُ، خَيْرٌ مِنْ أَنْ يَمْتَلِئَ شِعْرًا)).

**(860)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: “Bir adamın azarlayanadək qarnının irinlə doldurulması, onun şeirlə dolmasından daha xeyirlidir.[3]”[4]

---

[1] Peyğəmbərin ﷺ bu sözü, şeirlə Allaha təriflər deməyin caiz olmasına dəlalət edir.

[2] 342-ci hədisin qeydlərinə bax.

[3] Əgər biz Rəsulullahın ﷺ bu sözünə diqqət yetirsək görərik ki, həqiqətən də, adamın qarın xəstəliyi tapması, onun üçün qəlbinin xəstələnməsindən, beləliklə də, dinini alt-üst etməsindən daha xeyirlidir.

[4] Bu hədisi İmam Buxari öz “Səhih”ində (6145) rəvayət etmiş və fəslə belə bir ünvan vermişdir: “Şeir insanı o həddə gətirib çatdırmamalıdır ki, bu, onu Allahı zikr etməkdən, elm öyrənməkdən və Quran oxumaqdan yayındırsın.” Bundan da aydın olur ki, mömin adam vaxtının çox hissəsini şeirə yox, Allahı zikr etməyə, faydalı elm öyrənməyə və Quran oxumağa sərf etməlidir. Bəzi adamlar şeirə o qədər aludə olur ki, axırda bu, onu dinindən uzaq salır, hətta bəziləri dini təbliğ etdikdə, ayə və hədis demək əvəzinə, ancaq ibrətamiz şeirlər oxumaqla dinə dəvət edir. Halbuki, Uca Allah buyurur: **“Sən Mənim təhdidimdən qorxanlara Quranla öyüd-nəsihət ver!”** (Qaf, 45); “**Həqiqətən, bunda *həssas* qəlbi olan, hazır durub, *diqqətlə* qulaq asan kimsə üçün ibrət vardır**” (Qaf, 37); **“Onlara oxunan Kitabı sənə nazil etməyimiz onlar üçün kifayət deyilmi? Həqiqətən, bunda iman gətirən adamlar üçün mərhəmət və ibrət vardır”** (əl-Ənkəbut, 51); **“De: “Mən sizi ancaq vəhy ilə *qabaqcadan* xəbərdar edirəm”** (əl-Ənbiya, 45). Şeirə aludə olmağın zərəri barədə İbn Qeyyim demişdir: “Adamın qəlbi şeirlə dolduğu təqdirdə artıq bu qəlbdə nə Quranın həqiqətlərinə, nə də adamı kamilliyə aparan və ona səadət bəxş edən elmə yer qalacaq, habelə, qəlb bunları qəbul etməyəcək” (əl-Fəvaid, səh: 30).

٨٦١– حَدَّثَنَا سَعِيدُ بْنُ سُلَيْمَانَ قَالَ: حَدَّثَنَا مُبَارَكٌ، عَنِ الْحَسَنِ، عَنِ الأَسْوَدِ بْنِ سَرِيعٍ قَالَ: كُنْتُ شَاعِرًا، فَأَتَيْتُ النَّبِيَّ ﷺ فَقُلْتُ: أَلاَ أُنْشِدُكَ مَحَامِدَ حَمِدْتُ بِهَا رَبِّي؟ قَالَ: ((إِنَّ رَبَّكَ يُحِبُّ الْمَحَامِدَ))، وَلَمْ يَزِدْنِي عَلَيْهِ.

**(861)** ........ Əsvəd ibn Səri ﷺ demişdir: “Mən şair idim. (Bir gün) Peyğəmbərin ﷺ yanına gəlib dedim: “Rəbbimə təriflər dediyim mədhiyyələri sənə oxuyummu?” O: “Rəbbin həmd edilməyi sevir”– deyə buyurdu və buna heç nə əlavə etmədi.”[1]

٨٦٢– حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلامٍ قَالَ: حَدَّثَنَا عَبْدَةُ قَالَ: أَخْبَرَنَا هِشَامُ بْنُ عُرْوَةَ، عَنْ أَبِيهِ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتِ: اسْتَأْذَنَ حَسَّانُ بْنُ ثَابِتٍ رَسُولَ اللَّهِ ﷺ فِي هِجَاءِ الْمُشْرِكِينَ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: ((فَكَيْفَ بِنِسْبَتِي؟)) فَقَالَ: لأَسُلَّنَّكَ مِنْهُمْ كَمَا تُسَلُّ الشَّعْرَةُ مِنَ الْعَجِينِ.

**(862)** ........ Aişə ﷺ demişdir:[2] “Həssan ibn Sabit[3] (öz şeiri ilə) müşrikləri yerinə oturtmaq üçün Rəsulullahdan ﷺ izin istədi.[4] Rəsulullah ﷺ soruşdu:

---

[1] 859-cu hədisin qeydlərinə bax.

[2] Bu hədisi Buxari (3531) və Muslim (6550) rəvayət etmişdir.

[3] Əbul-Vəlid Həssan ibn Sabit ibn Munzir əl-Ənsari Peyğəmbərin ﷺ səhabəsi və şairi, mömin şairlərin seyidi və şeir xüsusunda müqəddəs ruhla qüvvətləndirilmiş bir kimsə olmuşdur (Siyər Əlam ən-Nubələ, 106-cı tərcümeyi-hal). Həssan ibn Sabit əl-Ənsari ﷺ rəvayət edir ki, *bir dəfə* o, Əbu Hureyrədən soruşdu: “Səni and verirəm Allaha, *de görüm,* Peyğəmbərin ﷺ: “Ey Həssan, Rəsulullahın əvəzinə *müşriklərə* cavab ver! Ey Allah, müqəddəs ruhla (Cəbrail ﷺ vasitəsilə) ona kömək ol!”– dediyini eşitmisənmi?” Əbu Hureyrə: “Bəli!”– deyə cavab verdi” (Səhih əl-Buxari, 453). Yeri gəlmişkən, qeyd edək ki, Peyğəmbərin ﷺ üç şairi olmuşdur: Abdullah ibn Rəvahə, Həssan ibn Sabit və Kəb ibn Malik ﷺ.

[4] Həssan ibn Sabitin ﷺ müşriklərin cavabını vermək üçün Peyğəmbərdən ﷺ izin istəməsi onun olduqca itaətkar və əxlaqlı olduğundan xəbər verir.

“Bəs, mənim əsil-nəsəbim necə olacaq?”[1] (Həssan) dedi: “Tük xəmirin içindən çıxarıldığı kimi,[2] mən səni onların arasından çıxaracağam.”

**٨٦٣-** وَعَنْ هِشَامٍ، عَنْ أَبِيهِ قَالَ: ذَهَبْتُ أَسُبُّ حَسَّانَ عِنْدَ عَائِشَةَ، فَقَالَتْ: لاَ تَسُبَّهُ، فَإِنَّهُ كَانَ يُنَافِحُ عَنْ رَسُولِ اللَّهِ ﷺ.

**(863)** Xəbər verilir ki, Hişam öz atasından[3] belə rəvayət etmişdir: “(Bir gün) mən gedib Aişənin yanında Həssanı söyməyə başladım. Onda (Aişə) dedi: “Onu söymə, çünki o, Rəsulullahı ﷺ müdafiə edərdi.”[4]

---

[1] Burada Peyğəmbər ﷺ onun öz şeirində haşimilərlə işi olub-olmayacağını öyrənmək istəyir. Həssan ؓ da cavabında onun dədə-babalarının adını çəkməyəcəyini və onları təhqir etməyəcəyini bildirir.

[2] Həssanın ؓ bu məsəli çəkməyinin hikməti budur ki, tükü xəmirin içindən çıxartdıqda, onun üstündə heç nə qalmır. Halbuki, əgər o, balın içindən çıxarılarsa, üstünə bal yapışmış olar, yaxud çörəyin içindən çıxarılarsa, bir hissəsi qırılıb çörəyin içində qala bilər (Fəthul-Bari, 6/554). Bu hədisdən aydın olur ki, İslam dinini, Muhəmmədi ﷺ, onun səhabələrini və cəmi müsəlmanları müdafiə etmək, habelə, kafirlərin küfrünü, müşriklərin şirkini və ümumiyyətlə, digər asilərin asiliklərini bəyan etmək və insanları bundan çəkindirmək məqsədilə şeir demək caizdir.

[3] Burada söhbət Aişənin ؓ bacısı oğlu Urva ibn Zubeyrdən ؓ gedir.

[4] Bu hədisi Buxari (3267) və Muslim (6544) rəvayət etmişdir.

## ٣٨٢- بَابٌ الشِّعْرُ حَسَنُهُ كَحَسَنِ الْكَلَامِ وَمِنْهُ قَبِيحٌ

## 382-ci fəsil. Şeirin yaxşısı yaxşı söz kimidir; həmçinin şeirin pis olanı da vardır

٨٦٤- حَدَّثَنَا أَبُو عَاصِمٍ، عَنِ ابْنِ جُرَيْجٍ، عَنْ زِيَادٍ، عَنِ الزُّهْرِيِّ، عَنْ أَبِي بَكْرٍ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ الأَسْوَدِ، عَنْ أُبَيِّ بْنِ كَعْبٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مِنَ الشِّعْرِ حِكْمَةٌ)).

**(864)** ........ Ubeyy ibn Kəb ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Şeirdən bir qismi hikmətdir."[1]

٨٦٥- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلامٍ قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ عَيَّاشٍ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ زِيَادِ بْنِ أَنْعَمَ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ رَافِعٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((الشِّعْرُ بِمَنْزِلَةِ الْكَلَامِ، حَسَنُهُ كَحَسَنِ الْكَلَامِ، وَقَبِيحُهُ كَقَبِيحِ الْكَلَامِ)).

**(865)** ........ Abdullah ibn Amr ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Şeir sözə bənzəyir. Yaxşısı yaxşı, pisi də pis söz kimidir.[2]"[3]

٨٦٦- حَدَّثَنَا سَعِيدُ بْنُ تَلِيدٍ قَالَ: حَدَّثَنَا ابْنُ وَهْبٍ قَالَ: أَخْبَرَنِي جَابِرُ بْنُ إِسْمَاعِيلَ، وَغَيْرُهُ، عَنْ عُقَيْلٍ، عَنِ ابْنِ شِهَابٍ، عَنْ عُرْوَةَ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا، أَنَّهَا كَانَتْ تَقُولُ: الشِّعْرُ مِنْهُ حَسَنٌ وَمِنْهُ قَبِيحٌ، خُذْ بِالْحَسَنِ وَدَعِ الْقَبِيحَ، وَلَقَدْ رَوَيْتُ مِنْ شِعْرِ كَعْبِ بْنِ مَالِكٍ أَشْعَارًا، مِنْهَا الْقَصِيدَةُ فِيهَا أَرْبَعُونَ بَيْتًا، وَدُونَ ذَلِكَ.

---

[1] 858-ci hədisin qeydlərinə bax.

[2] Hamıya məlumdur ki, ən gözəl söz Allahın və Onun rəsulunun ﷺ sözüdür. Deməli, şəriətə müvafiq olan şeir yaxşı söz kimi, müxalif olanı isə pis söz kimi qəbul olunur.

[3] Bu hədisi Təbərani (Mocəmul-Ovsat, 7696), əd-Daraqutni (4353) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində onun "həsən" olduğunu demişdir.

**(866)** ........ Aişə ﵂ deyərmiş: "Şeirin bir qismi yaxşı, bir qismi də pis olur. Sən yaxşısını götür, pisini isə tərk et. Mən Kəb ibn Malikin şeirlərindən bəzilərini rəvayət etmişəm.[1] Həmin şeirlərdən ibarət bir qəsidədə[2] qırx və ya bundan da az beyt[3] vardı."[4]

**٨٦٧-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ الصَّبَّاحِ، قَالَ: حَدَّثَنَا شَرِيكٌ، عَنِ الْمِقْدَامِ بْنِ شُرَيْحٍ، عَنْ أَبِيهِ قَالَ: قُلْتُ لِعَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا: أَكَانَ رَسُولُ اللَّهِ ﷺ يَتَمَثَّلُ بِشَيْءٍ مِنَ الشِّعْرِ؟ فَقَالَتْ: كَانَ يَتَمَثَّلُ بِشَيْءٍ مِنْ شِعْرِ عَبْدِ اللَّهِ بْنِ رَوَاحَةَ: وَيَأْتِيكَ بِالأَخْبَارِ مَنْ لَمْ تُزَوِّدِ.

**(867)** ........ Miqdam ibn Şureyh öz atasından belə rəvayət etmişdir: "(Bir dəfə) mən Aişədən soruşdum: "Heç Rəsulullah ﷺ şeir deyərdimi?" O, dedi: "Rəsulullah ﷺ (hərdən) Abdullah ibn Rəvahənin şeirlərindən oxuyub deyərdi: "Sənə xəbər gətirər, təmin etmədiyin kəs."[5]

**٨٦٨-** حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا مُبَارَكٌ قَالَ: حَدَّثَنَا الْحَسَنُ، أَنَّ الأَسْوَدَ بْنَ سَرِيعٍ حَدَّثَهُ قَالَ: كُنْتُ شَاعِرًا فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ، امْتَدَحْتُ رَبِّي، فَقَالَ: ((أَمَا إِنَّ رَبَّكَ يُحِبُّ الْحَمْدَ))، وَمَا اسْتَزَادَنِي عَلَى ذَلِكَ.

**(868)** ........ Əsvəd ibn Səri ﵁ demişdir: "Mən şair idim. (Bir gün Peyğəmbərin ﷺ yanına gəlib) dedim: "Ya Rəsulullah, mən Rəbbimə tariflər dedim." Peyğəmbər ﷺ: "Rəbbin həmd edilməyi sevir"– deyə buyurdu və buna heç nə əlavə etmədi."[6]

---

[1] Bundan aydın olur ki, Aişə ﵂ Kəb ibn Malikin ﵁ dediyi o gözəl şeiri əzbərləmiş və özündən sonra gələn nəslə xəbər vermişdir. Bu da, o deməkdir ki, gözəl şeiri öyrənmək və onu başqalarına öyrətmək caizdir.

[2] Qəsidə: böyük bir şəxsi və ya tarixi hadisəni mədh və tərif edən uzun lirik şeir.

[3] Beyt: iki misradan ibarət olan şeir parçası.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[5] 342-ci fəsilin ünvanına, habelə, bu fəsildəki hədislərə və onların qeydlərinə bax.

[6] 859-cu hədisin qeydlərinə bax.

## ٣٨٣- بَابُ مَنِ اسْتَنْشَدَ الشِّعْرَ

## 383-cü fəsil. Şeir oxutduran kimsə

**٨٦٩-** حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ عَبْدِ الرَّحْمَنِ بْنِ يَعْلَى قَالَ: سَمِعْتُ عَمْرَو بْنَ الشَّرِيدِ، عَنِ الشَّرِيدِ قَالَ: اسْتَنْشَدَنِي النَّبِيُّ ﷺ شِعْرَ أُمَيَّةَ بْنِ أَبِي الصَّلْتِ، وَأَنْشَدْتُهُ، فَأَخَذَ النَّبِيُّ ﷺ يَقُولُ: ((هِيهِ، هِيهِ)) حَتَّى أَنْشَدْتُهُ مِئَةَ قَافِيَةٍ، فَقَالَ: ((إِنْ كَادَ لَيُسْلِمُ)).

**(869)** ........ Şərid رضي الله عنه demişdir: "Peyğəmbər ﷺ məndən Umeyyə ibn Əbu Səltin şeirindən oxumağımı xahiş etdi. Mən də (o şeiri aramla) oxumağa başladım. (Mən hər beyti dedikcə,) Peyğəmbər ﷺ: "Davam et, davam et!"– deyirdi. Nəhayət, mən ona yüz qafiyə[1] oxudum. Onda, Peyğəmbər ﷺ dedi: "Umeyyə az qala müsəlman olacaqdı."[2]

---

[1] Qafiyə: şeirdə – beytlərin və ya misraların son söz və ya səslərinin uyğunluğu, həmahəngliyi. Burada "qafiyə" deyildikdə şeirin beytləri nəzərdə tutulur.

[2] 799-cu hədisin qeydlərinə bax.

## ٣٨٤- بَابُ مَنْ كَرِهَ الْغَالِبَ عَلَيْهِ الشِّعْرُ

## 384-cü fəsil. Şeir düşkünü[1] olan kimsəyə pis baxan kimsə

٨٧٠- حَدَّثَنَا عُبَيْدُ اللَّهِ بْنُ مُوسَى قَالَ: أَخْبَرَنَا حَنْظَلَةُ، عَنْ سَالِمٍ، عَنِ ابْنِ عُمَرَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((لِأَنْ يَمْتَلِئَ جَوْفُ أَحَدِكُمْ قَيْحًا خَيْرٌ لَهُ مِنْ أَنْ يَمْتَلِئَ شِعْرًا)).

**(870)** ........ İbn Ömər رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Bir adamın qarnının irinlə doldurulması, şeirlə dolmasından daha xeyirlidir."[2]

٨٧١- حَدَّثَنَا إِسْحَاقُ قَالَ: أَخْبَرَنَا عَلِيُّ بْنُ الْحُسَيْنِ قَالَ: حَدَّثَنِي أَبِي، عَنْ يَزِيدَ النَّحْوِيِّ، عَنْ عِكْرِمَةَ، عَنِ ابْنِ عَبَّاسٍ: ﴿وَالشُّعَرَاءُ يَتَّبِعُهُمُ الْغَاوُونَ﴾ إِلَى قَوْلِهِ: ﴿وَأَنَّهُمْ يَقُولُونَ مَا لاَ يَفْعَلُونَ﴾، فَنَسَخَ مِنْ ذَلِكَ وَاسْتَثْنَى فَقَالَ: ﴿إِلاَّ الَّذِينَ آمَنُوا﴾ إِلَى قَوْلِهِ: ﴿يَنْقَلِبُونَ﴾.

**(871)** ........ İbn Abbas رضي الله عنهما: **"Şairlərə gəldikdə isə onlara ancaq azğınlar uyar. Məgər, görmürsənmi ki, onlar hər vadidə veyl-veyl gəzir** (hər mövzuda şeir uydurur) **və etmədikləri şeylərə aid söhbət açırlar?"**[3] ayəsini oxuyub dedi:[4] "Uca Allah bu ayələrdən istisna edərək buyurur: **"Yalnız iman sahibi olub xeyirxah əməllər edən, Allahı tez-tez yada salan və**

---

[1] Düşkün: bir şeyin hərisi olan, həddən artıq bir şeyin aludəçisi olan. Burada şeirə aludə olmaq deyildikdə, şəriətə zidd olmayan icazəli şeir nəzərdə tutulur. Şəriətə zidd olan haram şeir oxumağın isə azı da haramdır.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir (860-cı hədisin qeydlərinə bax).

[3] "əş-Şuəra" surəsi, 224-226. Bu ayələrdə Uca Allah şairlərin əksəriyyətinin batil sözlər danışdığını xəbər verir.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

**haqsızlığa məruz qaldıqdan sonra *dini* müdafiə edənlərdən başqa. Zalımlar isə qayıdacaqları yeri mütləq biləcəklər."[1]**

[1] "əş-Şuəra" surəsi, 227. Uca Allahın azğın şairlərdən istisna etdiyi şairlərin vəsfi isə belədir: mömin olmalı, saleh əməllər etməli, Allahı çox yada salmalı və haqsızlığa məruz qaldıqdan sonra dini müdafiə etməlidir.

## ٣٨٥- بَابُ مَنْ قَالَ: ((إِنَّ مِنَ الْبَيَانِ سِحْرًا))

## 385-ci fəsil. "Gözəl nitqlərdən bəzisi sehrdir"– deyən kəs

٨٧٢- حَدَّثَنَا عَارِمٌ قَالَ: حَدَّثَنَا أَبُو عَوَانَةَ، عَنْ سِمَاكٍ، عَنْ عِكْرِمَةَ، عَنِ ابْنِ عَبَّاسٍ، أَنَّ رَجُلًا، أَوْ أَعْرَابِيًّا، أَتَى النَّبِيَّ ﷺ فَتَكَلَّمَ بِكَلَامٍ بَيِّنٍ، فَقَالَ النَّبِيُّ ﷺ: ((إِنَّ مِنَ الْبَيَانِ سِحْرًا، وَإِنَّ مِنَ الشِّعْرِ حِكْمَةً)).

**(872)** ........ İbn Abbas رضي الله عنهما rəvayət edir ki, bir nəfər yaxud bir bədəvi Peyğəmbərin ﷺ yanına gəlib gözəl nitq söylədi. Onda, Peyğəmbər ﷺ dedi: "Gözəl nitqlərdən bəzisi sehrdir,[1] eləcə də, şeirlərdən bir qismi hikmətdir."[2]

٨٧٣- حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ الْمُنْذِرِ قَالَ: حَدَّثَنِي مَعْنٌ قَالَ: حَدَّثَنِي عُمَرُ بْنُ سَلَّامٍ، أَنَّ عَبْدَ الْمَلِكِ بْنَ مَرْوَانَ دَفَعَ وَلَدَهُ إِلَى الشَّعْبِيِّ يُؤَدِّبُهُمْ، فَقَالَ: عَلِّمْهُمُ الشِّعْرَ يَمْجُدُوا وَيُنْجِدُوا، وَأَطْعِمْهُمُ اللَّحْمَ تَشْتَدَّ قُلُوبُهُمْ، وَجُزَّ شُعُورَهُمْ تَشْتَدَّ رِقَابُهُمْ، وَجَالِسْ بِهِمْ عِلْيَةَ الرِّجَالِ يُنَاقِضُوهُمُ الْكَلَامَ.

**(873)** ........ Ömər ibn Səllam rəvayət edir ki, Abdul-Məlik ibn Mərvan[3] öz uşaqlarının tərbiyə olunması üçün onları Şə'biyə[4] verib dedi: "Bunlara şeir öyrət ki, sağlam düşüncəli olsunlar və yüksəlsinlər. Bunlara ət yedirt ki, qəlbləri qüvvətlənsin. Saçlarını kəs ki, boyunları güclü olsun. Bunları böyük adamların məclisində oturt ki, onlara cavab verə bilsinlər."[5]

---

[1] Rəvayət edilir ki, Abdullah ibn Ömər رضي الله عنهما demişdir: "*Bir dəfə* məşriqdən iki nəfər gəlib *camaat qarşısında* gözəl nitq söylədi. Camaat onların natiqlik məharətinə heyran qaldı. Onda, Peyğəmbər ﷺ belə buyurdu: "Bəlağətli danışıq *bəzən adama* sehr kimi təsir edir" (Səhih əl-Buxari, 5767).

[2] Bu hədisi Əbu Davud (5011), İbn Hibban (2009), Əhməd (1/269, 273, 303, 309, 313, 327 və 332) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[3] Əbul-Vəlid Abdul-Məlik ibn Mərvan ibn Həkəm əl-Əməvi. Hicrətin 22-ci ilində dünyaya gəlmiş, Əməvi xəlifələrindən olmuşdur (Siyər Əlam ən-Nubələ, 89-cu tərcümeyi-hal).

[4] Əbu Amr Amir ibn Şərahil ibn Abd əl-Həmədanidir. Bu məşhur tabiin hicrətin 19-cu ilində anadan olmuşdur, öz əsrinin böyük alimlərindən olmuş və Şə'bi ləqəbi ilə tanınmışdır (Siyər Əlam ən-Nubələ, 113-cü tərcümeyi-hal).

[5] Bu hədisin isnadında keçən Ömər ibn Səllam "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ٣٨٦- بَابُ مَا يُكْرَهُ مِنَ الشِّعْرِ

## 386-cı fəsil. Məkruh[1] sayılan şeir

٨٧٤- حَدَّثَنَا قُتَيْبَةُ قَالَ: حَدَّثَنَا جَرِيرٌ، عَنِ الأَعْمَشِ، عَنْ عَمْرِو بْنِ مُرَّةَ، عَنْ يُوسُفَ بْنِ مَاهِكَ، عَنْ عُبَيْدِ بْنِ عُمَيْرٍ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِنَّ أَعْظَمَ النَّاسِ جُرْمًا إِنْسَانٌ شَاعِرٌ يَهْجُو الْقَبِيلَةَ مِنْ أَسْرِهَا، وَرَجُلٌ انْتَفَى مِنْ أَبِيهِ)).

**(874)** ........ Aişə ﵂ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "İnsanların böyük günah qazananı[2] o şairdir ki, bir qəbiləni (öz şeirilə) tamamilə pisləyər; bir də o adamdır ki, öz atasını inkar edir.[3]"[4]

---

[1] "Məkruh" kəlməsi şəriət alimlərinin istilahında iki mənada işlənir: bəyənilməyən əməllər qisminə aid olan məkruh əməl. Buna ərəbcə ( كَرَاهَةُ التَّنْزِيهِ ) deyilir. Və bir də haram sayılan əməllər qisminə aid olan məkruh əməl. Buna da ərəbcə ( كَرَاهَةُ التَّحْرِيمِ ) deyilir. İmam Buxarinin də burada qəsd etdiyi məhz ikinci qismdir. Çünki hədisdə Peyğəmbər ﷺ batil şeir söyləyən şairi böyük günah sahibi adlandırır. Bundan da aydın olur ki, bu cür şeir demək haramdır.

[2] İbn Macənin "Sunən" əsərindəki hədisdə (2/411) deyilir: "İnsanların ən böyük iftira yaxanı o kəsdir ki, o, birisi ilə deyişərkən onu susdurmağa çalışır, axırda da onun bütün qəbiləsini təhqir edir." Bu rəvayət bizə o biri rəvayəti açıqlayır və bundan aydın olur ki, bir şair başqa bir şairin bütün nəslini yaxud tayfasını yaxud millətini və s. təhqir edərsə, böyük bir iftira yaxmış və beləliklə də, böyük günah qazanmış olar.

[3] Burada "atasını inkar etmək" deyildikdə, bilərəkdən doğma atasının deyil, başqa birisinin oğlu olduğunu iddia etmək qəsd edilir. Beləsinə Allah Cənnəti haram buyurmuşdur. Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Hər kim *bilərəkdən* doğma atasının deyil, başqa birisinin oğlu olduğunu iddia etsə, Cənnətin iyini belə duymayacaq. Halbuki, onun iyi yetmiş illik məsafədən duyulur" (Musnəd Əhməd, 2/171 və 194; Silsilətul-Əhadisis-Səhihə, 2307); həmçinin, Buxarinin "Səhih"ində (6767) rəvayət edilmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Hər kim atasının kim olduğunu bilə-bilə qeyrisinin oğlu olduğunu iddia edərsə, Cənnət ona haram edilər" (433-cü hədisə və onun qeydlərinə bax).

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٣٨٧- بَابُ كَثْرَةِ الْكَلامِ

## 387-ci fəsil. Çox danışmaq[1]

**٨٧٥-** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا أَبُو عَامِرٍ الْعَقَدِيُّ قَالَ: حَدَّثَنَا زُهَيْرٌ عَنْ زَيْدِ ابْنِ أَسْلَمَ قَالَ: سَمِعْتُ ابْنَ عُمَرَ يَقُولُ: قَدِمَ رَجُلاَنِ مِنَ الْمَشْرِقِ خَطِيبَانِ عَلَى عَهْدِ رَسُولِ اللَّهِ ﷺ، فَقَامَا فَتَكَلَّمَا ثُمَّ قَعَدَا، وَقَامَ ثَابِتُ بْنُ قَيْسٍ، خَطِيبُ رَسُولِ اللَّهِ ﷺ فَتَكَلَّمَ، فَعَجِبَ النَّاسُ مِنْ كَلاَمِهِمَا، فَقَامَ رَسُولُ اللَّهِ ﷺ يَخْطُبُ فَقَالَ: ((يَا أَيُّهَا النَّاسُ، قُولُوا قَوْلَكُمْ، فَإِنَّمَا تَشْقِيقُ الْكَلاَمِ مِنَ الشَّيْطَانِ))، ثُمَّ قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((إِنَّ مِنَ الْبَيَانِ سِحْرًا)).

**(875)** ........ İbn Ömər رضي الله عنهما demişdir: "Rəsulullahın ﷺ zamanında məşriqdən iki natiq gəlib (camaat qarşısında) nitq söylədi, sonra da (bir kənarda) oturdu. Bunun ardından Rəsululahın ﷺ xətibi Sabit ibn Qeys[2] qalxıb moizə verdi. Əvvəlki iki kişinin danışığı camaatı heyrətə gətirdi. Odur ki, Rəsulullah ﷺ qalxıb xütbə verdi və dedi: "Ey İnsanlar! Sözünüzü (aydın və

---

[1] 69-cu hədisin qeydlərinə bax.

[2] Əbu Muhəmməd Sabit ibn Qeys ibn Şəmmas əl-Ənsari رضي الله عنه, ənsarın xətibi və Peyğəmbərin ﷺ nəcib səhabələrindən olmuşdur. Uhud döyüşündə və Ridvan beyətində iştirak etmişdir (Siyər Əlam ən-Nubələ, 61-ci tərcümeyi-hal). Sabit ibn Qeys رضي الله عنه hələ sağlığında ikən Rəsulullah ﷺ onu Cənnətlə müjdələmişdir. Ənəs ibn Malik رضي الله عنه rəvayət etmişdir ki, *bir gün* Peyğəmbər ﷺ Sabit ibn Qeysi aralarında görmədi. *Səhabələrdən* biri dedi: "Ya Rəsulullah, mən *gedib* onun barəsində sənə xəbər gətirərəm. O, gedib *Sabiti* öz evində başı aşağı oturduğunu gördü və *ondan*: "Kefin-halın necədir?"– deyə soruşdu. Sabit: "Çox pisdir!"– deyə cavab verdi. *Sabit düşünürdü ki,* səsini Peyğəmbərin ﷺ səsindən yüksəyə qaldırmaqla əməlləri puça getmiş, özü də artıq Cəhənnəm əhlindən olmuşdur. Səhabə Peyğəmbərin ﷺ yanına gəlib Sabitin dediyini ona xəbər verdikdə, Peyğəmbər ﷺ buyurdu: "Get ona de: "Sən Cəhənnəm əhlindən yox, Cənnət əhlindənsən!" (Səhih əl-Buxari, 3613). Bu hadisə "əl-Hucurat" surəsinin **"Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən yüksəyə qaldırmayın və bir-birinizə müraciət etdiyiniz kimi ona da uca səslə müraciət etməyin. Yoxsa, özünüz də hiss etmədən əməlləriniz hədər gedər"** ayəsi nazil olduqdan sonra baş vermişdir.

sadə şəkildə) ifadə edin! Həqiqətən, təmtəraqlı[1] sözlər danışmaq şeytandandır." Sonra Rəsulullah ﷺ buyurdu: "Şübhəsiz, bəzi bəlağətli nitqlərdə sehr vardır.[2]"[3]

٨٧٦– حَدَّثَنَا سَعِيدُ بْنُ أَبِي مَرْيَمَ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ جَعْفَرٍ قَالَ: أَخْبَرَنِي حُمَيْدٌ، أَنَّهُ سَمِعَ أَنَسًا يَقُولُ: خَطَبَ رَجُلٌ عِنْدَ عُمَرَ فَأَكْثَرَ الْكَلَامَ، فَقَالَ عُمَرُ: إِنَّ كَثْرَةَ الْكَلَامِ فِي الْخُطَبِ مِنْ شَقَاشِقِ الشَّيْطَانِ.

**(876)** ........ Ənəs ؓ demişdir: "Bir nəfər Ömərin yanında xütbə verdi və çox danışdı. Onda Ömər dedi: "Xütbələrdə çox söz danışmaq şeytanın təmtəraqlı sözləridir.[4]"[5]

٨٧٧–حَدَّثَنَا أَحْمَدُ بْنُ إِسْحَاقَ قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ حَمَّادٍ قَالَ: حَدَّثَنَا أَبُو عَوَانَةَ، عَنْ عَاصِمِ ابْنِ كُلَيْبٍ قَالَ: حَدَّثَنِي سُهَيْلُ بْنُ ذِرَاعٍ قَالَ: سَمِعْتُ أَبَا يَزِيدَ أَوْ مَعْنَ بْنَ يَزِيدَ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: ((اجْتَمِعُوا فِي مَسَاجِدِكُمْ، وَكُلَّمَا اجْتَمَعَ قَوْمٌ فَلْيُؤْذِنُونِي))، فَأَتَانَا أَوَّلَ مَنْ أَتَى، فَجَلَسَ، فَتَكَلَّمَ مُتَكَلِّمٌ

---

[1] Təmtəraqlı: zahirən çox bəlağətli və parlaq.

[2] Bundan aydın olur ki, uzun-uzadı nitq söyləmək və bu nitqi qəliz sözlərlə bəzəmək qadağandır. Bu xüsusda, İbn Həcər demişdir: "Bəlağətlə danışmaq iki növdür: birincisi, adamın öz dilədiyini insanlara başa salmaq üçün ifadə etdiyi sözlərdir (ki, bunu demək-də heç bir qəbahət yoxdur). İkincisi isə dinləyənlərin qəlbini heyrətə gətirmək məqsədilə əsrarəngiz və təmtəraqlı sözlər söyləməkdir. Bunun sehrə bənzəyəni və batil sayılanı da məhz ikinci növüdür" (Fəthul-Bari, 9/202).

[3] Bu hədisi Əhməd (2/94), İbn Hibban (5718), Abdur-Rəzzaq (20209) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[4] Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Allah bəlağətlə danışan adama nifrət edər. O kəsə ki, inək gövşədiyi kimi, sözü ağzında çeynəyir (sözü çox təkrarlamaqla onu bayağılaşdırır)" (Sunən Əbu Davud, 2/314-315; Sunən ət-Tirmizi, 2/139; Musnəd Əhməd, 2/165 və 187; Silsilətul-Əhadisis-Səhihə, 880).

[5] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

مِنَّا، ثُمَّ قَالَ: إِنَّ الْحَمْدَ لِلَّهِ الَّذِي لَيْسَ لِلْحَمْدِ دُونَهُ مَقْصَدٌ، وَلاَ وَرَاءَهُ مَنْفَذٌ. فَغَضِبَ فَقَامَ، فَتَلاَوَمْنَا بَيْنَنَا، فَقُلْنَا: أَتَانَا أَوَّلَ مَنْ أَتَى، فَذَهَبَ إِلَى مَسْجِدٍ آخَرَ فَجَلَسَ فِيهِ، فَأَتَيْنَاهُ فَكَلَّمْنَاهُ، فَجَاءَ مَعَنَا فَقَعَدَ فِي مَجْلِسِهِ أَوْ قَرِيبًا مِنْ مَجْلِسِهِ، ثُمَّ قَالَ: ((الْحَمْدُ لِلَّهِ الَّذِي مَا شَاءَ جَعَلَ بَيْنَ يَدَيْهِ، وَمَا شَاءَ جَعَلَ خَلْفَهُ، وَإِنَّ مِنَ الْبَيَانِ سِحْرًا))، ثُمَّ أَمَرَنَا وَعَلَّمَنَا.

**(877)** ........ Əbu Yezid və ya Mə'n ibn Yezid ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: “Məscidlərinizdə toplanın. Qoy, hər bir qövm toplandıqca, mənə xəbər versin.” Peyğəmbər ﷺ ilk əvvəl bizim (toplandığımız məscidə) gəldi və bir kənarda oturdu. Aramızdan bir nəfər ayağa qalxıb danışdı, sonra dedi: “Həmd Allaha məxsusdur. O *Allah* ki, deyilən hər bir həmd nə Ondan başqasına yönələr, nə də Ondan o yana keçə bilər.”[1] Peyğəmbər ﷺ qəzəbləndi və ayağa qalxıb getdi. (Bunu görəndə) biz bir-birimizi qınamağa başladıq və: “Yanımıza gələn ilk adam Peyğəmbər ﷺ oldu”– dedik. Peyğəmbər ﷺ gedib başqa bir məsciddə oturdu. Biz (dərhal) Peyğəmbərin ﷺ yanına gedib onunla danışdıq. (Biz üzrxahlıq etdikdən) sonra o, bizimlə gəldi və (əvvəl) oturduğu yerdə yaxud ona yaxın bir yerdə oturdu. Sonra dedi: “Həmd Allaha məxsusudr. O *Allah* ki, istədiyini önünə qoyar, istədiyini də arxasına buraxar. Şübhəsiz ki, bəzi gözəl nitqlərdə sehr vardır.” Sonra o, bizə nəsihətlər etdi və bizə (bilmədiklərimizi) öyrətdi.”[2]

---

[1] Bunu deməklə, sanki Allaha olan həmdi məhdudlaşdırmış olur. Belə təmtəraqla danışmaq isə qadağandır.

[2] Bu hədisi Əhməd (3/470) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “həsən” olduğunu demişdir.

## ٣٨٨- بَابُ التَّمَنِّي

## 388-ci fəsil. Təmənna etmək[1]

٨٧٨- حَدَّثَنَا خَالِدُ بْنُ مَخْلَدٍ قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ بِلاَلٍ قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ سَعِيدٍ قَالَ: سَمِعْتُ عَبْدَ اللَّهِ بْنَ عَامِرِ بْنِ رَبِيعَةَ يَقُولُ: قَالَتْ عَائِشَةُ: أَرِقَ النَّبِيُّ ﷺ ذَاتَ لَيْلَةٍ فَقَالَ: ((لَيْتَ رَجُلًا صَالِحًا مِنْ أَصْحَابِي يَجِيئُنِي فَيَحْرُسَنِي اللَّيْلَةَ))، إِذْ سَمِعْنَا صَوْتَ السِّلاَحِ، فَقَالَ: ((مَنْ هَذَا؟)) قَالَ: سَعْدٌ، يَا رَسُولَ اللَّهِ، جِئْتُ أَحْرُسُكَ، فَنَامَ النَّبِيُّ ﷺ حَتَّى سَمِعْنَا غَطِيطَهُ.

**(878)** ........ Aişə ﵂ demişdir: “(Bir dəfə) Peyğəmbər ﷺ (səfərdə ikən) səhərə qədər yatmadı. Nəhayət, (Mədinəyə gəlib çatdıqda) dedi: “Nə olaydı,[2] səhabələrimdən əməlisaleh bir adam gəlib bu gecə mənim keşiyimdə duraydı.[3]” Bunu deyən kimi biz silah səsi eşitdik. Peyğəmbər ﷺ: “Kimdir, bu?”– deyə soruşdu. (Gələn adam) dedi: “Səddir,[4] ya Rəsulullah! Gəlmişəm sənin keşiyində durum.”[5] (Bundan sonra) Peyğəmbər ﷺ uzanıb yatdı. Hətta, biz onun xorultusunu da eşitdik.”[6]

---

[1] İmam Buxari bu fəslə belə ünvan qoymaqla bəzi şeyləri təmənna etməyin caiz olduğunu bildirir. Bundan da aydın olur ki, təmənna edilənlər arasında bəyənilməyən şeylər də vardır (343-cü fəsilin qeydlərinə bax).

[2] Bu, təmənna etməyin caiz olduğuna dəlalət edir.

[3] İslam alimləri Qurandakı: **“Allah səni insanlardan qoruyar”** (“əl-Maidə” surəsinin, 67-ci) ayəsinin bu hadisədən sonra nazil olduğunu demişlər. Bu ayə nazil olduqdan sonra isə artıq onu qoruyan bir kimsəyə lüzum olmamışdır.

[4] Burada söhbət məşhur səhabə Səd ibn Vəqqasdan ﵁ gedir.

[5] Muslimin digər isnadla nəql etdiyi rəvayətdə (6384) deyilir ki, Səd ibn Əbu Vəqqasın ﵁ bu sözündən sonra Peyğəmbər ﷺ onun üçün dua etdi.

[6] Bu hədisi Buxari (2885) və Muslim (6383) rəvayət etmişdir.

## ٣٨٩- بَابٌ يُقَالُ لِلرَّجُلِ وَالشَّيْءِ وَالْفَرَسِ: ((هُوَ بَحْرٌ))

## 389-cu fəsil. Bir adama yaxud bir şeyə yaxud bir ata: "O, dəryadır[1]"– demək

٨٧٩- حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ قَتَادَةَ قَالَ: سَمِعْتُ أَنَسَ بْنَ مَالِكٍ يَقُولُ: كَانَ فَزَعٌ بِالْمَدِينَةِ، فَاسْتَعَارَ النَّبِيُّ ﷺ فَرَسًا لِأَبِي طَلْحَةَ، يُقَالُ لَهُ: الْمَنْدُوبُ، فَرَكِبَهُ، فَلَمَّا رَجَعَ قَالَ: ((مَا رَأَيْنَا مِنْ شَيْءٍ، وَإِنْ وَجَدْنَاهُ لَبَحْرًا)).

**(879)** ........ Ənəs ibn Malik ﷺ demişdir: "(Bir gecə) Mədinədə (hamını) təşvişə salan bir gurultu qopdu. Həmin vaxt Peyğəmbər ﷺ Əbu Talhənin[2] Məndub adlı atını borc aldı və ona minib (səs gələn tərəfə) getdi.[3] Nəhayət, geri qayıtdıqda dedi: "Biz heç nə görmədik (qorxulu bir şey yoxdur). Biz bu atın dəniz[4] olduğunu gördük."[5]

---

[1] Ərəbcə ( بَحْرٌ ) "dərya" sözü: dərin elm sahibi, olduqca comərd, çox səxavətli, çox geniş, itigedən, itiqaçan və s. buna yaxın mənaları ifadə edir.

[2] 802-ci hədisin qeydlərinə bax.

[3] Peyğəmbərin ﷺ bu hərəkəti onun olduqca şücaətkar olduğunu bildirir (303-cü hədisin qeydlərinə bax).

[4] Burada ata "dəniz" deyildikdə, onun itiqaçan at olduğu nəzərdə tutulur.

[5] Bu hədisi Buxari (2627), Muslim (6147), Əbu Davud (4988), Tirmizi (1685), Nəsai (8770), Əhməd (3/291), İbn Hibban (5798), Beyhəqi (11472) və Əbu Yə'la (2998) rəvayət etmişdir.

## ٣٩٠– بَابُ الضَّرْبِ عَلَى اللَّحْنِ

### 390-cu fəsil. (Adamı) sözü yanlış ifadə etdiyinə görə vurmaq

٨٨٠– حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ عُبَيْدِ اللَّهِ، عَنْ نَافِعٍ قَالَ: كَانَ ابْنُ عُمَرَ يَضْرِبُ وَلَدَهُ عَلَى اللَّحْنِ.

**(880)** ........ Nafi demişdir: "İbn Ömər öz övladını sözü yanlış söylədiyinə görə vurardı."[1]

٨٨١– حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ كَثِيرٍ أَبِي مُحَمَّدٍ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ عَجْلَانَ قَالَ: مَرَّ عُمَرُ بْنُ الْخَطَّابِ رَضِيَ اللَّهُ عَنْهُ بِرَجُلَيْنِ يَرْمِيَانِ، فَقَالَ أَحَدُهُمَا لِلْآخَرِ: أَسَبْتَ، فَقَالَ عُمَرُ: سُوءُ اللَّحْنِ أَشَدُّ مِنْ سُوءِ الرَّمْيِ.

**(881)** ........ Abdur-Rəhman ibn Əclan demişdir: "Ömər ibn Xattab ox atan iki nəfərə rast gəldi. Onlardan biri (o birinə): "Əsəbtə"– dedi. Ömər də (ona): "Yanlış söz söyləmək yanlış ox atmaqdan daha pisdir[2]"– dedi."[3]

---

[1] Bu əsəri İbn Əbu Şeybə (26163) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[2] Burada adam ərəbcə "( أَصَبْتَ ) əsabtə (dəydin)" əvəzinə "( أَسَبْتَ ) əsəbtə" dediyinə, bu sözdəki sad hərfini sin hərfi ilə əvəz etdiyinə görə Ömər ibn Xattab ﷺ onu qınamışdır.

[3] Bu hədisin isnadında keçən Abdur-Rəhman ibn Əclan "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ٣٩١- بَابُ الرَّجُلِ يَقُولُ: ((لَيْسَ بِشَيْءٍ))، وَهُوَ يُرِيدُ أَنَّهُ لَيْسَ بِحَقٍّ

## 391-ci fəsil. Adamın (bir kəsin və ya bir şeyin) haqq olmadığını qəsd edərək: "Bir şey deyil"[1]– deməsi

٨٨٢- حَدَّثَنَا أَحْمَدُ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنَا عَنْبَسَةُ بْنُ خَالِدٍ قَالَ: حَدَّثَنَا يُونُسُ، عَنِ ابْنِ شِهَابٍ قَالَ: أَخْبَرَنِي يَحْيَى بْنُ عُرْوَةَ بْنِ الزُّبَيْرِ، أَنَّهُ سَمِعَ عُرْوَةَ بْنَ الزُّبَيْرِ يَقُولُ: قَالَتْ عَائِشَةُ زَوْجُ النَّبِيِّ ﷺ: سَأَلَ نَاسٌ النَّبِيَّ ﷺ عَنِ الْكُهَّانِ، فَقَالَ لَهُمْ: ((لَيْسُوا بِشَيْءٍ))، فَقَالُوا: يَا رَسُولَ اللَّهِ، فَإِنَّهُمْ يُحَدِّثُونَ بِالشَّيْءِ يَكُونُ حَقًّا؟ فَقَالَ النَّبِيُّ ﷺ: ((تِلْكَ الْكَلِمَةُ مِنَ الْحَقِّ يَخْطَفُهَا الشَّيْطَانُ، فَيُقَرْقِرُهُ بِأُذُنَيْ وَلِيِّهِ كَقَرْقَرَةِ الدَّجَاجَةِ، فَيَخْلِطُونَ فِيهَا بِأَكْثَرَ مِنْ مِئَةِ كِذْبَةٍ)).

**(882)** ........ Peyğəmbərin ﷺ zövcəsi Aişə ؓ demişdir:[2] "(Bir gün) camaat Peyğəmbərdən ﷺ kahinlər[3] barədə soruşdu. O, dedi: "Onlar heçdirlər."[4] (Səhabələr) dedilər: "Ya Rəsulullah, onlar elə şeylər danışırlar ki, (dedikləri) sonradan gerçəyə çevrilir." Peyğəmbər ﷺ dedi: "O, elə bir haqq kəlmədir[5] ki, şeytan onu götürüb qaçır, sonra da toyuq qaqqıldadığı kimi qaqqılda-

---

[1] Bu söz mühəddislərin istilahında çox işlənir. Onlar hər hansı bir ravi barəsində "bir şey deyil" deyəndə, onun hədisi yadda saxlamaq və ya onları qorumaq baxımından "zəif" ravi olduğunu qəsd edirlər.

[2] Bu hədisi İmam Buxari öz "Səhih"ində də (7561) rəvayət etmişdir.

[3] Kahin: şeytandan aldığı məlumat əsasında qeybdən xəbər verən adam. Kahinliklə məşğul olmağın böyük günah olması barədə kifayət qədər dəlillər varid olmuşdur (162-ci hədisin qeydlərinə bax).

[4] Yəni heç bir dəyər və hörməti olmayan adam. Bu sözlə Peyğəmbər ﷺ onların cəfəngiyat danışan zəlalət əhli olduğunu, üstəlik, onlara qulaq asmağın və onların dediklərinə inanmağın qadağan edildiyini bildirir.

[5] Yəni çox nadir hallarda onların dedikləri doğru çıxır.

yaraq o kəlməni (kahin) dostunun qulaqlarına təlqin edir. Üstəlik, bu kəlməyə yüzdən çox yalan qatırlar.[1]"

[1] Digər hədisdə Aişə ﵂ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Mələklər buludların içində *yerə doğru* enir və göydə verilmiş qərar barəsində söhbət açırlar. *Həmin vaxt* şeytanlar *mələklərə* oğrun-oğrun qulaq asırlar, sonra da eşitdikləri adda-budda sözləri, üstəlik, özlərindən uydurduqları yüz yalanı da bu doğru xəbərlə yanaşı kahinlərə təlqin edirlər" (Səhih əl-Buxari, 3210); yenə bir hədisdə o, demişdir: "Allah göydə bir iş barəsində qərar verdiyi zaman mələklər Onun əmrinə müntəzir olduqlarını bildirərək qanadlarını çırpırlar *və bu vaxt elə bir səs gəlir ki,* sanki *bir topa* zənciri qayaya çırpırlar. Nəhayət, ***"mələklərin*** **qəlbindən qorxu keçib getdikdə onlar: "Rəbbiniz nə buyurdu?"– deyə soruşurlar"** (Səba, 23) Onlara belə cavab verilir: **"Haqqı *buyurdu*! O Ucadır, Böyükdür!"** (Səba, 23). Oğrun-oğrun qulaq asan *şeytanlar* bu sözləri eşidirlər. *Bundan ötrü* onlar bir-birinin üstünə çıxırlar. Olur ki, *mələklərin söhbətinə* qulaq asan şeytanı *düşən* ulduz təqib edir və o, eşitdiyini *aşağıda duran* yoldaşına çatdırmamışdan əvvəl *həmin ulduz* onu yandırıb yaxır. Bəzən də ulduz ona dəyməmişdən əvvəl o, eşitdiyini altında duran dostuna ötürür. Beləcə, şeytanlar bu eşitdiklərini yer üzünə çatdırır və onu sehrbaza təlqin edirlər. Sehrbaz da eşitdiyi *sözə* yüz yalan əlavə edir və *doğru söz* öz təsdiqini tapır. *Sehrbazın dediklərinin düz çıxdığını görən avam* insanlar isə deyirlər: "Məgər, o, bizə filan gün filan, filan hadisə baş verəcəyini xəbər verməmişdi? Biz ki onun gerçək olduğunu görmüşük!" Halbuki, yalnız göydən eşidilən *haqq* söz öz təsdiqini tapır" (Səhih əl-Buxari, 4701).

## ٣٩٢- بَابُ الْمَعَارِيضِ

## 392-ci fəsil. Eyhamla[1] danışmaq

**٨٨٣-** حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شُعْبَةُ ، عَنْ ثَابِتٍ الْبُنَانِيِّ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ فِي مَسِيرٍ لَهُ، فَحَدَا الْحَادِي، فَقَالَ النَّبِيُّ ﷺ: ((ارْفُقْ يَا أَنْجَشَةُ وَيْحَكَ بِالْقَوَارِيرِ)).

**(883)** ........ Ənəs ibn Malik ﷺ demişdir: "Rəsulullah ﷺ səfərdə ikən çarvadar[2] (gözəl sözlərlə) zümzümə edərək dəvələri sürüb aparırdı. Peyğəmbər ﷺ dedi: "Asta ol, ey Əncəşə, bərniləri sındırarsan.[3]"[4]

**٨٨٤-** حَدَّثَنَا الْحَسَنُ بْنُ عُمَرَ قَالَ: حَدَّثَنَا مُعْتَمِرٌ قَالَ أَبِي: حَدَّثَنَا ابْنُ عُمَرَ، عَنْ عُمَرَ، فِيمَا أَرَى شَكَّ أَبِي، أَنَّهُ قَالَ: حَسْبُ امْرِئٍ مِنَ الْكَذِبِ أَنْ يُحَدِّثَ بِكُلِّ مَا سَمِعَ.

قَالَ: وَفِيمَا أَرَى قَالَ: قَالَ عُمَرُ: أَمَا فِي الْمَعَارِيضِ مَا يَكْفِي الْمُسْلِمَ مِنَ الْكَذِبِ.

**(884)** ........ Ömər ﷺ demişdir: "Hər eşitdiyini söyləməsi insana yalan *danışması* üçün bəs edər."[5]

*Motəmir ibn Suleyman ət-Teymi* demişdir: "Güman edirəm ki, Ömər belə demişdir: "Eyhamla danışmaq müsəlmanın yalandan qurtulmağına kifayət deyilmi?"

---

[1] 857-ci hədisin qeydlərinə bax.

[2] Çarvadar: keçmişdə yük heyvanı ilə yük daşıyan adam.

[3] 264-cü hədisin qeydlərinə bax.

[4] Bu hədisi İmam Buxari öz "Səhih"ində (6209) rəvayət etmişdir.

[5] Bu əsəri Muslim (9) rəvayət etmişdir. Əslində bu söz Peyğəmbərin ﷺ sözüdür. Əbu Hureyrənin ﷺ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "Hər eşitdiyini rəvayət etməsi kişiyə yalan (danışması) üçün kifayət edər" (Səhih Muslim, 7).

**٨٨٥–** حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ قَتَادَةَ، عَنْ مُطَرِّفِ بْنِ عَبْدِ اللَّهِ بْنِ الشِّخِّيرِ قَالَ: صَحِبْتُ عِمْرَانَ بْنَ حُصَيْنٍ إِلَى الْبَصْرَةِ، فَمَا أَتَى عَلَيْنَا يَوْمٌ إِلاَّ أَنْشَدْنَا فِيهِ الشِّعْرَ، وَقَالَ: إِنَّ فِي مَعَارِيضِ الْكَلاَمِ لَمَنْدُوحَةٌ عَنِ الْكَذِبِ.

**(885)** ........ Mutarrif ibn Abdullah ibn Şixxir demişdir: "Mən Bəsrəyə qədər İmran ibn Husaynə yol yoldaşı oldum. (Yolda) elə bir gün olmadı ki, o bizə şeir deməsin. Sonra o, dedi: "Eyhamla danışmaqda yalan sözdən qaçma vardır.[1]"[2]

---

[1] Muhəmməd ibn Sirin demişdir: "Bahilədən olan bir nəfərin tez-tez başqa adamlara gözü dəyərdi. Bir gün o, Şureyhin qatırını gördü və bu qatır onun çox xoşuna gəldi. Şureyh qatıra göz dəyəcəyindən ehtiyat edib, o adama dedi: "Bu qatır yerə çökdükdə, onu yerindən qaldırmayınca, qalxmır." Adam: "Tfu! Tfu!"– deyə narazılığını bildirdi. Beləliklə də, heyvan onun gözündən qorundu. Şureyh "onu yerindən qaldırmayınca" sözü ilə demək istəyirmiş ki, əslində onu yerindən qaldıran Allahdır" (Fəthul-Bari, 10/595).

[2] 857-ci əsərin qeydlərinə bax.

## ٣٩٣- بَابُ إِفْشَاءِ السِّرِّ

## 393-cü fəsil. Sirri yaymaq

٨٨٦- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي مُوسَى بْنُ عَلِيٍّ، عَنْ أَبِيهِ، عَنْ عَمْرِو بْنِ الْعَاصِ قَالَ: عَجِبْتُ مِنَ الرَّجُلِ يَفِرُّ مِنَ الْقَدَرِ وَهُوَ مُوَاقِعُهُ، وَيَرَى الْقَذَاةَ فِي عَيْنِ أَخِيهِ وَيَدَعُ الْجِذْعَ فِي عَيْنِهِ، وَيُخْرِجُ الضِّغْنَ مِنْ نَفْسِ أَخِيهِ وَيَدَعُ الضِّغْنَ فِي نَفْسِهِ، وَمَا وَضَعْتُ سِرِّي عِنْدَ أَحَدٍ فَلُمْتُهُ عَلَى إِفْشَائِهِ، وَكَيْفَ أَلُومُهُ وَقَدْ ضِقْتُ بِهِ ذَرْعًا؟

**(886)** ........ Amr ibn As ﷺ demişdir: “Mən o adama təəccüb edirəm ki, qədər ona yetişdiyi halda o qədərdən qaçır.[1] (Həmçinin, o adama təəccüb edirəm ki,) qardaşının gözündə çöpü görür, öz gözündəki kötüyü isə unudur. Qardaşının ürəyində olan nifrəti çıxarmağa çalışır, öz ürəyindəki nifrəti isə unudur.[2] Və elə adam yoxdur ki, mən ona öz sirrimi verim, sonra

---

[1] Deməк, adamın qədərinə əzəldən nə yazılmışdırsa, onun baş verməsi labüddür. Lakin bu, o demək deyil ki, qədərə yazılana arxayın olub səbəbləri götürməyək. Xeyr, əksinə, səbəblərdən tutmağın özü şəriətin bizə buyurduğu əməllərdəndir. Hədislərin birində Peyğəmbər ﷺ demişdir: “Xəstəni sağlam olanların arasına gətirməyin” (Səhih əl-Buxari, 5774; Səhih Muslim, 7/32); həmçinin, o demişdir: “Şirdən qaçdığın kimi, cüzam xəstəliyinə tutulmuş adamdan qaç” (Musnəd Əhməd, 2/443; Silsilətul-Əhadisis-Səhihə, 971). Cüzam: əsasən dəri və toxumaların çürüməsi şəklində təzahür edən ağır xroniki xəstəlik. Qeyd etmək lazımdır ki, xəstəliyi göndərən Allahdır və bu xəstəlik Allahın izni ilə keçə bilər. Əbu Hureyrə ﷺ rəvayət edir ki, bir bədəvi Peyğəmbərə ﷺ dedi: “Ya Rəsulullah, mənim dəvələrim barədə nə deyə bilərsən?! Onlar səhrada ceyran kimi olurlar. Elə ki aralarına xəstə bir dəvə girir, hamısına xəstəlik düşür.” Peyğəmbər ﷺ dedi: “Yaxşı, bəs, birincisinə xəstəliyi verən kimdir?!” (Səhih əl-Buxari, 5717).

[2] Hədislərin birində Peyğəmbər ﷺ demişdir: “Qiyamət günü bir nəfər gətirilib Cəhənnəm oduna atılacaq. Onun bağırsaqları atəşin içinə töküləcək və o, dəyirmanın ətrafında fırlanan uzunqulaq kimi fırlanacaq. Cəhənnəm sakinləri onun başına yığışıb deyəcəklər: “Ay filankəs! Niyə bu kökə düşmüsən? Məgər, sən bizə yaxşı işlər görməyi buyurub, pis

da bu sirri yaydığına görə onu qınayım. Mən öz sirrimi özüm qorumağa aciz qaldığım halda, başqasını necə qınaya bilərəm ki?[1]"[2]

---

əməlləri qadağan etmirdinmi?" O deyəcək: "Mən sizə yaxşı işlər görməyi buyururdum, lakin özüm buna əməl etmirdim, pis əməlləri qadağan edirdim, amma özüm o işləri görürdüm" (Səhih əl-Buxari, 3267). Möminə qarşı olan nifrəti qəlbdən çıxartmaq üçün isə Allaha yalvarmaq gərəkdir. Quranda deyilir ki, ***"Səhabələrdən*** **sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!"** (əl-Həşr, 10); Rəvayət edilir ki, Mutarrif ibn Abdullah ibn Şixxir dua edib deyərmiş: "Allahım, məni başqası üçün nümunə etmə və heç kəsi mənə öyrətdiklərin xüsusunda məndən xoşbəxt etmə!" (Məcmu əl-Fətavə, 8/210).

[1] Bu, heç də o demək deyil ki, yaxın adama sirr vermək olmaz. Sadəcə olaraq, adam etibar etdiyi adama sirr verməli, o da, öz növbəsində bu sirri qorumalıdır (947-ci, 1139-cu və 1154-cü hədislərin mətninə bax).

[2] Bu əsəri İbn Hibban (Rovdətul-Uqəla, səh: 197) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ٣٩٤- بَابُ السُّخْرِيَةِ وَقَوْلُ اللَّهِ عَزَّ وَجَلَّ:
## ﴿لَا يَسْخَرْ قَوْمٌ مِنْ قَوْمٍ﴾

## 394-cü fəsil. Lağa qoymaq.[1] Uca Allahın ﷻ "Bir camaat digərini məsxərəyə qoymasın!"[2] sözü

٨٨٧- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي أَخِي، عَنْ سُلَيْمَانَ بْنِ بِلَالٍ، عَنْ عَلْقَمَةَ بْنِ أَبِي عَلْقَمَةَ، عَنْ أُمِّهِ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: مَرَّ رَجُلٌ مُصَابٌ عَلَى نِسْوَةٍ، فَتَضَاحَكْنَ بِهِ يَسْخَرْنَ، فَأُصِيبَ بَعْضُهُنَّ.

**(887)** ........ Əlqəmənin anası Mərcanə rəvayət etmişdir ki, Aişə رضي الله عنها demişdir: "(Bir dəfə) başına müsibət gəlmiş bir adam qadınların yanından keçərkən, qadınlar ona gülüb, lağ etdilər. (Bu hadisədən bir müddət) sonra onlardan bəzisinin başına müsibət gəldi."[3]

---

[1] İmam Buxari bu fəslə belə ad verməklə lağa qoymağın qadağan edildiyini bildirir. Bu yaramaz əxlaq insana həm bu dünyada, həm də Axirətdə zərər vurur. Belə yaramaz əxlaq sahibləri müsəlman olsalar belə zalım sayılırlar. Qiyamət günü isə bunun peşmançılığını çəkəcəklər.

[2] Ayənin tamamı belədir: **"Ey iman gətirənlər! Bir camaat digərini məsxərəyə qoymasın. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Qadınlar da qadınları *lağa qoymasınlar*. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Bir-birinizə tənə vurmayın və bir-birinizi pis ləqəblərlə çağırmayın. İman gətirdikdən sonra fasiq adlanmaq necə də pisdir. Məhz tövbə etməyənlər zalımlardır"** (əl-Hucurat, 11). Bu ayədən əvvəlki və sonrakı ayəyə nəzər salsaq, qardaşlıq haqları və onun tələbləri bizə aydın olar. Aydın olar ki, möminlər qardaşdırlar və onların arasını düzəltmək, onlar barəsində pis zənnə qapılmamaq, onları güdüb casusluq etməmək, onların qeybətini qırmamaq müsəlmanın müsəlman üzərindəki haqlarındandır (398-ci, 410-cu və 724-cü hədislərə və onların qeydlərinə bax).

[3] Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadında keçən Əlqəmənin anası Mərcanənin "məchulul-hal" ravi olduğunu və bu səbəb-

dən də, bu hədisin isnadının "zəif" olduğunu demişdir. Lakin şeyx əl-Albani digər əsərlərində bu qadının etibarlı ravi olduğunu nəql etmişdir. O, demişdir: "İbn Həcər "Təqrib ət-Təhzib" əsərində (8680) Mərcanənin "məqbul" ravi olduğunu söyləmişdir (əs-Səmrul-Mustətab, 1/433); o, həmçinin, demişdir: "İbn Hibban (5/466) və əl-İcli (2/68) bu qadının etibarlı ravi olduğunu söyləmişlər (Silsilətul-Əhadisis-Səhihə, 2/349); o, həmçinin, demişdir: "Tirmizi onun rəvayət etdiyi hədisləri "səhih" hesab etmişdir" (Səhih Əbu Davud, 6/268). Xüsusilə, qeyd etmək lazımdır ki, şeyx əl-Albani "əl-Ədəbul-Mufrad" əsərində (1274) Mərcanədən nəql edilmiş hədisi "həsən" hesab etmişdir. Həmçinin, Zəhəbi "əl-Kaşif" əsərində (7076) bu qadının "etibarlı" ravi olduğunu demişdir. Eləcə də, İbn Səd demişdir: "Oğlu Əlqəmə ibn Əbu Əlqəmə anasından "saleh" hədislər rəvayət etmişdir" (ət-Təbəqat, 10983).

## ٣٩٥- بَابُ التُّؤَدَةِ فِي الأمُورِ

## 395-ci fəsil. İşlərdə tələsməmək[1]

٨٨٨- حَدَّثَنَا بِشْرُ بْنُ مُحَمَّدٍ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ قَالَ: أَخْبَرَنَا سَعْدُ بْنُ سَعِيدٍ الأَنْصَارِيُّ، عَنِ الزُّهْرِيِّ، عَنْ رَجُلٍ مِنْ بَلِيٍّ قَالَ: أَتَيْتُ رَسُولَ اللَّهِ ﷺ مَعَ أَبِي، فَنَاجَى أَبِي دُونِي، قَالَ: فَقُلْتُ لِأَبِي: مَا قَالَ لَكَ؟ قَالَ: إِذَا أَرَدْتَ أَمْرًا فَعَلَيْكَ بِالتُّؤَدَةِ حَتَّى يُرِيَكَ اللَّهُ مِنْهُ الْمَخْرَجَ، أَوْ حَتَّى يَجْعَلَ اللَّهُ لَكَ مَخْرَجًا.

**(888)** ........ Bəliy qəbiləsindən olan bir kişi[2] demişdir: "Mən atamla birgə Rəsulullahın ﷺ yanına gəldim. O məndən xəlvət atama nə isə pıçıldadı. (Sonra) Mən atamdan soruşdum: "(Rəsulullah ﷺ) sənə nə dedi?" Atam dedi: "(O buyurdu ki,) bir iş görmək istədikdə tələsmə. Gec-tez Allah sənə çıxış yolu göstərəcək, yaxud sənə bir yol açacaq."[3]

٨٨٩- وَعَنِ الْحَسَنِ بْنِ عَمْرٍو الْفُقَيْمِيِّ، عَنْ مُنْذِرٍ الثَّوْرِيِّ، عَنْ مُحَمَّدِ ابْنِ الْحَنَفِيَّةِ قَالَ: لَيْسَ بِحَكِيمٍ مَنْ لاَ يُعَاشِرُ بِالْمَعْرُوفِ مَنْ لاَ يَجِدُ مِنْ مُعَاشَرَتِهِ بُدًّا، حَتَّى يَجْعَلَ اللَّهُ لَهُ فَرَجًا أَوْ مَخْرَجًا.

**(889)** ........ Muhəmməd ibnul-Hənəfiyyə demişdir: "Adam görəcəyi işdə – Allah onun işini yoluna qoyanadək və yaxud ona çıxış yolu əta edənədək – həmişə ünsiyyətdə olduğu yaxınları ilə mərufla[4] davranmasa, müdrik adam sayıla bilməz."[5]

---

[1] 266-cı fəsilin qeydlərinə bax.

[2] Burada səhabənin adının zikr edilməməsi hədisin isnadına təsir etmir. Çünki səhabələrin hamısı etibarlı ravilərdir.

[3] İbn Həcər bu hədisin isnadında keçən Səd ibn Səid əl-Ənsarinin "hafizəsi zəif səduq" ravi olduğunu söyləmişdir (Fəthul-Bari). Elə bu səbəbdən də, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

[4] 117-ci fəsilin qeydinə bax.

[5] Bu əsəri Beyhəqi (Şoəbul-İman, 7750) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ٣٩٦- بَابُ مَنْ هَدَّى زُقَاقًا أَوْ طَرِيقًا

## 396-cı fəsil. (Birisinə) küçə və yaxud bir yol göstərən adam

٨٩٠- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلامٍ قَالَ: حَدَّثَنَا الْفَزَارِيُّ قَالَ: حَدَّثَنَا قِنَانُ بْنُ عَبْدِ اللهِ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ عَوْسَجَةَ، عَنِ الْبَرَاءِ بْنِ عَازِبٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَنْ مَنَحَ مَنِيحَةً أَوْ هَدَّى زُقَاقًا))، أَوْ قَالَ: ((طَرِيقًا، كَانَ لَهُ عَدْلُ عِتَاقِ نَسَمَةٍ)).

**(890)** ........ Bəra ibn Azib ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Kim bir adama sağmal bir heyvan[1] verərsə və ya ona bir küçə (yaxud yol) göstərərsə, ona bir kölə azad etmiş qədər savab yazılar.”[2]

٨٩١- حَدَّثَنَا مُحَمَّدٌ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللهِ بْنُ رَجَاءٍ قَالَ: أَخْبَرَنَا عِكْرِمَةُ بْنُ عَمَّارٍ، عَنْ أَبِي زُمَيْلٍ، عَنْ مَالِكِ بْنِ مَرْثَدٍ، عَنْ أَبِيهِ، عَنْ أَبِي ذَرٍّ، يَرْفَعُهُ، قَالَ: ثُمَّ قَالَ بَعْدَ ذَلِكَ: لاَ أَعْلَمُهُ إِلاَّ رَفَعَهُ، قَالَ: إِفْرَاغُكَ مِنْ دَلْوِكَ فِي دَلْوِ أَخِيكَ صَدَقَةٌ، وَأَمْرُكَ بِالْمَعْرُوفِ وَنَهْيُكَ عَنِ الْمُنْكَرِ صَدَقَةٌ، وَتَبَسُّمُكَ فِي وَجْهِ أَخِيكَ صَدَقَةٌ، وَإِمَاطَتُكَ الْحَجَرَ وَالشَّوْكَ وَالْعَظْمَ عَنْ طَرِيقِ النَّاسِ لَكَ صَدَقَةٌ، وَهِدَايَتُكَ الرَّجُلَ فِي أَرْضِ الضَّالَّةِ صَدَقَةٌ.

**(891)** ........ Mərsəd rəvayət etmişdir ki, Əbu Zərr ﷺ Peyğəmbərdən ﷺ belə rəvayət etmişdir: “Öz qabından qardaşının qabına (yemək-içmək) boşaltmağın sədəqədir. Yaxşılığı əmr etməyin və pis əməllərdən çəkindirməyin sədəqədir. Qardaşının üzünə gülümsəməyin sədəqədir. İnsanların yolundan daşı, tikanı və sümüyü kənara atmağın sənin üçün sədəqədir. Yolu bəlli olmayan bir yerdə bir adama yol göstərmək sədəqədir.[3]”[4]

---

[1] Yəni müvəqqəti olaraq südündən və yunundan istifadə etmək üçün dəvə yaxud inək yaxud qoyun yaxud keçi.

[2] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “səhih” olduğunu demişdir.

[3] Bu əməllərin sədəqə olması barədə izahlara dair 228-ci, 229-cu, 304-cü və 422-ci hədislərin qeydlərinə bax.

[4] Bu əsəri Beyhəqi (Şoəbul-İman, 3056) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “səhih” olduğunu demişdir.

## ٣٩٧- بَابُ مَنْ كَمَّهَ أَعْمَى

## 397-ci fəsil. Kor adamı yoldan azdıran kimsə

٨٩٢- حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ أَبِي أُوَيْسٍ قَالَ: حَدَّثَنِي عَبْدُ الرَّحْمَنِ بْنُ أَبِي الزِّنَادِ، عَنْ عَمْرِو بْنِ أَبِي عَمْرٍو، عَنْ عِكْرِمَةَ، عَنِ ابْنِ عَبَّاسٍ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((لَعَنَ اللَّهُ مَنْ كَمَّهَ أَعْمَى عَنِ السَّبِيلِ)).

**(892)** ........ İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Kor adamı yoldan azdıran[1] adama Allah lənət eləsin!"[2]

---

[1] Burada bilərəkdən ona səhv yol gösərmək nəzərdə tutulur. Və əgər bu dünyada adama dünyəvi işində səhv yol göstərənə lənət gəlirsə, bəs, görəsən, insanları haqq yoldan sapdıranların aqibəti necə olacaq?! Belələri barədə Peyğəmbər ﷺ demişdir: "Ümmətim üçün ən çox qorxduğum şey zəlalətə aparan imamların *fitnəsidir*" (Musnəd Əhməd, 1/42; Silsilətul-Əhadisis-Səhihihə, 1582).

[2] Bu hədisi Əhməd (1/217, 309 və 317), Beyhəqi (Şoəbul-İman, 4/254/5373), Əbu Yə'la (4/414-415/2539), Təbərani (Mocəmul-Kəbir, 11/218/17546) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

# ٣٩٨– بَابُ الْبَغْيِ

## 398-ci fəsil. Təcavüz etmək[1]

**٨٩٣–** حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ أَبَانَ قَالَ: حَدَّثَنَا عَبْدُ الْحَمِيدِ بْنُ بَهْرَامَ قَالَ: حَدَّثَنَا شَهْرٌ قَالَ: حَدَّثَنِي ابْنُ عَبَّاسٍ قَالَ: بَيْنَمَا النَّبِيُّ ﷺ بِفِنَاءِ بَيْتِهِ بِمَكَّةَ جَالِسٌ، إِذْ مَرَّ بِهِ عُثْمَانُ بْنُ مَظْعُونٍ، فَكَشَرَ إِلَى النَّبِيِّ ﷺ، فَقَالَ لَهُ النَّبِيُّ ﷺ: ((أَلاَ تَجْلِسُ؟)) قَالَ: بَلَى، فَجَلَسَ النَّبِيُّ ﷺ مُسْتَقْبِلَهُ، فَبَيْنَمَا هُوَ يُحَدِّثُهُ إِذْ شَخَصَ النَّبِيُّ ﷺ بَصَرَهُ إِلَى السَّمَاءِ فَقَالَ: ((أَتَانِي رَسُولُ اللَّهِ آنِفًا، وَأَنْتَ جَالِسٌ))، قَالَ: فَمَا قَالَ لَكَ؟ قَالَ: ﴿إِنَّ اللَّهَ يَأْمُرُ بِالْعَدْلِ وَالإِحْسَانِ وَإِيتَاءِ ذِي الْقُرْبَى وَيَنْهَى عَنِ الْفَحْشَاءِ وَالْمُنْكَرِ وَالْبَغْيِ يَعِظُكُمْ لَعَلَّكُمْ تَذَكَّرُونَ﴾

قَالَ عُثْمَانُ: وَذَلِكَ حِينَ اسْتَقَرَّ الإِيمَانُ فِي قَلْبِي وَأَحْبَبْتُ مُحَمَّدًا.

**(893)** ........ İbn Abbas ﷺ demişdir: “Peyğəmbər ﷺ Məkkədəki evinin qabağında oturmuş ikən Osman ibn Məzun[2] gəlib oradan keçdi və *keçərkən* Peyğəmbərin ﷺ üzünə gülümsədi. Peyğəmbər ﷺ ona dedi: “Oturmaq istəmirsənmi?” O: “Bəli!”– dedi (və onun yanında oturdu). Peyğəmbər ﷺ də onunla üzbəüz oturdu. Peyğəmbər ﷺ onunla söhbət edərkən, birdən gözünü göyə dikdi və dedi: “Elə bu dəqiqə, sən burada ikən Allahın rəsulu[3] yanıma gəldi.” Osman soruşdu: “O, sənə nə dedi?” Peyğəmbər ﷺ buyur-

---

[1] 268-ci fəsilin qeydinə bax.

[2] Əbu Saib Osman ibn Məzun ibn Həbib əl-Cuməhi ﷺ Peyğəmbərin ﷺ məşhur səhabəsidir. Osman ibn Məzun İslamı ilk əvvəl qəbul edənlərdən və iki dəfə hicrət edənlərdən olmuşdur. Bədr döyüşündə iştirak etmişdir. Osman Mədinəyə hicrət etdikdən sonra vəfat etmiş və Bəqi qəbiristanlığında ilk dəfn edilmiş mühacirdir (Siyər Əlam ən-Nubələ, 9-cu tərcümeyi-hal).

[3] Burada “Allahın rəsulu” deyildikdə, Cəbrail ﷺ nəzərdə tutulur: **“Onu sadiq ruh *Cəbrail* sənin qəlbinə endirdi ki, xəbərdar edənlərdən olasan”** (əş-Şuəra, 194-195).

du: **"Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara *haqqını* verməyi əmr edir, iyrənc işlər görməyi, pis əməllər törətməyi və təcavüz etməyi isə qadağan edir. O, sizə öyüd-nəsihət verir ki, bəlkə düşünüb ibrət alasınız."**[1]

Osman demişdir: "Bu hadisə iman qəlbimdə sabit olduğu və Muhəmmədi ﷺ sevdiyim bir vaxtda baş vermişdir."[2]

---

[1] ən-Nəhl, 90. Abdullah ibn Məsud bu ayənin Quranda halal və haramı, əmr və qadağanı bir araya gətirən ən əhatəli ayə olduğunu demişdir" (489-cu hədisə bax). Bu ayənin bu fəslə aid olan tərəfi Uca Allahın bu Sözüdür: "...**və təcavüz etməyi qadağan edir.**"

[2] Bu hədisin isnadında keçən Şəhr ibn Hovşəb "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

## ٣٩٩– بَابُ عُقُوبَةِ الْبَغْيِ

## 399-cu fəsil. Təcavüz etməyin cəzası

٨٩٤– حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ أَبِي الأَسْوَدِ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ عُبَيْدٍ الطَّنَافِسِيُّ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ ابْنُ عَبْدِ الْعَزِيزِ، عَنْ أَبِي بَكْرِ بْنِ عُبَيْدِ اللَّهِ بْنِ أَنَسٍ، عَنْ أَبِيهِ، عَنْ جَدِّهِ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَنْ عَالَ جَارِيَتَيْنِ حَتَّى تُدْرِكَا، دَخَلْتُ أَنَا وَهُوَ فِي الْجَنَّةِ كَهَاتَيْنِ))، وَأَشَارَ مُحَمَّدٌ بِالسَّبَّابَةِ وَالْوُسْطَى.

**(894)** ........ Ənəs ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ: demişdir: "Yetkinlik yaşlarınadək iki qız uşağının qeydinə qalan kimsə[1] Cənnətdə mənimlə bu iki barmaq kimi olacaq.[2]"

Muhəmməd[3] dedi: "O, orta barmağıyla şəhadət barmağını birləşdirdi."[4]

٨٩٥– وَبَابَانِ يُعَجَّلاَنِ فِي الدُّنْيَا : الْبَغْيُ ، وَقَطِيعَةُ الرَّحِمِ.

**(895)** "İki qapı[5] vardır ki, bunların cəzası dünyada verilər: təcavüz etmək və qohumluq əlaqələrini kəsmək."[6]

---

[1] 41-ci fəsildəki hədislərə və onların qeydlərinə bax.

[2] 133-cü hədisin qeydlərinə bax.

[3] Bu, hədisi nəql etmiş ravilərdən biri – Muhəmməd ibn Abdul-Azizdir.

[4] Bu hədisi Muslim (8/38-39), Tirmizi (1/349), Əhməd (3/147-148) və İbn Hibban (2045) rəvayət etmişdir.

[5] Burada "iki qapı" deyildikdə, iki günah nəzərdə tutulur. Bu da, təcavüz etmək və qohumluq əlaqələrini kəsməkdir (29-cu hədisə və onun qeydlərinə bax).

[6] Bu hədisi Hakim (4/177) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ٤٠٠- بَابُ الْحَسَبِ

## 400-cü fəsil. Əsil-nəcabətli olmaq[1]

**٨٩٦-** حَدَّثَنَا شِهَابُ بْنُ مَعْمَرٍ الْعَوْفِيُّ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ مُحَمَّدِ بْنِ عَمْرٍو، عَنْ أَبِي سَلَمَةَ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِنَّ الْكَرِيمَ ابْنَ الْكَرِيمِ ابْنِ الْكَرِيمِ ابْنِ الْكَرِيمِ يُوسُفُ ابْنُ يَعْقُوبَ بْنِ إِسْحَاقَ بْنِ إِبْرَاهِيمَ)).

**(896)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "İbrahimin oğlu İshaq, (İshaqın) oğlu Yəqub, (Yəqubun) oğlu Yusuf – möhtərəm (peyğəmbərdir), (özü də) möhtərəm (peyğəmbərin) oğludur, (atası da) möhtərəm (peyğəmbərin) oğludur, (babası da) möhtərəm (peyğəmbərin) oğludur."[2]

**٨٩٧-** حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ مُحَمَّدٍ، عَنْ مُحَمَّدِ بْنِ عَمْرٍو، عَنْ أَبِي سَلَمَةَ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ : ((إِنَّ أَوْلِيَائِي يَوْمَ الْقِيَامَةِ الْمُتَّقُونَ، وَإِنْ كَانَ نَسَبٌ أَقْرَبَ مِنْ نَسَبٍ، فَلاَ يَأْتِينِي النَّاسُ بِالأَعْمَالِ وَتَأْتُونَ بِالدُّنْيَا تَحْمِلُونَهَا عَلَى رِقَابِكُمْ، فَتَقُولُونَ: يَا مُحَمَّدُ، فَأَقُولُ هَكَذَا وَهَكَذَا: لاَ))، وَأَعْرَضَ فِي كِلا عِطْفَيْهِ.

**(897)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki,[3] Rəsulullah ﷺ demişdir: "Əsil-nəcabət baxımından insanlar bir-birinə yaxın olsalar da, Qiyamət

---

[1] İmam Buxari bu fəslə belə ünvan qoymaqla bildirmək istəyir ki, əgər insanın özü əməlisaleh olmazsa, onun əsil-nəsəbinin əməlisaleh olması Qiyamət günü ona fayda verməyəcək (48-ci hədisin qeydlərinə bax).

[2] 605-ci hədisin qeydlərinə bax.

[3] Bu hədisi İbn Əbu Asim (Sunnə, 213) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "həsən" olduğunu demişdir.

günü mənim dostlarım müttəqilər olacaq.[1] Və elə olmasın ki, insanlar mənim yanıma (öz saleh) əmədəlləri ilə gələcəyi gün siz[2] dünyanı boynunuzda daşıyaraq gəlib: “Ey Muhəmməd!”– deyəsiniz,[3] mən də (sizə): “Bu cür, bu cür “Yox!”– deyim.” (Bunu deyəndə) Peyğəmbər ﷺ başını o çiyninə-bu çiyninə tərəf döndərdi.[4]

**٨٩٨–** حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ الْمُبَارَكِ قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ سَعِيدٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الْمَلِكِ قَالَ: حَدَّثَنَا عَطَاءٌ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: لاَ أَرَى أَحَدًا يَعْمَلُ بِهَذِهِ الْآيَةِ: ﴿يَا أَيُّهَا النَّاسُ إِنَّا خَلَقْنَاكُمْ مِنْ ذَكَرٍ وَأُنْثَى﴾ حَتَّى بَلَغَ: ﴿إِنَّ أَكْرَمَكُمْ عِنْدَ اللَّهِ أَتْقَاكُمْ﴾، فَيَقُولُ الرَّجُلُ لِلرَّجُلِ: أَنَا أَكْرَمُ مِنْكَ، فَلَيْسَ أَحَدٌ أَكْرَمَ مِنْ أَحَدٍ إِلا بِتَقْوَى اللَّهِ.

**(898)** ........ İbn Abbas رضي الله عنهما demişdir: “Mən bu ayəyə əməl edən bir adam görmürəm: **“Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız, *Ondan* ən çox qorxanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır.”**[5] Görürsən ki, bir adam başqa biri-

---

[1] Bu xüsusda, Uca Allah buyurur: **“O gün müttəqilərdən başqa *bütün* dostlar bir-birinə düşmən kəsiləcəklər”** (əz-Zuxruf, 67); digər ayədə O, buyurur: **“Sur üfürüləcəyi gün onların aralarında qohumluq əlaqəsi olmayacaq və onlar bir-birindən hal-əhval tutmayacaqlar. *O gün* məhz tərəziləri ağır gələnlər nicat tapacaqlar. Tərəziləri yüngül gələnlər isə özlərini ziyana uğradanlardır. *Onlar* Cəhənnəmdə əbədi qalacaqlar”** (əl-Muminun, 101-103); O, həmçinin, buyurur: **“Qulaqbatırıcı bir səs gələndə – o gün insan öz qardaşından, anasından, atasından, arvadından və övladlarından qaçacaq. O gün onlardan hər birinin yetərincə işi olacaqdır”** (Əbəsə, 33-37).

[2] Burada söhbət günah işlətmiş müsəlmanlardan gedir.

[3] Peyğəmbər ﷺ öz qohum-əqrəbasının Qiyamət günü ondan şəfaətçilik etməsini diləyəcəklərini qəsd edir (48-ci hədisə və onun qeydlərinə bax).

[4] Bu, təəssüf hissini bildirən bir hərəkətdir.

[5] “əl-Hucurat”, 13.

sinə: "Mən səndən daha hörmətliyəm"– deyir. Halbuki, bir kimsə başqa birisindən yalnız Allah qorxusu (təqva) ilə üstün ola bilər.[1]"[2]

**٨٩٩–** حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا جَعْفَرُ بْنُ بُرْقَانَ، عَنْ يَزِيدَ بْنِ الْأَصَمِّ قَالَ: قَالَ ابْنُ عَبَّاسٍ: مَا تَعُدُّونَ الْكَرَمَ؟ وَقَدْ بَيَّنَ اللَّهُ الْكَرَمَ، فَأَكْرَمُكُمْ عِنْدَ اللَّهِ أَتْقَاكُمْ، مَا تَعُدُّونَ الْحَسَبَ؟ أَفْضَلُكُمْ حَسَبًا أَحْسَنُكُمْ خُلُقًا.

**(899)** ........ İbn Abbas ﵄ demişdir: "Siz kimi hörmətli hesab edirsiniz? Axı Allah hörmətli adamın kim olduğunu *bizə* bildirmişdir. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır.[3] Siz kimi əsil-nəcabətli sayırsınız? Əsil-nəcabəti ən yaxşı olanınız əxlaqı ən gözəl olanınızdır.[4]"[5]

---

[1] 129-cu hədisin qeydlərinə bax.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[3] "əl-Hucurat" surəsi, 13-cü ayəyə bax.

[4] İbn Abbas ﵄ demək istəyir ki, Allah insanın zahirinə yox, qəlbinə və əməllərinə baxır. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Allah sizin nə qiyafənizə, nə də ki var-dövlətinizə baxır, lakin O, sizin qəlbinizə və əməllərinizə baxır" (Səhih Muslim, 4651).

[5] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٤٠١ – بَابُ الأَرْوَاحُ جُنُودٌ مُجَنَّدَةٌ

## 401-ci fəsil. Ruhlar[1] bir toplum əsgərdir

**٩٠٠–** حَدَّثَنَا عَبْدُ اللَّهِ قَالَ: حَدَّثَنِي اللَّيْثُ، عَنْ يَحْيَى بْنِ سَعِيدٍ، عَنْ عَمْرَةَ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: ((الأَرْوَاحُ جُنُودٌ مُجَنَّدَةٌ، فَمَا تَعَارَفَ مِنْهَا ائْتَلَفَ، وَمَا تَنَاكَرَ مِنْهَا اخْتَلَفَ)).

---

[1] Burada söhbət Adəm övladının ruhlarından gedir. Belə ki, Uca Allah bu ruhları fərqli yaratmışdır. Bunların bir qismi xeyirli işlərə meyilli, digəri də şər əməllərə meyillidir. Və təbiətcə xeyirli işlərə meyilli olan özü kimisinə meyil edir, onunla görüşməyə can atır, onunla oturub-durmaqdan həzz alır, şər əməllərə meyilli olan da həmçinin, özü kimisinə meyil edir. Bu xüsusda, Uca Allah buyurur: **"Murdar qadınlar murdar kişilərə, murdar kişilər isə murdar qadınlara, eləcə də, təmiz qadınlar təmiz kişilərə, təmiz kişilər də təmiz qadınlara layiqdirlər"** (ən-Nur,26). Ərəblərdə belə bir məsəl vardır: "Quşlar öz bənzərlərinin yanında olar" (Ruhul-Məani, 7/240). Bizdə də, həmçinin, yaramaz adamlara belə bir məsəl çəkilir: "Eşşək anqırar tayını tapar." Bəzi adamlar əməlisaleh insanlarla ünsiyyət qurmaqdan çəkinir, onlarla oturub-durmaqdan ehtiyat edirlər. Belələri ilk əvvəl özlərini qınamalı, Allaha yalvarıb Ondan onları əməlisaleh insanlarla dost etməyi diləməlidirlər. Belə olduğu halda Allah onları Allaha və Onun rəsuluna itaət etməyə, beləliklə də, peyğəmbərlərə, siddiqlərə, şəhidlərə və əməlisaleh möminlərə dost olmağa müvəffəq edər. Rəvayət edilir ki, bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib deyir: "Ya Rəsulullah! Mən səni özümdən də, ailəmdən də, övladımdan da, var-dövlətimdən də çox sevirəm. Mən evdə olanda səni xatırlayır və səni görənə qədər rahatlıq tapa bilmirəm. Lakin hər ikimizin öləcəyini xatırlayanda, düşünürəm ki, sən Cənnətə girəcəksən və peyğəmbərlərə xas olan ən yüksək mərtəbədə olacaqsan. Mən isə, Allah bilir, hara düşəcəyəm, qorxuram bir daha səni görməyim." Onda, Uca Allah bu ayəni nazil etdi: **"Allaha və *Onun* Rəsuluna itaət edən kimsələr, Allahın özlərinə nemət bəxş etdiyi peyğəmbərlərlə, siddiqlərlə, şəhidlərlə və əməlisalehlərlə birlikdə olacaqlar. Onlar necə də gözəl dostlardır!"** Yaxşını yamandan seçmək xüsusunda isə Peyğəmbərimiz ﷺ belə buyurmuşdur: "Yaxşınız o kəsdir ki, ondan yaxşılıq umulur və şər əməllər gözlənilmir. Pisiniz də o kəsdir ki, ondan yaxşılıq umulmur, *üstəlik*, şər əməllər gözlənilir" (Sunən ət-Tirmizi, 2432; Səhih əl-Cami, 2603).

**(900)** ........ Aişə ﵂ demişdir: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Ruhlar bir toplum əsgərdir. Onlardan xasiyyətcə bir-birinə uyğun gələnlər bir-birinə qovuşur, uyğun gəlməyənləri isə ayrılırlar."[1]

(...)- حَدَّثَنَا سَعِيدُ بْنُ أَبِي مَرْيَمَ قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ أَيُّوبَ، عَنْ يَحْيَى بْنِ سَعِيدٍ، عَنْ عَمْرَةَ بِنْتِ عَبْدِ الرَّحْمَنِ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا، عَنِ النَّبِيِّ ﷺ، مِثْلَهُ.

**(...)** Səid ibn Əbu Məryəm bizə belə rəvayət etmişdir: "Bizə Yəhya ibn Əyyub Yəhya ibn Səiddən, o da, Amra bint Abdur-Rəhmandan, o da, Aişədən ﵂, o da, Peyğəmbərdən ﷺ bu hədisin bənzərini rəvayət etmişdir.[2]

**٩٠١**- حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنِي سُلَيْمَانُ بْنُ بِلاَلٍ، عَنْ سُهَيْلٍ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((الأَرْوَاحُ جُنُودٌ مُجَنَّدَةٌ، فَمَا تَعَارَفَ مِنْهَا ائْتَلَفَ، وَمَا تَنَاكَرَ مِنْهَا اخْتَلَفَ)).

**(901)** ........ Əbu Hureyrə ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Ruhlar bir toplum əsgərdir. Onlardan xasiyyətcə bir-birinə uyğun gələnlər bir-birinə qovuşur, uyğun gəlməyənləri isə ayrılırlar."[3]

---

[1] Bu hədisi İmam Buxari öz "Səhih"ində (3336) "muəlləq" isnadla rəvayət etmişdir. Digər mənbədə nəql edilmiş bu hədisin əvvəlində Amra bint Abdur-Rəhman demişdir: "Məkkədə zarafatçıl bir qadın vardı. *Bir gün* o, *Mədinədə yaşayan* özü kimi zarafatçıl bir qadınla görüşdü. Bu haqda Aişəyə xəbər verildikdə o, dedi: "Həbibim doğru söyləmişdir. Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: "Ruhlar bir toplum əsgərdir..." (Musnəd Əbu Yə'la, 3/1082-1083; Şoəbul-İman, 8621; şeyx əl-Albani "Silsilətul-Əhadisid-Daifə" əsərində 5527-ci hədisin isnadlarını nəql edərkən bu hədisin isnadının Buxari və Muslimin şərtlərinə müvafiq – "səhih" olduğunu demişdir).

[2] 260-cı hədisdən sonra gələn isnadın qeydlərinə bax.

[3] Bu hədisi Muslim (8/41-42), Əbu Davud (4834), Əhməd (2/295, 527 və 539), İbn Hibban (6168) və Bəğəvi (13/65) rəvayət etmişdir.

## ٤٠٢- بَابُ قَوْلِ الرَّجُلِ عِنْدَ التَّعَجُّبِ: ((سُبْحَانَ اللَّهِ))

## 402-ci fəsil. Adamın təəccübləndiyi zaman: "Subhanəllah!"– deməsi

٩٠٢- حَدَّثَنَا يَحْيَى بْنُ صَالِحٍ الْمِصْرِيُّ، عَنْ إِسْحَاقَ بْنِ يَحْيَى الْكَلْبِيِّ قَالَ: حَدَّثَنَا الزُّهْرِيُّ قَالَ: أَخْبَرَنَا أَبُو سَلَمَةَ بْنُ عَبْدِ الرَّحْمَنِ، أَنَّ أَبَا هُرَيْرَةَ قَالَ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: ((بَيْنَمَا رَاعٍ فِي غَنَمِهِ، عَدَا عَلَيْهِ الذِّئْبُ فَأَخَذَ مِنْهُ شَاةً، فَطَلَبَهُ الرَّاعِي، فَالْتَفَتَ إِلَيْهِ الذِّئْبُ فَقَالَ: مَنْ لَهَا يَوْمَ السَّبُعِ؟ لَيْسَ لَهَا رَاعٍ غَيْرِي))، فَقَالَ النَّاسُ: سُبْحَانَ اللَّهِ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: ((فَإِنِّي أُؤْمِنُ بِذَلِكَ، أَنَا وَأَبُو بَكْرٍ وَعُمَرُ)).

**(902)** ........ Əbu Hureyrə ﷺ demişdir: "Mən Peyğəmbər ﷺ belə dediyini eşitmişəm: "Bir çoban qoyunları otararkən bir canavar sürüyə hücum edib, bir qoyun apardı və çoban da onu təqib etdi. Onda, canavar ona tərəf dönüb dedi: "Qorxulu gün (gələcəyi zaman) bu qoyunları kim qoruyacaq? (O gün bunların) məndən başqa bir çobanı olmayacaq."

Camaat (təəccüblə[1]): "Subhanəllah!"– dedi. Rəsulullah ﷺ buyurdu: "Mən buna inanıram. Əbu Bəkr və Ömər də (buna inanır).[2]"[3]

---

[1] Bu ləfz İmam Muslimin "Səhih"ində (6334) rəvayət edilmişdir.

[2] Bu söz Əbu Bəkr ﷺ və Ömərin ﷺ fəzilətli səhabələr olduğuna dəlalət edir. Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Peyğəmbərlər və elçilər istisna olmaqla, yaşlılar arasında Əbu Bəkr və Ömər Cənnət əhlinin ən hörmətli sakinləridirlər" (Sunən ət-Tirmizi, 4/310; Sunən İbn Macə, 1/49; Səhih əl-Cami, 51; Silsilətul-Əhadisis-Səhihə, 824).

[3] Bu hədisi İmam Buxari öz "Səhih"ində (2324) rəvayət etmişdir. Hədisin tam variantı belədir: Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "*Bir dəfə* bir nəfər inəyin belinə minib onu sürərkən inək ona tərəf çevrilib dedi: "Mən bunun üçün yaradılmamışam. Mən yer şümlamaq üçün yaradılmışam." Sonra Peyğəmbər ﷺ buyurdu: "Mən, Əbu Bəkr və Ömər buna inanırıq." Peyğəmbər ﷺ davam edib dedi: "*Bir dəfə* canavar bir qoyunu tutub apardı. Çoban onu təqib etdikdə canavar dedi: "Məndən başqa bu qoyunun heç

٩٠٣- حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنِ الأَعْمَشِ قَالَ: سَمِعْتُ سَعْدَ بْنَ عُبَيْدَةَ يُحَدِّثُ، عَنْ أَبِي عَبْدِ الرَّحْمَنِ السُّلَمِيِّ، عَنْ عَلِيٍّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: كَانَ النَّبِيُّ ﷺ فِي جَنَازَةٍ، فَأَخَذَ شَيْئًا فَجَعَلَ يَنْكُتُ بِهِ فِي الأَرْضِ، فَقَالَ: ((مَا مِنْكُمْ مِنْ أَحَدٍ إِلاَّ قَدْ كُتِبَ مَقْعَدُهُ مِنَ النَّارِ، وَمَقْعَدُهُ مِنَ الْجَنَّةِ))، قَالُوا: يَا رَسُولَ اللَّهِ، أَفَلاَ نَتَّكِلُ عَلَى كِتَابِنَا، وَنَدَعُ الْعَمَلَ؟ قَالَ: ((اعْمَلُوا، فَكُلٌّ مُيَسَّرٌ لِمَا خُلِقَ لَهُ))، قَالَ: ((أَمَّا مَنْ كَانَ مِنْ أَهْلِ السَّعَادَةِ فَسَيُيَسَّرُ لِعَمَلِ السَّعَادَةِ، وَأَمَّا مَنْ كَانَ مِنْ أَهْلِ الشَّقَاوَةِ فَسَيُيَسَّرُ لِعَمَلِ الشَّقَاوَةِ))، ثُمَّ قَرَأَ: ﴿فَأَمَّا مَنْ أَعْطَى وَاتَّقَى وَصَدَّقَ بِالْحُسْنَى﴾ الآيَةَ.

**(903)** ........ Əli ﷺ demişdir:[1] "(Bir dəfə) Peyğəmbər ﷺ dəfndə ikən əlinə bir şey götürüb, onunla torpağı[2] döyəcləyərək[3] dedi: "Hər birinizin Cənnətdə və (ya) Cəhənnəmdə tutacağı yer (əzəldən qədərə) yazılmışdır.[4]"

---

bir çobanı olmayacağı, yırtıcı heyvanların hökm sürəcəyi gün onu kim xilas edə bilər?" Sonra Peyğəmbər ﷺ buyurdu: "Mən, Əbu Bəkr və Ömər buna inanırıq."

(Hədisi Əbu Hureyrədən ﷺ rəvayət edən) Əbu Sələmə demişdir: "Halbuki, Əbu Bəkr və Ömər camaatın arasında yox idi."

[1] Bu hədisi İmam Buxari öz "Səhih"ində (1362) rəvayət etmişdir.

[2] Bu hədisin zahirən bu fəsilin ünvanına, yəni adamın təəccübləndiyi zaman: "Subhanəllah!"– deməsinə heç bir aidiyyəti yoxdur. Ola bilsin ki, müəllif bu hədisi növbəti fəsilin ünvanına aid etmək istəmişdir. Belə ki, bu hədisdə Əli ibn Əbu Talib ﷺ Peyğəmbərin ﷺ əlindəki əsa ilə torpağı döyəclədiyini xəbər verir (Abdur-Rəzzaq əl-Abbad).

[3] İmam Buxarinin "Səhih"indəki rəvayətdə deyilir: "Biz Bəqiul-ğarqadda bir cənazənin dəfnində iştirak edərkən Peyğəmbər ﷺ bizim yanımıza gəlib oturdu, biz də onun ətrafında oturduq. Onun əlində əsa var idi. O, başını aşağı əydi və əlindəki əsanı yerə vurmağa başladı..."

[4] Uca Allah hər şeyin qədərini əzəldən müəyyən edib, Lövhi-Məhfuza yazmışdır. Bu xüsusda, Uca Allah buyurur: **"Biz, həqiqətən də, hər şeyi qədərincə yaratdıq"** (əl-Qəmər, 49). Həmçinin, Peyğəmbər ﷺ demişdir: "Allah bütün məxluqatın qəzavü-qədərini, göyləri və yeri yaratmamışdan əlli min il öncə yazmışdır. O vaxt Onun Ərşi suyun üzərində idi!" (Səhih Muslim, 6919); digər rəvayət o, demişdir: "Hər bir şey, hətta acizlik və (ya) fəallıq göstərmək belə qədərlə olur" (Səhih Muslim, 6922).

(Səhabələr) dedilər: "Ya Rəsulullah, qədərimizdə yazılana arxayın olub, əməli tərk edəkmi?" Peyğəmbər ﷺ buyurdu: "(Görmək istədiyiniz) işləri görün! Çünki hər kəsə yaradılmış olduğu işi görmək müyəssər olacaq.[1] Xoşbəxt olanlara xoşbəxt insanların əməli, bədbəxt olanlara isə bədbəxt insanların əməli müyəssər olacaq." Sonra o, bu ayəni oxudu: **"Kim *haqqı olanın haqqını* verir və *Allahdan* qorxursa və ən gözəl olan *"lə ilahə illəllah" kəlməsini* təsdiq edirsə, Biz onu ən asan olana nail edəcəyik. Kim də xəsislik edərək *Rəbbinə* ehtiyacı olmadığını güman edirsə və ən gözəl olan *"lə ilahə illəllah" kəlməsini* yalan hesab edirsə, Biz onun üstünə ən çətin olanı yükləyəcəyik."**[2]

---

[1] Bundan aydın olur ki, mömin adam qədərə iman gətirməklə yanaşı öz işində əlindən gələni etməli, həm də bu işdə yalnız Allaha təvəkkül etməli, Ona yalvarmalı və öz işində Ondan müvəffəqiyyət diləməlidir. Peyğəmbərin ﷺ bu sözündən o da aydın olur ki, insanın görəcəyi işdə seçimi və istəyi vardır, lakin bu istək də Allahın istəyinə bağlıdır. Bu fikir Quranda da öz təsdiqini tapmışdır. Bu xüsusda, Uca Allah belə buyurur: **"Bu *Quran*, aləmlərə yalnız bir nəsihətdir – sizlərdən doğru *yolda* olmaq istəyənlər üçün. Aləmlərin Rəbbi Allah istəməyincə, siz istəyə bilməzsiniz!"** (ət-Təkvir, 27-29).

İmam Şafii gözəl şeir parçasında demişdir:

Mən istəməsəm də, Sən istədiyin oldu,
Sən istəmədin deyə, mən istədiyim olmadı.
Öz əzəli elminlə qullarını xəlq etdin,
Qocanı və cavanı qədərinə yönəltdin.
Kiminə lütf eylədin, kimini rəzil etdin,
Kiminə kömək etdin, kimini də tərk etdin.
Kimisi bədbəxt oldu, kimisi isə xoşbəxt,
Kimisi mənfur oldu, kimisi də xoştinət. (Divan 1/107).

Xoştinət: xoştəbiətli, gözəl xasiyyətli.

[2] "əl-Leyl" surəsi, 5-10.

## ٤٠٣- بَابُ مَسْحِ الأَرْضِ بِالْيَدِ

## 403-cü fəsil. Əli yerə sürtmək

٩٠٤- حَدَّثَنَا مُحَمَّدُ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ مُحَمَّدٍ، عَنْ أَسِيدِ بْنِ أَبِي أَسِيدٍ، عَنْ أُمِّهِ قَالَتْ: قُلْتُ لِأَبِي قَتَادَةَ: مَا لَكَ لَا تُحَدِّثُ عَنْ رَسُولِ اللَّهِ ﷺ كَمَا يُحَدِّثُ عَنْهُ النَّاسُ؟ فَقَالَ أَبُو قَتَادَةَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: ((مَنْ كَذَبَ عَلَيَّ فَلْيُسَهِّلْ لِجَنْبِهِ مَضْجَعًا مِنَ النَّارِ))، وَجَعَلَ رَسُولُ اللَّهِ ﷺ يَقُولُ ذَلِكَ وَيَمْسَحُ الأَرْضَ بِيَدِهِ.

**(904)** ........ Əsid ibn Əbu Əsidin anası demişdir: "(Bir dəfə) mən Əbu Qətadədən soruşdum: "İnsanlar Rəsulullahdan ﷺ hədis rəvayət etdikləri kimi, nə üçün sən də ondan hədis rəvayət etmirsən?" Əbu Qətadə dedi: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: "Kim mənim adımdan yalan danışarsa, böyrünü Oddan olan yatağa hazırlasın." Rəsulullah ﷺ bunu deyərkən əlini yerə sürtdü."[1]

[1] Bu hədisin isnadında keçən Əsidin anası "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Peyğəmbərin ﷺ adından yalan danışan kimsənin Cəhənnəmlik olacağı barədə bir çox hədislər varid olmuşdur. Həmin hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: "Hər kim mənim adımdan bilərəkdən bir yalan söyləyərsə, atəşdən olan yerini hazırlasın" (Səhih əl-Buxari, 106; Səhih Muslim, 3). Adamın əlini yerə sürtməsi isə əvvəlki fəsildə, Əli ibn Əbu Talibin ؓ rəvayət etdiyi hədisdə öz əksini tapmışdır.

## ٤٠٤ – بَابُ الْخَذْفِ

## 404-cü fəsil. Daş atmaq[1]

٩٠٥– حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ قَتَادَةَ قَالَ: سَمِعْتُ عُقْبَةَ بْنَ صُهْبَانَ الأَزْدِيَّ يُحَدِّثُ، عَنْ عَبْدِ اللَّهِ بْنِ مُغَفَّلٍ الْمُزَنِيِّ قَالَ: نَهَى رَسُولُ اللَّهِ ﷺ عَنِ الْخَذْفِ، وَقَالَ: ((إِنَّهُ لاَ يَقْتُلُ الصَّيْدَ، وَلاَ يُنْكِي الْعَدُوَّ، وَإِنَّهُ يَفْقَأُ الْعَيْنَ، وَيَكْسِرُ السِّنَّ)).

**(905)** ........ Abdullah ibn Muğəffəl əl-Muzəni ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ daş atmağı qadağan edib demişdir: "(Atılan) daş nə ovu öldürər, nə də düşməni məhv edər. O, ancaq göz çıxarar və diş sındırar.[2]"[3]

---

[1] Burada müəllif daş atmağın qadağan edilməsini bildirir.

[2] Bu sözlə Peyğəmbər ﷺ belə üsulla ov etməyə və ya düşmən öldürməyə cəhd etməyin heç bir nəticə verməyəcəyini, əksinə, zərər yetirəcəyini bildirir.

[3] Bu hədisi Buxari (5479), Muslim (5162) və Əbu Davud (5270) rəvayət etmişdir. Hədisin tam variantında rəvayət edilir ki, *bir dəfə* Abdullah ibn Muğəffəl ﵁ bir nəfərin barmaqlarının ucu ilə daş atıb heyvan ovladığını görüb dedi: "Bu cür daş atmaqla ov etmə! Çünki Peyğəmbər ﷺ bu üsulla ov etməyi qadağan etmiş və demişdir: "Bu üsulla nə ov etmək, nə də düşmən öldürmək olar. Bununla sadəcə diş sındırmaq və göz çıxartmaq olar." Abdullah onun yenə daş atdığını görəndə dedi: "Mən sənə Peyğəmbərin ﷺ bu üsulla ov etməyin qadağan olunmasına dair hədisini rəvayət edirəm, sən isə öz bildiyini edirsən?! Mən səni filan vaxta qədər danışdırmayacağam."

## ٤٠٥- بَابُ لا تَسُبُّوا الرِّيحَ

## 405-ci fəsil. Küləyi söyməyin

**٩٠٦-** حَدَّثَنَا يَحْيَى بْنُ بُكَيْرٍ قَالَ: حَدَّثَنَا اللَّيْثُ، عَنْ يُونُسَ، عَنِ ابْنِ شِهَابٍ، عَنْ ثَابِتِ بْنِ قَيْسٍ، أَنَّ أَبَا هُرَيْرَةَ قَالَ: أَخَذَتِ النَّاسَ الرِّيحُ فِي طَرِيقِ مَكَّةَ، وَعُمَرُ حَاجٌّ، فَاشْتَدَّتْ، فَقَالَ عُمَرُ لِمَنْ حَوْلَهُ: مَا الرِّيحُ؟ فَلَمْ يَرْجِعُوا بِشَيْءٍ، فَاسْتَحْثَثْتُ رَاحِلَتِي فَأَدْرَكْتُهُ، فَقُلْتُ: بَلَغَنِي أَنَّكَ سَأَلْتَ عَنِ الرِّيحِ، وَإِنِّي سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: ((الرِّيحُ مِنْ رَوْحِ اللَّهِ، تَأْتِي بِالرَّحْمَةِ، وَتَأْتِي بِالْعَذَابِ، فَلاَ تَسُبُّوهَا، وَسَلُوا اللَّهَ خَيْرَهَا، وَعُوذُوا مِنْ شَرِّهَا)).

**(906)** ........ Əbu Hureyrə ﷺ demişdir: “Ömər həcc səfərində ikən Məkkə yolunda insanları külək tutdu və bu külək (getdikcə) şiddətləndi. Ömər ətrafındakılardan: “Bu, nə küləkdir?”[1]– deyə soruşdu. Onlar cavab vermədilər. Onda mən miniyimi çapıb ona yetişdim və dedim: “Mənə xəbər çatdı ki, sən külək barədə soruşmusan. Mən Rəsulullahın ﷺ belə buyurduğunu eşitmişəm: “Külək Allahın mərhəmətindəndir. Bəzən rəhmətlə gəlir, bəzən də əzabla. Elə isə, onu söyməyin.[2] Sadəcə, onun xeyrini Allahdan diləyin və onun şərindən *Allaha* sığının.”[3]

---

[1] Ömər ibn Xattab ﷺ bu sualı ilə küləyin nə olduğunu yox, Rəsulullahın ﷺ külək barədə bir hədis deyib-demədiyini bilmək istəyir. Bu, Ömərin ﷺ olduqca təvazökar və Sünnəyə bağlı olduğunu bildirir. Səhabələrin hamısı belə məqamlarda Sünnədən kənara çıxmazdılar.

[2] Rəsulullah ﷺ küləyi söyməyi – məsələn, “Nə pis küləkdir!”, yaxud “Zəhrimara qalsın bu küləyi!” və s. buna bənzər sözlər deməyi qadağan edir. Çünki küləyi söymək Allahı söymək deməkdir (719-cu hədisin qeydlərinə bax). Xüsusilə qeyd etmək lazımdır ki, küləyi vəsf etmək, məsələn: “bayırda çox bərk külək əsir”, “bu, dağıdıcı bir külək idi”, “soyuq külək gözlənilir” və s. buna bənzər sözlər demək, küləyi söyməyə aid deyildir.

[3] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “həsən-səhih” olduğunu demişdir.

## ٤٠٦- بَابُ قَوْلِ الرَّجُلِ: ((مُطِرْنَا بِنَوْءِ كَذَا وَكَذَا))

## 406-cı fəsil. Adamın: "Filan və filan ulduz[1] sayəsində bizə yağış yağdı"– deməsi

٩٠٧- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ صَالِحِ بْنِ كَيْسَانَ، عَنْ عُبَيْدِ اللَّهِ بْنِ عَبْدِ اللَّهِ ابْنِ عُتْبَةَ بْنِ مَسْعُودٍ، عَنْ زَيْدِ بْنِ خَالِدٍ الْجُهَنِيِّ، أَنَّهُ قَالَ: صَلَّى لَنَا رَسُولُ اللَّهِ ﷺ صَلَاةَ الصُّبْحِ بِالْحُدَيْبِيَةِ عَلَى أَثَرِ سَمَاءٍ كَانَتْ مِنَ اللَّيْلَةِ، فَلَمَّا انْصَرَفَ النَّبِيُّ ﷺ أَقْبَلَ عَلَى النَّاسِ فَقَالَ: ((هَلْ تَدْرُونَ مَاذَا قَالَ رَبُّكُمْ؟)) قَالُوا: اللَّهُ وَرَسُولُهُ أَعْلَمُ، قَالَ: ((أَصْبَحَ مِنْ عِبَادِي مُؤْمِنٌ بِي وَكَافِرٌ، فَأَمَّا مَنْ قَالَ: مُطِرْنَا بِفَضْلِ اللَّهِ وَرَحْمَتِهِ، فَذَلِكَ مُؤْمِنٌ بِي كَافِرٌ بِالْكَوْكَبِ، وَأَمَّا مَنْ قَالَ: بِنَوْءِ كَذَا وَكَذَا، فَذَلِكَ كَافِرٌ بِي، مُؤْمِنٌ بِالْكَوْكَبِ)).

---

[1] Burada ərəbcə ( نَوْءٌ ) deyildikdə, əslində ayın mənzilləri qəsd edilir. Mənzil: gedilən yolun bölündüyü hissələrdən hər biridir. Bu xüsusda, Uca Allah buyurur: **"Ay üçün də mənzillər müəyyən etmişik"** (Ya sin, 39). Bu da, il ərzində olan iyirmi səkkiz mənzildən ibarətdir. Belə ki, ay hər on üç günün tamamında bir mənzilə yetişir. Və hər dəfə ay, bu mənzillərdən birinə yetişdikdə, bir ulduz məşriqdən doğur, digər bir ulduz da məğrib tərəfdən düşür. Beləliklə, bu, il ərzində 28 dəfə təkrar olur. Buna da "mənzillər" deyilir. Bütün bunlar Allahın izni ilə baş verir. İmam Buxari bu fəslə belə ünvan verməklə bu sözün batil və küfr olduğunu bildirmək istəmişdir. Çünki göydən yağan yağış yalnız və yalnız Allahın izni ilə yağır. Yeri gəlmişkən, qeyd edək ki, "filan və filan ulduz sayəsində bizə yağış yağdı" deyən adam iki şeydən birini qəsd edə bilər:

– ya ulduzun həqiqi mənada xeyir və ya zərər verdiyinə etiqad etməkdir ki, bu da böyük şirk sayılır və bu, əməl sahibini İslamdan çıxarır;

– ya da yağışın Allahın izni ilə yağdığını və ulduzun buna səbəb olduğunu etiqad edir ki, bu da kiçik şirk və neməti inkar etmək sayılır. Bu xüsusda, Uca Allah buyurur: **"Onlar Allahın neməti haqqında bildikləri halda, sonradan onu inkar edirlər. Onların çoxu kafirdir"** (ən-Nəhl, 83).

**(907)** ........ Zeyd ibn Xalid əl-Cuhəni[1] ﷺ demişdir: "Rəsulullah ﷺ Hudeybiyədə[2] gecə ikən yağmış yağışdan sonra bizə sübh namazını qıldırdı və namazı bitirdikdən sonra üzünü camaata çevirib soruşdu: "Bilirsinizmi, Rəbbiniz nə buyurdu?" (Səhabələr:) "Allah və Onun rəsulu daha yaxşı bilir"– deyə cavab verdilər. Peyğəmbər ﷺ dedi: "Allah buyurdu: "Qullarımdan bir qismi mömin, digər qismi isə kafir oldu. "Bizə Allahın lütfü və mərhəməti sayəsində yağış göndərilmişdir"– deyənlərə gəlincə, onlar Mənə iman gətirmiş və ulduzlara küfr etmişlər. "Yağış bizə filan və filan ulduza görə nazil olmuşdur"– deyənlərə gəldikdə isə onlar Mənə küfr etmiş və ulduzlara iman gətirmişlər.[3]"[4]

---

[1] Əbu Zura Zeyd ibn Xalid əl-Cuhəni ﷺ Peyğəmbərin ﷺ səhabəsi, ələlxüsus da, Məkkənin fəthi günü bayraqdar olmuşdur. Hicrətin 78-ci ilində Mədinə şəhərində vəfat etmişdir (əl-İsabə, 2/603).

[2] Məkkənin 16 kilometrliyində, Ciddəyə gedən yolda yerləşən yer. Hicri tarixinin 6-cı ilində orada Muhəmməd peyğəmbərlə ﷺ müsəlmanları şəhərə buraxmayan və onları ümrə ziyarəti etməyə qoymayan məkkəlilər arasında sülh müqaviləsi bağlanmışdır.

[3] Hər kim yağışın məhz ulduzun sayəsində yağmasına etiqad edərsə, Allaha küfr etmiş və İslam ümmətindən xaric olmuş olar. Beləsinin kafir olduğuna heç bir şəkk-şübhə ola bilməz. Və əgər "yağış bizə filan və filan ulduza görə nazil olmuşdur"– desə, həm də onun Allahın rəhməti və istəyi ilə nazil olduğuna etiqad edərsə, kafir sayılmaz. Beləsi nankor və cahil sayılar. Bu fikir bu hədisdən sonra gələn hədislərdə öz əksini tapmışdır (Nəvəvi).

İbn Abdul-Bərr demişdir: "Yağış bizə filan və filan ulduza görə nazil olmuşdur", yəni filan ulduzun batması və ya filan ulduzun doğması sayəsində bizə yağış yağır" sözünü deyən adam Allahın yox, ulduzun yağış yaratdığına və onu yerə endirdiyinə, habelə, buludları idarə etdiyinə etiqad edərsə kafir sayılar və İslam ümmətindən çıxmış olar. Beləsi tövbə edib dinə-imana qayıtmalı, əks halda isə, cəzalandırılmalıdır.

Yox, əgər Allahın ulduzu, sadəcə, yağışın yağması üçün bir işarə, vaxt və səbəb yaratdığına etiqad edərsə, – necə ki, yağışın sayəsində yer cana gəlir və onun vasitəsilə orada növbənöv bitkilər yetişir, – kafir sayılmaz. Lakin belə cahilə yağışın məhz Allahın hikməti, rəhməti və qüdrəti ilə nazil olduğunu bildirmək lazımdır" ("əl-İstizkar", 2/436; "əd-Dibac alə Muslim", 1/89).

[4] Bu hədisi Buxari (846) və Muslim (231) rəvayət etmişdir.

## ٤٠٧– بَابُ مَا يَقُولُ الرَّجُلُ إِذَا رَأَى غَيْمًا

## 407-ci fəsil. Adam bulud gördükdə nə deməlidir[1]

**٩٠٨–** حَدَّثَنَا مَكِّيُّ بْنُ إِبْرَاهِيمَ قَالَ: أَخْبَرَنَا ابْنُ جُرَيْجٍ، عَنْ عَطَاءٍ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: كَانَ النَّبِيُّ ﷺ إِذَا رَأَى مَخِيلَةً دَخَلَ وَخَرَجَ، وَأَقْبَلَ وَأَدْبَرَ، وَتَغَيَّرَ وَجْهُهُ، فَإِذَا مَطَرَتِ السَّمَاءُ سُرِّيَ، فَعَرَّفَتْهُ عَائِشَةُ ذَلِكَ، فَقَالَ النَّبِيُّ ﷺ: ((وَمَا أَدْرِي لَعَلَّهُ كَمَا قَالَ اللَّهُ عَزَّ وَجَلَّ: ﴿فَلَمَّا رَأَوْهُ عَارِضًا مُسْتَقْبِلَ أَوْدِيَتِهِمْ﴾.

**(908)** ........ Aişə ﵂ rəvayət edir ki,[2] "Peyğəmbər ﷺ göy üzündə yağmurla yüklənmiş bulud gördükdə, (təşviş içində evə) girib-çıxar, var-gəl edər və siması dəyişərdi.[3] Buludlardan yağış yağmağa başladıqda isə sakitləşərdi.[4]

Aişə Peyğəmbərin ﷺ nə hala düşdüyünü ona bildirdikdə o buyurmuşdur: "Mən bilmirəm. Ola bilsin ki, Allahın ﷻ dediyi kimi olsun: **"Nəhayət o *əzabı* vadilərinə doğru gələn bir bulud şəklində gördükdə: "Bu bizə ya-**

---

[1] Hərçənd, bu fəsildə Peyğəmbərin ﷺ yağışla yüklənmiş bulud gördükdə nə dediyi zikr edilməmişdir, lakin İmam Buxari bu xüsusda, varid olmuş hədisləri əvvəlki fəsillərdə nəql etmişdir (686-cı hədisə bax).

[2] Bu hədisi İmam Buxari öz "Səhih"ində (3206) rəvayət etmişdir.

[3] Peyğəmbər ﷺ əvvəlki ümmətlərin başına yağdığı kimi, onun da ümmətinin başına bəla yağacağından qorxurdu. (Əvvəlki ümmətlərin başlarına gələnlər bu surələrdə öz əksini tapmışdır: "əl-İsra" 68, "ən-Nur" 43, "əl-Əraf" 83-84, "əl-Ənkəbut" 39-40.) Yeri gəlmişkən, qeyd edək ki, Allahdan qorxmaq ibadətdir və Peyğəmbərin ﷺ bu hərəkəti onun olduqca abid və təqvalı insan olduğundan xəbər verir. Bundan da aydın olur ki, bulud gördükdə, Allahın əzab göndərəcəyindən qorxaraq təşvişə düşmək ibadətdir. O ki qaldı, göydə bulud gördükdə evə girib-çıxmağa və var-gəl etməyə, bunun Sünnədən olduğunu iddia etmək düzgün deyildir. Belə ki, bu məqamda hər kəs öz həyəcanını bir cür büruzə edir.

[4] 251-ci hədisin qeydlərinə bax.

**ğış yağdıracaq buluddur!"– dedilər.** ***Hud dedi:*** **"Xeyr! Bu sizin tez gəlməsini istədiyiniz – özü ilə ağrılı-acılı əzab gətirən bir küləkdir!"[1]**

**٩٠٩–** حَدَّثَنَا أَبُو نُعَيْمٍ الْفَضْلُ، عَنْ سُفْيَانَ، عَنْ سَلَمَةَ بْنِ كُهَيْلٍ، عَنْ عِيسَى بْنِ عَاصِمٍ، عَنْ زِرِّ بْنِ حُبَيْشٍ، عَنْ عَبْدِ اللَّهِ، قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((الطِّيَرَةُ شِرْكٌ، وَمَا مِنَّا، وَلَكِنَّ اللَّهَ يُذْهِبُهُ بِالتَّوَكُّلِ)).

**(909)** ........ Abdullah[2] ﷺ rəvayət edir ki,[3] Peyğəmbər ﷺ demişdir: "Uğursuzluğa[4] yozmaq şirkdir.[5] Aramızda (elə bir adam) yoxdur (ki, bu, ona ya-

---

[1] "əl-Əhqaf" surəsi, 24.

[2] Burada söhbət məşhur səhabə Abdullah ibn Məsuddan ﷺ gedir.

[3] Bu hədisi Əbu Davud (2\158), Tirmizi (1/304), İbn Macə (2/362-363), Təhavi (Muşkilul-Asar, 2/304), İbn Hibban (1427), Hakim (1/17-18), Əhməd (1/389, 438 və 440) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir. Xüsusi ilə, qeyd etmək lazımdır ki, bu hədis bu fəslə yox, növbəti fəslə aiddir.

[4] Ərəbcə ( طِيَرَةٌ ) deyildikdə, adamı bir işdən çəkindirən və ya bir işə sövq edən əlamətə inanmaq nəzərdə tutulur. İbn Useymin bu mövzudan danışarkən demişdir: "Cahiliyyət dövründə ərəblərdən kimsə bir işi görmək istədikdə göyə baxar və göydə gördüyü quşun sağ tərəfə yaxud sol tərəfə uçmasıyla görmək istədiyi işin uğurlu və ya uğursuz olacağını təyin edərdi. Habelə, xoşagəlməz bir səs eşitdikdə və ya arzu edilməyən bir adam gördükdə, bunu uğursuzluq əlaməti hesab edərdi. Bəziləri şəvval ayında evlənməyi uğursuzluq sayardı. Aişə ﷺ bu cür etiqadın batil olduğunu bildirib demişdir: "Allahın rəsulu ﷺ mənimlə şəvval ayında nikah bağlamış, habelə, məni şəvval ayında öz evinə gətirmişdir... Bundan başqa o vaxt ərəblər çərşənbə gününü, habelə, səfər ayını da uğuzsuz əlamət hesab edərdilər. Qeyd etmək lazımdır ki, bunların və bunlara bənzər inancların hamısı batildir" (əl-Qovlul-Mufid, 1/103-104).

[5] Bir şeyi uğursuzluğa yozmağın şirk sayılmasının səbəbi budur ki, bunu edən adam Allahın əzəldən yazdığı qədərə, habelə, Allahın Qüdrət və Qüvvət sahibi olduğuna və bütün işləri idarə etdiyinə tam iman gətirmir. Lakin qeyd etmək lazımdır ki, hər hansı bir əlaməti uğursuzluq hesab edən insanlar üç qismə bölünürlər: birincisi, bu əlamətin hər han-

xınlaşmış olmasın). Lakin təvəkkül etməklə Allah bunu (bizdən) uzaqlaşdırır.[1]"

sı bir təsirə malik olduğunu düşünən və bu səbəbdən də, görəcəyi işdən imtina edən kimsələrdir ki, bunların əməli şirk sayılır. İkincisi, bu əlamətin hər hansı bir təsirə malik olduğunu ehtimal edən, lakin görəcəyi işdən imtina etməyən və gördüyü iş baş tutmadıqda bunu uğursuzluq əlaməti ilə əlaqələndirən kimsələrdir ki, bunların da əməli şirk hesab edilir. Üçüncüsü isə bu əlaməti görüb ona məhəl qoymayan, yalnız Allaha təvəkkül edən və Ona iman gətirən kimsələrdir ki, belələri imanlarında sabitqədəm olan kimsələrdir. Bunlar yəqin bilirlər ki, əgər bütün ümmət bir kimsəyə xeyir vermək üçün əlbir olsa belə, Allahın onun lehinə yazdığı xeyirdən başqa bir şeylə ona fayda verə bilməz. Həmçinin, onlar ona zərər vurmaq üçün əlbir olsalar belə, Allahın onun əleyhinə yazdığından başqa bir şeylə ona zərər yetirə bilməzlər. Qələmlər qaldırılmış, səhifələr də qurumuşdur.

[1] Qeyd etmək lazımdır ki, bu hədisin əvvəli: "Uğursuzluğa yozmaq şirkdir" sözü Peyğəmbərin ﷺ sözüdür. Hədisin bu hissəsi neçə-neçə "səhih" isnadla Abdullah ibn Məsuddan ؓ rəvayət edilmişdir. Hədisin qalan hissəsi "Aramızda *elə bir adam* yoxdur ki..." sözündən hədisin axırınadək isə Peyğəmbərin ﷺ yox, İbn Məsudun ؓ sözüdür, yəni "mudrəc"dir. İmam Tirmizi bu hədisi rəvayət etmiş və demişdir: "Suleyman ibn Hərb demişdir: "Düşünürəm ki, bu "Aramızda (elə bir adam) yoxdur ki..." sözü Abdullah ibn Məsudun ؓ sözüdür" (Sunən ət-Tirmizi, 1712). Bu hədisi şərh etimş Mubarəkfuri demişdir: "Bu hədisi İbn Məsuddan nəql etmiş ravilərin əksəriyyəti hədisi, bu əlavəsiz rəvayət etmişlər" (Tohfətul-Əhvəzi).

## ٤٠٨- بَابُ الطِّيَرَةِ

## 408-ci fəsil. Uğursuzluğa yozma[1]

**٩١٠-** حَدَّثَنَا الْحَكَمُ بْنُ نَافِعٍ قَالَ: أَخْبَرَنَا شُعَيْبٌ، يَعْنِي: عَنِ الزُّهْرِيِّ قَالَ: أَخْبَرَنِي عُبَيْدُ اللَّهِ ابْنُ عَبْدِ اللَّهِ بْنِ عُتْبَةَ، أَنَّ أَبَا هُرَيْرَةَ قَالَ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: ((لاَ طِيَرَةَ، وَخَيْرُهَا الْفَأْلُ))، قَالُوا: وَمَا الْفَأْلُ؟ قَالَ: ((كَلِمَةٌ صَالِحَةٌ يَسْمَعُهَا أَحَدُكُمْ)).

**(910)** ........ Əbu Hureyrə ﷺ demişdir: “Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: “Bəd əlamət (deyilən bir şey) yoxdur.[2] Əlamətləri yozmanın ən xeyirlisi fəldir.” (Səhabələr) soruşdular: “Fəl nədir, (ya Rəsulullah)?” O dedi: “(Bu,) sizdən birinizin (gələcəyə dair) eşitdiyi xoş sözdür.[3]”[4]

---

[1] Müəllif bu fəslə belə ünvan qoymaqla, bir şeyi uğursuzluğa yozmanın qadağan edildiyini, üstəlik, buna inanmağın insana heç bir fayda vermədiyini bəyan edir.

[2] Yəni belə əlamətlərin əzəldən yazılmış qədərə heç bir təsiri yoxdur (Əvvəlki hədisin qeydlərinə bax).

[3] İslam alimləri demişlər: “Fəl – xoş söz həm xoşagələn, həm də xoşagəlməz hallarda deyilə bilər. Lakin xoşagələn və sevindirici hallarda deyilməsinə daha çox rast gəlmək olar. Uğursuzluğa yozma isə ancaq xoşagəlməz hallarda baş verir... Xoş sözə gəlincə, bu, sahibi üçün xeyir arzulamaq sayılır. Allahdan ümidini kəsən və Ona təvəkkül etməyən adamın etdiyi əməl – uğursuzluğa yozma isə, əksinə, onun üçün şərdir. Nəyisə uğursuzluğa yozan adam pis zənn etmiş və özünü bəlaya salmış olur” (Şərh ən-Nəvəvi).

[4] Bu hədisi Buxari (5754) və Muslim (7/33) rəvayət etmişdir.

## ٤٠٩ – بَابُ فَضْلِ مَنْ لَمْ يَتَطَيَّرْ

## 409-cu fəsil. (Əlamətləri) uğursuzluğa yozmayanın fəziləti

٩١١– حَدَّثَنَا حَجَّاجٌ، وَآدَمُ، قَالاَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ عَاصِمٍ، عَنْ زِرٍّ، عَنْ عَبْدِ اللَّهِ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((عُرِضَتْ عَلَيَّ الْأُمَمُ بِالْمَوْسِمِ أَيَّامَ الْحَجِّ، فَأَعْجَبَنِي كَثْرَةُ أُمَّتِي، قَدْ مَلَأُوا السَّهْلَ وَالْجَبَلَ، قَالُوا: يَا مُحَمَّدُ، أَرَضِيتَ؟ قَالَ: نَعَمْ، أَيْ رَبِّ، قَالَ: فَإِنَّ مَعَ هَؤُلاَءِ سَبْعِينَ أَلْفًا يَدْخُلُونَ الْجَنَّةَ بِغَيْرِ حِسَابٍ، وَهُمُ الَّذِينَ لاَ يَسْتَرْقُونَ وَلاَ يَكْتَوُونَ، وَلاَ يَتَطَيَّرُونَ، وَعَلَى رَبِّهِمْ يَتَوَكَّلُونَ))، قَالَ عُكَّاشَةُ: فَادْعُ اللَّهَ أَنْ يَجْعَلَنِي مِنْهُمْ، قَالَ: ((اللَّهُمَّ اجْعَلْهُ مِنْهُمْ))، فَقَالَ رَجُلٌ آخَرُ: ادْعُ اللَّهَ يَجْعَلْنِي مِنْهُمْ، قَالَ: ((سَبَقَكَ بِهَا عُكَّاشَةُ)).

**(911)** ........ Abdullah[1] ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Ziyarət mövsümü əsnasında – həcc günlərində ümmətlər[2] mənə göstərildi.[3] Mənim ümmətimin çoxluğu xoşuma gəldi.[4] Onlar dağlara və düzənliklərə doluşmuşdular.[5] *Mələklər* dedilər: "Ey Muhəmməd, razı qaldınmı?" Pey-

---

[1] Abdullah ibn Məsud ﷺ.

[2] Burada peyğəmbərlərin göndərildiyi ümmətlər nəzərdə tutulur. Uca Allah buyurur: **"Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun"–** ***deyə,*** **elçi göndərdik"** (ən-Nəhl, surəsi, 36).

[3] Olsun ki, Peyğəmbər ﷺ bunu yuxuda görmüşdür (Fəth əl-Bari, 11/407).

[4] Peyğəmbərin ﷺ öz ümmətinin sayının çox olmasından razı qalması və buna sevinməsi, onun bu ümməti olduqca çox sevməsinə dəlalət edir. Bu xüsusda, varid olmuş hədislərin birində Peyğəmbər ﷺ demişdir: "(Ərini) çox sevən və çox uşaq doğan qadınlarla evlənin. Qiyamət günü mən sizin çoxluğunuz sayəsində peyğəmbərlər arasında ümmətinin sayı ən çox olan (bir peyğəmbər) olacağam" (Sunən Əbu Davud, 2050; Musnəd Əhməd, 3/158 və 245; Səhih İbn Hibban, 4028; Səhih ət-Tərğib vət-Tərhib, 1921).

[5] Digər rəvayətdə Peyğəmbər ﷺ demişdir: "Mən bir və ya iki peyğəmbər gördüm, yanlarında bir neçə adam var idi. Hətta, elə bir peyğəmbər də gördüm ki, yanında heç kəs yox idi. *Sonra* mənə böyük bir toplum göstərildi. Mən soruşdum: "Bu nədir? Yoxsa,

ğəmbər ﷺ: "Bəli, ey Rəbbim!"– deyə cavab verdi. *Allah* buyurdu: "Onların arasında yetmiş min nəfər[1] vardır ki, onlar Cənnətə sorğu-sualsız girəcəklər.[2] Bunlar özlərinə ruqya[3] oxunmasını tələb etməyən,[4] (müalicə məqsədi ilə) bədənlərinə dağ basmayan,[5] (hər hansı bir əlaməti) uğursuzluğa yoz-

---

bu, mənim ümmətimdir?" *Mənə*: "Bu, Musa və onun qövmüdür"– deyildi. Sonra da: "Üfüqə tərəf bax"– deyə əmr edildi. Mən orada bütün üfüqü tutmuş böyük bir toplum gördüm. *Yenə* dedilər: "Üfüqün burasına və burasına bax!" Mən orada bütün üfüqü tutmuş böyük bir toplum gördüm. Mənə: "Bu, sənin ümmətindir. Onlardan yetmiş min nəfəri sorğu-sualsız Cənnətə girəcəkdir"– dedilər" (Səhih əl-Buxari, 5705).

[1] Digər bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Ümmətimdən yetmiş min nəfər Cənnətə sorğu-sualsız girəcək. Onların üzü bədr gecəsindəki ay kimi nur saçacaq, qəlbləri də *mömin* bir adamın qəlbi kimi olacaq. Mən Rəbbimdən bundan artığını istədim, O da, mənə *həmin yetmiş min nəfərdən* hər bir kəslə yetmiş min də əlavə Cənnətə sorğu-sualsız girəcəyini nəsib etdi" (Musnəd Əhməd, 1/203; "Səhih əl-Cami", 1057).

[2] Digər rəvayətdə Peyğəmbər ﷺ demişdir: "sorğu-sualsız, həm də əl-ələ bir-birindən *bərk-bərk* tutmuş halda Cənnətə daxil olacaqlar. Axırıncıları içəri daxil olmayınca əvvəlincilər daxil olmayacaq (yəni bir cərgəyə düzülmüş halda hamı birdən Cənnətə daxil olacaq)" (Səhih Muslim, 526).

[3] Hərfi tərcümədə ovsun deməkdir. Lakin burada ovsun deyildikdə, sehr, cadu, pitik yox, əksinə, mübarək sözlərlə – Allahın Kəlamı və ya Peyğəmbərin ﷺ duaları vasitəsilə xəstəni müalicə etmək nəzərdə tutulur.

[4] Bu söz mömin adamdan ruqya oxumağı tələb etməyin haram və qadağan olması demək deyil. Sadəcə olaraq, bu mübah əməli tərk etmək daha əfzəl və Allaha tam şəkildə təvəkkül etməyə daha yaxındır.

[5] 454-cü hədisin qeydlərinə bax. Yeri gəlmişkən, qeyd edək ki, digər müalicə üsullarından və dərmanlardan istifadə etmək, məsələn, qan alma, çörəkotu, bal, və başqa bu kimi vasitələrlə müalicə olunmaq, ümumiyyətlə, mübah əməllərdən sayılır və bunlardan müalicə üçün istifadə etməyin nə Allaha olan təvəkkülün azalmasına, nə də sorğu-sualsız Cənnətə daxil olub-olmamağa heç bir aidiyyəti yoxdur (291-ci hədisə və onun qeydlərinə bax). Və onu da qeyd etmək lazımdır ki, şəriətin haram buyurduğu bir şeylə müalicə olunmaq qadağandır.

mayan[1] və yalnız Rəbbinə təvəkkül edən kimsələrdir.[2]" Ukkaşə[3] dedi: "(Ya Rəsulullah,[4]) Allaha dua et, məni onlardan etsin!" Peyğəmbər ﷺ: "Allahım, bunu o kəslərdən et!"[5]– deyə dua etdi. Sonra (ənsardan olan) başqa biri qalxıb: "(Ya Rəsulullah,[6]) Allaha dua et, məni də onlardan etsin!"– dedi. (Peyğəmbər ﷺ) dedi: "Bu xüsusda Ukkaşə səni qabaqladı."[7]

(...)– حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا حَمَّادٌ، وَهَمَّامٌ، عَنْ عَاصِمٍ، عَنْ زِرٍّ، عَنْ عَبْدِ اللَّهِ، عَنِ النَّبِيِّ ﷺ، وَسَاقَ الْحَدِيثَ.

**(...)** Musa bizə, Həmmad və Həmmam bizə Asimdən, o da, Zirdən, o da, Adbullahdan, o da, Peyğəmbərdən ﷺ..."– demiş, (ardınca da bu) hədisi rəvayət etmişdir.

---

[1] 909-cu hədisin qeydlərinə bax.

[2] Təvəkkül xüsusunda insanlar üç qismə bölünürlər: birinci qism insanlar səbəbləri tərk edib, sadəcə təvəkkül edənlərdir. Bu isə həqiqi təvəkkül sayılmır, əksinə, şəriət bu cür təvəkkül etməyi qadağan edir. İkinci qism insanlar isə Allaha təvəkkül etməyib, sadəcə səbəblərə arxayın olanlardır. Bunu etmək isə qadağandır. Üçüncü qism insanlar isə səbəbləri tutaraq Allaha təvəkkül edən kimsələrdir. Şəriətin bizə buyurduğu da məhz budur. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Əgər siz Allaha layiqincə təvəkkül etsəniz, O, quşa ruzi verdiyi kimi, sizə də ruzi verər. Belə ki, quş səhər-səhər *yuvasından* qarnı ac uçub gedir, axşam isə *ora* tox qayıdır" (Sunən ət-Tirmizi, 2/55; Silsilətul-Əhadisis-Səhihə, 310). Hədisə diqqət yetirsək başa düşərik ki, ruzi əldə etmək üçün onun dalınca getmək gərəkdir.

[3] Əbu Mihsan Ukkaşə ibn Mihsan əl-Əsədi Peyğəmbərin ﷺ səhabəsədir. Hicrətin 12-ci ilində vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 60-cı tərcümeyi-hal).

[4] Bu əlavə Muslimin "Səhih"ində (522) nəql edilmişdir.

[5] Digər rəvayətdə Peyğəmbər ﷺ: "Sən onlardansan!"– demişdir (Səhih Muslim, 524).

[6] Bu əlavəni Muslimin "Səhih"ində (522) nəql edilmişdir.

[7] Bu hədisi Buxari (3410, 5705, 5752, 6472 və 6541) və Muslim (520, 522, 524, 526 və 527) rəvayət etmişdir.

## ٤١٠- بَابُ الطِّيَرَةِ مِنَ الْجِنِّ

## 410-cu fəsil. Cinlər (xüsusunda) bədbinlik[1] etmək

**٩١٢-** حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي ابْنُ أَبِي الزِّنَادِ، عَنْ عَلْقَمَةَ، عَنْ أُمِّهِ، عَنْ عَائِشَةَ، أَنَّهَا كَانَتْ تُؤْتَى بِالصِّبْيَانِ إِذَا وُلِدُوا، فَتَدْعُو لَهُمْ بِالْبَرَكَةِ ، فَأُتِيَتْ بِصَبِيٍّ، فَذَهَبَتْ تَضَعُ وِسَادَتَهُ، فَإِذَا تَحْتَ رَأْسِهِ مُوسَى، فَسَأَلَتْهُمْ عَنِ الْمُوسَى، فَقَالُوا: نَجْعَلُهَا مِنَ الْجِنِّ، فَأَخَذَتِ الْمُوسَى فَرَمَتْ بِهَا، وَنَهَتْهُمْ عَنْهَا وَقَالَتْ: إِنَّ رَسُولَ اللَّهِ ﷺ كَانَ يَكْرَهُ الطِّيَرَةَ وَيُبْغِضُهَا، وَكَانَتْ عَائِشَةُ تَنْهَى عَنْهَا.

**(912)** ........ Əlqəmənin anası rəvayət etmişdir ki, (onların dövründə) uşaq doğulduqda, Aişənin yanına gətirərmişlər, o da, onlar üçün *Allahdan* bərəkət diləyərmiş. (Bir gün) onun yanına bir uşaq gətirdilər. Aişə uşağı aparıb yatağına qoymaq istədikdə, birdən, uşağın başının altında bir ülgüc gördü və ev əhlindən bu ülgüc barədə soruşdu. Onlar dedilər: "Bunu qoymuşuq ki, (uşağı) cinlərdən qorusun." Aişə ülgücü götürüb bir kənara atdı və belə etməyi onlara qadağan edib dedi: "Rəsulullah ﷺ bədbinliyi yaxşı əməl saymaz və ona nifrət edərdi."

Aişə رضي الله عنها bunu qadağan edərdi.[2]

---

[1] Bədbinlik: bədbin adamın əhvali-ruhiyyəsi; ümidsizlik, gələcəyə inamsızlıq, düşkün əhvali-ruhiyyə. İmam Buxari bildirmək istəyir ki, Allahın izni olmadan cinlər insana heç nə edə bilməzlər. Bu xüsusda, Uca Allah buyurur: **"Şübhəsiz ki, qullarım üzərində sənin heç bir hökmün yoxdur. Yalnız sənə uyan azğınlardan başqa"** (əl-Hicr, 42).

[2] Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadında keçən Əlqəmənin anası Mərcanənin "məchulul-hal" ravi olduğunu və bu səbəbdən də, bu hədisin isnadının "zəif" olduğunu demişdir. Lakin şeyx əl-Albani digər əsərlərində bu qadının etibarlı ravi olduğunu nəql etmişdir (887-ci hədisin təxricinə bax).

# ٤١١- بَابُ الْفَأْلِ

## 411-ci fəsil. Fəl[1]

٩١٣- حَدَّثَنَا مُسْلِمٌ قَالَ: حَدَّثَنَا هِشَامٌ قَالَ: حَدَّثَنَا قَتَادَةُ، عَنْ أَنَسٍ، عَنِ النَّبِيِّ ﷺ: ((لاَ عَدْوَى، وَلاَ طِيَرَةَ، وَيُعْجِبُنِي الْفَأْلُ الصَّالِحُ، الْكَلِمَةُ الْحَسَنَةُ)).

**(913)** ........ Ənəs ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Nə yoluxucu xəstəlik,[2] nə də bəd əlamət[3] (deyilən bir şey) vardır. Yaxşılığa yozmaq, yaxşı söz (söyləmək) isə mənim xoşuma gəlir."[4]

٩١٤- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا أَبُو عَامِرٍ قَالَ: حَدَّثَنَا ابْنُ الْمُبَارَكِ، عَنْ يَحْيَى ابْنِ أَبِي كَثِيرٍ قَالَ: حَدَّثَنِي حَيَّةُ التَّمِيمِيُّ، أَنَّ أَبَاهُ أَخْبَرَهُ، أَنَّهُ سَمِعَ النَّبِيَّ ﷺ يَقُولُ: ((لاَ شَيْءَ فِي الْهَامِّ، وَأَصْدَقُ الطِّيَرَةِ الْفَأْلُ، وَالْعَيْنُ حَقٌّ)).

**(914)** ........ Həyyə (ibn Habis) ət-Təmimi rəvayət etmişdir ki,[5] atası, Peyğəmbərin ﷺ belə buyurduğunu eşitmişdir: "Bayquşlar uğursuzluğu[6] deyi-

---

[1] 910-cu hədisin qeydlərinə bax.

[2] Yəni xəstəlik bir adamdan başqa birisinə öz təsiri ilə yox, yalnız və yalnız Allahın izni ilə keçə bilər (886-cı hədisin qeydlərinə bax).

[3] İnsanların bəd əlamət və uğursuzluq hesab etdiyi bir hadisə nəticəsində Allahın əzəldən yazdığı qəzavü-qədərin dəyişəcəyini etiqad etmək qadağandır. Bütün bunlar cahiliyyə dövründən qalma xurafatlardır.

[4] Bu hədisi Buxari (5756) və Əbu Davud (3916) rəvayət etmişdir.

[5] Bu hədisi Tirmizi (2061), Əhməd (4/67; 5/70 və 379), İbn Səd (7/66), Əbu Yə'la (Musnəd, 582) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih li-ğeyrihi" olduğunu demişdir.

[6] Bayquş görməyi bəd əlamət hesab etmək, onun qonduğu yerə və o ərazidə olanların başına müsibət gələcəyini iddia etmək qadağandır.

lən bir şey yoxdur. Yozulan əlamətlərin ən doğrusu fəldir. Gözdəymə isə həqiqətdir.[1]"

---

[1] Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Göz adamı qəbrə, dəvəni isə qazana soxa bilər" (Əbu Nueym "əl-Hilyə", 7/90; Əbu Bəkr əş-Şirazi, "Səb'ətu Məcalis minəl-Əmali", 8/2; Xətib "Tarix"; bu hədis "həsən"dir, bax: Silsilətul-Əhadisis-Səhihə, 1249); habelə, rəvayət edilir ki, İbn Abbas رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ Həsən və Hüseyni رضي الله عنهما *şeytandan* qorumaq üçün dua edib deyərdi: "Babanız *İbrahim öz övladları* İsmail və İshaqı qorumaq məqsədilə dua edib deyərdi:

(( أَعُوذُ بِكَلِمَاتِ اللهِ التَّامَّةِ مِنْ كُلِّ شَيْطَانٍ وَهَامَّةٍ، وَمِنْ كُلِّ عَيْنٍ لاَمَّةٍ ))

"Əuzu bikəlimatillahit-tamməti min kulli şeytanin və hamməh, və min kulli aynin lamməh (Hər bir şeytandan, *hər bir* zərərli həşəratdan və hər pis gözdən qorumaq üçün *sizi* Allahın tam kəlmələrinə həvalə edirəm)" (Səhih əl-Buxari, 3371).

## ٤١٢ – بَابُ التَّبَرُّكِ بِالاسْمِ الْحَسَنِ

## 412-ci fəsil. Gözəl adla (Allahdan) bərəkət diləmək[1]

٩١٥ – حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ الْمُنْذِرِ، عَنْ مَعْنِ بْنِ عِيسَى قَالَ: حَدَّثَنِي عَبْدُ اللَّهِ بْنُ مُؤَمَّلٍ، عَنْ أَبِيهِ، عَنْ عَبْدِ اللَّهِ بْنِ السَّائِبِ، أَنَّ النَّبِيَّ ﷺ عَامَ الْحُدَيْبِيَةِ، حِينَ ذَكَرَ عُثْمَانُ بْنُ عَفَّانَ أَنَّ سُهَيْلًا قَدْ أَرْسَلَهُ إِلَيْهِ قَوْمُهُ، فَصَالَحُوهُ عَلَى أَنْ يَرْجِعَ عَنْهُمْ هَذَا الْعَامَ، وَيُخَلُّوهَا لَهُمْ قَابِلَ ثَلَاثَةٍ، فَقَالَ النَّبِيُّ ﷺ حِينَ أَتَى فَقِيلَ: أَتَى سُهَيْلٌ: ((سَهَّلَ اللَّهُ أَمْرَكُمْ))، وَكَانَ عَبْدُ اللَّهِ بْنُ السَّائِبِ أَدْرَكَ النَّبِيَّ ﷺ.

**(915)** ........ Abdullah ibn Saib ﷺ demişdir: “Hudeybiyə[2] ilində Osman ibn Əffan Peyğəmbərə ﷺ xəbər verdi ki, Suheylin[3] qövmü onu (müsəlmanlarla) sülh müqaviləsi bağlamaq üçün Peyğəmbərin ﷺ yanına göndərib tələb edir ki, müsəlmanlar bu il geri qayıtmalı, üstəlik, gələn il (Kəbəni ziyarət etməyə) gəldikləri zaman üç gündən artıq orada qalmamalıdırlar.[4]

---

[1] Yəni bu əlaməti görüləcək işin uğurlu olacağına yozmaq. Xüsusilə qeyd etmək lazımdır ki, bu yozuma etimad edərək, görüləcək işin uğurlu olacağına qətiyyətlə inanmaq, hətta, bunu qəsdən təşkil etmək caiz deyil. Məsələn, əgər ticarət etmək istəyən və bu ticarətdən qazanc götürmək istəyən adam görəcəyi işə başlamazdan əvvəl gözəl adı olan bir kimsənin – “Rabih (qazanan)” yaxud “Ğanim (qənimət əldə edən)” adlı şəxsin öz yanına gəlməsini təşkil edərsə, məqsədi də onun gözəl adı ilə Allahdan bərəkət diləmək olarsa, Sünnəyə zidd hərəkət etmiş olar. Deməli, gözəl adla təbərruk etmək üçün qəsdən qurğu qurmaq caiz deyil.

[2] Məkkənin 16 kilometrliyində, Ciddəyə gedən yolda yerləşən yer. Hicri tarixinin 6-cı ilində orada Muhəmməd peyğəmbərlə ﷺ müsəlmanları şəhərə buraxmayan və onları ümrə ziyarəti etməyə qoymayan məkkəlilər arasında sülh müqaviləsi bağlanmışdır.

[3] Suheyl ibn Amr müsəlmanlarla öz aralarında sülh müqaviləsi bağlamaq üçün müşriklərin Peyğəmbərin ﷺ yanına göndərdikləri nümayəndəsidir.

[4] İmam Buxarinin “Səhih”ində (2731) rəvayət edilir ki, Peyğəmbər ﷺ Suheylə özünün ilk şərtini təklif edib dedi: “Allahın Evini təvaf etməyə bizə əngəl törətməyəcəksiniz!” Su-

Suheyl[1] gəldiyi və camaat "Suheyl gəldi" dediyi zaman Peyğəmbər ﷺ (öz səhabələrinə): "Allah sizin işinizi yüngülləşdirdi!"– dedi."[2]

(Hədisin ravisi dedi:) "Abdullah ibn Saib Peyğəmbəri ﷺ görmüşdü."

---

heyl isə ona belə cavab verdi: "Xeyr! Allaha and olsun ki, bu dəfə təvaf etməyə sizə izin verməyəcəyik. Yoxsa ərəblər: "Müsəlmanlar bizim müqavimətimizi qırdılar və bizi məcbur etdilər"– deyə şayiələr yayacaqlar. Odur ki, gələn ildən etibarən *gəlib istədiyiniz qədər Allahın Evini ziyarət edə bilərsiniz*."

[1] Suheyl: asan sözünün kiçildilmiş formasıdır.

[2] Bu hədisi İmam Buxari öz "Səhih"ində (2371) rəvayət etmişdir.

## ٤١٣- بَابُ الشُّؤْمِ فِي الْفَرَسِ

## 413-cü fəsil. Atdakı uğursuzluq

٩١٦- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنِ ابْنِ شِهَابٍ، عَنْ حَمْزَةَ، وَسَالِمٍ ابْنَيْ عَبْدِ اللَّهِ ابْنِ عُمَرَ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عُمَرَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((الشُّؤْمُ فِي الدَّارِ، وَالْمَرْأَةِ، وَالْفَرَسِ)).

**(916)** ........ Abdullah ibn Ömər رضي الله عنهما rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Uğursuzluq (ancaq üç şeydədir[1]): evdə, qadında və atda.[2]"[3]

---

[1] Bu əlavə Buxarinin "Səhih"ində (2858) varid olmuşdur.

[2] Hafiz Həkəmi bu hədisi izah edərkən demişdir: "Uğursuzluğa yozmaq xeyir-bərəkət diləməyin əksi və bir şeydə xeyir-bərəkətin olmamasını iddia etməkdir. Bu da müşahidə olunan bir şeyə aid edilir. Məsələn, doğmayan yaxud ərinə əziyyət verən acıdil yaxud ərinin malını israf edən bədxərc, səfeh qadında və başqa bu tip qadınlarda, habelə, münbit torpağı olmayan yaxud darısqal yaxud içində vəba (və s.) keçici xəstəliklər olan yaxud ətrafında pis qonşular olan evdə və başqa bu kimi evlərdə, eləcə də, qısır yaxud çoxlu xoşagəlməz qüsurları olan heyvanda və başqa bu kimi heyvanlarda xeyir olmadığını düşünmək. Bütün bunlar müşahidə olunan, zəruri və məlum olan şeylərdir. Bunların şəriətin qadağan etdiyi "tətayyur"a (bəd əlaməti uğrsuzluğa yozmağa) heç bir aidiyyəti yoxdur. Çünki bəd əlamətə (həqiqi mənada) etiqad edən şəxs bunu başqa mənaya yozur. Belə ki, bəd əlaməti uğursuzluğa yozan kimsələr bunun öz sahibinə müvəffəqiyyətsizlik və bədbəxtlik gətirəcəyinə etiqad edir və onun zərəri barədə və onda fayda olmadığı barədə heç düşünmür də. Bunu düşünən adam, qadının yaxud evin, yaxud da heyvanın qüsurundan dolayı xeyirsiz olduğuna yox, məhz bunun bəd əlamət olduğuna və bu əlamətin bədbəxtlik gətirəcəyinə etiqad edir. Bu etiqadda olan kimsə belə bir qadınla həyat quracağı, yaxud belə bir evdə məskunlaşacağı, yaxud belə bir heyvanı minəcəyi təqdirdə ziyana uğrayacağını yox, əksinə, dərhal öləcəyini (başına müsibət gələcəyini) düşünür. Bunlar belə qadının, yaxud evin, yaxud miniyin özünəməxsus bir ulduz olduğuna və bu ulduzun onların ulduzu ilə üst-üstə düşmədiyinə etiqad edir, üstəlik, buna etimad edir və qədəri bununla əlaqələndirirlər. Bu da şeytanın müşriklərdən olan öz dostlarına təlqin etdiyi bir cəfəngiyatdır" (Məaric əl-Qəbul, 3/992).

[3] Bu hədisi Buxari (2858), Muslim (5937), Əbu Davud (3922), Nəsai (4569) və Əhməd (2/126) rəvayət etmişdir.

٩١٧- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ أَبِي حَازِمِ بْنِ دِينَارٍ، عَنْ سَهْلِ بْنِ سَعْدٍ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((إِنْ كَانَ الشُّؤْمُ فِي شَيْءٍ، فَفِي الْمَرْأَةِ، وَالْفَرَسِ، وَالْمَسْكَنِ)).

**(917)** ........ Səhl ibn Səd ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Əgər uğursuzluq mövcud olsaydı,[1] qadında, atda və evdə olardı.[2]"[3]

٩١٨- حَدَّثَنَا عُبَيْدُ اللَّهِ بْنُ سَعِيدٍ يَعْنِي أَبَا قُدَامَةَ قَالَ: حَدَّثَنَا بِشْرُ بْنُ عُمَرَ الزَّهْرَانِيُّ قَالَ: حَدَّثَنَا عِكْرِمَةُ بْنُ عَمَّارٍ، عَنْ إِسْحَاقَ بْنِ عَبْدِ اللَّهِ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ قَالَ: قَالَ رَجُلٌ: يَا رَسُولَ اللَّهِ، إِنَّا كُنَّا فِي دَارٍ كَثُرَ فِيهَا عَدَدُنَا، وَكَثُرَ فِيهَا أَمْوَالُنَا، فَتَحَوَّلْنَا إِلَى دَارٍ أُخْرَى، فَقَلَّ فِيهَا عَدَدُنَا، وَقَلَّتْ فِيهَا أَمْوَالُنَا؟ قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((رُدُّوهَا، أَوْ دَعُوهَا، وَهِيَ ذَمِيمَةٌ)).

قَالَ أَبُو عَبْدِ اللَّهِ: فِي إِسْنَادِهِ نَظَرٌ.

**(918)** ........ Ənəs ibn Malik ﷺ demişdir: "(Bir gün) bir nəfər (Peyğəmbərin ﷺ yanına gəlib) dedi: "Ya Rəsulullah, biz bir evdə yaşayırdıq. Orada (yaşadığımız müddət ərzində) bizim sayımız da artdı,[4] malımız da. Sonra biz başqa bir evə köçdük və orada bizim sayımız da azaldı, malımız da.

---

[1] Digər hədisdə Peyğəmbər ﷺ demişdir: "Uğursuzluq (deyilən bir şey) yoxdur. Üç şeydə xeyir-bərəkət vardır: qadında, atda və evdə" (Sunən ət-Tirmizi, 2/135; Sunən İbn Macə, 1/614; Muşkilul-Asar, 1/341; Silsilətul-Əhadisis-Səhihə, 1930).

[2] Maziri demişdir: "Bu rəvayətləri cəm edib demək olar ki, əgər uğursuzluq gerçək olsaydı, bu üç şeydə olardı. Çünki insanın nəfsi, əsasən bu üç şeyə meyillidir" (Fəthul-Bari, 8/484). Muhəmməd Nasirəddin əl-Albani Peyğəmbərin ﷺ: "Əgər nədə isə uğursuzluq olmuş olsaydı, bu, qadında, atda və evdə olardı" hədisini nəql etdikdən sonra demişdir: "Hədisdən belə nəticə çıxır ki, heç bir şeydə uğursuzluq ola bilməz. Əgər nədə isə uğursuzluq olmuş olsaydı, bu üç şeydə olardı. Lakin heç bir şeydə əsla uğursuzluq yoxdur" (Silsilətul-Əhadisis-Səhihə, 1/804; 442-ci hədisin izahı).

[3] Bu hədisi Buxari (4704) və Muslim (5943) rəvayət etmişdir.

[4] Burada söhbət övladın artmasından gedir.

Rəsulullah ﷺ (ona) belə buyurdu: "Bu, pis bir evdir. Odur ki, ya əvvəlki evinizə qayıdın, ya da bu evi tərk edin."[1]

Əbu Abdullah demişdir: ""Bu hədisin isnadı bir daha gözdən keçirilməlidir.[2]"[3]

---

[1] Bu hədisi Əbu Davud (2/159) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "həsən" olduğunu demişdir.

[2] 1192-ci hədisin qeydlərinə bax.

[3] Muhəmməd Nasirəddin əl-Albani demişdir: "Burada "Əbu Abdullah" deyildikdə, müəllifin özü – İmam Buxari qəsd edilir. Müəllif bunu deməklə, isnadda keçən İkrimə ibn Ammarı, onun hafizəsində "zəif"lik olduğunu qəsd edir. Lakin bu "zəif"lik onun Yəhya ibn Əbu Kəsirdən rəvayət etdiyi hədislərə aiddir. (Bu hədisi isə o, İshaq ibn Abdullahdan rəvayət etmişdir.) Onu da qeyd edək ki, İmam Buxari bu ravinin "zəif" olduğunu nə "əd-Duafə əs-Sağir", nə "ət-Tarixu əl-Kəbir", nə də ki, "ət-Tarixu əl-Sağir" kitabında qeyd etmişdir. Habelə, İbn Həcər özünün "Təhzib" əsərində onun barəsində ancaq bu sözü demişdir: "Yəhya ibn Əbu Kəsirdən rəvayət etdiyi hədislər qarışıqdır. Bu da, ona görədir ki, onun (hədisləri qeyd etmək üçün) kitabı yox idi." Elə buna görə də düşünürəm ki, İmam Buxari bu ravinin məhz Yəhyadan rəvayət etdiyi hədislərinin "zəif" olduğunu qəsd etmişdir... Üstəlik, İmam Muslim ona etimad etmişdir" (Səhih əl-Ədəbul-Mufrad, səh: 341).

## ٤١٤- بَابُ الْعُطَاسِ

## 414-cü fəsil. Asqırmaq

**٩١٩-** حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا ابْنُ أَبِي ذِئْبٍ قَالَ: حَدَّثَنَا سَعِيدٌ الْمَقْبُرِيُّ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِنَّ اللَّهَ يُحِبُّ الْعُطَاسَ، وَيَكْرَهُ التَّثَاؤُبَ، فَإِذَا عَطَسَ فَحَمِدَ اللَّهَ فَحَقٌّ عَلَى كُلِّ مُسْلِمٍ سَمِعَهُ أَنْ يُشَمِّتَهُ، وَأَمَّا التَّثَاؤُبُ فَإِنَّمَا هُوَ مِنَ الشَّيْطَانِ، فَلْيَرُدَّهُ مَا اسْتَطَاعَ، فَإِذَا قَالَ: هَاهْ، ضَحِكَ مِنْهُ الشَّيْطَانُ)).

**(919)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Allah (Öz qullarının) asqırmağını sevir,[1] əsnəməklərini isə xoşlamır.[2] As-

---

[1] Çünki bu, Allahın Öz bəndələrinə bəxş etdiyi elə bir nemətdir ki, bunun insana həm sağlamlıq, həm də din baxımından xeyri vardır. Belə ki, asqırmaq adamın sağlamlığını saxlayır, bədəndə olan zərərli şeyləri ondan kənar edir, adamın canını rahatlayır, onu gümrah saxlayır və ona qüvvət verir. Bunun din baxımından xeyirinə gəlincə, xüsusilə qeyd etmək lazımdır ki, Uca Allah müsəlmanlara, bu nemət sayəsində bir-birinə dua etməklə öz aralarındakı ülfət bağlarının bir qədər də mökəmləndirməyi, habelə, bu dualarla savab qazanmağı nəsib etmişdir. Biri asqırır, "Əlhəmdulilləh!" deyir, o biriləri ona "Yərhəmukəllah!" deyir, bu da, onlara "Yəhdikumullahu və yuslihu baləkum!" deyir. Bu nemət isə yalnız bu ümmətə aiddir (940-cı hədisə bax).

[2] Çünki əsnəmək tənbəllikdən, harınlaşmaqdan, qarnı yeməklə doldurmaqdan və başqa bu kimi nöqsanlardan irəli gəlir. Bu cümlədə Allaha aid olan iki feili sifət öz təsdiqini tapmışdır: sevgi və ikrah. Bu sifətləri təsdiq edən neçə-neçə ayələr vardır. Həmin ayələrdən birində belə buyurulur: **"Allah yaxşı iş görənləri sevir"** (Ali-İmran, 134); digər ayədə Allah buyurur: **"Əgər onlar *döyüşə* çıxmaq istəsəydilər, mütləq ona hazırlıq görərdilər. Lakin Allah onların döyüşə getməsini istəmədi və onları saxladı. Onlara: "*Evdə* oturanlarla bərabər, siz də oturun!"– deyildi"** (əs-Saff, 2-3). Bundan belə nəticə çıxır ki, düzgün əqidəyə sahib olmaq istəyən hər bir müsəlman Allahın həm sevdiyi, həm də xoşlamadığı bütün əməlləri öyrənməli, sonra da Onun sevdiyi əməlləri yerinə yetirməli, xoşlamadığı işlərdən isə çəkinməlidir.

qırdıqdan sonra Allaha həmd edən (müsəlmana): "Yərhəmukəllah"– demək, bunu eşidən hər bir müsəlmana vacibdir. Əsnəmək isə şeytandandır. Adam bacardığı qədər bunun qarşısını almalıdır.[1] Adam: "Haaah"– etdiyi zaman şeytan ona gülür."[2]

---

[1] Əsnəməyin qabağını almaq üçün adam bacardığı qədər buna mane olmalı, başqa cür desək, aktiv həyat yaşamalı, ibadətləri və zikrləri vaxtlı-vaxtında etməli, imkan daxilində çoxlu Quran oxumalı, dünyəvi işlər ilə məşğul olmalıdır. Bu xüsusda, varid olmuş hədisdə Peyğəmbər ﷺ demişdir: "Sizlərdən biri yatdığı zaman şeytan onun boynunun ardına üç düyün vurur və hər düyün vurduqca: "Gecə uzundur, yat!"– (deyir). Əgər o kimsə oyanıb, Allahı zikr etsə, düyünlərdən biri açılar, dəstəmaz alsa, ikincisi açılar, namaz qılsa, üçüncüsü açılar və beləliklə də, o adam səhər gümrah və əhvali-ruhiyyəsi yaxşı olduğu halda yuxudan oyanar. Əks halda isə, o, əhvali-ruhiyyəsi çox pis, özü də əzgin halda yuxudan oyanar" (Səhih əl-Buxari, 1142). Yox, əgər bütün bunlarla yanaşı, adamı yenə əsnəmək tutarsa, onda çalışıb ağzını açmamalı və əgər bunu bacarmazsa, onda heç olmasa əli ilə ağzını tutmalıdır. Əsnədikdə ağzı açıq saxlamaq, əvvəla şeytan əməli, ikincisi də həşəratların ağıza girməsi üçün səbəbdir. Bundan da betəri, şeytanın adamın içinə girməsidir (949-cu, 950-ci və 951-ci hədislərə bax).

[2] Bu hədisi Buxari (6223), Tirmizi (2747) və Nəsai (əs-Sunən əl-Kubra, 9972) rəvayət etmişdir.

# ٤١٥ – بَابُ مَا يَقُولُ إِذَا عَطَسَ

## 415-ci fəsil. Adam asqırdığı zaman nə deməlidir

٩٢٠ – حَدَّثَنَا مُوسَى، عَنْ أَبِي عَوَانَةَ، عَنْ عَطَاءٍ، عَنْ سَعِيدِ بْنِ جُبَيْرٍ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: إِذَا عَطَسَ أَحَدُكُمْ فَقَالَ: الْحَمْدُ لِلَّهِ، قَالَ الْمَلَكُ: رَبِّ الْعَالَمِينَ، فَإِذَا قَالَ: رَبِّ الْعَالَمِينَ، قَالَ الْمَلَكُ: يَرْحَمُكَ اللَّهُ.

**(920)** ........ İbn Abbas ﵄ demişdir: "Sizlərdən biri asqırıb: "Əlhəmdu-lilləh!"– deyəndə, mələk: "(Həmd) aləmlərin Rəbbinə məxsusdur"– deyir. Asqıran adam: "(Həmd) aləmlərin Rəbbinə məxsusdur"– deyəndə, mələk: "Allah sənə rəhm eləsin"– deyir."[1]

٩٢١ – حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ أَبِي سَلَمَةَ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ ابْنُ دِينَارٍ، عَنْ أَبِي صَالِحٍ السَّمَّانِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِذَا عَطَسَ فَلْيَقُلِ: الْحَمْدُ لِلَّهِ، فَإِذَا قَالَ، فَلْيَقُلْ لَهُ أَخُوهُ أَوْ صَاحِبُهُ: يَرْحَمُكَ اللَّهُ، فَإِذَا قَالَ لَهُ: يَرْحَمُكَ اللَّهُ فَلْيَقُلْ: يَهْدِيكَ اللَّهُ وَيُصْلِحِ بَالَكَ)).

قَالَ أَبُو عَبْدِ اللَّهِ : أَثْبَتُ مَا يُرْوَى فِي هَذَا الْبَابِ هَذَا الْحَدِيثُ الَّذِي يُرْوَى عَنْ أَبِي صَالِحٍ السَّمَّانِ.

**(921)** ........ Əbu Hureyrə ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Qoy, (sizdən biriniz) asqırdıqda: "Əlhəmdulilləh[2]"– desin.[1] Əgər o, bunu desə,[2] (din)

---

[1] Bu hədisin isnadında keçən Əta "ömrünün axırında hafizəsi dəyişmiş" ravidir. Elə bu səbəbdən də, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Əbu Əvanə də bu əsəri Əta ibn Saibdən onun hafizəsi qarışdıqdan sonrakı dövrdə eşitmişdir.

[2] Tərcüməsi: həmd Allaha məxsusdur.

qardaşı *və ya dostu* ona: "Yərhəmukəllah[3]"– desin. Əgər bu ona: "Yərhəmukəllah"– desə, o da, ona: "Yəhdikəllahu və yuslihu balək"[4] – desin."[5]

Əbu Abdullah[6] demişdir: "Bu fəsildə varid olmuş ən dəqiq rəvayət Əbu Saleh əs-Səmmandan rəvayət edilmiş bu hədisdir."

---

[1] Bu, Allahın verdiyi nemətə görə Ona şükür etmək deməkdir.

[2] Bu sözün əks anlamından aydın olur ki, asqırıb həmd etməyən adama "yərhəmukəllah" demək olmaz (930-cu hədisə bax).

[3] Tərcüməsi: Allah sənə rəhm eləsin!

[4] Tərcüməsi: Allah sənə hidayət versin və işini avand eləsin!

[5] Bu hədisi Buxari (5756) rəvayət etmişdir.

[6] Yəni Əbu Abdullah Muhəmməd ibn İsmail əl-Buxari.

## ٤١٦– بَابُ تَشْمِيتِ الْعَاطِسِ

## 416-cı fəsil. Asqıran adama rəhmət diləmək

٩٢٢– حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلامٍ قَالَ: أَخْبَرَنَا الْفَزَارِيُّ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ زِيَادِ بْنِ أَنْعُمَ الإِفْرِيقِيِّ قَالَ: حَدَّثَنِي أَبِي، أَنَّهُمْ كَانُوا غُزَاةً فِي الْبَحْرِ زَمَنَ مُعَاوِيَةَ، فَانْضَمَّ مَرْكَبُنَا إِلَى مَرْكَبِ أَبِي أَيُّوبَ الأَنْصَارِيِّ، فَلَمَّا حَضَرَ غَدَاؤُنَا أَرْسَلْنَا إِلَيْهِ، فَأَتَانَا فَقَالَ: دَعَوْتُمُونِي وَأَنَا صَائِمٌ، فَلَمْ يَكُنْ لِي بُدٌّ مِنْ أَنْ أُجِيبَكُمْ، لِأَنِّي سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: ((إِنَّ لِلْمُسْلِمِ عَلَى أَخِيهِ سِتَّ خِصَالٍ وَاجِبَةٍ، إِنْ تَرَكَ مِنْهَا شَيْئًا فَقَدْ تَرَكَ حَقًّا وَاجِبًا لِأَخِيهِ عَلَيْهِ: يُسَلِّمُ عَلَيْهِ إِذَا لَقِيَهُ، وَيُجِيبُهُ إِذَا دَعَاهُ، وَيُشَمِّتُهُ إِذَا عَطَسَ، وَيَعُودُهُ إِذَا مَرِضَ، وَيَحْضُرُهُ إِذَا مَاتَ، وَيَنْصَحُهُ إِذَا اسْتَنْصَحَهُ)).

قَالَ: وَكَانَ مَعَنَا رَجُلٌ مَزَّاحٌ يَقُولُ لِرَجُلٍ أَصَابَ طَعَامَنَا: جَزَاكَ اللَّهُ خَيْرًا وَبِرًّا، فَغَضِبَ عَلَيْهِ حِينَ أَكْثَرَ عَلَيْهِ، فَقَالَ لِأَبِي أَيُّوبَ: مَا تَرَى فِي رَجُلٍ إِذَا قُلْتُ لَهُ: جَزَاكَ اللَّهُ خَيْرًا وَبِرًّا، غَضِبَ وَشَتَمَنِي؟ فَقَالَ أَبُو أَيُّوبَ: إِنَّا كُنَّا نَقُولُ: إِنَّ مَنْ لَمْ يُصْلِحْهُ الْخَيْرُ أَصْلَحَهُ الشَّرُّ، فَاقْلِبْ عَلَيْهِ، فَقَالَ لَهُ حِينَ أَتَاهُ: جَزَاكَ اللَّهُ شَرًّا وَعَرًّا، فَضَحِكَ وَرَضِيَ وَقَالَ: مَا تَدَعُ مُزَاحَكَ، فَقَالَ الرَّجُلُ: جَزَى اللَّهُ أَبَا أَيُّوبَ الأَنْصَارِيَّ خَيْرًا.

**(922)** ........ Ziyad demişdir: "Biz Muaviyənin xilafəti dövründə dənizdə döyüşə çıxmışdıq. Bu əsnada bizim gəmimiz Əbu Əyyub əl-Ənsarinin[1] gəmisinə yan aldı. (Nəhayət,) günorta yeməyinin vaxtı gəlib çatdıqda biz adam göndərib Əbu Əyyubu yeməyə dəvət etdik. Onda, o, gəlib bizə dedi: "Mən oruc tutduğum halda siz məni yeməyə dəvət etdiniz. Sizin dəvətinizi qəbul etməkdən başqa çarəm qalmadı. Çünki mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: "Müsəlmanın *müsəlman* qardaşı üzərində altı vacib haqqı vardır. Əgər bunlardan birini tərk etsə, qardaşının onun üzərinə

[1] Əbu Əyyub Xalid ibn Zeyd əl-Xəzrəci ؓ Peyğəmbərin ﷺ məşhur səhabəsidir.

düşən vacib vəzifələrdən birini tərk etmiş olar. Onunla rastlaşdığı zaman ona salam verməli, dəvət etdikdə, dəvətini qəbul etməli, asqırdıqda, ona rəhmət diləməli, xəstələndikdə, ona baş çəkməli, vəfat etdikdə, dəfnində iştirak etməli və nəsihət istədikdə, nəsihət verməlidir."

Aramızda olan zarafatcıl bir adam bizə yemək verən adama: "Allah səni xeyirlə və qayğıyla mükafatlandırsın!"– dedi. Adam bunu ona təkrar-təkrar dedikdə, o qəzəbləndi. Onda, bu adam Əbu Əyyuba dedi: "Mən bir adama: "Allah səni xeyirlə və qayğıyla mükafatlandırsın"– deyirəm, o da qəzəblənib məni söyür. Belə adam haqqında nə deyə bilərsən?" Əbu Əyyub dedi: "Biz, adətən, deyərdik: "Əgər insanı xeyir islah edib düzəltməsə, onda onu ancaq şər düzəldər. Elə isə sözünü dəyiş." Həmin adam yenidən gəldikdə, ona belə dedi: "Allah sənə şər və rüsvayedici mükafat versin.[1]" Həmin adam güldü və razı qaldı, sonra da dedi: "Zarafatından heç qalmırsan." Onda, həmin zarafatçıl adam *öz-özünə* dedi: "Allah Əbu Əyyubu xeyirlə mükafatlandırsın!"[2]

---

[1] Bu söz Peyğəmbərin ﷺ Sünnəsinə müxalifdir. Çünki Peyğəmbər ﷺ demişdir: "Hər kim özünə yaxşılıq etmiş adama: "Cəzakəllahu xeyran (Allah səni xeyirlə mükafatlandırsın!)"– desə, ən gözəl şəkildə tərif etmiş olar" (Sunən ət-Tirmizi, 2167; Səhih əl-Cami, 6368). Bu hədisdə "Allah səni xeyirlə mükafatlandırsın!" deyildikdə, dünyada və Axirətdə olan bütün xeyirlər nəzərdə tutulur. Bundan aydın olur ki, bu duaya əlavə edib: "Allah səni xeyirlə və qayğıyla mükafatlandırsın!"– demək və ya bunun tam əksini: "Allah sənə şər və rüsvayedici mükafat versin!"– demək şəriətə ziddir. Müsəlman adam isə Peyğəmbərdən ﷺ varid olmuş bu dua ilə kifayətlənməli və buna heç nə əlavə etməməlidir.

[2] Muhəmməd Nasirəddin əl-Albani demişdir: "Bu hədisin isnadı "zəif"dir. Çünki isnadındakı Abdur-Rəhman ibn Ziyad əl-İfriqi adlı ravi "zəif" ravilərdəndir. Elə buna görə də, bu rəvayət "zəif" hesab olunur. Lakin müsəlmanın müsəlman üzərinə düşən altı haqqı, Əbu Hureyranın ؓ rəvayət etdiyi hədisdə öz təsdiqini tapmışdır (925-ci hədisə bax). (Daif əl-Ədəbul-Mufrad, səh: 86).

**٩٢٣**– حَدَّثَنَا عَلِيُّ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ سَعِيدٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الْحَمِيدِ بْنُ جَعْفَرٍ قَالَ: حَدَّثَنِي أَبِي، عَنْ حَكِيمِ بْنِ أَفْلَحَ، عَنِ ابْنِ مَسْعُودٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((أَرْبَعٌ لِلْمُسْلِمِ عَلَى الْمُسْلِمِ: يَعُودُهُ إِذَا مَرِضَ، وَيَشْهَدُهُ إِذَا مَاتَ، وَيُجِيبُهُ إِذَا دَعَاهُ، وَيُشَمِّتُهُ إِذَا عَطَسَ)).

**(923)** ........ İbn Məsud رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Müsəlmanın müsəlman üzərində dörd (haqqı) vardır: xəstələndikdə, ona baş çəkməli, vəfat etdikdə, dəfnində iştirak etməli, dəvət etdikdə, dəvətini qəbul etməli və asqırdıqda, ona rəhmət diləməlidir."[1]

**٩٢٤**– حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: أَخْبَرَنَا أَبُو الأَحْوَصِ، عَنْ أَشْعَثَ، عَنْ مُعَاوِيَةَ بْنِ سُوَيْدٍ، عَنِ الْبَرَاءِ بْنِ عَازِبٍ قَالَ: أَمَرَنَا رَسُولُ اللَّهِ ﷺ بِسَبْعٍ، وَنَهَانَا عَنْ سَبْعٍ: أَمَرَنَا بِعِيَادَةِ الْمَرِيضِ، وَاتِّبَاعِ الْجَنَائِزِ، وَتَشْمِيتِ الْعَاطِسِ، وَإِبْرَارِ الْمُقْسِمِ، وَنَصْرِ الْمَظْلُومِ، وَإِفْشَاءِ السَّلاَمِ، وَإِجَابَةِ الدَّاعِي، وَنَهَانَا عَنْ: خَوَاتِيمِ الذَّهَبِ، وَعَنْ آنِيَةِ الْفِضَّةِ، وَعَنِ الْمَيَاثِرِ، وَالْقَسِّيَّةِ، وَالإِسْتَبْرَقِ، وَالدِّيبَاجِ، وَالْحَرِيرِ.

**(924)** ........ Rəvayət edilir ki, Bəra ibn Azib رضي الله عنه demişdir:[2] "Rəsulullah ﷺ bizə yeddi şeyi əmr etdi və yeddi şeyi qadağan etdi. O bizə xəstəyə baş çəkməyi,[3] cənazənin ardınca getməyi,[4] asqıran adama rəhmət diləməyi, and verən adamın andını yerinə yetirməkdə ona kömək etməyi,[5] məzluma

---

[1] Bu hədisi İbn Macə (1/438), Əhməd (5/273), İbn Hibban (2064), Hakim (1/349 və 4/264), Bəhşəl (Tarix Vasit, səh: 217), rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[2] Bu hədisi Buxari (1239) və Muslim (5510) rəvayət etmişdir.

[3] Xəstəyə baş çəkməyin fəzilətinə dair 159-cu və 234-cü fəsillərdəki hədislərə bax.

[4] 518-ci hədisin qeydlərinə bax.

[5] Məsələn, əgər bir müsəlman digərinə: "Səni and verirəm Allaha, filan işdə mənə kömək et!" yaxud "Vallahi, bu işdə mənə kömək etməlisən"– desə, bu adam ona köməklik göstərməlidir. Yalnız günah işlər, haram buyurulanlar, düşmənçilik etmək, ev yıx-

yardım etməyi,[1] salamı yaymağı[2] və (məclisə) dəvət edənin dəvətini qəbul etməyi[3] əmr etdi.[4] Və bizə qızıl üzüklər (geyməyi),[5] gümüş qabdan (istifadə etməyi),[6] ipəkdən düzəldilmiş yəhərləri, ipək qatışığı olan libas, atlas parça, zərxara və ipək (geyməyi) qadağan etdi.[7]"

---

maq, şəriətin vacib buyurduğu əməli tərk etmək və başqa bu kimi işlər müstəsnadır. Belə işlərdə, Xaliqə asi olaraq məxluqa – o, and versə belə – itaət etmək olmaz.

[1] Məzluma yardım etmək müsəlmanın müsəlman üzərinə düşən haqlarından olduğu kimi, zalım müsəlmana kömək etmək də həmçinin, bu haqlara aiddir. Bunun necəliyi xüsusunda varid olmuş hədisdə Ənəs ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ *səhabələrinə:* "İstər zalım, istərsə məzlum olsun, *din* qardaşına kömək et!" – deyə buyurduqda, səhabələri ondan: "Ya Rəsulullah, məzluma kömək etməyi başa düşdük. Bəs, zalıma necə kömək etməliyik?"– deyə soruşmuş, Peyğəmbər ﷺ də onlara belə buyurmuşdur: "Əlindən tutub saxlamaqla!" (Səhih əl-Buxari, 2444).

[2] 260-cı və 787-ci hədislərin qeydlərinə bax.

[3] 157-ci hədislərin qeydlərinə bax.

[4] Bu fəsildə nəql edilmiş hədislərdə müsəlmanın müsəlman üzərində olan haqlarından cəmi səkkizi zikr edilmişdir: müsəlmana salam vermək, dəvət etdikdə, onun dəvətini qəbul etmək, nəsihət istəsə ona nəsihət vermək, asqırıb: "Əlhəmdulilləh"– desə, ona "Yərhəmukəllah"– demək, xəstələndikdə, ona baş çəkmək, vəfat etdikdə, cənazəsinin ardınca getmək, and verdikdə, andını yerinə yetirməkdə ona kömək etmək və zülmə məruz qaldıqda, ona yardım etmək.

[5] Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, *bir dəfə* Nəcrandan bir nəfər Rəsulullahın ﷺ yanına gəldi. Onun barmağında qızıl üzük var idi. Rəsulullah ﷺ ondan üz çevirdi. *Sonra o adam ondan bunun səbəbini soruşduqda,* Rəsulullah ﷺ dedi: "Sən mənim yanıma gəldikdə, əlində bir parça köz var idi" (Sunən ən-Nəsai, 5188; Səhih ət-Tərğib vət-Tərhib, 2061).

[6] Qızıl qablar da həmçinin. Bu xüsusda, varid olmuş digər bir hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "İpək və zərxara geyinməyin, qızıl və gümüş qablarda su içməyin, habelə, belə qablarda yemək də yeməyin. Çünki bütün bunlar onlara dünyada, sizə isə Axirətdə nəsib olacaq" (Səhih əl-Buxari, 5426).

[7] Qeyd etmək lazımdır ki, bu hədisdə qadağan olunmuş yeddi şey bu ümmətin kişilərinə aiddir. Qızıl və gümüş qablardan istifadə etmək isə həm kişilərə, həm də qadınlara

**٩٢٥-** وَعَنْ إِسْمَاعِيلَ بْنِ جَعْفَرٍ، عَنِ الْعَلَاءِ بْنِ عَبْدِ الرَّحْمَنِ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((حَقُّ الْمُسْلِمِ عَلَى الْمُسْلِمِ سِتٌّ))، قِيلَ: مَا هِيَ يَا رَسُولَ اللَّهِ؟ قَالَ: ((إِذَا لَقِيتَهُ فَسَلِّمْ عَلَيْهِ، وَإِذَا دَعَاكَ فَأَجِبْهُ، وَإِذَا اسْتَنْصَحَكَ فَانْصَحْ لَهُ، وَإِذَا عَطَسَ فَحَمِدَ اللَّهَ فَشَمِّتْهُ، وَإِذَا مَرِضَ تَعُودُهُ، وَإِذَا مَاتَ فَاتَّبِعْهُ)).

**(925)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Müsəlmanın müsəlman üzərində altı haqqı vardır." (Səhabələr) soruşdu: "Nədir bunlar, ya Rəsulullah?" Peyğəmbər ﷺ buyurdu: "(Müsəlmanla) rastlaşdıqda, ona salam ver, dəvət etdikdə, dəvətini qəbul et, nəsihət istədikdə, ona nəsihət ver, asqırıb, Allaha həmd etdikdə, *Allahdan* onun üçün rəhmət dilə,[1] xəstələndikdə, ona baş çək və vəfat etdikdə, cənazəsinin ardınca get."[2]

---

aiddir. Qadına isə qızıl zinət əşyaları və ipək libaslar geymək caizdir. Uca Allah qadının kişidən fərqli olaraq zinət əşyaları ilə bəzənməsi barədə belə buyurur: **"Müşriklər zinət içində böyüdülən və çəkişmə zamanı aydın danışa bilməyən *qızlarınımı Allaha isnad edirlər?"*** (əz-Zuxruf, 18). Ayədən bizə aydın olur ki, qızıl, ipək və başqa bu kimi zinət əşyaları ilə bəzənib-düzənmək qadına xas olan əməllərdəndir.

[1] Yəni asqırıb: "Əlhəmdulilləh!"– desə, ona: "Yərhəmukəllah!" de.

[2] Bu hədisi Muslim (2162), Əhməd (2/372 və 412), İbn Hibban (242) və Əbu Yə'la (6504) rəvayət etmişdir.

## ٤١٧ – بَابُ مَنْ سَمِعَ الْعَطْسَةَ يَقُولُ: ((الْحَمْدُ لِلَّهِ))

## 417-ci fəsil. Asqıraq səsi eşidən kəs: "Əlhəmdulilləh!" deməlidir

**٩٢٦–** حَدَّثَنَا طَلْقُ بْنُ غَنَّامٍ قَالَ: حَدَّثَنَا شَيْبَانُ، عَنْ أَبِي إِسْحَاقَ، عَنْ خَيْثَمَةَ، عَنْ عَلِيٍّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: مَنْ قَالَ عِنْدَ عَطْسَةٍ سَمِعَهَا: الْحَمْدُ لِلَّهِ رَبِّ الْعَالَمِينَ عَلَى كُلِّ حَالٍ مَا كَانَ، لَمْ يَجِدْ وَجَعَ الضِّرْسِ وَلا الأُذُنِ أَبَدًا.

**(926)** ........ Əli (ibn Əbu Talib) ﷺ demişdir: "Asqıraq səsi eşidən kəs: "Hər bir halımıza görə aləmlərin Rəbbi Allaha həmd olsun!"– desə, heç vaxt nə diş ağrısına, nə də qulaq ağrısına tutular."[1]

---

[1] Bu hədisin isnadında keçən Əbu İshaq əs-Səbii "ömrünün axırlarında hafizəsi qarışmış" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir (Həmçinin, bax: Silsilətul-Əhadisid-Daifə, 6139). Qeyd edək ki, bu xüsusda, Əli ibn Əbu Talibdən ﷺ rəvayət edilmiş mötəbər hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Qoy, sizlərdən biri asqırdıqda: "Əlhəmdulilləhi alə kulli hal (hər bir halımıza görə Allaha həmd olsun!)"– desin, cavab olaraq dua edən kəs ona: "Yərhəmukəllah (Allah sənə rəhm eləsin!)"– desin, o da, cavabında ona: "Yəhdikəllahu və yuslihu balək (Allah sənə hidayət versin və sənin işini yoluna qoysun!)"– desin" (Sunən ət-Tirmizi, 2960; Musnəd İmam Əhməd, 1/122; Səhih əl-Cami, 687). Yeri gəlmişkən, qeyd edək ki, asqıran adamın dediyi duaya dair hədislərdə üç cür ləfz varid olmuşdur. Rəvayətlərin çoxunda asqıran adamın sadəcə: "Əlhəmdulilləh"– deməsi varid olmuşdur. Yuxarıda qeyd etdiyimiz rəvayətdə asqıran adamın "Əlhəmdulilləhi alə kulli hal"– deməsi zikr olunmuşdur. Və nəhayət, Abdullah ibn Məsuddan ﷺ rəvayət edilmiş hədisdə deyilir: "Qoy, sizlərdən biri asqırdıqda: "Əlhəmdulilləhi Rabbil-aləmin (həmd aləmlərin Rəbbi Allaha məxsusdur!)"– desin" (əl-Ədəbul-Mufrad, 934). Bu hədislərdən belə nəticə çıxır ki, adam asqırdığı zaman bu üç duadan istədiyini deyə bilər.

## ٤١٨- بَابُ كَيْفَ تَشْمِيتُ مَنْ سَمِعَ الْعَطْسَةَ

## 418-ci fəsil. Asqırmanı eşidən adam necə rəhmət diləməlidir

**٩٢٧-** حَدَّثَنَا مَالِكُ بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ أَبِي سَلَمَةَ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ بْنُ دِينَارٍ، عَنْ أَبِي صَالِحٍ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِذَا عَطَسَ أَحَدُكُمْ فَلْيَقُلِ: الْحَمْدُ لِلَّهِ، فَإِذَا قَالَ: الْحَمْدُ لِلَّهِ، فَلْيَقُلْ لَهُ أَخُوهُ أَوْ صَاحِبُهُ: يَرْحَمُكَ اللَّهُ، وَلْيَقُلْ هُوَ: يَهْدِيكُمُ اللَّهُ وَيُصْلِحُ بَالَكُمْ)).

**(927)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Qoy, sizdən biriniz asqırdıqda: "Əlhəmdulilləh!"– desin. Əgər o, "Əlhəmdulilləh!"– desə, *din* qardaşı *və ya dostu* ona: "Yərhəmukəllah!"– desin. (Əgər bu, ona: "Yərhəmukəllah"– desə,) o da, ona: "Yəhdikumullahu və yuslihu baləkum" – desin."[1]

**٩٢٨-** حَدَّثَنَا عَاصِمٌ قَالَ: حَدَّثَنَا ابْنُ أَبِي ذِئْبٍ، عَنْ سَعِيدٍ الْمَقْبُرِيِّ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِنَّ اللَّهَ يُحِبُّ الْعُطَاسَ، وَيَكْرَهُ التَّثَاؤُبَ، وَإِذَا عَطَسَ أَحَدُكُمْ وَحَمِدَ اللَّهَ كَانَ حَقًّا عَلَى كُلِّ مُسْلِمٍ سَمِعَهُ أَنْ يَقُولَ: يَرْحَمُكَ اللَّهُ. فَأَمَّا التَّثَاؤُبُ فَإِنَّمَا هُوَ مِنَ الشَّيْطَانِ، فَإِذَا تَثَاءَبَ أَحَدُكُمْ فَلْيَرُدَّهُ مَا اسْتَطَاعَ، فَإِنَّ أَحَدَكُمْ إِذَا تَثَاءَبَ ضَحِكَ مِنْهُ الشَّيْطَانُ)).

**(928)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Allah *Öz qullarının* asqırmağını sevir, əsnəməklərini isə xoşlamır. Sizdən biriniz asqırdıqdan sonra Allaha həmd edərsə, ona: "Yərhəmukəllah"– demək, bunu eşidən hər bir müsəlmana vacibdir. Əsnəməyə gəlincə, heç şübhəsiz ki, bu, şeytandandır. Odur ki, qoy, sizlərdən biri əsnəmək istədikdə, bacardığı qədər bunun qarşısını almalıdır. Çünki sizlərdən biri əsnədiyi zaman şeytan ona gülür."[2]

---

[1] 921-ci hədisə bax.

[2] 919-cu hədisin qeydlərinə bax.

**٩٢٩**– حَدَّثَنَا حَامِدُ بْنُ عُمَرَ قَالَ: حَدَّثَنَا أَبُو عَوَانَةَ، عَنْ أَبِي جَمْرَةَ قَالَ: سَمِعْتُ ابْنَ عَبَّاسٍ يَقُولُ إِذَا شَمَّتَ: عَافَانَا اللَّهُ وَإِيَّاكُمْ مِنَ النَّارِ، يَرْحَمُكُمُ اللَّهُ.

**(929)** ........ İbn Abbas ﷺ (asqıran adama) rəhmət dilədikdə deyərdi: "Allah bizi də, sizi də Oddan qorusun. Allah sizə rəhm etsin![1]"[2]

**٩٣٠**– حَدَّثَنَا إِسْحَاقُ قَالَ: أَخْبَرَنَا يَعْلَى قَالَ: أَخْبَرَنَا أَبُو مُنَيْنٍ وَهُوَ يَزِيدُ بْنُ كَيْسَانَ، عَنْ أَبِي حَازِمٍ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: كُنَّا جُلُوسًا عِنْدَ رَسُولِ اللَّهِ ﷺ فَعَطَسَ رَجُلٌ فَحَمِدَ اللَّهَ، فَقَالَ لَهُ رَسُولُ اللَّهِ ﷺ: ((يَرْحَمُكَ اللَّهُ))، ثُمَّ عَطَسَ آخَرُ، فَلَمْ يَقُلْ لَهُ شَيْئًا، فَقَالَ: يَا رَسُولَ اللَّهِ، رَدَدْتَ عَلَى الْآخَرِ، وَلَمْ تَقُلْ لِي شَيْئًا؟ قَالَ: ((إِنَّهُ حَمِدَ اللَّهَ، وَسَكَتَّ)).

**(930)** ........ Əbu Hureyrə ﷺ demişdir: "(Bir dəfə) biz Rəsulullahın ﷺ yanında oturmuşduq. (Elə bu vaxt) bir nəfər asqırıb: "Əlhəmdulilləh!"– dedi. Rəsulullah ﷺ də ona: "Yərhəmukəllah!"– dedi. Sonra başqa birisi asqırdı, lakin Rəsulullah ﷺ ona heç nə demədi.[3] Onda həmin adam dedi: "Ya Rəsulullah, sən onun üçün rəhmət dilədin, mənim üçün isə heç nə diləmədin." Peyğəmbər ﷺ dedi: "Çünki o, Allaha həmd etdi. Sən isə susdun.[4]"[5]

---

[1] Transkripsiyası: Afənəllahu və iyyakum minən-nar, yərhəmukumullah!

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu bildirmiş, sonra demişdir: "Bu əlavənin "mərfu" isnadla (yəni Peyğəmbərdən ﷺ rəvayət edildiyi) mənə məlum deyil. Ola bilsin ki, İbn Abbas ﷺ bunu davamlı olaraq deməmişdir. Həmçinin, İbn Ömərin ﷺ əlavəsini də buna misal çəkmək olar (933-cü hədisə bax). Peyğəmbərdən ﷺ rəvayət edilmiş hədislərdə isə yalnız: "Yərhəmukəllah!" sözü varid olmuşdur. Sünnəyə riayət etmək isə daha əfzəldir.

[3] Deməк, asqırdıqdan sonra Allaha həmd etməyən kimsəyə "yərhəmukəllah"– demək olmaz.

[4] Növbəti rəvayətdə deyilir ki, Peyğəmbər ﷺ ona: "O, Allaha həmd etdi. Sən isə həmd etmədin"– demişdir (931-ci hədisə bax).

[5] Bu hədisi İshaq ibn Rahuyə (Musnəd, 361) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ٤١٩- بَابُ إِذَا لَمْ يَحْمَدِ اللَّهَ لا يُشَمَّتُ

## 419-cu fəsil. Asqırıb, Allaha həmd etməyən kimsəyə rəhmət dilənməz

**٩٣١-** حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شُعْبَةُ قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ التَّيْمِيُّ قَالَ: سَمِعْتُ أَنَسًا يَقُولُ: عَطَسَ رَجُلاَنِ عِنْدَ النَّبِيِّ ﷺ فَشَمَّتَ أَحَدَهُمَا، وَلَمْ يُشَمِّتِ الْآخَرَ، فَقَالَ: شَمَّتَّ هَذَا وَلَمْ تُشَمِّتْنِي؟ قَالَ: ((إِنَّ هَذَا حَمِدَ اللَّهَ، وَلَمْ تَحْمَدْهُ)).

**(931)** ........ Ənəs ﷺ demişdir: "İki nəfər Peyğəmbərin ﷺ yanında asqırdı. Peyğəmbər ﷺ onlardan birinə rəhmət dilədi, digərinə isə rəhmət diləmədi.[1] (Rəhmət diləmədiyi adam) dedi: "(Nəyə görə) ona rəhmət dilədin, mənə isə diləmədin?"[2] Peyğəmbər ﷺ dedi: "O, Allaha həmd etdi. Sən isə Ona həmd etmədin.[3]"[4]

**٩٣٢-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلامٍ قَالَ: حَدَّثَنَا رِبْعِيُّ بْنُ إِبْرَاهِيمَ هُوَ أَخُو ابْنِ عُلَيَّةَ قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ إِسْحَاقَ، عَنْ سَعِيدِ بْنِ أَبِي سَعِيدٍ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: جَلَسَ رَجُلاَنِ عِنْدَ النَّبِيِّ ﷺ

---

[1] İbn Qeyyim bu hədisi izah edərkən demişdir: "Adam asqırdıqdan sonra Allaha həmd etməzsə, yanındakılar bunu ona xatırlatmalıdırlarmı? İbn əl-Ərəbi demişdir: "Ona xatırlatmamalıdırlar. Çünki bu, bunu tərk edən adamın cahilliyindən irəli gəlir." Nəvəvi isə demişdir: "Bunu deyənlər xəta etmişlər. Əksinə, bunu ona xatırlatmaq gərəkdir." İbrahim ən-Nəxəi də bu fikirdə olmuşdur. Yalnız nəsihət, habelə, yaxşı işi əmr etmək və xeyirxah işlərdə əlbir olmaq baxımından bunu xatırlatmaq olar. Lakin bu xüsusda, varid olmuş hədislər İbn Ərəbinin dediyinə daha yaxındır. Belə ki Peyğəmbər ﷺ asqırıb, "Əl-həmdulilləh!"– deməyən adama rəhmət diləməmiş və bunu ona xatırlatmamışdır... Əgər bu əməl Sünnəyə aid olsa idi, Peyğəmbər ﷺ bunu ona xatırladardı (Zadul-Məad, 2/437).

[2] Səhabənin bu sözü onun xeyir qazanmağa necə həris olduğuna dəlalət edir.

[3] Digər bir rəvayətdə Peyğəmbər ﷺ demişdir: "Sizlərdən biri asqırıb, Allaha həmd etsə, ona rəhmət diləyin, yox, həmd etməzsə, ona rəhmət diləməyin" (Səhih Muslim, 2992).

[4] Bu hədisi Buxari (6221), Muslim (7677) və Tirmizi (2742) rəvayət etmişdir.

أَحَدُهُمَا أَشْرَفُ مِنَ الْآخَرِ، فَعَطَسَ الشَّرِيفُ مِنْهُمَا فَلَمْ يَحْمَدِ اللَّهَ، وَلَمْ يُشَمِّتْهُ، وَعَطَسَ الْآخَرُ فَحَمِدَ اللَّهَ، فَشَمَّتَهُ النَّبِيُّ ﷺ، فَقَالَ الشَّرِيفُ: عَطَسْتُ عِنْدَكَ فَلَمْ تُشَمِّتْنِي، وَعَطَسَ هَذَا الْآخَرُ فَشَمَّتَّهُ، فَقَالَ: ((إِنَّ هَذَا ذَكَرَ اللَّهَ فَذَكَرْتُهُ، وَأَنْتَ نَسِيتَ اللَّهَ فَنَسِيتُكَ)).

**(932)** ........ Əbu Hureyrə ﵁ demişdir: “İki nəfər Peyğəmbərin ﷺ yanında oturmuşdu. Biri digərindən daha hörmətli idi. Daha hörmətli olan asqırıb, Allaha həmd etmədi. Peyğəmbər ﷺ də ona rəhmət diləmədi. O birisi isə asqırıb, Allaha həmd etdi. Peyğəmbər ﷺ də ona rəhmət dilədi. Möhtərəm adam dedi: “Mən sənin yanında asqırdım, mənə rəhmət diləmədin. O isə asqırdıqda, ona rəhmət dilədin.” Peyğəmbər ﷺ dedi: “O, Allahı yad etdi, mən də onu yad etdim. Sən isə Allahı unutdun, mən də səni unutdum.[1]”[2]

[1] Onlardan biri Allaha həmd etdiyinə görə Peyğəmbər ﷺ ona rəhmət diləmiş, o birisi isə Allaha həmd etmədiyinə görə Peyğəmbər ﷺ onu tərk etmişdir.

[2] Bu hədisi Əhməd (2/328), İbn Hibban (602) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “həsən” olduğunu demişdir.

## ٤٢٠- بَابُ كَيْفَ يَبْدَأُ الْعَاطِسُ

## 420-ci fəsil. Asqıran adam hansı sözlə başlayır

٩٣٣- حَدَّثَنَا إِسْمَاعِيلُ، عَنْ مَالِكٍ، عَنْ نَافِعٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عُمَرَ، أَنَّهُ كَانَ إِذَا عَطَسَ فَقِيلَ لَهُ: يَرْحَمُكَ اللَّهُ، فَقَالَ: يَرْحَمُنَا اللَّهُ وَإِيَّاكُمْ، وَيَغْفِرُ لَنَا وَلَكُمْ.

**(933)** ........ Abdullah ibn Ömər ﵄ asqırdığı zaman[1] ona: "Yərhəmukəllah!"– deyildikdə, o: "Yərhəmunəllahu və iyyakum və yəğfiru lənə və ləkum!"[2] (– deyərdi).[3]

٩٣٤- حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ عَطَاءٍ، عَنْ أَبِي عَبْدِ الرَّحْمَنِ، عَنْ عَبْدِ اللَّهِ قَالَ: إِذَا عَطَسَ أَحَدُكُمْ فَلْيَقُلِ: الْحَمْدُ لِلَّهِ رَبِّ الْعَالَمِينَ، وَلْيَقُلْ مَنْ يَرُدُّ: يَرْحَمُكَ اللَّهُ، وَلْيَقُلْ هُوَ: يَغْفِرُ اللَّهُ لِي وَلَكُمْ.

**(934)** ........ Abdullah[4] ﵁ demişdir: "Qoy, sizlərdən biri asqırdıqda: "Əlhəmdulilləhi Rabbil-aləmin!"[5]– desin. Cavab verən adam da *ona*: "Yərhəmukəllah!"– desin. Qoy, o da, ona: "Yəğfirullahu li və ləkum![6]"– desin."[7]

---

[1] Yəni asqırıb "Əlhəmdulilləh!", yaxud "Əlhəmdulilləhi alə kulli hal!", yaxud da Əlhəmdulilləhi Rabbil-aləmin!" deyəndən sonra.

[2] Tərcüməsi: Allah bizə də, sizə də rəhm etsin! Bizi də, sizi də bağışlasın! (929-cu hədisin qeydlərinə bax).

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[4] Abdullah ibn Məsud ﵁.

[5] Tərcüməsi: Həmd aləmlərin Rəbbi Allaha məxsusdur!

[6] Tərcüməsi: Allah məni də, sizi də bağışlasın!

[7] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

**٩٣٥-** حَدَّثَنَا عَاصِمُ بْنُ عَلِيٍّ قَالَ: حَدَّثَنَا عِكْرِمَةُ قَالَ: حَدَّثَنَا إِيَاسُ بْنُ سَلَمَةَ، عَنْ أَبِيهِ قَالَ: عَطَسَ رَجُلٌ عِنْدَ النَّبِيِّ ﷺ فَقَالَ: يَرْحَمُكَ اللَّهُ، ثُمَّ عَطَسَ أُخْرَى، فَقَالَ النَّبِيُّ ﷺ: ((هَذَا مَزْكُومٌ)).

**(935)** ........ Sələmə[1] ﷺ demişdir: "Bir nəfər Peyğəmbərin ﷺ yanında asqırdı və Peyğəmbər ﷺ (ona): "Yərhəmukəllah!"– dedi. Adam bir də asqırdı.[2] Onda, Peyğəmbər ﷺ: "Bunu zökəm tutub[3]"– dedi."[4]

---

[1] Sələmə ibn Əkva Sinan ibn Abdullah əl-Əsləmi ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Mutə döyüşündə iştirak etmiş və ağac altında beyət edənlərdən olmuşdur. Hicrətin 74-cü ilində vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 50-ci tərcümeyi-hal).

[2] Digər hədisdə Peyğəmbər ﷺ demişdir: "Qoy, sizlərdən biri asqırdığı zaman yanındakılar onun üçün rəhmət diləsin. Və əgər o, üçdən artıq asqırarsa, deməк, onu zökəm tutub. Belə olduğu təqdirdə isə, ona (bir daha) "Yərhəmukəllah!" – deməyə gərək yoxdur" (İbnus-Sunni, Aməlul-Yovmi vəl-Leylə, 251; İbn Əsakir, Tarixu Diməşq, 2/391/2; Silsilətul-Əhadisis-Səhihə, 1330; həmçinin, 939-cu əsərin qeydlərinə də bax).

[3] Zökəm: burunun daxili qişasının iltihabı nəticəsində burundan selik axma və tez-tez asqırma şəklində təzahür edən xəstəlik.

[4] Bu hədisi Muslim (2993), Əbu Davud (5037), Tirmizi (2943), Nəsai (əl-Kubra, 9980), Əhməd (16501), İbn Hibban (603) rəvayət etmişdir.

## ٤٢١- بَابُ مَنْ قَالَ: ((يَرْحَمُكَ إِنْ كُنْتَ حَمِدْتَ اللَّهَ))

## 421-ci fəsil. "Əgər Allaha həmd etdinsə, Allah sənə rəhmət eləsin!"– deyən kimsə

**٩٣٦-** حَدَّثَنَا عَارِمٌ قَالَ: حَدَّثَنَا عُمَارَةُ بْنُ زَاذَانَ قَالَ: حَدَّثَنِي مَكْحُولٌ الأَزْدِيُّ قَالَ: كُنْتُ إِلَى جَنْبِ ابْنِ عُمَرَ، فَعَطَسَ رَجُلٌ مِنْ نَاحِيَةِ الْمَسْجِدِ، فَقَالَ ابْنُ عُمَرَ: يَرْحَمُكَ اللَّهُ إِنْ كُنْتَ حَمِدْتَ اللَّهَ.

**(936)** ........ Məkhul əl-Əzdi demişdir: "(Bir dəfə) mən İbn Ömərin yanında ikən məscidin bir tərəfində bir nəfər asqırdı. Onda, İbn Ömər (ona) dedi: "Allaha həmd etdinsə, Allah sənə rəhm etsin!"[1]

---

[1] Bu hədisin isnadında keçən Umara ibn Zadan "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Qeyd edək ki, asqıran adama belə dua etmək mötəbər hədislərdə öz təsdiqini tapmamışdır. Səhih olanı budur ki, asqıran adam "Əlhəmdulilləh!" demədiyi təqdirdə ona heç nə deyilmir (930-cu, 931-ci və 932-ci hədislərə və onların qeydlərinə bax).

## ٤٢٢ – بَابُ لَا يَقُولُ: ((آبَّ))

## 422-ci fəsil. Kimsə (asqırdıqda): "Əb" deməsin

٩٣٧ – حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلامٍ قَالَ: أَخْبَرَنَا مَخْلَدٌ قَالَ: أَخْبَرَنَا ابْنُ جُرَيْجٍ، أَخْبَرَنِي ابْنُ أَبِي نَجِيحٍ، عَنْ مُجَاهِدٍ، أَنَّهُ سَمِعَهُ يَقُولُ: عَطَسَ ابْنٌ لِعَبْدِ اللَّهِ بْنِ عُمَرَ، إِمَّا أَبُو بَكْرٍ، وَإِمَّا عُمَرُ، فَقَالَ: آبَّ، فَقَالَ ابْنُ عُمَرَ: وَمَا آبَّ؟ إِنَّ آبَّ اسْمُ شَيْطَانٍ مِنَ الشَّيَاطِينِ جَعَلَهَا بَيْنَ الْعَطْسَةِ وَالْحَمْدِ.

**(937)** ........ Mücahid demişdir: "İbn Ömərin oğlu Əbu Bəkr yaxud Ömər asqırdıqda: "Əb[1]"– dedi. İbn Ömər dedi: "Əb nədir?! Əb şeytanlardan birinin adıdır ki, onu asqırma ilə həmd arasına yerləşdirib.[2]"[3]

---

[1] Bu hərflər, adam asqırdıqda asqırığının sonunda eşidilən hərflərdir. Sünnəyə uyğun olmayan şəkildə asqırdıqda, təbii ki, adamdan "əb", yaxud, "əş" və ya "əşhəb" səsləri eşidilə bilər. Sünnəyə uyğun şəkildə asqırmağın necəliyi isə bu xüsusda, rəvayət edilmiş hədisdə vəsf olunmuşdur. Əbu Hureyrə ﷛ demişdir: "Rəsulullah ﷺ asqırdığı zaman əlini və ya libasının ətəyini ağzına tutar, beləliklə də, asqırığın səsini azaldar və ya boğardı" (Sunən Əbu Davud, 5029; Musnəd Əhməd, 2/439; Musnəd əl-Bəzzar, 8950; şeyx əl-Albani "Səhih Əbu Davud" əsərində bu hədisin "həsən-səhih" olduğunu demişdir); digər hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Qoy, sizlərdən biri asqırdığı zaman hər iki əlini üzünə tutsun və asqırığının səsini azaltsın" (Mustədrək, 7684; Səhih əl-Cami, 685). Bu hədisdə iki gözəl xislət vardır: asqırdıqda səsi qaldırmamaq və bir də əlləri üzə tutmaq. Xüsusilə qeyd etmək lazımdır ki, asqırdıqda sağ tərəfə və ya sol tərəfə dönmək Sünnəyə ziddir.

[2] Şeytanın "Əb" adı olması məsələsi qeybi məsələdir. Bunu da Abdullah ibn Ömər ﷻ özündən deyə bilməzdi. Demək, bu hədis "mərfu" hökmündədir, yəni İbn Ömər ﷻ bunu Peyğəmbərdən ﷺ eşitmişdir (Abdur-Rəzzaq əl-Abbad).

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində (səh: 347) bu hədisin isnadının "səhih" olduğunu bildirmiş, sonra demişdir: "(İbn Həcər) "Fəthul-bari" əsərində bu əsərdəki "əb" kəlməsinin yerinə "əş" kəlməsini nəql etmişdir. Ola bilsin ki, mənim ondan nəql etdiyim bu "əş" kəlməsi daha dəqiq rəvayət olsun. Çünki asqıran adamdan asqırdığı zaman daha çox "əş" hərfləri eşidilir. Habelə, İbn Əbu Şeybənin rəvayət etdiyi əsərdə (8/688/6044) xəbər verilir ki, İbrahim asqıran adamın "əşhəb" deməsini bəyənməzdi. Bu hədisin isnadındakı ravilərin hamısı etibarlı ravilərdir."

## ٤٢٣– بَابُ إِذَا عَطَسَ مِرَارًا

## 423-cü fəsil. Adam bir neçə dəfə asqırdığı zaman
(ona "Yərhəmukəllah!" deyilirmi[1])

٩٣٨– حَدَّثَنَا أَبُو الْوَلِيدِ قَالَ: حَدَّثَنَا عِكْرِمَةُ بْنُ عَمَّارٍ قَالَ: حَدَّثَنِي إِيَاسُ بْنُ سَلَمَةَ قَالَ: حَدَّثَنِي أَبِي قَالَ: كُنْتُ عِنْدَ النَّبِيِّ ﷺ فَعطَسَ رَجُلٌ، فَقَالَ: يَرْحَمُكَ اللَّهُ، ثُمَّ عَطَسَ أُخْرَى، فَقَالَ النَّبِيُّ ﷺ: ((هَذَا مَزْكُومٌ)).

**(938)** ........ Sələmə رضي الله عنه demişdir: "(Bir dəfə) mən Peyğəmbərin ﷺ yanında ikən bir nəfər asqırdı və Peyğəmbər ﷺ (ona): "Yərhəmukəllah!"– dedi. Adam bir də asqırdı. Peyğəmbər ﷺ dedi: "Bunu zökəm tutub.[2]"[3]

٩٣٩– حَدَّثَنَا قُتَيْبَةُ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنِ ابْنِ عَجْلَانَ، عَنِ الْمَقْبُرِيِّ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: شَمِّتْهُ وَاحِدَةً وَثِنْتَيْنِ وَثَلَاثًا، فَمَا كَانَ بَعْدَ هَذَا فَهُوَ زُكَامٌ.

---

[1] Müəllifin bu fəsildə nəql etdiyi dəlillərdən aydın olur ki, adam təkrar-təkrar asqırdıqda, onun üçün yalnız üç kərə rəhmət dilənilir, yəni hər asqırdıqda ona "Yərhəmukəllah!" deyilir. Və əgər dördüncü dəfə və bundan da artıq asqırarsa, artıq ona "Yərhəmukəllah!" deməyə lüzum yoxdur. Lakin belə olduğu təqdirdə ona: "Allah sənə şəfa versin!" və başqa buna bənzər dualar etmək olar. Çünki zökəm bir xəstəlikdir və xəstə üçün dua etmək neçə-neçə hədislərdə öz təsdiqini tapmışdır.

[2] İslam alimləri bu sözdən bir neçə nəticə çıxarmışlar. Biri budur ki, bunu deməklə, asqıran adamın yanında olanları onun üçün Allahdan şəfa diləməyə təşviq edirsən. Habelə, bu sözlə sanki ona üzrxahlıq edirsən ki, bir daha ona "Yərhəmukəllah!" deməyəcəksən. Bu da İslam dininin olduqca böyük əxlaq nümayiş etdirməsindən xəbər verir. Üçüncüsü də budur ki, bu sözlə həmin adama bu xəstəlikdən müalicə olunmağı nəsihət edirsən.

[3] 935-ci hədisə bax.

**(939)** ........ Əbu Hureyrə ﷺ demişdir: "Bir dəfə, iki dəfə və üç dəfə[1] (asqırıb: "Əlhəmdulilləh!"– deyən adama) "Yərhəmukəllah!"– de. Əgər bundan artıq asqırarsa, demək, onu zökəm tutub."[2]

[1] İmam Tirmizinin "Sunən" əsərində (2964) nəql edilmiş hədisdə Sələmə ibn Əkva ﷺ rəvayət etmişdir ki, bir nəfər Peyğəmbərin ﷺ yanında asqırmış və Peyğəmbər ﷺ də ona: "Yərhəmukəllah!"– demişdir. Sonra bu adam ikinci dəfə və üçüncü dəfə (asqırmış və Peyğəmbər ﷺ ona: "Yərhəmukəllah!"– demişdir. Yenə asqırdıqda) Peyğəmbər ﷺ: "Bunu zökəm tutub"– demişdir." Xüsusilə qeyd etmək lazımdır ki, bu say asqırıqlara yox, ona "Yərhəmukəllah!" deyilməyə aiddir. Yəni adam asqırdıqdan sonra ona "Yərhəmukəllah!" deyilərsə, bu, bir sayılar.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٤٢٤- بَابُ إِذَا عَطَسَ الْيَهُودِيُّ

## 424-cü fəsil. Yəhudi asqırdıqda (ona "Yərhəmukəllah!" deyilirmi?)

٩٤٠- حَدَّثَنَا مُحَمَّدُ بْنُ يُوسُفَ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ حَكِيمِ بْنِ الدَّيْلَمِ، عَنْ أَبِي بُرْدَةَ، عَنْ أَبِي مُوسَى قَالَ: كَانَ الْيَهُودُ يَتَعَاطَسُونَ عِنْدَ النَّبِيِّ ﷺ رَجَاءَ أَنْ يَقُولَ لَهُمْ: يَرْحَمُكُمُ اللَّهُ، فَكَانَ يَقُولُ: ((يَهْدِيكُمُ اللَّهُ، وَيُصْلِحُ بَالَكُمْ)).

**(940)** ........ Əbu Musa ﵁ demişdir: "Yəhudulər Peyğəmbərin ﷺ yanında qəsdən asqırardılar[1] ki, Peyğəmbər ﷺ onlara: "Yərhəmukumullah!"– desin.[2] Lakin Peyğəmbər ﷺ onlara: "Yəhdikumullahu və yuslihu baləkum![3]"– deyərdi."[4]

(...)- حَدَّثَنَا أَبُو حَفْصِ بْنُ عَلِيٍّ قَالَ: حَدَّثَنَا يَحْيَى قَالَ: حَدَّثَنَا سُفْيَانُ قَالَ: حَدَّثَنِي حَكِيمُ ابْنُ الدَّيْلَمِ قَالَ: حَدَّثَنِي أَبُو بُرْدَةَ، عَنْ أَبِيهِ مِثْلَهُ.

**(...)** Əbu Həfs ibn Əli bizə belə rəvayət etmişdir: "Yəhya bizə belə rəvayət etmişdir: "Sufyan bizə belə rəvayət etmişdir: "Həkim ibn Deyləm mənə belə rəvayət etmişdir: "Mənə Əbu Burdə öz atasından[5] bu hədisin bənzərini rəvayət etmişdir."

---

[1] Yəni asqırıb "Əlhəmdulilləh" deyərdilər.

[2] Bu, dəlildir ki, yəhudilər Peyğəmbərin ﷺ haqq yolda olduğunu və onun duasının qəbul edildiyini bilirdilər. Lakin təkəbbürlüklərindən dolayı İslam dinini qəbul etmirdilər.

[3] Peyğəmbərin ﷺ bu sözü, Kitab əhli ilə mülayim davranmağın İslam əxlaqından olduğuna dəlalət edir (25-ci, 105-ci, 128-ci və 524-cü hədislərə bax). Quranda bu xüsusda, belə buyurulur: **"Allah din uğrunda sizinlə vuruşmayan və sizi öz diyarınızdan qovub çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla insafla davranmanızı sizə qadağan etmir. Şübhəsiz ki, Allah insaflı olanları sevir"** (əl-Mumtəhənə, 8). Xüsusilə qeyd etmək lazımdır ki, Kitab əhlindən bir kimsə asqırıb "Əlhəmdulilləh!"– deyərəsə, ona ancaq "Yəhdikumullahu və yuslihu baləkum!" demək olar. "Yərhəmukəllah!", "Ğafərəllahu lənə və ləkum!" və başqa bu kimi dualar isə yalnız möminlərə aiddir.

[4] Bu hədisi Tirmizi (2958), Əhməd (4/400), Hakim (7699), Beyhəqi (Şoəbul-İman, 8908) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[5] 203-cü hədisin qeydlərinə bax.

## ٤٢٥ – بَابُ تَشْمِيتِ الرَّجُلِ الْمَرْأَةَ

## 425-ci fəsil. Kişinin qadına rəhmət diləməsi[1]

٩٤١– حَدَّثَنَا فَرْوَةُ، وَأَحْمَدُ بْنُ إِشْكَابَ، قَالاَ: حَدَّثَنَا الْقَاسِمُ بْنُ مَالِكٍ الْمُزَنِيُّ، عَنْ عَاصِمِ بْنِ كُلَيْبٍ، عَنْ أَبِي بُرْدَةَ قَالَ: دَخَلْتُ عَلَى أَبِي مُوسَى، وَهُوَ فِي بَيْتِ أُمِّ الْفَضْلِ بْنِ الْعَبَّاسِ، فَعَطَسْتُ فَلَمْ يُشَمِّتْنِي، وَعَطَسَتْ فَشَمَّتَهَا، فَأَخْبَرْتُ أُمِّي، فَلَمَّا أَنْ أَتَاهَا وَقَعَتْ بِهِ وَقَالَتْ: عَطَسَ ابْنِي فَلَمْ تُشَمِّتْهُ، وَعَطَسَتْ فَشَمَّتَّهَا، فَقَالَ لَهَا: إِنِّي سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: ((إِذَا عَطَسَ أَحَدُكُمْ فَحَمِدَ اللَّهَ فَشَمِّتُوهُ، وَإِنْ لَمْ يَحْمَدِ اللَّهَ فَلاَ تُشَمِّتُوهُ))، وَإِنَّ ابْنَكِ عَطَسَ فَلَمْ يَحْمَدِ اللَّهَ، فَلَمْ أُشَمِّتْهُ، وَعَطَسَتْ فَحَمِدَتِ اللَّهَ فَشَمَّتُّهَا، فَقَالَتْ: أَحْسَنْتَ.

**(941)** ........ Əbu Burdə[2] demişdir: “(Bir dəfə) mən Əbu Musanın yanına gəldim. O, Ummu (Kulsum bint) Fədl ibn Abbasın[3] evində idi. Bu əsnada mən asqırdım, lakin Əbu Musa mənə: “Yərhəmukəllah”– demədi. (Ummu Kulsum) asqırdıqda isə Əbu Musa ona: “Yərhəmukilləh”– dedi. Mən bunu anama xəbər verdim. (Sonra) Əbu Musa anamın yanına gəldikdə anam dedi: “(Niyə) mənim oğlum asqırdıqda ona: “Yərhəmukəllah”– demədin?

---

[1] Müəllif bu fəslə belə ünvan qoymaqla kişinin qadına “Yərhəmukilləh!” deməsinin caiz olduğunu bildirir. Lakin qeyd etmək lazımdır ki, bu, ancaq məhrəmlərə aiddir. Naməhrəm qadınla heç bir zərurət olmadan danışmaqdan isə çəkinmək gərəkdir.

[2] Əbu Burdə məşhur səhabə Əbu Musa əl-Əşarinin ﵁ oğludur. Burada o, atasının evinə gəldiyini xəbər verir.

[3] Hərçənd, kitabın bu nüsxəsində “Ummu Fədl ibn Abbas” deyilir, lakin bəzi nüsxələrdə “bint Fədl ibn Abbas” deyilir. Doğru olanı da məhz budur. Bu, İmam Muslimin “Səhih”ində (2992) nəql edilmiş rəvayətdə öz əksini tapmışdır. Bu qadın Əbu Musanın ﵁ zövcəsi və Fədl ibn Abbasın qızı Ummu Kulsumdur. Qeyd edək ki, Əbu Burdə Ummu Kulsumun oğlu yox, Əbu Musanın ﵁ o biri zövcəsindən – Ummu Abdullah bint Əbu Dumədən olan oğludur.

Ummu Kulsum asqırdıqda isə ona: "Yərhəmukilləh"– dedin?" Əbu Musa dedi: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Sizdən biriniz asqırıb, Allaha həmd etsə, ona rəhmət diləyin. Yox, əgər Allaha həmd etməzsə, ona rəhmət diləməyin." Sənin oğlun asqırıb, Allaha həmd etmədi deyə, mən ona rəhmət diləmədim.[1] Ummu Kulsum isə asqırıb, Allaha həmd etdi, mən də ona rəhmət dilədim." *Anam ona* dedi: "Əhsən sənə![2]"[3]

---

[1] Hədisə diqqət yetirsək, bizə aydın olar ki, adam asqırdıqdan sonra "Əlhəmdulilləh!" demədiyi təqdirdə ona heç nə deyilmir (930-cu, 931-ci və 932-ci hədislərə və onun qeydlərinə bax).

[2] Qadının hədisi eşidən kimi qəbul etməsi səhabələrin Sünnəyə riayət etməyə həris olduqlarından, bunu hər şeydən üstün tutduqlarından və onun sözünün qabağına söz qoymadıqlarından xəbər verir. Əbu Burdənin, başına gəlmiş bu hadisəni danışması, belə bir xətaya yol verdiyini xəbər verməsi onun olduqca təvazökar bir adam olmasından xəbər verir. Bu hadisəni danışmaqla o, sonrakı nəsillərə bu xətanı təkrar etməməyi nəsihət edir və buna görə də savab qazanır.

[3] Bu əsəri Muslim (8/225), Təbərani (Dua, 3/1694/1997) və Hakim (4/265) rəvayət etmişdir.

## ٤٢٦- بَابُ التَّثَاؤُبِ

## 426-cı fəsil. Əsnəmək[1]

٩٤٢- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ يُوسُفَ قَالَ: أَخْبَرَنَا مَالِكٌ، عَنِ الْعَلاَءِ بْنِ عَبْدِ الرَّحْمَنِ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِذَا تَثَاءَبَ أَحَدُكُمْ فَلْيَكْظِمْ مَا اسْتَطَاعَ)).

**(942)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Sizdən biriniz əsnədiyi zaman bacardığı qədər (onu) boğsun.[2]"[3]

---

[1] 919-cu hədisin qeydlərinə bax.

[2] Müəllif bu kitabda, əsnəməyin qarşısını almaq xüsusunda Peyğəmbərdən ﷺ neçə-neçə hədislər nəql etmişdir. Peyğəmbər ﷺ bu hədislərin birində əsnəməyi gələn adama bacardığı qədər bunun qarşısnı almağı (919-cu hədisə), bu fəsildəki hədisdə bacardığı qədər onu boğub saxlamağı və nəhayət, əsnəyərsə, əlini ağzına tutmağı buyurmuşdur (949-cu hədisə bax). Bundan da aydın olur ki, əsnəməyin qarşısını almağın üç mərhələsi vardır: əvvəla, adam bacardığı qədər əvvəlcədən bunun qarşısnı almalı, başqa cür desək, aktiv həyat yaşamalı, ibadətləri və zikrləri vaxtlı-vaxtında etməli, imkan daxilində çoxlu Quran oxumalı və adamı Allaha yaxınlaşdıracaq sair işlərlə məşğul olmalıdır. Və əgər buna rəğmən, onu yenə əsnəmək tutarsa, onda ağzını yumaraq bacardığı qədər onu boğub saxlamalıdır. Yox, əgər bu da kömək etməzsə, onda əsnəyərkən əlini ağzına tutmalıdır. Yeri gəlmişkən, xüsusilə qeyd etmək lazımdır ki, əsnədikdə "Əuzu billəhi minəş-şeytanir-rəcim" demək, nadan adamların sonradan dinə əlavə etdikləri bidətlərdəndir.

[3] Bu hədisi Muslim (2994), Əhməd (2/397) və İbn Hibban (2358) rəvayət etmişdir.

## ٤٢٧- بَابُ مَنْ يَقُولُ: ((لَبَّيْكَ، عِنْدَ الْجَوَابِ))

## 427-ci fəsil. Cavab verdikdə: "Buyur!"– deyən kimsə

٩٤٣- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا هَمَّامٌ، عَنْ قَتَادَةَ، عَنْ أَنَسٍ، عَنْ مُعَاذٍ قَالَ: أَنَا رَدِيفُ النَّبِيِّ ﷺ، فَقَالَ: ((يَا مُعَاذُ))، قُلْتُ: لَبَّيْكَ وَسَعْدَيْكَ، ثُمَّ قَالَ مِثْلَهُ ثَلاَثًا: ((هَلْ تَدْرِي مَا حَقُّ اللَّهِ عَلَى الْعِبَادِ؟)) قُلْتُ: لاَ، قَالَ: ((أَنْ يَعْبُدُوهُ وَلاَ يُشْرِكُوا بِهِ شَيْئًا))، ثُمَّ سَارَ سَاعَةً فَقَالَ: ((يَا مُعَاذُ))، قُلْتُ: لَبَّيْكَ وَسَعْدَيْكَ، قَالَ: ((هَلْ تَدْرِي مَا حَقُّ الْعِبَادِ عَلَى اللَّهِ عَزَّ وَجَلَّ إِذَا فَعَلُوا ذَلِكَ؟ أَنْ لا يُعَذِّبَهُمْ)).

**(943)** ........ Muaz ﷛ demişdir: [1] "(Bir dəfə) mən Peyğəmbərlə ﷺ birlikdə onun (mindiyi heyvanın[2]) tərkində ikən[3] o, dedi: "Ey Muaz!" Mən: "Buyur, əmrinə müntəzirəm, (ya Rəsulullah![4])"– dedim. O, bunu üç dəfə təkrar etdikdən[5] sonra dedi: "Bilirsənmi, Allahın qulları üzərində olan haqqı[1]

---

[1] Bu hədisi Buxari (2856, 6267, 7373), Muslim (143, 144, 145 148), Tirmizi (2855), Nəsai (10014), İbn Macə (4296), Əhməd (2/525; 3/260; 5/228, 229), İbn Hibban (210, 362), Əbu Əvanə (22), Əbu Yə'la (4239) rəvayət etmişdir.

[2] Başqa bir isnadla rəvayət edilmiş bu hədisdə Muaz ibn Cəbəl ﷛ demişdir: "Mən Ufeyr adlı uzunqulağın üstündə, Peyğəmbərin ﷺ tərkində idim" (Səhih Muslim, 144).

[3] Bu, Muazın nə dərəcədə fəzilətli olduğunu, habelə, bir kimsəni heyvanın tərkinə almağın caiz olduğunu göstərir. Peyğəmbər ﷺ bu hərəkəti ilə öz səhabəsini əzizləmişdir. Peyğəmbər ﷺ, adətən, Muaz ibn Cəbəli ﷛, Fədl ibn Abbası ﷛, Usamə ibn Zeydi ﷛, Abdullah ibn Zubeyri ﷛, Abdullah ibn Abbası ﷛ və başqa azyaşlı səhabələrini tərkinə almaqla onları əzizləyərdi.

[4] Bu, Muslimin "Səhih"indəki əlavədir.

[5] Nəvəvi demişdir: "Peyğəmbərin ﷺ Muazı təkrar çağırması, ona söyləyəcəyinə diqqət yetirməsi və onu axıra kimi dinləməsi üçün idi (Şərh ən-Nəvəvi). Ənəs ﷛ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ bir söz söylədiyi zaman, *söylədiklərini* başa düşsünlər deyə, onu üç dəfə təkrar edərdi, habelə, bir tayfanın yanına gəlib onları salamladıqda, üç kərə salam verərdi" (Səhih əl-Buxari, 94).

nədir?" Mən: "Xeyir, (bilmirəm)!"– dedim. O, buyurdu: "Qulların Ona ibadət edib, heç kəsi Ona şərik qoşmamalarıdır.[2]" Bir az keçdikdən sonra yenə dedi: "Ey Muaz!" Mən: "Buyur, əmrinə müntəzirəm"– dedim. O, dedi: "Bilirsənmi, bunu etdikləri[3] təqdirdə, onların Allah ﷻ üzərindəki haqqı nədir? *Allahın* onlara əzab verməməsidir."[4]

---

[1] Mövcud olan və ya olacaq hər bir şey haqdır (və ya həqiqətdir). Allah Subhanəhu və Təalə də Haqdır, əbədi və əzəli varlıqdır. Habelə, ölüm və Qiyamət saatı, Cənnət və Cəhənnəm də haqdır. Və əgər düz sözə haqq deyilirsə, bu o deməkdir ki, barəsində xəbər verilən şey mövcuddur.

[2] Allahın göndərdiyi peyğəmbərlərin hamısı bunu təbliğ etmişlər: **"Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun"–** ***deyə*****, elçi göndərdik"** (ən-Nəhl, 36).

[3] Yəni Allaha şərik qoşan və Ona küfr edən kimsəni Allah bağışlamayacaq. Müşriklər və kafirlər əbədi olaraq Cəhənnəmə giriftar olacaqlar. Bu xüsusda, Qurani Kərimdə belə buyurulur: **"Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa** ***olan günahları*** **isə istədiyi kimsəyə bağışlayar. Allaha şərik qoşan kəs iftira atmaqla böyük bir günah etmiş olur"** (ən-Nisa, 48); **Şübhəsiz ki, kafir olanları,** ***insanları*** **Allah yolundan sapdıranları, sonra da kafir kimi ölənləri, Allah heç vaxt bağışlamayacaqdır"** (Muhəmməd, 34).

[4] İmam Muslimin "Səhih"ində (144) nəql edilmiş bu rəvayətin sonunda deyilir ki, Muaz ibn Cəbəl ؓ Peyğəmbərə ﷺ: "Ya Rəsulullah, bu xəbərlə camaatı müjdələyimmi?"– demiş, Peyğəmbər ﷺ də ona: "Müjdələmə, yoxsa, onlar arxayınlaşacaqlar"– deyə cavab vermişdir. Lakin Muaz ibn Cəbəl ؓ ölüm ayağında ikən bunu səhabələrə bildirmişdir. Ənəs ؓ rəvayət etmişdir ki, Muaz ölüm ayağında ikən *elmi gizlətməyin* günah olduğundan *qorxub,* bunu *camaata* xəbər vermişdir (Səhih Muslim, 148). Şeyx Əbu Amr ibn əs-Səlah demişdir: "Peyğəmbər ﷺ həyat təcrübəsi və savadı olmayan kimsələrin bu müjdədən xəbər tutub çaş-baş qalacaqlarından və arxayınlaşacaqlarından qorxub, bunu ümumi şəkildə qadağan etmişdir. Halbuki, özü bunu Muaza – buna arxayınlaşmayacağına əmin olduğu səhabələrinə xəbər vermişdir. Muaz da öz növbəsində bunu etibar etdiyi yaxın adamlarına xəbər vermişdir."

## ٤٢٨ – بَابُ قِيَامِ الرَّجُلِ لأَخِيهِ

## 428-ci fəsil. Adamın öz qardaşı üçün ayağa qalxması[1]

٩٤٤ – حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي اللَّيْثُ قَالَ: حَدَّثَنِي عُقَيْلٌ، عَنِ ابْنِ شِهَابٍ قَالَ: أَخْبَرَنِي عَبْدُ الرَّحْمَنِ بْنُ عَبْدِ اللَّهِ بْنِ كَعْبِ بْنِ مَالِكٍ، أَنَّ عَبْدَ اللَّهِ بْنَ كَعْبٍ، وَكَانَ قَائِدَ كَعْبٍ مِنْ بَنِيهِ حِينَ عَمِيَ، قَالَ: سَمِعْتُ كَعْبَ بْنَ مَالِكٍ يُحَدِّثُ حَدِيثَهُ حِينَ تَخَلَّفَ عَنْ رَسُولِ اللَّهِ ﷺ عَنْ غَزْوَةِ تَبُوكَ، فَتَابَ اللَّهُ عَلَيْهِ: وَآذَنَ رَسُولُ اللَّهِ ﷺ بِتَوْبَةِ اللَّهِ عَلَيْنَا حِينَ صَلَّى صَلاَةَ الْفَجْرِ، فَتَلَقَّانِي النَّاسُ فَوْجًا فَوْجًا، يُهَنُّونِي بِالتَّوْبَةِ يَقُولُونَ: لِتَهْنِكَ تَوْبَةُ اللَّهِ عَلَيْكَ، حَتَّى دَخَلْتُ الْمَسْجِدَ، فَإِذَا بِرَسُولِ اللَّهِ ﷺ حَوْلَهُ النَّاسُ، فَقَامَ إِلَيَّ طَلْحَةُ بْنُ عُبَيْدِ اللَّهِ يُهَرْوِلُ، حَتَّى صَافَحَنِي وَهَنَّانِي، وَاللَّهِ مَا قَامَ إِلَيَّ رَجُلٌ مِنَ الْمُهَاجِرِينَ غَيْرُهُ، لا أَنْسَاهَا لِطَلْحَةَ.

---

[1] İslam alimləri bu məsələni üç qismə bölmüşlər, yəni bir adamın başqa birisi üçün ayağa qalxmasının üç halı olduğunu bildirmişlər:

Birincisi, müsəlmanın müsəlman qardaşına yardım etmək yaxud onu qarşılamaq yaxud onunla qucaqlaşıb və ya əl sıxıb görüşmək yaxud onu təbrik etmək məqsədilə və başqa buna bənzər məqsədlərlə onun üçün ayağa qalxmasıdır ki, bu halda ayağa qalxmaq mübah sayılır (944-cü hədisə bax);

İkincisi, bir adamı əzəmətləşdirmək və şişirtmək məqsədilə onun üçün ayağa qalxmaqdır ki, şəriət bunu bizə qadağan etmişdir (946-cı və 977-ci hədislərə bax);

Üçüncüsü isə, bir adamın taxt üzərində və s. yerdə oturmuş bir şəxsi əzəmətləşdirmək məqsədilə onun başı üstə farağat durmasıdır ki, şəriət bunu da bizə qadağan etmişdir (948-ci və 960-cı hədislərə bax). İslam dininin izzətli bir din olduğunu göstərmək və ya hörmətli və fəzilətli bir şəxsiyyəti düşməndən qorumaq məqsədilə onun başı üstə durmaq isə caizdir. Buna Hudeybiyə sülhü əsnasında Muğira ibn Şobənin ﵁ Rəsulullahın ﷺ yanında durmasını misal çəkmək olar. "Hudeybiyə sülhündə Muğira ibn Şöbə əlində qılınc və başında dəmir dəbilqə Peyğəmbərin ﷺ yanında dayanıb, onu qoruyurdu" (Müxtəsər Səhih əl-Buxari, 1190).

**(944)** ........ Kəb ibn Malikin ﷺ oğlanlarından biri – Abdullah ibn Kəb demişdir: “Mən Kəb ibn Malikin Təbuk[1] döyüşündə Rəsulullahla ﷺ birgə *düşmənə qarşı* vuruşmaqdan yayınması, sonra da Allahın onu bağışlaması barədə rəvayət etdiyi hədisi eşitmişəm: “Rəsulullah ﷺ Allahın bizim tövbəmizi qəbul etdiyini sübh namazını qıldıqdan sonra *səhabələrə* bildirdi. Həmin vaxt camaat dəstə-dəstə mənə yaxınlaşıb tövbəmin qəbul olması münasibətilə: “Sevin, Allah sənin tövbəni qəbul etdi!”– deyə məni təbrik edirdilər. Nəhayət, mən gəlib məscidə daxil oldum. Baxdım ki, Rəsulullah ﷺ oturub, camaat da onun başına yığılıb. Bu vaxt Talhə ibn Ubeydullah qalxıb tələsik mənə yaxınlaşdı və əlimi sıxıb məni təbrik etdi. Vallahi, ondan başqa mühacirlərdən heç kəs məni təbrik etmək üçün ayağa qalxmadı. Mən Talhənin bu münasibətini heç vaxt unutmaram.”[2]

---

[1] Mədinədən 700 km şimalda yerləşən şəhər.

[2] Bu hədisi Buxari (2757, 2947, 2948, 2949, 2950, 3088, 3556, 3889, 3951, 4418, 4673, 4676, 4677, 4678, 6255, 6690, 7225), Muslim (716) və Əhməd (6/388-389) rəvayət etmişdir. Fayda üçün hədisin tam variantını sizə təqdim edirik:

Rəvayət edilir ki, Kəb ibn Malik ﷺ demişdir: “Təbuk döyüşündən başqa Peyğəmbərin ﷺ apardığı döyüşlərin heç birindən yayınmamışdım. Bədr döyüşündən yayınmağıma gəlincə, ondan yayınanları Peyğəmbər ﷺ qınamamışdı. Çünki o zaman Peyğəmbər ﷺ döyüşmək üçün yox, Qureyş karvanının yolunu kəsmək üçün çıxmışdı. Allah da onları vədələşmədikləri bir yerdə düşmənləri ilə üz-üzə gətirdi. Əqəbə beyətində hamımız İslamı yaşatmağa dair Peyğəmbərə ﷺ beyət etdik. İnsanlar arasında Bədr döyüşünün Əqəbə beyətindən daha üstün sayılmasına baxmayaraq, mənim üçün Əqəbə beyəti daha sevimli idi. Təbuk döyüşünə gəldikdə isə, bu döyüşdən yayındığım zaman özümü başqa döyüşlərdə olduğundan daha qüvvətli və daha gümrah hiss edirdim. Allaha and olsun ki, bundan öncə heç vaxt mənim bir dəvədən artıq miniyim olmamışdı. Bu döyüş vaxtı isə mənim iki dəvəm var idi. Döyüşə çıxmaq istədikdə ikibaşlı danışmaqla həqiqi məqsədini bildirməmək Peyğəmbərin ﷺ adəti idi. Nəhayət, Peyğəmbər ﷺ Təbuk döyüşünə şiddətli bir istidə yola düşdü. Bu səfər çox uzun və təhlükəli, *qarşılaşacaqları düşmən* sayı isə çox olduğundan, Peyğəmbər ﷺ müsəlmanlara bütün bunları nəzərə alıb hazırlıq görsünlər

deyə, məqsədini açıqlayıb, gedəcəyi istiqaməti xəbər verdi. O zaman Peyğəmbərin ﷺ yanında olan müsəlmanların sayı olduqca çox idi və o, bu müsəlmanların adlarını xüsusi bir kitabda qeyd etməmişdi. Heç kim döyüşdən yayınmaq istəmirdi. Yalnız döyüşdən yayınmaq istəyən az sayda müsəlman elə zənn edirdi ki, vəhy nazil olmayınca, onların bu hərəkətindən Peyğəmbər ﷺ xəbər tutmayacaq. Peyğəmbər ﷺ müsəlmanlarla birgə hazırlıq görüb, meyvələrin yetişdiyi və ağac kölgələrinin xoş olduğu bir isti payız günündə bu döyüşə çıxdı. O zaman onlar döyüşə hazırlaşarkən, mən də hər səhər döyüşə hazırlaşmaq məqsədilə evdən çıxır və hər axşam heç bir hazırlıq görmədən evə qayıdıb öz-özümə: "Hazırlıq görmək üçün hələ vaxt var"– deyirdim. Camaat döyüşə tam hazır olana qədər bu səhlənkarlıq məndə davam etdi. Səhəri gün Peyğəmbər ﷺ və müsəlmanlar artıq səfərə yola düşdülər. Mən isə hələ də hazırlıq görməmişdim. Mən yenə öz-özümə dedim: "Bir-iki günə hazırlıq gördükdən sonra gedib onlara çataram." Onlar Mədinədən çıxdıqdan sonra mən yenə də hazırlıq görmək üçün evdən çıxdım və heç bir iş görmədən axşam evə qayıtdım. *Ertəsi gün yenə* hazırlıq görmək üçün evdən çıxdım və heç bir iş görmədən axşam evə qayıtdım. Bu hal məndə, onların tez bir zamanda düşmənlə qarşılaşdıqları vaxtadək davam etdi və mən bu döyüşdə iştirak etmək fürsətini əldən buraxdım. Bütün bunlara baxmayaraq, mən yenə də onlara çatmaq fikrində idim. Kaş ki bu fikrimi doğruldaydım. Lakin bu mənə müyəssər olmadı. Peyğəmbər ﷺ Mədinədən çıxıb döyüşə getdikdən sonra insanlar arasına çıxdıqda məni ən çox kədərləndirən o idi ki, burada yalnız münafiqlikdə ittiham olunanlar və Allahın döyüşə getməməyə rüsxət verdiyi zəiflər qalmışdı. Peyğəmbər ﷺ Təbuka gəlib, çatana qədər mənim barəmdə düşünmədi. Təbukda ikən, səhabələr arasında olduqda, məni xatırlayıb dedi: "Kəb nə etdi?" Bənu Sələmə qəbiləsindən olan bir nəfər dedi: "Ya Rəsulullah, Kəbi iki gözəl libası və özündən razı halda yan-yörəsinə baxması Mədinədə saxladı." Muaz ibn Cəbəl dedi: "Sənin dediyin bu söz necə də pisdir! Vallahi, ya Rəsulullah, biz Kəbdən yaxşılıqdan başqa bir şey görməmişik." Peyğəmbər ﷺ heç nə demədi. Onların Mədinəyə qayıtma xəbərini eşitdikdə kədər məni bürüdü, artıq yalan danışmaq barəsində düşünməyə başladım və öz-özümə dedim: "Mən nə edim ki, sabah onun qəzəbindən xilas olum?" Sonra mən bu iş barəsində təcrübəsi olan yaxınlarımla məsləhətləşdim. Peyğəmbərin ﷺ Mədinəyə yaxınlaşması xəbəri mənə yetişdikdə bütün batil fikirləri özümdən uzaqlaşdırdım və başa düşdüm ki, uydurduğum yalan fikirlərlə özümə bəraət qazandıra bilməyəcəyəm. Ona görə də qərara gəl-

dim ki, hər şeyi olduğu kimi Peyğəmbərə ﷺ söyləyim. Səhəri gün Peyğəmbər ﷺ Mədinəyə gəldi və adəti üzrə məscidə daxil olub iki rükət namaz qıldı. Sonra da orada olan camaatla *hal-əhval tutmaq üçün* birgə oturdu. Bu vaxt Təbuk döyüşündən yayınan səksəndən artıq kişi gəlib Peyğəmbərə ﷺ müxtəlif bəhanələr gətirməklə və and içməklə üzrxahlıq etməyə başladılar. Rəsulullah ﷺ onların aşkarda dediklərini qəbul etdi, onlardan bir daha vəd aldı, onlar üçün bağışlanma dilədi, qəlblərində gizlətdiklərini isə Allaha həvalə etdi. Bu zaman mən də Peyğəmbərin ﷺ hüzuruna gəlib ona salam verdim. Peyğəmbər ﷺ məni görəndə gülümsədi, lakin qəzəbli olduğu hiss olunurdu. Peyğəmbər ﷺ: "Gəl!"– deyə məni çağırdı. Mən yaxınlaşıb onun qarşısında oturdum və o, mənə dedi: "Bu döyüşdən yayınmağının səbəbi nə idi? Məgər? sən bundan öncə *İslamı yaşatmağa* söz verməmişdin?" Mən dedim: "Elədir, *ya Rəsulullah,* vallahi ki, mən başqa birisinin hüzurunda olsaydım, bir bəhanə gətirməklə onun qəzəbindən canımı necə qurtaracağımı görərdin. Doğrudan da, mənim çox fəsahətli danışıq qabiliyyətim var. Vallahi, mən başa düşdüm ki, əgər mən bu gün yalan danışmaqla səni razı salsam, sonra Allah sənə həqiqəti bildirdikdə mənə qəzəblənəcəksən, lakin sənə həqiqəti söyləsəm, sənin mənə qəzəbin tutsa da, Allahın məni bağışlayacağına ümid edəcəyəm. Xeyr, vallahi ki, mənim bu döyüşdən yayındığıma bəraət qazandıracaq heç bir üzürlü səbəbim yoxdur. Çünki mən heç vaxt özümü indiki kimi qüvvətli və gümrah hiss etməmişdim." Peyğəmbər ﷺ dedi: "Bu, doğru söylədi. Ey Kəb, get, Allah sənin barəndə hökm verənə qədər səbir et." Mən çıxıb getdikdə Bənu Sələmə qəbiləsindən olan bir dəstə kişi tələsik arxamca gəlib mənə dedi: "Vallahi, biz səni bundan əvvəl günahkar bir şəxs kimi tanımamışıq. Sən döyüşdən yayınan digər şəxslər kimi Peyğəmbərə ﷺ üzrxahlıq etməyib aciz qaldın. Halbuki, sənin bu günahın üçün Peyğəmbərin ﷺ bağışlanma diləməyi kifayət edərdi." Vallahi, onlar məni o qədər qınadılar ki, qayıdıb yalan söylədiyimi bildirmək istədim. Sonra da: "Məndən başqa belə hərəkət edən bir kimsə varmı?"– deyə soruşdum. Onlar dedilər: "Bəli, iki nəfər də sən dediyin kimi həqiqəti söylədi və sənə deyilənlər onlara da deyildi." Mən onların kim olduğunu soruşduqda onlar: "Bu, Murara ibn Rəbi əl-Amri və Hilal ibn Ümeyyə əl-Vaqifidir"– deyib, Bədr döyüşündə iştirak etmiş, nümunəvi olan iki səhabəni mənə bildirdilər. Onlar bunu mənə söylədikdən sonra *fikrimdən dönməyib* çıxıb getdim. Peyğəmbər ﷺ döyüşdən yayınanlar arasında yalnız bizim üçümüzlə danışmağı müsəlmanlara qadağan etdi. Camaat bizdən uzaqlaşdı və onların bizə qarşı olan münasibəti dəyişdi. Hətta, bu

yerlər mənim üçün qəribləşdi. Bu hal əlli gün davam etdi. Bu müddət ərzində Murara və Hilal Allahın qədərinə boyun əyməklə evlərində oturub ağlayırdılar. Mən isə onlardan daha gənc və daha dözümlü olduğum üçün müsəlmanlarla birlikdə namazlarda iştirak edir və bazarlarda gəzib dolaşırdım, lakin heç kəs mənimlə danışmırdı. Namazdan sonra Peyğəmbərin ﷺ yanına gəlib salam verər və öz-özümə deyərdim: "Görəsən, onun dodaqları tərpəndimi, mənim salamımı aldımı?" Sonra onun yaxınlığında namaz qılar və gizlincə ona nəzər salardım. Namaza gəldiyim zaman Peyğəmbər ﷺ mənə tərəf baxardı, ancaq mən ona tərəf baxdıqda, o, məndən üz çevirərdi. İnsanların məndən üz çevirməsi və mənə qarşı olan soyuq münasibətləri beləcə davam etdi. Bir gün mən əmim oğlu Əbu Qətadənin həyət divarını aşıb onun yanına gəldim. Əbu Qətadə ən çox sevdiyim insanlardan biri idi. Mən ona salam verdim, ancaq, vallahi , o, mənim salamımı almadı. Mən dedim: "Ey Əbu Qətadə! Səni and verirəm Allaha, de görüm mənim Allahı və Onun rəsulunu ﷺ sevən bir bəndə olduğumu bilirsənmi?" O susdu. Mən bir daha Allaha and verib soruşduqda, o, yenə də cavab vermədi. Mən üçüncü dəfə Allaha and verib soruşduqda, dedi: "Allah və Onun rəsulu daha yaxşı bilir!" Bu cavabdan sonra gözlərim yaşla doldu və mən hasarı aşıb oradan uzaqlaşdım. Sonra bir gün mən Mədinə bazarında gəzib dolaşarkən ora ticarət etmək üçün gəlmiş, Şam əhlindən olan bir nəsrani əkinçi: "Mən Kəb ibn Maliki necə tapa bilərəm?"– deyə soruşdu və bazardakılar işarə edib məni ona göstərdilər. O yaxınlaşıb, Ğəssan vilayətinin hökmdarının məktubunu mənə təqdim etdi. Orada bu sözlər yazılmışdı: "Sonrasına gəlincə... Məndə olan məlumatlara görə dostun səninlə çox sərt davranır. Doğrusu, Allah səni təhqir olunacağın və sıxıntı çəkəcəyin bir yerdə qalmaq üçün yaratmamışdır. Elə isə, bizim yanımıza gəl, sənə layiqincə hörmət edək." Bu məktubu oxuduqdan sonra mən: "Bu da bir imtahandır"– deyib, onu təndirə atıb yandırdım. Qırx gün keçdikdən sonra Peyğəmbərin ﷺ göndərdiyi adam gəlib mənə dedi: "Allahın rəsulu ﷺ sənə həyat yoldaşından uzaqlaşmağı əmr edir." Mən dedim: "Onu boşayım, ya yox?" Dedi: "Yox, *boşama,* lakin ondan uzaq dur və onunla yaxınlıq etmə!" Peyğəmbər ﷺ bu xəbəri Murara və Hilala da göndərmişdi. Mən həyat yoldaşıma dedim: "Atanın evinə get və Allahın hökmü nazil olanadək orada qal!" Hilal ibn Ümeyyənin zövcəsi Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah, Hilal artıq qocalmış və əldən düşmüşdür. Ona xidmət edəcək bir kimsə yoxdur. Ona xidmət göstərməyimə də qadağa qoyursan?" O buyurdu: "Xeyr, lakin səninlə yaxınlıq etməsin." Hilalın zövcəsi dedi:

“Vallahi ki, onun heç hərəkət etməyə taqəti qalmayıb. Bu hadisə baş verəndən bəri o, dayanmadan ağlayır.” Mənim də yaxınlarımdan bəziləri mənə dedilər: “Bəlkə sən də Peyğəmbərdən ﷺ izin istəyəsən və o, Hilal ibn Ümeyyənin zövcəsinə ona xidmət etmək üçün izin verdiyi kimi sənin zövcənə də izin versin.” Mən dedim: “Vallahi, mən bu barədə Peyğəmbərdən ﷺ izin istəməyəcəyəm. Mən nə bilim ki, o, nə cavab verəcək. Bundan başqa mən hələ gəncəm.” Mən on gün də gözlədim və artıq Peyğəmbərin ﷺ qadağan etdiyi günlərin sayı əlliyə çatdı. Mən əllinci gün sübh namazını qılıb, evlərimizdən birinin damının üstündə Allahın ayədə zikr etdiyi vəziyyətdə, yəni ürəyim təngə gəlib sıxılmış və gen dünya mənə dar olmuş bir halda, oturmuşdum ki, birdən Səl dağının üstünə çıxıb, uca səslə çağıran carçının: “Ey Kəb ibn Malik, sevin!”– dediyini eşitdim. Mən dərhal səcdə etdim və başa düşdüm ki, artıq sevinc və fərəh gəlmişdi. Peyğəmbər ﷺ sübh namazını qıldıqdan sonra Allahın bizim tövbələrimizi qəbul etdiyini insanlara bəyan etmiş və onlar da bu şad xəbəri bizə çatdırmağa tələsmişlər. Bəziləri Muraranı və Hilalı müjdələmək üçün onların yanına getmişdilər. Onlardan biri atını çaparaq məni müjdələməyə gəlmiş, digəri isə Səl dağına qalxıb, oradan bu müjdəni mənə daha tez çatdırmışdı. Çünki səsin sürəti atın sürətindən daha tez çatır. Səsini eşitdiyim müjdəçi mənim yanıma gəldikdə libasımı ona verdim. Vallahi, özümün bundan başqa libasım olmadığı üçün Əbu Qətadədən libas aldım və onu geyib Peyğəmbərin ﷺ yanına getdim. Səhabələr dəstə-dəstə məni qarşılayır və tövbəmin qəbul olunması münasibətilə məni təbrik edib deyirdilər: “Allahın tövbəsi sənə xeyirli olsun!” Mən məscidə daxil olduqda, Peyğəmbər ﷺ orada oturmuş və camaat da onun ətrafına toplaşmışdı. Talhə ibn Ubeydullah qalxaraq sürətlə mənə tərəf gəlib əlimi sıxdı və məni təbrik etdi. Vallahi, ondan başqa mühacirlərdən heç kəs məni təbrik etmək üçün ayağa qalxmadı. Mən onun bu münasibətini heç vaxt unutmaram. Mən Peyğəmbərə ﷺ salam verdikdə, o, sevinclə parlayan üzünü mənə tərəf çevirib dedi: “Anan səni dünyaya gətirdiyi gündən bəri sənin üçün ən xeyirli olan bu günün səadətilə sevin!” Mən: “Ya Rəsulullah, bu müjdə sənin tərəfindəndir, yoxsa Allahın?”– deyə soruşduqda, o buyurdu: “Xeyr, əksinə, bu, Allah tərəfindən olan bir müjdədir.” Adətən, Peyğəmbər ﷺ sevindikdə onun üzü ay parçası kimi parlayardı. Biz də onun sevindiyini bu görkəmindən hiss edərdik. Mən Peyğəmbərin ﷺ qarşısında oturub dedim: “Ya Rəsulullah, tövbəm qəbul olunduğu üçün var-dövlətimi Allah və Onun rəsuluna ﷺ sədəqə etmək istəyirəm.” Peyğəmbər ﷺ buyurdu: “Var-dövlətinin bir hissəsini özündə saxla. Bu, sənin

üçün daha xeyirlidir." Mən dedim: "Xeybər döyüşündə əldə olunmuş qənimətdən payıma düşən hissəni özüm üçün saxlayıram. Ya Rəsulullah! Həqiqətən, Allah məni bu sıxıntıdan yalnız doğru danışdığım üçün qurtardı. Elə buna görə də, bundan sonra yalnız doğru danışacağam." Vallahi ki, Peyğəmbərə ﷺ doğru söylədiyim vaxtdan bəri Allahın kimi isə doğru danışmaqda məni imtahana çəkdiyindən daha gözəl imtahana çəkdiyini bilmirəm. Bütün bunları Peyğəmbərə ﷺ söylədikdən sonra bu günədək yalan danışmaq niyyətində olmadım və Allahdan istəyirəm ki, bundan sonra da bu işdə məni qorusun. Elə buna görə də Allah Öz peyğəmbərinə ﷺ bu ayəni nazil etdi: **"Allah, *müsəlmanlardan* bəzilərinin qəlbi *cihaddan* yayınmaq üzrə olduqdan sonra, Peyğəmbərin də, çətin vaxtda onun ardınca gedən mühacirlərin və ənsarların da *əvvəlcə* tövbəsini qəbul etdi, sonra da onları bağışladı. Çünki *Allah* onlara qarşı Şəfqətlidir, Rəhmlidir. Geri qalmış üç nəfəri də *bağışladı*. Hətta yer üzü öz genişliyinə baxmayaraq onlara dar gəlmiş, ürəkləri *kədərdən* sıxılmış və yəqin bilmişdilər ki, Allahın *əzabından*, ancaq Onun Özünə sığınmaqdan başqa çarələri yoxdur. Sonra *Allah* peşman olsunlar deyə onların tövbəsini qəbul etdi. Həqiqətən, Allah tövbələri qəbul Edəndir, Rəhmlidir. Ey iman gətirənlər! Allahdan qorxun və düz danışanlarla birlikdə olun"** (ət-Tovbə ,117-119). Vallahi ki, İslam nemətindən sonra Allahın mənə bəxş etdiyi nemətlərdən ən gözəli Peyğəmbərə ﷺ doğru danışmaqdır ki, yalan danışıb həlak olanlardan olmayım. Uca Allah yalan danışanları məzəmmət edərək onlar barəsində bu ayəni nazil etmişdir: **"Yanlarına qayıtdığınız zaman, onlardan əl çəkəsiniz deyə, qarşınızda Allaha and içəcəklər. Siz onlardan üz döndərin. Çünki onlar murdardırlar. Qazandıqları *günahların* cəzası olaraq sığınacaqları yer Cəhənnəm olacaqdır. Qarşınızda and içəcəklər ki, onlardan razı qalasınız. Siz onlardan razı olsanız da, Allah fasiq camaatdan razı qalmaz"** (ət-Tovbə, 95-96). Peyğəmbər ﷺ bizim üçümüzdən başqa, döyüşdən yayınanların hər birindən and içib, üzr diləmələrini qəbul etdi, həmçinin, onların beyətini qəbul edib, onlar üçün bağışlanma dilədi. Lakin bizim barəmizdə olan hökmü Allahın əmri gələnə qədər təxirə saldı. Bu haqda Uca Allah belə buyurur: **"Geri qalmış üç nəfəri də *bağışladı*..."** (ət-Tovbə ,118) Bu ayədə qeyd olunmuş "geri qalanlar" ifadəsi heç də bizim Təbuk döyüşündən geri qalmağımıza işarə deyil. Əksinə, bu bizim barəmizdə olan hökmün and içərək Peyğəmbərdən ﷺ üzr diləyənlər barəsində olan hökmdən *əlli gün* geri qalmasıdır" (Səhih əl-Buxari, 4418).

**٩٤٥**– حَدَّثَنَا مُحَمَّدُ بْنُ عَرْعَرَةَ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ سَعْدِ بْنِ إِبْرَاهِيمَ، عَنْ أَبِي أُمَامَةَ بْنِ سَهْلِ بْنِ حُنَيْفٍ، عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ، أَنَّ نَاسًا نَزَلُوا عَلَى حُكْمِ سَعْدِ بْنِ مُعَاذٍ، فَأَرْسَلَ إِلَيْهِ، فَجَاءَ عَلَى حِمَارٍ، فَلَمَّا بَلَغَ قَرِيبًا مِنَ الْمَسْجِدِ قَالَ النَّبِيُّ ﷺ: ((ائْتُوا خَيْرَكُمْ، أَوْ سَيِّدَكُمْ))، فَقَالَ: ((يَا سَعْدُ إِنَّ هَؤُلَاءِ نَزَلُوا عَلَى حُكْمِكَ))، فَقَالَ سَعْدٌ: أَحْكُمُ فِيهِمْ أَنْ تُقْتَلَ مُقَاتِلَتُهُمْ، وَتُسْبَى ذُرِّيَّتُهُمْ، فَقَالَ النَّبِيُّ ﷺ: ((حَكَمْتَ بِحُكْمِ اللَّهِ))، أَوْ قَالَ: ((حَكَمْتَ بِحُكْمِ الْمَلِكِ)).

**(945)** ........ Əbu Səid əl-Xudri ﷺ demişdir: "(Qureyzəlilər[1] məğlub olduqdan sonra) Səd ibn Muazın[2] (onlara dair) hökm verməyinə razılaşdılar.

---

[1] Müsəlmanlarla saziş bağlamış və onların tərəfində olacağına söz vermiş Bənu-Qureyzə adlı yəhudi qəbiləsi Xəndək döyüşündə, müttəfiqlərlə ittifaq bağlayıb müşriklərin tərəfinə keçmişdir. Elə bu səbəbdən də, Peyğəmbər ﷺ onlara qarşı vuruşmuşdur.

[2] Əbu Amr Səd ibn Muaz ibn Noman əl-Ovsi əl-Əşhəli əl-Ənsari ﷺ Peyğəmbərin ﷺ məşhur səhabəsidir. Ovs qəbiləsinin başçısı olmuş, Musab ibn Umeyrin ﷺ dəvəti ilə İslam dinini qəbul etmiş, sonra da öz qəbilə üzvlərinin hamısının birdən müsəlman olmasına səbəb olmuşdur. Fəzilətinə dair bir çox hədislər rəvayət olunmuşdur. Cabir ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "(Allahın) Ərşi Səd ibn Muazın ölümünə görə titrədi" (Səhih əl-Buxari, 3803). Digər bir hədisdə Aişə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ belə demişdir: "Hər bir kəsi qəbir sıxacaqdır. Əgər kimsə qəbir sıxılmasından qurtulmuş olsaydı, bu, Səd ibn Muaz olardı" (Silsilətul-Əhadisis-Səhihə, 1695). Ənəs ﷺ demişdir: "*Bir dəfə* Peyğəmbərə ﷺ ipək cübbə hədiyyə etdilər. Halbuki, o, *kişilərə* ipək geyməyi qadağan etmişdir. Camaat bu cübbənin zərifliyinə heyran qaldı. Peyğəmbər ﷺ *onların təəccüblə baxdığını görüb* dedi: "Muhəmmədin canı Əlində olan Allaha and olsun ki, Səd ibn Muazın Cənnətdəki dəsmalları bundan da gözəldir (bundan da zərif, bundan da xeyirlidir)" (Səhih əl-Buxari, 3248; Səhih Tirmizi, 3847; Səhih ibn Hibban 6997; Siyər Əlam ən-Nubələ, 56-cı tərcümeyi-hal). Səd ibn Muaz ﷺ Xəndək döyüşündən bir ay sonra 37 yaşında vəfat etmişdir (Tarix əz-Zəhəbi, 2/327). Ənəs ibn Malik rəvayət edir ki, Səd ibn Muazın cənazəsi aparılarkən münafiqlər: "Bunun cənazəsi necə də yüngüldür!"– dedilər. Bu da, onun Bəni-Qureyzə barəsində verdiyi qərara görə idi. Bu söz Peyğəmbərə ﷺ yetiş-

Onda Peyğəmbər ﷺ Sədin yanına adam göndərdi və Səd uzunqulağına minib (onun yanına) gəldi. Səd məscidə[1] yaxınlaşdıqda Peyğəmbər ﷺ (ənsara) dedi: “Qalxın, ən xeyirlinizi və ya böyüyünüzü qarşılayın!” Sonra (Peyğəmbər ﷺ Sədə) dedi: “Ey Səd, bunlar sənin (onlara dair) hökm verməyinə razıdırlar.” Səd dedi: “Mən onların barəsində belə hökm çıxarıram ki, (bizə qarşı) vuruşanları öldürülsün, zürriyyətləri[2] isə kölə edilsin.” Peyğəmbər ﷺ dedi: “Sən Allahın hökmü ilə hökm verdin!” yaxud: “Sən Malikin[3] hökmü ilə hökm verdin!”[4]

**٩٤٦**- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ حُمَيْدٍ، عَنْ أَنَسٍ قَالَ: مَا كَانَ شَخْصٌ أَحَبَّ إِلَيْهِمْ رُؤْيَةً مِنَ النَّبِيِّ ﷺ، وَكَانُوا إِذَا رَأَوْهُ لَمْ يَقُومُوا إِلَيْهِ، لِمَا يَعْلَمُونَ مِنْ كَرَاهِيَتِهِ لِذَلِكَ.

**(946)** ........ Ənəs رضي الله عنه demişdir: “Səhabələr heç kəsi Peyğəmbəri ﷺ görmək istədikləri qədər çox görmək istəmirdilər. (Lakin buna rəğmən) onlar Peyğəmbəri ﷺ gördükdə, onun üçün ayağa qalxmazdılar. Çünki onlar Peyğəmbərin ﷺ bu əməli xoşlamadığını bilirdilər.[5]”[6]

---

dikdə, o, dedi: “Onun cənazəsini mələklər aparırdılar” (Sunən ət-Tirmizi, 3849; Səhih ət-Tirmizi, 3024; Mişkatul-Məsabih, 6228).

[1] Söhbət Bənu Qureyzə qəbiləsinin yaxınlığındakı məsciddən gedir.

[2] Burada “zurriyyət” deyildikdə onların qadınları və uşaqları nəzərdə tutulur.

[3] Malik – Allahın adlarından biridir.

[4] Bu hədisi Buxari (4121), Muslim (1768) və Əhməd (3/22 və 71) rəvayət etmişdir.

[5] Bu, dəlildir ki, bir adamı əzəmətləşdirmək məqsədilə onun üçün ayağa qalxmaq qadağandır (həmçinin, 977-ci hədisə bax).

[6] Bu hədisi Tirmizi (2/125), Əhməd (3/132), Təhavi (Muşkilul-Asar, 2/39), Əbu Yə'la (2/183), Bəğəvi (Şərhus-Sunnə, 3329) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “səhih” olduğunu demişdir.

**٩٤٧-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْحَكَمِ قَالَ: أَخْبَرَنَا النَّضْرُ قَالَ: حَدَّثَنَا إِسْرَائِيلُ قَالَ: أَخْبَرَنَا مَيْسَرَةُ بْنُ حَبِيبٍ قَالَ: أَخْبَرَنِي الْمِنْهَالُ بْنُ عَمْرٍو قَالَ: حَدَّثَتْنِي عَائِشَةُ بِنْتُ طَلْحَةَ، عَنْ عَائِشَةَ أُمِّ الْمُؤْمِنِينَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: مَا رَأَيْتُ أَحَدًا مِنَ النَّاسِ كَانَ أَشْبَهَ بِالنَّبِيِّ ﷺ كَلاَمًا وَلاَ حَدِيثًا وَلاَ جِلْسَةً مِنْ فَاطِمَةَ، قَالَتْ: وَكَانَ النَّبِيُّ ﷺ إِذَا رَآهَا قَدْ أَقْبَلَتْ رَحَّبَ بِهَا، ثُمَّ قَامَ إِلَيْهَا فَقَبَّلَهَا، ثُمَّ أَخَذَ بِيَدِهَا فَجَاءَ بِهَا حَتَّى يُجْلِسَهَا فِي مَكَانِهِ، وَكَانَتْ إِذَا أَتَاهَا النَّبِيُّ ﷺ رَحَّبَتْ بِهِ، ثُمَّ قَامَتْ إِلَيْهِ فَقَبَّلَتْهُ، وأَنَّهَا دَخَلَتْ عَلَى النَّبِيِّ ﷺ فِي مَرَضِهِ الَّذِي قُبِضَ فِيهِ، فَرَحَّبَ وَقَبَّلَهَا، وَأَسَرَّ إِلَيْهَا، فَبَكَتْ، ثُمَّ أَسَرَّ إِلَيْهَا، فَضَحِكَتْ، فَقُلْتُ لِلنِّسَاءِ: إِنْ كُنْتُ لَأَرَى أَنَّ لِهَذِهِ الْمَرْأَةِ فَضْلاً عَلَى النِّسَاءِ، فَإِذَا هِيَ مِنَ النِّسَاءِ، بَيْنَمَا هِيَ تَبْكِي إِذَا هِيَ تَضْحَكُ، فَسَأَلْتُهَا: مَا قَالَ لَكِ؟ قَالَتْ: إِنِّي إِذًا لَبَذِرَةٌ، فَلَمَّا قُبِضَ النَّبِيُّ ﷺ، فَقَالَتْ: أَسَرَّ إِلَيَّ فَقَالَ: ((إِنِّي مَيِّتٌ))، فَبَكَيْتُ، ثُمَّ أَسَرَّ إِلَيَّ فَقَالَ: ((إِنَّكِ أَوَّلُ أَهْلِي بِي لُحُوقًا))، فَسُرِرْتُ بِذَلِكَ وَأَعْجَبَنِي.

**(947)** ........ Möminlərin anası Aişə ﵂ demişdir: "İnsanlardan sözündə, danışığında və oturuşunda Peyğəmbərə ﷺ Fatimədən daha çox oxşayan bir adam görməmişəm. Peyğəmbər ﷺ Fatimənin onun yanına gəldiyini gördükdə ona: "Xoş gəldin!"– deyər, sonra da ayağa qalxıb onu öpərdi.[1] Sonra Peyğəmbər ﷺ onun əlindən tutar və gətirib öz yerində otuzdurardı. Həmçinin, Peyğəmbər ﷺ onun yanına gəldikdə Fatimə ona: "Xoş gəldin!"– deyər, sonra da ayağa qalxıb onu öpərdi. (Nəhayət,) vəfat etməsinə səbəb olan xəstəliyə tutulduğu zaman Fatimə onun yanına gəldi. Peyğəmbər ﷺ yenə ona: "Xoş gəldin"– dedi. (Fatimə Peyğəmbərə ﷺ tərəf əyildikdə) Peyğəmbər ﷺ onu öpdü və ona pıçıltı ilə bir söz dedi. Fatimə ağlamağa başladı. Sonra yenə ona pıçıltı ilə söz dedi. Fatimə güldü. Mən qadınlara de-

---

[1] Valideynin övladı gördükdə ayağa qalxması övladına olan mərhəmətdən irəli gəlir.

dim: "Düşünürəm ki, bu qadının digər qadınların yanında üstünlüyü[1] vardır. Halbuki, o da, bir qadındır. O, əvvəlcə ağlamağa başladı, sonra isə

---

[1] Fatimənin ﷺ üstünlüyünə dair neçə-neçə "səhih" rəvayətlər varid olmuşdur. Fayda üçün bunlardan bəzisini sizə təqdim edirik:

1. Fatimə ﷺ, insanlara və cinlərə peyğəmbər göndərilmiş Muhəmməd səllallahu aleyhi və səlləmin qızıdır;

2. Fatimə ﷺ, İslam dinini ilk əvvəl qəbul edənlərdən biri, həmçinin, sağlığında ikən Cənnətlə müjdələnmiş on nəfərdən biri, habelə, Cənnətin səbirsizliklə gözlədiyi üç nəfərdən biri və nəhayət, Harun ﷺ Musaya ﷺ yaxın olduğu kimi, Muhəmməd peyğəmbərə ﷺ yaxın olmuş Əli ibn Əbu Talib ﷺ kimi şəxsiyyətin zövcəsidir;

3. Fatimə ﷺ, Cənnət cavanlarının ən hörmətlisi, Peyğəmbərin ﷺ reyhan qoxulu nəvələri Həsən ﷺ və Hüseynin ﷺ anasıdır;

4. Fatimə ﷺ, insanlar arasında sözündə, danışığında və oturuşunda Peyğəmbərə ﷺ ən çox oxşayan kəsdir (əl-Ədəbul-Mufrad, 947);

5. Fatimə ﷺ, sağlığında ikən Cənnətlə müjdələnmiş səhabələrdəndir; Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Fatimə Cənnətdəki qadınların ən hörmətlisi olacaq. Yalnız İmranın qızı Məryəm istisnadır" (Sunən ən-Nəsai, 8169; Müstədrək, 4778; Mocəm əl-Kəbir, 2610; Səhih ibn Hibban, 6959; Şərh əs-Sünnə, 14/138; Silsilətul Əhadis əs-Səhihə, 796; Səhih əl-Cami, 5492);

6. Fatimə ﷺ, (anası Xədicə bint Xuveylid ﷺ istisna olmaqla) bu ümmətin qadınlarının ən fəzilətlisidir; bir zaman Peyğəmbər ﷺ onu müjdələyib demişdir: "Ey Fatimə! Bu ümmətin qadınlarının ən fəzilətlisi olmağına razı deyilsənmi?" (Səhih əl-Buxari, 6286; Səhih Muslim, 7/142-144; Sunən ən-Nəsai əl-Kubra, 5/96; Sunən İbn Macə, 1621; Musnəd Əhməd, 6/282);

7. Fatimə ﷺ, Muhəmməd peyğəmbərin ﷺ ciyərparəsidir; Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Fatimə mənim bir paramdır. Ona əziyyət verən hər nə varsa, mənə də əziyyət verir" (Səhih əl-Buxari, 4829; Səhih Muslim, 2449; Sunən Əbu Davud, 2071; Sunən ət-Tirmizi, 4243; Musnəd Əhməd, 4/326); digər hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim Fatiməni qəzəbləndirərsə, məni qəzəbləndirmiş olar" (Səhih əl-Buxari, 3437);

8. Fatimə ﷺ, Muhəmməd peyğəmbərin ﷺ ailəsindən ona ilk qovuşan şəxsdir; Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Ailəmdən mənə qovuşan ilk kəs sən olacaqsan!" (Səhih əl-Buxari, 3623);

9. Fatimə ﷺ, Peyğəmbərin ﷺ öz əbası altına aldığı və: "Allahım, bunlar mənim əhli-beytimdir"– dediyi dörd nəfərdən biridir; Aişə ﷺ rəvayət edir ki, bir səhər Peyğəmbər ﷺ əynində qara yundan əba evdən bayıra çıxdı. Bu vaxt Əlinin oğlu Həsən, onun ardınca Hüseyn, onun dalınca (öz qızı) Fatimə, onun dalınca da Əli Peyğəmbərin ﷺ yanına gəldi və Peyğəmbər ﷺ onları əbasının altına alıb, bu ayəni oxudu: **"Ey ev əhli! Allah sizdən günahınızı silib aparmaq və sizi tərtəmiz etmək istəyir"** (Səhih Muslim, 2404); digər rəvayətdə Peyğəmbər ﷺ: "Allahım, bunlar mənim əhli-beytimdir"– demişdir (Səhih Muslim, 2424);

10. Fatimə ﷺ, qəbirə qoyularkən üzərinə örtük çəkilən ilk qadındır; Ummu Cəfər rəvayət edir ki, Muhhəmmədin ﷺ qızı Fatimə ölüm yatağında ikən Əsmaya dedi: "Ey Əsma! Qadınların sadəcə kəfənə bükülmüş halda dəfn edilməsi mənim xoşuma gəlmir. Çünki belə olduğu təqdirdə onların bədən üzvləri bilinir." Əsma ona: "Ey Rəsulullah səllallahu aleyhi və səlləmin qızı! Həbəşistanda gördüyüm bir şeyi sənə göstərimmi?"– dedi, sonra da yaş budaqlar gətizdirib yerə qoydu və onun üzərinə örtük tutdu." Onda Fatimə dedi: "Bu nə gözəldir! Bunun sayəsində kişini qadından fərqləndirmək olar. Mən öləndən sonra məni ancaq sən və bir də (ərim) Əli yusun, habelə, sizdən başqa heç kəsi mənim yanıma buraxmayın." Fatimə vəfat etdikdən sonra Əsma və Əli onu yudu, (sonra da onu Əsmanın məsləhət gördüyü tərzdə dəfn etdilər)" (Sunən əl-Beyhəqi, 7180; Hilyətul-Ovliya, 2/43; Cilbabul-Mərətul-Muslimə, 1/135). Muhəmməd Nasirəddin əl-Albani bu əsəri nəql etdikdən sonra demişdir: "Peyğəmbərin ﷺ ciyərparəsi olmuş Fatiməyə bir baxın, görün o, ölü qadının libasının necə olmasını təmənna edir. (Təmənna edir ki, kişilər onun bədən əzalarını görməsinlər.) Və şəkk yoxdur ki, Fatimə bir qadının sağlığında ikən açıq-saçıq geyinməsinə daha çox və daha çox nifrət bəsləyirmiş. Belə isə o dövrdəki qadınlarla bu dövrdəki açıq-saçıq geyinən, zinət yerlərini naməhrəmlərə göstərən bəzi müsəlman qadınları müqayisə edin! Qoy, bu qadınlar Uca Allahdan bağışlanma diləsinlər, Ona tövbə etsinlər və Rəsulullahın ﷺ bu hədisini qulaqlarında sırqa etsinlər. Rəsulullah ﷺ demişdir: "Həya ilə iman tamamilə bir-birinə bağlıdırlar. Bunlardan biri

güldü." Mən ondan soruşdum: "Peyğəmbər ﷺ sənə nə dedi?" Fatimə dedi: "(Əgər mən bunu desəm,) sirri yaymış olaram." Peyğəmbər ﷺ vəfat etdikdən sonra Fatimə dedi: "Peyğəmbər ﷺ (əvvəlcə) mənə pıçıldayıb: "Mən ölürəm!"– dedi. Mən də buna ağladım. (Sonra) yenə mənə pıçıldayıb: "Ailəmdən mənə qovuşan ilk adam sən olacaqsan!"– dedi və mən buna sevindim, bu, mənim xoşuma gəldi."[1]

---

aradan qaldırılsa, digəri də aradan qaldırılar (yəni həyası əlindən getmiş adamın imanı da əlindən gedər)" (Mustədrək əl-Hakim, 58; Cilbabu Mərətil-Muslimə, 1/136);

11. Peyğəmbərin ﷺ nəslindən bu günümüzə qədər yalnız Fatimədən رضي الله عنها dünyaya gəlmiş kimsələrin nəsli davam etməkdədir; Uca Allah Muhəmməd peyğəmbərə ﷺ yeddi övlad bəxş etmişdir. Onların dördü qız, üçü isə oğlan uşağı olmuşdur. Oğlanları – Abdullah, Qasim və İbrahim – üçü də uşaq ikən vəfat etmişdir. Qızları isə böyüyüb həddi-büluğa çatmış və ərə getmişlər. Böyük qızı Zeynəbin, Əbul-Asdan Umamə adlı qızı və Abdullah adlı oğlu olmuşdur. Abdullah uşaq ikən vəfat etmiş, Umamə isə böyüyüb həddi-büluğa çatmış və ərə getmişdir. Lakin ondan olan uşaqlardan Peyğəmbərin ﷺ nəsli davam etməmişdir. Ruqiyyəni isə Peyğəmbər ﷺ Osman ibn Əffana ərə vermiş, lakin ondan övladı olmamışdır. Ruqiyyə vəfat etdikdən sonra Peyğəmbər ﷺ Ummu Kulsumu Osmana ərə vermişdir. Osmanın Ummu Kulsumdan qızı olmuş, lakin o, körpə ikən vəfat etmişdir. Nəhayət, Peyğəmbər ﷺ Fatiməni Əli ibn Əbu Talibə ərə vermiş və ondan Peyğəmbərimizin ﷺ dörd nəvəsi olmuşdur. Həsən, Hüseyn, Zeynəb və Ummu Kulsum. Ummu Kulsum Ömər ibn Xattaba ərə getmiş və ondan dünyaya iki övlad gətirmişdir. Lakin hər ikisi uşaq ikən vəfat etmişdir. Zeynəbi isə Abdullah ibn Cəfər almış, ancaq ondan övladı olmamışdır. Deməli, Rəsulullahın ﷺ nəsli, yalnız Həsən رضي الله عنه və Hüseyndən رضي الله عنه davam etmişdir. Yəni, Rəsulullahın ﷺ nəslindən olduğunu iddia edən hər kəs, bu iki səhabədən birinin nəslindən ola bilər;

12. Qiyamətə yaxın gələcək, "Mehdi" ləqəbi ilə tanınacaq Muhəmməd ibn Abdullah məhz Fatimənin رضي الله عنها nəslindən, daha dəqiq desək, Həsən ibn Əli ibn Əbu Talibin رضي الله عنهما zürriyyətindən olacaq (Şərh Sunən Əbu Davud).

[1] Bu hədisi Buxari (3623, 3625, 3715, 4433, 6285), Muslim (2450), Nəsai (Sunən əl-Kubra 8368), İbn Macə (1621) və Əhməd (6/282) rəvayət etmişdir.

## ٤٢٩- بَابُ قِيَامِ الرَّجُلِ لِلرَّجُلِ الْقَاعِدِ

## 429-cu fəsil. Adamın oturan adam üçün ayağa qalxması

٩٤٨- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي اللَّيْثُ قَالَ: حَدَّثَنِي أَبُو الزُّبَيْرِ، عَنْ جَابِرٍ قَالَ: اشْتَكَى النَّبِيُّ ﷺ، فَصَلَّيْنَا وَرَاءَهُ وَهُوَ قَاعِدٌ، وَأَبُو بَكْرٍ يُسْمِعُ النَّاسَ تَكْبِيرَهُ، فَالْتَفَتَ إِلَيْنَا فَرَآنَا قِيَامًا، فَأَشَارَ إِلَيْنَا فَقَعَدْنَا، فَصَلَّيْنَا بِصَلاَتِهِ قُعُودًا، فَلَمَّا سَلَّمَ قَالَ: ((إِنْ كِدْتُمْ لَتَفْعَلُوا فِعْلَ فَارِسَ وَالرُّومِ، يَقُومُونَ عَلَى مُلُوكِهِمْ وَهُمْ قُعُودٌ، فَلاَ تَفْعَلُوا، ائْتَمُّوا بِأَئِمَّتِكُمْ، إِنْ صَلَّى قَائِمًا فَصَلُّوا قِيَامًا، وَإِنْ صَلَّى قَاعِدًا فَصَلُّوا قُعُودًا)).

**(948)** ........ Cabir ﷺ demişdir: “Peyğəmbər ﷺ xəstələndiyi vaxt oturmuş vəziyyətdə namaz qıldı,[1] biz də onun arxasında namaz qıldıq. Əbu Bəkr onun təkbirlərini camaata eşitdirirdi. Birdən, Peyğəmbər ﷺ bizə tərəf çevrilib, bizim ayaq üstə durduğumuzu gördü və (əli ilə) bizə işarə etdi, biz də (yerə) oturduq. Onun namazına tabe olub, oturmuş halda namaz qıldıq.[2]

---

[1] Peyğəmbər ﷺ bu halda belə camaat namazına gələrmiş. Bu da camaatla namaz qılmağın fəzilətinə və vacibliyinə dəlalət edir. Peyğəmbərin ﷺ səhabələri də, həmçinin belə olmuşlar. Rəvayət edilir ki, Misvər ibn Məxrəmə demişdir: “Ömər ibn Xattab vurulduğu günün səhəri mən gəlib onu sübh namazına oyatdım. O, yuxudan oyanan kimi dedi: “Gedək, namaz qılmayan kimsənin İslamdan heç bir payı yoxdur!” Bunu deyəndən sonra o qalxıb yarasından qan axa-axa camaat namazına getdi” (əl-Muvatta, 51; şeyx Albani “İrvaul-Ğəlil” əsərində (209) bu hədisin “səhih” olduğunu demişdir).

[2] Qeyd etmək lazımdır ki, imamın arxasında duranlar namaz əsnasında dörd cür hərəkətə yol verə bilərlər. Ya imama tabe olur, ya namazdakı hərəkətləri onunla bərabər yerinə yetirir, ya onu qabaqlayır, ya da ləngiyirlər. Tabe olmaq deyildikdə, namazdakı hərəkətləri imamın arxasınca dərhal yerinə yetirmək nəzərdə tutulur. Yəni imam rükuya gedən kimi rükuya getmək, səcdədən qalxan kimi səcdədən qalxmaq və s. hərəkətləri onun ardınca dərhal yerinə yetirmək gərəkdir. Bunu etmək isə vacibdir. Hərəkətləri imamla bərabər yerinə yetirmək isə Sünnəyə ziddir. Alimlərin bir qismi bunu məkruh,

Peyğəmbər ﷺ salamları verdikdən sonra belə buyurdu: "Bayaqları az qala farslar və rumlular kimi hərəkət edəcəkdiniz. Onlar padşahları oturmuş ikən onların qarşısında ayaq üstə dururlar. Siz belə etməyin. İmamlarınıza tam şəkildə tabe olun! İmam ayaq üstə namaz qılarsa, siz də ayaq üstə namaz qılın. Oturulu halda namaz qılarsa, siz də oturulu halda namaz qılın.[1]"[2]

---

digərləri isə haram hesab etmişlər. Hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: "İmam ona görə təyin olunmuşdur ki, (arxasında) namaz qılanlar ona tabe olsunlar. Odur ki, o, təkbir gətirdikdə siz də təkbir gətirin və təkbir gətirməyincə, siz təkbir gətirməyin. Habelə, rükuya getdikdə siz də rükuya gedin və rükuya getməyincə, siz rükuya getməyin..." (Sunən Əbu Davud, 603). İmamı qabaqlamaq məsələsinə gəlincə, bunu etmək haramdır. O ki qaldı, ləngiməyə - yəni imam növbəti hərəkətə keçənə qədər ona tabe olmamağa, bunu etmək məkruhdur (Məcmu Fətavə vər-Rəsail, 979-cu fətva).

[1] Xüsusilə qeyd etmək lazımdır ki, Peyğəmbərin ﷺ ömrünün son günlərində, namazı camaata Əbu Bəkr qıldırdığı zaman Peyğəmbər ﷺ xəstə olmasına baxmayaraq, camaat namazına gəlmiş və Əbu Bəkrin yanında oturub, namazını qılmışdır. Həmin namazları Əbu Bəkr ayaq üstə Peyğəmbərə ﷺ tabe olaraq *camaata* qıldırmış, camaat da Əbu Bəkrə tabe olaraq namaz qılmışdır. Bu əsnada Əbu Bəkr başda olmaqla camaat namaza ayaq üstə dursalar da, Peyğəmbər ﷺ bu namazı oturulu vəziyyətdə qılmışdır (Səhih əl-Buxari, 687; Səhih Muslim, 936). Bəzi İslam alimləri bu hədisin fəsildə qeyd olunan bu hədisin hökmünü, – imam namazı oturulu vəziyyətdə qılırsa, ona tabe olan camaat da oturulu halda qılması hökmünü ləğv etdiyini demişlər. İmam Əhməd isə bu iki hədisi cəm edib demişdir: "Əgər imam namaza lap əvvəldən oturulu vəziyyətdə başlasa, camaat da oturmalı, ayaq üstə qılarsa, camaat da ayaq üstə durmalıdır. Və əgər imam namaz əsnasında gəlib camaata qoşular və namazı oturulu halda davam edərsə, onda camaat bu namazı başladıqları qaydada ayaq üstə davam etməlidirlər."

[2] Bu hədisi Muslim (928) Nəsai (535), İbn Macə (1240), Əhməd (3/334) İbn Xuzeymə (486) və Beyhəqi (5728) rəvayət etmişdir.

## ٤٣٠- بَابُ إِذَا تَثَاءَبَ فَلْيَضَعْ يَدَهُ عَلَى فِيهِ

## 430-cu fəsil. (Adam) əsnədikdə əlini ağzına tutmalıdır

٩٤٩- حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا خَالِدٌ قَالَ: حَدَّثَنَا سُهَيْلٌ، عَنِ ابْنِ أَبِي سَعِيدٍ، عَنْ أَبِي سَعِيدٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِذَا تَثَاءَبَ أَحَدُكُمْ فَلْيَضَعْ يَدَهُ بِفِيهِ، فَإِنَّ الشَّيْطَانَ يَدْخُلُ فِيهِ)).

**(949)** ........ Əbu Səid ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Qoy, sizdən biriniz əsnədiyi zaman əlini ağzına tutsun.[1] Yoxsa şeytan onun ağzına girə bilər.[2]"[3]

٩٥٠- حَدَّثَنَا عُثْمَانُ قَالَ: حَدَّثَنَا جَرِيرٌ، عَنْ مَنْصُورٍ، عَنْ هِلاَلِ بْنِ يَسَافٍ، عَنْ عَطَاءٍ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: إِذَا تَثَاءَبَ فَلْيَضَعْ يَدَهُ عَلَى فِيهِ، فَإِنَّمَا هُوَ مِنَ الشَّيْطَانِ.

**(950)** ........ İbn Abbas ﷺ demişdir: "(Sizdən biriniz) əsnədikdə, əlini ağzına tutsun. Çünki bu[4] şeytandandır."[5]

٩٥١- حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا بِشْرُ بْنُ الْمُفَضَّلِ قَالَ: حَدَّثَنَا سُهَيْلٌ قَالَ: سَمِعْتُ ابْنًا لِأَبِي سَعِيدٍ الْخُدْرِيِّ يُحَدِّثُ أَبِي، عَنْ أَبِيهِ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((إِذَا تَثَاءَبَ أَحَدُكُمْ فَلْيُمْسِكْ عَلَى فِيهِ، فَإِنَّ الشَّيْطَانَ يَدْخُلُهُ)).

---

[1] 919-cu və 942-ci hədislərin qeydlərinə bax.

[2] Əsnədikdə əli ağıza qoymağın faydası budur ki, əvvəla, bu hərəkət şeytanın adamın ağzına girməsinə mane olur. İkincisi, şeytandan başqa zərərli hər nə varsa, həşəratların və s. də həmçinin, adamın ağzına düşməsinin qabağını alır. Və nəhayət, adam belə etməklə İslam ədəbini nümayiş etdirmiş olur.

[3] Bu hədisi Muslim (8/226), Tirmizi (370), Əhməd (3/37, 93) və İbn Hibban (4/44/2354) rəvayət etmişdir .

[4] Yəni əsnəmək.

[5] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

**(951)** ........ Əbu Səid ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: “Qoy, sizlərdən biri əsnədiyi zaman *əlini* ağzına tutsun. Çünki şeytan onun ağzına girə bilər.”[1]

(...)– حَدَّثَنَا خَالِدُ بْنُ مَخْلَدٍ قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ قَالَ: حَدَّثَنِي سُهَيْلٌ قَالَ: حَدَّثَنِي عَبْدُ الرَّحْمَنِ بْنُ أَبِي سَعِيدٍ، عَنْ أَبِيهِ، أَنَّ النَّبِيَّ ﷺ قَالَ: ((إِذَا تَثَاءَبَ أَحَدُكُمْ فَلْيُمْسِكْ بِيَدِهِ فَمَهُ، فَإِنَّ الشَّيْطَانَ يَدْخُلُهُ)).

**(...)** Əbu Səid ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Qoy, sizdən biriniz əsnədiyi zaman əlini ağzına tutsun. Yoxsa şeytan onun ağzına girə bilər.”[2]

---

[1] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “səhih” olduğunu demişdir.

[2] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “səhih” olduğunu demişdir.

## ٤٣١– بَابُ هَلْ يَفْلِي أَحَدٌ رَأْسَ غَيْرِهِ؟

## 431-ci fəsil. Bir adam əl barmaqlarıyla başqa birisinin başını təmizləyə bilərmi?

٩٥٢– حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ يُوسُفَ قَالَ: أَخْبَرَنَا مَالِكٌ، عَنْ إِسْحَاقَ بْنِ أَبِي طَلْحَةَ، أَنَّهُ سَمِعَ أَنَسَ بْنَ مَالِكٍ يَقُولُ: كَانَ النَّبِيُّ ﷺ يَدْخُلُ عَلَى أُمِّ حَرَامٍ ابْنَةِ مِلْحَانَ، فَتُطْعِمُهُ، وَكَانَتْ تَحْتَ عُبَادَةَ ابْنِ الصَّامِتِ، فَأَطْعَمَتْهُ وَجَعَلَتْ تَفْلِي رَأْسَهُ، فَنَامَ ثُمَّ اسْتَيْقَظَ يَضْحَكُ.

**(952)** ........ Ənəs ﷺ demişdir:[1] "Peyğəmbər ﷺ vaxtaşırı Ummu Həram bint Milhanın[2] yanına gedər o da Peyğəmbərə ﷺ yemək verərdi. Ummu Həram Ubadə ibn Samitin[3] həyat yoldaşı idi. Yenə bir gün Peyğəmbər ﷺ onun yanına gəldi. Qadın ona yemək verdi və onun saçlarını təmizləməyə başladı. Bundan sonra Peyğəmbər ﷺ (uzanıb) yatdı. (Çox keçmədən Peyğəmbər ﷺ) yuxudan oyanıb gülməyə başladı.[4]"

---

[1] Müəllif bu hədisi öz "Səhih"ində də (7002) rəvayət etmişdir.

[2] Ummu Həram bint Milhan ibn Xalid əl-Ənsariyyə ən-Nəccariyyə ﷺ Peyğəmbərin ﷺ səhabəsi və Ənəs ibn Malikin xalasıdır (Siyər Əlam ən-Nubələ, 58-ci tərcümeyi-hal). Ummu Həram ən-Nəccariyyə ﷺ Peyğəmbərin ﷺ məhrəmlərindəndir. Belə ki, o, Peyğəmbərin ﷺ süd xalasıdır.

[3] Əbul-Vəlid Ubadə ibn Samit ibn Qeys əl-Ənsari ﷺ Peyğəmbərin ﷺ səhabəsidir (Siyər Əlam ən-Nubələ, 3/1).

[4] Bu hədisin davamında deyilir: "Ummu Həram soruşdu: "Niyə gülürsən, ya Rəsulullah?" Peyğəmbər ﷺ dedi: "Yuxuda mənə ümmətimdən bir dəstə mücahidin bu dənizin ortasında taxtlar üzərində oturmuş hökmdarlar kimi Allah yolunda dəniz döyüşünə çıxdığı göstərildi." Ummu Həram: "Ya Rəsulullah, Allaha dua et, mənə onların arasında olmağı nəsib etsin"– dedi, Peyğəmbər ﷺ də onun üçün dua etdi. Sonra Peyğəmbər ﷺ uzanıb yatdı və *çox keçmədən* yuxudan oyanıb *yenə* gülməyə başladı."

**٩٥٣-** حَدَّثَنَا عَلِيُّ بْنُ عَبْدِ اللهِ قَالَ: حَدَّثَنَا الْمُغِيرَةُ بْنُ سَلَمَةَ أَبُو هِشَامٍ الْمَخْزُومِيُّ، وَكَانَ ثِقَةً، قَالَ: حَدَّثَنَا الصَّعْقُ بْنُ حَزْنٍ قَالَ: حَدَّثَنِي الْقَاسِمُ بْنُ مُطَيَّبٍ، عَنِ الْحَسَنِ، عَنْ قَيْسِ بْنِ عَاصِمٍ السَّعْدِيِّ قَالَ: أَتَيْتُ رَسُولَ اللهِ ﷺ فَقَالَ: ((هَذَا سَيِّدُ أَهْلِ الْوَبَرِ))، فَقُلْتُ: يَا رَسُولَ اللهِ، مَا الْمَالُ الَّذِي لَيْسَ عَلَيَّ فِيهِ تَبِعَةٌ مِنْ طَالِبٍ، وَلاَ مِنْ ضَيْفٍ؟ فَقَالَ رَسُولُ اللهِ ﷺ: ((نِعْمَ الْمَالُ أَرْبَعُونَ، وَالأَكْثَرُ سِتُّونَ، وَوَيْلٌ لأَصْحَابِ الْمِئِينَ إِلاَّ مَنْ أَعْطَى الْكَرِيمَةَ، وَمَنَحَ الْغَزِيرَةَ، وَنَحَرَ السَّمِينَةَ، فَأَكَلَ وَأَطْعَمَ الْقَانِعَ وَالْمُعْتَرَّ))، قُلْتُ: يَا رَسُولَ اللهِ، مَا أَكْرَمَ هَذِهِ الأَخْلاَقِ، لاَ يُحَلُّ بِوَادٍ أَنَا فِيهِ مِنْ كَثْرَةِ نَعَمِي؟ فَقَالَ: ((كَيْفَ تَصْنَعُ بِالْعَطِيَّةِ؟)) قُلْتُ: أُعْطِي الْبَكْرَ، وَأُعْطِي النَّابَ، قَالَ: ((كَيْفَ تَصْنَعُ فِي الْمَنِيحَةِ؟)) قَالَ: إِنِّي لأَمْنَحُ النَّاقَةَ، قَالَ: ((كَيْفَ تَصْنَعُ فِي الطَّرُوقَةِ؟)) قَالَ: يَغْدُو النَّاسُ بِحِبَالِهِمْ، وَلاَ يُوزَعُ رَجُلٌ مِنْ جَمَلٍ يَخْتَطِمُهُ، فَيُمْسِكُهُ مَا بَدَا لَهُ، حَتَّى يَكُونَ هُوَ يَرُدُّهُ، فَقَالَ النَّبِيُّ ﷺ: ((فَمَالُكَ أَحَبُّ إِلَيْكَ أَمْ مَالُ مَوَالِيكَ؟)) قُلْتُ: مَالِي، قَالَ: ((فَإِنَّمَا لَكَ مِنْ مَالِكَ مَا أَكَلْتَ فَأَفْنَيْتَ، أَوْ أَعْطَيْتَ فَأَمْضَيْتَ، وَسَائِرُهُ لِمَوَالِيكَ))، فَقُلْتُ: لاَ جَرَمَ، لَئِنْ رَجَعْتُ لأُقِلَّنَّ عَدَدَهَا، فَلَمَّا حَضَرَهُ

---

*Ummu Həram dedi*: "Mən soruşdum: "Niyə gülürsən, ya Rəsulullah?" Peyğəmbər ﷺ: "Yuxuda mənə ümmətimdən bir dəstə adamın Allah yolunda döyüşə çıxdığı göstərildi"– dedi və əvvəlki sözləri ona təkrar etdi. Mən dedim: "Ya Rəsulullah, Allaha dua et, mənə onların arasında olmağı nəsib etsin." Peyğəmbər ﷺ dedi: "Sən əvvəlkilərin arasında olacaqsan."

Muaviyə ibn Əbu Sufyanın xilafəti dövründə Ummu Həram dəniz döyüşündə iştirak etmiş və sahilə çıxdıqda atından yerə yıxılıb ölmüşdür" (Səhih əl-Buxari, 7002); bu hədisi açıqlayan digər hədisdə rəvayət edilir ki, Peyğəmbərin ﷺ ona: "Ümmətimdən ilk dəniz döyüşünə çıxan orduya *Cənnətə girmək* vacib olacaq!"– dedikdə, Ummu Həram: "Ya Rəsulullah, mən onların arasında olacağammı?"– deyə soruşmuş, Peyğəmbər ﷺ də ona: "Sən onların arasında olacaqsan"– demişdir. Sonra Peyğəmbər ﷺ: "Ümmətimdən Qeysərin şəhərinə (Konstantinopola) yürüş edən ilk ordunun *günahları* bağışlanacaq!"– demiş və Ummu Həram ondan: "Ya Rəsulullah, mən onların arasında olacağammı?"– deyə soruşduqda, Peyğəmbər ﷺ ona: "Xeyr!"– deyə cavab vermişdir" (Səhih əl-Buxari, 2934).

الْمَوْتُ جَمَعَ بَنِيهِ فَقَالَ: يَا بَنِيَّ، خُذُوا عَنِّي، فَإِنَّكُمْ لَنْ تَأْخُذُوا عَنْ أَحَدٍ هُوَ أَنْصَحُ لَكُمْ مِنِّي: لاَ تَنُوحُوا عَلَيَّ، فَإِنَّ رَسُولَ اللَّهِ ﷺ لَمْ يُنَحْ عَلَيْهِ، وَقَدْ سَمِعْتُ النَّبِيَّ ﷺ يَنْهَى عَنِ النِّيَاحَةِ، وَكَفِّنُونِي فِي ثِيَابِي الَّتِي كُنْتُ أُصَلِّي فِيهَا، وَسَوِّدُوا أَكَابِرَكُمْ، فَإِنَّكُمْ إِذَا سَوَّدْتُمْ أَكَابِرَكُمْ لَمْ يَزَلْ لِأَبِيكُمْ فِيكُمْ خَلِيفَةٌ، وَإِذَا سَوَّدْتُمْ أَصَاغِرَكُمْ هَانَ أَكَابِرُكُمْ عَلَى النَّاسِ، وزهدوا فيكم وَأَصْلِحُوا عَيْشَكُمْ، فَإِنَّ فِيهِ غِنًى عَنْ طَلَبِ النَّاسِ، وَإِيَّاكُمْ وَالْمَسْأَلَةَ، فَإِنَّهَا آخِرُ كَسْبِ الْمَرْءِ، وَإِذَا دَفَنْتُمُونِي فَسَوُّوا عَلَيَّ قَبْرِي، فَإِنَّهُ كَانَ يَكُونُ شَيْءٌ بَيْنِي وَبَيْنَ هَذَا الْحَيِّ مِنْ بَكْرِ بْنِ وَائِلٍ: خُمَاشَاتٌ، فَلاَ آمَنُ سَفِيهًا أَنْ يَأْتِيَ أَمْرًا يُدْخِلُ عَلَيْكُمْ عَيْبًا فِي دِينِكُمْ.

قَالَ عَلِيٌّ: فَذَاكَرْتُ أَبَا النُّعْمَانِ مُحَمَّدَ بْنَ الْفَضْلِ، فَقَالَ: أَتَيْتُ الصَّعْقَ بْنَ حَزْنٍ فِي هَذَا الْحَدِيثِ، فَحَدَّثَنَا عَنِ الْحَسَنِ، فَقِيلَ لَهُ: عَنِ الْحَسَنِ؟ قَالَ: لاَ، يُونُسُ بْنُ عُبَيْدٍ، عَنِ الْحَسَنِ، قِيلَ لَهُ: سَمِعْتَهُ مِنْ يُونُسَ؟ قَالَ: لاَ، حَدَّثَنِي الْقَاسِمُ بْنُ مُطَيَّبٍ، عَنْ يُونُسَ بْنِ عُبَيْدٍ، عَنِ الْحَسَنِ، عَنْ قَيْسٍ، فَقُلْتُ لِأَبِي النُّعْمَانِ: فَلِمَ تَحْمِلُهُ؟ قَالَ: لاَ، ضَيَّعْنَاهُ.

**(953)** ........ Həsən əl-Bəsir rəvayət edir ki, Qeys ibn Asim əs-Sədi ﵁ demişdir: “Mən (Təmim qəbiləsi ilə birgə) Rəsulullahın ﷺ yanına gəldim və o (mənim barəmdə): “Bu (adam) dəvə sahiblərinin ən hörmətlisidir”– dedi.[1] Mən dedim: “Ya Rəsulullah! O hansı maldır ki, mən ondan nə dilənçiyə, nə də qonağa verməyə borcluyam?” Rəsulullah ﷺ dedi: “Qırx dəvə nə gözəldir. Ən çoxu isə altmışdır. Yüzlər sahibinin isə vay halına! Yalnız malının qiymətlisini sədəqə verən, məhsuldar heyvanı kirayə verən,[2] kök olanını qurban kəsib, həm özü yeyən, həm də dilənçiyə və ehtiyacı olub dilənməyənə yedirdən kimsə istisnadır.” Mən dedim: “Ya Rəsulullah, bu nə

---

[1] Bu, dəlildir ki, Rəsulullah ﷺ başqa qəbilələrdən də xəbərdar idi.

[2] 69-cu hədisin qeydlərinə bax.

gözəl əxlaqdır! Elə bir vadi yoxdur ki, orada mənim çoxlu dəvəm olmasın." Rəsulullah ﷺ soruşdu: "Sədəqəni necə verirsən?" Mən dedim: "Həm cavan dəvəni, həm də yaşlı dəvəni (Allah yolunda sədəqə) verirəm." Rəsulullah ﷺ soruşdu: "Kirayəni necə verirsən?" Mən dedim: "Mən (hər il dəvələrimdən yüzünü) kirayə verirəm." Rəsulullah ﷺ soruşdu: "Cütləşmə yaşına çatmış yetkin erkək dəvələri nə edirsən?" Mən dedim: "İnsanlar səhər-səhər iplərini əllərinə alıb yola çıxır, özlərinə bir kimsənin mane olmadığı halda, (öz dəvələrini cütləşdirmək məqsədi ilə mənim dəvələrimdən) qarşısına çıxan dəvələrdən istədiyini tutub burnuna noxta vurur və öz istəyi ilə geri qaytarana qədər *dəvə* onda qalır." Rəsulullah ﷺ soruşdu: "(Necə bilirsən,) sənin malın sənə daha sevimlidir, yoxsa varislərinin malı?" Mən dedim: "Əlbəttə ki, öz malım." Rəsulullah ﷺ dedi: "Malından sənə ancaq yeyib, həzm etdiyin və (ya sədəqə) verib, özün üçün yığdığın qalar. Yerdə qalanı isə varislərinindir."[1] Mən dedim: "Eybi yoxdur, geri dönən kimi dəvələrimin sayını azaldacağam[2] (Allah yolunda daha çox sədəqə verəcəyəm)."

(Nəhayət,) ölüm ona[3] yetişdiyi zaman oğlanlarını[4] başına toplayıb dedi: "Oğullarım, nəsihətimi qəbul edin! Sizə məndən daha yaxşı nəsihət verən tapmayacaqsınız ki, ondan nəsihət alasınız. (Mən öldükdən sonra mənim üçün) vay-şivən salmayın.[5] Çünki Rəsulullah ﷺ üçün heç kəs vay-şivən

---

[1] 153-cü hədisə və onun qeydlərinə bax.

[2] Səhabənin bu sözü onların Peyğəmbərin ﷺ nəsihətinə tərəddüd etmədən və onları təxirə salmadan yerinə yetirdiklərindən xəbər verir.

[3] Burada söhbət Qeys ibn Asimdən ؓ gedir.

[4] İbn Hibban və digərləri Qeys ibn Asimin ؓ otuz üç oğlu olduğunu söyləmişlər.

[5] Bu, dəlildir ki, valideyn ölüm ayağında ikən öz övladlarına onun üçün vay-şivən salmamağı vəsiyyət etməlidir.

salmamışdır. Mən Peyğəmbərin ﷺ (adam öldükdə onun üçün) vay-şivən qoparmağı qadağan etdiyini eşitmişəm. Məni namaz qıldığım bürüncəyimə bürüyərsiniz. Həmçinin, böyüklərinizi uca tutun, çünki siz böyüklərinizi uca tutduqca, onlar sizin atalarınızı əvəz edərlər. Kiçiklərinizi uca tutduqda isə, bu hərəkət böyüklərinizi həmyaşıdları arasında rəzil edər və onlar sizdən üz çevirərlər. Yaşayışınızı düzəldin, çünki *yaxşı* yaşayış adamı dilənməkdən xilas edər. İnsanlardan bir şey istəməkdən çəkinin, çünki bir şey istəmək insanın (çarəsiz qalmış adamın) son qazancıdır. Mən öləndən sonra qəbrimi yerlə bərabər edin, çünki bu məhəllədə yaşayan Bəkr ibn Vail ilə mənim aramda savaşlar olub. Mən bir səfehin dininizdə sizə nöqsan gətirəcək bir iş görməyəcəyinə əmin deyiləm.[1]"[2]

Əli (ibn Mədini) demişdir: "Mən (bu hədisi) Əbu Nomən Muhəmməd ibn Fədlə danışdım. O, dedi: "Mən bu hədis barədə məlumat almaq üçün Saq ibn Həznin yanına gəldim. O, Həsənin bu hədisi rəvayət etdiyini bizə xəbər verdi. Ondan soruşdular: "Bu hədisi Həsən (əl-Bəsri) rəvayət edib?" O, dedi: "Xeyr, (bu hədisi) Yunus ibn Ubeyd, Həsəndən rəvayət etmişdir." Yenə soruşdular: "Sən bu hədisi Yunusdan eşitmisənmi?" O, dedi: "Xeyr, (bu hədisi) mənə Qasim ibn Mutayyəb, Yunus ibn Ubeyddən, o da, Həsəndən, o da, Qeysdən rəvayət etmişdir." Mən Əbu Nomənə dedim: "Sən bunu əzbər bilirsənmi?" O, dedi: "Xeyr, əzbər bilmirəm."

---

[1] 361-ci hədisin qeydlərinə bax.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən li-ğeyrihi" olduğunu demişdir.

## ٤٣٢- بَابُ تَحْرِيكِ الرَّأْسِ وَعَضِّ الشَّفَتَيْنِ عِنْدَ التَّعَجُّبِ

## 432-ci fəsil. Təəccübləndikdə, başı tərpətmək və dodaqları dişləmək

**٩٥٤-** حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا وُهَيْبٌ قَالَ: حَدَّثَنَا أَيُّوبُ، عَنْ أَبِي الْعَالِيَةِ قَالَ: سَأَلْتُ عَبْدَ اللَّهِ بْنَ الصَّامِتِ قَالَ: سَأَلْتُ خَلِيلِي أَبَا ذَرٍّ، فَقَالَ: أَتَيْتُ النَّبِيَّ ﷺ بِوَضُوءٍ، فَحَرَّكَ رَأْسَهُ، وَعَضَّ عَلَى شَفَتَيْهِ، قُلْتُ بِأَبِي أَنْتَ وَأُمِّي آذَيْتُكَ؟ قَالَ: ((لاَ، وَلَكِنَّكَ تُدْرِكُ أُمَرَاءَ أَوْ أَئِمَّةً يُؤَخِّرُونَ الصَّلاَةَ لِوَقْتِهَا))، قُلْتُ: فَمَا تَأْمُرُنِي؟ قَالَ: ((صَلِّ الصَّلاَةَ لِوَقْتِهَا، فَإِنْ أَدْرَكْتَ مَعَهُمْ فَصَلِّهِ، وَلاَ تَقُولَنَّ: صَلَّيْتُ، فَلاَ أُصَلِّي)).

**(954)** ........ Əbu Zərr ؓ demişdir: "(Bir dəfə) mən Peyğəmbərə ﷺ dəstəmaz almaq üçün su gətirdim. O, başını yırğaladı və dodaqlarını dişlədi.[1] Mən dedim: "Atam-anam sənə qurban, (ya Rəsulullah), sənə əziyyətmi verdim?" O dedi: "Xeyr! (Lakin vaxt gələcək,) sən elə əmirlərin və imamların dövrünə yetişəcəksən ki, onlar namazın vaxtını keçirəcəklər.[2]" Mən dedim: "Sən mənə nə buyurursan?" O buyurdu: "Namazı vaxtında qıl! Və əgər (sonradan) onların həmin namazı qıldıqlarını görsən, (onlarla birlikdə) bu namazı qıl və (qətiyyən) demə ki: "Mən bu namazı qılmışam, bir də (təkrar) qılmayacağam![3]"[4]

---

[1] Muhəmməd Nasirəddin əl-Albani demişdir: "Burada başı yırğalamaq və dodaqları çeynəmək Rəsulullahın yox, hədisin ravilərindən birinin – Abdullah ibn Samitin etdiyi hərəkətdir. Bu da, İmam Muslimin "Səhih"ində (1469), habelə, İmam Əhmədin "Musnəd"ində (5/160) öz təsdiqini tapmışdır" (Səhih əl-Ədəbul-Mufrad, səh: 363).

[2] Əməvi əmirləri arasında beləları olmuşdur. İbn Ziyadı buna misal çəkmək olar (Səhih Muslim, 1469). Bu da, Muhəmməd peyğəmbərin ﷺ peyğəmbərliyinə daha bir sübutdur.

[3] 113-cü hədisin qeydlərinə bax.

[4] Bu hədisi Muslim (1469) rəvayət etmişdir.

## ٤٣٣– بَابُ ضَرْبِ الرَّجُلِ يَدَهُ عَلَى فَخِذِهِ عِنْدَ التَّعَجُّبِ أَوِ الشَّيْءِ

## 433-cü fəsil. Təəccübləndikdə adamın əlini buduna və ya bir şeyə[1] vurması

٩٥٥– حَدَّثَنَا يَحْيَى بْنُ بُكَيْرٍ قَالَ: حَدَّثَنَا اللَّيْثُ، عَنْ عُقَيْلٍ، عَنِ ابْنِ شِهَابٍ، عَنْ عَلِيِّ بْنِ حُسَيْنٍ، أَنَّ حُسَيْنَ بْنَ عَلِيٍّ حَدَّثَهُ، عَنْ عَلِيٍّ رَضِيَ اللَّهُ عَنْهُ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ طَرَقَهُ وَفَاطِمَةَ بِنْتَ النَّبِيِّ ﷺ، فَقَالَ: ((أَلاَ تُصَلُّونَ؟)) فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ، إِنَّمَا أَنْفُسُنَا عِنْدَ اللَّهِ، فَإِذَا شَاءَ أَنْ يَبْعَثَنَا بَعَثَنَا، فَانْصَرَفَ النَّبِيُّ ﷺ، وَلَمْ يَرْجِعْ إِلَيَّ شَيْئًا، ثُمَّ سَمِعْتُ وَهُوَ مُدْبِرٌ يَضْرِبُ فَخِذَهُ يَقُولُ: ﴿وَكَانَ الإِنْسَانُ أَكْثَرَ شَيْءٍ جَدَلاً﴾.

**(955)** ........ Əli[2] ﷺ demişdir:[3] "Bir gecə Rəsulullah ﷺ mənim və qızı Fatimənin yanına gəldi və: "Siz namaz qılmırsınız?"– deyə soruşdu. Mən dedim: "Ya Rəsulullah, bizim canımız Allahın istəyi altındadır. O, bizi oyatmaq istədikdə oyadır." Peyğəmbər ﷺ dönüb getdi və cavab vermədi.[4] O çıxıb gedərkən mən onun öz buduna vurub:[5] **"İnsan isə ən çox mübahisə edəndir"[1]**– dediyini eşitdim."

---

[1] Adam təəccübləndikdə əlini öz ayağına, əlinə, alnına və s. vura bilər.

[2] Bu hədisin isnadının özəlliyi ondan ibarətdir ki, isnadda keçən ravilərdən üçü Peyğəmbərin ﷺ əhli beytindəndir. Bu hədisi Əli ibn Hüseyn (Zeynulabidin ﷺ) öz atası Hüseyn ibn Əlidən ﷺ, o da, öz atası Əli ibn Əbu Talibdən ﷺ rəvayət etmişdir.

[3] Bu hədisi Buxari (1127, 4724, 7347), Muslim (1817), Nəsai (1622), Əhməd (1/77) və İbn Xuzeymə (1140) rəvayət etmişdir.

[4] Peyğəmbərin ﷺ bu hərəkəti Əli ibn Əbu Talibin ﷺ öz cavabında xətaya yol vermədiyinə dəlalət edir. Onun bu cavabı səhv olsaydı, Peyğəmbər ﷺ onun səhvini düzəldər və buna görə ona etiraz edərdi.

[5] Peyğəmbər ﷺ bu sözü onların üzrxahlığını təsdiqləmək üçün demiş və buna görə günah qazanmadıqlarını bildirmişdir. Bu hədis gecə namazının fəzilətinə dəlalət edir.

**٩٥٦**– حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: أَخْبَرَنَا أَبُو مُعَاوِيَةَ، عَنِ الأَعْمَشِ، عَنْ أَبِي رَزِينٍ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: رَأَيْتُهُ يَضْرِبُ جَبْهَتَهُ بِيَدِهِ وَيَقُولُ: يَا أَهْلَ الْعِرَاقِ، أَتَزْعُمُونَ أَنِّي أَكْذِبُ عَلَى رَسُولِ اللَّهِ ﷺ، أَيَكُونُ لَكُمُ الْمَهْنَأُ وَعَلَيَّ الْمَأْثَمُ؟ أَشْهَدُ لَسَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: ((إِذَا انْقَطَعَ شِسْعُ نَعْلِ أَحَدِكُمْ، فَلاَ يَمْشِي فِي نَعْلِهِ الأُخْرَى حَتَّى يُصْلِحَهُ)).

**(956)** ........ Əbu Rəzin rəvayət etmişdir ki, (bir dəfə) Əbu Hureyrə əli ilə alnına vurub[2] dedi: “Ey İraq əhli, siz iddia edirsiniz ki, mən Rəsulullahın ﷺ adından yalan danışıram?! (Heç, ola bilərmi ki,) siz rahat olasınız, mən isə

---

Hədisdən o nəticə də çıxır ki, adam öz yaxınına gecə namazını qılmağı buyurmalıdır (Nəvəvinin şərhi). Burada Əli ibn Əbu Talib ؓ vacib bir əməlin tərk olunmasına görə yox, sadəcə, Allahın qədəri ilə yuxuya dalıb, öz iradəsindən asılı olmayaraq, nafilə ibadətini buraxdığına görə üzrxahlıq edir. Buna dəlalət edən hədisdə rəvayət edilir ki, Əli ibn Əbu Talib ؓ demişdir: “Bir gecə Rəsulullah ﷺ mənim və qızı Fatimənin yanına gəlib bizə: “Qalxın, namaz qılın”– deyə buyurdu, sonra da qayıdıb evinə getdi. Gecədən bir qədər keçdikdən sonra Rəsulullah ﷺ yenə gəldi və bizdən səs-səmir gəlmədiyini gördükdə, bizə: “Qalxın, namaz qılın”– deyə buyurdu. Onda mən gözlərimi ovxalaya-ovxalaya qalxıb dedim: “Ya Rəsulullah, bizim canımız Allahın istəyi altındadır. O, bizi oyatmaq istədikdə oyadır” (Sunən ən-Nəsai, 1594; Musnəd Əhməd, 1/91; Səhih İbn Xuzeymə, 1139; Muhəmməd Nasirəddin əl-Albani və Şueyb əl-Ərnaut bu hədisin “həsən” olduğunu demişlər). Yeri gəlmişkən, xüsusilə, qeyd etmək lazımdır ki, vacibi tərk edib, yaxud haram buyurulan bir əməli edib, sonra da bunu Allahın qədəri ilə əlaqələndirmək, məsələn: “Allah istəməsəydi, belə olmazdı”– demək qadağandır və bu dəlil batil bir dəlildir. Müşriklərin gətirdikləri dəlili buna misal göstərmək olar: **“Allah istəsəydi nə biz, nə də atalarımız *Ona* şərik qoşar, nə də ki bir şeyi haram edə bilərdik”** (əl-Ənam, 148).

[1] “əl-Kəhf” surəsi, 54.

[2] Əbu Hureyrə ؓ bu hərəkətlə iraqlılara ona yaxdıqları iftiraya görə öz etirazını bildirir. Ona yaxılan bu iftira hazırki günümüzədək davam etməkdədir. Halbuki, Peyğəmbər ﷺ onun üçün məxsusi olaraq dua etmişdir (5-ci hədisin qeydlərinə bax).

(yalan danışıb) günah qazanım?![1] Mən şahidlik edirəm ki, Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: "Sizdən birinizin ayaqqabısının qaytanı qırıldığı zaman onu düzəldənədək, (ayaqqabısının) digər tayı ilə gəzməsin.[2]"[3]

---

[1] Əbu Hureyrə ؓ demək istəyir ki, o, heç vaxt Peyğəmbərin ﷺ adından yalan danışmayıb və danışmaz da. Çünki o, Allahın bu günaha görə nə cəza verəcəyini bilirdi. Peyğəmbərin ﷺ bu xüsusda, dediyini rəvayət etmiş səhabələrdən biri də Əbu Hureyrənin ؓ özüdür. Əbu Hureyrə ؓ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Kim, bilərəkdən mənim adımdan yalan danışarsa, Oddan olan yerini hazırlasın" (Səhih Muslim, 4).

[2] Hədislərin birində rəvayət edilir ki, Peyğəmbər ﷺ adama səndəlin bir tayını geyib gəzməyi qadağan etmişdir (Səhih Muslim, 299; Sunən Əbu Davud, 4137; Sunən ən-Nəsai, 9798; Musnəd Əhməd, 3/293). Bunun hikməti belə izah edilmişdir: birincisi, belə etməmək gərəkdir ki, müsəlman şeytana oxşamasın. Belə ki Əbu Hureyrənin ؓ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "Şeytan bir tay ayaqqabıda gəzir" (Muşkilul-Asar, 2/142; Silsilətul-Əhadisis-Səhihə, 348). İkincisi, belə etməmək lazımdır ki, bədənə zülm olmasın. Belə ki, bir tay ayaqqabıda yeridikdə, çılpaq ayağa əziyyət vermiş oluruq. İslam şəriəti isə bədənə əziyyət verməyi qadağan etmişdir. Bu xüsusda, İbn Qeyyim qeyd edir ki, şeyximiz (İbn Teymiyyə) demişdir: "Bu, Allahın və Onun rəsulunun ﷺ adillik baxımından məhəbbətinin kamilliyindəndir. Belə ki Allah insana *hər bir işdə*, hətta, öz vücudu ilə belə ədalətli rəftar etməyi əmr etmişdir. Peyğəmbər ﷺ başın bir hissəsini qırxıb bir hissəsini saxlamağı qadağan etmişdir. Belə ki başın bir hissəsində tük saxlayıb, digər hissəni qırxmaq başa zülm etməkdir. Bunun bənzəri: yarı günəşdə, yarı kölgədə oturmaqdır ki, bu da, bədənə zülm etməkdir. Habelə, bir tay ayaqqabıda gəzmək də ayağa əziyyətdir. Odur ki ayaqqabıların ya, ikisini də geyinmək, ya da, ikisini də soyunmaq gərəkdir" (Tohfətul-Movdud biəhkamil-Movlud, 1/100).

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٤٣٤- بَابُ إِذَا ضَرَبَ الرَّجُلُ فَخِذَ أَخِيهِ وَلَمْ يُرِدْ بِهِ سُوءًا

## 434-cü fəsil. Adamın öz dostuna pislik etmək məqsədi olmadan əlini onun buduna vurması

٩٥٧- حَدَّثَنَا أَبُو مَعْمَرٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَارِثِ قَالَ: حَدَّثَنَا أَيُّوبُ بْنُ أَبِي تَمِيمَةَ، عَنْ أَبِي الْعَالِيَةِ الْبَرَاءِ قَالَ: مَرَّ بِي عَبْدُ اللَّهِ بْنُ الصَّامِتِ، فَأَلْقَيْتُ لَهُ كُرْسِيًّا، فَجَلَسَ، فَقُلْتُ لَهُ: إِنَّ ابْنَ أَبِي زِيَادٍ قَدْ أَخَّرَ الصَّلاَةَ، فَمَا تَأْمُرُ؟ فَضَرَبَ فَخِذِي ضَرْبَةً، أَحْسَبُهُ قَالَ: حَتَّى أَثَّرَ فِيهَا، ثُمَّ قَالَ: سَأَلْتُ أَبَا ذَرٍّ كَمَا سَأَلْتَنِي، فَضَرَبَ فَخِذِي كَمَا ضَرَبْتُ فَخِذَكَ، فَقَالَ: صَلِّ الصَّلاَةَ لِوَقْتِهَا، فَإِنْ أَدْرَكْتَ مَعَهُمْ فَصَلِّ، وَلاَ تَقُلْ: قَدْ صَلَّيْتُ، فلا أُصَلِّي.

**(957)** ........ Əbul-Aliyə əl-Bəra demişdir:[1] "(Bir gün) Abdullah ibn Samit yanıma gəldi və mən onun üçün bir kürsü gətirdim. O, bu kürsüyə oturduqdan sonra mən dedim: "Əbu Ziyadın oğlu namazı geçikdirdi.[2] Bu haqda nə deyə bilərsən?" O, bircə dəfə mənim buduma vurdu. Elə vurdu ki, budumu ağrıtdı. Sonra dedi: "Sən məndən soruşduğun kimi, mən də Əbu Zərdən soruşdum. Və mən sənin buduna vurduğum kimi, o da mənim bu-

---

[1] 113-cü hədisin qeydlərinə bax.

[2] Namazın vaxtını gecikdirmək olduqca təhlükəli bir şeydir. Bu xüsusda, varid olmuş hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Kim əsr namazını gecikdirərsə, sanki ailəsini və malını əlindən qaçırmış olar" (Səhih Muslim, 1419); digər hədisdə o, demişdir: "Hər kim namazını vaxtlı-vaxtında qılsa, Qiyamət günü bu namaz onun üçün bir nur, onun lehinə bir dəlil və bir də onun nicat tapması üçün bir səbəb olacaq. Namazı qılmayan kimsənin isə nə bir nuru, nə bir dəlili, nə də ki nicat tapmaq üçün bir qurtuluş yolu olacaqdır. Beləsi Qiyamət günü Qarunla, Fironla, Hamanla və Ubey ibn Xələf ilə bir yerdə həşr olunacaq" (Musnəd Əhməd, 2/169; Şueyb əl-Arnaut bu hədisin isnadının "həsən" olduğunu demişdir).

duma vurub dedi:[1] "Namazı vaxtında qıl. Və əgər (sonradan) onların həmin namazı qıldıqlarını görsən, (onlarla birlikdə) bu namazı qıl və (qətiyyən) demə ki: "Mən bu namazı qılmışam, bir də (təkrar) qılmayacağam!"

**٩٥٨ | ١-** حَدَّثَنَا أَبُو الْيَمَانِ قَالَ: أَخْبَرَنَا شُعَيْبٌ، عَنِ الزُّهْرِيِّ، عَنْ سَالِمِ بْنِ عَبْدِ اللَّهِ، أَنَّ عَبْدَ اللَّهِ ابْنَ عُمَرَ أَخْبَرَهُ أَنَّ عُمَرَ بْنَ الْخَطَّابِ انْطَلَقَ مَعَ رَسُولِ اللَّهِ ﷺ فِي رَهْطٍ مِنْ أَصْحَابِهِ قِبَلَ ابْنِ صَيَّادٍ، حَتَّى وَجَدُوهُ يَلْعَبُ مَعَ الْغِلْمَانِ فِي أُطُمِ بَنِي مَغَالَةَ، وَقَدْ قَارَبَ ابْنُ صَيَّادٍ يَوْمَئِذٍ الْحُلُمَ، فَلَمْ يَشْعُرْ حَتَّى ضَرَبَ النَّبِيُّ ﷺ ظَهْرَهُ بِيَدِهِ، ثُمَّ قَالَ: ((أَتَشْهَدُ أَنِّي رَسُولُ اللَّهِ؟)) فَنَظَرَ إِلَيْهِ فَقَالَ: أَشْهَدُ أَنَّكَ رَسُولُ الْأُمِّيِّينَ، قَالَ ابْنُ صَيَّادٍ: فَتَشْهَدُ أَنِّي رَسُولُ اللَّهِ؟ فَرَصَّهُ النَّبِيُّ ﷺ ثُمَّ قَالَ: ((آمَنْتُ بِاللَّهِ وَبِرَسُولِهِ))، ثُمَّ قَالَ لِابْنِ صَيَّادٍ: ((مَاذَا تَرَى؟)) فَقَالَ ابْنُ صَيَّادٍ: يَأْتِينِي صَادِقٌ وَكَاذِبٌ، فَقَالَ النَّبِيُّ ﷺ: خُلِّطَ عَلَيْكَ الأَمْرُ، قَالَ النَّبِيُّ ﷺ: ((إِنِّي خَبَّأْتُ لَكَ خَبِيئًا))، قَالَ: هُوَ الدُّخُّ، قَالَ: ((اخْسَأْ فَلَمْ تَعْدُ قَدْرَكَ))، قَالَ عُمَرُ: يَا رَسُولَ اللَّهِ، أَتَأْذَنُ لِي فِيهِ أَنْ أَضْرِبَ عُنُقَهُ؟ فَقَالَ النَّبِيُّ ﷺ: ((إِنْ يَكُ هُوَ لَا تُسَلَّطُ عَلَيْهِ، وَإِنْ لَمْ يَكُ هُوَ فَلَا خَيْرَ لَكَ فِي قَتْلِهِ)).

**(958/1)** ........ Abdullah ibn Ömər ﷺ demişdir: "*Bir dəfə* Ömər Peyğəmbərlə ﷺ və başqa bir neçə səhabə ilə birlikdə İbn Sayyadın[2] yanına getdi. Onlar İbn Sayyadı Bənu Məğalə qəbiləsinin istehkamı yanında uşaqlarla oynayan yerdə tapdılar. O vaxt İbn Sayyad artıq həddi-büluğa yetişmək ərəfəsində idi. İbn Sayyad Peyğəmbərin ﷺ ona yaxınlaşdığını hiss etmirdi.[3]

---

[1] İmam Muslimin "Səhih"indəki hədisdə (1469) rəvayət edilir ki, Əbu Zərr ona belə demişdir: "Sən məndən soruşduğun kimi, mən də Rəsulullahdan ﷺ soruşdum. Və mən sənin buduna vurduğum kimi, o da mənim buduma vurub buyurdu..."

[2] Bu, yəhudilərdən qeyri-adi zahiri görünüşü olan bir uşaq idi ki, səhabələr onun Məsihi-Dəccal olduğunu güman edirdilər.

[3] Bu, dəlildir ki, İbn Sayyad qeyri-adi xüsusiyyətlərə malik olmamışdır. Olsaydı, Peyğəmbərin ﷺ ona yaxınlaşdığından xəbər tutardı.

Nəhayət, Peyğəmbər ﷺ (yaxınlaşıb) əli ilə (yavaşca) onun kürəyinə vurub[1] dedi: "Sən mənim Allahın rəsulu olduğuma şahidlik edirsənmi?" İbn Sayyad ona baxıb dedi: "Mən şahidlik edirəm ki, sən ümmilərin[2] rəsulusan."[3] (Sonra) İbn Sayyad Peyğəmbərdən ﷺ soruşdu: "Sən mənim Allahın rəsulu olduğuma şahidlik edirsənmi?" Peyğəmbər ﷺ onu tutub sıxdı, sonra dedi: "Mən Allaha və Onun rəsuluna[4] iman gətirmişəm!" Sonra Peyğəmbər ﷺ İbn Sayyaddan soruşdu: "Sən (yuxuda) nə görürsən?" İbn Sayyad dedi: "Mənə bəzən doğru xəbərlər, bəzən də yalan xəbərlər gəlir."[5] Peyğəmbər ﷺ dedi: "İşin qarışığa düşüb."[6] Sonra Peyğəmbər ﷺ dedi: "Sənin üçün fikdə bir şey tutmuşam *onu tap görüm*." İbn Sayyad: "Bu, əd-Duxdur[7]"– deyə

---

[1] Hədisin bu hissəsi bu fəsilin ünvanına dəlalət edən hissəsidir. Yəni adam bir başqasına öz sözünü demək istədikdə, yavaşca onun kürəyinə vura bilər.

[2] Burada "ümmi" deyildikdə, yazıb-oxumağı bacarmayan ərəblər qəsd edilir.

[3] Peyğəmbər ﷺ ona müsəlman olmağı buyurmuş, o isə, bundan imtina etmişdir.

[4] İmam Buxarinin "Səhih"indəki (1354) rəvayətdə Peyğəmbər ﷺ: "Mən Allaha və Onun elçilərinə iman gətirmişəm!"– demişdir.

[5] İmam Muslimin "Səhih"ində rəvayət edilir ki, İbn Sayyad Peyğəmbərin ﷺ bu sualına: "Su üzərində taxt görürəm"– deyə cavab vermiş, Peyğəmbər ﷺ də ona: "Sən İblisin dənizin üzərindəki taxtını görürsən"– demişdir (2925). Bu, dəlildir ki, kahinlər şeytanların dostlarıdır və əməlləri də şeytan əməlidir. İblisin taxtının su üzərində olduğu barədə rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ demişdir: "*Hər səhər* İblis öz taxtını dənizin üzərində yerləşdirdikdən sonra öz əsgərlərini *yer üzündə fitnə-fəsad törətməyə* göndərir. Onların İblisə ən yaxın və onun yanında məqamı ən yüksək olanı, ən böyük fitnə-fəsad törədənidir. Onlardan biri gəlib ona: "Filan, filan işi gördüm"– deyir, İblis də ona: "Sən heç bir iş görməmisən"– deyə cavab verir. Sonra başqa birisi gəlib: "Mən ərlə arvadın arasını vurdum"– deyir. Onda, İblis ona yaxınlaşıb deyir: "Bəli, sən *mənə yaxınsan*" (Səhih Muslim, 2813).

[6] Yəni sənin gördüklərini şeytan sənə qarmaqarışıq göstərir.

[7] Peyğəmbər ﷺ 44-cü surənin 10-cu ayəsindəki "əd-Duxan" (duman) sözünü qəsd edirdi ki, bunu da İbn Sayyad düzgün tələffüz edə bilmədi. Beləliklə də, Peyğəmbər ﷺ şeytanın ona qarmaqarışıq sözlər təlqin etdiyini sübuta yetirdi.

cavab verdi. Peyğəmbər ﷺ dedi: "İtil buradan! Sən heç vaxt həddini aşa bilməyəcəksən." Onda, Ömər dedi: "Ya Rəsulullah, izn ver onun boynunu vurum." Peyğəmbər ﷺ buyurdu: "Əgər o, odursa,[1] sən ona bata bilməyəcəksən, yox, əgər o deyilsə, onu öldürməyinin sənə heç bir faydası yoxdur."[2]

**٩٥٨ | ٢–** قَالَ سَالِمٌ: فَسَمِعْتُ عَبْدَ اللَّهِ بْنَ عُمَرَ يَقُولُ: انْطَلَقَ بَعْدَ ذَلِكَ النَّبِيُّ ﷺ هُوَ وَأُبَيُّ بْنُ كَعْبٍ الأَنْصَارِيُّ يَوْمًا إِلَى النَّخْلِ الَّتِي فِيهَا ابْنُ صَيَّادٍ، حَتَّى إِذَا دَخَلَ النَّبِيُّ ﷺ طَفِقَ النَّبِيُّ ﷺ يَتَّقِي بِجُذُوعِ النَّخْلِ، وَهُوَ يَسْمَعُ مِنِ ابْنِ صَيَّادٍ شَيْئًا قَبْلَ أَنْ يَرَاهُ، وَابْنُ صَيَّادٍ مُضْطَجِعٌ عَلَى فِرَاشِهِ فِي قَطِيفَةٍ لَهُ فِيهَا زَمْزَمَةٌ، فَرَأَتْ أُمُّ ابْنِ صَيَّادٍ النَّبِيَّ ﷺ وَهُوَ يَتَّقِي بِجُذُوعِ النَّخْلِ، فَقَالَتْ لِابْنِ صَيَّادٍ: أَيْ صَافُ، وَهُوَ اسْمُهُ، هَذَا مُحَمَّدٌ، فَتَنَاهَى ابْنُ صَيَّادٍ، قَالَ النَّبِيُّ ﷺ: ((لَوْ تَرَكَتْهُ لَبَيَّنَ)).

**(958/2)** Salim dedi: "Mən Abdullah ibn Ömərin belə dediyini eşitmişəm: "Bir gün Ubeyy ibn Kəb əl-Ənsari Peyğəmbər ﷺ ilə birgə İbn Sayyad olan xurma bağına getdilər. Peyğəmbər ﷺ xurmalığa daxil olub xurma ağaclarının gövdəsi arxasında durdu. Peyğəmbər ﷺ istəyirdi ki, İbn Sayyad onu görməmişdən əvvəl onun nə deyəcəyini eşitsin.[3] İbn Sayyad öz yatağında, məxmər örtüyün üstündə uzanmışdı. O mırtıldanırdı.[4] İbn Sayyadın anası Peyğəmbərin ﷺ xurma ağaclarının gövdəsi arxasında dayandığını görüb, İbn Sayyada dedi: "Ey Saf,[5] bu Muhəmməddir." İbn Sayyad dərhal səsini kəsdi. Peyğəmbər ﷺ dedi: "Əgər anası onu sərbəst buraxsaydı, bəlli olardı.[6]"[7]

---

[1] Peyğəmbər ﷺ bunu deməklə məsihi-dəccalı qəsd edirmiş. Belə ki, onu ancaq İsa aleyhissəlam öldürə bilər.

[2] Bu hədisi Buxari (1354) və Muslim (2924) rəvayət etmişdir.

[3] Peyğəmbərin ﷺ bu hərəkəti casusluq sayılımır. Əksinə, bu, insanları zəlalətə aparan, cəmiyyətdə qarışıqlıq salan batil əhlin ifşa edilməsi üçündür.

[4] Mırtıldanmaq: öz-özünə anlaşılmaz danışmaq, donquldanmaq.

[5] Saf – İbn Sayyadın adıdır.

[6] Yəni onun kim olduğu üzə çıxardı.

[7] Bu hədisi Buxari (1355) rəvayət etmişdir.

**٩٥٨|٣-** قَالَ سَالِمٌ: قَالَ عَبْدُ اللَّهِ: قَامَ النَّبِيُّ ﷺ فِي النَّاسِ، فَأَثْنَى عَلَى اللَّهِ بِمَا هُوَ أَهْلُهُ، ثُمَّ ذَكَرَ الدَّجَّالَ فَقَالَ: ((إِنِّي أُنْذِرُكُمُوهُ، وَمَا مِنْ نَبِيٍّ إِلاَّ وَقَدْ أَنْذَرَ قَوْمَهُ، لَقَدْ أَنْذَرَ نُوحٌ قَوْمَهُ، وَلَكِنْ سَأَقُولُ لَكُمْ فِيهِ قَوْلًا لَمْ يَقُلْهُ نَبِيٌّ لِقَوْمِهِ: تَعْلَمُونَ أَنَّهُ أَعْوَرُ، وَأَنَّ اللَّهَ لَيْسَ بِأَعْوَرَ)).

**(958/3)** Salim rəvayət edir ki, Abdullah (ibn Ömər) demişdir: "Peyğəmbər ﷺ camaat arasında ayağa qalxıb, Allahı layiqli şəkildə həmd etdi, sonra da dəccalı xatırladıb dedi: "Mən sizi ondan çəkindirirəm. Elə bir peyğəmbər olmamışdır ki, qövmünü ondan çəkindirmiş olmasın. Nuh öz qövmünü ondan çəkindirmişdi. Ancaq mən sizə onun barəsində elə bir xəbər söyləyəcəyəm ki, onu heç bir peyğəmbər öz qövmünə deməmişdir. Bilin ki, o, təkgözdür, Allah isə  təkgöz deyildir.[1]"[2]

**٩٥٩-** حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا وُهَيْبٌ قَالَ: حَدَّثَنَا جَعْفَرٌ، عَنْ أَبِيهِ، عَنْ جَابِرٍ قَالَ: كَانَ النَّبِيُّ ﷺ إِذَا كَانَ جُنُبًا، يَصُبُّ عَلَى رَأْسِهِ ثَلَاثَ حَفَنَاتٍ مِنْ مَاءٍ؟

قَالَ الْحَسَنُ بْنُ مُحَمَّدٍ: أَبَا عَبْدِ اللَّهِ، إِنَّ شَعْرِي أَكْثَرُ مِنْ ذَاكَ، قَالَ: وَضَرَبَ بِيَدِهِ عَلَى فَخِذِ الْحَسَنِ فَقَالَ: يَا ابْنَ أَخِي، كَانَ شَعْرُ النَّبِيِّ ﷺ أَكْثَرَ مِنْ شَعْرِكَ وَأَطْيَبَ.

**(959)** ........ Cabir ﵁ demişdir:[3] "Peyğəmbər ﷺ cənabətli halda olarkən başına üç ovuc[4] su tökərdi." (Məclisdə olan) Həsən ibn Muhəmməd[1] dedi:

---

[1] Dəccal barədə 341-ci hədisin qeydlərinə bax.

[2] Bu hədisi Buxari (1355) rəvayət etmişdir.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[4] Buxarinin "Səhih"indəki (252) hədisdə rəvayət edilir ki, bir nəfər Cabir ibn Abdullahdan ﵄ qüsl barəsində soruşdu. Cabir: "Sənə bir saa *su* kifayət edər"– deyə cavab verdi. *Oradakılardan* birisi: "Mənə bəs eləmir"– deyə etirazını bildirdikdə, Cabir dedi:

"Ey Əbu Abdullah, mənim saçlarım bundan çoxdur." Cabir əli ilə Həsənin buduna vurub dedi: "Ey qardaşım oğlu! Peyğəmbərin ﷺ saçı sənin saçından daha çox və daha gözəl idi.[2]"

---

"Saçı sənin *saçından* daha gur, özü də səndən daha xeyirli olan birisinə bəs edirdi." Bunu deyəndə, Cabir, Rəsulullahı ﷺ qəsd edirdi.

Saa: ölçü vahididir və dörd mudda bərabərdir. Bir mudd isə insanın iki ovucuna bərabərdir ki, bu da yeddi yüz qrama bərabərdir (Səmər əl-Mustətab, 1/28).

[1] Bu Muhəmməd, Əli ibn Əbu Talibin رضي الله عنه Həsən və Hüseyndən رضي الله عنهما sonra ən fəzilətli oğlu sayılır. Muhəmməd ibnul-Hənəfiyyə kimi tanınmışdır. (130-cu hədisin qeydlərinə bax).

[2] Burada Cabir ibn Abdullah رضي الله عنهما onlara qüsl etdikdə suyu israf etməməyi nəsihət edir.

## ٤٣٥- بَابُ مَنْ كَرِهَ أَنْ يَقْعُدَ وَيَقُومَ لَهُ النَّاسُ

## 435-ci fəsil. Özü oturmuş ikən, camaatın onun üçün ayaq üstə durmasını bəyənməyən adam[1]

**٩٦٠-** حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا أَبُو عَوَانَةَ، عَنِ الأَعْمَشِ، عَنْ أَبِي سُفْيَانَ، عَنْ جَابِرٍ قَالَ: صُرِعَ رَسُولُ اللَّهِ ﷺ مِنْ فَرَسٍ بِالْمَدِينَةِ عَلَى جِذْعِ نَخْلَةٍ، فَانْفَكَّتْ قَدَمُهُ، فَكُنَّا نَعُودُهُ فِي مَشْرُبَةٍ لِعَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا، فَأَتَيْنَاهُ وَهُوَ يُصَلِّي قَاعِدًا، فَصَلَّيْنَا قِيَامًا، ثُمَّ أَتَيْنَاهُ مَرَّةً أُخْرَى وَهُوَ يُصَلِّي الْمَكْتُوبَةَ قَاعِدًا، فَصَلَّيْنَا خَلْفَهُ قِيَامًا، فَأَوْمَأَ إِلَيْنَا أَنِ اقْعُدُوا، فَلَمَّا قَضَى الصَّلاَةَ قَالَ: ((إِذَا صَلَّى الإِمَامُ قَاعِدًا فَصَلُّوا قُعُودًا، وَإِذَا صَلَّى قَائِمًا فَصَلُّوا قِيَامًا، وَلاَ تَقُومُوا وَالإِمَامُ قَاعِدٌ كَمَا تَفْعَلُ فَارِسُ بِعُظَمَائِهِمْ)).

**(960)** ........ Cabir ﷺ demişdir:[2] "Rəsulullah ﷺ Mədinədə ikən atdan bir xurma ağacının gövdəsi üstə yıxılmış və ayağı çıxmışdı. Həmin vaxt biz tez-tez Aişənin hücrəsində ona baş çəkirdik. Yenə bir gün Peyğəmbərə ﷺ baş çəkməyə gəldikdə onun oturmuş vəziyyətdə namaz qıldığını gördük və (onun arxasında durub) ayaq üstə namaz qıldıq. Bir müddət sonra yenə Peyğəmbərə ﷺ baş çəkməyə gəldikdə, onun oturmuş vəziyyətdə fərz namazını qıldığını gördük və (onun arxasında durub) ayaq üstə namaz qıldıq. Onda, o, əli ilə işarə edib bizə oturmağı buyurdu. Nəhayət, namazı bitirdikdən sonra buyurdu: "İmam oturmuş vəziyyətdə namaz qılsa, siz də oturmuş vəziyyətdə namaz qılın. Yox, əgər ayaq üstə qılarsa, siz də

---

[1] 428-ci fəsilin ünvanına və onun qeydlərinə bax.

[2] Bu hədisi Əbu Davud (602), Əhməd (3/300), Əbu Yə'la (1896), İbn Hibban (2114) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

ayaq üstə qılın. Farsların öz böyükləri qarşısında ayaq üstə durduqları kimi, siz də imam oturmuş halda ikən ayaq üstə durmayın.[1]"

٩٦١– قَالَ: وَوُلِدَ لِفُلاَنٍ مِنَ الأَنْصَارِ غُلامٌ، فَسَمَّاهُ مُحَمَّدًا، فَقَالَتِ الأَنْصَارُ: لا نُكَنِّيكَ بِرَسُولِ اللَّهِ. حَتَّى قَعَدْنَا فِي الطَّرِيقِ نَسْأَلُهُ عَنِ السَّاعَةِ، فَقَالَ: ((جِئْتُمُونِي تَسْأَلُونِي عَنِ السَّاعَةِ؟)) قُلْنَا: نَعَمْ، قَالَ: ((مَا مِنْ نَفْسٍ مَنْفُوسَةٍ، يَأْتِي عَلَيْهَا مِئَةُ سَنَةٍ))، قُلْنَا: وُلِدَ لِفُلاَنٍ مِنَ الأَنْصَارِ غُلاَمٌ فَسَمَّاهُ مُحَمَّدًا، فَقَالَتِ الأَنْصَارُ: لا نُكَنِّيكَ بِرَسُولِ اللَّهِ، قَالَ: ((أَحْسَنَتِ الأَنْصَارُ، سَمُّوا بِاسْمِي، ولا تَكْتَنُوا بِكُنْيَتِي)).

**(961)** Cabir ﷺ demişdir: "Ənsardan filankəsin oğlu oldu və o, uşağa Muhəmməd[2] adını verdi. Ənsar da (ona): "Biz sənə Rəsulullahın ﷺ kunyəsini verməyəcəyik"– dedi. Nəhayət, biz Peyğəmbərdən ﷺ Qiyamət günü barədə soruşmaq üşün yolda oturduq. O dedi: "Yanıma gəlmisiniz ki, məndən Qiyamət barədə xəbər alasınız?" Biz: "Bəli!"– deyə cavab verdik-

[1] 948-ci hədisin qeydlərinə bax.

[2] Xüsusilə qeyd etmək lazımdır ki, İmam Buxarinin əvvəlki fəsildə nəql etdiyi 842 saylı hədisdə Cabir ﷺ demişdir: "Bizlərdən birinin oğlu oldu və o, uşağa Qasim adını verdi. Ənsar da (ona): "Biz sənə Əbul-Qasim kunyəsini verməyəcək və sənin üçün gözaydınlığı diləməyəcəyik"– dedi. Onda o, Peyğəmbərin ﷺ yanına gəlib ənsarın dediyini ona xəbər verdi. Peyğəmbər ﷺ də (ona) belə buyurdu: "Əhsən ənsara! Özünüzə mənim adımı qoya bilərsiniz, lakin kunyəmi qoymayın. Çünki Qasim ancaq mənəm." Bu iki hədisə nəzər saldıqda bizə aydın olur ki, əvvəlki, "o, uşağa Qasim adını verdi" rəvayəti "səhih"dir. Bu fəsildəki hədisin isnadı da, həmçinin, "səhih"dir. Lakin mətnindəki "o, uşağa Muhəmməd adını verdi" sözü əvvəlki "səhih" rəvayətə müxalifdir. Üstəlik, bu cümlə hədisin sonundakı "Özünüzə mənim adımı qoya bilərsiniz" sözünə də ziddir. Ola bilsin ki, bu, hədisi nəql etmiş ravilərdən birinin səhvidir.

də, Peyğəmbər ﷺ buyurdu: "(Hal-hazırda yer üzərində) olan insanlardan heç biri yüz ildən çox yaşamayacaq.[1]"

Biz dedik: "Ənsardan filankəsin oğlu oldu. Adını Muhəmməd qoydu. Ənsar da (ona): "Biz sənə Rəsulullahın ﷺ kunyəsini verməyəcəyik"– dedi. Peyğəmbər ﷺ dedi: "Əhsən ənsara! Özünüzə mənim adımı qoya bilərsiniz, lakin kunyəmi qoymayın.[2]"[3]

---

[1] 790-cı hədisin qeydlərinə bax.

[2] 373-cü fəsilin qeydlərinə bax.

[3] Bu hədisi Buxari (3115) və Muslim (7/187) rəvayət emtişdir. Qeyd edək Buxari və Muslimin "Səhih"lərindəki rəvayətlərdə "Muhəmməd" yox, məhz "Qasim" sözü varid olmuşdur.

## ٤٣٦- بَابُ

## 436-cı fəsil.

**٩٦٢-** حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنِي الدَّرَاوَرْدِيُّ، عَنْ جَعْفَرٍ، عَنْ أَبِيهِ، عَنْ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ مَرَّ فِي السُّوقِ دَاخِلًا مِنْ بَعْضِ الْعَالِيَةِ وَالنَّاسُ كَنَفَيْهِ، فَمَرَّ بِجَدْيٍ أَسَكَّ مَيِّتٍ، فَتَنَاوَلَهُ فَأَخَذَ بِأُذُنِهِ ثُمَّ قَالَ: ((أَيُّكُمْ يُحِبُّ أَنَّ هَذَا لَهُ بِدِرْهَمٍ؟)) فَقَالُوا: مَا نُحِبُّ أَنَّهُ لَنَا بِشَيْءٍ، وَمَا نَصْنَعُ بِهِ؟ قَالَ: ((أَتُحِبُّونَ أَنَّهُ لَكُمْ؟)) قَالُوا: لاَ، قَالَ ذَلِكَ لَهُمْ ثَلاَثًا، فَقَالُوا: لاَ وَاللَّهِ، لَوْ كَانَ حَيًّا لَكَانَ عَيْبًا فِيهِ أَنَّهُ أَسَكُّ، وَالأَسَكُّ: الَّذِي لَيْسَ لَهُ أُذُنَانِ، فَكَيْفَ وَهُوَ مَيِّتٌ؟ قَالَ: ((فَوَاللَّهِ، لَلدُّنْيَا أَهْوَنُ عَلَى اللَّهِ مِنْ هَذَا عَلَيْكُمْ)).

**(962)** ........ Cabir ibn Abdullah رضي الله عنهما rəvayət edir ki, (bir gün) Rəsulullah ﷺ yuxarı kəndlərdən[1] birindəki bazardan keçdi. Səhabələri də onu müşayiət edirdi. Bu əsnada o, qulaqları olduqca qısa ölü bir çəpişin yanından keçdi və əyilib onun qulağından tutub (səhabələrindən) soruşdu: "Hansı biriniz bir dirhəm verib buna sahib olmaq istəyər?"[2] Onlar dedilər: "(Bir dirhəm-

---

[1] Bu kəndlərin ən yaxını Mədinənin dörd milliyində, ən uzağı isə onun səkkiz milliyində, Nəcd istiqamətində yerləşirdi (Şərh Əbu Davud, əl-Ayni).

[2] Məlumdur ki, bazara girən adamın gözü dünya malına sataşır və istər-istəməz qəlbi ona meyil edir. Səhabələrin qəlbi dünya malına bağlanmasın deyə, Peyğəmbər ﷺ onlara belə bir misal çəkir. Bu dünya, həqiqətən dəyərsiz və fani dünyadır (222-ci fəsilin qeydlərinə bax). Bazarlar isə dünyanı insana sevdirən, üstəlik, Allahın nifrət etdiyi yerlərdən biridir. Bu xüsusda, rəvayət edilmiş hədislərin birində Rəsulullah ﷺ demişdir: "Şəhərlərin Allaha ən sevimli yeri məscidləridir. Şəhərlərin Allahın ən nifrət etdiyi yeri isə bazarlarıdır" (Səhih Muslim, 1528). İçərisində namaz qılındığına, Quran oxunduğuna və başqa ibadətlər edildiyinə görə məscidlər Allahın ən çox sevdiyi yerlər sayılır. Bazarlarda isə insanlar bir-birini aldatdığına, sələm alıb-verməklə məşğul olduqlarına, malı satmaq üçün dəfələrlə yalandan Allaha and içdiklərinə, çox vaxt vədlərinə xilaf çıxdıqlarına, ələlxüsus da Allahı zikr etməkdən yayındıqlarına və başqa bu kimi günahlar etdiklərinə görə bu yerlər Allahın ən nifrət etdiyi yer sayılır. Elə bu səbəbdən də, Peyğəmbər ﷺ

dən də az) bir şey müqabilində belə, o, bizə lazım deyil. Biz onu nəyə istifadə edəcəyik ki?" Rəsulullah ﷺ yenə soruşdu: "İstəyərsiniz, (havayı olaraq) o, sizin olsun?" Onlar: "Yox!"– dedilər. Rəsulullah ﷺ (bu sualı) üç dəfə təkrar etdi. Onlar isə belə cavab verdilər: "Yox, vallahi ki, (istəmirik). Əgər bu çəpiş diri olsaydı, o, qüsurlu hesab olunardı. Çünki o əsəkdir. (Qulaqları olduqca qısa heyvana "əsək" deyilir.[1]) Üstəlik, ölü olması necə?" Onda, Peyğəmbər ﷺ dedi: "Vallahi ki, bu dünya Allah yanında, bu çəpişin sizin üçün dəyərsiz olduğundan daha dəyərsizdir.[2]"[3]

---

müsəlmanlara bazara daxil olduqda Allahı zikr etməyi tövsiyə etmişdir. Hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: "Hər kim bazara daxil olduqda

(( لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ،

يُحْيِي وَيُمِيتُ وَهُوَ حَيٌّ لاَ يَمُوتُ، بِيَدِهِ الْخَيْرُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ ))

"Lə ilahə illəllah, vəhdahu lə şərikə ləh, ləhul-mulku və ləhul-həmd, yuhyi və yumitu və huvə həyyun lə yəmut, biyədihil-xayru və huvə alə kulli şeyin qadir (Allahdan başqa ibadətə layiq məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Ona məxsusdur! Dirildir və öldürür. O diridir və ölməzdir. Xeyir onun əlindədir və O, hər şeyə Qadirdir!)"– desə, Allah ona bir milyon savab yazar və onun bir milyon günahını silər (Sunən ət-Tirmizi, 5/291; Mustədrək əl-Hakim, 1/538. Şeyx əl-Albani bu hədisin "həsən" olduğunu demişdir. Bax: Səhih ət-Tirmizi, 2/152; Səhih İbn Macə, 2/21).

[1] Bu izah Qadı İyadın "İkmalul-Mulim" (8/259), Nəvəvinin "Şərh li Səhihi Muslim" (9/261) Abdul-Muhsin əl-Abbadın "Şərh Əbu Davud" (2/75) əsərlərində öz əksini tapmışdır.

[2] Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Əgər bu dünyanın Allah yanında ağcaqanadın qanadı qədər dəyəri olsaydı, orada kafirə bir içim su belə verilməzdi" (Sunən ət-Tirmizi, 2/52; əl-Kamil, 2/306; Silsilətul-Əhadisis-Səhihə, 686). Bu xüsusda, Uca Allah buyurur: **"Biz hamıya – onlara da, bunlara da Rəbbinin nemətindən veririk. Rəbbinin neməti *heç kəsə* qadağan deyildir. Bax, gör *dünyada* onların birini digərindən necə üstün etdik. Axirətdə isə daha böyük dərəcələr və daha böyük üstünlüklər vardır"** (əl-İsra, 20-21).

[3] Bu hədisi Muslim (8/210-211), Əbu Davud (186) və Əhməd (3/365) rəvayət etmişdir.

**٩٦٣–** حَدَّثَنَا عُثْمَانُ الْمُؤَذِّنُ قَالَ: حَدَّثَنَا عَوْفٌ، عَنِ الْحَسَنِ، عَنْ عُتَيِّ بْنِ ضَمْرَةَ قَالَ: رَأَيْتُ عِنْدَ أُبَيِّ رَجُلًا تَعَزَّى بِعَزَاءِ الْجَاهِلِيَّةِ، فَأَعَضَّهُ أُبَيٌّ وَلَمْ يُكْنِهِ، فَنَظَرَ إِلَيْهِ أَصْحَابُهُ، قَالَ: كَأَنَّكُمْ أَنْكَرْتُمُوهُ؟ فَقَالَ: إِنِّي لَا أَهَابُ فِي هَذَا أَحَدًا أَبَدًا، إِنِّي سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: ((مَنْ تَعَزَّى بِعَزَاءِ الْجَاهِلِيَّةِ فَأَعِضُّوهُ وَلَا تَكْنُوهُ)).

**(963)** ........ Uteyy ibn Damra demişdir: "Mən bir nəfərin Ubeyyin[1] yanında, cahiliyyət dövründə olduğu kimi öz qövmü ilə qürrələndiyini gördüm. Onda, Ubeyy onu kinayə ilə deyil, açıq şəkildə təhqir etdi.[2] Ubeyyin dostları (təəccüblə) ona baxdılar. Ubeyy dedi: "Deyəsən, mənim sözüm sizin xoşunuza gəlmədi?" Mən buna görə heç kəsdən əsla qorxmuram. Çünki mən Peyğəmbərin ﷺ belə buyurduğunu eşitmişəm: "Cahiliyyət dövründə olduğu kimi qövmü ilə qürrələnən adamı kinayə ilə yox, açıq şəkildə təhqir edin!"[3]

**(...)–** حَدَّثَنَا عُثْمَانُ قَالَ: حَدَّثَنَا مُبَارَكُ بْنُ فَضَالَةَ، عَنِ الْحَسَنِ، عَنْ عُتَيِّ، مِثْلَهُ.

**(...)** Osman bizə belə rəvayət etmişdir: "Bizə Mubarək ibn Fədalə, Həsəndən, o da, Uteyydən bu hədisin bənzərini rəvayət etmişdir."

---

[1] Burada söhbət məşhur səhabə Ubeyy ibn Kəbdən ؓ gedir.

[2] İbn Əsir demişdir: "Təhqir edin, yəni ona "Get, atanın tənasül orqanından dişlə"– deyin və bunu kinayə olaraq başqa bir sözlə əvəz etməyin ki, bu, onu alçaltsın və ona bir dərs olsun" (ən-Nihayə, 3/494). Elm əhlindən bəzisi demişdir: "Bunu deyəndə sanki o adama *ata-anasının tənasül orqanından çıxmış* bir damla dəyərsiz nütfədən əmələ gəldiyini xatırlatmış oluruq" (Abdur-Rəzzaq). Bir zaman Mutarrif ibn Abdullah ibn Şixxir özünü dartan bir adama belə demişdir: "Sənin əvvəlin dəyərsiz nütfə olmuş, axırın da çürümüş cəsəd olacaq. Üstəlik, sən qarnında nəcis daşıyırsan" (548-ci hədisin qeydlərinə bax).

[3] Bu hədisi Nəsai (Sunən əl-Kubra, 1/36/1-2), Əhməd (5/136), Təbərani, (Mocəmul-Kəbir, 27/2), Bəğəvi (Şərhus-Sunnə, 4/99/2) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ٤٣٧- بَابُ مَا يَقُولُ الرَّجُلُ إِذَا خَدِرَتْ رِجْلُهُ

## 437-ci fəsil. Adamın ayağı keyləşdikdə nə deməlidir

**٩٦٤-** حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ أَبِي إِسْحَاقَ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ سَعْدٍ قَالَ: خَدِرَتْ رِجْلُ ابْنِ عُمَرَ، فَقَالَ لَهُ رَجُلٌ: اذْكُرْ أَحَبَّ النَّاسِ إِلَيْكَ، فَقَالَ: مُحَمَّدٌ.

**(964)** ........ Abdur-Rəhman ibn Səd ﷺ demişdir: "(Bir gün) İbn Ömərin ayağı (çox oturmaqdan) keyləşdi və bir nəfər ona: "Ən sevimli adamın adını çək"[1]– dedi. İbn Ömər də: "Muhəmməd!"– dedi."[1]

---

[1] Bu, ərəblər arasında təcrübədən irəli gəlmiş bir müalicə üsulu olmuşdur. Bunun nə ibadətlə, nə əqidə ilə, nə də zikr ilə heç bir əlaqəsi yoxdur.

الأمر الثاني: في الدراية: يقال لهذا المستدل: غاية ما ذكرته أن فيه ذكراً للمحبوب، لا طلب حاجة منه أو به أن يزال ما به، ولا أن يكون واسطة لإزالة خدر الرجل، وليس فيه توسلٌ، وإلا لكان لازماً أن من ذكر محبوبه فقد استغاث به وتوسل به في إزالة شدته، وهذا من أبطل الباطل، وأمحل المحال.

فما قوله إذا ذكر الكافرُ حبيبه فزال خدَرُ رجله وانتشرت بعد قيد وخدور؟ أفيكون توسل به؟ ويكون من يزيل الأمراض والأخدار -سبحانه وتعالى- قد قبل هذه الوسيلة؟!

وهذا الدواء -التجريبي- للخدر كان معروفاً عند الجاهليين قبل الإسلام جُرِّب فنفع، وليس فيه إلا ذكر المحبوب، وقيل في تفسير ذلك: إن ذكره لمحبوبه يجعل الحرارة الغريزية تتحرك في بدنه، فيجري الدم في عروقه، فتتحرك أعصاب الرجل، فيذهب الخدر.

وجاءت الأشعار بهذا كثيراً في الجاهلية والإسلام:

فمنها: قول الشاعر:

صبٌّ محبٌّ إذا ما رِجْلُه خَدَرت

نادى (كُبَيْشَةَ) حتى يذهب الخَدَر

وقال الموصلي:

واللهِ ما خَدَرَتْ رجلي وما عَثَرَتْ

إلا ذكرتُكِ حتى يَذْهبَ الخدَرُ

وغير ذلك من الأشعار، أفيقال: إن هؤلاء توسلوا بمن يحبونه، من نساءٍ وغلمان، وأجيب سؤلهم، وقبلت وسيلتهم؟!!

**أَنَّ الحَدِيْثَ مَعَ ذَلِكَ لَيْسَ فِيْهِ مُتَمَسَّكٌ لِلاسْتِغَاثَةِ بِغَيْرِ اللهِ، لِأَنَّهُ لَيْسَ فِيْهِ اسْتِغَاثَةٌ أَصْلًا، بَلْ هُوَ عِلَاجٌ قَدِيْمٌ مَعْرُوْفٌ لِلخَدَرِ؛ حَيْثُ يَذْكُرُ صَاحِبُهُ أَحَبَّ النَّاسِ إِلَيْهِ فَيَزُوْلُ الخَدَرُ. (٢)**

(٢) قَالَ النَّوَوِيُّ رَحِمَهُ اللهُ فِي كِتَابِهِ (المَجْمُوْعُ) (٦٥٢/ ٤): ((يُسْتَحَبُّ) وَإِذَا خَدِرَتْ رِجْلُهُ؛ ذِكْرُ مَنْ يُحِبُّهُ).

[1] Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

## ٤٣٨ – بَابُ

## 438-ci fəsil.

**٩٦٥** – حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا يَحْيَى، عَنْ عُثْمَانَ بْنِ غِيَاثٍ قَالَ: حَدَّثَنَا أَبُو عُثْمَانَ، عَنْ أَبِي مُوسَى، أَنَّهُ كَانَ مَعَ النَّبِيِّ ﷺ فِي حَائِطٍ مِنْ حِيطَانِ الْمَدِينَةِ، وَفِي يَدِ النَّبِيِّ ﷺ عُودٌ يَضْرِبُ بِهِ مِنَ الْمَاءِ وَالطِّينِ، فَجَاءَ رَجُلٌ يَسْتَفْتِحُ، فَقَالَ النَّبِيُّ ﷺ: ((افْتَحْ لَهُ، وَبَشِّرْهُ بِالْجَنَّةِ))، فَذَهَبَ، فَإِذَا أَبُو بَكْرٍ رَضِيَ اللَّهُ عَنْهُ، فَفَتَحْتُ لَهُ، وَبَشَّرْتُهُ بِالْجَنَّةِ. ثُمَّ اسْتَفْتَحَ رَجُلٌ آخَرُ، فَقَالَ: ((افْتَحْ لَهُ، وَبَشِّرْهُ بِالْجَنَّةِ))، فَإِذَا عُمَرُ رَضِيَ اللَّهُ عَنْهُ، فَفَتَحْتُ لَهُ، وَبَشَّرْتُهُ بِالْجَنَّةِ. ثُمَّ اسْتَفْتَحَ رَجُلٌ آخَرُ، وَكَانَ مُتَّكِئًا فَجَلَسَ، وَقَالَ: ((افْتَحْ لَهُ، وَبَشِّرْهُ بِالْجَنَّةِ عَلَى بَلْوَى تُصِيبُهُ، أَوْ تَكُونُ))، فَذَهَبْتُ، فَإِذَا عُثْمَانُ، فَفَتَحْتُ لَهُ، فَأَخْبَرْتُهُ بِالَّذِي قَالَ، قَالَ: اللَّهُ الْمُسْتَعَانُ.

**(965)** ........ Əbu Musa ﷺ demişdir: “(Bir dəfə) mən Peyğəmbərlə ﷺ birgə Mədinədəki bostanlardan birində idim. Peyğəmbərin ﷺ əlində bir çubuq var idi. O, bu çubuğu (yerdəki) suya və palçığa vururdu.[1] Elə bu vaxt bir nəfər gəlib (qapını döydü və bostana daxil olmaq üçün) izin istədi.[2] Peyğəmbər ﷺ dedi: “Qapını aç və onu Cənnətlə müjdələ.” Mən gedib baxdım ki, bu Əbu Bəkrdir ﷺ. Qapını açıb, onu Cənnətlə müjdələdim. Sonra başqa birisi gəlib (qapını döydü və bostana daxil olmaq üçün) izin istədi. Peyğəmbər ﷺ dedi: “Qapını aç və onu Cənnətlə müjdələ.” Baxdım ki, bu Ömərdir ﷺ. Qapını açıb, onu Cənnətlə müjdələdim. Sonra başqa birisi gəlib (qapını döydü və bostana daxil olmaq üçün) izin istədi. Peyğəmbər ﷺ

---

[1] Peyğəmbərin ﷺ belə etməsi, bu əməlin mübah olduğuna dəlalət edir.

[2] İmam Buxarinin “Səhih”indəki rəvayətlərdə xəbər verilir ki, Əbu Musa əl-Əşari ﷺ: “Peyğəmbər ﷺ mənə qapıda gözətçi durmağı buyurdu, mən ona salam verdim, sonra da gedib qapının yanında oturdum və *öz-özümə* dedim: “Bu gün mən Peyğəmbərin ﷺ qapıçısı olacağam”– demişdir.

söykənmiş vəziyyətdə idi. O, qalxıb oturdu və dedi: "Qapını aç və onu Cənnətlə müjdələ.[1] Üstəlik, onun başına gələcək müsibət barədə ona xəbər ver." Gedib baxdım ki, bu Osmandır ﵁. Qapını açıb, (onu Cənnətlə müjdələdim və) Peyğəmbərin ﷺ dediyini ona xəbər verdim. Osman dedi: "Allah Özü kömək olsun!"[2]

---

[1] Bu hədisdə adları çəkilən bu üç səhabə, bu ümmətin ən fəzilətli səhabələridir. Bu xüsusda, Abdullah ibn Ömər ﵄ demişdir: "Biz Peyğəmbərin ﷺ zamanında heç kəsi Əbu Bəkrdən, sonra Ömərdən, sonra da Osmandan əfzəl hesab etməzdik. Qalan səhabələr barədə isə susardıq" (Səhih əl-Buxari, 3697); digər rəvayətdə o, demişdir: "Peyğəmbərin ﷺ sağlığında biz deyərdik: "Peyğəmbərdən ﷺ sonra onun ümmətinin ən fəzilətlisi Əbu Bəkr, sonra Ömər, sonra da Osmandır. Allah onların hamısından razı olsun!" (Sunən Əbu Davud, 4628; Mişkatul-Məsabih, 6016). Başqa bir rəvayətdə İbnul-Hənəfiyyə kimi tanınmış Muhəmməd ibn Əli ibn Əbu Talib demişdir: "*Bir gün* mən atamdan soruşdum: "Peyğəmbərdən ﷺ sonra bu ümmətin ən xeyirlisi kimdir?" O dedi: "Əbu Bəkrdir!" Mən yenə soruşdum: "Sonra kimdir?" O dedi: "Sonra Ömərdir!" Mən onun sonra "Osmandır!" deyəcəyindən ehtiyat edib dedim: "Sonra sənsən?" Onda o dedi: "Mən, sadəcə, müsəlmanlardan biriyəm" (Səhih əl-Buxari, 3617; Sunən Əbu Davud, 4629). Həmçinin rəvayət edilir ki, Əli ibn Əbu Talib ﵁ demişdir: "Kim məni Əbu Bəkr və Ömərdən üstün tutarsa, mən onu (birisinə) iftira yaxmış kimsəyə vurulan qamçı qədər qamçılayaram" (Sunən İbn Əbu Asim, 1219; Zilalul-Cənnə, 1219). Əbu Bəkr ﵁ və Ömərə ﵁ gəlincə, Peyğəmbər ﷺ ayrıca bir hədisdə onları tərif edib demişdir: "Peyğəmbərlər və elçilər istisna olmaqla yaşlılar arasında Əbu Bəkr və Ömər Cənnət əhlinin ən hörmətli sakinləridirlər" (Sunən ət-Tirmizi, 4/310; Sunən İbn Macə, 1/49; Səhih əl-Cami, 51; Silsilətul-Əhadisis-Səhihə, 824). Habelə Peyğəmbər ﷺ Cənnətlə müjdələdiyi on nəfərin adlarını çəkərkən ilk əvvəl bu üç səhabənin adını çəkmişdir. Bütün bunları cəm edib demək olar ki, peyğəmbərlər istisna olmaqla müsəlmanların ən fəzilətlisi – Əbu Bəkr əs-Siddiq ﵁, sonra Ömər ibn Xattab ﵁, sonra Osman ibn Əffan ﵁, sonra Əli ibn Əbu Talib ﵁, sonra Cənnətlə müjdələnmiş on nəfərin qalanı, sonra da Peyğəmbərin ﷺ digər səhabələridir.

[2] Bu hədisi Buxari (3674, 3695, 6216, 7097, 7262), Muslim (2403), Tirmizi (4075) və Əhməd (4/406) rəvayət etmişdir.

## ٤٣٩– بَابُ مُصَافَحَةِ الصِّبْيَانِ

## 439-cu fəsil. Uşaqlarla əl verərək görüşmək

٩٦٦– حَدَّثَنَا ابْنُ شَيْبَةَ قَالَ: حَدَّثَنَا ابْنُ نُبَاتَةَ، عَنْ سَلَمَةَ بْنِ وَرْدَانَ قَالَ: رَأَيْتُ أَنَسَ بْنَ مَالِكٍ يُصَافِحُ النَّاسَ، فَسَأَلَنِي: مَنْ أَنْتَ؟ فَقُلْتُ: مَوْلًى لِبَنِي لَيْثٍ، فَمَسَحَ عَلَى رَأْسِي ثَلَاثًا وَقَالَ: بَارَكَ اللَّهُ فِيكَ.

**(966)** ........ Sələmə ibn Vərdan demişdir: "Mən Ənəs ibn Malikin insanlarla[1] əl verib görüşdüyünü görmüşəm. (Bir gün) o, məndən: "Kimlərdənsən?"– deyə soruşdu. Mən: "Leys oğullarının mövlasıyam[2]"– dedim. O, üç dəfə mənim başımı sığalladı və: "Allah sənə bərəkət versin!"– dedi.[3]"[4]

---

[1] Burada "insanlar" deyildikdə həm böyüklər, həm də uşaqlar nəzərdə tutulur.

[2] 39-cu və 40-cı fəsilin qeydlərinə bax.

[3] Bu əsərdən aydın olur ki, böyüyün uşaqla əl verib görüşməsi, habelə, ondan: "Kimlərdənsən?"– deyə soruşması, onun başını sığallaması və onun üçün dua etməsi İslam əxlaqına aid olan gözəl əməllərdəndir. Bu davranış, əlbəttə ki, uşağın qəlbini fərəhləndirir, böyüyün ona diqqət yetirdiyinə çox sevinir və ömrü boyu bu diqqəti unutmur. Bütün bunlar Peyğəmbərin ﷺ öz ümmətinə öyrətdiyi əməllərdəndir (367-ci, 632-ci, 738-ci və 838-ci hədislərə və onların qeydlərinə bax).

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

## ٤٤٠ – بَابُ الْمُصَافَحَةِ

## 440-cı fəsil. Əl verərək görüşmək

٩٦٧– حَدَّثَنَا حَجَّاجٌ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ حُمَيْدٍ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ قَالَ: لَمَّا جَاءَ أَهْلُ الْيَمَنِ قَالَ النَّبِيُّ ﷺ: ((قَدْ أَقْبَلَ أَهْلُ الْيَمَنِ وَهُمْ أَرَقُّ قُلُوبًا مِنْكُمْ، فَهُمْ أَوَّلُ مَنْ جَاءَ بِالْمُصَافَحَةِ)).

**(967)** ........ Ənəs ibn Malik ﷺ demişdir: "Yəmən əhli gəldikdə Peyğəmbər ﷺ demişdir: "Yəmənlilər gəldi. Onların qəlbi sizinkindən də yumşaqdır." Məhz onlar (İslamda) əl verib görüşən kimsələrin ilki[1] olmuşlar."[1]

---

[1] Bu hədisə diqqətlə nəzər salsaq, əl verib görüşməklə qəlbin yumşalması arasında olan bağlılığı açıq-aydın görə bilərik. Beləliklə də, aydın olur ki, mömin qardaşına əl verib görüşmək qəlbin yumşalmasına səbəb olan əsas amillərdəndir. Çox hallarda görürsünüz ki, incəqəlbli insanlar əl verib görüşməyə, qəddar insanlar isə əksinə, bundan uzaq durmağa üstünlük verirlər. Deməк, əl verməyib görüşmək adamın qəlbini sərtləşdirir. Qəlb sərtləşdikdən və qəlbdəki mərhəmət hissi götürüldükdən sonra adam azğınlaşır, ayağının altını görmür, hamıya yuxarıdan aşağı baxır və ən yaxın dostunu belə tapdalamağa hazır olur. Bəs, sərtləşmiş qəlbi necə yumşaltmaq olar? Nə edək ki, qəlbimiz yumşalsın? İstəyirsiniz, qəlbiniz yumşalsın, Peyğəmbərin ﷺ bu nəsihətini ömrünüzün axırınadək tətbiq edin – qarşılaşanda da əl verib görüşün, sağollaşanda da. Bundan başqa, qəlbi yumşaldan neçə-neçə saleh əməllər vardır ki, onları yerinə yetirən kəs öz qəlbinin necə yumşaldığının şahidi ola bilər. Gəlin, Quran və Sünnədə varid olmuş qəlbi yumşaldan amillərdən bir neçəsinə nəzər salaq:

- Allahı zikr etmək; Bu xüsusda, Uca Allah buyurur: **"Möminlərin qəlbinin Allahın zikri və haqdan nazil olan *ayələr* üçün yumşalması, daha öncə özlərinə Kitab verilmiş, uzun bir müddət keçdikdən sonra isə qəlbləri sərtləşmiş, çoxusu da fasiq olmuş kimsələr kimi olmaması vaxtı gəlib çatmadımı?" (əl-Hədid, 16);** digər ayədə Uca Allah o möminləri tərifləyib deyir: **"Bunlar, iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır. Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır"** (ər-Rəd, 28).

Rəvayət edilir ki, bir nəfər Həsən əl-Bəsrinin yanına gəlib: "Ey Əbu Səid, mən gəlmişəm, qəlbimin sərtliyindən sənə şikayət edim"– demiş, Həsən də ona belə cavab vermişdir: "Allahı zikr etməklə qəlbini yumşalt!" (əl-Vabilus-Sayyib, 1/99).

- Allaha, yalvarıb Ondan mərhəmət diləmək; Bu xüsusda, Uca Allah buyurur: **"Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!"** (əl-Həşr, 10).

- Ölümü yada salmaq; bir zaman Peyğəmbər ﷺ öz səhabələrinə demişdir: "Mən sizə qəbirləri ziyarət etməyi qadağan etmişdim. İndi isə sizə qəbirləri ziyarət etməyi əmr edirəm. Çünki onları ziyarət etmək qəlbləri yumşaldır, gözləri yaşardır, Axirəti yada salır..." (Mustədrək, 1/376; Musnəd Əhməd, 3/237; Səhih əl-Cami, 4584).

- Pisliyi yaxşılıqla dəf etmək; Bu xüsusda, Uca Allah buyurur: **"Yaxşılıqla pislik eyni ola bilməz. Sən *pisliyi* yaxşılıqla dəf et! O zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar. Bu isə, ancaq səbir edənlərə verilir və ancaq böyük qismət sahiblərinə nəsib olur"** (Fussilət, 34-35).

- Kasıba yemək vermək, habelə, yetimin başına sığal çəkmək və onu himayəyə götürmək; qəlbinin sərtliyindən Peyğəmbərə ﷺ şikayət edən kimsəyə Peyğəmbər ﷺ belə buyurmuşdur: "İstəyirsən qəlbin yumşalsın?! Elə isə, kasıba yemək ver və yetimin başına sığal çək!" (Musnəd Əhməd, 2/263; Silsilətul-Əhadisis-Səhihə, 854).

- Sərtqəlbli insanların aqibətinin pis olacağı barədə varid olmuş ayə və hədisləri yada salmaq; məsələn, Uca Allah buyurur: **"Məgər Allahın, köksünü İslam üçün açdığı və Rəbbinin nura yönəltdiyi şəxs *kafirlə eyni ola bilərmi*? Qəlbi Allahın Zikrinə qarşı sərt olanların vay halına! Onlar həqiqətən azğınlıq içindədirlər"** (əz-Zumər, 22).

[1] Bu hədisi Əhməd (3/212, 251) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir. İmam Əhmədin nəql etdiyi bu hədisin tam variantında Ənəs ibn Malik رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Sabah sizin yanınıza İslam üçün *can yandıran,* sizdən daha incəqəlbli insanlar gələcək." Nəhayət, əşarilər bizim yanımıza gəldilər. Əbu Musa əl-Əşari də onların arasında idi. Onlar Mədinəyə yaxınlaşdıqları zaman bu sözləri deməyə başladılar: "Sabah biz, çox sevdiyimiz insanlara – Muhəmmədə ﷺ və onun səhabələrinə qovuşacağıq." Onlar bizim yanımıza gəlib çatdıqda bizimlə əl verib görüşdülər. Beləliklə də, məhz onlar (İslam-

٩٦٨- حَدَّثَنَا مُحَمَّدُ بْنُ الصَّبَّاحِ قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ زَكَرِيَّا، عَنْ أَبِي جَعْفَرٍ الْفَرَّاءِ، عَنْ عَبْدِ اللَّهِ بْنِ يَزِيدَ، عَنِ الْبَرَاءِ بْنِ عَازِبٍ قَالَ: مِنْ تَمَامِ التَّحِيَّةِ أَنْ تُصَافِحَ أَخَاكَ.

**(968)** ........ Bəra ibn Azib ﷛ demişdir:[1] "Qardaşınla əl verib görüşmək salamın tamamlanmasındandır.[2]"

---

da) əl verib görüşən kimsələrin birincisi oldular" (Musnəd, 3/155, 223; Silsilətul-Əhadisis-Səhihə, 2/50). Peyğəmbər ﷺ də bu əməli tərifləyib demişdir: "Qarşıladıqları zaman əl verib görüşən elə iki müsəlman yoxdur ki, onlar bir-birindən ayrılana qədər günahları bağışlanmasın" (Sunən Əbu Davud, 5212; Sunən ət-Tirmizi, 2/121; Sunən İbn Macə, 3703; Musnəd Əhməd, 4/289, 303; Silsilətul-Əhadisis-Səhihə, 2/50); digər hədisdə o demişdir: "Mömin öz mömin qardaşı ilə qarşılaşdığı zaman ona salam verər, üstəlik, ona əl verib görüşərsə, ağacın yarpaqları töküldüyü kimi, onların hər ikisinin günahları tökülər" (Tərğib vət-Tərhib, 3/270; Məcməuz-Zəvaid, 8/36; Silsilətul-Əhadisis-Səhihə, 526). Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, Sünnəyə uyğun olan görüşməyin vəsfi belədir ki, əl verib görüşən adam sağ əlinin içini mömin qardaşının sağ əlinin içinə qoyaraq onu xəfif şəkildə sıxmalıdır. Gündəlik olaraq qarşılaşdıqda yalnız əl verib görüşməklə kifayətlənmək gərəkdir. Bu xüsusda, varid olmuş hədisdə Ənəs ibn Malik ﷠ demişdir: "Bir nəfər Peyğəmbərdən ﷺ soruşdu: "Ya Rəsulullah, bizdən birimiz dostu ilə qarşılaşdıqda ona tərəf əyilə bilərmi?" Rəsulullah ﷺ: "Yox!"– dedi. Adam yenə soruşdu: "Onu qucaqlayıb öpə bilərmi?" Rəsulullah ﷺ yenə: "Yox!"– dedi. Adam yenə soruşdu: "Ona əl verib görüşə bilərmi?" Rəsulullah ﷺ: "Bəli!"– dedi" (Sunən ət-Tirmizi, 2/121; Sunən İbn Macə, 3702; Sunən əl-Beyhəqi 7/100; Musnəd Əhməd, 3/198; Silsilətul-Əhadisis-Səhihə, 1/248). Xüsusilə qeyd etmək lazımdır ki, bunun ailəyə heç bir aidiyyəti yoxdur. Yəni adam öz zövcəsini, uşaqlarını və digər məhrəmlərini öpə bilər. Qarşılaşdıqda qucaqlaşmaq məsələsinə gəlincə, yalnız səfərdən qayıtdıqda bunu etmək caizdir. Bu xüsusda, Ənəs ibn Malik ﷠ demişdir: "Peyğəmbərin səhabələri (gündəlik) qarşılaşdıqda əl verib görüşər, səfərdən gəldikdə isə qucaqlaşardılar" (Məcməuz-Zəvaid, 8/36; Silsilətul-Əhadisis-Səhihə, 1/248).

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih-movquf" olduğunu demişdir.

[2] Muhəmməd Nasirəddin əl-Albani belə izah etmişdir: "Peyğəmbər ﷺ demişdir: "Sizdən biriniz məclisə gəldiyi zaman salam versin. Məclisdən durub getdikdə də salam ver-

sin. Əvvəlki salam sonuncu salamdan heç də üstün deyildir" (Sunən Əbu Davud, 5208; Sunən ət-Tirmizi, 2/118; Muşkilul-Asar, 2/139; Musnəd Əhməd, 2/230, 287, 429; Musnəd əl-Humeydi, 1162; Musnəd Əbu Yəla, 1/306; Silsilətul-Əhadisis-Səhihə, 183). Bəziləri deyirlər ki: "Vidalaşdıqda əl verib sağollaşmaq bidətdir və bunun heç bir anlamı yoxdur." Bəli, qarşılaşdıqda əl verib görüşmək barədə varid olmuş hədislərin, vidalaşdıqda əl verib sağollaşmaq barədə varid olmuş hədislərdən daha çox və isnad baxımından daha qüvvətli olduğunu görür və beləliklə də, nəfsinin fəqihi olan adam bundan belə nəticə çıxarır ki, əl verib vidalaşmaq dərəcə etibarilə əl verib görüşmək kimi deyil, əl verib görüşmək Sünnə, əl verib vidalaşmaq isə müstəhəbdir. Buna bidət demək tamamilə yanlış fikirdir. Yuxarıda nəql etdiyimiz hədis buna dəlildir. Qaldı ki, namazı bitirən kimi *yanındakılarla* əl verib görüşməyə, heç şübhəsiz ki, bunu etmək bidətdir. Yalnız uzun müddət bir-birini görməyən və namazdan sonra qarşılaşan kimsələr müstəsnadır. Belə olduğu təqdirdə əl verib görüşmək isə Sünnədir" (Silsilətul-Əhadisis-Səhihə, 1/22).

## ٤٤١ - بَابُ مَسْحِ الْمَرْأَةِ رَأْسَ الصَّبِيِّ

## 441-ci fəsil. Qadının uşağın başını sığallaması

**٩٦٩-** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ أَبِي الأَسْوَدِ قَالَ: حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ مَرْزُوقٍ الثَّقَفِيُّ قَالَ: حَدَّثَنِي أَبِي، وَكَانَ لِعَبْدِ اللَّهِ بْنِ الزُّبَيْرِ فَأَخَذَهُ الْحَجَّاجُ مِنْهُ، قَالَ: كَانَ عَبْدُ اللَّهِ بْنُ الزُّبَيْرِ بَعَثَنِي إِلَى أُمِّهِ أَسْمَاءَ بِنْتِ أَبِي بَكْرٍ فَأُخْبِرُهَا بِمَا يُعَامِلُهُمْ حَجَّاجٌ، وَتَدْعُو لِي، وَتَمْسَحُ رَأْسِي، وَأَنَا يَوْمَئِذٍ وَصِيفٌ.

**(969)** ........ İbrahim ibn Mərzuq əs-Səqəfi demişdir: "Mənim atam Abdullah ibn Zubeyrin xidmətçisi olmuş, sonra isə Həccac onu Abdullahın əlindən almışdır. Atam demişdir: "Abdullah ibn Zubeyr məni anasının – Əbu Bəkrin qızı Əsmanın yanına göndərdi ki, Həccacın onlarla necə davrandığını ona xəbər verim. Onda, Əsma mənim üçün dua etdi və başımı sığalladı.[1] O vaxt mən hələ uşaq idim."[2]

---

[1] Uşağın başını sığallamaq və onun üçün dua etmək neçə-neçə "səhih" hədislərdə öz əksini tapmışdır (367-ci, 632-ci, 738-ci və 838-ci hədislərə və onların qeydlərinə bax).

[2] Bu hədisin isnadında keçən İbrahim ibn Mərzuq əs-Səqəfi və onun atası – hər ikisi "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ٤٤٢ – بَابُ الْمُعَانَقَةِ

## 442-ci fəsil. Qucaqlaşmaq[1]

٩٧٠ – حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا هَمَّامٌ، عَنِ الْقَاسِمِ بْنِ عَبْدِ الْوَاحِدِ، عَنِ ابْنِ عَقِيلٍ، أَنَّ جَابِرَ ابْنَ عَبْدِ اللَّهِ حَدَّثَهُ، أَنَّهُ بَلَغَهُ حَدِيثٌ عَنْ رَجُلٍ مِنْ أَصْحَابِ النَّبِيِّ ﷺ، فَابْتَعْتُ بَعِيرًا فَشَدَدْتُ إِلَيْهِ رَحْلِي شَهْرًا، حَتَّى قَدِمْتُ الشَّامَ، فَإِذَا عَبْدُ اللَّهِ بْنُ أُنَيْسٍ، فَبَعَثْتُ إِلَيْهِ أَنَّ جَابِرًا بِالْبَابِ، فَرَجَعَ الرَّسُولُ فَقَالَ: جَابِرُ بْنُ عَبْدِ اللَّهِ؟ فَقُلْتُ: نَعَمْ، فَخَرَجَ فَاعْتَنَقَنِي، قُلْتُ: حَدِيثٌ بَلَغَنِي لَمْ أَسْمَعْهُ، خَشِيتُ أَنْ أَمُوتَ أَوْ تَمُوتَ، قَالَ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: ((يَحْشُرُ اللَّهُ الْعِبَادَ، أَوِ النَّاسَ، عُرَاةً غُرْلًا بُهْمًا))، قُلْتُ: مَا بُهْمًا؟ قَالَ: ((لَيْسَ مَعَهُمْ شَيْءٌ، فَيُنَادِيهِمْ بِصَوْتٍ يَسْمَعُهُ مَنْ بَعُدَ، أَحْسَبُهُ قَالَ: كَمَا يَسْمَعُهُ مَنْ قَرُبَ: أَنَا الْمَلِكُ، لاَ يَنْبَغِي لِأَحَدٍ مِنْ أَهْلِ الْجَنَّةِ يَدْخُلُ الْجَنَّةَ وَأَحَدٌ مِنْ أَهْلِ النَّارِ يَطْلُبُهُ بِمَظْلَمَةٍ، وَلاَ يَنْبَغِي لِأَحَدٍ مِنْ أَهْلِ النَّارِ يَدْخُلُ النَّارَ وَأَحَدٌ مِنْ أَهْلِ الْجَنَّةِ يَطْلُبُهُ بِمَظْلَمَةٍ))، قُلْتُ: وَكَيْفَ؟ وَإِنَّمَا نَأْتِي اللَّهَ عُرَاةً بُهْمًا؟ قَالَ: ((بِالْحَسَنَاتِ وَالسَّيِّئَاتِ)).

**(970)** ........ Cabir ibn Abdullah ﷺ demişdir: "(Bir dəfə) mənə Peyğəmbərin ﷺ səhabələrindən birindən hədis danışdılar. Bir dəvə aldım[2] və hə-

---

[1] Ərəbcə " الْمُعَانَقَةُ – qucaqlaşmaq" sözü, ( عَانَقَ ) feilindən əmələ gəlmiş isimdir. Bunun da kökü üç hərfli " عُنُقٌ – boyun" sözünə bağlıdır. Belə ki, görüşərkən qucaqlaşan iki nəfərin boyunları bir-birinə dəydiyinə görə, bu hərəkət ərəbcə ( الْمُعَانَقَةُ – hərfi tərcümədə bir adamın boynunun digərinin boynuna dəyməsi) adlanır. Şəriətə görə qucaqlaşmaq məsələsinə gəlincə, yalnız səfərdən qayıtdıqda bunu etmək caizdir. Bu xüsusda, Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbərin səhabələri (gündəlik) qarşılaşdıqda əl verib görüşər, səfərdən gəldikdə isə qucaqlaşardılar" (Məcməuz-Zəvaid, 8/36; Silsilətul-Əhadisis-Səhihə, 1/248).

[2] Səhabə bu hədisi dəqiqləşdirməkdən ötrü dəvə alır ki, ona minib hədisi bilən səhabənin yanına getsin.

min səhabə ilə görüşmək üçün düz bir ay yol getdim. Nəhayət, gəlib Şama çatdım və (bu səhabənin) Abdullah ibn Uneys[1] olduğunu öyrəndim. Mən (onun evinə getdim və) ona: "Cabir qapıda səni gözləyir"– deyə xəbər göndərdim. Xəbər aparan adam geri qayıdıb soruşdu: "(Sən) Cabir ibn Abdullahsan?" Mən: "Bəli!"– deyə cavab verdim. (Çox keçmədən) Abdullah ibn Uneys çıxıb məni qucaqladı.[2] Mən dedim: "Mənə bir hədis danışıblar ki, mən onu (Peyğəmbərdən ﷺ) eşitməmişəm. Mən ikimizdən birinin öləcəyindən qorxdum.[3]" O dedi: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitdim: "Allah Öz qullarını, yaxud insanları (onlar) lüt-üryan,[4] sünnət[5] olunmamış halda və buhmlu ikən məhşərə toplayacaqdır." Biz soruşduq: "Buhm nədir?" Peyğəmbər ﷺ dedi: "Onların yanında heç bir şey[6] olmayacaqdır. Sonra *Allah*, (yaxında olan kimsənin eşidə biləcəyi bir səs kimi) uzaqda olan kimsənin də eşidəcəyi bir səslə onları səsləyib deyəcək: "Mənəm

---

[1] Əbu Yəhya Abdullah ibn Uneys ibn Əs'ad əl-Cuhəni əl-Ənsari رضي الله عنه Peyğəmbərin ﷺ səhabəsidir (əl-İstiyab fi Mərifətil-Əshab, 1/261).

[2] Bu, səfərdən gələn adamla qucaqlaşıb görüşməyin caiz olduğuna dəlalət edir.

[3] Səhabə demək istəyir ki, o bu hədisin doğruluğundan xəbər tutmazdan əvvəl ikisindən birinə əcəl yetişə bilər. Bu da, səhabələrin Sünnəni öyrənməyə və ona əməl etməyə olduqca həris olduğundan xəbər verir.

[4] Digər hədisdə rəvayət edilir ki, Aişə رضي الله عنها demişdir: "*Bir dəfə* Peyğəmbər ﷺ dedi: "*Qiyamət günü* siz ayaqyalın, lüt-üryan və sünnət olunmamış halda məhşərə toplanacaqsınız." Mən soruşdum: "Ya Rəsulullah, kişilər və qadınlar bir-birinə baxacaqlarmı?" Peyğəmbər ﷺ dedi: "*Onların* işi elə çətin olacaq ki, bu, onları heç maraqlandırmayacaq" (Səhih əl-Buxari, 6527).

[5] Sünnət: Müsəlmanlarda və yəhudilərdə yeni doğulmuş oğlan uşaqlarının kişilik əzasının dəri hissəsinin kəsilməsindən ibarət əməliyyat.

[6] Burada "şey" deyildikdə, bu insanların dünyada sahib olduqları hər bir şey nəzərdə tutulur. Bu da, o deməkdir ki, insan yığdığı maldan heç birini özü ilə apara bilmir (496-cı hədisin qeydlərinə bax).

Hökmdar![1] Cənnət əhlindən heç kəs, Cəhənnəm əhlindən olan bir kimsənin tələb etdiyi haqqı ödəməyincə Cənnətə girə bilməz. Eləcə də, Cəhənnəm əhlindən heç kəs Cənnət əhlindən olan bir kimsənin tələb etdiyi haqqı ödəməyincə Cəhənnəmə girə bilməz.[2]" Mən soruşdum: "Bu, necə ola bilər? Axı, biz Allahın hüzuruna çılpaq vəziyyətdə, heç bir şeysiz gələcəyik." Peyğəmbər ﷺ dedi: "Savablarla və günahlarla (ödəyəcəksiniz).[3]"[4]

---

[1] Bunu təsdiqləyən Quran ayəsində Uca Allah buyurur: **"O gün *insanlar yer üzünə* çıxacaq və onların heç bir şeyi Allahdan gizli qalmayacaqdır.** ***Allah buyuracaq:*** **"Bu gün hökm kimə məxsusdur? Tək olan, *hər şeyə* Qalib Gələn Allaha!"** (Ğafir, 16); **"O gün heç kəs heç kəsə fayda verə bilməz və həmin gün səltənət Allaha məxsus olacaqdır!"** (əl-İnfitar, 19).

[2] Yəni əgər Cənnətə gedəcək mömin adam dünya həyatında günahkar adamın haqqına girmişsə, Qiyamət günü mütləq buna görə cavab verəcək və həmin məzlum özünə edilmiş zülmə görə zalımdan qisas alınmasını tələb edəcək. Günahkar adam da, həmçinin, dünya həyatında mömin adamın haqqına girmişsə, Qiyamət günü mütləq buna görə cavab verəcək və həmin məzlum özünə edilmiş zülmə görə zalımdan qisas alınmasını tələb edəcək. İmam Əhmədin "Musnəd" əsərindəki (3/495) bu hədisdə: "Hətta vurduğu şilləyə görə ondan qisas almayınca"– deyilir.

[3] 181-ci və 483-cü hədisin qeydlərinə bax.

[4] Bu hədisi Əhməd (3/495) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "həsən" olduğunu demişdir.

## ٤٤٣ – بَابُ الرَّجُلِ يُقَبِّلُ ابْنَتَهُ

## 443-cü fəsil. Kişinin öz qızını öpməsi[1]

٩٧١ – حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُثَنَّى قَالَ: حَدَّثَنَا عُثْمَانُ بْنُ عُمَرَ قَالَ: حَدَّثَنَا إِسْرَائِيلُ، عَنْ مَيْسَرَةَ ابْنِ حَبِيبٍ، عَنِ الْمِنْهَالِ بْنِ عَمْرٍو، عَنْ عَائِشَةَ بِنْتِ طَلْحَةَ، عَنْ عَائِشَةَ أُمِّ الْمُؤْمِنِينَ قَالَتْ: مَا رَأَيْتُ أَحَدًا كَانَ أَشْبَهَ حَدِيثًا وَكَلَامًا بِرَسُولِ اللَّهِ ﷺ مِنْ فَاطِمَةَ، وَكَانَتْ إِذَا دَخَلَتْ عَلَيْهِ قَامَ إِلَيْهَا، فَرَحَّبَ بِهَا وَقَبَّلَهَا، وَأَجْلَسَهَا فِي مَجْلِسِهِ، وَكَانَ إِذَا دَخَلَ عَلَيْهَا قَامَتْ إِلَيْهِ فَأَخَذَتْ بِيَدِهِ، فَرَحَّبَتْ بِهِ وَقَبَّلَتْهُ، وَأَجْلَسَتْهُ فِي مَجْلِسِهَا، فَدَخَلَتْ عَلَيْهِ فِي مَرَضِهِ الَّذِي تُوُفِّيَ، فَرَحَّبَ بِهَا وَقَبَّلَهَا.

**(971)** ........ Möminlərin anası Aişə ﵂ demişdir: “İnsanlar arasında sözündə və danışığında Rəsulullaha ﷺ Fatimədən daha çox oxşayan adam görməmişəm. Rəsulullah ﷺ Fatimənin onun yanına gəldiyini gördükdə ona: “Xoş gəldin!”– deyər, ayağa qalxıb onu öpər, sonra da onu öz yerində oturdardı. Habelə, Peyğəmbər ﷺ onun yanına gəldikdə Fatimə ayağa qalxıb onun əlindən tutar, ona: “Xoş gəldin!”– deyər, onu öpər, sonra da öz yerində oturdardı. *Nəhayət,* vəfat etdiyi xəstəliyə tutulduğu zamanı Fatimə onun yanına gəldi. Rəsulullah ﷺ Fatiməyə: “Xoş gəldin”– deyib onu öpdü.”[2]

---

[1] Burada “öpmək” deyildikdə, atanın öz qızının əlindən yox, başından (alnından, üzündən və s.) öpmək qəsd edilir. Belə ki, bu fəsildəki hədisdə: “ayağa qalxıb onu öpər”– deyilir. (Səhih əl-Ədəbul-Mufrad, səh: 355). İmam Bəğəvi demişdir: “Məkruh sayılan qucaqlaşmağa və öpməyə gəlincə, buna bir adamı əzəmətləşdirərək və ona yaltaqlanaraq onu qucaqlamaq, habelə, səfərdən qayıtmadığı təqdirdə onu qucaqlamaq aiddir. Bir adamı səfərə yola saldıqda, yaxud səfərdən gələn adamla qarşılaşdıqda və ya Allah rizası üçün sevdiyin dostunu uzun müddət görmədikdə onu qucaqlamaq isə caizdir. (Öpməyə gəldikdə isə, dodaqdan öpmək qadağandır. Əldən, başdan və alından öpmək isə caizdir.” (Şərhus-Sunnə, 12/293).

[2] 947-ci hədisə və onun qeydlərinə bax.

## ٤٤٤- بَابُ تَقْبِيلِ الْيَدِ

## 444-cü fəsil. Əli öpmək[1]

٩٧٢- حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا أَبُو عَوَانَةَ، عَنْ يَزِيدَ بْنِ أَبِي زِيَادٍ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ أَبِي لَيْلَى، عَنِ ابْنِ عُمَرَ قَالَ: كُنَّا فِي غَزْوَةٍ، فَحَاصَ النَّاسُ حَيْصَةً، قُلْنَا: كَيْفَ نَلْقَى النَّبِيَّ ﷺ وَقَدْ فَرَرْنَا؟ فَنَزَلَتْ: ﴿إِلاَّ مُتَحَرِّفًا لِقِتَالٍ﴾، فَقُلْنَا: لاَ نَقْدِمُ الْمَدِينَةَ، فَلاَ يَرَانَا أَحَدٌ، فَقُلْنَا: لَوْ قَدِمْنَا، فَخَرَجَ النَّبِيُّ ﷺ مِنْ صَلاَةِ الْفَجْرِ، قُلْنَا: نَحْنُ الْفَرَّارُونَ، قَالَ: ((أَنْتُمُ الْعَكَّارُونَ))، فَقَبَّلْنَا يَدَهُ، قَالَ: ((أَنَا فِئَتُكُمْ)).

**(972)** ........ İbn Ömər رضي الله عنهما demişdir: "Biz döyüşlərdən birində ikən (bəzi) adamlar dönüb qaçmağa başladılar. Biz (öz-özümüzə) dedik: "(Döyüşdən) qaçsaq,[2] Peyğəmbərin ﷺ üzünə necə baxacağıq?" Elə həmin vaxt bu ayə

---

[1] Müəllif bu fəsilə belə ünvan qoymaqla ələn öpməyin sadəcə caiz olduğunu bildirir. Belə ki, sələflər heç vaxt bunu özlərinə adət etməmişlər. Şeyx Muhəmməd Nasirəddin əl-Albani demişdir: "Əli öpmək məsələsinə gəlincə, Rəsulullahdan ﷺ bunun caiz olmasına dəlalət edən kifayət qədər hədislər və əsərlər varid olmuşdur. Elə bu səbəbdən də, biz aşağıdakı şərtlərə əsasən alimin əlini öpməyi caiz hesab edirik:

a) Bunu adət halına salmamalı; yəni alim öz əlini tələbələrinə tərəf uzatmamalı, onlar da öz növbələrində təbərruk məqsədilə onun əlini öpməməlidirlər. Hərçənd, səhabələr Rəsulullahın ﷺ əlini öpmüşlər, lakin bu, çox nadir hallarda baş vermişdir. Fiqhi qaydalara görə isə belə əməlləri davamlı Sünnə kimi yerinə yetirmək olmaz.

b) Bu əməl alimin başqaları yanında təkəbbürlük etməyinə və özündən razı qalmağına gətirib çıxarmamalıdır. Necə ki, bugünkü gündə bəzi şeyxlər edirlər.

c) Bu əməl bizə məlum olan Sünnəni – əl verib görüşməyi tərk etməyə gətirib çıxarmamalıdır; çünki əl verib görüşmək Rəsulullahın ﷺ həm hərəkət, həm də sözlə təsdiq etdiyi bir əməldir" (Silsilətul-Əhadisis-Səhihə, 1/302).

[2] Abdullah ibn Ömərin رضي الله عنهما qəsd etdiyi səhabələr həmin vaxt döyüşdən qaçmamış, sadəcə olaraq bir tərəfə çəkilmişdilər.

nazil oldu: **"Daha bir döyüş əməliyyatı keçirmək üçün bir tərəfə çəkilən istisna olmaqla..."**[1] Sonra biz dedik: "Mədinəyə girməyək, onda heç kəs bizi görməz." Daha sonra isə: "(Mədinəyə) girəcəyik"– dedik. Peyğəmbər ﷺ sübh namazından (sonra məsciddən) çıxdıqda biz (ona yaxınlaşıb) dedik: "Biz (döyüşdən) qaçanlarıq.[2]" O dedi: "Siz tədbir görüb, yenidən döyüşə girişəcək kəslərsiniz." Onda, biz onun əlini öpdük. O dedi: "Mən sizin dəstənizdənəm."[3]

٩٧٣– حَدَّثَنَا ابْنُ أَبِي مَرْيَمَ قَالَ: حَدَّثَنَا عَطَّافُ بْنُ خَالِدٍ قَالَ: حَدَّثَنِي عَبْدُ الرَّحْمَنِ بْنُ رَزِينٍ قَالَ: مَرَرْنَا بِالرَّبَذَةِ فَقِيلَ لَنَا: هَا هُنَا سَلَمَةُ بْنُ الأَكْوَعِ، فَأَتَيْنَاهُ فَسَلَّمْنَا عَلَيْهِ، فَأَخْرَجَ يَدَيْهِ فَقَالَ: بَايَعْتُ بِهَاتَيْنِ نَبِيَّ اللَّهِ ﷺ، فَأَخْرَجَ كَفًّا لَهُ ضَخْمَةً كَأَنَّهَا كَفُّ بَعِيرٍ، فَقُمْنَا إِلَيْهَا فَقَبَّلْنَاهَا.

**(973)** ........ Abdur-Rəhman ibn Rəzin demişdir: "(Bir dəfə) biz Rabəzədən[4] keçərkən, bizə xəbər verdilər ki, Sələmə ibn Əkva[5] da oradadır. Biz onun yanına gəlib ona salam verdik. O, əllərini uzadıb dedi: "Bu iki əlimlə Allahın Peyğəmbərinə ﷺ beyət etmişəm." Onun bizə göstərdiyi əli dəvə əli boyda idi.[6] Biz qalxıb onun əlindən öpdük. [1]"[2]

---

[1] "əl-Ənfal" surəsi, 16. Ayənin tamamı belədir: **"Daha bir döyüş əməliyyatı keçirmək üçün bir tərəfə çəkilən və ya başqa bir dəstəyə qoşulanlar istisna olmaqla, kim belə bir gündə kafirlərə arxa çevirərsə, Allahın qəzəbinə düçar olar. Onun sığınacağı yer Cəhənnəmdir. Ora necə də pis dönüş yeridir."**

[2] Bu səhabələr döyüş əsnasında bir tərəfə çəkilməyi döyüşdən qaçmaq hesab etmişlər.

[3] Bu hədisin isnadında keçən Yezid ibn Əbu Ziyad "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

[4] Rabəzə: Mədinə yaxınlığındakı kənddir. Şəhərin təqribən yüz iyirmi kilometrliyində yerləşir.

[5] Sələmə ibn Əkva Sinan ibn Abdullah əl-Əsləmi ﷺ Peyğəmbərin ﷺ səhabəsidir.

[6] Burada Abdur-Rəhman ibn Rəzin səhabənin əllərinin qüsurlu olduğunu yox, sadəcə olaraq, onların iri olduğunu bildirir.

**٩٧٤-** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا ابْنُ عُيَيْنَةَ، عَنِ ابْنِ جُدْعَانَ، قَالَ ثَابِتٌ لِأَنَسٍ: أَمَسَسْتَ النَّبِيَّ ﷺ بِيَدِكَ؟ قَالَ: نَعَمْ، فَقَبَّلَهَا.

**(974)** ........ İbn Cudan rəvayət etmişdir ki, (bir gün) Sabit Ənəsdən: "Sən əlini Peyğəmbərə ﷺ toxundurmusanmı?"– deyə soruşdu. O: "Bəli!"– deyə cavab verdi. Onda, Sabit onun əlini öpdü."[3]

---

[1] Sələmə ibn Əkvanın ﷺ onların bu hərəkətini inkar etməməsi, bu əməlin caiz olduğuna dəlalət edir.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

[3] Bu hədisin isnadında keçən Əli ibn Cudan "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

## ٤٤٥- بَابُ تَقْبِيلِ الرِّجْلِ

## 445-ci fəsil. Ayağı öpmək

٩٧٥- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا مَطَرُ بْنُ عَبْدِ الرَّحْمَنِ الأَعْنَقُ قَالَ: حَدَّثَتْنِي امْرَأَةٌ مِنْ صَبَاحِ عَبْدِ الْقَيْسِ يُقَالُ لَهَا: أُمُّ أَبَانَ ابْنَةُ الْوَازِعِ، عَنْ جَدِّهَا، أَنَّ جَدَّهَا الزَّارِعَ بْنَ عَامِرٍ قَالَ: قَدِمْنَا فَقِيلَ: ذَاكَ رَسُولُ اللَّهِ ﷺ، فَأَخَذْنَا بِيَدَيْهِ وَرِجْلَيْهِ نُقَبِّلُهَا.

**(975)** ........ Zari ibn Amir demişdir: "Bir zaman biz (Mədinəyə) gəldik və (bizə): "Bu, Allahın Rəsuludur"– dedilər. Biz onun əllərini və ayaqlarını öpməyə başladıq."[1]

٩٧٦- حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ الْمُبَارَكِ قَالَ: حَدَّثَنَا سُفْيَانُ بْنُ حَبِيبٍ قَالَ: حَدَّثَنَا شُعْبَةُ قَالَ: حَدَّثَنَا عَمْرٌو، عَنْ ذَكْوَانَ، عَنْ صُهَيْبٍ قَالَ: رَأَيْتُ عَلِيًّا يُقَبِّلُ يَدَ الْعَبَّاسِ وَرِجْلَيْهِ.

**(976)** ........ Suheyb deyir ki, mən Əlinin Abbasın əllərini və ayaqlarını öpdüyünü gördüm."[2]

---

[1] Bu hədisin isnadında keçən Ummu Əban "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Xüsusilə qeyd etmək lazımdır ki, ayaq öpmək barədə heç bir səhih hədis rəvayət edilməmişdir.

[2] Bu hədisin isnadında keçən Suheyb "məchulul-ayn" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ٤٤٦- بَابُ قِيَامِ الرَّجُلِ لِلرَّجُلِ تَعْظِيمًا

## 446-cı fəsil. Bir adamın başqa birisini əzəmətləşdirmək məqsədilə onun üçün ayağa qalxması

٩٧٧- حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، وَحَدَّثَنَا حَجَّاجٌ قَالَ: حَدَّثَنَا حَمَّادٌ قَالَ: حَدَّثَنَا حَبِيبُ ابْنُ الشَّهِيدِ قَالَ: سَمِعْتُ أَبَا مِجْلَزٍ يَقُولُ: إِنَّ مُعَاوِيَةَ خَرَجَ، وَعَبْدُ اللَّهِ بْنُ عَامِرٍ وَعَبْدُ اللَّهِ بْنُ الزُّبَيْرِ قُعُودٌ، فَقَامَ ابْنُ عَامِرٍ، وَقَعَدَ ابْنُ الزُّبَيْرِ، وَكَانَ أَرْزَنَهُمَا، قَالَ مُعَاوِيَةُ: قَالَ النَّبِيُّ ﷺ: ((مَنْ سَرَّهُ أَنْ يَمْثُلَ لَهُ عِبَادُ اللَّهِ قِيَامًا، فَلْيَتَبَوَّأْ بَيْتًا مِنَ النَّارِ)).

**(977)** ........ Əbu Micləz demişdir: "(Bir gün) Muaviyə (evindən) bayıra çıxdı. Həmin vaxt Abdullah ibn Amir və Abdullah ibn Zubeyr (onun evinin yaxınlığında) oturmuşdular. İbn Amir (onu görən kimi) ayağa qalxdı, İbn Zubeyr isə qalxmadı. İbn Zubeyr onlara nisbətən iri gövdəli idi. Muaviyə dedi: "Peyğəmbər ﷺ demişdir: "Kim Allahın qullarının özünə görə ayağa qalxmasına sevinərsə, Oddan olacaq evində yerini tutacaq.[1]"[2]

---

[1] Şeyx Muhəmməd Nasirəddin əl-Albani demişdir: "Yəni adamın bir yerə gəldikdə, orada oturanların, onu əzəmətləşdirmək və hörmətini ifrat dərəcədə yüksək tutmaq məqsədilə, onun üçün ayağa qalxmaları onu sevindirərsə, Cəhənnəm oduna giriftar olar" (Səhih əl-Ədəbul-Mufrad, səh: 373-374).

[2] Bu hədisi Əbu Davud (5229), Tirmizi (2/125), Əhməd (4/93, 100), Təhavi (Muşkilul-Asar, 2/40), Dolabi (əl-Kunə, 1/95), Muxlis (əl-Fəvaid əl-Muntəqa, 2/196), Əbu Nueym (Əxbaru Əsbəhan, 1/219) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

# ٤٤٧- بَابُ بَدْءِ السَّلامِ

## 447-ci fəsil. Salamın başlanğıcı

٩٧٨- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّزَّاقِ قَالَ: أَخْبَرَنَا مَعْمَرٌ، عَنْ هَمَّامٍ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((خَلَقَ اللَّهُ آدَمَ ﷺ عَلَى صُورَتِهِ، وَطُولُهُ سِتُّونَ ذِرَاعًا، ثُمَّ قَالَ: اذْهَبْ، فَسَلِّمْ عَلَى أُولَئِكَ، نَفَرٌ مِنَ الْمَلَائِكَةِ جُلُوسٌ، فَاسْتَمِعْ مَا يُحَيُّونَكَ بِهِ فَإِنَّهَا تَحِيَّتُكَ وَتَحِيَّةُ ذُرِّيَّتِكَ، فَقَالَ: السَّلَامُ عَلَيْكُمْ، فَقَالُوا: السَّلَامُ عَلَيْكَ وَرَحْمَةُ اللَّهِ، فَزَادُوهُ: وَرَحْمَةُ اللَّهِ، فَكُلُّ مَنْ يَدْخُلُ الْجَنَّةَ عَلَى صُورَتِهِ، فَلَمْ يَزَلْ يَنْقُصُ الْخَلْقُ حَتَّى الآنَ)).

**(978)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Allah Adəmi ﷺ (öz surətində[1]) boyu da altmış ərəş[2] uzunluğunda yaratdı. Sonra buyurdu: "Get, orada oturan mələklərə salam ver və dinlə gör, sənin salamını necə alacaqlar. Çünki bu, həm sənin salamın, həm də sənin zürriyyətinin salamıdır." Adəm onlara: "Əssəlamu aleykum!"[3]– dedi. Onlar da: "Əssəlamu aleykə və rahmətullah!"[4]– deyib, buna: "Və rahmətullah" sözünü əlavə etdilər. Cənnətə girəcək hər kəs (oraya) Adəmin surətində girəcəkdir. İndiyə qədər insanlarda (boyca) kiçikləşmə davam edir.[5]"[6]

---

[1] 173-cü hədisin qeydlərinə bax.

[2] 451-ci hədisin qeydlərinə bax.

[3] Tərcüməsi: Sizə salam olsun!

[4] Tərcüməsi: Sənə də salam olsun və Allahın rəhməti yetişsin!

Salamı daha böyük ehtiramla almaq bu ümmətə də əmr edilmişdir. Bu xüsusda, Uca Allah buyurur: **"Biri sizinlə salamlaşdığı zaman siz onun salamını daha böyük ehtiramla alın və ya *verilən salamı olduğu kimi* qaytarın!"** (ən-Nisa, 86).

[5] İnsanların zaman-zaman boyları kiçilsə də, Qiyamət günü hamısı Adəm ﷺ boyda olacaq. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Cənnət əhli, bədənlərində tük olmadığı, gözləri də sürməli olduğu halda, habelə, otuz üç yaşlarında, boyları da Adəmin boyuna uyğun – altmış ərəş hündürlüyündə olduqları halda Cənnətə girəcəklər" (Sunən ət-Tirmizi, 2545; Səhih əl-Cami, 8072; Səhih Tərğib vət-Tərhib, 3698).

[6] Bu hədisi Buxari (6227), Muslim (2841), Əhməd (2/315), Beyhəqi (Şoəbul-İman, 8479) və Abdur-Rəzzaq (19435) rəvayət etmişdir.

## ٤٤٨– بَابُ إِفْشَاءِ السَّلامِ

## 448-ci fəsil. Salamı yaymaq

**٩٧٩–** حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَاحِدِ، عَنْ قِنَانَ بْنِ عَبْدِ اللَّهِ النَّهْمِيِّ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ عَوْسَجَةَ، عَنِ الْبَرَاءِ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((أَفْشُوا السَّلامَ تَسْلَمُوا)).

**(979)** ........ Bəra ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Salamı yayın[1] ki, salamat olasınız.[2]"[3]

**٩٨٠–** حَدَّثَنَا مُحَمَّدُ بْنُ عُبَيْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا ابْنُ أَبِي حَازِمٍ، وَالْقَعْنَبِيُّ، عَنْ عَبْدِ الْعَزِيزِ، عَنِ الْعَلاَءِ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((لاَ تَدْخُلُوا الْجَنَّةَ حَتَّى تُؤْمِنُوا، وَلاَ تُؤْمِنُوا حَتَّى تَحَابُّوا، أَلاَ أَدُلُّكُمْ عَلَى مَا تَحَابُّونَ بِهِ؟)) قَالُوا: بَلَى، يَا رَسُولَ اللَّهِ، قَالَ: ((أَفْشُوا السَّلامَ بَيْنَكُمْ)).

**(980)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki,[4] Peyğəmbər ﷺ demişdir: "Mömin olmayınca, Cənnətə girə bilməzsiniz.[5] Bir-birinizi sevməyincə mömin ola bilməzsiniz. Sizi elə bir şeyə yönəldimmi ki, onun sayəsində bir-biri-

---

[1] Yəni müsəlmanlardan tanıdığına və tanımadığına salam vermək (1013-cü hədisə və onun qeydlərinə bax).

[2] Digər rəvayətdə: "Salamı yayın ki, bir-birinizi sevəsiniz" – deyilir (260-cı hədisin qeydlərinə bax). Bundan aydın olur ki, müsəlmanların daim əmin-amanlıqda olması və bir-birini sevmələri üçün öz aralarında salamı yaymaları gərəkdir.

[3] Bu hədisi Əhməd (4/286), Əbu Yə'la (2/101), İbn Hibban (1934), Əbu Nueym (Əxbar Əsbəhan, 1/277) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "həsən" olduğunu demişdir.

[4] Bu hədisi Muslim (194), Əbu Davud (5193), Tirmizi (2904), Nəsai (əl-Kubra, 5928), İbn Macə (68), Əhməd (1/167; 2/391, 442, 477, 495, 512), Hakim (4/167), İbn Hibban (236), Beyhəqi (əl-Kubra, 20853), İbn Əbu Şeybə (26256), Abdur-Rəzzaq (19438), Əbu Yə'la (669), İbn Məndə (330), Bəzzar (2232) və İshaq ibn Rahuyə (385) rəvayət etmişdir.

[5] 260-cı hədisin qeydlərinə bax.

nizi sevəsiniz?" (Səhabələr) dedilər: "Bəli, ya Rəsulullah!" Peyğəmbər ﷺ buyurdu: "Aranızda salamı yayın.[1]"

**٩٨١**– حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ فُضَيْلِ بْنِ غَزْوَانَ، عَنْ عَطَاءِ بْنِ السَّائِبِ، عَنْ أَبِيهِ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((اعْبُدُوا الرَّحْمَنَ، وَأَطْعِمُوا الطَّعَامَ، وَأَفْشُوا السَّلاَمَ، تَدْخُلُوا الْجِنَانَ)).

**(981)** ........ Abdullah ibn Amr رضي الله عنهما rəvayət edir ki,[2] Rəsulullah ﷺ demişdir: "Ər-Rəhmana ibadət edin,[3] (kasıblara) yemək verin,[1] salamı yayın – (belə etsəniz,) Cənnət bağlarına girərsiniz."

---

[1] Demək, salamı yaymaq möminlər arasında sevgi yaradır, bu sevgi onların imanını möhkəmləndirir və nəhayət, bu iman onların Cənnətə girməsinə səbəb olur.

[2] Bu hədisi Tirmizi (1856), İbn Macə (3694), Əhməd (2/170, 196), İbn Hibban (489), İbn Əbu Şeybə (5790), Darimi (2/109), Əbu Nueym (Hilyə, 1/287) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[3] İnsanın Allaha ibadət etmək üçün yaradılması xüsusunda Quranda belə buyurulur: **"Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım"** (əz-Zariyat, 56).

Müsəlman olan hər kəs gündəlik olaraq beş vaxtda qıldığı hər namazdan sonra bu duanı oxuyur:

(( لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ. لاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللهِ، لاَ إِلَهَ إِلاَّ اللهُ، وَلاَ نَعْبُدُ إِلاَّ إِيَّاهُ، لَهُ النِّعْمَةُ وَلَهُ الْفَضْلُ وَلَهُ الثَّنَاءُ الْحَسَنُ، لاَ إِلَهَ إِلاَّ اللهُ مُخْلِصِينَ لَهُ الدِّينَ وَلَوْ كَرِهَ الْكَافِرُونَ ))

Transkripsiyası: Lə ilahə illəllah, vəhdəhu lə şərikə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir. Lə hovlə və lə quvvətə illə billəh. Lə ilahə illəllah, və lə nə'budu illə iyyah. Ləhun-ni'mətu və ləhul-fədlu və ləhus-sənaul-həsən. Lə ilahə illəllahu muxlisinə ləhud-dinə və lov kərihəl-kafirun.

Tərcüməsi: "Allahdan başqa *ibadətə layiq* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Ona məxsusdur! O, hər şeyə Qadirdir! Qüdrət və qüv-

vət yalnız Allahdadır! Allahdan başqa *ibadətə layiq* məbud yoxdur. Biz yalnız Ona ibadət edirik. Nemət Onundur, lütf Onundur və gözəl tərif Onadır. Allahdan başqa *ibadətə layiq* məbud yoxdur. Kafirlərin xoşuna gəlməsə də, biz dini yalnız Ona məxsus edirik!" (Səhih Muslim, 1343).

[1] Kasıba yemək vermək, möminin Cənnətə girməsinə səbəb olan əməllərdəndir. Bunun əks anlamından aydın olur ki, kasıbın qeydinə qalmamaq, onlara vacib olan sədəqəni verməmək adamı Cəhənnəmə aparan əməllərdəndir. Bu xüsusda, Uca Allah buyurur: **"Möminlər Cənnət bağlarında bir-birilərindən soruşacaqlar – günahkarlar barəsində. Sizi Səqərə salan nədir? Onlar deyəcəklər: "Biz namaz qılanlardan deyildik. Kasıbı da yedizdirməzdik.** ***Batil sözlər*** **danışanlarla birlikdə biz də danışardıq və Haqq-hesab gününü yalan hesab edərdik –** ***ölüm*** **yəqinliyi bizə gələnə qədər"** (əl-Muddəssir, 40-47);

## ٤٤٩– بَابُ مَنْ بَدَأَ بِالسَّلامِ

## 449-cu fəsil. Öncə salam verən kimsə[1]

٩٨٢– حَدَّثَنَا أَبُو نُعَيْمٍ، عَنْ سَعِيدِ بْنِ عُبَيْدٍ، عَنْ بُشَيْرِ بْنِ يَسَارٍ قَالَ: مَا كَانَ أَحَدٌ يَبْدَأُ، أَوْ يَبْدُرُ، ابْنَ عُمَرَ بِالسَّلامِ.

**(982)** ........ Buşeyr ibn Yəsar demişdir: "İbn Ömərə birinci salam verən, yaxud (salam verdikdə) onu qabaqlayan bir kimsə olmamışdır."[2]

٩٨٣– حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: أَخْبَرَنَا مَخْلَدُ بْنُ يَزِيدَ قَالَ: أَخْبَرَنَا ابْنُ جُرَيْجٍ قَالَ: أَخْبَرَنِي أَبُو الزُّبَيْرِ، أَنَّهُ سَمِعَ جَابِرًا يَقُولُ: يُسَلِّمُ الرَّاكِبُ عَلَى الْمَاشِي، وَالْمَاشِي عَلَى الْقَاعِدِ، وَالْمَاشِيَانِ أَيُّهُمَا يَبْدَأُ بِالسَّلامِ فَهُوَ أَفْضَلُ.

**(983)** ........ Cabir ﷺ demişdir: "Atlı piyadaya, piyada isə oturana salam verməlidir. İki piyadadan hansı biri daha öncə salam verirsə, ən fəzilətlisi də o hesab olunur."[3]

---

[1] İmam Buxari bu fəsilə belə ünvan qoymaqla bildirir ki, qarşı-qarşıya gələn iki müsəlmandan hansı biri o birinə daha tez salam verərsə, Allah yanında daha fəzilətli sayılar. Bu xüsusda, varid olmuş hədislərin birində Peyğəmbər ﷺ demişdir: "*Qarşı-qarşıya gələn* insanlardan Allaha ən yaxın olanı, birinci salam verənidir" (Sunən Əbu Davud, 5197; Sunən ət-Tirmizi, 2694; Sunən İbn Macə, 3693; Şoəbul-İman, 6/433/8787; Silsilətul-Əhadisis-Səhihə, 3382). Yeri gəlmişkən, qeyd edək ki, bir-birinə rast gələn adamların arasında yaş fərqi olarsa, azyaşlı adamın yaşca böyük olan adama salam verməsi daha münasibdir (Risalətu İbn Useymin).

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir. Bu fəsildə bu hədisin mətni "movquf" isnadla – yəni yalnız səhabəyə (Cabir ibn Abdullaha ﷺ) istinad edilərək rəvayət edilmiş olsa da, digər fəsildə

**٩٨٤**- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي أَخِي، عَنْ سُلَيْمَانَ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ عَبْدِ اللَّهِ بْنِ أَبِي عَتِيقٍ، عَنْ نَافِعٍ، أَنَّ ابْنَ عُمَرَ أَخْبَرَهُ، أَنَّ الأَغَرَّ، وَهُوَ رَجُلٌ مِنْ مُزَيْنَةَ، وَكَانَتْ لَهُ صُحْبَةٌ مَعَ النَّبِيِّ ﷺ، كَانَتْ لَهُ أَوْسُقٌ مِنْ تَمْرٍ عَلَى رَجُلٍ مِنْ بَنِي عَمْرِو بْنِ عَوْفٍ، اخْتَلَفَ إِلَيْهِ مِرَارًا، قَالَ: فَجِئْتُ إِلَى النَّبِيِّ ﷺ، فَأَرْسَلَ مَعِي أَبَا بَكْرٍ الصِّدِّيقَ، قَالَ: فَكُلُّ مَنْ لَقِيَنَا سَلَّمُوا عَلَيْنَا، فَقَالَ أَبُو بَكْرٍ: أَلاَ تَرَى النَّاسَ يَبْدَأُونَكَ بِالسَّلاَمِ فَيَكُونُ لَهُمُ الأَجْرُ؟ ابْدَأْهُمْ بِالسَّلاَمِ يَكُنْ لَكَ الأَجْرُ.

يُحَدِّثُ هَذَا ابْنُ عُمَرَ عَنْ نَفْسِهِ.

**(984)** ........ İbn Ömər رضي الله عنهما rəvayət edir ki, Peyğəmbərin ﷺ səhabəsi olmuş muzeynəli Əğarrın Amr ibn Auf oğullarından olan bir kişidə bir neçə vəsəq[1] xurması var idi. O, (verdiyi borcu) almaq üçün dəfələrlə onun yanına getmişdi. Əğarr demişdir: "Mən Peyğəmbərin ﷺ yanına gəldim. O da, məni Əbu Bəkrlə birlikdə (borclu olan adamın) yanına göndərdi. (Yolda) bizimlə rastlaşan hər kəs bizə salam verdi." Əbu Bəkr dedi: "Məgər, görmürsən ki, insanlar səndən əvvəl sənə salam verir və beləliklə də, savaba (birinci) nail olurlar.[2]" Sən onlara öncə salam ver ki, mükafat sənin olsun.[3]

Bu son söz İbn Ömərin sözüdür.

---

həmin hədis "mərfu" isnadla – yəni Peyğəmbərə ﷺ istinad edilərək rəvayət olunmuşdur (993-cü və 994-cü hədislərə bax).

[1] Bir vəsəq altmış saaya, bir saa dörd mudda, bir mudd isə insanın iki ovucuna bərabərdir.

[2] Əbu Bəkrin رضي الله عنه sözündən aydın olur ki, həm salam verən kəs, həm də salamı alan kəs, Allahın və Onun Rəsulunun ﷺ buyuruğunu yerinə yetirdiyinə görə, savab qazanmış olsa da, salamı birinci verən kimsə daha çox savab qazanır və Allah yanında daha fəzilətli hesab olunur.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "həsən" olduğunu demişdir.

٩٨٥- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ يُوسُفَ، وَالْقَعْنَبِيُّ، قَالاَ: أَخْبَرَنَا مَالِكٌ، عَنِ ابْنِ شِهَابٍ، عَنْ عَطَاءِ بْنِ يَزِيدَ، عَنْ أَبِي أَيُّوبَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((لاَ يَحِلُّ لِامْرِئٍ مُسْلِمٍ أَنْ يَهْجُرَ أَخَاهُ فَوْقَ ثَلاَثٍ، فَيَلْتَقِيَانِ فَيُعْرِضُ هَذَا وَيُعْرِضُ هَذَا، وَخَيْرُهُمَا الَّذِي يَبْدَأُ بِالسَّلاَمِ)).

**(985)** ........ Əbu Əyyub ﵁ rəvayət edir ki, Rsulullah ﷺ demişdir: "Heç bir müsəlmana üç gündən artıq qardaşı ilə küsülü qalması, qarşı-qarşıya gəldikdə bunun *ondan*, onun da *bundan* üz çevirməsi halal deyildir.[1] Onların ən xeyirlisi salamı birinci verib *sözə* başlayandır."[2]

---

[1] 398-ci hədisin qeydlərinə bax.

[2] 399-cu və 406-cı hədisin təhqiqinə bax.

# ٤٥٠- بَابُ فَضْلِ السَّلامِ

## 450-ci fəsil. Salamın fəziləti

**٩٨٦-** حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنِي مُحَمَّدُ بْنُ جَعْفَرِ بْنِ أَبِي كَثِيرٍ، عَنْ يَعْقُوبَ ابْنِ زَيْدٍ التَّيْمِيِّ، عَنْ سَعِيدٍ الْمَقْبُرِيِّ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَجُلًا مَرَّ عَلَى رَسُولِ اللَّهِ ﷺ وَهُوَ فِي مَجْلِسٍ فَقَالَ: السَّلامُ عَلَيْكُمْ، فَقَالَ: ((عَشْرُ حَسَنَاتٍ))، فَمَرَّ رَجُلٌ آخَرُ فَقَالَ: السَّلامُ عَلَيْكُمْ وَرَحْمَةُ اللَّهِ، فَقَالَ: ((عِشْرُونَ حَسَنَةً))، فَمَرَّ رَجُلٌ آخَرُ فَقَالَ: السَّلامُ عَلَيْكُمْ وَرَحْمَةُ اللَّهِ وَبَرَكَاتُهُ، فَقَالَ: ((ثَلاثُونَ حَسَنَةً))، فَقَامَ رَجُلٌ مِنَ الْمَجْلِسِ وَلَمْ يُسَلِّمْ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: ((مَا أَوْشَكَ مَا نَسِيَ صَاحِبُكُمْ، إِذَا جَاءَ أَحَدُكُمُ الْمَجْلِسَ فَلْيُسَلِّمْ، فَإِنْ بَدَا لَهُ أَنْ يَجْلِسَ فَلْيَجْلِسْ، وَإِذَا قَامَ فَلْيُسَلِّمْ، مَا الْأُولَى بِأَحَقَّ مِنَ الآخِرَةِ)).

**(986)** ........ Əbu Hureyrə ؓ rəvayət edir ki, (bir dəfə) Rəsulullah ﷺ məclisdə ikən bir nəfər gəlib: "Əssəlamu aleykum!"[1]– dedi. Rəsulullah ﷺ buyurdu: "(Bu adam) on savab (qazandı)."[2] Sonra başqa bir adam gəlib: "Əssəlamu aleykum və rahmətullah!"[3]– dedi. Rəsulullah ﷺ buyurdu: "(Bu adam) iyirmi savab (qazandı)." Sonra da başqa birisi gəlib: "Əssəlamu aleykum və rahmətullahi və bərəkatuhu!"[4]– dedi. Peyğəmbər ﷺ buyurdu: "(Bu adam) otuz savab[5] (qazandı)." Sonra bir nəfər məclisdən qalxıb (getdi

---

[1] Sizə salam olsun!

[2] Burada bir həsənət onuna bərabər olduğu üçün Rəsulullah ﷺ bu adamın on savab qazandığını söyləyir. Hədislərin birində rəvayət edilir ki, Uca Allah buyurur: "Yaxşı əməlin əvəzi on qat veriləcəkdir" (Səhih əl-Buxari, 1894).

[3] Sizə salam olsun və Allahın rəhməti yetişsin!

[4] Sizə salam olsun, Allahın rəhməti və bərəkəti yetişsin!

[5] Bundan aydın olur ki, "əssəlamu aleykum" – bir həsənət, "və rahmətullah" – daha bir həsənət və nəhayət, "və bərəkatuhu" yenə bir həsənətdir. Bu üçünün on misli isə otuz həsənətə bərabərdir.

və) salam vermədi. Rəsulullah ﷺ dedi: "Dostunuz (salamı) nə tez unutdu. Qoy, sizlərdən biri məclisə gəldiyi zaman salam versin. Və əgər (orada) oturmağı məsləhət bilirsə, otursun. Məclisdən durub getdikdə də, salam versin. Əvvəlki salam sonuncu salamdan heç də üstün deyildir.[1]"[2]

**٩٨٧-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ جَعْفَرٍ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ عَبْدِ الْمَلِكِ بْنِ مَيْسَرَةَ، عَنْ زَيْدِ بْنِ وَهْبٍ، عَنْ عُمَرَ قَالَ: كُنْتُ رَدِيفَ أَبِي بَكْرٍ، فَيَمُرُّ عَلَى الْقَوْمِ فَيَقُولُ: السَّلاَمُ عَلَيْكُمْ، فَيَقُولُونَ: السَّلاَمُ عَلَيْكُمْ وَرَحْمَةُ اللَّهِ، وَيَقُولُ: السَّلاَمُ عَلَيْكُمْ وَرَحْمَةُ اللَّهِ، فَيَقُولُونَ: السَّلاَمُ عَلَيْكُمْ وَرَحْمَةُ اللَّهِ وَبَرَكَاتُهُ، فَقَالَ أَبُو بَكْرٍ: فَضَلَنَا النَّاسُ الْيَوْمَ بِزِيَادَةٍ كَثِيرَةٍ.

**(987)** ........ Ömər ﷺ rəvayət edir ki, mən Əbu Bəkrin tərkində idim. Bir camaatın yanından keçdikdə *onlara*: "Əssəlamu aleykum!"– deyər,[3] onlar da: "Əssəlamu aleykum və rahmətullah!"– deyərdilər. (Əbu Bəkr onlara): "Əssəlamu aleykum və rahmətullah!"– deyər, onlar da: "Əssəlamu aleykum və rahmətullahi və bərəkatuhu!"– deyərdilər. Əbu Bəkr dedi: "Bu gün insanlar daha çox fəzilətlə bizi üstələdilər."[4]

(...)- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ سَعِيدٍ قَالَ: حَدَّثَنَا شُعْبَةُ قَالَ: حَدَّثَنِي عَبْدُ الْمَلِكِ، عَنْ زَيْدٍ قَالَ: حَدَّثَنَا عُمَرُ مِثْلَهُ.

---

[1] Bundan aydın olur ki, müsəlman müsəlmanla görüşdükdə də, vidalaşdıqda da ona salam verməlidir.

[2] Bu hədisi İbn Hibban (493) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[3] Bundan aydın olur ki, Əbu Bəkr əs-Siddiq ﷺ rast gəldiyi hər bir müsəlmana ondan qabaq salam verməyə çalışarmış.

[4] Bu hədisi İbn Hibban (493) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

(...) Muhəmməd ibn Bəşşar bizə belə rəvayət etmişdir: "Yəhya ibn Səid bizə belə rəvayət etmişdir: "Şobə bizə belə rəvayət etmişdir: "Abdul-Məlik mənə Zeyddən belə rəvayət etmişdir: "Ömər ﷺ bizə bu hədisin bənzərini rəvayət etmişdir."[1]

٩٨٨- حَدَّثَنَا إِسْحَاقُ قَالَ: أَخْبَرَنَا عَبْدُ الصَّمَدِ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ سُهَيْلِ بْنِ أَبِي صَالِحٍ، عَنْ أَبِيهِ، عَنْ عَائِشَةَ، عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ: ((مَا حَسَدَكُمُ الْيَهُودُ عَلَى شَيْءٍ مَا حَسَدُوكُمْ عَلَى السَّلَامِ وَالتَّأْمِينِ)).

(988) ........ Aişə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Yəhudilər "salam" və "amin" deməyə görə sizə həsəd apardıqları kimi, heç bir şeydə həsəd aparmırlar.[2]"[3]

---

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu isnadın "səhih" olduğunu demişdir.

[2] Bundan aydın olur ki, yəhudilər İslam dininin və onun buyuruqlarının nə dərəcədə xeyirli-bərəkətli olduğundan xəbərdardırlar. Ümumiyyətlə, Kitab əhlinin müsəlmanlara həsəd aparması barədə Quranda belə xəbər verilir: **"Kitab əhlindən bir çoxu həqiqəti bildikdən sonra, həsədləri üzündən sizi, siz iman gətirdikdən sonra kafirliyə qaytarmaq istəyərlər"** (əl-Bəqərə, 109). Qeyd edək ki, "salam" İslam dininin şüarı, muvahhidlərin zinəti, qardaşlıq bağlarını möhkəm saxlayan bir ip və müttəqilər arasındakı ülfəti artıran bir səbəbdir. "Əssəlamu aleykum və rahmətullahi və bərəkatuh" duası özündə üç şeyi cəm edir: şərdən qorunmaq, Allahın mərhəmətinə qovuşmaq və bir də xeyir-bərəkətə nail olmaq. Bu dua bütün xeyirləri özündə cəm edən bir duadır. "Amin" kəlməsinə gəlincə, xüsusilə qeyd etmək lazımdır ki, bu, müsəlmanların birliyinə dəlalət edən bir kəlmədir. Belə ki, imam dua etdikdə onun arxasındakıların hamılıqla "amin" deməsi müsəlman camaatının birliyinə və bu duanın hamıya şamil olunduğuna dəlalət edir. Məsələn, imam "Ey Rəbbimiz, bizi bağışla" deyə dua edir, arxasındakılar da "amin" deyir, beləliklə də, bu rəhmət onların hamısını əhatə edir.

[3] Bu hədisi İshaq ibn Rahuyə (1122) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ٤٥١ – بَابُ السَّلاَمِ اسْمٌ مِنْ أَسْمَاءِ اللَّهِ عَزَّ وَجَلَّ

## 451-ci fəsil. əs-Səlam Allahın ﷻ adlarından biridir[1]

**٩٨٩–** حَدَّثَنَا شِهَابٌ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ حُمَيْدٍ، عَنْ أَنَسٍ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((إِنَّ السَّلاَمَ اسْمٌ مِنْ أَسْمَاءِ اللَّهِ تَعَالَى، وَضَعَهُ اللَّهُ فِي الأَرْضِ، فَأَفْشُوا السَّلاَمَ بَيْنَكُمْ)).

**(989)** ........ Ənəs رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "əs-Səlam Uca Allahın adlarından biridir.[2] O bunu (bir-birinizlə salamlaşasınız deyə) yer üzünə qoymuşdur.[3] Elə isə, aranızda salamı yayın."[1]

---

[1] Bu xüsusda, Quranda deyilir: **"O Özündən başqa heç bir məbud olmayan, əl-Məlik, əl-Quddus, əs-Səlam, əl-Mumin, əl-Muheymin, əl-Aziz, əl-Cəbbar, əl-Mutəkəbbir olan Allahdır"** (əl-Həşr, 23).

[2] Bu ad, Allahın bütün nöqsanlardan uzaq olduğuna dəlalət edən adlarına aiddir. Yeri gəlmişkən, qeyd edək ki, Uca Allahın adları məna baxımından dörd qismə bölünür:

Birincisi, Allahın zatı sifətlərinə dəlalət edən gözəl adlarıdır. Məsələn, "əs-Səmi' – Eşidən" Onun hər şeyi eşitdiyinə, "əl-Bəsir – Görən" Onun hər şeyi gördüyünə, "əl-Alim – Bilən" Onun hər şeyi bildiyinə dəlalət edir.

İkincisi, Allahın feili sifətlərini sübut edən gözəl adlarıdır. Məsələn, "ər-Rəzzaq – Ruzi verən", "əl-Mu'ti – Əta edən", "əl-Kərim – Səxavətli" və s.

Üçüncüsü, Allahın nöqsanlardan xali olduğuna dəlalət edən adlarıdır. Məsələn, "əs-Səlam – Pak", "əl-Quddus – Müqəddəs" və "əs-Subbuh – Nöqsanlardan uzaq" və s.

Dördüncüsü isə, bir neçə mənanı özündə cəm edən adlardır (211-ci hədisdə keçən "əs-Seyyid" adının izahına bax).

[3] Bundan aydın olur ki, "əs-Səlam" həm Allahın Özü, həm də Allahdan Öz qullarına bəxş edilən bir salamatlıq və əmin-amanlıqdır. Hər bir müsəlman qıldığı hər fərz namazından sonra bunu təsdiqləyərək zikr edib deyir:

(( اللَّهُمَّ أَنْتَ السَّلاَمُ، وَمِنْكَ السَّلاَمُ، تَبَارَكْتَ يَا ذَا الْجَلاَلِ وَالْإِكْرَامِ ))

Transkripsiyası: Allahummə, əntəs-səlam və minkəs-səlam təbəraktə ya zəl-cəlali vəl-ikram.

**٩٩٠**- حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا مُحِلٌّ قَالَ: سَمِعْتُ شَقِيقَ بْنَ سَلَمَةَ أَبَا وَائِلٍ يَذْكُرُ، عَنِ ابْنِ مَسْعُودٍ قَالَ: كَانُوا يُصَلُّونَ خَلْفَ النَّبِيِّ ﷺ قَالَ الْقَائِلُ: السَّلاَمُ عَلَى اللهِ، فَلَمَّا قَضَى النَّبِيُّ ﷺ صَلاَتَهُ قَالَ: ((مَنِ الْقَائِلُ: السَّلاَمُ عَلَى اللَّهِ؟ إِنَّ اللَّهَ هُوَ السَّلاَمُ، وَلَكِنْ قُولُوا: التَّحِيَّاتُ لِلَّهِ وَالصَّلَوَاتُ وَالطَّيِّبَاتُ، السَّلاَمُ عَلَيْكَ أَيُّهَا النَّبِيُّ وَرَحْمَةُ اللَّهِ وَبَرَكَاتُهُ، السَّلاَمُ عَلَيْنَا وَعَلَى عِبَادِ اللَّهِ الصَّالِحِينَ، أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَأَشْهَدُ أَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ)) قَالَ: وَقَدْ كَانُوا يَتَعَلَّمُونَهَا كَمَا يَتَعَلَّمُ أَحَدُكُمُ السُّورَةَ مِنَ الْقُرْآنِ.

**(990)** ........ Abdullah (ibn Məsud) رضي الله عنه demişdir: "*Səhabələr* Peyğəmbərin ﷺ arxasında namaz qılarkən *onlardan* biri: "Allaha salam olsun!"– dedi.[2] Peyğəmbər ﷺ namazını bitirdikdən sonra dedi: "Allaha salam olsun!"– deyən kim idi? Əslində, əs-Səlam[3] Allahın Özüdür.[4] Lakin siz deyin: "Ət-təhiyya-

---

Tərcüməsi: Allahım, əs-Səlam Sənsən və əmin-amanlıq Səndəndir. Sən xeyirxahsan, ey əzəmət və ehtiram sahibi! (Səhih Muslim, 1/414).

[1] Bu hədisi Beyhəqi (Şoəbul-İman, 8404), Bəzzar (1771) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "həsən" olduğunu demişdir.

[2] Buxarinin "Səhih"indəki hədisdə (831) rəvayət edilir ki, Abdullah ibn Məsud رضي الله عنه demişdir: "Biz Peyğəmbərin ﷺ arxasında namaz qılarkən: "Allaha salam olsun, Cəbrailə və Mikailə salam olsun, filankəsə və filankəsə salam olsun"– deyərdik..."

[3] "əs-Səlam" Uca Allahın gözəl adlarından biridir.

[4] Peyğəmbərin ﷺ bu sözündən aydın olur ki, Allah üçün salamatlıq və ya başqa bir xeyir dilənməsinə Allahın ehtiyacı yoxdur, əksinə, məxluqatın hamısı Ona möhtacdır. Yəni Allah üçün dua edilməz, əksinə Allaha dua edilər, habelə, Allah üçün nə isə istənilməz, əksinə, Allahdan istənilər. Bu xüsusda, Quranda deyilir: **"Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə Zəngindir, Tərifəlayiqdir"** (Fatir, 15). Deməк, səhabə bu cür dua etməklə xəta etmiş, Peyğəmbər ﷺ də onun xətasını düzəltmiş və doğru olanını onlara öyrətmişdir.

tu lillahi, vəs-səlavatu vət-tayyibat, əs-səlamu aleykə əyyuhən-nəbiyyu və rahmətullahi və bərəkatuhu, əs-səlamu aleynə və alə ibadillahis-salihin![1] (Bu sözləri dediyi zaman bunlar Allahın göylərdə və yerdə olan hər bir əməlisaleh quluna yetişmiş olar. Sonra desin:)[2] Əşhədu ən lə ilahə illəllah və əşhədu ənnə Muhəmmədən abduhu və rasuluh.[3]"

Onlar bu duanı sizlərdən birinin Qurandan surə əzbərlədiyi kimi əzbərləyərdilər."[4]

---

[1] Tərcüməsi: Salamlar, dualar və gözəl şeylər Allaha məxsusdur. Ey Peyğəmbər, sənə salam olsun, Allahın mərhəməti və Onun bərəkəti *yetişsin*! Bizə və Allahın əməlisaleh qullarına salam olsun!

Bu duada "salamlar" deyildikdə, Allahı əzəmətləşdirən bütün təriflər nəzərdə tutulur. Duaya nəzər salsaq görərik ki, namaz əsnasında bu duanı edən hər bir müsəlman əvvəlcə Peyğəmbərə ﷺ, sonra isə özlərinə və əməlisaleh qullara salam söyləyir. Bu da, o deməkdir ki, Peyğəmbər ﷺ hər bir möminə onun özündən də əzizdir. Bu, Quranda öz təsdiqini tapmışdır: **"Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır"** (əl-Əhzab, 6).

Peyğəmbərin ﷺ bu sözü açıq-aşkar dəlalət edir ki, namazın axırında salamdan əvvəl, Axirətə və ya dünya işlərinə aid istənilən duanı etmək olar. Lakin bu duada günaha aid bir şey olmamalıdır.

[2] Bu əlavə Muslimin "Səhih"ində (897) öz əksini tapmışdır.

[3] Tərcüməsi: Mən şahidlik edirəm ki, Allahdan başqa məbud yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

Bu dua hər namazda bizə tovhid əhlindən olduğumuzu xatırladır.

[4] Bu hədisi Buxari (835), Əbu Davud (968) və Tirmizi (290) rəvayət etmişdir. İmam Tirmizi "Sunən" əsərində bu hədisi rəvayət etdikdən sonra demişdir: "Bu, təşəhhüd xüsusunda Peyğəmbərdən ﷺ rəvayət edilmiş ən səhih hədisdir. Səhabələrin əksəriyyəti və onlardan sonra gələn tabiinlər buna əməl etmişlər." Bu cümləni oxuduqdan sonra sual verilə bilər ki, nəyə görə İmam Tirmizi burada "səhabələrin əksəriyyəti" deyir? Məgər, yerdə qalan səhabələr bu təşəhhüdü oxumayıblar? Bu sualın cavabı belədir ki, onlardan bəzisi Peyğəmbərin ﷺ vəfatından sonra "əs-səlamu aleykə əyyuhən-nəbiyyu" əvəzinə

"əs-səlamu alən-nəbiyyi" oxuyarmış. Başqa bir hədisdə Abdullah ibn Məsud ﷺ demişdir: "Peyğəmbər ﷺ bizim aramızda ikən, biz belə dua edərdik. O, vəfat etdikdən sonra isə biz: "əs-səlamu alən-nəbiyyi" deməyə başladıq (Səhih əl-Buxari, 6265; Musnəd Əhməd, 1/414). İmam Malikin nəql etdiyi rəvayətdə Abdur-Rəhman ibn Abd əl-Qari demişdir: "Ömər ibn Xattab minbərdən camaata təşəhhüdü öyrədərkən, onlara bu duanı oxuyarkən: "əs-səlamu aleykə əyyuhən-nəbiyyu"– deməyi buyurmuşdur (əl-Muvatta, 203; Sifətu Səla-tun-Nəbi, səh: 90). Bu rəvayətlərdən görünür ki, səhabələrin bəziləri "əs-səlamu aleykə əyyuhən-nəbiyyu", digərləri isə "əs-səlamu alən-nəbiyyi" deyərmiş. Bundan da belə qənaətə gəlmək olar ki, təşəhhüdü oxuduqda bu iki ləfzdən birini demək caizdir. Daha doğrusunu bilən isə Allahdır (Abdur-Rəzzaq əl-Abbad).

## ٤٥٢– بَابُ حَقُّ الْمُسْلِمِ عَلَى الْمُسْلِمِ أَنْ يُسَلِّمَ عَلَيْهِ إِذَا لَقِيَهُ

## 452-ci fəsil. Müsəlmanın müsəlman üzərində haqqı, onunla rastlaşdıqda ona salam verməsidir[1]

٩٩١– حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنَا مَالِكٌ، عَنِ الْعَلاَءِ بْنِ عَبْدِ الرَّحْمَنِ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((حَقُّ الْمُسْلِمِ عَلَى الْمُسْلِمِ سِتٌّ))، قِيلَ: وَمَا هِيَ؟ قَالَ: ((إِذَا لَقِيتَهُ فَسَلِّمْ عَلَيْهِ، وَإِذَا دَعَاكَ فَأَجِبْهُ، وَإِذَا اسْتَنْصَحَكَ فَانْصَحْ لَهُ، وَإِذَا عَطَسَ فَحَمِدَ اللَّهَ فَشَمِّتْهُ، وَإِذَا مَرِضَ فَعُدْهُ ، وَإِذَا مَاتَ فَاصْحَبْهُ)).

**(991)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Müsəlmanın müsəlman üzərində altı haqqı vardır. Soruşdular: "Nədir bunlar?" Peyğəmbər ﷺ buyurdu: "Müsəlmanla rastlaşdığın zaman ona salam ver, səni dəvət etdikdə, dəvətini qəbul et, nəsihət almaq istədikdə, ona nəsihət ver, asqırıb Allaha həmd etdikdə, ona rəhmət dilə, xəstələndikdə, ona baş çək və öldükdə, dəfnində iştirak et.[2]"[3]

---

[1] Salam vermək xüsusunda İslam alimləri iki rəy söyləmişlər. Onlardan bəzisi bunun vacib, digərləri isə müstəhəb olduğunu demişlər. İbn Teymiyyə ﷺ demişdir: "Birisinə salam vermək İslam dininin buyurduğu ayinlərdəndir. Bir adamla görüşdükdə ona salam vermək ya vacibdir ya da təkid olunmuş müstəhəb əməllərdəndir. Bu xüsusda, alimlərin iki rəyi vardır. Hənbəlilər hər iki rəyi söyləmişlər. Salamı almaq məsələsinə gəlincə, istər cəm şəkildə, istərsə də fərdi olaraq, onu almaq icmanın rəyinə əsasən vacib sayılır... İmam Muslimin rəvayət etdiyi hədis (5778) salam verməyin vacib olduğuna dəlalət edir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: "Müsəlmanın müsəlman üzərində beş vacib haqqı vardır: onunla rastlaşdığı zaman ona salam verməli,..." (Məcmuə Fətavə, 27/411-412).

[2] 924-cü hədisin qeydlərinə bax.

[3] 925-ci hədisə bax.

## ٤٥٣- بَابٌ يُسَلِّمُ الْمَاشِي عَلَى الْقَاعِدِ

## 453-cü fəsil. Gedən oturana salam verməlidir

٩٩٢- حَدَّثَنَا سَعِيدُ بْنُ الرَّبِيعِ قَالَ: حَدَّثَنَا عَلِيُّ بْنُ الْمُبَارَكِ، عَنْ يَحْيَى قَالَ: حَدَّثَنَا زَيْدُ بْنُ سَلاَّمٍ، عَنْ جَدِّهِ أَبِي سَلاَّمٍ، عَنْ أَبِي رَاشِدٍ الْحُبْرَانِيِّ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ شِبْلٍ قَالَ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: ((لِيُسَلِّمِ الرَّاكِبُ عَلَى الرَّاجِلِ، وَلْيُسَلِّمِ الرَّاجِلُ عَلَى الْقَاعِدِ، وَلْيُسَلِّمِ الأَقَلُّ عَلَى الأَكْثَرِ، فَمَنْ أَجَابَ السَّلاَمَ فَهُوَ لَهُ، وَمَنْ لَمْ يُجِبْ فَلاَ شَيْءَ لَهُ)).

**(992)** ........ Abdur-Rəhman ibn Şibl ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ belə buyurduğunu eşitmişəm: "Minikdə olan adam piyadaya salam versin,[1] piyada oturana salam versin, az sayda olanlar da çox sayda olanlara salam versinlər. Salamı alan üçün *savab* vardır. Salamı almayan üçün isə heç bir şey yoxdur.[2]"[3]

٩٩٣- حَدَّثَنَا إِسْحَاقُ قَالَ: أَخْبَرَنَا رَوْحُ بْنُ عُبَادَةَ قَالَ: أَخْبَرَنِي ابْنُ جُرَيْجٍ قَالَ: أَخْبَرَنِي زِيَادٌ، أَنَّ ثَابِتًا أَخْبَرَهُ، وَهُوَ مَوْلَى عَبْدِ الرَّحْمَنِ، يَرْوِيهِ عَنْ أَبِي هُرَيْرَةَ، عَنْ رَسُولِ اللَّهِ ﷺ قَالَ: ((يُسَلِّمُ الرَّاكِبُ عَلَى الْمَاشِي، وَالْمَاشِي عَلَى الْقَاعِدِ، وَالْقَلِيلُ عَلَى الْكَثِيرِ)).

---

[1] Peyğəmbərin ﷺ buyurduğu bu tərtibatdan aydın olur ki, minikdə olanların sayı çox və piyadaların sayı az olduğu, hətta, piyada tək olduğu təqdirdə, habelə, minikdə olanların yaşlı adam, piyadanın isə azyaşlı olduğu təqdirdə belə, yenə minikdə olan adam piyadaya salam verməlidir. Həmçinin, piyadanın oturana salam verməsi də belədir.

[2] Yəni bir topluma salam verildiyi zaman onların arasından bu salamı alan kimsə savab qazanar, yerdə qalanları isə bu salamı almadıqlarına görə günah qazanmazlar. Topluma verilən salamı almağın hökmü "fardu-kifayə"dir. Yəni bir qismi buna cavab verərsə, digərilərinin üzərindən günah götürülər.

[3] Bu hədisi Əhməd (3/444) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "həsən" olduğunu demişdir.

**(993)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: “Minikdə olan adam piyadaya, piyada oturana, az sayda olan toplum da, çox sayda olanlara salam verməlidir.”[1]

**٩٩٤–** قَالَ ابْنُ جُرَيْجٍ: فَأَخْبَرَنِي أَبُو الزُّبَيْرِ، أَنَّهُ سَمِعَ جَابِرًا يَقُولُ: الْمَاشِيَانِ إِذَا اجْتَمَعَا فَأَيُّهُمَا بَدَأَ بِالسَّلَامِ فَهُوَ أَفْضَلُ.

**(994)** ........ Cabir ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “İki piyada qarşılaşdığı zaman onlardan hansı biri daha öncə salam verirsə, ən fəzilətlisi də o hesab olunur.”[2]

---

[1] Bu hədisi Buxari (6233), Muslim (2160), Tirmizi (2921) Əhməd (2/510; 6/20), Beyhəqi (əl-Kubra 18500) və İshaq ibn Rahuyə (475) rəvayət etmişdir.

[2] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “səhih” olduğunu demişdir (449-cu fəsilə və bu fəsildəki hədislərə bax).

## ٤٥٤- بَابُ تَسْلِيمِ الرَّاكِبِ عَلَى الْقَاعِدِ

## 454-cü fəsil. Minikdə olan adam oturana salam verməlidir

**٩٩٥-** حَدَّثَنَا نُعَيْمُ بْنُ حَمَّادٍ قَالَ: أَخْبَرَنَا ابْنُ الْمُبَارَكِ قَالَ: أَخْبَرَنَا مَعْمَرٌ، عَنْ هَمَّامٍ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((يُسَلِّمُ الرَّاكِبُ عَلَى الْمَاشِي، وَالْمَاشِي عَلَى الْقَاعِدِ، وَالْقَلِيلُ عَلَى الْكَثِيرِ)).

**(995)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Minikdə olan adam piyadaya, piyada oturana, az sayda olan toplum da, çox sayda olanlara salam verməlidir.”[1]

**٩٩٦-** حَدَّثَنَا أَصْبَغُ قَالَ: أَخْبَرَنِي ابْنُ وَهْبٍ قَالَ: أَخْبَرَنِي ابْنُ هَانِئٍ، عَنْ عَمْرِو بْنِ مَالِكٍ، عَنْ فَضَالَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((يُسَلِّمُ الْفَارِسُ عَلَى الْقَاعِدِ، وَالْقَلِيلُ عَلَى الْكَثِيرِ)).

**(996)** ........ Fədalə *ibn Ubeyd* ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Minikdə olan adam oturana, az sayda olan toplum da, çox sayda olanlara salam verməlidir.”[2]

---

[1] 992-ci hədisə və onun qeydlərinə bax.

[2] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “səhih” olduğunu demişdir.

## ٤٥٥- بَابٌ هَلْ يُسَلِّمُ الْمَاشِي عَلَى الرَّاكِبِ؟

## 455-ci fəsil. Piyada minikdə olan adama salam verməlidirmi?

٩٩٧- حَدَّثَنَا مُحَمَّدُ بْنُ كَثِيرٍ قَالَ: أَخْبَرَنَا سُلَيْمَانُ بْنُ كَثِيرٍ، عَنْ حُصَيْنٍ، عَنِ الشَّعْبِيِّ، أَنَّهُ لَقِيَ فَارِسًا فَبَدَأَهُ بِالسَّلاَمِ، فَقُلْتُ: تَبْدَأُهُ بِالسَّلاَمِ؟ قَالَ: رَأَيْتُ شُرَيْحًا مَاشِيًا يَبْدَأُ بِالسَّلاَمِ.

**(997)** ........ Husayn rəvayət edir ki, (bir gün) Şə'bi[1] bir atlı ilə rastlaşdı və o, bu adama birinci salam verdi. Mən dedim: "Sən ona birinci salam verdin?" O dedi: "Mən Şureyhin, özü piyada olduğu halda (atlıya) birinci salam verdiyini görmüşəm."[2]

---

[1] 203-cü hədisin qeydlərinə bax.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu bildirmiş, sonra demişdir: "İbn Əbu Şeybənin "Musənnəf" əsərində (8/657/5921) rəvayət edilmişdir ki, Husayn demişdir: "Mən Şə'bi ilə birgə yol gedərkən, biz bir atlıya rast gəldik və o bu adama birinci salam verdi. Mən dedim: "Biz piyada, o isə, atlı olduğu halda, sən ona birinci salam verdin?" Şə'bi dedi: "Mən Şureyhin, *özü piyada olduğu halda* atlıya *birinci* salam verdiyini görmüşəm." Bu hədisin də isnadı həmçinin, "səhih"dir. Lakin Sünnəyə görə minikdə olan adam piyadaya, piyada da oturan adama salam verməlidir. Ola bilsin ki, Şureyh ﷺ bu vəziyyətdə məsləhət bildiyi bir səbəbdən dolayı, birinci salam vermişdir. Allah daha yaxşı bilir" (Səhih əl-Ədəbul-Mufrad, səh: 384).

## ٤٥٦- بَابُ يُسَلِّمُ الْقَلِيلُ عَلَى الْكَثِيرِ

## 456-cı fəsil. Azlıq çoxluğa salam verir

**٩٩٨-** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ يَزِيدَ قَالَ: حَدَّثَنَا حَيْوَةُ قَالَ: أَخْبَرَنِي أَبُو هَانِئٍ، أَنَّ أَبَا عَلِيٍّ الْجَنْبِيَّ حَدَّثَهُ، عَنْ فَضَالَةَ بْنِ عُبَيْدٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((يُسَلِّمُ الرَّاكِبُ عَلَى الْمَاشِي، وَالْمَاشِي عَلَى الْقَاعِدِ، وَالْقَلِيلُ عَلَى الْكَثِيرِ)).

**(998)** ........ Fədalə ibn Ubeyd ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Minikdə olan adam piyadaya, piyada oturana, az sayda olan toplum da, çox sayda olanlara salam verməlidir."[1]

**٩٩٩-** حَدَّثَنَا مُحَمَّدٌ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ قَالَ: أَخْبَرَنَا حَيْوَةُ بْنُ شُرَيْحٍ قَالَ: أَخْبَرَنِي أَبُو هَانِئٍ الْخَوْلَانِيُّ، عَنْ أَبِي عَلِيٍّ الْجَنْبِيِّ، عَنْ فَضَالَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((يُسَلِّمُ الْفَارِسُ عَلَى الْمَاشِي، وَالْمَاشِي عَلَى الْقَائِمِ، وَالْقَلِيلُ عَلَى الْكَثِيرِ)).

**(999)** ........ Fədalə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Minikdə olan adam piyadaya, keçib gedən adam duran adama, az sayda olan toplum da, çox sayda olanlara salam verməlidir."[2]

---

[1] 992-ci hədisin qeydlərinə bax.

[2] Bu hədisi Tirmizi (2705), Əhməd (6/19) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ٤٥٧- بَابُ يُسَلِّمُ الصَّغِيرُ عَلَى الْكَبِيرِ

## 457-ci fəsil. Kiçik böyüyə salam verir

**١٠٠٠-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: أَخْبَرَنَا مَخْلَدٌ قَالَ: أَخْبَرَنَا ابْنُ جُرَيْجٍ قَالَ: أَخْبَرَنِي زِيَادٌ، أَنَّهُ سَمِعَ ثَابِتًا مَوْلَى ابْنِ زَيْدٍ، أَنَّهُ سَمِعَ أَبَا هُرَيْرَةَ يَقُولُ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((يُسَلِّمُ الرَّاكِبُ عَلَى الْمَاشِي، وَالْمَاشِي عَلَى الْقَاعِدِ، وَالْقَلِيلُ عَلَى الْكَثِيرِ)).

**(1000)** ........ Əbu Hureyrə ﷛ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Minikdə olan adam piyadaya, piyada oturana, az sayda olan toplum da, çox sayda olanlara salam verməlidir."[1]

**١٠٠١-** حَدَّثَنَا أَحْمَدُ بْنُ أَبِي عَمْرٍو قَالَ: حَدَّثَنِي أَبِي قَالَ: حَدَّثَنِي إِبْرَاهِيمُ، عَنْ مُوسَى بْنِ عُقْبَةَ، عَنْ صَفْوَانَ بْنِ سُلَيْمٍ، عَنْ عَطَاءِ بْنِ يَسَارٍ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((يُسَلِّمُ الصَّغِيرُ عَلَى الْكَبِيرِ، وَالْمَاشِي عَلَى الْقَاعِدِ، وَالْقَلِيلُ عَلَى الْكَثِيرِ)).

**(1001)** ........ Əbu Hureyrə ﷛ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Kiçik böyüyə, piyada oturana, az sayda olan toplum da, çox sayda olanlara salam verməlidir."[2]

---

[1] 992-ci hədisin qeydlərinə bax.

[2] Bu hədisi Buxari (6231), Əbu Davud (2/342-343), Tirmizi (2/118) və Əhməd (2/314) rəvayət etmişdir.

## ٤٥٨- بَابُ مُنْتَهَى السَّلامِ

## 458-ci fəsil. Salamın hüdudu[1]

**١٠٠١ م-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلامٍ قَالَ: أَخْبَرَنَا مَخْلَدٌ قَالَ: أَخْبَرَنَا ابْنُ جُرَيْجٍ قَالَ: أَخْبَرَنِي زِيَادٌ، عَنْ أَبِي الزِّنَادِ قَالَ: كَانَ خَارِجَةُ يَكْتُبُ عَلَى كِتَابِ زَيْدٍ إِذَا سَلَّمَ، قَالَ: السَّلاَمُ عَلَيْكَ يَا أَمِيرَ الْمُؤْمِنِينَ وَرَحْمَةُ اللَّهِ وَبَرَكَاتُهُ وَمَغْفِرَتُهُ، وَطَيِّبُ صَلَوَاتِهِ.

**(1001/2)** ........ Əbu Zinad demişdir: “Xaricə[2] Zeydin məktubunu yazarkən belə salam verərdi: “Sənə salam olsun, ey möminlərin əmiri! Allahın rəhməti, bərəkəti, məğfirəti və gözəl xeyir-duası *sənə* yetişsin.”[3]

---

[1] Burada söhbət salam ifadəsindəki kəlmələrin həddinin olub-olmadığından gedir. Yəni salam verdikdə “əs-səlamu aleykum və rahmətullahi və bərəkatuh” sözü ilə kifayətlənməliyik, yoxsa buna “və məğfirətuhu” və başqa bu kimi kəlmələr də əlavə etmək caizdir? İmam Malikin “Muvatta” (913) və İmam Beyhəqinin “Şoəbul-İman” (8487; 8490; 8675) əsərlərində rəvayət edilir ki, İbn Ömər ﵄, İbn Abbas ﵄ və Urva ibn Zubeyr ﵄ salam verən adamın “əs-səlamu aleykum və rahmətullahi və bərəkatuh” sözünə əlavə etməsini qadağan edər və bu ayəyə əsaslanardılar: **“Ey ev əhli! Allahın rəhməti və bərəkəti sizin üstünüzdə olsun! Həqiqətən, O, Tərifəlayiqdir, Şan-şöhrətlidir”** (Hud, 73). Lakin qeyd edək ki, bəzi İslam alimləri bu sözə əlavə etməyin caiz olduğunu söyləmiş və bu fikri Peyğəmbərdən ﷺ rəvayət edilmiş hədislə əsaslandırmışlar. İmam Buxarinin nəql etdiyi həmin hədisdə Zeyd ibn Ərqam ﵁ demişdir: “Peyğəmbər ﷺ bizə salam verdikdə, biz ona: “Əssəlamu aleykum və rahmətullahi və bərəkatuhu və məğfirətuh”– deyərdik” (Tarix əl-Kəbir, 1/1/330; Şeyx əl-Albani “Silsilətul-Əhadisis-Səhihə” əsərində (1449) bu hədisin isnadının “ceyyid” olduğunu demişdir). İslam alimlərindən bəzisi bu sözə əlavə etməyin caiz olduğuna dair “ən-Nisa” surəsinin 86-cı ayəsinə də əsaslanmışlar. Həmin ayədə Uca Allah buyurur: **“Biri sizinlə salamlaşdığı zaman siz onun salamını daha böyük ehtiramla alın və ya *verilən salamı olduğu kimi* qaytarın!”**

[2] Bu, məşhur səhabə Zeyd ibn Sabitin ﵁ oğlu Xaricədir.

[3] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “həsən” olduğunu demişdir (Bu, uzun hədisin bir hissəsidir. 1131-ci hədisə bax).

## ٤٥٩- بَابُ مَنْ سَلَّمَ إِشَارَةً

## 459-cu fəsil. İşarə ilə salam verən kimsə[1]

١٠٠٢- حَدَّثَنَا بِشْرُ بْنُ الْحَكَمِ قَالَ: حَدَّثَنَا هَيَّاجُ بْنُ بَسَّامٍ أَبُو قُرَّةَ الْخُرَاسَانِيُّ، رَأَيْتُهُ بِالْبَصْرَةِ، قَالَ: رَأَيْتُ أَنَسًا يَمُرُّ عَلَيْنَا فَيُومِئُ بِيَدِهِ إِلَيْنَا فَيُسَلِّمُ، وَكَانَ بِهِ وَضَحٌ، وَرَأَيْتُ الْحَسَنَ يَخْضُبُ بِالصُّفْرَةِ، وَعَلَيْهِ عِمَامَةٌ سَوْدَاءُ.

**(1002)** ........ Həyyac ibn Bəssam Əbu Qurra əl-Xorasani demişdir: "Mən Ənəsi[2] görmüşəm. O, yanımızdan keçərkən, əli ilə işarə edib bizə salam vermişdi. Onun saçlarına dən düşmüşdü. Həsəni[3] də görmüşəm. O, saçlarını sarı rəngə boyayar,[4] başına da qara əmmamə qoyardı."[1]

---

[1] İmam Buxari bu fəslə belə ünvan qoymaqla işarə ilə salam verməyin caiz olub-olmadığını bildirmək istəyir. Cabir ibn Abdullahın ﵄ rəvayət etdiyi hədisdə deyilir ki, Peyğəmbər ﷺ demişdir: "Yəhudilər və nəsranilər kimi salam verməyin. Onlar əllə, yaxud başla, yaxud da (barmaqla) işarə edərək salam verirlər" (Sunən ən-Nəsai, 10100; Silsəlut-Əhadisis-Səhihə, 4/282). Yəni onlar "əssəlamu aleykum" demir, sadəcə, işarə edirlər. Deməmək, salam verdikdə "əssəlamu aleykum" demədən, sadəcə, işarə ilə salam vermək qadağandır. Sual verilə bilər ki, "Bəs, nə üçün İmam Buxari bu fəsilə belə ünvan qoymuşdur?" Bu fəsildəki hədislərə nəzər salsaq bizə aydın olar ki, İmam Buxari burada "işarə ilə salam vermək" deyəndə, sadəcə işarə etməklə yox, işarə ilə yanaşı "əssəlamu aleykum" deməyin də lazım gəldiyini bildirir. Bundan da belə nəticə çıxır ki, işarə etmək, salam vermək yox, sadəcə onun zahiri əlaməti sayılır. Məsələn, bir adam başqa birisinə salam vermək istəyir, lakin salamlamaq istədiyi adam uzaqda durduğuna görə, yaxud qapalı bir yerdə (minikdə və s.) olduğundan, yaxud qulağı eşitmədiyinə görə salamı ona eşitdirə bilmir. Belə olduğu təqdirdə, o, salam verdiyini ona bildirmək üçün əli ilə işarə etməklə yanaşı "əssəlamu aleykum" deməlidir.

[2] Burada söhbət Peyğəmbərin ﷺ məşhur səhabəsi Ənəs ibn Malikdən ﵁ gedir.

[3] Yəni Həsən əl-Bəsri.

[4] Burada "sarı rəngə boyayar" deyldikdə, ağ saçları xına ilə boyamaq nəzərdə tutulur.

(...)– وَقَالَتْ أَسْمَاءُ: أَلْوَى النَّبِيُّ ﷺ بِيَدِهِ إِلَى النِّسَاءِ بِالسَّلَامِ.

**(...)** Əsma ﵂ demişdir: "Peyğəmbər ﷺ əlini əyərək qadınlara salam verərdi."[2]

**١٠٠٣**–حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ الْمُنْذِرِ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ مَعْنٍ قَالَ: حَدَّثَنِي مُوسَى بْنُ سَعْدٍ، عَنْ أَبِيهِ سَعْدٍ، أَنَّهُ خَرَجَ مَعَ عَبْدِ اللَّهِ بْنِ عُمَرَ، وَمَعَ الْقَاسِمِ بْنِ مُحَمَّدٍ، حَتَّى إِذَا نَزَلَا سَرِفًا مَرَّ عَبْدُ اللَّهِ بْنُ الزُّبَيْرِ فَأَشَارَ إِلَيْهِمْ بِالسَّلَامِ، فَرَدَّا عَلَيْهِ.

**(1003)** ........ Musa rəvayət edir ki, (bir dəfə) onun atası Səd Abdullah ibn Ömər və Qasim ibn Muhəmməd ilə yola çıxdı. Nəhayət, dincəlmək üçün bir yerdə dayandıqda, Abdullah ibn Zubeyr onların yanından keçdi və işarə ilə onlara salam verdi. Onlar da onun salamını aldı."[3]

**١٠٠٤**– حَدَّثَنَا خَلَّادٌ قَالَ: حَدَّثَنَا مِسْعَرٌ، عَنْ عَلْقَمَةَ بْنِ مَرْثَدٍ، عَنْ عَطَاءِ بْنِ أَبِي رَبَاحٍ قَالَ: كَانُوا يَكْرَهُونَ التَّسْلِيمَ بِالْيَدِ، أَوْ قَالَ: كَانَ يَكْرَهُ التَّسْلِيمَ بِالْيَدِ.

**(1004)** ........ Əta ibn Əbu Rəbah demişdir: "*Səhabələr* əl ilə *işarə edib* salam verməyi xoşlamazdılar.[4]"[5]

---

[1] Bu hədisin isnadında keçən Həyyac ibn Bəssam "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

[2] 1047-ci hədisə bax.

[3] Bu hədisin isnadında keçən Musa və onun atası Səd – hər ikisi "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

[4] Bu hədisdən aydın görünür ki, "əssəlamu aleykum" demədən, sadəcə, işarə ilə salam vermək Sünnəyə ziddir.

[5] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٤٦٠- بَابُ يُسْمِعُ إِذَا سَلَّمَ

## 460-cı fəsil. (Adam) salam verdikdə onu eşitdirməlidir[1]

**١٠٠٥-** حَدَّثَنَا خَلاَّدُ بْنُ يَحْيَى قَالَ: حَدَّثَنَا مِسْعَرٌ، عَنْ ثَابِتِ بْنِ عُبَيْدٍ قَالَ: أَتَيْتُ مَجْلِسًا فِيهِ عَبْدُ اللَّهِ بْنُ عُمَرَ، فَقَالَ: إِذَا سَلَّمْتَ فَأَسْمِعْ، فَإِنَّهَا تَحِيَّةٌ مِنْ عِنْدِ اللَّهِ مُبَارَكَةً طَيِّبَةً.

**(1005)** ........ Sabit ibn Ubeyd demişdir: "*Bir dəfə* mən Abdullah ibn Öməunder iştirak etdiyi bir məclisə gəldim. O *mənə* dedi: "Salam verdiyin zaman onu eşitdir.[2] Çünki o, Allah tərəfindən mübarək və xoş bir salamdır."[3]

---

[1] İmam Buxari bu fəslə belə ünvan qoymaqla, səssiz şəkildə salam verməyin şəriətə zidd olduğunu bildirir. Yeri gəlmişkən, qeyd edək ki, başqalarını narahat edəcək səslə salam vermək də Sünnəyə ziddir (1028-ci hədisə və onun qeydlərinə bax).

[2] İbn Həcər Peyğəmbərin ﷺ "Aranızda salamı yayın" hədisini izah edərkən demişdir: "Aranızda salamı yayın" buyuruğundan belə nəticə çıxır ki, *birisinə* səssiz şəkildə salam vermək *Sünnəni yerinə yetirmək üçün* kifayət deyil, əksinə, onu səslə vermək lazımdır. Salamı verəndə də, alanda da ən azı onu eşitdirmək gərəkdir. Əl ilə və s. işarə edərək salam vermək kifayət deyil" (Fəthul-Bari, 11/19).

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٤٦١– بَابُ مَنْ خَرَجَ يُسَلِّمُ وَيُسَلَّمُ عَلَيْهِ

## 461-ci fəsil. Salam vermək, həm də verilən salamı eşitmək (məqsədilə camaat arasına) çıxan kəs[4]

١٠٠٦– حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ إِسْحَاقَ بْنِ عَبْدِ اللَّهِ بْنِ أَبِي طَلْحَةَ، أَنَّ الطُّفَيْلَ بْنَ أُبَيِّ بْنِ كَعْبٍ أَخْبَرَهُ، أَنَّهُ كَانَ يَأْتِي عَبْدَ اللَّهِ بْنَ عُمَرَ فَيَغْدُو مَعَهُ إِلَى السُّوقِ، قَالَ: فَإِذَا غَدَوْنَا إِلَى السُّوقِ لَمْ يَمُرَّ عَبْدُ اللَّهِ بْنُ عُمَرَ عَلَى سَقَّاطٍ، وَلاَ صَاحِبِ بِيْعَةٍ، وَلاَ مِسْكِينٍ، وَلاَ أَحَدٍ إِلاَّ يُسَلِّمُ عَلَيْهِ.

قَالَ الطُّفَيْلُ: فَجِئْتُ عَبْدَ اللَّهِ بْنَ عُمَرَ يَوْمًا، فَاسْتَتْبَعَنِي إِلَى السُّوقِ، فَقُلْتُ: مَا تَصْنَعُ بِالسُّوقِ وَأَنْتَ لاَ تَقِفُ عَلَى الْبَيْعِ، وَلاَ تَسْأَلُ عَنِ السِّلَعِ، وَلاَ تَسُومُ بِهَا، وَلاَ تَجْلِسُ فِي مَجَالِسِ السُّوقِ؟ فَاجْلِسْ بِنَا هَاهُنَا نَتَحَدَّثُ، فَقَالَ لِي عَبْدُ اللَّهِ: يَا أَبَا بَطْنٍ، وَكَانَ الطُّفَيْلُ ذَا بَطْنٍ، إِنَّمَا نَغْدُو مِنْ أَجْلِ السَّلاَمِ، نُسَلِّمُ عَلَى مَنْ لَقِيَنَا.

**(1006)** ........ İshaq ibn Abdullah ibn Əbu Talhə rəvayət edir ki, Tufeyl ibn Ubeyy ibn Kəb demişdir: “Səhərlər mən Abdullah ibn Ömərin yanına gələr və onunla birgə bazara gedərdim. Biz bazara çatdıqda, Abdullah ibn Ömər yanından keçdiyi hər cır-cındır satana, hər satıcıya, hər kasıba və hər kəsə salam verərdi.[5]”

---

[4] Yəni müsəlmanlara salam vermək, həmçinin, onların verdiyi salamı eşitmək və bu salamı almaq, beləliklə də, savab qazanmaq, üstəlik, qardaşlıq münasibətlərini bir qədər də isitmək məqsədilə onlara baş çəkmək.

[5] Abdullah ibn Ömərin ﷺ salamı yaymaq məqsədilə bazara gəlməsi və qarşısına çıxan tanıdığı və tanımadığı hər bir müsəlmana salam verməsi sələflərin Peyğəmbərin ﷺ Sünnəsini yaymağa olduqca həris olduqlarından, habelə, onların təkcə tanıdıqlarına və ya tanınmış adamlara yox, əksinə, hamıya salam verməsi onların nə dərəcədə təvazökar insanlar olduğundan xəbər verir.

Tufeyl dedi: "Bir gün mən (yenə) Abdullah ibn Ömərin yanına gəldim və o mənə onunla birgə bazara getməyi xahiş etdi. Mən dedim: "Bazarda nə işin var? Axı, sən (bazara gedəndə) nə mal satırsan, nə malın qiymətini soruşursan, nə mal alırsan, nə də ki bazar məclislərində oturursan. Yaxşısı budur ki, burada bizimlə oturasan söhbət edək." Abdullah mənə dedi: "Ay yekəqarın![6] (Belə ki, Tufeylin qarnı yekə idi). Biz bazara salamı yaymaq üçün[7] gedir, qarşımıza çıxan hər kəsə salam veririk."[8]

---

[6] Səhabə bu sözü Tufeylə onu etmək və onda eyib tutmaq məqsədilə yox, sadəcə, onu tənbeh etmək üçün deyir. Bu da dəlildir ki, müəllim öz tələbəsini bu cür tənbeh edə bilər.

[7] Çünki salamı yaymaq müsəlmanı Cənnətə aparan ən böyük amillərdən biridir (980-ci hədisə və onun qeydlərinə bax). Adam bir nəfərə "əssəlamu aleykum" deyəndə on savab qazanırsa, on nəfərə salam verdikdə yüz savaba və beləcə, nə qədər çox adama salam verirsə, bir o qədər çox savaba nail olur ki, bu da, əlbəttə, nəticə etibarilə bazardakı alış-verişdən daha xeyirlidir. Bundan da belə nəticə çıxır ki, müsəlman olan kəs salam verməkdən usanmamalı, əksinə, Allah rizasını qazanmaq və Peyğəmbərin ﷺ Sünnəsinə riayət etmək məqsədilə salamı yaymaqdan ötrü hər gün imkan daxilində məscidləri, bazarları və başqa bu kimi ictimai yerləri gəzib-dolaşmalı, tanıdığı və tanımadığı müsəlmanlara salam verməlidir. Bu hədisdə diqqət çəkən bir məqam da budur ki, Abdullah ibn Ömər رضي الله عنهما bunu səhərlər edərdi, yəni günün əvvəlində bu xeyirli duanı yayardı. Və əgər hər səhər məscidlərdə, bazarlarda və digər ictimai yerlərdə olan müsəlmanlar bir-birinə "əssəlamu aleykum və rahmətullahi və bərəkatuh" deyərlərsə, heç şübhəsiz ki, onlara əmin-amanlıq nəsib olar, onları Allahın rəhməti bürüyər və onlara Onun bərəkəti yetişər.

[8] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٤٦٢- بَابُ التَّسْلِيمِ إِذَا جَاءَ الْمَجْلِسَ

## 462-ci fəsil. Məclisə gəldikdə salam vermək

١٠٠٧- حَدَّثَنَا أَبُو عَاصِمٍ، عَنِ ابْنِ عَجْلَانَ، عَنْ سَعِيدٍ الْمَقْبُرِيِّ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((إِذَا جَاءَ أَحَدُكُمُ الْمَجْلِسَ فَلْيُسَلِّمْ، فَإِنْ رَجَعَ فَلْيُسَلِّمْ، فَإِنَّ الْأُخْرَى لَيْسَتْ بِأَحَقَّ مِنَ الأولَى)).

**(1007)** ........ Əbu Hureyrə ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Qoy, sizlərdən biri məclisə gəldiyi zaman salam versin. Məclisdən durub getdikdə də, salam versin. Əvvəlki salam sonuncu salamdan heç də üstün deyildir.[9]"[10]

(...)- حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُثَنَّى قَالَ: حَدَّثَنَا صَفْوَانُ بْنُ عِيسَى، عَنِ ابْنِ عَجْلَانَ، عَنْ سَعِيدِ ابْنِ أَبِي سَعِيدٍ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ، مِثْلَهُ.

**(...)** Muhəmməd ibn Musənnə bizə belə rəvayət etmişdir: "Bizə Safvan ibn İsa, İbn Aclandan, o da, Səid ibn Əbu Səiddən, o da, atasından, o da, Əbu Hureyrədən ﵁, o da, Peyğəmbərdən ﷺ bu hədisin bənzərini rəvayət etmişdir.[11]

---

[9] Bu, dəlildir ki, müsəlman müsəlmanla görüşdükdə də, vidalaşdıqda da ona salam verməlidir. Bunların hər ikisi eyni hökmdədir. Yəni bunlardan birini tərk etmək Peyğəmbərin ﷺ Sünnəsinə ziddir.

[10] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[11] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu isnadın "səhih" olduğunu demişdir.

## ٤٦٣- بَابُ التَّسْلِيمِ إِذَا قَامَ مِنَ الْمَجْلِسِ

## 463-cü fəsil. Məclisdən qalxdıqda salam vermək

١٠٠٨- حَدَّثَنَا خَالِدُ بْنُ مَخْلَدٍ قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ بِلَالٍ قَالَ: حَدَّثَنِي مُحَمَّدُ بْنُ عَجْلَانَ قَالَ: أَخْبَرَنِي سَعِيدٌ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِذَا جَاءَ الرَّجُلُ الْمَجْلِسَ فَلْيُسَلِّمْ، فَإِنْ جَلَسَ ثُمَّ بَدَا لَهُ أَنْ يَقُومَ قَبْلَ أَنْ يَتَفَرَّقَ الْمَجْلِسُ فَلْيُسَلِّمْ، فَإِنَّ الْأُولَى لَيْسَتْ بِأَحَقَّ مِنَ الأُخْرَى.

**(1008)** ........ Əbu Hureyrə ﷛ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Adam məclisə gəldiyi zaman salam verməlidir. Əgər məclisdə otursa, sonra da, məclisdəkilər dağılışmazdan öncə məclisdən durub getməyi məsləhət bilsə, qoy, salam versin. Çünki əvvəlki *salam* sonuncu *salamdan* heç də üstün deyildir.”[12]

---

[12] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “səhih” olduğunu demişdir. İmam Buxari bu fəsildə eynimanalı bu hədisi təkrar nəql etməklə, hər iki halda müsəlmanın müsəlmana salam verməyinin olduqca mühüm əməllərdən olduğunu bildirir.

## ٤٦٤- بَابٌ حَقُّ مَنْ سَلَّمَ إِذَا قَامَ

## 464-cü fəsil. Məclisdən qalxdıqda salam verən kimsənin haqqı

١٠٠٩- حَدَّثَنَا مَطَرُ بْنُ الْفَضْلِ قَالَ: حَدَّثَنَا رَوْحُ بْنُ عُبَادَةَ قَالَ: حَدَّثَنَا بِسْطَامٌ قَالَ: سَمِعْتُ مُعَاوِيَةَ بْنَ قُرَّةَ قَالَ: قَالَ لِي أَبِي: يَا بُنَيَّ، إِنْ كُنْتَ فِي مَجْلِسٍ تَرْجُو خَيْرَهُ، فَعَجِلَتْ بِكَ حَاجَةٌ فَقُلْ: سَلاَمٌ عَلَيْكُمْ، فَإِنَّكَ تَشْرَكُهُمْ فِيمَا أَصَابُوا فِي ذَلِكَ الْمَجْلِسِ، وَمَا مِنْ قَوْمٍ يَجْلِسُونَ مَجْلِسًا فَيَتَفَرَّقُونَ عَنْهُ لَمْ يُذْكَرِ اللَّهُ، إِلاَّ كَأَنَّمَا تَفَرَّقُوا عَنْ جِيفَةِ حِمَارٍ.

**(1009)** ........ Muaviyə ibn Qurra demişdir: "Atam mənə belə buyurmuşdur: "Oğlum! Xeyir umduğun bir məclisdə[13] olduğun zaman, ehtiyacın üzündən məclisi tərk etmək istəsən *məclisdəkilərə*: "Sizə salam olsun!"– de. Belə olduqda, sən həmin məclisdəkilərin qazandığı savaba şərik olarsan.[14] (Bil ki,) hər hansı bir məclisdə oturan camaat Allahı yad etmədən o məclisdən dağılışsa, sanki eşşək leşinin yanından dağılışmış hesab olunar.[15]"[16]

---

[13] Burada söhbət mömin adamların məclisindən gedir. O məclis ki, orada Allah yad edilir, Qurandan, hədislərdən, səhabələrin həyat tərzindən söhbət açılır və başqa bu kimi xeyirli işlərdən danışılır.

[14] Yəni "sən də savab qazanarsan". Bu, ona görədir ki, onun həmin məclisdə axıradək oturmaq niyyət var idi. Həm də ona görədir ki, o, bu məclisdən ayrıldıqa məclisdəkilər üçün Allahdan əmin-amanlıq diləyir.

[15] Bu xüsusda, varid olmuş hədisdə Əbu Hureyrə ﵁ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Məclisə toplaşmış bir camaat Allahı zikr etmədən həmin məclisdən dağılışsa, sanki eşşək leşinin yanından dağılışmış hesab olunar və Qiyamat günü bu məclisin peşmançılığını çəkər (bu məclisdə Allahı yad etmədiklərinə görə təəssüflənərlər)" (Sunən Əbu Davud, 4855; Sunən ən-Nəsai, 10163; Musnəd Əhməd 2/389, 515 və 527; Mustədrək əl-Hakim, 1/492; Şoəbul-İman, 537; Səhih əl-Cami, 5508). Peyğəmbər ﷺ burada belə bir məclisdən qalxan adamları eşşək leşi yanından qalxan adamlara bənzədir. Peyğəmbər ﷺ

١٠١٠- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي مُعَاوِيَةُ، عَنْ أَبِي مَرْيَمَ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّهُ سَمِعَهُ يَقُولُ: مَنْ لَقِيَ أَخَاهُ فَلْيُسَلِّمْ عَلَيْهِ، فَإِنْ حَالَتْ بَيْنَهُمَا شَجَرَةٌ أَوْ حَائِطٌ، ثُمَّ لَقِيَهُ فَلْيُسَلِّمْ عَلَيْهِ.

**(1010)** ........ Əbu Hureyrə ﷺ demişdir:[2] "Qoy, qardaşı ilə üz-üzə gələn gələn kimsə ona salam versin. Əgər onların arasına bir ağac, yaxud bir divar girsə, sonra (yenə) onunla üz-üzə gəlsə, qoy, (yenə) ona salam versin.[3]"

---

deмək istəyir ki, eşşək leşinin yanındakıların üstündən pis iy gəldiyi, sir-sifətləri də eybəcər görkəm aldığı kimi, boşboğazlıq edən toplumun yanından, ələlxüsus da, qeybət məclisindən qalxan kimsələrin də həmçinin, həm zahiri görkəmi, həm də mənəviyyatı pisləşir.

[1] Muhəmməd Nasirəddin əl-Albani demişdir: "Bu rəvayətin isnadı "səhih"dir, ravilərinin də hamısı etibarlı ravilərdir. Bu rəvayət "movquf" olsa da, "mərfu" hökmünə aid edilir. Belə ki, bu qəbildən olan hökmlər ictihad nəticəsində deyilə bilməz. Bundan əlavə, bu rəvayətin əksər hissəsi "mərfu" isnadla varid olmuş hədislərdə öz əksini tapmışdır. Rəvayətin əvvəli ("bir məclisdə olduğun zaman, ehtiyacın üzündən məclisi tərk etmək istəsən, *məclisdəkilərə*: "Sizə salam olsun!"– de" sözü) Əbu Hureyrənin ﷺ rəvayət etdiyi hədisdə öz təsdiqini tapmışdır (986-cı, 1007-ci və 1008-ci hədislərə bax). Axırı da, həmçinin, Əbu Hureyrənin ﷺ rəvayət etdiyi hədisdə öz əksini tapmışdır. Bu kitabdakı (yəni "Silsilətul-Əhadisis-Səhihə" əsərindəki) 77 nömrəli hədisə, habelə, bundan əvvəlki və sonrakı (76 və 78 nömrəli) hədislərə bax" (Silsilətul-Əhadisis-Səhihə, 1/357).

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu rəvayətin rəvayətin "səhih-movquf" olduğunu demiş, sonra da onun mətninin "mərfu" isnadla rəvayət edildiyini bildirmişdir. Əbu Hureyrənin ﷺ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "Qoy, sizdən biriniz *din* qardaşına rast gəldikdə ona salam versin. Və əgər onların arasına bir ağac, yaxud bir divar, yaxud bir daş girsə, sonra *yenə* onunla üz-üzə gəlsə, qoy, *yenə* ona salam versin" (Sunən Əbu Davud, 5200; bax: Silsilətul-Əhadisis-Səhihə, 186).

[3] Müsəlmanların bir çoxu bu Sünnədən qafildirlər. Bundan aydın olur ki, müsəlman öz müsəlman qardaşından ayrılıb sonra yenidən görüşdükdə, ayrılıq müddətinin çox və

**١٠١١-** حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا الضَّحَّاكُ بْنُ نِبْرَاسٍ أَبُو الْحَسَنِ، عَنْ ثَابِتٍ الْبُنَانِيِّ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، أَنَّ أَصْحَابَ النَّبِيِّ ﷺ كَانُوا يَكُونُونَ مُجْتَمِعِينَ فَتَسْتَقْبِلُهُمُ الشَّجَرَةُ، فَتَنْطَلِقُ طَائِفَةٌ مِنْهُمْ عَنْ يَمِينِهَا وَطَائِفَةٌ عَنْ شِمَالِهَا، فَإِذَا الْتَقَوْا سَلَّمَ بَعْضُهُمْ عَلَى بَعْضٍ.

**(1011)** ........ Ənəs ibn Malik ؓ rəvayət edir ki: "Peyğəmbərin ﷺ səhabələri bir ağaca rast gəldikdə, onlardan bir qismi ağacın sağ tərəfindən, bir qismi də sol tərəfindən keçər, sonra da qarşı-qarşıya gəldikdə, bir-birinə salam verərdilər."[1]

---

ya az olmasından asılı olmayaraq, ona salam verməlidir. Aşağıdakı hədisi də buna dəlil göstərmək olar:

Əbu Hureyrə ؓ rəvayət edir ki, *bir dəfə* Peyğəmbər ﷺ məscidə daxil oldu, *arxasınca* da bir nəfər *ora* daxil olub namaz qıldı və *namazı bitirdikdən* sonra Peyğəmbərə ﷺ salam verdi. Peyğəmbər ﷺ onun salamını aldı və buyurdu: "Qayıt namazını qıl, çünki sən namazı *düz* qılmadın." O, əvvəlki kimi namaz qıldı, sonra da Peyğəmbərin ﷺ yanına gəlib ona salam verdi. Peyğəmbər ﷺ *yenə ona* buyurdu: "Qayıt namazını qıl, çünki sən namazı *düzgün* qılmadın." Bu hal üç dəfə təkrar oldu..." (əl-Buxari, 757) Bu da, salamı yaymağın vacib əməllərdən olduğunu bir daha sübuta yetirir.

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٤٦٥- بَابُ مَنْ دَهَنَ يَدَهُ لِلْمُصَافَحَةِ

## 465-ci fəsil. Əl verib görüşmək məqsədilə əlinə ətir vuran kəs

١٠١٢- حَدَّثَنَا عُبَيْدُ اللَّهِ بْنُ سَعِيدٍ قَالَ: حَدَّثَنَا خَالِدُ بْنُ خِدَاشٍ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ وَهْبٍ الْمِصْرِيُّ، عَنْ قُرَيْشٍ الْبَصْرِيِّ هُوَ ابْنُ حَيَّانَ، عَنْ ثَابِتٍ الْبُنَانِيِّ، أَنَّ أَنَسًا كَانَ إِذَا أَصْبَحَ دَهَنَ يَدَهُ بِدُهْنٍ طَيِّبٍ لِمُصَافَحَةِ إِخْوَانِهِ.

**(1012)** ........ Qureyş ibn Heyyan əl-Bəsri rəvayət edir ki, Sabit əl-Bunani demişdir: "Ənəs səhərlər[1] əlinə gözəl[2] ətir sürtərdi ki, qardaşları ilə əl verib görüşsün.[3]"[4]

---

[1] Səhabələrin səhərlər gözəl işlərlə məşğul olması bu ümmətin səhərinin bərəkətli olmasına işarədir (272-ci fəsilin ünvanına, habelə 1006-cı hədisə və onun qeydlərinə bax).

[2] Bundan aydın olur ki, ətirin gözəl olmayanı da var. Yəni iyi tünd olduğundan, sahibinə xoş gəlsə də, başqalarına əziyyət verir. Demək, ətir vurub camaat arasına çıxmaq istəyən kimsə təkcə özünü yox, camaatı da düşünməli, onlara əziyyət verməməlidir.

[3] Əvvəlki 967-ci və 968-ci hədislərdə bizə aydın oldu ki, əl verib görüşmək salamın tamamlanmasından, habelə, qəlbin yumşalmasına səbəb olan əsas amillərdəndir. Bu gözəl Sünnəni tətbiq etdikdə ələ ətir sürtməyi buna əlavə etmək isə gözəllik üstünə gözəllik gətirmək deməkdir.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٤٦٦- بَابُ التَّسْلِيمِ بِالْمَعْرِفَةِ وَغَيْرِهَا

## 466-cı fəsil. Tanıdığına və tanımadığına salam vermək

١٠١٣- حَدَّثَنَا قُتَيْبَةُ قَالَ: حَدَّثَنَا اللَّيْثُ، عَنْ يَزِيدَ بْنِ أَبِي حَبِيبٍ، عَنْ أَبِي الْخَيْرِ، عَنْ عَبْدِ اللَّهِ ابْنِ عَمْرٍو، أَنَّ رَجُلًا قَالَ: يَا رَسُولَ اللَّهِ، أَيُّ الإِسْلَامِ خَيْرٌ؟ قَالَ: تُطْعِمُ الطَّعَامَ، وَتُقْرِئُ السَّلَامَ عَلَى مَنْ عَرَفْتَ وَمَنْ لَمْ تَعْرِفْ.

**(1013)** ........ Abdullah ibn Amr ﵄ rəvayət edir ki, bir nəfər Peyğəmbərdən ﷺ soruşdu: "Ya Rəsulullah, İslam (xislətlərindən) ən xeyirlisi hansıdır?" Peyğəmbər ﷺ buyurdu: "Sənin, (ehtiyacı olanlara) yemək yedirtməyin, bir də ki, tanıdığına və tanımadığına salam verməyin.[1]"[2]

---

[1] Yəni qarşına çıxan hər kəsə salam verməlisən. Yalnız tanıdığın adama salam vermək İslam əxlaqına zidd olan bir xüsusiyyətdir və Qiyamətin əlamətlərindəndir. Peyğəmbər ﷺ demişdir: "Birisinin ancaq tanıdığına salam verməsi Qiyamətin əlamətlərindəndir" (Musnəd Əhməd, 1/387; Silsilətul-Əhadisis-Səhihə, 648). Hədisdə "tanıdığına və tanımadığına salam ver" deyildikdə, əlbəttə ki, müsəlman cəmiyyəti nəzərdə tutulur. Belə ki, kafirlərə, ümumiyyətlə, salam vermək qadağan edilmişdir (1102-ci hədisə bax).

[2] Bu hədisi Buxari (12), Muslim, (160), Əbu Davud, (5194), Nəsai (4914), Əhməd (2/169), İbn Hibban (505) rəvayət etmişdir.

## ٤٦٧ – بَابُ

## 467-ci fəsil.

١٠١٤– حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا يَزِيدُ بْنُ زُرَيْعٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ، عَنْ سَعِيدِ بْنِ أَبِي سَعِيدٍ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ نَهَى عَنِ الأَفْنِيَةِ وَالصُّعُدَاتِ أَنْ يُجْلَسَ فِيهَا، فَقَالَ الْمُسْلِمُونَ: لاَ نَسْتَطِيعُهُ، لاَ نُطِيقُهُ، قَالَ: ((أَمَّا لاَ، فَأَعْطُوا حَقَّهَا))، قَالُوا: وَمَا حَقُّهَا؟ قَالَ: ((غَضُّ الْبَصَرِ، وَإِرْشَادُ ابْنِ السَّبِيلِ، وَتَشْمِيتُ الْعَاطِسِ إِذَا حَمِدَ اللَّهَ، وَرَدُّ التَّحِيَّةِ)).

**(1014)** ........ Əbu Hureyrə ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ həyət-bacada[1] və yollarda oturmağı qadağan etdi. Onda, müsəlmanlar: "Biz bunu bacarmarıq, bizim buna iradəmiz çatmaz"– dedilər. Peyğəmbər ﷺ buyurdu: "Yox, əgər *oturmağınız* labüddürsə, onda onların[2] haqqını ödəyin." *Səhabələr* soruşdular: "Onların haqqı nədir, (ya Rəsulullah)?" Peyğəmbər ﷺ buyurdu: "Gözü *haram buyurulanlardan* çəkmək, yolçuya yol göstərmək, asqırıb "Əlhəmdulilləh"– deyən kimsəyə, "Yərhəmukəllah"– demək[3] və verilən salamı almaqdır."[4]

---

[1] Burada söhbət hasarı olmayan həyət-bacadan gedir. Yoxsa ki, adamın öz həyətində oturması caizdir.

[2] Burada "onların haqqı" deyildikdə yoldan keçənlərin haqları nəzərdə tutulur.

[3] 919, 921, 927, 928, 930, 933, 934, 938, 939, 940 və 941 saylı hədislərə və onların qeydlərinə bax.

[4] Bu hədisi Təhavi (Muşkilul-Asar, 1/58), Bəzzar (2/425/2018) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir. İmam Buxari (2465) və Muslim (2121) öz "Səhih"lərində bu hədisi rəvayət etmişlər. Həmin hədisin sonunda deyilir ki, Peyğəmbər ﷺ demişdir: "Gözü *haram buyurulanlardan* çəkmək, heç kəsə əziyyət verməmək, verilən salamı almaq, *insanlara* yaxşı işlər görməyi buyurmaq və *onları* pis işlərdən çəkindirmək" (1149-cu və 1150-ci hədislərə və onların qeydlərinə bax).

١٠١٥- حَدَّثَنَا أَحْمَدُ بْنُ يُونُس قَالَ: حَدَّثَنَا زُهَيْرٌ قَالَ: حَدَّثَنَا كِنَانَةُ مَوْلَى صَفِيَّةَ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: أَبْخَلُ النَّاسِ مَنْ بَخِلَ بِالسَّلَامِ، وَالْمَغْبُونُ مَنْ لَمْ يَرُدَّهُ، وَإِنْ حَالَتْ بَيْنَكَ وَبَيْنَ أَخِيكَ شَجَرَةٌ، فَإِنِ اسْتَطَعْتَ أَنْ تَبْدَأَهُ بِالسَّلَامِ لا يَبْدَأُكَ فَافْعَلْ.

**(1015)** ........ Əbu Hureyrə ﷺ demişdir: "Ən xəsis adam salam verməyə xəsislik edən adamdır.[1] Ziyana uğramış adam da salamı almayan adamdır. Və əgər səninlə qardaşının arasına bir ağac girsə, o, sənə salam verməmişdən öncə, bacarırsansa, sən ona salam ver.[2]"[3]

١٠١٦- حَدَّثَنَا عِمْرَانُ بْنُ مَيْسَرَةَ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَارِثِ، عَنْ حُسَيْنٍ، عَنْ عَمْرِو بْنِ شُعَيْبٍ، عَنْ سَالِمٍ مَوْلَى عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو قَالَ: وَكَانَ ابْنُ عَمْرٍو إِذَا سُلِّمَ عَلَيْهِ فَرَدَّ زَادَ، فَأَتَيْتُهُ وَهُوَ جَالِسٌ فَقُلْتُ: السَّلَامُ عَلَيْكُمْ، فَقَالَ: السَّلَامُ عَلَيْكُمْ وَرَحْمَةُ اللَّهِ، ثُمَّ أَتَيْتُهُ مَرَّةً أُخْرَى فَقُلْتُ: السَّلَامُ عَلَيْكُمْ وَرَحْمَةُ اللَّهِ، قَالَ: السَّلَامُ عَلَيْكُمْ وَرَحْمَةُ اللَّهِ وَبَرَكَاتُهُ، ثُمَّ أَتَيْتُهُ مَرَّةً أُخْرَى فَقُلْتُ: السَّلَامُ عَلَيْكُمْ وَرَحْمَةُ اللَّهِ وَبَرَكَاتُهُ، فَقَالَ: السَّلَامُ عَلَيْكُمْ وَرَحْمَةُ اللَّهِ وَبَرَكَاتُهُ، وَطَيِّبُ صَلَوَاتِهِ.

**(1016)** ........ Rəvayət edilir ki, Abdullah ibn Amrın ﷺ mövlası Salim demişdir: "Abdullah ibn Amra salam verildikdə, o bu salamı alar və buna

---

[1] Salam verməyin savabını bilən adam səbəbsiz yerə salam verməyə xəsislik edərsə, əlbəttə ki, ziyana uğrayar və Qiyamət günü bunun peşmançılığını çəkər.

[2] 449-cu fəsildəki hədislərə və onların qeydlərinə bax.

[3] Bu hədisin isnadında keçən Kinanə "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu bildirmiş, sonra demişdir: "Bu hədisin ilk cümləsi "mərfu" isnadla – Peyğəmbərə ﷺ istinad edilərək rəvayət edilmişdir. (Əbu Hureyrənin ﷺ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "Ən xəsis adam salam verməyə xəsislik edən adamdır.") Bax: "Silsilətul-Əhadisis-Səhihə", 518 və 601. Eləcə də, bu hədisin son cümləsi də "mərfu" isnadla rəvayət edilmişdir. Bu da, həmçinin, "Silsilətul-Əhadisis-Səhihə" əsərində bu fəsildən iki fəsil qabaqkı fəsildə nəql edilmişdir.

əlavə də edərdi.[1] *Bir dəfə* o, oturmuş ikən mən onun yanına gəlib: "Əssəlamu aleykum"– dedim. O da: "Əssəlamu aleykum və rahmətullah"– deyə cavab verdi. Sonra yenə onun yanına gəlib: "Əssəlamu aleykum və rahmətullah"– dedim. O da: "Əssəlamu aleykum və rahmətullahi və bərəkatuhu"– deyə cavab verdi. Yenə bir dəfə gəlib: "Əssəlamu aleykum və rahmətullahi və bərəkatuhu"– dedim. O da: "Əssəlamu aleykum və rahmətullahi və bərəkatuhu və tayyibu salavatihi"– deyə cavab verdi."[2]

---

[1] Quranda bu xüsusda, belə buyurulur: **"Biri sizinlə salamlaşdığı zaman siz onun salamını daha böyük ehtiramla alın və ya *verilən salamı olduğu kimi* qaytarın!"** (ən-Nisa, 86). Ayəyə diqqət yetirsək görərik ki, verilən salamı daha böyük ehtiramla almaq əmri, olduğu kimi qaytarmaq sözündən öncə gəlir. Bu da, verilən salama belə cavab verməyin daha əfzəl olduğuna dəlalət edir. Yəni birisi "Əssəlamu aleykum"– deyərsə, ona "va aleykumussəlamu və rahmətullah"– demək, yaxud "Əssəlamu aleykum və rahmətullah"– deyərsə, ona "va aleykumussəlamu və rahmətullahi və bərəkatuh"– demək və ya "Əssəlamu aleykum və rahmətullahi və bərəkatuhu"– deyərsə, ona "va aleykumussəlamu və rahmətullahi və bərəkatuhu və məğfirətuh"– demək daha əfzəldir (458-ci fəsilin ünvanının qeydlərinə bax).

[2] Bu hədisin isnadında keçən Salim "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ٤٦٨– بَابُ لا يُسَلَّمُ عَلَى فَاسِقٍ

## 468-ci fəsil. Fasiqə[1] salam verilmir[2]

١٠١٧– حَدَّثَنَا سَعِيدُ بْنُ أَبِي مَرْيَمَ قَالَ: حَدَّثَنَا بَكْرُ بْنُ مُضَرَ قَالَ: حَدَّثَنَا عُبَيْدُ اللَّهِ بْنُ زَحْرٍ، عَنْ حِبَّانَ بْنِ أَبِي جَبَلَةَ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ قَالَ: لاَ تُسَلِّمُوا عَلَى شُرَّابِ الْخَمْرِ.

**(1017)** ........ Abdullah ibn Amr ibn As ﷺ demişdir:[3] "Şərab içənlərə[4] salam verməyin!"

---

[1] 429-cu hədisin qeydlərinə bax.

[2] Günahkar adama salam verməməyin səbəbi, onu həmin günahdan çəkindirmək və onu Allah rizası üçün tərbiyə etməkdir. Qeyd edək ki, burada "günahkar" deyildikdə, söhbət açıq-aşkar günah edən kimsədən gedir. Günahı gizli qalmış kimsəni ifşa etmək isə qadağan olunan əməllərdəndir (758-ci hədisin qeydlərinə bax). İbn Teymiyyə demişdir: "Əgər adam aşkarda günah işlər görərsə, ona bu işləri görməyi qadağan etmək və bunu aşkarcasına bildirmək vacibdir. Bunu etmək qeybət sayılmaz. *Bu yaramaz əməldən əl çəkmədiyi təqdirdə isə* bunun qarşısını almaq üçün ondan əlaqəni kəsmək və ya buna bənzər cəza verməklə onu aşkarda cəzalandırmaq gərəkdir. Beləsinə nə salam verilir, nə də ki onun verdiyi salam alınır" (Məcmuə Fətavə, 28/217). Lakin xüsusilə qeyd etmək lazımdır ki, bu işdə şəriətin qoyduğu qaydaya: "Fəsadın qarşısını almaq, fayda əldə etməkdən daha üstündür" sözünə riayət etmək gərəkdir. Yəni əgər belə fasiqdən əlaqəni kəsmək onu islah edəcəksə, ondan əlaqəni kəsmək lazımdır. Yox, əgər ondan əlaqəni kəsmək daha böyük fəsadlara yol açacaqsa, onu cəzalandırmaq üçün başqa yollar axtarmaq gərəkdir.

[3] Bu hədisin isnadında keçən Ubeydullah ibn Zəhr "xətalara yol vermiş səduq" ravi olduğundan, Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

[4] Şərab işməyin böyük günahlardan olduğu barədə Quranda belə buyurulur: **"Ey iman gətirənlər! Şübhəsiz ki, sərxoşedici *içki* də, qumar da, *tapınmaq məqsədilə* dik qoyulmuş daşlar da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız. Həqiqətən, şeytan sərxoşedici *içki* və qumar vasitəsilə**

١٠١٨– حَدَّثَنَا مُحَمَّدُ بْنُ مَحْبُوبٍ، وَمُعَلَّى، وَعَارِمٌ، قَالُوا: حَدَّثَنَا أَبُو عَوَانَةَ، عَنْ قَتَادَةَ، عَنِ الْحَسَنِ قَالَ: لَيْسَ بَيْنَكَ وَبَيْنَ الْفَاسِقِ حُرْمَةٌ.

**(1018)** ........ Həsən *əl-Bəsri* demişdir: "Səninlə[1] fasiq arasında heç bir hörmət ola bilməz.[2]"[3]

١٠١٩– حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ الْمُنْذِرِ قَالَ: حَدَّثَنِي مَعْنُ بْنُ عِيسَى قَالَ: حَدَّثَنِي أَبُو رُزَيْقٍ، أَنَّهُ سَمِعَ عَلِيَّ بْنَ عَبْدِ اللَّهِ يَكْرَهُ الأَسْبِرَنْجَ وَيَقُولُ: لاَ تُسَلِّمُوا عَلَى مَنْ لَعِبَ بِهَا، وَهِيَ مِنَ الْمَيْسِرِ.

**(1019)** ........ Əbu Ruzeyq rəvayət etmişdir ki, Əli ibn Abdullah şahmat oynamağı bəyənilməyən əməllərdən sayar və deyərmiş: "Şahmat oynayan kimsəyə salam verməyin. Çünki bu, qumardır."[4]

---

**sizin aranıza ədavət və kin salmaq, sizi Allahı yad etməkdən və namazdan ayırmaq istəyər. Siz *buna* son qoyacaqsınızmı?"** (əl-Maidə, 90-91). Peyğəmbər ﷺ demişdir: "Şərab içən adam bütə ibadət edən kimsəyə bənzəyir. Şərab içən kəs Lat və Uzzaya tapınan kimsəyə bənzəyir" (Musnəd əl-Bəzzar, 2382; Səhih əl-Cami, 3701).

[1] Burada söhbət mömindən gedir.

[2] Yəni günah edən kimsənin mömin yanında heç bir hörməti ola bilməz, mömin adam günah işlər görən kimsəyə ehtiram göstərməz.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[4] Bu hədisin isnadında keçən Əbu Ruzeyq "məchul" ravi olduğundan, Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif", həm də "məqtu" olduğunu demişdir.

## ٤٦٩- بَابُ مَنْ تَرَكَ السَّلامَ عَلَى الْمُتَخَلِّقِ وَأَصْحَابِ الْمَعَاصِي

## 469-cu fəsil. Günahkara və ətir vurana salam verməyi tərk edən kimsə

**١٠٢٠-** حَدَّثَنَا زَكَرِيَّا بْنُ يَحْيَى قَالَ: حَدَّثَنِي الْقَاسِمُ بْنُ الْحَكَمِ الْعُرَنِيُّ قَالَ: أَخْبَرَنَا سَعِيدُ بْنُ عُبَيْدٍ الطَّائِيُّ، عَنْ عَلِيِّ بْنِ رَبِيعَةَ، عَنْ عَلِيِّ بْنِ أَبِي طَالِبٍ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: مَرَّ النَّبِيُّ ﷺ عَلَى قَوْمٍ فِيهِمْ رَجُلٌ مُتَخَلِّقٌ بِخَلُوقٍ، فَنَظَرَ إِلَيْهِمْ وَسَلَّمَ عَلَيْهِمْ، وَأَعْرَضَ عَنِ الرَّجُلِ، فَقَالَ الرَّجُلُ: أَعْرَضْتَ عَنِّي؟ قَالَ: ((بَيْنَ عَيْنَيْكَ جَمْرَةٌ)).

**(1020)** ........ Əli ibn Əbu Talib ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ bir qövmün yanına gəldi. Onların arasında özünə zəfərandan düzəldilmiş ətir vuran bir kişi var idi. Peyğəmbər ﷺ onlara nəzər saldı. Sonra da hamısına salam verib (ancaq) o kişidən üz döndərdi. Kişi dedi: "Nə üçün məndən üz döndərirsən?" O dedi: "Sənin gözlərinin arasında köz vardır.[1]"[2]

**١٠٢١-** حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي سُلَيْمَانُ، عَنِ ابْنِ عَجْلاَنَ، عَنْ عَمْرِو بْنِ شُعَيْبِ بْنِ مُحَمَّدِ بْنِ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ بْنِ وَائِلٍ السَّهْمِيِّ، عَنْ أَبِيهِ، عَنْ جَدِّهِ، أَنَّ رَجُلًا أَتَى النَّبِيَّ ﷺ وَفِي يَدِهِ خَاتَمٌ مِنْ ذَهَبٍ، فَأَعْرَضَ النَّبِيُّ ﷺ عَنْهُ، فَلَمَّا رَأَى الرَّجُلُ كَرَاهِيَتَهُ ذَهَبَ فَأَلْقَى الْخَاتَمَ، وَأَخَذَ

---

[1] Bundan aydın olur ki, kişilərə zəfəran və başqa bu kimi qadına xas ənlik-kirşandan istifadə etmək qadağandır. Bu xüsusda, varid olmuş hədisdə Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbər ﷺ kişilərə zəfərandan ətir kimi istifadə etməyi qadağan etmişdir" (Səhih əl-Buxari, 5846); digər hədisdə o demişdir: "Kişi ətiri, iyi çox olması və rəngi nəzərə çarpmaması ilə, qadın ətri isə, rəngi nəzərə çarpması və iyi az olması ilə seçilməlidir" (Sunən Əbu Davud, 2174, Sunən Nəsai, 5117, Sunən Tirmizi, 2788; Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin səhih olduğunu demişdir).

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "həsən" olduğunu demişdir.

خَاتَمًا مِنْ حَدِيدٍ فَلَبِسَهُ، وَأَتَى النَّبِيَّ ﷺ، قَالَ: ((هَذَا شَرٌّ، هَذَا حِلْيَةُ أَهْلِ النَّارِ))، فَرَجَعَ فَطَرَحَهُ، وَلَبِسَ خَاتَمًا مِنْ وَرِقٍ، فَسَكَتَ عَنْهُ النَّبِيُّ ﷺ.

**(1021)** ........ Amr ibn Şueyb ibn Muhəmməd ibn Abdullah ibn Amr ibn əl-As ibn Vail əs-Səhmi atasından, o da, öz atasından rəvayət etmişdir ki, barmağına qızıl üzük[1] taxmış bir nəfər Peyğəmbərin ﷺ yanına gəldi. Peyğəmbər ﷺ ondan üz çevirdi.[2] Adam Peyğəmbərin ﷺ nifrətini gördükdə gedib qızıl üzüyü atıb, dəmirdən üzük geydi və Peyğəmbərin ﷺ yanına gəldi. Peyğəmbər ﷺ dedi: "Bu, daha pisdir. Bu, Cəhənnəm əhlinin zinətidir.[3]" Kişi qayıdıb barmağındakını atdı və gümüşdən üzük geydi. Onda, Peyğəmbər ﷺ heç nə demədi.[4]

**١٠٢٢** – حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي اللَّيْثُ، عَنْ عَمْرٍو هُوَ ابْنُ الْحَارِثِ، عَنْ بَكْرِ بْنِ سَوَادَةَ، عَنْ أَبِي النَّجِيبِ، عَنْ أَبِي سَعِيدٍ قَالَ: أَقْبَلَ رَجُلٌ مِنَ الْبَحْرَيْنِ إِلَى النَّبِيِّ ﷺ فَسَلَّمَ عَلَيْهِ، فَلَمْ يَرُدَّ، وَفِي يَدِهِ خَاتَمٌ مِنْ ذَهَبٍ، وَعَلَيْهِ جُبَّةُ حَرِيرٍ، فَانْطَلَقَ الرَّجُلُ مَحْزُونًا، فَشَكَا إِلَى امْرَأَتِهِ،

---

[1] Peyğəmbər ﷺ bu ümmətin kişilərinə qızıl üzük geyməyi qadağan etmişdir. Rəvayət edilir ki, Bəra ibn Azib ﷺ demişdir: "Peyğəmbər ﷺ bizə yeddi şeyi əmr etdi və yeddi şeyi qadağan etdi. O bizə cənazənin ardınca getməyi, xəstəni ziyarət etməyi, *məclisə* dəvət edənin dəvətini qəbul etməyi, məzluma yardım etməyi, andı yerinə yetirməyi, verilən salamı almağı və asqırıb "Əlhəmdulilləh"– deyən adama "Yərhəmukəllah"– deməyi əmr etmişdir. Və bizə gümüş qabda *yemək-içməyi*, qızıl üzük, ipək, zərxara, ipək qatışığı olan libas və atlas parça *geyməyi* qadağan etmişdir" (Səhih əl-Buxari, 1239);

[2] Bu hədisi İslam dininin bizə öyrətdiyi tərbiyə üslublarından biridir. Yəni vacib deyil ki, xətaya yol vermiş adamın üstünə qışqırasan, lazım gəldikdə, adamın xətasını işarə ilə də düzəltmək olar.

[3] Bu, dəlildir ki, dəmirdən üzük geymək də haramdır.

[4] Bu hədisi Əhməd (2/163) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "həsən" olduğunu demişdir.

فَقَالَتْ: لَعَلَّ بِرَسُولِ اللَّهِ ﷺ جُبَّتَكَ وَخَاتَمَكَ، فَأَلْقِهِمَا ثُمَّ عُدْ، فَفَعَلَ، فَرَدَّ السَّلاَمَ، فَقَالَ: جِئْتُكَ آنِفًا فَأَعْرَضْتَ عَنِّي؟ قَالَ: ((كَانَ فِي يَدِكَ جَمْرٌ مِنْ نَارٍ))، فَقَالَ: لَقَدْ جِئْتُ إِذًا بِجَمْرٍ كَثِيرٍ، قَالَ: ((إِنَّ مَا جِئْتَ بِهِ لَيْسَ بِأَجْزَأَ عَنَّا مِنْ حِجَارَةِ الْحَرَّةِ، وَلَكِنَّهُ مَتَاعُ الْحَيَاةِ الدُّنْيَا))، قَالَ: فَبِمَاذَا أَتَخَتَّمُ بِهِ؟ قَالَ: ((بِحَلْقَةٍ مِنْ وَرِقٍ، أَوْ صُفْرٍ، أَوْ حَدِيدٍ)).

**(1022)** ........ Əbu Nəcib rəvayət edir ki, Əbu Səid[1] demişdir: "Bəhreyndən bir kişi gəlib Peyğəmbərə ﷺ salam verdi. Kişinin barmağında qızıl üzük, əynində də ipək cübbə var idi.[2] Peyğəmbər ﷺ onun salamını almadı. Kişi kədərli halda zövcəsinin yanına qayıdıb ona şikayət etdi. Zövcəsi dedi: "Ola bilsin ki, Rəsulullahın sənə salam verməməsi sənin cübbənə və üzüyünə görədir. Onları çıxart, sonra (Peyğəmbərin ﷺ yanına) qayıt.[3]" Kişi belə də etdi. (Bu dəfə) Peyğəmbər ﷺ onun salamını aldı. Kişi soruşdu: "Bir az əvvəl sənin yanına gəldikdə, nə üçün üz çevirdin?" Peyğəmbər ﷺ dedi: "Onda sənin əlində köz parçası var idi." Kişi dedi: "Deməк, mən çoxlu köz parçaları gətirmişdim."[4] Peyğəmbər ﷺ dedi: "Sənin gətirdiyin şeylər heç

---

[1] Əbu Səid Səd ibn Malik ibn Sinan əl-Xudri ؓ ən çox hədis rəvayət etmiş yeddi səhabədən biridir.

[2] Hər ikisi İslam ümmətinin yalnız kişilərinə haram buyurulmuşdur (əvvəlki hədisin qeydlərinə bax).

[3] Əməlisaleh zövcənin adama ağıllı məsləhət verməsi necə də gözəldir! Belə zövcəsi olan kimsənin xoş halına! (256-cı hədisə və onun qeydlərinə bax). Əməlisaleh qadın barədə Peyğəmbər ﷺ demişdir: "Qadınlarınızın ən xeyirlisi – ərini sevən, ondan dünyaya uşaq gətirən, ona gözəl tərzdə təsəlli verən və Allahdan qorxan qadındır. Onların ən pisi isə açıq-saçıq geyinəni və özünü dartanıdır. Onlar münafiqdirlər. Bəlalərindən ancaq alaqarğa kimi olanları (yəni onların çox azı) Cənnətə girər" (Sunən əl-Beyhəqi, 7/82; Silsilətul-Əhadisis-Səhihə, 1849).

[4] Burada səhabə etdiyi əməlin günah olduğunu etiraf edir.

kəsin möhtac olmadığı Hərranın[1] daşlarındandır. Bunlar yalnız dünya həyatının keçici zövqüdür." Kişi dedi: "Bəs, mən nə cür üzük taxım?" Peyğəmbər ﷺ buyurdu: "Gümüş,[2] yaxud bürünc, yaxud da dəmir[3] üzük tax."[4]

---

[1] Hərra: Mədinə yaxınlığında, istidən qaralmış daş-kəsəklərlə dolu bir sahə.

[2] Gümüş üzük geyməyin caiz olması barədə kifayət qədər "səhih" hədislər varid olmuşdur. Elə əvvəlki hədis də buna dəlalət edir.

[3] Bu, əvvəlki hədisə ziddir. Hədis istilahına görə "zəif" hədisin "həsən" hədisə zidd olması "şazz" hesab edilir və son nəticədə bu, məqbul sayılmır.

[4] Bu hədisin isnadında keçən Abdullah ibn Saleh "zəif", habelə, Əbu Nəcib "məqbul" ravi olduqlarından, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ٤٧٠– بَابُ التَّسْلِيمِ عَلَى الأَمِيرِ

## 470-ci fəsil. Əmirə salam vermək[1]

١٠٢٣– حَدَّثَنَا عَبْدُ الْغَفَّارِ بْنُ دَاوُدَ قَالَ: حَدَّثَنَا يَعْقُوبُ بْنُ عَبْدِ الرَّحْمَنِ، عَنْ مُوسَى بْنِ عُقْبَةَ، عَنِ ابْنِ شِهَابٍ، أَنَّ عُمَرَ بْنَ عَبْدِ الْعَزِيزِ سَأَلَ أَبَا بَكْرِ بْنَ سُلَيْمَانَ بْنِ أَبِي حَثْمَةَ: لِمَ كَانَ أَبُو بَكْرٍ يَكْتُبُ: مِنْ أَبِي بَكْرٍ خَلِيفَةِ رَسُولِ اللهِ، ثُمَّ كَانَ عُمَرُ يَكْتُبُ بَعْدَهُ: مِنْ عُمَرَ بْنِ الْخَطَّابِ خَلِيفَةِ أَبِي بَكْرٍ، مَنْ أَوَّلُ مَنْ كَتَبَ: أَمِيرَ الْمُؤْمِنِينَ؟ فَقَالَ: حَدَّثَتْنِي جَدَّتِي الشِّفَاءُ، وَكَانَتْ مِنَ الْمُهَاجِرَاتِ الْأُوَلِ، وَكَانَ عُمَرُ بْنُ الْخَطَّابِ رَضِيَ اللَّهُ عَنْهُ إِذَا هُوَ دَخَلَ السُّوقَ دَخَلَ عَلَيْهَا، قَالَتْ: كَتَبَ عُمَرُ بْنُ الْخَطَّابِ إِلَى عَامِلِ الْعِرَاقَيْنِ: أَنِ ابْعَثْ إِلَيَّ بِرَجُلَيْنِ جَلْدَيْنِ نَبِيلَيْنِ، أَسْأَلُهُمَا عَنِ الْعِرَاقِ وَأَهْلِهِ، فَبَعَثَ إِلَيْهِ صَاحِبُ الْعِرَاقَيْنِ بِلَبِيدِ بْنِ رَبِيعَةَ، وَعَدِيِّ بْنِ حَاتِمٍ، فَقَدِمَا الْمَدِينَةَ فَأَنَاخَا رَاحِلَتَيْهِمَا بِفِنَاءِ الْمَسْجِدِ، ثُمَّ دَخَلَا الْمَسْجِدَ فَوَجَدَا عَمْرَو بْنَ الْعَاصِ، فَقَالَا لَهُ: يَا عَمْرُو، اسْتَأْذِنْ لَنَا عَلَى أَمِيرِ الْمُؤْمِنِينَ عُمَرَ، فَوَثَبَ عَمْرٌو فَدَخَلَ عَلَى عُمَرَ فَقَالَ: السَّلَامُ عَلَيْكَ يَا أَمِيرَ الْمُؤْمِنِينَ، فَقَالَ لَهُ عُمَرُ: مَا بَدَا لَكَ فِي هَذَا الِاسْمِ يَا ابْنَ الْعَاصِ؟ لَتَخْرُجَنَّ مِمَّا قُلْتَ، قَالَ: نَعَمْ، قَدِمَ لَبِيدُ بْنُ رَبِيعَةَ، وَعَدِيُّ ابْنُ حَاتِمٍ، فَقَالَا لِي: اسْتَأْذِنْ لَنَا عَلَى أَمِيرِ الْمُؤْمِنِينَ، فَقُلْتُ: أَنْتُمَا وَاللَّهِ أَصَبْتُمَا اسْمَهُ، وَإِنَّهُ الأَمِيرُ، وَنَحْنُ الْمُؤْمِنُونَ. فَجَرَى الْكِتَابُ مِنْ ذَلِكَ الْيَوْمِ.

**(1023)** ........ İbn Şihab rəvayət etmişdir ki, *bir dəfə* Ömər ibn Abdul-Aziz Əbu Bəkr ibn Suleymandan soruşdu: "Nə üçün Əbu Bəkr məktublarında: "Rəsulullahın ﷺ xəlifəsi Əbu Bəkrdən!" ondan sonra gələn Ömər də: "Əbu Bəkrin xəlifəsi Ömərdən!" yazardı? İlk dəfə öz məktubunda: "Möminlərin əmiri!" *ifadəsini* yazan kim olmuşdur?" Əbu Bəkr dedi: "*Bu haqda* nənəm Şifa[2] mənə danışıb. O, ilk mühacirlərdən olmuş və Ömər ibn Xattab hər

---

[1] Yəni əmirə salam verdikdə, ona necə müraciət edilməlidir?

[2] Şifa bint Abdullah رضي الله عنها Peyğəmbərin ﷺ səhabəsidir.

dəfə bazara gəldikdə, ona baş çəkərmiş. Nənəm belə rəvayət etmişdir: "Ömər ibn Xattab Kufə və Bəsrə valilərinə:[1] "Mənim yanıma əsilzadə[2] və güc sahibi olan iki nəfər göndərin ki, onlardan İraq və onun xalqı barədə soruşum"– deyə məktub yazdı." Kufə və Bəsrə valiləri onun yanına Ləbid ibn Rabiəni və Adiy ibn Hatimi göndərdilər. Onlar Mədinəyə gəlib çatdıqda dəvələrini məscidin həyətində yerə çökdürdülər. Sonra məscidə daxil olub, orada Amr ibn əl-Ası gördülər. Onlar ona dedilər: "Ey Amr, möminlərin əmiri Ömərin yanına girməyimiz üçün ondan izin istə." Amr dərhal qalxıb Ömərin yanına girdi və: "Sənə salam olsun, ey möminlərin əmiri!"[3]– dedi. Ömər ondan soruşdu: "Ey Asın oğlu, bu ad sənin ağlına haradan gəldi? Dediyindən dönəcəksən, *ya da bunu əsaslandıracaqsan*!" Amr ibn əl-As dedi: "Yaxşı, *deyim, biləsən*. Ləbid ibn Rabiə və Adiy ibn Hatim gəlib mənə dedilər: "Möminlərin əmirinin yanına girməyimiz üçün

---

[1] Vali – keçmişdə: vilayət hakimi, bir vilayəti idarə edən vəzifəli şəxs.

[2] Əsilzadə: əsil-nəcabətli, zadəgan, kübar. Bu, dəlildir ki, hər hansı bir məmləkət və onun xalqı barədə və ya başqa bu kimi ciddi məsələlərdə hər yoldan keçənin rəyinə əsaslanmaq olmaz, əksinə, belə işlərdə həyat təcrübəsi və dünya görüşü olan kimsələrlə məsləhətləşmək gərəkdir. Buna aşağıdakı rəvayəti də misal çəkmək olar:

Rəvayət edilir ki, Cubeyr ibn Heyyə demişdir: "Ömər ﷺ müşriklərlə vuruşmaq üçün *müxtəlif* ölkələrə ordular göndərirdi. *Axırda* Hurmuzan İslamı qəbul etdi və *Ömər ona* dedi: "Mən bu döyüşlərim barədə səninlə məşvərət etmək istəyirəm." Hurmuzan dedi: "Düzünə qalsa, döyüşdüyünüz bu ölkələrlə orada yaşayan və müsəlmanlara düşmən olan insanlar, bir başı, iki qanadı və iki ayağı olan quşa bənzəyir. Quşun qanadlarından biri qoparılsa belə, o, iki ayağı, bir qanadı və başı ilə *yenidən* dirçələr. O biri qanadı da qoparılarsa, ayaqları və başı *sayəsində* yaşamağa davam edər. Hərgah başını bədənindən ayırsanız, onda qanadlar da, ayaqlar da, baş da faydasız bir şeyə çevrilər. *Məlumun olsun ki, quşun* başı Xosrovdur, qanadlarından biri Qeysər, digəri isə farslardır. Müsəlmanlara əmr et, xosrovun üstünə getsinlər!" Bundan sonra Ömər *qoşun hazırladı,* Nomən ibn Müqərrini bizə başçı təyin etdi və *bizi Xosrovun üstünə göndərdi*..." (Səhih əl-Buxari, 3160).

[3] Hədisin bu yeri İmam Buxarinin bu fəslə verdiyi ünvana aid olan tərəfidir. Belə ki, əmirə salam verdikdə, ona ləqəbi ilə müraciət etmək bəyənilən əməllərdəndir.

ondan izin istə." Mən də onlara dedim: "Vallahi, siz onun adını doğru söylədiniz. Heç şübhəsiz ki, o, əmirdir, biz də möminlər."

Və elə o gündən bəri məktublarda *"möminlərin əmiri"* yazılmağa başladı.[1]

**١٠٢٤–** حَدَّثَنَا أَبُو الْيَمَانِ قَالَ: أَخْبَرَنَا شُعَيْبٌ، عَنِ الزُّهْرِيِّ قَالَ: أَخْبَرَنِي عُبَيْدُ اللَّهِ بْنُ عَبْدِ اللَّهِ قَالَ: قَدِمَ مُعَاوِيَةُ حَاجًّا حِجَّتَهُ الْأُولَى وَهُوَ خَلِيفَةٌ، فَدَخَلَ عَلَيْهِ عُثْمَانُ بْنُ حُنَيْفٍ الأَنْصَارِيُّ فَقَالَ: السَّلاَمُ عَلَيْكَ أَيُّهَا الأَمِيرُ وَرَحْمَةُ اللهِ، فَأَنْكَرَهَا أَهْلُ الشَّامِ وَقَالُوا: مَنْ هَذَا الْمُنَافِقُ الَّذِي يُقَصِّرُ بِتَحِيَّةِ أَمِيرِ الْمُؤْمِنِينَ؟ فَبَرَكَ عُثْمَانُ عَلَى رُكْبَتِهِ ثُمَّ قَالَ: يَا أَمِيرَ الْمُؤْمِنِينَ، إِنَّ هَؤُلاَءِ أَنْكَرُوا عَلَيَّ أَمْرًا أَنْتَ أَعْلَمُ بِهِ مِنْهُمْ، فَوَاللَّهِ لَقَدْ حَيَّيْتُ بِهَا أَبَا بَكْرٍ وَعُمَرَ وَعُثْمَانَ، فَمَا أَنْكَرَهُ مِنْهُمْ أَحَدٌ، فَقَالَ مُعَاوِيَةُ لِمَنْ تَكَلَّمَ مِنْ أَهْلِ الشَّامِ: عَلَى رِسْلِكُمْ، فَإِنَّهُ قَدْ كَانَ بَعْضُ مَا يَقُولُ، وَلَكِنَّ أَهْلَ الشَّامِ قَدْ حَدَثَتْ هَذِهِ الْفِتَنُ، قَالُوا: لاَ تُقَصَّرُ عِنْدَنَا تَحِيَّةُ خَلِيفَتِنَا، فَإِنِّي إِخَالُكُمْ يَا أَهْلَ الْمَدِينَةِ تَقُولُونَ لِعَامِلِ الصَّدَقَةِ: أَيُّهَا الأَمِيرُ.

**(1024)** ........ Ubeydullah ibn Abdullah demişdir: "Muaviyə xəlifə ikən ilk həcc ziyarətinə gəldiyi zaman[2] Osman ibn Huneyf əl-Ənsari[3] onun hüzuruna daxil oldu. O dedi: "Sənə salam olsun və Allahın rəhməti yetişsin, ey əmir!"[4] Şam əhli bunu inkar edib dedi: "Möminlərin əmirinə naqis şəkildə salam verən bu münafiq kimdir?"[5] *Bunu eşidəndə* Osman dizi üstə

---

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[2] Bu, o demək deyil ki, Muaviyə ibn Əbu Sufyan ﵁ bundan əvvəl həcc ziyarətini yerinə yetirməmişdir. Sadəcə olaraq, bu ziyarət onun xəlifə olduqdan sonra yerinə yetirdiyi ilk həcc ziyarəti olmuşdur. Yoxsa ki, o, hicrətin 10-cu ilində Peyğəmbərlə ﷺ birlikdə həcc ziyarətində olmuş və bundan sonra dəfələrlə bu ziyarəti yerinə yetirmişdir.

[3] Osman ibn Huneyf ibn Vahib əl-Ənsari əl-Ovsi ﵁ Peyğəmbərin ﷺ səhabəsidir. Bədr döyüşündə iştirak etmişdir (Siyər Əlam ən-Nubələ, 61-ci tərcümeyi-hal).

[4] Hədisin bu yeri fəsilin ünvanına aid olan tərəfidir.

[5] Çünki onlar Muaviyəyə ﵁ "Ya əmirul-muminin (ey möminlərin əmiri)!"– deyə müraciət edirdilər.

oturub dedi: “Ey möminlərin əmiri,[1] onlar mənə elə bir şeyi irad tuturlar ki, sən bunu onlardan yaxşı bilirsən. Vallahi, mən bu salamla Əbu Bəkri, Öməri və Osmanı salamlamışam. Onlardan heç biri bunu inkar etməyib. *Onda,* Muaviyə *Osmana* irad tutan şamlılara dedi: “Dayanın görüm! Heç şübhəsiz ki, onun dediklərinin bəzisi baş vermişdir.”

Lakin həmin şamlılar bu fitnəni ortaya salıb dedilər: “Bizim yanımızda xəlifəmizə naqis şəkildə salam vermə, ey mədinəli! Güman edirik ki, siz zəkat toplayanlara da: “Ey əmir!”– deyə müraciət edirsiniz.”[2]

**١٠٢٥-** حَدَّثنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثنَا سُفْيَانُ، عَنْ مُحَمَّدِ بْنِ الْمُنْكَدِرِ، عَنْ جَابِرٍ قَالَ: دَخَلْتُ عَلَى الْحَجَّاجِ فَمَا سَلَّمْتُ عَلَيْهِ.

**(1025)** ........ Cabir ﷺ demişdir: “Mən Həccacın yanına girdim və ona salam vermədim.[3]”[4]

**١٠٢٦-** حَدَّثنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثنَا أَبُو عَوَانَةَ، عَنْ مُغِيرَةَ، عَنْ سِمَاكِ بْنِ سَلَمَةَ الضَّبِّيِّ، عَنْ تَمِيمِ بْنِ حَذْلَمٍ قَالَ: إِنِّي لَأَذْكُرُ أَوَّلَ مَنْ سُلِّمَ عَلَيْهِ بِالإِمْرَةِ بِالْكُوفَةِ، خَرَجَ الْمُغِيرَةُ بْنُ شُعْبَةَ مِنْ بَابِ الرَّحَبَةِ، فَجَاءَهُ رَجُلٌ مِنْ كِنْدَةَ، زَعَمُوا أَنَّهُ : أَبُو قُرَّةَ الْكِنْدِيُّ، فَسَلَّمَ عَلَيْهِ، فَقَالَ: السَّلاَمُ عَلَيْكَ أَيُّهَا الأَمِيرُ وَرَحْمَةُ اللَّهِ، السَّلاَمُ عَلَيْكُمْ، فَكَرِهَهُ، فَقَالَ: السَّلاَمُ عَلَيْكَ أَيُّهَا الأَمِيرُ وَرَحْمَةُ اللَّهِ، السَّلاَمُ عَلَيْكُمْ، هَلْ أَنَا إِلاَّ مِنْهُمْ، أَمْ لاَ؟ قَالَ سِمَاكٌ: ثُمَّ أَقَرَّ بِهَا بَعْدُ.

---

[1] Səhabə bu hərəkəti ilə Muaviyəyə ﷺ qarşı qəlbində kin olmadığını bildirmək istəyir.

[2] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “səhih” olduğunu demişdir.

[3] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “səhih” olduğunu demişdir.

[4] Cabir ﷺ Həccacın yanlış yol tutduğunu ona bildirmək və qismən də olsa, onun zülmünün qarşısını almaq məqsədilə ona salam verməmişdir.

**(1026)** ........ Təmim ibn Həzləm demişdir: “Mən Kufədə ilk: “Ey əmir!”– deyə salam verilən adamı xatırlayıram. Muğira ibn Şobə[1] Rahbə qapısından çıxarkən Kində qəbiləsindən olan Əbu Qurra əl-Kindi adlı birisi ona yaxınlaşdı və salam verib dedi: “Sənə salam olsun və Allahın rəhməti yetişsin, ey əmir! Sizə salam olsun!” Bu söz Muğirənin xoşuna gəlmədi və (etirazını bildirib) dedi: “Sənə salam olsun və Allahın rəhməti yetişsin, ey əmir! Sizə salam olsun” nədir?![2]” Məgər mən onlardan biriyəm ki?!”

Simak[3] demişdir: “(Bu hadisədən bir müddət) sonra Muğira bu cür müraciət etməyin doğru olduğunu təsdiqləmişdir.”[4]

**١٠٢٧–** حَدَّثَنَا مُحَمَّدٌ، قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ قَالَ: أَخْبَرَنَا حَيْوَةُ بْنُ شُرَيْحٍ قَالَ: حَدَّثَنِي زِيَادُ بْنُ عُبَيْدٍ، بَطْنٌ مِنْ حِمْيَرٍ، قَالَ: دَخَلْنَا عَلَى رُوَيْفِعٍ، وَكَانَ أَمِيرًا عَلَى أَنْطَابُلُسَ، فَجَاءَ رَجُلٌ فَسَلَّمَ عَلَيْهِ، فَقَالَ: السَّلاَمُ عَلَى الأَمِيرِ، وَعَنْ عَبْدَةَ، ثُمَّ قَالَ: السَّلاَمُ عَلَيْكَ أَيُّهَا الأَمِيرُ، فَقَالَ لَهُ رُوَيْفِعٌ: لَوْ سَلَّمْتَ عَلَيْنَا لَرَدَدْنَا عَلَيْكَ السَّلاَمَ، وَلَكِنْ إِنَّمَا سَلَّمْتَ عَلَى مَسْلَمَةَ بْنِ مُخَلَّدٍ، وَكَانَ مَسْلَمَةُ عَلَى مِصْرَ، اذْهَبْ إِلَيْهِ فَلْيَرُدَّ عَلَيْكَ السَّلاَمَ.

قَالَ زِيَادٌ : وَكُنَّا إِذَا جِئْنَا فَسَلَّمْنَا وَهُوَ فِي الْمَجْلِسِ قُلْنَا : السَّلاَمُ عَلَيْكُمْ.

**(1027)** ........ Heyva ibn Şureyh rəvayət edir ki, Himyərdən olan Ziyad ibn Ubeyd demişdir: “*Bir dəfə* biz Əntabulusun[5] əmiri Ruveyfinin yanına

---

[1] Əbu İsa Muğira ibn Şobə ibn Əbu Amir ﷺ Peyğəmbərin ﷺ səhabəsidir.

[2] Yanlış söz söyləyən adamın xətaya yol verdiyini ona bildirmək üçün onun dediyi sözü təkrar edərək, ona etiraz etmək üslubu, Peyğəmbərin ﷺ öz səhabələrinə öyrətdiyi bir üslubdur (1086-cı hədisə bax).

[3] Simak ibn Sələmə əd-Dabdi hədisin ravilərindən biridir.

[4] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “səhih” olduğunu demişdir.

[5] Əntabulus: İskəndəriyyə yaxınlığında yerləşən şəhər.

gəldik. Biz onun yanında ikən bir nəfər gəlib: "Əmirə salam olsun!"– deyə onu salamladı." Abdə rəvayət edir ki, sonra o dedi: "Sənə salam olsun, ey əmir!"[1] Ruveyfi ona dedi: "Əgər sən hamımıza salam versəydin, biz sənin salamını alardıq.[2] Lakin sən Məsləmə ibn Muxallidə salam verdin. (O vaxt Məsləmə Misirin əmiri idi.) Elə isə, get onun yanına, sənin salamını alsın."

Ziyad demişdir: "*Bu hadisədən sonra* biz hər dəfə Ruveyfinin məclisinə gəldikdə: "Sizə salam olsun!"– deyə *hamını* salamlayardıq."[3]

---

[1] Ola bilsin ki, bu, ayrı-ayrı isnadlarla varid olmuş, birində "Əssəlamu aləl-əmir", digərində isə "Əssəlamu aleykə əyyuhəl-əmir" deyə rəvayət edilmişdir.

[2] Ruveyfi demək istəyir ki, "Hərgah sən "Əssəlamu aleykum" desəydin, biz sənə "va aleykumussəlam" deyərdik."

[3] Bu hədisin isnadında keçən Ziyad ibn Ubeyd "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ٤٧١- بَابُ التَّسْلِيمِ عَلَى النَّائِمِ

## 471-ci fəsil. Yatan adama[1] salam vermək

١٠٢٨- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ الْمُغِيرَةِ قَالَ: حَدَّثَنَا ثَابِتٌ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ أَبِي لَيْلَى، عَنِ الْمِقْدَادِ بْنِ الأَسْوَدِ قَالَ: كَانَ النَّبِيُّ ﷺ يَجِيءُ مِنَ اللَّيْلِ، فَيُسَلِّمُ تَسْلِيمًا لاَ يُوقِظُ نَائِمًا، وَيُسْمِعُ الْيَقْظَانَ.

**(1028)** ........ Miqdad ibn Əsvəd ؓ demişdir: "Peyğəmbər ﷺ gecə vaxtı gəlib salam verərkən (səsini qaldırıb) yatanları oyatmaz, (lakin asta səslə) *onu* oyaq qalanlara eşitdirərdi.[2]"[3]

---

[1] Burada "yatan adama" deyildikdə, yatmış adamın yanındakılar nəzərdə tutulur.

[2] Peyğəmbərin ﷺ bu ali əxlaqı İslam dininin gözəlliyini və kamilliyini bir daha sübuta yetirir. Bundan da aydın olur ki, aralarında yatmış adam olan bir topluma salam vermək istəyən kəs, bu salamı orta səslə verməlidir.

[3] Bu hədisi Muslim (2055) və Əhməd (6/3) rəvayət etmişdir.

## ٤٧٢- بَابُ حَيَّاكَ اللَّهُ

## **472-ci fəsil.** (Birisinə) **"Həyyakəllah!"** (demək)[1]

---

[1] Mubarək ibn Muhəmməd əl-Cəzəri demişdir: "Həyyakəllah: "Allah sənə ömür versin!" deməkdir. Bəzi şərhçilər bu sözün: "Allah üzünü ağ eləsin!", bəziləri bunun "Sənə sərvət bəxş etsin və səni sevindirsin!", bəziləri də bunun "Sənə əmin-amanlıq nəsib etsin!" kimi mənalar ifadə etdiyini demişlər" (1/1106).

Hərçənd sələflər bir-birinə "Həyyakəllah!"– deyərdilər, lakin nə görüşdükdə, nə də vidalaşdıqda ilk əvvəl bu duanı deməzdilər. Çünki Sünnəyə görə görüşəndə də, vidalaşanda da salam vermək gərəkdir. Bundan sonra isə istənilən xeyirli duanı etmək caizdir. Bundan da aydın olur ki, adam istər görüşəndə, istərsə də vidalaşanda ilk əvvəl "Əssəlamu aleykum!" əvəzinə, "Həyyakəllah!" yaxud "Əhlən və səhlə!" yaxud "Mərhəba!" və başqa bu kimi sözlər deyərsə, hətta bunu min dəfə desə belə, öhdəsinə düşən vacibi yerinə yetirməmiş, üstəlik, Sünnəyə zidd hərəkət etmiş sayılar. "Əssəlamu aleykum!" deyən adama "Həyyakəllah!" deməyin günahı daha böyükdür. Belə ki, Uca Allah Quranda möminlərə salamı daha böyük ehtiramla yaxud olduğu kimi almağı buyurur: **"Biri sizinlə salamlaşdığı zaman siz onun salamını daha böyük ehtiramla alın və ya *verilən salamı olduğu kimi* qaytarın!"** (ən-Nisa, 86). İbn Useymin bu ayəni şərh edərkən demişdir: "Əgər birisi sənə "Əssəlamu aleyk!" desə, sən ona "Aleykəssəlam!" de və bundan heç nə əksiltmə. Əgər "Əssəlamu aleykə və rahmətullah!" deyərsə, sən "Aleykəssəlam və rahmətullah!" de. Əgər "Əssəlamu aleykə və rahmətullahi və bərəkatuh!" deyərsə, sən "Aleykəssəlam və rahmətullahi və bərəkatuh!" de. Bütün bunlar vacibdir, çünki Uca Allah ayədə "***verilən salamı olduğu kimi* qaytarın!**"– deyə əmr edir. Və əgər adam sənə "Əssəlamu aleyk!" desə, sən də ona "Aleykəssəlam və rahmətullah!" desən, daha gözəl və daha əfzəl olanı yerinə yetirmiş olarsan. Lakin bunu etmək vacib deyildir. Vacib olan budur ki, verilən salamı ən azı olduğu kimi alasan. Uca Allahın "**daha böyük ehtiramla alın**" sözü bu salamın həm növünü, həm kəlmələrinin sayını, həm də necəliyini əhatə edir. Məsələn, birisi sənə "Əssəlamu aleyk!" desə, sən da ona "Əhlən və mərhabən biəbi fulan, həyyakəllahu və bəyyak!" desən, boynuna düşən vacibi yerinə yetirmiş sayılmayacaqsan. Hətta bu sözü min kərə desən belə, yenə bunun sənə heç bir faydası olmayacaq və əksinə, günah qazanacaqsan. Çünki bu cavabınla sən boynuna düşən vacibi nə olduğu kimi qaytarmış, nə də ki, onu daha böyük ehtiramla qaytarmış sayılacaqsan. Belə ki, o, sənə "Əssəlamu aleyk!" deyəndə, sənin üçün həm dua edir – sənə salamatlıq diləyir, həm də səni salamlayır. Sən isə ona "Əhlən və mərhəba!" deməklə onu sadəcə salamlayırsan ki, bu da, duasız

١٠٢٩– حَدَّثَنَا عَمْرُو بْنُ عَبَّاسٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ، عَنْ سُفْيَانَ، عَنْ أَبِيهِ، عَنِ الشَّعْبِيِّ، أَنَّ عُمَرَ قَالَ لِعَدِيِّ بْنِ حَاتِمٍ: حَيَّاكَ اللَّهُ مِنْ مَعْرِفَةٍ.

**(1029)** ........ Şəbi rəvayət edir ki, Ömər (ibn Xattab) Adiy ibn Hatimi tanıdığından dolayı ona: “Allah sənə ömür versin!”– demişdir.[1]

---

salamlama sayılır. Odur ki, salamın növünü olduğu kimi, yaxud bundan da gözəl tərzdə qaytarmaq gərəkdir. Kəlmələrinin sayında da həmçinin, bunu olduğu kimi və ya daha gözəl tərzdə qaytarmaq lazımdır. Və əgər adam sənə “Əssəlamu aleykə və rahmətullah!” desə, sənin ona sadəcə “Aleykəssəlam!” deməyin caiz hesab olunmur. Çünki sən bununla onun salamını nə daha böyük ehtiramla almış, nə də olduğu kimi qaytarmış sayılırsan. Bu salamı olduğu kimi qaytarmaq labüddür. Həmçinin, keyfiyyət baxımından da, bu qaydaya riayət etmək gərəkdir. Və əgər adam sənə aydın və uca səslə salam verirsə, sənin bu salamı mızıldanaraq almağın nöqsan sayılır. Habelə, əgər adam üzünü sənə tərəf tutub, üstəlik, gülərüzlə sənə salam verirsə, sənin ondan üz çevirərək və üz-gözünü turşudaraq salam verməyin yenə nöqsan sayılır. Beləliklə, sən onun salamını nə daha böyük ehtiramla almış, nə də olduğu kimi qaytarmış sayılırsan. Bu möhtəşəm ayədən o da aydın olur ki, əgər kafirlərdən biri səni salamlayıb, aydın ifadə ilə “Əssəlamu aleyk!” desə, ona “Və aleykəssəlam!” deyə bilərsən. Çünki bunu deməklə onun salamını olduğu kimi qaytarmış hesab edilərsən. Qaldı ki Peyğəmbərin ﷺ: “Kitab əhli sizə salam verdiyi zaman siz onlara: “Və aleykum!”– deyin”, yəni onlara: “Və aleykumussəlam!”– deməyin sözünə, Peyğəmbər ﷺ bunun səbəbini həmin hədisdə açıqlayıb demişdir: “Yəhudilər salam verdikdə: “Əssamu aleykum”, yəni “Sizə ölüm olsun!”– deyə sizə bəddua edirlər. Siz də onlara: “Və aleykum (sizin üzünüzə olsun)!”– deyin.” Bu hədisdən aydın olur ki, əgər onlar: “Əssəlamu aleykum”– desələr, biz onlara: “Və aleykumussəlam”– deyə cavab veririk. Çünki Uca Allah buyurur: **“Biri sizinlə salamlaşdığı zaman siz onun salamını daha böyük ehtiramla alın və ya *verilən salamı olduğu kimi* qaytarın!”** (Şərh Riyadus-Salihin, 1/956).

[1] Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “munqəti” olduğunu demişdir. Çünki Şəbi Ömər ibn Xattabı görməmişdir. Lakin qeyd edək ki, bu sözü deməkdə heç bir qəbahət yoxdur.

## ٤٧٣- بَابُ مَرْحَبًا

## 473-cü fəsil. (Birisinə) "Mərhəba!" (demək)[1]

١٠٣٠- حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا زَكَرِيَّا، عَنْ فِرَاسٍ، عَنْ عَامِرٍ، عَنْ مَسْرُوقٍ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: أَقْبَلَتْ فَاطِمَةُ تَمْشِي كَأَنَّ مِشْيَتَهَا مَشْيُ النَّبِيِّ ﷺ، فَقَالَ: ((مَرْحَبًا بِابْنَتِي))، ثُمَّ أَجْلَسَهَا عَنْ يَمِينِهِ، أَوْ عَنْ شِمَالِهِ.

**(1030)** ........ Aişə ﵂ demişdir: "*Bir dəfə* Fatimə Peyğəmbərin ﷺ yerişinə bənzər yerişlə onun yanına gəldi və Peyğəmbər ﷺ *ona*: "Xoş gəldin, qızım"– dedi, sonra da onu sağ tərəfində, yaxud sol tərəfində otuzdurdu."[2]

١٠٣١- حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ أَبِي إِسْحَاقَ، عَنْ هَانِئِ بْنِ هَانِئٍ، عَنْ عَلِيٍّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: اسْتَأْذَنَ عَمَّارٌ عَلَى النَّبِيِّ ﷺ، فَعَرَفَ صَوْتَهُ، فَقَالَ: ((مَرْحَبًا بِالطَّيِّبِ الْمُطَيَّبِ)).

**(1031)** ........ Əli (ibn Əbu Talib) ﵁ demişdir: "Ammar[3] Peyğəmbərin ﷺ yanına daxil olmaq üçün izin istədi. Peyğəmbər ﷺ onu səsindən tanıyıb dedi: "Safqəlbli təmiz olan kimsə xoş gəlib!"[4]

---

[1] Mərhəba: xoş gəlmişsiniz deməkdir. Bu da, salam verildikdən sonra deyilir. Peyğəmbər ﷺ hərdən belə sözlərdən istifadə edərdi. Hədislərin birində rəvayət edilir ki, Peyğəmbər ﷺ Abdul-Qeys *qəbiləsinin* nümayəndələrinə: "Xoş gəlmişsiniz! Allah sizi utandırmasın, peşman eləməsin!"– demişdir (Səhih əl-Buxari, 53). Belə gözəl kəlmələr sədəqə sayılır və bir-birini sevən müsəlmanlar arasında olan məhəbbəti artırır (422-ci hədisə və onun qeydlərinə bax).

[2] 947-ci hədisə və onun qeydlərinə bax.

[3] Ammar ibn Yasir ibn Amir ibn Malik əl-Ansi ﵁ İslam dinini ilk əvvəl qəbul etmiş səhabələrdəndir. Onun tərifəlayiq xüsusiyyəti barədə varid olmuş hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Cənnət üç nəfər üçün darıxır: "Əli *ibn Əbu Talib,* Ammar *ibn Yasir* və Salman *Farisi*" (Mustədrək, 3/148; "Səhih əl-Cami", 1/331).

[4] Bu hədisi Tirmizi (3798), İbn Macə (146 və 147), Əhməd (1/99; 125; 130), İbn Hibban (7075), İbn Əbu Şeybə (32909), Əbu Yə'la (403) rəvayət etmişdir. Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demiş, lakin bir müddət sonra hədisin "zəif" olduğunu bildirmişdir (bax: Silsilətul-Əhadisid-Daifə, 5594 və Təracuat əl-Əllamə əl-Albani fit-Təshih vət-Tədif, 62).

## ٤٧٤ – بَاب كَيْفَ رَدُّ السَّلامِ؟

## 474-cü fəsil. Salamı necə almalı?

١٠٣٢– حَدَّثَنَا يَحْيَى بْنُ سُلَيْمَانَ قَالَ: حَدَّثَنِي ابْنُ وَهْبٍ قَالَ: أَخْبَرَنِي حَيْوَةُ، عَنْ عُقْبَةَ بْنِ مُسْلِمٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو قَالَ: بَيْنَمَا نَحْنُ جُلُوسٌ عِنْدَ النَّبِيِّ ﷺ فِي ظِلِّ شَجَرَةٍ بَيْنَ مَكَّةَ وَالْمَدِينَةِ، إِذْ جَاءَ أَعْرَابِيٌّ مِن أَجْلَفِ النَّاسِ وَأَشَدِّهِمْ فَقَالَ: السَّلامُ عَلَيْكُمْ، فَقَالُوا: وَعَلَيْكُمُ السَّلامُ.

**(1032)** ........ Abdullah ibn Amr ﵄ demişdir: “Bir gün biz Peyğəmbərin ﷺ yanında, Məkkə ilə Mədinə arasında yerləşən bir ağacın kölgəsində oturmuşduq. Birdən ən kobud və ən sərt insanlardan olan bir bədəvi gəlib: “Əssəlamu aleykum![1]”– dedi. *Səhabələr də ona*: “Və aleykumussəlam![2]”– deyə cavab verdilər.”[3]

١٠٣٣– حَدَّثَنَا حَامِدُ بْنُ عُمَرَ قَالَ: حَدَّثَنَا أَبُو عَوَانَةَ، عَنْ أَبِي جَمْرَةَ، سَمِعْتُ ابْنَ عَبَّاسٍ إِذَا سُلِّمَ عَلَيْهِ يَقُولُ: وَعَلَيْكَ، وَرَحْمَةُ اللَّهِ.

**(1033)** ........ Əbu Cəmra demişdir: “İbn Abbasa salam verildikdə, mən onun “Və aleykə və rahmətullah![4]”– dediyini eşitmişəm.”[5]

١٠٣٤– قَالَ أَبُو عَبْدِ اللَّهِ: وَقَالَتْ قَيْلَةُ: قَالَ رَجُلٌ: السَّلامُ عَلَيْكَ يَا رَسُولَ اللَّهِ، قَالَ: ((وَعَلَيْكَ السَّلاَمُ وَرَحْمَةُ اللَّهِ)).

---

[1] Sizə salam olsun!

[2] Sizə də salam olsun!

[3] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “səhih” olduğunu demişdir.

[4] Sənə də olsun, Allahın rəhməti sənə yetişsin!

[5] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “səhih” olduğunu demişdir.

**(1034)** Əbu Abdullah demişdir: "Qaylə[1] rəvayət edir ki, bir nəfər Peyğəmbərə ﷺ: "Sənə salam olsun, ya Rəsulullah!"– dedi. Peyğəmbər ﷺ də ona: "Sənə də salam olsun və Allahın rəhməti yetişsin!"– deyə cavab verdi.[2]

**١٠٣٥–** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مَسْلَمَةَ قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ الْمُغِيرَةِ، عَنْ حُمَيْدِ بْنِ هِلَالٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ الصَّامِتِ، عَنْ أَبِي ذَرٍّ قَالَ: أَتَيْتُ النَّبِيَّ ﷺ حِينَ فَرَغَ مِنْ صَلَاتِهِ، فَكُنْتُ أَوَّلَ مَنْ حَيَّاهُ بِتَحِيَّةِ الْإِسْلَامِ، فَقَالَ: ((وَعَلَيْكَ، وَرَحْمَةُ اللَّهِ، مِمَّنْ أَنْتَ؟)) قُلْتُ: مِنْ غِفَارٍ.

**(1035)** ........ Abdullah ibn Samit rəvayət edir ki, Əbu Zərr رضي الله عنه demişdir: "(Bir gün) Peyğəmbər ﷺ namazını bitirdikdə mən onun yanına gəldim və hamıdan qabaq onu İslam salamı ilə[3] salamlayan kimsə mən oldum.[4] O

---

[1] Qaylə bint Məxrəmə رضي الله عنها Peyğəmbərin ﷺ səhabəsidir (Şəmailun-Nəbi, 66).

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "həsən-səhih" olduğunu demişdir.

[3] Bu hədisi Muslim (2473), İbn Hibban (7133), Bəzzar (3948), İbn Əbu Şeybə (18447), Beyhəqi (əl-Kubra, 9441) və Təyalisi (458) rəvayət etmişdir.

[4] Sual verilə bilər ki, "Namaz əsnasında salam vermək caizdirmi?" Cavabı budur ki, Əbu Davudun bu xüsusda, rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "Nə namazda, nə da salamda naqislik olmamalıdır." İmam Əbu Davud bu hədisi nəql etdikdən sonra demişdir: "İmam Əhməd demişdir: "Düşünürəm ki, sən namaz qıldıqda nə bir kimsəyə salam verməli, nə də sənə salam verilməlidir. Yoxsa, adam namazda çaş-baş qalar, namazı şəkk işində bitirmiş olar" (Sunən Əbu Davud, 928). Bəs, əgər birisinə namaz əsnasında salam verilərsə, onda, o, nə etməlidir? Mərvəzi demişdir: "Mən İmam Əhməddən soruşdum: "Namaz qılan bir camaata salam vermək olarmı?" O: "Bəli!"– deyə cavab verdi və bu hədisi danışdı: rəvayət edilir ki, İbn Ömər رضي الله عنهما demişdir: "Rəsulullah ﷺ Quba məscidinə gedib namaz qıldı. Bu əsnada ənsar Rəsulullahın ﷺ yanına gəldi və o, namazda ikən ona salam verdilər. Mən Bilaldan: "Rəsulullah ﷺ namazda ikən onların salamını necə aldı?"– deyə soruşdum. Bilal: "O, belə edərdi"– dedi və əli ilə işarə etdi." *Hədisin ravisi* Cəfər ibn Avn əli ilə – əlinin içini aşağıya doğru, üstünü isə yuxarıya doğru hərəkət etdirməklə işarə etdi (Sunən Əbu Davud, 927; Sunən ət-Tirmizi, 2/204; Musnəd İmam Əhməd, 2/30; Silsilətul Əhadisis-Səhihə, 185). İshaq ibn Rahuyə də, həmçinin, belə cavab vermişdir (əl-Məsail, 22; Silsilətul Əhadisis-Səhihə, 1/360). Yenə sual verilə bilər ki, "Quran oxu-

dedi: “Və aleykə və rahmətullah![1] Sən kimlərdənsən?” Dedim: “*Mən* Ğifar qəbiləsindənəm.”[2]

**١٠٣٦-** حَدَّثَنَا عَبْدُ اللَّهِ قَالَ: حَدَّثَنِي اللَّيْثُ قَالَ: حَدَّثَنِي يُونُسُ، عَنِ ابْنِ شِهَابٍ أَنَّهُ قَالَ: قَالَ أَبُو سَلَمَةَ، أَنَّ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((يَا عَائِشُ، هَذَا جِبْرِيلُ، وَهُوَ يَقْرَأُ عَلَيْكِ السَّلاَمَ))، قَالَتْ: فَقُلْتُ: وَعَلَيْهِ السَّلاَمُ وَرَحْمَةُ اللَّهِ وَبَرَكَاتُهُ، تَرَى مَا لاَ أَرَى. تُرِيدُ بِذَلِكَ رَسُولَ اللَّهِ ﷺ.

**(1036)** ........ Aişə ﵂ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: “Ey Aiş! Bu, Cəbraildir. O sənə salam söyləyir.” Mən dedim: “Və aleyhissəlam və rahmətullahi və bərəkatuhu![3]” Sən mənim görə bilmədiyimi görürsən.”

---

yan adama salam verməк caizdirmi?” Cavabı budur ki, bu xüsusda, varid olmuş hədisdə Uqbə ibn Amir əl-Cuhəni ﵁ demişdir: “*Bir dəfə* biz məsciddə oturub Quran oxuyurduq. *Elə bu vaxt* Rəsulullah ﷺ *məscidə* daxil olub bizə salam verdi və biz də onun salamını aldıq. Sonra Rəsulullah ﷺ *bizə* belə buyurdu: “Allahın Kitabını öyrənin, içində buyurulanlara əməl edin və onu avazla oxuyun! Muhəmmədin canı Əlində olan *Allaha* and olsun ki, bu Quran, ipindən açılmış və öz sahibindən qaçmış dəvədən daha tez *öz sahibini* tərk edər” (Musnəd Əhməd, 4/150 və 153; Mocəmul-Kəbir, 17/290/800 və 803; əl-Əmali, 1/73; Silsilətul-Əhadisis-Səhihə, 3285).

[1] Əbu Zərr ﵁ Peyğəmbərə ﷺ: “Əssəlamu aleykum!”– demişdir.

[2] Bu hədisi Muslim (2473), İbn Hibban (7133), Bəzzar (3948), İbn Əbu Şeybə (18447), Beyhəqi (əl-Kubra, 9441) və Təyalisi (458) rəvayət etmişdir.

[3] Ona da salam olsun, Allahın rəhməti və bərəkəti ona yetişsin! Başqa bir hədisdə xəbər verilir ki, Aişə ﵂ demişdir: “Rəsulullah ﷺ mənə: “Ey Aişə! Bu Cəbraildir ﵇. O sənə salam söyləyir”– dedi. Mən də ona belə cavab verdim: “Aleykə və aleyhissəlam və rahmətullahi və bərəkatuhu (Sənə də, ona da salam olsun, Allahın rəhməti və bərəkəti yetişsin)!” Sən bizim görə bilmədiyimizi görürsən, ya Rəsulullah” (Musnəd Əhməd, 6/117). Şeyx Muhəmməd Nasirəddin əl-Albani bu hədisi izah edib demişdir: “Bu “və bərəkatuh” əlavəsi müəllifin “Səhih”ində həm “muəlləq”, həm də “movsul” isnadla rəvayət edilmişdir. Müəllif birinci rəvayətdən sonra demişdir: “Yunus və Nomən, əz-Zuhrinin: “və bərəkatuh” sözünü rəvayət etdiyini xəbər vermişlər.”

(Şeyx Albani davam edib demişdir): "Dedim: "Buxari bu hədisi "Fədailu Aişə" adlı fəsildə Yunusdan "movsul" isnadla nəql etmişdir (7/106/3768). Təbərani də, "Mocəmul-Kəbir" əsərində (23/35) həmin hədisi bu əlavə ilə rəvayət etmişdir. Həmçinin, əl-İsmaili bu hədisi İbrahim əl-Bunanidən və Cəban ibn Musadan – hər ikisi Abdullah ibnul-Mubarək-dən, habelə, Əqil və Ubeydullah ibn Əbu Ziyad – hər ikisi əz-Zuhridən hədisi bu əlavə ilə rəvayət etmişlər" (Fəthul-Bari, 11/35).

Qeyd etmək istəyirəm ki, İbn Həcər, Məmərin də həmin hədisi bu əlavə ilə əz-Zuh-ridən rəvayət etdiyini zikr etməmişdir. Müəllif bunu öz "Səhih"ində (6/305/3217) rəvayət etmişdir. Həmçinin, təbəqə etibarilə əl-İsmailidən daha üstün sayılan İmam Əhməd öz "Musnəd"ində (6/117): "Bizə İbrahim ibn İshaq belə rəvayət etmişdir: "Bizə İbnul-Muba-rək, Yunusdan" deyərək həmin hədisi bu əlavə ilə rəvayət etmiş, üstəlik: "Aleykə və aleyhissəlam" əlavəsini də zikr etmişdir. Bu hədisin isnadı "səhih"dir. Bu, çox əhəmiy-yətli bir əlavədir. Elə bir əlavə ki, İbn Həcər əl-Əsqəlani bunu görməmişdir. Elə bu səbəb-dən də, o, bu hədisi şərh edərkən demişdir: "Mən Aişənin bu hədisinə dair varid olmuş digər mətnlərdə Peyğəmbərə ﷺ cavab verdiyinə (yəni "Aleykə (sənə də)" dediyinə) rast gəlməmişəm" (Fəthul-Bari, 11/37). Həmçinin, qeyd edək ki, Ənəs ibn Sirin bu əlavəyə əməl etmişdir (yəni ona bir kimsə tərəfindən salam çatdırıldıqda ona: "Aleykə və aley-hissəlam!"– demişdir). Bu rəvayəti Təbərani öz "Dua" əsərində (3/1669/1942) nəql etmiş-dir" (əl-Ədəbul-Mufrad, 1036-cı hədisin izahı).

Bu hədisdən aydın olur ki, bir adam öz dostuna başqa birisinin vasitəsilə salam gön-dərə bilər. Lakin xüsusilə qeyd etmək lazımdır ki, bu, yalnız dirilərə aid edilir. Belə ki, ölülərə salam göndərmək İslam şəriətinə ziddir. Belə ki, Peyğəmbərimiz ﷺ heç vaxt ən əziz zövcəsi Xədicəyə, yaxud Bədrdə və Uhudda şəhid olmuş çox sevdiyi səhabələrinə yaxud da başqa bir əzizinə salam göndərməmiş, habelə, onun Mədinədən kənarda məs-kunlaşmış səhabələri bunu etməmiş – yer üzündə hamıdan, hətta, özlərindən də çox sev-dikləri Rəsulullah səllallahu aleyhi və səlləmə salam göndərməmişlər. Və əgər ölüyə sa-lam göndərmək Allahı razı salan əməllərdən olsaydı, heç şübhəsiz ki, Peyğəmbərimiz ﷺ başda olmaqla bu ümmətin ən xeyirliləri, ən imanlıları və ən savadlıları bunu edənlərin birinciləri olar və digər ibadətlərdə olduğu kimi bunu da ömürlərinin sonunadək davam-lı olaraq yerinə yetirərdilər. Hərçənd, bəziləri bu əməlin caiz olduğunu söyləyirlər, lakin xüsusilə qeyd etmək lazımdır ki, bu bidətdir, yəni Peyğəmbərin ﷺ və onun sadiq davam-çılarının etmədiyi bir əməldir. Özünü müsəlman sayan kimsə bu əməli yaxşı niyyətlə et-

miş olsa belə onun əməli qəbul olunmur. Bidətlərdən uzaq durub Sünnəyə tabe olmaq xüsusunda neçə-neçə ayələr nazil olmuşdur. Bunlardan bəzisi aşağıda zikr edilmişdir:

**“Onun ardınca gedin ki, bəlkə doğru yola yönələsiniz”** (əl-Əraf, 158);

**“De: “Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhmlidir”** (Ali İmran, 31);

**“Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə inanırsınızsa, Allaha və *Onun* rəsuluna müraciət edin. Bu, *sizin üçün* daha xeyirli və nəticə etibarilə daha yaxşıdır”** (ən-Nisa, 59);

**“Bu, Mənim doğru yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Çünki, *o yollar* sizi Allahın yolundan uzaqlaşdırar. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə *pis əməllərdən* çəkinəsiniz”** (əl-Ənam, 153);

Həmçinin, bu xüsusda, Peyğəmbər ﷺ demişdir: “Sizlərə Allahdan qorxmağı, habelə, *əmiriniz* həbəşi bir kölə olsa belə, ona eşidib itaət etmənizi tövsiyə edirəm. Sizlərdən yaşayanlarınız bir çox ixtilafların şahidi olacaqdır. Mənim və doğru yolda olan raşidi xəlifələrimin yolunu tutub gedin və həmin yoldan arxa dişlərinizlə yapışın. Yeniliklərdən isə çəkinin, çünki hər bir yenilik bidət, hər bir bidət isə zəlalətdir” (Mocəmul-Kəbir, 18/248/623; Silsilətul-Əhadisis-Səhihə, 2735); o, həmçinin, demişdir: “Hər kim bizim dinimizə zidd olan bir əməl edərsə, bu əməl rədd edilər” (Səhih Muslim, 1718); başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: “Mənim yolumdan çıxan kimsələr məndən deyildirlər” (Səhih əl-Buxari, 5063). Həmçinin, bu xüsusda, Abdullah ibn Ömər ؓ demişdir: “İnsanlar bidətləri, *dinə əlavə edilmiş yenilikləri* yaxşı əməl hesab etsələr belə, hər bir bidət zəlalətdir” (Bu əsəri əl-Lalakai, (126), İbn Batta (205) rəvayət etmiş və Şeyx Albani “Silsilətul-Əhadisis-Səhihə” əsərində (6/526) onun “səhih” olduğunu demişdir); Abdullah ibn Məsud ؓ isə belə demişdir: “*Sünnəyə* tabe olun, bidət etməyin. Bu sizə yetər” (Sunən əd-Darimi, 205; Şoəbul-İman, 2024; Şərhus-Sunnə, 1/214; əl-İbanətul-Kubra, 174; Mənasikul-Həcc vəl-Umrə (əl-Albani), səh: 44); o, həmçinin, demişdir: “Sünnə sayılan əməllərdə orta yol tutmaq, dindən olmayan yeniliklərdə canfəşanlıq göstərməkdən xeyirlidir” (Mustədrək, 352; Sunən əl-Beyhəqi əl-Kubra, 4522; Silslətul-Əhadisis-Səhihə, 5/11).

Düzdür, dünyadan köçmüş kimsəyə salam vermək xüsusunda Peyğəmbərimizi ﷺ istisna etmək olar, yəni qiyabi şəkildə ona salavat və salam göndərmək olar. Lakin sual verilə bilər ki, “kimin vasitəsilə?” Bu sualın cavabı aşağıdakı hədislərdə öz əksini tapmışdır:

Abdullah ibn Məsudun ؓ rəvayət etdiyi hədisdə, Peyğəmbər ﷺ demişdir: “Allahın yer üzünü *gəzib-dolaşan* səyahətçi mələkləri vardır. Onlar ümmətimin salamını mənə çat-

Bununla o, Peyğəmbəri ﷺ qəsd edirdi.[1]

**١٠٣٧-** حَدَّثَنَا مَطَرٌ قَالَ: حَدَّثَنَا رَوْحُ بْنُ عُبَادَةَ قَالَ: حَدَّثَنَا بُسْطَامٌ قَالَ: سَمِعْتُ مُعَاوِيَةَ بْنَ قُرَّةَ قَالَ: قَالَ لِي أَبِي: يَا بُنَيَّ، إِذَا مَرَّ بِكَ الرَّجُلُ فَقَالَ: السَّلاَمُ عَلَيْكُمْ، فَلاَ تَقُلْ: وَعَلَيْكَ، كَأَنَّكَ تَخُصُّهُ بِذَلِكَ وَحْدَهُ، فَإِنَّهُ لَيْسَ وَحْدَهُ، وَلَكِنْ قُلِ: السَّلاَمُ عَلَيْكُمْ.

**(1037)** ........ Muaviyə ibn Qurra demişdir: "Atam mənə belə buyurmuşdur: "Oğlum! Yanından keçən bir kimsə sənə: "Əssəlamu aleykum!"[2]– desə, sən ona: "Və aleykə!"[3]– demə. Yoxsa, bununla sən təkcə onu xüsusiləşdirmiş olarsan.[4] Heç şübhəsiz ki, o tək deyil. Lakin sən *ona*: "Əssəlamu aleykum!"[5]– de."[6]

---

dırırlar" (Sunən ən-Nəsai, 1/189; Musnəd Əhməd, 1/441 və 452; Səhih İbn Hibban, 1392; Mustədrək əl-Hakim, 2/421; Musnəd əd-Darimi, 2/317; əz-Zuhd (İbn əl-Mubarək), 2/204; Fədlus-Saləti alən-Nəbi səllallahu aleyhi və səlləm (əl-Qadi İsmail), 21; Tarixul-Mədinə (İbnun-Nəccar), 398; Musənnəf İbn Əbu Şeybə, 2/135/2; Musnəd Əbu Yə'lə, 5213; əl-Fəvaidul-Muntəqah (İbnud-Dibaci), 2/80/2; Mocəmul-Kəbir (ət-Təbərani), 3/81/2; Əxbaru Əsbəhan (Əbu Nueym), 5/205; Tarix Diməşq (İbn Əsakir), 9/189/2; Silsilətul-Əhadisis-Səhihə, 2853). Bu hədisdən aydın olur ki, Peyğəmbərə ﷺ yalnız mələklərin vasitəsilə salam göndərmək caizdir. Digər hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Evlərinizi qəbiristanlığa çevirməyin! Eləcə də, mənim qəbrimi ziyarətgaha çevirməyin. Mənə salavat deyin (və) bilin ki, harada olsanız, sizin salavatınız mənə yetişəcəkdir" (Sunən Əbu Davud, 2042; Mişkatul-Məsabih, 926). Deməli, dünyanın istənilən yerində və günün istənilən saatında mələklər vasitəsilə Peyğəmbərə ﷺ salavat və salam göndərmək mümkündür.

[1] 827-ci hədisin qeydlərinə bax.

[2] Sizə salam olsun!

[3] Sənə də *salam* olsun! (472-ci fəsilin ünvanının qeydinə bax.)

[4] 472-ci fəsilin ünvanının qeydinə bax.

[5] Sizə də salam olsun!

[6] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٤٧٥ – بَابُ مَنْ لَمْ يَرُدَّ السَّلامَ

## 475-ci fəsil. Salamı almayan kimsə

١٠٣٨ – حَدَّثَنَا عَيَّاشُ بْنُ الْوَلِيدِ قَالَ: حَدَّثَنَا عَبْدُ الأَعْلَى قَالَ: حَدَّثَنَا سَعِيدٌ، عَنْ قَتَادَةَ، عَنْ حُمَيْدِ بْنِ هِلاَلٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ الصَّامِتِ قَالَ: قُلْتُ لِأَبِي ذَرٍّ: مَرَرْتُ بِعَبْدِ الرَّحْمَنِ بْنِ أُمِّ الْحَكَمِ فَسَلَّمْتُ، فَمَا رَدَّ عَلَيَّ شَيْئًا ؟ فَقَالَ: يَا ابْنَ أَخِي، مَا يَكُونُ عَلَيْكَ مِنْ ذَلِكَ؟ رَدَّ عَلَيْكَ مَنْ هُوَ خَيْرٌ مِنْهُ، مَلَكٌ عَنْ يَمِينِهِ.

**(1038)** ........ Abdullah ibn Samit demişdir: "Mən Əbu Zərrə dedim: "Mən Abdur-Rəhman ibn Ummul-Həkəmin yanından keçərkən ona salam verdim, lakin o, mənim salamımı almadı." *Əbu Zərr* dedi: "Qardaş oğlu, sən buna görə məyus olursan?! Sənin salamını ondan da xeyirlisi, onun sağında duran bir mələk aldı.[1]"[2]

١٠٣٩ – حَدَّثَنَا عُمَرُ بْنُ حَفْصٍ قَالَ: حَدَّثَنَا أَبِي قَالَ: حَدَّثَنَا الأَعْمَشُ قَالَ: حَدَّثَنَا زَيْدُ بْنُ وَهْبٍ، عَنْ عَبْدِ اللَّهِ قَالَ: إِنَّ السَّلاَمَ اسْمٌ مِنْ أَسْمَاءِ اللَّهِ، وَضَعَهُ اللَّهُ فِي الأَرْضِ، فَأَفْشُوهُ بَيْنَكُمْ، إِنَّ الرَّجُلَ إِذَا سَلَّمَ عَلَى الْقَوْمِ فَرَدُّوا عَلَيْهِ كَانَتْ لَهُ عَلَيْهِمْ فَضْلُ دَرَجَةٍ، لِأَنَّهُ ذَكَّرَهُمُ السَّلاَمَ، وَإِنْ لَمْ يُرَدَّ عَلَيْهِ رَدَّ عَلَيْهِ مَنْ هُوَ خَيْرٌ مِنْهُ وَأَطْيَبُ.

**(1039)** ........ Abdullah *ibn Məsud* ﷺ demişdir: "əs-Salam Allahın adlarından biridir. Allah bunu (bir-birinizlə salamlaşasınız deyə) yer üzünə qoy-

---

[1] Bu, verdiyi salamın cavabını almayan kimsə üçün bir təsəllidir.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu bildirmiş, sonra demişdir: "Bu hədis Əbu Zərrdən ﷺ "movquf" isnadla rəvayət edilsə də, başqa mənbələrdə "mərfu" isnadla Peyğəmbərdən ﷺ rəvayət edilmişdir (növbəti hədisin təhqiqinə bax). Həmçinin, bu kitabdakı 402-ci hədisə bax.

muşdur. Elə isə, aranızda salamı yayın.[1] Əgər bir adam camaata salam verər və onlar da onun salamını alarsa, həmin adamın savabı onların savabından bir dərəcə üstün olar. Çünki o adam bu salamı onların yadına saldı.[2] Yox, əgər onun salamını almasalar, (qəm yeməsin) onlardan daha xeyirli və daha təmiz olan (bir mələk) onun salamını alar."[3]

**١٠٤٠-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ يُوسُفَ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ هِشَامٍ، عَنِ الْحَسَنِ قَالَ: التَّسْلِيمُ تَطَوُّعٌ، وَالرَّدُّ فَرِيضَةٌ.

**(1040)** ........ Həsən *əl-Bəsri* demişdir: "Salam verməkmüstəhəbdir,[4] onu almaq isə vacibdir.[5]"[6]

---

[1] 989-cu hədisin qeydlərinə bax.

[2] 399-cu, 406-cı və 985-ci hədislərdə, salam verən iki nəfərin ən xeyirlisinin salamı birinci verən kimsə olduğu xəbər verilir. Bu xeyirə bir çox xüsusiyyətlər aid edilir ki, bunlardan biri də salamı yada salmaqdır (982-ci və 984-cü hədislərə və onların qeydlərinə bax).

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir. Hərçənd, İmam Buxari bu hədisi"movquf" isnadla rəvayət etmişdir, lakin qeyd edək ki, bu hədis "mərfu" isnadla Peyğəmbərdən ﷺ rəvayət edilmişdir (bax: Silsilətul-Əhadisis-Səhihə, 184 və 1607).

[4] 452-ci fəsilin ünvanının qeydlərinə bax.

[5] İmam Buxari bu fəslin sonunda bu hədisi varid etməklə salamı almayan kimsənin günaha batdığını bildirmək istəyir.

[6] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٤٧٦- بَابُ مَنْ بَخِلَ بِالسَّلامِ

## 476-cı fəsil. Salam verməyə xəsislik edən kimsə

١٠٤١- حَدَّثَنَا مُحَمَّدُ بْنُ أَبِي بَكْرٍ قَالَ: حَدَّثَنَا فُضَيْلُ بْنُ سُلَيْمَانَ، عَنْ مُوسَى بْنِ عُقْبَةَ قَالَ: حَدَّثَنِي عُبَيْدُ اللَّهِ بْنُ سَلْمَانَ، عَنْ أَبِيهِ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ قَالَ: الْكَذُوبُ مَنْ كَذَبَ عَلَى يَمِينِهِ، وَالْبَخِيلُ مَنْ بَخِلَ بِالسَّلَامِ، وَالسَّرُوقُ مَنْ سَرَقَ الصَّلَاةَ.

**(1041)** ........ Abdullah ibn Amr ibn As ﷺ demişdir:[1] "Əsl yalançı, yalandan and içən adamdır.[2] Xəsis, salam verməyə xəsislik edən kimsədir.[3] Ən pis oğru isə namazdan oğurluq edən kəsdir.[4]"

---

[1] Bu hədisin isnadında keçən Fudeyl ibn Suleyman "çoxlu xətalara yol vermiş" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu bildirmiş, sonra demişdir: "Bu hədisin ikinci cümləsi "mərfu" isnadla Peyğəmbərdən ﷺ rəvayət edilmişdir. 1015-ci hədisə bax. Həmçinin, hədisin üçüncü cümləsi də "səhih"dir "Sifətu Səlatun-Nəbi ﷺ" kitabına bax."

[2] Bundan aydın olur ki, yalan danışmağın günahı dərəcələrə bölünür və bunların ən pislərindən biri də yalandan and içməkdir. Əbu Zərrin ﷺ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "Üç qisim insan vardır ki, Qiyamət günü Allah onları danışdırmayacaq, onların üzünə baxmayacaq və onları təmizə çıxarmayacaqdır. Üstəlik, onları üzücü əzab gözləyir." Əbu Zərr ﷺ dedi: "Sonra Peyğəmbər ﷺ *buna dəlalət edən* ayəni ("Ali-İmran" surəsinin 77-ci ayəsini) üç dəfə təkrar oxudu. Mən dedim: "Onların ümidləri boşa çıxdı, özləri də ziyana uğradılar. Kimlərdir onlar, ya Rəsulullah?" Peyğəmbər ﷺ buyurdu: "*Libasının* ətəyini topuqdan aşağı uzadan, verdiyini başa qaxan və yalandan and içməklə malını satan *kimsələr*" (Səhih Muslim, 293).

[3] Əbu Hureyrənin ﷺ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "Ən xəsis adam, salam verməyə xəsislik edən adamdır" (Silsilətul-Əhadisis-Səhihə, 518 və 601).

[4] Rəvayət edilir ki, Əbu Qətadə ﷺ demişdir: "Bir dəfə Peyğəmbər ﷺ səhabələrinə dedi: "Oğurluq edən insanların ən pisi öz namazından oğurlayanıdır." Onlar soruşdular: "Ya

Rəsulullah, o öz namazından necə oğurluq edir ki?" Peyğəmbər ﷺ buyurdu: "Namazının rükusunu və səcdəsini tam olaraq yerinə yetirmir" (Musnəd Əhməd, 5/310; Səhih əl-Cami, 986). Əl-Baci demişdir: "Peyğəmbər ﷺ onlara bildirmək istəyir ki, namazın rükusunu və səcdəsini naqis şəkildə yerinə yetirmək böyük günahlardan sayılır və bu, onların oğurluq bildiyi yaramaz əməldən daha betərdir. Burada Peyğəmbərin ﷺ rüku və səcdəni xüsusi olaraq vurğulaması ona görədir ki, çox vaxt naqislik namazın bu iki rüknündə baş verir. Oğurluq adlandırması da ona görədir ki, namaz qılan adam ona etibar edilmiş bu öhdəliyə xəyanət etmişdir" (Sifətu Səlatun-Nəbi ﷺ). Qeyd etmək lazımdır ki, bu oğurluğun qarşısını almaq üçün adam qıldığı namazın rükusunu və səcdəsini rahat şəkildə yerinə yetirməli, üstəlik, hər iki halda belini düz saxlamalıdır. Bu xüsusda, varid olmuş hədisdə Əbu Hureyrə رضي الله عنه rəvayət etmişdir ki, *bir dəfə* Peyğəmbər ﷺ məscidə daxil oldu, *arxasınca* da bir nəfər *ora* daxil olub namaz qıldı və *namazı bitirdikdən* sonra gəlib Peyğəmbərə ﷺ salam verdi. Peyğəmbər ﷺ onun salamını aldı və *ona belə* buyurdu: "Qayıt, namazını qıl, çünki sən namaz qılmadın." Adam qayıdıb əvvəlki kimi namaz qıldı, sonra da Peyğəmbərin ﷺ yanına gəlib ona salam verdi. Peyğəmbər ﷺ *ona*: "və aleykəssəlam"– dedi, sonra yenə buyurdu: "Qayıt namazını qıl, çünki sən namaz qılmadın." Həmin adam bunu üç dəfə təkrar etdi. Nəhayət, o adam dedi: "Səni haqq *din* ilə göndərənə and olsun ki, mən bundan daha düzgün olanını qıla bilmirəm. Mənə *nə edəcəyimi* öyrət!" Peyğəmbər ﷺ buyurdu: "Namaza duranda "Allahu Əkbər" de, sonra Qurandan sənə asan gələni oxu, sonra rükuya get *və bunu* rahat-rahat yerinə yetir (rükuya getdikdə əllərini dizinə qoy, sərbəst ol və belini düz saxla), sonra *başını* qaldırıb qamətini dümdüz tut, sonra səcdəyə get *və bunu* rahatlıqla yerinə yetir (sərbəst ol və belini düz saxla), sonra qalx otur (və) tam rahat ol və namazının qalan rükətlərində də belə et" (Səhih əl-Buxari, 757; Səhih Muslim, 885); başqa bir rəvayətdə deyilir ki, bir dəfə Peyğəmbər ﷺ bir nəfərin namazı düz qılmadığını – rükuda və səcdədə belini düz tutmadığını gördü və nəhayət namazını bitirdikdən sonra belə buyurdu: "Ey müsəlmanlar, rükunu və səcdəni düzgün yerinə yetirməyən kimsənin namazı qəbul olmaz!" (Musnəd Əhməd, 4/23; Sunən İbn Macə, 871; Səhih əl-Cami, 7977); yenə bir hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ namaz qılan bir adamın rükunu tam şəkildə yerinə yetirmədiyini, səcdəni də *xoruz* dənlədiyi tək tez-tez yerinə yetirdiyini görüb dedi: "Əgər o, bu halda ölərsə, Muhəmmədin ﷺ dini üzərində ölmüş hesab edilməz" (Musnəd Əhməd, 7184; Mocəmul-Kəbir (ət-Təbərani), 3840; Sifətu Səlatun-Nəbi ﷺ, səh: 131).

**١٠٤٢-** حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ أَبَانَ قَالَ: حَدَّثَنَا عَلِيُّ بْنُ مُسْهِرٍ، عَنْ عَاصِمٍ، عَنْ أَبِي عُثْمَانَ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: أَبْخَلُ النَّاسِ الَّذِي يَبْخَلُ بِالسَّلَامِ، وَإِنَّ أَعْجَزَ النَّاسِ مَنْ عَجَزَ بِالدُّعَاءِ.

**(1042)** ........ Əbu Osman rəvayət edir ki, Əbu Hureyrə ﷺ demişdir: "Ən xəsis adam, salam verməyə xəsislik edən şəxsdir, ən aciz adam isə dua etməkdə aciz olan şəxsdir."[1]

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٤٧٧– بَابُ السَّلامِ عَلَى الصِّبْيَانِ

## 477-ci fəsil. Uşaqlara salam vermək[1]

**١٠٤٣–** حَدَّثَنَا عَلِيُّ بْنُ الْجَعْدِ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ سَيَّارٍ، عَنْ ثَابِتٍ الْبُنَانِيِّ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، أَنَّهُ مَرَّ عَلَى صِبْيَانٍ فَسَلَّمَ عَلَيْهِمْ، وَقَالَ: كَانَ النَّبِيُّ ﷺ يَفْعَلُهُ بِهِمْ.

**(1043)** ........ Sabit əl-Bunani rəvayət edir ki, *bir dəfə* Ənəs ibn Malik uşaqların yanından keçib onlara salam verdi və dedi: "Peyğəmbər ﷺ uşaqlara salam verərdi.[2]"[3]

**١٠٤٤–** حَدَّثَنَا مُحَمَّدُ بْنُ عُبَيْدٍ قَالَ: حَدَّثَنَا عِيسَى بْنُ يُونُسَ، عَنْ عَنْبَسَةَ قَالَ: رَأَيْتُ ابْنَ عُمَرَ يُسَلِّمُ عَلَى الصِّبْيَانِ فِي الْكُتَّابِ.

**(1044)** ........ İsa ibn Yunus rəvayət etmişdir ki, Ənbəsə demişdir: "Mən ibn Ömərin məktəbdə uşaqlara salam verdiyini görmüşəm."[4]

---

[1] İmam Buxari 457-ci fəsildə kiçiyin böyüyə salam verdiyi barədə, bu fəsildə isə böyüyün uşağa salam verdiyi barədə hədislər nəql etmişdir. Bu hədisləri cəm edib demək olar ki, Sünnəyə görə kiçiklər böyüklərə salam verməlidir. Lakin salam verməyin qaydasını öyrətmək məqsədilə böyüklərin azyaşlı uşaqlara salam verməsi müstəsnadır.

[2] Ənəs ibn Malikin ؓ bu sözü dəlildir ki, uşaqlara salam vermək Peyğəmbərin ﷺ Sünnəsidir. Peyğəmbərin ﷺ bu hərəkəti onun olduqca təvazökar insan olduğunu bir daha sübuta yetirir. Uşaqlara salam verməyin həm salamı verən adama, həm uşağa, həm də cəmiyyətə olduqca böyük faydası vardır. Belə ki, salam verən adamın bu hərəkəti onun təvazökar və rəhmli insan olduğunu biruzə edir, üstəlik, ona böyük savab qazandırır, habelə, o, öz hərəkəti ilə uşaqları da bu Sünnəni yaşatmağa və yaymağa təşviq edir və beləliklə də, cəmiyyətin gələcəyi üçün təvazökar və rəhmli insanlar yetişir.

[3] Bu hədisi Buxari (6247) və Muslim (7/5-6) rəvayət etmişdir. Nəsainin "Sunən" əsərində (8291 və 10088) bu hədis daha əhatəli ləfz ilə rəvayət edilmişdir. Həmin rəvayətdə Ənəs ibn Malik ؓ demişdir: "Rəsulullah ﷺ ənsarı *vaxtaşırı* ziyarət edər, onların uşaqlarına salam verər, o, uşaqların başına sığal çəkər və onlar üçün dua edərdi" (Muşkilul-Asar (ət-Təhavi), 1/498; Səhih İbn Hibban, 459; Şərhus-Sunnə (əl-Bəğəvi), 12/264/3306; Silsilətul-Əhadisis-Səhihə, 1278).

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٤٧٨- بَابُ تَسْلِيمِ النِّسَاءِ عَلَى الرِّجَالِ

## 478-ci fəsil. Qadınların kişilərə salam verməsi[1]

١٠٤٥- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ يُوسُفَ قَالَ: أَخْبَرَنَا مَالِكٌ، عَنْ أَبِي النَّضْرِ، أَنَّ أَبَا مُرَّةَ مَوْلَى أُمِّ هَانِئٍ ابْنَةِ أَبِي طَالِبٍ أَخْبَرَهُ، أَنَّهُ سَمِعَ أُمَّ هَانِئٍ تَقُولُ: ذَهَبْتُ إِلَى النَّبِيِّ ﷺ وَهُوَ يَغْتَسِلُ، فَسَلَّمْتُ عَلَيْهِ، فَقَالَ: ((مَنْ هَذِهِ؟)) قُلْتُ: أُمُّ هَانِئٍ، قَالَ: ((مَرْحَبًا بِأُمِّ هَانِئٍ)).

**(1045)** ........ Ummu Hani bint Əbu Talibin ﵂ mövlası Əbu Murra rəvayət edir ki, Ummu Hani demişdir: "*Bir gün*[2] Peyğəmbər ﷺ qüsl edərkən mən onun yanına gəldim. Mən ona salam verdikdə, o soruşdu: "Kimdir bu qadın?" Dedim: "Ummu Hanidir." O dedi: "Ummu Hani xoş gəlib![3]"[4]

١٠٤٦- حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا مُبَارَكٌ قَالَ: سَمِعْتُ الْحَسَنَ يَقُولُ: كُنَّ النِّسَاءُ يُسَلِّمْنَ عَلَى الرِّجَالِ.

---

[1] Qadının öz məhrəminə, yaxud yaşlı qocaya salam verməyində heç bir qəbahət yoxdur. Qadının naməhrəmə, həm də cavan adama salam vermək məsələsinə gəlincə, İslam alimləri fitnəyə yol açmayacağı təqdirdə qadının kişiyə salam verməsini caiz görmüşlər. Əks təqdirdə isə, bu fitnə qapısını açmaq olmaz.

[2] İmam Buxarinin "Səhih"indəki rəvayətdə (280) Ummu Hani demişdir: "Mən *Məkkənin* fəthi ilində Peyğəmbərin ﷺ yanına getdim və onun qüsl etdiyini, Fatimənin də *ona* pərdə tutduğunu gördüm. Peyğəmbər ﷺ: "Kimdir bu qadın?"– deyə soruşdu..."

[3] Bu hədis evə gələn qonağa "Xoş gəldin!", yaxud ərəbcə "Mərhəba!" və ya buna bənzər kəlmələr deməyin caiz olduğuna dəlalət edir. Bu hədisdən o da aydın olur ki, adam məhrəminin yanında, lakin pərdə arxasında qüsl edə bilər, habelə, qüsl əsnasında, eləcə də, dəstəmaz alarkən başqa birisi ilə danışa bilər.

[4] Bu hədisi Buxari (280), Muslim (764 və 765), Tirmizi (2734), Əhməd (6/425), Malik (418), İbn Hibban (1188), əd-Darimi (1453), Beyhəqi (əl-Kubra, 17952) və İshaq ibn Rahuyə (2125) rəvayət etmişdir.

**(1046)** ........ Mubarək rəvayət edir ki, Həsən *əl-Bəsri* demişdir: "(Vaxtı ilə) qadınlar kişilərə salam verərdi."[1]

---

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu bildirmiş, sonra demişdir: "Beyhəqi bu hədisi "Şoəbul-İman" əsərində (6/460/8899) Mubarək ibn Fədaləyə istinad edərək rəvayət etmişdir. Həmin rəvayətdə deyilir ki, Həsəndən qadınlara salam vermək barədə soruşduqda, o, belə cavab vermişdir: "Kişilər qadınlara salam verməz, qadınlar isə kişilərə salam verərdilər."

Bu hədisə izah verib demək istəyirəm ki, Peyğəmbərin ﷺ qadınlara salam verməsi neçə-neçə "səhih" hədislərdə varid olmuşdur. Elə, növbəti fəsildəki Əsmanın رضي الله عنها rəvayət etdiyi hədisdə də bu, öz əksini tapmışdır. Həmçinin, əvvəlki hədisdə də Ummu Haninin رضي الله عنها ona salam verdiyi xəbər verilir. Halbuki, Ummu Hani onun məhrəmlərindən olmamışdır. Bütün bunlar Peyğəmbərdən ﷺ rəvayət edilmişdir. Məhz bu hədislər bu məsələdə əsas sayılır. Digərlərindən varid olmuş rəvayətlər isə müxtəlifdir. Bəzisi ümumiyyətlə salam verməyin caiz olduğunu bildirir və bu məsələdə cavanla yaşlının arasında fərq qoymur. Bu da, yenə əslinə qayıdır. Bəzisi bunu mütləq şəkildə qadağan edir. Bəzisi qadının cavanlara yox, ancaq yaşlılara salam verməsini caiz buyurur. Bəziləri də Beyhəqinin bu rəvayətində deyildiyi kimi kişilərin qadınlara salam verməsini mütləq şəkildə qadağan edir, qadınların kişilərə salam verməsini də mütləq şəkildə caiz hesab edirlər.

Mənim fikrimcə, – Allah daha yaxşı bilir! – bu xüsusda, məsələnin əslinə qayıtmaq daha yaxşıdır. Çünki bu hökm ümumi olaraq salamı yaymağın vacib olmasına şamil edilir. Və imkan daxilində "Fayda əldə etməkdən qabaq fəsadı dəf etmək gərəkdir" qaydasına da əməl etmək lazımdır. Bu xüsusda, Beyhəqinin (6/461) möhtəşəm bir nəsihəti vardır. O demişdir: "Peyğəmbər ﷺ özünə görə fitnə qapısının açılacağından qorxmurdu deyə, qadınlara salam verərdi. Elə isə, kim özünə arxayındırsa, qoy, qadınlara salam versin, yox, özünə arxayın deyilsə, onlara salam verməsin. Bəlkə də bu hədislərin biri digərini tamamlayır. Salamat qalmaq baxımından isə, əlbəttə ki, susmaq daha yaxşıdır."

İbn Həcər əl-Əsqəlani də bu fikri təsdiqləmişdir (Fəthul-Bari, 11/33-34).

Qeyd edək ki, mütləq şəkildə bunu qadağan etmək, əlbəttə ki, bu xüsusda, varid olmuş hədislərin əslinə və ümumi hökmə ziddir. Bunu iddia etmək isə ağılasığmazdır..." (Səhih əl-Ədəbul-Mufrad, səh: 398-399).

## ٤٧٩- بَابُ التَّسْلِيمِ عَلَى النِّسَاءِ

## 479-cu fəsil. Qadınlara salam vermək

١٠٤٧- حَدَّثَنَا مُحَمَّدُ بْنُ يُوسُفَ قَالَ: حَدَّثَنَا عَبْدُ الْحَمِيدِ بْنُ بَهْرَامَ، عَنْ شَهْرٍ قَالَ: سَمِعْتُ أَسْمَاءَ، أَنَّ النَّبِيَّ ﷺ مَرَّ فِي الْمَسْجِدِ، وَعُصْبَةٌ مِنَ النِّسَاءِ قُعُودٌ، قَالَ بِيَدِهِ إِلَيْهِنَّ بِالسَّلَامِ، فَقَالَ: ((إِيَّاكُنَّ وَكُفْرَانَ الْمُنْعِمِينَ، إِيَّاكُنَّ وَكُفْرَانَ الْمُنْعِمِينَ))، قَالَتْ إِحْدَاهُنَّ: نَعُوذُ بِاللَّهِ، يَا نَبِيَّ اللَّهِ، مِنْ كُفْرَانِ نِعَمِ اللَّهِ، قَالَ: ((بَلَى إِنَّ إِحْدَاكُنَّ تَطُولُ أَيْمَتُهَا، ثُمَّ تَغْضَبُ الْغَضْبَةَ فَتَقُولُ: وَاللَّهِ مَا رَأَيْتُ مِنْهُ سَاعَةً خَيْرًا قَطُّ، فَذَلِكَ كُفْرَانُ نِعَمِ اللَّهِ، وَذَلِكَ كُفْرَانُ نِعَمِ الْمُنْعِمِينَ)).

**(1047)** ........ Əsma[1] ﵂ rəvayət edir ki,[2] (bir dəfə) Peyğəmbər ﷺ məsciddən keçdikdə bir dəstə qadın orada oturmuşdu. Peyğəmbər ﷺ əli ilə işarə edib onlara salam verdi. Sonra dedi: "Nemət verənlərə[3] qarşı nankorluq etməkdən çəkinin. Nemət verənlərə qarşı nankorluq etməkdən çəkinin!" Onlardan biri dedi: "Biz Allahın nemətlərinə qarşı nankor olmaqdan Allaha sığınırıq, ey Allahın peyğəmbəri!" Peyğəmbər ﷺ dedi: "Birinizin dul qalması uzanar, (sonra Allah ona həyat yoldaşı nəsib edər,) sonra da (ərinə) qəzəbləndikdə[4] (onun barəsində): "Vallahi ki, mən heç vaxt ondan xeyir görməmişəm"– deyər." Bu, Allahın nemətlərinə küfr etməkdir. Bu da nemət verənlərə qarşı nankorluq etmək deməkdir.[5]"

---

[1] Əsma bint Yezid əl-Ənsariyyə ﵂ Peyğəmbərin ﷺ səhabəsidir.

[2] Bu hədisi Əhməd (6/452, 453, 457, və 458), Əbu Davud (5204), Tirmizi (2/117), İbn Macə (7701) və əd-Darimi (2/277) rəvayət etmişdir. Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin, – mətnindəki "əli ilə işarə edib" sözü müstəsna olmaqla, – "səhih" olduğunu demişdir. Hərçənd, bu rəvayətdə "əli ilə işarə edib" sözü "zəif"dir, lakin ümumiyyətlə, salam verərkən əl ilə işarə etmək caizdir (459-cu fəsilin ünvanının qeydlərinə bax).

[3] Burada "nemət verən" deyildikdə, həyat yoldaşı nəzərdə tutulur.

[4] 1318-ci, 1319-cu və 1320-ci hədislərə bax.

[5] Başqa bir hədisdə Abdullah ibn Ömər ﵄ rəvayət etmişdir ki, *bayram günü* Peyğəmbər ﷺ *qadınların yanından keçərkən* belə buyurdu: "Ey qadınlar, sədəqə verin və *Allahdan*

**١٠٤٨-** حَدَّثَنَا مَخْلَدٌ قَالَ: حَدَّثَنَا مُبَشِّرُ بْنُ إِسْمَاعِيلَ، عَنِ ابْنِ أَبِي غَنِيَّةَ، عَنْ مُحَمَّدِ بْنِ مُهَاجِرٍ، عَنْ أَبِيهِ، عَنْ أَسْمَاءَ ابْنَةِ يَزِيدَ الأَنْصَارِيَّةِ، مَرَّ بِيَ النَّبِيُّ ﷺ وَأَنَا فِي جِوَارٍ أَتْرَابٍ لِي، فَسَلَّمَ عَلَيْنَا وَقَالَ: ((إِيَّاكُنَّ وَكُفْرَ الْمُنْعِمِينَ))، وَكُنْتُ مِنْ أَجْرَئِهِنَّ عَلَى مَسْأَلَتِهِ، فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ، وَمَا كُفْرُ الْمُنْعِمِينَ؟ قَالَ: ((لَعَلَّ إِحْدَاكُنَّ تَطُولُ أَيْمَتُهَا مِنْ أَبَوَيْهَا، ثُمَّ يَرْزُقُهَا اللَّهُ زَوْجًا، وَيَرْزُقُهَا مِنْهُ وَلَدًا، فَتَغْضَبُ الْغَضْبَةَ فَتَكْفُرُ فَتَقُولُ: مَا رَأَيْتُ مِنْكَ خَيْرًا قَطُّ)).

**(1048)** ........ Əsma bint Yezid əl-Ənsariyyə ﵂ demişdir: "Mən qızlardan olan həmyaşıdlarımla bir yerdə ikən Peyğəmbər ﷺ bizim yanımızdan keçib bizə salam verdi, sonra dedi: "Nemət verənlərə qarşı nankorluq etməkdən çəkinin!" Rəfiqələrim arasında bu məsələyə aydınlıq gətirmək üçün Peyğəmbərə ﷺ söz deyəcək ən cəsarətli qadın mən idim. Mən dedim: "Ya Rəsulullah, nemət verənlərə qarşı nankorluq etmək nə deməkdir?" O dedi: "Birinizin öz valideynləri yanında qalıb ərə getməyi yubanır. Sonra Allah ona həyat yoldaşı qismət edir və ondan ona övlad nəsib edir. Sonra o qadın (ona) qəzəbləndikdə küfr edib[1] deyir: "Mən heç vaxt səndən bir xeyir görmədim."[2]

---

çoxlu-çoxlu bağışlanma diləyin! Çünki mən Cəhənnəm əhlinin əksəriyyətinin siz *qadınlar* olduğunu gördüm." Onlardan dərrakəli olan bir qadın soruşdu ki: "Nəyə görə Cəhənnəm əhlinin əksəriyyəti biz olacağıq, ya Rəsulullah?" Peyğəmbər ﷺ buyurdu: "Çünki siz *insanları* tez-tez lənətləyir və ərinizə qarşı nankorluq edirsiniz. Mən ağıllı və ehtiyatlı bir adamın sizin qədər həm ağıl, həm də din baxımından naqis olduğunu görmədim." Qadın: "Ya Rəsulullah, ağlımızda və dinimizdə olan naqislik nədir?"– deyə soruşdu. Peyğəmbər ﷺ buyurdu: "Ağıl naqisliyinə gəlincə, iki qadının şahidliyi bir kişinin şahidliyinə bərabərdir. Bu, *qadın* ağlının naqisliyidir. *Qadın heyz vaxtı* bir neçə gecə gözləyib namaz qılmır, habelə, Ramazanda *pak oluncayadək* oruc tutmur. Bu da, dininin naqisliyidir" (Səhih əl-Buxari, 1052; Səhih Muslim, 241).

[1] Burada söhbət kiçik küfrdən gedir.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٤٨٠ – بَابُ مَنْ كَرِهَ تَسْلِيمَ الْخَاصَّةِ

## 480-ci fəsil. Xüsusi olaraq bir adama salam verməyi bəyənməyən kimsə

**١٠٤٩** – حَدَّثَنَا أَبُو نُعَيْمٍ، عَنْ بَشِيرِ بْنِ سَلْمَانَ، عَنْ سَيَّارٍ أَبِي الْحَكَمِ، عَنْ طَارِقٍ قَالَ: كُنَّا عِنْدَ عَبْدِ اللَّهِ جُلُوسًا، فَجَاءَ آذِنُهُ فَقَالَ: قَدْ قَامَتِ الصَّلاَةُ، فَقَامَ وَقُمْنَا مَعَهُ، فَدَخَلْنَا الْمَسْجِدَ، فَرَأَى النَّاسَ رُكُوعًا فِي مُقَدَّمِ الْمَسْجِدِ، فَكَبَّرَ وَرَكَعَ، وَمَشَيْنَا وَفَعَلْنَا مِثْلَ مَا فَعَلَ، فَمَرَّ رَجُلٌ مُسْرِعٌ فَقَالَ: عَلَيْكُمُ السَّلاَمُ يَا أَبَا عَبْدِ الرَّحْمَنِ، فَقَالَ: صَدَقَ اللَّهُ، وَبَلَّغَ رَسُولُهُ، فَلَمَّا صَلَّيْنَا رَجَعَ، فَوَلَجَ عَلَى أَهْلِهِ، وَجَلَسْنَا فِي مَكَانِنَا نَنْتَظِرُهُ حَتَّى يَخْرُجَ، فَقَالَ بَعْضُنَا لِبَعْضٍ: أَيُّكُمْ يَسْأَلُهُ؟ قَالَ طَارِقٌ: أَنَا أَسْأَلُهُ، فَسَأَلَهُ، فَقَالَ: عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((بَيْنَ يَدَيِ السَّاعَةِ: تَسْلِيمُ الْخَاصَّةِ، وَفُشُوُّ التِّجَارَةِ حَتَّى تُعِينَ الْمَرْأَةُ زَوْجَهَا عَلَى التِّجَارَةِ، وَقَطْعُ الأَرْحَامِ، وَفُشُوُّ الْقَلَمِ، وَظُهُورُ الشَّهَادَةِ بِالزُّورِ، وَكِتْمَانُ شَهَادَةِ الْحَقِّ)).

**(1049)** ........ Rəvayət edilir ki, Tariq[1] demişdir:[2] "*Bir dəfə* biz Abdullahın[3] yanında oturmuşduq. Bu vaxt onun azan (və iqamənin) vaxtını bildirmək üçün təyin etdiyi adamı gəlib dedi: "Artıq namaz üçün iqamə verildi!"[4] Abdullah qalxdı, biz də onunla qalxıb bərabər məscidə girdik. O, məscidin ön tərəfində camaatın rüku vəziyyətində olduğunu görüb təkbir gətirdi və

---

[1] Şeyx Muhəmməd Nasirəddin əl-Albani demişdir: "Bu, Əbu Abdullah Tariq ibn Şihab əl-Əhməsi əl-Kufi ؓ Peyğəmbəri ﷺ görmüş, lakin ondan hədis eşitməmişdir. Bu da, İmam Əhmədin rəvayətində öz təsdiqini tapmışdır" (Səhih əl-Ədəbul-Mufrad, səh: 401).

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[3] Yəni İbn Məsud ؓ.

[4] Abdullah ibn Məsud ؓ qonaqlara başı qarışdığına görə namaza gecikmişdir. Yoxsa ki, başda səhabələr olmaqla, sələflər həmişə namazın ilk təkbirinə yetişməyə çalışardılar.

rüku etdi. Biz də gəlib onun etdiyini elədik.[1] *Elə bu vaxt* bir nəfər tələsik gəlib: "Sizə salam olsun, ey Əbu Abdur-Rəhman!"– dedi. O dedi: "Allah doğru söyləmiş, Rəsulullah ﷺ da təbliğ etmişdir." Namazı bitirdikdən sonra geri dönüb ailəsinin yanına daxil oldu. Biz isə öz yerimizdə oturub onun bayıra çıxmasını gözlədik. Biz bir-birimizə dedik: "Hansı biriniz ondan soruşacaq?" Tariq: "Mən soruşaram"– dedi və soruşdu. Abdullah dedi: "Peyğəmbər ﷺ belə demişdir: "Qiyamət gününə yaxın bu hadisələr baş verəcək:[2] salam xüsusi adamlara veriləcək,[3] ticarət hər tərəfə yayılacaq[4] və iş o yerə gəlib çatacaq ki, qadın alış-veriş işlərində öz ərinə yardım edəcək,[5] qohumluq əlaqələri kəsiləcək, qələmlə yazılmış *yazılar hər tərəfə* yayılacaq,[6] yalana şahidlik etmək üzə çıxacaq və haqqa şahidlik etmək gizli qalacaqdır."

---

[1] Şeyx Muhəmməd Nasirəddin əl-Albani demişdir: "Yəni onlar camaatın cərgəsindən xeyli aralıda ikən hamısı birdən rüku etdilər, sonra da rüku vəziyyətində yeriyərək gəlib cərgəyə qoşuldular ki, imam rükuda ikən həmin rükətə yetişsinlər və imama qoşulmuş sayılsınlar. Buna dair Sünnədə "səhih" hədis varid olmuş, habelə, sələflərdən bunu edənlər olmuşdur. Belə ki, rükuya yetişmiş şəxs rükətə yetişmiş sayılır. Bu xüsusda, "səhih" hədis varid olmuşdur. Bax: Silsilətul-Əhadisis-Səhihə, 1188. Həmçinin, *sələflərdən də* çoxlu mötəbər rəvayətlər nəql edilmişdir. Bu rəvayətləri "İrvaul-Ğəlil" əsərində (2/262-264) tapa bilərsən" (Səhih əl-Ədəbul-Mufrad, səh: 401).

[2] Burada söhbət Qiyamətin kiçik əlamətlərindən gedir.

[3] 1013-cü hədisin qeydlərinə bax.

[4] Yəni alış-veriş üçün bəlli bir bazar olmayacaq, bundan əlavə, insanlar hər yanda piştaxtalar qoyub alış-veriş edəcəklər.

[5] Əslində, qadının yeri evdir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Qadın övrətdir. Və əgər o, evindən bayıra çıxarsa, şeytan onu yoldan çıxarmaq üçün ona göz qoyar. Qadının Rəbbinə ən yaxın olan yeri evinin içidir" (Səhih İbn Xuzeymə, 1685; Səhih İbn Hibban, 5598; Musənnəf İbn Əbu Şeybə, 7698; Silsilətul-Əhadisis-Səhihə, 2688). Uca Allah mömin qadınlara Quranda belə buyurur: **"Evlərinizdə qərar tutun! İlk cahiliyyə dövründə olduğu kimi açıq-saçıq gəzməyin"** (əl-Əhzab, 33). Ruzi dalınca çıxmaq isə kişiyə xas olan əməllərdəndir.

[6] Bu hədis Peyğəmbərin ﷺ möcüzələrindən sayılır. Bu hədisdə deyilənlərin hamısı XXİ əsrdə öz əksini tapmışdır. Xüsusilə də yazılmış yazıların (kitab, qəzet və s.) yayılması.

**١٠٥٠-** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي اللَّيْثُ قَالَ: حَدَّثَنِي يَزِيدُ بْنُ أَبِي حَبِيبٍ، عَنْ أَبِي الْخَيْرِ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو، أَنَّ رَجُلًا سَأَلَ رَسُولَ اللَّهِ ﷺ: أَيُّ الإِسْلاَمِ خَيْرٌ؟ قَالَ: تُطْعِمُ ((الطَّعَامَ، وَتَقْرَأُ السَّلاَمَ عَلَى مَنْ عَرَفْتَ وَمَنْ لَمْ تَعْرِفْ)).

**(1050)** ........ Abdullah ibn Amr رضي الله عنهما rəvayət edir ki, bir nəfər Rəsulullahdan ﷺ soruşdu: "(Ya Rəsulullah,) İslam (xislətlərindən) ən xeyirlisi hansıdır?" Peyğəmbər ﷺ buyurdu: "Sənin, (ehtiyacı olanlara) yemək yedirtməyin, tanıdığına və tanımadığına salam verməyin."[1]

[1] 1013-cü hədisin qeydlərinə bax.

## ٤٨١- بَابُ كَيْفَ نَزَلَتْ آيَةُ الْحِجَابِ؟

## 481-ci fəsil. Hicab ayəsi necə nazil olmuşdur?[1]

١٠٥١- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي اللَّيْثُ قَالَ: حَدَّثَنِي عُقَيْلٌ، عَنِ ابْنِ شِهَابٍ قَالَ: أَخْبَرَنِي أَنَسٌ، أَنَّهُ كَانَ ابْنَ عَشْرِ سِنِينَ مَقْدَمَ رَسُولِ اللَّهِ ﷺ الْمَدِينَةَ، فَكُنَّ أُمَّهَاتِي يُوَطِّنَّنِي عَلَى خِدْمَتِهِ، فَخَدَمْتُهُ عَشْرَ سِنِينَ، وَتُوُفِّيَ وَأَنَا ابْنُ عِشْرِينَ، فَكُنْتُ أَعْلَمَ النَّاسِ بِشَأْنِ الْحِجَابِ، فَكَانَ أَوَّلُ مَا نَزَلَ مَا ابْتَنَى رَسُولُ اللَّهِ ﷺ بِزَيْنَبَ بِنْتِ جَحْشٍ، أَصْبَحَ بِهَا عَرُوسًا، فَدَعَى الْقَوْمَ فَأَصَابُوا مِنَ الطَّعَامِ، ثُمَّ خَرَجُوا، وَبَقِيَ رَهْطٌ عِنْدَ النَّبِيِّ ﷺ، فَأَطَالُوا الْمُكْثَ، فَقَامَ فَخَرَجَ وَخَرَجْتُ لِكَيْ يَخْرُجُوا، فَمَشَى فَمَشَيْتُ مَعَهُ، حَتَّى جَاءَ عَتَبَةَ حُجْرَةِ عَائِشَةَ، ثُمَّ ظَنَّ أَنَّهُمْ خَرَجُوا، فَرَجَعَ وَرَجَعْتُ مَعَهُ حَتَّى دَخَلَ عَلَى زَيْنَبَ، فَإِذَا هُمْ جُلُوسٌ، فَرَجَعَ وَرَجَعْتُ حَتَّى بَلَغَ عَتَبَةَ حُجْرَةِ عَائِشَةَ، وَظَنَّ أَنَّهُمْ خَرَجُوا، فَرَجَعَ وَرَجَعْتُ مَعَهُ، فَإِذَا هُمْ قَدْ خَرَجُوا، فَضَرَبَ النَّبِيُّ ﷺ بَيْنِي وَبَيْنَهُ السِّتْرَ، وَأَنْزَلَ الْحِجَابَ.

**(1051)** ........ İbn Şihab rəvayət edir ki, Ənəs ﵁ demişdir: "Rəsulullah ﷺ Mədinəyə gəldiyi zaman mənim on yaşım var idi. Həmin vaxt analarım[2] məni Rəsulullaha ﷺ xidmət etməyə təşviq edirdilər. Mən on il ona xidmət etdim.[3] O vəfat etdikdə mənim iyirmi yaşım var idi. Hicab *ayəsi* haqqında məlumatı mən hamıdan yaxşı bilirəm.[4] Həmin ayə ilk dəfə,[5] Rəsulullahın ﷺ

[1] İslamın əvvəlində hələ hicab ayəsi nazil olmamışdı. İmam Buxari bu fəslə belə ünvan qoymaqla hicab ayəsinin nə zaman və nəyə görə nazil olduğunu bəyan edir.

[2] Burada "analarım" deyildikdə, Ənəsin ﵁ anası və xalası nəzərdə tutulur. Belə ki, xala ananı əvəz edir (4-cü hədisin qeydlərinə bax).

[3] Bu, Ənəs ibn Malik ﵁ üçün şərəfli bir əməl olmuş və bunun sayəsində o, "Peyğəmbərin ﷺ xidmətçisi" ləqəbini qazanmışdır.

[4] Ənəsin ﵁ bu sözü dəlildir ki, yeri gəldikdə, qürrələnmək və təkəbbürlük məqsədilə yox, məhz bir xəbərin daha doğru olduğunu bildirmək üçün belə demək caizdir.

[5] İbn Həcər əl-Əsqəlani demişdir: "Bu hədisdə xəbər verilir ki, Rəsulullah ﷺ Zeynəb bint Cəhş ﵂ ilə evləndiyi zaman ziyafət vermiş, sonra səhabələrdən üçü bir qədər onun

Zeynəb bint Cəhş ilə evləndiyi vaxt nazil olmuşdur. Peyğəmbər ﷺ evliliyin səhəri günü camaatı çağırıb onlara yemək verdi.[1] Səhabələr yemək yedikdən sonra çıxıb getdilər, lakin bir neçəsi Peyğəmbərin ﷺ yanında qaldı. Onlar orada uzun müddət oturdular. *İş o yerə gəlib çatdı ki,* Peyğəmbər ﷺ özü durub bayıra çıxdı, mən də onunla birlikdə çıxdım. O belə etdi ki, onlar da çıxıb getsinlər. Peyğəmbər ﷺ *xeyli* yol getdi, mən də onunla getdim. Nəhayət, o, gəlib Aişənin hücrəsinin astanasına çatdı. *Bir qədər keçdikdən* sonra o, *evindəki* adamların çıxıb getdiyini güman edib evə qayıtdı və mən də onunla birlikdə geri qayıtdım. Lakin Zeynəbin hücrəsinə daxil olduqda gördü ki, onlar hələ də oradadırlar. Yenə dönüb getdi və mən də onunla birlikdə getdim.[2] Yenə Aişənin hücrəsinin astanasına çatdı və *bir qədər gözlədikdən* sonra

---

evində yubanmış, Peyğəmbər də ﷺ həya etdiyindən onlara çıxıb getməyi buyurmamış və nəhayət, hicab ayəsi nazil olmuşdur. Lakin digər rəvayətlərdə xəbər verilir ki, Ömər ؓ demişdir: "Mən (Peyğəmbərə ﷺ): "Ya Rəsulullah, sənin zövcələrini möminlər də görür, fasiqlər də. Bəlkə onlara hicab geyməyi əmr edəsən"– deyə təklif etdim və elə bu səbəbdən də, hicab ayəsi nazil oldu (Səhih əl-Buxari, 402). Həmçinin, İbn Cərir öz "Təfsir"ində Mucahiddən rəvayət etmişdir ki, *bir dəfə* Peyğəmbər ﷺ Aişə ilə yemək yeyərkən, onun səhabələrindən biri onlarla bərabər bu yeməkdən yemiş, yemək əsnasında əli onun zövcəsinin əlinə toxunmuş və elə bu səbəbdən də, hicab ayəsi nazil olmuşdur (əl-Ədəbul-Mufrad, 1053). Bu hədisləri cəm edib demək olar ki, hicab ayəsinin nazil olma səbəbləri ayrı-ayrı vaxtlarda baş vermişdir (eyni ayə müxtəlif səbəblərdən dolayı təkrar-təkrar nazil olmuşdur). Zeynəbin ؓ hadisəsi isə bu səbəblərin axırıncısı olmuşdur. Belə ki, həmin ayədə söhbət bu hadisədən gedir (Fəthul-Bari, 1/249).

[1] Evləndikdə ziyafət vermək Peyğəmbərin ﷺ bu ümmətə buyurduğu əməllərə aiddir. Bu xüsusda, varid olmuş hədisdə rəvayət edilir ki, Abdur-Rəhman ənsardan olan bir qadınla evləndiyi zaman Peyğəmbər ﷺ ona belə buyurmuşdur: "Elə isə, bir qoyunla da olsa, ziyafət ver!" (Səhih əl-Buxari, 2048).

[2] Bundan aydın olur ki, qonaq ev yiyəsinin yanında çox oturmaqla ona əziyyət verməməli, ev yiyəsi də öz növbəsində qonağa qarşı kobudluq edib, onun çıxıb getməsini tə-

*evindəki* adamların çıxıb getdiyini güman edib geri qayıtdı və mən də onunla birlikdə qayıtdım. Onlar artıq çıxıb getmişdilər. Onda Peyğəmbər ﷺ mənimlə öz *ailəsi* arasına pərdə tutdu və beləliklə də, hicab ayəsi nazil oldu.[1]"[2]

ləb etməməli, sadəcə olaraq, bunu ona bir işarə ilə – bayıra çıxmaqla, yaxud tez-tez saatına baxmaqla və başqa buna bənzər hərəkətlə bildirməlidir.

[1] Həmin ayədə Uca Allah buyurur: **"Ey iman gətirənlər! Sizə yeməyə izin verilməyib *süfrəyə dəvət olunmadıqca,* Peyğəmbərin evlərinə girməyin və *əvvəlcədən gəlib* yeməyin hazırlanmasını da gözləməyin. Lakin dəvət olunduqda girin və yemək yedikdən sonra bir-birinizlə söhbətə dalmadan dağılışın. Çünki bu *hərəkətiniz* Peyğəmbəri narahat edir və o, sizdən utanır. Allah isə sözün açığını *sizə bəyan etməkdən* utanmır. *Peyğəmbərin* zövcələrindən bir şey istədikdə, pərdə arxasından istəyin. Bu, həm sizin qəlbinizə, həm də onların qəlbinə daha çox saflıq gətirər. Sizə Allahın Elçisini narazı salmaq, vəfatından sonra onun həyat yoldaşları ilə izdivac etmək qətiyyən yolverilməzdir. Həqiqətən, bu, Allah yanında böyük günahdır"** (əl-Əhzab, 53).

[2] Bu hədisi Buxari (5466) və Muslim (4/150) rəvayət etmişdir.

## ٤٨٢– بَابُ الْعَوْرَاتِ الثَّلاثِ

## 482-ci fəsil. Üç övrət vaxtı[1]

١٠٥٢– حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ سَعْدٍ، عَنْ صَالِحِ بْنِ كَيْسَانَ، عَنِ ابْنِ شِهَابٍ، عَنْ ثَعْلَبَةَ بْنِ أَبِي مَالِكٍ الْقُرَظِيِّ، أَنَّهُ رَكِبَ إِلَى عَبْدِ اللَّهِ بْنِ سُوَيْدٍ، أَخِي بَنِي حَارِثَةَ ابْنِ الْحَارِثِ، يَسْأَلُهُ عَنِ الْعَوْرَاتِ الثَّلاَثِ، وَكَانَ يَعْمَلُ بِهِنَّ، فَقَالَ: مَا تُرِيدُ؟ فَقُلْتُ: أُرِيدُ أَنْ أَعْمَلَ بِهِنَّ، فَقَالَ: إِذَا وَضَعْتُ ثِيَابِي مِنَ الظَّهِيرَةِ لَمْ يَدْخُلْ عَلَيَّ أَحَدٌ مِنْ أَهْلِي بَلَغَ الْحُلُمَ إِلاَّ بِإِذْنِي، إِلاَّ أَنْ أَدْعُوَهُ، فَذَلِكَ إِذْنُهُ. وَلاَ إِذَا طَلَعَ الْفَجْرُ وَتَحَرَّكَ النَّاسُ حَتَّى تُصَلَّى الصَّلاَةُ، وَلاَ إِذَا صَلَّيْتُ الْعِشَاءَ وَوَضَعْتُ ثِيَابِي حَتَّى أَنَامَ.

**(1052)** ........ İbn Şihab rəvayət edir ki, Sələbə ibn Əbu Malik əl-Qurazi[2] demişdir: "Mən bənu Harisə ibnul-Harisin qardaşı Abdullah ibn Suveydin[3] yanına gəlib, ondan üç övrət vaxtı haqqında soruşdum. Abdullah özü bu vaxtlara riayət edirdi. Abdullah dedi: "(Bunu soruşmaqda) məqsədin

---

[1] Burada "üç övrət vaxtı" deyildikdə, sübh namazından əvvəl, günorta və bir də gecə namazından sonrakı vaxtlar qəsd edilir. Əslində övrət deyildikdə, adamın ayıb yerləri nəzərdə tutulur. Belə ki, həmin vaxtlarda adam öz otağında yatır, yaxud dincəlir, yaxud zövcəsi ilə çarpayıda uzanmış olur və həmin vaxt onun paltarının əynində olmaması ehtimalı daha çox olur. Elə buna görə də, belə vaxtlara övrət vaxtları deyirlər. Bu xüsusda, Uca Allah buyurur: **"Ey iman gətirənlər! Sahib olduğunuz kölələr və həddi-büluğa çatmayanlar *yanınıza girmək istədikdə,* qoy, üç vaxtda sizdən izin istəsinlər: sübh namazından əvvəl, günorta paltarınızı çıxartdığınız zaman və gecə namazından sonra. *Bu,* sizin çılpaq ola biləcəyiniz üç vaxtdır. Qalan vaxtlarda bir-birinizin yanına *icazəsiz* girməkdə nə sizə, nə də onlara heç bir günah gəlməz. Allah ayələri sizə belə izah edir. Allah Biləndir, Hikmət sahibidir"** (ən-Nur, 58). Yeri gəlmişkən, qeyd edək ki, İslam alimlərinin bəzisi bunu uşaqlara dörd yaşından öyrətməyi məsləhət görmüşlər.

[2] Sələbə ibn Əbu Malik əl-Qurazi uşağ ikən Peyğəmbəri ﷺ görmüşdür.

[3] İslam alimlərindən bəzisi onun səhabələrdən olduğunu söyləmişlər.

nədir?" Mən dedim: "Bu üç vaxta riayət etmək istəyirəm."[1] Abdullah dedi: "Günorta vaxtı mən paltarımı çıxartdıqdan sonra mənim iznim olmadan və ya mən çağırmadan ailəmdən həddi-büluğa çatmış heç bir kimsə mənim yanıma daxil olmur. (Mənim çağırmağım) onun üçün izindir. Habelə, dan yeri sökülüb insanlar hərəkətə gəldiyi vaxtdan sübh namazını qılanadək və işa namazını qılıb paltarımı soyunan andan, yatanadək *heç kəs yanıma girmir*.[2]"[3]

---

[1] Bu, dəlildir ki, sələflər dinə aid olan məsələləri ancaq elmlərini artırmaq üçün yox, üstəlik ona əməl etmək üçün öyrənərdilər.

[2] Xüsusilə, qeyd etmək lazımdır ki, bu hökm, qapısında kilidi olmayan evlərə və hücrələrə aiddir. Belə ki, o dövrdə evlərin qapılarında kilid olmaz, bəzilərinin isə ümumiyyətlə qapısı örtükdən və ya buna bənzər şeylərdən olardı. Bu xüsusda, varid olmuş hədisdə rəvayət edilir ki, İkrimə demişdir: "İraqlılardan bir neçəsi İbn Abbasa dedi: "Ey İbn Abbas, Allahın: "**Ey iman gətirənlər! Sahib olduğunuz kölələr və həddi-buüluğa çatmayanlar *yanınıza girmək istədikdə* qoy, üç vaxtda sizdən izin istəsinlər:...**" ayəsi barədə nə deyə bilərsən? Bu ayədə əmr olunanlara heç kəs əməl etmir." İbn Abbas ﷻ dedi: "Allah möminlərə qarşı həm mülayim, həm də mərhəmətlidir. O, örtülü olmağı sevir. Əvvəllər insanların evlərinin qapılarında örtük və ya kilid olmazdı. Bəzən elə olurdu ki, adamın xidmətçisi, yaxud övladı, yaxud yetimi izinsiz içəri daxi olur və onu öz zövcəsinin yatağında görürdü. Elə bu səbəbdən də, Allah onlara həmin övrət vaxtlarında içəri girmək üçün izin istəməyi buyurdu. İndi isə Allah onlara *qapıları bağlamaq üçün* kilidlər və başqa xeyirlər nəsib etmişdir. Düşünürəm ki, artıq bundan sonra buna heç kəs əməl etməyəcək" (Sunən Əbu Davud, 5192; isnadı "həsən"dir bax: Səhih Əbu Davud); digər rəvayətdə deyilir ki, İbn Abbas ﷻ onlara: "Allah Sittirdir (Örtülüdür) və örtülü olmağı sevir"– demişdir (Sunən əl-Beyhəqi, 13943). İbn Abbasın ﷻ bu sözü əslində Peyğəmbərin ﷺ sözüdür (Bax: Musnəd İmam Əhməd 4/224; Sunən Əbu Davud, 4012; Sunən ən-Nəsai, 406; Səhih əl-Cami, 1756). İbn Əbu Hatim rəvayət edir ki, əs-Suddi bu ayəni izah edərkən demişdir: "Peyğəmbərin ﷺ səhabələrindən bəziləri bu (övrət) saatlarında öz zövcələri ilə yaxınlıq etməyi, sonra da qüsl edib namaza getməyi xoşlayardılar. Elə buna görə də, Allah onlara əmr etdi ki, öz kölələrinin və övladlarının həmin saatlarda onların yanına izinsiz girməyini onlara qadağan etsinlər" (Fəthul-Qədir, 5/250).

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٤٨٣- بَابُ أَكْلِ الرَّجُلِ مَعَ امْرَأَتِهِ

## 483-cü fəsil. Kişinin öz həyat yoldaşı ilə yemək yeməsi[1]

١٠٥٣- حَدَّثَنَا الْحُمَيْدِيُّ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ مِسْعَرٍ، عَنْ مُوسَى بْنِ أَبِي كَثِيرٍ، عَنْ مُجَاهِدٍ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا قَالَتْ: كُنْتُ آكُلُ مَعَ النَّبِيِّ ﷺ حَيْسًا، فَمَرَّ عُمَرُ، فَدَعَاهُ فَأَكَلَ، فَأَصَابَتْ يَدُهُ إِصْبَعِي، فَقَالَ: حِسٍّ، لَوْ أُطَاعُ فِيكُنَّ مَا رَأَتْكُنَّ عَيْنٌ. فَنَزَلَ الْحِجَابُ.

**(1053)** ........ Mucahid rəvayət edir ki, Aişə ﵂ demişdir:[2] "*Bir dəfə* mən Peyğəmbərlə ﷺ birgə xurma halvası[3] yeyərkən, Ömər gəlib bizim yanımızdan keçdi və Peyğəmbər ﷺ onu yeməyə dəvət etdi. Ömər yeməkdən yeyərkən əli mənim barmağıma dəydi və o, *təəssüflənərək* dedi: "Ah![4] Əgər barənizdə mənə ixtiyar verilsəydi, heç bir göz sizi görməzdi." Sonra hicab ayəsi nazil oldu.[5]"

---

[1] Hərçənd, bəzi cahil kişilər öz zövcəsi ilə bir süfrədə oturub yemək yeməyi özünə sığışdırmır, lakin İslam dininə görə həyat yoldaşı ilə bir süfrədə oturmaq bəyənilən əməllərdəndir. Hətta bu əməl adama, sədəqə verməyin savabını qazandırır. Belə ki, hədislərin birində Peyğəmbər ﷺ Səd ibn Əbu Vəqqasa ﵁ demişdir: "Sən Allahın ﷻ Üzünü diləyərək, xərclədiyin hər şeyin, hətta həyat yoldaşının ağzına qoyduğun loxmanın belə əvəzini mütləq alacaqsan" (Səhih əl-Buxari, 1295). Bu loxmanı həyat yoldaşının ağzına qoymaq üçün onunla bir süfrədə oturmaq gərəkdir.

[2] Bu hədisi Nəsai (6/435/11419) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "səhih" olduğunu demişdir.

[3] Xurma halvası: xurmadan, yağdan və qurutdan, yaxud xurmadan, yağdan və undan, yaxud da xurmadan, yağdan və çörək qırıntılarından hazırlanmış Şərq şirniyyatı.

[4] Bu, ağrı, həyəcan, həsrət və s. hissləri ifadə edir.

[5] Şeyx əl-Albani demişdir: "Bu hədis əvvəlki fəsildə (1051-ci rəvayətdə) zikr edilmiş Zeynəbin ﵂ hədisinə zidd deyil. Bu iki hədisi cəm edib demək olar ki, hicab ayəsi həm bu səbəbə görə, həm də həmin səbəbə görə nazil olmuşdur. Məlumdur ki, Qurandakı

ayələrin bəzilərinin birdən çox nazil olma səbəbi olmuşdur. İbn Həcər bu iki hədisi "Fəthul-Bari" əsərində (8/531) cəm etmişdir (Səhih əl-Ədəbul-Mufrad, səh: 406).

Yeri gəlmişkən, qeyd edək ki, bu ayə kimi başqa bir neçə ayə də məhz Ömər ibn Xattabın təklifindən sonra nazil olmuşdur. Hədislərin birində rəvayət edilir ki, Ömər ibn Xattab ﷺ demişdir: "Mən üç ayədə Rəbbimə müvafiq oldum. Mən: "Ya Rəsulullah, bəlkə, İbrahimin durduğu yeri namazgah edək?"– dedim, **"İbrahimin dayandığı yeri namazgah edin!"** ("əl-Bəqərə" surəsinin 125-ci) ayəsi nazil oldu. Hicab ayəsi də həmçinin. Mən: "Ya Rəsulallah, bəlkə qadınlarına hicab geyməyi əmr edəsən? Axı, onlarla həm möminlər, həm də yaramaz insanlar danışırlar"– dedim, hicab ayəsi nazil oldu. *Üçüncüsünə gəlincə, bir dəfə* Peyğəmbərin ﷺ zövcələri əlbir olub ona qarşı qısqanclıq göstərməyə başladıqda mən onlara: **"Əgər o, sizi boşasa, Rəbbi sizin əvəzinizə ona sizdən daha yaxşı zövcələr verə bilər"**– dedim, bu ayə (ət-Təhrim, 5) nazil oldu (Səhih əl-Buxari, 402); hərçənd, bu hədisdə Ömərin ﷺ cəmi üç ayədə Rəbbinə müvafiq olduğu xəbər verilir, lakin bu, o demək deyil ki, o, ancaq bu üç ayədə Rəbbinə müvafiq olmuşdur. Bundan başqa Bədrdə əsir düşmüş müşriklər xüsusunda, habelə, münafiqlərə cənazə namazının qılınmaması və şərabın haram buyurulması xüsusunda da, Ömərin ﷺ təklifinə müvafiq ayələr nazil olmuşdur:

– İbn Abbas ﷺ rəvayət edir ki, Ömər ibn Xattab demişdir: "Bədr döyüşündə Allah müşrikləri məğlub etdiyi gün onlardan yetmiş nəfəri öldürüldü, yetmiş nəfəri də əsir götürüldü. Allahın elçisi ﷺ bu barədə Əbu Bəkr, Əli və Ömərlə məsləhətləşdi. Əbu Bəkr dedi: "Ya Rəsulullah, bu əsirlərin hamısı bizim qardaşlarımız, qohum-əqrəbalarımız və yaxınlarımızdır. Mən təklif edirəm ki, fidyə alıb onları azad edək. Bununla da qüvvəmizi artıraq. Ola bilsin ki, Allah onlara hidayət versin və onlar da bizə dayaq olsunlar." Peyğəmbər ﷺ Ömərə dedi: "Ey Xattabın oğlu, sən nə təklif edirsən?" Ömər dedi: "Mən Əbu Bəkrin dediyi ilə razı deyiləm. Mənə izin ver, filan qohumumun boynunu vurum, Əliyə izin ver, Əqilin boynunu vursun, Həmzəyə izin ver, filan qardaşının boynunu vursun və beləliklə də, qəlbimizdə onların başçılarına, sərkərdələrinə və qəhrəmanlarına qarşı mərhəmət olmadığını Allaha göstərək." Peyğəmbər ﷺ *ictihad edib* Əbu Bəkrlə razılaşdı və fidyə alıb əsirləri azad etdi. Ertəsi gün mən, Peyğəmbərin ﷺ və Əbu Bəkrin yanına gəldikdə, onların kədərli olduğunu görüb dedim: "Ya Rəsulullah, sizi kədərləndirən nədir? Deyin, mən də sizin dərdinizə şərik olum." Peyğəmbər ﷺ dedi: "Əsirlərin müqabilində götürülmüş fidyəyə görə, sənin yoldaşlarına veriləcək əzabın yaxınlıqdakı bu ağacdan daha yaxın olduğu mənə göstərildi." Uca Alah da bu ayələri nazil etdi: **"Peyğəmbərə yer üzündə *çoxlu kafir* qırmayınca, əsir götürmək yaraşmaz. Siz dünya mənfəətlərini istəyirsiniz, Allah isə axi-**

**rəti *qazanmağınızı* istəyir. Allah Qüdrətlidir, Hikmət sahibidir. Əgər Allah tərəfindən əzəldən yazılan bir hökm olmasaydı, aldığınız *fidyə* müqabilində sizə böyük bir əzab toxunardı"** (əl-Ənfal, 67-68). Yəni aldığınız fidyənin müqabilində. Sonra Uca Allah əldə edilmiş qənimətləri halal buyurdu (əl-Ənfal, 69). Növbəti il, *Bədrdə* aldığımız bu fidyəyə görə Uhud döyüşündə bəlaya düçar olduq. Bu döyüşdə yetmiş nəfər şəhid oldu, səhabələr Peyğəmbəri ﷺ qoyub qaçdılar, Peyğəmbərin ﷺ qabaq dişləri və başındakı dəmir dəbilqə sındı, üz-gözü başından axan qana bulandı. Uca Allah bu ayəni nazil etdi: **"Siz *onların başına* ikiqat müsibət gətirmiş olduğunuz halda, başınıza bir müsibət gəldiyi zaman: "Bu, haradan gəldi?"– söylədiniz. De: "Bu, sizin özünüzdəndir!" Həqiqətən, Allah hər şeyə qadirdir"** (Ali-İmran, 165) Onların başına gələn bu müsibət fidyə aldıqlarına görə idi" (Müsnəd Əhməd, 1/30; Səhih İbn Hibban, 4773; şeyx əl-Albani "Fiqhus-Sira" əsərində bu hədisin "səhih" olduğunu demişdir).

– İbn Ömər رضي الله عنهما rəvayət edir ki, Abdullah ibn Ubey vəfat etdikdən sonra onun oğlu Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah, köynəyini ver, atamı ona bürüyək, onun namazını qıl və onun üçün *Allahdan* bağışlanma dilə." Peyğəmbər ﷺ köynəyini ona verdi və dedi: "*Onu dəfn etməyə apardıqda* mənə bildirərsən, cənazə namazını qılaram." *Bir müddətdən sonra Abdullahın oğlu gəlib* Peyğəmbərə ﷺ xəbər verdi. Peyğəmbər ﷺ ona namaz qılmaq istəyəndə Ömər onun ətəyindən dartıb dedi: "Məgər, Allah münafiqlərin cənazə namazını qılmağı sənə qadağan etməyibmi?" Peyğəmbər ﷺ: "Mən *onların cənazə namazını qılıb-qılmamaqda* ixtiyar sahibiyəm!"– deyib bu ayəni oxudu: **"Onlar üçün bağışlanma diləsən də, diləməsən də, hətta, onlar üçün yetmiş dəfə bağışlanma diləsən belə, Allah onları əsla bağışlamayacaq"** (ət-Tovbə, 80), sonra da onun cənazə namazını qıldı. *Onda,* (ət-Tovbə surəsinin 84-cü) ayəsi nazil oldu: **"Heç vaxt onlardan ölmüş bir kəsin cənazə namazını qılma, qəbrinin başında da durma. Çünki onlar Allahı və Onun Elçisini inkar etdilər və günahkar olaraq öldülər"** (Səhih əl-Buxari, 1269; Səhih Muslim, 2774).

– Amr ibn əl-As رضي الله عنه rəvayət edir ki, Ömər ibn Xattab tez-tez Allaha dua edib deyərdi: "Allahım, şərabın hökmünü bizə açıq-aydın bəyan et!" Uca Allah da bu ayəni nazil etdi: **"Səndən sərxoşedici *içki* və qumar barəsində soruşurlar. De: "İkisində də həm böyük günah, həm də insanlar üçün mənfəət vardır. Amma günahları mənfəətlərindən daha böyükdür"** (əl-Bəqərə, 219). Ömər yenə dua edib deyərdi: "Allahım, şərabın hökmünü bizə açıq-aydın bəyan et!" Uca Allah bu ayəni nazil etdi: **"Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlayana qədər və *cinsi əlaqədən sonra* natəmiz olduğunuz halda, – yolda olan *müsafirlər* istisna olmaqla – qüsl edənədək namaza yaxınlaşmayın"** (ən-Nisa, 43). Ömər

**١٠٥٤-** حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ أَبِي أُوَيْسٍ قَالَ: حَدَّثَنِي خَارِجَةُ بْنُ الْحَارِثِ بْنِ رَافِعِ بْنِ مَكِيثٍ الْجُهَنِيُّ، عَنْ سَالِمِ بْنِ سَرْجٍ مَوْلَى أُمِّ صَبِيَّةَ بِنْتِ قَيْسٍ وَهِيَ خَوْلَةُ، وَهِيَ جَدَّةُ خَارِجَةَ بْنِ الْحَارِثِ، أَنَّهُ سَمِعَهَا تَقُولُ: اخْتَلَفَتْ يَدِي وَيَدُ رَسُولِ اللَّهِ ﷺ فِي إِنَاءٍ وَاحِدٍ.

**(1054)** ........ Ummu Sabiyya bint Qeysin ﵂ mövlası Salim ibn Sərc, Xaricə ibn əl-Harisin nənəsi Xovlənin[1] belə rəvayət etdiyini eşitmişdir: "Mənim əlim bir qabın içində Rəsulullahın ﷺ əlinə toxunmuşdur.[2]"[3]

---

bir daha dua edib: "Allahım, şərabın hökmünü bizə açıq-aydın bəyan et!"- dedikdə, Uca Allah bu ayəni nazil etdi: **"Ey iman gətirənlər! Şübhəsiz ki, sərxoşedici *içki* də, qumar da, *tapınmaq məqsədilə* dik qoyulmuş daşlar da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız. Həqiqətən, şeytan sərxoşedici *içki* və qumar vasitəsilə sizin aranıza ədavət və kin salmaq, sizi Allahı yad etməkdən və namazdan ayırmaq istəyər. Siz *buna* son qoyacaqsınızmı?"** Bunu eşidən Ömər: "Son qoyduq, son qoyduq"– deyə təkrar etdi" (Sunən Əbu Davud, 3670; Sunən ət-Tirmizi, 3329; Səhih ət-Tirmizi, 3255). Bu hədislərdən aydın olur ki, Ömər ibn Xattab ﵁ düz altı ayədə Rəbbinə müvafiq olmuşdur. Bu hədislər Ömər ibn Xattabın ﵁ öz Rəbbi yanında olduqca fəzilətli bir insan olduğunu bir daha sübuta yetirir. Bundan başqa, onun fəzilətinə dair kifayət qədər "səhih" hədislər varid olmuşdur ki, bunlardan birində Peyğəmbər ﷺ onu tərifləyib demişdir: "Əgər məndən sonra peyğəmbər göndərilmiş olsaydı, o, Ömər olardı" (Sunən ət-Tirmizi, 2/293; Silsilətul-Əhadisis-Səhihə, 327).

[1] Ummu Sabiyya Xovlə bint Qeys əl-Cuhəniyyə ﵂ Peyğəmbərin ﷺ səhabəsidir (əl-İsabə, 11127).

[2] Bu hadisə hicab ayəsi nazil olmamışdan əvvəl baş vermişdir.

[3] Bu hədisi Əbu Davud (78), İbn Macə (382), Əhməd (6/366), İbn Səd (ət-Təbəqatul-Kubra, 8/295), İshaq ibn Rahuyə (Musnəd, 5/236/2383), İbn Əbu Şeybə (əl-Musənnəf, 1/40), ət-Təbərani (əl-Mocəmul-Kəbir, 24/235/595 və 25/168/409) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir. Qeyd etmək lazımdır ki, bu rəvayətlərin bəzisində "dəstəmaz alarkən" sözü də əlavə edilmişdir.

## ٤٨٤– بَابُ إِذَا دَخَلَ بَيْتًا غَيْرَ مَسْكُونٍ

## 484-cü fəsil. Yaşayış olmayan evə girdikdə (nə deyilməlidir?)[1]

١٠٥٥– حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ الْمُنْذِرِ قَالَ: حَدَّثَنِي مَعْنٌ قَالَ: حَدَّثَنِي هِشَامُ بْنُ سَعْدٍ، عَنْ نَافِعٍ، أَنَّ عَبْدَ اللَّهِ بْنَ عُمَرَ قَالَ: إِذَا دَخَلَ الْبَيْتَ غَيْرَ الْمَسْكُونِ فَلْيَقُلِ: السَّلاَمُ عَلَيْنَا وَعَلَى عِبَادِ اللَّهِ الصَّالِحِينَ.

**(1055)** ........ Nafi rəvayət edir ki, İbn Ömər ﵁ demişdir: "*Qoy, sizlərdən biri* içində sakin olmayan bir evə daxil olduqda desin: "Əssəlamu aleynə və alə ibadillahissalihin![2]"[3]

١٠٥٦– حَدَّثَنَا إِسْحَاقُ قَالَ: حَدَّثَنَا عَلِيُّ بْنُ الْحُسَيْنِ قَالَ: حَدَّثَنِي أَبِي، عَنْ يَزِيدَ النَّحْوِيِّ، عَنْ عِكْرِمَةَ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: ﴿لاَ تَدْخُلُوا بُيُوتًا غَيْرَ بُيُوتِكُمْ حَتَّى تَسْتَأْنِسُوا وَتُسَلِّمُوا عَلَى أَهْلِهَا﴾،

---

[1] Uca Allah buyurur: **"Evlərə daxil olduğunuz zaman özünüzü Allah tərəfindən mübarək və çox xoş bir salamla salamlayın"** (ən-Nur, 61). Bu ayədə keçən "evlər" kəlməsi qeyri-müəyyən şəkildə ifadə edilir. Bu da, ümumi şəkildə bütün evləri – içində yaşayış olan və yaşayış olmayan evləri, habelə, həm öz evlərini, həm doğmalarının evlərini, həm də yad evləri ehtiva edir. Yeri gəlmişkən, qeyd edək ki, evə daxil olduqda, Allahın adını çəkmək – "Bismillah" demək də, həmçinin, bəyənilən əməllərdəndir. Bu xüsusda, rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ demişdir: "Adam evinə daxil olarkən və bir də yeməyə başlayarkən Allahı zikr etsə, şeytan öz yanında duranlara deyər: "*Burada* sizə nə gecələməyə yeriniz var, nə də yeməyiniz." Əgər *adam* evə daxil olduqda, Allahı zikr etməzsə, şeytan: "Siz gecələməyə yer tapdınız"– deyər. Və əgər yeməyə başladıqda, Allahı zikr etməzsə, şeytan: "Siz həm gecələməyə yer, həm də yemək tapdınız"– deyər" (Səhih Muslim, 2018; Sunən Əbu Davud, 3765; Sunən ən-Nəsai əl-Kubra, 6724 və 9935; Sunən İbn Macə, 3887; Musnəd Əhməd, 3/383; Səhih İbn Hibban, 819; Mustədrək əl-Hakim, 3515).

[2] Tərcüməsi: Bizə və əməlisaleh qullara salam olsun!

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

وَاسْتَثْنَى مِنْ ذَلِكَ، فَقَالَ: ﴿لَيْسَ عَلَيْكُمْ جُنَاحٌ أَنْ تَدْخُلُوا بُيُوتًا غَيْرَ مَسْكُونَةٍ فِيهَا مَتَاعٌ لَكُمْ وَاللهُ يَعْلَمُ مَا تُبْدُونَ وَمَا تَكْتُمُونَ﴾.

**(1056)** ........ İkrimə rəvayət edir ki, İbn Abbas ﷺ demişdir:[1] "Uca Allah: **"Ey iman gətirənlər! Özgə evlərə icazə almadan və onların sakinlərinə salam vermədən girməyin."**[2] ayəsindən istisna edib buyurur: **"İstifadə edəcəyiniz və yaşayış üçün olmayan evlərə *izinsiz* daxil olmaq sizin üçün günah deyildir.[3] Allah sizin aşkara çıxardığınızı da, gizlində saxladığınızı da bilir"**[4]

---

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[2] "ən-Nur" surəsi, 27.

[3] Bu, dəlildir ki, içində sakini olmayan evlərə daxil olduqda izin istəmək vacib deyil.

[4] "ən-Nur" surəsi, 29.

## ٤٨٥- بَابُ ﴿لِيَسْتَأْذِنْكُمُ الَّذِينَ مَلَكَتْ أَيْمَانُكُمْ﴾

## 485-ci fəsil. “Sahib olduğunuz kölələr *yanınıza girmək istədikdə,* qoy, sizdən izin istəsinlər”[1]

١٠٥٧- حَدَّثَنَا عُثْمَانُ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ الْيَمَانِ، عَنْ شَيْبَانَ، عَنْ لَيْثٍ، عَنْ نَافِعٍ، عَنِ ابْنِ عُمَرَ: ﴿لِيَسْتَأْذِنْكُمُ الَّذِينَ مَلَكَتْ أَيْمَانُكُمْ﴾، قَالَ: هِيَ لِلرِّجَالِ دُونَ النِّسَاءِ.

**(1057)** ........ Nafi rəvayət edir ki, İbn Ömər ﷺ demişdir: Uca Allahın **“Sahib olduğunuz kölələr** *yanınıza girmək istədikdə,* **qoy, sizdən izin istəsinlər”** ayəsi qadınlara yox, ancaq kişilərə aiddir.[2]

---

[1] “ən-Nur” surəsi, 58.

[2] Bu hədisin isnadında keçən Yəhya ibn əl-Yəman və Leys ibn Əbu Suleym “zəif” ravilər olduqlarından, Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində (səh: 93) bu hədisin isnadının “zəif” olduğunu söyləmiş, sonra demişdir: “Bu hədisi, həmçinin, İbn Cərir öz “Təfsir”ində (18/124) İbn Ömərdən ﷺ rəvayət etmişdir. Lakin elə həmin əsərdə Əbu Abdur-Rəhman əs-Suləmidən bunun əksini rəvayət etmişdir. Həmin rəvayətdə İbn Ömər ﷺ demişdir: “Bu, həm kişilərə, həm də qadınlara aiddir.” Bu hədisin isə isnadı “səhih”dir. İbn Cərir: “Bu səhihdir”– demişdir...” (1063-cü hədisə bax. Həmin hədisdə İbn Abbas ﷺ bu hökmün bütün insanlara vacib olduğunu demişdir).

Bundan da aydın olur ki, izin istəməyə dair nazil olmuş bu ayə həm kişilərə, həm də qadınlara aiddir.

## ٤٨٦- بَابُ قَوْلِ اللَّهِ: ﴿وَإِذَا بَلَغَ الْأَطْفَالُ مِنْكُمُ الْحُلُمَ﴾

## 486-cı fəsil. Allahın ﷻ: "Sizin uşaqlar da həddi-büluğa çatanda..." kəlamı [1]

١٠٥٨- حَدَّثَنَا مَطَرُ بْنُ الْفَضْلِ قَالَ: حَدَّثَنَا يَزِيدُ بْنُ هَارُونَ، عَنْ هِشَامٍ الدَّسْتُوَائِيِّ، عَنْ يَحْيَى بْنِ أَبِي كَثِيرٍ، عَنْ نَافِعٍ، عَنِ ابْنِ عُمَرَ، أَنَّهُ كَانَ إِذَا بَلَغَ بَعْضُ وَلَدِهِ الْحُلُمَ عَزَلَهُ، فَلَمْ يَدْخُلْ عَلَيْهِ إِلا بِإِذْنٍ.

**(1058)** ........ Yəhya ibn Əbu Kəsir rəvayət edir ki, Nafi demişdir: "İbn Ömərin övladı həddi-büluğa çatdıqda o onun yatağını ayırar və *uşaq* izinsiz otağa daxil olmazdı."[2]

---

[1] "ən-Nur" surəsi, 59. Ayənin tamamında "**qoy, özlərindən əvvəlkilər** ***yanınıza girmək üçün*** **izin istədikləri kimi izin istəsinlər**" buyurulur. Bu da dəlildir ki, uşaq həddi-büluğa çatdıqda artıq kişilərə və qadınlara vacib buyurulan hökm ona da aid edilir. Bundan da aydın olur ki, uşaqlar həddi-büluğa çatanadək yalnız üç övrət vaxtında izin istəməli, həddi-büluğa yetişdikdən sonra artıq hər zaman izin istəməlidirlər.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٤٨٧– بَابُ يَسْتَأْذِنُ عَلَى أُمِّهِ

## 487-ci fəsil. Adam anasının yanına daxil olmaq üçün izin istəməlidir[1]

١٠٥٩– حَدَّثَنَا مُحَمَّدُ بْنُ يُوسُفَ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنِ الأَعْمَشِ، عَنْ إِبْرَاهِيمَ، عَنْ عَلْقَمَةَ قَالَ: جَاءَ رَجُلٌ إِلَى عَبْدِ اللَّهِ قَالَ: أَسْتَأْذِنُ عَلَى أُمِّي؟ فَقَالَ: مَا عَلَى كُلِّ أَحْيَانِهَا تُحِبُّ أَنْ تَرَاهَا.

**(1059)** ........ İbrahim rəvayət edir ki, Əlqəmə demişdir: "Bir nəfər Abdullahın[2] yanına gəlib dedi: "Mən anamın yanına daxil olmaq üçün izin almalıyammı?" *Abdullah* dedi: "Məgər, sən onu hər bir halında[3] görmək istəyərsənmi?"[4]

١٠٦٠– حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ أَبِي إِسْحَاقَ قَالَ: سَمِعْتُ مُسْلِمَ بْنَ نَذِيرٍ يَقُولُ: سَأَلَ رَجُلٌ حُذَيْفَةَ فَقَالَ: أَسْتَأْذِنُ عَلَى أُمِّي؟ فَقَالَ: إِنْ لَمْ تَسْتَأْذِنْ عَلَيْهَا رَأَيْتَ مَا تَكْرَهُ.

**(1060)** ........ Əbu İshaq rəvayət edir ki, Muslim ibn Nəzir demişdir: "Bir nəfər Huzeyfədən[5] soruşdu: "Anamın yanına daxil olmaq üçün izin istəməliyəmmi?" *Huzeyfə* dedi: "Ananın yanına izin istəmədən girsən, xoşuna gəlməyən şey görə bilərsən.[6]"[7]

---

[1] Uşaqlar yalnız üç övrət vaxtında, həddi-büluğa çatmış kəslər isə hər zaman analarının yanına daxil olmaq istədikdə izin istəməlidirlər.

[2] Yəni İbn Məsud ﷺ.

[3] Burada "hər bir halında" deyildikdə, onun libassız olduğu hallar nəzərdə tutulur.

[4] Şeyx Muhəmməd Nasirəddin əl-Albani bu hədisin isnadının "səhih" olduğunu söyləmiş, sonra demişdir: "Bu hədisi həmçinin, ət-Təbərani "Musnəduş-Şamiyyin" əsərində də (səh: 360) rəvayət etmişdir. Həmin hədisdə Huzeyl ibn Şərəhbil rəvayət etmişdir ki, İbn Məsud ﷺ demişdir: "Analarınızın yanına daxil olmaq istədiyiniz zaman izin istəyin!" (Səhih əl-Ədəbul-Mufrad, səh: 408).

[5] Yəni İbn əl-Yəman ﷺ.

[6] Yəni otağa qəfil daxil olsan onu çılpaq, yaxud çarpayıda uzanmış va ya başqa bu kimi vəziyyətdə görə bilərsən.

[7] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

## ٤٨٨- بَابُ يَسْتَأْذِنُ عَلَى أَبِيهِ

## 488-ci fəsil. Adam atasının yanına daxil olmaq üçün izin istəməlidir[1]

١٠٦١- حَدَّثَنَا فَرْوَةُ قَالَ: حَدَّثَنَا الْقَاسِمُ بْنُ مَالِكٍ، عَنْ لَيْثٍ، عَنْ عُبَيْدِ اللَّهِ، عَنْ مُوسَى ابْنِ طَلْحَةَ قَالَ: دَخَلْتُ مَعَ أَبِي عَلَى أُمِّي، فَدَخَلَ فَاتَّبَعْتُهُ ، فَالْتَفَتَ فَدَفَعَ فِي صَدْرِي حَتَّى أَقْعَدَنِي عَلَى اسْتِي، قَالَ: أَتَدْخُلُ بِغَيْرِ إِذْنٍ؟

**(1061)** ........ Ubeydullah rəvayət edir ki, Musa ibn Təlhə ﷺ demişdir: "Mən atamla birgə anamın yanına daxil olmaq istədim və atam içəri daxil olduqda, onun ardınca getdim. O, mənə tərəf döndü, məni sinəmdən itələyib yanım üstə yerə oturtdu (və etirazını bildirib) dedi: "İzinsiz içəri daxil olursan?!"[2]

---

[1] Bu xüsusda, da həmçinin, uşaqlar yalnız üç övrət vaxtında, həddi-büluğa çatmış kimsələr isə hər zaman atalarının yanına daxil olmaq istədikdə izin istəməlidirlər. Şeyx Muhəmməd Nasirəddin əl-Albani demişdir: "Bu kitabın Hindistan və digər nüsxələrində "atasının" sözü nəql edilmişdir. Lakim düşünürəm ki, burada daha doğru olanı "anasının" kəlməsidir. Bu fəsildəki hədis, habelə, bundan sonra gələn fəsilin ünvanı da buna dəlalət edir" (Daif əl-Ədəbul-Mufrad, səh: 94). Lakin qeyd edək ki, bu hökm valideynlərin hər ikisinə şamil edilir. Bu xüsusda, Uca Allah buyurur: **"Ey iman gətirənlər! Sahib olduğunuz kölələr və həddi-büluğa çatmayanlar** ***yanınıza girmək istədikdə*****, qoy, üç vaxtda sizdən izin istəsinlər: sübh namazından əvvəl, günorta paltarınızı çıxartdığınız zaman və gecə namazından sonra.** ***Bu,*** **sizin çılpaq ola biləcəyiniz üç vaxtdır. Qalan vaxtlarda bir-birinizin yanına** ***icazəsiz*** **girməkdə nə sizə, nə də onlara heç bir günah gəlməz. Allah ayələri sizə belə izah edir. Allah Biləndir, Hikmət sahibidir. Sizin uşaqlar da həddi-büluğa çatanda, qoy, özlərindən əvvəlkilər** ***yanınıza girmək üçün*** **izin istədikləri kimi izin istəsinlər. Allah Öz ayələrini sizə belə izah edir. Allah Biləndir, Hikmət sahibidir"** (ən-Nur, 58-59).

[2] Bu hədisin isnadında keçən Leys "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif", üstəlik "mövquf" olduğunu demişdir.

## ٤٨٩- بَابُ يَسْتَأْذِنُ عَلَى أَبِيهِ وَوَلَدِهِ

## 489-cu fəsil. Adam atasının və övladının yanına daxil olmaq üçün izin istəməlidir

**١٠٦٢-** حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ أَبَانَ قَالَ: حَدَّثَنَا عَلِيُّ بْنُ مُسْهِرٍ، عَنْ أَشْعَثَ، عَنْ أَبِي الزُّبَيْرِ، عَنْ جَابِرٍ قَالَ: يَسْتَأْذِنُ الرَّجُلُ عَلَى وَلَدِهِ، وَأُمِّهِ، وَإِنْ كَانَتْ عَجُوزًا، وَأَخِيهِ، وَأُخْتِهِ، وَأَبِيهِ.

**(1062)** ........ Cabir ﷺ demişdir: "Adam öz övladının, anasının, – hətta o, qoca olsa belə, – həmçinin, qardaşının, bacısının və atasının yanına daxil olmaq üçün izin istəməlidir."[1]

---

[1] Bu hədisin isnadında keçən Əşəs ibn Səvvar "zəif" və Əbu Zubeyr "mudəllis" ravi olduqlarına görə Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif", həm də "movquf" olduğunu demişdir. Hədisin isnadı "zəif" olsa da, mətninin mənası "səhih"dir. Yəni adam öz atasının, anasının, övladının, qardaşının, bacısının, dayısının, xalasının, əmisinin, bibisinin, hətta babasının və nənəsinin otağına daxil olmaq istədiyi zaman izin istəməlidir. "ən-Nur" surəsinin 58-ci və 59-cu ayələri buna dəlalət edir (əvvəlki hədisin qeydlərinə bax).

# ٤٩٠ – بَابُ يَسْتَأْذِنُ عَلَى أُخْتِهِ

## 490-cu fəsil. Adam bacısının yanına daxil olmaq üçün izin istəməlidir

١٠٦٣ – حَدَّثَنَا الْحُمَيْدِيُّ قَالَ: حَدَّثَنَا سُفْيَانُ قَالَ: حَدَّثَنَا عَمْرٌو، وَابْنُ جُرَيْجٍ، عَنْ عَطَاءٍ قَالَ: سَأَلْتُ ابْنَ عَبَّاسٍ فَقُلْتُ: أَسْتَأْذِنُ عَلَى أُخْتِي؟ فَقَالَ: نَعَمْ، فَأَعَدْتُ فَقُلْتُ: أُخْتَانِ فِي حِجْرِي، وَأَنَا أَمُوِّنُهُمَا وَأُنْفِقُ عَلَيْهِمَا، أَسْتَأْذِنُ عَلَيْهِمَا؟ قَالَ: نَعَمْ، أَتُحِبُّ أَنْ تَرَاهُمَا عُرْيَانَتَيْنِ؟ ثُمَّ قَرَأَ: ﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لِيَسْتَأْذِنْكُمُ الَّذِينَ مَلَكَتْ أَيْمَانُكُمْ﴾ إِلَى ﴿ثَلَاثُ عَوْرَاتٍ لَكُمْ﴾، قَالَ: فَلَمْ يُؤْمَرْ هَؤُلَاءِ بِالْإِذْنِ إِلَّا فِي هَذِهِ الْعَوْرَاتِ الثَّلَاثِ، قَالَ: ﴿وَإِذَا بَلَغَ الْأَطْفَالُ مِنْكُمُ الْحُلُمَ فَلْيَسْتَأْذِنُوا كَمَا اسْتَأْذَنَ الَّذِينَ مِنْ قَبْلِهِمْ﴾.

قَالَ ابْنُ عَبَّاسٍ: فَالْإِذْنُ وَاجِبٌ. زَادَ ابْنُ جُرَيْجٍ: عَلَى النَّاسِ كُلِّهِمْ.

**(1063)** ........ İbn Cureyc rəvayət edir ki, Əta demişdir: "*Bir dəfə* Mən İbn Abbasdan: "Mən bacımın yanına girmək üçün izin istəməliyəmmi?"– deyə soruşdum. *İbn Abbas*: "Bəli!"– deyə cavab verdi. Yenə soruşdum: "Mənim himayəmdə iki bacım var. Mən onları yemək-içməklə təmin edir, *malımdan* onlara xərcləyirəm. Onların yanına girmək üçün izin istəməliyəmmi?" *İbn Abbas* dedi: "Bəli, (izn istəməlisən)! Əcəba, sən onları lüt görmək istəyərsənmi?!" Sonra İbn Abbas bu ayəni oxudu: **"Ey iman gətirənlər! Sahib olduğunuz kölələr və həddi-büluğa çatmayanlar** *yanınıza girmək istədikdə,* **qoy, üç vaxtda sizdən izin istəsinlər: sübh namazından əvvəl, günorta paltarınızı çıxartdığınız zaman və gecə namazından sonra.** *Bu,* **sizin çılpaq ola biləcəyiniz üç vaxtdır."**[1] Onlara yalnız bu üç vaxtda izin

---

[1] "ən-Nur" surəsi, 58.

istəmək əmr edildi. Sonra bu ayəni oxudu: **"Sizin uşaqlar da həddi-büluğa çatanda, qoy, özlərindən əvvəlkilər *yanınıza girmək üçün* izin istədikləri kimi izin istəsinlər."**[1] Sonra İbn Abbas dedi: "İzin istəmək vacibdir."

İbn Cureyc əlavə edib dedi: "Bütün insanlara."[2]

---

[1] "ən-Nur" surəsi, 59.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir (əvvəlki üç fəsildəki hədislərin qeydlərinə bax).

## ٤٩١- بَابُ يَسْتَأْذِنُ عَلَى أَخِيهِ

## 491-ci fəsil. Adam qardaşının yanına daxil olmaq üçün izin istəməlidir

**١٠٦٤-** حَدَّثَنَا قُتَيْبَةُ قَالَ: حَدَّثَنَا عَبْثَرٌ، عَنْ أَشْعَثَ، عَنْ كُرْدُوسٍ، عَنْ عَبْدِ اللَّهِ قَالَ: يَسْتَأْذِنُ الرَّجُلُ عَلَى أَبِيهِ، وَأُمِّهِ، وَأَخِيهِ، وَأُخْتِهِ.

**(1064)** ........ Abdullah[1] ﵁ demişdir: "Adam öz atasının, anasının, qardaşının və bacısının yanına girmək üçün izin istəməlidir."[2]

---

[1] Yəni İbn Məsud ﵁.

[2] Bu hədisin isnadında keçən Əşəs ibn Səvvar "zəif" və Kurdus "halı bəlli olmayan" ravi olduqlarından, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif", həm də "movquf" olduğunu demişdir. Qeyd edək ki, bu hədisin isnadı "zəif" olsa da, mənası "səhih"dir (1059-cu, 1060-cı, 1061-ci, 1062-ci və 1063-cü hədislərin qeydlərinə bax).

## ٤٩٢ – بَابُ الاسْتِئْذَانِ ثَلاثًا

## **492-ci fəsil.** (Otağa daxil olmaq üçün) **üç dəfə izin istənilməlidir**[1]

**١٠٦٥**– حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلامٍ قَالَ: أَخْبَرَنَا مَخْلَدٌ قَالَ: أَخْبَرَنَا ابْنُ جُرَيْجٍ قَالَ: أَخْبَرَنِي عَطَاءٌ، عَنْ عُبَيْدِ بْنِ عُمَيْرٍ، أَنَّ أَبَا مُوسَى الأَشْعَرِيَّ اسْتَأْذَنَ عَلَى عُمَرَ بْنِ الْخَطَّابِ، فَلَمْ يُؤْذَنْ لَهُ، وَكَأَنَّهُ كَانَ مَشْغُولًا، فَرَجَعَ أَبُو مُوسَى، فَفَرَغَ عُمَرُ فَقَالَ: أَلَمْ أَسْمَعْ صَوْتَ عَبْدِ اللَّهِ بْنِ قَيْسٍ؟ إِيذَنُوا لَهُ، قِيلَ: قَدْ رَجَعَ، فَدَعَاهُ، فَقَالَ: كُنَّا نُؤْمَرُ بِذَلِكَ، فَقَالَ: تَأْتِينِي عَلَى ذَلِكَ بِالْبَيِّنَةِ، فَانْطَلَقَ إِلَى مَجْلِسِ الأَنْصَارِ فَسَأَلَهُمْ، فَقَالُوا: لاَ يَشْهَدُ لَكَ عَلَى هَذَا إِلاَّ أَصْغَرُنَا: أَبُو سَعِيدٍ الْخُدْرِيُّ، فَذَهَبَ بِأَبِي سَعِيدٍ، فَقَالَ عُمَرُ: أَخَفِيَ عَلَيَّ مِنْ أَمْرِ رَسُولِ اللَّهِ ﷺ؟ أَلْهَانِي الصَّفْقُ بِالأَسْوَاقِ، يَعْنِي الْخُرُوجَ إِلَى التِّجَارَةِ.

**(1065)** ........ Ubeyd ibn Umeyr rəvayət edir ki,[2] *bir gün* Əbu Musa əl-Əşari, Ömər ibn Xattabın yanına daxil olmaq üçün *üç dəfə* izin istədi, lakin ona izin verilmədi. Ola bilsin ki, Ömər məşğul idi. Əbu Musa dönüb getdi.[3] Ömər işini qurtardıqdan sonra dedi: "Mən Abdullah ibn Qeysin[4] səsini eşitmirəm? Ona izin verin gəlsin."[5] *Ömərə*: "O çıxıb getdi"– dedilər. Onda, Ömər onu öz yanına çağırtdı (və ondan dönüb getməsinin səbəbini soruş-

---

[1] Yəni adam qapını üç dəfə döyməklə, yaxud üç dəfə uca səslə çağırmaqla içəri girmək üçün izin istəməli və əgər ona izin verilərsə, içəri daxil olmalı, əks halda isə, dönüb getməlidir. Üstəlik, ona izin verilmədiyinə görə ev sahibi barəsində pis zənnə qapılmamalı, əksinə, onun üçün yetmiş cür üzr axtarmalıdır.

[2] Bu hədisi müəllif öz "Səhih"ində də (2062) rəvayət etmişdir.

[3] Burada səhabə Peyğəmbərin ﷺ Sünnəsini tətbiq edir.

[4] Ömər ibn Xattab ؓ Əbu Musa əl-Əşarini ؓ qəsd edir.

[5] Bundan aydın olur ki, Ömər ibn Xattab ؓ Əbu Musa əl-Əşarinin ؓ gəldiyini bilirdi, lakin məşğul olduğundan, ona izin verilməsini yubatmışdı.

du). Əbu Musa dedi: "Bizə belə əmr edilərdi:[1] Ömər dedi: "Bu dediyini əsaslandırmaq üçün dəlil gətirməlisən.[2]" Əbu Musa ənsarın məclisinə gəlib onlardan *şahidlik edəcək kimsə barədə* soruşdu. Onlar dedilər: "Buna bizim ən kiçiyimiz – Əbu Səid əl-Xudri şahidlik edər." Beləliklə, Əbu Musa Əbu Səidlə birgə Ömərin yanına gəldi.[3] Ömər dedi: "Peyğəmbərin ﷺ əmrlərindən məndən gizli qalanımı var?![4] Bazarlarda olan alver məni bu əmrdən yayındırmışdır.[5]"

---

[1] Bu xüsusda, Rəsulullah ﷺ belə buyurmuşdur: "Sizdən biriniz üç dəfə izin istədikdən sonra ona izin verilməsə, qoy, dönüb getsin!" (Səhih əl-Buxari, 6245; Səhih Muslim, 6/177-179; Sunən Əbu Davud, 5180 və 5184; Sunən ət-Tirmizi, 2690; Sunən İbn Macə, 3706; Musnəd Əhməd, 3/6 və 19 Sunən əd-Darimi, 2/274; Səhih İbn Hibban, 5776)

[2] Şeyx Muhəmməd Nasirəddin əl-Albani demişdir: "Müəllifin nəql etdiyi digər rəvayətdə, habelə, Muslimin rəvayətində: "Yoxsa səni cəzalandıracağam" əlavəsi də rəvayət edilmişdir (Səhih əl-Buxari 7353; Səhih Muslim, 5757). Həmçinin, Muslimin "Səhih"ində (5753) nəql etdiyi digər rəvayətdə deyilir ki, Ömər ibn Xattab ؓ demişdir: "Səni qamçılayacağam, ya da bu dediyinə şahidlik edəcək bir adam gətirəcəksən" (Səhih əl-Ədəbul-Mufrad, səh: 409). Qeyd etmək lazımdır ki, Ömər ibn Xattab ؓ bu sözü Əbu Musaya ؓ, ona inanmadığına, yaxud onun sözünə şəkk etdiyinə görə yox, sadəcə onun özünün arxayın olması və bu rəvayətin "səhih" olduğunu bir daha təsdiqləməsi üçün demişdir. Həmçinin, o, belə etmişdir ki, səhabələrdən sonra gələnlər Peyğəmbərin ﷺ adından yalan danışmağa cürət etməsinlər.

[3] İmam Buxari (7353) və Muslimin (5757) "Səhih"lərindəki rəvayətdə deyilir ki, Əbu Səid əl-Xudri ؓ Ömər ibn Xattaba ؓ: "Bizə belə əmr edilərdi"– demişdir.

[4] Ömər ibn Xattabın ؓ yaşca kiçik, həm də öz tabeçiliyində olan səhabələrin yanında özünü bu şəkildə qınaması, onun olduqca təvazökar, üstəlik, haqqa boyun əyən bir insan olduğundan xəbər verir.

[5] Ömər ibn Xattabın ؓ bu sözü o demək deyil ki, o çox vaxt ticarətlə məşğul olmuş, vaxtının az bir hissəsini Peyğəmbərin ﷺ yanında keçirmişdir. Əksinə, o, Peyğəmbərə ﷺ ən yaxın olan səhabələrdən biridir. Bu xüsusda, rəvayət edilmiş hədisdə İbn Abbas ؓ demişdir: "Ömər ibn Xattab ölüm ayağında ikən mən onun yanına yığışıb ona dua edənlə-

(Ravi bunu izah edib demişdir): "Yəni ticarətlə məşğul olmaq."

---

rin arasında idim. Birdən, bir nəfərin arxamda durub, dirsəyini çiynimə qoyub belə dediyini eşitdim: "Allah sənə rəhmət eləsin! Mən həmişə arzulamışam ki, sən dostlarınla bir yerdə olasan. Çünki mən Peyğəmbərin ﷺ çox vaxt belə dediyini eşidərdim: "Mən, Əbu Bəkr və Ömərlə *filan yerdə* idim. Mən, Əbu Bəkr və Ömərlə *filan işi* gördüm. Mən, Əbu Bəkr və Ömərlə *filan yerə* getdim." Mən ümid edirdim ki, Allah səni onlara qovuşduracaq." İbn Abbas dedi: "Mən dönüb baxdım ki, bu, Əli ibn Əbu Talibdir" (Səhih əl-Buxari, 3677).

Bu hədisdən aydın olur ki, Ömər ibn Xattab ﵁ vaxtının çox hissəsini Peyğəmbərin ﷺ yanında keçirmişdir. Hətta bəzi rəvayətlərdə xəbər verilir ki, o, Peyğəmbərin ﷺ yanında olmadığı vaxtlarda, onun yanında olan adamlardan məclisdə gedən söhbətlər barədə xəbər alardı. Rəvayət edilir ki, Ömər ﵁ demişdir: "Mən və ənsardan olan bir qonşum Bənu Ümeyyə ibn Zeyd tayfasında – Mədinənin yaxınlığında yerləşən bir kənddə qalırdıq. Biz növbə ilə Peyğəmbərin ﷺ yanına gedərdik. Bir gün o gedər, bir gün də mən gedərdim. Mən Peyğəmbərin ﷺ yanına getdikdə, həmin gün nazil olan vəhyləri və digər xəbərləri *qonşuma* çatdırar, həmçinin, o, Peyğəmbərin ﷺ yanına getdikdə, həmin gün nazil olan vəhyləri və digər xəbərləri mənə çatdırardı..." (Səhih əl-Buxari, 89).

Muallimi bu hədisi izah edərkən demişdir: "Bu hadisədə Ömər ibn Xattabın Əbu Musa əl-Əşari ilə sərt davranmasına gəlincə, qeyd etmək lazımdır ki, bunun səbəbi var idi. Səbəbi o idi ki, bu hökm – içəri daxil olmaq üçün izin istəmək məsələsi, müsəlmanlar arasında vüsət almış bir məsələ olduğundan, Ömərin ﵁ uzun müddət Peyğəmbərin ﷺ ən yaxın səhabəsi olduğu halda bu hökmdən xəbərsiz qalması ona qəribə gəlir. Odur ki, Əbu Səid bu haqda Ömərə xəbər verdikdə, o özünü qınayıb demişdir: "Peyğəmbərin ﷺ əmrlərindən məndən gizli qalanımı var?! Bazarlarda olan alış-veriş məni bu əmrdən yayındırmışdır" (Ənvarul-Kaşifə, 1/69). Hətta rəvayət edilir ki, bu hadisədən sonra Ubeyy ibn Kəb ﵁ Ömər ibn Xattabı ﵁, Əbu Musa əl-Əşari ilə sərt davrandığına görə qınamış, o da: "Mən eşitdiyim bir xəbəri dəqiqləşdirmək üçün belə etdim"– deyə üzrxahlığını bildirmişdir (Səhih Muslim, 2154).

# ٤٩٣ – بَابُ الاسْتِئْذَانُ غَيْرُ السَّلامِ

## 493-cü fəsil. İzin istəmək salamdan əlavədir

١٠٦٦ – حَدَّثَنَا بَيَانُ قَالَ: حَدَّثَنَا يَزِيدُ قَالَ: حَدَّثَنَا عَبْدُ الْمَلِكِ بْنُ أَبِي سُلَيْمَانَ، عَنْ عَطَاءٍ، عَنْ أَبِي هُرَيْرَةَ فِيمَنْ يَسْتَأْذِنُ قَبْلَ أَنْ يُسَلِّمَ قَالَ: لاَ يُؤْذَنُ لَهُ حَتَّى يَبْدَأَ بِالسَّلامِ.

**(1066)** ........ Əta rəvayət edir ki, Əbu Hureyrə ﷺ salam verməzdən əvvəl izin istəyən kimsə barədə demişdir: "Salam verməyincə, ona *içəri girmək üçün* izin verilməsin.[1]"[2]

١٠٦٧ – حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ مُوسَى قَالَ: أَخْبَرَنَا هِشَامٌ، أَنَّ ابْنَ جُرَيْجٍ أَخْبَرَهُمْ قَالَ: سَمِعْتُ عَطَاءً، قَالَ: سَمِعْتُ أَبَا هُرَيْرَةَ يَقُولُ: إِذَا دَخَلَ وَلَمْ يَقُلِ: السَّلاَمُ عَلَيْكُمْ، فَقُلْ: لاَ، حَتَّى يَأْتِيَ بِالْمِفْتَاحِ: السَّلامِ.

**(1067)** ........ Əta rəvayət edir ki, Əbu Hureyrə ﷺ demişdir: "Birisi içəri daxil olduqda: "Əssəlamu aleykum!"– deməsə, açarı, *yəni* salamı gətirməyincə ona: "Yox, *içəri girmək olmaz*!"– de."[3]

---

[1] İbn Ömər ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Söhbətə başlamazdan əvvəl salam vermək gərəkdir. Odur ki, kim sizə salam verməzdən qabaq sual verərsə, ona cavab verməyin!" (əl-Kamil, 2/303; Silsilətul-Əhadisis-Səhihə, 816); digər rəvayətdə o, belə buyurmuşdur: "Salam verməyən kimsəyə *içəri daxil omağa* izin verməyin!" (Musənnəf İbn Əbu Şeybə, 26345; Şoəbul-İman, 8433; Əxbaru Əsbəhan, 1/357; Silsilətul-Əhadisis-Səhihə, 817).

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٤٩٤- بَابُ إِذَا نَظَرَ بِغَيْرِ إِذْنٍ تُفْقَأُ عَيْنُهُ

## 494-cü fəsil. İzin almadan (başqasının evinin içinə) baxan adamın gözü çıxarılmalıdır

**١٠٦٨-** حَدَّثَنَا أَبُو الْيَمَانِ قَالَ: أَخْبَرَنَا شُعَيْبٌ قَالَ: حَدَّثَنَا أَبُو الزِّنَادِ، عَنِ الأَعْرَجِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((لَوِ اطَّلَعَ رَجُلٌ فِي بَيْتِكَ، فَخَذَفْتَهُ بِحَصَاةٍ فَفَقَأْتَ عَيْنَهُ، مَا كَانَ عَلَيْكَ جُنَاحٌ)).

**(1068)** ........ Əbu Hureyrə ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Əgər bir adam *sənin iznin olmadan* sənin evinə boylansa, sən də daş atıb onun gözünü çıxartsan,[1] *buna görə* sənə günah yazılmaz."[2]

**١٠٦٩-** حَدَّثَنَا حَجَّاجٌ قَالَ: حَدَّثَنَا حَمَّادٌ قَالَ: حَدَّثَنَا إِسْحَاقُ بْنُ عَبْدِ اللَّهِ، عَنْ أَنَسٍ قَالَ: كَانَ النَّبِيُّ ﷺ قَائِمًا يُصَلِّي، فَاطَّلَعَ رَجُلٌ فِي بَيْتِهِ، فَأَخَذَ سَهْمًا مِنْ كِنَانَتِهِ، فَسَدَّدَ نَحْوَ عَيْنَيْهِ.

**(1069)** ........ Ənəs ؓ demişdir: "*Bir dəfə* Peyğəmbər ﷺ ayaq üstə namaz qılırdı. Elə bu vaxt bir nəfər onun evinə boylandı.[3] Peyğəmbər ﷺ ox qabından bir ox çıxarıb onun gözünə tərəf yönəltdi. [4]"[5]

---

[1] Qeyd edək ki, ümumiyyətlə, bir kimsəyə daş atmaq qadağan edilmişdir (905-ci hədisin qeydlərinə bax). Bu hədisdəki hökm isə xüsusidir. Yəni bu halda adamı daşla vurmaq caizdir.

[2] Bu hədisi imam Buxari öz "Səhih"ində də (6888) rəvayət etmişdir.

[3] İmam Əhmədin "Musnəd" əsərində (3/178) "dəlikdən içəri baxdı" əlavəsi rəvayət edilmişdir. (Şueyb əl-Arnaut, bu hədisin isnadının "səhih"– Buxarinin şərtinə uyğun olduğunu demişdir.

[4] Hədisin tamamında deyilir: "Bədəvi geri çəkildi. Sonra Peyğəmbər ﷺ dedi: "Əgər çəkilməsəydin, gözünü çıxardardım" (1091-ci hədisə bax).

[5] Bu hədisi Buxari (6889) və Muslim (6/181) rəvayət etmişdir. Qeyd edək ki, həmin rəvayətdə "namaz qılardı" sözü zikr edilməmişdir. Bu əlavə İmam Əhmədin "Musnəd" əsərində (3/191) rəvayət edilmişdir.

## ٤٩٥- بَابُ الاسْتِئْذَانُ مِنْ أَجْلِ النَّظَرِ

## 495-ci fəsil. Baxmaq üçün izin istəmək[1]

١٠٧٠- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنَا اللَّيْثُ قَالَ: حَدَّثَنِي ابْنُ شِهَابٍ، أَنَّ سَهْلَ ابْنَ سَعْدٍ أَخْبَرَهُ، أَنَّ رَجُلًا اطَّلَعَ مِنْ جُحْرٍ فِي بَابِ النَّبِيِّ ﷺ، وَمَعَ النَّبِيِّ ﷺ مِدْرًى يَحُكُّ بِهِ رَأْسَهُ، فَلَمَّا رَآهُ النَّبِيُّ ﷺ قَالَ: ((لَوْ أَعْلَمُ أَنَّكَ تَنْظُرُنِي لَطَعَنْتُ بِهِ فِي عَيْنِكَ)).

**(1070)** ........ Səhl ibn Səd ﷺ rəvayət edir ki, bir dəfə kimsə Peyğəmbərin ﷺ qapısındakı yarıqdan içəri baxdı. Peyğəmbərin ﷺ yanında başını qaşıdığı uzundişli bir darağı var idi. Peyğəmbər ﷺ bu adamı gördükdə dedi: "Əgər mənə baxdığını bilsəydim, bunu sənin gözünə soxardım.[2]"[3]

١٠٧١- وَقَالَ النَّبِيُّ ﷺ: ((إِنَّمَا جُعِلَ الإِذْنُ مِنْ أَجْلِ الْبَصَرِ)).

**(1071)** ........ Peyğəmbər ﷺ demişdir:[4] "Göz *haram buyurulanları* görməsin deyə, izin istəmək vacib buyuruldu.[5]"

---

[1] Yəni göz haram buyurulanları görməsin deyə, izin istəmək vacib buyurulmuşdur. Odur ki, Peyğəmbər ﷺ yad bir evə daxil olmaq üçün qapıya yaxınlaşıb izin istədikdə, üzünü qapıya tərəf tutmazdı. O, ya sağ tərəfə, ya da sol tərəfə yönələrdi. Ona izin verilsəydi, içəri keçər, əks halda isə, qayıdıb gedərdi (1078-ci hədisin qeydlərinə bax).

[2] Peyğəmbərin ﷺ bu sözü dəlildir ki, izinsiz olaraq yad evə baxan kimsəni belə cəzalandırmaq gərəkdir. Çünki başqasının övrətinə baxmaq cinayətdir. Peyğəmbərin ﷺ bu sözündən aydın olur ki, insanın gözü Allaha qulluq etmək üçün yaradılmışdır. Və əgər adam bu gözü haram işlərə sərf edərsə, o anda onun olmaması, olmasından daha xeyirli sayılar.

[3] Bu hədisi Buxari (5924 və 6901), Muslim (6/180-181), Tirmizi (2710), Nəsai (253/2), Əhməd (5/330-331), Darimi (2/198), İbn Hibban (5779), Beyhəqi (3/338), Humeydi (2/412/924) və Əbu Yə'lə (7510) rəvayət etmişdir.

[4] Bu, əvvəlki hədisin davamıdır.

[5] Bundan aydın olur ki, yad bir evə daxil olmaq və ya içərisinə baxmaq üçün izin istəmək vacibdir. Həmçinin, o da aydın olur ki, qapının yarığından içəri baxmaq haram bu-

**١٠٧٢**- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: أَخْبَرَنَا الْفَزَارِيُّ، عَنْ حُمَيْدٍ، عَنْ أَنَسٍ قَالَ: اطَّلَعَ رَجُلٌ مِنْ خَلَلٍ فِي حُجْرَةِ النَّبِيِّ ﷺ، فَسَدَّدَ رَسُولُ اللَّهِ ﷺ بِمِشْقَصٍ، فَأَخْرَجَ الرَّجُلُ رَأْسَهُ.

**(1072)** ........ Ənəs رضي الله عنه rəvayət edir ki, bir kişi Peyğəmbərin ﷺ hücrəsindəki dəlikdən içəri baxdı. Rəsulullah ﷺ bir oxu ona tərəf yönəltdi. Bu zaman kişi başını kənara çəkdi."[1]

---

yurulan əməllərdəndir. Çünki izinsiz olaraq yad bir evin içinə baxdıqda, orada olan naməhrəmi görmək ehtimalı vardır. (Şərh ən-Nəvəvi). Şeyxulislam İbn Teymiyyə bu mövzudan danışarkən demişdir: "Adamın evi onun bədənini örtən libasına bənzər bir örtükdür. Uca Allah Quranda izin istəmək xüsusunda olan ayələrin (ən-Nur, 27-29) ardınca mömin kişilərə və mömin qadınlara harama baxmayıb gözlərini aşağı dikməyi və cinsiyyət üzvlərini zinadan qorumağı buyurur (ən-Nur, 30-31). Bu da, ona görədir ki, evlər, bədəni örtən libas kimi bir örtükdür" (Məcmu əl-Fətavə, 15/379). Adamın özünün evi olması böyük nemətdir. Peyğəmbərimiz ﷺ bu nemətə görə hər gün Rəbbinə şükür edib deyərdi:

(( الْحَمْدُ للهِ الَّذِي أَطْعَمَنَا وَسَقَانَا، وَكَفَانَا، وَآوَانَا، فَكَمْ مِمَّنْ لاَ كَافِيَ لَهُ وَلاَ مُؤْوِيَ ))

Transkripsiyası: Əlhəmdulilləhil-ləzi ət'amənə və səqanə və kəfanə və əvanə, fəkəm mimmən lə kafiyə ləhu və lə mu'viyə.

Tərcüməsi: "Bizi yedirdən, içirdən, qoruyan və bizə sığınacaq verən Allaha həmd olsun! Neçə-neçə şəxslər vardır ki, onların nə bir qoruyanı, nə də bir sığınacaq vereni var!" (Səhih Muslim 4/2085).

[1] Bu hədisi Əhməd (3/178) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٤٩٦- بَابُ إِذَا سَلَّمَ الرَّجُلُ عَلَى الرَّجُلِ فِي بَيْتِهِ

## 496-cı fəsil. Adamın başqa birisinə onun evində[1] salam verməsi

١٠٧٣- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي اللَّيْثُ، عَنْ خَالِدِ بْنِ يَزِيدَ، عَنْ سَعِيدِ بْنِ أَبِي هِلَالٍ، عَنْ مَرْوَانَ بْنِ عُثْمَانَ، أَنَّ عُبَيْدَ بْنَ عُمَيْرٍ أَخْبَرَهُ، عَنْ أَبِي مُوسَى قَالَ: اسْتَأْذَنْتُ عَلَى عُمَرَ، فَلَمْ يُؤْذَنْ لِي ثَلَاثًا، فَأَدْبَرْتُ، فَأَرْسَلَ إِلَيَّ فَقَالَ: يَا عَبْدَ اللَّهِ، اشْتَدَّ عَلَيْكَ أَنْ تُحْتَبَسَ عَلَى بَابِي؟ اعْلَمْ أَنَّ النَّاسَ كَذَلِكَ يَشْتَدُّ عَلَيْهِمْ أَنْ يُحْتَبَسُوا عَلَى بَابِكَ، فَقُلْتُ: بَلِ اسْتَأْذَنْتُ عَلَيْكَ ثَلَاثًا، فَلَمْ يُؤْذَنْ لِي، فَرَجَعْتُ، فَقَالَ: مِمَّنْ سَمِعْتَ هَذَا؟ فَقُلْتُ: سَمِعْتُهُ مِنَ النَّبِيِّ ﷺ، فَقَالَ: أَسَمِعْتَ مِنَ النَّبِيِّ ﷺ مَا لَمْ نَسْمَعْ؟ لَئِنْ لَمْ تَأْتِنِي عَلَى هَذَا بِبَيِّنَةٍ لَأَجْعَلَنَّكَ نَكَالًا، فَخَرَجْتُ حَتَّى أَتَيْتُ نَفَرًا مِنَ الْأَنْصَارِ جُلُوسًا فِي الْمَسْجِدِ فَسَأَلْتُهُمْ، فَقَالُوا: أَوَيَشُكُّ فِي هَذَا أَحَدٌ؟ فَأَخْبَرْتُهُمْ مَا قَالَ عُمَرُ، فَقَالُوا: لَا يَقُومُ مَعَكَ إِلَّا أَصْغَرُنَا، فَقَامَ مَعِي أَبُو سَعِيدٍ الْخُدْرِيُّ، أَوْ أَبُو مَسْعُودٍ، إِلَى عُمَرَ، فَقَالَ: خَرَجْنَا مَعَ النَّبِيِّ ﷺ وَهُوَ يُرِيدُ سَعْدَ بْنَ عُبَادَةَ، حَتَّى أَتَاهُ فَسَلَّمَ، فَلَمْ يُؤْذَنْ لَهُ، ثُمَّ سَلَّمَ الثَّانِيَةَ، ثُمَّ الثَّالِثَةَ، فَلَمْ يُؤْذَنْ لَهُ، فَقَالَ: قَضَيْنَا مَا عَلَيْنَا، ثُمَّ رَجَعَ، فَأَدْرَكَهُ سَعْدٌ فَقَالَ: يَا رَسُولَ اللَّهِ، وَالَّذِي بَعَثَكَ بِالْحَقِّ مَا سَلَّمْتَ مِنْ مَرَّةٍ إِلَّا وَأَنَا أَسْمَعُ، وَأَرُدُّ عَلَيْكَ، وَلَكِنْ أَحْبَبْتُ أَنْ تُكْثِرَ مِنَ السَّلَامِ عَلَيَّ وَعَلَى أَهْلِ بَيْتِي، فَقَالَ أَبُو مُوسَى: وَاللَّهِ إِنْ كُنْتُ لَأَمِينًا عَلَى حَدِيثِ رَسُولِ اللَّهِ ﷺ، فَقَالَ: أَجَلْ، وَلَكِنْ أَحْبَبْتُ أَنْ أَسْتَثْبِتَ.

**(1073)** ........ Əbu Musa رضي الله عنه demişdir: "(Bir dəfə) mən Ömərin yanına daxil olmaq üçün üç dəfə izin istədim. Mənə izin verilmədiyi üçün dönüb getdim. (Çox keçmədən) Ömər mənim dalımca adam göndərdi. (Mən onun yanına gəldikdə) o dedi: "Ey Abdullah,[2] qapımın ağzında dayanıb gözləmək sənə ağırmı gəldi?! Bil ki, insalara da sənin qapının ağzında gözləmək

---

[1] Yəni adam öz evində ikən başqa birisi bayırdan ona salam verərsə, bu halda o, nə etməlidir? Sünnəyə görə ev yiyəsi bu salamı almalıdır.

[2] Yəni Abdullah ibn Qeys ibn Suleym əl-Əşari ət-Təmimi رضي الله عنه.

ağır gəlir."[1] Mən dedim: "Xeyr, mən üç dəfə izin istədim. Mənə izin verilmədiyi üçün dönüb getdim. (Çünki bizə belə əmr edilmişdir.)" Ömər soruşdu: "Bunu kimdən eşitmisən?" Mən dedim: "Bunu Peyğəmbərdən ﷺ eşitmişəm." O dedi: "Sən Peyğəmbərdən ﷺ bizim eşitmədiyimizi eşitmisən?![2] Əgər buna dair mənə bir dəlil gətirməsən, səni cəzalandıracağam." Mən çıxıb getdim. Nəhayət, məsciddə oturan[3] bir dəstə ənsarın yanına gəlib (bu haqda)[4] onlardan soruşdum. Onlar dedilər: "Bu (hədis) barədə kimsə şəkk edə bilərmi?!" Mən onlara Ömərin dediyini xəbər verdim. Onlar dedilər: "(Şahidlik etmək üçün) sənin yanında bizim ən kiçiyimiz gedəcək." Əbu Səid əl-Xudri, yaxud Əbu Məsud[5] mənimlə birlikdə Ömərin yanına getdi. Əbu Səid dedi: "(Bir gün) biz Peyğəmbərlə ﷺ birgə yola çıxdıq. O, Səd ibn Ubadəni[6] ziyarət etmək istəyirdi. Nəhayət, gəlib onun evinin yanına çatdıq. Peyğəmbər ﷺ salam verdi, lakin ona içəri girmək üçün izin verilmədi. O ikinci dəfə salam verdi. (Yenə ona izin verilmədi). O üçüncü dəfə salam verdi. Bu dəfə də ona izin verilmədi. Onda Peyğəmbər ﷺ: "Biz öz öhdəmizə düşəni yerinə yetirdik"– dedi və dönüb getdi. Səd onun arxasınca gəlib dedi: "Ya Rəsulullah! Səni haqq ilə göndərən *Allaha* and olsun ki, sən hər dəfə salam verdikdə onu eşidir və (asta səslə) sənə cavab

---

[1] Ömər رضي الله عنه sanki demək istəyir ki, "sən məşğul olduğun vaxt yanına gələn adamı qapında gözlətdiyin kimi, mən də əlimdəki işi bitirənədək səni gözlətdim."

[2] 1065-ci hədisin qeydlərinə bax.

[3] Bundan aydın olur ki, elm əhlinin toplandığı yer məsciddir.

[4] Burada Əbu Musa رضي الله عنه, üç dəfə izin almaq xüsusunda Peyğəmbərin ﷺ söylədiyi hədisi qəsd edirdi.

[5] Bu, hədisi nəql etmiş ravilərdən birinin şəkkidir. Lakin daha doğrusu budur ki, bu, Əbu Səid əl-Xudri رضي الله عنه olmuşdur (1065-ci hədisə bax).

[6] Bu, Peyğəmbərin ﷺ məşhur səhabəsi və Xəzrəc qəbiləsinin rəhbəri Əbu Qeys Səd ibn Ubadə ibn Duleym əl-Ənsari əl-Xəzrəcidir رضي الله عنه.

verirdim. Lakin mən istəyirdim ki, sən həm mənə, həm də mənim ailəmə salamı çox verəsən."

Ənu Musa dedi: "Vallahi, mən Rəsulullahın ﷺ belə bir hədisi olduğuna əmin idim." Ömər dedi: "Elədir, ancaq mən dəqiqləşdirmək istəyirdim.[1]"[2]

---

[1] Digər isnadla varid olmuş hədisdə rəvayət edilir ki, Ömər ؓ Əbu Musaya ؓ belə demişdir: "Mən səni ittiham etmirəm. Sadəcə, mən ehtiyat etdim ki, insanlar (yəqin bilmədikləri bir sözü) cürət edib Peyğəmbərin ﷺ adından danışmasınlar" (Sunən Əbu Davud, 5184; əl-Muvatta, 1768; Səhih Əbu Davud).

[2] Muhəmməd Nasirəddin əl-Albani demişdir: "Bu hədisin bənzəri Buxari (6245) və Muslimin (6/177-179) "Səhih"lərində rəvayət edilmişdir. Fəqət həmin rəvayətlərdə Səd ibn Ubadənin ؓ hadisəsi zikr edilməmişdir. 1065-ci hədisə bax. Səd ibn Ubadənin ؓ hadisəsinə gəlincə, bu hədisi Əbu Davud (5185) və Nəsai ("Aməlul-Yovm vəl-Leylə", 324-325) "səhih" isnadla Qeys ibn Səddən ؓ rəvayət etmişdir, lakin həmin isnad "mursəl"dir. Xüsusilə qeyd etmək lazımdır ki, həmin hədisi Bəzzarın və qeyrisinin Ənəsdən ؓ rəvayət etdiyi hədis qüvvətləndirir. "Adəbuz-Zifaf" kitabına (səh: 169-170) bax (yeni nəşr).

Bu hədisin axırında Ömərin ؓ Əbu Musaya ؓ dediyi sözə gəlincə, bunu qüvvətləndirən başqa bir hədisdə rəvayət edilir ki, Ömər ؓ ona belə demişdir: "Mən səni ittiham etmirəm. Lakin Peyğəmbərdən ﷺ hədis danışmaq ağır məsələdir (çox məsuliyyətli bir işdir)" Bu hədisi Əbu Davud (5183) "ceyyid" isnadla rəvayət etmişdir...

Ömər ibn Xattab ؓ olduqca ağıllı və elmli, habelə Rəsulullahın ﷺ adından hədis danışmaq xüsusunda çox ehtiyatlı olduğundan, üstəlik, Əbu Musaya ؓ inandığına və onu ittiham etmədiyinə baxmayaraq, belə etmişdir ki, İslamı yenicə qəbul etmiş ərəblər və əcəmlər Peyğəmbərin ﷺ adından yalan danışmağa cürət etməsinlər. İbn Abdul-Bərrin "ət-Təmhid" kitabına (3/198-201) bax.

Əcəba, bugünkü müsəlmanlar Ömər ؓ kimi ehtiyat edirlərmi?! (Təəssüflər olsun ki,) onlar hər yerindən durandan və hər yoldan keçəndən, habelə, hər kitab yazandan hədis götürür, elm əhlinə, ələlxüsus da, hədis elmini bilənlərə müraciət etmir, başqa elmlərə diqqət yetirdikləri kimi bu elmə diqqət yetirmirlər. Onların avamları və savadlıları, kitab yazanları və yol göstərənləri arasında heç bir fərq yoxdur. Allah *müsəlmanlara* kömək olsun!" (Səhih əl-Ədəbul-Mufrad, səh: 414).

## ٤٩٧- بَابُ دُعَاءُ الرَّجُلِ إِذْنُهُ

## 497-ci fəsil. Adamı (evə) dəvət etmək ona (içəri girmək üçün) izin vermək deməkdir[1]

١٠٧٤- حَدَّثَنَا سُلَيْمَانُ بْنُ حَرْبٍ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ أَبِي إِسْحَاقَ، عَنْ أَبِي الأَحْوَصِ، عَنْ عَبْدِ اللَّهِ قَالَ: إِذَا دُعِيَ الرَّجُلُ فَقَدْ أُذِنَ لَهُ.

**(1074)** ........ Abdullah (ibn Məsud) ﷺ demişdir: "Bir adamı dəvət etmək, ona *içəri girmək üçün* izin vermək deməkdir."[2]

١٠٧٥- حَدَّثَنَا عَيَّاشُ بْنُ الْوَلِيدِ قَالَ: حَدَّثَنَا عَبْدُ الأَعْلَى قَالَ: حَدَّثَنَا سَعِيدٌ، عَنْ قَتَادَةَ، عَنْ أَبِي رَافِعٍ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِذَا دُعِيَ أَحَدُكُمْ فَجَاءَ مَعَ الرَّسُولِ، فَهُوَ إِذْنُهُ)).

**(1075)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Sizdən birinizi (bir yerə) dəvət etsələr, sonra da dəvət olunan adam (dəvət edənin göndərdiyi) elçi ilə birlikdə gəlsə, bu onun *içəri girməsi üçün* izin hesab edilər."[3]

---

[1] Yəni dəvət edən adamın qonaq üçün təyin etdiyi vaxt onun izinsiz olaraq içəri girməsinə rüsxət verir. Habelə, əgər onun dalınca ev yiyəsinin göndərdiyi adam gəlsə və bu qonaq həmin elçi ilə birlikdə gələrsə, bu da, onun içəri daxil olması üçün izin sayılar. Xüsusilə qeyd etmək lazımdır ki, əgər adam təyin olunmuş vaxtdan tez va ya gec gələrsə, yenə ümumi qaydaya əsasən içəri daxil olmaq üçün izin istəməlidir. Həmçinin, əgər evə dəvət olunan adam evin içində olan ayrıca bir otağa dəvət edilmişsə və bu otağa keçmək üçün digər otaqların yanından keçmək lazım gələcəksə, bu halda o, yenə izin istəməlidir. Bütün bunlar həmin yerdə olan naməhrəmləri görməmək üçündür.

[2] Bu hədisi İbn Əbu Şeybə (8/646) rəvayət etmiş və şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "səhih" olduğunu demişdir.

[3] Bu hədisi Buxari öz "Səhih"ində (11/31) "muəlləq" isnadla, İmam Əhməd isə "Musnəd" əsərində (2/533) "movsul" isnadla rəvayət etmişdir. Bu hədisi həmçinin, Əbu Da-

١٠٧٦- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ حَبِيبٍ، وَهِشَامٍ، عَنْ مُحَمَّدٍ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((رَسُولُ الرَّجُلِ إِلَى الرَّجُلِ إِذْنُهُ)).

**(1076)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Bir adamın başqa adama elçi göndərməsi, ona *içəri girməsi üçün* izindir."[1]

١٠٧٧- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَاحِدِ قَالَ: حَدَّثَنَا عَاصِمٌ قَالَ: حَدَّثَنَا مُحَمَّدٌ، عَنْ أَبِي الْعَلاَنِيَةِ قَالَ: أَتَيْتُ أَبَا سَعِيدٍ الْخُدْرِيَّ فَسَلَّمْتُ فَلَمْ يُؤْذَنْ لِي، ثُمَّ سَلَّمْتُ فَلَمْ يُؤْذَنْ لِي، ثُمَّ سَلَّمْتُ الثَّالِثَةَ فَرَفَعْتُ صَوْتِي وَقُلْتُ: السَّلاَمُ عَلَيْكُمْ يَا أَهْلَ الدَّارِ، فَلَمْ يُؤْذَنْ لِي، فَتَنَحَّيْتُ نَاحِيَةً فَقَعَدْتُ، فَخَرَجَ إِلَيَّ غُلاَمٌ فَقَالَ: ادْخُلْ، فَدَخَلْتُ، فَقَالَ لِي أَبُو سَعِيدٍ: أَمَا إِنَّكَ لَوْ زِدْتَ لَمْ يُؤْذَنْ لَكَ، فَسَأَلْتُهُ عَنِ الأَوْعِيَةِ، فَلَمْ أَسْأَلْهُ عَنْ شَيْءٍ إِلاَّ قَالَ: حَرَامٌ، حَتَّى سَأَلْتُهُ عَنِ الْجَفِّ، فَقَالَ: حَرَامٌ. فَقَالَ مُحَمَّدٌ: يُتَّخَذُ عَلَى رَأْسِهِ إِدَمٌ، فَيُوكَأُ.

**(1077)** ........ Muhəmməd *ibn Sirin* rəvayət edir ki, Əbul-Əlaniyə[2] demişdir: "*Bir dəfə* mən Əbu Səid əl-Xudrinin *evinə* gəlib salam verdim. Mənə *içəri girmək üçün* izin verilmədi. Mən bir də salam verdim. Mənə yenə izin verilmədi. Mən üçüncü dəfə səsimi qaldırıb dedim: "Sizə salam olsun, ey ev əhli!" Mənə yenə izin verilmədi. Onda, mən bir kənara çəkilib oturdum. *Çox keçmədən evdən* bir uşaq çıxıb *mənə*: "İçəri keç!"– dedi. Mən içəri daxil olduqdan sonra Əbu Səid dedi: "Sən bundan artıq izin istəsəydin,

vud (5190), Beyhəqi (əl-Kubra, 8/340) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "səhih" olduğunu demişdir.

[1] Bu hədisi Əbu Davud (5189), İbn Hibban (5811), Beyhəqi (əl-Kubra, 8/340) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[2] Əbul-Əlaniyə Muslim əl-Mərai əl-Bəsri.

sənə izin verilməyəcəkdi."[1] Sonra Mən ondan, *içində şərab hazırlanan* qablar barədə soruşdum. Ondan nə haqda soruşdumsa, o: "Haramdır!"– dedi.[2]

---

[1] Səhabə ona bildirmək istəyir ki, əgər Sünnəyə müxalif hərəkət etmiş olsaydı, yəni üç dəfədən artıq izin istəmiş olsaydı, ona izin verməyəcəkdi (1073-cü hədisə və onun qeydlərinə bax).

[2] Burada Əbul-Əlaniyə Əbu Səid əl-Xudridən ﷺ, bəzi qabların adlarını soruşmuşdur. Belə qablar xüsusunda varid olmuş hədislərin birində İbn Abbas ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ həntəmi, dubbanı, nəqiri və müzəffəti, *yaxud müqəyyəri* öz səhabələrinə qadağan etmişdir" (Səhih əl-Buxari, 53).

Həntəm: tərkibinə yun və qan qatılmış gildən düzəldilmiş yaşıl rəngli cürdək. Əvvəllər bu cür qablarda şərab saxlayarmışlar;

Dubba: şərab saxlamaq üçün qurudulmuş boranıdan düzəldilmiş qab;

Nəqir: şərab saxlamaq üçün içi oyulmuş xurma kötüyündən düzəldilmiş qab;

Müzəffət, yaxud müqəyyər: şərab saxlamaq üçün yanları qatranla malalanmış qab.

Yeri gəlmişkən, qeyd edək ki, şərabın haram buyurulması barədə ayələr (əl-Maidə, 90-91) nazil olduqdan sonra Rəsulullah ﷺ bu qablarda və buna bənzər digər qablarda meyvə yaxud dənli bitkilərin şirəsini saxlamağı qadağan etmiş, bir müddətdən sonra isə o belə şirəni istənilən qabda saxlamağa rüsxət vermiş, lakin sərxoşedici içkiləri haram buyurmuşdur. İmam Buxari öz "Səhih"ində bu xüsusda, ayrıca bir fəslə belə bir ünvan qoymuşdur: "Peyğəmbər ﷺ bəzi qablardan istifadə etməyi qadağan etdikdən *bir müddət* sonra *bu qablardan istifadə etməyə* rüsxət vermişdir" (İçkilər kitabı, 5-ci fəsil). Həmin fəsildə rəvayət edilmiş hədisdə Abdullah ibn Amr ﷺ demişdir: "Peyğəmbər ﷺ *şərab hazırlanan* qablardan istifadə etməyi qadağan etdikdə *bəziləri* Peyğəmbərə ﷺ dedilər: "Hər kəs *lazımi* qab tapa bilmir." Bundan sonra Peyğəmbər ﷺ *yan-yörəsinə* qatran sürtülməmiş cürdəklərdən istifadə etməyə rüsxət verdi" (Səhih əl-Buxari, 5593). Şərabın böyük günahlardan olması barədə neçə-neçə hədislər varid olmuşdur (18-ci hədisin qeydlərinə bax). İbn Abbas ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ üçün gecənin əvvəlində *meyvədən və s.* şirə çəkərdilər. Sonra o bu şirəni, ya ertəsi gün səhər, ya həmin günün axşamı, ya növbəti gün günortaüstü və ya axşamı, ya da o biri gün əsr vaxtınadək içərdi. Sonra yerdə qalanını xidmətçisinə verər, *qıcqırdığı təqdirdə isə* onun əmri ilə bu içkini *zibilliyə* boşaldardılar (Səhih Muslim, 3739). Bu hədislərdən belə nəticə çıxır ki, istənilən nəbizi üç gün ərzində - yəni,

Nəhayət, ondan dəridən düzəldilmiş qablar barədə soruşdum. O, *buna da*: "Haramdır"– dedi."[1]

Muhəmməd [2] demişdir: "Belə tuluqların ağzı bağlanır."

şirinliyi qaldığı müddətcə içmək olar. Üç gündən sonra isə bu nəbiz qıcqırıb sərxoşedici içkiyə çevrilir. Bunu da içməyi həm Allah, həm də Peyğəmbər ﷺ haram buyurmuşdur.

[1] Yəni Muhəmməd ibn İsmail ibn İbrahim əl-Buxari.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində (2951) bu hədisin "səhih" olduğunu söyləmiş, sonra demişdir: "Əbul-Aliyə yaxud Əbul-Əlaniyə demişdir: "Bu hədisi dörd nəfər mənə Əbu Səid əl-Xudridən rəvayət etmişdir..." Həmin hədisləri İmam Əhməd (3/78) "səhih" isnadla rəvayət etmişdir. Həmin dörd nəfərdən biri – Əbu Nədrədir. Bu hədisi də Muslim (6/94) və Əhməd (3/3) rəvayət etmişdir. Bu hədisi qüvvətləndirən Abdullah ibn Əbu Əufənin ﷺ hədisini isə Buxari (5596) və İbn Hibban (5378) rəvayət etmişdir. Eləcə də, Muslim (6/95-97) və İbn Hibban (5379 və 5387) İbn Ömərdən ﷺ, həmçinin, İbn Hibban Əbu Hureyrədən ﷺ ayrı isnadlarla (5377 və 5380) bunun bənzərini rəvayət etmişdir.

## ٤٩٨– بَابُ كَيْفَ يَقُومُ عِنْدَ الْبَابِ؟

## 498-ci fəsil. Adam qapının yanında necə durmalıdır?[1]

١٠٧٨– حَدَّثَنَا مُحَمَّدُ بْنُ عَبْدِ الْعَزِيزِ قَالَ: حَدَّثَنَا بَقِيَّةُ قَالَ: حَدَّثَنِي مُحَمَّدُ بْنُ عَبْدِ الرَّحْمَنِ الْيَحْصِبِيُّ قَالَ: حَدَّثَنِي عَبْدُ اللَّهِ بْنُ بُسْرٍ، صَاحِبُ النَّبِيِّ ﷺ، أَنَّ النَّبِيَّ ﷺ كَانَ إِذَا أَتَى بَابًا يُرِيدُ أَنْ يَسْتَأْذِنَ لَمْ يَسْتَقْبِلْهُ، جَاءَ يَمِينًا وَشِمَالًا، فَإِنْ أُذِنَ لَهُ وَإِلا انْصَرَفَ.

**(1078)** ........ Muhəmməd ibn Abdur-Rəhman əl-Yəhsibi rəvayət edir ki, Peyğəmbərin ﷺ səhabəsi Abdullah ibn Busr رضي الله عنه demişdir: "Peyğəmbər ﷺ *yad bir* evə daxil olmaq üçün qapıya yaxınlaşıb izin istədikdə, üzünü qapıya tərəf tutmazdı. O, ya sağ tərəfə, ya da sol tərəfə yönələrdi. Ona izin verilsəydi, içəri keçər, əks halda isə dönüb gedərdi.[2]"[3]

---

[1] Yəni adam yad bir yerə daxil olmaq istədiyi zaman izin istədikdə qapının ağzında hansı vəziyyətdə durmalıdır?

[2] Bu hədisdə cəmi iki hal zikr edilir. Yəni izin verildikdə, içəri daxil olmaq, əks təqdirdə isə dönüb getmək. Sual verilə bilər ki, "Bəs, əgər adam izin istədikdə, ona: "Qayıt get", yaxud "İndi vaxtım yoxdur" və s. buna bənzər sözlər deyilsə, nə etməlidir? Bunun cavabı Quranda öz əksini tapmışdır. Bu xüsusda, Uca Allah belə buyurur: **"Ey iman gətirənlər! Özgə evlərə icazə almadan və onların sakinlərinə salam vermədən girməyin. Bu sizin üçün daha yaxşıdır. Bəlkə, düşünüb ibrət alasınız. Əgər orada heç kəsi tapmasanız, sizə izin verilməyincə oraya girməyin. Sizə: "Qayıdın!"– deyilsə, qayıdın. Bu sizin üçün daha təmizdir. Allah nə etdiklərinizi bilir"** (ən-Nur, 27-28). Ayədən aydın başa düşülür ki, belə halda qayıdıb getmək və ev yiyəsini üzürlü hesab etmək gərəkdir.

[3] Bu hədisi Əbu Davud (5186), Əhməd (4/189-190) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "həsən" olduğunu demişdir.

## ٤٩٩– بَابُ إِذَا اسْتَأْذَنَ، فَقَالَ: ((حَتَّى أَخْرُجَ))، أَيْنَ يَقْعُدُ؟

## 499-cu fəsil. İzin istəyən adama: "Mən çıxanadək gözlə"– deyilsə, harada oturub gözləməlidir

**١٠٧٩–** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي ابْنُ شُرَيْحٍ عَبْدُ الرَّحْمَنِ، أَنَّهُ سَمِعَ وَاهِبَ بْنَ عَبْدِ اللَّهِ الْمَعَافِرِيَّ يَقُولُ: حَدَّثَنِي عَبْدُ الرَّحْمَنِ بْنُ مُعَاوِيَةَ بْنِ حُدَيْجٍ، عَنْ أَبِيهِ قَالَ: قَدِمْتُ عَلَى عُمَرَ بْنِ الْخَطَّابِ رَضِيَ اللَّهُ عَنْهُ فَاسْتَأْذَنْتُ عَلَيْهِ، فَقَالُوا لِي: مَكَانَكَ حَتَّى يَخْرُجَ إِلَيْكَ، فَقَعَدْتُ قَرِيبًا مِنْ بَابِهِ، قَالَ: فَخَرَجَ إِلَيَّ فَدَعَا بِمَاءٍ فَتَوَضَّأَ، ثُمَّ مَسَحَ عَلَى خُفَّيْهِ، فَقُلْتُ: يَا أَمِيرَ الْمُؤْمِنِينَ، أَمِنَ الْبَوْلِ هَذَا ؟ قَالَ: مِنَ الْبَوْلِ، أَوْ مِنْ غَيْرِهِ.

**(1079)** ........ Abdur-Rəhman ibn Muaviyə ibn Xudeyc öz atasından belə rəvayət etmişdir: "(Bir gün) mən Ömər ibn Xattabın yanına gəldim və içəri daxil olmaq üçün izin istədim. Mənə: "O, bayıra çıxanadək yerində dur!"– dedilər. Mən onun qapısının yaxınlığında yerə oturdum.[1] Ömər bayıra çıxdıqdan sonra su gətizdirdi. Sonra dəstəmaz alıb məstlərinə[2] məsh çəkdi. Mən dedim: "Ey möminlərin əmiri! Bövl etdikdən sonra belə etmək olarmı?" O dedi: "İstər, bövl etdikdən, istərsə, başqa şeydən[3] sonra bunu etmək olar.[4]"[5]

---

[1] Burada "qapının yaxınlığında" deyildikdə, qapı ilə üzbəüz yox, onun sağ və ya sol tərəfində oturmaq nəzərdə tutulur.

[2] Məst: dəridən və ya başqa yumşaq materialdan tikilən yüngül ayaqqabı.

[3] Yəni dəstəmazı pozan digər amillər – yuxu və s. nəzərdə tutulur.

[4] Məsh etmək xüsusunda rəvayət edilmiş hədisdə Muğira ibn Şobə ﷺ demişdir: "Mən Peyğəmbərlə ﷺ birlikdə səfərdə ikən o, təbii ehtiyacını rəf etmək üçün subaşına çıxdı. Sonra mən onun *əllərinə* su tökdüm və o, dəstəmaz aldı – üzünü və qollarını yudu, başına və məstlərinə məsh çəkdi" (Səhih əl-Buxari, 182).

[5] Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

# ٥٠٠- بَابُ قَرْعِ الْبَابِ

## 500-cü fəsil. Qapını döymək

**١٠٨٠-** حَدَّثَنَا مَالِكُ بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا الْمُطَّلِبُ بْنُ زِيَادٍ قَالَ: حَدَّثَنَا أَبُو بَكْرِ بْنُ عَبْدِ اللَّهِ الأَصْبَهَانِيُّ، عَنْ مُحَمَّدِ بْنِ مَالِكِ بْنِ الْمُنْتَصِرِ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ: إِنَّ أَبْوَابَ النَّبِيِّ ﷺ كَانَتْ تُقْرَعُ بِالأَظَافِيرِ.

**(1080)** ........ Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbərin ﷺ *hücrələrinin* qapısı dırnaqla döyülərdi.[1]"[2]

---

[1] Mubarəkfuri demişdir: "Bu, səhabələrin olduqca böyük əxlaqa sahib olduqlarını bir daha sübuta yetirir. Qapını dırnaqla döymək, qapısı evə bitişik və ya yaxın olan evlərə aiddir. Lakin elə qapılar var ki, onlar həyətin o biri başında, evdən uzaqda yerləşir və belə qapını dırnaqla döydükdə ev yiyəsi onu eşitmir. Belə olduğu təqdirdə, o qapını lazım gəldiyi qədər daha bərk döymək olar" (Fəthul-Bari, 11/36; Tohfətul-Əhvəzi, 7/14).

[2] Bu hədisi Beyhəqi (Şoəbul-İman, 1437) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "səhih" olduğunu demişdir.

## ٥٠١- بَابُ إِذَا دَخَلَ وَلَمْ يَسْتَأْذِنْ

**501-ci fəsil.** (Adam) **izin almamış içəri girmişsə,** (nə etməlidir?)

١٠٨١- حَدَّثَنَا أَبُو عَاصِمٍ، وَأَفْهَمَنِي بَعْضَهُ عَنْهُ أَبُو حَفْصِ بْنُ عَلِيٍّ، قَالَ: ابْنُ جُرَيْجٍ أَخْبَرَنَا قَالَ: أَخْبَرَنِي عَمْرُو بْنُ أَبِي سُفْيَانَ، أَنَّ عَمْرَو بْنَ عَبْدِ اللَّهِ بْنِ صَفْوَانَ أَخْبَرَهُ، أَنَّ كَلَدَةَ بْنَ حَنْبَلٍ أَخْبَرَهُ، أَنَّ صَفْوَانَ بْنَ أُمَيَّةَ بَعَثَهُ إِلَى النَّبِيِّ ﷺ فِي الْفَتْحِ بِلَبَنٍ وَجِدَايَةٍ وَضَغَابِيسَ، قَالَ أَبُو عَاصِمٍ: يَعْنِي الْبَقْلَ، وَالنَّبِيُّ ﷺ بِأَعْلَى الْوَادِي، وَلَمْ أُسَلِّمْ وَلَمْ أَسْتَأْذِنْ، فَقَالَ: ((ارْجِعْ، فَقُلِ السَّلَامُ عَلَيْكُمْ، أَأَدْخُلُ؟))، وَذَلِكَ بَعْدَمَا أَسْلَمَ صَفْوَانُ.

قَالَ عَمْرٌو: وَأَخْبَرَنِي أُمَيَّةُ بْنُ صَفْوَانَ بِهَذَا عَنْ كَلَدَةَ، وَلَمْ يَقُلْ: سَمِعْتُهُ مِنْ كَلَدَةَ.

**(1081)** ........ Kələdə ibn Hənbəl[1] ؓ demişdir: “Səfvan ibn Umeyyə[2] Məkkənin fəthi günü mənim vasitəmlə Peyğəmbərə ﷺ süd, tərəvəz və bir çəpiş göndərdi. Həmin vaxt Peyğəmbər ﷺ vadinin yuxarı tərəfində idi. Mən *onun yanına gəldikdə* nə salam verdim, nə də izin istədim. O dedi: “Geri qayıt və de: “Əssəlamu aleykum! İçəri girə bilərəmmi?”[3]

Bu hadisə Səfvan İslamı qəbul etdikdən sonra baş vermişdir.”[4]

---

[1] Kələdə ibn Hənbəl əl-Əsləmi ؓ həm Peyğəmbərin ﷺ səhabəsi, həm də Səfvan ibn Umeyyənin ؓ anabir qardaşıdır. Peyğəmbərdən ﷺ cəmi bir hədis rəvayət etmişdir (əl-İsabə fi Təmyizis-Səhabə, 7451-ci tərcümeyi-hal).

[2] Səfvan ibn Umeyyə ibn Xələf əl-Cuməhi əl-Quraşi əl-Məkki ؓ Peyğəmbərin ﷺ səhabəsidir. Məkkənin fəthindən sonra İslamı qəbul etmişdir. Hicrətin 41-ci ilində vəfat etmişdir (Siyər Əlam ən–Nubələ, 119-cu tərcümeyi-hal).

[3] Bundan aydın olur ki, bilməyib izinsiz evə daxil olan adam qapıdan bayıra çıxmalı, sonra da içəri daxil olmaq üçün bu hədisdə göstərilən qaydada izin istəməlidir.

[4] Bu hədisi Əbu Davud (5176), Tirmizi (2/118-119), Əhməd (3/414) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun isnadının “səhih” olduğunu demişdir.

Amr[1] demişdir: “Umeyyə ibn Səfvan bu hədisi mənə Kələdədən rəvayət etmiş, lakin: “Mən bunu Kələdədən eşitdim” sözünü zikr etməmişdir.

١٠٨٢- حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ الْمُنْذِرِ قَالَ: حَدَّثَنَا سُفْيَانُ بْنُ حَمْزَةَ قَالَ: حَدَّثَنِي كَثِيرُ بْنُ زَيْدٍ، عَنِ الْوَلِيدِ بْنِ رَبَاحٍ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((إِذَا أَدْخَلَ الْبَصَرَ فَلاَ إِذْنَ لَهُ)).

**(1082)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Kim evin içinə baxarsa, ona *evə daxil olmağa* izin verilməz.[2]”[3]

---

[1] Amr ibn Əbu Sufyan bu hədisin ravilərindən biridir.

[2] Yəni kim evin yaxınlığından boylanıb, yaxud qapının arasından evin içinə baxarsa, ev yiyəsi onun evə daxil olmasına izin verməməlidir, hətta daş, çubuq və s. vasitəsi ilə onu qapıdan uzaqlaşdırmalıdır (Feydul-Qədir, 6/161).

[3] Bu hədisi Əbu Davud (2/635) və Beyhəqi (Sunən, 8/339) rəvayət etmişdir. Hədisin isnadında keçən Kəsir ibn Zeyd əl-Əsləmi əl-Mədəni “çoxlu xatalara yol vermiş səduq” ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “zəif” olduğunu demişdir. Qeyd edək ki, hədisin isnadı “zəif” olsa da, mənası “səhih”dir (1068-ci, 1069-cu, 1070-ci, 1071-ci və 1072-ci hədislərə və onların qeydlərinə bax).

## ٥٠٢- بَابُ إِذَا قَالَ: ((أَدْخُلُ؟)) وَلَمْ يُسَلِّمْ

## **502-ci fəsil.** (Adam): **"İçəri girə bilərəmmi?"– deyib salam verməyibsə,** (nə etməlidir?)

١٠٨٣- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: أَخْبَرَنِي مَخْلَدُ بْنُ يَزِيدَ قَالَ: أَخْبَرَنَا ابْنُ جُرَيْجٍ قَالَ: أَخْبَرَنِي عَطَاءٌ قَالَ: سَمِعْتُ أَبَا هُرَيْرَةَ يَقُولُ: إِذَا قَالَ: أَأَدْخُلُ؟ وَلَمْ يُسَلِّمْ، فَقُلْ: لاَ، حَتَّى تَأْتِيَ بِالْمِفْتَاحِ، قُلْتُ: السَّلاَمُ؟ قَالَ: نَعَمْ.

**(1083)** ........ Əta demişdir: "Mən Əbu Hureyrənin ﷺ belə dediyini eşitmişəm: "Hər kim salam vermədən, "İçəri girə bilərəmmi?"– desə, *ona*: "Açarı gətirməyincə, içəri girmək olmaz"– de. Mən soruşdum: "*O açar* salamdırmı?" O: "Bəli"– dedi."[1]

١٠٨٤- قَالَ: وَأَخْبَرَنَا جَرِيرٌ، عَنْ مَنْصُورٍ، عَنْ رِبْعِيِّ بْنِ حِرَاشٍ قَالَ: حَدَّثَنِي رَجُلٌ مِنْ بَنِي عَامِرٍ جَاءَ إِلَى النَّبِيِّ ﷺ فَقَالَ: أَأَلِجُ؟ فَقَالَ النَّبِيُّ ﷺ لِلْجَارِيَةِ: ((اخْرُجِي فَقُولِي لَهُ: قُلِ: السَّلاَمُ عَلَيْكُمْ، أَأَدْخُلُ؟ فَإِنَّهُ لَمْ يُحْسِنِ الاِسْتِئْذَانَ))، قَالَ: فَسَمِعْتُهَا قَبْلَ أَنْ تَخْرُجَ إِلَيَّ الْجَارِيَةُ فَقُلْتُ: السَّلاَمُ عَلَيْكُمْ، أَأَدْخُلُ؟ فَقَالَ: ((وَعَلَيْكَ، ادْخُلْ))، قَالَ: فَدَخَلْتُ فَقُلْتُ: بِأَيِّ شَيْءٍ جِئْتَ؟ فَقَالَ: ((لَمْ آتِكُمْ إِلاَّ بِخَيْرٍ، أَتَيْتُكُمْ لِتَعْبُدُوا اللَّهَ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، وَتَدَعُوا عِبَادَةَ اللاَّتِ وَالْعُزَّى، وَتُصَلُّوا فِي اللَّيْلِ وَالنَّهَارِ خَمْسَ صَلَوَاتٍ، وَتَصُومُوا فِي السَّنَةِ شَهْرًا، وَتَحُجُّوا هَذَا الْبَيْتَ، وَتَأْخُذُوا مِنْ مَالِ أَغْنِيَائِكُمْ فَتَرُدُّوهَا عَلَى

---

[1] Bu hədis 1067-ci hədisin təkrarıdır. Müəllif bu fəsildəki bu mətni başqa isnadla – İbn Cureycdən, o da, Ətadan, o da Əbu Hureyrədən ﷺ rəvayət etmişdir. Sünnəyə görə salam vermədən içəri girmək istəyən kimsədən tələb olunmalıdır ki, bayıra çıxıb salam versin, sonra da içəri daxil olmaq üçün ev yiyəsindən izin istəsin (1081-ci hədisə və onun qeydlərinə bax).

فُقَرَائِكُمْ))، قَالَ: فَقُلْتُ لَهُ: هَلْ مِنَ الْعِلْمِ شَيْءٌ لاَ تَعْلَمُهُ؟ قَالَ: ((لَقَدْ عَلَّمَ اللَّهُ خَيْرًا، وَإِنَّ مِنَ الْعِلْمِ مَا لاَ يَعْلَمُهُ إِلاَّ اللَّهُ، الْخَمْسُ لاَ يَعْلَمُهُنَّ إِلاَّ اللَّهُ: ﴿إِنَّ اللَّهَ عِنْدَهُ عِلْمُ السَّاعَةِ، وَيُنَزِّلُ الْغَيْثَ، وَيَعْلَمُ مَا فِي الأَرْحَامِ، وَمَا تَدْرِي نَفْسٌ مَاذَا تَكْسِبُ غَدًا، وَمَا تَدْرِي نَفْسٌ بِأَيِّ أَرْضٍ تَمُوتُ﴾.

**(1084)** ........ Rib'iyy ibn Hiraş demişdir: “Amir oğullarından bir nəfər[1] mənə belə rəvayət etmişdir ki, (bir gün) o, Peyğəmbərin ﷺ yanına gəlib dedi:[2] “İçəri girə bilərəmmi?” Peyğəmbər ﷺ kənizə dedi: “Çıx, ona de ki, “Əssəlamu aleykum, içəri girə bilərəmmi?” desin. Çünki o, gözəl tərzdə izin istəmədi.” Mən onun sözünü kəniz bayıra çıxmazdan əvvəl eşitdim və: “Əssəlamu aleykum, içəri girə bilərəmmi?”– dedim.[3] O: “Və aleykə,[4] gir içə-

---

[1] Səhabənin kimliyinin bəlli olmaması bu hədisin isnadına zərrə qədər təsir etmir. Belə ki, səhabələrin hamısının adil olması, həm Allahın Kitabında, həm də Peyğəmbərin ﷺ hədislərində öz təsdiqini tapmışdır. Uca Allah bu xüsusda, buyurur: **“Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsarlara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. *Allah* onlar üçün *ağacları* altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları hazırlamışdır. Bu, böyük uğurdur”** (ət-Tovbə, 100). Həmçinin, Peyğəmbər ﷺ demişdir: “Mənim səhabələrimi söyməyin! Əgər sizdən biriniz Uhud dağı boyda qızıl sədəqə versə, onlardan birinin verdiyi bir ovuc sədəqəyə, hətta, yarısına belə çata bilməz” (Səhih əl-Buxari, 3673). Bu ayə və hədisdən belə nəticə çıxır ki, özünü müsəlman sayan adam Allahın və Onun rəsulunun ﷺ razı qaldığı, sevdiyi və özünə dost tutduğu, peyğəmbərlərdən sonra insanların ən fəzilətlisi sayılan səhabələr barədə pis zənnə qapılmamalıdır.

[2] Bu hədisi Əhməd (5/368-369), İbn Əbu Şeybə (8/606/5724) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun isnadının “səhih” olduğunu demişdir.

[3] Bu, dəlildir ki, səhabələr Peyğəmbərin ﷺ əmrini dərhal yerinə yetirərdilər.

[4] Burada Peyğəmbər ﷺ onun salamını olduğu kimi və ya daha böyük ehtiramla almışdır. Olsun ki, hədisin ravilərindən biri bunu müxtəsər şəkildə rəvayət etmişdir.

ri!"– dedi. Mən içəri girib soruşdum: "Sən nə gətirmisən?"[1] O dedi: "Mən sizə yalnız xeyir gətirmişəm. Mən göndərilmişəm ki, siz, *heç bir* şəriki olma-

[1] Peyğəmbər ﷺ İslam dinini təbliğ etməyə başladığı zaman insanlar tez-tez gəlib ona belə suallar verər, onun gətirdiyi din ilə maraqlanardılar. Buna aşağıdakı hədisi də misal göstərmək olar:

Rəvayət edilir ki, Ənəs ibn Malik ؓ demişdir: "Bizə Peyğəmbərdən ﷺ *hər hansı* bir şey haqqında soruşmaq qadağan edilmişdir. *Odur ki,* çöl əhalisindən ağıllı bir adamın gəlib qulağımız eşidə-eşidə Peyğəmbərə ﷺ sual verməsi bizə xoş gəlirdi. Bir dəfə bir bədəvi gəlib dedi: "Ey Muhəmməd! Göndərdiyin adam yanımıza gəldi və söylədi ki, guya sən, Allahın səni *bəşəriyyətə* elçi göndərdiyini deyirsən?" Peyğəmbər ﷺ: "O, doğru söyləmişdir"– dedi. Adam soruşdu:

– Göyü yaradan kimdir?

– Allahdır!

– Yeri yaradan kimdir?

– Allahdır!

– Bu dağları dikəldən və onların üstündə yaratdıqlarını yaradan kimdir?

– Allahdır!

– Səni and verirəm göyü və yeri yaradan, dağları dikəldən Allaha, de görüm, doğrudanmı Allah səni peyğəmbər göndərib?

– Bəli!

– Göndərdiyin adam gecə və gündüz beş vaxt namaz qılmağın bizə vacib buyurulduğunu söylədi.

– Doğru söyləmişdir.

– Səni and verirəm səni elçi göndərən Allaha, de görüm, bunu sənə Allahmı əmr edib?

– Bəli!

– Göndərdiyin adam malımızdan zəkat verməyin bizə vacib buyurulduğunu söylədi.

– Doğru söyləmişdir.

– Səni and verirəm səni elçi göndərən Allaha, de görüm, bunu sənə Allahmı əmr edib?

– Bəli!

– Göndərdiyin adam *hər* il Ramazan ayını oruc tutmağın bizə vacib buyurulduğunu söylədi.

yan tək Allaha ibadət edəsiniz,[1] Lat və Uzzaya[2] ibadət etməyi tərk edəsiniz, gecə və gündüz beş vaxt namaz qılasınız,[3] *hər* il bir ay oruc tutasınız,[4] bu

---

– Doğru söyləmişdir.

– Səni and verirəm səni elçi göndərən Allaha, de görüm, bunu sənə Allahmı əmr edib?

– Bəli!

– Göndərdiyin adam bizlərdən imkanı olan kimsəyə *Allahın* Evini ziyarət etməyin vacib buyurulduğunu söylədi.

– Doğru söyləmişdir.

*Ənəs* dedi: "Sonra o adam: "Səni haqq ilə göndərən Allaha and olsun ki, mən buna *heç nə* artırmayacağam və bundan *heç nə* əskiltməyəcəyəm"– dedi və dönüb getdi. Onda, Peyğəmbər ﷺ belə buyurdu: "Əgər o, doğru deyirsə, mütləq Cənnətə girəcəkdir" (Səhih Muslim, 102).

[1] Xeyirin əsası məhz tovhid əhlindən olmaqdadır. Və əgər xeyirin bünövrəsi sayılan bu əsas aradan qalxarsa, xeyirin hamısı puç olub gedər. Yəni, əgər adam özünü müsəlman saydığı halda, bilərəkdən Allaha şərik qoşarsa, onun nə qıldığı namazının, nə verdiyi zəkatının, nə tutduğu orucunun, yerinə yetirdiyi həccinin ona bir faydası olar, əksinə, yerinə yetirdiyi bu əməllərin hamısı heç olar. Bu xüsusda, Uca Allah buyurur: **"Sənə və səndən əvvəlki *peyğəmbərlərə* belə vəhy edilmişdir: "Əgər şərik qoşsan, əməlin puç olacaq və mütləq ziyana uğrayanlardan olacaqsan"** (əz-Zumər, 65).

[2] Lat və Uzza barədə Quranda belə buyurulur: **"Siz *tapındığınız* Lat və Uzzanı gördünüzmü? Həmçinin, üçüncü olan Mənatı da?"** Qətadə demişdir: "Lat, Uzza və Mənat müşriklərin tapındıqları bütlərdir" (Təfsir ət-Təbəri).

[3] Namaz qılmaq həddi-büluğa çatmış, ağlı başında olan hər bir müsəlmana vacibdir. Bu xüsusda, Uca Allah buyurur: **"Allah həm əvvəl *nazil etdiyi kitablarda*, həm də bu *Kitabda* sizi müsəlman adlandırdı. Elə isə namaz qılın, zəkat verin və Allaha möhkəm sarılın"** (əl-Həcc, 78); O, həmçinin buyurur: **"Namaz qıl. Həqiqətən, namaz *adamı* çirkin və yaramaz işlərdən çəkindirir. Allahı yada salmaq isə *ibadətlərin* ən əzəmətlisidir"** (əl-Ənkəbut, 45).

[4] Oruc tutmaq həddi-büluğa çatmış, ağlı başında olan hər bir müsəlmana vacibdir. Bu xüsusda, Uca Allah buyurur: **"Ey iman gətirənlər! Sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də oruc tutmaq vacib edildi ki, bəlkə *pis əməllərdən* çəkinəsiniz"** (əl-Bəqərə, 183); O,

evi ziyarət edəsiniz[1] və varlılarınızın varından götürüb kasıblarınıza paylayasınız."[2] Mən ona dedim: "Elmdə elə bir şey varmı ki, sən onu bilməyəsən?" O dedi: "Allah bəndələrinə xeyirli şeylər öyrətmişdir. Lakin elmdə elə bir şey vardır ki, onu ancaq Allah bilir.[3] Beş şey vardır ki, onu Allahdan başqa heç kəs bilməz: **"Həqiqətən, o Saat[4] haqqında elm yalnız Allahdadır .Yağışı O yağdırır və bətnlərdə olanı O bilir. Heç kəs sabah nə qazanacağını bilə bilməz; heç kəs harada öləcəyini də bilməz."**[5]

---

həmçinin buyurur: **"İnsanlara doğru yolu göstərən, bu yolun və *haqqı batildən* ayırd edənin açıq-aydın dəlilləri olan Quran ramazan ayında nazil edilmişdir. Sizlərdən bu aya çatan şəxslər *həmin ayı* oruc tutmalıdırlar"** (əl-Bəqərə, 185).

[1] Həddi-büluğa çatmış, ağlı başında olan hər bir imkanlı müsəlmana həcc və ümrə ziyarətlərini, ömründə bir dəfə yerinə yetirmək vacibdir. Bu xüsusda, Uca Allah buyurur: **"*Müqəddəs* Evi ziyarət etmək insanların – yoluna gücü çatan hər kəsin – Allah qarşısında borcudur. Kim *bunu* inkar edərsə, *bilsin ki,* Allahın aləmlərə ehtiyacı yoxdur"** (Ali-İmran, 97).

[2] Zəkat vermək hər bir müsəlmana, hətta dəliyə və uşağa belə vacibdir. Bu xüsusda, Uca Allah buyurur: **"Namaz qılın, zəkat verin!"** (əl-Bəqərə, 110); O, həmçinin buyurur: **"Zəkatlar Allah tərəfindən bir fərz olaraq yalnız yoxsullara, kasıblara, onu yığıb paylayanlara, qəlbləri *İslam dininə* isinişdiriləcək kimsələrə, kölələrin azad olunmasına, borclulara, Allah yolunda cihad edənlərə və müsafirlərə məxsusdur"** (ət-Tovbə, 60).

[3] 162-ci hədisin qeydlərinə bax.

[4] Bu ayədə "o Saat" deyildikdə, Qiyamət günü qəsd edilir.

[5] "Loğman" surəsi, 34.

## ٥٠٣- بَابُ كَيْفَ الاسْتِئْذَانُ؟

## 503-cü fəsil. İzin necə istənilməlidir?[1]

١٠٨٥- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ أَبِي شَيْبَةَ قَالَ: حَدَّثَنِي يَحْيَى بْنُ آدَمَ، عَنِ الْحَسَنِ بْنِ صَالِحٍ، عَنْ سَلَمَةَ بْنِ كُهَيْلٍ، عَنْ سَعِيدِ بْنِ جُبَيْرٍ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: اسْتَأْذَنَ عُمَرُ عَلَى النَّبِيِّ ﷺ فَقَالَ: السَّلاَمُ عَلَى رَسُولِ اللَّهِ، السَّلاَمُ عَلَيْكُمْ، أَيَدْخُلُ عُمَرُ؟

**(1085)** ........ İbn Abbas رضي الله عنهما demişdir: "(Bir gün) Ömər Peyğəmbərin ﷺ yanına daxil olmaq üçün izin istəyib dedi: "Əssəlamu alə, Rəsulilləh, əssəlamu aleykum![2] Ömər içəri girə bilərmi?"[3]

---

[1] Əvvəlki fəsillərdən bizə aydın olmuşdur ki, yad bir yerə daxil olmaq istəyən adam ilk əvvəl salam verməlidir.

[2] Tərcüməsi: Salam olsun Allahın rəsuluna, salam olsun sizə!

[3] Bu hədisi Əbu Davud (5201), Nəsai (əs-Sunən əl-Kubra, 10153 və 10154), Əhməd (1/303) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "səhih" olduğunu demişdir.

## ٥٠٤- بَابُ مَنْ قَالَ: ((مَنْ ذَا؟)) فَقَالَ: ((أَنَا))

## 504-cü fəsil. "Kimdir"– deyənə, "Mənəm"– deyən kimsə[1]

١٠٨٦- حَدَّثَنَا أَبُو الْوَلِيدِ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ مُحَمَّدِ بْنِ الْمُنْكَدِرِ قَالَ: سَمِعْتُ جَابِرًا يَقُولُ: أَتَيْتُ النَّبِيَّ ﷺ فِي دَيْنٍ كَانَ عَلَى أَبِي، فَدَقَقْتُ الْبَابَ، فَقَالَ: ((مَنْ ذَا؟)) فَقُلْتُ: أَنَا، قَالَ: ((أَنَا، أَنَا))، كَأَنَّهُ كَرِهَهُ.

**(1086)** ........ Rəvayət edilir ki, Cabir ﷺ demişdir:[2] "Mən atamın borcunu ödəmək xüsusunda *məsləhət almaq üçün* Peyğəmbərin ﷺ yanına gəlib qapını döydüm. Peyğəmbər ﷺ soruşdu: "Kimdir, o?" Dedim: "Mənəm!" O, narazı halda: "Mənəm, mənəm!"– dedi.[3]"

---

[1] Qapını döyən adamdan onun kim olduğu soruşularsa, o, müəmmalı şəkildə cavab verməməli və kim olduğunu hökmən bildirməlidir.

[2] Bu hədisi Buxari (6250), Muslim (2155), Əbu Davud (5187), Tirmizi (2929), Nəsai (Kubra, 10087), İbn Macə (3709), Əhməd (3/298, 320 və 363), İbn Hibban (5808), Beyhəqi (Şoəbul-İman, 8443), əd-Darimi (2672), İbn Əbu Şeybə (26349), Bəzzar (5781) və Bəğəvi (3323 və 3324) rəvayət etmişdir.

[3] Yəni "Mənəm demək yaxşı deyil, bir də belə demə" (Tohfətul-Əhvəzi, 2635-ci hədisin şərhi). Peyğəmbər ﷺ öz etirazını təkidlə bildirmək üçün bu sözü təkrar etmişdir. Peyğəmbər ﷺ bu etirazı ilə demək istəyir ki, qapı önündə duran kimsənin kim olduğunu bildirməsi üçün "Mənəm" deməsi kifayət deyil (Haşiyətus-Sindi, 3699-cu hədisin şərhi). Və əgər "Mənəm" demək kifayət etsəydi, yəni bunu deyən adamın kim olduğunu səsindən müəyyən etmək mümkün olsaydı, onda, Cabirin ﷺ bu sözdən əvvəl salam verməsi kifayət edər və Peyğəmbər ﷺ onun kim olduğunu soruşmazdı. Nəvəvi demişdir: "Alimlər bu hədisi belə izah etmişlər: "Bu hədis dəlildir ki, birisi qapını döyərkən ondan: "Sən kimsən?", yaxud "Kimdir, o?"– deyə soruşulsa, onun "Mənəm"– deməsi bəyənilməyən əməllərdəndir. Çünki bu məqamda onun "Mənəm" sözü heç bir fayda vermir, onun kim olduğu müəmmalı qalır. Odur ki, həmin adam öz adını çəkib: "Filankəsdir"– deməlidir. Və əgər "Mənəm, filankəs"– deyərsə, bu onun üçün qəbahət sayılmaz. Necə ki, Ummu Hani ﷺ Peyğəmbərin ﷺ yanına daxil olmaq üçün izin istədikdə, Peyğəmbər ﷺ: "Kimdir, o?"– deyə soruşmuş, o da: "Mənəm, Ummu Hani"– deyə cavab vermişdir. Və əgər adını de-

١٠٨٧ – حَدَّثَنَا عَلِيُّ بْنُ الْحَسَنِ قَالَ: حَدَّثَنَا الْحُسَيْنُ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ بُرَيْدَةَ، عَنْ أَبِيهِ قَالَ: خَرَجَ النَّبِيُّ ﷺ إِلَى الْمَسْجِدِ، وَأَبُو مُوسَى يَقْرَأُ، فَقَالَ: ((مَنْ هَذَا؟)) فَقُلْتُ: أَنَا بُرَيْدَةُ، جُعِلْتُ فِدَاكَ، فَقَالَ: ((قَدْ أُعْطِيَ هَذَا مِزْمَارًا مِنْ مَزَامِيرِ آلِ دَاوُدَ)).

**(1087)** ........ Abdullah ibn Bureydə öz atasından[1] belə rəvayət etmişdir: "(Bir dəfə) Əbu Musa Quran oxuyarkən Peyğəmbər ﷺ məscidə gəldi və *məndən*: "Bu kimdir?"– deyə soruşdu. Mən dedim: "Canım sənə qurban, *ya Rəsulullah*, mənəm Bureydə!" O dedi: "Buna[2] Davudun ﷺ səsi tək məlahətli bir səs bəxş edilmişdir."[3]

---

mək bəs eləməzsə, buna əlavə edib "Mənəm, Əbu filankəs", yaxud "Mənəm, filan qazı", yaxud "Mənəm, filan şeyx" və başqa buna bənzər sözlər demək caizdir (Şərh ən-Nəvəvi, 7/284). Əbu Səid əl-Xudrinin ؓ rəvayət etdiyi hədisdə xəbər verilir ki, bayram günü İbn Məsudun zövcəsi Zeynəb Peyğəmbərin ﷺ yanına daxil olmaq üçün izin istədikdə, Peyğəmbərə ﷺ: "Ya Rəsulullah, bu Zeynəbdir"– dedilər. Peyğəmbər ﷺ: "Hansı Zeynəbdir?"– deyə soruşdu. *Ona*: "İbn Məsudun zövcəsi Zeynəbdir"– dedilər. Peyğəmbər ﷺ: "Bəli, ona izin verin"– deyə buyurdu və ona *içəri daxil olmağa* izin verdilər..." (Səhih əl-Buxari, 1462).

[1] Əbu Abdullah Bureydə ibn Husayb ibn Abdullah əl-Əsləmi ؓ Peyğəmbərin ﷺ səhabəsidir (341-ci hədisin qeydlərinə bax).

[2] Burada, Peyğəmbər ﷺ Əbu Musa əl-Əşarini ؓ qəsd edirdi. Allah bu səhabəyə cavan yaşlarında böyük fəqihlərdən, məşhur qarilərdən və ələlxüsus da müdrik dəvətçilərdən olmağı nəsib etmişdir. Hədislərin birində rəvayət edilir ki, Bureydə demişdir: "Bir gecə mən məscidə gəldim və Rəsulullahın ﷺ məscidin qapısının önündə durduğunu gördüm. Sonra baxdım ki, bir nəfər məsciddə namaz qılır *və yüksək səslə Quran oxuyur*. Elə bu vaxt Rəsulullah ﷺ məndən soruşdu: "Ey Bureydə, səncə, bu adam özünü göstərir?" Dedim: "Allah və Onun rəsulu daha yaxşı bilir!" Onda Rəsulullah ﷺ belə buyurdu: "Xeyr, bu adam əsl mömindir. Ona, Davudun səsi kimi məlahətli bir səs bəxş edilmişdir!" Sonra mən məscidə daxil oldum və gördüm ki, bu, Əbu Musa əl-Əşaridir" (Musnəd Əhməd, 5/349; Şueyb əl-Arnaut bu hədisin isnadının "səhih" olduğunu demişdir). Rəvayətlərin birində, Əbu Osman ən-Nəhdi onu tərif edib demişdir: "Mən Əbu Musanın səsi kimi gözəl bir səs eşitməmişəm. Onun səsi məlahətli olduğundan, bizə namaz qıldırdığı zaman istəyərdik ki, o, "əl-Bəqərə" surəsini oxusun" (Siyəru Əlamun-Nubələ, 3\345).

[3] 805-ci hədisin qeydlərinə bax.

## ٥٠٥– بَابُ إِذَا اسْتَأْذَنَ فَقِيلَ: ((ادْخُلْ بِسَلامٍ))

## 505-ci fəsil. İzin istədikdə: "Salamatlıqla içəri gir!"– deyilərsə

١٠٨٨– حَدَّثَنَا مَالِكُ بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا إِسْرَائِيلُ، عَنْ أَبِي جَعْفَرٍ الْفَرَّاءِ عَنْ عَبْدِ الرَّحْمَنِ ابْنِ جُدْعَانَ قَالَ: كُنْتُ مَعَ عَبْدِ اللَّهِ بْنِ عُمَرَ، فَاسْتَأْذَنَ عَلَى أَهْلِ بَيْتٍ، فَقِيلَ: ادْخُلْ بِسَلَامٍ، فَأَبَى أَنْ يَدْخُلَ عَلَيْهِمْ.

**(1088)** ........ Əbu Cəfər əl-Fərra rəvayət edir ki, Abdur-Rəhman ibn Cud'an demişdir: "*Bir dəfə* mən Abdullah ibn Ömərlə birlikdə (bir adamın yanına getdik) və o, *evə* daxil olmaq üçün ev əhlindən izin istədi.[1] Ona: "Salamatlıqla içəri gir!"– deyildi, lakin İbn Ömər onların yanına daxil olmaqdan imtina etdi.[2]"[3]

---

[1] Yəni "Əssəlamu aleykum! İçəri girə bilərəmmi?"– dedi.

[2] Muhəmməd Nasirəddin əl-Albani demişdir: "Ola bilməz ki, İbn Ömər ﵄ kimi səhabə yad bir yerə daxil olmaq üçün "Əssəlamu aleykum!"– deyərək, ev əhlindən izin istəməyin vacib olmasını bilməsin. Bu da, o deməkdir ki, İbn Ömər ﵄ həmin vaxt evə daxil olmaq üçün izin istədikdə ev əhlinə salam vermiş və onlar ona: "Salamatlıqla içəri gir!"– dedikdə, o, içəri girməmişdir. Belə ki, bu söz mənasız bir sözə, daha çox istehzaya bənzəyir. Bu izahı İbn Əbu Şeybənin "əl-Musənnəf" əsərində (8/647) "səhih" isnadla rəvayət etdiyi hədislə əsaslandırmaq olar. Həmin rəvayətdə Əbu Micləz demişdir: "İbn Ömər izin istədikdə, ona: "Salamatlıqla içəri gir!" deyilsəydi, o, dönüb gedər və *öz-özünə* deyərdi: "Mən bilmirəm, içəri salamatlıqla girəcəyəm, ya yox!" (Səhih əl-Ədəbul-Mufrad, səh: 421). Yeri gəlmişkən, qeyd edək ki, bu söz yalnız Qiyamət günü və ancaq Cənnət əhlinə deyiləcək: **"Ora salamatlıqla daxil olun! Bu, Əbədiyyət günüdür"** (Qaf, 34). Evə girmək istəyən kimsəyə "Salamatlıqla içəri gir!"– deyən adam iki böyük xətaya yol vermiş olur. Birincisi, Sünnəyə əməl etmədiyinə, ikincisi də, qeybdən xəbər verdiyinə görə, yəni içəri daxil olmaq istəyən kimsənin salamatlıqla içəri girəcəyini iddia etdiyinə görə.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٥٠٦- بَابُ النَّظَرِ فِي الدُّورِ

## 506-cı fəsil. Evlərə baxmaq

١٠٨٩- حَدَّثَنَا أَيُّوبُ بْنُ سُلَيْمَانَ قَالَ: حَدَّثَنِي أَبُو بَكْرِ بْنُ أَبِي أُوَيْسٍ، عَنْ سُلَيْمَانَ، عَنْ كَثِيرِ ابْنِ زَيْدٍ، عَنِ الْوَلِيدِ بْنِ رَبَاحٍ، أَنَّ أَبَا هُرَيْرَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((إِذَا دَخَلَ الْبَصَرُ فَلا إِذْنَ)).

**(1089)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Kim evin içinə baxarsa, ona *evə daxil olmağa* izin verilməz."[1]

١٠٩٠- حَدَّثَنَا مُحَمَّدُ بْنُ كَثِيرٍ قَالَ: أَخْبَرَنَا سُفْيَانُ، عَنْ أَبِي إِسْحَاقَ، عَنْ مُسْلِمِ بْنِ نُذَيْرٍ قَالَ: اسْتَأْذَنَ رَجُلٌ عَلَى حُذَيْفَةَ فَاطَّلَعَ وَقَالَ: أَدْخُلُ؟ قَالَ حُذَيْفَةُ: أَمَّا عَيْنُكَ فَقَدْ دَخَلَتْ، وَأَمَّا اسْتُكَ فَلَمْ تَدْخُلْ.

**(1090)** ........ Muslim ibn Nuzeyr demişdir: "Bir nəfər Huzeyfənin evinə boylanıb dedi: "İçəri girə bilərəmmi?" Huzeyfə dedi: "Sənin gözlərin artıq içəridədir, arxan isə bayırda.[2]"[3]

١٠٩٠ م- وَقَالَ رَجُلٌ: أَسْتَأْذِنُ عَلَى أُمِّي؟ قَالَ: إِنْ لَمْ تَسْتَأْذِنْ رَأَيْتَ مَا يَسُوؤُكَ.

**(1090 م)** Bir nəfər dedi: "Anamın yanına daxil olmaq üçün izin istəməliyəmmi?" *Huzeyfə* dedi: "Ananın yanına izin istəmədən girsən, xoşuna gəlməyən şey görə bilərsən."[4]

---

[1] 1082-ci hədisin qeydlərinə bax.

[2] Huzeyfə ibn Yəman ﷺ bu sözü ilə həmin adama etirazını bildirir, üstəlik, ona yaramaz iş gördüyünü xəbər verir.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[4] 1060-cı hədisin qeydlərinə bax.

**١٠٩١–** حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا أَبَانُ بْنُ يَزِيدَ قَالَ: حَدَّثَنِي يَحْيَى، أَنَّ إِسْحَاقَ بْنَ عَبْدِ اللَّهِ حَدَّثَهُ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، أَنَّ أَعْرَابِيًّا أَتَى بَيْتَ رَسُولِ اللَّهِ ﷺ فَأَلْقَمَ عَيْنَهُ خَصَاصَةَ الْبَابِ، فَأَخَذَ سَهْمًا أَوْ عُودًا مُحَدَّدًا، فَتَوَخَّى الأَعْرَابِيَّ، لِيَفْقَأَ عَيْنَ الأَعْرَابِيِّ، فَذَهَبَ، فَقَالَ: ((أَمَا إِنَّكَ لَوْ ثَبَتَّ لَفَقَأْتُ عَيْنَكَ)).

**(1091)** ........ Ənəs ibn Məlik ﷺ rəvayət edir ki, (bir dəfə) bir bədəvi gözünü Rəsulullahın ﷺ qapısındakı yarığa dirəyib içəri baxmağa başladı. Bu vaxt Peyğəmbər ﷺ bir ox, yaxud iti bir çubuq götürüb həmin bədəvinin gözünü çıxartmaq üçün ona tərəf yönəltdi. Bədəvi geri çəkildi. Peyğəmbər ﷺ dedi: “Yerində qalsaydın, gözünü çıxardardım.”[1]

**١٠٩٢–** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ يَزِيدَ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ عَطَاءِ بْنِ دِينَارٍ، عَنْ عَمَّارِ بْنِ سَعْدٍ التُّجِيبِيِّ قَالَ: قَالَ عُمَرُ بْنُ الْخَطَّابِ رَضِيَ اللَّهُ عَنْهُ: مَنْ مَلَأَ عَيْنَيْهِ مِنْ قَاعَةِ بَيْتٍ، قَبْلَ أَنْ يُؤْذَنَ لَهُ، فَقَدْ فَسَقَ.

**(1092)** ........ Ömər ibn Xattab ﷺ demişdir: “Hər kim özünə izin verilməzdən əvvəl, gözlərini dəhlizdə olanlara dikərsə, fasiqlik etmiş olar.”[2]

**١٠٩٣–** حَدَّثَنَا إِسْحَاقُ بْنُ الْعَلَاءِ قَالَ: حَدَّثَنِي عَمْرُو بْنُ الْحَارِثِ قَالَ: حَدَّثَنِي عَبْدُ اللَّهِ بْنُ سَالِمٍ، عَنْ مُحَمَّدِ بْنِ الْوَلِيدِ قَالَ: حَدَّثَنَا يَزِيدُ بْنُ شُرَيْحٍ، أَنَّ أَبَا حَيٍّ الْمُؤَذِّنَ حَدَّثَهُ، أَنَّ ثَوْبَانَ مَوْلَى رَسُولِ اللَّهِ ﷺ حَدَّثَهُ، أَنَّ النَّبِيَّ ﷺ قَالَ: ((لاَ يَحِلُّ لِامْرِئٍ مُسْلِمٍ أَنْ يَنْظُرَ إِلَى جَوْفِ بَيْتٍ حَتَّى يَسْتَأْذِنَ، فَإِنْ فَعَلَ فَقَدْ دَخَلَ. وَلاَ يَؤُمُّ قَوْمًا فَيَخُصُّ نَفْسَهُ بِدَعْوَةٍ دُونَهُمْ حَتَّى يَنْصَرِفَ. وَلاَ يُصَلِّي وَهُوَ حَاقِنٌ حَتَّى يَتَخَفَّفَ)).

---

[1] 1069-cu hədisin qeydlərinə bax.

[2] Bu hədisin isnadında keçən Əmmar ət-Tucibi Ömər ibn Xattabı ﷺ görməmişdir. Elə buna görə də, Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “zəif” olduğunu demişdir. Hədisin isnadı “zəif” olsa da mənası “səhih”dir.

قَالَ أَبُو عَبْدِ اللَّهِ: أَصَحُّ مَا يُرْوَى فِي هَذَا الْبَابِ هَذَا الْحَدِيثُ.

**(1093)** ........ Rəsulullahın ﷺ mövlası[1] Sovban رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Heç bir müsəlmana, izin istəməyincə yad bir evin içinə baxması halal deyildir. Əgər baxarsa, artıq *evin içinə* daxil olmuş sayılar.[2] Habelə, heç kəs camaata namaz qıldırdığı zaman – namazı tamamlayanədək onları qoyub, duanı təkcə özünə aid etməsin.[3] Və bir də, heç kəs qarnındakını saxlayıb özünü boşaltmayınca, namaz qılmasın."[4]

---

[1] 39-cu fəsilin qeydlərinə bax.

[2] Yəni bunu edən adam haram yolla içəri daxil olmuş və cinayət etmiş sayılar, beləliklə də, o bu əməlinə görə günah qazanar.

[3] Bu cümlənin "zəif" olmasının səbəbi hədisin isnadında keçən Yezid ibn Şureyh əl-Hədrəminin "məqbul" ravi olmasıdır. Belə ki, onun bu sözünü qüvvətləndirən başqa rəvayət olmadığından, bu cümlə "zəif" hesab edilir. İslam alimləri xüsusilə qeyd etmişlər ki, camaata namaz qıldıran imamın təkcə özü üçün dua etməsi caiz olsa da, cəm şəkildə hamı üçün dua etməsi daha münasibdir. Hədisin qalan hissəsinə gəlincə, qeyd edək ki, bunu təsdiqləyən neçə-neçə "səhih" hədislər varid olmuşdur. Bu cümlədən əvvəl gələn cümlə, yəni izinsiz içəri daxil olmağın günah olması əvvəlki fəsillərdə öz əksini tapmışdır. Sonrakı cümlə də, həmçinin "səhih"dir. Əbu Umamə əl-Bahili رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ adamın qarnındakını saxlayıb özünü boşaltmayınca, namaz qılmasını qadağan etmişdir (Musnəd Əhməd, 22152; Musənnəf İbn Əbu Şeybə 2/422; Mocəmul-Kəbir, 7557; Səhih əl-Cami, 6832); digər hədisdə Aişə رضي الله عنها rəvayət etmişdir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: "*Süfrəyə* yemək verildiyi zaman, habelə, kiçik və böyük təbii ehtiyacı saxlayıb rəf etmədən namaz qılmaq olmaz" (Səhih Muslim, 1246).

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində (səh: 422) demişdir: "Bu hədis "səhih"dir. Yalnız "Habelə, heç kəs camaata namaz qıldırdığı zaman – namazı tamamlayanədək onları qoyub, duanı təkcə özünə aid etməsin" cümləsindən başqa. Bu cümlə "zəif"dir. Hətta, Şeyxulislam İbn Teymiyyə və onun tələbəsi İbnul-Qeyyim əl-Covziyyə bu cümlənin "movdu", yəni uydurma, olduğunu demişlər. Belə ki, Peyğəmbər ﷺ camaata namaz qıldırdığı zaman bəzən fərdi şəkildə dua edərmiş. Məsələn, "Allahummə, baid bəyni və bəynə xatayayə kəmə baədtə bəynəl-məşriqi vəl-məğrib. Allahummə,

Əbu Abdullah[1] demişdir: "Bu hədis bu mövzuda rəvayət edilmiş ən səhih hədisdir."

nəqqini min xatayayə kəmə yunəqqas-sovbul-əbyədu minəd-dənəs. Allahummə-ğsilni min xatayayə bis-səlci vəl-mai vəl-bərad (Allahım, məğriblə məşriqin arasını uzaqlaşdırdığın kimi məni də günahlarımdan uzaqlaşdır! Allahım, ağ paltar kirdən təmizləndiyi kimi məni də günahlarımdan təmizlə! Allahım, mənim günahlarımı qar, su və dolu ilə yu!)" (Buxari, 1/181; Muslim, 1/419), yaxud "Allahumməğ-fir li ma qaddəmtu və ma əxxartu və mə əsrərtu və mə ə'lənt... (Allahım, əvvəl etdiyim, sonra edəcəyim, gizlin saxladığım və üzə çıxardığım *pis* əməllərimi bağışla!)" (Fəthul-Bari, 3/3). Bax: Sifətu Səlatin-Nəbi.

[1] Yəni Muhəmməd ibn İsmail əl-Buxari.

## ٥٠٧- بَابُ فَضْلِ مَنْ دَخَلَ بَيْتَهُ بِسَلامٍ

## 507-ci fəsil. Salam verərək öz evinə girən kimsənin fəziləti

١٠٩٤- حَدَّثَنَا هِشَامُ بْنُ عَمَّارٍ قَالَ: حَدَّثَنَا صَدَقَةُ بْنُ خَالِدٍ قَالَ: حَدَّثَنَا أَبُو حَفْصٍ عُثْمَانُ بْنُ أَبِي الْعَاتِكَةِ قَالَ: حَدَّثَنِي سُلَيْمَانُ بْنُ حَبِيبٍ الْمُحَارِبِيُّ، أَنَّهُ سَمِعَ أَبَا أُمَامَةَ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((ثَلاَثَةٌ كُلُّهُمْ ضَامِنٌ عَلَى اللَّهِ، إِنْ عَاشَ كُفِيَ، وَإِنْ مَاتَ دَخَلَ الْجَنَّةَ: مَنْ دَخَلَ بَيْتَهُ بِسَلاَمٍ فَهُوَ ضَامِنٌ عَلَى اللَّهِ عَزَّ وَجَلَّ، وَمَنْ خَرَجَ إِلَى الْمَسْجِدِ فَهُوَ ضَامِنٌ عَلَى اللَّهِ، وَمَنْ خَرَجَ فِي سَبِيلِ اللَّهِ فَهُوَ ضَامِنٌ عَلَى اللَّهِ)).

**(1094)** ........ Əbu Umamə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Üç nəfər vardır ki, Allah Özü onlara zamin olar. *Onlardan hansı biri* həyatda qalsa, ehtiyacı ödənilər, vəfat edərsə, Cənnətə girər:

– Kim öz evinə salam verərək girsə, Allahın öhdəsində olar;[1]

– Kim məscidə *ibadət etmək üçün* getsə, Allahın öhdəsində olar;

– Kim Allah yolunda cihada çıxsa, Allahın öhdəsində olar.”[2]

---

[1] Bundan aydın olur ki, müsəlman öz evinə daxil olduqda ilk əvvəl ev əhlini salamlayarsa, Allah onun bu dünyada olan ehtiyacını ödəyər, Qiyamət günün də onu Cənnətdə sakin edər. Həmçinin, məscidə ibadət məqsədilə gedən və Allah yolunda cihada çıxan kimsəni də eyni aqibət gözləyir. Bu hədisə bənzər başqa bir hədisdə Allahın Rəsulu ﷺ belə buyurmuşdur: “Altı xisləti *davamlı olaraq* yerinə yetirəcəyinizə dair mənə zəmanət verin, Cənnətə girəcəyinizə zəmanət verim: danışanda, düz söz danışın, vəd verdikdə, onu yerinə yetirin, sizə əmanət verildikdə, onu yiyəsinə qaytarın, cinsiyyət orqanlarınızı zinadan qoruyun, haram buyurulanlara baxmayın və əlinizi *haram işlərdən* çəkin (Musnəd Əhməd, 5/323; Səhih İbn Xuzeymə, 91; Səhih İbn Hibban, 107; Mustədrək əl-Hakim, 4/358-359; Şoəbul-İman, 2/47/1; Məkarimul-Əxlaq, səh: 31; Silsilətul-Əhadisis-Səhihə, 1470).

[2] Bu hədisi Əbu Davud (2494), İbn Hibban (499) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun isnadının “səhih” olduğunu demişdir.

**١٠٩٥-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ مُقَاتِلٍ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ قَالَ: أَخْبَرَنَا ابْنُ جُرَيْجٍ قَالَ: أَخْبَرَنِي أَبُو الزُّبَيْرِ، أَنَّهُ سَمِعَ جَابِرًا يَقُولُ: إِذَا دَخَلْتَ عَلَى أَهْلِكَ فَسَلِّمْ عَلَيْهِمْ تَحِيَّةً مِنْ عِنْدِ اللَّهِ مُبَارَكَةً طَيْبَةً.

قَالَ: مَا رَأَيْتُهُ إِلاَّ يُوجِبُهُ قَوْلُهُ: ﴿وَإِذَا حُيِّيتُم بِتَحِيَّةٍ فَحَيُّوا بِأَحْسَنَ مِنْهَا أَوْ رُدُّوهَا﴾.

**(1095)** ........ Əbu Zubeyr rəvayət edir ki,[1] Cabir ﷺ demişdir: "Ailənin yanına daxil olduğun zaman onları Allah tərəfindən mübarək və çox xoş bir salam ilə salamla!"[2]

(Ravi davam edib) demişdir: "Düşünürəm ki, o, Allahın bu sözünə əsasən (salamı almağın vacib olduğunu bildiyinə görə) belə edərdi: **"Biri sizinlə salamlaşdığı zaman siz onun salamını daha böyük ehtiramla alın və ya *verilən salamı olduğu kimi* qaytarın!"[3]**

---

[1] Bu hədisi Təbəri (Təfsir, 5/120) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "səhih" olduğunu demişdir.

[2] Burada "mübarək" deyildikdə, evdə daim xeyir-bərəkətin olması, üstəlik, bu xeyir-bərəkətin artması, "çox xoş" deyildikdə isə şərdən qorunmaq nəzərdə tutulur. Ənəs ibn Malikin ﷺ rəvayət etdiyi hədisdə, Peyğəmbər ﷺ ona belə buyurmuşdur: "Oğlum, əhli-əyalının yanına daxil olduğun zaman onlara salam ver ki, bu, həm sənin, üçün, həm də onlar üçün bir bərəkət olsun!" (Sunən ət-Tirmizi, 2915; Şeyx Albani "Səhih ət-Tərğib vət-Tərhib" əsərində, (1608) bu hədisin mətninin "həsən li-ğeyrihi" olduğunu demişdir)

[3] "ən-Nisa" surəsi, 86.

## ٥٠٨– بَابُ إِذَا لَمْ يَذْكُرِ اللَّهَ عِنْدَ دُخُولِهِ الْبَيْتَ يَبِيتُ فِيهِ الشَّيْطَانُ

## 508-ci fəsil. Adam evə girdiyi zaman Allahı zikr etməsə, o evdə şeytan gecələyər[1]

١٠٩٦– حَدَّثَنَا خَلِيفَةُ قَالَ: حَدَّثَنَا أَبُو عَاصِمٍ قَالَ: حَدَّثَنَا ابْنُ جُرَيْجٍ، عَنْ أَبِي الزُّبَيْرِ، عَنْ جَابِرٍ، أَنَّهُ سَمِعَ النَّبِيَّ ﷺ يَقُولُ: ((إِذَا دَخَلَ الرَّجُلُ بَيْتَهُ، فَذَكَرَ اللَّهَ عَزَّ وَجَلَّ عِنْدَ دُخُولِهِ، وَعِنْدَ طَعَامِهِ، قَالَ الشَّيْطَانُ: لاَ مَبِيتَ لَكُمْ وَلاَ عَشَاءَ، وَإِذَا دَخَلَ فَلَمْ يَذْكُرِ اللَّهَ عِنْدَ دُخُولِهِ قَالَ الشَّيْطَانُ: أَدْرَكْتُمُ الْمَبِيتَ، وَإِنْ لَمْ يَذْكُرِ اللَّهَ عِنْدَ طَعَامِهِ قَالَ الشَّيْطَانُ: أَدْرَكْتُمُ الْمَبِيتَ وَالْعَشَاءَ)).

**(1096)** ........ Əbu Zubeyr rəvayət edir ki,[2] Cabir ﷺ Peyğəmbərin ﷺ belə dediyini eşitmişdir: "Adam evinə daxil olarkən və bir də, yeməyə başlayar-

---

[1] Bundan aydın olur ki, evə daxil olduqda "Bismilləh!"– deməк, şeytanın içəri daxil olmasına əngəl olan bir maneədir. İmam Buxari, "Salam verərək öz evinə girən kimsənin fəziləti" adlı fəslin ardınca gələn bu fəsilə belə ünvan qoymaqla bildirmək istəyir ki, adam evə daxil olduqda, iki şeyə diqqət yetirməlidir: əvvəlcə "Bismilləh!", bunun ardından da "Əssəlamu aleykum!"– deməlidir. Əks halda, şeytan bu həqiqətdən qafil olan insanların həm malına, həm də övladlarına şərik olur. Bu xüsusda, Uca Allah buyurur: **"Onlardan gücün çatdığı kimsələri səsinlə *günah*a təhrik et, atlı və piyadanı onların üstünə yerit, mallarına və övladlarına şərik ol, onlara vədlər ver. Şübhəsiz ki, şeytan onlara ancaq yalan vədlər verər. Heş şübhəsiz ki, Mənim *ixlaslı* qullarım üzərində sənin hökmranlığın olmayacaqdır. Qoruyan olaraq Rəbbin yetər"** (əl-İsra, 64-65). Ayədən aydın başa düşülür ki, şeytan ancaq gücü çatdığı adamların mallarına və övladlarına şərik ola bilər. Allahın adını zikr edən ixlaslı möminlərin isə şeytan nə mallarına, nə də övladlarına şərik olmağa gücü çatar.

[2] Bu hədisi Muslim (2018), Əbu Davud (3765), ən-Nəsai (əl-Kubra, 6724 və 9935), İbn Macə (3887), Əhməd (3/383), İbn Hibban (819), Hakim (3515), Beyhəqi (əl-Kubra, 15003) və Əbu Əvanə (Musnəd, 8240) rəvayət etmişdir.

kən Allahı ﷻ zikr etsə,[1] şeytan *yanındakılara*[2] deyər: "*Burada* sizə nə gecələməyə yeriniz var, nə də yeməyiniz.[3]" Və əgər *adam* evə daxil olduğu zaman Allahı zikr etməzsə, şeytan: "Siz gecələməyə yer tapdınız"– deyər. Və əgər yeməyə başladıqda, Allahı zikr etməzsə, şeytan: "Siz həm gecələməyə yer, həm də yemək tapdınız"– deyər."

---

[1] Yəni, "Bismilləh!"– desə. Rəvayət edilir ki, Ömər ibn Əbu Sələmə ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ himayəsi altında böyüyən bir uşaq idim. Yemək yeyəndə mən əlimi qabın hər tərəfinə uzadardım. *Bir dəfə* Peyğəmbər ﷺ mənə belə buyurdu: "Balaca, "Bismilləh!" de, özün də sağ əllə və öz qabağından ye!" O gündən bəri mən yeməyi ancaq bu qaydada yeyirəm" (Səhih əl-Buxari, 5376).

[2] Yəni şeytan öz havadarlarına və dostlarına deyər: "*Burada* sizə nə gecələməyə yeriniz var, nə də yeməyiniz" (Şərh ən-Nəvəvi, 3762; Avnul-Məbud, 3273; ).

[3] Rəvayət edilir ki, Huzeyfə ibn Yəman ﷺ demişdir: "Biz Peyğəmbərlə ﷺ birlikdə süfrə başına oturduqda, o, əlini yeməyə uzatmayınca, biz əlimizi yeməyə uzatmazdıq. Yenə bir gün biz onunla bərabər bir süfrədə yeməyə oturduq. Elə bu vaxt bir qız uşağı *bizim yanımıza* gəldi. Sanki *arxasından kimsə* onu itələyirdi. O gəlib ("Bismilləh"– demədən) əlini yeməyə uzatdıqda, Peyğəmbər ﷺ onun əlindən tutub saxladı. Daha sonra bir bədəvi *süfrəyə* yaxınlaşdı. Onu da sanki *arxasından kimsə* itələyirdi. Peyğəmbər ﷺ onun da əlindən tutub saxladı, sonra dedi: "Şeytan istəyir ki, yeməyə başladıqda, Allahın adı zikr edilməsin və o yeməkdən yeyə bilsin. O, bu qız uşağını gətirmişdi ki, onun sayəsində bu yeməkdən yeyə bilsin. Lakin mən onun əlindən tutub saxladım. Sonra bu bədəvini gətirdi ki, onun sayəsində bu yeməkdən yeyə bilsin. Mən onun da əlindən tutub saxladım. Canım Əlində olan *Allaha* and olsun ki, bu qızın (və bu bədəvinin) əli ilə birlikdə, şeytanın əli də mənim əlimin içindədir" (Səhih Muslim, 2017). Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, yeməyə başladıqda, bir nəfərin hamının adından "Bismilləh!"– deməsi kifayət etmir, yeməyə başlayan hər kəsin "Bismilləh!"– deməsi vacibdir.

## ٥٠٩– بَابُ مَا لا يُسْتَأْذَنُ فِيهِ

## 509-cu fəsil. İzin istənilməyən yerlər[1]

١٠٩٧– حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا أَعْيُنُ الْخُوَارِزْمِيُّ قَالَ: أَتَيْنَا أَنَسَ بْنَ مَالِكٍ، وَهُوَ قَاعِدٌ فِي دِهْلِيزِهِ وَلَيْسَ مَعَهُ أَحَدٌ، فَسَلَّمَ عَلَيْهِ صَاحِبِي وَقَالَ: أَدْخُلُ؟ فَقَالَ أَنَسٌ: ادْخُلْ، هَذَا مَكَانٌ لاَ يَسْتَأْذِنُ فِيهِ أَحَدٌ، فَقَرَّبَ إِلَيْنَا طَعَامًا، فَأَكَلْنَا، فَجَاءَ بِعُسِّ نَبِيذٍ حُلْوٍ فَشَرِبَ، وَسَقَانَا.

**(1097)** ........ Ə'yun əl-Xəvarizmi demişdir: “(Bir gün) biz Ənəs ibn Malikin yanına gəldik. *Həmin vaxt* o, dəhlizdə[2] oturmuşdu. Yanında da heç kəs yox idi. Dostum ona salam verdikdən sonra dedi: “*İçəri* girə bilərəmmi?”[3] Ənəs dedi: “Gir, bura elə bir yerdir ki, bura daxil olmaq üçün heç kəsdən izin istənilməz.”[4] Sonra o, bizə yemək verdi. Biz *yeməkdən* yedikdən sonra o, bir qədəh şirin nəbiz[5] gətirdi. *Ondan* özü də içdi, bizə də içirtdi.”[6]

---

[1] Burada qapısı açıq və içi görünən yerlər nəzərdə tutulur (növbəti fəsildəki rəvayətlərə bax).

[2] Dəhliz sözü iki mənanı ifadə edir:

a) Küçə qapısı ilə ev, yaxud evlə həyət arasında üstüörtülü yol;

b) Ev qapısı ilə otaqların qapıları arasında olan üstüörtülü aralıq.

Qeyd etmək lazımdır ki, bunların birincisinə daxil olmaq üçün izin istəməyə lüzum yoxdur. İkincisinə girmək üçün isə izin istəmək vacibdir.

[3] 1081-ci, 1083-cü, 1084-cü və 1085-ci hədislərə və onların qeydlərinə bax.

[4] Belə ki, göz *haram buyurulanları* görməsin deyə, izin istəmək vacib buyurulmuşdur. Qapısı açıq və içi görünən yerlərə daxil olmaq üçün isə izin istəməyə gərək yoxdur (1070-ci, 1071-ci və 1072-ci hədislərə və onların qeydlərinə bax).

[5] Nəbiz: xurmanı, üzümü, buğdanı, arpanı və s. yumşalanadək suda saxladıqdan sonra onu sıxmaqla hazırlanan içkidir (746-cı hədisin qeydlərinə bax).

[6] Bu hədisi Təbarani “Mocəmul-Kəbir” əsərində (1/296/696) rəvayət etmişdir. Hədisin isnadında keçən Ə'yun “məchul” ravi olduğundan, Şeyx Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “zəif” olduğunu demişdir.

## ٥١٠- بَابُ الاسْتِئْذَانِ فِي حَوَانِيتِ السُّوقِ

## 510-cu fəsil. Bazardakı dükanlara girmək üçün izin istəmək[1]

**١٠٩٨-** حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنِ ابْنِ عَوْنٍ، عَنْ مُجَاهِدٍ قَالَ: كَانَ ابْنُ عُمَرَ لاَ يَسْتَأْذِنُ عَلَى بُيُوتِ السُّوقِ.

**(1098)** ........ Mücahid demişdir: "İbn Ömər bazardakı dükanlara girmək üçün izin istəməzdi.[2]"[3]

**١٠٩٩-** حَدَّثَنَا أَبُو حَفْصِ بْنُ عَلِيٍّ قَالَ: حَدَّثَنَا الضَّحَّاكُ بْنُ مَخْلَدٍ، عَنِ ابْنِ جُرَيْجٍ، عَنْ عَطَاءٍ قَالَ: كَانَ ابْنُ عُمَرَ يَسْتَأْذِنُ فِي ظُلَّةِ الْبَزَّازِ.

**(1099)** ........ Əta demişdir: "İbn Ömər bəzzazın[4] köşkündə[5] *durmaq* üçün izin istəyərdi.[6]"[7]

---

[1] Müəllif fəsilə bu ünvanı qoymaqla bildirmək istəyir ki, belə yerə girmək üçün onun sahibindən izin istəməyə lüzum yoxdur. Çünki dükan və buna bənzər yerlərin qapısı ora gələn hər kəs üçün açıq olur.

[2] Yeri gəlmişkən, qeyd edək ki, bazardakı dükanlara daxil olduqda izin istəmək lazım gəlməsə də, onların içində olan sahiblərinə və işçilərə salam vermək İslam ədəbindəndir (1006-cı hədisə və onun qeydlərinə bax).

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[4] Bəzzaz: parça, arşınmalı satan tacir.

[5] Köşk: üstü örtülü, yanları açıq yüngül tikili.

[6] İbn Ömərin رضي الله عنهما bu hərəkəti onun necə gözəl əxlaq sahibi olduğundan xəbər verir.

[7] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٥١١- بَابُ كَيْفَ يَسْتَأْذِنُ عَلَى الْفُرْسِ؟

## 511-ci fəsil. Əcəmlərdən[1] necə izin istənilməlidir?

١١٠٠- حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ الْمُبَارَكِ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَارِثِ قَالَ: حَدَّثَنَا عَلِيُّ بْنُ الْعَلاَءِ الْخُزَاعِيُّ، عَنْ أَبِي عَبْدِ الْمَلِكِ، مَوْلَى أُمِّ مِسْكِينٍ بِنْتِ عَاصِمِ بْنِ عُمَرَ بْنِ الْخَطَّابِ، قَالَ: أَرْسَلَتْنِي مَوْلاَتِي إِلَى أَبِي هُرَيْرَةَ، فَجَاءَ مَعِي، فَلَمَّا قَامَ بِالْبَابِ فقَالَ: أَنْدَرَايِيمْ؟ قَالَتْ: أَنْدَرُونْ، فَقَالَتْ: يَا أَبَا هُرَيْرَةَ إِنَّهُ يَأْتِينِي الزَّوْرُ بَعْدَ الْعَتَمَةِ فَأَتَحَدَّثُ؟ قَالَ: تَحَدَّثِي مَا لَمْ تُوتِرِي، فَإِذَا أَوْتَرْتِ فَلاَ حَدِيثَ بَعْدَ الْوِتْرِ.

**(1100)** ........ Ummu Miskin bint Asim ibn Ömər ibn Xattabın mövlası[2] Əbu Abdulmalik demişdir:[3] "(Bir gün) xanım[4] məni Əbu Hureyrənin na göndərdi *ki, onu çağırım*. Əbu Hureyrə mənimlə gəldi və qapıya çatdıq-

---

[1] Əcəm: keçmişdə ərəb olmayan xalqlara və onların nümayəndələrinə, xüsusən, İran əhalisindən olan adamlara verilən ad. Müəllif bu fəslə belə ünvan qoymaqla sanki bildirmək istəyir ki, hər kəsdən, hətta əcnəbilərdən belə izin istəmək vacibdir və izin istəniləcək kimsənin qeyri-ərəb qövmündən birinə mənsub olmasının, habelə, müsəlman olmamasının bu hökmə heç bir aidiyyəti yoxdur. Daha doğrusunu bilən Allahdır!

İbn Əbu Şeybə öz "Musənnəf"ində ayrıca bir fəslə belə ünvan qoymuşdur: "Zimmə əhlinin yanına daxil olmaq üçün izin istəmək." İbn Əbu Şeybə həmin fəsildə Əsvədin *əcəmlərin yanına daxil olmaq istədikdə*: "Əndərayim?"– dediyini, (26514), habelə, Səid ibn Cubeyrin: "Kitab əlindən izin almadan onların yanına daxil olmayın!" dediyini (26513) nəql etmişdir.

[2] 39-cu fəsilin qeydlərinə bax.

[3] Bu hədisi Xətib əl-Bəğdadi "əl-Cami li Əxlaqir-Ravi və Adabus-Sami" əsərində rəvayət etmişdir. Hədisin isnadında keçən Əbu Abdul-Məlik "məchul" ravi olduğundan, Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

[4] Ummu Miskin əl-Qurəşiyyə əl-Ədəviyyə, Ömər ibn Abdul-Azizin xalasıdır (Təhzibul-Kəmal, 8011-ci tərcümeyi-hal; Təqribut-Təhzib, 8771-ci tərcümeyi-hal).

da: "Əndərayim?"[1]– dedi.[2] O da: "Əndərun!"[3]– dedi. Sonra qadın soruşdu: "Ey Əbu Hureyrə, işa namazından sonra qadınlar mənə baş çəkməyə gəlirlər. Mən onlarla söhbət edə bilərəmmi?"[4] Əbu Hureyrə dedi: "Vitr namazını qılanadək istədiyin qədər söhbət edə bilərsən. Vitr namazını qıldıqdan sonra isə söhbətə son qoymalısan."

---

[1] Əndərayim: farscadan tərcümədə, "İçəri girə bilərəmmi?" deməkdir.

[2] Hədisin bu hissəsinin fəsilin ünvanına uyğun gəlmədiyi açıq-aydın görünür. Yəni necə ola bilər ki, Əbu Hureyrə kimi səhabə əsli ərəb, həm də müsəlman olan və ərəbcə danışan bir qadına farsca müraciət etsin?

[3] Əndərun: farscadan tərcümədə – iç, içəri, daxil, evin ailə və qadınlara məxsus hissəsi deməkdir. Burada qadın ona: "İçəri girə bilərsən!" deyir.

[4] Hədislərin birində rəvayət edilir ki, Əbu Bərzə əl-Əsləmi ﷺ demişdir: "Peyğəmbər ﷺ sizin ətəmə adlandırdığınız işa namazını *gecənin yarısınadək* yubatmağı sevər, bu namazdan əvvəl yatmağı və ondan sonra danışmağı xoşlamazdı" (Səhih əl-Buxari, 547).

## ٥١٢ – بَابُ إِذَا كَتَبَ الذِّمِّيُّ فَسَلَّمَ، يُرَدُّ عَلَيْهِ

## 512-ci fəsil. Zimmi[1] məktub yazıb salam verdikdə, ona cavab verilir

١١٠١ – حَدَّثَنَا يَحْيَى بْنُ بِشْرٍ قَالَ: حَدَّثَنَا الْحَكَمُ بْنُ الْمُبَارَكِ قَالَ: حَدَّثَنَا عَبَّادٌ يَعْنِي ابْنَ عَبَّادٍ، عَنْ عَاصِمٍ الأَحْوَلِ، عَنْ أَبِي عُثْمَانَ النَّهْدِيِّ قَالَ: كَتَبَ أَبُو مُوسَى إِلَى رُهْبَانٍ يُسَلِّمُ عَلَيْهِ فِي كِتَابِهِ، فَقِيلَ لَهُ: أَتُسَلِّمُ عَلَيْهِ وَهُوَ كَافِرٌ؟ قَالَ: إِنَّهُ كَتَبَ إِلَيَّ فَسَلَّمَ عَلَيَّ، فَرَدَدْتُ عَلَيْهِ.

**(1101)** ........ Əbu Osman ən-Nəhdi demişdir: "*Bir dəfə* Əbu Musa[2] rahiblərdən[3] birinə məktub yazıb məktubunda onu salamladı. *Bəzi adamlar* ona *etiraz edib* dedilər: "O, kafir olduğu halda, sən onu salamlayırsan?" Əbu Musa dedi: "O, mənə məktub yazıb məktubunda məni salamladığı üçün mən onun salamını aldım.[4]"[5]

---

[1] Müsəlmanların sığınacağı altında olan kafirlər.

[2] 118-ci hədisin qeydlərinə bax.

[3] Rahib: Monastırda yaşayıb rahibliyə girmə (saç kəsdirmə) mərasimindən keçərək, monastır nizamnaməsinin tələblərinə uyğun olaraq tərki-dünya həyat keçirməyi əhd etmiş şəxs.

[4] Bu xüsusda, Uca Allah buyurur: **"Biri sizinlə salamlaşdığı zaman siz onun salamını daha böyük ehtiramla alın və ya *verilən salamı olduğu kimi* qaytarın!"** (ən-Nisa, 86). Həmçinin, 472-ci fəsilin ünvanının qeydinə bax. Şeyx Muhəmməd Nasirəddin əl-Albani bu hədisi izah edib demişdir: "Əgər kafir aydın şəkildə "Əssəlamu aleykum!"– deyərsə, onun verdiyi salamı olduğu kimi almaq vacibdir. Bu, mənim dəstəklədiyim rəydir. Bu deyilənləri "Silsilətul-Əhadisis-Səhihə" əsərində (2/328-330; 704-cü hədisin şərhi) əsaslandırmışam. Həmçinin, bu kitabda müəllifin İbn Abbasdan ﷺ nəql etdiyi (1107-ci) rəvayətə bax" (Səhih əl-Ədəbul-Mufrad, səh: 425).

[5] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٥١٣- بَابُ لا يَبْدَأُ أَهْلَ الذِّمَّةِ بِالسَّلامِ

## 513-cü fəsil. Zimmilərə birinci salam verilmir[1]

**١١٠٢-** حَدَّثَنَا أَحْمَدُ بْنُ خَالِدٍ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ إِسْحَاقَ، عَنْ يَزِيدَ بْنِ أَبِي حَبِيبٍ، عَنْ مَرْثَدٍ، عَنْ أَبِي بَصْرَةَ الْغِفَارِيِّ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِنِّي رَاكِبٌ غَدًا إِلَى يَهُودَ، فَلاَ تَبْدَأُوهُمْ بِالسَّلاَمِ، فَإِذَا سَلَّمُوا عَلَيْكُمْ فَقُولُوا: وَعَلَيْكُمْ)).

**(1102)** ........ Əbu Bəsrə əl-Ğifari رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Sabah səhər mən yəhudilərin yanına gedəcəyəm. Nəbadə, onlara birinci salam verəsiniz! Hərgah, onlar sizə salam versələr, siz: "Və aleykum (sizə də olsun)!"[2]– deyin."[3]

**١١٠٣-** حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا وُهَيْبٌ قَالَ: حَدَّثَنَا سُهَيْلٌ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((أَهْلُ الْكِتَابِ لاَ تَبْدَأُوهُمْ بِالسَّلاَمِ، وَاضْطَرُّوهُمْ إِلَى أَضْيَقِ الطَّرِيقِ)).

**(1103)** ........ Əbu Hureyrə رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Kitab əhlinə birinci salam verməyin. Üstəlik, onları yolun ən dar yerinə sıxışdırın.[4]"[5]

---

[1] Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində (704-cü hədisin şərhi) demişdir: "Əgər sual verilsə ki, "Kafiri "Əssəlamu aleykum" sözündən başqa bir sözlə salamlamaq caizdirmi?" Məsələn, ona: "Səhərə və ya axşama necə çıxdın?" yaxud "Kefin-halın necədir?" və s. buna bənzər sözlər demək kimi. Düşünürəm ki, bunu demək caizdir. Çünki yalnız Allahın adı çəkilən salamla – İslam salamı ilə – onları salamlamaq qadağan edilmişdir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "əs-Salam Uca Allahın adlarından biridir. O bunu *bir-birinizlə salamlaşasınız deyə* yer üzünə qoymuşdur. Elə isə, aranızda salamı yayın" (əl-Ədəbul-Mufrad, 989). Allah daha yaxşı bilir!"

[2] Belə ki, onlar, adətən, müsəlmanlara "Əssamu aleykum!"– deyirlər (462-ci, 1105-ci, 1106-cı və 1110-cu hədislərə bax).

[3] Bu hədisi Nəsai (əl-Kubra, 305), İbn Macə (3699) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[4] Burada kafirə əziyyət vermək yox, sadəcə olaraq ona ehtiram göstərməmək, müsəlman dura-dura, ona yolun rahat yeri ilə getməyə imkan verməmək nəzərdə tutulur.

[5] Bu hədisi Muslim (7/5), Əbu Davud (2/642) və Əhməd (2/346 və 459) rəvayət etmişdir.

## ٥١٤– بَابُ مَنْ سَلَّمَ عَلَى الذِّمِّيِّ إِشَارَةً

## 514-cü fəsil. Zimmiyə işarə ilə salam verən kimsə[1]

١١٠٤– حَدَّثَنَا صَدَقَةُ قَالَ: أَخْبَرَنَا حَفْصُ بْنُ غِيَاثٍ، عَنْ عَاصِمٍ، عَنْ حَمَّادٍ، عَنْ إِبْرَاهِيمَ، عَنْ عَلْقَمَةَ قَالَ: إِنَّمَا سَلَّمَ عَبْدُ اللَّهِ عَلَى الدَّهَاقِينَ إِشَارَةً.

**(1104)** ........ İbrahim *ən-Nəxəi* rəvayət edir ki, Əlqəmə demişdir: "Abdullah *ibn Məsud* kafir zadəganlara[2] işarə ilə salam verərdi."[3]

١١٠٥– حَدَّثَنَا عَمْرُو بْنُ عَاصِمٍ قَالَ: حَدَّثَنَا هَمَّامٌ قَالَ: حَدَّثَنَا قَتَادَةُ، عَنْ أَنَسٍ قَالَ: مَرَّ يَهُودِيٌّ عَلَى النَّبِيِّ ﷺ فَقَالَ: السَّامُ عَلَيْكُمْ، فَرَدَّ أَصْحَابُهُ السَّلاَمَ، فَقَالَ: ((قَالَ: السَّامُ عَلَيْكُمْ))، فَأُخِذَ الْيَهُودِيُّ فَاعْتَرَفَ، قَالَ: ((رُدُّوا عَلَيْهِ مَا قَالَ)).

**(1105)** ........ Qətadə rəvayət edir ki, Ənəs ﷺ demişdir: "(Bir gün) yəhudilərdən biri Peyğəmbərin ﷺ yanından keçdi və: "Əssamu aleykum!"[4]– dedi. Səhabələr onun salamını aldılar.[5] Peyğəmbər ﷺ buyurdu: "Axı, o: "Əssamu aleykum!"– dedi." Onlar yəhudini tutub soruşduqda,[6] o, bunu etiraf etdi. Onda, Peyğəmbər ﷺ buyurdu: "Onun dediyi sözü özünə qaytarın![7]"[8]

---

[1] Burada "Əssəlamu aleykum!" demədən ancaq əl ilə işarə etmək nəzərdə tutulur.

[2] Zadəgan: Hakim sinifin yüksək kübarlar təbəqəsi.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[4] Tərcüməsi: Sizə ölüm olsun!

[5] Yəni "Və aleykumussəlam!" dedilər.

[6] Bundan aydın olur ki, səhabələr yəhudinin nə dediyini, olduğu kimi başa düşməmiş, onlara "Əssəlamu aleykum!" dediyini güman etmişdilər.

[7] Yəni "Və aleykum!" deyin (1106-cı hədisə bax).

[8] Bu hədisi Muslim (7/4), Əbu Davud (5207), Nəsai (Aməlul-Yovm, 386 və 387), Tirmizi (3296) və İbn Macə *müxtəsər olaraq* (3697) rəvayət etmişdir.

## ٥١٥- بَابُ كَيْفَ الرَّدُّ عَلَى أَهْلِ الذِّمَّةِ؟

## 515-ci fəsil. Zimmilərdən salamı necə almaq lazımdır?[1]

١١٠٦- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ عَبْدِ اللَّهِ بْنِ دِينَارٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عُمَرَ، أَنَّهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((إِنَّ الْيَهُودَ إِذَا سَلَّمَ عَلَيْكُمْ أَحَدُهُمْ، فَإِنَّمَا يَقُولُ: السَّامُ عَلَيْكَ، فَقُولُوا: وَعَلَيْكَ)).

**(1106)** ........ Abdullah ibn Ömər ﵄ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: “Yəhudilərdən biri sizə salam verdikdə: “Əssamu aleykə!”[2]– deyir. Siz də ona: “Və aleykə!”[3]– deyin.”[4]

١١٠٧-حَدَّثَنَا مُحَمَّدُ بْنُ الصَّبَّاحِ قَالَ: حَدَّثَنَا الْوَلِيدُ بْنُ أَبِي ثَوْرٍ، عَنْ سِمَاكٍ، عَنْ عِكْرِمَةَ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: رُدُّوا السَّلَامَ عَلَى مَنْ كَانَ يَهُودِيًّا، أَوْ نَصْرَانِيًّا، أَوْ مَجُوسِيًّا، ذَلِكَ بِأَنَّ اللَّهَ يَقُولُ: ﴿وَإِذَا حُيِّيتُمْ بِتَحِيَّةٍ فَحَيُّوا بِأَحْسَنَ مِنْهَا أَوْ رُدُّوهَا﴾.

**(1107)** ........ İbn Abbas ﵄ demişdir:[5] “Yəhudilərin, nəsranilərin və məcusilərin salamını alın.[6] Çünki Allah belə buyurur: **“Biri sizinlə salamlaşdığı zaman siz onun salamını daha böyük ehtiramla alın və ya *verilən salamı olduğu kimi* qaytarın!”**[7]

---

[1] 472-ci fəsilin ünvanının qeydinə bax.

[2] Sənə ölüm olsun!

[3] Sənə də olsun!

[4] Bu hədisi Buxari (6257), Muslim (2164), Əbu Davud (5206) və Tirmizi (1701) rəvayət etmişdir.

[5] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “həsən” olduğunu demişdir.

[6] 1101-ci hədisin qeydlərinə bax.

[7] “ən-Nisa” surəsi, 86.

## ٥١٦- بَابُ التَّسْلِيمِ عَلَى مَجْلِسٍ فِيهِ الْمُسْلِمُ وَالْمُشْرِكُ

## 516-cı fəsil. Müsəlman və müşrik olan məclisə necə salam verilməlidir?

١١٠٨- حَدَّثَنَا أَبُو الْيَمَانِ قَالَ: أَخْبَرَنَا شُعَيْبٌ، عَنِ الزُّهْرِيِّ قَالَ: أَخْبَرَنِي عُرْوَةُ بْنُ الزُّبَيْرِ، أَنَّ أُسَامَةَ بْنَ زَيْدٍ أَخْبَرَهُ، أَنَّ النَّبِيَّ ﷺ رَكِبَ عَلَى حِمَارٍ عَلَيْهِ إِكَافٌ عَلَى قَطِيفَةٍ فَدَكِيَّةٍ، وَأَرْدَفَ أُسَامَةَ ابْنَ زَيْدٍ وَرَاءَهُ، يَعُودُ سَعْدَ بْنَ عُبَادَةَ، حَتَّى مَرَّ بِمَجْلِسٍ فِيهِ عَبْدُ اللَّهِ بْنُ أُبَيٍّ ابْنُ سَلُولٍ، وَذَلِكَ قَبْلَ أَنْ يُسْلِمَ عَبْدُ اللَّهِ، فَإِذَا فِي الْمَجْلِسِ أَخْلَاطٌ مِنَ الْمُسْلِمِينَ وَالْمُشْرِكِينَ وَعَبَدَةِ الْأَوْثَانِ، فَسَلَّمَ عَلَيْهِمْ.

**(1108)** ........ Urva ibn Zubeyr rəvayət edir ki, Usamə ibn Zeyd ﷺ demişdir: "(Bədr döyüşündən əvvəl) Peyğəmbər ﷺ, üstünə Fədək məxmərindən palan qoyulmuş uzunqulağına minib, Usaməni də tərkinə alıb Səd ibn Ubadəni ziyarət etməyə getdi. Nəhayət o, Abdullah ibn Ubeyy ibn Səlul olan bir məclisə çatdı. O vaxt Abdullah ibn Ubeyy ibn Səlul hələ (zahirən) İslamı qəbul etməmişdi.[1] Bu məclisdə həm müsəlmanlar, həm müşriklər, həm də bütpərəstlər iştirak edirdilər. Peyğəmbər ﷺ onlara salam verdi.[2]"[3]

---

[1] Abdullah ibn Ubeyy ibn Səlul münafiqlərin başçısı olmuş və zahirən müsəlman olduğunu göstərmişdir. Onun və onun kimilərinin barəsində "ət-Tovbə" surəsinin 84-cü ayəsi nazil olmuşdur: **"Heç vaxt onlardan ölmüş bir kəsin cənazə namazını qılma, qəbrinin başında da durma. Çünki onlar Allahı və Onun Elçisini inkar etdilər və günahkar olaraq öldülər"** (1053-cü hədisin qeydlərinə bax).

[2] Bu, dəlildir ki, belə məclisin yanından keçdikdə müsəlmanları qəsd edərək, ümumi şəkildə o məclisdəkilərə salam vermək olar.

[3] Bu hədisi İmam Buxari öz "Səhih"ində (4563) daha ətraflı rəvayət etmişdir.

## ٥١٧- بَابُ كَيْفَ يَكْتُبُ إِلَى أَهْلِ الْكِتَابِ؟

## 517-ci fəsil. Kitab əhlinə məktub necə yazılmalıdır?

**١١٠٩-** حَدَّثَنَا أَبُو الْيَمَانِ قَالَ: أَخْبَرَنَا شُعَيْبٌ، عَنِ الزُّهْرِيِّ قَالَ: أَخْبَرَنِي عُبَيْدُ اللَّهِ بْنُ عَبْدِ اللَّهِ ابْنِ عُتْبَةَ، أَنَّ عَبْدَ اللَّهِ بْنَ عَبَّاسٍ أَخْبَرَهُ، أَنَّ أَبَا سُفْيَانَ بْنَ حَرْبٍ أَخْبَرَهُ: أَرْسَلَ إِلَيْهِ هِرَقْلُ مَلِكُ الرُّومِ، ثُمَّ دَعَا بِكِتَابِ رَسُولِ اللَّهِ ﷺ الَّذِي أُرْسِلَ بِهِ مَعَ دِحْيَةَ الْكَلْبِيِّ إِلَى عَظِيمِ بُصْرَى، فَدَفَعَهُ إِلَيَّ هِرَقْلُ فَقَرَأَهُ، فَإِذَا فِيهِ: بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ، مِنْ مُحَمَّدٍ عَبْدِ اللَّهِ وَرَسُولِهِ إِلَى هِرَقْلَ عَظِيمِ الرُّومِ، سَلاَمٌ عَلَى مَنِ اتَّبَعَ الْهُدَى، أَمَّا بَعْدُ، فَإِنِّي أَدْعُوكَ بِدِعَايَةِ الإِسْلاَمِ، أَسْلِمْ تَسْلَمْ، يُؤْتِكَ اللَّهُ أَجْرَكَ مَرَّتَيْنِ، فَإِنْ تَوَلَّيْتَ فَإِنَّ عَلَيْكَ إِثْمَ الأَرِيسِيِّينَ وَ ﴿يَا أَهْلَ الْكِتَابِ تَعَالَوْا إِلَى كَلِمَةٍ سَوَاءٍ بَيْنَنَا وَبَيْنَكُمْ﴾ إِلَى قَوْلِهِ: ﴿اشْهَدُوا بِأَنَّا مُسْلِمُونَ﴾.

**(1109)** ........ Abdullah ibn Abbas ﵄ rəvayət edir ki, Əbu Sufyan ibn Hərb ona belə rəvayət etmişdir: “Rum imperatoru Herakl adam göndərib məni yanına çağırtdırdı. Sonra o, Rəsulullahın ﷺ Dihyə əl-Kəlbi[1] ilə Busra hökmdarına göndərdiyi məktubu gətizdirdi. Herakl məktubu mənə verdi, mən də onu oxudum. Məktubda bu sözlər yazılmışdı: “Mərhəmətli və

---

[1] Dihyə ibn Xəlifə ibn Fərva ibn Fədalə əl-Kəlbi ﵁ Peyğəmbərin ﷺ səhabəsi, hicrətin 6-cı ilində Heraklın yanına göndərdiyi elçisidir. Ən yaraşıqlı səhabələrdən biridir. Bədr döyüşündən əvvəl müsəlman olmuşdur. Cəbrail əleyhissəlam çox vaxt Peyğəmbərin ﷺ yanına Dihyənin qiyafəsində gələrmiş (Siyər Əlam ən-Nubələ, 116-cı tərcümeyi-hal). Usamə ibn Zeyd rəvayət edir ki, *bir dəfə* Ummu Sələmə Peyğəmbərin ﷺ yanında ikən Cəbrail onun yanına gəlib onunla söhbət etdi. O, çıxıb getdikdən sonra Peyğəmbər ﷺ Ummu Sələmədən soruşdu: “*Bilirsən,* o, kim idi?” Ummu Sələmə: “Bu, Dihyə idi”- dedi. *Sonralar* Ummu Sələmə deyirdi: “Vallahi, Allahın peyğəmbərinin ﷺ xütbəsini eşidənədək, xütbədə onun Cəbrail olduğunu bildirənədək mən onun Dihyə olduğunu güman edirdim” (Səhih əl-Buxari, 3634).

Rəhmli Allahın adı ilə![1] Allahın qulu və rəsulu Muhəmməddən Rum imperatoru Herakla.[2] Haqq yolu tutub gedənlərə salam olsun![3] Sonra isə, mən səni İslama dəvət edirəm. İslamı qəbul et ki, salamat qalasan[4] və Allah sənin mükafatını ikiqat versin.[5] Əgər qəbul etməsən, tabeçiliyində olanların günahı sənin boynunda qalacaqdır.[6] (Sənə Allahın mənə buyurduğunu

---

[1] Məktubun əvvəlində "Mərhəmətli Allahın adı ilə" yazmaq Peyğəmbərimizin ﷺ və ondan əvvəlki peyğəmbərlərin Sünnəsidir: **"Bu *məktub* Süleymandandır və *onda deyilir:* "Mərhəmətli və Rəhmli Allahın adı ilə!"** (ən-Nəml, 30).

[2] Bundan aydın olur ki, məktubu yazan adam əvvəlcə özünü təqdim etməli, sonra da məktub göndərdiyi adama ehtiramla – onun titulu, ləqəbi və s. ona müraciət etməlidir.

[3] Bir zaman Uca Allah Musaya ﷺ və Haruna ﷺ belə buyurmuşdur: "Onun yanına gedib deyin: **"Biz sənin Rəbbinin elçiləriyik. İsrail oğullarını bizimlə göndər və onlara əziyyət vermə. Biz sənin yanına Rəbbindən dəlillə gəlmişik. Haqq yolu tutub gedənlərə salam olsun!"** (Ta ha, 47).

[4] Bu, dəlildir ki, adam həm bu dünya, həm də Axirətdə yalnız və yalnız İslam dini sayəsində salamat ola bilər.

[5] İslamı qəbul etmiş Kitab əhlinin ikiqat savab qazanacağı barədə Uca Allah buyurur: **"*Qurandan* əvvəl özlərinə Kitab verdiyimiz kəslər ona iman gətirirlər. Onlara *Quran* oxunduğu zaman: "Biz ona iman gətirdik. O, həqiqətən də, Rəbbimizdən olan haqdır. Biz ondan əvvəl də müsəlman idik!"– deyirlər. Səbir etdiklərinə görə onlara mükafatları ikiqat veriləcəkdir"** (əl-Qəsəs, 52-54). Həmçinin, Peyğəmbər ﷺ demişdir: "Üç sinif insan ikiqat savab qazanır: Kitab əhlindən əvvəlcə öz peyğəmbərinə, sonra da Muhəmmədə ﷺ iman gətirmiş kimsə ikiqat savab qazanır..." (əl-Ədəbul-Mufrad, 203).

[6] Burada Peyğəmbər ﷺ onu həm müjdələyir, həm də qorxudur. Peyğəmbərlərin hamısının dəvət üslubu belə olmuşdur. Quranda neçə-neçə ayələr vardır ki, bir ayədə Uca Allah Öz bəndələrini həm müjdələyir, həm də qorxudur. Məsələn, Allah buyurur: **"Qullarıma xəbər ver ki, Mən Bağışlayanam, Rəhmliyəm. Əzabım isə ağrılı-acılı əzabdır"** (əl-Hicr, 49-50), yaxud **"*Bu*, günahları Bağışlayan, tövbələri qəbul edən, cəzası şiddətli olan lütf sahibindəndir! Ondan başqa *ibadətə layiq olan* məbud yoxdur. Dönüş də Onadır"** (Ğafir, 3). İbn Kəsir bu ayəni izah edərkən Yezid ibn əl-Əsammın belə rəvayət etdi-

deyirəm):[1] **"Ey Kitab əhli! Bizim və sizin aranızda olan eyni bir kəlməyə gəlin ki, Allahdan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allahı qoyub bir-birimizi ilahiləşdirməyək." Əgər onlar üz döndərsələr, deyin: "Şahid olun ki, biz müsəlmanlarıq!"**[2]

---

yini nəql etmişdir: "Şam əhlindən olan əməlisaleh bir nəfər tez-tez Ömər ibn Xattabın ﷺ məclisinə gələrdi. Bir müddət sonra Ömər onun məclisdə iştirak etmədiyini görüb: "Filankəsin oğlu filankəs gözə dəymir?"– deyə soruşdu. Məclisdəkilər ona: "Ey möminlərin əmiri, o, şərab içənlərə qoşulub"– dedilər. Onda Ömər ibn Xattab ﷺ öz katibini çağırtdırıb ona belə bir məktub yazdırdı: "Ömər ibn Xattabdan filankəsin oğlu filankəsə. Sənə salam olsun! Bundan sonra, (bil ki,) mən səninlə birlikdə Allaha həmd edirəm. O Allah ki, Özündən başqa ibadətə layiq olan bir məbud yoxdur. O, günahları Bağışlayan, tövbələri qəbul edən, cəzası şiddətli olan, lütf sahibidir! Ondan başqa *ibadətə layiq olan* məbud yoxdur. Dönüş də Onadır." Sonra Ömər məclisdəkilərə dedi: "Qardaşınız üçün dua edin ki, onun qəlbi hidayətə yönəlsin və Allah onun tövbəsini qəbul etsin." Nəhayət, Ömərin məktubu həmin adama yetişdikdə, o bu məktubu oxuyub təkrar-təkrar dedi: "Allah günahları Bağışlayan, tövbələri qəbul edən və cəzası şiddətli olandır! O, həm Öz əzabı ilə məni qorxudur, həm də günahımı bağışlayacağını mənə vəd edir." Əbu Nueym bu hədisi rəvayət etdikdə bunu da əlavə etmişdir: "O, bu sözləri öz-özünə o qədər təkrar etdi ki, axırda ağlamağa başladı və etdiyi günahdan birdəfəlik əl çəkdi. Bu xəbər Ömərə ﷺ gəlib çatdıqda o dedi: "Həmişə belə edin! Qardaşınızın xətaya yol verdiyini gördüyünüz zaman onu islah etməyə çalışın, onu düz yola yönəldin, üstəlik, Allaha dua edin ki, onun tövbəsini qəbul etsin. Qardaşınıza qarşı çıxıb, şeytanın köməkçiləri olmayın!" (Təfsir ət-Təbəri, 24/27; Təfsir əl-Quran əl-Azim 7/128; Hilyətul-Ovliya, 4/97).

[1] Bu, dəlildir ki, kafirə yazılacaq məktuba Quran ayəsi yazmaq caizdir.

[2] Bu hədisi Buxari (7, 51, 2681, 2941, 2979, 3174, 4553, 5980, 6260 və 7196), Muslim (5/163-166), Tirmizi (2717), Nəsai (əl-Kubra, 11064), Əhməd (1/263), Abdur-Rəzzaq (9724), İbn Hibban (6555), İbn Məndə (əl-İman, 143), Təhavi (Muşkilul-Asar, 1380 və 1977), İbn Əbu Asim (əl-Ahadul-Məsani, 488), Beyhəqi (Dəlailun-Nubuvvə, 4/380-381), əl-Laləkai (Şərh Usul İtiqad Əhlis-Sunnə, 1457) və İbn Əsakir (Tarix Diməşq, 23/428).

## ٥١٨– بَابُ إِذَا قَالَ أَهْلُ الْكِتَابِ: السَّامُ عَلَيْكُمْ

## 518-ci fəsil. Kitab əhli: "Əssamu aleykum"[1]– desə, (ona nə deyilməlidir)

١١١٠– حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: أَخْبَرَنَا مَخْلَدٌ قَالَ: أَخْبَرَنَا ابْنُ جُرَيْجٍ قَالَ: أَخْبَرَنِي أَبُو الزُّبَيْرِ أَنَّهُ سَمِعَ جَابِرًا يَقُولُ: سَلَّمَ نَاسٌ مِنَ الْيَهُودِ عَلَى النَّبِيِّ ﷺ، فَقَالُوا: السَّامُ عَلَيْكُمْ، قَالَ: ((وَعَلَيْكُمْ))، فَقَالَتْ عَائِشَةُ رَضِيَ اللَّهُ عَنْهَا وَغَضِبَتْ: أَلَمْ تَسْمَعْ مَا قَالُوا؟ قَالَ: ((بَلَى قَدْ سَمِعْتُ فَرَدَدْتُ عَلَيْهِمْ، نُجَابُ عَلَيْهِمْ، وَلا يُجَابُونَ عَلَيْنَا)).

**(1110)** ........ Əbu Zubeyr rəvayət edir ki, Cabir ﷺ demişdir: "(Bir gün) bir dəstə yəhudi Peyğəmbərə ﷺ salam verib dedilər: "Əssamu aleykum!" Peyğəmbər ﷺ *də onlara*: "Və aleykum!"[2]– deyə cavab verdi. Aişə qəzəblənib dedi: "Məgər, sən onların nə dediyini eşitmədinmi?" Peyğəmbər ﷺ dedi: "Bəli, eşitdim və onların cavabını verdim. (Məlumun olsun ki,) bizim onların əleyhinə etdiyimiz dua qəbul olunur. Onların bizim əleyhimizə etdikləri dua isə qəbul olunmur. [3]"[4]

---

[1] Tərcüməsi: Sizə ölüm olsun!

[2] Tərcüməsi: Sizə də olsun!

[3] Qeyd edək ki, Kitab əhlinin salam verməsi üç haldan birini əhatə edir:

a) Əgər onlar "Əssamu aleykum!" desələr, onlara "Və aleykum!"– deyilməlidir;

b) Əgər onların verdiyi salam aydın başa düşülməsə, yəni "Əssəlamu aleykum!" yoxsa "Əssamu aleykum!" dedikləri bilinməsə, yenə onlara "Və aleykum!"– deyilməlidir;

c) Və əgər aydın şəkildə "Əssəlamu aleykum!"– desələr, onlara "Və aleykumussəlam!"– deyilməlidir.

[4] 311-ci və 462-ci hədislərin qeydlərinə bax.

## ٥١٩- بَابُ يُضْطَرُّ أَهْلُ الْكِتَابِ فِي الطَّرِيقِ إِلَى أَضْيَقِهَا

## 519-cu fəsil. Yol getdikdə Kitab əhli yolun ən dar yerinə sıxışdırılmalıdır

١١١١- حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ سُهَيْلٍ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِذَا لَقِيتُمُ الْمُشْرِكِينَ فِي الطَّرِيقِ، فَلاَ تَبْدَأُوهُمْ بِالسَّلاَمِ، وَاضْطَرُّوهُمْ إِلَى أَضْيَقِهَا)).

**(1111)** ........ Əbu Hureyrə ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Yolda[1] müşriklərlə rastlaşdığınız zaman, onlara birinci salam verməyin. Onları yolun ən dar yerinə sıxışdırın."[2]

---

[1] Bu əlavə , yəni "yolda" sözü 1103-cü hədisdə zikr edilməmişdir.

[2] Muhəmməd Nasirəddin əl-Albani demişdir: "Müəllifin Əbu Hureyrədən ؓ nəql etdiyi bu ləfz əvvəlki rəvayətə (1103-cü hədisə) müxalif – "şəzz" rəvayət sayılır" (Səhih əl-Ədəbul-Mufrad, səh: 429; Daif əl-Ədəbul-Mufrad, səh: 96).

## ٥٢٠- بَابُ كَيْفَ يَدْعُو لِلذِّمِّيِّ؟

## 520-ci fəsil. Zimmi üçün necə dua etməli?

١١١٢- حَدَّثَنَا سَعِيدُ بْنُ تَلِيدٍ قَالَ: حَدَّثَنَا ابْنُ وَهْبٍ قَالَ: أَخْبَرَنِي عَاصِمُ بْنُ حَكِيمٍ، أَنَّهُ سَمِعَ يَحْيَى بْنَ أَبِي عَمْرٍو السَّيْبَانِيَّ، عَنْ أَبِيهِ، عَنْ عُقْبَةَ بْنِ عَامِرٍ الْجُهَنِيِّ، أَنَّهُ مَرَّ بِرَجُلٍ هَيْئَتُهُ هَيْئَةُ مُسْلِمٍ، فَسَلَّمَ، فَرَدَّ عَلَيْهِ: وَعَلَيْكَ وَرَحْمَةُ اللَّهِ وَبَرَكَاتُهُ، فَقَالَ لَهُ الْغُلامُ: إِنَّهُ نَصْرَانِيٌّ، فَقَامَ عُقْبَةُ فَتَبِعَهُ حَتَّى أَدْرَكَهُ فَقَالَ: إِنَّ رَحْمَةَ اللَّهِ وَبَرَكَاتَهُ عَلَى الْمُؤْمِنِينَ، لَكِنْ أَطَالَ اللَّهُ حَيَاتَكَ، وَأَكْثَرَ مَالَكَ وَوَلَدَكَ.

**(1112)** ........ Əbu Amr əş-Şeybani demişdir:[1] "*Bir dəfə* Uqbə ibn Amir əl-Cuhəni zahirdən müsəlmana oxşayan[2] bir kişinin yanından keçərkən kişi ona salam verdi. Uqbə də cavabında ona: "Və aleykə və rəhmətullahi və bərəkatuhu!"[3]– dedi.[4] Xidmətçi Uqbəyə dedi: "Axı, o nəsranidir!" Uqbə o kişinin arxasınca gedib ona çatdı və dedi: "Allahın rəhməti və bərəkəti yalnız möminlərə yetişir. Lakin Allah sənin ömrünü uzun etsin, malını və övladının sayını artırsın![5]"

---

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "həsən" olduğunu demişdir.

[2] Bu, dəlildir ki, həmin dövrdə müsəlmanlar olduqca güclü olmuş və qeyri-müsəlmanlar zahirən onlara oxşamağa çalışmışlar. Çünki adətən zəiflər güclülərə oxşamağa çalışırlar. Təəssüflər olsun ki, hazırkı dövrdə müsəlmanların bir çoxu zahirən kafirlərə bənzəməyə can atırlar. Hədislərin birində Peyğəmbər ﷺ özlərini kafirlərə oxşadacaq müsəlmanlar barədə belə buyurmuşdur: "Siz özünüzdən əvvəlkilərin yolunu tutub qarış-qarış, ərəş-ərəş gedəcəksiniz. Hətta onlar kərtənkələ yuvasına girsələr belə, siz də ora girəcəksiniz." Biz dedik: "Ya Rəsulullah, yəhudiləri və xristianlarımı *qəsd edirsən*?" Dedi: "Başqa kim *ola bilər ki*?!" (Səhih əl-Buxari, 3456). İndiki müsəlmanlar istər saç düzümlərində, istər geyimlərində, istərsə başqa işlərdə kafirlərə oxşamağa can atır və bununla da onları razı salacaqlarını güman edirlər.

[3] Tərcüməsi: Sənə də *salam* olsun, Allahın rəhməti və bərəkəti yetişsin!

[4] Bu, dəlildir ki, adama zahirinə görə – zahirindən müsəlmana bənzəyən adama salam verilir.

[5] Bundan aydın olur ki, kafirin qəlbini İslam dininə isinişdirmək məqsədilə onun üçün bu cür dua etmək olar. Bir şərtlə ki, həmin kafir müsəlmanlarla düşmənçilik edən kimsələrdən olmasın. Həmçinin, təziyə məsələsini də, buna aid etmək olar. Yəni İslam şə-

١١١٣- حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ ضِرَارِ بْنِ مُرَّةَ، عَنْ سَعِيدِ بْنِ جُبَيْرٍ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: لَوْ قَالَ لِي فِرْعَوْنُ: بَارَكَ اللَّهُ فِيكَ، قُلْتُ : وَفِيكَ، وَفِرْعَوْنُ قَدْ مَاتَ.

**(1113)** ........ Səid ibn Cubeyr rəvayət edir ki, İbn Abbas ﷺ demişdir: "Əgər Firon mənə: "Allah sənə bərəkət versin!"– desəydi, mən *ona*: "Sənə də!"[1]– deyərdim. Firon isə artıq ölmüşdür."[2]

١١١٤- وَعَنْ حَكِيمِ بْنِ دَيْلَمٍ، عَنْ أَبِي بُرْدَةَ، عَنْ أَبِي مُوسَى قَالَ: كَانَ الْيَهُودُ يَتَعَاطَسُونَ عِنْدَ النَّبِيِّ ﷺ رَجَاءَ أَنْ يَقُولَ لَهُمْ: يَرْحَمُكُمُ اللَّهُ، فَكَانَ يَقُولُ: ((يَهْدِيكُمُ اللَّهُ وَيُصْلِحُ بَالَكُمْ)).

**(1114)** ........ Əbu Musa ﷺ demişdir: "Yəhudulər Peyğəmbərin ﷺ yanında qəsdən asqırardılar ki, Peyğəmbər ﷺ onlara: "Yərhəmukəllah!"– desin. Lakin Peyğəmbər ﷺ onlara: "Yəhdikumullahu və yuslihu baləkum!"– deyərdi."[3]

---

riətinə görə yaxın adamı ölmüş bir kafirə başsağlığı vermək, ona təsəlliverici sözlər demək caizdir. Yenə də, məqsəd onun qəlbini İslam dininə isinişdirmək və müsəlman əxlaqının gözəlliyini ona göstərmək olmalıdır. Xüsusilə qeyd etmək lazımdır ki, ona başsağlığı verdikdə, "Allah ona rəhmət eləsin!", "Allah günahlarını bağışlasın!", "Allah onu Cənnət əhlindən etsin!" və başqa buna bənzər sözlər demək qəti qadağandır. Bu xüsusda, Uca Allah buyurur: **"Müşriklərin Cəhənnəm sakinləri olduqları onlara bəlli olduqdan sonra, qohum olsalar belə, Peyğəmbərə və möminlərə onlar üçün bağışlanma diləmək yaraşmaz"** (ət-Tovbə, 113). Belə halda, kafirə sadəcə səbirli olmağı tövsiyə etmək, habelə, həyatda qalanları üçün hidayət və işlərinin avand olmasını diləmək olar. Yəhudilər Peyğəmbərin ﷺ yanında asqırıb "Əlhəmdulilləh!"– dedikdə, Peyğəmbər ﷺ onlara: "Yəhdikumullahu və yuslihu baləkum! (Allah sizə hidayət versin və işinizi avand eləsin!)"– deyərdi (940-cı hədisin qeydlərinə bax).

[1] Bu, yaxşılığın əvəzinə yaxşılıq etmək məsələsinə aiddir. İbn Abbasın ﷺ bu sözü isə belə yozulur: "Allah *səni hidayətə yönəltsin* və sənə bərəkət versin!" Belə ki, kafir üçün nə qədər bərəkət istənilsə də, Allah ona bərəkət verən deyil. Burada İbn Abbas ﷺ müsəlmanın kafir üçün gözəl şəkildə dua etməsinin caiz olduğunu bildirmək istəyir.

[2] Bu hədisi İbn Əbu Şeybə (26343), Təbərani (Mocəmul-Kəbir, 10462) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[3] 940-cı hədisin qeydlərinə bax.

## ٥٢١- بَابُ إِذَا سَلَّمَ عَلَى النَّصْرَانِيِّ وَلَمْ يَعْرِفْهُ

## 521-ci fəsil. Bir adamın nəsrani olduğunu bilmədən[1] ona salam verən kimsə (nə etməlidir?)

**١١١٥-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ كَثِيرٍ قَالَ: أَخْبَرَنَا سُفْيَانُ، عَنْ أَبِي جَعْفَرٍ الْفَرَّاءِ، عَنْ عَبْدِ الرَّحْمَنِ قَالَ: مَرَّ ابْنُ عُمَرَ بِنَصْرَانِيٍّ فَسَلَّمَ عَلَيْهِ، فَرَدَّ عَلَيْهِ، فَأُخْبِرَ أَنَّهُ نَصْرَانِيٌّ، فَلَمَّا عَلِمَ رَجَعَ إِلَيْهِ فَقَالَ: رُدَّ عَلَيَّ سَلامِي.

**(1115)** ........ Əbu Cəfər əl-Fərra rəvayət edir ki, Abdur-Rəhman demişdir: "*Bir dəfə* İbn Ömər nəsranilərdən birinin yanından keçərkən o, İbn Ömərə salam verdi. İbn Ömər də onun salamını aldı.[2] Sonra İbn Ömərə onun nəsrani olduğu bildirildi və İbn Ömər geri qayıdıb *ona*: "Salamımı özümə qaytar"[3]– dedi."[4]

---

[1] Burada zahirindən müsəlmana oxşayan nəsrani nəzərdə tutulur.

[2] Olsun ki, İbn Ömər ﵄ ona rəhmət və bərəkət diləmişdir.

[3] Bundan aydın olur ki, kafir üçün rəhmət və bərəkət diləmək qəti qadağandır. Onun üçün ancaq hidayət və işlərinin avand olmasını diləmək, yaxud "Allah sənin ömrünü uzun etsin, malını və övladının sayını artırsın!" və ya buna bənzər sözlər demək olar (1112-ci hədisə və onun qeydlərinə bax).

[4] Bu hədisin isnadında keçən Abdur-Rəhman ibn Muhəmməd ibn Zeyd ibn Cudan "məchul" ravidir. Hədisin isnadında "zəif" ravi olsa da, Muhəmməd Nasirəddin əl-Albani bu hədisin mətninin 1112-ci hədislə qüvvətləndiyini və beləliklə də, "həsən" dərəcəsinə yüksəldiyini bildirmişdir (Səhih əl-Ədəbul-Mufrad, 430; İrvaul-Ğəlil, 1274).

## ٥٢٢- بَابُ إِذَا قَالَ: فلانٌ يُقْرِئُكَ السّلامَ

## 522-ci fəsil. Bir adam (sənə): "Filankəs sənə salam söyləyir"– desə, (buna necə cavab verməlisən?)[1]

١١١٦- حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا زَكَرِيَّا قَالَ: سَمِعْتُ عَامِرًا يَقُولُ: حَدَّثَنِي أَبُو سَلَمَةَ بْنُ عَبْدِ الرَّحْمَنِ، أَنَّ عَائِشَةَ حَدَّثَتْهُ، أَنَّ النَّبِيَّ ﷺ قَالَ لَهَا: ((جِبْرِيلُ يَقْرَأُ عَلَيْكِ السَّلامَ))، فَقَالَتْ: وَعَلَيْهِ السَّلاَمُ وَرَحْمَةُ اللَّهِ.

**(1116)** ........ Aişə ﵂ demişdir: "*Bir dəfə* Peyğəmbər ﷺ mənə: "*Bu,* Cəbraildir. O, sənə salam söyləyir"– dedi. Mən də *ona* belə cavab verdim: "Və aleyhissəlam və rahmətullah![2]"[3]

---

[1] Bu halda onun salamını olduğu kimi və ya daha böyük ehtiramla almaq, "Ona da salam olsun!" demək vacibdir. Həmçinin, həmin salamı çatdıran adama da salam vermək "Aleykə və aleyhissəlam!"– demək müstəhəbdir (1036-cı hədisin qeydlərinə bax).

[2] Ona da salam olsun, Allahın rəhməti yetişsin!

[3] 827-ci hədisin qeydlərinə bax.

## ٥٢٣- بَابُ جَوَابِ الْكِتَابِ

## 523-cü fəsil. Məktuba cavab vermək

١١١٧- حَدَّثَنَا عَلِيُّ بْنُ حُجْرٍ قَالَ: أَخْبَرَنَا شَرِيكٌ، عَنِ الْعَبَّاسِ بْنِ ذَرِيحٍ، عَنْ عَامِرٍ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: إِنِّي لَأَرَى لِجَوَابِ الْكِتَابِ حَقًّا كَرَدِّ السَّلَامِ.

**(1117)** ........ Amir rəvayət edir ki, İbn Abbas ﷺ demişdir: "Düşünürəm ki, məktuba cavab vermək, salamı almaq kimi bir öhdəlikdir.[1]"[2]

---

[1] Yəni məktubla salam verən adamın salamını almaq – onun yazdığı "Əssəlamu aleykum!" sözünü oxuduqdan sonra, məktubu gətirən adama "Və aleyhissəlam!"– demək vacibdir" (Feydul-Qədir, 2397-ci hədisin şərhi; ət-Təysir bi Şərh əl-Cami əs-Səğir, 1/686).

[2] Bu hədisi Buxari (Tarix, 4/1/7), İbn Əbu Şeybə (1/152/1), əl-Qədai (1/85), Muhamili (əl-Əmali, 5/48) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

## ٥٢٤- بَابُ الْكِتَابَةِ إِلَى النِّسَاءِ وَجَوَابِهِنَّ

## 524-cü fəsil. Qadınlara məktub yazmaq və onların məktubuna cavab vermək

١١١٨- حَدَّثَنَا ابْنُ رَافِعٍ قَالَ: حَدَّثَنَا أَبُو أُسَامَةَ قَالَ: حَدَّثَنِي مُوسَى بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَتْنَا عَائِشَةُ بِنْتُ طَلْحَةَ قَالَتْ: قُلْتُ لِعَائِشَةَ، وَأَنَا فِي حِجْرِهَا، وَكَانَ النَّاسُ يَأْتُونَهَا مِنْ كُلِّ مِصْرٍ، فَكَانَ الشُّيُوخُ يَنْتَابُونِي لِمَكَانِي مِنْهَا، وَكَانَ الشَّبَابُ يَتَأَخَّوْنِي فَيُهْدُونَ إِلَيَّ، وَيَكْتُبُونَ إِلَيَّ مِنَ الأَمْصَارِ، فَأَقُولُ لِعَائِشَةَ: يَا خَالَةُ، هَذَا كِتَابُ فُلَانٍ وَهَدِيَّتُهُ، فَتَقُولُ لِي عَائِشَةُ: أَيْ بُنَيَّةُ، فَأَجِيبِيهِ وَأَثِيبِيهِ، فَإِنْ لَمْ يَكُنْ عِنْدَكِ ثَوَابٌ أَعْطَيْتُكِ، فَقَالَتْ: فَتُعْطِينِي.

**(1118)** ........ Musa ibn Abdullah rəvayət edir ki, Aişə[1] bint Talhə[2] demişdir: "Mən Aişənin[3] himayəsində yaşayırdım. O zaman hər məmləkətdən insanlar onun yanına gələrdilər.[4] Aişənin yanında hörmətim olduğu üçün qocalar mənim yanıma gələrdilər.[5] Cavanlar da məni özlərinə bacı hesab

---

[1] Zəhəbi demişdir: "Aişə bint Talhə öz dövrünün ən yaraşıqlı və boylu-buxunlu qadınlarından olmuşdur. Onun rəvayət etdiyi hədislər "Səhih"lərdə nəql edilmişdir. O, *möminlərin anası* Aişə bint Əbu Bəkr əs-Siddiqin ﵄ bacısı Ummu Kulsumun qızıdır (Siyər Əlam ən-Nubələ, 4/369).

[2] Əbu Muhəmməd Talhə ibn Ubeydullah ibn Osman ibn Amr ət-Teymi əl-Qurəşi ﵁ Peyğəmbərin ﷺ səhabəsi və Cənnətlə müjdələnmiş on nəfərdən biridir (Siyər Əlam ən-Nubələ, 2-ci tərcümeyi-hal).

[3] Burada "Aişə" deyildikdə, Peyğəmbərin ﷺ zövcəsi və möminlərin anası, Aişə bint Əbu Bəkr əs-Siddiq ﵄ qəsd edilir.

[4] Onların Aişənin ﵄ yanına gəlməkdə məqsədləri İslam dinini öyrənmək və bilmədiklərini ondan soruşmaq olmuşdur.

[5] Qocalar Aişəyə müraciət edərdilər ki, onları möminlərin anası ilə görüşdürsün və onlar öz suallarını ondan soruşa bilsinlər.

edər, mənə hədiyyələr verər və öz məmləkətlərindən mənə məktublar yazardılar.[1] Mən Aişəyə: “Xalacan, bu, filankəsin məktubu və onun hədiyyəsidir”– deyər, Aişə də mənə: “Qızım, məktubun cavabını yaz, hədiyyənin də əvəzini ver. Əgər, səndə veriləcək hədiyyə yoxdursa, mən onu sənə verim”– deyər və mənə hədiyyə verərdi.”[2]

---

[1] İslam alimləri – zəruri hallar müstəsna olmaqla – naməhrəm kişi ilə qadın arasında yazışmanın caiz olmadığını söyləmişlər. Bu xüsusda, müasir İslam alimləri aşağıdakı fitvanı vermişlər:

**Sual:** Mən poçtda işləyirəm. Bizə ərəb ölkələrinin hər tərəfindən qızlardan oğlanlara, oğlanlardan da qızlara “sevgi məktubları” adlı xitablar gəlir. Bu məktubları yiyələrinə çatdırmaq caizdirmi? Biz yəqin bilirik ki, göndərilmiş məktub ya qızdan oğlanadır, ya da oğlandan qıza. Mən işlədiyim kənddəki qızlar mənə belə məktublar gətirirlər. Bu məktubların öz yiyələrinə çatdırılmasında mən onlara yardım etsəm, bu mənə günah sayılarmı? Xahiş edirəm, bizə fitva verəsiniz.

**Cavab:** Oğlanların qızlara, qızların da oğlanlara məktub yazması haramdır. Çünki bu, fəsada, azğınlığa və Uca Allahın haram buyurduğu işləri görməyə gətirib çıxaran səbəblərdən sayılır. Əgər belədirsə, onda, onlara kömək etmək və məktubları yiyələrinə çatdırmaq da, həmçinin, qadağan edilmiş əməllərdən hesab olunur. Vacib buyurulanı budur ki, bu işlərə son qoyasınız və bu işləri görənlərə də, buna son qoymağı nəsihət edəsiniz. Bu xüsusda, Uca Allah (“əl-Maidə” surəsinin 2-ci ayədə) buyurur: **“Günah işlər görməkdə və düşmənçilik etməkdə bir-birinizə köməkçi olmayın. Allahdan qorxun. Həqiqətən, Allah şiddətli cəza verəndir”** (Fətavə əl-Ləcnə əd-Daimə, 18881-ci fitva).

[2] Bu hədisin isnadında keçən Musa ibn Abdullah ibn İshaq ibn Talhə əl-Qurəşi “məqbul” ravidir (Təqrib ət-Təhzib). Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “həsən” olduğunu demişdir.

## ٥٢٥- بَابُ كَيْفَ يُكْتَبُ صَدْرُ الْكِتَابِ؟

## 525-ci fəsil. Məktubun əvvəli necə yazılır?[1]

**١١١٩-** حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ عَبْدِ اللَّهِ بْنِ دِينَارٍ، أَنَّ عَبْدَ اللَّهِ بْنَ عُمَرَ كَتَبَ إِلَى عَبْدِ الْمَلِكِ بْنِ مَرْوَانَ يُبَايِعُهُ، فَكَتَبَ إِلَيْهِ: بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ، لِعَبْدِ الْمَلِكِ أَمِيرِ الْمُؤْمِنِينَ مِنْ عَبْدِ اللَّهِ بْنِ عُمَرَ: سَلاَمٌ عَلَيْكَ، فَإِنِّي أَحْمَدُ إِلَيْكَ اللَّهَ الَّذِي لاَ إِلَهَ إِلاَّ هُوَ، وَأُقِرُّ لَكَ بِالسَّمْعِ وَالطَّاعَةِ عَلَى سُنَّةِ اللَّهِ وَسُنَّةِ رَسُولِهِ ﷺ، فِيمَا اسْتَطَعْتُ.

**(1119)** ........ Abdullah ibn Dinar rəvayət edir ki,[2] Abdullah ibn Ömər Abdul-Malik ibn Mərvana beyət etmək üçün ona belə bir məktub yazdı: "Mərhəmətli və Rəhmli Allahın adı ilə! Abdullah ibn Ömərdən, möminlərin əmiri Abdul-Malikə. Sənə salam olsun![3] Səninlə birlikdə, Özündən başqa heç bir məbud olmayan Allaha həmd edirəm. Gücüm yetdiyi qədər Allahın və Onun rəsulunun ﷺ buyuruqlarına uyğun[4] şəkildə eşidib itaət edəcəyimə sənə söz verirəm.[5]"

---

[1] 1109-cu hədisin qeydlərinə bax.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[3] Bundan aydın olur ki, məktub yazdıqda onu Allahın adı ilə başlamaq, sonra məktubu göndərən və onu alacaq kimsənin adını qeyd etmək, sonra da onu salamlamaq Sünnəyə uyğundur. Peyğəmbərin ﷺ Rum imperatoruna yazdırdığı məktubdakı kimi: "Mərhəmətli və Rəhmli Allahın adı ilə! Allahın qulu və rəsulu Muhəmməddən Rum imperatoru Herakla. Haqq yolu tutub gedənlərə salam olsun!.." (Səhih əl-Buxari, 7).

[4] Allahın və Onun Rəsulunun ﷺ əmrinə zidd olan işlərdə isə onlara itaət etmək qadağandır. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Allaha asi olaraq məxluqa itaət etmək olmaz" (Musnəd İmam Əhməd, 5/66; Silsilətul-Əhadisis-Səhihə, 179).

[5] Müəllifin "Səhih"indəki bu rəvayətin tamamında deyilir: "Həmçinin, mənim övladlarım da, bunu təsdiqləyirlər" (Səhih əl-Buxari, 7205).

Əmirə itaət xüsusunda Uca Allah buyurur: **"Ey iman gətirənlər! Allaha və Rəsuluna itaət edin, həm də özünüzdən olan rəhbərlərə** ***şəriətə uyğun şəkildə itaət edin.*** **Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə inanırsınızsa, Allaha və Rəsuluna müraciət edin. Bu,** ***sizin üçün*** **daha xeyirli və nəticə etibarilə daha yaxşıdır"** (ən-Nisa, 59). Həmçinin, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Kim mənə itaət etsə, Allaha itaət etmiş olar, kim mənə asi olsa, Allaha asi olmuş olar. Eləcə də, kim əmirə itaət etsə, mənə itaət etmiş olar, kim əmirə asi olsa, mənə asi olmuş olar. Əmir, həqiqətən, bir qalxandır. Onun rəhbərliyi altında vuruşulur və onun sayəsində *düşməndən* qorunmaq olur. Əgər o, *öz rəiyyətinə* Allahdan qorxmağı (yaxşı işlər görməyi) əmr edərsə, özü də ədalətli olarsa, buna görə savab qazanar. Yox, əgər başqa şeylər (pis işlər görməyi) əmr edərsə, günahı onun öz boynunda qalar" (Səhih əl-Buxari, 2957); digər hədisdə rəvayət edilir ki, Ubadə ibn Samit ؓ demişdir: "Biz, xoş gündə və sıxıntı anlarında *əmiri* dinləyib ona itaət edəcəyimizə, habelə əmirə qarşı çıxmayacağımıza, harada olmuş olsaq heç kəsin tənəsindən qorxmadan Allah yolunda haqqı təbliğ edəcəyimizə (və ya haqqı deyəcəyimizə) dair Peyğəmbərə ﷺ beyət etdik" (Səhih əl-Buxari, 7200).

## ٥٢٦- بَابُ أَمَّا بَعْدُ

## 526-cı fəsil. "Əmma bəd..."[1] (sözü)

١١٢٠- حَدَّثَنَا قَبِيصَةُ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ زَيْدِ بْنِ أَسْلَمَ قَالَ: أَرْسَلَنِي أَبِي إِلَى ابْنِ عُمَرَ، فَرَأَيْتُهُ يَكْتُبُ: بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ، أَمَّا بَعْدُ.

**(1120)** ........ Zeyd ibn Əsləm demişdir: "*Bir dəfə* atam məni İbn Ömərin yanına göndərdi. Mən onun *məktubda* belə yazdığını gördüm: "Mərhəmətli və Rəhmli Allahın adı ilə! Sonra isə..."[2]

١١٢١- حَدَّثَنَا رَوْحُ بْنُ عَبْدِ الْمُؤْمِنِ قَالَ: حَدَّثَنَا أَبُو أُسَامَةَ، عَنْ هِشَامِ بْنِ عُرْوَةَ قَالَ: رَأَيْتُ رَسَائِلَ مِنْ رَسَائِلِ النَّبِيِّ ﷺ، كُلَّمَا انْقَضَتْ قِصَّةٌ قَالَ: ((أَمَّا بَعْدُ...)).

**(1121)** ........ Hişam ibn Urva demişdir: "Mən Peyğəmbərin ﷺ məktublarından bir neçəsini görmüşəm. Hər dəfə bir mövzunu sona çatdırdıqda: "Sonra isə..."– deyərdi.[3]

---

[1] Tərcüməsi: Sonra isə...

Bu sözü kitab və məktub yazdıqda, yazının əvvəlində yazmaq, habelə, xütbə və moizə verdikdə söhbətin əvvəlində demək müstəhəb əməllərdən sayılır. Çünki Peyğəmbər ﷺ öz yazılarında və xütbələrində bu sözdən istifadə edərdi. Bu söz adətən Allahın adı çəkildikdən, Ona həmd-sənalar deyildikdən sonra, habelə, məktubu yazan və onu alacaq adamın adı yazıldıqdan sonra, sözə və ya mövzuya başladıqda yazılır (1109-cu və 1119-cu hədislərə bax). Peyğəmbər ﷺ xütbə verdikdə, Allaha həmd-səna edib Ona tariflər dedikdən sonra: "Əmma bəd..." deyər, sonra nəsihətinə başlayardı.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih li-ğeyrihi" olduğunu demişdir.

## ٥٢٧- بَابُ صَدْرِ الرَّسَائِلِ: بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ

## 527-ci fəsil. Məktubları "Bismillahir-Rəhmanir-Rəhim" *sözü* ilə başlamaq[1]

١١٢٢- حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ أَبِي أُوَيْسٍ قَالَ: حَدَّثَنَا ابْنُ أَبِي الزِّنَادِ، عَنْ أَبِيهِ، عَنْ خَارِجَةَ بْنِ زَيْدٍ، عَنْ كُبَرَاءِ آلِ زَيْدِ بْنِ ثَابِتٍ، أَنَّ زَيْدَ بْنَ ثَابِتٍ كَتَبَ بِهَذِهِ الرِّسَالَةِ: بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ، لِعَبْدِ اللَّهِ مُعَاوِيَةَ أَمِيرِ الْمُؤْمِنِينَ، مِنْ زَيْدِ بْنِ ثَابِتٍ، سَلاَمٌ عَلَيْكَ أَمِيرَ الْمُؤْمِنِينَ وَرَحْمَةُ اللَّهِ، فَإِنِّي أَحْمَدُ إِلَيْكَ اللَّهَ الَّذِي لا إِلَهَ إِلا هُوَ، أَمَّا بَعْدُ.

**(1122)** ........ Zeyd ibn Sabit ﷺ belə bir məktub yazmışdı: "Mərhəmətli və Rəhmli Allahın adı ilə! Allahın qulu, möminlərin əmiri Muaviyəyə, Zeyd ibn Sabitdən. Sənə salam olsun, ey möminlərin əmiri və Allahın rəhməti yetişsin! Səninlə birlikdə, Özündən başqa heç bir məbud olmayan Allaha həmd edirəm. Sonra isə..."[2]

---

[1] Yəni kitab və ya məktub yazdıqda hər şeydən əvvəl bu söz yazılmalıdır. Çünki hər bir iş məhz Allahın köməyi ilə yoluna düşə bilər. Odur ki, yazısının xeyirli və bərəkətli olmasını, işlərində də müvəffəqiyyət qazanmasını istəyən adam hər bir işini Allahın adı ilə – "Bismilləh"la başlamalıdır. Allahın adı ilə başlamaq, bu işdə Allahın Öz Kitabına və Onun rəsulunun ﷺ Sünnəsinə riayət etmək, habelə onun yolunu tutub gedən sələflərin yolunu getmək deməkdir. Biz Allahın Kitabını – Qurani Kərimi açdıqda onun "Bismillahir-Rəhmanir-Rəhim" sözü ilə başladığını görə bilərik. Həmçinin, Peyğəmbərin ﷺ və onun davamçılarının məktublarına nəzər salsaq, həmin məktubların "Bismillahir-Rəhmanir-Rəhim" sözü ilə başladığını görə bilərik. Bu da, bu sözün həqiqətən də, mübarək bir söz olduğuna dəlalət edir. Bu kəlmə özündə Allahın üç gözəl adını cəm emtşdir: Allah, ər-Rəhman və ər-Rəhim!

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

**١١٢٣**- حَدَّثَنَا مُحَمَّدٌ الأَنْصَارِيُّ قَالَ: حَدَّثَنَا أَبُو مَسْعُودٍ الْجُرَيْرِيُّ قَالَ: سَأَلَ رَجُلٌ الْحَسَنَ عَنْ قِرَاءَةِ بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ ؟ قَالَ: تِلْكَ صُدُورُ الرَّسَائِلِ.

**(1123)** ........ Əbu Məsud əl-Cureyri demişdir: "Bir nəfər Həsən *əl-Bəsridən* "Bismillahir-Rəhmanir-Rəhim"i oxumaq barədə soruşdu. O dedi: "Bu, məktubların başlanğıcında *yazılır*."[1]

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٥٢٨– بَابُ بِمَنْ يَبْدَأُ فِي الْكِتَابِ؟

## 528-ci fəsil. Məktub yazdıqda ilk əvvəl kimin adı yazılmalıdır?[1]

١١٢٤– حَدَّثَنَا قُتَيْبَةُ قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ زَكَرِيَّا، عَنِ ابْنِ عَوْنٍ، عَنْ نَافِعٍ قَالَ: كَانَتْ لِابْنِ عُمَرَ حَاجَةٌ إِلَى مُعَاوِيَةَ، فَأَرَادَ أَنْ يَكْتُبَ إِلَيْهِ ، فَقَالُوا: ابْدَأْ بِهِ، فَلَمْ يَزَالُوا بِهِ حَتَّى كَتَبَ: بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ، إِلَى مُعَاوِيَةَ.

**(1124)** ........ Nafi demişdir: "İbn Ömər Muaviyədən bir şey xahiş etmək istəyirdi. Elə buna görə də ona məktub yazmaq istədi. *Yanındakılar*: "Onun adı ilə başla"– dedilər. Onlar bunu o qədər dedilər ki, axırda o, belə yazdı: "Mərhəmətli və Rəhmli Allahın adı ilə! Muaviyəyə...[2]"[3]

١١٢٥– وَعَنِ ابْنِ عَوْنٍ، عَنْ أَنَسِ بْنِ سِيرِينَ قَالَ: كَتَبْتُ لِابْنِ عُمَرَ، فَقَالَ: اكْتُبْ بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ، أَمَّا بَعْدُ: إِلَى فُلَانٍ.

**(1125)** İbn Aun rəvayət edir ki, Ənəs ibn Sirin demişdir: "Mən İbn Ömər üçün məktub yazmaq istədikdə, o, *mənə* belə yazmağı buyurdu: "Mərhəmətli və Rəhmli Allahın adı ilə! Sonra isə: Filankəsə..."[4]

---

[1] Yəni məktubun başına "Bismillahir-Rəhmanir-Rəhim" yazdıqdan sonra məktubu yazan adam əvvəlcə öz adını yazmalıdır, yoxsa, məktubu alan adamın adını? Qeyd edək ki, Peyğəmbər ﷺ ilk əvvəl öz adını yazardı (1009-cu hədisə bax).

[2] Bundan aydın olur ki, məktub yazan adam həmin məktubu onu alan adamın adı ilə başlaya bilər. Qeyd edək ki, Abdullah ibn Ömər رضي الله عنهما öz məktublarını, bəzən öz adı ilə, bəzən də məktubu alan adamın adı ilə başlayırdı (1119-cu hədisə bax).

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

١١٢٦- وَعَنِ ابْنِ عَوْنٍ، عَنْ أَنَسِ بْنِ سِيرِينَ قَالَ: كَتَبَ رَجُلٌ بَيْنَ يَدَيِ ابْنِ عُمَرَ: بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ، لِفُلاَنٍ، فَنَهَاهُ ابْنُ عُمَرَ وَقَالَ: قُلْ: بِسْمِ اللَّهِ، هُوَ لَهُ.

**(1126)** ........ Ənəs ibn Sirin rəvayət edir ki, bir kişi İbn Ömərin yanında bu cür məktub yazmağa başladı: "Mərhəmətli və Rəhmli Allahın adı ilə! Filankəsə..." İbn Ömər bunu ona qadağan edib[1] dedi: "Bismillah!"– de, bu ona yetər."[2]

١١٢٧- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي ابْنُ أَبِي الزِّنَادِ، عَنْ أَبِيهِ، عَنْ خَارِجَةَ بْنِ زَيْدٍ، عَنْ كُبَرَاءِ آلِ زَيْدٍ، أَنَّ زَيْدًا كَتَبَ بِهَذِهِ الرِّسَالَةِ: لِعَبْدِ اللَّهِ مُعَاوِيَةَ أَمِيرِ الْمُؤْمِنِينَ، مِنْ زَيْدِ بْنِ ثَابِتٍ: سَلاَمٌ عَلَيْكَ أَمِيرَ الْمُؤْمِنِينَ وَرَحْمَةُ اللَّهِ، فَإِنِّي أَحْمَدُ إِلَيْكَ اللَّهَ الَّذِي لاَ إِلَهَ إِلاَّ هُوَ، أَمَّا بَعْدُ.

**(1127)** ........ Zeyd ﷺ belə bir məktub yazmışdı: "Allahın qulu, möminlərin əmiri Muaviyəyə, Zeyd ibn Sabitdən.[3] Sənə salam olsun, ey möminlərin əmiri və Allahın rəhməti yetişsin! Səninlə birlikdə, Özündən başqa heç bir məbud olmayan Allaha həmd edirəm. Sonra isə:..."[4]

١١٢٨- حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا أَبُو عَوَانَةَ قَالَ: حَدَّثَنَا عُمَرُ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، سَمِعْتُهُ يَقُولُ: قَالَ النَّبِيُّ ﷺ: ((إِنَّ رَجُلًا مِنْ بَنِي إِسْرَائِيلَ، وَذَكَرَ الْحَدِيثَ، وَكَتَبَ إِلَيْهِ صَاحِبُهُ: مِنْ فُلاَنٍ إِلَى فُلاَنٍ)).

**(1128)** ........ Əbu Hureyrə رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "İsrail oğullarından bir nəfərə öz dostu belə bir məktub yazdı: "Filankəsdən filankəsə."[5]

---

[1] Ola bilsin ki, məktub alan adamın adının çəkilməsinə ehtiyac duyulmadığına görə İbn Ömər رضي الله عنه belə demişdir.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[3] 1122-ci rəvayətdə Zeyd ibn Sabitin رضي الله عنه həmin məktubda ilk əvvəl "Mərhəmətli və Rəhmli Allahın adı ilə!" sözü zikr edilmişdir.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[5] Bu hədisin isnadında keçən Ömər ibn Əbu Sələmə əz-Zuhri "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

## ٥٢٩– بَابُ كَيْفَ أَصْبَحْتَ؟

## 529-cu fəsil. Sabaha necə çıxdın?[1]

١١٢٩– حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا ابْنُ الْغَسِيلِ، عَنْ عَاصِمِ بْنِ عُمَرَ، عَنْ مَحْمُودِ بْنِ لَبِيدٍ قَالَ: لَمَّا أُصِيبَ أَكْحُلُ سَعْدٍ يَوْمَ الْخَنْدَقِ فَثَقُلَ، حَوَّلُوهُ عِنْدَ امْرَأَةٍ يُقَالُ لَهَا: رُفَيْدَةُ، وَكَانَتْ تُدَاوِي الْجَرْحَى، فَكَانَ النَّبِيُّ ﷺ إِذَا مَرَّ بِهِ يَقُولُ: ((كَيْفَ أَمْسَيْتَ؟))، وَإِذَا أَصْبَحَ: ((كَيْفَ أَصْبَحْتَ؟)) فَيُخْبِرُهُ.

**(1129)** ........ Mahmud ibn Ləbid ﷺ demişdir: "Xəndək döyüşündə Sədin[2] qolunun qan damarları kəsildikdə və halı ağırlaşdıqda, onu Rufeydə adlı qadının yanına gətirdilər. O qadın yaralıları müalicə edirdi.[3] Peyğəmbər ﷺ *axşam* Sədin yanından keçdikdə: "Axşama necə çıxdın?"– deyə soruşar, səhər keçdikdə isə: "Sabaha necə çıxdın?"– deyə soruşardı."[4]

١١٣٠– حَدَّثَنَا يَحْيَى بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنَا إِسْحَاقُ بْنُ يَحْيَى الْكَلْبِيُّ قَالَ: حَدَّثَنَا الزُّهْرِيُّ قَالَ: أَخْبَرَنِي عَبْدُ اللَّهِ بْنُ كَعْبِ بْنِ مَالِكٍ الأَنْصَارِيُّ، قَالَ: وَكَانَ كَعْبُ بْنُ مَالِكٍ أَحَدَ الثَّلاَثَةِ الَّذِينَ تِيبَ عَلَيْهِمْ، أَنَّ ابْنَ عَبَّاسٍ أَخْبَرَهُ، أَنَّ عَلِيَّ بْنَ أَبِي طَالِبٍ رَضِيَ اللَّهُ عَنْهُ خَرَجَ مِنْ عِنْدِ رَسُولِ اللَّهِ ﷺ فِي وَجَعِهِ الَّذِي تُوُفِّيَ فِيهِ، فَقَالَ النَّاسُ: يَا أَبَا الْحَسَنِ، كَيْفَ أَصْبَحَ رَسُولُ اللَّهِ ﷺ؟ قَالَ: أَصْبَحَ بِحَمْدِ اللَّهِ بَارِئًا، قَالَ: فَأَخَذَ عَبَّاسُ بْنُ عَبْدِ الْمُطَّلِبِ بِيَدِهِ، فَقَالَ: أَرَأَيْتُكَ؟ فَأَنْتَ وَاللَّهِ بَعْدَ ثَلاَثٍ عَبْدُ الْعَصَا، وَإِنِّي وَاللَّهِ لَأَرَى رَسُولَ اللَّهِ ﷺ سَوْفَ يُتَوَفَّى فِي مَرَضِهِ هَذَا، إِنِّي أَعْرِفُ وُجُوهَ بَنِي عَبْدِ الْمُطَّلِبِ

---

[1] Müəllif bu fəslə belə ünvan qoymaqla bildirmək istəyir ki, müsəlmanın öz müsəlman qardaşının halını öyrənmək üçün "Sabaha necə çıxdın?", "Axşama necə çıxdın?", "Kefin, halın necədir?" və s. buna bənzər sözlər deməsi Sünnəyə uyğundur. Əlbəttə ki, adam ilk əvvəl salam verməli, sonra ondan hal-əhval tutmalıdır.

[2] Burada söhbət Səd ibn Muazdan ﷺ gedir (Tohfətul-Əhvəzi, 1508-ci hədisin şərhi).

[3] Bundan aydın olur ki, qadın zəruri halda yaralılara xidmət göstərə bilər.

[4] Bu hədisi İbn Səd (ət-Təbəqat, 3/427-428) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

عِنْدَ الْمَوْتِ، فَاذْهَبْ بِنَا إِلَى رَسُولِ اللَّهِ ﷺ فَلْنَسْأَلْهُ: فِيمَنْ هَذَا الأَمْرُ؟ فَإِنْ كَانَ فِينَا عَلِمْنَا ذَلِكَ، وَإِنْ كَانَ فِي غَيْرِنَا كَلَّمْنَاهُ فَأَوْصَى بِنَا، فَقَالَ عَلِيٌّ: إِنَّا وَاللَّهِ إِنْ سَأَلْنَاهُ فَمَنَعَنَاهَا لاَ يُعْطِينَاهَا النَّاسُ بَعْدَهُ أَبَدًا، وَإِنِّي وَاللَّهِ لاَ أَسْأَلُهَا رَسُولَ اللَّهِ ﷺ أَبَدًا.

**(1130)** ........ Rəvayət edilir ki, İbn Abbas ﵄ demişdir: "Rəsulullah ﷺ ölümü ilə nəticələnən xəstəliyə tutulduğu zaman Əli ibn Əbu Talib onun evindən bayıra çıxdıqda camaat soruşdu: "Ey Əbul-Həsən, bu səhər Rəsulullah ﷺ özünü necə hiss edir?" Əli dedi: "Allaha həmd olsun,[1] bu səhər onun halı çox yaxşıdır!" Bu vaxt Abbas ibn Abdulmuttəlib[2] onun əlindən tutub dedi: "Vallahi, güman edirəm ki, üç gündən sonra sən başqasının itaətində olacaqsan. Vallahi, güman edirəm ki, Rəsulullah ﷺ bu xəstəliyindən vəfat edəcək.[3] Mən Abdulmuttəlib oğullarının üzlərinin ölüm ayağında necə görkəm aldığını yaxşı bilirəm. Gedək[4] Rəsulullahdan ﷺ xilafətin kimə həvalə ediləcəyini soruşaq. Əgər *xilafət* bizə nəsib olacaqsa, bunu bilərik, yox, əgər başqalarına qismət olacaqsa, bundan da xəbərimiz olar. Həm də, ondan xahiş edərik, bizə dair öz vəsiyyətini edər."[5] Əli dedi: "Vallahi, əgər biz bunu (xilafəti) Peyğəmbərdən ﷺ istəsək və o bunu bizə verməsə, ondan sonra insanlar onu bizə əsla verməyəcəklər. Vallahi, mən bunu Peyğəmbərdən ﷺ heç vaxt istəməyəcəyəm."[6]

---

[1] Belə suala cavab verdikdə, hər bir halda Allaha həmd etmək – "Əlhəmdulilləh!" demək müstəhəbdir.

[2] Abbas ibn Abdulmuttəlib ﵁ Əli ibn Əbu Talibin ﵁ əmisidir.

[3] Bunu deyəndə Abbasın ﵁ məqsədi, əlbəttə ki, qəti şəkildə qeybdən xəbər vermək yox, sadəcə olaraq, xəstənin zahiri əlamətlərinə görə onun vəfat edəcəyini təxmin etmək olmuşdur.

[4] İslam əxlaqına görə, xəstəni ziyarət etmək üçün onun ən yaxınlarına müraciət etmək, onların vasitəsilə ona baş çəkmək gərəkdir.

[5] Yəni seçəcəyi xəlifəyə əhli-beytin qeydinə qalmağı buyurar.

[6] Bu hədisi müəllif öz "Səhih"ində də (4447) rəvayət etmişdir.

## ٥٣٠- بَابُ مَنْ كَتَبَ آخِرَ الْكِتَابِ: ((السّلامُ عَلَيْكُمْ وَرَحْمَةُ اللَّهِ)) ((وَكَتَبَ فلانُ بْنُ فُلانٍ لِعَشْرٍ بَقِينَ مِنَ الشَّهْرِ))

## 530-cu fəsil. Məktubun sonunda: "Əssəlamu aleykum və rahmətullah", habelə, "Yazdı: filankəsin oğlu filankəs, ayın sonuna on gün qalmış" yazan kimsə[1]

**١١٣١-** حَدَّثَنَا ابْنُ أَبِي مَرْيَمَ قَالَ: أَخْبَرَنَا ابْنُ أَبِي الزِّنَادِ قَالَ: حَدَّثَنِي أَبِي، أَنَّهُ أَخَذَ هَذِهِ الرِّسَالَةَ مِنْ خَارِجَةَ بْنِ زَيْدٍ، وَمِنْ كُبَرَاءِ آلِ زَيْدٍ: بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ، لِعَبْدِ اللَّهِ مُعَاوِيَةَ أَمِيرِ الْمُؤْمِنِينَ، مِنْ زَيْدِ بْنِ ثَابِتٍ: سَلاَمٌ عَلَيْكَ أَمِيرَ الْمُؤْمِنِينَ وَرَحْمَةُ اللَّهِ، فَإِنِّي أَحْمَدُ إِلَيْكَ اللَّهَ الَّذِي لاَ إِلَهَ إِلاَّ هُوَ، أَمَّا بَعْدُ: فَإِنَّكَ تَسْأَلُنِي عَنْ مِيرَاثِ الْجَدِّ وَالإِخْوَةِ، فَذَكَرَ الرِّسَالَةَ، وَنَسْأَلُ اللَّهَ الْهُدَى وَالْحِفْظَ وَالتَّثَبُّتَ فِي أَمْرِنَا كُلِّهِ، وَنَعُوذُ بِاللَّهِ أَنْ نَضِلَّ، أَوْ نَجْهَلَ، أَوْ نَتَكَلَّفَ مَا لَيْسَ لَنَا بِهِ عِلْمٌ، وَالسَّلاَمُ عَلَيْكَ أَمِيرَ الْمُؤْمِنِينَ وَرَحْمَةُ اللَّهِ وَبَرَكَاتُهُ وَمَغْفِرَتُهُ.

وَكَتَبَ وُهَيْبٌ: يَوْمَ الْخَمِيسِ لِثِنْتَيْ عَشْرَةَ بَقِيَتْ مِنْ رَمَضَانَ سَنَةَ اثْنَيْنِ وَأَرْبَعِينَ.

**(1131)** ........ Əbu Zinad rəvayət edir ki, Xaricə ibn Zeyddən və Zeyd ailəsinin böyüklərindən belə bir məktub almışdır: "Mərhəmətli və Rəhmli Allahın adı ilə! Allahın qulu, möminlərin əmiri Muaviyəyə, Zeyd ibn Sabitdən.[2] Sənə salam olsun, ey möminlərin əmiri və Allahın rəhməti yetişsin! Səninlə birlikdə, Özündən başqa heç bir məbud olmayan Allaha həmd edirəm. Sonra isə: Sən məndən babaya və qardaşlara çatan miras barədə

[1] Müəllifin fəsilə verdiyi bu ünvandan aydın olur ki, müsəlmanın digər bir müsəlmanla həm görüşdükdə, həm də vidalaşdıqda, habelə, məclisə gəldikdə və məclisdən durub getdikdə salam verməsi Sünnə sayıldığı kimi, məktubu salamla başlaması və salamla bitirməsi də, həmçinin Sünnə sayılır. Həmçinin, məktubu tamamladıqda tarixi qeyd etmək də, bəyənilən əməllərdəndir.

[2] 1122-ci və 1127-ci hədislərin qeydlərinə bax.

soruşursan... Biz Allahdan hidayət, mühafizə olunmaq və hər bir işimizdə dəqiq olmağı diləyirik! Azmaqdan, cahillik etməkdən və bilmədiyimiz şeylərə görə cavabdeh olmaqdan Allaha sığınırıq![1] Sənə salam olsun, ey möminlərin əmiri, Allahın rəhməti, Onun bərəkəti və məğfirəti yetişsin.[2]"

Bu məktubu Vuheyb yazdı, Cümə axşamı, Ramazan bitməsinə 12 gün qalmış, *hicrətin* 42-ci ili.[3]

---

[1] Burada, səhabə əvvəlcə Allahdan yaxşı işlər xüsusunda düz yol tutmağı, şər əməllərdən qorunmağı və fitva verdiyi bütün işlərdə haqqı deməyə müvəffəq olmağı diləyir. Ardından da, haqq yoldan sapmaqdan, cahillərdən olmaqdan və bilmədiyini danışmaqdan Allaha sığınır! İnsanın bilmədiyini danışması böyük məsuliyyətdir. Bu xüsusda, Uca Allah Quranda belə buyurur: **"Haqqında məlumatın olmadığı bir işin dalınca getmə. Çünki qulaq, göz və qəlb – bunların hamısı *sahibinin əməlləri* barədə sorğu-sual olunacaq"** (əl-İsra, 36).

[2] 1001-ci hədisdə "...və gözəl xeyir-duası *sənə* yetişsin" əlavəsi də zikr edilmişdir.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

## ٥٣١- بَابُ كَيْفَ أَنْتَ؟

### 531-ci fəsil. (Birisinə) "Necəsən?"– (demək)[1]

١١٣٢- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ إِسْحَاقَ بْنِ عَبْدِ اللَّهِ بْنِ أَبِي طَلْحَةَ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، أَنَّهُ سَمِعَ عُمَرَ بْنَ الْخَطَّابِ رَضِيَ اللَّهُ عَنْهُ، وَسَلَّمَ عَلَيْهِ رَجُلٌ فَرَدَّ السَّلَامَ، ثُمَّ سَأَلَ عُمَرُ الرَّجُلَ: كَيْفَ أَنْتَ؟ فَقَالَ: أَحْمَدُ اللَّهَ إِلَيْكَ، فَقَالَ عُمَرُ: هَذَا الَّذِي أَرَدْتُ مِنْكَ.

**(1132)** ........ Ənəs ibn Malik ﷺ demişdir: "Bir nəfər Ömər ibn Xattaba salam verdi, Ömər də onun salamını aldı. Sonra Ömər həmin adamdan: "Necəsən?"– deyə soruşdu. Adam dedi: "Səninlə birlikdə, Allaha həmd edirəm!" Ömər dedi: "Səndən istəyim də, elə, bu idi!"[2]

---

[1] Bu da, həmçinin, salam verdikdən sonra deyilməlidir. Bu fəsildəki rəvayət də buna dəlalət edir.

[2] Bu hədisi Beyhəqi (Şoəbul-İman, 4/109/4450) rəvayət etmiş və Muhəmməd Nasirəd-din əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih-movquf" olduğunu de-miş, habelə, onun "mərfu" isnadla rəvayət edildiyini və "Silsilətul-Əhadisis-Səhihə" əsə-rində (2952) nəql olunduğunu bildirmişdir.

## ٥٣٢- بَابُ كَيْفَ يُجِيبُ إِذَا قِيلَ لَهُ: ((كَيْفَ أَصْبَحْتَ؟))

## 532-ci fəsil. Bir kəsə: "Sabaha necə çıxdın?" deyildikdə, nə cavab verməlidir?

١١٣٣- حَدَّثَنَا أَبُو عَاصِمٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ مُسْلِمٍ، عَنْ سَلَمَةَ الْمَكِّيِّ، عَنْ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ: قِيلَ لِلنَّبِيِّ ﷺ: كَيْفَ أَصْبَحْتَ؟ قَالَ: ((بِخَيْرٍ مِنْ قَوْمٍ لَمْ يَشْهَدُوا جَنَازَةً، وَلَمْ يَعُودُوا مَرِيضًا)).

**(1133)** ........ Cabir ibn Abdullah ﷺ rəvayət edir ki, (bir dəfə) Peyğəmbərdən ﷺ: "Sabaha necə çıxdın, *ya Rəsulullah*?"– deyə soruşdular. O dedi: "Dəfndə iştirak etməyən və xəstəyə baş çəkməyən adamlardan daha xeyirli halda *sərə çıxdıq*.[1]"[2]

١١٣٤- حَدَّثَنَا مُحَمَّدُ بْنُ الصَّبَّاحِ قَالَ: حَدَّثَنَا شَرِيكٌ، عَنْ مُهَاجِرٍ هُوَ الصَّائِغُ، قَالَ: كُنْتُ أَجْلِسُ إِلَى رَجُلٍ مِنْ أَصْحَابِ النَّبِيِّ ﷺ ضَخْمٍ مِنَ الْحَضْرَمِيِّينَ، فَكَانَ إِذَا قِيلَ لَهُ: كَيْفَ أَصْبَحْتَ؟ قَالَ: لا نُشْرِكُ بِاللَّهِ.

**(1134)** ........ Şərik rəvayət edir ki, zərgər Mühacir demişdir:[3] "*Bəzən* mən Peyğəmbərin ﷺ səhabələrindən olan hədrəmovtlu, yekəpər bir kişinin yanında oturardım. *Dostları* ondan: "Sabaha necə çıxdın?"– deyə soruşduqda, o: "Allaha şərik qoşmadığımız halda *səhərə çıxdıq!*"[4]– deyərdi.

---

[1] Peyğəmbər ﷺ bu sözlə səhabələrini hər gün imkan daxilində dəfndə iştirak etməyə və xəstəyə baş çəkməyə təşviq edir (515-ci hədisə bax).

[2] Bu hədisi İbn Əbu Şeybə (26319), Beyhəqi (Şoəbul-İman, 8817) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "həsən li-ğeyrihi" olduğunu demişdir.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

[4] Mömin adamın Allaha şərik qoşmadığı halda səhərə çıxması ən böyük nemətdir. Odur ki, Peyğəmbər ﷺ hər səhər dua edib deyərdi:

**١١٣٥-** حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا رِبْعِيُّ بْنُ عَبْدِ اللَّهِ بْنِ الْجَارُودِ الْهُذَلِيُّ قَالَ: حَدَّثَنَا سَيْفُ ابْنُ وَهْبٍ قَالَ: قَالَ لِي أَبُو الطُّفَيْلِ: كَمْ أَتَى عَلَيْكَ؟ قُلْتُ: أَنَا ابْنُ ثَلاَثٍ وَثَلاَثِينَ، قَالَ: أَفَلاَ أُحَدِّثُكَ بِحَدِيثٍ سَمِعْتُهُ مِنْ حُذَيْفَةَ بْنِ الْيَمَانِ: إِنَّ رَجُلًا مِنْ مُحَارِبِ خَصَفَةَ، يُقَالُ لَهُ: عَمْرُو بْنُ صُلَيْعٍ، وَكَانَتْ لَهُ صُحْبَةٌ، وَكَانَ بِسِنِّي يَوْمَئِذٍ وَأَنَا بِسِنِّكَ الْيَوْمَ، أَتَيْنَا حُذَيْفَةَ فِي مَسْجِدٍ، فَقَعَدْتُ فِي آخِرِ الْقَوْمِ، فَانْطَلَقَ عَمْرٌو حَتَّى قَامَ بَيْنَ يَدَيْهِ، قَالَ: كَيْفَ أَصْبَحْتَ، أَوْ كَيْفَ أَمْسَيْتَ، يَا عَبْدَ اللَّهِ؟ قَالَ: أَحْمَدُ اللَّهَ، قَالَ: مَا هَذِهِ الأَحَادِيثُ الَّتِي تَأْتِينَا عَنْكَ؟ قَالَ: وَمَا بَلَغَكَ عَنِّي، يَا عَمْرُو؟ قَالَ: أَحَادِيثُ لَمْ أَسْمَعْهَا، قَالَ: إِنِّي وَاللَّهِ لَوْ أُحَدِّثُكُمْ بِكُلِّ مَا سَمِعْتُ مَا انْتَظَرْتُمْ بِي جَنَحَ هَذَا اللَّيْلِ، وَلَكِنْ يَا عَمْرُو بْنَ صُلَيْعٍ، إِذَا رَأَيْتَ قَيْسًا تَوَالَتْ بِالشَّامِ فَالْحَذَرَ الْحَذَرَ، فَوَاللَّهِ لاَ تَدَعُ قَيْسٌ عَبْدًا لِلَّهِ مُؤْمِنًا إِلاَّ أَخَافَتْهُ أَوْ قَتَلَتْهُ، وَاللَّهِ لَيَأْتِيَنَّ عَلَيْهِمْ زَمَانٌ لاَ يَمْنَعُونَ فِيهِ ذَنَبَ تَلْعَةٍ، قَالَ: مَا يَنْصِبُكَ عَلَى قَوْمِكَ يَرْحَمُكَ اللَّهُ؟ قَالَ: ذَاكَ إِلَيَّ، ثُمَّ قَعَدَ.

**(1135)** ........ Seyf ibn Vəhb demişdir: "*Bir gün* Əbu Tufeyl məndən: "Neçə yaşın var?"– deyə soruşdu. Mən: "Otuz üç yaşım var"– deyə cavab verdim. O dedi: "İstəyirsən, sənə Huzeyfə ibn Yəməndən eşitdiyim bir hədisi danışım?! Adı Amr ibn Suley olan, Xəsəfə[1] oğulları ilə birlikdə vuruşan

---

(( أَصْبَحْنَا عَلَى فِطْرَةِ الْإِسْلَامِ، وَعَلَى كَلِمَةِ الْإِخْلَاصِ، وَعَلَى دِينِ نَبِيِّنَا مُحَمَّدٍ (صلى الله عليه وسلم)، وَعَلَى مِلَّةِ أَبِينَا إِبْرَاهِيمَ، حَنِيفاً مُسْلِماً وَمَا كَانَ مِنَ الْمُشْرِكِينَ ))

Transkripsiyası: Əsbəhnə alə fitratil-islam, və alə kəlimətil-ixlas, və alə dini nəbiyyinə Muhəmmədin *səllallahu aleyhi və səlləm*, və alə milləti əbinə İbrahimə hənifən muslimən və ma kənə minəl-muşrikin.

Tərcüməsi: İslam fitrətində, ixlas kəlməsində, Peyğəmbərimiz Muhəmmədin ﷺ dinində, hənif (ixlasla Allaha ibadət edən) müsəlman olan və müşriklərdən olmayan atamız İbrahimin millətində olaraq səhərə çıxdıq! (Musnəd Əhməd, 3/406; Səhihul-Cami, 4/209).

[1] Xəsəfə ibn Qeys ibn Ğeylan ibn İlyas ibn Mudər (Fəthul-Bari, 7/531).

bir kişi ilə birgə məscidə – Huzeyfənin yanına getdik. Həmin adam səhabə idi. Həmin vaxt o, mənim bugünkü yaşımda, mən də sənin bugünkü yaşında idim. Mən camaatın lap arxa tərəfində oturdum. Amr isə Huzeyfənin yanına getdi və nəhayət, gəlib onun qarşısında durub dedi: "Ey Allahın qulu, sabaha necə çıxdın yaxud axşama necə çıxdın?" O dedi: "Allaha həmd edirəm!" Amr dedi: "Səndən bizə yetişən hədislər nədir?" Huzeyfə dedi: "Məndən sizə nə gəlib çatıb, ey Amr?" Amr dedi: "Eşitmədiyim hədislər." Huzeyfə dedi: "Vallahi ki, əgər eşitdiyim hər bir hədisi sizə danışsaydım, gecənin bir aləmində məni gözləməzdiniz. Lakin, ey Amr ibn Suley, sən Qeys qəbiləsinin Şamı zəbt etdiyini gördüyün zaman onlardan uzaq ol, uzaq! Vallahi ki, Qeys qəbiləsi Allaha iman gətirmiş bir adam qoymayacaq, *hamısını* ya qorxudacaq, ya da öldürəcək. Vallahi, möminlərə elə bir zaman gələcək ki, ən dəyərsiz bir şeyi belə əsirgəməyəcəklər." Amr dedi: "Allah sənə mərhəmət etsin, *ey Huzeyfə,* qövmünə nə nəsihət edirsən?" Huzeyfə: "Bax, bu, mənə aiddir"– dedi, sonra da oturdu.[1]

[1] Bu hədisin isnadında keçən Seyf ibn Vəhb "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demiş, sonra da bu hədisin "Lakin, ey Amr ibn Suley!" sözündən "ən dəyərsiz bir şeyi belə əsirgəməyəcəklər" sözünədək olan hissəsinin "səhih li-ğeyrihi" olduğunu, hətta, "səhih-mərfu" isnadla varid olduğunu da bildirmişdir.

## ٥٣٣- بَابُ خَيْرُ الْمَجَالِسِ أَوْسَعُهَا

## 533-cü fəsil. Məclislərin ən xeyirlisi – ən geniş olanıdır

١١٣٦- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا أَبُو عَامِرٍ الْعَقَدِيُّ قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ ابْنُ أَبِي الْمَوَالِي قَالَ: أَخْبَرَنِي عَبْدُ الرَّحْمَنِ بْنُ أَبِي عَمْرَةَ الأَنْصَارِيُّ قَالَ: أُوذِنَ أَبُو سَعِيدٍ الْخُدْرِيُّ بِجِنَازَةٍ، قَالَ: فَكَأَنَّهُ تَخَلَّفَ حَتَّى أَخَذَ الْقَوْمُ مَجَالِسَهُمْ، ثُمَّ جَاءَ بَعْدُ، فَلَمَّا رَآهُ الْقَوْمُ تَسَرَّعُوا عَنْهُ، وَقَامَ بَعْضُهُمْ عَنْهُ لِيَجْلِسَ فِي مَجْلِسِهِ، فَقَالَ: لاَ، إِنِّي سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: ((خَيْرُ الْمَجَالِسِ أَوْسَعُهَا))، ثُمَّ تَنَحَّى فَجَلَسَ فِي مَجْلِسٍ وَاسِعٍ.

**(1136)** ........ Abdur-Rəhman ibn Əbu Amra əl-Ənsari demişdir: "*Bir dəfə* Əbu Səid əl-Xudrini dəfndə iştirak etməyə çağırdılar. Əbu Səid cənazəyə yubandığından adamlar öz yerlərində oturdular. Nəhayət, o, gəlib çıxdı. Camaat onu görəndə *ona yer verməyə* tələsdilər və onlardan bəziləri ayağa qalxıb, ona öz məclisində oturmağı təklif etdi. Əbu Səid dedi: "Yox, *belə etməyin!*[1] Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: "Məclislərin ən xeyirlisi – ən geniş olanıdır." Sonra o, kənara çəkilib geniş məclisdə oturdu."[2]

---

[1] Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "*Bir məclisdə* iki nəfərin arasına girmək halal deyildir. Yalnız onların izin verməsi istisnadır" (Sunən Əbu Davud, 4845; Sunən ət-Tirmizi, 4/6-7; Musnəd Əhməd, 2/213; Səhih əl-Cami, 7656).

[2] Bu hədisi Əbu Davud (4820), Əhməd (3/18/69), Hakim (4/269), Abd ibn Humeyd (əl-Muntəxəb minəl-Musnəd, 1/108), əl-Qədai (1/100) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ٥٣٤- بَابُ اسْتِقْبَالِ الْقِبْلَةِ

## 534-cü fəsil. Qibləyə tərəf yönəlmək[1]

١١٣٧- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي حَرْمَلَةُ بْنُ عِمْرَانَ، عَنْ سُفْيَانَ بْنِ مُنْقِذٍ، عَنْ أَبِيهِ قَالَ: كَانَ أَكْثَرُ جُلُوسِ عَبْدِ اللَّهِ بْنِ عُمَرَ وَهُوَ مُسْتَقْبِلٌ الْقِبْلَةَ، فَقَرَأَ يَزِيدُ بْنُ عَبْدِ اللَّهِ بْنِ قُسَيْطٍ سَجْدَةً بَعْدَ طُلُوعِ الشَّمْسِ فَسَجَدَ وَسَجَدُوا إِلاَّ عَبْدَ اللَّهِ بْنَ عُمَرَ، فَلَمَّا طَلَعَتِ الشَّمْسُ حَلَّ عَبْدُ اللَّهِ حَبْوَتَهُ ثُمَّ سَجَدَ وَقَالَ: أَلَمْ تَرَ سَجْدَةَ أَصْحَابِكَ؟ إِنَّهُمْ سَجَدُوا فِي غَيْرِ حِينِ صَلاةٍ.

**(1137)** ........ Sufyan ibn Munqiz rəvayət edir ki, atası *Munqiz* demişdir: "Abdullah ibn Ömər çox vaxt qibləyə tərəf oturardı. Bir dəfə gün çıxandan sonra[2] Yezid ibn Abdullah ibn Quseyt səcdə ayəsini oxuyub səcdə etdi. Abdullah ibn Ömərdən başqa hamı səcdə etdi. Günəş yüksəldikdən sonra Abdullah ibn Ömər dizi üstə qalxıb səcdə etdi. Sonra dedi: "Dostlarının səcdə etdiyini görmədinmi?! Onlar namaz vaxtından xaric bir vaxtda[3] səcdə etdilər."[4]

---

[1] Əbu Hureyrənin ﷺ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "Hər bir şeyin seyidi (ən hörmətlisi) vardır. Məclislərin seyidi qibləyə tərəf yönəlməkdir" (Mocəmul-Ovsat, 3/269; Silsilətul-Əhadisis-Səhihə, 2645).

[2] Ehtimal ki, burada gün doğduğu zaman nəzərdə tutulur.

[3] Yəni namaz qılmağın qadağan olunduğu bir vaxtda səcdə etdilər.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində (səh: 98) demişdir: "Bu hədisin isnadı "zəif" və "movquf"dur. Çünki isnadda keçən Sufyan "məchul" ravidir. Lakin *qadağan olunmuş vaxtda* səcdə etməyin qadağan edilməsi İbn Ömərdən ﷺ "səhih" isnadla İbn Əbu Şeybənin "əl-Musənnəf" əsərində (2/16) rəvayət edilmişdir. Habelə, bu qadağa "mərfu" isnadla, yəni Peyğəmbərdən ﷺ də rəvayət edilmişdir. Bax: Daif Əbu Davud, 254."

## ٥٣٥- بَابُ إِذَا قَامَ ثُمَّ رَجَعَ إِلَى مَجْلِسِهِ

## 535-ci fəsil. Adam yerindən qalxıb (gedib), sonra da yerinə qayıdıbsa

١١٣٨- حَدَّثَنَا خَالِدُ بْنُ مَخْلَدٍ قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ بِلَالٍ قَالَ: حَدَّثَنِي سُهَيْلٌ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ: ((إِذَا قَامَ أَحَدُكُمْ مِنْ مَجْلِسِهِ، ثُمَّ رَجَعَ إِلَيْهِ، فَهُوَ أَحَقُّ بِهِ)).

**(1138)** ........ Əbu Hureyrə رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Sizdən biriniz oturduğu yerdən qalxsa, sonra da yerinə qayıdarsa, o, həmin yerə *oturmağa* daha layiq olar.[1]"[2]

---

[1] Nəvəvi demişdir: "Alimlərimiz deyirlər ki, bu, məsciddə və ya başqa bir yerdə, namaz qılmaq və s. üçün oturmuş, sonra dəstəmaz almaq və ya başqa xırda bir işi görmək üçün qalxıb getmiş, sonra da öz yerinə qayıtmış kimsəyə aiddir. Belə ki, onun xüsusiləşdirdiyi bu yer onun üçün öz qüvvəsini itirmir, əksinə, o adam yerinə qayıtdıqda, namaz qılana qədər həmin yerdə oturmağa daha haqlı olur. Və əgər onun yerində başqa birisi oturmuşsa, o, həmin adamı o yerdən durğuza bilər. Onun yerində oturmuş adam da, bu hədisə əsasən həmin yeri tərk etməlidir" (Şərh ən-Nəvəvi).

[2] Bu hədisi Muslim (7/10), Əbu Davud (4853), İbn Macə (3717), Əhməd (2/263, 283, 342, 389, 446, 447, 483, 527 və 537), İbn Xuzeymə (1821), İbn Hibban (587) rəvayət etmişdir.

# ٥٣٦- بَابُ الْجُلُوسِ عَلَى الطَّرِيقِ

## 536-cı fəsil. Yolda oturmaq[1]

١١٣٩- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلامٍ قَالَ: أَخْبَرَنَا أَبُو خَالِدٍ الأَحْمَرُ، عَنْ حُمَيْدٍ، عَنْ أَنَسٍ: أَتَانَا رَسُولُ اللَّهِ ﷺ وَنَحْنُ صِبْيَانٌ، فَسَلَّمَ عَلَيْنَا، وَأَرْسَلَنِي فِي حَاجَةٍ، وَجَلَسَ فِي الطَّرِيقِ يَنْتَظِرُنِي حَتَّى رَجَعْتُ إِلَيْهِ، قَالَ: فَأَبْطَأْتُ عَلَى أُمِّ سُلَيْمٍ، فَقَالَتْ: مَا حَبَسَكَ؟ فَقُلْتُ: بَعَثَنِي النَّبِيُّ ﷺ فِي حَاجَةٍ، قَالَتْ: مَا هِيَ؟ قُلْتُ: إِنَّهَا سِرٌّ، قَالَتْ: فَاحْفَظْ سِرَّ رَسُولِ اللَّهِ ﷺ.

**(1139)** ........ Ənəs ﷺ demişdir:[2] “Biz uşaq ikən Rəsulullah ﷺ yanımıza gəlib bizə salam verdi.[3] Sonra məni bir iş dalınca[4] göndərdi və mən onun yanına qayıdanadək o, yolda oturub məni gözlədi.[5] Mən Ummu Suleymin[6] yanına gec gəldim. O: “Niyə yubandın?”[7]– deyə soruşdu. Mən: “Peyğəmbər ﷺ məni bir iş dalınca göndərmişdi”– deyə cavab verdim. *Anam*: “Nədir o iş?”– deyə soruşdu. Mən: “Bu sirdir”– dedim. *Anam da mənə*: “Rəsulullahın ﷺ sirrini qoru!”– dedi.[8]”

---

[1] Yəni zərurət olduqda, yolda oturmaq caizdir (1014-cü hədisin qeydlərinə bax).

[2] Bu hədisi Buxari (6289), Muslim (7/160) və Əhməd (3/174, 195, 227, 228, 235 və 253; 3/109 və 235) rəvayət etmişdir.

[3] 1043-cü hədisə və onun qeydlərinə bax.

[4] Hədisin zahirindən aydın olur ki, Peyğəmbər ﷺ onu özünə xas olan – əhli-beytinə yaxud zövcələrinə aid olan bir iş dalınca göndərmişdir.

[5] Bu, dəlildir ki, lazım gəldikdə, yolda oturmaq olar. Digər rəvayətdə Ənəs ﷺ: “Mən onun yanına qayıdanadək o, kölgəlikdə oturub gözlədi”– demişdir (1154-cü hədisə bax).

[6] Ummu Suleym ﷺ Ənəs ibn Malikin ﷺ anasıdır (149-cu hədisin qeydlərinə bax).

[7] Bundan belə nəticə çıxır ki, valideyn öz övladının həmyaşıdları ilə oynaması üçün onu bayıra buraxdıqda, ona müəyyən vaxt təyin etməli, həmin vaxt onun evə qayıtmadığını görəndə, onun üçün narahat olmalı və uşaq evə qayıtdıqda, ondan yubanmağının səbəbini soruşmalıdır.

[8] Digər isnadla rəvayət edilmiş bu hədisin tamamında deyilir ki, Ənəs ibn Malik ﷺ Peyğəmbərin ﷺ sirrini heç kəsə deməmişdir (1154-cü hədisə bax). İbn Həcər əl-Əsqəlani

bu hədisi belə izah etmişdir: "Bəzi İslam alimləri bu sirrin Peyğəmbərin ﷺ zövcələrinə aid olduğunu söyləmişlər. Yoxsa ki, əgər bu sirr şəriətə aid olmuş olsa idi, Ənəs onu gizlətməzdi. İbn Bəttal demişdir: "Bir çox alimlərin rəyinə görə, sirri onun sahibinə zərər yetirəcəyi təqdirdə, onu gizlətmək doğru sayılmır. Çoxları deyir ki, adam vəfat etdikdən sonra həyatda ikən sirr saxladığı şeyi gizlətməyə lüzum yoxdur. Yalnız insanı gözdən salan nöqsanlarını gizlətmək müstəsnadır" (Fəthul-Bari, 11/82). İbn Useymin demişdir: "Bu hədisdə neçə-neçə faydalar vardır:

Birincisi, Peyğəmbərin ﷺ əxlaqı və əvəzolunmaz təvazökarlığı. Belə ki, o, həm Allah yanında, həm də insanlar arasında olduqca böyük hörmətə, şərəfə və yüksək məqama sahib olduğu halda, təvazökarlıq göstərib uşaqlara belə salam verərmiş...

İkincisi, bir adamın yanından keçdiyi hər kəsə, hətta, uşağa belə salam verməsi müstəhəb əməllərdən sayılır. Çünki sən qardaşına "Əssəlamu aleykə!" deməklə, o da, "Və aleykumussəlam!" deyib sənin salamını almaqla bir-birinizə dua etmiş olursunuz. Uşaqlara salam verməklə isə sən onlara bu gözəl xisləti – salam verməyi öyrədirsən. Nəhayət, onlar İslam əhval-ruhiyyəsində böyüyür, daim bir-birilərinə salam verir və bunun savabından sənə də pay çatır. Bəli, insanlara nümunə olduğun hər bir xeyirli əmələ görə – insanlar sənə baxıb ona əməl etdikcə, sənə də savab yazılır;

Üçüncüsü, uşağa iş buyurmağın caiz olması. Bir şərtlə ki, o, iş yarıdanlardan olsun. Yox əgər o, işə etinasız yanaşan uşaqlardandırsa, ona arxayın olmaq olmaz;

Dördüncüsü, əgər uşaq sənə ehtiyacın olduğu bir şeyi gətirsə və "bunu atam göndərib", yaxud "anam göndərib"və ya buna bənzər bir söz desə, onun gətirdiyini qəbul etmək gərəkdir...

Beşincisi, valideynin və digər ailə üzvlərinin uşaqla maraqlanması. Uşaq da öz növbəsində yubanacağından ehtiyat etdiyi təqdirdə, gedəcəyi yeri və təxminən qayıdacağı vaxtı öz valideyninə və ev əhlinə bildirməlidir...

Altıncısı, bir adamın verdiyi sirri heç kəsə, hətta ata-anaya belə deməmək...

Yeddincisi, Ummu Suleymin رضي الله عنها öz oğluna "Peyğəmbərin ﷺ sirrini qoru!" deyərək, ona gözəl tərbiyə verməsi. Baxmayaraq ki, Ənəs رضي الله عنه bu sirri heç kəsə deməmişdi, lakin anası ona xəbərdarlıq edir ki, o, bu sirri heç kəsə bildirməsin. Ummu Suleym رضي الله عنها sanki ona demək istəyir ki, mən sənin fikrinlə razıyam, bunu heç kəsə bildirmə" (Şərh Riyadus-Salihin, 688-ci hədisin şərhi).

# ٥٣٧- بَابُ التَّوَسُّعِ فِي الْمَجْلِسِ

## 537-ci fəsil. Məclisdə *bir-birinə* yer vermək

**١١٤٠-** حَدَّثَنَا الْحُمَيْدِيُّ قَالَ: حَدَّثَنَا ابْنُ عُيَيْنَةَ قَالَ: حَدَّثَنَا عُبَيْدُ اللَّهِ بْنُ عُمَرَ، عَنْ نَافِعٍ، عَنِ ابْنِ عُمَرَ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((لاَ يُقِيمَنَّ أَحَدُكُمُ الرَّجُلَ مِنْ مَجْلِسِهِ، ثُمَّ يَجْلِسُ فِيهِ، وَلَكِنْ تَفَسَّحُوا وَتَوَسَّعُوا)).

**(1140)** ........ İbn Ömər رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: “Sizdən biriniz bir adamı yerindən qaldırıb, özü onun yerində oturmasın.[1] Lakin sıx oturun və *bir-birinizə* yer verin.[2]”[3]

---

[1] Peyğəmbərin ﷺ bu sözü bu əməlin haram olduğuna dəlalət edir. Belə ki, məsciddə və ya başqa bir yerdə namaz qılmaq məqsədilə özü üçün yer tutmuş bir adam həmin yerdə oturmağa daha haqlıdır və onu yerindən qaldırıb, onun yerinə oturmaq haram buyurulan əməllərdən sayılır (Subulus-Səlam, 4/152). Nəvəvi demişdir: “Alimlərimiz (yəni şafiilər) bu məsələdə bəzi halları istisna etmişlər. Məsələn, bir adam məsciddə təyin olunmuş bir yerdə fitva verirsə, yaxud Quran oxuyursa və ya şəriət elmlərindən dərs keçirsə, həmin adam o yerə daha haqlı sayılır və o, gəldiyi vaxt həmin yerdə oturan adam o yerdən durmalıdır” (Şərh ən-Nəvəvi). Şeyx Abdul-Muhsin əl-Abbad demişdir: “Əgər ayaq üstə duran adam yaşlı, oturan adam isə cavandırsa, oturmağa başqa bir yer də yoxdursa, böyüyə ehtiram göstərmək məqsədilə ona yer vermək caizdir” (Şərh Sunən Əbu Davud).

[2] Diqqət edin, burada Peyğəmbər ﷺ bu əməli səhabələrinə qadağan etsə də, onlara vəziyyətdən çıxış yolunu da öyrədir. Bu xüsusda, Quranda belə buyurulur: **“Ey iman gətirənlər! Sizə: “Məclislərdə yer verin!”– deyildikdə yer verin ki, Allah da sizə geniş yer versin”** (əl-Mucədilə, 11).

[3] Bu hədisi Buxari (6270), Muslim (7/9), Əhməd (2/17, 22 və 102), İbn Əbu Şeybə (əl-Musənnəf, 26090), Darimi (2695) və Şafii (Musnəd, 299) rəvayət etmişdir.

## ٥٣٨- بَابُ يَجْلِسُ الرَّجُلُ حَيْثُ انْتَهَى

## 538-ci fəsil. Adam çatdığı yerdə oturmalıdır

١١٤١- حَدَّثَنَا مُحَمَّدُ بْنُ الطُّفَيْلِ قَالَ: حَدَّثَنَا شَرِيكٌ، عَنْ سِمَاكٍ، عَنْ جَابِرِ بْنِ سَمُرَةَ قَالَ: كُنَّا إِذَا أَتَيْنَا النَّبِيَّ ﷺ جَلَسَ أَحَدُنَا حَيْثُ انْتَهَى.

**(1141)** ........ Simak rəvayət edir ki, Cabir ibn Səmura ؓ demişdir: "Biz Peyğəmbərin ﷺ yanına gəldikdə, hər birimiz çatdığı *boş* yerdə oturardı."[1]

---

[1] Bu hədisi Əbu Davud (4825), Tirmizi (2/121), Əhməd (5/91, 98, 107-108) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "səhih li-ğeyrihi" olduğunu demişdir. Şeyx Albani bu hədisi izah edib demişdir: "Bu hədis bizə Peyğəmbərin ﷺ dövründə olan məclis ədəblərindən birini öyrədir. *Avam* adamlar, hətta bəzi elm əhli bu Sünnəni yaddan çıxarmışlar. Sünnəyə görə, adam məclisə gəldikdə, yetişdiyi yerdə, – həmin yer qapının ağzında olasa belə, orada oturmalıdır" (Silsilətul-Əhadisis-Səhihə, 1/648).

## ٥٣٩- بَابُ لا يُفَرِّقُ بَيْنَ اثْنَيْنِ

## 539-cu fəsil. İki nəfərin arasına girmək olmaz

١١٤٢- حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ مُوسَى قَالَ: حَدَّثَنَا الْفُرَاتُ بْنُ خَالِدٍ، عَنْ أُسَامَةَ بْنِ زَيْدٍ، عَنْ عَمْرِو بْنِ شُعَيْبٍ، عَنْ أَبِيهِ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو، أَنَّ النَّبِيَّ ﷺ قَالَ: ((لاَ يَحِلُّ لِرَجُلٍ أَنْ يُفَرِّقَ بَيْنَ اثْنَيْنِ، إِلا بِإِذْنِهِمَا)).

**(1142)** ........ Abdullah ibn Amr ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Bir məclisdə iki nəfərin arasına girmək halal deyildir. Yalnız onların izin verməsi istisnadır.[1]"[2]

---

[1] Yanbayan oturan iki adam çox vaxt bir-biri ilə özlərinə aid söhbət edir və belə halda izin almadan onların arasına girmək ədəbsizlikdir və qadağan edilmiş əməllərdəndir. İslam şəriəti insanlar arasında mehriban münasibətləri sabit saxlamaq üçün, habelə onların arasına ədavət düşməsin deyə, bu hüquqları qoruyur. Abdul-Muhsin əl-Abbad demişdir: "Bu hökm təkcə oturan iki nəfərə yox, ayaq üstə duran və yol gedən kimsələrə də aiddir" (Şərh Sunən Əbu Davud).

[2] Bu hədisi Əbu Davud (4845), Tirmizi (4/6-7), Əhməd (2/213) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "həsən" olduğunu demişdir.

## ٥٤٠- بَابُ يَتخَطَّى إِلَى صَاحِبِ الْمَجْلِسِ

## 540-cı fəsil. Məclisin sahibinə doğru addımlamaq[1]

١١٤٣- حَدَّثَنَا بَيَانُ بْنُ عَمْرٍو قَالَ: حَدَّثَنَا النَّضْرُ قَالَ: أَخْبَرَنَا أَبُو عَامِرٍ الْمُزَنِيُّ هُوَ صَالِحُ بْنُ رُسْتُمَ، عَنِ ابْنِ أَبِي مُلَيْكَةَ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: لَمَّا طُعِنَ عُمَرُ رَضِيَ اللَّهُ عَنْهُ كُنْتُ فِيمَنْ حَمَلَهُ حَتَّى أَدْخَلْنَاهُ الدَّارَ، فَقَالَ لِي: يَا ابْنَ أَخِي، اذْهَبْ فَانْظُرْ مَنْ أَصَابَنِي، وَمَنْ أَصَابَ مَعِي، فَذَهَبْتُ فَجِئْتُ لِأُخْبِرَهُ، فَإِذَا الْبَيْتُ مَلْآنُ، فَكَرِهْتُ أَنْ أَتَخَطَّى رِقَابَهُمْ، وَكُنْتُ حَدِيثَ السِّنِّ، فَجَلَسْتُ، وَكَانَ يَأْمُرُ إِذَا أَرْسَلَ أَحَدًا بِالْحَاجَةِ أَنْ يُخْبِرَهُ بِهَا، وَإِذَا هُوَ مُسَجًّى، وَجَاءَ كَعْبٌ فَقَالَ: وَاللَّهِ لَئِنْ دَعَا أَمِيرُ الْمُؤْمِنِينَ لَيُبْقِيَنَّهُ اللَّهُ وَلَيَرْفَعَنَّهُ لِهَذِهِ الْأُمَّةِ حَتَّى يَفْعَلَ فِيهَا كَذَا وَكَذَا، حَتَّى ذَكَرَ الْمُنَافِقِينَ فَسَمَّى وَكَنَّى، قُلْتُ: أُبَلِّغُهُ مَا تَقُولُ؟ قَالَ: مَا قُلْتُ إِلاَّ وَأَنَا أُرِيدُ أَنْ تُبَلِّغَهُ، فَتَشَجَّعْتُ فَقُمْتُ، فَتَخَطَّيْتُ رِقَابَهُمْ حَتَّى جَلَسْتُ عِنْدَ رَأْسِهِ، قُلْتُ: إِنَّكَ أَرْسَلْتَنِي بِكَذَا، وَأَصَابَ مَعَكَ كَذَا، ثَلاَثَةَ عَشَرَ، وَأَصَابَ كُلَيْبًا الْجَزَّارَ وَهُوَ يَتَوَضَّأُ عِنْدَ الْمِهْرَاسِ، وَإِنَّ كَعْبًا يَحْلِفُ بِاللَّهِ بِكَذَا، فَقَالَ: ادْعُوا كَعْبًا، فَدُعِيَ، فَقَالَ: مَا تَقُولُ؟ قَالَ: أَقُولُ كَذَا وَكَذَا، قَالَ: لاَ وَاللَّهِ لاَ أَدْعُو، وَلَكِنْ شَقِيٌّ عُمَرُ إِنْ لَمْ يَغْفِرِ اللَّهُ لَهُ.

**(1143)** ........ İbn Əbu Muleykə rəvayət edir ki, İbn Abbas ﭬ demişdir: "Ömər ﭬ xəncərlə vurularkən,[2] mən onu çiynina alıb aparan kişilərin arasında idim. Nəhayət, gətirib onu evinə qoyduqda, o mənə dedi: "Qardaş

---

[1] Əvvəlki fəsildəki hədislərdən bizə aydın oldu ki, camaatın başı üstündən addayıb keçmək qadağandır. Yəni adam məclisə gəldikdə, elə yetişdiyi yerdə də oturmalı və oturanlara əziyyət verməməlidir. Bu xüsusda, varid olmuş hədisdə Abdullah ibn Busr ﭬ demişdir: "Cümə günü Peyğəmbər ﷺ *minbərdən* xütbə verərkən, bir nəfər gəlib camaatın başı üstündən addayaraq *ön cərgəyə* keçdi. *Onda* Peyğəmbər ﷺ *ona* belə buyurdu: "Otur, sən artıq *camaata* əziyyət verdin" (Sunən Əbu Davud, 1118; Sunən ən-Nəsai 1718; Musnəd Əhməd, 4/190; Səhih İbn Xuzeymə, 1811; Səhih ət-Tərğib vət-Tərhib, 714). Qeyd edək ki, bu hökm təkcə cümə gününə və ancaq məscidə yox, hər zamana və hər məkana aiddir.

[2] Vaqidi Ömər ibn Xattabın ﭬ hicrətin 23-cü ilində zilhiccə ayının bitməsinə dörd gün qalmış çərşənbə günü vurulduğunu və hicrətin 24-cü ilində bazar ertəsi Muhərrəm ayının birinci günü səhər tezdən dəfn edildiyini nəql etmişdir (əl-Bidayə vən-Nihayə, 7/155).

oğlu, get, bax gör məni kim vurdu və mənimlə bərabər daha kimlər vuruldu."[1] Mən gedib xəbər tutdum. Sonra *bu haqda* ona xəbər vermək üçün *onun yanına* gəldim. Ev adamla dolu idi. Mən uşaq idim və adamların başı üstündən keçib getmək istəmirdim. Odur ki, *dayandığım yerdə* oturdum.[2] *Adətən,* Ömər iş dalınca adam göndərdikdə, o adama əmr edərdi ki, gəlib ona həmin iş barədə xəbər versin. Ömərin üstünə örtük salınmışdı. Elə bu vaxt Kəb[3] gəlib dedi: "Vallahi, əgər möminlərin əmiri *salamat olması üçün* dua edərsə, Allah onu yaşadar və onu bu ümmət üçün yüksəldər ki, filan və filan işləri görsün." Nəhayət Kəb münafiqlərin adlarını və kunyələrini çəkdi. Mən dedim: "Sənin dediklərini Ömərə çatdırımmı?" O dedi: "Mən bu sözləri ona görə dedim ki, sən bunları ona çatdırasan." Mən cəsarətə gəldim və tələsik ayağa qalxıb camaatın başı üstündən keçdim. Nəhayət, gəlib onun baş tərəfində oturub dedim: "Sən məni filan iş dalınca göndərmişdin. (Qatil)[4] səndən başqa, on üç nəfəri də vurdu.[5] O, qəssab Kuleybi[6] də, o, su hovuzundan dəstəmaz aldığı yerdə vurdu. Kəb isə Allaha and içərək filan sözləri söylədi." Ömər: "Kəbi *yanıma* çağırın!"– dedi və onu dərhal *onun yanına* çağırdılar. Ömər soruşdu: "Sən nə deyirsən?" Kəb dedi:

---

[1] Ömər ibn Xattabın ﷺ bu vəziyyətdə belə mömin qardaşlarını düşünməsi, onun daim öz rəiyyəti ilə maraqlandığını bir daha sübuta yetirir. Yeri gəlmişkən, qeyd edək ki, Ömər ibn Xattab ﷺ həmişə rəiyyətinin namaz qılıb-qılmaması ilə maraqlanardı. Hətta, ölüm ayağında belə bayıldıqdan sonra özünə gələn kimi: "Camaat namazı qıldımı?"– deyə soruşmuşdur (Tarix əl-Mədinə ən-Nəbəviyyə, 1533).

[2] İbn Abbas ﷺ belə bir vəziyyətdə Sünnəyə əməl edir.

[3] Kəb ibn Malik əl-Ənsari ﷺ Peyğəmbərin ﷺ səhabəsidir.

[4] İbn Quteybə Ömər ibn Xattabın ﷺ Əbu Lulu Firuz tərəfindən vurulduğunu nəql etmişdir (Əsədul-Ğabə, 3/77).

[5] Rəvayətlərin birində Əbu Lulunun Ömərdən ﷺ başqa on üç nəfəri də vurduğu və onlardan yeddisinin öldüyü xəbər verilir (Fəthul-Bari, 7/50; İrşadus-Sari, 6/111; Tarix əl-Mədinə ən-Nəbəviyyə, 3/898).

[6] Kuleyb ibn Bəkr əl-Leysi ﷺ Peyğəmbərin ﷺ səhabəsidir.

"Mən bunu və bunu deyirəm." Ömər dedi: "Yox, vallahi ki, dua etməyəcəyəm. Lakin əgər Allah Ömər i bağışlamasa, o,[1] bədbəxt olar.[2]"[3]

١١٤٤– حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: أَخْبَرَنَا عَبْدَةُ، عَنِ ابْنِ أَبِي خَالِدٍ، عَنِ الشَّعْبِيِّ قَالَ: جَاءَ رَجُلٌ إِلَى عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو، وَعِنْدَهُ الْقَوْمُ جُلُوسٌ، يَتَخَطَّى إِلَيْهِ، فَمَنَعُوهُ، فَقَالَ: اتْرُكُوا الرَّجُلَ، فَجَاءَ حَتَّى جَلَسَ إِلَيْهِ، فَقَالَ: أَخْبِرْنِي بِشَيْءٍ سَمِعْتَهُ مِنْ رَسُولِ اللَّهِ ﷺ، قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: ((الْمُسْلِمُ مِنْ سَلِمَ الْمُسْلِمُونَ مِنْ لِسَانِهِ وَيَدِهِ، وَالْمُهَاجِرُ مَنْ هَجَرَ مَا نَهَى اللَّهُ عَنْهُ)).

---

[1] Burada Ömər ibn Xattab ﷺ özünü qəsd edir.

[2] Səhabələr və onlardan sonra haqq yolu tutub getmiş möminlər nə qədər yaxşı işlər görsələr də, yenə Allahdan qorxar, əməllərinin qəbul olunacağına heç vaxt arxayın olmaz, sadəcə, buna ümid edərdilər. Uca Allah onları Quranda belə vəsf edir: **"Həqiqətən, Rəbbinin qorxusundan əsim-əsim əsənlər, Rəbbinin ayələrinə iman gətirənlər, Rəbbinə şərik qoşmayanlar, Rəbbinə qayıdacaqlar deyə yerinə yetirməli olduqlarını qəlbləri qorxa-qorxa yerinə yetirənlər – məhz onlar yaxşı işlər görməyə tələsər və bu işlərdə öndə gedərlər"** (əl-Muminun, 57-61). Buna dair rəvayət edilmiş hədisdə Aişə ﷺ demişdir: "Mən Peyğəmbərə ﷺ dedim: "Ya Rəsulullah! *Bu ayədə* "Rəbbinə qayıdacaqlar deyə, yerinə yetirməli olduqlarını qəlbləri qorxa-qorxa yerinə yetirənlər" deyildikdə, zinakar, oğru və əyyaşmı qəsd edilir?" O buyurdu: "Xeyr, ey Siddiqin qızı! Bunlar o kəslərdir ki, oruc tutur, namaz qılır, sədəqə verir, lakin əməllərinin qəbul olunmayacağından qorxurlar. Məhz onlar yaxşı işlər görməyə tələsər və bu işlərdə öndə gedərlər" (Sunən ət-Tirmizi, 2/201; Musnəd Əhməd, 6/159 və 205; Silsilətul-Əhadisis-Səhihə, 162). Bu xüsusda, Həsən əl-Bəsri demişdir: "Mömin yaxşı işlər görməyi və *Allahdan* qorxmağı, münafiq isə pis işlər görməyi və arxayın olmağı *özündə* cəm etmişdir" (Təfsir İbn Kəsir). İbn Əbu Muleykə demişdir: "Mən Peyğəmbərin ﷺ otuz səhabəsini görmüşəm. Onların hamısı münafiq olmaqdan qorxurdu" (Səhih əl-Buxari, İman Kitabı, 33-cü fəsil. Mömininin özü də hiss etmədən əməlinin puç olmağından qorxması).

[3] Bu hədisin isnadında keçən Əbu Saleh ibn Rustum Amir əl-Muzəni "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "zəif" olduğunu demişdir.

**(1144)** ........ İbn Əbu Xalid rəvayət edir ki, Şəbi demişdir: “Bir nəfər Abdullah ibn Amrın yanına gəldi. Həmin vaxt Abdullahın yanında adamlar oturmuşdu. Adam camaatın başı üstündən addayaraq ona doğru gəldikdə, camaat onun qabağını kəsdi. Abdullah dedi: “Buraxın onu gəlsin.”[1] O gəlib Abdullahın yanında oturdu və: “Mənə Rəsulullahdan ﷺ eşitdiyin hədislərdən birini danış”– dedi. Abdullah dedi: “Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: “Müsəlman o kəsdir ki,[2] onun dilindən və əlindən başqa müsəlmanlara zərər dəyməsin.[3] Mühacir o kəsdir ki, Allahın qadağan etdiyi şeyləri tərk edə.[4]”[5]

---

[1] Abdullah ibn Amr رضي الله عنه bu adamın zəruri bir iş üçün gəldiyini hiss etdiyinə görə ona mane olmamağı buyurur. Həmin adamın Peyğəmbərin ﷺ hədisini öyrənmək istəməsi, o dövrdəki insanların hədis öyrənməyə olduqca həris olduqlarından xəbər verir.

[2] Burada müsəlman deyildikdə, kamil əxlaqlı müsəlman nəzərdə tutulur. Yoxsa, əli ilə və ya dili ilə müsəlman qardaşına əziyyət verən bir müsəlman, bu əməlinə görə kafir sayıla bilməz.

[3] Peyğəmbərin ﷺ bu sözü Buxari (10) və Muslimin (162) “Səhih”lərində öz təsdiqini tapmışdır.

[4] Peyğəmbərin ﷺ bu sözü Buxarinin “Səhih”ində (10) öz təsdiqini tapmışdır. Daha əhatəli rəvayətdə Peyğəmbər ﷺ belə buyurmuşdur: “Sizə mömin barədə xəbər verimmi?! *Mömin* o kəsdir ki, insanlar onun, onların malına və canına xətər toxundurmayacağından əmindirlər. Müsəlman o kəsdir ki, onun dilindən və əlindən başqa insanlara zərər dəymir. Mücahid o kəsdir ki, Allaha itaətdə öz nəfsi ilə cihad edir. Mühacir o kəsdir ki, xətaları və günahları tərk edir” (Musnəd İmam Əhməd, 6/21; Silsilətul-Əhadisis-Səhihə, 549).

[5] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “səhih” olduğunu demişdir.

## ٥٤١- بَابُ أَكْرَمُ النَّاسِ عَلَى الرَّجُلِ جَلِيسُهُ

## 541-ci fəsil. Adam üçün ən hörmətli adam, onun oturub-durduğu adamdır

١١٤٥- حَدَّثَنَا أَبُو عَاصِمٍ قَالَ: حَدَّثَنَا السَّائِبُ بْنُ عُمَرَ قَالَ: حَدَّثَنِي عِيسَى بْنُ مُوسَى، عَنْ مُحَمَّدِ بْنِ عَبَّادِ بْنِ جَعْفَرٍ قَالَ: قَالَ ابْنُ عَبَّاسٍ: أَكْرَمُ النَّاسِ عَلَيَّ جَلِيسِي.

**(1145)** ........ Muhəmməd ibn Abbad ibn Cəfər rəvayət edir ki, İbn Abbas ﵄ demişdir: "Mənim üçün ən hörmətli adam oturub-durduğum adamdır.[1]"[2]

١١٤٦- حَدَّثَنَا أَبُو نُعَيْمٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ مُؤَمَّلٍ، عَنِ ابْنِ أَبِي مُلَيْكَةَ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: أَكْرَمُ النَّاسِ عَلَيَّ جَلِيسِي، أَنْ يَتَخَطَّى رِقَابَ النَّاسِ حَتَّى يَجْلِسَ إِلَيَّ.

**(1146)** ........ İbn Əbu Muleykə rəvayət edir ki, İbn Abbas ﵄ demişdir: "Mənim üçün ən hörmətli adam oturub-durduğum adamdır. O, mənim yanımda oturmaq üçün camaatın başı üstündən addayıb gələ bilər."[3]

---

[1] Uca Allah buyurur: **"Ey iman gətirənlər! Allahdan qorxun və düz danışanlarla birlikdə olun"** (ət-Tovbə, 119); O, həmçinin buyurur: **"Səhər və axşam çağı Rəbbinin Üzünü diləyərək Ona dua edənlərlə birlikdə özünü səbirli apar"** (əl-Kəhf, 28). Həmçinin, Peyğəmbər ﷺ demişdir: "Adam dostunun dini üzərindədir. Qoy, sizlərdən hər kəs kiminlə dostluq etdiyinə diqqət yetirsin!" (Sunən Əbu Davud, 2/293; Silsilətul-Əhadisis-Səhihə, 927). Qiyamət günü yaxşı insanlarla bir yerdə olmaq üçün isə Allah və Onun rəsuluna ﷺ itaət etmək gərəkdir: **"Allaha və *Onun* Rəsuluna itaət edənlər Allahın özlərinə nemət bəxş etdiyi peyğəmbərlərlə, sidq ürəkdən inananlarla, şəhidlərlə və əməlisalehlərlə birlikdə olacaqlar. Onlar necə də gözəl dostlardır"** (ən-Nisa, 69).

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[3] Bu hədisin isnadında keçən Abdullah ibn Muəmməl "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demiş, sonra da hədisin ilk cümləsinin "səhih" olduğunu bildirmişdir.

## ٥٤٢- بَابُ هَلْ يُقَدِّمُ الرَّجُلُ رِجْلَهُ بَيْنَ يَدَيْ جَلِيسِهِ؟

## 542-ci fəsil. Adam oturub-durduğu kimsənin qarşısında ayaqlarını uzada bilərmi?[1]

١١٤٧- حَدَّثَنَا مُحَمَّدُ بْنُ عَبْدِ الْعَزِيزِ قَالَ: حَدَّثَنَا أَسَدُ بْنُ مُوسَى قَالَ: حَدَّثَنَا مُعَاوِيَةُ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي أَبُو الزَّاهِرِيَّةِ قَالَ: حَدَّثَنِي كَثِيرُ بْنُ مُرَّةَ قَالَ: دَخَلْتُ الْمَسْجِدَ يَوْمَ الْجُمُعَةِ، فَوَجَدْتُ عَوْفَ بْنَ مَالِكٍ الأَشْجَعِيَّ جَالِسًا فِي حَلْقَةٍ مَادًّا رِجْلَيْهِ بَيْنَ يَدَيْهِ، فَلَمَّا رَآنِي قَبَضَ رِجْلَيْهِ، ثُمَّ قَالَ لِي: تَدْرِي لِأَيِّ شَيْءٍ مَدَدْتُ رِجْلَيَّ؟ لِيَجِيءَ رَجُلٌ صَالِحٌ فَيَجْلِسَ.

**(1147)** ........ Əbuz-Zahiriyya rəvayət edir ki, Kəsir ibn Murra[2] demişdir: "Mən cümə günü məscidə daxil olub Auf ibn Malik əl-Əşcəinin[3] həlqədə oturduğunu və ayaqlarını önünə doğru uzatdığını gördüm.[4] O, məni gördükdə ayaqlarını yığdı. Sonra mənə dedi: "Ayaqlarımı nə üçün uzatdığımı bilirsənmi?! *Belə etdim ki,* əməlisaleh bir adam gəlib *burada* otursun.[5]"[6]

---

[1] Müəllif bu fəslə belə ünvan qoymaqla bildirmək istəyir ki, istər məsciddə olsun, istərsə başqa bir yerdə, habelə, istər qibləyə doğru olsun, istərsə başqa istiqamətə - hər bir halda ayaqları uzadıb oturmaq caizdir. Belə şeylərin əsli halaldır və bunun haramlığına dəlalət edən bir ayə və ya hədis varid olmamışdır. Və məlumdur ki, bir şeyə haram və ya məkruh demək üçün Quran və Sünnədən dəlil olmalıdır. Dəlil olmadığı təqdirdə isə hər bir şey əslinə qayıdır, yəni halal sayılır.

[2] Əbu Şəcərə Kəsir ibn Murra əl-Hədrəmi ər-Ruhavi əş-Şami əl-Himsi əl-Ərəc. O, Ömər ibn Xattab, Muaz ibn Cəbəl, Təmim əd-Dari, Ubadə ibn Samit, Auf ibn Malik, Əbu Dərda, Əbu Hureyrə, Uqbə ibn Amir, Abdullah ibn Amr, Abdullah ibn Ömər və Nueym ibn Həmmar kimi səhabələrdən ﷺ hədislər rəvayət etmişdir. Yezid ibn Həbib demişdir: "Abdul-Aziz ibn Mərvan Kəsir ibn Murraya məktub yazmışdır. Kəsir Bədrdə iştirak etmiş səhabələrdən yetmişini görmüşdü. Leys demişdir: "Onu: "Öndə gedən mücahid" adlandırırdılar." Əbu Mushir demişdir: "Kəsir Abdul-Məlikin xilafəti dövrünə qədər yaşamışdır." (Siyər Əlam ən-Nubələ, 7/47 – 11-ci tərcümeyi-hal).

[3] Əbu Abdur-Rəhman Auf ibn Malik əl-Əşcəi əl-Ğətəfani ؓ Peyğəmbərin ﷺ məşhur səhabəsidir (141-ci hədisin qeydlərinə bax).

[4] Bu, dəlildir ki, məsciddə oturub ayaqları qibləyə tərəf uzatmaq caizdir.

[5] Bundan aydın olur ki, Auf ibn Malik ؓ Kəsir ibn Murranın ؒ xətrini çox istəyirdi.

[6] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

## ٥٤٣- بَابُ الرَّجُلِ يَكُونُ فِي الْقَوْمِ فَيَبْزُقُ

## 543-cü fəsil. Camaat arasında olan kimsənin tüpürməsi

١١٤٨- حَدَّثَنَا أَبُو مَعْمَرٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَارِثِ قَالَ: حَدَّثَنَا عُتْبَةُ بْنُ عَبْدِ الْمَلِكِ قَالَ: حَدَّثَنِي زُرَارَةُ بْنُ كَرِيمِ بْنِ الْحَارِثِ بْنِ عَمْرٍو السَّهْمِيُّ، أَنَّ الْحَارِثَ بْنَ عَمْرٍو السَّهْمِيَّ حَدَّثَهُ قَالَ: أَتَيْتُ النَّبِيَّ ﷺ وَهُوَ بِمِنًى، أَوْ بِعَرَفَاتٍ، وَقَدْ أَطَافَ بِهِ النَّاسُ، وَيَجِيءُ الأَعْرَابُ، فَإِذَا رَأَوْا وَجْهَهُ قَالُوا: هَذَا وَجْهٌ مُبَارَكٌ، قُلْتُ: يَا رَسُولَ اللَّهِ، اسْتَغْفِرْ لِي، فَقَالَ: ((اللَّهُمَّ اغْفِرْ لَنَا))، فَدُرْتُ فَقُلْتُ: اسْتَغْفِرْ لِي، قَالَ: ((اللَّهُمَّ اغْفِرْ لَنَا))، فَدُرْتُ فَقُلْتُ: اسْتَغْفِرْ لِي، فَقَالَ: ((اللَّهُمَّ اغْفِرْ لَنَا))، فَذَهَبَ يَبْزُقُ، فَقَالَ بِيَدِهِ فَأَخَذَ بِهَا بُزَاقَهُ، وَمَسَحَ بِهِ نَعْلَهُ، كَرِهَ أَنْ يُصِيبَ أَحَدًا مِنْ حَوْلِهِ.

**(1148)** ........ Haris ibn Amr əs-Səhmi ﷺ demişdir: “Peyğəmbər ﷺ Minada, yaxud[1] Ərafatda ikən mən onun yanına gəldim. Camaat onu əhatəyə almışdı. Bədəvilər onun yanına gəlir, onun üzünü gördükdə deyirdilər: “Bu, mübarək bir üzdür!”[2] Mən dedim: “Ya Rəsulullah, *Allahdan* mənim üçün bağışlanma dilə.”[3] O, dua edib dedi: “Allahım, bizi bağışla!” Mən

---

[1] Bu, hədisi nəql etmiş ravilərdən birinin şəkkidir.

[2] Burada “mübarək” deyildikdə, xeyir-bərəkət gətirən qəsd edilir. Onu görənlərin əhvalı o saat dəyişər, üzləri gülər və qəlbləri rahatlıq tapardı.

[3] Bir kimsəni Allah ilə bəndə arasında vasitə tutmaq üçün onun həyatda olması, üstəlik, vasitə tutulan adamın yanında olması, həm də onun əməlisaleh insan olması şərtdir. Deməli, nə ölünü, nə qaibi, nə də fasiqi vasitə tutmaq olar. Peyğəmbər ﷺ və onun səhabələri əsla ölülərlə təvəssül etməmişlər. Bu xüsusda, varid olmuş hədislərin hamısına nəzər salsaq görərik ki, səhabələr yalnız Peyğəmbərin ﷺ sağlığında ikən ondan dua etməyi xahiş edərdilər. Hədislərin birində rəvayət edilir ki, Peyğəmbərin ﷺ zövcəsi Ummu Sələmə ﵂ demişdir: “Bir gecə mən Məsih Dəccal barədə düşündüm və elə buna görə də gözümə yuxu getmədi. Səhər açıldıqda, mən Rəsulullahın ﷺ yanına gəlib bu haqda ona xəbər verdim. O dedi: “Bir də bu haqda düşünmə! Əgər mən həyatda ikən o zühur edərsə, Allah

hərlənib-fırlanıb yenə ona dedim: "*Ya Rəsulullah, Allahdan* mənim üçün bağışlanma dilə." O, yenə dua edib dedi: "Allahım, bizi bağışla!" Mən hərlənib-fırlanıb yenə ona dedim: "*Ya Rəsulullah, Allahdan* mənim üçün bağışlanma dilə." O, yenə dua edib dedi: "Allahım, bizi bağışla!"[1] Sonra o, bir kənara çəkilib *yerə* tüpürdü və ayaqqabısı ilə bu tüpürcəyi sildi. O istəmirdi ki, ətrafındakılardan kimsə ona bulaşsın.[2]"[1]

---

mənim vasitəmlə sizi ondan qoruyar. Yox, əgər mən vəfat etdikdən sonra zühur edərsə, onda, Allah əməlisaleh bəndələrinin vasitəsilə sizi ondan qoruyar" (İbn Xuzeymə, ət-Tovhid, səh: 32; Şeyx Albani demişdir: "Bu hədisin isnadı Muslimin şərtlərinə müvafiqdir" Qissətu Məsihid-Dəccal, səh: 60). Həmçinin, təvəssül xüsusunda, bu kitabdakı 562-ci hədisin qeydlərinə də bax. Ölüləri vasitə tutmağın caiz olması barədə bəzi rəvayətlər varid olmuşdur ki, bunların isnadı "zəif"dir. Məsələn, guya Peyğəmbər ﷺ demişdir: "Sizin əməlləriniz mənə ərz ediləcək. Əgər xeyirli olarsa, Allaha həmd edərəm, yox, şər olarsa, sizin üçün bağışlanma diləyərəm" (Silsilətul-Əhadisid-Daifə, 975).

[1] Burada səhabə Peyğəmbərdən ﷺ üç kərə təkrar-təkrar xahiş edir ki, Peyğəmbər ﷺ Allahdan onun üçün bağışlanmasını diləsin, lakin Peyğəmbər ﷺ hər dəfə ümumi olaraq müsəlmanların hamısı üçün bağışlanma diləyir. Bu da, ümumi şəkildə dua etməyin fəzilətinə dəlalət edir. Uca Allah Öz peyğəmbərinə ﷺ belə buyurur: "**Sən həm öz günahlarının, həm də mömin kişilərlə mömin qadınların bağışlanmasını dilə**" (Muhəməd, 19). Hədislərin birində rəvayət edilir ki, Abdullah ibn Amr رضي الله عنهما demişdir: "Bir nəfər: "Allahım, ancaq məni və Muhəmmədi bağışla"– deyə dua etdi. Peyğəmbər ﷺ də ona: "Sən bir çox insanları bu məğfirətdən məhrum etdin"– dedi" (Musnəd Əhməd, 2/196). Möminlərin hamısına dua edən kəs həm Sünnəyə riayət etmiş olar, həm də olduqca çox savab qazanar. Bu xüsusda, rəvayət edilmiş hədisdə Rəsulullah ﷺ belə buyurmuşdur: "Kim mömin kişilər və mömin qadınlar üçün *Allahdan* bağışlanma diləyərsə, (indiyədək gəlib-getmiş və hazırda yaşayan) hər bir möminə görə ona bir savab yazılar" (Mocəm ət-Təbərani, 10970; Səhih əl-Cami, 6026).

[2] Peyğəmbər ﷺ bu hərəkəti ilə müsəlmanlara tüpürməyin ədəblərini öyrədir. Demək, camaatın yanında tüpürmək istəyən adam bir kənara çəkilməli, camaata tərəf tüpürməməli və bir də yerə tüpürdükdən sonra ayaqqabısı ilə onu silməlidir. Digər hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Qoy, sizlərdən biri tüpürmək istədikdə, heç vaxt öz qaba-

ğına və ya sağ tərəfinə tüpürməsin, ancaq sol tərəfə və ya sol ayağının altına tüpürsün" (Səhih əl-Buxari, 410). Xüsusilə qeyd etmək lazımdır ki, başqa yerlərdən fərqli olaraq məscidə tüpürmək qəbahət sayılır. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Məscidə tüpürmək günahdır, bu günahın kəffarəsi isə onu basdırmaqdır" (Səhih əl-Buxari, 415); digər hədisdə o demişdir: "Qoy, *namaz qılan adam* tüpürmək istədikdə nə qabağına, nə də sağ tərəfinə tüpürsün, çünki *namaz vaxtı* o, öz Rəbbi ilə gizli söhbətə girir" (Səhih əl-Buxari, 532).

[1] Bu hədisi Əbu Davud (1529), Təbərani (Mocəmul-Kəbir, 3274), Beyhəqi (5/28), Daraqutni (səh: 262) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "həsən" olduğunu demişdir.

## ٥٤٤- بَابُ مَجَالِسِ الصُّعُدَاتِ

## 544-cü fəsil. Yollarda oturmaq

**١١٤٩-** حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ بِلاَلٍ، عَنِ الْعَلاَءِ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ النَّبِيَّ ﷺ نَهَى عَنِ الْمَجَالِسِ بِالصُّعُدَاتِ، فَقَالُوا: يَا رَسُولَ اللَّهِ، لَيَشُقُّ عَلَيْنَا الْجُلُوسُ فِي بُيُوتِنَا؟ قَالَ: ((فَإِنْ جَلَسْتُمْ فَأَعْطُوا الْمَجَالِسَ حَقَّهَا))، قَالُوا: وَمَا حَقُّهَا يَا رَسُولَ اللَّهِ؟ قَالَ: ((إِدْلاَلُ السَّائِلِ، وَرَدُّ السَّلاَمِ، وَغَضُّ الأَبْصَارِ، وَالأَمْرُ بِالْمَعْرُوفِ، وَالنَّهْيُ عَنِ الْمُنْكَرِ)).

**(1149)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ yollarda oturmağı qadağan etdi. *Onda, səhabələr* dedilər: "Ya Rəsulullah, evlərimizdə oturmaq bizə ağır gəlir." Peyğəmbər ﷺ buyurdu: "Əgər *yollarda* oturmanız labüddürsə, onda, onların haqqını ödəyin." *Səhabələr* soruşdular: "Onun haqqı nədir, ya Rəsulullah?" O buyurdu: "Soruşana yol göstərmək, *verilən* salamı almaq, gözü *haram buyurulanlardan* çəkmək, yaxşı şeyləri əmr etmək və pis şeylərdən çəkindirmək.[1]"[2]

**١١٥٠-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ عُبَيْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا الدَّرَاوَرْدِيُّ، عَنْ زَيْدِ بْنِ أَسْلَمَ، عَنْ عَطَاءِ بْنِ يَسَارٍ، عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ رَضِيَ اللَّهُ عَنْهُ، أَنَّ النَّبِيَّ ﷺ قَالَ: ((إِيَّاكُمْ وَالْجُلُوسَ فِي الطُّرُقَاتِ))، قَالُوا: يَا رَسُولَ اللَّهِ، مَا لَنَا بُدٌّ مِنْ مَجَالِسِنَا نَتَحَدَّثُ فِيهَا، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: ((أَمَّا إِذْ أَبَيْتُمْ،

---

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir (1014-cü hədisin qeydlərinə bax).

[2] Bunlar, sadəcə, misallardır. Belə ki, o biri hədisdə (1014) Peyğəmbər ﷺ asqırıb "Əlhəmdulilləh"– deyən kimsəyə "Yərhəmukəllah"– deməyi, habelə, heç kəsə əziyyət verməməyi də buyurmuşdur. Bu da, o deməkdir ki, yolda oturan adam oradan keçən kimsələrin haqqına girməməli, əksinə, boynuna düşən haqların hamısını yerinə yetirməlidir.

فَأَعْطُوا الطَّرِيقَ حَقَّهُ))، قَالُوا: وَمَا حَقُّ الطَّرِيقِ يَا رَسُولَ اللَّهِ؟ قَالَ: ((غَضُّ الْبَصَرِ، وَكَفُّ الأَذَى، وَالأَمْرُ بِالْمَعْرُوفِ، وَالنَّهْيُ عَنِ الْمُنْكَرِ)).

**(1150)** ........ Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Yollarda oturmaqdan çəkinin!" *Səhabələr* dedilər: "Ya Rəsulullah, bizim orada oturmağımız labüddür. Biz orada söhbət edirik." Rəsulullah ﷺ buyurdu: "Əgər *oturmağınız* labüddürsə, onda, yolun haqqını ödəyin." *Səhabələr* soruşdular: "Yolun haqqı nədir, ya Rəsulullah?" O buyurdu: "Gözü *haram buyurulanlardan* çəkmək, heç kəsə əziyyət verməmək,[1] *insanlara* yaxşı işlər görməyi buyurmaq və *onları* pis işlərdən çəkindirmək."[2]

---

[1] Burada "heç kəsə əziyyət verməmək" deyildikdə, hər bir əziyyət – istər sözlə, istərsə də əməllə əziyyət verməyə aid edilir.

[2] Bu hədisi Buxari (2465) və Muslim (2121) rəvayət etmişdir.

## ٥٤٥- بَابُ مَنْ أَدْلَى رِجْلَيْهِ إِلَى الْبِئْرِ إِذَا جَلَسَ وَكَشَفَ عَنِ السَّاقَيْنِ

## 545-ci fəsil. (Quyunun başında) oturub ayaqlarını quyuya sallayan və qıçlarının üstünü açan kimsə

١١٥١- حَدَّثَنَا سَعِيدُ بْنُ أَبِي مَرْيَمَ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ جَعْفَرٍ، عَنْ شَرِيكِ بْنِ عَبْدِ اللَّهِ، عَنْ سَعِيدِ بْنِ الْمُسَيِّبِ، عَنْ أَبِي مُوسَى الأَشْعَرِيِّ قَالَ: خَرَجَ النَّبِيُّ ﷺ يَوْمًا إِلَى حَائِطٍ مِنْ حَوَائِطِ الْمَدِينَةِ لِحَاجَتِهِ، وَخَرَجْتُ فِي أَثَرِهِ، فَلَمَّا دَخَلَ الْحَائِطَ جَلَسْتُ عَلَى بَابِهِ، وَقُلْتُ: لَأَكُونَنَّ الْيَوْمَ بَوَّابَ النَّبِيِّ ﷺ، وَلَمْ يَأْمُرْنِي، فَذَهَبَ النَّبِيُّ ﷺ فَقَضَى حَاجَتَهُ وَجَلَسَ عَلَى قُفِّ الْبِئْرِ، وَكَشَفَ عَنْ سَاقَيْهِ، وَدَلاَّهُمَا فِي الْبِئْرِ، فَجَاءَ أَبُو بَكْرٍ رَضِيَ اللَّهُ عَنْهُ لِيَسْتَأْذِنَ عَلَيْهِ لِيَدْخُلَ، فَقُلْتُ: كَمَا أَنْتَ حَتَّى أَسْتَأْذِنَ لَكَ، فَوَقَفَ، وَجِئْتُ النَّبِيَّ ﷺ فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ، أَبُو بَكْرٍ يَسْتَأْذِنُ عَلَيْكَ؟ فَقَالَ: ((ائْذَنْ لَهُ، وَبَشِّرْهُ بِالْجَنَّةِ))، فَدَخَلَ فَجَاءَ عَنْ يَمِينِ النَّبِيِّ ﷺ، فَكَشَفَ عَنْ سَاقَيْهِ وَدَلاَّهُمَا فِي الْبِئْرِ. فَجَاءَ عُمَرُ، فَقُلْتُ: كَمَا أَنْتَ حَتَّى أَسْتَأْذِنَ لَكَ، فَقَالَ النَّبِيُّ ﷺ: ((ائْذَنْ لَهُ، وَبَشِّرْهُ بِالْجَنَّةِ))، فَجَاءَ عُمَرُ عَنْ يَسَارِ النَّبِيِّ ﷺ فَكَشَفَ عَنْ سَاقَيْهِ وَدَلاَّهُمَا فِي الْبِئْرِ فَامْتَلأَ الْقُفُّ، فَلَمْ يَكُنْ فِيهِ مَجْلِسٌ. ثُمَّ جَاءَ عُثْمَانُ، فَقُلْتُ: كَمَا أَنْتَ حَتَّى أَسْتَأْذِنَ لَكَ، فَقَالَ النَّبِيُّ ﷺ: ((ائْذَنْ لَهُ، وَبَشِّرْهُ بِالْجَنَّةِ مَعَهَا بَلاَءٌ يُصِيبُهُ))، فَدَخَلَ فَلَمْ يَجِدْ مَعَهُمْ مَجْلِسًا، فَتَحَوَّلَ حَتَّى جَاءَ مُقَابِلَهُمْ عَلَى شَفَةِ الْبِئْرِ، فَكَشَفَ عَنْ سَاقَيْهِ ثُمَّ دَلاَّهُمَا فِي الْبِئْرِ، فَجَعَلْتُ أَتَمَنَّى أَنْ يَأْتِيَ أَخٌ لِي، وَأَدْعُو اللَّهَ أَنْ يَأْتِيَ بِهِ، فَلَمْ يَأْتِ حَتَّى قَامُوا.

قَالَ ابْنُ الْمُسَيِّبِ: فَأَوَّلْتُ ذَلِكَ قُبُورَهُمْ، اجْتَمَعَتْ هَا هُنَا، وَانْفَرَدَ عُثْمَانُ.

**(1151)** ........ Səid ibn Museyyib rəvayət edir ki, Əbu Musa əl-Əşari ﵁ demişdir: "Peyğəmbər ﷺ subaşına çıxmaq üçün Mədinədəki bostanlardan birinə getdi. Mən də onun arxasınca getdim. O, bostana girdikdə mən onun qapısının ağzında oturub öz-özümə dedim: "Bu gün mən Peyğəmbərin ﷺ qa-

pıda dayanan gözətçisi olacağam. Halbuki, o, bunu mənə əmr etməmişdi."[1] Peyğəmbər ﷺ subaşına çıxdıqdan *sonra gəlib* quyunun başında oturdu. O, ayaqlarının üstünü açıb onları quyuya salladı. Bu vaxt Əbu Bəkr gəlib Peyğəmbərin ﷺ yanına, *bostana* girmək üçün izin istədi. Mən ona: "Sənin üçün izin istəyənədək yerində dur"– dedim. O, *yerində* durdu. Mən Peyğəmbərin ﷺ yanına gəlib dedim: "Ya Rəsulullah, Əbu Bəkr sənin yanına gəlmək üçün izin istəyir." Peyğəmbər ﷺ buyurdu: "İzin ver gəlsin və onu Cənnətlə müjdələ!" Əbu Bəkr içəri girib Peyğəmbərin ﷺ sağ tərəfində əyləşdi və ayaqlarının üstünü açıb onları quyuya salladı. Sonra Ömər gəldi. Mən ona da: "Sənin üçün izin istəyənədək yerində dur"– dedim. Peyğəmbər ﷺ buyurdu: "İzin ver gəlsin və onu Cənnətlə müjdələ!" Ömər içəri girib Peyğəmbərin ﷺ sol tərəfində əyləşdi və ayaqlarının üstünü açıb onları quyuya salladı. Quyunun başında oturmağa artıq yer qalmamışdı. Sonra Osman gəldi. Mən ona da: "Sənin üçün izin istəyənədək yerində dur"– dedim. Peyğəmbər ﷺ buyurdu: "İzin ver gəlsin, onu Cənnətlə müjdələ və başına

---

[1] Şeyx Albani demişdir: "Bu rəvayət müəllifin öz "Səhih"ində nəql etdiyi 3695 saylı hədisin mətninə ziddir. Çünki həmin hədisdə xəbər verilir ki, Əbu Musa əl-Əşari ؓ: "Peyğəmbər ﷺ mənə bağın qapısında gözətçi durmağı əmr etdi"– demişdir. O rəvayət isə bu fəsildəki rəvayətdən daha "səhih"dir. Çünki hədis alimləri həmin hədisin ravilərindən olmuş Şərik ibn Abdullah ibn Əbu Nəmrin *bəzi rəvayətlərdə,* o cümlədən də, "Merac" hədisində xətalara yol verdiyini söyləmişlər. Elə bu səbəbdən də, hafiz İbn Həcər "Təqrib ət-Təhzib" əsərində onun: "Xətalara yol vermiş səduq" ravi olduğunu demişdir. Buna baxmayaraq o, "Fəthul-Bari" əsərində (7/36-37) bu ziddiyyətli rəvayətlə həmin "səhih" rəvayəti cəm etməyə səy göstərmişdir. Mən isə belə düşünmürəm. Əksinə, Şərik ibn Abdullahın bu rəvayəti onun yol verdiyi xətalara aid edilməlidir. Və çox güman ki, Muslim öz "Səhih"indəki (7/118) rəvayətdə bilərəkdən hədisin bu yerini zikr etməmişdir. Ya da ola bilsin ki, o bu hədisi elə rəvayət etdiyi kimi eşitmişdir. İstər, bu olsun, istərsə, o – *hər iki halda* həmin rəvayət bu fəsildəki rəvayətdə keçən "Halbuki, o, mənə bunu əmr etməmişdi" sözünün xəta olduğunu bildirir. Daha doğrusunu Allah bilir" (Səhih əl-Ədəbul-Mufrad, səh: 444).

gələcək bir müsibət[2] barədə ona xəbər ver."[3] Osman içəri daxil oldu *və onların yanında oturmaq istədi,* lakin onlarla bərabər oturmağa yer tapmadı. Onda, Osman hərlənib onlarla üzbəüz, quyunun kənarında oturdu. Ayaqlarının üstünü açdı, sonra da onları quyuya salladı.[4] Bu əsnada mən qardaşımın *da bura* gəlməsini təmənna etdim[5] və Allaha yalvardım ki, onu *bura* gətirsin, lakin o, gəlib çıxmadı. Nəhayət, onlar qalxıb getdilər."

Səid ibn Museyyib demişdir: "Mən bu oturuşu onların qəbirlərinin yerləşməsinə yozdum. *Quyunun başındakı kimi, məzarda da* üçü bir yerdə yanbayan dəfn edilmişdir.[6] Osman isə ayrı yerdə[7] dəfn olunmuşdur."[8]

---

[2] Burada Peyğəmbər ﷺ onun şəhid ediləcəyini qəsd edirmiş. Bu xüsusda, varid olmuş hədisdə Ənəs ؓ demişdir: "*Bir gün* Peyğəmbər ﷺ, Əbu Bəkr, Ömər və Osman Uhud dağına qalxdılar və dağ silkələndi. Onda Peyğəmbər ﷺ buyurdu: "Sakit dur, ey Uhud! Həqiqətən, sənin üstündə bir peyğəmbər, bir siddiq və iki şəhid var" (Səhih əl-Buxari, 3675).

[3] Hədisin bu hissəsinə qədər olan mətnini artıq şərh etmişik (965-ci hədisə bax).

[4] Hədisə diqqət yetirsək görərik ki, səhabələrin üçü də, Peyğəmbər ﷺ kimi, ayaqlarının üstünü açıb onları quyuya sallamışlar. Bundan da belə nəticə çıxır ki, adamın hörmət etdiyi birisinin yanında onun kimi oturması bəyənilən əməllərdəndir.

[5] Əbu Musa əl-Əşari ؓ burada doğma qardaşları Əbu Burdə Amir ibn Qeysi ؓ ya da Əbu Ruhm Məcdi ibn Qeysi ؓ nəzərdə tutur (Şərh Kitabul-Fitən, 1/125). İmam Buxarinin (3398) və Muslimin (7/118) nəql etdiyi rəvayətlərdə xəbər verilir ki, Əbu Musa ؓ demişdir: "Qardaşım dəstəmaz almağa getmişdi. Mən öz-özümə dedim: "Allah qardaşıma xeyir nəsib etmək istəyirsə, o da, gəlib onların yanında oturacaq."

[6] Burada Səid ibn Museyyib "yanbayan" deyəndə, onların xüsusi şəkildə, quyunun başında oturduqları vəziyyətdə – biri Peyğəmbərin ﷺ sağında, digəri də onun solunda olduğu kimi yox, ümumi olaraq, bir-birinin yanında olmasını qəsd edir. Bundan aydın olur ki, bir şeyin başqa bir şeyə oxşadığını misal çəkdikdə, onları eyni səviyyədə bənzətmək vacib deyil (İrşadus-Sari li-Şərh Səhih əl-Buxari, 10/192).

[7] Osman ibn Affan ؓ Bəqi qəbiristanlığında dəfn edilmişdir (İrşadus-Sari li-Şərh Səhih əl-Buxari, 10/192).

[8] Bu hədisi Buxari (7097) və Muslim (7/118) rəvayət etmişdir.

**١١٥٢–** حَدَّثَنَا عَلِيٌّ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ عُبَيْدِ اللهِ بْنِ أَبِي يَزِيدَ، عَنْ نَافِعِ بْنِ جُبَيْرِ ابْنِ مُطْعِمٍ، عَنْ أَبِي هُرَيْرَةَ، خَرَجَ النَّبِيُّ ﷺ فِي طَائِفَةِ النَّهَارِ لاَ يُكَلِّمُنِي وَلاَ أُكَلِّمُهُ، حَتَّى أَتَى سُوقَ بَنِي قَيْنُقَاعٍ، فَجَلَسَ بِفِنَاءِ بَيْتِ فَاطِمَةَ، فَقَالَ: ((أَثَمَّ لُكَعٌ؟ أَثَمَّ لُكَعٌ؟)) فَحَبَسَتْهُ شَيْئًا، فَظَنَنْتُ أَنَّهَا تُلْبِسُهُ سِخَابًا أَوْ تُغَسِّلُهُ، فَجَاءَ يَشْتَدُّ حَتَّى عَانَقَهُ وَقَبَّلَهُ، وَقَالَ: ((اللَّهُمَّ أَحْبِبْهُ، وَأَحْبِبْ مَنْ يُحِبُّهُ)).

**(1152)** ........ Nafi ibn Cubeyr ibn Mutim rəvayət edir ki,[9] Əbu Hureyrə ﷺ demişdir: "*Bir dəfə* mən Peyğəmbərlə ﷺ birgə gündüzün bir vaxtında yola çıxdıq. *Yol boyu* nə o mənimlə, nə də mən onunla kəlmə kəsdim. Nəhayət, biz Qaynuqa qəbiləsinin[10] bazarına gəlib çatdıq. Peyğəmbər ﷺ Fatimənin evinin astanasında oturub: "Balaca[11] oradadırmı? Balaca oradadırmı?"– deyə çağırdı. Anası uşağı bir qədər saxladı. Mən elə güman etdim ki, *anası* uşağa onun önlüyünü geyindirir, yaxud uşağı yuyur. *Çox keçmədən* uşaq qaça-qaça *babasının yanına* gəldi. Peyğəmbər ﷺ onu qucaqlayıb öpdü. *Sonra dua edib* dedi: "Allahım, onu sev və onu sevən kimsəni də sev![12]"

---

[9] Bu hədisi Buxari (5884) və Muslim (7/130) rəvayət etmişdir.

[10] Bənu Qaynuqa: Mədinədə yaşayan yəhudi qəbilələrindən biridir.

[11] 1183-cü hədisdə, habelə, Muslimin "Səhih"indəki (7/130) rəvayətdə bunun Həsən ﷺ olduğu xəbər verilir.

[12] Müəllifin nəql etdiyi bu hədisin fəsilin ünvanına heç bir aidiyyəti yoxdur. Yəni bu hədisdə quyunun başında oturub ayaqları quyuya sallamaq və qıçların üstünü açmaq barədə heç bir şey zikr edilməmişdir. Bu fəsildəki hər iki hədisə diqqətlə nəzər salsaq görərik ki, İmam Buxari Əbu Bəkrin, Ömərin və Osmanın fəzilətinə dair nəql etdiyi hədisdən sonra əhli-beytin fəzilətinə dair bu hədisi rəvayət etmişdir. Bu da, sələflərin əhli-beyti olduqca çox sevdiklərini bir daha sübuta yetirir. Sələflərin hamısının əhli-beyti sevmək mövzusunda mənhəci məhz belə olmuşdur. Sələflər Peyğəmbəri ﷺ hamıdan, hətta, özlərindən də çox sevərdilər. Peyğəmbərə ﷺ olan sevginin həqiqi olduğunu sübuta yetirmək üçün isə Peyğəmbərin ﷺ sevdiklərini, ələlxüsus da, əhli-beytini sevmək gərəkdir. Lakin bu sevgi ifrat dərəcədə olmamalıdır (86-cı hədisin qeydlərinə bax). Digər bir hədisdə rəvayət

edilir ki, Usamə ibn Zeyd demişdir: "Bir dəfə gecə mən bir işdən ötrü Peyğəmbərin ﷺ yanına gəldim. O, evdən bayıra çıxdıqda əbasının altında nəsə var idi, lakin mən bunun nə olduğunu ayırd edə bilmədim. Mən işimi həll etdikdən sonra dedim: "*Ya Rəsulullah*, əbanın altında saxladığın nədir?" O, əbasını qaldırdıqda mən Həsən və Hüseynin onun dizləri üstündə oturduğunu gördüm. Onda, Peyğəmbər ﷺ dedi: "Bunlar mənim nəvələrim, qızımın övladlarıdır! Allahım, mən onları sevirəm, Sən də həm onları, həm də onları sevən kəsləri sev!" (Sunən ət-Tirmizi, 4138; Səhih əl-Cami, 7003); digər bir hədisdə rəvayət edilir ki, Əbu Hureyrə ﵁ demişdir: "*Bir dəfə* Peyğəmbər ﷺ Həsən və Hüseyni götürüb bizim yanımıza gəldi. Uşaqlardan biri onun *sağ* çiynində, o biri isə *sol* çiynində oturmuşdu. Peyğəmbər ﷺ *növbə ilə* gah bunu, gah da onu öpürdü. Nəhayət, gəlib bizim yanımıza çatdıqda bir nəfər dedi: "Ya Rəsulullah, sən, həqiqətən də, onları çox istəyirsən!" Onda, Peyğəmbər ﷺ dedi: "Kim onları sevərsə, məni sevmiş olar, kim də onlara nifrət edərsə, mənə nifrət etmiş olar" Bu hədislərdən aydın görünür ki, Peyğəmbərin ﷺ əhli-beytini sevmək Allahın sevgisini qazanmağa səbəb olan amillərdəndir. Peyğəmbər ﷺ bu ümmətə əhli-beytinin qeydinə qalmağı tövsiyə etmişdir. Zeyd ibn Ərqəm rəvayət edir ki, Peyğəmbər ﷺ bu ümmətə belə buyurmuşdur: "Ey insanlar, mən sizə iki şey qoyub gedirəm: birincisi, Allahın Kitabıdır. Onun içində hidayət və nur vardır. Elə isə, Allahın Kitabını götürün və ondan möhkəm yapışın! *İkincisi isə* mənim əhli-beytimdir. Allah xatirinə, əhli-beytimin qeydinə qalın! Allah xatirinə, əhli-beytimin qeydinə qalın! Allah xatirinə, əhli-beytimin qeydinə qalın!" (Muslim, 7/122-123; Musnəd Əhməd, 4/366-367; Musənnəf ibn Əbu Şeybə, 514; Muşkilul-Asar, Təhavi, 4/368; Sunnə İbn Əbu Asum, 1550 və 1551). Muhəmməd ibn Saleh ibn Muhəmməd əl-Useymin bu hədisi izah edərkən demişdir: "Peyğəmbərin ﷺ əhli-beyti bunlardır: onun zövcələri, habelə, Əli ibn Əbu Talibin ﵁, Əqilin ﵁, Cəfərin ﵁ və Abbasın ﵁ ailəsindən mömin olanlar – o kəslər ki, sədəqə yemək onlara haram buyurulmuşdur" (Şərh Riyadus-Salihin, 346-cı hədisin şərhi). İbn Ömər ﵄ rəvayət edir ki, Əbu Bəkr ﵁ demişdir: "Muhəmməd səllallahu aleyhi və səlləmin əhli-beytinin qeydinə qalın!" (Səhih əl-Buxari, 3713).

## ٥٤٦- بَابُ إِذَا قَامَ لَهُ رَجُلٌ مِنْ مَجْلِسِهِ لَمْ يَقْعُدْ فِيهِ

## 546-cı fəsil. Adam bir kimsə üçün yerindən qalxdığı zaman, o kimsə onun yerində oturmamalıdır

١١٥٣- حَدَّثَنَا قَبِيصَةُ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ عُبَيْدِ اللَّهِ، عَنْ نَافِعٍ، عَنِ ابْنِ عُمَرَ قَالَ: نَهَى النَّبِيُّ ﷺ أَنْ يُقِيمَ الرَّجُلَ مِنَ الْمَجْلِسِ ثُمَّ يَجْلِسَ فِيهِ.

وَكَانَ ابْنُ عُمَرَ إِذَا قَامَ لَهُ رَجُلٌ مِنْ مَجْلِسِهِ لَمْ يَجْلِسْ فِيهِ.

**(1153)** ........ Nafi rəvayət edir ki, İbn Ömər ﵄ demişdir: "Peyğəmbər ﷺ bir kimsəni yerindən qaldırıb onun yerində oturmağı qadağan etmişdir."[13]

*Nafi dedi:* "Bir adam oturduğu yerdən qalxıb İbn Ömərə yer verdikdə, o, heç vaxt onun yerində oturmazdı."[14]

---

[13] 1140-cı hədisin qeydlərinə bax.

[14] Bu hədisi müəllif öz "Səhih"ində də (6270) rəvayət etmişdir.

## ٥٤٧- بَابُ الأَمَانَةِ

## 547-ci fəsil. Əmanət[15]

**١١٥٤-** حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ، عَنْ ثَابِتٍ، عَنْ أَنَسٍ: خَدَمْتُ رَسُولَ اللَّهِ ﷺ يَوْمًا، حَتَّى إِذَا رَأَيْتُ أَنِّي قَدْ فَرَغْتُ مِنْ خِدْمَتِهِ قُلْتُ: يَقِيلُ النَّبِيُّ ﷺ، فَخَرَجْتُ مِنْ عِنْدِهِ، فَإِذَا غِلْمَةٌ يَلْعَبُونَ، فَقُمْتُ أَنْظُرُ إِلَيْهِمْ إِلَى لَعِبِهِمْ، فَجَاءَ النَّبِيُّ ﷺ فَانْتَهَى إِلَيْهِمْ فَسَلَّمَ عَلَيْهِمْ، ثُمَّ دَعَانِي فَبَعَثَنِي إِلَى حَاجَةٍ، فَكَانَ فِي فَيْءٍ حَتَّى أَتَيْتُهُ. وَأَبْطَأْتُ عَلَى أُمِّي، فَقَالَتْ: مَا حَبَسَكَ؟ قُلْتُ: بَعَثَنِي النَّبِيُّ ﷺ إِلَى حَاجَةٍ، قَالَتْ: مَا هِيَ؟ قُلْتُ: إِنَّهُ سِرٌّ لِلنَّبِيِّ ﷺ، فَقَالَتِ: احْفَظْ عَلَى رَسُولِ اللَّهِ ﷺ سِرَّهُ، فَمَا حَدَّثْتُ بِتِلْكَ الْحَاجَةِ أَحَدًا مِنَ الْخَلْقِ، فَلَوْ كُنْتُ مُحَدِّثًا حَدَّثْتُكَ بِهَا.

**(1154)** ........ Sabit rəvayət edir ki, Ənəs ﷺ demişdir: "Bir gün mən *günortayadək* Rəsulullaha ﷺ xidmət etdim. Nəhayət, onun mənə daha iş buyurmayacağını düşündüm və öz-özümə: "Peyğəmbər ﷺ dincəlir[16]"– deyib, onun

---

[15] Əmanət: birinə inanıb bir şeyi müvəqqəti olaraq tapşırma, vermə. Əmanət saxlamaq, başqasının malını, pulunu, sirrini və s. olduğu kimi qoruyub saxlamaq. Burada "əmanət" deyildikdə, haqları ödəmək – hər bir haqqı olan kimsənin haqqını ödəmək nəzərdə tutulur. Bu əmanət özündə həm Allahın insanlar üzərində olan haqlarını, həm də insanların bir-biri üzərində olan haqlarını yerinə yetirməyi ehtiva edir. Bir zaman Salman əl-Farisi ﷺ öz səhabə qardaşı Əbu Dərdaya ﷺ "Rəbbinin sənin üzərində haqqı vardır, nəfsinin sənin üzərində haqqı vardır, ailənin sənin üzərində haqqı vardır. Elə isə, hər bir haqq sahibinə haqqını ver"– demiş, sonra da Peyğəmbər ﷺ onun sözünü təsdiqləyib: "Salman doğru söylədi!"– deyə buyurmuşdur (Səhih əl-Buxari, 1968). Müəllifin bu fəsildə əmanətə aid nəql etdiyi hədisdə söhbət sirr saxlamaqdan, onu ifşa etməməkdən gedir.

[16] Ərəbcə buna ( قَيْلُولَةٌ ) və ya ( قَائِلَةٌ ) deyilir. Yəni günortaüstü yatmaq və ya həmin vaxt uzanıb istirahət etmək. Burada Ənəs ibn Malik ﷺ düşünür ki, artıq Peyğəmbərin ﷺ ona ehtiyacı yoxdur, ona görə çıxıb gedir.

yanından çıxdım. Baxdım ki, uşaqlar oynayırlar. Odur ki, dayanıb onların oynamaqlarına baxmağa başladım. *Elə bu vaxt* Peyğəmbər ﷺ uşaqların yanına gəlib onlara salam verdi. Sonra məni çağırıb iş dalınca göndərdi. Mən onun yanına qayıdanadək o, kölgəlikdə[17] oturub gözlədi. Mən anamın yanına gec gəldim. O: "Niyə yubandın?"– deyə soruşdu. Mən: "Peyğəmbər ﷺ məni bir iş dalınca göndərmişdi"– deyə cavab verdim. *Anam*: "Nədir o iş?"– deyə soruşdu. Mən: "Bu, Peyğəmbərin ﷺ sirdir"– dedim. *Anam da mənə*: "Rəsulullahın ﷺ sirrini qoru!"– dedi.[18] Mən bu sirri yaradılanlardan heç kəsə deməmişəm. *Ey Sabit,*[19] əgər mən onu demiş olsaydım, sənə deyərdim.[20]"[21]

---

[17] Digər rəvayətdə "divarın kölgəsində" deyilir (Sunən Əbu Davud, 5203; Musnəd Əhməd, 3/235; Şeyx Muhəmməd Nasirəddin əl-Albani İmam Əhmədin "Musnəd"indəki bu əlavənin "zəif" olduğunu, isnadında Muəmməl ibn İsmail adlı "zəif" ravinin olduğunu bildirmişdir. Şueyb əl-Arnaut isə digər isnadla (bu əlavə ilə) rəvayət edilmiş bu hədisin Buxari və Muslimin şərtinə uyğun "səhih" hədis olduğunu demişdir. Həmin rəvayəti İmam Əhməd Muhəmməd ibn Abdullah əl-Ənsaridən, o da, Humeyd ət-Təvildən, o da Ənəs ibn Malikdən رضي الله عنه rəvayət etmişdir).

[18] 1139-cu hədisin qeydlərinə bax.

[19] Bu əlavə İmam Əhmədin "Musnəd" əsərində (3/195) öz təsdiqini tapmışdır.

[20] Ənəs ibn Malikin رضي الله عنه bu sözündən aydın olur ki, o, Sabit əl-Bunanini رحمه الله olduqca çox istəyirmiş. Ənəs رضي الله عنه onu tərif edib demişdir: "*Bəzi* insanlar ancaq xeyirxah işlər görməklə məşğuldurlar. Bu Sabit də xeyir qapılarının açarıdır" (458-ci hədisin qeydlərinə bax).

[21] Bu hədisi Əhməd (3/195) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "səhih" olduğunu demişdir.

## ٥٤٨- بَابُ إِذَا الْتَفَتَ الْتَفَتَ جَمِيعًا

## **548-ci fəsil.** (Peyğəmbər ﷺ birinə tərəf) **döndüyü zaman, tam** (vücudu) **ilə dönərdi**

**١١٥٥-** حَدَّثَنَا إِسْحَاقُ بْنُ الْعَلَاءِ قَالَ: حَدَّثَنِي عَمْرُو بْنُ الْحَارِثِ قَالَ: حَدَّثَنِي عَبْدُ اللَّهِ بْنُ سَالِمٍ، عَنِ الزُّبَيْدِيِّ قَالَ: أَخْبَرَنِي مُحَمَّدُ بْنُ مُسْلِمٍ، عَنْ سَعِيدِ بْنِ الْمُسَيِّبِ أَنَّهُ سَمِعَ أَبَا هُرَيْرَةَ يَصِفُ رَسُولَ اللَّهِ ﷺ: كَانَ رَبْعَةً، وَهُوَ إِلَى الطُّوَلِ أَقْرَبُ، شَدِيدُ الْبَيَاضِ، أَسْوَدُ شَعْرِ اللِّحْيَةِ، حَسَنُ الثَّغْرِ، أَهْدَبُ أَشْفَارِ الْعَيْنَيْنِ، بَعِيدُ مَا بَيْنَ الْمَنْكِبَيْنِ، مُفَاضُ الْخَدَّيْنِ، يَطَأُ بِقَدَمِهِ جَمِيعًا، لَيْسَ لَهَا أَخْمُصُ، يُقْبِلُ جَمِيعًا، وَيُدْبِرُ جَمِيعًا، لَمْ أَرَ مِثْلَهُ قَبْلُ وَلَا بَعْدُ.

**(1155)** ........ Əbu Hureyrə ﷺ Rəsulullahı ﷺ vəsf edib demişdir: "Rəsulullah ﷺ ortaboylu, boyu bir qədər hündür, həm də çox ağbəniz idi,[22] saqqalının tükləri qara,[23] qabaq dişləri gözəl idi,[24] gözlərinin kirpikləri sıx və uzun

[22] Digər rəvayətdə Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbər ﷺ nə dümağ dərili, nə də qarayanız idi..." başqa bir rəvayətdə Əbu Hureyrə ﷺ demişdir: "Rəsulullah ﷺ ağbəniz idi, sanki, *dərisinə* gümüş örtük çəkilmişdi" (Şəmailun-Nəbi, 12; Silsilətul-Əhadisis-Səhihə, 2053-cü hədis). Burada Əbu Hureyrə ﷺ "ağlığı" deyəndə, Peyğəmbərin ﷺ dərisinin dümağ olduğunu qəsd etmir, sadəcə, bu ağlığın gümüş tək parıldadığını nəzərdə tutur. Beyhəqinin "Dəlailun-Nubuvvə" əsərində (1/161) rəvayət edilir ki, Əli ibn Əbu Talib ﷺ demişdir: "Peyğəmbərin ﷺ dərisinin ağlığı qırmızıya çalırdı." Bu hədisi Albani "həsən" hesab etmişdir (Səhih əl-Cami, 4620). Buxarinin "Səhih"ində də (3547) həmçinin, Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbərin ﷺ dərisi qırmızıya çalırdı."

[23] Digər rəvayətdə Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbərin ﷺ saç-saqqalında heç iyirmi ədəd ağ tük yox idi" (Səhih əl-Buxari 3547; Səhih Muslim, 2347); digər rəvayətdə Abdullah ibn Busr ﷺ demişdir: "Peyğəmbərin ﷺ alt dodaq şırımında bir neçə ağ tük var idi" (Səhih əl-Buxari, 3546).

[24] Bəzi şərhçilər bu hədisdə ərəbcə keçən ( ثَغْرٌ ) kəlməsini xoşsifət kimi izah etmişlər. Bu xüsusda, varid olmuş hədisdə Bəra ibn Azib ﷺ demişdir: "Peyğəmbərin ﷺ üzü *ondörd-*

idi, özü də enlikürək və doluyanaqlı idi,[1] ayaqlarını yerə tam basardı,[2] ayağının altında çökəklik yox idi,[3] yönəldikdə, tam yönələr, üz çevirdikdə, də, tam çevrilərdi.[4] Mən nə əvvəl, nə də sonra onun kimisini görmədim."[5]
görmədim."[5]

---

*gecəlik* ay kimi *gözəl* idi" (Səhih Buxari, 3552; Sunən Tirmizi, 3640; Musnəd Əhməd, 4/281); digər hədisdə Əbu Hureyrə ؓ demişdir: "Mən Rəsulullahdan ﷺ daha yaraşıqlı insan görməmişəm. Günəş sanki onun üzündən nur saçırdı" (Sunən Tirmizi, 3650, Musnəd Əhməd, 2/350; Şueyb Arnaut bu hədisin "həsən" olduğunu demişdir). Həmçinin, 255-ci hədisin və onun qeydlərinə bax.

[1] Yəni üzündə bir qədər girdəlik var idi. Quran katiblərindən olmuş Yezid əl-Farisi demişdir: "İbn Abbasın dövründə mən yuxuda Peyğəmbəri ﷺ gördüm. Sonra *gedib* İbn Abbasa: "Mən yuxuda Rəsulullahı ﷺ gördüm"– dedim. İbn Abbas dedi: "Rəsulullah ﷺ: "Şeytan mənim simama girə bilmir. Odur ki, kim məni yuxuda görsə, doğrudan da, məni görmüş olar"– demişdir. Sən yuxuda gördüyün o adamı mənə vəsf edə bilərsənmi?" Yezid dedi: "Bəli, mən *gördüyüm* bu ortaboylu adamı sənə vəsf edərəm: onun bədəninin və dərisinin rəngi əsmər idi, həm də ağa çalırdı. Sürməli gözləri və ürəkaçan gülüşü var idi. Sifəti girdə idi. Bu qulağından o qulağınadək *üzünü* çulğayan və sinəsinə düşən saqqalı var idi." İbn Abbas dedi: "Əgər sən ayıq ikən onu görsəydin, onu bundan artıq vəsf edə bilməzdin" (Musnəd Əhməd, 1/361-362; Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir).

[2] Digər rəvayətdə Ənəs ibn Malik ؓ demişdir: "Yeridikdə də ləngərlənirdi" (Sunən ət-Tirmizi, 1858). Burada "ləngərlənmək" deyildikdə, irəliyə meyil edərək, həm də ayaqları zərblə yerə vuraraq yerimək nəzərdə tutulur. Peyğəmbərin ﷺ bu yerişini vəsf etmiş Əli ibn Əbu Talib ؓ demişdir: "Peyğəmbər ﷺ yeridikdə sanki hündür bir yerdən enirmiş kimi ləngərlənirdi" (Musnəd Əhməd 1/89; Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir).

[3] Yəni dümdüz idi.

[4] Peyğəmbər ﷺ hər bir işdə olduğu kimi, bu xüsusda, da, həmçinin yüksək əxlaq nümayiş etdirərdi.

[5] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən li-ğeyrihi" olduğunu demişdir.

## ٥٤٩– بَابُ إِذَا أَرْسَلَ رَجُلًا فِي حَاجَةٍ فَلا يُخْبِرُهُ

## 549-cu fəsil. (Adam) birisini bir iş dalınca göndərdiyi zaman ona xəbər verməməlidir[1]

**١١٥٦–** حَدَّثَنَا مُحَمَّدٌ، قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ بْنُ زَيْدِ بْنِ أَسْلَمَ، عَنْ أَبِيهِ، عَنْ جَدِّهِ قَالَ: قَالَ لِي عُمَرُ: إِذَا أَرْسَلْتُكَ إِلَى رَجُلٍ، فَلاَ تُخْبِرْهُ بِمَا أَرْسَلْتُكَ إِلَيْهِ، فَإِنَّ الشَّيْطَانَ يُعِدُّ لَهُ كِذْبَةً عِنْدَ ذَلِكَ.

**(1156)** ........ Abdullah ibn Zeyd ibn Əsləm öz atasından rəvayət etmişdir ki, babası Əsləm demişdir: "Ömər mənə belə nəsihət etmişdir: "Səni bir adamın yanına göndərdiyim zaman, səni nədən ötrü onun yanına göndərdiyimi ona bildirmə. Çünki şeytan bu vaxt ona yalan hazırlayır."[2]

---

[1] Yəni adam birisini bir iş dalınca göndərdiyi zaman, həmin adam yanına getdiyi adama nə üçün və ya kim tərəfindən göndərildiyini xəbər verməməlidir. Məsələn, adam birisinə hədiyyə verib başqa birisinin yanına göndərərsə, bu hədiyyənin kim tərəfindən göndərildiyini bildirməməlidir.

[2] Bu hədisi Abdullah ibn Zeyd ibn Əsləm "leyyin" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ٥٥٠- بَابُ هَلْ يَقُولُ: ((مِنْ أَيْنَ أَقْبَلْتَ؟))

## 550-ci fəsil. Adam: "Haradan gəlmisən?"– deyə bilərmi?[1]

١١٥٧- حَدَّثَنَا حَامِدُ بْنُ عُمَرَ، عَنْ حَمَّادِ بْنِ زَيْدٍ، عَنْ لَيْثٍ، عَنْ مُجَاهِدٍ قَالَ: كَانَ يَكْرَهُ أَنْ يُحِدَّ الرَّجُلُ النَّظَرَ إِلَى أَخِيهِ، أَوْ يُتْبِعَهُ بَصَرَهُ إِذَا قَامَ مِنْ عِنْدِهِ، أَوْ يَسْأَلَهُ: مِنْ أَيْنَ جِئْتَ، وَأَيْنَ تَذْهَبُ؟

**(1157)** ........ Leys rəvayət edir ki, Mucahid demişdir: "Adamın (mömin) qardaşı dönüb getdiyi zaman ona kəskin baxışla baxması və ya arxasınca gözünü ona zilləməsi, yaxud ondan: "Haradan gəlib hara gedirsən?" soruşması bəyənilmir."[2]

١١٥٨- حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا زُهَيْرٌ، عَنْ أَبِي إِسْحَاقَ، عَنْ مَالِكِ بْنِ زُبَيْدٍ قَالَ: مَرَرْنَا عَلَى أَبِي ذَرٍّ بِالرَّبَذَةِ، فَقَالَ: مِنْ أَيْنَ أَقْبَلْتُمْ ؟ قُلْنَا: مِنْ مَكَّةَ، أَوْ مِنَ الْبَيْتِ الْعَتِيقِ، قَالَ: هَذَا عَمَلُكُمْ؟ قُلْنَا: نَعَمْ، قَالَ: أَمَا مَعَهُ تِجَارَةٌ وَلاَ بَيْعٌ؟ قُلْنَا: لاَ، قَالَ: اسْتَأْنِفُوا الْعَمَلَ.

**(1158)** ........ Əbu İshaq rəvayət edir ki, Malik ibn Zubeyd demişdir: "*Bir dəfə* biz Rabəzəyə[3] Əbu Zərrin yanına gəldik. O soruşdu: "Haradan *gəlirsi-*

---

[1] İslam alimləri bu sualın verilməsinin caiz olub-olmamasını belə izah etmişlər: "Bu məsələni bir neçə qismə bölmək olar:

Birincisi budur ki, adam öz məmləkətinə qonaq gəlmiş bir adamın hansı ölkədən gəldiyini öyrənmək və həmin ölkə barədə məlumat almaq üçün ona "Hansı ölkədən gəlmisən?"– desin. Belə halda bu cür sual vermək caizdir.

İkincisi budur ki, adam öz şəxsi işinin dalınca getmiş dostuna, qonşusuna və s. belə sual versin. Bunu etmək isə caiz deyildir, ədəbsizlikdir. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Müsəlmanın İslamının gözəlliyindəndir ki, özünə aid olmayan işləri tərk etsin" (Sunən ət-Tirmizi, 2319; Səhih əl-Cami, 5911).

[2] 771-ci hədisin qeydlərinə bax.

[3] 973-cü hədisin qeydlərinə bax.

*niz*?" Biz: "Məkkədən, yaxud qədim Evdən[1] *gəlirik*"– dedik. O soruşdu: "Bu sizin ziyarətinizdir?" Biz: "Bəli!"– deyə cavab verdik. O soruşdu: "Bu işinizdə ticarət və alış-veriş varmı?" Biz: "Xeyr!"– deyə cavab verdik. O dedi: "Elə isə, yeni bir işə başlayın."[2]

---

[1] Burada "qədim Ev" deyildikdə, Kəbə nəzərdə tutulur.

[2] Bu hədisin isnadında keçən Malik ibn Zubeyd "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir..

## ٥٥١- بَابُ مَنِ اسْتَمَعَ إِلَى حَدِيثِ قَوْمٍ وَهُمْ لَهُ كَارِهُونَ

## 551-ci fəsil. İstəmədikləri halda bir camaatın söhbətinə qulaq asmaq istəyən adam[1]

**١١٥٩-** حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنَا أَيُّوبُ، عَنْ عِكْرِمَةَ، عَنِ ابْنِ عَبَّاسٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَنْ صَوَّرَ صُورَةً كُلِّفَ أَنْ يَنْفُخَ فِيهِ وَعُذِّبَ، وَلَنْ يَنْفُخَ فِيهِ. وَمَنْ تَحَلَّمَ كُلِّفَ أَنْ يَعْقِدَ بَيْنَ شَعِيرَتَيْنِ وَعُذِّبَ، وَلَنْ يَعْقِدَ بَيْنَهُمَا، وَمَنِ اسْتَمَعَ إِلَى حَدِيثِ قَوْمٍ يَفِرُّونَ مِنْهُ، صُبَّ فِي أُذُنَيْهِ الآنُكُ)).

**(1159)** ........ İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kim *canlıya aid* bir şəkil çəksə, *Qiyamət günü* ona həmin şəklə ruh vermək buyurular və özünə də əzab verilər. *Lakin* o, heç vaxt o şəklə ruh verə bilməyəcək.[2] Kim özündən bir yuxu uydursa, *Qiyamət günü* ona iki arpa dənəsini

---

[1] Uca Allah Quranda casusluq etməyi qadağan edir: "**Ey iman gətirənlər! Zənnə çox qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır. Bir-birinizi güdməyin, bir-birinizin qeybətini qırmayın.**" (əl-Hucurat, 12). Həmçinin, Peyğəmbər ﷺ demişdir: "Bir-birinizin eyibini axtarmayın, casusluq etməyin, bir-birinizlə rəqabət aparmayın, bir-birinizə həsəd aparmayın, bir-birinizə nifrət etməyin, bir-birinizə arxa çevirməyin. Ey Allahın qulları, qardaş olun!" (Səhih əl-Buxari, 6066).

[2] Rəvayət edilir ki, bir dəfə kimsə İbn Abbasın رضي الله عنهما yanına gəlib dedi: "Ey Əbu Abbas, mən insanam, mənim dolanışığım əl işlərimdən çıxır, mən bu rəsmləri çəkirəm." İbn Abbas dedi: "Mən sənə ancaq Peyğəmbərdən ﷺ eşitdiyimi danışacağam. Mən onun belə buyurduğunu eşitmişəm: "Kim rəsm çəkərsə, *o adam* həmin rəsmə ruh üfürənə qədər Allah ona əzab verər. O isə, heç vaxt ona ruh üfürə bilməyəcək." O adam dərindən ah çəkdi və *qorxudan* onun rəngi saraldı. İbn Abbas dedi: "Ay biçarə! Çəkmək istəyirsənsə, ağac və başqa cansız şeylərin şəklini çək" (Səhih əl-Buxari, 2225); digər hədisdə rəvayət edilir ki, Əbu Hureyrə رضي الله عنه demişdir: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Qüdrətli və əzəmətli Allah buyurmuşdur: "Mənim yaratdığım kimi yaratmağa çalışan kimsə-

bir-birinə calaşdırmaq buyurular və özünə də əzab verilər. Ancaq o bu dənələri heç vaxt calaşdıra bilməyəcək.[1] Kim aralarında olan söhbəti (heç kəsə

dən daha zalım kim ola bilər?! Bacarırlarsa, qoy, bir dən, *yaxud bir arpa dənəsi* yaratsınlar, yaxud bir qarışqa yaratsınlar!" (Səhih əl-Buxari, 5953). İbn Useymin ﷺ demişdir: "Bil ki, şəkil şəkmək iki qismə bölünür: birincisi, canlıların – insanın, yaxud heyvanın şəklini çəkməkdir ki, bunu etmək, onu edən adamın niyyətinin yaxşı olub-olmamasından asılı olmayaraq, haram, hətta, böyük günahlardan sayılır. Çünki Peyğəmbər ﷺ şəkil çəkənləri lənətləmiş və Qiyamət günü ən şiddətli əzaba məruz qalacaq insanların, özlərini Allaha bənzədən, özlərinin yaradan olduqlarını göstərən kimsələr olacağını bəyan etmişdir (Bax: Səhih əl-Buxari, 2086 və 5950). İkinci qism isə canlının vücudunu bildirmədən, sadəcə, rəngləməklə onun rəsmini çəkməkdir ki, bəzi İslam alimləri bunun caiz olduğunu demiş və yalnız şəkil çəkən adamın haram məqsədlər güdməyini istisna etmişlər. Məsələn, əgər adam birisini əzəmətləşdirmək məqsədi ilə onun şəklini çəkərsə, bir müddətdən sonra insanlar onu ilahiləşdirib ona pərəstiş edə bilər. Necə ki, Nuhun ﷺ qövmü əvvəlcə əməlisaleh kişilərin (Vəddin, Suvaın, Yəğusun, Yəuqun və Nəsrin) rəsmini çəkmiş, uzun zaman keçdikdən sonra isə onlara ibadət etmişlər... Lakin əksər alimlərin dediyinə əsasən, doğru rəy budur ki, canlının vücudunu bildirməsindən və ya rəngli olmasından asılı olmayaraq, canlıların rəsmini çəkmək haramdır... Şəkilçəkənlə (fotoaparatla) şəkil çəkməyə gəlincə, məlumdur ki, Rəsulullahın ﷺ dövründə belə şey olmamışdır. O dövrdə sadəcə əl ilə rəsm çəkərmişlər. Bu da yaratmaq xüsusunda insanı Allaha bənzədir" (Şərh Riyadus-Salihin, 1546-cı hdisin şərhi).

[1] İbn Useymin ﷺ demişdir: "Bu təhdiddən aydın olur ki, adamın yuxuda görmədiyi bir şeyi yuxu adı ilə başqalarına danışması böyük günahlardandır. Bunu da bəzi səfeh adamlar edər. Beləsi camaatı güldürmək üçün *və ya başqa məqsədlə* ağlına gələni danışıb: "Dünən yuxuda filan, filan şeyi görmüşəm"– deyir. Bunu etmək haramdır. Bundan da betəri isə: "Yuxuda Peyğəmbəri ﷺ gördüm, mənə filan, filan sözü dedi" və ya buna bənzər xurafatlar danışır. Bu isə, daha pis və daha betərdir. Çünki bunu edən adam Peyğəmbərin ﷺ adından yalan danışmış olur. O ki qaldı, adamın yuxuda gördüyünü olduğu kimi danışmasına, bunu etməkdə heç bir qəbahət yoxdur. Lakin adam bilməlidir ki, insanın gördüyü yuxular üç qismə bölünür:

Birincisi, xeyirli, habelə, insana müjdə verən və onu sevindirən yuxulardır ki, belə yuxu görən adam onu ancaq sevdiyi kimsələrə danışmalıdır. Çünki adama həsəd aparan çox olur. Adam belə yuxunu onu sevməyən insanlara danışdığı təqdirdə, çox vaxt onlar ona hiylə qurur, onu yuxuda gördüyü xeyirdən məhrum etməyə çalışırlar. Necə ki, Yusufun ﷺ qardaşları ona hiylə qurmuşdular: **"Yusuf atasına dedi: "Atacan, mən *yuxuda* on bir ulduz, günəş və ay gördüm. Onların mənə səcdə etdiyini gördüm." Yəqub dedi: "Oğlum, yuxunu qardaşlarına danışma, yoxsa sənə hiylə qurarlar. Həqiqətən, şeytan insanın açıq-aydın düşmənidir"** (Yusuf, 4-5). Yəni sevdiklərin və dostların arasında özləri üçün istədiyini sənin üçün də istəməyən heç bir kəsə bu xeyirli yuxunu danışma;

İkinci qismə şər yuxular aiddir. Belə yuxu onu görən adamın canına vəlvələ salır və onu qorxudur. Belə yuxunu nə dostuna, nə də düşməninə, heç vaxt heç kəsə danışmamalısan. Belə yuxunu görüb oyandıqdan sonra üç kərə sol tərəfinə yüngülvari tüpür və de: "Əuzu billahi minəş-şeytani və min şərri ma raəyt (Şeytandan və gördüyüm yuxunun şərindən Allaha sığınıram)!" Yatmağa davam etmək istəsən, digər böyrün üstə yat. Yəni o yuxunu gördüyün vaxt hansı böyrün üstə idinsə, onun əks tərəfi üstə uzan (məsələn, sağ böyrün üstə yatmışdınsa, sol böyrün üstə) yat. Yuxudan oyandıqdan sonra isə bunu heç kəsə danışma. Belə edəcəyin təqdirdə, Allahın izni ilə o yuxunun sənə heç bir zərəri dəyməyəcək. Səhabələr də əndişəli yuxular görərdilər. Lakin Peyğəmbərə ﷺ onlara bu nəsihətləri etdikdən sonra onlar bunlara əməl etmiş və beləliklə də, rahat olmuşlar. (Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Gözəl yuxu Allahdandır. Xoşagəlməz yuxu isə şeytandandır. Əgər biriniz xoşagəlməz yuxu görüb əndişəyə düşərsə, qoy, sol tərəfinə yüngülcə tüpürsün və bu yuxunun şərindən Allaha sığınsın. Belə etsə, həqiqətən də, bu yuxunun ona heç bir zərəri dəyməz" Səhih əl-Buxari, 3292). Bəzi insanlar öz əlləri ilə özlərini bəlaya salırlar. Onlar xoşagəlməz yuxu gördükdə, gedib bunu insanlara danışırlar ki, onlar bunu yozsunlar. Bu addımı atmaq isə yanlışdır. Bunun əlacını, ən gözəl dərmanını isə artıq Peyğəmbər ﷺ sənə öyrətmişdir;

Üçüncü qismi isə qarmaqarışıq – nə başı, nə də ayağı olan yuxulardır. Buna adamın yuxusunda bir-birinə zidd olan və ya qəribə şeylər görməyini misal göstərmək olar. Belə yuxunu heç kəsə danışma, üstəlik, ona heç əhəmiyyət də vermə. *Cabirin* ﷺ *rəvayət etdiyi hədisdə deyilir ki,* bir bədəvi yuxusunu Rəsulullah ﷺ danışıb deyir: "Ya Rəsulullah, yuxuda gördüm ki, başım kəsilib yerə düşür və dığırlanıb gedir, mən də onu təqib edirəm." Rəsu-

bildirmək istəməyən və ya bunu)[1] öyrənmək istəyən kimsədən qaçan adamların söhbətinə qulaq assa, *Qiyamət günü* onun qulaqlarına əridilmiş qurğuşun tökülər.[1]”[2]

---

lullah ﷺ ona belə cavab verir: “Şeytanın yuxuda səni ələ saldığını insanlara danışma!” Cabir rəvayətinə davam edib dedi: “Sonra mən Peyğəmbərin ﷺ xütbə verərkən, belə buyurduğunu eşitmişəm: “Sizdən heç biriniz şeytanın yuxuda onu ələ saldığını insanlara danışmasın!” (Səhih Muslim, 7/54-55). Bütün bunlar şeytandandır. Odur ki, belə yuxuya əhəmiyyət vermə və onu başqalarına danışma.

Rəsulullahı ﷺ yuxuda görmək məsələsinə gəlincə, hər kim yuxuda Rəsulullahı ﷺ hədislərdə vəsf olunmuş surətində, gözəl tərzdə görmüşdürsə, bu, yuxunu görən adam üçün bir xeyir və müjdə sayılır. Bu o deməkdir ki, o, artıq Sünnəyə gözəl tərzdə əməl edənlərdəndir. Yox əgər əksini görərsə, özündən başqa heç kəsi qınamasın. Məsələn, əgər adam yuxuda Rəsulullah ﷺ ilə danışdığını, Rəsulullahın ﷺ isə ondan üz çevirdiyini, yaxud dönüb getdiyini və ona cavab vermədiyini, özünün də libasının nimdaş vəziyyətdə olduğunu görərsə, qoy, özünü hesaba çəksin. Yəqin ki, bu, onun Rəsulullahın ﷺ Sünnəsinə tam riayət etmədiyinə görədir (Şərh Riyadus-Salihin, 1544-cü hədisin şərhi).

Gözəl yuxuya dair aşağıdakı hədisi misal göstərmək olar:

Rəvayət edilir ki, Abdullah ibn Səlam ؓ demişdir: “Peyğəmbərin ﷺ zamanında mən bir yuxu gördüm və bu yuxunu ona danışdım. Yuxuda gördüm ki, bir bağın içindəyəm.” *Abdullah ibn Səlam* bağın geniş və yaşıl olduğunu vəsf etdikdən sonra dedi: “Bağın ortasında aşağı tərəfi yerdə olan, yuxarı tərəfi isə göyə çatan bir dəmir dirək, dirəyin də başında bir tutqac var idi. Kimsə mənə: “Çıx yuxarı!”– deyə buyurdu. Mən: “Bacarmaram!”– deyə cavab verdim. Elə bu vaxt yanıma bir xidmətçi gəlib arxa tərəfdən mənim paltarımın ətəyini qaldırdı və mən *dirəyə* çıxmağa başladım. Haçandan-haçana dirəyin başına çatıb tutqacdan yapışdım. *Yenə* kimsə mənə: “*Tutqacdan* möhkəm tut!”– deyə buyurdu və mən yuxudan oyanıb baxdım ki, həmin tutqac əlimdə qalmışdır. Mən bu *hadisəni* Peyğəmbərə ﷺ danışdım. Peyğəmbər ﷺ *bu yuxunu yozub* dedi: “*Gördüyün* o bağ – İslam dinidir, dirək – İslamın dirəyidir, tutqac – ən etibarlı dəstəkdir, *bu da, o deməkdir ki,* sən son nəfəsinə qədər müsəlman kimi qalacaqsan” (Səhih əl-Buxari, 3813).

[1] Bu əlavə müəllifin “Səhih”ində (7042) nəql edilmişdir.

[1] İbn Useymin ﷺ demişdir: "Əvvəla qeyd edək ki, Cəhənnəmdə əridiləcək qurğuşunun istiliyi, bu dünyadakından daha şiddətli, altmış doqquz dəfə artıqdır. Niyyətdən asılı olmayaraq, hər bir halda iki nəfərin söhbətinə qulaq asmaq haramdır... Bəziləri iki nəfərin söhbət etdiyini gördükdə, əlinə Quran alıb onlara yaxın bir yerdə oturur, sonra da guya Quranı vərəqləyir və özünü guya onu oxuyurmuş kimi göstərir, amma əslində onlara qulaq asır. Halbuki, onlar isə bu adamın onlara qulaq asmasını istəmirlər. Qiyamət günü beləsinin qulağına qurğuşun töküləcək və beləcə ona əzab veriləcəkdir" (Şərh Riyadus-Salihin, 1544-cü hədisin şərhi).

[2] Bu hədisi Buxari (7042), Tirmizi, (559), Əhməd, (1/359), İbn Hibban (5685) və Bəğəvi (Şərh əs-Sunnə, 3218) rəvayət etmişdir.

## ٥٥٢- بَابُ الْجُلُوسِ عَلَى السَّرِيرِ

## 552-ci fəsil. Taxt üzərində oturmaq[1]

**١١٦٠-** حَدَّثَنَا سُلَيْمَانُ بْنُ حَرْبٍ قَالَ: حَدَّثَنَا الأَسْوَدُ بْنُ شَيْبَانَ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُضَارِبٍ، عَنِ الْعُرْيَانِ بْنِ الْهَيْثَمِ قَالَ: وَفَدَ أَبِي إِلَى مُعَاوِيَةَ، وَأَنَا غُلاَمٌ، فَلَمَّا دَخَلَ عَلَيْهِ قَالَ: مَرْحَبًا مَرْحَبًا، وَرَجُلٌ قَاعِدٌ مَعَهُ عَلَى السَّرِيرِ، قَالَ: يَا أَمِيرَ الْمُؤْمِنِينَ، مَنْ هَذَا الَّذِي تُرَحِّبُ بِهِ؟ قَالَ: هَذَا سَيِّدُ أَهْلِ الْمَشْرِقِ، وَهَذَا الْهَيْثَمُ بْنُ الأَسْوَدِ، قُلْتُ: مَنْ هَذَا ؟ قَالُوا: هَذَا عَبْدُ اللَّهِ بْنُ عَمْرِو بْنِ الْعَاصِ، قُلْتُ لَهُ: يَا أَبَا فُلاَنٍ، مِنْ أَيْنَ يَخْرُجُ الدَّجَّالُ؟ قَالَ: مَا رَأَيْتُ أَهْلَ بَلَدٍ أَسْأَلَ عَنْ بَعِيدٍ، وَلاَ أَتْرَكَ لِلْقَرِيبِ مِنْ أَهْلِ بَلَدٍ أَنْتَ مِنْهُ، ثُمَّ قَالَ: يَخْرُجُ مِنْ أَرْضِ الْعِرَاقِ، ذَاتِ شَجَرٍ وَنَخْلٍ.

**(1160)** ........ Uryan ibn Heysəm demişdir:[2] “Mən uşaq ikən atam Muaviyənin yanına getmişdir. Atam onun yanına daxil olduqda, Muaviyə ona: “Mərhəba, mərhəba!”[3]– dedi. *Həmin vaxt* Muaviyənin yanında, taxtın üstündə oturmuş adam dedi: “Ey möminlərin əmiri, “Mərhəba!”– dediyin bu adam kimdir?” *O dedi*: “Bu adam məşriq əhlinin ən hörmətlisidir. Bu, Heysəm ibn Əsvəddir.” Mən soruşdum: “Kimdir, o?” Dedilər: “Bu, Abdullah ibn Amr ibn Asdır.” Mən ona dedim: “Ey Əbu filankəs, Dəccal haradan çıxacaq?” O dedi: “Sənin yaşadığın məmləkətin xalqından daha çox, uzaq şey barədə soruşan, yaxın olanı da ən çox tərk edən başqa bir xalq görmədim.” Sonra o, *davam edib* dedi: “*Dəccal* İraq torpağından, ağaclar və xurmalıqlar olan yerdən çıxacaq.[4]”

---

[1] Müəllif fəslə belə ünvan qoymaqla taxt üzərində oturmağın caiz olduğunu bildirir.

[2] Bu hədisin isnadında keçən Abdullah ibn Mudarib “kimliyi bəlli olmayan” və Uryan ibn Heysəm “məqbul” ravilər olduğundan, Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “zəif” olduğunu demişdir.

[3] 473-cü fəsilə bax.

[4] Əbu Bəkr əs-Siddiq rəvayət etmişdir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: “Dəccal məşriq tərəfdən – Xorasan deyilən diyardan çıxacaq” (Sunən ət-Tirmizi, 3/234; Sunən İbn Macə, 2/506; Musnəd Əhməd, 1/4 və 7; Mustədrək əl-Hakim, 4/527; Silsilətul-Əhadisis-

**١١٦١**- حَدَّثَنَا يَحْيَى قَالَ: حَدَّثَنَا وَكِيعٌ قَالَ: حَدَّثَنَا خَالِدُ بْنُ دِينَارٍ، عَنْ أَبِي الْعَالِيَةِ قَالَ: جَلَسْتُ مَعَ ابْنِ عَبَّاسٍ عَلَى سَرِيرٍ.

**(1161)** ........ Xalid ibn Dinar rəvayət edir ki, Əbul-Aliyə demişdir: "Mən İbn Abbasla birgə bir taxtın üstündə oturmuşam."[1]

**(...)**- حَدَّثَنَا عَلِيُّ بْنُ الْجَعْدِ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ أَبِي جَمْرَةَ قَالَ: كُنْتُ أَقْعُدُ مَعَ ابْنِ عَبَّاسٍ، فَكَانَ يُقْعِدُنِي عَلَى سَرِيرِهِ، فَقَالَ لِي: أَقِمْ عِنْدِي حَتَّى أَجْعَلَ لَكَ سَهْمًا مِنْ مَالِي، فَأَقَمْتُ عِنْدَهُ شَهْرَيْنِ.

**(...)** ........ Şobə rəvayət edir ki, Əbu Cəmrə[2] demişdir: "Mən İbn Abbasla bir yerdə oturardım. O məni öz taxtında oturdardı.[3] *Bir dəfə* o, mənə: "Sənə

---

Səhihə, 1591); başqa bir hədisdə Nəvvas ibn Səman ﷺ rəvayət etmişdir ki, Rəsulullah ﷺ demişdir: "Dəccal Şamla İraq arasındakı yoldan çıxacaq" (Səhih Muslim, 2937). Dəccalın vəsfi barədə 341-ci hədisin qeydlərinə bax.

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[2] Əbu Cəmrə Nəsr ibn İmran əd-Dubəi əl-Bəsri ﷺ etibarlı ravilərdəndir (Siyər Əlam ən-Nubələ, 9/282 – 105-ci tərcümeyi-hal).

[3] Əbu Cəmrə ﷺ həcc və ümrə ziyarətini yerinə yetirdikdən sonra İbn Abbasın ﷺ yanına gəlmiş və İbn Abbas ﷺ ondan yanında qalmağını xahiş etmişdir. Niyəsi aşağıdakı hədisdən sizə aydın olacaq:

Şobə rəvayət edir ki, Əbu Cəmrə demişdir: "Mən İbn Abbasın önündə oturub *ziyarətə* gələn adamların dediklərini ona, onun dediklərini də onlara tərcümə edirdim..." (Səhih əl-Buxari, 87; Səhih Muslim, 116). Deyilənə görə, Əbu Cəmrə fars dilini bilirmiş və əcnəbilərin dediklərini İbn Abbasa tərcümə edirmiş. Lakin Əbu Amr ibnus-Səlah bunu başqa cür izah edib demişdir: "Düşünürəm ki, Əbu Cəmrə İbn Abbasın sözünü izdihamdan dolayı onu eşitməyən kimsələrə çatdırır və ya İbn Abbasın söylədiklərini anlamayan kimsələrə onun sözlərinin məğzini başa salırdı" (Şərh ən-Nəvəvi).

malımdan bir pay ayıranadək yanımda qal"– dedi, mən də iki ay onun yanında qaldım."[1]

١١٦٢– حَدَّثَنَا عُبَيْدٌ قَالَ: حَدَّثَنَا يُونُسُ بْنُ بُكَيْرٍ قَالَ: حَدَّثَنَا خَالِدُ بْنُ دِينَارٍ أَبُو خَلْدَةَ قَالَ: سَمِعْتُ أَنَسَ بْنَ مَالِكٍ، وَهُوَ مَعَ الْحَكَمِ أَمِيرٌ بِالْبَصْرَةِ عَلَى السَّرِيرِ، يَقُولُ: كَانَ النَّبِيُّ ﷺ إِذَا كَانَ الْحَرُّ أَبْرَدَ بِالصَّلَاةِ، وَإِذَا كَانَ الْبَرْدُ بَكَّرَ بِالصَّلَاةِ.

**(1162)** ........ Ənəs ibn Malik ﷺ Bəsrənin əmiri Həkəmlə bir taxtın üzərində otuduğu zaman belə demişdir: "Şiddətli isti olduğu zaman Peyğəmbər ﷺ namazı sərin düşənədək təxirə salardı, soyuq olduqda isə namazı əvvəl vaxtında qılardı."[2]

١١٦٣– حَدَّثَنَا عَمْرُو بْنُ مَنْصُورٍ قَالَ: حَدَّثَنَا مُبَارَكٌ قَالَ: حَدَّثَنَا الْحَسَنُ قَالَ: حَدَّثَنَا أَنَسُ ابْنُ مَالِكٍ قَالَ: دَخَلْتُ عَلَى النَّبِيِّ ﷺ وَهُوَ عَلَى سَرِيرٍ مَرْمُولٍ بِشَرِيطٍ، تَحْتَ رَأْسِهِ وِسَادَةٌ مِنْ أَدَمٍ حَشْوُهَا لِيفٌ، مَا بَيْنَ جِلْدِهِ وَبَيْنَ السَّرِيرِ ثَوْبٌ، فَدَخَلَ عَلَيْهِ عُمَرُ فَبَكَى، فَقَالَ لَهُ النَّبِيُّ ﷺ: ((مَا يُبْكِيكَ يَا عُمَرُ؟)) قَالَ: أَمَا وَاللَّهِ مَا أَبْكِي يَا رَسُولَ اللَّهِ، أَلَّا أَكُونَ أَعْلَمُ أَنَّكَ أَكْرَمُ عَلَى اللَّهِ مِنْ كِسْرَى وَقَيْصَرَ، فَهُمَا يَعِيثَانِ فِيمَا يَعِيثَانِ فِيهِ مِنَ الدُّنْيَا، وَأَنْتَ يَا رَسُولَ اللَّهِ بِالْمَكَانِ الَّذِي أَرَى، فَقَالَ النَّبِيُّ ﷺ: ((أَمَا تَرْضَى يَا عُمَرُ أَنْ تَكُونَ لَهُمُ الدُّنْيَا وَلَنَا الْآخِرَةُ؟)) قُلْتُ: بَلَى يَا رَسُولَ اللَّهِ، قَالَ: ((فَإِنَّهُ كَذَلِكَ)).

---

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu bildirmiş, sonra da bunun "mərfu" hökmündə olduğunu demişdir. Belə ki, Əbu Hureyrənin ﷺ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "*Hava* bərk istiləşdikdə, sərin düşənədək namazı təxirə salın, çünki istinin şiddəti Cəhənnəmin püskürməsinə görədir" (Səhih əl-Buxari, 537; Səhih Muslim, 1395).

**(1163)** ........ Həsən əl-Bəsri rəvayət edir ki, Ənəs ibn Malik ﷺ demişdir:[1] "*Bir gün* mən Peyğəmbərin ﷺ hücrəsinə daxil oldum. Peyğəmbər ﷺ üzərinə xurma liflərindən toxunmuş həsir *sərilmiş* taxtın üstündə söykənmişdi.[2] Başının altında da içi xurma lifi ilə dolu dəridən bir yastıq var idi. Peyğəmbərin ﷺ vücudu ilə *taxtın üstündəki* həsir arasında heç bir paltar yox idi. Elə bu vaxt Ömər içəri daxil oldu və *içəridəki mənzərəni görüb* ağlamağa başladı.[3] Peyğəmbər ﷺ *ondan*: "Səni ağladan nədir, ey Ömər?"– deyə soruşdu. Ömər dedi: "Vallahi, ya Rəsulullah, mən bildiyim bir şeyə görə ağlayı-

---

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən-səhih" olduğunu demiş, sonra da onun mətninin müəllifin "Səhih"ində (4913), habelə, Muslimin "Səhih"ində (4/188-190) və İbn Macənin "Sunən"ində (4153) rəvayət edildiyini bildirmişdir.

[2] Hədisin bu cümləsi fəsilin ünvanına dəlalət edən tərəfidir.

[3] Digər hədisdə yenə Ömər ibn Xattab ﷺ demişdir: "Bir gün mən Rəsulullahın ﷺ yanına gəlib onun həsirin üstündə uzandığını, başını içi xurma lifi ilə doldurulmuş bir yastığa söykədiyini və həsirin də onun böyrünə iz saldığını gördüm və ağlamağa başladım..." (Səhih əl-Buxari, 4532). Bu rəvayətlərdən aydın olur ki, Rəsulullah ﷺ dünyaya könül bağlayan kimsələrdən olmamışdır. Hədislərin birində İbn Məsud ﷺ rəvayət edir ki, *bir dəfə* Peyğəmbər ﷺ həsirin üstündə uzanıb yatdı *və həsir onun böyrünə iz saldı*. Oyandıqda mən əlimi onun böyrünə sürtə-sürtə dedim: "Ya Rəsulullah, izin ver, sənin *rahatlığın* üçün bu həsirin üstünə *yumşaq* bir şey sərək. Onda, Rəsulullah ﷺ belə buyurdu: "Mənimlə dünyanın məsəli, ağacın kölgəsi altında dincini aldıqdan sonra, o kölgəliyi tərk edən atlının məsəlinə bənzəyir" (Sunən ət-Tirmizi, 2/60; Silsilətul-Əhadisis-Səhihə, 438); başqa bir hədisdə Aişə ﷺ demişdir: "Bir dəfə ənsardan olan bir qadın mənim hücrəmə daxil oldu və Peyğəmbərin ﷺ döşəyinin sadəcə qalın bir parça olduğunu gördü. Sonra qadın *evinə* gedib, Peyğəmbərə ﷺ içi yunla doldurulmuş bir döşək göndərdi. Peyğəmbər ﷺ gəlib o döşəyi görəndə mənə dedi: "Onu *yiyəsinə* qaytar! Ey Aişə, vallahi, əgər mən diləsəydim, Allah dağları mənim üçün qızıla və gümüşə çevirərdi" (Təbəqat İbn Səd, 1/465; Silsilətul-Əhadisis-Səhihə, 2484).

ram. Mən bilirəm ki, Allah yanında sən xosrovdan[1] və qeysərdən daha hörmətlisən, buna rəğmən, onlar bu dünya nemətlərindən istifadə edərək istədikləri kimi yaşayır, sən isə ya Rəsulullah, gördüyüm bu yerdə qalırsan. Peyğəmbər ﷺ dedi: "Ey Ömər, istəmirsən ki, dünya onlara, Axirət isə bizə nəsib olsun?" Ömər dedi: "Əlbəttə, *istəyirəm,* ya Rəsulullah!" Peyğəmbər ﷺ buyurdu: "Bu, belə də olacaq.[2]"

**١١٦٤–** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ يَزِيدَ قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ الْمُغِيرَةِ، عَنْ حُمَيْدِ بْنِ هِلاَلٍ، عَنْ أَبِي رِفَاعَةَ الْعَدَوِيِّ قَالَ: انْتَهَيْتُ إِلَى النَّبِيِّ ﷺ وَهُوَ يَخْطُبُ، فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ، رَجُلٌ غَرِيبٌ جَاءَ يَسْأَلُ عَنْ دِينِهِ، لاَ يَدْرِي مَا دِينُهُ، فَأَقْبَلَ إِلَيَّ وَتَرَكَ خُطْبَتَهُ، فَأَتَى بِكُرْسِيٍّ خِلْتُ قَوَائِمَهُ حَدِيدًا، قَالَ حُمَيْدٌ: أُرَاهُ خَشَبًا أَسْوَدَ حَسِبَهُ حَدِيدًا، فَقَعَدَ عَلَيْهِ، فَجَعَلَ يُعَلِّمُنِي مِمَّا عَلَّمَهُ اللَّهُ، ثُمَّ أَتَمَّ خُطْبَتَهُ، آخِرَهَا.

---

[1] Xosrov: Fars hökmdarlarının ləqəbidir. Necə ki, Rum hökmdarlarına qeysər, Şam hökmdarlarına herakl, Həbəşistan krallarına nəcaşi, Misir hökmdarlarına firon, Yəmən hökmdarlarına tubbə, Yunan hökmdarlarına bətlimus, Türk hökmdarlarına xaqan, İskəndəriyyə hökmdarlarına muqəvqis deyilirdi. Bütün bunlar cahiliyyət dövrünün ləqəbləridir.

[2] Bu xüsusda, Uca Allaha buyurur: **"Kim gəldi-gedər dünyanı istəsə, orada ona – dilədiyimiz kimsəyə istədiyimiz şeyləri dərhal verərik. Sonra isə onu qınanmış və *Allahın rəhmətindən* qovulmuş halda girəcəyi Cəhənnəmə atarıq. Kim də Axirəti istəsə, mömin olaraq bütün qəlbi ilə ona can atsa, onların səyi məmnuniyyətlə qəbul olunar"** (əl-İsra, 18-19); O, həmçinin buyurur: **"Biz axirət savabını istəyənin savabın artırar, dünya qazancını istəyənə də ondan verərik. Lakin onun axirətdə heç bir payı olmaz"** (əş-Şura, 20). Bu ayələrdən və hədisdən aydın olur ki, bu dünyanın Allah yanında heç bir dəyəri yoxdur. Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Əgər bu dünyanın Allah yanında ağcaqanadın qanadı qədər dəyəri olsaydı, orada kafirə bir içim su belə verilməzdi" (Sunən ət-Tirmizi, 2/52; əl-Kamil, 2/306; Silsilətul-Əhadisis-Səhihə, 686); başqa bir hədisdə o demişdir: "Bu dünya mömin zindanı, kafirin isə cənnətidir" (Səhih Muslim, 8/210; Sunən ət-Tirmizi, 2494; Sunən İBn Macə, 4113; Musnəd Əhməd, 2/323, 389 və 485).

**(1164)** ........ Humeyd ibn Hilal rəvayət edir ki, Əbu Rifaə əl-Ədəvi ﵁ demişdir:[1] "Bir dəfə Peyğəmbər ﷺ xütbə verərkən mən onun yanına gəlib dedim: "Ya Rəsulullah, bir qərib adam gəlib öz dini barədə soruşur, dininin nə din olduğunu bilmir?" O, xütbəsini yarımçıq kəsib mənə tərəf yaxınlaşdı. Onun üçün ayaqları dəmirdən olan bir kürsü gətirdilər.[2] Peyğəmbər ﷺ onun üstündə oturub,[3] Allahın ona öyrətdiyindən mənə öyrətməyə başladı. Sonra *qalxıb* xütbəsinin axırını tamamladı.[4]"

**١١٦٥-** حَدَّثَنَا يَحْيَى قَالَ: حَدَّثَنَا وَكِيعٌ، عَنْ مُوسَى بْنِ دِهْقَانَ قَالَ: رَأَيْتُ ابْنَ عُمَرَ جَالِسًا عَلَى سَرِيرِ عَرُوسٍ، عَلَيْهِ ثِيَابٌ حُمْرٌ.

---

[1] Bu hədisi Muslim (3/15), Nəsai (5282), Əhməd (5/80 və 464), İbn Xuzeymə (1800), Hakim (1/286) və Dolabi (1/29) rəvayət etmişdir.

[2] Rəvayətin bu yerində Humeyd ibn Hilal demişdir: "Mənim fikrimcə o kürsünün ayaqları qara ağacdan olduğu üçün Əbu Rifaə onun dəmir olduğunu güman etmişdir.

[3] Hədisin bu cümləsi fəsilin ünvanına dəlalət edən tərəfidir.

[4] Bu hədisdən Peyğəmbərin ﷺ təvazökar bir insan olduğu, onun müsəlmanlarla mülayim rəftarı, onlara olan şəfqəti və mərhəməti aydın görünür. Hədisdən o da aydın olur ki, moizəni kəsib, fitva soruşan adamın sualına cavab vermək olar. Bir şərtlə ki, bu sual həmin moizədən daha əhəmiyyətli olsun. Ehtimal edilir ki, bu hədisdə sual verən adam iman və onun qaydaları barədə soruşmuşdur. İslam alimlərinin yekdil rəyinə əsasən, iman haqqında, habelə, İslam dinini qəbul etməyin necəliyi barədə soruşan adamın sualına cavab vermək və bunu ona dərhal başa salmaq vacibdir. Peyğəmbərin ﷺ kürsüyə əyləşməsinin səbəbi bu idi ki, hamı onu görə bilsin və dediklərini eşitsin... Ehtimal edilir ki, bu xütbə heç cümə xütbəsi olmamışdır. Elə buna görə də, o bu xütbəni yarımçıq kəsmiş və uzun müddət həmin adama nəsihət etmişdir. Yaxud ola bilsin ki, bu, cümə xütbəsi olmuş və Peyğəmbər ﷺ onun sualına cavab verdikdən sonra xütbəsinə yenidən başlamışdır. Və ya ola bilsin ki, o, xütbəni yarımçıq kəsmiş, lakin elə də çox ara verməmişdir. Ola da bilsin ki, onun bu qərib adama etdiyi nəsihət elə xütbənin mövzusuna aid imiş və xütbə əsnasında ona öz nəsihətini etmişdir (Şərh ən-Nəvəvi, 3/263).

**(1165)** ........ Vəki'[1] rəvayət etmişdir ki, Musa ibn Dihqan demişdir: "Mən İbn Ömməri bəy taxtının üstündə oturduğunu görmüşəm. Onun əynində qırmızı libas var idi."[2]

**١١٦٥ م**– وَعَنْ أَبِيهِ، عَنْ عِمْرَانَ بْنِ مُسْلِمٍ قَالَ: رَأَيْتُ أَنَسًا جَالِسًا عَلَى سَرِيرٍ وَاضِعًا إِحْدَى رِجْلَيْهِ عَلَى الأُخْرَى.

**(1165/2)** ........ *Vəki'* öz atasından, o da İmran ibn Muslimdən belə rəvayət etmişdir: "Mən Ənəsin taxt üzərində oturduğunu, bir ayağını da o biri ayağının üstünə qoyduğunu görmüşəm.[3]"[4]

---

[1] Bu, məşhur "Zuhd" kitabının müəllifi, habelə, etibarlı mühəddislərdən olmuş Vəki' ibnul-Cərrah ibn Muleyh ər-Ruasidir ﵀.

[2] Bu hədisin isnadında keçən Musa ibn Dihqan "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

[3] Abdullah ibn Zeyd əl-Ənsaridən ﵁ rəvayət edilir ki, o, Peyğəmbərin ﷺ arxası üstə uzanıb, bir ayağını o biri ayağının üstünə qoyduğunu görmüşdür (Səhih əl-Buxari, 475). Bu hədislər arxası üstə uzanıb, bir ayağı o biri ayağın üstünə qoymağın caiz olduğuna dəlalət edir.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

## ٥٥٣- بَابُ إِذَا رَأَى قَوْمًا يَتَنَاجَوْنَ فَلا يَدْخُلْ مَعَهُمْ

## 553-cü fəsil. Adam bir toplumun gizlin söhbət etdiyini[1] gördüyü zaman onların arasına girməsin

١١٦٦- حَدَّثَنَا مُحَمَّدٌ، قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ قَالَ: أَخْبَرَنَا دَاوُدُ بْنُ قَيْسٍ قَالَ: سَمِعْتُ سَعِيدًا الْمَقْبُرِيَّ يَقُولُ: مَرَرْتُ عَلَى ابْنِ عُمَرَ، وَمَعَهُ رَجُلٌ يَتَحَدَّثُ، فَقُمْتُ إِلَيْهِمَا، فَلَطَمَ فِي صَدْرِي فَقَالَ: إِذَا وَجَدْتَ اثْنَيْنِ يَتَحَدَّثَانِ فَلاَ تَقُمْ مَعَهُمَا، وَلاَ تَجْلِسْ مَعَهُمَا، حَتَّى تَسْتَأْذِنَهُمَا، فَقُلْتُ: أَصْلَحَكَ اللَّهُ يَا أَبَا عَبْدِ الرَّحْمَنِ، إِنَّمَا رَجَوْتُ أَنْ أَسْمَعَ مِنْكُمَا خَيْرًا.

**(1166)** ........ Davud ibn Qeys rəvayət edir ki, Səid əl-Məqburi demişdir: "*Bir dəfə* mən İbn Ömərin yanından keçərkən, onun bir adamla söhbət etdiyini gördüm və yaxınlaşıb onların yanında durdum. İbn Ömər mənim sinəmə vurub dedi: "İki nəfərin söhbət etdiyini gördüyün zaman, onlardan izin istəməyincə, onların yanında durma, yanlarında da oturma!" Mən dedim: "Allah səni islah etsin, ey Əbu Abdur-Rəhman! Mən xeyirli bir söz eşitmək üçün sizin yanınızda durdum.[2]"[1]

---

[1] İki və daha çox adamın gizlin söhbət etməsi mübahdır. Yalnız günah işlər görmək barədə gizlin söhbət etmək qadağandır. Bu xüsusda, Uca Allah buyurur: **"Ey iman gətirənlər! Gizli danışdığınız zaman günah, düşmənçilik və Peyğəmbərə qarşı çıxmaq barədə danışmayın. Yaxşı işlər və Allahdan qorxmaq barədə danışın, hüzuruna toplanılacağınız Allahdan qorxun!"** (əl-Mucadilə, 9); O, həmçinin buyurur: **"Onların gizli söhbətlərinin çoxunda xeyir yoxdur. Sədəqə verməyi və ya yaxşılıq etməyi, yaxud da insanlar arasında sülh yaratmağı əmr edən şəxsin *pıçıldaması* isə istisnadır. Kim bunu Allahın razılığını qazanmaq üçün edərsə, Biz ona böyük mükafat verərik"** (ən-Nisa, 114).

[2] İbn Ömərin Səid əl-Məqburidən onların yanına gəlməsinin səbəbini soruşmadan, ona etiraz etməsi dəlildir ki, izin istəmədən, gizlin söhbət edən adamların yanında durmaq üçün heç bir üzürlü səbəb ola bilməz. Adamın niyyəti yaxşı olsa belə, onların yanın-

١١٦٧– حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلَامٍ قَالَ: أَخْبَرَنَا عَبْدُ الْوَهَّابِ الثَّقَفِيُّ قَالَ: حَدَّثَنَا خَالِدٌ، عَنْ عِكْرِمَةَ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: مَنْ تَسَمَّعَ إِلَى حَدِيثِ قَوْمٍ وَهُمْ لَهُ كَارِهُونَ، صُبَّ فِي أُذُنِهِ الْآنُكُ. وَمَنْ تَحَلَّمَ بِحُلْمٍ كُلِّفَ أَنْ يَعْقِدَ شَعِيرَةً.

**(1167)** ........ İkrimə rəvayət edir ki, İbn Abbas ﷺ demişdir: "Hər kim özlərinin gizlin söhbətini heç kəsə bildirmək istəməyən adamların danışdıqlarına qulaq assa, *Qiyamət günü* onun qulağına əridilmiş qurğuşun tökülər. Kim də özündən bir yuxu uydursa, *Qiyamət günü* ona arpa dənəsini bir-birinə calaşdırmaq buyurular.[2]"[3]

---

da durmaq üçün onlardan izin istəməlidir. Əks təqdirdə, ya onlar söhbətlərini yarımçıq kəsmiş olacaq, ya da bu adam onların gizli söhbətini eşitmiş olacaq və hər iki halda onlara əziyyət vermiş sayılacaq. Beləliklə də, günah qazanacaq və Qiyamət günü şiddətli əzaba məruz qalacaq (1159-cu hədisə bax).

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" və "movquf" olduğunu demiş, sonra da onun əvvəlki hədisdə (1159) "mərfu" isnadla rəvayət edildiyini (Peyğəmbərin ﷺ bunu qadağan etdiyini) bildirmişdir.

[2] 1159-cu hədisin qeydlərinə bax.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٥٥٤- بَابُ لا يَتَنَاجَى اثْنَانِ دُونَ الثَّالِثِ

## 554-cü fəsil. İki nəfər üçüncü adamın yanında öz aralarında pıçıldaşmasınlar[1]

١١٦٨- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ نَافِعٍ، عَنْ عَبْدِ اللَّهِ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((إِذَا كَانُوا ثَلَاثَةً، فَلَا يَتَنَاجَى اثْنَانِ دُونَ الثَّالِثِ)).

**(1168)** ........ Abdullah *ibn Ömər* ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: "*Bir camaat* üç kişi olduqları zaman, *onlardan* ikisi öz aralarında pıçıldaşıb, üçüncüsünü kənarda qoymasın.[2]"[1]

---

[1] Bu xüsusda, Uca Allah buyurur: **"Gizli söhbətlər iman gətirənləri kədərləndirməyə çalışan şeytandandır. Lakin Allahın izni olmadıqca *şeytan* onlara heç bir zərər yetirə bilməz. Qoy, möminlər Allaha təvəkkül etsinlər"** (əl-Mucadilə, 9-10). Yəni şeytana uyan kimsələr bir kənara çəkilib gizlin söhbət etməklə möminlərə əziyyət vermək istəyirlər. Belə ki, möminlərə düşmən kəsilmiş münafiqlər və kafirlər hər zaman möminləri kədərləndirmək və onlara pislik etməyə həris olmuşlar. Bunu da onlara şeytan əmr edir. Lakin onlar Allahın izni olmadıqca, möminlərə heç bir zərər yetirə bilməzlər. Kim Allaha təvəkkül edər və Ona arxayın olarsa, şeytan ona zərər yetirə bilməz... (Şərh Riyadus-Salihin, 1599-cu hədisin şərhi).

[2] Bu, İslam ədəblərindən biridir. Və əgər sual verilsə ki, "Mənim bir nəfərlə şəxsi söhbətim olduğu təqdirdə nə etməliyəm?" Cavab verirsən ki, "Bu halda, Abdullah ibn Ömərin ﷺ etdiyi kimi edirsən", yəni bir nəfəri də yanınıza çağırırsan, beləliklə də, sayınız olur dörd. Bundan sonra sizlərdən ikisi öz aralarında gizlin söhbət etdiyi zaman, o biri iki nəfər də öz aralarında söhbət edir. Abdullah ibn Məsud ﷺ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "Üç nəfər olduğunuz zaman, camaatın yanına gəlib çıxanadək *sizlərdən* ikisi öz aralarında pıçıldaşıb üçüncüsünü kənarda qoymasın. *Yoxsa, bu hərəkət* onu kədərləndirər" (Səhih əl-Buxari, 6288). Camaata qaynayıb-qarışdıqdan sonra isə artıq bu müşküllük aradan qalxmış olur. Bu hökm, həmçinin, üçüncü şəxsin yanında əcnəbi dildə danışmağa da aiddir. Və əgər iki nəfər üçüncüsünün yanında onun başa düşmədiyi bir

dildə danışarlarsa, hər ikisi günah qazanmış olar. Məsələn, iki nəfər ingiliscə danışır, üçüncüsü isə bunu başa düşmür. Belə olduğu təqdirdə, həmin iki nəfər ya özlərinin sayı dörd olsun deyə, başqa birisini də öz yanlarına çağırmalı, ya da əcnəbi dildə danışmaq üçün üçüncüsündən izin istəməlidirlər. Və əgər o onlara izin verərsə, bu halda onlar öz aralarında əcnəbi dildə danışa bilərlər (Şərh Riyadus-Salihin, 1599-cu hədisin şərhi).

[1] Bu hədisi Malik (3/151-152), Buxari (öz "Səhih"ində, (11/68) bu rəvayətdə olduğu kimi İmam Malikdən), Muslim (7/12) və Əhməd (2/17, 32, 121, 123, 126, 141 və 146) rəvayət etmişdir. İmam Əhmədin rəvayətində: "Yalnız izin istəyib gizlin söhbət etmələri istisnadır. Çünki onların bu hərəkəti onu kədərləndirər" əlavəsi də zikr edilmişdir. Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində (səh: 455) bu əlavənin də "səhih" olduğunu demişdir (Bax: Səhih əl-Buxari, 79-cu kitab: İzin istəmək, 47-ci fəsil: toplumun sayı üç nəfərdən çox olarsa; Səhih Muslim, 39-cu kitab: əs-Salam, 38 nömrəli hədis).

## ٥٥٥- بَابُ إِذَا كَانُوا أَرْبَعَةً

## 555-ci fəsil. Dörd nəfər bir yerdə olduğu zaman (onlardan ikisi öz aralarında pıçıldaşa bilərmi?)[1]

١١٦٩- حَدَّثَنَا عُمَرُ بْنُ حَفْصٍ قَالَ: حَدَّثَنِي أَبِي قَالَ: حَدَّثَنَا الأَعْمَشُ قَالَ: حَدَّثَنِي شَقِيقٌ، عَنْ عَبْدِ اللَّهِ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((إِذَا كُنْتُمْ ثَلاَثَةً فَلاَ يَتَنَاجَى اثْنَانِ دُونَ الثَّالِثِ، فَإِنَّهُ يُحْزِنُهُ ذَلِكَ)).

**(1169)** ........ Abdullah *ibn Ömər* ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Üç nəfər olduğunuz zaman, *sizlərdən* ikisi öz aralarında pıçıldaşıb, üçüncüsünü kənarda qoymasınlar. Çünki onların bu hərəkəti onu kədərləndirər."[2]

١١٧٠- وَحَدَّثَنِي أَبُو صَالِحٍ، عَنِ ابْنِ عُمَرَ، عَنِ النَّبِيِّ ﷺ مِثْلَهُ، قُلْنَا: فَإِنْ كَانُوا أَرْبَعَةً؟ قَالَ: ((لا يَضُرُّهُ)).

**(1170)** Mənə[3] Əbu Saleh, İbn Ömərin ﷺ Peyğəmbərdən ﷺ buna bənzər hədis rəvayət etdiyini xəbər vermişdir. *İbn Ömər bu hədisi bizə danışdıqdan sonra* biz soruşduq: "Bəs, dörd nəfər olsalar necə?" O dedi: "*Dörd nəfərdən ikisinin öz aralarında pıçıldaşmasının* zərəri yoxdur."[4]

---

[1] Cavabı: "Bəli olar!" Yeri gəlmişkən, qeyd edək ki, həmin toplumun sayı artdıqca onların öz aralarından bir nəfəri kənarda qoyması, ondan izin almadan gizlin söhbət etməsi və ya başqa dildə danışması qadağandır. Məsələn, dörd nəfər olsalar, onlardan üçünün, beş nəfər olsalar, dördünün, altı nəfər olsalar, beşinin gizli söhbət etməsi və ya öz aralarında onun başa düşmədiyi əcnəbi bir dildə danışmaları qadağandır.

[2] Əvvəlki hədisin qeydlərinə bax.

[3] Burada: "Mənə Əbu Saleh..." sözünü deyən ravi Ə'məşdir.

[4] Bu hədisi Əbu Davud (2/562), Əhməd (2/18, 42 və 141), Əbu Yə'lə (Musnəd, 3/1351) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "səhih" olduğunu demişdir.

**١١٧١**– حَدَّثَنَا عُثْمَانُ قَالَ : حَدَّثَنَا جَرِيرٌ ، عَنْ مَنْصُورٍ ، عَنْ أَبِي وَائِلٍ ، عَنْ عَبْدِ اللَّهِ ، عَنِ النَّبِيِّ ﷺ قَالَ : لاَ يَتَنَاجَى اثْنَانِ دُونَ الْآخَرِ حَتَّى يَخْتَلِطُوا بِالنَّاسِ ، مِنْ أَجْلِ أَنَّ ذَلِكَ يُحْزِنُهُ.

**(1171)** ........ Abdullah ibn *Məsud* ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "*Üç nəfərdən ibarət bir toplum* camaata qaynayıb-qarışanadək, onlardan ikisi öz aralarında pıçıldaşıb üçüncüsünü kənarda qoymasınlar. Çünki bu hərəkət onu kədərləndirər."[1]

**١١٧٢**– حَدَّثَنَا قَبِيصَةُ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنِ الأَعْمَشِ، عَنْ أَبِي صَالِحٍ، عَنِ ابْنِ عُمَرَ قَالَ: إِذَا كَانُوا أَرْبَعَةً فَلا بَأْسَ.

**(1172)** ........ Əbu Saleh rəvayət edir ki, İbn Ömər ﷺ demişdir: "Əgər dörd nəfər olsalar, *onlardan ikisinin öz aralarında pıçıldaşması* eyib etməz."[2]

[1] Bu hədisi Buxari (11/68), Muslim (7/13), Tirmizi (4/27), Əhməd (1/375, 425, 430, 431, 438, 440, 460, 464 və 465) və Darimi (2/282) rəvayət etmişdir.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٥٥٦- بَابُ إِذَا جَلَسَ الرَّجُلُ إِلَى الرَّجُلِ يَسْتَأْذِنُهُ فِي الْقِيَامِ

## 556-cı fəsil. Bir adam başqa birisinin yanında oturarsa, qoy, qalxıb getmək istədikdə ondan izin istəsin

**١١٧٣-** حَدَّثَنَا عِمْرَانُ بْنُ مَيْسَرَةَ، عَنْ حَفْصِ بْنِ غِيَاثٍ، عَنْ أَشْعَثَ، عَنْ أَبِي بُرْدَةَ بْنِ أَبِي مُوسَى قَالَ: جَلَسْتُ إِلَى عَبْدِ اللَّهِ بْنِ سَلَامٍ، فَقَالَ: إِنَّكَ جَلَسْتَ إِلَيْنَا، وَقَدْ حَانَ مِنَّا قِيَامٌ، فَقُلْتُ: فَإِذَا شِئْتَ، فَقَامَ، فَاتَّبَعْتُهُ حَتَّى بَلَغَ الْبَابَ.

**(1173)** ........ Əbu Burdə ibn Əbu Musa *əl-Əşari* demişdir: "*Bir dəfə* mən Abdullah ibn Səlamın yanında oturdum. O dedi: "Hərçənd, sən gəlib bizim yanımızda oturdun, lakin bizim durub getmək vaxtımızdır." Mən dedim: "İzin versən, *mən də qalxardım*." O, qalxıb getdi, mən də qapıyadək onun arxasınca getdim."[1]

---

[1] Bu hədisin isnadında keçən Əşəs ibn Səvvar "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Hərçənd bu hədisin isnadı "zəif"dir, lakin Peyğəmbərdən ﷺ bu mənada "səhih" hədis varid olmuşdur. Həmin hədisdə Rəsulullah ﷺ belə buyurmuşdur: "Sizlərdən biri öz *mömin* qardaşını ziyarət edib onun yanında oturarsa, qoy, qalxıb getmək istədikdə ondan izin istəsin" (Tarix Əsbəhan, 113; Silsilətul-Əhadisis-Səhihə, 182).

## ٥٥٧- بَابُ لا يَجْلِسُ عَلَى حَرْفِ الشَّمْسِ

## 557-ci fəsil. Günəş şüalarının qurtaracağında[1] oturmamaq

١١٧٤- حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا يَحْيَى قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ أَبِي خَالِدٍ قَالَ: حَدَّثَنِي قَيْسٌ، عَنْ أَبِيهِ، أَنَّهُ جَاءَ وَرَسُولُ اللَّهِ ﷺ يَخْطُبُ، فَقَامَ فِي الشَّمْسِ، فَأَمَرَهُ فَتَحَوَّلَ إِلَى الظِّلِّ.

**(1174)** ........ Qeys belə rəvayət etmişdir: "Bir dəfə Rəsulullah ﷺ xütbə oxuyarkən atam[2] onun yanına gəlib günün altında dayandı.[3] Rəsulullah ﷺ ona *kölgəyə çəkilməyi* buyurdu və atam kölgəyə çəkildi."[4]

---

[1] Burada "qurtaracaq" deyildikdə, Günəş şüalarının kölgəyə yaxın tərəfi nəzərdə tutulur. Yəni adam yarısı gündə, o biri yarısı da kölgədə oturmamalıdır. Bu xüsusda, İbn Teymiyyə demişdir: "Bu, Allahın və Onun rəsulunun ﷺ adillik baxımından məhəbbətinin kamilliyindəndir. Belə ki, Allah insana *hər bir işdə*, hətta, öz vücudu ilə belə ədalətli rəftar etməyi əmr etmişdir. Peyğəmbər ﷺ başın bir hissəsini qırxıb bir hissəsini saxlamağı qadağan etmişdir. Belə ki, başın bir hissəsində tük saxlayıb, digər hissəni qırxmaq başa zülm etməkdir. Bunun bənzəri: yarı günəşdə, yarı kölgədə oturmaqdır ki, bu da, bədənə zülm etməkdir. Habelə, bir tay ayaqqabıda gəzmək də, ayağa əziyyətdir. Odur ki, ayaqqabıların, ya ikisini də geyinmək, ya da ikisini də soyunmaq gərəkdir" (Tohfətul-Movdud bi Əhkamil-Movlud, 1/100).

[2] Əbu Hazim əl-Bəcəli ﵁ Peyğəmbərin ﷺ səhabəsidir (Səhih əl-Ədəbul-Mufrad, 455).

[3] Burada "günün altında" deyildikdə, onun yarı gündə, yarı kölgədə oturduğu nəzərdə tutulur.

[4] Bu hədisi Əbu Davud (4822) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ٥٥٨- بَابُ الِاحْتِبَاءِ فِي الثَّوْبِ

## 558-ci fəsil. Yerdə oturulu halda paltarın içində dizləri qatlayıb əllər ilə onu qucaqlamaq

**١١٧٥-** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي اللَّيْثُ قَالَ: حَدَّثَنِي يُونُسُ، عَنِ ابْنِ شِهَابٍ قَالَ: أَخْبَرَنِي عَامِرُ بْنُ سَعْدٍ، أَنَّ أَبَا سَعِيدٍ الْخُدْرِيَّ قَالَ: نَهَى رَسُولُ اللَّهِ ﷺ عَنْ لِبْسَتَيْنِ وَبَيْعَتَيْنِ: نَهَى عَنِ الْمُلَامَسَةِ، وَالْمُنَابَذَةِ فِي الْبَيْعِ، الْمُلَامَسَةُ: أَنْ يَمَسَّ الرَّجُلُ ثَوْبَهُ، وَالْمُنَابَذَةُ: يَنْبِذُ الْآخَرُ إِلَيْهِ ثَوْبَهُ، وَيَكُونُ ذَلِكَ بَيْعَهُمْ عَنْ غَيْرِ نَظَرٍ. وَاللِّبْسَتَيْنِ اشْتِمَالُ الصَّمَّاءِ، وَالصَّمَّاءُ: أَنْ يَجْعَلَ طَرَفَ ثَوْبِهِ عَلَى إِحْدَى عَاتِقَيْهِ، فَيَبْدُو أَحَدُ شِقَّيْهِ لَيْسَ عَلَيْهِ شَيْءٌ، وَاللِّبْسَةُ الْأُخْرَى احْتِبَاؤُهُ بِثَوْبِهِ وَهُوَ جَالِسٌ، لَيْسَ عَلَى فَرْجِهِ مِنْهُ شَيْءٌ.

**(1175)** ........ Əbu Səid əl-Xudri رضي الله عنه demişdir: “Rəsulullah ﷺ iki *cür* geyimi və iki *növ* alış-verişi qadağan etmişdir: alış-verişdə mülaməsəni və münabəzəni qadağan etmişdir. Mülaməsə, adamın bir mala üstdən toxunmasıdır.[1] Münabəzə isə, birisinin bir paltarı başqasının üstünə atmaqla, o mala baxmadan onu satmasıdır.[2] *Qadağan etdiyi* iki geyim isə *bunlardır:* yarımçıq bürünmək,[3] yəni paltarın ətəyi ilə bir çiyni örtüb, digər tərəfi açıq saxlamaq. *Qadağan edilmiş* o biri geyim isə, *təkcə* bir libas geymiş adamın yerə oturub dizlərini qaldırıb qolları ilə onu qucaqlayaraq, ayıb yerlərini açıq qoymasıdır.[4]”[5]

---

[1] Yəni malı gözlə görmədən, sadəcə ona əl vurmaqla, onu lazımınca yoxlamayıb razılaşaraq aparılan alış-veriş.

[2] Yəni satıcının malı alıcıya göstərmədən, onun üstünə bir mal atıb, sonra da ona bu malı almağa məcbur etməsi qəsd edilir.

[3] Bu qadağa da, həmçinin, ayıb yerlərinin göründüyünə görədir. Belə ki, əynində təkcə bir bürüncəyi olan adam onun bir tərəfini çiyninə atarsa, ayıb yerləri və ya onun bir hissəsi görünə bilər.

[4] Qeyd edək ki, birdən çox libasda, başqa cür desək, yerə oturub dizləri qaldırarkən ayıb yerləri görsənmədiyi təqdirdə, bu cür oturmaq caizdir (Şərh Riyadus-Salihin, 824-cü hədisin şərhi). Rəvayət edilir ki, ibn Ömər رضي الله عنهما demişdir: “Bir dəfə mən Peyğəmbəri ﷺ Kəbənin həyatində yerə oturub dizlərini qucaqladığını gördüm” (Səhih əl-Buxari, 6272).

[5] Bu hədisi Buxari (5372) və Muslim (3879) rəvayət etmişdir.

## ٥٥٩- بَابُ مَنْ أُلْقِيَ لَهُ وِسَادَةٌ

## 559-cu fəsil. Özünə döşəkcə verilmiş kimsə[1]

١١٧٦- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا عَمْرُو بْنُ عَوْفٍ قَالَ: حَدَّثَنَا خَالِدُ بْنُ عَبْدِ اللَّهِ، عَنْ خَالِدٍ عَنْ أَبِي قِلَابَةَ قَالَ: أَخْبَرَنِي أَبُو الْمَلِيحِ قَالَ: دَخَلْتُ مَعَ أَبِيكَ زَيْدٍ عَلَى عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو، فَحَدَّثَنَا أَنَّ النَّبِيَّ ﷺ ذُكِرَ لَهُ صَوْمِي، فَدَخَلَ عَلَيَّ، فَأَلْقَيْتُ لَهُ وِسَادَةً مِنْ أَدَمٍ حَشْوُهَا لِيفٌ، فَجَلَسَ عَلَى الْأَرْضِ، وَصَارَتِ الْوِسَادَةُ بَيْنِي وَبَيْنَهُ، فَقَالَ لِي: ((أَمَا يَكْفِيكَ مِنْ كُلِّ شَهْرٍ ثَلَاثَةُ أَيَّامٍ؟)) قَالَ: قُلْتُ: يَا رَسُولَ اللَّهِ، قَالَ: ((خَمْسًا))، قُلْتُ: يَا رَسُولَ اللَّهِ، قَالَ: ((سَبْعًا))، قُلْتُ: يَا رَسُولَ اللَّهِ، قَالَ: ((تِسْعًا))، قُلْتُ: يَا رَسُولَ اللَّهِ، قَالَ: ((إِحْدَى عَشْرَةَ))، قُلْتُ: يَا رَسُولَ اللَّهِ، قَالَ: ((لَا صَوْمَ فَوْقَ صَوْمِ دَاوُدَ شَطْرَ الدَّهْرِ، صِيَامُ يَوْمٍ وَإِفْطَارُ يَوْمٍ)).

**(1176)** ........ Əbu Qilabə rəvayət edir ki, Əbul-Məlih demişdir: "Mən sənin atan Zeydlə birgə Abdullah ibn Amrın yanına daxil olduq. O, bizə belə bir hədis rəvayət etdi: "Mənim *davamlı* oruc tutmağım barədə Peyğəmbərə ﷺ xəbər verdilər və o, *buna aydınlıq gətirmək üçün* mənim yanıma gəldi. Mən ona *üstündə oturmaq üçün* içinə xurma lifi doldurulmuş dəridən bir döşəkcə verdim. O isə, yerə oturdu və döşəkcə mənimlə onun arasında

---

[1] Müəllif bu fəslə belə ünvan qoymaqla bildirmək istəyir ki, məclisdə qonağa döşəkcə təqdim etmək ona göstərilən ehtirama aiddir. Onu da qeyd edək ki, qonağın da bu döşəkçəni götürməsi Sünnəyə aid əməllərdəndir. İbn Ömər ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: "Üç şeydən imtina edilməz: döşəkcədən, ətirdən və süddən" (Sunən ət-Tirmizi, 2791; Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Cami" əsərində (3046) onun "həsən" olduğunu demişdir). Mubarəkfuri demişdir: "Adətən, bu üç şey qonağa təqdim olunur. Bu üç şey, minnəti az olan hədiyyələrə aiddir ki, bunlardan imtina etmək bəyənilmir" (Tohfətul-Əhvəzi).

qaldı.[1] Sonra Peyğəmbər ﷺ mənə buyurdu: "Məgər sənə hər ayın üç gününü oruc tutmaq bəs eləmirmi?"[2] Dedim: "Ya Rəsulullah, *bir az da artır.*" O buyurdu: "Beş gün." Dedim: "Ya Rəsulullah, *bir az da artır.*" O buyurdu: "Yeddi gün." Dedim: "Ya Rəsulullah, *bir az da artır.*" O buyurdu: "Doqquz gün." Dedim: "Ya Rəsulullah, *bir az da artır.*" O buyurdu: "On bir gün." Dedim: "Ya Rəsulullah, *bir az da artır.*" O buyurdu: "Davudun orucundan artıq oruc tutmaq olmaz. O, günaşırı tutmaqla, ilin yarısını oruc tutardı."[3]

**١١٧٧–** حَدَّثَنَا مُسْلِمُ بْنُ إِبْرَاهِيمَ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ يَزِيدَ بْنِ خُمَيْرٍ، عَنْ عَبْدِ اللَّهِ بْنِ بُسْرٍ، أَنَّ النَّبِيَّ ﷺ مَرَّ عَلَى أَبِيهِ، فَأَلْقَى لَهُ قَطِيفَةً فَجَلَسَ عَلَيْهَا.

**(1177)** ........ Abdullah ibn Busr رضي الله عنه rəvayət edir ki, *bir gün* Peyğəmbər ﷺ atamın yanından keçərkən atam məxmər döşəkçəni onun altına atdı və o, *bu* döşəkçənin üstünə oturdu.[4]

---

[1] İbn Bəttal demişdir: "Bu, dəlildir ki, adam özünə göstərilən sayğıdan (döşəkcədən) imtina edə bilər" (Şərh Səhih əl-Buxari).

[2] Əbu Zərrin رضي الله عنه rəvayət etdiyi bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim hər ayın üç gününü oruc tutarsa, il boyu oruc tutmuş sayılar. Uca Allah Öz Kitabında bunu təsdiq edən ayə nazil etmişdir: **"Kim yaxşılıq gətirərsə, ona gətirdiyinin on qat əvəzi verilər"** (əl-Ənam, 160). Bir günün *orucu* on günə bərabərdir" (Sunən ət-Tirmizi, 762; Səhih ət-Tərğib vət-Tərhib, 1035).

[3] Bu hədisi Buxari (1980) və Muslim (3/165) rəvayət etmişdir.

[4] Bu hədisi Təbərani (əd-Dua, 920) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ٥٦٠- بَابُ الْقُرْفُصَاءِ

## 560-cı fəsil. Qurfusa[1]

١١٧٨- حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ حَسَّانَ الْعَنْبَرِيُّ قَالَ: حَدَّثَتْنِي جَدَّتَايَ صَفِيَّةُ بِنْتُ عُلَيْبَةَ، وَدُحَيْبَةُ بِنْتُ عُلَيْبَةَ، وَكَانَتَا رَبِيبَتَيْ قَيْلَةَ، أَنَّهُمَا أَخْبَرَتْهُمَا قَيْلَةُ قَالَتْ: رَأَيْتُ النَّبِيَّ ﷺ قَاعِدًا الْقُرْفُصَاءَ، فَلَمَّا رَأَيْتُ النَّبِيَّ الْمُتَخَشِّعَ فِي الْجِلْسَةِ أُرْعِدْتُ مِنَ الْفَرَقِ.

**(1178)** ........ Abdullah ibn Həssan əl-Ənbəri demişdir: "Qaylənin himayəsində olan nənələrim Səfiyyə bint Uleybə və Duheybə bint Uleybə rəvayət etmişlər ki, Qaylə *bint Məxrəmə* ﷺ demişdir: "Bir gün mən Rəsulullahın ﷺ *məsciddə*[2] dizlərini qucaqlayıb oturduğunu gördüm. "Mən Rəsulullahın ﷺ beləcə dinməz oturduğunu gördükdə, qorxudan titrədim."[3]

---

[1] Yerdə dizləri qaldırıb onları qucaqlayaraq oturmaq və ya diz üstə oturub, əyilərək sağ əl ilə sağ ayağı, sol əl ilə də sol ayağı tutmaq, bədəni də ayaqlara yaxınlaşdırmaq.

[2] Bu əlavə Tirmizinin "Şəmailin-Nəbi" əsərindəki 127-ci hədisdə zikr edilmişdir.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "həsən" olduğunu demişdir.

## ٥٦١- بَابُ التَّرَبُّعِ

## 561-ci fəsil. Bardaş qurmaq[1]

**١١٧٩-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ أَبِي بَكْرٍ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ عُثْمَانَ الْقُرَشِيُّ قَالَ: حَدَّثَنَا ذَيَّالُ بْنُ عُبَيْدِ بْنِ حَنْظَلَةَ، حَدَّثَنِي جَدِّي حَنْظَلَةُ بْنُ حِذْيَمٍ قَالَ: أَتَيْتُ النَّبِيَّ ﷺ فَرَأَيْتُهُ جَالِسًا مُتَرَبِّعًا.

**(1179)** ........ Hənzələ ibn Hizyəm ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ yanına gəldikdə, onu bardaş qurub oturan gördüm."[2]

**١١٨٠-** حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ الْمُنْذِرِ قَالَ: حَدَّثَنِي مَعْنٌ قَالَ: حَدَّثَنِي أَبُو رُزَيْقٍ، أَنَّهُ رَأَى عَلِيَّ ابْنَ عَبْدِ اللَّهِ بْنِ عَبَّاسٍ، جَالِسًا مُتَرَبِّعًا، وَاضِعًا إِحْدَى رِجْلَيْهِ عَلَى الْأُخْرَى، الْيُمْنَى عَلَى الْيُسْرَى.

**(1180)** ........ Əbu Ruzeyq rəvayət etmişdir ki, o, Əli ibn Abdullah ibn Abbasın bardaş qurub oturduğunu, sağ ayağını sol ayağının üzərinə qoyduğunu görmüşdür.[3]

**١١٨١-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ يُوسُفَ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ عِمْرَانَ بْنِ مُسْلِمٍ قَالَ: رَأَيْتُ أَنَسَ ابْنَ مَالِكٍ يَجْلِسُ هَكَذَا مُتَرَبِّعًا، وَيَضَعُ إِحْدَى قَدَمَيْهِ عَلَى الأُخْرَى.

**(1181)** ........ İmran ibn Muslim demişdir: "Mən Ənəs ibn Malikin ﷺ belə bardaş qurub oturduğunu, bir ayağını digər ayağının üstünə qoyduğunu görmüşəm."[4]

---

[1] Dizlərini qatlayıb baldırlarını bir-birinə keçirərək oturmaq.

[2] Bu hədisi Təbərani (əl-Mocəmul-Kəbir, 4/15/3498), Mizzi (ət-Təhzib, 7/435) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih li-ğeyrihi" olduğunu demişdir.

[3] Bu hədisin isnadında keçən Əbu Ruzeyq "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٥٦٢- بَابُ الاحْتِبَاءِ

## 562-ci fəsil. İhtiba[1]

١١٨٢- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا وَهْبُ بْنُ جَرِيرٍ قَالَ: حَدَّثَنَا قُرَّةُ بْنُ خَالِدٍ قَالَ: حَدَّثَنِي قُرَّةُ بْنُ مُوسَى الْهُجَيْمِيُّ، عَنْ سُلَيْمِ بْنِ جَابِرٍ الْهُجَيْمِيِّ قَالَ: أَتَيْتُ النَّبِيَّ ﷺ وَهُوَ مُحْتَبٍ فِي بُرْدَةٍ، وَإِنَّ هُدَّابَهَا لَعَلَى قَدَمَيْهِ، فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ، أَوْصِنِي، قَالَ: ((عَلَيْكَ بِاتِّقَاءِ اللَّهِ، وَلاَ تَحْقِرَنَّ مِنَ الْمَعْرُوفِ شَيْئًا، وَلَوْ أَنْ تُفْرِغَ لِلْمُسْتَسْقِي مِنْ دَلْوِكَ فِي إِنَائِهِ، أَوْ تُكَلِّمَ أَخَاكَ وَوَجْهُكَ مُنْبَسِطٌ، وَإِيَّاكَ وَإِسْبَالَ الإِزَارِ، فَإِنَّهَا مِنَ الْمَخِيلَةِ، وَلاَ يُحِبُّهَا اللَّهُ، وَإِنِ امْرُؤٌ عَيَّرَكَ بِشَيْءٍ يَعْلَمُهُ مِنْكَ فَلاَ تُعَيِّرْهُ بِشَيْءٍ تَعْلَمُهُ مِنْهُ، دَعْهُ يَكُونُ وَبَالُهُ عَلَيْهِ، وَأَجْرُهُ لَكَ، وَلاَ تَسُبَّنَّ شَيْئًا)).

قَالَ: فَمَا سَبَبْتُ بَعْدُ دَابَّةً وَلاَ إِنْسَانًا.

**(1182)** ........ Suleym ibn Cabir əl-Huceymi ﷠ demişdir: "*Bir gün* mən Peyğəmbərin ﷺ yanına gəldim. O, bir paltarın içində dizlərini qatlayıb baldırlarını bir-birinə keçirərək oturmuşdu. Bürüncəyin ətəyi onun ayaqlarının üstündə idi. Mən dedim: "Ya Rəsulullah, mənə nəsihət et!" Peyğəmbər ﷺ buyurdu: "Allahdan qorx,[2] yaxşı işləri heç vaxt dəyərsiz hesab etmə, hətta, su istəyən kimsənin qabına öz qabından su tökməklə və ya gülərüzlü halda qardaşınla söhbət etməklə *ona yaxşılıq et!* Libasının ətəyini *topuqdan aşağı* uzatmaqdan çəkin![3] Çünki bu, təkəbbürlükdəndir və Allah bunu sevmir.

---

[1] Yerə oturub dizləri qaldıraraq onları qucaqlamaq (1175-ci hədisin qeydlərin bax).

[2] Bu nəsihət bütün peyğəmbərlərə və onların davamçılarına buyurulmuşdur: **"Biz sizdən əvvəl Kitab verilənlərə də, sizə də Allahdan qorxmanızı buyurduq"** (ən-Nisa, 131). 674-cü hədisin qeydlərindəki Talq ibn Həbibin təqvaya verdiyi tərifə bax.

[3] Əbu Zərr ﷠ rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Üç qisim insan vardır ki, Qiyamət günü Allah onları danışdırmayacaq, onların üzünə baxmayacaq və onları tə-

Əgər bir adam səndə olan nöqsanı bilib sənə eyib tutarsa, sən onda olan nöqsanı bildiyin halda ona eyib tutma. Burax onu, qoy, günahı öz boynuna düşsün, savab isə sənə qalsın. Bir də ki, əsla heç nəyi söymə!"

---

mizə çıxarmayacaqdır. Üstəlik, onları üzücü əzab gözləyir." Əbu Zərr ﷺ dedi: "Peyğəmbər ﷺ *buna dəlalət edən* ayəni ("Ali-İmran" surəsinin 77-ci ayəsini) üç dəfə təkrar oxudu. Mən dedim: "Onların ümidləri boşa çıxdı, özləri də ziyana uğradılar. Kimlərdir onlar, ya Rəsulullah?" Peyğəmbər ﷺ buyurdu: "*Libasının* ətəyini topuqdan aşağı uzadan, verdiyini başa qaxan və yalandan and içməklə malını satan *kimsələr*" (Səhih Muslim, 293); başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Paltarın topuqdan aşağı düşən hissəsinə *görə bu topuqlar* Cəhənnəm odunda yanacaqdır" (Səhih əl-Buxari, 5787). Xüsusilə qeyd edək ki, bu hökm yalnız kişilərə aiddir. Bunun qadağan olunmasının bir neçə səbəbi vardır: birincisi budur ki, libasın ətəyini uzatmaq qadına bənzəməkdir. Belə ki, İslam şəriəti qadının ayağı görsənməsin deyə, ona libasının ətəyini uzatmağı, ayağını örtməyi buyurmuşdur. İkincisi budur ki, belə etmək təkəbbürlük əlamətidir. Üçüncüsü budur ki, bunda mala israf etmək vardır. Belə ki, adam libasının ətəyini yerlə sürütdəməklə onu zay etmiş olur. Dördüncüsü də budur ki, libasın ətəyinin yuxarı olması onun təmiz qalması üçün daha münasibdir.

İbn Ərəbi demişdir: "Heç bir kişiyə: "Mən libasımın ətəyini təkəbbürlüyə görə aşağı salmıram" deyərək libasının ətəyini topuqdan aşağı salmaq caiz deyildir. Çünki *hədisdə varid olmuş* qadağa onun ləfzində öz əksini tapmışdır. Özünə qadağan buyurulan bir hökmü: "Mən buna riayət edən deyiləm, çünki bunun əmmasının mənə aidiyyəti yoxdur" deməsi isə caiz deyil. Belə ki, bu, qeyri-məqbul bir iddiadır. Əksinə, libasının ətəyini uzatması onun təkəbbürlü olmasına dəlalət edir." Xülasə budur ki, libasın ətəyini uzatmaq, adamın, – niyyəti yaxşı olmuş olsa belə, – təkəbbürlü olmasına dəlalət edir (Fəthul-Bari, 10/264 – 5455-ci hədisin şərhi). İmam Əhmədin nəql etdiyi hədisdə rəvayət edilir ki, Şərid demişdir: "*Bir dəfə* Rəsulullah ﷺ uzaqdan bir kişinin izarının ətəyinin yerlə süründüyünü gördü və tələsik ona yaxınlaşıb dedi: "İzarının ətəyini yuxarı qaldır və Allahdan qorx!" Adam dedi: "Ayaqlarım əyridir, dizlərim də çox əsir." Onda, Rəsulullah ﷺ ona belə buyurdu: "İzarının ətəyini yuxarı qaldır. Şübhəsiz ki, Allahın yaratdığı hər bir məxluq gözəldir." Bundan sonra həmin adamın izarı heç vaxt baldırının yarısından aşağı düşmədi" (Musnəd Əhməd, 4/390; Silsilətul-Əhadisis-Səhihə, 1141).

(Suleym ibn Cabir) dedi: "Mən o vaxtdan bəri nə bir heyvanı, nə də bir insanı söymüşəm."[1]

**١١٨٣-** حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ الْمُنْذِرِ قَالَ: حَدَّثَنِي ابْنُ أَبِي فُدَيْكٍ قَالَ: حَدَّثَنِي هِشَامُ بْنُ سَعْدٍ، عَنْ نُعَيْمِ بْنِ الْمُجْمِرِ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: مَا رَأَيْتُ حَسَنًا قَطُّ إِلاَّ فَاضَتْ عَيْنَايَ دُمُوعًا، وَذَلِكَ أَنَّ النَّبِيَّ ﷺ خَرَجَ يَوْمًا، فَوَجَدَنِي فِي الْمَسْجِدِ، فَأَخَذَ بِيَدِي، فَانْطَلَقْتُ مَعَهُ، فَمَا كَلَّمَنِي حَتَّى جِئْنَا سُوقَ بَنِي قَيْنُقَاعٍ، فَطَافَ فِيهِ وَنَظَرَ، ثُمَّ انْصَرَفَ وَأَنَا مَعَهُ، حَتَّى جِئْنَا الْمَسْجِدَ، فَجَلَسَ فَاحْتَبَى ثُمَّ قَالَ: ((أَيْنَ لَكَاعٌ؟ ادْعُ لِي لَكَاعًا))، فَجَاءَ حَسَنٌ يَشْتَدُّ فَوَقَعَ فِي حِجْرِهِ، ثُمَّ أَدْخَلَ يَدَهُ فِي لِحْيَتِهِ، ثُمَّ جَعَلَ النَّبِيُّ ﷺ يَفْتَحُ فَاهُ فَيُدْخِلُ فَاهُ فِي فِيهِ، ثُمَّ قَالَ: ((اللَّهُمَّ إِنِّي أُحِبُّهُ، فَأَحْبِبْهُ، وَأَحِبَّ مَنْ يُحِبُّهُ)).

**(1183)** ........ Nueym ibn əl-Mucmir rəvayət edir ki, Əbu Hureyrə ﷺ demişdir: "Mən hər dəfə Həsəni görəndə gözlərim yaşla dolardı.[2] Çünki bir gün Peyğəmbər ﷺ məscidə gəlib əlimdən tutdu və məni özü ilə apardı. Biz Bənu Qaynuqa qəbiləsinin bazarına yetişənədək o, mənə bir söz söyləmədi. O, bazarı gəzib,[3] *ətrafa* nəzər saldıqdan sonra mənimlə birgə geri döndü. Nəhayət, biz gəlib məscidə daxil olduq. O, dizlərini qatlayıb yerə oturdu

---

[1] Bu hədisi Əbu Davud (4075), Əhməd (5/63), Beyhəqi (3/236) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "səhih" olduğunu demişdir.

[2] Bu, Əbu Hureyrənin ﷺ əhli-beyti olduqca çox sevdiyini bir daha sübuta yetirir. Digər rəvayətdə bu hədisin sonunda Əbu Hureyrə ﷺ demişdir: "Peyğəmbərin ﷺ bu sözündən sonra Həsən ibn Əli mənim ən çox sevdiyim insanlardandır" (Səhih əl-Buxari, 5884).

[3] Bu, dəlildir ki, fəzilətli insanların,ələlxüsus da, başçıların bazara gəlməsi onlar üçün eyib sayılmır. Hədisdən açıq-aydın görünür ki, bəşəriyyətin ən fəzilətli və Allah yanında ən hörmətli olan Peyğəmbərimiz ﷺ bazara gedərmiş. Əvvəlki peyğəmbərlər də belə təvazökar olmuşlar. Quranda onlar barədə belə xəbər verilir: **"Səndən öncəki elçilərimiz də, yemək yeyər, bazarları gəzib dolanardılar"** (əl-Furqan, 20).

və: “Balaca haradadır? Balacanı yanıma çağır!”– dedi. *Çox keçmədən* Həsən qaça-qaça gəlib Peyğəmbərin ﷺ qucağına atıldı, sonra da əlini onun saqqalına saldı.[1] Peyğəmbər ﷺ də onun ağzını açıb öz ağzını onun ağzına vurmağa başladı. Sonra *dua edib* dedi: “Allahım, mən onu sevirəm, Sən də onu sev və onu sevən kimsəni də sev!”[2]

---

[1] Yeri gəlmişkən, qeyd edək ki, Peyğəmbərin ﷺ saqqalı sıx və uzun olmuşdur. Bu xüsusda, varid olmuş hədisdə rəvayət edilir ki, Xəbbab ibn Əratdan رضي الله عنه: “Peyğəmbər ﷺ zöhr və əsr namazlarında *Quran* oxuyardımı?”– deyə soruşdular. O: “Bəli!”– deyə cavab verdi. Ondan: “Siz bunu nədən bilirdiniz?”– deyə soruşdular. O dedi: “Saqqalının tərpənməsindən” (Səhih əl-Buxari, 746). Peyğəmbər ﷺ bir çox hədislərdə ümmətinin kişilərinə saqqal saxlamağı əmr etmişdir. Əbu Hureyrə رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Bığları qısaldın və saqqal buraxın, *beləliklə də,* atəşpərəstlərə müxalif olun!” (Səhih Muslim, 603). İbn Ömər رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: “Müşriklərə müxalif olun – saqqal buraxın və bığları qısaldın” (Səhih əl-Buxari, 5892). Peyğəmbərin ﷺ əmrinə itaətsizlik xüsusunda Uca Allah belə buyurur: **“Qoy, onun əmrinə qarşı çıxanlar başlarına bir bəla gəlməsindən, yaxud özlərinə ağrılı-acılı bir əzab üz verməsindən qorxsunlar”** (ən-Nur, 63).

[2] 1152-ci hədisin qeydlərinə bax.

## ٥٦٣– بَابُ مَنْ بَرَكَ عَلَى رُكْبَتَيْهِ

## 563-cü fəsil. Dizləri üstə çökən kimsə[1]

١١٨٤– حَدَّثَنَا يَحْيَى بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنَا إِسْحَاقُ بْنُ يَحْيَى الْكَلْبِيُّ قَالَ: حَدَّثَنَا الزُّهْرِيُّ قَالَ: حَدَّثَنَا أَنَسُ بْنُ مَالِكٍ، أَنَّ النَّبِيَّ ﷺ صَلَّى بِهِمُ الظُّهْرَ، فَلَمَّا سَلَّمَ قَامَ عَلَى الْمِنْبَرِ فَذَكَرَ السَّاعَةَ، وَذَكَرَ أَنَّ فِيهَا أُمُورًا عِظَامًا، ثُمَّ قَالَ: ((مَنْ أَحَبَّ أَنْ يَسْأَلَ عَنْ شَيْءٍ فَلْيَسْأَلْ عَنْهُ، فَوَاللَّهِ لاَ تَسْأَلُونِي عَنْ شَيْءٍ إِلاَّ أَخْبَرْتُكُمْ مَا دُمْتُ فِي مَقَامِي هَذَا))، قَالَ أَنَسٌ: فَأَكْثَرَ النَّاسُ الْبُكَاءَ حِينَ سَمِعُوا ذَلِكَ مِنْ رَسُولِ اللَّهِ ﷺ، وَأَكْثَرَ رَسُولُ اللَّهِ ﷺ أَنْ يَقُولَ: ((سَلُوا))، فَبَرَكَ عُمَرُ عَلَى رُكْبَتَيْهِ وَقَالَ: رَضِينَا بِاللَّهِ رَبًّا، وَبِالإِسْلاَمِ دِينًا، وَبِمُحَمَّدٍ رَسُولًا، فَسَكَتَ رَسُولُ اللَّهِ ﷺ حِينَ قَالَ ذَلِكَ عُمَرُ، ثُمَّ قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((أَوْلَى، أَمَا وَالَّذِي نَفْسُ مُحَمَّدٍ بِيَدِهِ، لَقَدْ عُرِضَتْ عَلَيَّ الْجَنَّةُ وَالنَّارُ فِي عُرْضِ هَذَا الْحَائِطِ، وَأَنَا أُصَلِّي، فَلَمْ أَرَ كَالْيَوْمِ فِي الْخَيْرِ وَالشَّرِّ)).

**(1184)** ........ Ənəs ibn Malik ﷺ rəvayət etmişdir ki, *bir gün* Peyğəmbər ﷺ onlara Zöhr namazını qıldırıb salam verdikdən sonra minbərə qalxıb, Qiyamət saatını yada saldı və həmin gün baş verəcək dəhşətli hadisələri xatırladı. Sonra belə buyurdu: “Kim nə haqda soruşmaq istəyirsə, qoy, soruşsun. Vallahi, bu yerdə durduğum müddət əsnasında məndən nə soruşsanız, sizə xəbər verəcəyəm.”[2] Camaat Peyğəmbərdən ﷺ bu sözləri eşitdikdə

---

[1] Xüsusilə qeyd etmək lazımdır ki, harada gəldi və kimin hüzurunda oldu, diz çökmək müsəlmana yaraşan əməllərdən deyil. Bunu yalnız zəruri halda və lazım gəldikdə etmək olar. Necə ki, bu fəsildə keçən hədisdə Ömər ibn Xattab ﷺ etmişdi.

[2] Peyğəmbərin ﷺ bu sözündən aydın olur ki, həmin vaxt ona vəhy nazil olurmuş. Belə ki, o, veriləcək suallara ancaq vəhy sayəsində cavab verə bilərdi. Elə buna görə də, o: “Bu yerdə durduğum müddət əsnasında məndən nə soruşsanız, sizə xəbər verəcəyəm”– demişdir. Bu da dəlildir ki, Peyğəmbər ﷺ istədiyi vaxt qeybdən xəbər verə bilməzdi. Çünki qeybi bilən, yalnız Allahdır (Abdur-Rəzzaq əl-Abbad).

hönkür-hönkür ağlamağa başladı.[1] Peyğəmbər ﷺ isə təkrar-təkrar: "Soruşun!"– deyə buyurdu. Onda, Ömər dizləri üstə yerə çöküb dedi: "Biz Allahın Rəbb, İslamın din və Muhəmmədin Rəsul olduğundan razıyıq!"[2] Ömər bu

---

[1] Şərhçilər, bu məqamda səhabələrin رضي الله عنهم ağlamalarının iki səbəbini qeyd etmişlər: birincisi, Peyğəmbərin ﷺ onlara Qiyamət barəsində danışması idi. İkincisi isə İmam Buxari və Muslimin "Səhih"lərindəki rəvayətlərdə öz təsdiqini tapmışdır. Həmin rəvayətdə xəbər verilir ki, Peyğəmbər ﷺ onlardan bəzilərinin verdiyi sullardan qəzəblənmişdir.

[2] Bu söz xeyirin hamısını özündə cəm etmişdir. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Allahın Rəbb, İslamın din və Muhəmmədin peyğəmbər olduğundan razı qalan kimsə imanın tamını dadmış olar!" (Səhih Muslim, 151). "Bir şeydən razı qaldım" demək, ona qane oldum və onunla kifayətləndim, onunla yanaşı, başqa bir şey istəmədim, deməkdir. Hədisdə razı qalmaq deyildikdə, Allahdan başqa məbud axtarmamaq, İslam yolundan başqa bir yol tutmamaq və Muhəmmədin ﷺ şəriətindən başqa bir şəriət qəbul etməmək qəsd edilir. Şəkk yoxdur ki, bu sifətləri özündə cəm edən kimsə imanın şirinliyini qəlbinə salmış və onun tamını dadmış olar, beləliklə də, xeyirin hamısını özündə cəm edər (Şərh ən-Nəvəvi). Bu kəlmələrin fəzilətinə dair neçə-neçə hədislər varid olmuşdur:

– Əbu Səid əl-Xudri رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Kim: "Radiytu billahi Rabbən və bil-İslami diynən və bi-Muhəmmədin Rəsulən!"– desə, Cənnət ona vacib olar (Sunən Əbu Davud, 1529; Silsilətul-Əhadisis-Səhihə, 334).

– əl-Muneyzir رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Kim hər səhər: "Radiytu billahi Rabbən və bil-İslami diynən və bi-Muhəmmədin nəbiyyən!"– desə, söz verirəm ki, mən onun əlindən tutub Cənnətə daxil edəcəyim (ət-Tərğib, 1/229; Mocəmul-Kəbir, 20/355/838; şeyx Albani bu hədisin "həsən li-ğeyrihi" olduğunu demişdir: Silsilətul-Əhadisis-Səhihə, 2686).

– Səd ibn Əbu Vəqqas رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Hər kim müəzzinin azan oxuduğunu eşitdikdə: "Əşhədu ən lə ilahə illəllahu vəhdəhu lə şərikə ləh və əşhədu ənnə Muhəmmədən abduhu və rasuluh. Radiytu billəhi Rabbən və bi-Muhəmmədin rasulən və bil-İslami dinən (Mən şahidlik edirəm ki, Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir. Allahın Rəbb, Muhəmmədin elçi və İslamın din olduğundan razıyam!)"– de-

sözləri dedikdən sonra Peyğəmbər ﷺ susdu. Sonra Peyğəmbər ﷺ dedi: "*Artıq* yaxınlaşmışdır![1] Muhəmmədin canı Əlində olan *Allaha* and olsun ki, *bir az öncə* namaz qılarkən bu divarın üzündə mənə Cənnət və Cəhənnəm göstərildi.[2] Mən bu gün xeyrə və şərə aid gördüklərimi *heç vaxt* görməmişəm."[3]

---

sə, onun keçmiş günahları bağışlanar" (Səhih Muslim, 851; Sunən Əbu Davud, 525; Sunən ət-Tirmizi, 210; Nəsai, 2/26).

Yeri gəlmişkən, qeyd edək ki, qəbirdə ilk soruşulacaq suallar məhz buna aid olacaq. Nəkir və Munkir adlı iki mələk bərzəx aləminə köçmüş hər kəsə: "Rəbbin kimdir?", "Peyğəmbərin kimdir?" və "Dinin nədir?"– deyə suallar verəcək. Bu suallara düzgün cavab verən mömin adam üçün Cənnətdən bir qapı açılacaq, Cənnətin gözəl iyi və havası ona gələcək, Cənnət nemətləri onun önünə səriləcək, qəbri də gözlərinin gördüyü son məsafəyə qədər genişlənəcək. Suallara cavab verə bilməyən kafir üçün isə Cəhənnəmdən bir qapı açılacaq, Onun yolu alovlandırılacaq, Cəhənnəm atəşi və alovlu külək ona dəyəcək, qəbri də o qədər sıxılacaq ki, qabırğaları bir-birinə keçəcək (Sunən Əbu Davud, 2/281; Mustədrək əl-Hakim, 1/37-40; Sunən İbn Macə, 1/469-470; Əhkamul-Cənaiz, səh: 159).

[1] Nəvəvi demişdir: "*Ərəbcə* ( أَوْلَى ) kəlməsi, təhdid və xəbərdarlıq bildirir... Mənası belədir ki, "Xoşunuza gəlməyən şey artıq sizə yaxınlaşmışdır." Uca Allahın: ﴿ أَوْلَى لَكَ فَأَوْلَى ﴾ – **"Vay sənin halına, vay!"** ayəsi də (əl-Qiyamə, 34) bu qəbildəndir. Yəni, xoşuna gəlməyən şey artıq sənə yaxınlaşmışdır, ondan həzər et! " (4353-cü hədisin şərhi).

[2] Peyğəmbərin ﷺ əyani şəkildə Cənnət və Cəhənnəmi görməsi, eyni zamanda da, arxasında duran səhabələrin bunu görməməsi Allahın hər şeyə qadir olduğuna dəlalət edir.

[3] Bu hədisi Buxari (540, 6362 və 7294) və Muslim (7/93-94) rəvayət etmişdir.

## ٥٦٤- بَابُ الاسْتِلْقَاءِ

## 564-cü fəsil. Arxası üstə uzanmaq

١١٨٥- حَدَّثَنَا مَالِكُ بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا ابْنُ عُيَيْنَةَ قَالَ: سَمِعْتُ الزُّهْرِيَّ يُحَدِّثُهُ، عَنْ عَبَّادِ بْنِ تَمِيمٍ، عَنْ عَمِّهِ قَالَ: رَأَيْتُهُ، قُلْتُ لِابْنِ عُيَيْنَةَ: النَّبِيَّ ﷺ؟ قَالَ: نَعَمْ مُسْتَلْقِيًا، وَاضِعًا إِحْدَى رِجْلَيْهِ عَلَى الأُخْرَى.

**(1185)** ........ Abbad ibn Təmim rəvayət etmişdir ki, əmisi (Abdullah ibn Zeyd əl-Ənsari[1]) Peyğəmbərin ﷺ arxası üstə uzanıb bir ayağını o biri ayağının üstünə qoyduğunu[2] görmüşdür.[3]

١١٨٦- حَدَّثَنَا إِسْحَاقُ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ جَعْفَرٍ، عَنْ أُمِّ بَكْرٍ بِنْتِ الْمِسْوَرِ، عَنْ أَبِيهَا قَالَ: رَأَيْتُ عَبْدَ الرَّحْمَنِ بْنَ عَوْفٍ مُسْتَلْقِيًا، رَافِعًا إِحْدَى رِجْلَيْهِ عَلَى الأُخْرَى.

**(1186)** ........ Misvar demişdir: "Mən Abdur-Rəhman ibn Aufun arxası üstə uzandığını və bir ayağını digərinin üstünə qoyduğunu görmüşəm."[4]

---

[1] Əbu Muhəmməd Abdullah ibn Zeyd ibn Asim ibn Kəb əl-Mazini ؓ Peyğəmbərin ﷺ səhabəsidir. Yalançı Museyləmini bu səhabə öldürmüşdür. Hicrətin 33-cü ilində vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 80-ci tərcümeyi-hal).

[2] Bu hədis arxası üstə uzanıb bir ayağı o biri ayağın üstünə qoymağın caiz olduğuna dəlalət edir. Lakin Cabir ibn Abdullahın ؓ rəvayət etdiyi hədisdə Rəsulullah ﷺ bunu ona qadağan edib demişdir: "Arxası üstə uzandığın zaman bir ayağını o biri ayağının üstünə qoyma" (Səhih Muslim, 6/154; Sunən ət-Tirmizi, 2993). Mubarəkfuri bu hədisləri izah edərkən demişdir: "Bu iki hədisi belə cəm etmək olar ki, bir ayaq digərinin üstünə iki cür qoyula bilər: birincisi, ayaqlar uzadılmış şəkildə bir ayağı digərinin üstünə qoymaqdır ki, bu halda övrət yeri görünmədiyindən, ayaqları bu şəkildə birini digərinin üstünə qoymaq caizdir. İkincisi isə, bir ayağı digərinin üstünə qoyaraq dizləri qatlayıb dik tutmaq və əllər ilə onları qucaqlamaqdır. Övrət yeri görünməyəcəksə, belə oturmaq caiz, əks halda isə, bu cür oturmaq qadağandır" (Tohfətul-Əhvəzi).

[3] Bu hədisi Buxari (5724), Muslim (2100), Əbu Davud (4866), Nəsai (721), Tirmizi (2766) və Əhməd (4/38) rəvayət etmişdir.

[4] Bu hədisin isnadında keçən Ummu Bəkr "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ٥٦٥- بَابُ الضَّجْعَةِ عَلَى وَجْهِهِ

## 565-ci fəsil. Üzüqoylu uzanmaq

١١٨٧- حَدَّثَنَا خَلَفُ بْنُ مُوسَى بْنِ خَلَفٍ قَالَ: حَدَّثَنَا أَبِي، عَنْ يَحْيَى بْنِ أَبِي كَثِيرٍ، عَنْ أَبِي سَلَمَةَ بْنِ عَبْدِ الرَّحْمَنِ بْنِ عَوْفٍ، عَنِ ابْنِ طِخْفَةَ الْغِفَارِيِّ، أَنَّ أَبَاهُ أَخْبَرَهُ، أَنَّهُ كَانَ مِنْ أَصْحَابِ الصُّفَّةِ، قَالَ: بَيْنَا أَنَا نَائِمٌ فِي الْمَسْجِدِ مِنْ آخِرِ اللَّيْلِ، أَتَانِي آتٍ وَأَنَا نَائِمٌ عَلَى بَطْنِي، فَحَرَّكَنِي بِرِجْلِهِ فَقَالَ: ((قُمْ، هَذِهِ ضَجْعَةٌ يُبْغِضُهَا اللَّهُ))، فَرَفَعْتُ رَأْسِي، فَإِذَا النَّبِيُّ ﷺ قَائِمٌ عَلَى رَأْسِي.

**(1187)** ........ Suffə[1] əhlindən olmuş Tixfə əl-Ğifari[2] ؓ demişdir: “*Bir dəfə* mən gecənin axır vaxtında məsciddə üzüqoylu yatdığım zaman, bir nəfər gəlib ayağı ilə məni silkələyib dedi: “Qalx, bu elə bir uzanmaqdır ki, Allah buna nifrət edər.”[3] Mən başımı qaldırdım və gördüm ki, Peyğəmbər ﷺ başımın üstə dayanıb.”[4]

---

[1] Peyğəmbərin ﷺ yanına hicrət etmiş, ancaq ev-eşiyi olmadığından məscidin bir tərəfində yaşayan mühacirlər.

[2] Tixfə ibn Qeys əl-Ğifari ؓ Peyğəmbərin ﷺ səhabəsidir. Hicrətin 60-cı ilindən sonra vəfat etmişdir (Təqrib ət-Təhzib, 3010-cu tərcümeyi-hal).

[3] Digər rəvayətdə Peyğəmbər ﷺ demişdir: “Bu, elə bir uzanmaqdır ki, Allah onu sevməz” (Sunən ət-Tirmizi, 2768; Səhih əl-Cami, 2270). Muhəmməd ibn Saleh əl-Useymin bu xüsusda, demişdir: “Arxası üstə yatmaq caiz, sol böyür üstə yatmaq da habelə caiz, sağ böyrü üstə yatmaq əfzəl, üzüqoylu yatmaq isə bəyənilməyən əməllərdəndir. Yalnız, zəruri halda üzüqoylu uzanmaq caizdir” (Şərh Riyadus-Salihin, 824-cü hədisin şərhi).

[4] Bu hədisi Əbu Davud (5040), İbn Macə (3724), Əhməd (3/430) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “səhih” olduğunu demişdir.

**١١٨٨-** حَدَّثَنَا مَحْمُودٌ قَالَ: حَدَّثَنَا يَزِيدُ بْنُ هَارُونَ قَالَ: أَخْبَرَنَا الْوَلِيدُ بْنُ جَمِيلٍ الْكِنْدِيُّ، مِنْ أَهْلِ فِلَسْطِينَ، عَنِ الْقَاسِمِ بْنِ عَبْدِ الرَّحْمَنِ، عَنْ أَبِي أُمَامَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ مَرَّ بِرَجُلٍ فِي الْمَسْجِدِ مُنْبَطِحًا لِوَجْهِهِ، فَضَرَبَهُ بِرِجْلِهِ وَقَالَ: ((قُمْ، نَوْمَةٌ جَهَنَّمِيَّةٌ)).

**(1188)** ........ Əbu Umamə ﷺ rəvayət edir ki, *bir dəfə* Rəsulullah ﷺ *gəlib* məsciddə üzüqoylu uzanmış bir kişinin yanından keçdi və ayağı ilə onu vurub dedi: “Qalx, *bu,* Cəhənnəm yatışıdır.”[1]

---

[1] Bu hədisin isnadında keçən Vəlid ibn Cəmil əl-Kindi əl-Fələstini “xətalara yol vermiş səduq” ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “zəif” olduğunu demişdir.

## ٥٦٦– بَابُ لا يَأْخُذُ وَلا يُعْطِي إِلا بِالْيُمْنَى

## 566-cı fəsil. Adam ancaq sağ əli ilə almalı və sağ əli ilə verməlidir[1]

١١٨٩– حَدَّثَنَا يَحْيَى بْنُ سُلَيْمَانَ قَالَ: حَدَّثَنَا ابْنُ وَهْبٍ قَالَ: حَدَّثَنِي عُمَرُ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنِي الْقَاسِمُ بْنُ عُبَيْدِ اللَّهِ بْنِ عَبْدِ اللَّهِ بْنِ عُمَرَ، عَنْ سَالِمٍ، عَنْ أَبِيهِ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((لاَ يَأْكُلْ أَحَدُكُمْ بِشِمَالِهِ، وَلاَ يَشْرَبَنَّ بِشِمَالِهِ، فَإِنَّ الشَّيْطَانَ يَأْكُلُ بِشِمَالِهِ، وَيَشْرَبُ بِشِمَالِهِ)).

قَالَ: كَانَ نَافِعٌ يَزِيدُ فِيهَا: ولا يَأْخُذْ بِهَا، وَلاَ يُعْطِي بِهَا.

**(1189)** ........ Abdullah ibn Ömər ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Sizlərdən heç biri sol əli ilə yeməsin və sol əli ilə içməsin! Çünki şeytan sol əli ilə yeyər və sol əli ilə içər."[2]

Nafi *bu hədisə* bunu da əlavə etmişdir: "Sol əli ilə almasın və sol əli ilə verməsin."[3]

---

[1] Aişə ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ ayaqqabılarını geyindikdə, saçını daradıqda, yuyunduqda və bütün işlərində sağdan başlamağı sevərdi (Səhih əl-Buxari, 168). Burada "bütün işlərində" deyildikdə, ancaq ehtirama layiq işlər nəzərdə tutulur. Bu xüsusda, İbn Qeyyim demişdir: "Peyğəmbər ﷺ ayaqqabısını geydikdə, saçlarını daradıqda, dəstəmaz aldıqda, sağdan başlamağı, habelə yemək yedikdə, su içdikdə, bir şey aldıqda və ya verdikdə bunu sağ əli ilə yerinə yetirməyi sevərdi. Ayaqyolunda təmizləndiyi və s. *ehtiram edilməyən işləri gördüyü zaman* isə bunu sol əli ilə edər *və ya sol tərəfdən başlayardı*)" (Zadul-Məad, 1/174).

[2] Bu hədisi Tirmizi, (1912), Əhməd (2/80), İbn Hibban (5229) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[3] Əbu Hureyrənin ﷺ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Qoy, sizlərdən hər biri sağ əli ilə yesin, sağ əli ilə içsin, sağ əli ilə götürsün və sağ əli ilə versin. Çünki şeytan sol əli ilə yeyər, sol əli ilə içər, sol əli ilə verər və sol əli ilə götürər" (Sunən İbn Macə, 2/303; Sisilətul-Əhadisis-Səhihə, 1236). Bu hədisdən aydın olur ki, şeytanın həqiqi mənada həm sağ, həm də sol əli vardır.

## ٥٦٧- بَابُ أَيْنَ يَضَعُ نَعْلَيْهِ إِذَا جَلَسَ؟

## 567-ci fəsil. Adam oturduqda ayaqqabılarını hara qoymalıdır?[1]

١١٩٠- حَدَّثَنَا قُتَيْبَةُ قَالَ: حَدَّثَنَا صَفْوَانُ بْنُ عِيسَى قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ هَارُونَ، عَنْ زِيَادِ بْنِ سَعْدٍ، عَنِ ابْنِ نَهِيكٍ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: مِنَ السُّنَّةِ إِذَا جَلَسَ الرَّجُلُ أَنْ يَخْلَعَ نَعْلَيْهِ، فَيَضَعُهُمَا إِلَى جَنْبِهِ.

**(1190)** ........ İbn Abbas رضي الله عنهما demişdir: “Adamın oturduğu zaman ayaqqabılarını soyunub yanına qoyması Sünnədəndir.”[2]

[1] Əgər ayaqqabıların qoyulması üçün ayrıca bir yer varsa, ayaqqabılarını soyunan adam onları həmin yerə qoymalı, yox əgər belə bir yer yoxdursa, onda, onları itirməsin deyə, öz yanına qoymalıdır.

[2] Bu hədisin isnadında keçən Abdullah ibn Harun “məqbul” ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “zəif” olduğunu demişdir.

## ٥٦٨- بَابُ الشَّيْطَانُ يَجِيءُ بِالْعُودِ وَالشَّيْءِ يَطْرَحُهُ عَلَى الْفِرَاشِ

## 568-ci fəsil. Şeytan ağac parçasını, yaxud buna bənzər bir şeyi gətirib çarpayının üstünə atar

**١١٩١-** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي مُعَاوِيَةُ، عَنْ أَزْهَرَ بْنِ سَعِيدٍ قَالَ: سَمِعْتُ أَبَا أُمَامَةَ يَقُولُ: إِنَّ الشَّيْطَانَ يَأْتِي إِلَى فِرَاشِ أَحَدِكُمْ بَعْدَمَا يَفْرِشُهُ أَهْلُهُ وَيُهَيِّئُونَهُ، فَيُلْقِي عَلَيْهِ الْعُودَ أَوِ الْحَجَرَ أَوِ الشَّيْءَ، لِيُغْضِبَهُ عَلَى أَهْلِهِ، فَإِذَا وَجَدَ ذَلِكَ فَلاَ يَغْضَبْ عَلَى أَهْلِهِ، قَالَ: لِأَنَّهُ مِنْ عَمَلِ الشَّيْطَانِ.

**(1191)** ........ Əbu Umamə ﷺ demişdir: "Sizdən birinizin həyat yoldaşı yatağını açdıqdan sonra şeytan yatağa yaxınlaşıb onun üzərinə ağac parçası, daş və ya bir şey atır ki, onu həyat yoldaşına qarşı qəzəbləndirsin. Biriniz o şeyi *yatağında* görərsə, qoy, həyat yoldaşına acıqlanmasın. Çünki bu, şeytan əməlindəndir."[1]

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən", üstəlik "mərfu" hökmündə olduğunu demişdir (1217-ci hədisə bax).

## ٥٦٩- بَابُ مَنْ بَاتَ عَلَى سَطْحٍ لَيْسَ لَهُ سُتْرَةٌ

## 569-cu fəsil. Örtüyü olmayan bir dam üstə yatan kimsə

**١١٩٢-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُثَنَّى قَالَ: حَدَّثَنَا سَالِمُ بْنُ نُوحٍ قَالَ: أَخْبَرَنَا عُمَرُ، رَجُلٌ مِنْ بَنِي حَنِيفَةَ هُوَ ابْنُ جَابِرٍ، عَنْ وَعْلَةَ بْنِ عَبْدِ الرَّحْمَنِ بْنِ وَثَّابٍ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ عَلِيٍّ، عَنْ أَبِيهِ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَنْ بَاتَ عَلَى ظَهْرِ بَيْتٍ لَيْسَ عَلَيْهِ حِجَابٌ فَقَدْ بَرِئَتْ مِنْهُ الذِّمَّةُ)).

قَالَ أَبُو عَبْدِ اللَّهِ: فِي إِسْنَادِهِ نَظَرٌ.

**(1192)** ........ Əli رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kim örtüyü[1] olmayan bir damın üstə yatsa, ona görə heç kəs cavabdeh olmaz.[2]"[3]

Əbu Abdullah[4] demişdir: "Bu hədisin isnadı bir daha gözdən keçirilməlidir."[5]

---

[1] Burada "örtük" deyildikdə, hər tərəfdən bu damı əhatə edən şəbəkə – damdan düşmək təhlükəsinin qabağını alan, ağacdan, metaldan, daşdan, məftildən qayrılmış tor və ya hörgü nəzərdə tutulur. Bu da dəlildir ki, adam belə işlərdə Allaha təvəkkül etdikdə, özünü təhlükədən qoruyacaq səbəblərdən də tutmalıdır.

[2] Yəni əgər damdan yıxılıb ölərsə, buna görə ev yiyəsi məsuliyyət daşımaz. Adam belə etdikdə öz əli ilə özünü təhlükəyə atmış və beləliklə də, Allahın himayəsindən çıxmış olur.

[3] Bu hədisi Əbu Davud (5041) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[4] Yəni Muhəmməd ibn İsmail əl-Buxari.

[5] Müəllif bu sözü ilə hədisin isnadındakı ravilərdən birinin etibarsızlıqda ittiham olunduğunu nəzərdə tutur. Ola bilsin ki, İmam Buxari bu hədisin isnadında keçən Salim ibn Nuhu qəsd edir. Belə ki, bəzi hədis alimləri onun "xətalara yol vermiş səduq" ravi olduğunu söyləmişlər.

١١٩٣- حَدَّثَنَا مُحَمَّدُ بْنُ كَثِيرٍ قَالَ: أَخْبَرَنَا سُفْيَانُ، عَنْ عِمْرَانَ بْنِ مُسْلِمِ بْنِ رِيَاحٍ الثَّقَفِيِّ، عَنْ عَلِيِّ بْنِ عُمَارَةَ قَالَ: جَاءَ أَبُو أَيُّوبَ الأَنْصَارِيُّ، فَصَعِدْتُ بِهِ عَلَى سَطْحٍ أَجْلَحَ، فَنَزَلَ وَقَالَ: كِدْتُ أَنْ أَبِيتَ اللَّيْلَةَ وَلاَ ذِمَّةَ لِي.

**(1193)** ........ Əli ibn Umarə demişdir: "*Bir gün* Əbu Əyyub əl-Ənsari *mənim yanıma* gəldi və mən onunla bərabər məhəccəri[1] olmayan dama qalxdım. Sonra o, *damdan* aşağı endi və dedi: "Az qala heç bir mühafizəçim olmadan damda gecələyəcəkdim."[2]

١١٩٤- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ : حَدَّثَنَا الْحَارِثُ بْنُ عُبَيْدٍ قَالَ: حَدَّثَنِي أَبُو عِمْرَانَ، عَنْ زُهَيْرٍ، عَنْ رَجُلٍ مِنْ أَصْحَابِ النَّبِيِّ ﷺ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَنْ بَاتَ عَلَى إِنْجَارٍ فَوَقَعَ مِنْهُ فَمَاتَ، بَرِئَتْ مِنْهُ الذِّمَّةُ، وَمَنْ رَكِبَ الْبَحْرَ حِينَ يَرْتَجُّ، يَعْنِي: يَغْتَلِمُ، فَهَلَكَ بَرِئَتْ مِنْهُ الذِّمَّةُ)).

**(1194)** ........ Peyğəmbərin ﷺ səhabələrindən biri rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kim ətrafına şəbəkə çəkilməmiş damın üstündə yatsa, sonra da oradan yerə düşüb ölsə, ona görə heç kəs cavabdehlik daşımaz. Eləcə də, dəniz təlatümə gəldiyi zaman kim dənizə çıxıb orada ölərsə, ona görə heç kəs cavabdehlik daşımaz."[3]

---

[1] Məhəccər: eyvanın, pilləkənin, körpünün kənarına çəkilən şəbəkə; barmaqlıq, sürahi.

[2] Bu hədisin isnadında keçən Əli ibn Umarənin necə ravi olduğu "məchul" qaldığı üçün, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "həsən" olduğunu demişdir.

## ٥٧٠- بَابُ هَلْ يُدْلِي رِجْلَيْهِ إِذَا جَلَسَ؟

## 570-ci fəsil. Adam oturduğu zaman ayaqlarını aşağı sallaya bilərmi?[1]

١١٩٥- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي عَبْدُ الرَّحْمَنِ بْنُ أَبِي الزِّنَادِ، عَنْ أَبِيهِ قَالَ: شَهِدَ عِنْدِي أَبُو سَلَمَةَ بْنُ عَبْدِ الرَّحْمَنِ، أَخْبَرَهُ عَبْدُ الرَّحْمَنِ بْنُ نَافِعِ بْنِ عَبْدِ الْحَارِثِ الْخُزَاعِيُّ، أَنَّ أَبَا مُوسَى الْأَشْعَرِيَّ أَخْبَرَهُ، أَنَّ النَّبِيَّ ﷺ كَانَ فِي حَائِطٍ عَلَى قُفِّ الْبِئْرِ، مُدَلِّيًا رِجْلَيْهِ فِي الْبِئْرِ.

**(1195)** ........ Abdur-Rəhman ibn Nafi ibn Abdul-Haris əl-Xuzai rəvayət edir ki, Əbu Musa əl-Əşari ﷺ demişdir: "Peyğəmbər ﷺ bostanda su quyusunun başında oturub ayaqlarını quyuya sallamışdır."[2]

[1] Yəni adam quyunun başında, yaxud taxtın üstündə və ya başqa hündür bir yerdə oturduğu zaman ayaqlarını aşağı sallaya bilərmi, yoxsa, onun üstə bardaş qurmalı və ya başqa cür ayaqlarını yığıb oturmalıdır? Müəllifin bu fəsildə nəql etdiyi bu hədisdən aydın olur ki, hündür bir yerdə oturmuş adam ayaqlarını aşağı sallaya bilər.

[2] 1151-ci hədisin qeydlərinə bax.

## ٥٧١- بَابُ مَا يَقُولُ إِذَا خَرَجَ لِحَاجَتِهِ

## 571-ci fəsil. Adam iş dalınca evdən çıxdıqda nə deməlidir

**١١٩٦-** حَدَّثَنَا مُحَمَّدٌ، قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ قَالَ: أَخْبَرَنَا مُحَمَّدُ بْنُ إِبْرَاهِيمَ قَالَ: حَدَّثَنِي مُسْلِمُ بْنُ أَبِي مَرْيَمَ، أَنَّ ابْنَ عُمَرَ كَانَ إِذَا خَرَجَ مِنْ بَيْتِهِ قَالَ: اللَّهُمَّ سَلِّمْنِي وَسَلِّمْ مِنِّي.

**(1196)** ........ Muhəmməd ibn İbrahim rəvayət edir ki, Muslim ibn Əbu Məryəm ona belə rəvayət etmişdir: "İbn Ömər evindən bayıra çıxdığı zaman deyərdi: "Allahım, məni salamat et, *başqalarını da* mənim *əlimdən* salamat et![1]"[2]

**١١٩٧-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ الصَّلْتِ أَبُو يَعْلَى قَالَ: حَدَّثَنَا حَاتِمُ بْنُ إِسْمَاعِيلَ، عَنْ عَبْدِ اللَّهِ ابْنِ حُسَيْنِ بْنِ عَطَاءٍ، عَنْ سُهَيْلِ بْنِ أَبِي صَالِحٍ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ ، عَنِ النَّبِيِّ ﷺ أَنَّهُ كَانَ إِذَا خَرَجَ مِنْ بَيْتِهِ قَالَ: ((بِسْمِ اللَّهِ، التُّكْلاَنُ عَلَى اللَّهِ، لا حَوْلَ وَلا قُوَّةَ إِلا بِاللَّهِ)).

---

[1] Bundan aydın olur ki, adam evdən bayıra çıxdıqda, Allahdan həm özünün salamat olmasını, həm də başqalarına zərər verməməsini diləməlidir. Bu mənada varid olmuş "səhih" hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ evindən bayıra çıxdıqda deyərmiş:

(( بِسْمِ اللَّهِ، تَوَكَّلْتُ عَلَى اللَّهِ، اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ أَنْ أَضِلَّ أَوْ أُضَلَّ، أَوْ أَزِلَّ أَوْ أُزَلَّ، أَوْ أَظْلِمَ أَوْ أُظْلَمَ، أَوْ أَجْهَلَ أَوْ يُجْهَلَ عَلَيَّ ))

Transkripsiyası: Bismilləh, təvəkkəltu aləllah! Allahummə inni əuzu bikə ən ədıllə, əu udallə, əu əzillə, əu uzəllə, əu əzlimə, əu uzləmə, əu əchələ, əu yuchələ aleyyə!

Tərcüməsi: Allahın adı ilə! Allaha təvəkkül etdim. Allahım, doğru yoldan azmaqdan və ya azdırılmaqdan, çaşmaqdan və ya çaşdırılmaqdan, zülm etməkdən və ya zülmə məruz qalmaqdan, cahil olmaqdan və ya mənə qarşı cahillik edilməsindən Sənə sığınıram! (Sunən ət-Tirmizi, 9/126/3423; Sunən ən-Nəsai, 2/322; Musnəd Əhməd, 6/306; Mustədrək əl-Hakim, 1/519; Musənnəf İbn Əbu Şeybə, 10/211/9250; Mocəmul-Kəbir, 23/320/727; əd-Dua, 2/986/ 411; Aməlul-Yovm vəl-Leylə, İbnus-Sinni, 1/72; Silsilətul-Əhadisis-Səhihə, 3163).

[2] Bu hədisin isnadında keçən Muhəmməd ibn İbrahim ibn Abdur-Rəhman ibn Sovban "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

**(1197)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ evindən bayıra çıxdıqda deyərdi: "Allahın adı ilə! Təvəkkül Allahadır. Qüdrət və qüvvət ancaq Allaha aiddir.[1]"[2]

---

[1] Bundan aydın olur ki, adam evdən bayıra çıxdıqda, yalnız Allaha təvəkkül etməlidir. Hədisə diqqətlə nəzər salsaq görərik ki, bu duada keçən üç kəlmənin üçündə də Allaha təvəkkül etmək vardır. Belə ki, işinə Allahın adı ilə başlayan, bu işdə Ona arxayın olan və yalnız Onun gücünə və qüdrətinə etimad edən kimsə, əlbəttə ki, yalnız Allaha təvəkkül etmiş sayılır. Bu mənada varid olmuş "səhih" hədisdə Ənəs ibn Malik ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Adam evindən bayıra çıxdığı zaman:

(( بِسْمِ اللهِ تَوَكَّلْتُ عَلَى اللهِ، لاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللهِ ))

"Bismilləh, təvəkkəltu aləllah! Lə hovlə və lə quvvətə illə billəh! (Allahın adı ilə! Allaha təvəkkül etdim. Qüdrət və güc yalnız Allahdadır!)"– desə, həmin vaxt *mələk ona*: "Doğru yola yönəldin, *işlərin* yoluna qoyuldu, *şərdən* qorundun!"– deyər, üstəlik, şeytan ondan uzaq durar və şeytanlardan biri o birisinə deyər: "Doğru yola yönəlmiş, *işləri* yoluna qoyulmuş və *şərdən* qorunmuş adama sən nə edə bilərsən ki?!" (Sunən Əbu Davud 5095; Sunən ət-Tirmizi, 3427; Səhih ət-Tirmizi, 3/151). Bu hədisdən o da aydın olur ki, şeytan adamı yoldan çıxarmağa hərisdir və o, bir adamı azdırmaq üçün saatlarla yolda oturub onun evdən çıxmasını gözləyə bilər. Hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Şeytan Adəm övladının getdiyi yollar üstündə oturar: İslam yolunun üstündə oturub deyər: "Müsəlman olmaq istəyirsən, öz dinini, atalarının və babalarının dinini tərk edirsən?!" Adam ona qulaq asmayıb, İslam dinini qəbul edər. Sonra şeytan onun hicrət yolunun üstündə oturub deyər: "Hicrət edirsən, öz torpağını və yurdunu qoyub gedirsən?! Hicrət edən adam yüyənlənmiş at kimi bir şeydir." Adam ona qulaq asmayıb, hicrət edər. Sonra şeytan onun cihad yolunun üstündə oturub deyər: "Cihada gedirsən, öz canından və malından keçirsən?! Vuruşub öləcəksən, arvadın başqasına ərə gedəcək, mal-dövlətin bölüşdürüləcək." Adam ona qulaq asmayıb, Allah yolunda cihad edər."

Rəsulullah ﷺ davam edib buyurdu: "Kim belə etsə, Allah mütləq onu Cənnətə daxil edər..." (Tarix əl-Kəbir, 2/2/187-188; Sunən ən-Nəsai, 2/58; Musnəd Əhməd, 3/483; Şoəbul-İman, 4/21/4246; Mocəmul-Kəbir, 7/138; Musənnəf İbn Əbu Şeybə, 5/293; Silsilətul-Əhadisis-Səhihə, 2979).

[2] Bu hədisin isnadında keçən Abdullah ibn Hüseyn ibn Əta "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ٥٧٢- بَابُ هَلْ يُقَدِّمُ الرَّجُلُ رِجْلَهُ بَيْنَ أَيْدِي أَصْحَابِهِ، وَهَلْ يَتَّكِئُ بَيْنَ أَيْدِيهِمْ؟

## 572-ci fəsil. Adam öz dostlarının önündə ayaqlarını qabağa uzada bilərmi,[1] onların qabağında dirsəklənə bilərmi?[2]

١١٩٨- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ عَبْدِ الرَّحْمَنِ الْعَصَرِيُّ قَالَ: حَدَّثَنَا شِهَابُ بْنُ عَبَّادٍ الْعَصَرِيُّ، أَنَّ بَعْضَ وَفْدِ عَبْدِ الْقَيْسِ سَمِعَهُ يَذْكُرُ، قَالَ: لَمَّا بَدَأْنَا فِي وِفَادَتِنَا إِلَى النَّبِيِّ ﷺ سِرْنَا، حَتَّى إِذَا شَارَفْنَا الْقُدُومَ تَلَقَّانَا رَجُلٌ يُوضِعُ عَلَى قَعُودٍ لَهُ، فَسَلَّمَ، فَرَدَدْنَا عَلَيْهِ، ثُمَّ وَقَفَ فَقَالَ: مِمَّنِ الْقَوْمُ؟ قُلْنَا: وَفْدُ عَبْدِ الْقَيْسِ، قَالَ: مَرْحَبًا بِكُمْ وَأَهْلًا، إِيَّاكُمْ طَلَبْتُ، جِئْتُ لِأُبَشِّرَكُمْ، قَالَ النَّبِيُّ ﷺ بِالأَمْسِ لَنَا: إِنَّهُ نَظَرَ إِلَى الْمَشْرِقِ فَقَالَ: ((لَيَأْتِيَنَّ غَدًا مِنْ هَذَا الْوَجْهِ، يَعْنِي: الْمَشْرِقَ، خَيْرُ وَفْدِ الْعَرَبِ))، فَبِتُّ أُرَوِّغُ حَتَّى أَصْبَحْتُ، فَشَدَدْتُ عَلَى رَاحِلَتِي، فَأَمْعَنْتُ فِي الْمَسِيرِ حَتَّى ارْتَفَعَ النَّهَارُ، وَهَمَمْتُ الرُّجُوعِ، ثُمَّ رُفِعَتْ رُءُوسُ رَوَاحِلِكُمْ، ثُمَّ ثَنَى رَاحِلَتَهُ بِزِمَامِهَا رَاجِعًا يُوضِعُ عَوْدَهُ عَلَى بَدْئِهِ، حَتَّى انْتَهَى إِلَى النَّبِيِّ ﷺ، وَأَصْحَابُهُ حَوْلَهُ مِنَ الْمُهَاجِرِينَ وَالأَنْصَارِ، فَقَالَ: بِأَبِي وَأُمِّي، جِئْتُ أُبَشِّرُكَ بِوَفْدِ عَبْدِ الْقَيْسِ، فَقَالَ: ((أَنَّى لَكَ بِهِمْ، يَا عُمَرُ؟)) قَالَ: هُمْ أُولَاءِ عَلَى أَثَرِي، قَدْ أَظَلُّوا، فَذَكَرَ ذَلِكَ، فَقَالَ: بَشَّرَكَ اللَّهُ بِخَيْرٍ، وَتَهَيَّأَ الْقَوْمُ فِي مَقَاعِدِهِمْ، وَكَانَ النَّبِيُّ ﷺ قَاعِدًا، فَأَلْقَى ذَيْلَ رِدَائِهِ تَحْتَ يَدِهِ فَاتَّكَأَ عَلَيْهِ، وَبَسَطَ رِجْلَيْهِ. فَقَدِمَ الْوَفْدُ فَفَرِحَ بِهِمُ الْمُهَاجِرُونَ وَالأَنْصَارُ، فَلَمَّا رَأَوُا النَّبِيَّ ﷺ وَأَصْحَابَهُ أَمْرَحُوا رِكَابَهُمْ فَرَحًا بِهِمْ، وَأَقْبَلُوا سِرَاعًا، فَأَوْسَعَ الْقَوْمُ، وَالنَّبِيُّ ﷺ مُتَّكِئٌ عَلَى حَالِهِ، فَتَخَلَّفَ الأَشَجُّ، وَهُوَ: مُنْذِرُ بْنُ عَائِذِ بْنِ مُنْذِرِ بْنِ الْحَارِثِ بْنِ النُّعْمَانِ بْنِ زِيَادِ بْنِ عَصَرَ، فَجَمَعَ رِكَابَهُمْ ثُمَّ أَنَاخَهَا، وَحَطَّ أَحْمَالَهَا، وَجَمَعَ مَتَاعَهَا، ثُمَّ أَخْرَجَ عَيْبَةً لَهُ وَأَلْقَى عَنْهُ ثِيَابَ السَّفَرِ وَلَبِسَ حُلَّةً، ثُمَّ أَقْبَلَ يَمْشِي مُتَرَسِّلًا، فَقَالَ النَّبِيُّ ﷺ: ((مَنْ سَيِّدُكُمْ، وَزَعِيمُكُمْ، وَصَاحِبُ أَمْرِكُمْ؟)) فَأَشَارُوا بِأَجْمَعِهِمْ إِلَيْهِ، وَقَالَ: ((ابْنُ سَادَتِكُمْ هَذَا؟)) قَالُوا: كَانَ آبَاؤُهُ سَادَتَنَا فِي الْجَاهِلِيَّةِ، وَهُوَ قَائِدُنَا إِلَى الإِسْلَامِ، فَلَمَّا

---

[1] 542-ci fəsilin qeydlərinə bax.

[2] 15-ci və 600-cü hədisə bax.

انْتَهَى الأَشَجُّ أَرَادَ أَنْ يَقْعُدَ مِنْ نَاحِيَةٍ، اسْتَوَى النَّبِيُّ ﷺ قَاعِدًا قَالَ: ((هَا هُنَا، يَا أَشَجُّ))، وَكَانَ أَوَّلَ يَوْمٍ سُمِّيَ الأَشَجَّ ذَلِكَ الْيَوْمَ، أَصَابَتْهُ حِمَارَةٌ بِحَافِرِهَا وَهُوَ فَطِيمٌ، فَكَانَ فِي وَجْهِهِ مِثْلُ الْقَمَرِ، فَأَقْعَدَهُ إِلَى جَنْبِهِ، وَأَلْطَفَهُ، وَعَرَفَ فَضْلَهُ عَلَيْهِمْ، فَأَقْبَلَ الْقَوْمُ عَلَى النَّبِيِّ ﷺ يَسْأَلُونَهُ وَيُخْبِرُهُمْ، حَتَّى كَانَ بِعَقِبِ الْحَدِيثِ قَالَ: ((هَلْ مَعَكُمْ مِنْ أَزْوِدَتِكُمْ شَيْءٌ؟)) قَالُوا: نَعَمْ، فَقَامُوا سِرَاعًا، كُلُّ رَجُلٍ مِنْهُمْ إِلَى ثِقَلِهِ فَجَاءُوا بِصُبَرِ التَّمْرِ فِي أَكُفِّهِمْ، فَوُضِعَتْ عَلَى نِطَعٍ بَيْنَ يَدَيْهِ، وَبَيْنَ يَدَيْهِ جَرِيدَةٌ دُونَ الذِّرَاعَيْنِ وَفَوْقَ الذِّرَاعِ، فَكَانَ يَخْتَصِرُ بِهَا، قَلَّمَا يُفَارِقُهَا، فَأَوْمَأَ بِهَا إِلَى صُبْرَةٍ مِنْ ذَلِكَ التَّمْرِ فَقَالَ: ((تُسَمُّونَ هَذَا التَّعْضُوضَ؟)) قَالُوا: نَعَمْ، قَالَ: ((وَتُسَمُّونَ هَذَا الصِّرْفَانَ؟)) قَالُوا: نَعَمْ، ((وَتُسَمُّونَ هَذَا الْبَرْنِيَّ؟))، قَالُوا: نَعَمْ، قَالَ: ((هُوَ خَيْرُ تَمْرِكُمْ وَأَنْفَعُهُ لَكُمْ))، وَقَالَ بَعْضُ شُيُوخِ الْحَيِّ: وَأَعْظَمُهُ بَرَكَةً وَإِنَّمَا كَانَتْ عِنْدَنَا خَصِبَةٌ نُعْلِفُهَا إِبِلَنَا وَحَمِيرَنَا، فَلَمَّا رَجَعْنَا مِنْ وِفَادَتِنَا تِلْكَ عَظُمَتْ رَغْبَتُنَا فِيهَا، وَفَسَلْنَاهَا حَتَّى تَحَوَّلَتْ ثِمَارُنَا مِنْهَا، وَرَأَيْنَا الْبَرَكَةَ فِيهَا.

**(1198)** ........ Yəhya ibn Abdur-Rəhman əl-Asari rəvayət edir ki, Şihab ibn Abbad əl-Asari demişdir: "Abdulqeys qəbiləsinin heyətindən olan birisi belə rəvayət etmişdir: "Biz bir dəstə hazırlayıb Peyğəmbərin ﷺ yanına getdik. Nəhayət, onun yanına yetişməyə az qalmış qarşımıza, cavan bir dəvənin üstündə oturmuş bir kişi çıxdı. O, bizə salam verdi, biz də onun salamını aldıq. Sonra o, dayanıb bizdən: "Siz hansı qəbilədənsiniz?"– deyə soruşdu. Biz: "Abdulqeys qəbiləsindənik"– deyə cavab verdik. O dedi: "Xoş gəlmişsiniz! Elə mən də, sizi axtarırdım. Gəlmişəm ki, sizə müjdə verim. Dünən Peyğəmbər ﷺ günçıxan tərəfə baxıb bizə dedi: "Sabah bu istiqamətdən, yəni məşriq tərəfdən ərəblərin ən xeyirli heyəti gələcək."

Mən gecəni *sizi görmək* ümidilə keçirdim. Nəhayət, səhər oyanıb miniyimi hazırladım və yola düzəldim. Mən günortayadək yol getdikdən sonra geri dönmək qərarına gəldim. Lakin sizin dəvələrinizin başını gördüm."

Sonra həmin adam dəvəsinin noxtasından tutub onu geri döndərdi və çubuğu ilə onu vuraraq geri qayıtdı. Nəhayət, Peyğəmbərin ﷺ yanına çatdı. Mühacirlərdən və ənsardan olan səhabələri onun yanında idi. Səhabə dedi: "Atam-anam sənə qurban, *ya Rəsulullah,* Abdulqeys qəbiləsinin heyətinə dair sənə müjdə gətirmişəm." Peyğəmbər ﷺ dedi: "Ey Ömər, bu məlumat sənə haradandır?" Ömər dedi: "Onlar, arxamca gəlirdilər, artıq yaxınlaşıblar." O, bunu beləcə anlatdı. Peyğəmbər ﷺ buyurdu: "Allah səni xeyirlə müjdələsin!" *Peyğəmbərin ﷺ ətrafındakı* səhabələri oturduqları yerdə hazırlıq görməyə başladılar. Peyğəmbər ﷺ oturmuşdu. O, libasının ətəyini qolunun altına qoyub onun üstünə dirsəkləndi və ayaqlarını uzatdı. Çox keçmədən *Abdulqeys qəbiləsindən olan* heyət gəldi. Mühacirlər və ənsar *onların gəlişinə* sevindilər. Onlar Peyğəmbəri ﷺ və onun səhabələrini görəndə sevinclərindən heyvanlarının başını buraxıb tələsik *onlara* yaxınlaşdılar. Camaat onlara yer verdi. Peyğəmbər ﷺ isə əvvəlki kimi dirsəklənmişdi. *Heyətin başçısı* Əşəc geridə qalmışdı. *Onun adı* Munzir bin Aiz bin Munzir bin Haris bin Nomən bin Ziyad bin Asar idi. O, *yoldaşlarının* heyvanlarını bir yerə toplayıb onları yerə çökdürdü, yüklərini endirdi və mallarını bir yerə yığdı. Sonra öz boxçasını çıxardı və əynindəki çöl paltarını çıxardıb *əvəzinə* gözəl bir libas geydi. Sonra dönüb aramla gəlməyə başladı. Peyğəmbər ﷺ *onlardan*: "Sizin böyüyünüz, başçınız və ixtiyar sahibiniz kimdir?"– deyə soruşdu. Onların hamısı Əşəci göstərdi. Peyğəmbər ﷺ soruşdu: "Böyüklərinizin oğlu budurmu?" Onlar dedilər: "Bunun ata-babaları cahiliyyət dövründə bizim böyüklərimiz idi. İndi də o, bizi İslam dininə aparan başçımızdır."[1] Əşəc ora gəlib çatdıqda, bir qırağda oturmaq istədi. Peyğəmbər ﷺ qalxıb oturdu və *ona*: "Burada *otur*, ey Əşəc!"– dedi. Əşəc

---

[1] Müəllif bu kitabda Əşəcin (r.a.) fəzilətinə dair bir neçə hədis rəvayət etmişdir (267-ci fəsildəki hədislərə bax).

uşaq ikən onu süddən kəsilmiş bir xotuq ayağı ilə vurmuş və üzündə aya bənzər iz salmışdı deyə, ona həmin gündən bəri bu ad verilmişdi. Peyğəmbər ﷺ onu yanında oturtdu, ona iltifat göstərdi və onun fəzilətini səhabələrə bildirdi. Səhabələr Peyğəmbərə ﷺ üz tutub, ona sual verməyə başladılar. O da, onlara cavab verdi. Nəhayət, sözünü bitirdikdə, onlardan: "Yanınızda azuqəniz varmı?"– deyə soruşdu. Onlar: "Bəli!"– deyib tez ayağa qalxdılar. Hər biri öz boxçasının yanına gəlib bir ətək xurma götürdü və gətirib onu Peyğəmbərin ﷺ önünə qoydu. Peyğəmbərin ﷺ önündə xurma ağacından düzəldilmiş, iki dirsəkdən qısa, bir dirsəkdən uzun bir əsası var idi. Peyğəmbər ﷺ ona söykənir və çox nadir hallarda onu əlindən yerə qoyardı. Peyğəmbər ﷺ bu çubuqla xurma topasına işarə edib soruşdu: "Buna Tə'dud deyirsiniz?" Onlar: "Bəli"– deyə cavab verdilər. Yenə soruşdu: "Buna da Sirfan deyirsiniz?" Onlar: "Bəli"– deyə cavab verdilər. Yenə soruşdu: "Buna da Bərniy[1] deyirsiniz?" Onlar: "Bəli"– deyə cavab verdilər. Peyğəmbər ﷺ buyurdu: "Bu, xurmalarınızın ən xeyirlisi və sizin üçün ən faydalısıdır." Kəndin ağsaqqallarından biri dedi: "Bərəkət baxımından ən böyüyüdür. Doğrusu, bizdə bu xurmalardan çox idi və biz onu dəvələrimizə və ulaqlarımıza yedirdirdik. Bu səfərdən qayıtdıqdan sonra isə həmin xurmaya rəğbətimiz oyandı və bu xurmadan əkdik. Belə ki, meyvələrimiz onda oldu və bunun bərəkətini gördük."[2]

---

[1] Tə'dud, Sirfan və Bərniy xurma növləridir.

[2] Bu hədisin isnadında keçən Yəhya ibn Abdur-Rəhman əl-Asari necə ravi olduğu bilinmədiyindən, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ٥٧٣- بَابُ مَا يَقُولُ إِذَا أَصْبَحَ

## 573-cü fəsil. Adam səhərə çıxdıqda nə deməlidir

**١١٩٩-** حَدَّثَنَا مُعَلًّى قَالَ: حَدَّثَنَا وُهَيْبٌ قَالَ: حَدَّثَنَا سُهَيْلُ بْنُ أَبِي صَالِحٍ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: كَانَ النَّبِيُّ ﷺ إِذَا أَصْبَحَ قَالَ: ((اللَّهُمَّ بِكَ أَصْبَحْنَا، وَبِكَ أَمْسَيْنَا، وَبِكَ نَحْيَا، وَبِكَ نَمُوتُ، وَإِلَيْكَ النُّشُورُ))، وَإِذَا أَمْسَى قَالَ: ((اللَّهُمَّ بِكَ أَمْسَيْنَا، وَبِكَ أَصْبَحْنَا، وَبِكَ نَحْيَا، وَبِكَ نَمُوتُ، وَإِلَيْكَ الْمَصِيرُ)).

**(1199)** ........ Əbu Hureyrə رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ *hər* səhər: “Allahım, Sənin sayəndə səhərə çıxdıq, Sənin sayəndə axşama çıxdıq, Sənin sayəndə yaşayırıq, Sənin sayəndə ölürük! Qayıdış da Sənədir!”[1]– deyər, axşam isə: “Allahım, Sənin sayəndə axşama çıxdıq, Sənin sayəndə səhərə çıxdıq, Sənin sayəndə yaşayırıq, Sənin sayəndə ölürük! Dönüş də Sənədir![2]”[3]– deyərdi.[4]

**١٢٠٠-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلَامٍ قَالَ: حَدَّثَنَا وَكِيعٌ، عَنْ عُبَادَةَ بْنِ مُسْلِمٍ الْفَزَارِيِّ قَالَ: حَدَّثَنِي جُبَيْرُ بْنُ أَبِي سُلَيْمَانَ بْنِ جُبَيْرِ بْنِ مُطْعِمٍ قَالَ: سَمِعْتُ ابْنَ عُمَرَ يَقُولُ: لَمْ يَكُنْ رَسُولُ اللَّهِ ﷺ يَدَعُ

---

[1] Transkripsiyası: Allahummə, bikə əsbəhnə, və bikə əmsəynə, və bikə nəhyə, və bikə nəmut, və ileykən-nuşur!

[2] Transkripsiyası: Allahummə, bikə əmsəynə, və bikə əsbəhnə, və bikə nəhyə, və bikə nəmut, və ileykəl-məsir!

[3] Bu zikri hər səhər və hər axşam bir dəfə demək Sünnədir. Bu zikr hər səhər və hər axşam bizə öləcəyimizi və Allahın hüzuruna qayıdacağımızı xatırladır. Mömin adam bu zikri etdikdə, Allahın ona bəxş etdiyi bu böyük neməti – səhərə və axşama salamat çıxdığını, həyatının da, ölümünün də Allahın Əlində olduğunu etiraf edir.

[4] Bu hədisi Əbu Davud (2/611), Əhməd (2/354), İbn Hibban (2354) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “səhih” olduğunu demişdir.

هَؤُلَاءِ الْكَلِمَاتِ إِذَا أَصْبَحَ وَإِذَا أَمْسَى: ((اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْعَافِيَةَ فِي الدُّنْيَا وَالْآخِرَةِ. اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ الْعَفْوَ وَالْعَافِيَةَ فِي دِينِي وَدُنْيَايَ، وَأَهْلِي وَمَالِي. اللَّهُمَّ اسْتُرْ عَوْرَاتِي، وَآمِنْ رَوْعَاتِي. اللَّهُمَّ احْفَظْنِي مِنْ بَيْنِ يَدَيَّ وَمِنْ خَلْفِي، وَعَنْ يَمِينِي وَعَنْ شِمَالِي، وَمِنْ فَوْقِي، وَأَعُوذُ بِعَظَمَتِكَ مِنْ أَنْ أُغْتَالَ مِنْ تَحْتِي)).

**(1200)** ........ İbn Ömər ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ səhər və axşam bu kəlmələri deməyi tərk etməzdi:[1] "Allahım, dünyada və Axirətdə Səndən salamatlıq diləyirəm! Allahım, dinim, dünyam, ailəm və malım üçün Səndən bağışlanma və salamatlıq diləyirəm! Allahım, eyiblərimi[2] ört və qorxduqlarımdan[3] məni xatircəm et! Allahım, məni önümdən, arxamdan, sağımdan, solumdan və başımın üstündən qoru. Ayağımın altının qazılmasından[4] Sənin əzəmətinə sığınıram![5]"[1]

---

[1] İbn Ömərin ﷺ bu sözündən aydın olur ki, Peyğəmbər ﷺ bu zikri davamlı olaraq, hər səhər və hər axşam edərmiş. İnsanın bu dünyada və Axirətdə salamat olması böyük nemətdir (637-ci və 726-cı hədislərə və onların qeydlərinə bax).

[2] Burada "eyiblər" deyildikdə, nöqsanlardan əlavə, ayıb yerləri də buna aid edilir.

[3] Əmin-amanlıq yalnız Allahdandır. Bu xüsusda, Uca Allah buyurur: **"*Allah* onlara aclıqdan *sonra* yemək verdi və qorxudan *sonra* əmin-amanlıq bəxş etdi"** (Qureyş, 4). Elə isə, onu ancaq Allahdan diləmək gərəkdir. Necə ki, Peyğəmbərimiz ﷺ və ondan əvvəlki peyğəmbərlər diləmişlər: **"Bir zaman İbrahim demişdi: "Ey Rəbbim! Bu şəhəri əmin-amanlıq *yurdu* et!"** (İbrahim, 35). Xüsusilə, vurğulamaq lazımdır ki, əmin-amanlığa yalnız Allaha itaət etməklə nail olmaq olar: **"İman gətirdikdən sonra imanlarına zülm qatışdırmayanları əmin-amanlıq gözləyir. Doğru yola yönəlmişlər də məhz onlardır"** (əl-Ənam, 82).

[4] 698-ci hədisin qeydlərinə bax.

[5] Transkripsiyası: Allahummə, inni əs'əlukəl-afiyətə fid-dunya vəl-axira. Allahummə, inni əs'əlukəl-afvə vəl-afiyətə fi dini və dunyayə və əhli və mali. Allahumməstur aurati və amin rauati. Allahumməhfəzni min bəyni yədeyyə və min xalfi və an yəmini və an şimali və min fəuqi və əuzu biazəmətikə min ən uğtalə min təhti!

**١٢٠١**– حَدَّثَنَا إِسْحَاقُ قَالَ: حَدَّثَنَا بَقِيَّةُ، عَنْ مُسْلِمِ بْنِ زِيَادٍ، مَوْلَى مَيْمُونَةَ زَوْجِ النَّبِيِّ ﷺ، قَالَ: سَمِعْتُ أَنَسَ بْنَ مَالِكٍ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((مَنْ قَالَ حِينَ يُصْبِحُ: اللَّهُمَّ إِنَّا أَصْبَحْنَا نُشْهِدُكَ، وَنُشْهِدُ حَمَلَةَ عَرْشِكَ، وَمَلاَئِكَتَكَ وَجَمِيعَ خَلْقِكَ، أَنَّكَ أَنْتَ اللَّهُ لاَ إِلَهَ إِلاَّ أَنْتَ وَحْدَكَ لاَ شَرِيكَ لَكَ، وَأَنَّ مُحَمَّدًا عَبْدُكَ وَرَسُولُكَ، إِلاَّ أَعْتَقَ اللَّهُ رُبُعَهُ فِي ذَلِكَ الْيَوْمِ، وَمَنْ قَالَهَا مَرَّتَيْنِ أَعْتَقَ اللَّهُ نِصْفَهُ مِنَ النَّارِ، وَمَنْ قَالَهَا أَرْبَعَ مَرَّاتٍ أَعْتَقَهُ اللَّهُ مِنَ النَّارِ فِي ذَلِكَ الْيَوْمِ)).

**(1201)** ........ Ənəs ibn Malik ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Kim *hər* səhər: "Allahım, Sənin Özündən başqa məbud olmayan, Tək və şəriksiz Allah olduğuna, Muhəmmədin Sənin qulun və rəsulun olduğuna, Səni, Ərşini daşıyanları, mələklərini və bütün yaratdıqlarını şahid tutaraq səhərə çıxdıq!"[2]– desə, həmin gün Allah onun dörddə bir hissəsini *Cəhənnəm odundan* azad edər. Kim bunu iki dəfə desə, Allah onun yarı hissəsini Oddan azad edər. Kim bunu dörd dəfə desə, Allah həmin gün onu bütövlükdə Oddan azad edər."[3]

---

[1] Bu hədisi Əbu Davud (5074), Nəsai (10401), Əhməd (4785), İbn Hibban (961) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[2] Transkripsiyası: Allahummə, innə əsbəhnə nuşhidukə, və nuşhidu həmələtə arşikə, və məlaikətəkə, və cəmia xalqik, ənnəkə əntəllahu lə ilahə illə ənt, vəhdəkə lə şərikə lək, və ənnə Muhəmmədən abdukə və rasuluk!

[3] Bu hədisin isnadında keçən Muslim ibn Ziyad "məchul" ravi olduğundan, üstəlik, Bəqiyyə ibn Vəlid bu hədisi "muan'ən" isnadla rəvayət etdiyindən, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Qeyd edək ki, bu hədisin isnadı "zəif" olsa da, mənası "səhih"dir. Salman əl-Farisinin ﷺ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Kim bir dəfə: "Allahummə, inni uşhidukə, və uşhidu məlaikətəkə, və həmələtə arşik, və uşhidu mən fis-səmavati

və mən fil-ərd, ənnəkə əntəllahu lə ilahə illə ənt, vəhdəkə lə şərikə lək, və əşhədu ənnə Muhəmmədən abdukə və rasuluk! (Allahım, Sənin Özündən başqa məbud olmayan, Tək və şəriksiz Allah olduğuna, Muhəmmədin Sənin qulun və rəsulun olduğuna, Səni, mələklərini, Ərşini daşıyanları, göylərdə və yerdə olanların hamısını şahid tuturam!)"– desə, Allah onun üçdə bir hissəsini Oddan azad edər. Kim bu zikri iki dəfə desə, Allah onun üçdə iki hissəsini Oddan azad edər. Kim bunu üç dəfə dəfə desə, Allah onu bütövlükdə Oddan azad edər." Bu hədisi əl-Hakim "Mustədrək" əsərində (1/523) rəvayət etmiş və isnadının "səhih" olduğunu söyləmiş, Zəhəbi onun dediyi ilə razılaşmış, Şeyx Albani də bunu təsdiqləmişdir (Silsilətul-Əhadisis-Səhihə, 267-ci hədis bax).

## ٥٧٤– بَابُ مَا يَقُولُ إِذَا أَمْسَى

## 574-cü fəsil. Adam axşama[1] çıxdıqda nə deməlidir

**١٢٠٢–** حَدَّثَنَا سَعِيدُ بْنُ الرَّبِيعِ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ يَعْلَى بْنِ عَطَاءٍ قَالَ: سَمِعْتُ عَمْرَو ابْنَ عَاصِمٍ قَالَ: سَمِعْتُ أَبَا هُرَيْرَةَ يَقُولُ: قَالَ أَبُو بَكْرٍ: يَا رَسُولَ اللَّهِ، عَلِّمْنِي شَيْئًا أَقُولُهُ إِذَا أَصْبَحْتُ وَأَمْسَيْتُ، قَالَ: قُلِ: اللَّهُمَّ عَالِمَ الْغَيْبِ وَالشَّهَادَةِ، فَاطِرَ السَّمَاوَاتِ وَالأَرْضِ، رَبَّ كُلِّ شَيْءٍ وَمَلِيكَهُ، أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ أَنْتَ، أَعُوذُ بِكَ مِنْ شَرِّ نَفْسِي، وَمِنْ شَرِّ الشَّيْطَانِ وَشِرْكِهِ، قُلْهُ إِذَا أَصْبَحْتَ وَإِذَا أَمْسَيْتَ، وَإِذَا أَخَذْتَ مَضْجَعَكَ.

**(1202)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Əbu Bəkr ﷺ dedi: "Ya Rəsulullah, mənə elə bir şey öyrət ki, onu səhər və axşam zikr edim." Peyğəmbər ﷺ buyurdu: "De: "Qeybdə[2] və aşkarda olanı Bilən, göyləri və yeri *yoxdan* yaradan, Allahım, hər şeyin Rəbbi və Hökmdarı![3] Mən şahidlik edirəm ki, Səndən başqa *ibadətə haqqı olan* məbud yoxdur. Nəfsimin

---

[1] Burada "axşam" deyildikdə, əsr namazının vaxtından günbatanadək olan vaxt nəzərdə tutulur. Bu vaxt ərzində zikrləri yerinə yetirməyi yadından çıxmış adam, gün batdıqdan sonra da bunları edə bilər. Yeri gəlmişkən, qeyd edək ki, bəzi zikrlər ancaq səhərlər oxunur, bəziləri həm səhər, həm də axşam oxunur, bəziləri də həm səhər, həm axşam, həm də yatmazdan əvvəl oxunur. Bu dua da bu üçüncü qismə aiddir.

[2] Burada "qeybdə olanı Bilən" deyildikdə, yaradılanlar üçün qeyb sayılanlar nəzərdə tutulur. Yoxsa ki, Allah üçün qeyb deyilən bir şey yoxdur. Çünki Allahın yaratdıqlarının hamısı Onun üçün aşkardır.

[3] Bu xüsusda, Uca Allah belə buyurur: **"De: "Ey mülkün sahibi Allahım! Sən istədiyin kəsə mülkü verir və istədiyindən də onu geri alırsan; istədiyin kimsəni yüksəldir və istədiyini də alçaldırsan. Xeyir *yalnız* Sənin Əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən"** (Ali-İmran, 26).

şərindən,[1] şeytanın şərindən[2] və şirkindən[3] Sənə sığınıram!"[4] Bunu həm səhər, həm axşam, həm də yatağına girdikdə söylə."[5]

١٢٠٣– حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا هُشَيْمٌ، عَنْ يَعْلَى، عَنْ عَمْرٍو، عَنْ أَبِي هُرَيْرَةَ مِثْلَهُ. وَقَالَ: رَبَّ كُلِّ شَيْءٍ وَمَلِيكَهُ، وَقَالَ: شَرِّ الشَّيْطَانِ وَشِرْكِهِ.

**(1203)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ: "Hər şeyin Rəbbi və Hökmdarı!" və "Şeytanın şərindən və şirkindən"– demişdir.[6]

١٢٠٤– حَدَّثَنَا خَطَّابُ بْنُ عُثْمَانَ قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ، عَنْ مُحَمَّدِ بْنِ زِيَادٍ، عَنْ أَبِي رَاشِدٍ الْحُبْرَانِيِّ: أَتَيْتُ عَبْدَ اللَّهِ بْنَ عَمْرٍو فَقُلْتُ لَهُ: حَدِّثْنَا بِمَا سَمِعْتَ مِنْ رَسُولِ اللَّهِ ﷺ، فَأَلْقَى إِلَيَّ صَحِيفَةً

---

[1] Nəfsin insanı pis şeylərə təhrik etməsi barədə Quranda deyilir: **"Nəfs *adama* pis işləri əmr edər"** (Yusuf, 53). Peyğəmbər ﷺ həmişə xütbəsinin əvvəlində deyərdi: "Nəfsimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Allaha sığınırıq!..." (Sunən Əbu Davud, 2118; Sunən ət-Tirmizi, 1129; Sunən ən-Nəsai, 3290; Sunən İbn Macə, 1893).

[2] Bu xüsusda, Uca Allah buyurur: **"De: "Sığınıram, insanların Rəbbinə, insanların Hökmdarına, insanların İlahına! Vəsvəsə verənin, *Allahın adı çəkiləndə isə hövlündən* geri çəkilən *şeytanın* şərindən. *O şeytan* ki, insanların ürəklərinə vəsvəsə salır, cinlərdən də *olur*, insanlardan da!"** (ən-Nas surəsi).

[3] Burada söhbət Allaha şərik qoşmaqdan gedir. Bu isə, şeytanın ən çox həris olduğu hiylədir.

[4] Transkripsiyası: Allahummə, aliməl-ğaybi vəş-şəhadə, fatirəs-səmavati vəl-ərd, Rabbə kulli şeyin və məlikəh, əşhədu ən lə ilahə illə ənt, əuzu bikə min şərri nəfsi, və min şərriş-şeytani və şirkih!

[5] Bu hədisi Tirmizi (3389), Nəsai (əl-Kubra, 4/408/7714) Əhməd (2/297), Təyalisi (Musnəd, 2582) İbn Əbu Şeybə (10/237/9323), Buxari (Xalqu Əfalul-İbad, səh: 74 və 94) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[6] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

فَقَالَ: هَذَا مَا كَتَبَ لِيَ النَّبِيُّ ﷺ فَنَظَرْتُ فِيهَا، فَإِذَا فِيهَا: إِنَّ أَبَا بَكْرٍ الصِّدِّيقِ رَضِيَ اللَّهُ عَنْهُ سَأَلَ النَّبِيَّ ﷺ قَالَ: يَا رَسُولَ اللَّهِ، عَلِّمْنِي مَا أَقُولُ إِذَا أَصْبَحْتُ وَإِذَا أَمْسَيْتُ، فَقَالَ: ((يَا أَبَا بَكْرٍ، قُلِ: اللَّهُمَّ فَاطِرَ السَّمَاوَاتِ وَالأَرْضِ، عَالِمَ الْغَيْبِ وَالشَّهَادَةِ، رَبَّ كُلِّ شَيْءٍ وَمَلِيكَهُ، أَعُوذُ بِكَ مِنْ شَرِّ نَفْسِي، وَمِنْ شَرِّ الشَّيْطَانِ وَشِرْكِهِ، وَأَنْ أَقْتَرِفَ عَلَى نَفْسِي سُوءًا أَوْ أَجُرَّهُ إِلَى مُسْلِمٍ)).

**(1204)** ........ Əbu Raşid əl-Hubrani demişdir: “*Bir gün* mən Abdullah ibn Amrın yanına gəlib dedim: “Mənə Rəsulullahdan ﷺ eşitdiklərindən öyrət.” O, mənə bir vərəq verib dedi: “Bu, Peyğəmbərin ﷺ mənə yazdırdığı duadır. Mən o vərəqə nəzər saldıqda, gördüm ki, orada bu sözlər yazılıb: “Əbu Bəkr ؓ Peyğəmbərdən ﷺ soruşdu: “Ya Rəsulullah, mənə elə bir şey öyrət ki, onu səhər və axşam deyim.” Peyğəmbər ﷺ buyurdu: “Ey Əbu Bəkr, de: “Göyləri və yeri yaradan, qeybdə və aşkarda olanı Bilən Allahım, hər şeyin Rəbbi və Hökmdarı! Nəfsimin şərindən, şeytanın şərindən və şirkindən, özümə pislik etməkdən, yaxud bu pisliyi bir müsəlmana yetirməkdən[1] Sənə sığınıram![2]”[3]

---

[1] Hədisə diqqət yetirsək görərik ki, burada Peyğəmbər ﷺ əvvəlcə, şər mənbələrindən əsasən ikisini – nəfsi və şeytanı qeyd edir, sonra da, bu şərdən törəyən iki fəsadı – insanın özünə yaxud hər hansı bir müsəlmana yetirə biləcəyi zərəri vurğulayır. Deməmk, adam bu duanı etdikdə, dörd şeydən – nəfsin və şeytanın şərindən, habelə, özünə və ya hər hansı bir müsəlmana pislik etməkdən Allaha sığınmış olur.

[2] Transkripsiyası: Allahummə, fatirəs-səmavati vəl-ərd, alimƏl-ğaybi vəş-şəhadə, Rabbə kulli şeyin və məlikəh, əuzu bikə min şərri nəfsi, və min şərriş-şeytani və şirkih, və ən əqtərifə alə nəfsi suən əv əcurrəhu ilə muslim!

[3] Bu hədisi Tirmizi (3526), Əhməd (1/14; 2/196), Təbərani (əd-Dəavat, 2/924/289) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “səhih” olduğunu demişdir.

## ٥٧٥- بَابُ مَا يَقُولُ إِذَا أَوَى إِلَى فِرَاشِهِ

## 575-ci fəsil. Adam yatağına uzandıqda nə deməlidir

**١٢٠٥-** حَدَّثَنَا قَبِيصَةُ، وَأَبُو نُعَيْمٍ، قَالاَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ عَبْدِ الْمَلِكِ بْنِ عُمَيْرٍ، عَنْ رِبْعِيِّ بْنِ حِرَاشٍ، عَنْ حُذَيْفَةَ قَالَ: كَانَ النَّبِيُّ ﷺ إِذَا أَرَادَ أَنْ يَنَامَ قَالَ: ((بِاسْمِكَ اللَّهُمَّ أَمُوتُ وَأَحْيَا))، وَإِذَا اسْتَيْقَظَ مِنْ مَنَامِهِ قَالَ: ((الْحَمْدُ لِلَّهِ الَّذِي أَحْيَانَا بَعْدَ مَا أَمَاتَنَا وَإِلَيْهِ النُّشُورُ)).

**(1205)** ........ Huzeyfə ؓ rəvayət edir ki,[1] Peyğəmbər ﷺ yatmaq istədikdə: "Allahım, Sənin adınla ölür və dirilirəm!"[2]– deyər,[3] yuxudan oyandıqda isə: "Bizi öldürdükdən[4] sonra diriltdən Allaha həmd olsun. Qayıdış da Onadır!"[1]– deyərdi.

---

[1] Bu hədisi Buxari (5953), Əbu Davud (5049),Tirmizi (3413), İbn Macə (3880) və Əhməd (5/397) rəvayət etmişdir.

[2] Transkripsiyası: Bismikəllahummə əmutu və əhya!

[3] Bu zikri edən hər bir müsəlman həyatının da, ölümünün də yalnız Allah üçün olduğunu qəsd edir. Necə ki, Quranda buyurulur: **"De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür!"** (əl-Ənam, 162).

[4] Yuxudan oyanmağın özü böyük nemətdir. Neçə-neçə insanlar olub ki, yatıb durmayıb və bu, onun son yatışı olub. Odur ki, hər bir müsəlman yuxudan oyandıqda, bu nemətə şükür etməli və onu həyata qaytaran Allaha həmd etməlidir. Yuxunun ölümə bənzədiyi neçə-neçə hədislərdə öz əksini tapmışdır. Bu xüsusda, Uca Allah buyurur: **"Allah ölənlərin canını ölüm anında, ölməyənlərin canını isə onlar yuxuda ikən alır. Ölümünə hökm verdiyi kəsin canını saxlayır, digərini isə müəyyən olunmuş vaxtadək buraxır. Həqiqətən, bunda ağıl sahibləri üçün dəlillər vardır"** (əz-Zumər, 42). Həmçinin, Peyğəmbər ﷺ demişdir: "Yuxu ölümün qardaşıdır" (Şoəbul-İman, 4416; Silsilətul-Əhadisis-Səhihə, 1087). Qeyd edək ki, yuxu ölümə bənzədiyi kimi, yuxudan oyanmaq da, Qiyamət günü dirilməyə bənzəyir. Necə ki, adamın yuxusu gəldikdə, onun qabağını ala bilmir, iradəsindən asılı olmayaraq, yuxu onu aparır, eləcə də, əcəli yetişdikdə, onun qarşısını ala bilməyəcək, istəməsə də, ölüm onu yaxalaycaq. Habelə, necə ki, oyanmaq vaxtı çatdıqda, ona mane ola bilmir,

**١٢٠٦**– حَدَّثَنَا سُلَيْمَانُ بْنُ حَرْبٍ قَالَ: حَدَّثَنَا حَمَّادٌ، عَنْ ثَابِتٍ، عَنْ أَنَسٍ قَالَ: كَانَ النَّبِيُّ ﷺ إِذَا أَوَى إِلَى فِرَاشِهِ قَالَ: ((الْحَمْدُ لِلَّهِ الَّذِي أَطْعَمَنَا وَسَقَانَا، وَكَفَانَا وَآوَانَا، كَمْ مِمَّنْ لاَ كَافِيَ لَهُ وَلاَ مُؤْوِيَ)).

**(1206)** ........ Ənəs رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ yatağına uzandıqda deyərdi: "Bizi yedirdən, içirdən, qoruyan və bizə sığınacaq verən Allaha həmd olsun![2] Neçə-neçə şəxslər vardır ki, onların nə bir qoruyanı, nə də bir sığınacaq verəni var![3]"[4]

**١٢٠٧**– حَدَّثَنَا أَبُو نُعَيْمٍ، وَيَحْيَى بْنُ مُوسَى، قَالاَ: حَدَّثَنَا شَبَابَةُ بْنُ سَوَّارٍ قَالَ: حَدَّثَنِي الْمُغِيرَةُ بْنُ مُسْلِمٍ، عَنْ أَبِي الزُّبَيْرِ، عَنْ جَابِرٍ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ لاَ يَنَامُ حَتَّى يَقْرَأَ: ﴿الم تَنْزِيلُ﴾ وَ: ﴿تَبَارَكَ الَّذِي بِيَدِهِ الْمُلْكُ﴾.

قَالَ أَبُو الزُّبَيْرِ: فَهُمَا يَفْضُلاَنِ كُلَّ سُورَةٍ فِي الْقُرْآنِ بِسَبْعِينَ حَسَنَةً، وَمَنْ قَرَأَهُمَا كُتِبَ لَهُ بِهِمَا سَبْعُونَ حَسَنَةً، وَرُفِعَ بِهِمَا لَهُ سَبْعُونَ دَرَجَةً، وَحُطَّ بِهِمَا عَنْهُ سَبْعُونَ خَطِيئَةً.

---

istəsə də, yuxuya gedə bilmir, eləcə də, Qiyamət günü dirilmə vaxtı yetişdikdə, buna əngəl ola bilməyəcək, iradəsindən asılı olmayaraq, dirilib Allahın hüzuruna həşr ediləcək.

[1] Transkripsiyası: Əlhəmdulilləhil-ləzi əhyanə bə'də mə əmatənə və ileyhin-nuşur!

[2] Yəni əgər Allah insana bu nemətləri verməsə, insan özü öz gücü ilə onları heç cür əldə edə bilməz. **"Əkdiyinizi gördünüzmü? Onu siz bitirirsiniz, yoxsa Biz? Əgər Biz istəsəydik, onu bir saman çöpünə döndərər, siz də heyrətə gələrdiniz** *və deyərdiniz*: **"Biz ziyana uğradıq. Daha doğrusu** *nemətlərdən* **məhrum olduq!" İçdiyiniz suyu gördünüzmü? Onu buluddan siz endirirsiniz, yoxsa Biz? Əgər istəsəydik, onu acı edərdik. Bəs, nə üçün şükür etmirsiniz? Yandırdığınız odu gördünüzmü? Onun ağacını siz yaradırsınız, yoxsa Biz? Biz onu** *Cəhənnəmi* **yada salmaq və müsafirlərin istifadəsi üçün yaratdıq. Elə isə, Ulu Rəbbinin adına təriflər de!"** (əl-Vaqiə,63-74). Odur ki, insan bu nemətlərə görə gecə-gündüz Rəbbinə şükürlər etməlidir. Uca Allah buyurur: **"Allaha şükür et! Kim şükür etsə, özü üçün şükür etmiş olar. Kim nankor olsa,** ***bilsin ki,*** **Allah** ***onun şükrünə*** **möhtac deyildir, Tərifəlayiqdir"** (Loğman, 12).

[3] Transkripsiyası: Əlhəmdulilləhil-ləzi ət'amənə və səqanə və kəfanə və avanə, kəm mimmən lə kafiyə ləhu və lə mu'viyə!

[4] Bu hədisi Muslim (2715), Əbu Davud (5053), Tirmizi (3393) və Əhməd (3/153; 167; 253) rəvayət etmişdir.

**(1207)** ........ Cabir ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ **"Əlif. Ləm. Mim. Şübhə yoxdur ki, bu Kitabı aləmlərin Rəbbi *olan Allah* nazil etmişdir."**[1] və **"Mülk Əlində Olan *Allah ən Əzəmətli,* xeyiri və bərəkəti bol olandır."**[2] surələrini oxumayınca, yatmazdı.[3]

Əbu Zubeyr demişdir: "Bu iki surə Qurandakı hər bir surədən yetmiş savab üstündür. Kim bu iki surəni oxusa, bunun sayəsində ona yetmiş savab yazılar, onun üçün yetmiş dərəcə yüksələr və onun yetmiş günahı silinər.[4]

١٢٠٨- حَدَّثَنَا مُحَمَّدُ بْنُ مَحْبُوبٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَاحِدِ قَالَ: حَدَّثَنَا عَاصِمٌ الأَحْوَلُ، عَنْ شُمَيْطٍ، أَوْ سُمَيْطٍ، عَنْ أَبِي الأَحْوَصِ قَالَ: قَالَ عَبْدُ اللَّهِ: النَّوْمُ عِنْدَ الذِّكْرِ مِنَ الشَّيْطَانِ، إِنْ شِئْتُمْ فَجَرِّبُوا، إِذَا أَخَذَ أَحَدُكُمْ مَضْجَعَهُ وَأَرَادَ أَنْ يَنَامَ فَلْيَذْكُرِ اللَّهَ عَزَّ وَجَلَّ.

**(1208)** ........ Abdullah *ibn Məsud* ﷺ demişdir: "Zikr edərkən yuxulamaq şeytandandır.[5] İstəyirsinizsə, *bunu* təcrübədən keçirin. Sizdən biriniz yatağına girib yatmaq istəsə, qoy, Allahı ﷻ zikr etsin."[6]

---

[1] "əs-Səcdə" surəsi.

[2] "əl-Mulk" surəsi.

[3] Bu hədisi Tirmizi (2/146), Əhməd (3/340), Darimi (2/455) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[4] Qeyd edək ki, Əbu Zubeyrin rəvayəti "məqtu" hökmündədir və bu sözü təsdiqləyən bir hədis olmayınca bu xüsusda, yəni bu surələri oxuyan kimsənin yetmiş savab qazandığına, yetmiş dərəcə yüksəldiyinə və yetmiş günahının silindiyinə qətiyyətlə hökm vermək olmaz.

[5] Yəni şeytan daim çalışır ki, zikr edən kimsəni Allahı zikr etməkdən yayındırsın və adam zikr etmədən yatsın.

[6] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

١٢٠٩- حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ لَيْثٍ، عَنْ أَبِي الزُّبَيْرِ، عَنْ جَابِرٍ قَالَ: كَانَ النَّبِيُّ ﷺ لاَ يَنَامُ حَتَّى يَقْرَأَ: ﴿تَبَارَكَ﴾ وَ ﴿الم تَنْزِيلُ﴾ السَّجْدَةِ.

**(1209)** ........ Cabir ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ **"Mülk Əlində Olan *Allah ən Əzəmətli,* xeyiri və bərəkəti bol olandır."**[1] və **"Əlif. Ləm. Mim. Şübhə yoxdur ki, bu Kitabı aləmlərin Rəbbi *olan Allah* nazil etmişdir".**[2] surələrini oxumayınca yatmazdı.[3]

١٢١٠- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: أَخْبَرَنَا عَبْدَةُ، عَنْ عُبَيْدِ اللَّهِ، عَنْ سَعِيدِ بْنِ أَبِي سَعِيدٍ الْمَقْبُرِيِّ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((إِذَا أَوَى أَحَدُكُمْ إِلَى فِرَاشِهِ، فَلْيَحِلَّ دَاخِلَةَ إِزَارِهِ، فَلْيَنْفُضْ بِهَا فِرَاشَهُ، فَإِنَّهُ لاَ يَدْرِي مَا خَلَّفَ فِي فِرَاشِهِ، وَلْيَضْطَجِعْ عَلَى شِقِّهِ الأَيْمَنِ، وَلْيَقُلْ: بِاسْمِكَ وَضَعْتُ جَنْبِي، فَإِنِ احْتَبَسْتَ نَفْسِي فَارْحَمْهَا، وَإِنْ أَرْسَلْتَهَا فَاحْفَظْهَا بِمَا تَحْفَظُ بِهِ الصَّالِحِينَ، أَوْ قَالَ: عِبَادَكَ الصَّالِحِينَ)).

**(1210)** ........ Əbu Hureyrə ؓ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Sizdən biriniz yatağına uzandıqda, izarının[4] ətəyinin iç tərəfi ilə yatağını çırpıb təmizləsin.[5] Çünki o özündən sonra yatağına nəyin girdiyini bilmir. Sonra sağ tərəfi üstündə uzanıb[6] desin: "*Ey Rəbbim,* Sənin adınla böyrümü

---

[1] "əl-Mulk" surəsi.

[2] "əs-Səcdə" surəsi.

[3] 1207-ci hədisin qeydlərinə bax.

[4] İzar: qurşaqdan aşağı bədən əzalarını örtmək üçün belə bağlanan parça; fitə.

[5] Yatağa uzandıqda belə etmək və sağ böyrü üstə uzanmaq müstəhəb əməllərdəndir. Sual verilə bilər ki, "Bəs, əgər adam izar geymirsə, onda necə olsun?" Cavabı belədir ki, müəllifin "Səhih"ində (7393) rəvayət edilmiş bu hədisdə: "Libasının ətəyi ilə"– deyilir.

[6] 1187-ci hədisin qeydlərinə bax.

yerə qoydum. Ruhumu tutub saxlasan,[1] ona rəhm et! Onu buraxsan, əməlisalehləri, *yaxud əməlisaleh qullarını* qoruduğun kimi, onu da qoru![2]"[3]

**١٢١١-** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ سَعِيدِ بْنِ خَازِمٍ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ سَعِيدٍ، أَبُو سَعِيدٍ الأَشَجُّ قَالَ: حَدَّثَنَا أَبُو بَكْرٍ النَّخَعِيُّ قَالَ: أَخْبَرَنَا الْعَلاَءُ بْنُ الْمُسَيَّبِ، عَنْ أَبِيهِ، عَنِ الْبَرَاءِ بْنِ عَازِبٍ قَالَ: كَانَ النَّبِيُّ ﷺ إِذَا أَوَى إِلَى فِرَاشِهِ نَامَ عَلَى شِقِّهِ الأَيْمَنِ، ثُمَّ قَالَ: ((اللَّهُمَّ وَجَّهْتُ وَجْهِي إِلَيْكَ، وَأَسْلَمْتُ نَفْسِي إِلَيْكَ، وَأَلْجَأْتُ ظَهْرِي إِلَيْكَ، رَهْبَةً وَرَغْبَةً إِلَيْكَ، لاَ مَنْجَا وَلاَ مَلْجَأَ مِنْكَ إِلاَّ إِلَيْكَ، آمَنْتُ بِكِتَابِكَ الَّذِي أَنْزَلْتَ، وَنَبِيِّكَ الَّذِي أَرْسَلْتَ))، قَالَ: فَمَنْ قَالَهُنَّ فِي لَيْلَةٍ ثُمَّ مَاتَ مَاتَ عَلَى الْفِطْرَةِ.

**(1211)** ........ Bəra ibn Azib ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ yatağına girdikdə, sağ tərəfi üstündə uzanıb deyərdi: "Allahım, Sənə ümid edərək və Səndən qorxaraq üzümü Sənə çevirdim, canımı Sənə təslim etdim, kü-

---

[1] Uca Allah buyurur: **"Allah ölənlərin canını ölüm anında, ölməyənlərin canını isə onlar yuxuda ikən alır. Ölümünə hökm verdiyi kəsin canını saxlayır, digərini isə müəyyən olunmuş vaxtadək buraxır. Həqiqətən, bunda ağıl sahibləri üçün dəlillər vardır"** (əz-Zumər, 42).

[2] Transkripsiyası: Bismikə vəda'tu cənbi, fə inih-təbəstə nəfsi fər-həmhə, və in ərsəltəhə fəh-fəzhə bimə təhfəzu bihis-salihin (*yaxud* bihi ibadəkə-salihin)!

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir. Qeyd edək ki, müəllifin "Səhih"ində varid olmuş hədisin ləfzi daha dəqiqdir. Həmin rəvayətdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Sizdən biriniz yatağına uzanmaq istədikdə qoy, izarının iç tərəfi ilə yatağını çırpsın. Çünki o özündən sonra yatağına nəyin girdiyini bilmir. Sonra da belə desin: "Bismikə Rabbi vəda'tu cənbi və bikə ərfəuh, in əmsəktə nəfsi fərhəmhə və in ərsəltəhə fəhfəzhə bimə təhfəzu bihi ibadəkəs-salihin! (Ey Rəbbim, Sənin adınla böyrümü yerə qoydum, Sənin sayəndə də onu qaldırıram. Ruhumu tutub saxlasan, ona rəhm et, onu buraxsan, əməlisaleh qullarını qoruduğun kimi, onu da qoru!)" (Səhih əl-Buxari, 6320).

rəyimi Sənə etibar etdim.[1] Sığınacaq və Sənin *əzabından* xilas olmaq üçün nicat yeri yalnız Sənə yönəlməkdir. Sənin nazil etdiyin Kitaba[2] və göndərdiyin Peyğəmbərə iman gətirdim!"[3] Peyğəmbər ﷺ demişdir: "Kim axşam bunu desə, sonra da ölsə, fitrəti üzərində[4] ölmüş sayılar."[5]

**١٢١٢-** حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا وُهَيْبٌ قَالَ: حَدَّثَنَا سُهَيْلُ بْنُ أَبِي صَالِحٍ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ يَقُولُ إِذَا أَوَى إِلَى فِرَاشِهِ: ((اللَّهُمَّ رَبَّ السَّمَاوَاتِ وَالأَرْضِ، وَرَبَّ كُلِّ شَيْءٍ، فَالِقَ الْحَبِّ وَالنَّوَى، مُنْزِلَ التَّوْرَاةِ وَالإِنْجِيلِ وَالْقُرْآنِ، أَعُوذُ بِكَ مِنْ كُلِّ ذِي شَرٍّ أَنْتَ آخِذٌ بِنَاصِيَتِهِ، أَنْتَ الأَوَّلُ فَلَيْسَ قَبْلَكَ شَيْءٌ، وَأَنْتَ الْآخِرُ فَلَيْسَ بَعْدَكَ شَيْءٌ، وَأَنْتَ الظَّاهِرُ فَلَيْسَ فَوْقَكَ شَيْءٌ، وَأَنْتَ الْبَاطِنُ فَلَيْسَ دُونَكَ شَيْءٌ، اقْضِ عَنِّي الدَّيْنَ، وَأَغْنِنِي مِنَ الْفَقْرِ)).

**(1212)** ........ Əbu Hureyrə ؓ rəvayət edir ki,[6] Rəsulullah ﷺ yatağına uzananda deyərdi:[7] "Allahım, ey göylərin və yerin Rəbbi, hər bir şeyin Rəbbi![1]

---

[1] Burada söhbət bəndənin öz əməllərini ixlasla, Allah üçün yerinə yetirməsindən və hər bir işdə yalnız Allaha təvəkkül etməsindən gedir.

[2] Burada "Kitab" deyildikdə, Qurani Kərim, "Peyğəmbər" deyildikdə isə Muhəmməd səllallahu aleyhi və səlləm qəsd edilir.

[3] Transkripsiyası: Allahummə, vəccəhtu vachi ileyk, və əsləmtu nəfsi ileyk, və əlcə'tu zahri ileyk, rahbətən və rağbətən ileyk. Lə məncəə və lə məlcə minkə illə ileyk. Aməntu bikitabikəl-ləzi ənzəlt, və binəbiyyikəl-ləzi ərsəlt!

[4] Yəni müsəlman olaraq.

[5] Bu hədisi Buxari (247), Muslim (8/77), Əbu Davud (5046), Tirmizi (3722), Nəsai (10541) Əhməd (2/285) rəvayət etimşdir.

[6] Bu hədisi Muslim (8/78), Əbu Davud (5051), İbn Macə (3863), Əhməd (2/381), Təbərani (əd-Dua, 261) rəvayət etmişdir.

[7] İmam Muslimin "Səhih"indəki (8/79) rəvayətdə xəbər verilir ki, Əbu Hureyrə ؓ demişdir: "Peyğəmbər ﷺ bizə əmr edərdi ki, çarpayımıza uzanıb yatmaq istədiyimiz zaman belə deyək: "Allahım, göylərin və yerin Rəbbi,..."

*Ey* toxumu və çəyirdəyi cücərdib çatladan, Tövratı, İncili və Quranı[2] nazil edən *Allahım*,[3] kəkilindən tutduğun[4] hər bir şeyin şərindən Sənə sığınıram. Sən Əvvəlsən, Səndən əvvəl heç nə yoxdur. Sən Axırsan,[5] Səndən sonra heç nə yoxdur. Sən Zahirsən, Səndən üstə heç nə yoxdur. Sən Batinsən, Səndən iç üzdə heç nə yoxdur! Borcumu ödə[6] və məni yoxsulluqdan qurtar![1]"

---

[1] İmam Əhmədin "Musnəd" əsərində (2/404): "Allahummə, Rabbəs-səmavatis-səb'i və Rabbəl-arşil-azim. Rabbənə və Rabbə kulli şeyin,... (Allahım, yeddi qat səmanın Rəbbi, böyük Ərşin Rəbbi, bizim Rəbbimiz və hər bir şeyin Rəbbi!...)"– deyilir.

[2] Burada səmavi Kitablar nazil olduqları tərtibdə zikr edilmişdir. Belə ki, əvvəlcə Tövrat, bir müddət sonra İncil və nəhayət, Quran nazil olmuşdur.

[3] Məlumdur ki, Allaha Onun adları və sifətləri – o cümlədən də, çatladan, nazil edən və s. feli sifətləri ilə təvəssül etmək olar. Deməki, bu duanı edən adam Allaha yaxınlaşmaq üçün Onun sifəti və feli ilə təvəssül etmiş olur.

[4] Yəni idarə etdiyin.

[5] Bu cümlədə Allahın dörd gözəl adı və onların mənası zikr edilir: əl-Əvvəl, əl-Axır, əz-Zahir və əl-Batin. Bu adlar Quranda öz əksini tapmışdır: **"Əvvəl də, Axır da, Zahir də, Batin də Odur. O, hər şeyi bilir"** (əl-Hədid, 3).

[6] Burada "borc" deyildikdə, həm Allahın, həm də insanların haqları – bu haqları yerinə yetirmək nəzərdə tutulur. Biz bu duanı etdikdə, Allahdan Onun bizə vacib buyurduqlarını yerinə yetirməyimizdə, habelə haram buyurduqlarından çəkinməyimizdə, üstəlik, boynumuzda haqqı olan hər bir haqq sahibinin – valideynlərimizin, ailəmizin, qohumlarımızın, dostlarımızın, qonşularımızın və başqalarının haqlarını ödəməyimizdə bizə kömək olmağı diləyirik. Görün borc necə məsuliyyətli və təhlükəli bir şeydir ki, Peyğəmbər ﷺ bizə hər gecə yatmazdan əvvəl buna görə Allaha yalvarmağımızı tövsiyə etmişdir. Çünki bu dua adamın qəlbini rahatlaşdırır, onda borcu tezliklə qaytarmağa ümid verir. Aşağıdakı hədislərdən borclu olmağın nə dərəcədə təhlükəli olması aydın olur:

– Peyğəmbər ﷺ demişdir: "Nəfsiniz əmin-amanda olduqdan sonra onu qorxuya salmayın." Səhabələr soruşdular: "Bu nə ilə ola bilər, ya Rəsulullah?" Peyğəmbər ﷺ buyurdu: "Borca *girməklə*" (Tarix əl-Buxari, 3/2/430; Musnəd Əhməd, 4/146 və 154; Musnəd Əbu Yə'la, 1/98; Silsilətul-Əhadisis-Səhihə, 2420);

---

– Rəvayət edilir ki, bir nəfər Peyğəmbərdən ﷺ: "Sən nə üçün tez-tez borcdan ötrü Allaha sığınırsan?"– deyə soruşduqda, o, belə cavab vermişdir: "Borca girən adam danışanda yalan danışır, söz verəndə sözünün üstündə durmur" (Səhih əl-Buxari, 832);

– Peyğəmbər ﷺ demişdir: "İnsanların malını qaytarmaq niyyəti ilə götürən kimsənin *borcunu* onun əvəzinə Allah qaytarar, *onu* tələf etmək *və qaytarmamaq* niyyəti ilə götürən kimsəni isə Allah məhv edər!" (Səhih əl-Buxari, 2387);

– Peyğəmbər ﷺ demişdir: "Allah yolunda şəhid olan kimsənin bütün günahları bağışlanır. Yalnız, borcdan başqa!" (Mocəmul-Kəbir, 5552; Silsilətul-Əhadisis-Səhihə, 1742);

– Peyğəmbər ﷺ demişdir: "Canım Əlində olan Allaha and olsun ki, əgər borclu olan adam Allah yolunda şəhid olsa, sonra dirilib yenə vuruşub şəhid olsa, sonra dirilib bir daha vuruşub şəhid olsa belə, borcu qaytarılmayınca, Cənnətə girməz!" (Sunən ən-Nəsai, 6237; Musnəd Əhməd 5/289; Mustədrək əl-Hakim, 2212; Səhih əl-Cami, 3600);

– Peyğəmbər ﷺ demişdir: "Birisindən borc alan adam onu qaytarmamaq niyyəti ilə alarsa, Allahın hüzuruna oğru olaraq gələr!" (Səhih İbn Macə, 1954; Səhih əl-Cami, 2720).

İndi özünüz təsəvvür edin, borclu olan adam bu hədisləri oxusa və borclu olmağın məsuliyyətini dərk etsə, yatağına uzandıqda, onun gözünə yuxu gedərmi?

Allahım, üzüntüdən və kədərdən, acizlikdən və tənbəllikdən, qorxaqlıqdan və xəsislikdən, borc altında qalmaqdan və insanların *bizi* sıxışdırmasından Sənə sığınırıq!

[1] Transkripsiyası: Allahummə, Rabbəs-səmavati vəl-ərd, və Rabbə kulli şeyin, faliqal-həbbi vən-nəva, munzilət-Tovrati vəl-İncili vəl-Quran. Əuzu bikə min kulli zi şərrin əntə axizun binasiyətih. Əntəl-əvvəlu fə leysə qabləkə şey, və əntəl-axiru fə leysə bə'dəkə şey, və əntəz-zahiru fə leysə fovqəkə şey, və əntəl-batinu fə leysə dunəkə şey, iqdi annid-deynə və əğnini minəl-fəqr!

## ٥٧٦- بَابُ فَضْلِ الدُّعَاءِ عِنْدَ النَّوْمِ

## 576-cı fəsil. Yatmazdan qabaq dua etməyin fəziləti[1]

١٢١٣- حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَاحِدِ بْنُ زِيَادٍ قَالَ: حَدَّثَنَا الْعَلاَءُ بْنُ الْمُسَيَّبِ قَالَ: حَدَّثَنِي أَبِي، عَنِ الْبَرَاءِ بْنِ عَازِبٍ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ إِذَا أَوَى إِلَى فِرَاشِهِ نَامَ عَلَى شِقِّهِ الأَيْمَنِ، ثُمَّ قَالَ: ((اللَّهُمَّ أَسْلَمْتُ نَفْسِي إِلَيْكَ، وَوَجَّهْتُ بِوَجْهِي إِلَيْكَ، وَفَوَّضْتُ أَمْرِي إِلَيْكَ، وَأَلْجَأْتُ ظَهْرِي إِلَيْكَ، رَغْبَةً وَرَهْبَةً إِلَيْكَ، لاَ مَنْجَا وَلاَ مَلْجَأَ مِنْكَ إِلاَّ إِلَيْكَ، آمَنْتُ بِكِتَابِكَ الَّذِي أَنْزَلْتَ، وَنَبِيِّكَ الَّذِي أَرْسَلْتَ، قَالَ رَسُولُ اللَّهِ ﷺ: مَنْ قَالَهُنَّ ثُمَّ مَاتَ تَحْتَ لَيْلَتِهِ مَاتَ عَلَى الْفِطْرَةِ)).

**(1213)** ........ Bəra ibn Azib ﷺ rəvayət edir ki,[2] Rəsulullah ﷺ yatağına girdikdə sağ tərəfi üstündə uzanıb deyərdi: "Allahım, Sənə ümid edərək və Səndən qorxaraq canımı Sənə təslim etdim, üzümü Sənə çevirdim, işimi Sənə həvalə etdim, kürəyimi Sənə etibar etdim. Sığınacaq və Sənin *əzabından* xilas olmaq üçün nicat yeri yalnız Sənə yönəlməkdir. Sənin nazil etdiyin Kitaba

---

[1] Yuxu Allahın qüdrətinin kamilliyinə dəlalət edən ayələrindəndir. Bu xüsusda, Uca Allah buyurur: **"Gecə və gündüz yatıb dincəlməyiniz, habelə, Allahın lütfünü axtarmağınız Onun dəlillərindəndir"** (ər-Rum, 23). Yatıb dincəlmək hər bir insan üçün Allah tərəfindən bir lütf və mərhəmətdir. Yatmazdan qabaq dua etmək həm yatmağımız, həm də oyaq qalmağımız üçün bərəkətdir. Belə ki, yatmazdan əvvəl zikr edib yatan müsəlman təkAllahlığı qəbul etdiyini bir daha sübuta yetirmiş olur. Və əgər bu halda vəfat edərsə, fitrət üzərində, Allaha şərik qoşmadığı halda vəfat etmiş olar. Yox, əgər yuxudan oyanıb həyatına davam etmək ona nəsib olarsa, Allah əməlisaleh qullarını qoruduğu kimi, onu da qoruyar. Üstəlik, bu zikrlər insana dünyəvi işləri görməyə qüvvət verir. Hədislərin birində xəbər verilir ki, Fatimə ﷺ Peyğəmbərdən ﷺ ev işlərində ona kömək edəcək bir kəniz istədiyi zaman, Peyğəmbər ﷺ ona belə buyurmuşdur: "Məndən istədiyinizdən daha xeyirlisini sizə öyrədimmi? Yatağınıza uzandığınız zaman otuz dörd dəfə "Allahu Əkbər", otuz üç dəfə "Sübhanəllah" və otuz üç dəfə "Əlhəmdulillah" deyin. Bu, sizin üçün xidmətçidən daha xeyirli olar" (Səhih əl-Buxari, 3705).

[2] 1211-ci hədisin qeydlərinə bax.

və göndərdiyin Peyğəmbərə iman gətirdim!" Rəsulullah ﷺ demişdir: "Kim axşam bunu desə, sonra da ölsə, fitrəti üzərində ölmüş sayılar.[1]"

**١٢١٤–** حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُثَنَّى قَالَ: حَدَّثَنَا ابْنُ أَبِي عَدِيٍّ، عَنْ حَجَّاجٍ الصَّوَّافِ، عَنْ أَبِي الزُّبَيْرِ، عَنْ جَابِرٍ قَالَ: إِذَا دَخَلَ الرَّجُلُ بَيْتَهُ أَوْ أَوَى إِلَى فِرَاشِهِ ابْتَدَرَهُ مَلَكٌ وَشَيْطَانٌ، فَقَالَ الْمَلَكُ: اخْتِمْ بِخَيْرٍ، وَقَالَ الشَّيْطَانُ: اخْتِمْ بِشَرٍّ، فَإِنْ حَمِدَ اللَّهَ وَذَكَرَهُ أَطْرَدَهُ، وَبَاتَ يَكْلَؤُهُ، فَإِذَا اسْتَيْقَظَ ابْتَدَرَهُ مَلَكٌ وَشَيْطَانٌ فَقَالاَ مِثْلَهُ، فَإِنْ ذَكَرَ اللَّهَ وَقَالَ: الْحَمْدُ لِلَّهِ الَّذِي رَدَّ إِلَيَّ نَفْسِي بَعْدَ مَوْتِهَا وَلَمْ يُمِتْهَا فِي مَنَامِهَا، الْحَمْدُ لِلَّهِ الَّذِي ﴿يُمْسِكُ السَّمَوَاتِ وَالأَرْضَ أَنْ تَزُولاَ، وَلَئِنْ زَالَتَا إِنْ أَمْسَكَهُمَا مِنْ أَحَدٍ مِنْ بَعْدِهِ إِنَّهُ كَانَ حَلِيمًا غَفُورًا﴾، الْحَمْدُ لِلَّهِ الَّذِي ﴿يُمْسِكُ السَّمَاءَ أَنْ تَقَعَ عَلَى الأَرْضِ إِلاَّ بِإِذْنِهِ﴾ إِلَى ﴿لَرَءُوفٌ رَحِيمٌ﴾، فَإِنْ مَاتَ مَاتَ شَهِيدًا، وَإِنْ قَامَ فَصَلَّى صَلَّى فِي فَضَائِلَ.

**(1214)** ........ Cabir رضي الله عنه demişdir: "İnsan evinə və ya yatağına girdiyi zaman bir mələk və bir şeytan tələsik ona tərəf gələr. Mələk *ona*: "*Gününü* xeyir ilə bitir!"– deyər. Şeytan isə: "*Gününü* şər ilə bitir!"[2]– deyər. Və əgər

---

[1] Digər rəvayətdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Sən bu zikri, dediyin zikrlərin sonuncusu et" (Səhih əl-Buxari, 247); başqa bir hədisdə də rəvayət edilir ki, Nofəl əl-Əşcəi رضي الله عنه demişdir: "*Bir dəfə* mən Peyğəmbərin ﷺ yanına gəlib dedim: "Ey Allahın Peyğəmbəri! Mənə elə bir şey öyrət ki, mən onu yatağıma girdiyim zaman oxuyum." Peyğəmbər ﷺ buyurdu: "*Yatağına uzandığın zaman* sonuncu olaraq: **"De: "Ey Kafirlər!"** (əl-Kafirun surəsini) oxu, sonra yat. Heç şübhəsiz ki, bu surə səni şirkdən uzaq tutar" (Səhih İbn Hibban 787; Sunən ət-Tirmizi, 2709; Səhih əl-Cami, 1161). Bu iki rəvayəti cəm edib demək olar ki, yatmazdan əvvəl oxunan surə və ayələrin ("əl-İxlas", "əl-Fələq", "ən-Nas", "əl-Mulk", "əs-Səcdə", "Kürsü ayəsi", "əl-Bəqərə" surəsinin son iki ayəsi) sonuncusu "əl-Kafirun" surəsi olmalı, oxunan zikrlərin sonuncusu isə bu zikr olmalıdır. Sələflərdən bəzisi "əl-Kafirun" surəsini "əl-Muqaşqişə (şirkdən və nifaqdan təmizləyən)" adlandırardılar (Təfsir İbn Əbu Hatim; Şoəbul-İman, 2292; Fəthul-Bari, 8/733).

[2] Yatmazdan əvvəl Quran oxuyub və zikrləri edib sonra yatmaq, günü xeyir ilə bitirmək, musiqiyə qulaq asıb, yaxud pis-pis şeylərə baxıb və ya başqa bu kimi günah işlər görüb sonra yatmaq isə günü şər ilə bitirmək deməkdir.

o, Allaha həmd edib Onu zikr etsə, şeytanı qovar və bütün gecəni mələk onu qoruyar.[1] Həmçinin, yuxudan oyandıqda da, bir mələk və bir şeytan tələsik ona tərəf gəlib həmin sözləri deyər.[2] Əgər Allahı zikr edib: "Canımı aldıqdan sonra özümə qaytaran, yuxuda ikən onu öldürməyən Allaha həmd olsun! Həmd Allaha məxsusdur! *O Allah* ki, **"Göyləri və yeri tərpənməsinlər deyə, tutub saxlayır. Əgər tərpənsələr, Ondan başqa onları heç kəs tutub saxlaya bilməz. Həqiqətən də, O, Həlimdir, Bağışlayandır!"**[3] Həmd Allaha məxsusdur! *O Allah* ki, **"Göyü Öz izni olmadan yerə düşməsin deyə, O tutub saxlayır. Həqiqətən, Allah insanlara Şəfqətlidir, Mərhəmətlidir!"**[4]– desə, sonra da ölsə, şəhid kimi ölər və əgər qalxıb namaz qılsa, fəzilətlər içində namaz qılmış olar."[5]

---

[1] Yatmazdan qabaq oxunan zikrlər insanı şeytandan qoruyan səbəblərdəndir. Hədislərin birində rəvayət edilir ki, şeytanın səhabəyə dediyi: "Yatağına uzananda Kürsü ayəsini – **"Allah, Ondan başqa ilah yoxdur,** ***əbədi*** **Yaşayandır,** ***bütün yaratdıqlarının*** **Qəyyumudur..."** (əl-Bəqərə, 256) – axıra qədər oxu. Əgər bunu etsən, səhər yuxudan oyananadək sənin yanında Allahın təyin etdiyi gözətçi *bir mələk* durar və şeytan sənə yaxınlaşmaz" sözünü, Peyğəmbər ﷺ təsdiqləyib demişdir: "O, sənə doğru söylədi, halbuki özü qatı yalançıdır" (Səhih əl-Buxari, 2311).

[2] Səhəri xeyirlə açmaq xüsusunda varid olmuş hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Sizlərdən biri yatdığı zaman şeytan onun boynunun ardına üç düyün vurur və hər düyün vurduqca: "Gecə uzundur, yat!"– *deyir*. Əgər o kimsə oyanıb Allahı zikr etsə, düyünlərdən biri açılar, dəstəmaz alsa, ikincisi açılar, namaz qılsa, üçüncüsü açılar və beləliklə də, o adam səhər gümrah və əhval-ruhiyyəsi yaxşı olduğu halda yuxudan oyanar. Əks halda isə, o, əhval-ruhiyyəsi çox pis, özü də əzgin halda yuxudan oyanar" (Səhih əl-Buxari, 1142).

[3] "Fatir" surəsi, 41.

[4] "əl-Həcc" surəsi, 65.

[5] Bu hədisin isnadında keçən Əbu Zubeyr "mudəllis" ravi olduğundan, və bu rəvayəti "muan'ən" isnadla rəvayət etdiyindən, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "zəif" olduğunu demişdir.

## ٥٧٧- بَابُ يَضَعُ يَدَهُ تَحْتَ خَدِّهِ

## 577-ci fəsil. Adam əlini yanağının altına qoyar

١٢١٥- حَدَّثَنَا قَبِيصَةُ بْنُ عُقْبَةَ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ أَبِي إِسْحَاقَ، عَنِ الْبَرَاءِ قَالَ: كَانَ النَّبِيُّ ﷺ إِذَا أَرَادَ أَنْ يَنَامَ وَضَعَ يَدَهُ تَحْتَ خَدِّهِ الأَيْمَنِ، وَيَقُولُ: ((اللَّهُمَّ قِنِي عَذَابَكَ يَوْمَ تَبْعَثُ عِبَادَكَ)).

**(1215)** …….. Bəra ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ yatmaq istədikdə əlini sağ yanağının altına qoyub[1] deyərdi: "Allahım, bəndələrini dirildəcəyin gün məni Öz əzabından qoru![2]"[3]

(…)- حَدَّثَنَا مَالِكُ بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا إِسْرَائِيلُ، عَنْ أَبِي إِسْحَاقَ، عَنِ الْبَرَاءِ، عَنِ النَّبِيِّ ﷺ مِثْلَهُ.

**(…)** Bizə Malik ibn İsmail belə rəvayət etmişdir: "Bizə İsrail, Əbu İshaqdan, o da, Bəra *ibn Azibdən* ؓ, o da Peyğəmbərdən ﷺ bu hədisin bənzərini rəvayət etmişdir.

---

[1] Bundan aydın olur ki, yatağa uzandıqda, sağ əli sağ yanağın altına qoyub yatmaq müstəhəb əməllərdəndir.

[2] Transkripsiyası: Allahummə, qıni əzabəkə yovmə təb'asu ibadəkə!

Bu dua ilə yuxu arasında bağlılıq budur ki, yatmaq ölməyə, yuxudan oyanmaq isə dirilməyə bənzəyir. Ağıllı adam yatmağını öləcəyini, sonra da diriləcəyini xatırlamaq üçün vəsilə götürməlidir.

[3] Bu hədisi Nəsai (Aməlul-Yovm vəl-Leylə, 753), Əhməd (4/290, 298 və 303), İbn Əbu Şeybə (əl-Musənnəf, 9/76//6588 və 10/251/9360) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٥٧٨- بَابُ

## 578-ci fəsil.

**١٢١٦-** حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ عَطَاءٍ، عَنْ أَبِيهِ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرٍو، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((خَلَّتَانِ لاَ يُحْصِيهِمَا رَجُلٌ مُسْلِمٌ إِلاَّ دَخَلَ الْجَنَّةَ، وَهُمَا يَسِيرٌ، وَمَنْ يَعْمَلُ بِهِمَا قَلِيلٌ))، قِيلَ: وَمَا هُمَا يَا رَسُولَ اللَّهِ؟ قَالَ: ((يُكَبِّرُ أَحَدُكُمْ فِي دُبُرِ كُلِّ صَلاَةٍ عَشْرًا، وَيَحْمَدُ عَشْرًا، وَيُسَبِّحُ عَشْرًا، فَذَلِكَ خَمْسُونَ وَمِئَةٌ عَلَى اللِّسَانِ، وَأَلْفٌ وَخَمْسُمِئَةٍ فِي الْمِيزَانِ))، فَرَأَيْتُ النَّبِيَّ ﷺ يَعُدُّهُنَّ بِيَدِهِ. ((وَإِذَا أَوَى إِلَى فِرَاشِهِ سَبَّحَهُ وَحَمِدَهُ وَكَبَّرَهُ، فَتِلْكَ مِئَةٌ عَلَى اللِّسَانِ، وَأَلْفٌ فِي الْمِيزَانِ، فَأَيُّكُمْ يَعْمَلُ فِي الْيَوْمِ وَاللَّيْلَةِ أَلْفَيْنِ وَخَمْسَمِئَةِ سَيِّئَةٍ؟)) قِيلَ: يَا رَسُولَ اللَّهِ، كَيْفَ لاَ يُحْصِيهِمَا؟ قَالَ: ((يَأْتِي أَحَدَكُمُ الشَّيْطَانُ فِي صَلاَتِهِ، فَيُذَكِّرُهُ حَاجَةَ كَذَا وَكَذَا، فَلا يَذْكُرُهُ)).

**(1216)** ........ Abdullah ibn Amr ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "İki xislət vardır ki, onlara davamlı olaraq əməl edən müsəlman kəs mütləq Cənnətə girər. Bu iki xislət çox asandır,[1] lakin onlara əməl edən çox azdır." Soruşdular: "Nədir bu iki xislət, ya Rəsulullah?" O buyurdu: "Qoy, sizlərdən *hər* biri hər namazın sonunda on dəfə "Allahu Əkbər", on dəfə "Əlhəmdulilləh" və on dəfə "Subhanəllah" desin.[2] Bu zikrlər dildə yüz əlli, tərəzidə isə min beş yüzə *bərabərdir.*"[3] Mən Peyğəmbərin ﷺ bunları barmaqları ilə saydığını gördüm.[4] (Peyğəmbər ﷺ davam edib buyur-

---

[1] Yəni bu zikrləri dildə tələffüz etmək çox asandır.

[2] Bu zikrləri namazdan sonra demək müstəhəb əməllərdəndir.

[3] Hər namazın sonunda oxunan bu zikrlərin sayı cəmi otuza bərabərdir. Bu sayı beşə vuranda yüz əlli edir, yəni gün ərzində qılınan beş namazda oxunan bu zikrləri topladıqda, onların sayı yüz əlliyə bərabər olur. Sonra qeyd edək ki, hər bir həsənət on mislinə bərabərdir. Bu da, o deməkdir ki, bu zikrlərin cəminin on misli min beş yüzə bərabərdir.

[4] Şeyx Albani demişdir: "Əbu Davudun "Sunən" əsərində (1502) rəvayət edilmiş hədisdə xəbər verilir ki, Peyğəmbər ﷺ sağ əlinin barmaqları ilə zikr etmişdir... Bundan ay-

du):[1] "Qoy, sizlərdən hər biriniz yatağına uzandığı zaman "Subhanəllah", "Əlhəmdulilləh" və "Allahu Əkbər" desin.[2] Bu zikrlər dildə yüz, tərəzidə isə minə *bərabərdir.*" Bir deyin görüm, hansı biriniz bir gün ərzində iki min beş yüz[3] günah iş görür?" *Səhabələrdən biri* soruşdu: "Ya Rəsulullah, necə ola bilər ki, adam davamlı olaraq bunlara əməl etməsin?" O, buyurdu: "Sizdən biriniz namaz qılarkən şeytan gəlib ona filan və filan işi xatırladar və o bunları zikr etməz.[4]"[5]

---

dın olur ki, kim sağ əlinin barmaqları ilə zikr etsə, Sünnəyə riayət etmiş, kim də sol əlinin barmaqları ilə zikr etsə, Peyğəmbərə ﷺ asi olmuş olar. Bəziləri isə hər iki əl barmaqları ilə zikr edirlər: **"Onlar yaxşı bir əməllə başqa bir pis əməli qarışdırdılar. Ola bilsin ki, Allah onların tövbələrini qəbul etsin"** (ət-Tovbə, 102).

[1] Bu da ikinci xislətdir.

[2] Digər rəvayətdə Peyğəmbər ﷺ demişdir: "...otuz üç dəfə "Subhanəllah", otuz üç dəfə "Əlhəmdulilləh" və otuz dörd dəfə "Allahu əkbər" desin..." (Sunən Əbu Davud, 5065; Sunən ət-Tirmizi, 3739; Sunən əl-Kubra ən-Nəsai, 9981; Sunən İbn Macə, 926; Səhih İbn Hibban, 2012; Səhih əl-Cami, 3230).

[3] Peyğəmbərin ﷺ öz səhabələrinə öyrətdiyi həmin iki xislətdən qazanılan savabların cəmi iki min beş yüzə bərabərdir.

[4] Beləliklə, şeytan onu min beş yüz savabdan məhrum edər. Habelə, yatağına uzandığı zaman şeytan gəlib ona vəsvəsə verər və onu yatızdırar, beləliklə də, onu min savabdan da məhrum edər.

[5] Səhih Əbu Davud, 1346; Mişkatul-Məsabih, 2406; Səhih əl-Ədəbul-Mufrad, səh: 472.

## ٥٧٩- بَابُ إِذَا قَامَ مِنْ فِرَاشِهِ ثُمَّ رَجَعَ فَلْيَنْفُضْهُ

## 579-cu fəsil. Yatağından qalxıb sonra (yatmaq üçün) yerinə qayıtdıqda onu çırpmaq

١٢١٧- حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ الْمُنْذِرِ قَالَ: حَدَّثَنَا أَنَسُ بْنُ عِيَاضٍ، عَنْ عُبَيْدِ اللَّهِ قَالَ: حَدَّثَنِي سَعِيدٌ الْمَقْبُرِيُّ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((إِذَا أَوَى أَحَدُكُمْ إِلَى فِرَاشِهِ فَلْيَأْخُذْ دَاخِلَةَ إِزَارِهِ، فَلْيَنْفُضْ بِهَا فِرَاشَهُ وَلْيُسَمِّ اللَّهَ، فَإِنَّهُ لاَ يَعْلَمُ مَا خَلَفَهُ بَعْدَهُ عَلَى فِرَاشِهِ، فَإِذَا أَرَادَ أَنْ يَضْطَجِعَ فَلْيَضْطَجِعْ عَلَى شِقِّهِ الأَيْمَنِ وَلْيَقُلْ: سُبْحَانَكَ رَبِّي، بِكَ وَضَعْتُ جَنْبِي، وَبِكَ أَرْفَعُهُ، إِنْ أَمْسَكْتَ نَفْسِي فَاغْفِرْ لَهَا، وَإِنْ أَرْسَلْتَهَا فَاحْفَظْهَا بِمَا تَحْفَظُ بِهِ عِبَادَكَ الصَّالِحِينَ)).

**(1217)** ........ Əbu Hureyrə رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Sizdən biriniz yatağına uzanmaq istədikdə, izarının ətəyinin iç tərəfi ilə çarpayısını çırpıb təmizləsin[1] və "Bismilləh!"– desin. Çünki o, özündən sonra yatağa nəyin girdiyini bilmir. Uzanmaq istəsə, qoy, sağ tərəfi üstündə uzanıb desin: "Ey Rəbbim, Sən pak və müqəddəssən. Sənin sayəndə böyrümü yerə qoydum, Sənin sayəndə də qaldıraram. Ruhumu tutub saxlasan, onu bağışla! Onu buraxsan, əməlisaleh qullarını qoruduğun kimi onu da qoru![2]"[3]

---

[1] 1210-cu hədisin qeydlərinə bax.

[2] Transkripsiyası: Subhanəkə Rabbi, bikə vəda'tu cənbi, və bikə ərfəuh, in əmsəktə nəfsi fəğfir ləhə, və in ərsəltəhə fəhfəzhə bimə təhfəzu bihi ibadəkəs-salihin!

[3] Bu hədisi Buxari (6320), Muslim (8/79), Əbu Davud (5050), Nəsai (əl-Kubra, 10627), Əhməd (2/422) və Beyhəqi (Şoəbul-İman, 4382) rəvayət etmişdir. Şeyx Albani demişdir: "Bu, eyni ilə Muslimin ləfzidir. Fəqət onun rəvayətində: "Subhanəkə Allahummə Rabbi, bikə vəda'tu cənbi, və bikə ərfəuh, in əmsəktə nəfsi fəğfir ləhə, və in ərsəltəhə fəhfəzhə bimə təhfəzu bihi ibadəkəs-salihin!"– deyilir" (Səhih əl-Ədəbul-Mufrad, səh: 473).

## ٥٨٠- بَابُ مَا يَقُولُ إِذَا اسْتَيْقَظَ بِاللَّيْلِ

## 580-ci fəsil. Adam gecə oyandıqda nə deməlidir[1]

١٢١٨- حَدَّثَنَا مُعَاذُ بْنُ فَضَالَةَ قَالَ: حَدَّثَنَا هِشَامٌ الدَّسْتُوَائِيُّ، عَنْ يَحْيَى هُوَ ابْنُ أَبِي كَثِيرٍ، عَنْ أَبِي سَلَمَةَ قَالَ: حَدَّثَنِي رَبِيعَةُ بْنُ كَعْبٍ قَالَ: كُنْتُ أَبِيتُ عِنْدَ بَابِ النَّبِيِّ ﷺ فَأُعْطِيهِ وَضُوءَهُ، قَالَ: فَأَسْمَعُهُ الْهَوِيَّ مِنَ اللَّيْلِ يَقُولُ: ((سَمِعَ اللَّهُ لِمَنْ حَمِدَهُ))، وَأَسْمَعُهُ الْهَوِيَّ مِنَ اللَّيْلِ يَقُولُ: ((الْحَمْدُ لِلَّهِ رَبِّ الْعَالَمِينَ)).

---

[1] Yuxudan oyanan adam ilk əvvəl Allaha həmd etməlidir. Rəvayət edilir ki, Huzeyfə ibn Yəmən ﷺ demişdir: "Peyğəmbər ﷺ yuxudan oyandıqda deyərdi: "Əlhəmdulillahil-ləzi əhyanə bədə mə əmatənə və ileyhin-nuşur! (Bizi öldürdükdən sonra dirildən Allaha həmd olsun. *Ölüb dirildikdən sonra* qayıdış Onadır!)"– deyərdi" (Səhih əl-Buxari, 6312); digər hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ yuxudan oyandıqda deyərdi: "Əlhəmdulilləhil-ləzi afəni fi cəsədi, və raddə aleyyə ruhi, və əzinə li bizikrihi! (Bədənimə salamatlıq verən, ruhumu mənə qaytaran və mənə Onu yad etməyə izin verən Allaha həmd olsun!)"– deyərdi" (Sunən ət-Tirmizi, 5/473; Səhih ət-Tirmizi, 3/144). Sonra qalxıb dəstəmaz almalı və namaz qılmalıdır (1214-cü hədisin qeydlərinə bax). Həmçinin, yuxudan oyandıqda oxunan əzəmətli zikrlərdən biri də Ubadə ibn Samitin rəvayət etdiyi hədisdə öz təsdiqini tapmışdır. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim gecə oyanarkən:

(( لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ، وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ. الْحَمْدُ لِلَّهِ، وَسُبْحَانَ اللَّهِ، وَلاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَاللَّهُ أَكْبَرُ، وَلاَ حَوْلَ وَلاَ قُوَّةَ إِلاَّ بِاللَّهِ ))

"Lə ilahə illəllah, vəhdahu lə şərikə ləh, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir, əlhəmdulilləhi, və subhanallahi, və lə ilahə illallahu, vəllahu əkbər, və lə həulə və lə quvvətə illə billəh (Allahdan başqa *ibadətə layiq olan* məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur, həmd Onadır və O, hər şeyə Qadirdir. Həmd Allaha məxsusdur. Allah pak və müqəddəsdir. Allahdan başqa *ibadətə layiq olan* məbud yoxdur. Allah ən Böyükdür. Qüdrət və güc yalnız Allahdadir)!"– deyə *zikr etdikdən* sonra: "Rabbiğ-firli (Ey Rəbbim, məni bağışla)!"– desə və ya dua etsə, ona cavab verilər, qalxıb dəstəmaz aldıqdan sonra namaz qılsa, namazı qəbul olunar" (Səhih əl-Buxari, 1154). Yeri gəlmişkən, qeyd edək ki, bu zikrləri etmək hər kəsə nəsib olmur. Yalnız Allahı zikr edərək yatağına uzanan adam yuxudan oyandıqda da, Allahı zikr etməyə müvəffəq olur.

**(1218)** ........ Rəbiyə ibn Kəb ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ qapısının kandarında yatar, habelə, dəstəmaz almaq üçün ona su gətirərdim.[1] Gecənin bir aləmində Peyğəmbərin ﷺ belə dediyini[2] eşidirdim: "Allah Ona həmd edəni eşitdi!"[3] Yenə gecənin bir aləmində onun uzun zaman belə dediyini eşidirdim: "Həmd aləmlərin Rəbbinə məxsusdur![4]"[5]

---

[1] Bundan aydın olur ki, səhabələr Peyğəmbərə ﷺ xidmət etməyə həris olmuş, hətta, bu işdə bir-biriləri ilə yarışmışlar.

[2] Məlumdur ki, bu dualar – "Səmi Allahu limən həmidəh!" və "Əlhəmdulillahi Rabbil-aləmin!" namazda oxunur. Bundan belə nəticə çıxır ki, Peyğəmbər ﷺ bu duaları gecə namazında oxuyarmış. Bu da, İmam Əhmədin nəql etdiyi hədisdə öz təsdiqini tapmışdır. Həmin rəvayətdə səhabə demişdir: "Peyğəmbərin ﷺ gecə qalxıb namaz qılarkən uzun müddət "Əlhəmdulillahi Rabbil-aləmin!"– dediyini eşidirdim" (Musnəd, 4/57; şeyx əl-Arnaut bu hədisin isnadının "səhih" olduğunu demişdir).

[3] Transkripsiyası: Səmi Allahu limən həmidəh!

[4] Transkripsiyası: Əlhəmdulillahi Rabbil-aləmin!

[5] Bu hədisi Tirmizi (3744) Təbərani (əd-Dua, 769), Təyalisi (Musnəd, 1268) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "səhih" olduğunu demişdir.

## ٥٨١ – بَابُ مَنْ نَامَ وَبِيَدِهِ غَمَرٌ

## 581-ci fəsil. Əli yağlı olduğu halda yatan kimsə

١٢١٩– حَدَّثَنَا أَحْمَدُ بْنُ إِشْكَابَ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ فُضَيْلٍ، عَنْ لَيْثٍ، عَنْ مُحَمَّدِ بْنِ عَمْرِو بْنِ عَطَاءٍ، عَنِ ابْنِ عَبَّاسٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَنْ نَامَ وَبِيَدِهِ غَمَرٌ قَبْلَ أَنْ يَغْسِلَهُ، فَأَصَابَهُ شَيْءٌ، فَلا يَلُومَنَّ إِلا نَفْسَهُ)).

**(1219)** ........ İbn Abbas ﵄ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kim əli yağlı olduğu halda *onu* yumamış yatsa və başına bir iş gəlsə, qoy, özündən başqa heç kəsi qınamasın.[1]"[2]

١٢٢٠– حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ سُهَيْلٍ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَنْ بَاتَ وَبِيَدِهِ غَمَرٌ، فَأَصَابَهُ شَيْءٌ، فَلا يَلُومَنَّ إِلا نَفْسَهُ)).

**(1220)** ........ Əbu Hureyrə ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kim əli yağlı olduğu halda yatsa və başına bir iş gəlsə, qoy, özündən başqa heç kəsi qınamasın."[3]

---

[1] Bundan aydın olur ki, adam yemək yedikdən sonra əllərini yumalıdır. Çünki onun əlində qalmış yeməyin iyi zərəverici həşəratları özünə cəlb edə bilər və bu həşəratlar ona yuxuda ikən zərər yetirə bilərlər. Elə buna görə də Peyğəmbər ﷺ: "Qoy, özündən başqa heç kəsi qınamasın"– deyir. Belə ki, əli yağlı olduğu halda yatan adam öz əli ilə özünü təhlükəyə atmış olur.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[3] Bu hədisi Təbərani (Mocəmul-Ovsat, 1/185 və 2/3407) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "səhih li-ğeyri-hi" olduğunu demişdir.

## ٥٨٢- بَابُ إِطْفَاءِ الْمِصْبَاحِ

## 582-ci fəsil. Çırağı söndürmək

١٢٢١- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ أَبِي الزُّبَيْرِ الْمَكِّيِّ، عَنْ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((أَغْلِقُوا الأَبْوَابَ، وَأَوْكُوا السِّقَاءَ، وَأَكْفِئُوا الإِنَاءَ، وَخَمِّرُوا الإِنَاءَ، وَأَطْفِئُوا الْمِصْبَاحَ، فَإِنَّ الشَّيْطَانَ لاَ يَفْتَحُ غَلَقًا، وَلاَ يَحُلُّ وِكَاءً، وَلاَ يَكْشِفُ إِنَاءً، وَإِنَّ الْفُوَيْسِقَةَ تُضْرِمُ عَلَى النَّاسِ بَيْتَهُمْ)).

**(1221)** ........ Cabir ibn Abdullah رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Qapıları kilidləyin, su tuluqlarının ağzını bağlayın, qab-qacağı çevirib ağzı aşağı qoyun, qabların ağzını örtün[1] və çıraqları söndürün.[2] Çünki şeytan kilidli qapını, bağlı tuluğu və ağzı qapalı qabı aça bilməz. Həm də, xırda ziyanverici[3] insanların evlərini yandıra bilər.[4]"[5]

---

[1] Bundan aydın olur ki, içində yemək-içmək olan qabların ağzını bağlamaq lazımdır.

[2] Hazırki dövrdə istifadə olunan sobanı, buxarını və s. buna aid etmək olar.

[3] Burada "xırda ziyanverici" deyildikdə, siçan nəzərdə tutulur.

[4] Peyğəmbərin ﷺ bu nəsihətini yerinə yetirən mömin adam üç xeyirə nail olur: birincisi, şeytan onun evinə və yemək-içməyinə zərər yetirə bilmir. İkincisi, bu onun vəba xəstəliyindən qorunmasına bir səbəb olur. Bu xüsusda, rəvayət edilmiş hədisdə Rəsulullah ﷺ demişdir: "Qab-qacağın üstünü örtün və su tuluqlarının ağzını bağlayın! Çünki ildə bir gecə vardır ki, həmin gecə vəba xəstəliyi yer üzünə enir, sonra da üstündən keçdiyi elə bir ağzı açıq tuluq və elə bir üstü açıq qab qalmır ki, onun içinə girməmiş olsun" (Muslim, 6/107). Bu gecənin hansı gecə olduğunu isə Allahdan başqa heç kəs bilmir. Üçüncüsü də, bu, yemək-içməyi zərərli həşəratlardan qoruyur.

[5] Bu hədisi Buxari (3069), Muslim (6/105), Tirmizi (1925), Əhməd (3/386), Malik (3433) və İbn Hibban (1271) rəvayət etmişdir.

**١٢٢٢-** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا عَمْرُو بْنُ طَلْحَةَ قَالَ: حَدَّثَنَا أَسْبَاطٌ، عَنْ سِمَاكِ بْنِ حَرْبٍ، عَنْ عِكْرِمَةَ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: جَاءَتْ فَأْرَةٌ فَأَخَذَتْ تَجُرُّ الْفَتِيلَةَ، فَذَهَبَتِ الْجَارِيَةُ تَزْجُرُهَا، فَقَالَ النَّبِيُّ ﷺ: ((دَعِيهَا))، فَجَاءَتْ بِهَا فَأَلْقَتْهَا عَلَى الْخُمْرَةِ الَّتِي كَانَ قَاعِدًا عَلَيْهَا، فَاحْتَرَقَ مِنْهَا مِثْلُ مَوْضِعِ دِرْهَمٍ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: ((إِذَا نِمْتُمْ فَأَطْفِئُوا سُرُجَكُمْ، فَإِنَّ الشَّيْطَانَ يَدُلُّ مِثْلَ هَذِهِ عَلَى مِثْلِ هَذَا فَتَحْرِقُكُمْ)).

**(1222)** ........ İbn Abbas ﷠ demişdir: "*Bir dəfə* bir siçan gəlib çırağın fitilini dartmağa başladı. Kəniz onu qovmaq istədikdə Peyğəmbər ﷺ: "Burax onu!"– deyə buyurdu. Sonra siçan həmin çırağın fitilini gətirib Peyğəmbərin ﷺ oturduğu səccadənin[1] üstünə atdı.[2] Beləliklə də, səccadədə bir dirhəm boyda yer yandı. Onda, Rəsulullah ﷺ belə buyurdu: "Yatmaq istədiyiniz zaman çıraqlarınızı söndürün, çünki şeytan bu siçan kimi (ziyanvericiləri) belə bir iş görməyə təhrik edir və o, sizi yandırır."[3]

---

[1] Səccadə: namaz qılanda istifadə edilən kiçik xalça; həsir.

[2] Peyğəmbər ﷺ bu heyvanı "fasiq (ziyanverici)" adlandırmış və onu öldürməyi buyurmuşdur. Bu xüsusda, rəvayət edilmiş hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Beş *növ* fasiq (ziyanverici) heyvan vardır ki, bunları həm halal, həm də haram sayılan ərazidə (istənilən yerdə) öldürmək olar: ilan, alaqarğa, siçan, quduz it və çalağan" (Səhih Muslim 2919); başqa bir rəvayətdə "əqrəb" də zikr edilmişdir (Səhih əl-Buxari, 1829). Bu hədislərdən aydın olur ki, evdə bu ziyanvericilərə rast gəldikdə onları öldürmək gərəkdir. Bu hədisdə Peyğəmbərin ﷺ siçanı buraxması müstəsna haldır. Belə ki, Peyğəmbər ﷺ öz səhabələrinə siçanın nə fəsad törədəcəyini göstərmək üçün onu sağ buraxmışdır. Yeri gəlmişkən, qeyd edək ki, Peyğəmbər ﷺ bu heyvanlardan ilanı dərhal öldürməməyi istisna etmişdir (446-cı hədisin qeydlərinə bax).

[3] Bu hədisi Əbu Davud (5247); İbn Hibban (1997), Hakim (4/284-285) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun isnadının "səhih li-ğeyrihi" olduğunu demişdir.

**١٢٢٣-** حَدَّثَنَا أَحْمَدُ بْنُ يُونُسَ قَالَ: حَدَّثَنَا أَبُو بَكْرٍ، عَنْ يَزِيدَ بْنِ أَبِي زِيَادٍ، عَنْ عَبْدِ الرَّحْمَنِ ابْنِ أَبِي نُعْمٍ، عَنْ أَبِي سَعِيدٍ قَالَ: اسْتَيْقَظَ النَّبِيُّ ﷺ ذَاتَ لَيْلَةٍ، فَإِذَا فَأْرَةٌ قَدْ أَخَذَتِ الْفَتِيلَةَ، فَصَعِدَتْ بِهَا إِلَى السَّقْفِ لِتَحْرِقَ عَلَيْهِمُ الْبَيْتَ، فَلَعَنَهَا النَّبِيُّ ﷺ وَأَحَلَّ قَتْلَهَا لِلْمُحْرِمِ.

**(1223)** ........ Əbu Səid رضي الله عنه demişdir: “Bir gecə Peyğəmbər ﷺ yuxudan oyanıb baxdı ki, bir siçan onların evini yandırmaq üçün çırağın fitilini götürüb dama qalxır. Peyğəmbər ﷺ ona lənət oxudu və ehramda olan adama belə onu öldürməyi halal buyurdu.[1]”[2]

---

[1] Möminlərin anası Aişə رضي الله عنها rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: “Beş *növ* heyvan vardır ki, bunlar ziyanvericidirlər və onları haram sayılan ərazidə də öldürmək olar: qarğa, çalağan, əqrəb, siçan və quduz it” (Səhih əl-Buxari, 1829).

[2] Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “zəif” olduğunu demişdir.

## ٥٨٣- بَابُ لاَ تُتْرَكُ النَّارُ فِي الْبَيْتِ حِينَ يَنَامُونَ

## 583-cü fəsil. İnsanlar yatdıqları zaman evdə odu yana-yana saxlamamalıdırlar

١٢٢٤- حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا ابْنُ عُيَيْنَةَ، عَنِ الزُّهْرِيِّ، عَنْ سَالِمٍ، عَنْ أَبِيهِ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((لاَ تَتْرُكُوا النَّارَ فِي بُيُوتِكُمْ حِينَ تَنَامُونَ)).

**(1224)** ........ İbn Ömər رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Evlərinizdə odu yana-yana qoyub yatmayın.[1]"[2]

١٢٢٥- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ يَزِيدَ قَالَ: حَدَّثَنَا سَعِيدُ بْنُ أَبِي أَيُّوبَ قَالَ: حَدَّثَنِي يَزِيدُ بْنُ عَبْدِ اللَّهِ بْنِ الْهَادِ، عَنْ نَافِعٍ، عَنِ ابْنِ عُمَرَ قَالَ: قَالَ عُمَرُ: إِنَّ النَّارَ عَدُوٌّ فَاحْذَرُوهَا.

فَكَانَ ابْنُ عُمَرَ يَتْبَعُ نِيرَانَ أَهْلِهِ وَيُطْفِئُهَا قَبْلَ أَنْ يَبِيتَ.

**(1225)** ........ İbn Ömər رضي الله عنهما rəvayət edir ki, Ömər *ibn Xattab* demişdir: "Od, düşməndir. Elə isə, ondan özünüzü qoruyun.[3]"

(Nafi demişdir:) "İbn Ömər öz ailəsində oda nəzarət edər, yatmazdan əvvəl onu söndürərdi.[4]"[5]

---

[1] Nəvəvi demişdir: "Burada "od" deyildikdə, çıraq və buna bənzər şeylər nəzərdə tutulur. Məscidlərin və digər buna bənzər yerlərin işıqlandırılması üçün divarlardan asılan qəndillərə gəlincə, qeyd etmək lazımdır ki, əgər yanğın təhlükəsi olarsa, bu qəndillər də söndürülməlidir. Və əgər bu yerlərdə təhlükəsizlik təmin edilərsə, o zaman həmin qəndilləri yana-yana qoymaq olar" (Şərh Səhih Muslim).

[2] Bu hədisi Buxari (5819), Muslim (6/107), Əbu Davud (5246), Tirmizi (1926), İbn Macə (3769), Əhməd (2/7, 8 və 44), İbn Əbu Şeybə (26435) və Bəzzar (6026) rəvayət etmişdir.

[3] Bu o deməkdir ki, mömin adam hər şeydən əvvəl öz ailəsinin qeydinə qalmalıdır.

[4] Bu, dəlildir ki, səhabələr Peyğəmbərin ﷺ buyuruqlarını yerinə yetirməyə, Sünnəyə riayət etməyə olduqca həris olmuşlar.

[5] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

**١٢٢٦**– حَدَّثَنَا ابْنُ أَبِي مَرْيَمَ قَالَ: أَخْبَرَنَا نَافِعُ بْنُ يَزِيدَ قَالَ: حَدَّثَنِي ابْنُ الْهَادِ قَالَ: حَدَّثَنِي نَافِعٌ، عَنِ ابْنِ عُمَرَ، سَمِعَ النَّبِيَّ ﷺ يَقُولُ: ((لاَ تَتْرُكُوا النَّارَ فِي بُيُوتِكُمْ، فَإِنَّهَا عَدُوٌّ)).

**(1226)** ........ İbn Ömər رضي الله عنهما Peyğəmbərin ﷺ belə buyurduğunu eşitmişdir:[1] "Evlərinizdə odu yana-yana qoymayın, çünki o düşməndir.[2]"

---

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[2] Od xüsusunda Quranda belə buyurulur: **"Yandırdığınız odu gördünüzmü? Onun ağacını siz yaradırsınız, yoxsa Biz? Biz onu *Cəhənnəmi* yada salmaq və müsafirlərin istifadəsi üçün yaratdıq"** (əl-Vaqiə, 71-73). Ayədən aydın olur ki, Uca Allah odu Cəhənnəmi insanın yadına salmaq, həm də onun dünyəvi işlərinin istifadəsi üçün yaratmışdır... İnsanlar bu oddan yemək bişirmək, qışda qızınmaq və s. işlər üçün istifadə edirlər. Deməkk, odda faydalar vardır. Lakin buna rəğmən, əgər adam onunla düzgün davranmazsa, onu çox yaxına buraxarsa – məsələn, benzinin, qazın və s. tezalışan maddələrin yanında od qalayarsa, o onu yandırıb-yaxar, beləliklə də, ona düşmənçilik etmiş olar. Bu hədis dəlildir ki, adam şərdən qorunmaq üçün öz ehtiyatını tutmalıdır. Elə buna görə də, Peyğəmbər ﷺ bizə yatmazdan əvvəl odu söndürməyi buyurmuşdur. Heç kəs heç vaxt heç nəyə arxayın olmasın, iş bir dəfə baş verir, adamın ağlına gəlmədiyi yerdən bəla gəlir və onun həyatına son qoyur... Və necə ki, bu dünyadakı oddan qorunmaq bizə vacib buyurulmuşdur, eləcə də, insanı Axirətdə Cəhənnəm oduna vasil edən səbəblərdən qorunmaq – günahlardan, habelə, buna gətirib çıxaran vasitələrdən və yollardan çəkinmək bizə vacibdir (Şərh Riyadus-Salihin).

Xüsusilə qeyd etmək lazımdır ki, bu həqiqətdən qafil olan bəzi nadan insanlar özləri də hiss etmədən bu odu özlərinə dost tutmuş və onu çox yaxına buraxmışlar. Söhbət siqaret çəkənlərdən gedir. Belələri hər gün dəfələrcə bu düşməni götürüb öz üzünə yaxınlaşdırır, üstəlik, bunun sayəsində canını da yandırmış olur. Bu düşmən hər il yer üzündə milyonlarla insanın həyatına son qoyur. Uca Allah isə buyurur: **"Öz əllərinizlə özünüzü təhlükəyə atmayın"** (əl-Bəqərə, 195); O, həmçinin buyurur: **"Öz əlinizlə özünüzü öldürməyin!"** (ən-Nisa, 29); başqa bir ayədə O buyurur: **"*Peyğəmbər* onlara yaxşı işlər görməyi buyurar, pis əməlləri isə qadağan edər, onlara pak şeyləri halal, xəbis şeyləri isə ha-**

**١٢٢٧**– حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْعَلاءِ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ أُسَامَةَ، عَنْ بُرَيْدِ بْنِ عَبْدِ اللَّهِ، عَنْ أَبِي بُرْدَةَ، عَنْ أَبِي مُوسَى قَالَ: احْتَرَقَ بِالْمَدِينَةِ بَيْتٌ عَلَى أَهْلِهِ مِنَ اللَّيْلِ، فَحُدِّثَ بِذَلِكَ النَّبِيُّ ﷺ، فَقَالَ: ((إِنَّ هَذِهِ النَّارَ عَدُوٌّ لَكُمْ، فَإِذَا نِمْتُمْ فَأَطْفِئُوهَا عَنْكُمْ)).

**(1227)** ........ Əbu Musa ؓ demişdir: "(Bir dəfə) gecə vaxtı Mədinədə bir ev içindəki sakinləri ilə birlikdə yandı. Bu haqda Peyğəmbərə ﷺ xəbər verildikdə, o belə buyurdu: "Bu od sizə düşməndir. Odur ki, yatmaq istədiyiniz zaman onu söndürün."[1]

---

**ram edər"** (əl-Əraf, 157). Siqaret də, həmçinin xəbis şeylərə aiddir. Üstəlik, bu, malı əbəs yerə sərf etməkdir. Bu xüsusda, Uca Allah buyurur: ***"Malını*** **lazım olmayan yerə sərf etmə. Həqiqətən, israfçılar şeytanların qardaşlarıdır. Şeytan isə Rəbbinə qarşı nankordur"** (əl-İsra, 26-27). Həmçinin, Peyğəmbər ﷺ demişdir: "Qiyamət günü Adəm övladı dörd şey barədə soruşulmayınca, addımını kənara qoya bilməyəcək: ömrünü nəyə sərf etdiyi, nə əməllər etdiyi, malını haradan qazandığı və nəyə xərclədiyi və bir də sağlamlığını nəyə sərf etdiyi barədə" (Sunən ət-Tirmizi, 2417; Səhih əl-Cami, 7300). Bəzi avamlar siqaret çəkməyin məkruh olduğunu iddia edirlər. Tutaq ki, onların dediyi doğrudur, axı məkruh əməl halaldan çox harama yaxındır. Yəni bu məkruh adamı harama aparıb çıxaran bir şeydir. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Halal da bəllidir, haram da. Bunların arasında (halal, yaxud haram olduğu bəlli olmayan bəzi) şübhəli şeylər vardır ki, çox insanlar bunu bilməzlər. Kim şübhəli şeylərdən çəkinsə, dinini və namusunu qorumuş olar. Kim şübhəli şeylərə dalsa, *mal-qarasını* qoruğun kənarında otaran çoban kimi, çox keçməz qoruğa düşər. Bilin ki, hər bir hökmdarın qoruğu vardır. Bilin ki, Allahın yer üzündəki qoruğu haram buyurduğu şeylərdir" (Səhih əl-Buxari, 52).

[1] Bu hədisi Buxari (6294), Muslim (6/107), İbn Macə (3770), Əhməd (4/399), İbn Hibban (5520) və İbn Əbu Şeybə (26436) rəvayət etmişdir.

## ٥٨٤- بَابُ التَّيَمُّنِ بِالْمَطَرِ

## 584-cü fəsil. Yağış vasitəsilə xeyir-bərəkət diləmək[1]

١٢٢٨- حَدَّثَنَا بِشْرُ بْنُ الْحَكَمِ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ رَبِيعَةَ، عَنِ السَّائِبِ بْنِ عُمَرَ، عَنِ ابْنِ أَبِي مُلَيْكَةَ، عَنِ ابْنِ عَبَّاسٍ، أَنَّهُ كَانَ إِذَا مَطَرَتِ السَّمَاءُ يَقُولُ: يَا جَارِيَةُ، أَخْرِجِي سَرْجِي، أَخْرِجِي ثِيَابِي، وَيَقُولُ: ﴿وَنَزَّلْنَا مِنَ السَّمَاءِ مَاءً مُبَارَكًا﴾.

**(1228)** ........ İbn Əbu Muleykə rəvayət edir ki, yağış yağdığı zaman İbn Abbas *öz cariyəsinə*: "Ey kəniz, yəhərimi də, paltarımı da *yağışın altına* çıxart[2]"– deyər və *bu ayəni[3]* oxuyardı: **"Biz göydən bərəkətli su endirdik."**[4]

---

[1] Rəvayət edilir ki, Ənəs ibn Malik demişdir: "Bir dəfə biz Peyğəmbərlə ﷺ yağışa düşdük. Peyğəmbər ﷺ paltarının bir tərəfini açdı ki, bədəninə yağış dəysin. Biz soruşduq: "Niyə belə etdin, *ya Rəsulullah?*" O dedi: "Çünki bu yağış Rəbbindən yenicə nazil olmuşdur" (Səhih Muslim, 3/26; Sunən Əbu Davud, 5100; Musnəd Əhməd, 3/133 və 267).

[2] İbn Abbas رضي الله عنهما belə edərdi ki, atının yəhərinə və öz libasına yağış suyu dəysin, bunlar yağışın suyu ilə təmizlənsin və beləliklə də, xeyirli-bərəkətli olsun!

[3] "Qaf" surəsi, 9.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٥٨٥- بَابُ تَعْلِيقِ السَّوْطِ فِي الْبَيْتِ

## 585-ci fəsil. Evdə qamçı asmaq[1]

**١٢٢٩-** حَدَّثَنَا إِسْحَاقُ بْنُ أَبِي إِسْرَائِيلَ قَالَ: حَدَّثَنَا النَّضْرُ بْنُ عَلْقَمَةَ أَبُو الْمُغِيرَةِ، عَنْ دَاوُدَ ابْنِ عَلِيٍّ، عَنْ أَبِيهِ، عَنِ ابْنِ عَبَّاسٍ، أَنَّ النَّبِيَّ ﷺ أَمَرَ بِتَعْلِيقِ السَّوْطِ فِي الْبَيْتِ.

**(1229)** ........ İbn Abbas ﵄ rəvayət etmişdir ki,[2] Peyğəmbər ﷺ evdə qamçı asmağı əmr etmişdir.[3]

---

[1] Yalnız ehtiyac olduqda, bunu etmək məsləhətdir. Və əgər nəsihət etmək ailənin islah olunmasına kifayət edirsə, o zaman evdə qamçı asmağa lüzum yoxdur. 18-ci hədisdə, Rəsulullahın ﷺ "Dəyənəyini ailənin üzərindən qaldırma" sözünün qeydlərinə bax.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[3] İbn Abbas ﵄ rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Qamçını elə bir yerdən asın ki, ailə onu görsün. Bu, onların tərbiyəsinə müsbət təsir göstərəcək" (Mocəmul-Kəbir, 3/92/2; Tarix İbn Əsakir, 13/307/2; Məcməuz-Zəvaid, 8/106; Silsilətul-Əhadisis-Səhihə, 1447).

## ٥٨٦- بَابُ غَلْقِ الْبَابِ بِاللَّيْلِ

## 586-cı fəsil. Gecə vaxtı qapını kilidləmək[1]

١٢٣٠- حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ سَعِيدٍ، عَنِ ابْنِ عَجْلاَنَ قَالَ: حَدَّثَنَا الْقَعْقَاعُ ابْنُ حَكِيمٍ، عَنْ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((إِيَّاكُمْ وَالسَّمَرَ بَعْدَ هُدُوءِ اللَّيْلِ، فَإِنَّ أَحَدَكُمْ لاَ يَدْرِي مَا يَبُثُّ اللَّهُ مِنْ خَلْقِهِ، غَلِّقُوا الأَبْوَابَ، وَأَوْكُوا السِّقَاءَ، وَأَكْفِئُوا الإِنَاءَ، وَأَطْفِئُوا الْمَصَابِيحَ)).

**(1230)** ........ Cabir ibn Abdullah ﵄ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Gecə sakitləşdikdən sonra söhbət etməkdən çəkinin.[2] Çünki Allah yaratdıqlarından nəyi ətrafa yayacağını sizlərdən heç biriniz bilə bilməz.[3] Qapıları kilidləyin, su tuluqlarının ağzını bağlayın, qab-qacağı çevirib ağzı aşağı qoyun və çıraqları söndürün.[4]"[5]

---

[1] Qeyd etmək lazımdır ki, kilidli qapını şeytan aça bilmir. Lakin adam qapını bağladıqda "Bismilləh!"– deməlidir ki, şeytan evə girə bilməsin. Cabirin ﵁ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "*Gecələr* "Bismillah" deyərək *evinin* qapısını bağla! "Bismillah" deyərək çırağı söndür! "Bismillah" deyərək su tuluqlarının ağzını bağla!" "Bismillah" deyərək hər nə ilə olursa olsun qab-qacağın ağzını ört!" (Səhih əl-Buxari, 3280). Yoxsa, şeytan evə girdikdən sonra qapını kilidləməyin heç bir faydası olmur. Şeytan, Allahı zikr etməyən insanın həm yeməyinə, həm də, yatağına şərik olur. Uca Allah İblisə buyurur: **"Onlardan gücün çatdığı kimsələri səsinlə *günah*a təhrik et, atlı və piyadanı onların üstünə yerit, mallarına və övladlarına şərik ol, onlara vədlər ver. Şübhəsiz ki, şeytan onlara ancaq yalan vədlər verər. Əslində, Mənim qullarım üzərində sənin hökmranlığın olmayacaqdır"** (əl-İsra, 64-65). Bu ayədə "**qullarım**" deyildikdə, Allahı zikr edən ixlaslı möminlər qəsd edilir.

[2] Əbu Bərzə əl-Əsləmi ﵁ demişdir: "Peyğəmbər ﷺ sizin ətəmə adlandırdığınız işa namazını *gecənin yarısınadək* yubatmağı sevər, bu namazdan əvvəl yatmağı və ondan sonra danışmağı xoşlamazdı" (Səhih əl-Buxari, 547).

[3] Burada söhbət gecə vaxtı insana xətər toxunduracaq şeytanlardan, heyvanlardan və başqa bu kimi ziyanvericilərdən gedir.

[4] 1221-ci hədisin qeydlərinə bax.

[5] Bu hədisi Hakim (4/284) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

## ٥٨٧- بَابُ ضَمِّ الصِّبْيَانِ عِنْدَ فَوْرَةِ الْعِشَاءِ

## 587-ci fəsil. Zülmət çökdüyü[1] zaman uşaqları bayıra buraxmamaq

١٢٣١- حَدَّثَنَا عَارِمٌ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ قَالَ: حَدَّثَنَا حَبِيبٌ الْمُعَلِّمُ، عَنْ عَطَاءِ بْنِ أَبِي رَبَاحٍ، عَنْ جَابِرٍ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((كُفُّوا صِبْيَانَكُمْ حَتَّى تَذْهَبَ فَحْمَةُ، أَوْ فَوْرَةُ، الْعِشَاءِ، سَاعَةَ تَهُبُّ الشَّيَاطِينُ)).

**(1231)** ........ Cabir ﷛ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Gecənin zülməti, yaxud qaranlığı keçincəyə qədər uşaqlarınızı *evdən bayıra* buraxmayın. *Çünki bu vaxt* şeytanlar *hər tərəfə* yayılırlar.[2]"[3]

---

[1] Yəni gün batdıqdan bir müddət sonra Günəşin şüaları tamamilə itib gecənin qaranlığı çökməyə başladıqda, gecənin əvvəlində, başqa cür desək işa namazının əvvəl vaxtı.

[2] Digər rəvayətdə hədisin tamamında Peyğəmbər ﷺ demişdir: "Gecədən bir müddət keçdikdən sonra isə onları buraxa bilərsiniz" (Səhih əl-Buxari, 3280).

[3] Bu hədisi Buxari (2/322; 4/36-37), Muslim (6/106), Əbu Davud (3733) və Əhməd (3/388) rəvayət etmişdir. İmam Əhmədin "Musnəd" əsərindəki həmin hədisdə bu əlavə də rəvayət edilmişdir: "Həqiqətən də, cinlərin dağılışmağı və qamarlamağı vardır (yəni həmin vaxt onlar hər tərəfə – bazarlara, yollara, küçələrə və s. dağılışır və insanlara, ələlxüsus da, uşaqlara zərər yetirirlər)" Şeyx Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində (səh: 101) bu hədisin isnadının "səhih" olduğunu demişdir (Bu əlavə müəllifin "Səhih"ində də (3316) öz əksini tapmışdır).

## ٥٨٨- بَابُ التَّحْرِيشِ بَيْنَ الْبَهَائِمِ

## 588-ci fəsil. Heyvanları vuruşdurmaq[1]

١٢٣٢- حَدَّثَنَا مَخْلَدُ بْنُ مَالِكٍ قَالَ: حَدَّثَنَا هَاشِمُ بْنُ الْقَاسِمِ، عَنْ أَبِي جَعْفَرٍ الرَّازِيِّ، عَنْ لَيْثٍ، عَنْ مُجَاهِدٍ، عَنِ ابْنِ عُمَرَ، أَنَّهُ كَرِهَ أَنْ يُحَرَّشَ بَيْنَ الْبَهَائِمِ.

**(1232)** ........ Mücahid rəvayət etmişdir ki, İbn Ömər heyvanları vuruşdurmağı yaxşı iş saymazdı.[2]

---

[1] Buna it boğuşdurmağı, xoruz və ya qoç döyüşdürməyi və s. misal çəkmək olar. Müəllif bu fəslə belə ünvan qoymaqla heyvan döyüşdürməyin qadağan edildiyini bildirir. Belə etmək heyvanlara zülm etmək və heyvanlar arasında ədavət yaratmaq deməkdir. Bunu edənlər Qiyamət günü cavab verəcəklər. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "*Qiyamət günü* hər kəsə öz haqqı çatacaq, hətta, buynuzsuz qoç buynuzlu qoçdan qisas alacaqdır" (əl-Ədəbul-Mufrad, 183). Hədislərin birində rəvayət edilir ki, bir nəfər Peyğəmbərə ﷺ: "Ya Rəsulullah, mən qoç kəsdikdə, ona yazığım gəlir"– demiş, Peyğəmbər ﷺ də ona belə cavab vermişdir: "Sən qoça rəhm etsən, Allah da sənə rəhm edər!" (Musnəd Əhməd, 3/436). Hədisin əks anlamından aydın olur ki, heyvanları döyüşdürərək, onlara zülm edən kimsələrə Allah rəhm etməz.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən li-ğeyrihi" olduğunu demişdir.

## ٥٨٩- بَابُ نُبَاحِ الْكَلْبِ وَنَهِيقِ الْحِمَارِ

## 589-cu fəsil. İtin hürməsi və uzunqulağın anqırmağı

١٢٣٣- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي اللَّيْثُ قَالَ: حَدَّثَنِي خَالِدُ بْنُ يَزِيدَ، عَنْ سَعِيدِ بْنِ أَبِي هِلاَلٍ، عَنْ سَعِيدِ بْنِ زِيَادٍ، عَنْ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((أَقِلُّوا الْخُرُوجَ بَعْدَ هُدُوءٍ، فَإِنَّ لِلَّهِ دَوَابَّ يَبُثُّهُنَّ، فَمَنْ سَمِعَ نُبَاحَ الْكَلْبِ، أَوْ نُهَاقَ حِمَارٍ، فَلْيَسْتَعِذْ بِاللَّهِ مِنَ الشَّيْطَانِ الرَّجِيمِ ، فَإِنَّهُمْ يَرَوْنَ مَا لا تَرَوْنَ)).

**(1233)** ........ Cabir ibn Abdullah ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Gecə sakitləşdikdən sonra yola çıxmağı azaldın.[1] Çünki Allahın yaratdığı *bəzi* heyvanlar vardır ki, *Allah* onları *bu vaxt* ətrafa yayır. Kim itin hürməyini və ya uzunqulağın anqırmağını eşitsə, qoy, məlun şeytandan Allaha sığınsın.[2] Çünki onlar sizin görmədiklərinizi görürlər.[3]”[4]

١٢٣٤- حَدَّثَنَا أَحْمَدُ بْنُ خَالِدٍ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ إِسْحَاقَ، عَنْ مُحَمَّدِ بْنِ إِبْرَاهِيمَ، عَنْ عَطَاءِ بْنِ يَسَارٍ، عَنْ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((إِذَا سَمِعْتُمْ نُبَاحَ الْكِلاَبِ أَوْ نُهَاقَ الْحَمِيرِ مِنَ اللَّيْلِ، فَتَعَوَّذُوا بِاللَّهِ، فَإِنَّهُمْ يَرَوْنَ مَالاَ تَرَوْنَ، وَأَجِيفُوا الأَبْوَابَ، وَاذْكُرُوا اسْمَ اللَّهِ عَلَيْهَا، فَإِنَّ الشَّيْطَانَ لاَ يَفْتَحُ بَابًا أُجِيفَ وَذُكِرَ اسْمُ اللَّهِ عَلَيْهِ، وَغَطُّوا الْجِرَارَ، وَأَوْكِئُوا الْقِرَبَ وَأَكْفِئُوا الآنِيَةَ)).

---

[1] Bu, dəlildir ki, gecə vaxtı bayıra və ya yola çıxmaq qadağandır. Yalnız zəruri hallar istisnadır. Çünki hədisdə Peyğəmbər ﷺ bunu tamamilə qadağan etmir, “azaldın” deyir.

[2] Yəni “Əuzu billahi minəş-şeytanir-rəcim” deyilir. Şeytandan Allaha sığınmaq barədə Quranda buyurulur: **“De: “Ey Rəbbim! Şeytanların vəsvəsələrindən Sənə sığınıram! Onların mənə yaxınlaşmalarından Sənə sığınıram, ey Rəbbim!”** (əl-Muminun, 97-98).

[3] Yəni bu heyvanlar həmin vaxt şeytanları görür, insan isə onları görə bilmir. Bu xüsusda, Quranda belə buyurulur: **“Şübhəsiz ki, İblis və onun nəsli sizləri sizin onları görə bilmədiyiniz yerlərdən görürlər”** (əl-Əraf, 27).

[4] Bu hədisi Əbu Davud (5104) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun “səhih li-ğeyrihi” olduğunu demişdir.

**(1234)** ........ Cabir ibn Abdullah ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Əgər gecə vaxtı itlərin hürməyini, yaxud uzunqulaqların anqırmağını eşitsəniz, *şeytandan* Allaha sığının. Çünki onlar sizin görmədiklərinizi görürlər. *Həmçinin,* qapıları kilidləyin və (onları kilidləyərkən) Allahın adını zikr edin. Çünki şeytan kilidlənmiş və kilidlənərkən Allahın adı zikr edilmiş qapını aça bilməz.[1] Bardaqların qapağını örtün, tuluqların ağzını bağlayın və qab-qacağı çevirib ağzı aşağı qoyun."[2]

**١٢٣٥–** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ، وَعَبْدُ اللَّهِ بْنُ يُوسُفَ، قَالاَ: حَدَّثَنَا اللَّيْثُ قَالَ: حَدَّثَنِي يَزِيدُ بْنُ الْهَادِ، عَنْ عُمَرَ بْنِ عَلِيِّ بْنِ حُسَيْنٍ، عَنِ النَّبِيِّ ﷺ.

قَالَ ابْنُ الْهَادِ: وَحَدَّثَنِي شُرَحْبِيلُ، عَنْ جَابِرٍ، أَنَّهُ سَمِعَ مِنْ رَسُولِ اللَّهِ ﷺ يَقُولُ: ((أَقِلُّوا الْخُرُوجَ بَعْدَ هُدُوءٍ، فَإِنَّ لِلَّهِ خَلْقًا يَبُثُّهُمْ، فَإِذَا سَمِعْتُمْ نُبَاحَ الْكِلاَبِ أَوْ نُهَاقَ الْحَمِيرِ، فَاسْتَعِيذُوا بِاللَّهِ مِنَ الشَّيْطَانِ)).

**(1235)** Abdullah ibn Saleh və Abdullah ibn Yusuf bizə belə rəvayət etmişlər: "Bizə Leys belə rəvayət etişdir: "Bizə Yezid ibn əl-Had, Ömər ibn Əli ibn Hüseyndən, o da, Peyğəmbərdən ﷺ rəvayət etmişdir...

*Yezid* ibn əl-Had demişdir: "Şurahbil mənə rəvayət etmişdir ki, Cabir ﷺ Rəsulullahın ﷺ belə buyurduğunu eşitmişdir: "Gecə sakitləşdikdən sonra yola çıxmağı azaldın. Çünki Allahın yaratdığı *bəzi* məxluqlar vardır ki, *Allah* onları *bu vaxt* ətrafa yayır. Əgər itlərin hürməyini, yaxud uzunqulaqların anqırmağını eşitsəniz, şeytandan Allaha sığının!"[3]

---

[1] 1221-ci və 1230-cu hədisin qeydlərinə bax.

[2] Bu hədisi Əhməd (3/306), Hakim (Mustədrək, 7762) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih li-ğeyrihi" olduğunu demişdir.

[3] 1233-cü hədisin qeydlərinə bax.

## ٥٩٠– بَابُ إِذَا سَمِعَ الدِّيَكَةَ

## 590-cı fəsil. (Adam) xoruzun banladığını eşitdikdə (nə deməlidir?)

١٢٣٦– حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي اللَّيْثُ قَالَ: حَدَّثَنِي جَعْفَرُ بْنُ رَبِيعَةَ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ هُرْمُزَ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنْ رَسُولِ اللَّهِ ﷺ أَنَّهُ قَالَ: ((إِذَا سَمِعْتُمْ صِيَاحَ الدِّيَكَةِ مِنَ اللَّيْلِ، فَإِنَّهَا رَأَتْ مَلَكًا، فَسَلُوا اللَّهَ مِنْ فَضْلِهِ، وَإِذَا سَمِعْتُمْ نُهَاقَ الْحَمِيرِ مِنَ اللَّيْلِ، فَإِنَّهَا رَأَتْ شَيْطَانًا، فَتَعَوَّذُوا بِاللَّهِ مِنَ الشَّيْطَانِ)).

**(1236)** ........ Əbu Hureyrə ﷛ rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: "Əgər gecə vaxtı xoruzların banlamasını eşitsəniz,[1] bilin ki, onlar mələk görmüşlər.[2] Elə isə Allahdan Onun lütfünü diləyin.[3] Və əgər gecə vaxtı uzunqulaqların anqırdığını eşitsəniz, bilin ki, onlar şeytan görmüşlər. Odur ki, şeytandan Allaha sığının."[4]

---

[1] Bəzi insanlar xoruzun banladığını eşitdikdə, onu söyürlər. Halbuki, Peyğəmbər ﷺ bunu qadağan edib demişdir: "Xoruzu söyməyin, çünki o, adamı namaza oyadır" (Sunən Əbu Davud, 5101; Səhih əl-Cami, 7314).

[2] Yəni mələklərin yerə endiyini görürlər. Mələklər isə həmin vaxt yerə xeyir-bərəkət gətirirlər. Hədisə diqqət yetirsək görərik ki, Peyğəmbər ﷺ bu məqamda mələkdən yox, yalnız Allahdan, Onun lütfündən diləməyi buyurur. Çünki **"Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah böyük lütf sahibidir"** (əl-Hədid, 21).

[3] Məsələn, deyirsən: "Allahummə, inni əsalukə min fədlikə (Allahım, Səndən Sənin lütfünü diləyirəm)!" Qeyd edək ki, əgər xoruz eyni vaxt ərzində dalbadal bir neçə kərə banlayarsa, bu duanı bir dəfə demək kifayət edər. Və əgər birinci banıyla ikincisinin arasında uzunmüddətli fasilə olarsa, bu halda bu duanı təkrar oxumaq olar. Qadi İyad demişdir: "Səbəbi budur ki, belə dua etdikdə, mələklər bu duaya amin desinlər, Allahdan onun sahibi üçün bağışlanma diləsinlər, üstəlik, onun acizanə və ixlasla dua etdiyinə şahidlik etsinlər" (Şərh ən-Nəvəvi).

[4] Bu hədisi Buxari (3303), Muslim (8/85), Əbu Davud (5105), Tirmizi (3455), Nəsai (əs-Sunən əl-Kubra, 6/427/11391 və Əməlul-Yovm vəl-Leylə, 944) və İbn Əbu Şeybə (10/420/9854) rəvayət etmişdir.

## ٥٩١- بَابُ لا تَسُبُّوا الْبُرْغُوثَ

## 591-ci fəsil. Birəni[1] söyməyin

١٢٣٧- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ قَالَ: حَدَّثَنَا صَفْوَانُ بْنُ عِيسَى قَالَ: حَدَّثَنَا سُوَيْدٌ أَبُو حَاتِمٍ، عَنْ قَتَادَةَ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، أَنَّ رَجُلًا لَعَنَ بُرْغُوثًا عِنْدَ النَّبِيِّ ﷺ، فَقَالَ: ((لاَ تَلْعَنْهُ، فَإِنَّهُ أَيْقَظَ نَبِيًّا مِنَ الأَنْبِيَاءِ لِلصَّلاَةِ)).

**(1237)** ........ Ənəs ibn Malik ﷺ rəvayət edir ki, bir kişi Peyğəmbərin ﷺ yanında birəni lənətlədi. Peyğəmbər ﷺ dedi: "Ona lənət oxuma, çünki o, peyğəmbərlərdən birini namaza oyatmışdı."[2]

---

[1] Birə: insan və heyvanları sancıb əziyyət verən, çox sıçraq cücü.

[2] Bu hədisi İbn Hibban (əd-Duəfa, 1/350), Təbərani (əd-Dua, 3/1720/2056), Əbu Yə'la (Musnəd, 2959 və 3120), Bəzzar (Kəşful-Əstar, 2/434/2042), Doləbi (əl-Kunə, 1/142), Uqeyli (əd-Duəfa, 2/158), Beyhəqi (Şoəbul-İman, 4/300/5179), İbn Adiy (əl-Kamil, 3/422) və İbn əl-Covzi (əl-İləl əl-Mutənahiyə, 2/225/1189) rəvayət etmişdir. Şeyx Albani bu hədisin isnadında keçən Suveyd ibn İbrahimin "hafizəsi zəif" ravi olduğunu, elə bu səbəbdən də, bu hədisin "zəif" olduğunu demişdir. Hərçənd, birəni söymək və lənətləmək barədə Peyğəmbərdən ﷺ ayrıca hədis rəvayət edilməmişdir, lakin bu xüsusda, – yəni heyvanı söyməmək barədə ümumi hökm varid olmuşdur. Hədislərin birində Peyğəmbər ﷺ Suleym ibn Cabirə ﷺ: "Əsla heç nəyi söymə!"– deyə nəsihət etmiş, sonra da Suleym ibn Cabir demişdir: "Mən o vaxtdan bəri nə bir heyvanı, nə də bir insanı söymüşəm" (1182-ci hədisə bax).

## ٥٩٢ – بَابُ الْقَائِلَةِ

## 592-ci fəsil. Günortaüstü dincəlmək[1]

١٢٣٨ – حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدٍ قَالَ: حَدَّثَنَا هِشَامُ بْنُ يُوسُفَ قَالَ: أَخْبَرَنَا مَعْمَرٌ، عَنْ سَعِيدِ بْنِ عَبْدِ الرَّحْمَنِ، عَنِ السَّائِبِ، عَنْ عُمَرَ قَالَ: رُبَّمَا قَعَدَ عَلَى بَابِ ابْنِ مَسْعُودٍ رِجَالٌ مِنْ قُرَيْشٍ، فَإِذَا فَاءَ الْفَيْءُ قَالَ: قُومُوا فَمَا بَقِيَ فَهُوَ لِلشَّيْطَانِ، ثُمَّ لاَ يَمُرُّ عَلَى أَحَدٍ إِلاَّ أَقَامَهُ، قَالَ: ثُمَّ بَيْنَا هُوَ كَذَلِكَ إِذْ قِيلَ: هَذَا مَوْلَى بَنِي الْحَسْحَاسِ يَقُولُ الشِّعْرَ، فَدَعَاهُ فَقَالَ: كَيْفَ قُلْتَ؟ فَقَالَ:

وَدِّعْ سُلَيْمَى إِنْ تَجَهَّزْتَ غَازِيَا     كَفَى الشَّيْبُ وَالإِسْلاَمُ لِلْمَرْءِ نَاهِيَا،

فَقَالَ: حَسْبُكَ، صَدَقْتَ صَدَقْتَ.

---

[1] Bu xüsusda, varid olmuş hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Günortaüstü dincəlin. Çünki şeytanlar həmin vaxt dincəlmirlər" (Əxbar Əsbəhan, 1/195 və 353, 2/69; ət-Tibb, Əbu Nueym 1/12; Silsilətul-Əhadisis-Səhihə, 1647). Qədim zamanlarda sələflər sübh namazından sonra yatmazdılar. Çünki bu, bərəkətli vaxtdır. Peyğəmbər ﷺ bu ümmət üçün Allahdan xeyir-bərəkət diləyib demişdir: "Allahım, ümmətimin *hər* gününün əvvəlinə bərəkət ver!" (Səhih Əbu Davud 2345); digər hədisdə o demişdir: "Ümmətimin *hər* gününün əvvəlinə bərəkət verilmişdir!" (Səhih əl-Cami, 2841); Rəvayət edilir ki, Əbu Vail Şəqiq ibn Sələmə demişdir: "Bir gün biz sübh namazını qıldıqdan sonra Abdullah ibn Məsudun evinə getdik və qapıya çatdıqda salam verdik. Bizə içəri girmək üçün izin verdilər. Biz bir qədər qapının yanında durduq. Elə bu vaxt kəniz bayıra çıxıb: "Niyə içəri keçmirsiniz?"– dedi və biz içəri daxil olduq. Baxdıq ki, İbn Məsud oturub "Subhanəllah!"– deyə zikr edir. O *bizdən*: "Sizə izin verildiyi halda içəri girməyinizə nə mane oldu?– deyə soruşdu. Biz dedik: "Düşündük ki, ev əhlindən bəzisi yatmış olsun." O: "Yoxsa siz İbn Ummu Abdın ailəsinin qəflətdə olduğunu güman edirsiniz (yəni İbn Məsudun ailəsinin bu bərəkətli vaxtda yatdığınımı düşünürsünüz)?!"– dedi, sonra zikr etməyə davam etdi. Nəhayət, o, Günəşin doğduğunu güman etdi və *cariyəsinə*: "Ay kəniz, bax gör, Günəş doğubmu?"– dedi. Kəniz gedib *havaya* baxdı və Günəşin hələ doğmadığını xəbər verdi. İbn Məsud yenə zikr etməyə davam etdi. Nəhayət, o, Günəşin doğduğunu zənn etdi və *cariyəsinə*: "Ay kəniz, bax gör, Günəş doğubmu?"– dedi. Kəniz gedib *havaya* baxdı və Günəşin doğduğunu ona xəbər verdi. Onda İbn Məsud dedi: "Bu günümüzdə bizə lütf eləyən və günahlarımıza görə bizi məhv etməyən Allaha həmd olsun!" (Səhih Muslim, 2/205).

**(1238)** ........ Ömər ﷺ demişdir: "Qureyşdən olan bəzi kişilər çox vaxt İbn Məsudun qapısının önündə oturardılar. Günəş zenitə yetişhayetişdə *İbn Məsud onlara*: "Qalxın *yatmağa.* Yerdə qalan vaxt şeytan üçündür"– deyərdi. Sonra İbn Məsud kimin yanından keçərdisə, onu ayağa qaldırardı. Bu əsnada *ona bir nəfəri göstərib* dedilər: "Bu, Həshas oğullarının[1] mövlasıdır,[2] şeir deyir." İbn Məsud onu çağırıb soruşdu: "Necə deyirsən?" O dedi:

*Suleymayla vidalaş, döyüşə getsən əgər,*
*Ağ saç və İslam dini, pis işdən çəkindirər.*[3]

İbn Məsud dedi: "Yetər! Doğru söylədin, doğru söylədin."[4]

---

[1] Zəhəbi demişdir: "Bu, Həshas oğullarının azad etdiyi köləsi Suheymdir. O, fəsahətli dili olan bir şair idi. Səhabə deyil" (Tarix əl-İslam və Vəfəyatul-Məşahir vəl-Əlam, 2/381) .

[2] 39-cu fəsilin qeydlərinə bax.

[3] Demək istəyir ki, ağ saçlar və müsəlman olmaq qadınlara meyl etməyin – günah iş görməyin qarşısını alır. Vay o ağsaqqalların halına ki, o yaşlarında belə zinaya meyillidirlər. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: "Üç qisim insan vardır ki, Qiyamət günü Allah onları danışdırmayacaq, onları təmizə çıxarmayacaq və onların üzünə baxmayacaqdır. Üstəlik, onları üzücü bir əzab gözləyir. *Bu*, zinakar qoca, yalançı hökmdar və təkəbbürlü kasıbdır" (Səhih Muslim, 296). Qadi İyad ﷺ demişdir: "Hədisdə təhdid olunan bu üç qisim insan ona görə xüsusiləşdirilmişdir ki, onlar zəruri olmayan və ehtiyac duyulmayan işlərə əl atmaqla özlərini günaha batırmışlar. Bu isə inadkarlıqdan, tamahkarlıqdan və nəfsin zəifliyindən irəli gələn, həm də Allaha asi olaraq görülən işlərə bənzəyir. Belə ki, öz halalı ilə yaxınlıq etməkdən bezmiş və şəhvəti azalmış, həyat təcrübəsi olan və uzun illər ərzində guya ağlı artmış yaşlı adamın zinaya meyilli olması, onun həm ağıldan kəm, həm bihəya, həm də şəhvətinin qulu olduğuna dəlalət edir. Yalançı hökmdara gəlincə, o, heç kəsdən qorxmadığı halda bunu edirsə, demək, bunu xalqın mənfəəti üçün yox, məhz öz xeyri üçün edir. Təkəbbürlü kasıbın əlində heç bir şeyi olmadığı halda, özünü dartması onun ağılsız olduğunu göstərir" ("Şərh əs-Suyuti alə Muslim", 1/122).

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

**١٢٣٩-** حَدَّثَنَا عَلِيُّ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّزَّاقِ قَالَ: أَخْبَرَنَا مَعْمَرٌ، عَنْ سَعِيدِ ابْنِ عَبْدِ الرَّحْمَنِ الْجَحْشِيِّ، عَنْ أَبِي بَكْرِ بْنِ مُحَمَّدِ بْنِ عَمْرِو بْنِ حَزْمٍ، عَنِ السَّائِبِ بْنِ يَزِيدَ قَالَ: كَانَ عُمَرُ رَضِيَ اللَّهُ عَنْهُ يَمُرُّ بِنَا نِصْفَ النَّهَارِ، أَوْ قَرِيبًا مِنْهُ، فَيَقُولُ: قُومُوا فَقِيلُوا، فَمَا بَقِيَ فَلِلشَّيْطَانِ.

**(1239)** ........ Saib ibn Yezid demişdir: "Ömər günortaüstü, yaxud ona yaxın bir vaxtda bizim yanımıza gəlib deyərdi: "Qalxın, gedin yatmağa. Yerdə qalan *vaxt* şeytan üçündür.[1]"[2]

**١٢٤٠-** حَدَّثَنَا حَجَّاجٌ قَالَ: حَدَّثَنَا حَمَّادٌ، عَنْ حُمَيْدٍ، عَنْ أَنَسٍ قَالَ: كَانُوا يُجَمِّعُونَ، ثُمَّ يَقِيلُونَ.

**(1240)** ........ Ənəs ﷺ demişdir: "*Səhabələr* yığışıb cümə namazını yerinə yetirər, sonra da *dağılışıb* yatmağa gedərdilər.[3]"[4]

**١٢٤١-** حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ الْمُغِيرَةِ، عَنْ ثَابِتٍ، قَالَ أَنَسٌ: مَا كَانَ لِأَهْلِ الْمَدِينَةِ شَرَابٌ، حَيْثُ حُرِّمَتِ الْخَمْرُ، أَعْجَبَ إِلَيْهِمْ مِنَ التَّمْرِ وَالْبُسْرِ، فَإِنِّي لَأَسْقِي أَصْحَابَ رَسُولِ اللَّهِ ﷺ، وَهُمْ عِنْدَ أَبِي طَلْحَةَ، مَرَّ رَجُلٌ فَقَالَ: إِنَّ الْخَمْرَ قَدْ حُرِّمَتْ، فَمَا قَالُوا: مَتَى؟ أَوْ حَتَّى نَنْظُرَ، قَالُوا: يَا أَنَسُ، أَهْرِقْهَا، ثُمَّ قَالُوا عِنْدَ أُمِّ سُلَيْمٍ حَتَّى أَبْرَدُوا وَاغْتَسَلُوا، ثُمَّ طَيَّبَتْهُمْ أُمُّ سُلَيْمٍ، ثُمَّ رَاحُوا إِلَى النَّبِيِّ ﷺ، فَإِذَا الْخَبَرُ كَمَا قَالَ الرَّجُلُ. قَالَ أَنَسٌ : فَمَا طَعِمُوهَا بَعْدُ.

---

[1] Bundan aydın olur ki, dincəlmək vaxtı günortaya yaxın bir vaxtda, ya da zöhr namazından sonra olur.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

[3] Digər rəvayətdə Ənəs ibn Malik ﷺ demişdir: "Biz Rəsulullahla ﷺ birgə cümə namazını qıldıqdan sonra *evimizə* qayıdıb dincələrdik" (Musnəd Əhməd, 3/237; İbn Hibban, 2798; Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Səhih Əbu Davud" əsərində (997-ci hədisi şərhində) bu hədisin isnadının "həsən" olduğunu demişdir).

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

**(1241)** ........ Ənəs رضي الله عنه demişdir: "Şərab haram buyurulduğu zaman Mədinə əhli üçün quru və kal[1] xurmalardan düzəldilmiş içkidən daha gözəl şərab yox idi. *Həmin gün* mən Əbu Talhənin[2] evində Rəsulullahın ﷺ *bəzi* səhabələrinə şərab süzərkən *səhabələrdən* biri[3] gəlib dedi: "Şərab haram buyuruldu!" *Əbu Talhə və dostları* demədilər: "Nə zaman?", yaxud "Baxarıq!" *Əksinə,* onlar *mənə:* "Ey Ənəs, şərabı *çölə* tök!"– deyə əmr etdilər.[4] Sonra da hava sərinləşənədək Ummu Suleymin[5] evində dincəldilər. Sonra *qalxıb* yuyundular və Ummu Suleym onlara ətir vurdu. Daha sonra onlar Peyğəmbərin ﷺ yanına getdilər *və gördülər ki,* deyilən söz o adamın xəbər verdiyi kimidir. Bu hadisədən sonra səhabələr heç vaxt şərab içmədilər."[6]

---

[1] Ərəbcə quru xurmaya "təmr", tam yetişməmişinə isə "busr" deyilir. Ümumiyyətlə, xurmanın yetişdiyi mərhələlərdəki, yəni tam yetişməmiş tər xurmadan quru xurma olanadək – adları bu cür dəyişir: təl (طَلْعٌ), sonra xilal (خِلَالٌ), sonra bələh (بَلَحٌ), sonra busr (بُسْرٌ), sonra rutəb (رُطَبٌ), sonra da təmr (تَمْرٌ) (Dəlil əl-Falihin, 4/319).

[2] Əbu Talhə Zeyd ibn Səhl əl-Ənsari ən-Nəccari əl-Xəzrəci رضي الله عنه Ənəsin رضي الله عنه atalığıdır.

[3] Bu, dəlildir ki, bir nəfərin belə dediyi "səhih" xəbər qəbul olunur. Səhabələrdən heç biri ona etirazını bildirmir. Bu da, səhabələrin Peyğəmbərin ﷺ əmrini dərhal yerinə yetirdiklərini bir daha sübut edir.

[4] Digər rəvayətdə xəbər verilir ki, Ənəs ibn Malik رضي الله عنه demişdir: "Mən aparıb onu küçəyə boşaltdım. *Həmin gün* Mədinənin küçələrindən şərab axırdı" (Səhih əl-Buxari, 2464; Səhih Muslim, 6/87). Hədisin zahirinə baxan adam sual verə bilər ki, "Nə üçün səhabələr şərabı zibilliyə yox, məhz küçələrə axıtmışlar? Məgər bu, başqalarına əziyyət vermək deyil?" İslam alimlərindən bəzisi bu məsələni belə açıqlamışdır: "Muhəlləb demişdir: "Onların şərabı yola tökməkdə məqsədləri, şərabın haram buyurulduğunu elan etmək və bu hökmü hər tərəfə yaymaq olmuşdur" (Fəthul-Bari, 5/112). Yeri gəlmişkən, qeyd edək ki, Peyğəmbər ﷺ şərabın "murdar əməllərin anası" olduğunu xəbər vermişdir (18-ci hədisdəki "Şərab içmə. Çünki o, hər bir şər əməlin açarıdır" sözünün izahına bax).

[5] Ummu Suleym Rumeysə bint Milhan ibn Xalid əl-Ənsariyyə رضي الله عنها Ənəsin رضي الله عنه anasıdır.

[6] Bu hədisi Buxari (2464) və Muslim (6/87-88; 5246, 5247, 6248, 5249 və 5250) rəvayət etmişdir.

## ٥٩٣- بَابُ نَوْمِ آخِرِ النَّهَارِ

## 593-cü fəsil. Gündüzün sonunda yatmaq[1]

١٢٤٢- حَدَّثَنَا مُحَمَّدُ بْنُ مُقَاتِلٍ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ قَالَ: حَدَّثَنَا مِسْعَرٌ، عَنْ ثَابِتِ بْنِ عُبَيْدٍ، عَنِ ابْنِ أَبِي لَيْلَى، عَنْ خَوَّاتِ بْنِ جُبَيْرٍ قَالَ: نَوْمُ أَوَّلِ النَّهَارِ خُرْقٌ، وَأَوْسَطُهُ خُلْقٌ، وَآخِرُهُ حُمْقٌ.

**(1242)** ........ İbn Əbu Leyla rəvayət edir ki, Xəvvat ibn Cubeyr[2] ﷺ demişdir: "Gündüzün əvvəlində yatmaq avamlıq,[3] ortasında yatmaq əxlaq,[4] axırında yatmaq isə axmaqlıqdır.[5]"[6]

---

[1] Burada "gündüzün sonunda" deyildikdə, əsrdən sonra, ğüruba yaxın bir vaxt nəzərdə tutulur.

[2] Əbu Abdullah Xəvvat ibn Cubeyr ibn Nomən ibn Umeyyə əl-Ənsari ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Hicrətin 40-cı ilində, 74 yaşında Mədinədə vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 3/289; Təqrib ət-Təhzib, 323-cü tərcümeyi-hal).

[3] Əvvəlki fəsillərdəki hədislərdən bizə aydın oldu ki, Uca Allah bu ümmətin səhərini bərəkətli etmişdir. Bu bərəkətdən özünü məhrum edən, gecələrini səmərəsiz işlərə sərf edib, gündüzlərini yatan adam, əlbəttə ki, axmaq adamdır. Yalnız zəruri hallar istisnadır.

[4] Yəni İslam əxlaqındandır. Çünki Peyğəmbər ﷺ, onun səhabələri ﷺ və onların ardıcılları məhz günün bu vaxtında dincələrmişlər.

[5] Axmaqlıq: bir şeyin pis olduğunu bilə-bilə, onu öz yerinə qoymamaq deməkdir (ən-Nihayə). İmam Beyhəqinin rəvayət etdiyi hədisdə Abdullah ibn Amr ﷺ demişdir: "Üç növ yatmaq vardır: avamlıq, əxlaq və bir də axmaq. Duha vaxtı, camaatın işdə-gücdə olduğu zaman yatmaq avamlıq, gündüzün ortasında yatmaq əxlaq, namaz vaxtı yetişdikdə yatmaq isə axmaqlıqdır" (Şoəbul-İman, 4409). Diqqət edin, səhabənin burada verdiyi izahı daha genişdir. Yeri gəlmişkən, qeyd edək ki, zərurətdən dolayı günortaüstü yatıb dincəlməyə imkan tapmayan və çox yorulmuş adam həmin vaxt yata bilər. Bir şərtlə ki, bu namaz vaxtına təsadüf etməsin. Onu da qeyd etmək lazımdır ki, bu mövzuda varid olmuş: "Kim əsrdən sonra yatar və bu səbəbdən də, ağlını itirərsə, qoy, özündən başqa heç kəsi qınamasın" hədisi "zəif" hədisdir (əd-Duafə vəl-Məcruhin, İbn Hibban, 1/283; Silsilətul-Əhadisid-Daifə, 39).

[6] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٥٩٤- بَابُ الْمَأْدُبَةِ

## 594-cü fəsil. Ziyafət vermək

١٢٤٣- حَدَّثَنَا عَمْرُو بْنُ خَالِدٍ قَالَ: حَدَّثَنَا أَبُو الْمَلِيحِ قَالَ: سَمِعْتُ مَيْمُونًا يَعْنِي ابْنَ مِهْرَانَ قَالَ: سَأَلْتُ نَافِعًا: هَلْ كَانَ ابْنُ عُمَرَ يَدْعُو لِلْمَأْدُبَةِ ؟ قَالَ: لَكِنَّهُ انْكَسَرَ لَهُ بَعِيرٌ مَرَّةً فَنَحَرْنَاهُ، ثُمَّ قَالَ: احْشُرْ عَلَيَّ الْمَدِينَةَ، قَالَ نَافِعٌ: فَقُلْتُ: يَا أَبَا عَبْدِ الرَّحْمَنِ، عَلَى أَيِّ شَيْءٍ؟ لَيْسَ عِنْدَنَا خُبْزٌ، فَقَالَ: اللَّهُمَّ لَكَ الْحَمْدُ، هَذَا عُرَاقٌ، وَهَذَا مَرَقٌ، أَوْ قَالَ: مَرَقٌ وَبَضْعٌ، فَمَنْ شَاءَ أَكَلَ، وَمَنْ شَاءَ وَدَعَ.

**(1243)** ........ İbn Mehran demişdir:[1] *"Bir dəfə* mən Nafidən: "İbn Ömər ziyafət verərdimi?"– deyə soruşdum. Nafi dedi: "Bir gün onun dəvəsinin ayağı sındı və biz onu kəsdik. Sonra o bizə dedi: "Mədinə əhlini mən verdiyim ziyafətə dəvət et!" Nafi dedi: "Mən: "Ey Əbu Abdur-Rəhman, nəyə dəvət edim?! Axı, bizdə çörək yoxdur"– dedim." O dedi: "Allahım, həmd Sənə məxsusdur! Bu, ətli sümük, bu da şorba, *yaxud bu, şorba, bu da ət*, kim istəyər yeyər, kim də istəyər, çıxıb gedər.[2]"

---

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

[2] Bu hədisdən aydın olur ki, sələflər yeri gəldikdə ziyafət verər və bir-birilərini bu ziyafətə dəvət edər, beləliklə də, aralarında olan ülvi-məhəbbəti artırar, qardaşlıq münasibətlərini möhkəmləndirərdilər. Bunu onlara bu ümmətə nümunə olmuş Peyğəmbərimiz Muhəmməd səllallahu aleyhi və səlləm öyrətmişdir. Bu xüsusda, rəvayət edilmiş hədisdə Abdullah ibn Busr ﵁ demişdir: "Yeməyin qıt olduğu bir gündə Peyğəmbərə ﷺ bir qoç gətirdilər. Peyğəmbər ﷺ əhli-əyalına: "Bu qoçu bişirin. Bu undan da çörək hazırlayın"– deyə buyurdu. Peyğəmbərin ﷺ Ğarra deyilən və dörd kişinin qaldıra biləcəyi böyük bir sinisi var idi. Nəhayət, səhər açıldıqda bu sinini gətirib yeməyi onun içinə qoydular. Camaat bu yeməyin başına yığışdığı zaman Peyğəmbər ﷺ dizi üstə *yeməyə* oturdu. Onda bədəvilərdən biri ondan: "Bu, nə oturuşdur, *ya Rəsulullah*?"– deyə soruşdu.

Peyğəmbər ﷺ buyurdu: "Allah məni inadkar və dikbaş yox, ehtirama layiq bir qul etmişdir." Sonra davam edib dedi: "Yeməyin qırağından yeyin! Ortasını *axıra* saxlayın ki, bu yemək sizin üçün bərəkətli olsun. Götürün, yeyin! Muhəmmədin canı Əlində olan Allaha and olsun ki, siz Fars və Rum diyarlarını fəth edəcəksiniz. İş o yerə gəlib çatacaq ki, yemək çoxalacaq, lakin üzərində Allahın adı çəkilməyəcəkdir (yəni bəziləri o dərəcədə harınlayacaqlar ki, yemək yedikdə "bismilləh" deməyəcəklər)" (Sunən Beyhəqi, 7/283; Silsilətul-Əhadisis-Səhihə, 393-cü hədis).

## ٥٩٥- بَابُ الْخِتَانِ

## 595-ci fəsil. Sünnət etmək[1]

**١٢٤٤-** أَخْبَرَنَا شُعَيْبُ بْنُ أَبِي حَمْزَةَ قَالَ: حَدَّثَنَا أَبُو الزِّنَادِ، عَنِ الأَعْرَجِ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((اخْتَتَنَ إِبْرَاهِيمُ ﷺ بَعْدَ ثَمَانِينَ سَنَةً، وَاخْتَتَنَ بِالْقَدُومِ)).

قَالَ أَبُو عَبْدِ اللَّهِ: يَعْنِي مَوْضِعًا.

**(1244)** ........ Əbu Hureyrə ؓ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "İbrahim ؑ səksən yaşından[2] sonra Qədumda[3] sünnət olundu."[4]

Əbu Abdullah[5] demişdir: "Bu, yer adıdır."

---

[1] Sünnət etmək: müsəlmanlarda və yəhudilərdə yeni doğulmuş oğlan uşaqlarının kişilik əzasının dəri hissəsinin kəsilməsindən ibarət əməliyyat. Bu, həm fitrətdən, həm İslam şəriətinin buyurduğu və bədənin təmizliyini qoruyan gözəl xislətlərdən, həm də Xəlilullah İbrahim aleyhissəlamdan qalmış və Peyğəmbərimizin ﷺ təsdiqlədiyi Sünnədən sayılır. Fitrətdən olması barədə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Beş şey fitrətdəndir: sünnət etmək, qasığı qırxmaq, dırnaqları kəsmək, qoltuqaltı tükləri qopartmaq və bığları qısaltmaq" (Səhih Muslim, 597). Qeyd edək ki, sünnət etmək kişilərə vacib, qadınlara isə müstəhəbdir.

[2] Bu, dəlildir ki, sünnət edilməyin vacib olduğunu bilən adam qoca vaxtında belə, bu vacib fitrəti yerinə yetirməlidir.

[3] Qədum: Şam diyarında olan bir yerdir. Digər rəvayətdə deyilir ki, "İbrahim ؑ səksən yaşında ikən kərki ilə sünnət edilmişdir" (Səhih əl-Buxari, 3356).

[4] Bu hədisi Buxari (3356), Muslim (7/97) və Əhməd (2/322 və 418) rəvayət etmişdir.

[5] Yəni Muhəmməd ibn İsmail əl-Buxari.

## ٥٩٦- بَابُ خَفْضِ الْمَرْأَةِ

## 596-cı fəsil. (Qız uşağını) sünnət etmək[1]

١٢٤٥- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَاحِدِ قَالَ: حَدَّثَتْنَا عَجُوزٌ مِنْ أَهْلِ الْكُوفَةِ جَدَّةُ عَلِيِّ بْنِ غُرَابٍ قَالَتْ: حَدَّثَتْنِي أُمُّ الْمُهَاجِرِ قَالَتْ: سُبِيتُ فِي جَوَارِي مِنَ الرُّومِ، فَعَرَضَ عَلَيْنَا عُثْمَانُ الإِسْلاَمَ، فَلَمْ يُسْلِمْ مِنَّا غَيْرِي وَغَيْرُ أُخْرَى، فَقَالَ عُثْمَانُ: اذْهَبُوا فَاخْفِضُوهُمَا، وَطَهِّرُوهُمَا.

**(1245)** ........ Əli ibn Ğurabın nənəsi rəvayət etmişdir ki, Ummu Muhacir demişdir: "Rumluların cariyələri arasında məni də əsir götürmüşdülər. Osman (ibn Əffan) bizə İslam dinini qəbul etməyi buyurdu. Məndən və başqa bir cariyədən savayı, heç kəs İslam dinini qəbul etmədi. Sonra Osman dedi: "Aparın bu ikisini sünnət edin və onları təmizləyin."[2]

---

[1] Qadının sünnət olunmasına dair neçə-neçə hədislər varid olmuşdur. Bu hədislərdən birində Peyğəmbər ﷺ belə buyurmuşdur: "*Kişi* qadının dörd əzası arasında oturduğu və sünnət edilmiş əza sünnət edilmiş əzaya toxunduğu (cinsi əlaqəyə girdiyi) zaman *onlara* qüsl etmək vacib olar" (Səhih Mulsim, 785); digər hədisdə Peyğəmbər ﷺ Mədinədə qadınları sünnət edən Ummu Atiyyəyə رضي الله عنها belə buyurmuşdur: "*Qadını sünnət etdikdə, onun cinsiyyət üzvünün dərisindən* çox yox, azacıq kəs..." (Mustədrək əl-Hakim, 6236; Mocəmul-Kəbir, 8062; Səhih əl-Cami, 236; Silsilətul-Əhadisis-Səhihə, 722). Qeyd etmək lazımdır ki, qadınlara sünnət etmək vacib deyil.

[2] Bu hədisin isnadında keçən Əli ibn Ğurabın nənəsi "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

## ٥٩٧- بَابُ الدَّعْوَةِ فِي الْخِتَانِ

## 597-ci fəsil. Sünnətə dəvət etmək

**١٢٤٦-** حَدَّثَنَا زَكَرِيَّا بْنُ يَحْيَى قَالَ: حَدَّثَنَا أَبُو أُسَامَةَ، عَنْ عُمَرَ بْنِ حَمْزَةَ قَالَ: أَخْبَرَنِي سَالِمٌ قَالَ: خَتَنَنِي ابْنُ عُمَرَ أَنَا وَنُعَيْمًا، فَذَبَحَ عَلَيْنَا كَبْشًا، فَلَقَدْ رَأَيْتُنَا وَإِنَّا لَنَجْذَلُ بِهِ عَلَى الصِّبْيَانِ أَنْ ذَبَحَ عَنَّا كَبْشًا.

**(1246)** ........ Salim demişdir: “İbn Ömər məni və Nueymi sünnət etdi və bizim üçün qoç kəsdi. Bizdən ötrü qoç kəsildiyindən *başqa* uşaqların yanında sevinirdik.”[1]

---

[1] Bu hədisin isnadında keçən Ömər ibn Həmzə “zəif” ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “zəif” olduğunu demişdir. Xüsusilə qeyd etmək lazımdır ki, uşağı sünnət etdikdən sonra bu münasibətlə məclis qurub, ziyafət vermək barədə Peyğəmbərdən ﷺ heç bir “səhih” hədis varid olmamışdır. Belə bir şey Sünnəyə aid olmuş olsaydı, Peyğəmbər ﷺ bunu ilk əvvəl öz nəvələri Həsən رضي الله عنه və Hüseyn رضي الله عنه üçün edərdi (Abdur-Rəzzaq əl-Abbad).

## ٥٩٨– بَابُ اللَّهْوِ فِي الْخِتَانِ

## 598-ci fəsil. Sünnətdə əylənmək[1]

١٢٤٧– حَدَّثَنَا أَصْبَغُ قَالَ: أَخْبَرَنِي ابْنُ وَهْبٍ قَالَ: أَخْبَرَنِي عَمْرٌو، أَنَّ بُكَيْرًا حَدَّثَهُ، أَنَّ أُمَّ عَلْقَمَةَ أَخْبَرَتْهُ، أَنَّ بَنَاتَ أَخِي عَائِشَةَ اخْتُتِنَّ، فَقِيلَ لِعَائِشَةَ: أَلاَ نَدْعُو لَهُنَّ مَنْ يُلْهِيهِنَّ؟ قَالَتْ: بَلَى. فَأَرْسَلْتُ إِلَى عَدِيٍّ فَأَتَاهُنَّ، فَمَرَّتْ عَائِشَةُ فِي الْبَيْتِ فَرَأَتْهُ يَتَغَنَّى وَيُحَرِّكُ رَأْسَهُ طَرَبًا، وَكَانَ ذَا شَعْرٍ كَثِيرٍ، فَقَالَتْ: أُفٍّ، شَيْطَانٌ، أَخْرِجُوهُ، أَخْرِجُوهُ.

**(1247)** ........ Ummu Əlqəmə demişdir: "*Bir gün* Aişənin qardaşı qızlarına sünnət etdilər. *Sonra oradakı qadınlardan biri* Aişəyə: "Bəlkə bu qızları əyləndirmək üçün bir adam çağıraq?"– dedi. Aişə də: "Olar!"– deyib Adiyin[2] dalınca adam göndərdi. Onu evə gətirdilər. Aişə evə gəldikdə, onun öz başını əsdirərək nəğmə oxuduğunu gördü. Bu adam şeirbaz idi. Aişə dedi: "Uf! (Bu) bir şeytandır. Qovun onu, qovun onu!"[3]

---

[1] Məlumdur ki, uşağı sünnət etdikdə, bu, onu incidir. Müəllif bu fəslə belə ünvan qoymaqla bildirmək istəyir ki, bu vəziyyətdə uşağın könlünü açmaq üçün onu əyləndirmək, ona hədiyyələr vermək və başqa bu kimi yollarla onun kefini açmaq mübah əməllərdən hesab edilir. Lakin bunu etdikdə harama yol verilməməlidir, məsələn, uşaq üçün musiqi çalmaq və başqa bu kimi qadağan olunmuş vasitələrdən istifadə edilməməlidir. Bu fəsildəki hədis də elə buna dəlildir.

[2] Beyhəqinin rəvayət etdiyi bu hədisdə "Bəziləri gedib bir müğənni gətirdilər" deyilir (əs-Sunən əl-Kubra, 10/223/224; Şeyx Albani "Təhrim Alətut-Tarb" əsərində (səh: 129) bu hədisin "ceyyid" olduğunu demiş, habelə, İbn Rəcəbin "Nuzhətul-Əsma" əsərində (səh: 55) bu hədisi "səhih" hesab etdiyini bildirmişdir).

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "həsən" olduğunu demişdir.

## ٥٩٩- بَابُ دَعْوَةِ الذِّمِّيِّ

## 599-cu fəsil. Zimminin dəvətini qəbul etmək[1]
(yaxud zimmini qonaq dəvət etmək)

١٢٤٨- حَدَّثَنَا أَحْمَدُ بْنُ خَالِدٍ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ إِسْحَاقَ، عَنْ نَافِعٍ، عَنْ أَسْلَمَ مَوْلَى عُمَرَ قَالَ: لَمَّا قَدِمْنَا مَعَ عُمَرَ بْنِ الْخَطَّابِ الشَّامَ أَتَاهُ الدِّهْقَانُ قَالَ: يَا أَمِيرَ الْمُؤْمِنِينَ، إِنِّي قَدْ صَنَعْتُ لَكَ طَعَامًا، فَأُحِبُّ أَنْ تَأْتِيَنِي بِأَشْرَافِ مَنْ مَعَكَ، فَإِنَّهُ أَقْوَى لِي فِي عَمَلِي، وَأَشْرَفُ لِي، قَالَ: إِنَّا لاَ نَسْتَطِيعُ أَنْ نَدْخُلَ كَنَائِسَكُمْ هَذِهِ مَعَ الصُّوَرِ الَّتِي فِيهَا.

**(1248)** ........ Ömərin mövlası Əsləm demişdir: "Biz Ömər ibn Xattabla birgə Şama gəldikdə, xristian zadəganlardan biri onun yanına gəlib dedi: "Ey möminlərin əmiri, mən sənin üçün yemək hazırlamışam. İstəyirəm ki, ən hörmətli adamlarını götürüb qonağım olasınız. Heç şübhəsiz ki, bu, mənim işimə qüvvət verər və mənim üçün bir şərəf olar." Ömər dedi: "Sizin bu kilsələrinizdə şəkillər olduğu halda biz ora girə bilmərik."[2]

---

[1] Zimminin dəvətini qəbul edib onun qonaqlığında iştirak etmək caizdir. Uca Allah buyurur: "**Allah din uğrunda sizinlə vuruşmayan və sizi öz diyarınızdan qovub çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla insafla davranmanızı sizə qadağan etmir. Şübhəsiz ki, Allah insaflı olanları sevir**" (əl-Mumtəhənə, 8). Lakin bir şərtlə ki, bu qonaqlıq keçirilən yerdə içki, musiqi və başqa bu kimi haram şeylər olmasın, eləcə də, həmin qonaqlıq onların dini bayramları və başqa bu kimi batil məqsədlər üzərində qurulmuş olmasın. Bu xüsusda, Uca Allah buyurur: **"*Allah* Kitabda sizə nazil etmişdir ki, Allahın ayələrinin inkar edildiyini və onlara istehza olunduğunu eşitdiyiniz zaman, *günahkarlar* başqa bir söhbətə keçməyincə onlarla bir yerdə oturmayın. Yoxsa siz də onların tayı olarsınız. Şübhəsiz ki, Allah bütün münafiqləri və kafirləri Cəhənnəmə toplayacaqdır"** (ən-Nisa, 140).

[2] Hədisin isnadında keçən İbn İshaq bu hədisi "muan'ən" isnadla rəvayət etdiyinə görə, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Hərçənd, bu rəvayətin isnadı "zəif"dir, lakin Şeyx Albani "Adəbuz-Zifaf" kitabında (səh: 92) bu hədisi başqa isnadla İmam Beyhəqidən (əs-Sunən əl-Kubra, 13341) nəql etmiş və onun isnadının "səhih" olduğunu demişdir.

## ٦٠٠- بَابُ خِتَانِ الإِمَاءِ

## 600-cü fəsil. Kənizi sünnət etmək

١٢٤٩- حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَاحِدِ بْنُ زِيَادٍ قَالَ: حَدَّثَتْنَا عَجُوزٌ مِنْ أَهْلِ الْكُوفَةِ جَدَّةُ عَلِيِّ بْنِ غُرَابٍ قَالَتْ: حَدَّثَتْنِي أُمُّ الْمُهَاجِرِ قَالَتْ: سُبِيتُ وَجَوَارِي مِنَ الرُّومِ، فَعَرَضَ عَلَيْنَا عُثْمَانُ الإِسْلاَمَ، فَلَمْ يُسْلِمْ مِنَّا غَيْرِي وَغَيْرُ أُخْرَى، فَقَالَ: اخْفِضُوهُمَا، وَطَهِّرُوهُمَا فَكُنْتُ أَخْدُمُ عُثْمَانَ.

**(1249)** ........ Əli ibn Ğurabın nənəsi rəvayət etmişdir ki, Ummu Muhacir demişdir: "Rumluların cariyələri arasında məni də əsir götürmüşdülər. Osman (ibn Əffan) bizə İslam dinini qəbul etməyi buyurdu. Məndən və başqa bir cariyədən savayı, heç kəs İslam dinini qəbul etmədi. Sonra Osman dedi: "Aparın bu ikisini sünnət edin və onları təmizləyin." Sonra mən Osmana xidmət edərdim.[1]"[2]

---

[1] 596-cı fəsilin qeydlərinə bax.

[2] 1245-ci hədisin qeydlərinə bax.

## ٦٠١- بَابُ الْخِتَانِ لِلْكَبِيرِ

## 601-ci fəsil. Yaşlı adamı sünnət etmək

**١٢٥٠-** حَدَّثَنَا سُلَيْمَانُ بْنُ حَرْبٍ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ زَيْدٍ، عَنْ يَحْيَى بْنِ سَعِيدٍ، عَنْ سَعِيدِ بْنِ الْمُسَيِّبِ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: اخْتَتَنَ إِبْرَاهِيمُ ﷺ وَهُوَ ابْنُ عِشْرِينَ وَمِئَةٍ، ثُمَّ عَاشَ بَعْدَ ذَلِكَ ثَمَانِينَ سَنَةً.

قَالَ سَعِيدٌ: إِبْرَاهِيمُ أَوَّلُ مَنِ اخْتَتَنَ، وَأَوَّلُ مَنْ أَضَافَ، وَأَوَّلُ مَنْ قَصَّ الشَّارِبَ، وَأَوَّلُ مَنْ قَصَّ الظُّفُرَ، وَأَوَّلُ مَنْ شَابَ فَقَالَ: ((يَا رَبِّ، مَا هَذَا؟)) قَالَ: ((وَقَارٌ))، قَالَ: ((يَا رَبِّ، زِدْنِي وَقَارًا)).

**(1250)** ........ Səid ibn Museyyib rəvayət edir ki, Əbu Hureyrə ﷺ demişdir: "İbrahim ﷺ yüz iyirmi yaşında sünnət olundu. Bundan sonra səksən il də yaşadı."

Səid *ibn Museyyib* demişdir: "İbrahim ﷺ ilk sünnət olunan,[1] ilk ziyafət verən, ilk bığını qısaldan, ilk dırnağını tutan və ilk saçları ağaran kimsədir. *Saçları ağardıqda* o: "Ey Rəbbim, bu nədir?"– deyə soruşmuş, Rəbbi də ona: "Bu, bir vüqardır!"– deyə cavab vermişdir. Onda, o demişdir: "Ey Rəbbim, mənim vüqarımı artır."[2]

---

[1] Əbu Hureyrə ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "İlk dəfə qonağa ziyafət verən və ilk sünnət olunan kəs İbrahim ﷺ olmuşdur. O, səksən yaşında Qədumda (yaxud qəddumla) sünnət edilmişdir" (Tarix İbn Əsakir, 2/167/1; Şeyx Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində (725) bu hədisin isnadının "ceyyid" olduğunu demişdir). İbn Abdul-Bərr demişdir: "İslam alimləri yekdil rəydədirlər ki, ilk sünnət olunan kəs İbrahim ﷺ olmuşdur. Onların əksəriyyəti, sünnət edilməyin bütün peyğəmbərlərin təkid olunmuş Sünnəsinə, habelə, İslam fitrətinə aid olduğunu və kişilərin bunu tərk etməsinin doğru olmadığını söyləmişlər. Bəziləri də bunun vacib olduğunu demiş və Uca Allahın bu ayəsini əsas tutmuşlar: **"Sonra sənə *belə* vəhy etdik: "Hənif İbrahim dininə tabe ol"** (ən-Nəhl, 123). Qətadə demişdir: "Bu, sünnət edilməyə aiddir" (ət-Təmhid, 21/59; əl-Muğni, 1/116; əl-Məcmu, 1/229).

[2] Bu hədisi İbn Əbu Şeybə (34620) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih", lakin "movquf", yəni səhabənin – Əbu Hureyrənin ﷺ sözü, ikinci cümlənin isə "məqtu", yəni tabiinin – Səid ibn Museyyibin ﷺ sözü olduğunu demişdir.

**١٢٥١–** حَدَّثَنَا مُحَمَّدٌ ، قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ قَالَ: أَخْبَرَنَا مُعْتَمِرٌ قَالَ: حَدَّثَنِي سَالِمُ بْنُ أَبِي الذَّيَّالِ، وَكَانَ صَاحِبَ حَدِيثٍ، قَالَ: سَمِعْتُ الْحَسَنَ يَقُولُ: أَمَا تَعْجَبُونَ لِهَذَا؟ يَعْنِي: مَالِكَ بْنَ الْمُنْذِرِ عَمَدَ إِلَى شُيُوخٍ مِنْ أَهْلِ كَسْكَرَ أَسْلَمُوا، فَفَتَّشَهُمْ فَأَمَرَ بِهِمْ فَخُتِنُوا، وَهَذَا الشِّتَاءُ، فَبَلَغَنِي أَنَّ بَعْضَهُمْ مَاتَ، وَلَقَدْ أَسْلَمَ مَعَ رَسُولِ اللَّهِ ﷺ الرُّومِيُّ وَالْحَبَشِيُّ فَمَا فُتِّشُوا عَنْ شَيْءٍ.

**(1251)** ........ Həsən *əl-Bəsri* demişdir: "Bu adamın, *yəni Malik ibn Munzirin* işinə təəccüblənmirsinizmi? O, İslamı qəbul etmiş Kəskər[1] əhlinin qocalarının yanına gəlib onları yoxlamış[2] və qış mövsümü olmağına rəğmən, onların sünnət edilməsini əmr etmişdir.[3] Mənə xəbər veriblər ki, onlardan bəziləri ölüb. Halbuki, Peyğəmbərin ﷺ vaxtında rumlular və həbəşlər[4] İslamı qəbul etmiş və *heç kəs* onları yoxlamamışdır.[5]"[1]

---

[1] Kəskər: Dəclə çayının sahili yaxınlığındakı bir yer (Umdətul-Qari, 1/351).

[2] Yəni onların sünnət olunub-olunmadığını yoxlamışdır.

[3] Bir adama dini ayini yerinə yetirməyi məcbur etməklə onu ölüm təhlükəsi ilə üz-üzə qoymaq qadağandır. Bu xüsusda, rəvayət edilmiş hədisdə Cabir ibn Abdullah رضي الله عنه demişdir: "Bir dəfə biz (bir dəstə səhabə) səfərə çıxdıq və səfər əsnasında aramızdan bir nəfər başından yaralandı. Sonra o, yuxuda ikən cunub halına düşdü və öz dostlarından: "Bu halda mən təyəmmüm edə bilərəmmi?"– deyə soruşdu. Onlar da ona: "Xeyr, təyəmmüm edə bilməzsən, çünki sənin su ilə yuyunmağa imkanın var"– dedilər. O, qüsl etdi və bu səbəbdən də öldü. Biz Peyğəmbərin ﷺ yanına qayıtdıqda, bu haqda ona xəbər verdilər. Onda, Peyğəmbər ﷺ dedi: "Onu onlar öldürdülər, Allah onları öldürsün! Niyə bilmədiklərini *bilənlərdən* soruşmadılar. Şübhəsiz ki, xəstəliyin müalicəsi ancaq soruşmaqdır. (Ona yaralı olduğu halda su ilə qüsl etməyi məcbur etdilər.) Halbuki, yarasını parça ilə bağlayıb üstündən təyəmmüm etməsi, sonra da bədənin qalan hissəsini yuması ona kifayət edərdi" (Sunən Əbu Davud, 336; Səhih Əbu Davud, 2/161).

[4] Həbəş: Efiopiyanın əsas əhalisini təşkil edən xalq və bu xalqa mənsub olan adamın keçmiş adı; efiopiyalı.

[5] Muhəmməd Nasirəddin əl-Albani demişdir: "Düzdür, heç kəs onları yoxlamamışdır. Lakin bu, o demək deyil ki, onlara sünnət olunmaları əmr edilməmişdir. Küfr əlaməti sayılan tükləri qırxmaq İslamı qəbul edən hər kəsə vacibdir. Fitrətdən sayılan digər xis-

**١٢٥٢-** حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ عَبْدِ اللَّهِ الْأُوَيْسِيُّ قَالَ: حَدَّثَنِي سُلَيْمَانُ بْنُ بِلَالٍ، عَنْ يُونُسَ، عَنِ ابْنِ شِهَابٍ قَالَ: وَكَانَ الرَّجُلُ إِذَا أَسْلَمَ أُمِرَ بِالِاخْتِتَانِ وَإِنْ كَانَ كَبِيرًا.

**(1252)** ........ Yunus rəvayət edir ki, İbn Şihab demişdir: "İslamı qəbul edən hər kişiyə, yaşlı olsa belə, sünnət olunmaq əmr edilərdi."[2]

lətləri yerinə yetirmək də bu qəbildəndir. Əbu Davudun və başqasının nəql etdiyi hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ İslamı qəbul etmiş kişiyə belə buyurmuşdur: "Küfr əlaməti sayılan tüklərini qırx və sünnət et!" Habelə, fəsildəki bu hədisdən sonra gələn rəvayət də buna dəlalət edir (Səhih Əbu Davud, 383; Səhih əl-Ədəbul-Mufrad, səh: 484).

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih, movquf və mursəl" olduğunu demişdir.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih və məqtu" olduğunu demişdir.

## ٦٠٢- بَابُ الدَّعْوَةِ فِي الْوِلادَةِ

## 602-ci fəsil. Uşaq doğulduqda dəvət etmək

١٢٥٣- حَدَّثَنَا مُحَمَّدُ بْنُ عَبْدِ الْعَزِيزِ الْعُمَرِيُّ قَالَ: حَدَّثَنَا ضَمْرَةُ بْنُ رَبِيعَةَ، عَنْ بِلاَلِ بْنِ كَعْبٍ الْعَكِّيِّ قَالَ: زُرْنَا يَحْيَى بْنَ حَسَّانَ فِي قَرْيَتِهِ، أَنَا وَإِبْرَاهِيمُ بْنُ أَدْهَمَ، وَعَبْدُ الْعَزِيزِ بْنُ قَرِيرٍ، وَمُوسَى بْنُ يَسَارٍ، فَجَاءَنَا بِطَعَامٍ، فَأَمْسَكَ مُوسَى، وَكَانَ صَائِمًا، فَقَالَ يَحْيَى: أَمَّنَا فِي هَذَا الْمَسْجِدِ رَجُلٌ مِنْ بَنِي كِنَانَةَ مِنْ أَصْحَابِ النَّبِيِّ ﷺ يُكَنَّى أَبَا قِرْصَافَةَ أَرْبَعِينَ سَنَةً، يَصُومُ يَوْمًا وَيُفْطِرُ يَوْمًا، فَوُلِدَ لِأَبِي غُلاَمٌ، فَدَعَاهُ فِي الْيَوْمِ الَّذِي يَصُومُ فِيهِ فَأَفْطَرَ، فَقَامَ إِبْرَاهِيمُ فَكَنَسَهُ بِكِسَائِهِ، وَأَفْطَرَ مُوسَى.

قَالَ أَبُو عَبْدِ اللَّهِ: أَبُو قِرْصَافَةَ اسْمُهُ جَنْدَرَةُ بْنُ خَيْشَنَةَ.

**(1253)** ........ Bilal ibn Kəb əl-Akki demişdir: "Bir dəfə mən, İbrahim ibn Ədhəm, Abdul-Aziz ibn Qərir və Musa ibn Yəsar Yəhya ibn Həssanın kəndinə gedib onu ziyarət etdik. *Bu əsnada* Yəhya *bizə* yemək gətirdi. Musa oruc tutmuşdu *deyə yeməyə əlini uzatmadı*. Yəhya dedi: "Peyğəmbərin ﷺ səhabələrindən və Kinanə oğullarından olan Əbu Qirsafə kunyəli bir adam qırx il bu məsciddə bizə imamlıq etmişdir. O, günaşırı oruc tutardı. *O zaman* atamın bir oğlu oldu. Əbu Qirsafə oruc tutduğu gün atam onu *evə* qonaq çağırdı və o, orucunu açdı." İbrahim ayağa qalxıb Musanın cübbəsindən yavaşca dartdı və Musa orucunu açdı."

Əbu Abdullah[1] dedi: "Əbu Qirsafənin adı: Cəndərə ibn Xayşənədir."[2]

---

[1] Yəni Muhəmməd ibn İsmail əl-Buxari.

[2] Bu hədisin isnadında keçən Bilal ibn Kəb əl-Akki "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir. Xüsusilə qeyd etmək lazımdır ki, uşaq dünyaya gəldiyi gün bu münasibətlə məclis qurub ziyafət vermək barədə Peyğəmbərdən ﷺ heç bir "səhih" hədis varid olmamışdır. Onu da qeyd edək ki, bu məsələ ilə "Əqiqə (yeni doğulmuş uşağın 7-ci, yaxud 14-cü, yaxud da 21-ci günündə qoç kəsmək)" məsələsi arasında fərq vardır (Abdur-Rəzzaq əl-Abbad).

## ٦٠٣- بَابُ تَحْنِيكِ الصَّبِيِّ

## 603-cü fəsil. Xurmanı əzib uşağın damağına sürtmək[1]

**١٢٥٤-** حَدَّثَنَا حَجَّاجُ بْنُ مِنْهَالٍ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ ثَابِتٍ، عَنْ أَنَسٍ قَالَ: ذَهَبْتُ بِعَبْدِ اللَّهِ بْنِ أَبِي طَلْحَةَ إِلَى النَّبِيِّ ﷺ يَوْمَ وُلِدَ، وَالنَّبِيُّ ﷺ فِي عَبَاءَةٍ يَهْنَأُ بَعِيرًا لَهُ، فَقَالَ: ((مَعَكَ تَمَرَاتٌ؟)) قُلْتُ: نَعَمْ، فَنَاوَلْتُهُ تَمَرَاتٍ فَلَاكَهُنَّ، ثُمَّ فَغَرَ فَا الصَّبِيِّ، وَأَوْجَرَهُنَّ إِيَّاهُ، فَتَلَمَّظَ الصَّبِيُّ، فَقَالَ النَّبِيُّ ﷺ: ((حُبَّ الأَنْصَارِ التَّمْرَ))، وَسَمَّاهُ: عَبْدَ اللَّهِ.

**(1254)** ........ Ənəs ؓ demişdir: "Əbu Talhənin oğlu Abdullah[2] doğulduğu gün mən onu Peyğəmbərin ﷺ yanına apardım. Peyğəmbərin ﷺ əynində əba var idi, özü də dəvəsini qatranlayırdı.[3] Peyğəmbər ﷺ *məndən*: "Yanında xurma varmı?"– deyə soruşdu. Mən: "Bəli"– deyib ona bir neçə xurma verdim. Peyğəmbər ﷺ xurmanı ağzında əzdi, sonra uşağın ağzını açıb bu əzməni onun ağzına qoydu. Uşaq da onu yalamağa başladı. Onda, Peyğəmbər ﷺ: "Xurma ənsarın sevdiyi şeydir"– dedi və uşağa Abdullah[4] adını verdi."[5]

---

[1] Xurmanı əzib yeni doğulmiş uşağın ağzına sürtmək Sünnədir. Xüsusilə qeyd etmək lazımdır ki, bunu hər bir valideyn özü etməlidir. Deməк, körpəni təbərruk məqsədilə bir kimsənin yanına aparmaq bidətdir. Çünki bu, yalnız Peyğəmbərə ﷺ xas olmuşdur. Əgər belə etmək caiz olsa idi, müsəlmanlar Peyğəmbərin ﷺ vəfatından sonra yeni doğulmuş körpələrini Əbu Bəkrin ؓ, yaxud Ömərin ؓ, yaxud Osmanın ؓ, yaxud Əlinin ؓ və ya başqa bunlar kimi fəzilətli səhabələrin yanına aparardılar.

[2] Əbu Talhə ؓ Ənəs ibn Malikin ؓ atalığıdır, Abdullah da onun atabir qardaşıdır.

[3] Qatran: bəzi ağaclardan və ya daş kömürdən hasil edilən qara rəngli, kəskin qoxulu və yapışqanlı maddə; zift. Qatranlamaq: su keçməmək, çürüməmək, yara bağlamamaq və ya başqa məqsədlər üçün bir şeyin üzünə qatran çəkmək.

[4] 814-cü hədisə bax.

[5] Bu hədisi Buxari (5470), Muslim (6/174), Əbu Davud (4951), Əhməd (3/212) və İbn Hibban (4531) rəvayət etmişdir.

## ٦٠٤- بَابُ الدُّعَاءِ فِي الْوِلادَةِ

## 604-cü fəsil. Uşaq doğulduqda dua etmək[1]

١٢٥٥- حَدَّثَنَا مُحَمَّدٌ ، قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ قَالَ: أَخْبَرَنَا حَزْمٌ قَالَ: سَمِعْتُ مُعَاوِيَةَ بْنَ قُرَّةَ يَقُولُ: لَمَّا وُلِدَ لِي إِيَاسٌ دَعَوْتُ نَفَرًا مِنْ أَصْحَابِ النَّبِيِّ ﷺ فَأَطْعَمْتُهُمْ، فَدَعَوْا، فَقُلْتُ: إِنَّكُمْ قَدْ دَعَوْتُمْ فَبَارَكَ اللَّهُ لَكُمْ فِيمَا دَعَوْتُمْ، وَإِنِّي إِنْ أَدْعُو بِدُعَاءٍ فَأَمِّنُوا، قَالَ: فَدَعَوْتُ لَهُ بِدُعَاءٍ كَثِيرٍ فِي دِينِهِ وَعَقْلِهِ وَكَذَا، قَالَ: فَإِنِّي لَأَتَعَرَّفُ فِيهِ دُعَاءَ يَوْمِئِذٍ.

**(1255)** ........ Muaviyə ibn Qurra demişdir: "Oğlum İyas doğulduqda, mən Peyğəmbərin ﷺ səhabələrindən bir neçəsini *evimə* dəvət edib onlara yemək verdim.[2] Onlar da körpə üçün *Allahdan* bərəkət dilədilər. Mən dedim: "Siz dua etdiniz, Allah sizin duanıza bərəkət versin. İndi mən bir dua edim, siz amin deyin."[3] Mən uşağın dindar və ağıllı olması, habelə, başqa buna bənzər keyfiyyətlərə malik olması üçün çoxlu dua etdim. Mən o gün edilən duaların nəticəsini *hələ də* görürəm."[4]

---

[1] 840-cı hədisin qeydlərinə bax.

[2] Olsun ki, Muaviyə ibn Qurra övladı olduğu üçün bir neçə gün sonra qoç kəsmiş və həmin səhabələri yeməyə dəvət etmişdir.

[3] Xüsusilə qeyd etmək lazımdır ki, camaat şəklində duaya amin demək barədə Peyğəmbərdən ﷺ heç bir "səhih" hədis varid olmamışdır. Yəni bu cür amin deməyi Sünnə hesab etmək, uşaq anadan olduqda, bir yerə yığışıb camaat şəklində dua etmək və ya camaat şəklində duaya amin demək Sünnədə öz əksini tapmamışdır (Abdul-Muhsin əl-Abbad).

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih və məqtu" olduğunu demişdir.

## ٦٠٥- بَابُ مَنْ حَمِدَ اللَّهَ عِنْدَ الْوِلاَدَةِ إِذَا كَانَ سَوِيًّا وَلَمْ يُبَالِ ذَكَرًا أَوْ أُنْثَى

## 605-ci fəsil. Uşaq salamat doğulduqda, onun oğlan və ya qız uşağı olduğuna əhəmiyyət vermədən, Allaha həmd edən kimsə

**١٢٥٦-** حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ دُكَيْنٍ، سَمِعَ كَثِيرَ بْنَ عُبَيْدٍ قَالَ: كَانَتْ عَائِشَةُ رَضِيَ اللَّهُ عَنْهَا إِذَا وُلِدَ فِيهِمْ مَوْلُودٌ، يَعْنِي: فِي أَهْلِهَا، لاَ تَسْأَلُ: غُلاَمًا وَلاَ جَارِيَةً، تَقُولُ: خُلِقَ سَوِيًّا؟ فَإِذَا قِيلَ: نَعَمْ، قَالَتِ: الْحَمْدُ لِلَّهِ رَبِّ الْعَالَمِينَ.

**(1256)** ........ Abdullah ibn Dukeyn rəvayət edir ki, Kəsir ibn Ubeyd demişdir: "Bir ailədə uşaq anadan olduqda, Aişə ﵂ dünyaya gəlmiş həmin uşağın oğlan və ya qız olduğunu[1] əsla soruşmazdı.[2] O, *sadəcə*: "Uşaq salamat doğulubmu?"– deyə soruşar və ona: "Bəli"– deyə cavab verildikdə, o: "Həmd aləmlərin Rəbbinə məxsudur!"– deyərdi."[3]

---

[1] Bəzi nankor insanlar Allahın onlara qız uşağı bəxş etməsinə gileylənir və bunu qəbul etmək istəmirlər. Belə nankorlar barədə Uca Allah buyurur: **"Onlardan birinə, Mərhəmətli *Allaha* aid etdikləri *qız uşağı* ilə müjdə verilsə, hirsindən üzü qapqara qaralar"** (əz-Zuxruf, 17). Qız uşaqlarının fəziləti barədə neçə-neçə hədislər varid olmuşdur (41-ci, 42-ci, 43-cü və 44-cü fəsildəki hədislərə bax). Yəqub ibn Buxtan demişdir: "Mənim yeddi qızım olmuşdur. Hər dəfə bir qızım olduqda, mən Əhməd ibn Hənbəlin yanına gələr, o da, mənə deyərdi: "Ey Əbu Yusuf, peyğəmbərlər qızlar atasıdır" (Tohfətul-Movdud bi Əhkamil-Movlud, səh: 26).

[2] Çünki övladı verən Allahdır: **"Allah istədiyini yaradır; kiminə qız uşaqları, kiminə də oğlan uşaqları bəxş edir. Yaxud hər ikisindən – oğlan və qız uşaqları verir, kimini də sonsuz edir. Həqiqətən, O, Biləndir, *hər şeyə* Qadirdir"** (əş-Şura, 49-50).

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

## ٦٠٦- بَابُ حَلْقِ الْعَانَةِ

## 606-cı fəsil. Qasığı qırxmaq[1]

١٢٥٧- حَدَّثَنَا سَعِيدُ بْنُ مُحَمَّدٍ الْجَرْمِيُّ قَالَ: حَدَّثَنَا يَعْقُوبُ بْنُ إِبْرَاهِيمَ قَالَ: حَدَّثَنَا أَبِي، عَنِ ابْنِ إِسْحَاقَ، عَنْ مُحَمَّدِ بْنِ إِبْرَاهِيمَ بْنِ الْحَارِثِ التَّيْمِيِّ، عَنْ أَبِي سَلَمَةَ بْنِ عَبْدِ الرَّحْمَنِ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((خَمْسٌ مِنَ الْفِطْرَةِ: قَصُّ الشَّارِبِ، وَتَقْلِيمُ الأَظْفَارِ، وَحَلْقُ الْعَانَةِ، وَنَتْفُ الإِبْطِ، وَالسِّوَاكُ)).

**(1257)** ........ Əbu Hureyrə ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: “Beş şey fitrətdəndir:[2] bığları qısaltmaq, dırnaqları tutmaq, qasığı qırxmaq, qoltuqaltı tükləri qopartmaq və misvakla[3] təmizlənmək.[1]”[2]

---

[1] Burada “qasıq” deyildikdə, qarnın iki bud arasında olan alt tərəfi və cinsiyyət üzvünün ətrafı nəzərdə tutulur. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, bığları, dırnaqları, qoltuqaltı, habelə qasıqda bitən tükləri qırx gündən artıq saxlamaq İslam şəriətinə və ədəbinə, habelə, Peyğəmbərin ﷺ Sünnəsinə ziddir. Bu xüsusda, varid olmuş hədisdə Ənəs ibn Malik ﵁ demişdir: “Bığları qısaltmaq, dırnaqları kəsmək, qoltuqaltı tükləri qopartmaq və qasığı qırxmaq xüsusunda, qırx gündən o yana saxlamamaq bizim üçün təyin edilmişdir (Səhih Muslim, 599). Burada qırx gün deyildikdə, şərt deyil ki, bütün bunlar qırx günün tamamında təmizlənsin, bu müddətdən tez, hər kəsin öz istəyindən asılı olaraq qırx gün ərzində istənilən vaxt bığları qısaltmaq, dırnaqları tutmaq, qasığı qırxmaq, qoltuqaltı tükləri qopartmaq (və ya qırxmaq) caizdir (Növbəti fəsildəki 1258-ci rəvayətə bax).

[2] Alimlərin çoxu “fitrət Sünnəyə aiddir” demişlər. Odur ki, bunlar peyğəmbərlərin Sünnəsi deməkdir. Qeyd etmək lazımdır ki, fitrət din mənasında da işlənir. Lüğətdə isə yaradılış, xilqət, xasiyyət deməkdir. Burada "beş şey" deyildikdə, yalnız bu beş şeyin fitrətdən olduğu qəsd edilmir. Belə ki, başqa hədisdə on şeyin fitrətdən olduğu rəvayət edilir. Bu da, fitrətdən olan əməllərin daha çox olduğunu göstərir (Şərh ən-Nəvəvi).

[3] Misvak: ərak ağacından dişləri təmizləmək üçün düzəldilmiş təbii fırça. Əbu Hureyrə ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Əgər ümmətimə ağır gəlməsəydi,

onlara hər namazdan əvvəl *dişlərini* misvakla təmizləmələrini əmr edərdim" (Səhih əl-Buxari, 887; Səhih Muslim, 589); digər hədisdə o demişdir: "Cümə qüslünü almaq həddi-büluğa çatmış hər kəsə vacibdir. Həmçinin, o, imkan daxilində dişlərini misvakla təmizləməli və ətirdən istifadə etməlidir" (Səhih əl-Buxari, 880). İstənilən vaxt misvakdan istfadə etmək bəyənilən əməllərdəndir. Lakin beş vaxt vardır ki, həmin vaxtlarda ondan istifadə etmək daha yaxşıdır:

a) Dəstəmaz əsnasında;

b) Namaza başladıqda;

c) Quran oxumaq istədikdə;

d) Yuxudan oyandıqda;

e) Ağız qoxusu dəyişdikdə.

[1] Şeytan bəzi insanlara bığlarını və dırnaqlarını uzatmasını, qasığı və qoltuqaltı tükləri təmizləməməsini gözəl göstərmiş və beləliklə də, onları haqdan sapdırmışdır. Bu xüsusda, Uca Allah buyurur: **"Pis əməli özünə gözəl göstərilib onu yaxşı hesab edənlə, *doğru yolla gedən kimsə eyni ola bilərmi?* Həqiqətən, Allah istədiyini zəlalətə salır, istədiyini də doğru yola yönəldir. Sən onlara görə özünü üzüb əldən salma. Şübhəsiz ki, Allah onların nə törətdiklərini bilir"** (Fatir, 8).

[2] Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində (112) demişdir: "Bu hədis "misvakla təmizlənmək" əlavəsi ilə "munkər" hədisdir (bax: Silsilətul-Əhadisid-Daifə, 6350). Səhih olan "sünnət etmək" ləfzi ilə rəvayət edilənidir. 624-cü fəsildə (1292-ci hədisdə) olduğu kimi..." Hərçənd, bu isnadla varid olmuş bu ləfz "munkərdir", lakin misvakla təmizlənməyin fitrətdən sayılması başqa "səhih" rəvayətdə öz əksini tapmışdır. Aişə ﵂ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "On şey fitrətdəndir: bığları qısaltmaq, saqqal buraxmaq, misvaklanmaq, buruna su çəkib *içini təmizləmək,* dırnaqları kəsmək, barmaq buğumlarını yumaq, qoltuqaltı tükləri qopartmaq, qasığı qırxmaq və *ayaqyolunda* su ilə yuyunmaq." (Bu hədisi nəql etmiş ravi) Musab demişdir: "Onuncusunu unutmuşam. Yəqin ki, bu, ağızı yaxalamaqdır" (Səhih Muslim, 604).

## ٦٠٧- بَابُ الْوَقْتِ فِيهِ

### 607-ci fəsil. (Qasıqdakı tükləri) qırxmağın vaxtı

**١٢٥٨-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ عَبْدِ الْعَزِيزِ قَالَ: حَدَّثَنَا الْوَلِيدُ بْنُ مُسْلِمٍ قَالَ: حَدَّثَنِي ابْنُ أَبِي رَوَّادٍ قَالَ: أَخْبَرَنِي نَافِعٌ، أَنَّ ابْنَ عُمَرَ كَانَ يُقَلِّمُ أَظَافِيرَهُ فِي كُلِّ خَمْسَ عَشْرَةَ لَيْلَةً، وَيَسْتَحِدُّ فِي كُلِّ شَهْرٍ.

**(1258)** ........ Nafi rəvayət etmişdir ki, İbn Ömər on beş gündən bir dırnaqlarını tutar[1] və bir aydan bir qasıqdakı tükləri qırxardı.[2]

---

[1] Bundan aydın olur ki, bığlarını qısaltmaq, dırnaqlarını tutmaq, qasığı qırxmaq və qoltuqaltı tükləri təmizləmək məsələsində insan azaddır, yəni qırx gün ərzində istədiyi vaxt bunlardan təmizlənə bilər.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٦٠٨- بَابُ الْقِمَارِ

## 608-ci fəsil. Qumar[1]

**١٢٥٩-** حَدَّثَنَا فَرْوَةُ بْنُ أَبِي الْمَغْرَاءِ قَالَ: أَخْبَرَنَا إِبْرَاهِيمُ بْنُ الْمُخْتَارِ، عَنْ مَعْرُوفِ بْنِ سُهَيْلٍ الْبُرْجُمِيِّ، عَنْ جَعْفَرِ بْنِ أَبِي الْمُغِيرَةِ قَالَ: نَزَلَ بِي سَعِيدُ بْنُ جُبَيْرٍ فَقَالَ: حَدَّثَنِي ابْنُ عَبَّاسٍ، أَنَّهُ كَانَ يُقَالُ: أَيْنَ أَيْسَارُ الْجَزُورِ؟ فَيَجْتَمِعُ الْعَشَرَةُ، فَيَشْتَرُونَ الْجَزُورَ بِعَشَرَةِ فِصْلَانٍ إِلَى الْفِصَالِ، فَيُجِيلُونَ السِّهَامَ، فَتَصِيرُ لِتِسْعَةٍ، حَتَّى تَصِيرَ إِلَى وَاحِدٍ، وَيَغْرَمُ الْآخَرُونَ فَصِيلًا فَصِيلًا، إِلَى الْفِصَالِ فَهُوَ الْمَيْسِرُ.

**(1259)** ........ Səid ibn Cubeyr rəvayət edir ki, İbn Abbas ﭬ demişdir: "*Əvvəllər cahillər*: "Hanı dəvə qumarbazları?"[1]– deyər, sonra da on nəfər

---

[1] Qumar: pul və s. ilə oynanılan oyundur ki, bu oyunda udan tərəf ortaya qoyulmuş pulu götürür. Müəllif burada belə oyunun haram olduğunu bildirmək istəyir. Çünki qumar ticarət sayılmır və buradakı qazanc bəxtəbəxt yolla əldə edilir. Deməк, qumarda udan adam həmin qazancı götürməklə insanların malını haqsız yerə yemiş hesab olunur. Uca Allah buyurur: **"Ey iman gətirənlər! Qarşılıqlı razılıqla aparılan ticarət istisna olmaqla mallarınızı öz aranızda haqsız yerə yeməyin və bir-birinizi məhv etməyin. Həqiqətən, Allah sizə qarşı rəhmlidir"** (ən-Nisa, 29). Qumarın cəmiyyətə böyük zərəri vardır. Belə ki, bu oyun qəlblərdə nifrət oyadır, araya ədavət salır, rəqibləri bir-birinə düşmən edir və ən əsası insanı Allahı zikr etməkdən, Ona boyun əyməkdən, Onun qulluğunda durmaqdan, Onun buyuruqlarını yerinə yetirib qadağan etdiyi şeylərdən çəkinməkdən və başqa bu kimi xeyirli işlərdən yayındırır. Qumarın şeytan əməlindan sayılan murdar şey olması barədə Qurani Kərimdə belə buyurulur: **"Ey iman gətirənlər! Şübhəsiz ki, sərxoşedici *içki* də, qumar da, *tapınmaq məqsədilə* dik qoyulmuş daşlar da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız. Həqiqətən, şeytan sərxoşedici *içki* və qumar vasitəsilə sizin aranıza ədavət və kin salmaq, sizi Allahı yad etməkdən və namazdan ayırmaq istəyər. Siz *buna* son qoyacaqsınızmı? Allaha və *Onun* Rəsuluna itaət edin, *asi olmaqdan* çəkinin! Əgər üz çevirsəniz, bilin ki, Rəsulumuzun öhdəsinə düşən ancaq açıq-aydın təbliğ etməkdir"** (əl-Maidə, 90-91).

yığışıb süddən kəsilmiş on dəvə balası verib bir böyük dəvə alardılar. Sonra qumar oxlarını *gətirib bir torbanın içinə qoyar və onları* qarışdırırdılar. Sonra da axıra bir nəfər qalanadək oxları çəkərdilər. Beləliklə də, yerdə qalanlar bir-bir dəvə balalarını uduzar, *axıra qalan* bir nəfər isə böyük dəvəni udardı. Bu meysirdir."[2]

**١٢٦٠ –** حَدَّثَنَا الْأُوَيْسِيُّ قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ بِلاَلٍ، عَنْ مُوسَى بْنِ عُقْبَةَ، عَنْ نَافِعٍ، عَنِ ابْنِ عُمَرَ قَالَ: الْمَيْسِرُ: الْقِمَارُ.

**(1260)** ........ Nafi rəvayət etmişdir ki, İbn Ömər ﷻ demişdir: "Meysir[3] – qumardır."[4]

---

[1] Qumarbaz: qumar oynamağı özünə peşə etmiş adam.

[2] Bu hədisin isnadında keçən Cəfər ibn Əbul-Muğira "xətalara yol vermiş səduq", Məruf ibn Suheyl əl-Burcumi "məchul" və bir də İbrahim ibn Muxtar "hafizəsi zəif" ravilər olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

[3] Abdullah ibn Ömər ﷻ demək istəyir ki, Uca Allahın Quranda haram buyurduğu (əl-Maidə, 90-91) "meysir" – qumardır.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٦٠٩- بَابُ قِمَارُ الدِّيكِ

## 609-cu fəsil. Xoruz qumarı[1]

١٢٦١- حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ الْمُنْذِرِ قَالَ: حَدَّثَنِي مَعْنٌ قَالَ: حَدَّثَنِي ابْنُ الْمُنْكَدِرِ، عَنْ أَبِيهِ، عَنْ رَبِيعَةَ بْنِ عَبْدِ اللَّهِ بْنِ الْهُدَيْرِ بْنِ عَبْدِ اللَّهِ، أَنَّ رَجُلَيْنِ اقْتَمَرَا عَلَى دِيكَيْنِ عَلَى عَهْدِ عُمَرَ فَأَمَرَ عُمَرُ بِقَتْلِ الدِّيَكَةِ، فَقَالَ لَهُ رَجُلٌ مِنَ الأَنْصَارِ: أَتَقْتُلُ أُمَّةً تُسَبِّحُ؟ فَتَرَكَهَا.

**(1261)** ........ Rəbiə ibn Abdullah ibn əl-Hudeyr ibn Abdullah ﷺ rəvayət etmişdir ki, Ömərin xilafəti dövründə iki nəfər iki xoruz götürüb qumar oynamağa başladılar.[2] *Bundan xəbər tutmuş* Ömər xoruzları boğazlamağı əmr etdi.[3] Ənsardan olan bir nəfər ona: "Təsbih edən[4] bir məxluqu öldürəcəksənmi?"– dedi. Ömər də bu xoruzları öldürməkdən vaz keçdi."[5]

---

[1] Müəllif fəslə belə ünvan qoymaqla bildirmək istəyir ki, istər dəvə ilə, istər xoruzla, istərsə başqa bir şeylə olsun, qumar haram sayılır.

[2] Çox güman ki, onlar bu xoruzları döyüşdürməklə, qumar oynayırlarmış.

[3] Qumar oynayanları cəzalandırmaq barədə 616-cı fəsildəki hədislərə bax.

[4] Yəni Allahı zikr edən.

[5] Bu hədisin isnadında keçən Munkədir ibn Muhəmməd ibn Munkədir "leyyin" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ٦١٠– بَاب مَنْ قَالَ لِصَاحِبِهِ: ((تَعَالَ أُقَامِرْكَ))

## 610-cu fəsil. Dostuna: "Gəl qumar oynayaq"– deyən kimsə

١٢٦٢– حَدَّثَنَا يَحْيَى بْنُ بُكَيْرٍ قَالَ: حَدَّثَنَا اللَّيْثُ، عَنْ عُبَيْدٍ، عَنِ ابْنِ شِهَابٍ، أَخْبَرَنِي حُمَيْدُ ابْنُ عَبْدِ الرَّحْمَنِ، أَنَّ أَبَا هُرَيْرَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((مَنْ حَلَفَ مِنْكُمْ فَقَالَ فِي حَلِفِهِ: بِاللاَّتِ وَالْعُزَّى، فَلْيَقُلْ: لاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَمَنْ قَالَ لِصَاحِبِهِ: تَعَالَ أُقَامِرْكَ، فَلْيَتَصَدَّقْ)).

**(1262)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki,[1] Rəsulullah ﷺ demişdir: "Hər kim and içərkən: "Lata[2] and olsun! Uzzaya[3] and olsun!"– desə, qoy: "Lə ilahə illəllah!"[4]– desin. Həmçinin, kim öz dostuna: "Gəl, qumar oynayaq"– desə, qoy, sədəqə versin.[5]"

---

[1] Bu hədisi Buxari, (4860), Muslim (5/81), Əbu Davud (3247), Tirmizi (1631), Nəsai (əl-Kubra, 10762 və 10763), Əhməd (2/309) və İbn Hibban (5705) rəvayət etmişdir.

[2] Taifdə yerləşdirilmiş və Səqif qəbiləsinin ilahiləşdirdiyi ərəb bütpərəstlərinin ən məşhur bütlərindən biri.

[3] Bütpərəst ərəblərin ilahiləşdirdikləri və Məkkə ilə Taif arasında Nəhl adlanan yerdə yerləşdirilən ən məşhur bütlərindən biri.

[4] Bu tovhid kəlməsi bu cür şirk etməyin kəffarəsidir. Belə ki, Allahdan qeyrisinə and içmək şirkdir. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Kim Allahdan başqasına and içərsə, şirk etmiş olar" (Musnəd Əhməd, 2/34, 69, 86 və 125; Sunən ət-Tirmizi, 1/290; İbn Hibban, 1177; Muşkilul-Asar, ət-Təhavi, 1/357-359; Şərh əs-Sunnə, əl-Bəğəvi, 925; Silsilətul-Əhadisis-Səhihə, 1/217); digər hədisdə o demişdir: "Atalarınıza, yaxud analarınıza, yaxud da bütlərə and içməyin. Yalnız Allaha and için..." (Sunən Əbu Davud, 3248; Səhih əl-Cami, 7249); yenə bir hədisdə o demişdir: "Əmanətə and içən kəs bizdən deyildir" (Sunən Əbu Davud, 3253; Silsilətul-Əhadisis-Səhihə, 94).

[5] Xüsusilə qeyd etmək lazımdır ki, bu sözü deyən adam qumar oynamasa da, dediyi sözün kəffarəsi olaraq, sədəqə verməlidir. Xattabi demişdir: "Bəziləri demişlər ki, həmin adam qumara qoymaq istədiyi şeyi sədəqə verməlidir. Lakin əksər təhqiqçilərin fikrinə

görə, habelə, bu hədisin zahirindən göründüyü kimi, doğru rəy budur ki, həmin sözü deyən adamın qumara qoymaq istədiyi şeyi sədəqə verməsi vacib deyil. Vacib olan budur ki, imkanı daxilində sədəqə sayılan bir şeyi sədəqə verməlidir. İmam Muslimin rəvayəti buna dəlalət edir. Həmin rəvayətdə deyilir: "Kim öz dostuna: "Gəl, qumar oynayaq"– desə, qoy, bir şey sədəqə versin." Qadı İyad demişdir: "İslam alimlərinin əksəriyyətinin rəyinə görə bu hədis dəlildir ki, günah iş görməyə niyyət etmiş və buna qəlbində yer vermiş adam həmin günahı etməsə də, bu günah onun əleyhinə yazılar" (Şərh ən-Nəvəvi).

## ٦١١- بَابُ قِمَارِ الْحَمَامِ

## 611-ci fəsil. Göyərçin qumarı[1]

**١٢٦٣-** حَدَّثَنَا عَمْرُو بْنُ زُرَارَةَ قَالَ: أَخْبَرَنَا مَرْوَانُ بْنُ مُعَاوِيَةَ، عَنْ عُمَرَ بْنِ حَمْزَةَ الْعُمَرِيِّ، عَنْ حُصَيْنِ بْنِ مُصْعَبٍ، أَنَّ أَبَا هُرَيْرَةَ قَالَ لَهُ رَجُلٌ: إِنَّا نَتَرَاهَنُ بِالْحَمَامَيْنِ، فَنَكْرَهُ أَنْ نَجْعَلَ بَيْنَهُمَا مُحَلِّلًا تَخَوُّفَ أَنْ يَذْهَبَ بِهِ الْمُحَلِّلُ؟ فَقَالَ أَبُو هُرَيْرَةَ: ذَلِكَ مِنْ فِعْلِ الصِّبْيَانِ، وَتُوشِكُونَ أَنْ تَتْرُكُوهُ.

**(1263)** ........ Husayn ibn Musab rəvayət edir ki, bir gün bir nəfər Əbu Hureyrəyə dedi: "Biz iki göyərçindən mərc edirik. Üçüncü şəxsin müdaxilə edib *mərci* aparmasından qorxduğumuz üçün həmin adamı buna aid etmirik. *Bu haqda nə deyə bilərsən?*" Əbu Hureyrə dedi: "Bu, uşaq işidir. Yaxın vaxtda siz onu tərk edəcəksiniz."[2]

---

[1] Yəni qumar oynayan tərəflər öz aralarında razılığa gəlirlər ki, öz göyərçinlərini uçurtsunlar və hansı birinin göyərçini daha gözəl hərəkətlər edərsə, o da, qumarı aparmış sayılsın. Bu növ qumar da, həmçinin, o biri növləri kimi haramdır.

[2] Bu hədisin isnadında keçən Husayn ibn Musab "məchul", Ömər ibn Həmzə də "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ٦١٢- بَابُ الْحُدَاءِ لِلنِّسَاءِ

## 612-ci fəsil. Qadınlar üçün zümzümə ilə şeir demək[1]

١٢٦٤- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ قَالَ: أَخْبَرَنَا ثَابِتٌ، عَنْ أَنَسٍ، أَنَّ الْبَرَاءَ بْنَ مَالِكٍ كَانَ يَحْدُو بِالرِّجَالِ، وَكَانَ أَنْجَشَةُ يَحْدُو بِالنِّسَاءِ، وَكَانَ حَسَنَ الصَّوْتِ، فَقَالَ النَّبِيُّ ﷺ: ((يَا أَنْجَشَةُ، رُوَيْدَكَ سَوْقَكَ بِالْقَوَارِيرِ)).

**(1265)** ........ Sabit rəvayət edir ki, Ənəs ﷺ demişdir: "Bəra ibn Malik[2] kişilər üçün, Əncəşə də qadınlar üçün şeir deyərdi. Əncəşənin gözəl səsi var idi. Peyğəmbər ﷺ ona belə buyurmuşdu: "Ey Əncəşə, asta ol, bərniləri sındırarsan.[3]"

---

[1] Burada "Qadınlar üçün zümzümə ilə şeir demək" deyildikdə, qadınların üstündə oturduqları dəvələr üçün şeir demək nəzərdə tutulur. Digər hədisdə Ənəs ibn Malik ﷺ demişdir: "Rəsulullah ﷺ səfərdə ikən çarvadar *gözəl sözlərlə* zümzümə edərək dəvələri sürüb aparırdı. Peyğəmbər ﷺ də ona: "Asta ol, ey Əncəşə, bərniləri sındırarsan"– dedi" (Əl-Ədəbul-Mufrad, 883).

[2] Bəra ibn Malik ibn Nədr ibn Damdam əl-Ənsari ən-Nəccari ﷺ Peyğəmbərin ﷺ səhabəsi, həm də Ənəsin ﷺ doğma qardaşıdır. Bu səhabə Uhud döyüşündə iştirak etmiş, habelə, ağac altında beyət edənlərdən olmuşdur (Siyər Əlam ən-Nubələ, 26-cı tərcümeyi-hal).

[3] 264-cü hədisin qeydlərinə bax.

## ٦١٣– بَابُ الْغِنَاءِ

## 613-cü fəsil. Musiqi[1]

---

[1] Musiqinin haram olmasına dəlalət edən dəlillər aşağıdakılardır:

**Ayələr:**

**1. "Onlardan gücün çatdığı kimsələri səsinlə *günah*a təhrik et,..."** (əl-İsra, 64). Mücahid, Həsən əl-Bəsri və Dəhhak "Burada "şeytanın səsi" deyildikdə, musiqi qəsd edilir" demişlər (Təfsir İbn Kəsir, 5/93; Təfsir əs-Səmani, 3/258; Bəhrul-Muhit, 7/79);

**2. "Möminlər yalandan şahidlik etməzlər"** (əl-Furqan, 72). Həsən əl-Bəsri, Mücahid və Əbul-Cəhhaf: "Bu, musiqidir" demişlər (Zadul-Məsir, 6/109; Durrul-Mənsur, 6/283);

**3. "Siz bu Sözə təəccüblənirsiniz, gülürsünüz, heç ağlamırsınız və oynayıb əylənirsiniz?"** (ən-Nəcm, 59-61). İbn Abbas və İkrimə bu ayədə ərəbcə zikr olunan ( سَامِدُونَ – oynayıb əylənirsiniz) kəlməsinin Himyər dilində musiqi olduğunu demişlər (Zadul-Məsir, 8/86; İğasətul-Ləhfan, 1/388).

**Hədislər:**

**1.** Əbu Amir əl-Əşari ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Ümmətimdən elə adamlar meydana çıxacaq ki, onlar zina etməyi, ipək *geyməyi*, şərab içməyi və musiqi alətlərindən istifadə etməyi halal sayacaqlar..." (Səhih əl-Buxari, 5590);

**2.** Ənəs ibn Malik ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "İki səs vardır ki, bunlar dünyada və Axirətdə lənətlənmişdir: şənlik məclisində çalınan musiqi və bir də yasdakı vay-şivən səsi" (ət-Tərğib vət-Tərhib, 3527; Məcməuz-Zəvaid, 3/13; Muxtəsər Zəvaid Musnəd əl-Bəzzar, 1/349; Şeyx Albani "Təhrim Ələtut-Tarab" əsərində, səh. 51-52, bu hədisin isnadının "həsən" olduğunu, hətta, digər rəvayətlərlə birgə "səhih" dərəcəsinə yüksəldiyini demişdir. Həmçinin, bax: Silsilətul-Əhadisis-Səhihə, 427-ci hədis);

**3.** Abdur-Rəhman ibn Auf ﷺ demişdir: "Peyğəmbərin ﷺ oğlu İbrahim vəfat etdikdə, o, ağlamağa başladı. Mən ona: "Sən də ağlayırsan, ya Rəsulullah? Axı sən ölü üçün ağlamağı qadağan etmisən?"– deyəndə, o dedi: "*Müsibət gəldikdə,* ağlamaq mənə qadağan edilməyib. Lakin mənə, axmaq və fəsadçı iki səs qadağan edilmişdir: əyləncə və kef məclisindəki musiqi – şeytanın nəğməsi və bir də müsibət üz verdiyi – üzlər şillələndiyi və yaxalar cırıldığı zaman eşidilən şeytanın yanıqlı səsi" (Mustədrək əl-Hakim, 4/40; Sunən əl-Beyhəqi, 4/69; Şoəbul-İman, 7/241/1063 və 1064; Şərhus-Sunnə, 5/430-431; Musnəd ət-

Təyalisi, 1683; ət-Təbəqat İbn Səd, 1/138; şeyx Albani "Təhrim Əlatut-Tarab" əsərində, səh. 53, habelə Silsilətul-Əhadisis-Səhihə, (427) bu hədisin mötəbər olduğunu demişdir).

İbn Qeyyim bu hədisi izah edərkən demişdir: "Sən bir bu hədisdəki təkidlə deyilən qadağaya bax ki, musiqi səsini axmaq səs adlandırmış, bununla kifayətlənməmiş, hətta, onun fəsadçı olduğunu vəsf etmiş, bununla da kifayətlənməmiş, axırda onu şeytanın nəğməsi adlandırmışdır... Bu qadağadan musiqinin haram buyurulduğunu başa düşməyən kəs, heç vaxt bu xüsusda, olan qadağanı başa düşməz" (İğasətul-Ləhfan, 1/384).

**Sələflərin musiqi barədə dedikləri:**

**1.** Abdullah ibn Məsud ﷺ demişdir: "Musiqi adamın qəlbində nifaq bitirir" (Zəmmul-Məlahi, İbn Əbud-Dunya, səh: 38; şeyx Albani "Təhrim Əlatut-Tarab" əsərində, səh. 145, bu hədisin isnadının "səhih" olduğunu demişdir);

**2.** Abdullah ibn Abbas ﷺ demişdir: "Musiqi haram buyurulmuşdur..." (Sunən əl-Beyhəqi, 10/22; əl-Mətalibul-Aliyə, 2/419);

**3.** Səid ibn əl-Museyyib ﷺ demişdir: "Mən musiqiyə nifrət edirəm, rəcəzi isə xoşlayıram" (Musənnəf Abdur-Rəzzaq, 11/6; Şeyx Albani "Təhrim Əlatut-Tarab" əsərində, səh. 101, bu hədisin isnadının "səhih" olduğunu demişdir); rəcəz: Əruz vəznində olan şeir formalarından birinin adıdır;

**4.** Dahhak ﷺ demişdir: "Musiqi qəlbi korlayan və Rəbbi qəzəbləndirən bir şeydir" (Təlbis İblis, İbnul-Covzi, səh: 235);

**5.** Fudeyl in İyad ﷺ demişdir: "Musiqi zinanın ovsunudur" (Zəmmul-Məlahi, İbn Əbud-Dunya, səh: 42; Təlbis İblis, İbnul-Covzi, səh: 235; İğasətul-Ləhfan, 1/369);

**6.** Yezid ibn əl-Vəlid ﷺ demişdir: "Ey Umeyyə oğulları, musiqidən çəkinin! Heç şübhəsiz ki, musiqi həyanı azaldır, şəhvəti artırır, əxlaqı korlayır, üstəlik, şərabı əvəz edir və onun törətdiyi fəsadları törədir. Yox, əgər bu nəsihətləri qulaqardına vurub, öz bildiyinizi edəcəksinizsə, onda, heç olmasa, qadınlardan uzaq durun. Çünki musiqi zinaya çağıran bir carçıdır" (Zəmmul-Məlahi, İbn Əbud-Dunya, səh: 41; Təlbis İblis, İbnul-Covzi, səh: 235);

**7.** Ömər ibn Abdul-Aziz ﷺ öz övladlarının tərbiyəçisinə belə bir məktub yazmışdır: "Qoy, onların sənin verdiyin tərbiyədən öyrəndikləri ilk şey musiqiyə nifrət etmək olsun. O musiqi ki, əvvəli şeytandan gəlir, nəticədə də, ər-Rəhmanı qəzəbə gətirir. Mən mötəbər alimlərdən eşitmişəm ki, musiqi məclisində oturmaq, musiqiyə qulaq asmaq və onu zümzümə etmək, su otu bitirdiyi kimi, qəlbdə nifaq bitirir" (Zəmmul-Məlahi, İbn Əbud-Dunya, səh: 40; Təlbis İblis, İbnul-Covzi, səh: 235; İğasətul-Ləhfan, 1/376);

**١٢٦٥**– حَدَّثَنَا حَفْصُ بْنُ عُمَرَ قَالَ: حَدَّثَنَا خَالِدُ بْنُ عَبْدِ اللَّهِ قَالَ: أَخْبَرَنَا عَطَاءُ بْنُ السَّائِبِ، عَنْ سَعِيدِ بْنِ جُبَيْرٍ، عَنِ ابْنِ عَبَّاسٍ، فِي قَوْلِهِ عَزَّ وَجَلَّ: ﴿وَمِنَ النَّاسِ مَنْ يَشْتَرِي لَهْوَ الْحَدِيثِ﴾، قَالَ: الْغِنَاءُ وَأَشْبَاهُهُ.

**(1265)** ........ Səid ibn Cubeyr rəvayət edir ki, İbn Abbas ﷺ Allahın ﷻ **"İnsanlar arasında elələri də var ki, heç bir biliyi olmadan *başqalarını* Allah yolundan sapdırmaq və *Allahın ayələrini* lağa qoymaq üçün boş-boş sözləri satın alırlar. Məhz onları alçaldıcı bir əzab gözləyir"**[1] ayəsini belə izah etmişdir: "(Bu ayədə "boş-boş sözlər" deyildikdə,) musiqi[2] və ona bənzər şeylər qəsd edilir."[3]

**١٢٦٦**– حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: أَخْبَرَنَا الْفَزَارِيُّ، وَأَبُو مُعَاوِيَةَ، قَالاَ: أَخْبَرَنَا قِنَانُ بْنُ عَبْدِ اللَّهِ النَّهْمِيُّ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ عَوْسَجَةَ، عَنِ الْبَرَاءِ بْنِ عَازِبٍ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((أَفْشُوا السَّلاَمَ تَسْلَمُوا، وَالأَشَرَةُ شَرٌّ)).

قَالَ أَبُو مُعَاوِيَةَ: الأَشَرَةُ: الْعَبَثُ.

---

**8.** Şəbi ﷺ demişdir: "Allah musiqiyə qulaq asana da, onu oxutdurana da lənət etmişdir!" (Zəmmul-Məlahi, İbn Əbud-Dunya, səh: 40; Təlbis İblis, İbnul-Covzi, səh: 235);

**9.** Məkhul ﷺ demişdir: "Hər kim yanında müğənni olduğu halda (musiqiyə qulaq asdığı halda) ölmüşdürsə, (möhtərəm möminlər) onun cənazəsinə durmamalıdırlar" (əl-Əmru bil-Məruf, əl-Xəllal, səh: 144).

Yuxarıdakı dəlillər Suleyman ibn Muhəmməd əş-Şitvinin "Qovl əl-Muqtədab fi Hukmil-Ğina və Əlatut-Tarəb" kitabından nəql edilmişdir.

[1] "Loğman" surəsi, 6.

[2] Həmçinin, səhabələrdən İbn Məsud ﷺ, İbn Ömər ﷺ, Cabir ibn Abdullah ﷺ, tabiinlərdən Mucahid, İkrimə, Həsən əl-Bəsri, Səid ibn Cubeyr, Qətadə, Məkhul, Amr ibn Şueyb və Məymun ibn Mihran bu ayədə zikr edilən "boş-boş sözlər"in musiqi olduğunu söyləmişlər (Təfsir ət-Təbəri, 21/62-63; Təfsir İbn Kəsir, 6/330; Əhkamul-Quran əl-Qurtubi, 14/51-52; Zadul-Məsir).

[3] 786-cı hədisə bax.

**(1266)** ........ Bəra ibn Azib ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: "Salamı yayın ki, salamat olasınız. Nankorluq şərdir."[1]

Əbu Muaviyə demişdir: "Nankorluq: hədər işdir."

**١٢٦٧-** حَدَّثَنَا عِصَامٌ قَالَ: حَدَّثَنَا حَرِيزٌ، عَنْ سَلْمَانَ الأَلْهَانِيِّ، عَنْ فَضَالَةَ بْنِ عُبَيْدٍ، وَكَانَ مُجْمَعًا مِنَ الْمَجَامِعِ، فَبَلَغَهُ أَنَّ أَقْوَامًا يَلْعَبُونَ بِالْكُوبَةِ، فَقَامَ غَضْبَانًا يَنْهَى عَنْهَا أَشَدَّ النَّهْيِ، ثُمَّ قَالَ: أَلاَ إِنَّ اللاَّعِبَ بِهَا لِيَأْكُلُ قَمْرَهَا كَآكِلِ لَحْمِ الْخِنْزِيرِ، وَالمتَوَضِّئُ بِالدَّمِ.

يَعْنِي بِالْكُوبَةِ: النَّرْدَ.

**(1267)** ........ Rəvayət edilir ki, Fədalə ibn Ubeyd məclislərdən birində ikən ona bir dəstə adamın nərd oynadığı xəbər verildi. O, qəzəbli halda ayağa qalxdı və olduqca sərt şəkildə bunu qadağan etdi. Sonra dedi: "Nərddən əldə etdiyini yemək üçün onu oynayan kəs donuz ətini yemiş, üstəlik, qanı ilə yuyunmuş kimsəyə bənzəyir."[2]

---

[1] 787-ci hədisə bax.

[2] 788-ci hədisə bax.

## ٦١٤- بَابُ مَنْ لَمْ يُسَلِّمْ عَلَى أَصْحَابِ النَّرْدِ

## 614-cü fəsil. Nərd[1] oynayanlara salam verməyən kimsə[2]

١٢٦٨- حَدَّثَنَا عُبَيْدُ اللَّهِ بْنُ سَعِيدٍ، عَنِ الْقَاسِمِ بْنِ الْحَكَمِ الْقَاضِي قَالَ: أَخْبَرَنَا عُبَيْدُ اللَّهِ بْنُ الْوَلِيدِ الْوَصَافِيُّ، عَنِ الْفُضَيْلِ بْنِ مُسْلِمٍ، عَنْ أَبِيهِ قَالَ: كَانَ عَلِيٌّ رَضِيَ اللَّهُ عَنْهُ إِذَا خَرَجَ مِنْ بَابِ الْقَصْرِ، فَرَأَى أَصْحَابَ النَّرْدِ انْطَلَقَ بِهِمْ فَعَقَلَهُمْ مِنْ غُدْوَةٍ إِلَى اللَّيْلِ، فَمِنْهُمْ مَنْ يُعْقَلُ إِلَى نِصْفِ النَّهَارِ. قَالَ: وَكَانَ الَّذِي يُعْقَلُ إِلَى اللَّيْلِ هُمُ الَّذِينَ يُعَامِلُونَ بِالْوَرِقِ، وَكَانَ الَّذِي يُعْقَلُ إِلَى نِصْفِ النَّهَارِ الَّذِينَ يَلْهُونَ بِهَا، وَكَانَ يَأْمُرُ أَنْ لا يُسَلِّمُوا عَلَيْهِمْ.

**(1268)** ........ Fudeyl ibn Muslim öz atasından belə rəvayət etmişdir: “Əli *ibn Əbu Talib* ﷺ qəsrin qapısından çıxıb nərd oynayanları gördüyü zaman onları tutub aparar və gecəyədək həbs edərdi. Onlardan bəziləri günortayadək, *digərləri isə gecəyədək* həbsdə qalardılar. Gecəyədək həbsdə qalanlar *nərdi* pulla oynayanlar idi. Günortayadək həbsdə qalanlar isə bunu əylənmək məqsədilə edənlər idi. Əli onlara salam verməyi qadağan edərdi.”[3]

---

[1] 788-ci hədisin qeydlərinə bax.

[2] Nərd oynamağın Allaha və Onun Rəsuluna ﷺ qarşı asilik sayılması, haram buyurulmuş murdar əməllərdən hesab olunması, üstəlik, belələrinə salam verilməməsi və onlarla sərt davranılması “səhih” hədislərdə öz təsdiqini tapmışdır (1269-cu, 1270-ci, 1271-ci, 1273-cü, 1274-cü, 1275-ci və 1277-ci hədislərə bax).

[3] Bu hədisin isnadında keçən Fudeyl “məchul”, ondan aşağı təbəqədə olan iki ravi də “zəif” ravilər olduğundan, Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “zəif” olduğunu demişdir.

## ٦١٥- بَابُ إِثْمِ مَنْ لَعِبَ بِالنَّرْدِ

## 615-ci fəsil. Nərd oynayanın günahı[1]

١٢٦٩- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ مُوسَى بْنِ مَيْسَرَةَ، عَنْ سَعِيدِ بْنِ أَبِي هِنْدَ، عَنْ أَبِي مُوسَى الأَشْعَرِيِّ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((مَنْ لَعِبَ بِالنَّرْدِ فَقَدْ عَصَى اللَّهَ وَرَسُولَهُ)).

---

[1] Qeyd etmək lazımdır ki, ümumiyyətlə, oyunlar və yarışlar arasında halal olanı da var, olmayanı da. Bu xüsusda, İbn Qeyyim əl-Covziyyə ﷺ demişdir: "Oyunlar və yarışlar üç qismə bölünür:

– birincisi, at çapmaq, dəvə sürmək və ox atmaq kimi, Allahın və Onun rəsulunun ﷺ bəyəndiyi və razı qaldığı, üstəlik, adamı məqsədinə çatdıran oyunlar və yarışlardır; (buna yarış müsabiqəsi deyilir ki, həmin müsabiqədə qalib gələn adamın, müsabiqəni təşkil edən kimsələr tərəfindən mükafatlandırılması caizdir).

– ikincisi, nərd, şahmat və başqa bu kimi, Allahın və Onun rəsulunun ﷺ nifrət etdiyi və qəzəbi tutduğu, üstəlik, adamı Allahın və Onun rəsulunun ﷺ sevmədiyi işləri görməyə gətirib çıxaran, araya ədavət salan, qəlblərdə nifrət oyadan və adamı Allahı zikr etməkdən sapdıran oyunlar və yarışlardır;

– üçüncüsü isə, Allah yanında nə bəyənilən, nə də bəyənilməyən qisminə aid olan – mübah sayılan, adama heç bir zərəri olmayan, qaçmaq, üzmək, daş qaldırmaq və güləşmək kimi oyunlar və yarışlardır" (əl-Furusiyyə, səh: 301).

Birincisinə, Peyğəmbərin ﷺ bu hədisini dəlil göstərmək olar: "Üş şeydə yarış müsabiqəsi qurmaq olar: at çapmaq, dəvə sürmək və ox atmaq" (Sunən Əbu Davud, 2574; Sunən ət-Tirmizi, 1801; Nəsai (4410), Sunən İbn Macə (2878), Musnəd Əhməd, 2/474; Səhih Əbu Davud, 2319; Mişkatul-Məsabih, 3874); ikinci qisminə növbəti fəsillərdəki hədisləri dəlil göstərmək olar. Şahmatın hökmünə gəlincə, bu haqda Abdullah ibn Ömərə ﷺ sual verildikdə, o, belə cavab vermişdir: "Şahmat nərddən də pisdir" (Sunən əl-Beyhəqi əl-Kubra, 20934; Təhrimun-Nərd vəş-Şətranc, 27). Üçüncü qisminə də, Peyğəmbərin ﷺ bu sözünü dəlil göstərmək olar: "Allah ﷻ zikr edilməyən hər bir əməl boş şey, yaxud əyləncə və ya yanlış bir işdir. Yalnız dörd xislətdən başqa: adamın iki nöqtə arasında qaçması, öz atını əhliləşdirməsi, zövcəsi ilə oynaşması və bir də üzməyi öyrənməsi" (Uşrətun-Nisa, ən-Nəsai, 2/74; Mocəmul-Kəbir, 1/89/2; Əhadis Əbul-Qasim əl-Əsam, 17-18; Silsilətul-Əhadisis-Səhih, 315).

**(1269)** ........ Əbu Musa əl-Əşari ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: “Kim nərd oynasa, Allaha və Onun rəsuluna asilik etmiş olar.[1]”[2]

١٢٧٠– حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا مُعْتَمِرٌ قَالَ: سَمِعْتُ عَبْدَ الْمَلِكِ، عَنْ أَبِي الأَحْوَصِ، عَنْ عَبْدِ اللَّهِ بْنِ مَسْعُودٍ قَالَ: إِيَّاكُمْ وَهَاتَيْنِ الْكَعْبَتَيْنِ الْمَوْسُومَتَيْنِ اللَّتَيْنِ يُزْجَرَانِ زَجْرًا، فَإِنَّهُمَا مِنَ الْمَيْسِرِ.

**(1270)** ........ Abdullah ibn Məsud ﷺ demişdir: “*Nərdtaxta içinə* atılan, nöqtələrlə işarələnmiş bu dördkünc daşlardan[3] çəkinin! Çünki bunlarla *oynamaq* qumardan sayılır.[4]”[5]

---

[1] Bu hədisdən bizə aydın olur ki, bu oyunu oynayanlar hər iki halda – pul qoyub oynasalar da, pulsuz oynasalar da, günah qazanırlar. Nərd oynamağı halal sayıb, Allaha qarşı çıxanlar isə küfr etmiş olurlar: **“Kim Allaha və Onun rəsuluna asi olub, Onun hüdudlarını aşarsa, *Allah* onu içində əbədi qalacağı *Cəhənnəm* oduna vasil edər. Onun üçün alçaldıcı bir əzab vardır”** (ən-Nisa, 14); **“Allah və Onun rəsulu bir işə hökm verdiyi zaman heç bir mömin kişi və mömin qadın öz işlərində istədikləri qərarı verə bilməzlər. Allaha və Onun Rəsuluna asi olan kəs, əlbəttə ki, açıq-aydın azğınlığa düşmüşdür”** (əl-Əhzab, 36); **“Allaha və Onun Elçisinə qarşı çıxanlar ən zəlil kimsələr arasında olacaqlar”** (əl-Mucadilə, 20).

[2] Bu hədisi Əbu Davud (4938), Əhməd (4/394, 397 və 400), İbn Macə (3762), Malik (2/958), Hakim (160), İbn Hibban (5842), İbn Əbu Şeybə (26665 və 26677), Bəzzar (3075) rəvayət etmiş Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində onun isnadının “həsən” olduğunu demişdir.

[3] Burada söhbət zərdən gedir. Zər: sümükdən və s. qayrılan altıüzlü, üzərində xallar olan oyun daşı. Əsasən nərd oyununda istifadə olunur.

[4] Başqa bir rəvayətdə “Çünki bu iki daşla *oynamaq* əcəmlərin qumarındandır”– deyilir (Sunən əl-Beyhəqi əl-Kubra, 20743; Şoəbul-İman, 6081).

[5] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “səhih” olduğunu demişdir.

**١٢٧١-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ يُوسُفَ، وَقَبِيصَةُ، قَالاَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ عَلْقَمَةَ بْنِ مَرْثَدٍ، عَنِ ابْنِ بُرَيْدَةَ، عَنْ أَبِيهِ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَنْ لَعِبَ بِالنَّرْدَشِيرِ فَكَأَنَّمَا صَبَغَ يَدَهُ فِي لَحْمِ خِنْزِيرٍ وَدَمِهِ)).

**(1271)** ........ *Suleyman* ibn Bureydə atasından[1] rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: “Kim nərdəşir[2] oynayarsa, əlini sanki donuz ətinə və qanına bulamışdır.”[3]

**١٢٧٢-** حَدَّثَنَا أَحْمَدُ بْنُ يُونُسَ، وَمَالِكُ بْنُ إِسْمَاعِيلَ، قَالاَ: حَدَّثَنَا زُهَيْرٌ قَالَ: حَدَّثَنِي عُبَيْدُ اللَّهِ قَالَ: حَدَّثَنِي نَافِعٌ، عَنْ سَعِيدِ بْنِ أَبِي هِنْدَ، عَنْ أَبِي مُوسَى، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَنْ لَعِبَ بِالنَّرْدِ فَقَدْ عَصَى اللَّهَ وَرَسُولَهُ)).

**(1272)** ........ Əbu Musa əl-Əşari ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Kim nərd oynasa, Allaha və Onun rəsuluna asilik etmiş olar.”[4]

---

[1] Əbu Abdullah Bureydə ibn Husayb ibn Abdullah əl-Əsləmi ﷺ Peyğəmbərin ﷺ səhabəsidir (Siyər Əlam ən-Nubələ, 91-ci tərcümeyi-hal).

[2] Burada “nərdəşir” deyildikdə, elə, nərd oyunu nəzərdə tutulur. Şeyx Albani demişdir: “ən-Nihayə” və “əl-Qamus” lüğətlərində deyilir ki, “əcəmi dildə “şir” şirin deməkdir. Bu oyunu ilk dəfə Əzdəşir ibn Babək icad etmişdir. Elə buna görə də, bu oyuna “Nərdəşir” deyilir (Səhih əl-Ədəbul-Mufrad, 488).

[3] Bu hədisi Muslim (7/50), Əbu Davud (4939), İbn Macə (3763) və Əhməd (5/352, 357 və 361) rəvayət etmişdir.

[4] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində bu hədisin “həsən” olduğunu demişdir.

## ٦١٦- بَابُ الأَدَبِ وَإِخْرَاجِ الَّذِينَ يَلْعَبُونَ بِالنَّرْدِ وَأَهْلِ الْبَاطِلِ

## **616-cı fəsil.** (İtaətində olanları) **tərbiyə etmək, nərd oynayanları və batil əhlini bayıra çıxartmaq**

١٢٧٣- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ نَافِعٍ، أَنَّ عَبْدَ اللَّهِ بْنَ عُمَرَ كَانَ إِذَا وَجَدَ أَحَدًا مِنْ أَهْلِهِ يَلْعَبُ بِالنَّرْدِ ضَرَبَهُ، وَكَسَرَهَا.

**(1273)** ........ Nafi rəvayət edir ki, Abdullah ibn Ömər öz əhli-əyalından bir kimsənin nərd oynadığını gördükdə, onu vurar, nərdi də sındırardı.[1]"[2]

١٢٧٤- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ عَلْقَمَةَ بْنِ أَبِي عَلْقَمَةَ، عَنْ أُمِّهِ، عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا، أَنَّهُ بَلَغَهَا أَنَّ أَهْلَ بَيْتٍ فِي دَارِهَا، كَانُوا سُكَّانًا فِيهَا، عِنْدَهُمْ نَرْدٌ، فَأَرْسَلَتْ إِلَيْهِمْ: لَئِنْ لَمْ تُخْرِجُوهَا لَأُخْرِجَنَّكُمْ مِنْ دَارِي، وَأَنْكَرَتْ ذَلِكَ عَلَيْهِمْ.

**(1274)** ........ Əlqəmənin anası Mərcanə[3] demişdir:[4] "*Bir gün* Aişəyə ﵂ xəbər çatdı ki, onun evində yaşayan bəzi adamların yanında nərd vardır. Aişə

---

[1] Munkəri aradan qaldırmaq xüsusunda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Sizdən biriniz günah edildiyini görsə, bunu əli ilə düzəltsin, bacarmasa, dili ilə *düzəltsin*, bunu da bacarmasa, qəlbi ilə *buna nifrət etsin*, bu da, imanın ən zəifidir" (Səhih Muslim, 177). Qeyd edək ki, əl ilə düzəltmək ancaq rəhbərə, ailə başçısına və s. ixtiyar sahiblərinə aiddir.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "həsən" olduğunu demişdir.

[3] 887-ci hədisin qeydlərinə bax.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "həsən" olduğunu demişdir.

onlara belə xəbər göndərdi: "Əgər siz onu evdən bayıra çıxarmasanız, mən sizi evimdən çıxaracağam."[1] Beləcə, Aişə bunu onlara qadağan etdi.

١٢٧٥- حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا رَبِيعَةُ بْنُ كُلْثُومِ بْنِ جَبْرٍ قَالَ: حَدَّثَنِي أَبِي قَالَ: خَطَبَنَا ابْنُ الزُّبَيْرِ فَقَالَ: يَا أَهْلَ مَكَّةَ، بَلَغَنِي عَنْ رِجَالٍ مِنْ قُرَيْشٍ يَلْعَبُونَ بِلُعْبَةٍ يُقَالُ لَهَا: النَّرْدَشِيرُ، وَكَانَ أَعْسَرَ، قَالَ اللَّهُ: ﴿إِنَّمَا الْخَمْرُ وَالْمَيْسِرُ﴾، وَإِنِّي أَحْلِفُ بِاللَّهِ: لاَ أُوتَى بِرَجُلٍ لَعِبَ بِهَا إِلاَّ عَاقَبْتُهُ فِي شَعْرِهِ وَبَشَرِهِ، وَأَعْطَيْتُ سَلَبَهُ لِمَنْ أَتَانِي بِهِ.

**(1275)** ........ Rəbiyə öz atasından belə rəvayət etmişdir: "*Bir dəfə* İbn Zubeyr bizə xütbə verib dedi: "Ey Məkkə əhli! Mənə xəbər çatıb ki, Qureyşin bəzi kişiləri "nərdəşir" deyilən bir oyun oynayırlar. (İbn Zubeyr solaxay idi). *Halbuki,* Uca Allah buyurur: **"Ey iman gətirənlər! Şübhəsiz ki, sərxoşedici *içki* də, qumar da, *tapınmaq məqsədilə* dik qoyulmuş daşlar da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız."[2]** Mən Allaha and içirəm ki, nərd oynayan hansı bir adamı yanıma gətirsələr, onu mütləq saçından və dərisindən cəzalandıracaq, əlində olanı da onu tutub yanıma gətirən adama verəcəyəm."[3]

١٢٧٦- حَدَّثَنَا ابْنُ الصَّبَّاحِ قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ زَكَرِيَّا، عَنْ عُبَيْدِ بْنِ أَبِي أُمَيَّةَ الْحَنَفِيِّ هُوَ الطَّنَافِسِيُّ، قَالَ: حَدَّثَنِي يَعْلَى أَبُو مُرَّةَ قَالَ: سَمِعْتُ أَبَا هُرَيْرَةَ فِي الَّذِي يَلْعَبُ بِالنَّرْدِ قِمَارًا: كَالَّذِي

---

[1] Bu, dəlildir ki, munkər gördükdə onu dərhal aradan qaldırmaq və o günahı edən adamı cəzalandırmaqla hədələmək gərəkdir. Bu rəvayətdən o da aydın olur ki, ev yiyəsi kirayəyə verdiyi evdə günah işlər görən kirənişinləri dərhal oradan çıxarmalıdır. Başqa müəssisələr də buna aiddir. Belə ki, mülk sahibi öz yerində günah işlərin görülməsinə yol verməməlidir. Əks təqdirdə, o, asilik edənlərə yardım etmiş sayılar.

[2] "əl-Maidə" surəsi, 90.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "həsən" olduğunu demişdir.

يَأْكُلُ لَحْمَ الْخِنْزِيرِ، وَالَّذِي يَلْعَبُ بِهِ مِنْ غَيْرِ الْقِمَارِ كَالَّذِي يَغْمِسُ يَدَهُ فِي دَمِ خِنْزِيرٍ، وَالَّذِي يَجْلِسُ عِنْدَهَا يَنْظُرُ إِلَيْهَا كَالَّذِي يَنْظُرُ إِلَى لَحْمِ الْخِنْزِيرِ.

**(1276)** ........ Əbu Hureyrə ﷛ nərd ilə qumar oynayan haqqında demişdir: "*Nərd ilə qumar oynayan,* donuz əti yeyən kimidir. Qumarsız nərd oynayan əlini donuz qanına bulamış kimidir. Nərd oynayanın yanında oturub, ona baxan donuz ətinə baxmış kimidir."[1]

**١٢٧٧–** حَدَّثَنَا الْحَسَنُ بْنُ عُمَرَ قَالَ: حَدَّثَنَا يَزِيدُ بْنُ زُرَيْعٍ، عَنْ حَبِيبٍ، عَنْ عَمْرِو بْنِ شُعَيْبٍ، عَنْ أَبِيهِ، عَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ الْعَاصِ قَالَ: اللاَّعِبُ بِالْفُصَّيْنِ قِمَارًا كَآكِلِ لَحْمِ الْخِنْزِيرِ، وَاللاَّعِبُ بِهِمَا غَيْرَ قِمَارٍ كَالْغَامِسِ يَدَهُ فِي دَمِ خِنْزِيرٍ.

**(1277)** ........ Amr ibn Şueyb öz atasından rəvayət etmişdir ki, Abdullah ibn Amr ibn As ﷠ demişdir: "İki zərlə qumar oynayan adam, donuz əti yeyən kimsəyə bənzəyir. Qumarsız nərd oynayan adam isə, əlini donuz qanına bulamış kimsəyə bənzəyir."[2]

---

[1] Bu hədisin isnadında keçən Yə'la ibn Murra əl-Kufi "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٦١٧- بَابُ لا يُلْدَغُ الْمُؤْمِنُ مِنْ جُحْرٍ مَرَّتَيْنِ

## 617-ci fəsil. Mömin bir yuvadan iki dəfə sancılmaz

**١٢٧٨-** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ صَالِحٍ قَالَ: حَدَّثَنِي اللَّيْثُ قَالَ: حَدَّثَنِي يُونُسُ، عَنِ ابْنِ شِهَابٍ قَالَ: أَخْبَرَنِي سَعِيدُ بْنُ الْمُسَيِّبِ، أَنَّ أَبَا هُرَيْرَةَ أَخْبَرَهُ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((لاَ يُلْدَغُ الْمُؤْمِنُ مِنْ جُحْرٍ مَرَّتَيْنِ)).

**(1278)** ........ Əbu Hureyrə ؓ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Mömin bir yuvadan iki dəfə sancılmaz.[1]"[2]

---

[1] Yəni, ağıllı mömininin tutduğu səhv işdən dolayı başına bir müsibət gələrsə, ikinci dəfə o, həmin səhvi təkrar etməz.

[2] Bu hədisi Buxari (6133), Muslim (8/227), Əbu Davud (2/297), İbn Macə (2/476), Əhməd (2/379), Darimi (2/319-320), Beyhəqi (əs-Sunən, 10/129) və Bəğəvi (3507) rəvayət etmişdir.

## ٦١٨- بَابُ مَنْ رَمَى بِاللَّيْلِ

## 618-ci fəsil. Gecə vaxtı (ox, nizə və s.) atmaq

**١٢٧٩-** حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ يَزِيدَ قَالَ: حَدَّثَنَا سَعِيدُ بْنُ أَبِي أَيُّوبَ قَالَ: حَدَّثَنِي يَحْيَى بْنُ أَبِي سُلَيْمَانَ، عَنْ سَعِيدٍ الْمَقْبُرِيِّ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((مَنْ رَمَانَا بِاللَّيْلِ فَلَيْسَ مِنَّا)).

قَالَ أَبُو عَبْدِ اللَّهِ: فِي إِسْنَادِهِ نَظَرٌ.

**(1279)** ........ Əbu Hureyrə ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Gecə vaxtı bizə (ox, nizə və s.) atan bizdən deyildir.[1]"[2]

Əbu Abdullah demişdir: "Bu hədisin isnadı bir daha gözdən keçirilməlidir."

---

[1] Yəni, bizə qarşı vuruşan. Belə ki, iman əhlinə qarşı vuruşmaq küfr əlamətidir, yaxud da belə insan möminlərin yolunda deyildir. Çünki müsəlmanın digər müsalman üzərində haqqı budur ki, onu hədələməsin, əksinə, ona yardım etsin, onunla birgə düşmənə qarşı vuruşsun. Hədisdəki cümlədə iki yerdə keçən "bizə" və "bizdən" bitişən əvəzlikləri möminlərə aiddir... Bu təhdid ədavətlə, nifrətlə, hətta, zarafatla belə müsəlmana silah çəkən hər bir müsəlmana şamil edilir (Məsabihut-Tənvir alə Səhih əl-Cami əs-Səğir, 1/255). Hərçənd, bu hədisdə müsəlmanın müsəlmana gecə vaxtı silah çəkməsi qadağan edilir, lakin bu qadağa gündüzə də aid edilir. Sadəcə olaraq, gecə vaxt, insanlar istirahət etdiyi zaman qəfil onlara hücum etmək daha pisdir (Təfsir Ğərib mə fis-Səhiheyn, 1/204). Bu qadağanın hər zamana aid olduğu növbəti iki hədisdə öz təsdiqini tapmışdır.

[2] Muhəmməd Nasirəddin əl-Albani demişdir: "Bu hədis iki isnadla rəvayət edilmişdir: birincisini, İmam Əhməd (2/321), Buxari (əl-Ədəbul-Mufrad, 1279), və İbn Hibban (1857) Yəyha ibn Əbu Suleymandan, o da, Səid əl-Məqburidən, o da, Əbu Hureyrədən ؓ nəql etmiş və *Əbu Abdullah* əl-Buxari: "Bu hədisin isnadı bir daha gözdən keçirilməlidir"– demişdir. Bu da, Yəhyanın "zəif"liyinə görədir. Lakin digər rəvayət onu qüvvətləndirir: bunu da Təbərani (3/126/2) Abdul-Aziz ibn Muhəmməddən, o da, Sovr ibn Zeyddən, o da, İkrimədən, o da İbn Abbasdan ؓ nəql etmişdir. Bu isnad isə "səhih li-ğeyrihi"dir, ravilərin hamısı etibarlı ravilərdir (Silsilətul-Əhadisis-Səhihə, 2339).

١٢٨٠- حَدَّثَنَا خَالِدُ بْنُ مَخْلَدٍ قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ بِلاَلٍ، عَنْ سُهَيْلِ بْنِ أَبِي صَالِحٍ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((مَنْ حَمَلَ عَلَيْنَا السِّلاَحَ فَلَيْسَ مِنَّا)).

**(1280)** ........ Əbu Hureyrə ؓ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Bizim üstümüzə silah qaldıran bizdən deyildir.[1]"[2]

١٢٨١- حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْعَلاَءِ قَالَ: حَدَّثَنَا أَبُو أُسَامَةَ، عَنْ بُرَيْدِ بْنِ عَبْدِ اللَّهِ بْنِ أَبِي بُرْدَةَ، عَنْ أَبِي مُوسَى قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((مَنْ حَمَلَ عَلَيْنَا السِّلاَحَ فَلَيْسَ مِنَّا)).

**(1281)** ........ Əbu Musa ؓ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Bizə qarşı silah qaldıran bizdən deyildir.[3]"[4]

---

[1] Peyğəmbərin ﷺ "bizdən deyil" sözü dəlildir ki, müsəlmana qarşı silah qaldırmaq böyük günahlardandır. Qeyd edək ki, bu əməl mömini İslamdan çıxarmır (353-cü hədisin qeydlərinə bax)

[2] Bu hədisi Muslim (1/69-294) və Əhməd (2/417) rəvayət etmişdir.

[3] Bu mövzuda Peyğəmbər ﷺ mömininin möminə nəinki silah çəkməyini qadağan etmiş, hətta, silahla onun yanından keçdikdə ehtiyatlı olmağı buyurmuşdur. Əbu Musa əl-Əşari ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Qoy, məscidlərimizin və ya bazarlarımızın birindən, üzərində ox olduğu halda keçən hər kəs *əli ilə* oxların ucundan tutsun ki, heç bir müsəlman yaralanmasın" (Səhih əl-Buxari, 452).

[4] Bu hədisi Buxari (6544) və Muslim (1/69-293) rəvayət etmişdir.

## ٦١٩- بَابُ إِذَا أَرَادَ اللَّهُ قَبْضَ عَبْدٍ بِأَرْضٍ جَعَلَ لَهُ بِهَا حَاجَةً

## 619-cu fəsil. Allah (dilədiyi) bir yerdə qulunun canını almaq istədiyi zaman, həmin yerdə o qul üçün onun ehtiyacı olduğu şeyləri yaradır

١٢٨٢- حَدَّثَنَا سُلَيْمَانُ بْنُ حَرْبٍ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ زَيْدٍ، عَنْ أَيُّوبَ، عَنْ أَبِي الْمَلِيحِ، عَنْ رَجُلٍ مِنْ قَوْمِهِ، وَكَانَتْ لَهُ صُحْبَةٌ، قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((إِذَا أَرَادَ اللَّهُ قَبْضَ عَبْدٍ بِأَرْضٍ جَعَلَ لَهُ بِهَا حَاجَةً)).

**(1282)** ........ Əbu Məlihin qövmündən olan bir səhabə[1] rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Allah dilədiyi bir yerdə qulunun canını almaq istədiyi zaman, həmin yerdə o qul üçün onun ehtiyacı olduğu şeyləri yaradır.[2]"[3]

---

[1] Hərçənd, bu isnadda səhabənin kim olduğu xəbər verilmir, lakin əvvəldə keçən eynimətnli hədisin isnadında bu səhabənin Əbu Azzə Yəsar ibn Abdullah əl-Huzəli رضي الله عنه olduğu xəbər verilir (780-ci hədisə və onun qeydlərinə bax).

[2] Bu hədis Uca Allahın bu ayəsini təsdiqləyir: **"Heç kəs hansı yerdə öləcəyini bilməz. Allah isə, şübhəsiz ki, Biləndir, Xəbərdardır"** (Loğman, 34).

[3] Bu hədisi Əhməd (3/429), Hakim (1/42), İbn Hibban (1815), İbn Adiy (əl-Kamil, 2/236), Əbu Nueym (əl-Hilyə, 8/374), Dolabi (əl-Kunə, 1/44) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

## ٦٢٠- بَابُ مَنِ امْتَخَطَ فِي ثَوْبِهِ

## 620-ci fəsil. Burnunu paltarına silən kimsə

١٢٨٣- حَدَّثَنَا حَفْصُ بْنُ عُمَرَ قَالَ: حَدَّثَنَا يَزِيدُ بْنُ إِبْرَاهِيمَ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ سِيرِينَ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّهُ تَمَخَّطَ فِي ثَوْبِهِ ثُمَّ قَالَ: بَخٍ بَخٍ، أَبُو هُرَيْرَةَ يَتَمَخَّطُ فِي الْكَتَّانِ، رَأَيْتُنِي أُصْرَعُ بَيْنَ حُجْرَةِ عَائِشَةَ وَالْمِنْبَرِ، يَقُولُ النَّاسُ: مَجْنُونٌ، وَمَا بِي إِلا الْجُوعُ.

**(1283)** ........ Muhəmməd ibn Sirin[1] rəvayət etmişdir ki,[2] *bir dəfə* Əbu reyrə libasının ətəyi ilə burnunun suyunu silib demişdir: "Bəh-bəh, Əbu Hureyrə burnunu kətan parçaya silir! Yadımdadır ki, mən minbərlə[3] Aişə-nin hücrəsi arasında[4] bayılıb yerə yıxılardım.[5] Camaat da *mənə baxıb*: "*O* dəlidir"– deyərdi. Halbuki, məni taqətdən salan yalnız aclıq idi.[6]"

---

[1] Əbu Bəkr Muhəmməd ibn Sirin əl-Ənsari ﷬ böyük tabiinlərdən, həm də Ənəs ibn Malikin ﷺ azad etdiyi köləsi və onun xidmətçisidir. Bəzi tarixçilər onun Ömərin ﷺ, bəziləri isə Osmanın ﷺ xilafəti dövründə dünyaya gəldiyini xəbər vermişlər. Əbu Hureyrə, İmran ibn Husayn, İbn Abbas, Adiy ibn Hatim, İbn Ömər, Abidə əs-Səlmani, Ənəs ibn Malik və bir çox başqa səhabələrdən hədislər rəvayət etmişdir (Siyər Əlam ən-Nubələ, 246-cı tərcümeyi-hal).

[2] Bu hədisi müəllif öz "Səhih"ində də (7324) rəvayət etmişdir.

[3] Burada söhbət Peyğəmbər ﷺ məscidindəki minbərdən gedir.

[4] Bu yer "rovdə", yəni, bağça adlanır. Bu bağça barədə Peyğəmbər ﷺ demişdir: "Cənnət bağlarından biri mənim evimlə minbərim arasında yerləşir" (Səhih əl-Buxari, 1196).

[5] İmam Buxarinin öz "Səhih"ində (7324) nəql etdiyi bu hədisdə "Həmin vaxt oradan gəlib keçən adam ayağını mənim boynumun üstünə qoyar və mənim dəli olduğumu güman edərdi" əlavəsi də zikr edilmişdir.

[6] Keçmişdəki çətin günləri, hazırkı xoş güzəranla müqayisə etmək, Allahın bəxş etdiyi nemətlərə şükür etmək üçün ən gözəl vasitələrdən biridir. Əbu Hureyrənin ﷺ dolanışığının çətin olduğunu xəbər verən hədislərin birində o demişdir: "Özündən başqa məbud olmayan Allaha and olsun ki, mən bəzən aclıqdan qarnımı yerə dayayardım, bəzən

də aclığı hiss etməyim deyə, qarnıma daş bağlayardım. Bir gün mən *müsəlmanların* gedib-gəldiyi yolun üstündə oturdum... Bu vaxt Əbul Qasim ﷺ gəlib oradan keçdi və məni gördükdə gülümsədi, ürəyimdən nələr keçdiyini üzümdən oxudu və dedi: "Ey Əbu Hirr!" Dedim: "Əmrinə müntəzirəm, ya Rəsulullah!" Rəsulullah ﷺ: "Gəl dalımca!"– deyib getdi, mən də qalxıb onun dalınca getdim. O, gedib evə daxil oldu. Mən *içəri girmək* üçün izin istədim və mənə izin verildi. Peyğəmbər ﷺ evdə bir cam süd gördü və: "Bu süd hardandır?"– deyə soruşdu. *Ona*: "Filankəs hədiyyə edib"– dedilər. Peyğəmbər ﷺ buyurdu: "Ey Əbu Hirr!" Dedim: "Əmrinə müntəzirəm, ya Rəsulullah!" O buyurdu: "Süffə əhlinin yanına get və onları mənim yanıma çağır!" Əbu Hureyrə deyir ki: "Süffə əhli İslam dininin qonaqları idi və onların Mədinədə nə ailəsi, nə mal-dövləti, nə də yaxın bir adamı var idi. Peyğəmbərə ﷺ sədəqə gətirildikdə, bunu onlara göndərər və ondan özünə heç bir şey götürməzdi. Ona hədiyyə verildikdə isə ondan bir qədər özünə götürər, qalanını isə onlara göndərər, onları da yeməyə şərik edərdi. Peyğəmbərin ﷺ onları evə dəvət etməsi məni pərişan etdi və mən *öz-özümə* dedim: "Süffə əhli üçün bu bir cam süd nədir ki? Həm də, bu süddən içib güc toplamağa mən daha çox layiqəm. Əgər onlar gəlsələr, Peyğəmbər ﷺ mənə südü əvvəlcə onlara verməyi əmr edəcək. Belə olduğu təqdirdə isə çətin ki, mənə bu süddən nəsə çatsın." Lakin Allaha və Onun rəsuluna ﷺ itaət etməkdən başqa çarəm qalmadığından, gedib onları çağırdım. Onlar gəlib içəri keçmək üçün izin istədilər və onlara izin verildi. Onlar içəri daxil olub yerbəyer olduqdan sonra Peyğəmbər ﷺ dedi: "Ey Əbu Hirr!" Dedim: "Əmrinə müntəzirəm, ya Rəsulullah!" Dedi: "Götür *bu südü*, onlara ver!" Mən camı götürüb onlara birər-birər verməyə başladım. Onlardan hər biri camı götürüb doyunca süd içdikdən sonra onu mənə qaytarır, mən də onu alıb, növbəti adama uzadırdım. Nəhayət, oradakıların hamısı *bu süddən* içib doyandan sonra mən camı Peyğəmbərə ﷺ uzatdım. Peyğəmbər ﷺ camı götürüb əlinin içinə qoydu, sonra mənə baxıb gülümsədi və dedi: "Ey Əbu Hirr!" Dedim: "Əmrinə müntəzirəm, ya Rəsulullah!" Dedi: "Mən, bir də sən qaldın!" Dedim: "Elədir, ya Rəsulullah!" Dedi: "Otur, iç!" Mən oturub *süddən* içdim. Bir daha: "İç!"– dedi və mən *yenə süddən* içdim. Peyğəmbər ﷺ bunu o vaxta qədər təkrar etdi ki, axırda mən dedim: "Yox, səni haqq ilə göndərən Allaha and olsun ki, içməyə yerim yoxdur." Dedi: "Elə isə, onu mənə ver!" Mən camı ona verdim və o, Allaha həmd edib "bismilləh" dedikdən sonra südün artıq qalanını içdi."

# ٦٢١- بَابُ الْوَسْوَسَةِ

## 621-ci fəsil. Vəsvəsə[1]

[1] Vəsvəsə: əsli olmadığı halda xəyala gələn şey. Vəsvəsənin şeytandan olması barədə Quranda belə buyurulur: **"De: "Sığınıram insanların Rəbbinə, insanların Hökmdarına, insanların məbuduna! Vəsvəsə verənin, *Allahın adı çəkiləndə hövlündən* geri çəkilən *şeytanın* şərindən. *O şeytan* ki, insanların ürəklərinə vəsvəsə salır, cinlərdən də *olur*, insanlardan da!"** (əl-Nas, 1-6). Allah şeytan barəsində bizə belə xəbər vermişdir: **"Şübhəsiz ki, şeytan sizin düşməninizdir. Elə isə siz onu düşmən qəbul edin"** (Fatir, 6) Həmçinin, Allah şeytanın möminlər üzərində hökmranlığı olmayacağını bildirib demişdir: **"Şübhəsiz ki, şeytanın, iman gətirib yalnız öz Rəbbinə təvəkkül edənlər üzərində heç bir hökmranlığı yoxdur. Onun hakimiyyəti yalnız onu özünə dost tutanlar və Allaha şərik qoşanlar üzərindədir"** (ən-Nəhl, 99-100). Deməli, şeytanın vəsvəsəsindən yaxa qurtarmaq istəyən adam Allaha və Onun rəsuluna ﷺ itaət etməli, şəriətin ona buyurduqlarını yerinə yetirməlidir. Şeytan çox vaxt əməlisaleh mömin insanlara vəsvəsə verir ki, onları ibadətdən, zikrdən və itaətdən yayındırsın.

Qeyd etmək lazımdır ki, qəlbdən keçən pis fikirlər iki qisimdir:

Birincisi: ötəri fikirlərdir ki, bunu hiss etdikdə: "Aməntu billah! (Mən Allaha iman gətirmişəm!)" (Səhih Muslim, 342), yaxud: "Aməntu billahi və rusulih! (Mən Allaha və Onun elçilərinə iman gətirmişəm!)" (Səhih Muslim, 344), yaxud: "Əuzu billahi minəş-şeytanir-rəcim! (*Allahın rəhmətindən* qovulmuş şeytandan Allaha sığınıram)" (Səhih Muslim, 345) demək lazımdır. Həmçinin, Peyğəmbər ﷺ demişdir: "Vaxt gələcək insanlar öz aralarında bir-birilərinə *olmayan şeylər barədə* suallar verəcək və onlardan biri deyəcək: "Məxluqatın hamısını Allah yaradıb. Bəs, Allahı kim yaradıb?" Onların belə dediyini gördüyünüz zaman siz: "Allahu Əhəd, Allahus-Saməd, ləm yəlid vələm yuləd, vələm yəkun ləhu kifuvən əhəd (Allah Təkdir, Allah möhtac deyildir. O, nə doğub, nə doğulub, Onun bənzəri də yoxdur)"– deyin. Sonra da bunu deyən adam sol tərəfinə üç dəfə tüpürsün və şeytandan Allaha sığınsın" (Sunən Əbu Davud, 4732; Silsilətul-Əhadisis-Səhihə, 118); digər hədisdə Peyğəmbər ﷺ demişdir: "Şeytan sizdən birinizin yanına gəlib: "Filan şeyi kim yaradıb? Filan şeyi kim yaradıb?"– deyə *ayrı-ayrı suallar verməyə başlayır*. Axırda da: "Rəbbini kim yaradıb?"– deyə *qəlbinizə şübhə salır*. Belə olduqda, qoy, həmin adam Allaha sığın-

**١٢٨٤–** حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: أَخْبَرَنَا عَبْدَةُ، عَنْ مُحَمَّدِ بْنِ عَمْرٍو قَالَ: حَدَّثَنَا أَبُو سَلَمَةَ، عَنْ أَبِي هُرَيْرَةَ: قَالُوا: يَا رَسُولَ اللَّهِ، إِنَّا نَجِدُ فِي أَنْفُسِنَا شَيْئًا مَا نُحِبُّ أَنْ نَتَكَلَّمَ بِهِ وَإِنَّ لَنَا مَا طَلَعَتْ عَلَيْهِ الشَّمْسُ، قَالَ: أَوَ قَدْ وَجَدْتُمْ ذَلِكَ؟ قَالُوا: نَعَمْ ، قَالَ: ذَاكَ صَرِيحُ الإِيمَانِ.

**(1284)** ........ Əbu Hureyrə ﵁ rəvayət edir ki, (bir dəfə səhabələrdən bir neçəsi Peyğəmbərin ﷺ yanına gəlib)[1] dedilər: “Ya Rəsulullah, qəlbimizdən elə *pis* fikirlər keçir ki, onu danışmaq istəmirik[2] və qəlbimizdə üzərinə əsla gün düşməmiş şeylər vardır.” Peyğəmbər ﷺ soruşdu: “Doğrudanmı, siz

---

sın və bir daha bu haqda düşünməsin” (Səhih əl-Buxari, 3276). Şeyx Albani demişdir: “Bu “səhih” hədislər dəlildir ki, şeytan bir kimsəyə: “Allahı kim yaradıb?”– deyə vəsvəsə verdiyi zaman həmin adam bu vəsvəsəyə uymamalı və dərhal bu xüsusda, zikr olunmuş hədislərdə deyilənləri yerinə yetirməlidir. Xülasəsi də budur ki, şeytan adama vəsvəsə verdikdə, o: “Aməntu billahi və rusulih, Allahu Əhəd, Allahus-Saməd, ləm yəlid vələm yuləd, vələm yəkun ləhu kifuvən əhəd”– deməli, sonra sol tərəfinə üç dəfə tüpürməli, sonra: “Əuzu billahi minəş-şeytanir-rəcim!”– deməli, sonra da bu vəsvəsə barədə düşünməməlidir. Mən etiqad edirəm ki, hər kim bunu Allaha və Onun rəsuluna ﷺ itaət etmək məqsədilə, səmimi-qəlbdən yerinə yetirərsə, bu vəsvəsələr mütləq onu tərk edər və onun şeytanı məğlub olar. Çünki Peyğəmbər ﷺ: “Bu, şeytanın vəsvəsəsini aradan qaldırar”– demişdir. (Silsilətul-Əhadisis-Səhihə, 1/233-236).

İkincisi isə artıq şübhəyə çevrilmiş fikirlərdir ki, bunu dəf etmək üçün dəlil-sübuta əsaslanaraq həmin fikri təkzib etmək və şübhəni aradan qaldırmaq gərəkdir.

[1] Səhih Muslim, 340.

[2] Muslimin rəvayətində “hər birimiz onu dilinə gətirməyi böyük günah hesab edir”– deyilir. Başqa bir rəvayətdə xəbər verilir ki, səhabələr: “Onu danışmaq bizim üçün göydən yerə düşməkdən daha pisdir”– demişlər (Təzim Qədris-Səlati, 784). Hədislərin birində Peyğəmbər ﷺ demişdir: “Şeytan insanın yanına gəlib: “Filan və filan şeyi yaradan kimdir?”– deyə suallar verir. Nəhayət, *ondan*: “Rəbbini kim yaradıb?”– deyə soruşur. Elə ki, iş bu yerə gəlib çatdı, qoy, həmin adam Allaha sığınsın və *buna* son qoysun” (Səhih Muslim, 346).

bunu hiss edirsiniz?"[1] Onlar: "Bəli"– deyə cavab verdilər. O buyurdu: "Bu, imanın saflığıdır.[2]"[3]

١٢٨٥– وَعَنْ جَرِيرٍ، عَنْ لَيْثٍ، عَنْ شَهْرِ بْنِ حَوْشَبٍ قَالَ: دَخَلْتُ أَنَا وَخَالِي عَلَى عَائِشَةَ، فَقَالَ: إِنَّ أَحَدَنَا يَعْرُضُ فِي صَدْرِهِ مَا لَوْ تَكَلَّمَ بِهِ ذَهَبَتْ آخِرَتُهُ، وَلَوْ ظَهَرَ لَقُتِلَ بِهِ، قَالَ: فَكَبَّرَتْ ثَلاَثًا، ثُمَّ قَالَتْ: سُئِلَ رَسُولُ اللَّهِ ﷺ عَنْ ذَلِكَ، فَقَالَ: ((إِذَا كَانَ ذَلِكَ مِنْ أَحَدِكُمْ فَلْيُكَبِّرْ ثَلاَثًا، فَإِنَّهُ لَنْ يُحِسَّ ذَلِكَ إِلا مُؤْمِنٌ)).

**(1285)** ........ Şəhr ibn Hovşəb demişdir:[4] "*Bir dəfə* mən dayımla birgə Aişənin yanına gəldik. Dayım dedi: "Bizlərdən bəzisinin qəlbindən elə *pis* fikirlər keçir ki, əgər onu danışsa, Axirətini itirmiş olar, bunu açıq-aydın desə, buna görə öldürülər." Aişə üç dəfə təkbir etdikdən sonra dedi: "Rəsulullahdan ﷺ bu haqda soruşduqda o, belə buyurmuşdur: "Sizlərdən birinin *qəlbindən* belə *pis* fikirlər keçdiyi zaman, qoy, üç dəfə təkbir gətirsin.[5] Çünki bu *vəsvəsəni* yalnız mömin hiss edə bilər."

---

[1] Muslimin rəvayətində "Doğrudanmı siz bunu günah sayırsınız?" deyilir.

[2] Həqiqətən də, mömin adamın öz qəlbindən keçən vəsvəsəni dilinə gətirməyi böyük günah hesab etməsi, onun safqəlbli mömin olmağına dəlalət edir.

[3] Bu hədisi Muslim (340), Nəsai (əl-Kubra, 10426), Əhməd (2/441), İbn Hibban (145), Təbərani (Mocəmul-Kəbir, 828) və İbn Əbu Asim (əs-Sunnə, 662) rəvayət etmişdir.

[4] Bu hədisin isnadında keçən Şəhr ibn Hovşəb və Leys – hər ikisi "zəif" ravilər olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

[5] Bu xüsusda, rəvayət edilmiş hədisdə İbn Abbas رضي الله عنهما demişdir: "Bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah, aramızdan bəzilərinin qəlbindən elə *pis* fikirlər keçir ki, onun üçün kömürə dönmək, qəlbindən keçənləri danışmaqdan daha xoşdur." Peyğəmbər ﷺ dedi: "Allahu Əkbər, Allahu Əkbər, Allahu Əkbər! Şeytanın hiyləsini vəsvəsəyə qaytaran Allaha həmd olsun!" (Sunən Əbu Davud, 5112; Musnəd Əhməd, 1/235; Zilalul-Cənnə, 658). Yəni adam qəlbindən keçənləri dilinə gətirməsə və bu vəsvəsələrə

**١٢٨٦-** وعَنْ عُقْبَةَ بْنِ خَالِدٍ السَّكُونِيّ قَالَ: حَدَّثَنَا أَبُو سَعْدٍ سَعِيدُ بْنُ مَرْزُبَانَ قَالَ: سَمِعْتُ أَنَسَ بْنَ مَالِكٍ يَقُولُ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((لَنْ يَبْرَحَ النَّاسُ يَسْأَلُونَ عَمَّا لَمْ يَكُنْ، حَتَّى يَقُولُوا: اللَّهُ خَالِقُ كُلِّ شَيْءٍ، فَمَنْ خَلَقَ اللَّهَ؟)).

**(1286)** ........ Ənəs ibn Malik ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "*Vaxt gələcək* insanlar olmayan şeylər barədə o qədər suallar verəcəklər ki, axırda deyəcəklər: "Hər şeyi yaradan Allahdır.[1] Bəs Allahı kim yaradıb?"[2]

---

uymasa, əksinə, özlüyündə bunu böyük günah hesab etsə və bunu dilinə gətirmirsə, şeytanın hiyləsini onun özünə qaytarar (Şərh Əbu Davud, Abdul-Muhsin əl-Abbad).

[1] Elə bu sözün özündən Allahın hər şeyi yaradan, Özünün isə Xaliq olduğu aydın olur. "Allahı kim yaradıb?" sözü isə ən batil sözlərdən sayılır. Uca Allah buyurur: **"Bəlkə onlar öz-özünə yaranıblar?! Yaxud onlar yaradanlardır?! Yoxsa onlar göyləri və yeri yaradıblar?! Xeyr, onlar qətiyyən inanmırlar"** (ət-Tur, 34-35). Digər ayədə Uca Allah buyurur: **"Yoxsa, onlar Allaha, Onun yaratdığı kimi yaradan şəriklər tapdılar və *bu* yaradılış onlara bənzər göründü? De: "Hər şeyi yaradan Allahdır. O Təkdir, *hər şeyə* Qalib gələndir"** (ər-Rəd, 16).

[2] Bu hədisi Buxari (6752), Muslim (1/83) və Əbu Davud (4721) rəvayət etmişdir.

## ٦٢٢- بَابُ الظَّنِّ

## 622-ci fəsil. Zənn

١٢٨٧- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ أَبِي الزِّنَادِ، عَنِ الأَعْرَجِ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((إِيَّاكُمْ وَ الظَّنَّ، فَإِنَّ الظَّنَّ أَكْذَبُ الْحَدِيثِ، وَلاَ تَجَسَّسُوا، وَلاَ تَنَافَسُوا، وَلاَ تَدَابَرُوا، وَلاَ تَحَاسَدُوا، وَلاَ تَبَاغَضُوا، وَكُونُوا عِبَادَ اللَّهِ إِخْوَانًا)).

**(1287)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: "Zənnə qapılmaqdan çəkinin! Çünki zənn ən yalan sözdür. Casusluq etməyin, bir-birinizlə rəqabət aparmayın, bir-birinizə arxa çevirməyin, bir-birinizə həsəd aparmayın, bir-birinizə nifrət etməyin. Ey Allahın qulları, qardaş olun![1]"[2]

١٢٨٨- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ قَالَ: أَخْبَرَنَا ثَابِتٌ، عَنْ أَنَسٍ قَالَ: بَيْنَمَا النَّبِيُّ ﷺ مَعَ امْرَأَةٍ مِنْ نِسَائِهِ، إِذْ مَرَّ بِهِ رَجُلٌ، فَدَعَاهُ النَّبِيُّ ﷺ فَقَالَ: ((يَا فُلاَنُ، إِنَّ هَذِهِ زَوْجَتِي فُلاَنَةُ))، قَالَ: مَنْ كُنْتُ أَظُنُّ بِهِ فَلَمْ أَكُنْ أَظُنُّ بِكَ، قَالَ: ((إِنَّ الشَّيْطَانَ يَجْرِي مِنِ ابْنِ آدَمَ مَجْرَى الدَّمِ)).

**(1288)** ........ Sabit rəvayət edir ki, Ənəs ﷺ demişdir: "Peyğəmbər ﷺ zövcələrindən birinin yanında dayanmış ikən bir nəfər gəlib onun yanından keçdi. Peyğəmbər ﷺ onu çağırıb dedi: "Ey filankəs, bu mənim filan zövcəmdir."[3] Adam dedi: "Mən heç kəsin barəsində pis zənn etməmişəm ki,

---

[1] 190-cı, 398-ci, 401-ci 410-cu, 592-ci hədislərə və onların qeydlərinə bax.

[2] Bu hədisi Muslim (8/10) və Əhməd (2/465) rəvayət etmişdir.

[3] Peyğəmbərin ﷺ zövcəsi Safiyyə ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ ramazanın axır on günündə məsciddə etikaf edərkən o, Peyğəmbərə ﷺ baş çəkdi və onunla bir müddət söhbət etdikdən sonra çıxıb getmək istədikdə, Peyğəmbər ﷺ ayağa qalxıb onu qapıya-

sizin də barənizdə pis zənn edim." Peyğəmbər ﷺ buyurdu: "Heç şübhəsiz ki, şeytan Adəm övladının qan damarlarında gəzir.[1]"[2]

١٢٨٩- حَدَّثَنَا يُوسُفُ بْنُ يَعْقُوبَ قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ سَعِيدٍ أَخُو عُبَيْدٍ الْقُرَشِيِّ قَالَ: حَدَّثَنَا الأَعْمَشُ، عَنْ أَبِي وَائِلٍ، عَنْ عَبْدِ اللَّهِ قَالَ: مَا يَزَالُ الْمَسْرُوقُ مِنْهُ يَتَظَنَّى حَتَّى يَصِيرَ أَعْظَمَ مِنَ السَّارِقِ.

**(1289)** ........ Abdullah *ibn Məsud* ؓ demişdir: "Malı oğurlanmış adam o qədər *pis* zənnə qapılır ki, axırda oğrudan da artıq günah qazanır.[3]"[4]

١٢٩٠- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ بْنُ عُثْمَانَ بْنِ عَبْدِ اللَّهِ بْنِ عَبْدِ الرَّحْمَنِ بْنِ سَمُرَةَ، عَنْ بِلاَلِ بْنِ سَعْدٍ الأَشْعَرِيِّ، أَنَّ مُعَاوِيَةَ كَتَبَ إِلَى أَبِي

---

dək ötürdü. Nəhayət, məscidin qapısına – Ummu Sələmənin qapısının yanına çatdıqda ənsardan olan iki nəfər gəlib onların yanından keçdi və ona salam verdi. Peyğəmbər ﷺ onlara: "Dayanın, bu, Səfiyyə bint Huyeydir!"– dedi. Onlar: "Subhanəllah, ya Rəsulul-lah!"– dedilər və bu söz onlara ağır gəldi. Onda, Peyğəmbər ﷺ dedi: "Həqiqətən də, şey-tan insanın bədənində qan dövran etdiyi kimi dövran edir. Mən onun sizin qəlbinizə *pis* bir şey salacağından ehtiyat etdim" (Səhih əl-Buxari, 2035).

[1] İbn Useymin demişdir: "Yəni qan insan bədənində dövran etdiyi kimi, şeytan da adamın damarlarında gəzir. Bu hədisdən aydın olur ki, adam birisinin onun barəsində pis zənn etdiyini ehtimal etsə, şübhəni aradan qaldırmaq üçün məsələyə aydınlıq gətir-məlidir" (Şərh Riyadus-Salihin, 1849-cu hədisin şərhi).

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[3] Yəni malı oğurlanmış adam əlində heç bir əsas olmadan onun-bunun barəsində o qədər pis zənn edir ki, axırda özü oğrudan da çox günah qazanmış olur. Və əgər adam is-təmirsə ki, başqaları onun barəsində pis zənn etsin, özü əsassız olaraq başqalarının barə-sində pis zənn etməməlidir.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

الدَّرْدَاءِ: اكْتُبْ إِلَيَّ فُسَّاقَ دِمَشْقَ، فَقَالَ: مَا لِي وَفُسَّاقُ دِمَشْقَ؟ وَمِنْ أَيْنَ أَعْرِفُهُمْ؟ فَقَالَ ابْنُهُ بِلاَلٌ: أَنَا أَكْتُبُهُمْ، فَكَتَبَهُمْ، قَالَ: مِنْ أَيْنَ عَلِمْتَ؟ مَا عَرَفْتَ أَنَّهُمْ فُسَّاقٌ إِلاَّ وَأَنْتَ مِنْهُمْ، ابْدَأْ بِنَفْسِكَ، وَلَمْ يُرْسِلْ بِأَسْمَائِهِمْ.

**(1290)** ........ Bilal ibn Səd əl-Əşari rəvayət edir ki, *bir dəfə* Muaviyə Əbu Dərdaya : "Dəməşqdəki fasiqlərin adlarını mənə yaz"– deyə xəbər yolladı. Əbu Dərda *öz-özünə* dedi: "Dəməşqdəki fasiqlərin mənə nə aidiyyəti var ki?! Mən onları necə tanıya bilərəm?!"[1] Oğlu Bilal: "Mən yazaram"– deyib onların adlarını yazdı. Əbu Dərda dedi: "*Oğlum,* sən nə bilirsən ki, *onlar fasiqdirlər*? Sən onların fasiq olduğunu bilirsənsə, demək sən də onlardansan. Elə isə, birinci öz adını yaz." Beləcə, o, fasiqlərin adlarını ona göndərmədi.[2]

---

[1] Səhabənin bu sözündən aydın olur ki, əməlisaleh adam yalnız əməlisaleh insanlarla, fasiq adam da yalnız fasiqlərlə oturub-durar və ancaq onlarla dostluq edər (901-ci hədisə və onun qeydlərinə bax). Fasiqlərin adını o adam bilər ki, səhər-axşam onların yanında olsun, onları güdsün və onları tanısın.

[2] Bu hədisin isnadında keçən Abdullah ibn Osman ibn Abdullah ibn Abdur-Rəhman ibn Səmura "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ٦٢٣– بَابُ حَلْقِ الْجَارِيَةِ وَالْمَرْأَةِ زَوْجَهَا

## 623-cü fəsil. Cariyənin və qadının öz həyat yoldaşının (saçlarını və s.) qırxması[1]

١٢٩١– حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنِي سُكَيْنُ بْنُ عَبْدِ الْعَزِيزِ بْنِ قَيْسٍ، عَنْ أَبِيهِ قَالَ: دَخَلْتُ عَلَى عَبْدِ اللَّهِ بْنِ عُمَرَ، وَجَارِيَةٌ تَحْلِقُ عَنْهُ الشَّعْرَ، وَقَالَ: النُّورَةُ تُرِقُّ الْجِلْدَ.

**(1291)** ........ Abdul-Aziz ibn Qeys demişdir: "*Bir dəfə* mən Abdullah ibn Ömərin hücrəsinə daxil oldum və gördüm ki, kəniz onun *saçını* qırxır. İbn Ömər dedi: "Nura[2] dərini yumşaldır."[3]

---

[1] Bundan aydın olur ki, qadının öz ərinin saçlarını, hətta, lazım gələrsə, qoltuqaltı tüklərini və qasığını belə qırxması caizdir. Bunun mübah olmasına dair aşağıdakı ayə və hədisi dəlil göstərmək olar:

– Uca Allah möminləri vəsf edərkən belə buyurur: **"o kəslər ki, ayıb yerlərini *həmişə* qoruyurlar; zövcələri və sahib olduqları cariyələr istisnadır. Onlar *buna görə heç* qınanmazlar"** (əl-Muminun, 5-6);

– Bəhz ibn Həkim öz atasından, o da, öz atasından rəvayət etmişdir ki, Peyğəmbər ﷺ ona belə buyurmuşdur: "Zövcən və cariyən istisna olmaqla ayıb yerlərini hamıdan gizlət" (Sunən Əbu Davud, 1381; Şeyx Albani "Adabuz-Zifaf", əsərində (səh: 34-35) bu hədisin "həsən" olduğunu demişdir).

[2] Burada "nura" deyildikdə, hamam otu nəzərdə tutulur.

[3] Bu hədisin isnadında keçən Abdul-Aziz ibn Qeysin necə ravi olduğu "məchul" qaldığından, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ٦٢٤- بَابُ نَتْفِ الإِبْطِ

## 624-cü fəsil. Qoltuqaltı tükləri qopartmaq

١٢٩٢- حَدَّثَنَا يَحْيَى بْنُ قَزَعَةَ قَالَ: حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ سَعْدٍ، عَنِ ابْنِ شِهَابٍ، عَنْ سَعِيدِ بْنِ الْمُسَيِّبِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((الْفِطْرَةُ خَمْسٌ: الْخِتَانُ، وَالِاسْتِحْدَادُ، وَنَتْفُ الإِبْطِ، وَقَصُّ الشَّارِبِ، وَتَقْلِيمُ الأَظْفَارِ)).

**(1292)** ........ Əbu Hureyrə ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Beş şey fitrətdəndir:[1] sünnət etmək,[2] qasığı qırxmaq, qoltuqaltı tükləri qopartmaq, bığları qısaltmaq və dırnaqları tutmaq."[3]

١٢٩٣- حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا يَزِيدُ بْنُ زُرَيْعٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ إِسْحَاقَ قَالَ: حَدَّثَنِي سَعِيدُ بْنُ أَبِي سَعِيدٍ الْمَقْبُرِيُّ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ: ((خَمْسٌ مِنَ الْفِطْرَةِ: الْخِتَانُ، وَحَلْقُ الْعَانَةِ، وَتَقْلِيمُ الأَظْفَارِ، وَنَتْفُ الضَّبْعِ، وَقَصُّ الشَّارِبِ)).

**(1293)** ........ Əbu Hureyrə ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Beş şey fitrətdəndir: sünnət etmək, qasıqdakı tükləri qırxmaq, dırnaqları tutmaq, qoldakı tükləri yolmaq və bığları qısaltmaq."[4]

١٢٩٣- حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ سَعِيدِ بْنِ أَبِي سَعِيدٍ الْمَقْبُرِيِّ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ: خَمْسٌ مِنَ الْفِطْرَةِ: تَقْلِيمُ الأَظْفَارِ، وَقَصُّ الشَّارِبِ، وَنَتْفُ الإِبْطِ، وَحَلْقُ الْعَانَةِ، وَالْخِتَانُ.

**(1294)** ........ Əbu Hureyrə ﵁ demişdir: "Beş şey fitrətdəndir: dırnaqları tutmaq, bığları qısaltmaq, qoltuqaltı tükləri yolmaq, qasıqdakı tükləri qırxmaq və sünnət etmək."[5]

---

[1] 1257-ci hədisin qeydlərinə bax.

[2] 595-ci fəsilin qeydlərinə bax.

[3] Bu hədisi Buxari (5438) və Muslim (597 və 598) rəvayət etmişdir.

[4] Şeyx Albani demişdir: "Bu mətndəki "qoldakı" sözü "şazz" – "zəif" sayılır. "Səhih" olanı "qoltuqaltı" kəlməsi ilə varid olmuş mətndir" (Daif əl-Ədəbul-Mufrad, 116).

[5] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

## ٦٢٥- بَابُ حُسْنِ الْعَهْدِ

## 625-ci fəsil. Gözəl əhd[1]

١٢٩٥- حَدَّثَنَا أَبُو عَاصِمٍ، عَنْ جَعْفَرِ بْنِ يَحْيَى بْنِ ثَوْبَانَ قَالَ: حَدَّثَنِي عُمَارَةُ بْنُ ثَوْبَانَ قَالَ: حَدَّثَنِي أَبُو الطُّفَيْلِ قَالَ: رَأَيْتُ النَّبِيَّ ﷺ يَقْسِمُ لَحْمًا بِالْجِعْرَانَةِ، وَأَنَا يَوْمَئِذٍ غُلَامٌ أَحْمِلُ عُضْوَ الْبَعِيرِ، فَأَتَتْهُ امْرَأَةٌ، فَبَسَطَ لَهَا رِدَاءَهُ، قُلْتُ: مَنْ هَذِهِ؟ قَالَ: ((هَذِهِ أُمُّهُ الَّتِي أَرْضَعَتْهُ)).

---

[1] Burada "gözəl əhd" deyildikdə, yaxın adamların qeydinə qalmaq, onlarla əlaqəni kəsməmək, onların haqqını ödəmək, onları tərifləmək, onları xoş xatirələrlə yada salmaq, onlar üçün dua etmək, habelə, onların sevdiklərinə, yaxınlarına və övladlarına da xoş münasibət bəsləmək nəzərdə tutulur. Müəllif öz "Səhih"ində – "Ədəb Kitabında" 23-cü fəsilə belə bir ünvan qoymuşdur: "Gözəl əhd imandandır." Həmin fəsildə İmam Buxari aşağıdakı hədisi nəql etmişdir:

Aişə ﵂ demişdir: "Mən Xədicə qədər Peyğəmbərin ﷺ zövcələrindən heç birinə qısqanmamışam. O, Peyğəmbər ﷺ mənimlə evlənməmişdən üç il əvvəl vəfat etmişdir. Peyğəmbər ﷺ tez-tez onu yad edərdi. Rəbbi ona Xədicəni Cənnətdə mirvaridən evi olacağı ilə müjdələməyi buyurmuşdur. Olurdu ki, Peyğəmbər ﷺ qoç kəsib onu hissələrə bölürdü, sonra da onları Xədicənin rəfiqələrinə göndərirdi. Hərdən mən ona: "Elə bil yer üzündə Xədicədən başqa qadın yoxdur"– deyərdim, o da cavabında: "Xədicə (nəcib bir qadın) idi, üstəlik mənim ondan övladlarım olmuşdur" (Səhih əl-Buxari, 6004).

Onu da qeyd edək ki, "Gözəl əhd imandandır" sözü əslində, Peyğəmbərin ﷺ sözüdür. İbn Əbu Muleykə rəvayət etmişdir ki, Aişə ﵂ demişdir: "Peyğəmbər ﷺ mənim hücrəmdə ikən yaşlı bir qadın onun yanına gəldi. Rəsulullah ﷺ ondan: "Sən kimsən?"– deyə soruşdu. Qadın dedi: "Mənəm, Cəssamə əl-Muzəniyyə." Rəsulullah ﷺ dedi: "Yox, sən Həssanə əl-Muzəniyyəsən. Necəsiniz? Kefiniz-halınız necədir? Bizdən sonra *bu uzun illərdir* özününzü necə hiss edirsiniz?" Qadın: "Atam-anam sənə qurban, ya Rəsulullah!"– dedi. O, çıxıb getdikdən sonra mən dedim: "Ya Rəsulullah, nədən sən bu yaşlı qadını belə ehtiramla qarşıladın?" Rəsulullah ﷺ dedi: "Xədicənin sağlığında o bizim yanımıza gələrdi. Həqiqətən də, gözəl əhd imandandır" (Mustədrək əl-Hakim, 40; Şoəbul-İman, 8701; Mocəm İbnul-Ərabi, 759; Silsilətul-Əhadisis-Səhihə, 216).

**(1295)** ........ Əbu Tufeyl[1] ﷛ demişdir: "Mən Peyğəmbərin ﷺ Ciranədə[2] ət payladığını görmüşəm. O vaxt mən uşaq idim və dəvənin *bölüşdürülmüş* əzalarını daşıyırdım. Bu vaxt bir qadın Peyğəmbərin ﷺ yanına gəldi və Peyğəmbər ﷺ öz əbasını onun altına sərdi. Mən: "Bu kimdir?" – deyə soruşdum. *Mənə:* "Bu, onun süd anasıdır[3]"– dedilər."[4]

---

[1] Əbu Tufeyl Amir ibn Vasilə ibn Abdullah əl-Leysi əl-Kinani ﷛ Peyğəmbərin ﷺ səhabəsidir (Siyər Əlam ən-Nubələ, 97-ci tərcümeyi-hal).

[2] Məkkə ilə Taif arasında, Məkkənin yeddi kilometrliyindəki yer adıdır (Tac vəl-Buldan). Bu yerə həmçinin, "Ciirranə" də deyilir.

[3] Yəni, Həlimə bint Abdullah ibn Hərs əs-Sidiyyə (əl-İsabə, 8/52-53).

[4] Bu hədisin isnadında keçən Umarə ibn Sovban "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ٦٢٦- بَابُ الْمَعْرِفَةِ

## 626-cı fəsil. Tanışlıq[1]

١٢٩٦- حَدَّثَنَا أَبُو نُعَيْمٍ قَالَ: حَدَّثَنَا يُونُسُ، عَنْ أَبِي إِسْحَاقَ، عَنِ الْمُغِيرَةِ بْنِ شُعْبَةَ: قَالَ رَجُلٌ: أَصْلَحَ اللَّهُ الأَمِيرَ، إِنَّ آذِنَكَ يَعْرِفُ رِجَالًا فَيُؤْثِرُهُمْ بِالإِذْنِ، قَالَ: عَذَرَهُ اللَّهُ، إِنَّ الْمَعْرِفَةَ لَتَنْفَعُ عِنْدَ الْكَلْبِ الْعَقُورِ، وَعِنْدَ الْجَمَلِ الصَّؤُولِ.

**(1296)** ........ Əbu İshaq Muğira ibn Şobədən ﷺ rəvayət edir ki, bir nəfər *ona*: "Allah əmiri islah etsin! Sənin gözətçin tanıdığı adamların içəri girməsinə üstünlük verir"– dedi. Muğira da ona belə cavab verdi: "Allah onu (günahlarını) bağışlasın! Doğrusu, adam tanımaq quduz köpək və qızmış dəvə yanında da fayda verir.[2]"[3]

---

[1] Xeyirxahlıq etmək məqsədilə qurulan tanışlıq – insanlara yaxşılıq etmək, onlarla gözəl şəkildə əlaqə qurmaq, onları gülərüzlə qarşılamaq, onlarla xoş rəftar etmək, onların xətrinə dəyməmək və s. mömin adama bu dünyada da fayda verir, Axirətdə də.

[2] Yəni adam quduz köpəyin qabağına bir neçə kərə sümük və ət atsa o köpək onu tanıyar və ona dəyməz, hətta onu qoruyar da. Qızmış dəvə də, həmçinin, ona yaxşılıq edən adama dəyməz. Və əgər xeyirxahlıq üzərində qurulmuş tanışlıq heyvan yanında fayda verirsə, təbii ki, bunun insan yanında da faydası olmalıdır. Lakin insanlar arasında elə nanəcib və yaxşılıq itirən insanlar vardır ki, onlar quduz itdən və qızmış dəvədən daha pisdilər. Bu xüsusda, Uca Allah buyurur: **"Biz Cəhənnəm üçün bir çox cinlər və insanlar yaratdıq. Onların qəlbləri var, onunla anlamazlar; gözləri var, onunla görməzlər; qulaqları var, onunla eşitməzlər. Onlar heyvan kimidirlər, hətta daha çox azğınlıqdadırlar. Qafil olanlar da məhz onlardır"** (əl-Əraf, 179). Xülasə budur ki, tanışlıq insana fayda verir, yaxşı insanlarla olan münasibəti bir az da yaxşılaşdırır, habelə, pis adamların şərini dəf edir... Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, hər hansı bir işdə haqq sahibini və ya iş bacaran adamı qoyub, tanışlıq xatirinə tanış adama hörmət etmək və ona üstünlük vermək zülm hesab olunur (Abdur-Rəzzaq əl-Abbad).

[3] Bu hədisin isnadında keçən Əbu İshaq əs-Səbii "hafizəsi qarışmış mudəllis" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ٦٢٧– بَابُ لَعِبِ الصِّبْيَانِ بِالْجَوْزِ

## 627-ci fəsil. Uşaqların qozla oynaması

١٢٩٧– حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا أَبُو عَوَانَةَ، عَنْ مُغِيرَةَ، عَنْ إِبْرَاهِيمَ قَالَ: كَانَ أَصْحَابُنَا يُرَخِّصُونَ لَنَا فِي اللُّعَبِ كُلِّهَا، غَيْرِ الْكِلَابِ.

قَالَ أَبُو عَبْدِ اللَّهِ: يَعْنِي لِلصِّبْيَانِ.

**(1297)** ........ İbrahim demişdir: "Dostlarımız[1] bizə hər bir şeylə oynamağa izin verərdilər. Yalnız itlərdən başqa.[2]"[3]

Əbu Abdullah *əl-Buxari* demişdir: "Burada *"bizə" deyildikdə,* uşaqlar nəzərdə tutulur."

١٢٩٨– حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ قَالَ: حَدَّثَنِي شَيْخٌ مِنْ أَهْلِ الْخَيْرِ يُكَنَّى أَبَا عُقْبَةَ قَالَ: مَرَرْتُ مَعَ ابْنِ عُمَرَ مَرَّةً بِالطَّرِيقِ، فَمَرَّ بِغِلْمَةٍ مِنَ الْحَبَشِ، فَرَآهُمْ يَلْعَبُونَ، فَأَخْرَجَ دِرْهَمَيْنِ فَأَعْطَاهُمْ.

**(1298)** ........ Abdul-Aziz rəvayət edir ki, xeyir əhlindən olmuş şeyx Əbu Uqbə[4] demişdir: "Bir dəfə mən İbn Ömərlə birgə yola çıxdım. O, həbəşlər-

---

[1] İbrahim ən-Nəxəi ﷺ "dostlarımız" deyəndə, gördüyü səhabələri qəsd edir.

[2] Bundan aydın olur ki, haram və murdar şeylərlə oynamaq caiz deyil.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" və "məqtu" olduğunu demişdir. Bundan aydın olur ki, uşaqlara qozla, habelə, buna bənzər topla və sairə ilə oynamaq mübahdır. Xüsusilə qeyd etmək lazımdır ki, bu oyunlar mübah sayılsa da, onlara ifrat dərəcədə uymaq və beləliklə də, vacib buyurulanları – namazı, orucu və s. tərk etmək qadağandır.

[4] Bu hədisin isnadında keçən Əbu Uqbə "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

dən olan bir dəstə uşağın yanından keçdikdə, onların oynadığını gördü və iki dirhəm çıxardıb onlara verdi.[1]"

**١٢٩٩–** حَدَّثَنَا عَبْدُ اللَّهِ قَالَ: أَخْبَرَنِي عَبْدُ الْعَزِيزِ بْنُ أَبِي سَلَمَةَ، عَنْ هِشَامٍ، عَنْ أَبِيهِ، عَنْ عَائِشَةَ، أَنَّ النَّبِيَّ ﷺ كَانَ يُسَرِّبُ إِلَيَّ صَوَاحِبِي يَلْعَبْنَ بِاللَّعِبِ، الْبَنَاتِ الصِّغَارِ.

**(1299)** ........ Hişam *ibn Urva* öz atasından[2] rəvayət edir ki, Aişə ﵂ demişdir: "Peyğəmbər ﷺ mənim rəfiqələrimi – balaca qız uşaqlarını yanıma göndərərdi ki, mənimlə oynasınlar."[3]

---

[1] Uşaqları bu cür əzizləmək, onlara lütf göstərmək İslam əxlaqına aid olan əməllərdəndir (Abdur-Rəzzaq əl-Abbad).

[2] Yəni, Urva ibn əz-Zubeyr.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir (368-ci hədisin qeydlərinə bax).

# ٦٢٨- بَابُ ذَبْحِ الْحَمَامِ

## 628-ci fəsil. Göyərçin kəsmək[1]

١٣٠٠- حَدَّثَنَا شِهَابُ بْنُ مَعْمَرٍ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ مُحَمَّدِ بْنِ عَمْرٍو، عَنْ أَبِي سَلَمَةَ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: رَأَى رَسُولُ اللَّهِ ﷺ رَجُلًا يَتْبَعُ حَمَامَةً، قَالَ: ((شَيْطَانٌ يَتْبَعُ شَيْطَانَةً)).

**(1300)** ........ Əbu Sələmə rəvayət edir ki, Əbu Hureyrə ﷺ demişdir: "*Bir dəfə* Rəsulullah ﷺ bir nəfərin göyərçini təqib etdiyini[2] görüb dedi: "Erkək şeytan dişi şeytanı təqib edir.[3]"[4]

١٣٠١- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا يُوسُفُ بْنُ عَبْدَةَ قَالَ: حَدَّثَنَا الْحَسَنُ قَالَ: كَانَ عُثْمَانُ لاَ يَخْطُبُ جُمُعَةً إِلاَّ أَمَرَ بِقَتْلِ الْكِلاَبِ، وَذَبْحِ الْحَمَامِ.

---

[1] Qeyd etmək lazımdır ki, əylənmək məqsədilə və ya cəzalandırmaq üçün göyərçin kəsmək qadağandır. Yalnız onu yemək məqsədilə bunu etməyə icazə verilir. Göyərçin saxlamaq xüsusunda Nəvəvi demişdir: "Bala almaq və yumurta götürmək, ünsiyyət saxlamaq və məktub göndərmək məqsədilə göyərçin saxlamaq caizdir, məkruh sayılmır. Göyərçinlə oynamağa gəlincə, bu məsələdə doğru rəy budur ki, onunla oynamaq məkruhdur." (Avnul-Məbud, 4289-cu hədisin şərhi). Həmçinin, Şovkani bu hədisi nəql etdikdən sonra demişdir: "Bu hədis göyərçinlə oynamağın məkruh olduğuna dəlalət edir. Bu da, caiz sayılmayan əyləncələrə aiddir" (Neylul-Ovtar, 8/173).

[2] Yəni göyərçini uçurdaraq dalınca düşmək.

[3] Abdul-Muhsin əl-Abbad demişdir: "Burada, Peyğəmbər ﷺ göyərçini təqib edən kimsəni erkək şeytana, onun əməlini də şeytan əməlinə, göyərçini isə dişi şeytana bənzədir. Belə ki, belə adam məşuqəsinin dalınca düşmüş divanəyə bənzəyir. Hərçənd, bunun ona heç bir aidiyyəti yoxdur, lakin bütün bəlalar elə göyərçinlə oynamaqdan başlayır. Çünki göyərçinlə oynamaq adamı xeyirli işlərdən qoyur" (Şərh Sunən Əbu Davud).

[4] Bu hədisi Əbu Davud (4940), Əhməd (2/345), İbn Macə (3765), İbn Hibban (5874), Beyhəqi (əs-Sunən əl-Kubra, 10/213/20730 və Şoəbul-İman, 5/244/6534) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" və "Mişkatul-Məsabih" əsərində onun "həsən-səhih" olduğunu demişdir (368-ci hədisin qeydlərinə bax).

**(1301)** ........ Həsən *əl-Bəsri* demişdir: “Osman ﷺ hər cümə xütbəsində itləri öldürməyi[1] və göyərçinləri boğazlamağı[2] əmr edərdi.”[3]

(...)– حَدَّثَنَا مُوسَى قَالَ: حَدَّثَنَا مُبَارَكٌ، عَنِ الْحَسَنِ قَالَ: سَمِعْتُ عُثْمَانَ يَأْمُرُ فِي خُطْبَتِهِ بِقَتْلِ الْكِلاَبِ، وَذَبْحِ الْحَمَامِ.

**(...)** Musa bizə belə rəvayət etmişdir: “Mubarək bizə rəvayət etmişdir ki, Həsən demişdir: “Mən Osmanın xütbə əsnasında, itləri öldürməyi və göyərçinləri boğazlamağı əmr etdiyini eşitmişəm.”[4]

---

[1] Qeyd etmək lazımdır ki, itlərdən yalnız quduz, olanı və bir də qapqara olanı öldürülməlidir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: “Beş *növ* heyvan vardır ki, bunlar ziyanvericidirlər və onları haram sayılan ərazidə belə öldürmək olar: qarğa, çalağan, əqrəb, siçan və quduz it” (Səhih əl-Buxari, 1829); digər hədisdə o demişdir: “Qara it şeytandır!” (Səhih Muslim, 2/59).

[2] Yəni əylənmək və ya qumar oynamaq məqsədilə saxlanılan göyərçinlərin kəsilməsini əmr edərdi. Belə göyərçinlərin kəsilməsi və yeyilməsi onlar üçün bir mərhəmətdir. Belə olduqda, bu göyərçinlərin canı onlara əziyyət verən zalımların əlindən xilas olur (Abdur-Rəzzaq əl-Abbad).

[3] Bu hədisin isnadında keçən Həsən “mudəllis”, Yusuf da “leyyin” ravi olduqlarına görə Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının həm “zəif”, həm “movquf”, həm də “munqəti” olduğunu demişdir.

[4] Bu isnadda keçən Mubarək ibn Fədalə “mudəllis” ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani “Daif əl-Ədəbul-Mufrad” əsərində bu hədisin isnadının “zəif” olduğunu demişdir.

## ٦٢٩- بَابُ مَنْ كَانَتْ إِلَيْهِ حَاجَةٌ فَهُوَ أَحَقُّ أَنْ يُذْهَبَ إِلَيْهِ

## 629-cu fəsil. Bir adamın başqa birisinə işi düşdüyü zaman özünün onun yanına getməsi gərəkdir

١٣٠٢- حَدَّثَنَا مُحَمَّدٌ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ أَيُّوبَ قَالَ: حَدَّثَنِي عَقِيلُ ابْنُ خَالِدٍ، أَنَّ سَعِيدَ بْنَ سُلَيْمَانَ بْنِ زَيْدِ بْنِ ثَابِتٍ حَدَّثَهُ، عَنْ أَبِيهِ، عَنْ جَدِّهِ زَيْدِ بْنِ ثَابِتٍ، أَنَّ عُمَرَ بْنَ الْخَطَّابِ جَاءَهُ يَسْتَأْذِنُ عَلَيْهِ يَوْمًا، فَأَذِنَ لَهُ وَرَأْسُهُ فِي يَدِ جَارِيَةٍ لَهُ تُرَجِّلُهُ، فَنَزَعَ رَأْسَهُ، فَقَالَ لَهُ عُمَرُ: دَعْهَا تُرَجِّلْكَ، فَقَالَ: يَا أَمِيرَ الْمُؤْمِنِينَ، لَوْ أَرْسَلْتَ إِلَيَّ جِئْتُكَ، فَقَالَ عُمَرُ: إِنَّمَا الْحَاجَةُ لِي.

**(1302)** ........ Zeyd ibn Sabit[1] ﷺ rəvayət etmişdir ki, bir gün Ömər ibn Xattab onun yanına gəlib, içəri girmək üçün izin istədi[2] və ona izin verildi. Həmin vaxt Zeydin başı onun kənizinin qolu üstə idi və kəniz onun saçlarını darayırdı. Zeyd *Öməri görəndə dərhal* başını *kənizin əlindən* çəkdi. Ömər ona: "Qoy, kəniz sənin saçlarını darasın"– dedi. Zeyd dedi: "Ey möminlərin əmiri! Mənə xəbər göndərsəydin, özüm sənin yanına gələrdim." Ömər dedi: "*Sənin mənə yox,* mənim *sənə* işim düşüb."[3]

---

[1] 458-ci hədisin qeydlərinə bax.

[2] Zeyd ibn Sabit ﷺ miras elmini ən yaxşı bilən səhabələrdən olmuşdur. Ömər ibn Xattab ﷺ Zeyddən ﷺ nənəyə düşən miras payı barədə soruşmaq istəyirdi.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "həsən" olduğunu demişdir.

## ٦٣٠- بَابُ إِذَا تَنَخَّعَ وَهُوَ مَعَ الْقَوْمِ

## 630-cu fəsil. Camaat yanında bəlğəm tüpürmək[1]

١٣٠٣- حَدَّثَنَا مُوسَى، عَنْ حَمَّادِ بْنِ سَلَمَةَ قَالَ: أَخْبَرَنَا ثَابِتٌ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ عَبَّاسٍ الْقُرَشِيِّ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: إِذَا تَنَخَّعَ بَيْنَ يَدَيِ الْقَوْمِ فَلْيُوَارِ بِكَفَّيْهِ حَتَّى تَقَعَ نُخَاعَتُهُ إِلَى الأَرْضِ، وَإِذَا صَامَ فَلْيَدَّهِنْ، لاَ يُرَى عَلَيْهِ أَثَرُ الصَّوْمِ.

**(1303)** ........ Abdur-Rəhman ibn Abbas əl-Qurəşi rəvayət edir ki, Əbu Hureyrə ﷺ demişdir: "*Adam* camaat arasında öskürüb, bəlğəm tüpürdüyü zaman bu bəlğəm yerə düşənədək əlləri ilə onu gizlədib göstərməsin.[2] Qoy, oruc tutan adam ətirlənsin[3] ki, oruc tutduğu bilinməsin."[4]

---

[1] 620-ci fəsilin və bu fəsildəki hədisin qeydlərinə bax.

[2] Yəni ağzını əli ilə elə tutsun ki, yanındakılar onun tüpürdüyünü görməsinlər.

[3] Bu, yalnız kişilərə aiddir. Qadının isə bayıra çıxdıqda ətirlənməsi qadağandır.

[4] Bu hədisin isnadında keçən Abdur-Rəhman ibn Abbas əl-Qurəşi "məchul" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

## ٦٣١- بَابُ إِذَا حَدَّثَ الرَّجُلُ الْقَوْمَ لاَ يُقْبِلُ عَلَى وَاحِدٍ

## 631-ci fəsil. Adam camaata xitab etdikdə bir nəfərə üz tutmamalıdır

**١٣٠٤-** حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَلاَمٍ قَالَ: أَخْبَرَنَا هُشَيْمٌ، عَنْ إِسْمَاعِيلَ بْنِ سَالِمٍ، عَنْ حَبِيبِ بْنِ أَبِي ثَابِتٍ قَالَ: كَانُوا يُحِبُّونَ إِذَا حَدَّثَ الرَّجُلُ أَنْ لاَ يُقْبِلَ عَلَى الرَّجُلِ الْوَاحِدِ، وَلَكِنْ لِيَعُمَّهُمْ.

**(1304)** ........ Həbib ibn Əbu Sabit demişdir: "*Səhabələr* xoşlayardılar ki, adam danışanda təkcə bir nəfərə yox, hamıya üz tutub danışsın.[1]"[2]

---

[1] Camaata xitab etdikdə hamıya baxmaq İslam ədəbindəndir. Təkcə bir nəfərə baxıb onunla danışmaq isə ədəbsizlikdir. Yox əgər adam birisinə ayrıca söz demək istəyirsə, məsələn, müəllim tələbələrdən birindən gecikməyinin səbəbini öyrənmək istəyirsə, ancaq onun üzünə baxaraq ona xitab edə bilər. Amma hamıya aid olan sözü bir nəfərə baxıb demək ədəbsizlikdir.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" və "məqtu" olduğunu demişdir.

## ٦٣٢- بَابُ فُضُولِ النَّظَرِ

## 632-ci fəsil. Lüzumsuz baxmaq[1]

---

[1] Burada söhbət naməhrəmə baxmaqdan gedir. Naməhrəmə baxmaq günaha aparan qapılardan biridir. İbn Qeyyim "əl-Cəvabul-Kafi", kitabında (1/348-375) bu mövzuya dair gözəl açıqlama vermişdir: "Hər kim özünü dörd qapıdan qoruyarsa, dinini qorumuş olar. Bunlar: baxışlar, xatırlamalar, sözlər və addımlardır. Adam əksər hallarda məhz bu qapılardan günah işlərə qədəm qoyur.

Baxışlara gəlincə, bu, şəhvətin yol göstəricisi və onun elçisidir. Onu qorumaq cinsiyyət üzvünü *zinadan* qorumaq deməkdir. Hər kim naməhrəmə nəzər salarsa, özünü həlaka uğratmış olar... Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Bir nəzərdən sonra bir də nəzər salma. Çünki birincisi sənindir, ikincisi isə sənə məxsus deyil" (Sunən Əbu Davud, 2149; Səhih əl-Cami, 7953; Ğayatul-Məram fi Təxrici Əhadisil-Həlal vəl-Həram, səh: 132. Yəni qarşına çıxan naməhrəmi gördükdə, birinci baxış ixtiyarsız olduğundan sənə günah qazandırmır, ikincisi isə ixtiyari olduğuna görə artıq günah sayılır)...

Xatırlamalara gəlincə, bu, daha qəlizdir. Belə ki, o, xeyirin və şərin başlanğıcıdır. İstəklər, arzular və məqsədlər məhz ondan başlayır...

Sözlərə gəlincə, bunları qorumaq üçün boş sözlər danışmağa yol verilməməlidir. Əksinə, adam yalnız dinində ona fayda verəcək sözləri danışmalıdır...

Addımlara gəldikdə isə, onu qorumaq üçün adamın yalnız ona savab qazandıracaq yerlərə getməsi gərəkdir...

Uca Allah möminlərin danışdıqları sözlər və atdıqları addımlar xüsusunda doğru yol tutduqlarını Quranda belə vəsf edir: **"Mərhəmətli *Allahın* qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara *xoşagəlməz* bir söz dedikdə: "Salam!"- deyərlər"** (əl-Furqan, 63); həmçinin, baxışlar və xatırlamalar xüsusunda, belə buyurur: **"*Allah* gözlərin xaincəsinə baxışını və köksların *nələr* gizlətdiyini bilir"** (Ğafir, 19).

Bütün bunlardan aydın olur ki, naməhrəmə baxmaq adamın xatirində qalır; sonra bu haram xatirat güclənir və haram sayılan şəhvətə çevrilir; bu şəhvət getdikcə o qədər artır ki, axırda adam zina edəcəyinə qərar verir, sonra da buna doğru addımlamağa başlayır və nəhayət gedib özünü günaha batırır. Uca Allah Quranda bunu şeytanın addımları adlandırır: **"Ey insanlar! Yerdə olan halal və təmiz ruzilərdən yeyin, şeytanın addım izləri**

**١٣٠٥**- حَدَّثَنَا قُتَيْبَةُ قَالَ: حَدَّثَنَا أَبُو بَكْرِ بْنُ عَيَّاشٍ، عَنِ الأَجْلَحِ، عَنِ ابْنِ أَبِي الْهُذَيْلِ قَالَ: عَادَ عَبْدُ اللَّهِ رَجُلًا، وَمَعَهُ رَجُلٌ مِنْ أَصْحَابِهِ، فَلَمَّا دَخَلَ الدَّارَ جَعَلَ صَاحِبُهُ يَنْظُرُ، فَقَالَ لَهُ عَبْدُ اللَّهِ: وَاللَّهِ لَوْ تَفَقَّأَتْ عَيْنَاكَ كَانَ خَيْرًا لَكَ.

**(1305)** ........ *Abdullah* ibn Əbu Huzeyl demişdir: "Bir dəfə Abdullah ibn Məsud öz dostlarından biri ilə xəstəyə baş çəkdi. *Gəldikləri evdə qadın da var idi*. Dostu içəri girdikdə *o qadına* baxmağa başladı. *Bu vaxt* Abdullah ona dedi: "Vallahi ki, gözün çıxarılsaydı, sənin üçün daha xeyirli olardı.[1]"[2]

**١٣٠٦**- حَدَّثَنَا خَلَّادٌ قَالَ: حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ، عَنْ نَافِعٍ، أَنَّ نَفَرًا مِنْ أَهْلِ الْعِرَاقِ دَخَلُوا عَلَى ابْنِ عُمَرَ، فَرَأَوْا عَلَى خَادِمٍ لَهُمْ طَوْقًا مِنْ ذَهَبٍ، فَنَظَرَ بَعْضُهُمْ إِلَى بَعْضٍ، فَقَالَ: مَا أَفْطَنَكُمْ لِلشَّرِّ؟

**(1306)** ........ Nafi rəvayət edir ki,[3] *bir gün* İraq əhlindən bir dəstə adam İbn Ömərin yanına gəldi. Onların xidmətçinin üstündə qızıl boyunbağı

---

**ilə getməyin! O, sizin açıq-aşkar düşməninizdir. O, sizə pis və iyrənc işlər görməyi və Allaha qarşı bilmədiyiniz şeyləri söyləməyi əmr edir"** (əl-Bəqərə, 168-169). Həmçinin, hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Allah zinadan Adəm övladının payına düşəni əzəldən yazmışdır və o, istər-istəməz buna mübtəla olacaqdır. Gözün zinası – baxmaq, qulaqların zinası – qulaq asmaq, dilin zinası – danışmaq, əlin zinası – toxunmaq, ayağın zinası – addım atmaqdır. Qəlb istəyir və təmənna edir, cinsiyyət üzvü isə ya bütün bunları təsdiqləyir, ya da təkzib edir" (Səhih əl-Buxari, 6243; Səhih Muslim, 2567). Hədisdən aydın olur ki, şəhvətlə naməhrəm qadına baxmaq, onun səsini dinləmək, onunla danışmaq, ona toxunmaq, buna doğru addım atmaq zinaya açılan qapılardır. Ağıllı adam bu qapıları açmamalıdır.

[1] Peyğəmbər ﷺ səhabələrinə gözlərini haram buyurulanlardan çəkməyi buyurmuşdur (1014-cü, 1149-cu 1150-ci hədislərə bax).

[2] 531-ci hədisin qeydlərinə bax.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

görüb bir-birilərinə baxdılar.[1] İbn Ömər dedi: "Niyə *o saat* şər düşüncələrə qapılırsınız?"

---

[1] Məlumdur ki, qızıl geymək bu ümmətin kişilərinə haram buyurulmuşdur. Lakin o adamlar bunun səbəbini bilmədən pis zənn etdiklərinə görə İbn Ömər ﵄ onları qınayır. Qeyd edək ki, haram şey görən insanların baxışı və davranışı fərqli olur. Əməlisaleh adam birisinin günah iş işlətdiyini gördükdə, ona mərhəmət hissi ilə yanaşır, əvvəlla onun barəsində yaxşı zənn edir, sonra da onu islah etməyə yollar axtarır və onun üçün dua edir. Alçaq adamlar isə buna nifrət hissi ilə yanaşır, ona yuxarıdan aşağı baxır, dərhal, onun barəsində piss zənnə qapılır, sonra da bunu hər yerdə danışmaqla fəsad törədirlər (Abdur-Rəzzaq əl-Abbad).

## ٦٣٣- بَابُ فُضُولِ الْكَلامِ

## 633-cü fəsil. Artıq söz[1]

**١٣٠٧-** حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا مُعْتَمِرٌ، عَنْ لَيْثٍ، عَنْ عَطَاءٍ، عَنْ أَبِي هُرَيْرَةَ قَالَ: لاَ خَيْرَ فِي فُضُولِ الْكَلامِ.

**(1307)** ........ Əbu Hureyrə ﵁ demişdir: "Artıq sözdə xeyir yoxdur.[2]"[3]

---

[1] Yəni, xeyir həddini aşmış artıq söz. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Kim Allaha və Axirət gününə inanırsa, ya xeyir danışsın, ya da sussun" (Səhih əl-Buxari, 6018); başqa bir hədisdə o demişdir: "Kim mənə iki çənəsi arasındakını və iki budu arasındakını qoruyacağına zəmanət verərsə, mən onun Cənnətə girəcəyinə zəmanət verərəm" (Səhih əl-Buxari, 6474); yenə bir hədisdə o demişdir: "Kim sussa, nicat tapar" (Sunən ət-Tirmizi, 2/82; Musnəd İmam Əhməd, 2/159, 177; Silsilətul-Əhaddisis-Səhihə, 536).

[2] Bu mənada sələflərdən neçə-neçə ibrətamiz rəvayətlər varid olmuşdur. Rəvayət edilir ki, Əbu Bəkr əs-Siddiq ﵁ dilini tutub deyərmiş: "Bu dil məni həlak edə bilər" (Muvatta, 2825; əl-Hilyə, 1/33; Şoəbul-İman, 4947; Musənnəf İbn Əbu Şeybə, 26500); Ömər ibn Xattab ﵁ demişdir: "Çox danışan adamın xətası çox olar. Xətası çox olan adamın günahları çoxalar. Günahları çoxalan adamın isə Cəhənnəm oduna düşmək ehtimalı daha çox olar" (Rovdətul-Uqəla, İbn Hibban, səh: 36; Mocəmul-Ovsat, 6541); Abdullah ibn Məsud ﵁ demişdir: "Özündən başqa ibadətə layiq məbud olmayan Allaha and olsun ki, yer üzündə uzun müddət zindanda qalmağa ən çox layiq olan şey dildir" (əz-Zuhd, İmam Əhməd, səh: 162; Musənnəf İbn Əbu Şeybə, 26499; Rovdətul-Uqəla, İbn Hibban, səh: 39; Mocəmul-Kəbir, 8744, 8745, 8746 və 8747; əl-Hilyə, 1/134); Muhəmməd ibn İclan ﵀ demişdir: "*Xeyirli* kəlam dörddür: Allahı zikr etmək, Quran oxumaq, *faydalı* elm öyrənmək və onu başqalarına öyrətmək və bir də ancaq özünə aid işlərdən danışmaq" (ət-Təmhid, 9/202; əs-Samt, İbn Əbud-Dunya, səh: 44); Vəhb ibn Munəbbih ﵀ demişdir: "Müdrik adamların hamısı susmağı müdrikliyin əsası hesab etmişlər" (əs-Samt, İbn Əbud-Dunya, 619); Şumeyt ibn İclan ﵀ demişdir: "Ey Adəm övladı! Nə qədər ki, susursan, salamat qalacaqsan. Elə ki, danışdın, bil ki, bu, sənin ya lehinə, ya da əleyhinə olacaq" (əl-Hilyə, 3/129; əs-Samt, İbn Əbud-Dunya, 623)

[3] Bu hədisin isnadında keçən Leys "zəif" ravi olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Daif əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "zəif" olduğunu demişdir.

١٣٠٨- حَدَّثَنَا مَطَرٌ قَالَ: حَدَّثَنَا يَزِيدُ قَالَ: حَدَّثَنَا الْبَرَاءُ بْنُ يَزِيدَ، عَنْ عَبْدِ اللَّهِ بْنِ شَقِيقٍ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((شِرَارُ أُمَّتِي الثَّرْثَارُونَ، الْمُشَدِّقُونَ، الْمُتَفَيْهِقُونَ، وَخِيَارُ أُمَّتِي أَحَاسِنُهُمْ أَخْلاقًا)).

**(1308)** ........ Əbu Hureyrə ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: “Ümmətimin ən pisləri sərsərilər,[1] naqqallar,[2] lovğa-lovğa danışanlardır. Ümmətimin ən xeyirliləri isə əxlaqı ən gözəl olanlarıdır.”[3]

---

[1] Sərsəri: İşi-gücü və müəyyən yeri olmayıb orada-burda dolaşan, heç bir işlə məşğul olmayan, ağzına gələni danışan; avara, veyil.

[2] Naqqal: çox, boş-boş danışmağı sevən; lağlağı, boşboğaz, dəvəzə, çərənçi, uzunçu. Belələri, çərənləməklə, yaxud qeybət qırmaqla və ya birisini lağa qoymaqla insanlara əziyyət verirlər.

[3] Bu hədisin isnadında keçən Bəra ibn Yezid “zəif” ravidir. Lakin hədisin mətni digər “səhih” rəvayətlərdə öz təsdiqini tapmışdır. Cabir ibn Abdullahın ؓ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: “Sizin mənə ən sevimli və Qiyamət günü məclisinə görə ən yaxın olanınız, əxlaqı ən gözəl olanlarınızdır. Habelə, sizin aranızda ən çox nifrət etdiyim və Qiyamət günü məclisinə görə məndən çox uzaq olanınız, sərsərilər, naqqallar və lovğa-lovğa danışanlardır.” Səhabələr: “Sərsərilər və çoxdanışanlar aydındır. Bəs, lovğa-lovğa danışanlar kimlərdir?”– deyə soruşdular. Peyğəmbər ﷺ: “Təkəbbürlülərdir”– deyə cavab verdi” (Sunən ət-Tirmizi, 1/363; Silsilətul-Əhadisis-Səhihə, 791).

## ٦٣٤- بَابُ ذِي الْوَجْهَيْنِ

## 634-cü fəsil. İkiüzlü adam

١٣٠٩- حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنْ أَبِي الزِّنَادِ، عَنِ الأَعْرَجِ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((مِنْ شَرِّ النَّاسِ ذُو الْوَجْهَيْنِ، الَّذِي يَأْتِي هَؤُلاَءِ بِوَجْهٍ، وَهَؤُلاَءِ بِوَجْهٍ)).

**(1309)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "İkiüzlü adam *Qiyamət günü Allah yanında* insanların ən pisi olacaq. O kimsə ki, bunlara bir üzlə yaxınlaşır, onlara da başqa bir üzlə.[1]"[2]

---

[1] 409-cu hədisin qeydlərinə bax.

[2] Bu hədisi Buxari (2494, 6058 və 7179), Muslim (8/28), Əbu Davud (8782), İbn Hibban (5724 və 5725) rəvayət etmişdir.

## ٦٣٥- بَابُ إِثْمِ ذِي الْوَجْهَيْنِ

## 635-ci fəsil. İkiüzlü adamın günahı[1]

١٣١٠- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَعِيدٍ الأَصْبَهَانِيُّ قَالَ: حَدَّثَنَا شَرِيكٌ، عَنْ رُكَيْنٍ، عَنْ نُعَيْمِ بْنِ حَنْظَلَةَ، عَنْ عَمَّارِ بْنِ يَاسِرٍ قَالَ: سَمِعْتُ النَّبِيَّ ﷺ يَقُولُ: ((مَنْ كَانَ ذَا وَجْهَيْنِ فِي الدُّنْيَا، كَانَ لَهُ لِسَانَانِ يَوْمَ الْقِيَامَةِ مِنْ نَارٍ))، فَمَرَّ رَجُلٌ كَانَ ضَخْمًا، قَالَ: ((هَذَا مِنْهُمْ)).

**(1310)** ........ Ammar ibn Yasir[2] ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ belə buyurduğunu eşitmişəm: "Dünyada ikiüzlü olan kimsənin Qiyamət günü oddan iki dili olar.[3]" Elə bu vaxt kobud bir adam onların yanından keçdi və Peyğəmbər ﷺ: "Bu onlardandır"– dedi."[4]

---

[1] Burada "günahı" deyildikdə, cəzası nəzərdə tutulur.

[2] Əbul-Yəqzan Ammar ibn Yasir ibn Amir ibn Malik əl-Ansi əl-Məkki ﷺ Peyğəmbərin ﷺ səhabəsi, İslamı ilk əvvəl qəbul etmiş və Bədrdə iştirak etmiş səhabələrdəndir (Siyər Əlam ən-Nubələ, 84-cü tərcümeyi-hal). Onun fəziləti xüsusunda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Cənnət üç nəfər üçün darıxır: "Əli *ibn Əbi Talib*, Ammar *ibn Yasir* və Salman *Farisi*" (Müstədrək, 3/148; "Səhih əl-Cami", 1/331).

[3] Abdul-Muhsin əl-Abbad demişdir: "Çünki belə adam bunlara bir sifətlə, onlara da başqa bir sifətlə yaxınlaşır, yəni hər iki tərəfi razı salmaq və hər iki tərəf yanında hörmət qazanmaq məqsədilə birinə bir söz, o birinə də başqa söz deyir. Elə bu səbəbdən də, ona cəza olaraq, Qiyamət günü onun oddan iki dili olacaq... Hədisə diqqət etsək görərik ki, Peyğəmbər ﷺ onun oddan iki üzü yox, iki dili olacağını xəbər verir. Çünki burada qəsd edilən məhz dildir (Şərh Sunən Əbu Davud). Bu hədisdən aydın olur ki, Qiyamət günü belə insanlar dillərindən tanınacaqlar.

[4] Bu hədisi Əbu Davud (2/298), İbn Hibban (1979), Darimi (2/314), Əbu Yə'la (Musnəd, 2/98) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "həsən" olduğunu demişdir.

## ٦٣٦- بَابُ شَرُّ النَّاسِ مَنْ يُتَّقَى شَرُّهُ

## 636-cı fəsil. İnsanların ən pisi alçaq hərəkətlərindən ehtiyat edilən adamdır

١٣١١- حَدَّثَنَا صَدَقَةُ قَالَ: حَدَّثَنَا ابْنُ عُيَيْنَةَ قَالَ: سَمِعْتُ ابْنَ الْمُنْكَدِرِ قَالَ: سَمِعَ عُرْوَةَ بْنَ الزُّبَيْرِ أَنَّ عَائِشَةَ أَخْبَرَتْهُ: اسْتَأْذَنَ رَجُلٌ عَلَى النَّبِيِّ ﷺ فَقَالَ: ((ائْذَنُوا لَهُ، بِئْسَ أَخُو الْعَشِيرَةِ))، فَلَمَّا دَخَلَ أَلَانَ لَهُ الْكَلَامَ، فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ، قُلْتَ الَّذِي قُلْتَ، ثُمَّ أَلَنْتَ الْكَلَامَ، قَالَ: ((أَيْ عَائِشَةُ، إِنَّ شَرَّ النَّاسِ مَنْ تَرَكَهُ النَّاسُ، أَوْ وَدَعَهُ النَّاسُ، اتِّقَاءَ فُحْشِهِ)).

**(1311)** ........ Aişə رضي الله عنها rəvayət edir ki, bir kişi Rəsulullahın ﷺ yanına daxil olmaq üçün izin istədi. Rəsulullah ﷺ dedi: "İz verin gəlsin. Əşirətin[1] qardaşı necə də pis adamdır!" O, içəri daxil olduqda, Rəsulullah ﷺ onunla nəzakətlə danışdı. (O, çıxıb getdikdən sonra) mən dedim: "Ya Rəsulullah, sən (əvvəlcə) belə dedin, sonra da onunla nəzakətlə danışdın?!" Rəsulullah ﷺ buyurdu: "Ey Aişə, insanların ən pisi o kəslərdir ki, onların yaramaz əxlaqına görə insanlar onları tərk edir, (yaxud[2] onlardan qaçırlar)."[3]

---

[1] Əşirət: bir əsildən törəyib birlikdə yaşayan və köçəri (bədəvi) həyat sürən ailələr toplusudur. Buna qəbilə, oymaq da deyilir. Burada Rəsulullah ﷺ "filan qəbilədən olan filankəs nə pis adamdır"– deməklə, onun yaramaz adam olduğunu bildirmək istəmişdir ki, bu adamı tanımayanlar onu tanısınlar (Tohfətul-Əhvəzi).

[2] Bu, hədisin ravilərindən birinin şəkkidir.

[3] Bu hədisi Buxari (5780), Muslim (2591), Əbu Davud (4791), Tirmizi (1997) və Əhməd (6/38) rəvayət etmişdir.

## ٦٣٧– بَابُ الْحَيَاءِ

## 637-ci fəsil. Həyalı olmaq[1]

١٣١٢– حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ قَتَادَةَ، عَنْ أَبِي السَّوَّارِ الْعَدَوِيِّ قَالَ: سَمِعْتُ عِمْرَانَ بْنَ حُصَيْنٍ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((الْحَيَاءُ لاَ يَأْتِي إِلاَّ بِخَيْرٍ))، فَقَالَ بُشَيْرُ بْنُ كَعْبٍ: مَكْتُوبٌ فِي الْحِكْمَةِ: إِنَّ مِنَ الْحَيَاءِ وَقَارًا، إِنَّ مِنَ الْحَيَاءِ سَكِينَةً ، فَقَالَ لَهُ عِمْرَانُ: أُحَدِّثُكَ عَنْ رَسُولِ اللَّهِ ﷺ وَتُحَدِّثُنِي عَنْ صَحِيفَتِكَ.

**(1312)** ........ Əbu Səvvar əl-Ədəvi demişdir: "*Bir dəfə* İmran ibn Husayn Peyğəmbərin ﷺ: "Həya insana ancaq xeyir gətirər[2]"– dediyini xəbər verdi. (Məclisdə iştirak edən) Buşeyr ibn Kəb dedi: "Hikmətdə isə həyanın bir qisminin vüqar, bir qisminin də sükunət olduğu yazılmışdır.[3]" İmran dedi: "Mən sənə Rəsulullahdan ﷺ hədis danışıram, sən isə mənə öz səhifələrindən danışırsan?![4]"[5]

---

[1] 271-ci fəsilin qeydlərinə bax.

[2] İmam Muslimin nəql etdiyi digər rəvayətdə "Peyğəmbər ﷺ: "Həya bütövlükdə xeyirdir", yaxud: "Həyanın hamısı xeyirdir"– demişdir (Səhih Muslim, 157). Bəziləri həyanın bütövlükdə xeyir olub yalnız xeyir gətirdiyini inkar edirlər. Səbəbi də budur ki, həyalı adam hərdən haqqı deməyə utanır – insanlara yaxşı işlər görməyi buyurmur və onları pis işlərdən çəkindirmir. Amr ibn əs-Səlah bunu belə izah etmişdir: "Bu qeyd edilən naqis cəhətlər, əsl həya sayıla bilməz, əksinə, bu acizlik, zəlillik və alçalmaqdır. Sadəcə, zahirən həyaya bənzədiyindən, bəziləri onu həya adlandırmışlar. Əsl həya isə adamı pis iş tutmaqdan və haqsızlıq etməkdən çəkindirir" (Tohfətul-Əhvəzi, 2009-cu hədisin şərhi).

[3] İmam Muslimin nəql etdiyi digər rəvayətdə "həyada zəiflik də (qorxaqlıq da) vardır" əlavəsi də zikr edilmişdir (Səhih Muslim, 157).

[4] Bundan aydın olur ki, səhabələr heç bir sözü Peyğəmbərin ﷺ sözündən üstün saymaz və ona zidd olan kəlamı rədd edərdilər.

[5] Bu hədisi Buxari (6117) və Muslim (156) rəvayət etmişdir.

**١٣١٣–** حَدَّثَنَا بِشْرُ بْنُ مُحَمَّدٍ قَالَ: أَخْبَرَنَا عَبْدُ اللَّهِ قَالَ: أَخْبَرَنَا جَرِيرُ بْنُ حَازِمٍ، عَنْ يَعْلَى ابْنِ حَكِيمٍ، عَنْ سَعِيدِ بْنِ جُبَيْرٍ، عَنِ ابْنِ عُمَرَ قَالَ: إِنَّ الْحَيَاءَ وَالإِيمَانَ قُرِنَا جَمِيعًا، فَإِذَا رُفِعَ أَحَدُهُمَا رُفِعَ الآخَرُ.

**(1313)** ........ Səid ibn Cubeyr rəvayət edir ki, İbn Ömər ﷺ demişdir: "Həya ilə iman tamamilə bir-birinə bağlıdırlar.[1] Bunlardan biri aradan qaldırılarsa, digəri də qalxar."[2]

[1] Yəni bunlardan biri azalanda digəri də azalar, biri artdıqda, digəri də artar. Ən əzəmətli, ən vacib və ən əhəmiyyətli həya, aləmlərin Rəbbi olan, bütün məxluqatı və kainatı Yaradan, hər şeyi Eşidən, hər şeyi Görən və hər şeyi Bilən, xain gözlərin və köksların gizlətdiklərindən Xəbəri olan Əzəmətli Allahdan utanmaqdır. Bu xüsusda, rəvayət edilmiş hədisdə Abdullah ibn Məsud ﷺ demişdir: "*Bir dəfə* Peyğəmbər ﷺ bizə: "Allahdan layiqincə həya edin!"– deyə buyurdu. Biz dedik: "Ya Rəsulullah! Allaha həmd olsun ki, biz Ondan həya edirik." O dedi: "Mən bunu qəsd etmirəm. Lakin Allahdan layiqincə həya etmək budur ki, başını və başında olanları (dilini, gözünü, qulağını, saqqalını, hicabını və s.) qoruyasan, habelə, bətnini və onun ətrafındakıları (qəlbini, əlini, ayağını, cinsiyyət üzvlərini və s. haramlardan) qoruyasan. Üstəlik, öləcəyini və *qəbirdə* çürüyəcəyini xatırlayasan. Axirəti *qazanmaq* istəyən adam dünyanın bər-bəzəyini tərk edər. Bunları edən kimsə Allahdan layiqincə həya etmiş olar" (Sunən ət-Tirmizi, 2458; Musnəd Əhməd, 1/387; Səhih əl-Cami, 937).

[2] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

## ٦٣٨- بَابُ الْجَفَاءِ

## 638-ci fəsil. Kobudluq etmək

١٣١٤- حَدَّثَنَا سَعِيدُ بْنُ سُلَيْمَانَ قَالَ: حَدَّثَنَا هُشَيْمٌ، عَنْ مَنْصُورٍ، عَنِ الْحَسَنِ، عَنْ أَبِي بَكْرَةَ، عَنِ النَّبِيِّ ﷺ قَالَ: ((الْحَيَاءُ مِنَ الإِيمَانِ، وَالإِيمَانُ فِي الْجَنَّةِ، وَالْبَذَاءُ مِنَ الْجَفَاءِ، وَالْجَفَاءُ فِي النَّارِ)).

**(1314)** ........ Əbu Bəkrə رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Həya imandandır,[1] iman isə Cənnətdədir. Arsızlıq kobudluqdur, kobudluq isə Cəhənnəmdədir.[2]"[3]

١٣١٥- حَدَّثَنَا مُوسَى بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا حَمَّادٌ، عَنِ ابْنِ عَقِيلٍ، عَنْ مُحَمَّدِ بْنِ عَلِيٍّ ابْنِ الْحَنَفِيَّةِ، عَنْ أَبِيهِ قَالَ: كَانَ النَّبِيُّ ﷺ ضَخْمَ الرَّأْسِ، عَظِيمَ الْعَيْنَيْنِ، إِذَا مَشَى تَكَفَّأَ، كَأَنَّمَا يَمْشِي فِي صَعَدٍ، إِذَا الْتَفَتَ الْتَفَتَ جَمِيعًا.

**(1315)** ........ Muhəmməd ibn Əli – İbnul-Hənəfiyyə atasından[4] belə rəvayət etmişdir: "Peyğəmbərin ﷺ başı və gözləri iri idi. Yeridikdə, sanki hündür bir yerə qalxırmış kimi ləngərlənirdi.[5] *Bir adama tərəf* döndüyü zaman bütün vücudu ilə dönərdi.[6]"[7]

---

[1] Bu dəlildir ki, imanın şöbələri vardır və həya da bu şöbələrdən biridir (598-ci hədisin qeydlərinə bax).

[2] Yəni həyalı olmaq adamın Cənnətə girməsinə, arsız olmaq isə onun Cəhənnəmə vasil olmasına səbəb ola bilər.

[3] Bu hədisi Tirmizi (1/361), Əhməd (2/501), İbn Hibban (1929), Hakim (1/52-53), İbn Əsakir (Tarix Diməşq, 4/335/1) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "səhih" olduğunu demişdir.

[4] Burada söhbət məşhur səhabə Əli ibn Əbu Talibdən رضي الله عنه gedir.

[5] Burada "ləngərlənmək" deyildikdə, irəliyə meyl edərək, həm də ayaqları zərblə yerə vurararaq yerimək nəzərdə tutulur.

[6] 255-ci və 1155-ci hədisin qeydlərinə bax.

[7] Bu hədisi Əhməd "Musnəd" əsərində (1/89) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində onun "həsən" olduğunu demişdir.

## ٦٣٩- بَابُ إِذَا لَمْ تَسْتَحْيِ فَاصْنَعْ مَا شِئْتَ

## 639-cu fəsil. Utanmırsansa, istədiyini et

**١٣١٦-** حَدَّثَنَا آدَمُ قَالَ: حَدَّثَنَا شُعْبَةُ ، عَنْ مَنْصُورٍ قَالَ: سَمِعْتُ رِبْعِيَّ بْنَ حِرَاشٍ يُحَدِّثُ، عَنْ أَبِي مَسْعُودٍ قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((إِنَّ مِمَّا أَدْرَكَ النَّاسَ مِنْ كَلاَمِ النُّبُوَّةِ الْأُولَى: إِذَا لَمْ تَسْتَحْيِ فَاصْنَعْ مَا شِئْتَ)).

**(1316)** ........ Əbu Məsud رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "İlk peyğəmbərlik kəlamından insanların yadında qalan (və zamanımıza qədər gəlib çatan) söz (belədir): "Utanmırsansa, istədiyini et."[1]

[1] 597-ci hədisə və onun qeydlərinə bax.

# ٦٤٠– بَابُ الْغَضَبِ

## 640-cı fəsil. Qəzəblənmək[1]

١٣١٧– حَدَّثَنَا إِسْمَاعِيلُ قَالَ: حَدَّثَنِي مَالِكٌ، عَنِ ابْنِ شِهَابٍ، عَنْ سَعِيدِ بْنِ الْمُسَيِّبِ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: ((لَيْسَ الشَّدِيدُ بِالصُّرَعَةِ، إِنَّمَا الشَّدِيدُ الَّذِي يَمْلِكُ نَفْسَهُ عِنْدَ الْغَضَبِ)).

**(1317)** ........ Əbu Hureyrə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: “(Hamını) yıxmaq güclü olmaq demək deyil. Güclü o kəsdir ki, qəzəbləndikdə, özünü ələ ala bilsin.”[1]

---

[1] Hədislərin birində rəvayət edilir ki, Əbu Hureyrə ﷺ demişdir: “Bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib: “Mənə nəsihət et!”– dedi. Peyğəmbər ﷺ buyurdu: “Qəzəblənmə!” Adam bunu bir neçə dəfə təkrar etdi. Peyğəmbər ﷺ ona *yenə*: “Qəzəblənmə!”– deyə buyurdu” (Səhih əl-Buxari, 6116); digər bir hədisdə rəvayət edilir ki, Əbu Dərda ﷺ demişdir: “Mən Peyğəmbərə ﷺ: “Ya Rəsulullah, mənə elə bir əməl öyrət ki, o, məni Cənnətə daxil etsin!”– dedim. Peyğəmbər ﷺ buyurdu: “Qəzəblənmə, Cənnətə girəcəksən” (Mocəmul-Ovsat, 2374; Səhih ət-Tərğib vət-Tərhib, 2749). Qəzəb ailəni dağıdan, dostların arasını vuran, günah işlər görməyə təşviq edən və s. yaramaz əməllərə yol açan bir amildir. Bunun qarşısını almaq üçün isə Allahdan qorxmaq gərəkdir. Uca Allah buyurur: **“Rəbbiniz tərəfindən bağışlanmağa və müttəqilər üçün hazırlanmış, genişliyi göylər və yer qədər olan Cənnətə tələsin. O müttəqilər ki, bolluq zamanı da, qıtlıq zamanı da *mallarından Allah yolunda* xərcləyir, qəzəblərini boğur və insanları bağışlayırlar. Allah yaxşı iş görənləri sevir”** (Ali-İmran, 133-134). Qəzəb xüsusunda Ömər ibn Abdüləziz ﷺ demişdir: “Hər kim özünü üç şeydən qorusa, nicat tapar: nəfsin istəyinə uymaq, qəzəblənmək və bir də tamahkarlıq” (əl-Hilyə, 5/290); Həsən əl-Bəsri demişdir: “Kim bu dörd xisləti özündə cəm etsə, Allah onu şeytandan qoruyar və Cəhənnəmi ona haram edər: istək, qorxu, şəhvət və qəzəb anlarında özünü ələ almaq” (əl-Hilyə, 5/144). Qəzəbləndikdə, nəfsi cilovlamağın yolunu Peyğəmbər ﷺ bizə öyrətmişdir (155-ci hədisin qeydlərinə bax).

**١٣١٨-** حَدَّثَنَا أَحْمَدُ بْنُ يُونُسَ قَالَ: حَدَّثَنَا أَبُو شِهَابٍ عَبْدُ رَبِّهِ، عَنْ يُونُسَ، عَنِ الْحَسَنِ، عَنِ ابْنِ عُمَرَ قَالَ: مَا مِنْ جُرْعَةٍ أَعْظَمَ عِنْدَ اللَّهِ أَجْرًا مِنْ جُرْعَةِ غَيْظٍ كَظَمَهَا عَبْدٌ ابْتِغَاءَ وَجْهِ اللَّهِ.

**(1318)** ........ Həsən *əl-Bəsri* rəvayət edir ki, İbn Ömər ﵄ demişdir: "Allah yanında, Allahın Üzünü diləyərək qəzəbini boğan bir bəndənin savab baxımından bu davranışından daha böyük uğuru yoxdur."[2]

---

[1] Bu hədisi Buxari (6114), Əhməd (2/236), Təhavi (Muşkilul-Əsar, 2/254), habelə, digər isnadla Əhməd (2/268), Abdur-Rəzzaq (Musənnəf, 11/188/20287) rəvayət etmişdir.

[2] Şeyx Albani demişdir: "İbn Macə bu hədisi (4189) istinad edərək Həsəndən, o da, İbn Ömərdən ﵄ "mərfu" isnadla rəvayət etmişdir. Bu isnad, müəllifin bu fəsildə nəql etdiyi isnadın eynisidir. Həsən əl-Bəsri "mudəllis"dir və bu rəvayət "muan'ən" isnadla rəvayət etmişdir. Lakin *İmam* Əhməd bu hədisi Ömərdən ﵁ başqa "səhih" isnadla rəvayət etmişdir" (Səhih əl-Ədəbul-Mufrad, səh: 500).

## ٦٤١- بَابُ مَا يَقُولُ إِذَا غَضِبَ

## 641-ci fəsil. Adam qəzəbləndikdə nə deməlidir

١٣١٩- حَدَّثَنَا عَلِيُّ بْنُ عَبْدِ اللَّهِ قَالَ: حَدَّثَنَا أَبُو أُسَامَةَ قَالَ: سَمِعْتُ الأَعْمَشَ يَقُولُ: حَدَّثَنَا عَدِيُّ بْنُ ثَابِتٍ، عَنْ سُلَيْمَانَ بْنِ صُرَدٍ قَالَ: اسْتَبَّ رَجُلاَنِ عِنْدَ النَّبِيِّ ﷺ، فَجَعَلَ أَحَدُهُمَا يَغْضَبُ، وَيَحْمَرُّ وَجْهُهُ، فَنَظَرَ إِلَيْهِ النَّبِيُّ ﷺ فَقَالَ: ((إِنِّي لأَعْلَمُ كَلِمَةً لَوْ قَالَهَا لَذَهَبَ هَذَا عَنْهُ: أَعُوذُ بِاللَّهِ مِنَ الشَّيْطَانِ الرَّجِيمِ))، فَقَامَ رَجُلٌ إِلَى ذَاكَ الرَّجُلِ فَقَالَ: تَدْرِي مَا قَالَ؟ قَالَ: قُلْ: أَعُوذُ بِاللَّهِ مِنَ الشَّيْطَانِ الرَّجِيمِ، فَقَالَ الرَّجُلُ: أَمَجْنُونًا تَرَانِي؟

**(1319)** ........ Suleyman ibn Surad ﷺ demişdir: "İki nəfər Peyğəmbərin ﷺ yanında söyüşməyə başladı. Onlardan biri qəzəbləndi və üzü qızardı. Peyğəmbər ﷺ ona baxıb dedi: "Mən elə bir kəlmə bilirəm ki, əgər o, bunu desə, qəzəb hissi ondan gedər!" *Sonra də buyurdu:* "Əuzu billəhi minəş-şeytanir-racim!"[1] Bir nəfər gedib o kişiyə dedi: "Bilirsən, Peyğəmbər ﷺ nə dedi? De: "Əuzu billəhi minəş-şeytanir-racim!" O isə, belə cavab verdi: "Yoxsa, məni dəli hesab edirsən?"[2]

١٣١٩ م- حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ عُثْمَانَ قِرَاءَةً، عَنْ أَبِي حَمْزَةَ، عَنِ الأَعْمَشِ، عَنِ ابْنِ ثَابِتٍ، عَنْ سُلَيْمَانَ بْنِ صُرَدٍ قَالَ: كُنْتُ جَالِسًا مَعَ النَّبِيِّ ﷺ وَرَجُلاَنِ يَسْتَبَّانِ، فَأَحَدُهُمَا احْمَرَّ وَجْهُهُ، وَانْتَفَخَتْ أَوْدَاجُهُ، فَقَالَ النَّبِيُّ ﷺ: ((إِنِّي لأَعْلَمُ كَلِمَةً لَوْ قَالَهَا لَذَهَبَ عَنْهُ مَا يَجِدُ))، فَقَالُوا لَهُ: إِنَّ النَّبِيَّ ﷺ قَالَ: ((تَعَوَّذْ بِاللَّهِ مِنَ الشَّيْطَانِ الرَّجِيمِ))، قَالَ: وَهَلْ بِي مِنْ جُنُونٍ؟

**(1319/2)** ........ Suleyman ibn Surad رضي الله عنه demişdir: "Mən Peyğəmbərin ﷺ yanında oturmuşdum. Birdən iki kişi söyüşməyə başladı. Onlardan birinin üzü qızardı, şah damarları şişdi. Peyğəmbər ﷺ dedi: "Mən elə bir kəlmə bilirəm ki, əgər o, bunu desə, qəzəb hissi ondan gedər!" *Səhabələr* ona: "Peyğəmbər ﷺ buyurur ki, məlun şeytandan Allaha sığınasan!"– dedilər. O isə, belə cavab verdi: "Məgər, məndə dəlilik var?"[3]

---

[1] Tərcüməsi: Məlun şeytandan Allaha sığınıram!

[2] 434-cü hədisin qeydlərinə bax.

[3] Bu, əvvəlki hədisin təkrarıdır.

## ٦٤٢- بَابُ يَسْكُتُ إِذَا غَضِبَ

## 642-ci fəsil. İnsan qəzəbləndikdə susmalıdır

**١٣٢٠-** حَدَّثَنَا مُسَدَّدٌ قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَاحِدِ بْنُ زِيَادٍ قَالَ: حَدَّثَنَا لَيْثٌ قَالَ: حَدَّثَنِي طَاوُسٌ، عَنِ ابْنِ عَبَّاسٍ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: ((عَلِّمُوا وَيَسِّرُوا، عَلِّمُوا وَيَسِّرُوا))، ثَلَاثَ مَرَّاتٍ، ((وَإِذَا غَضِبْتَ فَاسْكُتْ))، مَرَّتَيْنِ.

**(1320)** ........ İbn Abbas ﷺ demişdir: "Bir dəfə Rəsulullah ﷺ *səhabələrinə* buyurdu: "Öyrədin və asanlaşdırın, öyrədin və asanlaşdırın." O *bunu* üç dəfə təkrar etdi. Sonra buyurdu: "Qəzəbləndiyin zaman sus." *Bunu da* iki dəfə təkrar etdi."[1]

---

[1] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin "səhih li-ğeyrihi" olduğunu demişdir (245-ci hədisin qeydlərinə bax).

## ٦٤٣- بَابُ أَحْبِبْ حَبِيبَكَ هَوْنًا مَا

## 643-cü fəsil. Dostunu, öz ehtiyatını gözləyərək sev

١٣٢١- حَدَّثَنَا عَبْدُ اللَّهِ قَالَ: حَدَّثَنَا مَرْوَانُ بْنُ مُعَاوِيَةَ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ عُبَيْدٍ الْكِنْدِيُّ، عَنْ أَبِيهِ قَالَ: سَمِعْتُ عَلِيًّا يَقُولُ لِابْنِ الْكَوَّاءِ: هَلْ تَدْرِي مَا قَالَ الْأَوَّلُ؟ أَحْبِبْ حَبِيبَكَ هَوْنًا مَا، عَسَى أَنْ يَكُونَ بَغِيضَكَ يَوْمًا مَا، وَأَبْغِضْ بَغِيضَكَ هَوْنًا مَا، عَسَى أَنْ يَكُونَ حَبِيبَكَ يَوْمًا مَا.

**(1321)** ........ Əli ibn Əbu Talib ﷺ İbn Kəvvaya demişdir: “Heç bilirsən, əvvəllər nə deyərdilər?! Sevdiyin kimsəni ehtiyat edərək sev, ola bilər ki, bir gün o, sənə düşmən kəsilsin. Nifrət etdiyin kimsəyə də ehtiyat edərək nifrət et, ola bilər ki, bir gün o, sənin dostun oslun.[1]”[2]

---

[1] Yəni ola bilər ki, zaman keçsin, vəziyyət dəyişsin və sən ifrat dərəcədə sevdiyin adama nifrət edəsən, sonra da buna görə peşman olasan. Həmçinin, ola bilsin ki, vaxt keçsin, əhval dəyişsin və sənin ifrat dərəcədə nifrət etdiyin adam sənin dostun olsun, sonra da buna görə ondan utanasan (Tohfətul-Əhvəzi, 1920-ci hədisin şərhi). Bundan aydın olur ki, adam birisini sevdikdə və ya ona nifrət etdikdə, bunu ifrat dərəcədə etməməli, əksinə, hər iki halda orta mövqe tutmalıdır.

[2] Muhəmməd Nasirəddin əl-Albani “Səhih əl-Ədəbul-Mufrad” əsərində (səh: 501) demişdir: “Bu, “həsən li-ğeyrihi” həm də, “movquf” hədisdir. Bu hədis həmçinin, “səhih” və “mərfu” isnadla da rəvayət edilmişdir (bax: Ğayatul-Məram, 472).”

## ٦٤٤- بَابُ لا يَكُنْ بُغْضُكَ تَلَفًا

## 644-cü fəsil. Qoy, nifrətin məhvə gətirib çıxarmasın[1]

١٣٢٢- حَدَّثَنَا سَعِيدُ بْنُ أَبِي مَرْيَمَ قَالَ: أَخْبَرَنَا مُحَمَّدُ بْنُ جَعْفَرٍ قَالَ: حَدَّثَنَا زَيْدُ بْنُ أَسْلَمَ، عَنْ أَبِيهِ، عَنْ عُمَرَ بْنِ الْخَطَّابِ قَالَ: لاَ يَكُنْ حُبُّكَ كَلَفًا، وَلاَ بُغْضُكَ تَلَفًا، فَقُلْتُ: كَيْفَ ذَاكَ؟ قَالَ: إِذَا أَحْبَبْتَ كَلِفْتَ كَلَفَ الصَّبِيِّ، وَإِذَا أَبْغَضْتَ أَحْبَبْتَ لِصَاحِبِكَ التَّلَف.

**(1322)** ........ Əsləm rəvayət edir ki, Ömər ibn Xattab ﷺ demişdir: "Qoy, sənin sevgin ehtirasa[2] çevrilməsin, nifrətin də məhvə gətirib çıxarmasın." Mən: "Bu, necə olur?"– deyə soruşdum. Ömər dedi: "Sevdiyin zaman körpənin sevgisi kimi[3] sevsən, nifrət etdiyin zaman da dostunun məhv olmasını diləsən."[4]

---

[1] Yəni sənin hər hansı bir səbəbdən dolayı bir şəxsə nifrət bəsləməyin səni məhv etməsin. Bəzi adamlar boş bir şeydən ötrü, yaxud dünya mənfətinə görə birisinə nifrət edir, ömrünün sonunadək ona qarşı qəlbində kin saxlayır və bu da onun özünü məhv edir. Yaxud da nifrət etdiyi adama düşmən kəsilir və onu məhv etməyə çalışır. Beləliklə də, ifrat dərəcədə olan nifrəti hər iki halda məhvə gətirib çıxarır.

[2] Şiddətli arzu, eşq, həvəs, şövq, meyil, hərislik, düşkünlük, təəşşüq.

[3] Yəni bir şeyə qəlbən bağlanmaq və onu olduqca çox istəmək. Belə ki, körpə uşaq bir şey istədikdə, bəzən istədiyinə nail olmaq üçün elə hərəkətlərə yol verir ki, ətrafdakılara əziyyət verir, lakin körpə olduğuna görə heç kəs onu qınamır və ona əhəmiyyət vermir. Böyük adam bir kimsəni bu cür ifrat dərəcədə sevdikdə isə o, buna görə qınanır. Odur ki, adam sevgi xüsusunda ifrata varmamalıdır.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Ədəbul-Mufrad" əsərində bu hədisin isnadının "səhih" olduğunu demişdir.

# Son söz

Əziz müsəlmanlar!

Allahın izni ilə il yarım ərzində ərsəyə gətirdiyimiz bu kitab bir çox məqsədləri əhatə edir. İlk növbədə, məqsəd yer üzərində insanların ən kamili olan Muhəmməd Peyğəmbərin ﷺ kamil əxlaqını hər bir müsəlmana çatdırmaqdır. Allah Muhəmməd Peyğəmbəri ﷺ bütün insanlar arasından seçmiş, ona başqa adamlarda olmayan ali xüsusiyyətlər və yalnız ona xas üstünlüklər bəxş edərək, aləmlərə nümunə olaraq şərəfləndirmişdir. Biz müsəlmanlar Allahın ən çox sevdiyi və bütün bəşəriyyətə nümunə seçdiyi Muhəmməd Peyğəmbərin ﷺ əxlaqını örənməli və öyrəndiklərimizi tətbiq etməliyik. Uca Allah Onu sevməklə yanaşı, Muhəmməd Peyğəmbəri ﷺ də ən yaxın əzizlərimizdən, valideynlərimizdən, övladlarımızdan, hətta canımızdan belə çox sevməyi tövsiyə edərək buyurur: **"De: "Əgər atalarınız, oğullarınız, qardaşlarınız, zövcələriniz, yaxın qohumlarınız, qazandığınız mallar, iflasa uğramasından qorxduğunuz alış-verişiniz və bəyəndiyiniz məskənlər sizə Allahdan, Onun Rəsulundan və Allah yolunda cihaddan daha əzizdirsə, Allah Öz əmri ilə gəlincəyə qədər gözləyin. Allah günahkarları doğru yola yönəltməz"** (ət-Tövbə, 24). O, həmçinin buyurur: **"Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır"** (əl-Əhzab, 6).

Müqəddəs Kitabımız olan Qurani-Kərimdə buyurulduğu kimi, Muhəmməd Peyğəmbərin ﷺ sözünü öz sözümüzdən, əməlini öz əməlimizdən daim üstün tutmalıyıq.

Məqsədimiz həmçinin imanın şirinliyinin və hər iki dünyada səadətin məhz Muhəmməd Peyğəmbərə ﷺ tam itaətdə olmasını göstərməkdir. Uca Allah buyurur: **"Allah və Onun Rəsulu bir işə hökm verdiyi zaman heç bir mömin kişi və mömin qadın öz işlərində istədikləri qərarı verə bilməzlər. Allaha və Onun Rəsuluna asi olan kəs, əlbəttə ki, açıq-aydın azğınlığa düşmüşdür"** (əl-Əhzab, 36).

Deməli, Muhəmməd Peyğəmbərə ﷺ olan həqiqi sevgi ona itaətdir. Muhəmməd Peyğəmbərə ﷺ itaət bütün insanlara və bütün zamanlarda vacibdir. Bu yol heç bir zaman köhnəlmir və əksinə həmişə önəmliliyini saxlayaraq yeganə nicat yolu olaraq qalır. Ən əsası da odur ki, Muhəmməd Peyğəmbərin ﷺ bizə qoyduğu Sünnəsinə hər hansı bir əlavəyə və ya kimlər tərəfindənsə yenilənməsinə qəti olaraq ehtiyac yoxdur və bunu etməyə çalışanlar da bidət-zəlalət-Cəhənnəm yolundan qorxmalı və ən kamil insandan kamil olmağa can atmağın ağılsızlıq olduğunu bilməlidirlər.

Məqsədimiz, həmçinin, özünü mömin sayan hər bir şəxsin ibadətlərində, həyat tərzində, fiziki və mənəvi xüsusiyyətlərində, əxlaqında, təmizlik məsələlərində, ailə münasibətlərində, dost və düşmənlə necə rəftar etməsində və başqa həyati məsələlərdə, Muhəmməd Peyğəmbəri ﷺ rəhbər tutmasıdır. Biz müsəlmanlar bu gün yalnız əqidə məsələlərinə fikir verib, sevimli Peyğəmbərimizin ﷺ əxlaqından uzaq olsaq, insanlarda özümüzə qarşı nifrət və ən qorxulusu isə dinimizə qarşı qəzəb yaratmış olarıq. Bu səbəbdən, Muhəmməd Peyğəmbərin ﷺ bütün həyatını, əxlaqını, sözlərini, davranışlarını mükəmməl öyrənib, bunları öz həyatımızda tətbiq etməliyik. Kitabda bütün bu məsələlər hədislər vasitəsilə ətraflı qeyd edilmişdir. Sizin Allaha olan məhəbbətinizin göstəricisi Muhəmməd Peyğəmbərə ﷺ nə dərəcədə itaət etməyinizdən bilavasitə asılıdır. Sevimli Peyğəmbərimizin ﷺ yolu iman əhlini Cənnətə aparan, onları Cəhənnəm əzabından qoruyan və heç bir başqa əvəzi olmayan bir yoldur. Əgər siz Muhəmməd Peyğəmbərin ﷺ yolundan başqa bir yol ilə Allaha yaxınlaşmağı düşünsəniz, bilin ki, münafiqlərin yolundasınız. Bu barədə Uca Allah buyurur: **“Sənə nazil edilənə və səndən əvvəl nazil edilənlərə iman gətirdiklərini iddia edənləri görmədinmi? Onlar mühakimə olunmaları üçün tağuta müraciət etmək istəyirlər. Halbuki, onlara tağutu inkar etmək əmr olunmuşdur. Şeytan isə onları dərin bir azğınlığa salmaq istəyir. Onlara: “Allahın nazil etdiyinə və Rəsuluna tərəf gəlin!"– deyildikdə, münafiqlərin səndən nifrətlə üz çevirdiklərini görürsən”** (ən-Nisa, 60-61).

Məqsədlərimizdən biri də, möminləri küfr, bidət və nifaqdan uzaq edib, onları "yüksək əxlaq sahibi" adlandırılmış Muhəmməd Peyğəmbərə ﷺ onun özünün öyrətdiyi kimi tabe olmaq və onu bütün işlərində hakim tutmağa dəvətdir. Ümid edirik ki, bu kitabı oxuyan xalqımızın hər bir nümayəndəsi sevimli Muhəmməd Peyğəmbərin ﷺ nə cür əxlaq sahibi olduğunu biləcək və onu özünə həyatlarının hər sahəsində nümunə edən müsəlmanlara qəribə nəzərlərlə, qorxu, kin və nifrət hissi ilə deyil, əksinə, dərin hörmət və məhəbbətlə münasibət bəsləyəcəkdir. Axı, əgər bizim gənclərimiz özlərinə örnək olaraq məhz Muhəmməd Peyğəmbəri ﷺ seçiblərsə, bundan daha gözəl və şərəfli nə ola bilər ki?!

Məlumunuz olsun ki, Allahın və Onun Rəsulunun ﷺ Kəlamında bərəkət vardır. Bu bərəkət yüz illərdir ki, insanları özünə tərəf çəkməkdədir. Qurana bənzər elə bir başqa kitab yoxdur ki, onun qədər əzizlənsin, oxunsun, əzbərlənsin, yüzlərcə kitablarda ayəbəayə təfsir edilsin, xütbələrdə, moizələrdə və digər söhbətlərdə dəlil göstərilsin, oxucularını bezdirməsin, nəşr edilsin, paylanılsın və ən əsası, qorunsun. Həqiqətən, bu, Allahın möcüzəsidir. Bu müqəddəs Kitabı Allah Özü qoruyur. Bu xüsusda Uca Allah buyurur: **"Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq"** (əl-Hicr, 9). On beş əsrdir ki, bu Kitaba nifrət edənlər Onu gözdən salmağa çalışırlar, lakin heç bir şey əldə edə bilməyiblər bə bilməyəcəklər də: **"Onlar ağızları ilə Allahın nurunu söndürmək istəyirlər. Allah isə *buna* yol verməz, kafirlərin xoşuna gəlməsə də, O, Öz nurunu tamamlayar"** (ət-Tovbə, 32). Bu Kitabı bizə izah edən və öz əmllərində onu əks etdirən, beləliklə də, bütün bəşərəiyyətə nümunə olan məhz Peyğəmbərimizdir ﷺ. Uca Allah buyurur: **"Biz sənə Zikri nazil etdik ki, insanlara nazil olan *bu Kitabı* onlara izah edəsən və bəlkə onlar fikirləşələr"** (ən-Nəhl, 44); həmçinin, rəvayət edilir ki, Aişədən رضي الله عنها Rəsulullahın ﷺ əxlaqı barədə soruşulduqda o, demişdir: "Onun əxlaqı Quran idi" (Musnəd İmam Əhməd, 6/91). Peyğəmbərin ﷺ hədisləri də, Allahdandır: **"O, öz istəyi ilə danışmır. Bu, ona təlqin edilən bir vəhydir"** (ən-Nəcm, 3-4). Hədislər

vəhyə bağlı olduğundan, onlarda da, olduqca böyük xeyir-bərəkət vardır. Yüz illərdir ki, insanlar bu hədisləri sevə-sevə oxuyur, öyrənir, əzbərləyir, təbliğ edir – xütbələrdə, moizələrdə və başqa dini söhbətlərdə bu hədisləri dəlil gətrirlər. Əsrlər boyu İslam alimləri yüzlərcə kitablarda həmin hədisləri kəlməbəkəlmə izah etmiş, hətta bəzən bir hədisə dair cildlərlə kitablar yazmışlar. Məsələn Peyğəmbərin ﷺ: "İman yetmiş və bir neçə şöbədən ibarətdir. *Bunların* ən əfzəli "lə ilahə illəllah", ən aşağı dərəcədə olanı isə yoldan əziyyət verən şeyi götürməkdir. Həya da imanın şöbələrindəndir" hədisi (Səhih əl-Buxari, 9; Səhih Muslim, 152). Bu hədis olduqca əzəmətli hədisdir. Bir çox alimlər bu hədisin şərhinə dair ayrıca kitablar yazmışlar. Bu kitabların ən böyüyü Beyhəqinin yazdığı "Şoəbul-İman" əsəridir ki, bu kitab doqquz cilddən ibarətdir.

Səhabələr Allahın və Onun Rəsulunun ﷺ Kəlamını – Müqəddəs Quranı və şərəfli hədisləri bütün dünyaya yaymış, sonra mühəddislər də, bu hədisləri toplamış və bunları özündə cəm edən kitablar yazmış, daha sonra da, bu kitablar bütün dünyaya yayılmış, o cümlədən, Azərbaycanımıza da gəlib çıxmışdır. Azərbaycanın görkəmli şairi Nizami Gəncəvi deyir:

Dünyada nə qədər kitab var belə,
Çalışıb əlləşib gətirdim ələ.
Ərəbcə, dəricə yeri düşərkən,
Buxari, Təbəri əsərlərindən...
İzlədim yolunu səyyarələrin,
Nə ki elmlər var gizli və dərin,
Oxudum xəbərdar oldum da vardım,
Varlıqlar sirrini yer-yer axtardım.[1]

Qeyd edək ki, Peyğəmbərimizin ﷺ hədisləri bu günkü günümüzədək qorunub saxlanmış, onları sevənlər tərəfindən hər tərəfə yayılmış və yayılmaqdadır. Bu hədisləri rəvayət etmiş səhabələr və onların ardıcılları dillər

[1] Yeddi Gözəl, səh: 26.

əzbəri olmuşlar. Əlimizdəki bu kitabın müəllifi İmam Muhəmməd ibn İsmail ibn İbrahim əl-Buxari də, həmçinin, bu hədislər sayəsində məşhurlaşmışdır. Hələ uşaq ikən yetmiş min hədisi isnadı ilə əzbər bilən, 16 yaşında ilk kitabını "Tarixul-Kəbir" əsərini yazan, əzbərdən bildiyi altı yüz min hədisin içindən ən "səhih"lərini seçib "Səhih əl-Buxari" adı ilə tanınmış "əl-Cami əs-Səhih əl-Musnəd min Hədisi Rasulilləhi sallallahu aleyhi və sələmə va Sunənihi və Əyyamih" kitabında cəm edən və nəhayət, "Əmirul-muhəddisin (Muhəddislərin əmiri)" ləqəbi ilə tanınan bu böyük alim, əlbəttə ki, dillər əzbəri olmağa layiqdir. İmam Buxarinin kitabının ən mötəbər və ən çox oxunan kitab olması, onun böyük mühəddis olmasından xəbər verir. Bu əməli ona Qiyamətədək savab qazandıracaq və o, bunun əvəzini artıqlaması ilə alacaqdır. Peyğəmbər ﷺ demişdir: "Adəm övladı vəfat etdikdən sonra onun bütün əməlləri dayanır: Yalınz üç əməldən başqa: ardı kəsilməyən sədəqə, fayda verən elm və bir də onun üçün dua edən övlad" (Səhih Muslim, 5/73).

Allahdan istəyimiz budur ki, bizim bu işimizə bərəkət versin və onu ixlasla – yalnız Onun rizasını qazanmaq məqsədilə yerinə yetirilmiş əməllər sırasına daxil etsin, üstəlik, bu tərcüməmizi Qiyamətədək oxunacaq kitablardan etsin və nəhayət, onu Axirətdə qurulacaq tərəzidə savabı ağır gələn əməllərdən etsin!

Bu kitabı ərsəyə gətirməkdə bizə müvəffəqiyyət verən, işimizi asanlaşdıran və bizə lütf edən Allaha həmd edirik. Əvvəldə də, axırda da, bütün həmdlər yalnız Allaha məxsusdur. Aşkarda və gizlində olan bütün şükürlər yalnız Onadır. Allahdan diləyirik ki, bizə öyrətdiklərini hamımız üçün faydalı etsin, habelə, öyrəndiklərimizi bizim əleyhimizə yox, lehimizə bir hüccət etsin, qəlbimizi imanla doldursun, işlərimizi avand eləsin, üstəlik, son nəfəsimizədək doğru yolda olmağımız üçün bizə müvəffəqiyyət versin. Peyğəmbərimizin ﷺ Sünnəsini yerinə yetirməyi, onunla birlikdə həşr edilməyi və Cənnətdə ona yaxın olmağı bizə nəsib etsin! Bizi, valideynlərimizi, cəmi müsəlman kişiləri və müsəlman qadınları, mömin kişiləri və

mömin qadınları, onlardan həyatda olanları və ölüb gedənləri, ələlxüsus da, bu kitabın müəllifi İmam Buxarini bağışlasın. Şübhəsiz ki, Allah, Bağışlayandır, Rəhmlidir.

Allahım, biz Sənə yalvarırıq. Həmd Sənə məxsusdur. Səndən başqa *haqq* məbud yoxdur, Təksən heç bir şərikin yoxdur. Sən Lütfkarsan! Ey göyləri və yeri Yaradan! Ey əzəmətli və kəramətli *Rəbbim*! Ey *əbədi* Yaşayan, ey Qəyyum! Səndən Cənnəti diləyirik və Cəhənnəmdən Sənə sığınırıq!

Allahım, biz Sənə yalvarırıq! Ey Allah, Sən Vahidsən, Təksən, *heç kəsə və heç nəyə* Möhtac deyilsən, doğmayan, doğulmayan və heç bir tayı-bərabəri olmayansan. Günahlarımızı bizə bağışla! Şübhəsiz ki, Sən Bağışlayansan, Rəhmlisən!

Ey qəlbləri çevirən Allahım! Qəlbimizi dinin üzərində sabit et!

Ey qəlbləri yönəldən Allahım! Qəlbimizi Öz itaətinə yönəlt!

Allahım, bizə, bizdən əvvəl gəlib-getmiş, özlərinə də gözəl sonluq nəsib olmuş əməlisaleh insanların sonluğu kimi gözəl sonluq nəsib et!

Allahım, ismətli olan dinimizi, içində yaşadığımız dünyamızı və qayıdacağımız Axirətimizi islah et! Xeyirli işlər üçün ömrümüzü artır, ölümümüzü isə şər əməllərdən qurtulmaq üçün rahatlıq vasitəsi et!

Allahım! Bütün işlərdə aqibətimizi yaxşılaşdır, dünya rüsvayçılığından və axirət əzabından bizi qoru!

Allahım, Səndən, başımıza gələn müsibətdən sonra ondan razı qalmağımızı və ölümdən sonra gözəl həyat diləyirik!

Allahım, bu dünyada qərib yerdə olduğumuz zaman, qəbirdə tənha qalacağımız zaman, Qiyamət günü sənin hüzurunda duracağımız zaman və nəhayət, qıl körpüsünün üstündən keçəcəyimiz zaman bizə kömək ol, bizə rəhm et, bizi öz mərhəmətinə qovuşdur və bizi Firdovs cənnətinin sakinlərindən et!

# Xülasə

**Bu kitabda** varid olmuş hədislər, biz müsəlmanlara valideynlərin qayğısına qalmağı, Allah və Onun rəsulundan ﷺ sonra, valideynlərimizi hamıdan çox sevməyi, onları razı salmağı, onları qəzəbləndirməməyi, onların bədduasına tuş gəlməməyi, onların üzünə ağ olmamağı, onlara lənət oxumamağı, onları söyməməyi, onları adı ilə çağırmamağı, onlardan qabaq oturmamağı, onların önündə getməməyi, onların izni və razılığı olmadan fardul-kifayə sayılan cihada getməməyi, onlarla mülayim danışmağı, hər ikisinə rəhm etməyi, onlar üçün Allahdan bağışlanma diləməyi və əgər kafirdilərsə, Allahdan onlar üçün hidayət istəməyi, onların vəfatından sonra onların adından sədəqə verməyi, habelə, dostları ilə əlaqə saxlamağı, tövsiyə edir.

**Bu kitabda,** həmçinin, qohumlarla əlaqə saxlamağın, vaxtaşırı onlara hədiyyə verməyi və onları İslam dininə dəvət etməyin zəruriliyi xüsusi ilə vurğulanır, üstəlik bu əməlin mömini Cənnətə yaxınlaşdıracaq və Cəhənnəmdən uzaqlaşdıracaq, ələlxüsus da ömrünün uzanmasına və ruzisinin çoxalmasına səbəb olan əməllərdən olduğu xəbər verilir.

**Bu kitabda,** həmçinin, övlada qayğı göstərməyin, onları əzizləməyin və onlara rəhm etməyin vacibliyini, xusüsi ilə də qız uşağını mömin olaraq böyüdən kimsənin Cəhənnəm odundan qorunacağını bildirilir.

**Bu kitabda,** bizə həmçinin qonşu haqlarını ödəməyi, yemək bişirdikdə imkan daxilində bu yeməkdən ona da pay ayırmağı, qonşu ac ola-ola öz qarnını doydurmamağı, arabir ona hədiyyə verməyi, üstəlik ona əziyyət verməməyi, ələlxüsus da qadınına sataşmamağı, habelə, qapını onun üzünə bağlamamağı buyurulur.

**Bu kitabda,** həmçinin, dul qadınların, kasıbların, kölələrin və yetimlərin qeydinə qalmağın fəziləti, üstəlik bu yaxşı əməli edənin Cənnət əhlin-

dən olacağı, ələlxüsus da yetimin hamisinin Cənnətdə Peyğəmbərə ﷺ yaxın olacağı öz əksini tapmışdır.

**Bu kitabda,** bizə həmçinin, digər insanlara da yaxşılıq etməyi və onları xeyirxah işlərə yönəltməyi, ələlxüsus da böyüklərə hörmət etməyi və kiçiklərə rəhm etməyi, hətta heyvanlara belə acımağı və onlara mərhəmət göstərməyi, habelə, insanlara əziyyət verməməyi və onları pis işlərdən çəkindirməyi, üstəlik ağıllı adamlarla məşvərət etməyi və onlardan məsləhət almağı buyurur.

**Bu kitab,** bizi gözəl əxlaq sahibi, olmağa və beləliklə də, bu dünyada və Axirətdə uğur qazanmağa təşviq edir, üstəlik tamahkarlıqdan, xəsislikdən və pis əxlaqdan uzaq durmağı buyurur, həmçinin, nahaq yerə kimsəni söyməyi, yaxud onu lənətləməyi, onda eyib tutmağı, habelə, camaat arasında dedi-qodu yaymağı qadağan edir.

**Bu kitabda** Peyğəmbərin ﷺ bizə öyrətdiyi gözəl dualar vardır ki, bu duaların özü müsəlmanın əxlaqına gözəl təsir göstərir, onların sayəsində xeyir-bərəkətə nail olur, hər cür şərdən qorunur, sıxıntısı aradan qalxır və nəhayət, Axirətdə bunun əvəzini artıqlaması ilə alır.

**Bu kitab** bizə qeybətdən uzaq durmağı, əksinə, gözəl zənn etməyi, müsəlmanlarla isti münasibət qurmağı, onların eyiblərini ifşa etməməyi, onları pis ləqəblərlə çağırmamağı, onları lağa qoymamağı və başqa bu kimi yaramaz əxlaqdan uzaq durmağı buyurur.

**Bu kitab** bizə Allaha şərik qoşmamağı, and içdiyimiz zaman yalnız Allaha and içməyimizi, təvəkkül etdikdə, ancaq Allaha təvəkkül etməyimizi və ümumiyyətlə, bütün işlərimizdə Təkcə Allaha yönəlməyimizi buyurur.

**Bu kitab** bizə övladlarımıza Allahın və Onun rəsulunun ﷺ bəyəndiyi gözəl adlar qoymağı, habelə, cahiliyyətdən qalmış pis adları – Allahın və Onun rəsulunun ﷺ nifrət etdiyi adları dəyişdirməyi buyurur.

## Bəzi hədis terminlərinin izahlı lüğəti

**Həsən:** Bu kəlmə ( حَسَنٌ ) lüğətdə yaxşı, çox gözəl və s. mənaları ifadə edir. İstilahi mənada isə İbn Həcərin tərifinə əsaslanıb, belə demək olar: “Həsən hədis, isnadının əvvəlindən axırına qədər (mühafizə, yaxud yazdıqlarını qorumaq baxımından) dəqiqliyi az olan, insaflı ravinin aramsız, sapdırmadan (yəni, “şəzz” olmadan) və qüsursuz (yəni, “illə”siz) olaraq, özü kimisindən xəbər verdiyi hədisdir.”

**Həsən li-ğeyrihi:** “Həsən” kəlməsinin lüğəti və istilahi mənası artıq yuxarıda izah olunub. “Li-ğeyrihi” ( لِغَيْرِهِ ) kəlməsinə gəlincə, bu ərəbcə “li” ön qoşmasından, “ğeyrun” ismindən və “hu” bitişən əvəzliyindən əmələ gəlmiş kəlmədir. Ayrı-ayrılıqda “li” aidiyyət, mənsubiyyət bildirir. “Ğeyrun” kəlməsi özgə, başqa və qeyri mənalarını, “hu” əvəzliyi isə onun, ona və onu mənalarını ifadə edir. İstilahi mənada isə bu, bir çox yollarla (isnadlarla) rəvayət olunmuş “daif” (zəif) hədisdir ki, onun zəifliyinin səbəbi ravinin yalançı və ya fasiq olmasıyla əlaqəli deyildir. Bu növ hədis dərəcə etibarilə “həsən”dən aşağı hesab olunur.

**Həsən-Səhih:** “Həsən” dərəcə etibarı ilə “səhih”dən aşağı hesab olunur. Elə isə, fərqli mənaları olan bu iki istilahi terminləri necə cəm etmək olar? Alimlər Tirmizinin bu ifadəsində olan məqsədini müxtəlif cür izah etmişlər. Bu izahların ən gözəli isə ibn Həcərin izahıdır. Bunu da Suyuti təqdirəlayiq hesab etmişdir. Xülasəsi budur:

– Əgər hədisin iki və daha çox isnadı varsa, bu ifadə “Bu hədis bir isnadla “həsən”, digər isnadla isə “səhih”dir” mənasını ifadə edir;

– Əgər hədisin yalnız bir isnadı varsa, bu ifadə “Bu hədis bir qrup alimin rəyinə görə “həsən”, digərlərinə görə isə “səhih”dir” mənasını ifadə edir.

**İsnad:** bu kəlmə ( إِسْنَادٌ ) lüğətdə istinad, mənbə, dəlil-sübut, dayaq və s. mənaları ifadə edir. İstilahi mənada isə bu kəlmənin iki mənası var:

– Hədisi istinad olaraq rəvayət edənə aid etmək;

– Hədisin mətninə gətirib çıxaran ravilərin silsiləsi. Bu mənada o, "sənəd"in sinonimi hesab olunur.

**Leyyin:** Bu kəlmə ( لَيِّنٌ ) lüğətdə həlim, yumşaq, mülayim, incəqəlbli, riqqətli, tez razılaşan, üzüyola və s. mənaları ifadə edir. İstilahi mənada isə – bu, o ravidir ki, az sayda hədis rəvayət etmiş, rəvayət etdiyi hədisin qəbul olunmamasına dair heç bir amil sübuta yetirilməmiş və həmin hədis də başqa hədislə gücləndirilməmişdir.

**Məchul:** bu kəlmə ərəbcə "cəhələ" ( جَهَلَ ) felinin məlum növündən əmələ gəlmiş feli sifətdir. Bu kəlmə: naməlum, tanınmayan, gizli, müəmmalı və s. mənaları ifadə edir. İstilahi mənada isə bunun iki növü vardır:

**Məchulul-ayn:** kim olduğu bilinməyən; mühəddislər hədisin isnadında keçən naməlum ravi barədə "məchulul-ayn" deyirlər.

**Məchulul-hal:** halı bəlli olmayan, yəni necə ravi olduğu müəmmalı qalan.

**Məqtu:** bu kəlmə ərəbcə "qataə" ( قَطَعَ ) felinin məlum növündən əmələ gəlmiş feli sifətdir. Bu kəlmə lüğətdə: kəsilmiş və s. mənaları ifadə edir. İstilahi mənada isə tabiinə qədər yüksələn isnad – "məqtu" adlanır.

**Mərfu:** bu kəlmə ərəbcə "rafəa" ( رَفَعَ ) felinin məlum növündən əmələ gəlmiş feli sifətdir. Bu kəlmə lüğətdə: yüksəlmiş və s. məna-

ları ifadə edir. İstilahi mənada isə Peyğəmbərə ﷺ qədər yüksələn isnad – “mərfu” adlanır.

**Movquf:** bu kəlmə ərəbcə “vəqəfə” ( وَقَفَ ) felinin məlum növündən əmələ gəlmiş feli sifətdir. Bu kəlmə lüğətdə: dayandırılmış, saxlanılmış, əyləndirilmiş və s. mənaları ifadə edir. İstilahi mənada isə səhabəyə ﷺ qədər yüksələn isnad – “movquf” adlanır.

**Movsul:** bu kəlmə ərəbcə “vəsələ” ( وَصَلَ ) felinin məlum növündən əmələ gəlmiş feli sifətdir. Belə isnada “muttəsil” də deyilir. Bu kəlmə isə ərəbcə “ittəsələ” ( اِتَّصَلَ ) felinin məlum növündən əmələ gəlmiş feli sifətdir. Bu iki kəlmə lüğətdə: birləşdirilmiş, bitişdirilmiş, bağlanmış, əlaqədar və s. mənaları ifadə edir. İstilahi mənada isə sənədində bağlılıq olan isnad – “movsul” adlanır.

**Muan'ən:** bu kəlmə ( مُعَنْعَنٌ ) ərəbcə “an'ənə” ( عَنْعَنَ ) felinin məlum növündən əmələ gəlmiş feli sifətdir.

İstilahi mənaya gəlincə, “filankəs filankəsdən” deyilərək, isnaddakı həmin filankəslərin birinin digərindən rəvayət etdiyi, yaxud xəbər verdiyi, yaxud da eşitdiyi bəyan edilmədən, onların adından rəvayət olunmuş hədisə muan'ən deyilir.

**Muan'in:** bu kəlmə ( مُعَنْعِنٌ ) ərəbcə “an'ənə” ( عَنْعَنَ ) felinin məlum növündən əmələ gəlmiş feli sifətdir. Hərfi tərcümədə “filankəs filankəsdən” deyərək, bir neçə ravidən rəvayət etmək mənasını ifadə edir və bu üslubla rəvayət edən adama muan'in deyilir

İstilahi mənaya gəlincə, “filankəs filankəsdən” deyərək, isnaddakı həmin filankəslərin birinin digərindən rəvayət etdiyini, yaxud xəbər verdiyini, yaxud da eşitdiyini açıqlamadan, onların adından hədis rəvayət edən adama muan'in deyilir.

**Munqəti:** bu kəlmə [ مُنْقَطِعٌ ] ərəbcə "munqəti" [ انْقَطَعَ ] felinin məlum növündən əmələ gəlmiş feli sifət olub, kəsilmiş, ayrılmış və s. mənaları ifadə edir. İstilahi mənada isə isnadının hər hansı bir yerində – ya əvvəlində, ya ortasında, ya da sonunda bağlılıq olmayan sənəd "munqəti" adlanır.

**Mu'dal:** bu kəlmə ( مُعْضَلٌ ) ərəbcə "ə'dalə" ( أعْضَلَ ) felinin məlum növündən əmələ gəlmiş feli sifətdir. Bu söz çətin həll olunan, sağalmayan və s. mənaları ifadə edir.

İstilahi mənada isə – bu, o hədisdir ki, isnadındakı ravilərədən ikisi və ya daha çoxu zikr edilməmişdir.

**Mudəllis:** buna ərəbcə tədlis ( تَدْلِيسٌ ), bunu edənə isə mudəllis ( مُدَلِّسٌ ) deyilir. Mudəllis: ərəbcə "dəlləsə" ( دَلَّسَ ) felinin məlum növündən əmələ gəlmiş feli sifətdir. Bu da, adamaldadan, yalançı, fırıldaqçı, kələkbaz və s. mənaları ifadə edir.

İstilahi mənada isə – bu, ravinin "tədlis" etməsi deməkdir. "Tədlis" kəlməsi lüğətdə yalan, fırıldaq, kələk və s. mənaları ifadə edir. İstilahi mənada "tədlis" üç növdür:

– tədlis əl-isnad: bu, ravinin başqa bir ravidən eşitmədiyi rəvayəti elə bir formada rəvayət etməsidir ki, həm eşitməsi, həm də eşitməməsi ehtimal edilir;

– tədlis ət-təsviyə: bu, "müdəllis" ravinin öz şeyxindən "eşitdim" deməklə hədis rəvayət etməsidir ki, o, isnadın tərkibində olan, bir-birilə rastlaşmış iki etibarlı ravinin arasında (hədisi birindən eşidib digərinə çatdırmaqda vasitə) olan etibarsız ravinin adını vurğulamır və onlardan birincisi "müdəllis" də deyildir. Odur ki, "müdəllis" ravi (şeyxindən eşitdiyi hədisin isnadını sadaladıqda) elə bir ləfz gə-

tirir ki, o, iki etibarlı ravinin birinin digərindən həmin hədisi eşitməsi ehtimal edilir və beləliklə də, isnadın tərkibi yalnız etibarlı ravilərdən ibarət olur.

– tədlis əş-şuyux: bu, bir ravinin digərindən eşitdiyi hədisi rəvayət etməsidir ki, həmin ravi öz şeyxinin tanınmaması üçün onu ya məşhur olmadığı adı ilə, ya kunyəsi ilə, ya nəsəbi ilə, ya da xassəsi ilə qeyd edir.

**Munkər:** bu kəlmə ( مُنْكَرٌ ) ərəbcə "ənkərə" ( أَنْكَرَ ) felinin məlum növündən əmələ gəlmiş feli sifətdir: inkar olunmuş, hamı tərəfindən qəbul edilməmiş və s. mənaları ifadə edir. İstilahi mənada isə etibarsız ravinin etibarlı raviyə müxalif olaraq rəvayət etdiyi hədis "münkər" adlanır.

**Mursəl:** bu kəlmə ( مُرْسَلٌ ) ərəbcə "ərsələ" ( أَرْسَلَ ) felinin məlum növündən əmələ gəlmiş feli sifətdir. Bu söz göndərilmiş, yollanmış və s. mənaları ifadə edir.

İstilahi mənada isə – bu, o hədisdir ki, isnadının sonunda tabiindən sonra gələn, Peyğəmbərlə ﷺ tabiin arasında olan ravi buraxılmışdır.

**Səhih:** bu kəlmə ( صَحِيحٌ ) lüğətdə müxtəlif mənalarda istifadə olunur. Məsələn: sağlam, möhkəm, qıvraq, gümrah və s. İstilahi mənada – isnadının əvvəlindən axırına qədər dəqiq olan insaflı ravinin aramsız, sapdırmadan ("şazz" olmadan) və qüsursuz (muəlləlsiz) olaraq özü kimisindən xəbər verdiyi hədis.

Bu tərifi beş hissəyə bölüb şərh etmək olar:

a) İsnadın aramsız olması: yəni isnadın əvvəlindən axırına qədər hədisin ravilərindən hər biri, onu özündən əvvəlki ravidən bilavasitə götürmüş (eşitmiş) olsun;

b) Ravinin insaflı olması, yəni hədisin ravilərindən hər biri müəyyən dəyərlərə malik olmalıdır. Belə ki, o, müsəlman, həddi-büluğa çatmış, şüurlu olmalı, fasiq və əxlaqsız olmamalıdır;

c) Ravinin dəqiq olması, yəni hədisin ravilərindən hər biri tam dəqiq olmalıdır. Belə ki, onun ya yaddaşı möhkəm olmalı, ya da yazdıqlarını qorumaqda dəqiq olmalıdır;

e) "Şəzz" olmaması. Hədis "şəzz" olmamalıdır. Belə ki, rəvayəti "məqbul" ("səhih", yaxud "həsən") sayılan ravinin özündən də nüfuzlu raviyə müxalif olması "şəzz" adlanır.

d) "Muəlləl" olmaması. Hədisdə (sənəddə və ya mətndə) "illə" olmamalıdır. "İllə" hədisin mötəbər olmasında naqislik əmələ gətirən gizlin, anlaşılmaz səbəbdir.

**Şəzz:** bu kəlmə ( شَاذ ) ərəbcə "şəzzə" ( شَذ ) felinin məlum növündən əmələ gəlmiş feli sifət olub, tək-tənha, yana çəkilmiş mənaları ifadə edir. İstilahi mənada isə rəvayəti məqbul ("səhih", yaxud "həsən") sayılan ravinin özündən də nüfuzlu raviyə müxalif olaraq rəvayət etdiyi hədis "şazz" adlanır.

**Zəif:** bu kəlmə ( ضَعِيفٌ ) lüğətdə zəif, gücsüz, qeyri-qənaətbəxş və s. mənaları ifadə edir. İstilahi mənada isə nəql etdiyi hədisə etimad olunmayan etibarsız raviyə «daif» deyilir. Hədislə bağlı terminə gəlincə, onun da özünəməxsus istilahi mənası vardır. Belə ki, hədis alimləri hədisə "daif" dedikdə, həsən hədisdən aşağı dərəcədə yerləşən, yaxud özündə həsən hədisin vəsfini cəm etməyən, hər hansı şərtlərindən biri olmayan hədisi qəsd edirlər.

# İstifadə edilmiş ədəbiyyat


- "əl-Ahad vəl-Məsani", Əhməd ibn Amr ibn Dahhak Əbu Bəkr Şeybani, Darur-Rayə, 1-ci nəşr, 1991.
- "Adabuz-Zifaf fis-Sunnətil-Mutahhəra", Muhəmməd Nasirəd-din əl-Albani, Məktəbul-İslami, 1989.
- "Aməlul-Yovmi vəl-Leylə", Əbu Abdurrəhman Əhməd ibn Şueyb ibn Əli ən-Nəsai, Muəssəsətur-Risalə, 2-ci nəşr, 1985.
- "Aməlul-Yovmi vəl-Leylə" Əhməd ibn Muhəmməd ibn İshaq ibn İbrahim – İbnus-Sunni.
- "Avnul-Məbud Şərh Sunəni Əbu Davud", Əbut-Tayyib Mu-həmməd əl-Azim Abadi, Darul-Fikr, 3-cü nəşr, 1989.
- "Azərbaycan dilinin izahlı lüğəti", Elm nəşriyyatı, Bakı – 1983.
- "əl-Bidayə vən-Nihayə", Əbul-Fida İsmail ibn Ömər ibn Kəsir əl-Qurəşi əd-Diməşqi, Dar İhyaut-Turas, 1-ci nəşr, 1988.
- "Camiul-Bəyan fi Təvilil-Quran", Əbu Cəfər Muhəmməd ibn Cərir ət-Təbəri, Darul-Fikr, 1995.
- "əl-Cami fil-Hədis", Əbu Muhəmməd Abdullah ibn Vəhb ibn Muslim əl-Qurəşi, Dar İbnul-Covzi, 1996.
- "əl-Cami li Əhkamil-Quran", Əbu Abdullah Muhəmməd ibn Əhməd ibn Əbu Bəkr əl-Xəzrəci əl-Ənsari Şəmsuddin əl-Qur-tubi, Dar-Aləmul-Kutub, 2003.
- "əl-Cami li Əxlaq ər-Ravi və Ədab əs-Sami", Xətib əl-Bəğdadi.
- "Camiul-Ulumi vəl-Hikəm", Əbul-Fərəc Abdurrəhman ibn Əhməd ibn Rəcəb əl-Hənbəli, Darul-Mərifə, 1988.

- “əl-Cədid fi Şərh Kitabit-Tovhid”, Muhəmməd ibn Abdul-Aziz Suleyman əl-Qaravi, Məktəbətus-Sovda, 5-ci nəşr, 2003.
- “Cəlaul-Əfham fi Fədlis-Səlati alə Muhəmmədin Xeyril-Ənam”, Muhəmməd ibn Əbu Bəkr Əyyub əz-Zəri Əbu Abdullah ibn Qeyyim əl-Covziyyə, Darul-Uruba, 1987.
- “Cilbabul-Məratil-Muslimə fil-Kitab vəs-Sunnə”, Muhəmməd Nasirəddin əl-Albani, Məktəbətul-İslami, 1992.
- “Daif Əbu Davud”, Muhəmməd Nasirəddin əl-Albani, Muəssəsətu Ğiras, 1-ci nəşr, 1423.
- “Daif əl-Ədəbul-Mufrad”, Muhəmməd Nasirəddin əl-Albani, Darus-Siddiq, 2-ci nəşr, 1994.
- “Daru Təarudul-Aqli vən-Nəql”, Şeyxul-İslam Əhməd ibn Abdul-Həlim ibn Teymiyyə, Darul-Kutubil-İlmiyyə, 1997.
- “Dəlailun-Nubuvvə”, Əbu Bəkr Əhməd ibn Əli əl-Beyhəqi, Darul-Kutubul-İlmiyyə, 1-ci nəşr, 1985.
- “Dəlil əl-Falihin li-Turuq Riyadis-Salihin”, Muhəmməd Əli ibn Muhəmməd ibn İclan əl-Bəkri.
- “Dəvabitul-Cərh vət-Tədil” Abdüləziz ibn Muhəmməd ibn İbrahim.
- “əd-Dəvətus-Sələfiyyə”, Məhmud ibn Abdul-Humeyd əl-Əsqəlani.
- “Dibac alə Muslim”, Abdur-Rəhman ibn Kəmal Cəlaləddin əs-Suyuti.
- “Divan Həssan”, Həssan ibn Sabit əl-Ənsari ﵁.
- “əd-Dua”, Əbu Qasim Suleyman ibn Əhməd ət-Təbərani, Darul-Kutubil-İlmiyyə, 1-ci nəşr, 1993.

- "əd- Duafə", Əbu Cəfər Muhəmməd ibn Amr ibn Musa ibn Həmmad əl-Uqeyli, Dar əl-Məktəbətul-İlmiyyə, 1-ci nəşr, 1984.
- "əd-Duafə vəl-Məcruhin", Əbu Hatim Muhəmməd ibn Hibban əbn Əhməd ət-Təmimi əl-Busti.
- "əd-Durrul-Mənsur", Abdur-Rəhman ibn Kəmal Cəlaləddin əs-Suyuti, Darul-Fikr, 1-ci nəşr, 1983.
- "əd-Durar əs-Sunniyya fil-Kutubin-Nəcdiyyə", təhqiq: Abdur-Rəhman ibn Muhəmməd ibn Qasim, 6-cı nəşr, 1996.
- "əl-Əhadis əl-Muxtara" Əbu Abdullah Muhəmməd ibn Abdul-Vahid ibn Əhməd əl-Hənbəli – Diyaəddin əl-Məqdisi, Məktəbətun-Nəhda, 1-ci nəşr, 1910.
- "Əxbar Əsbəhan", Əbu Nueym əl-Əsbəhani.
- "Əmali əl-Muhamili", Əbu Abdullah Huseyn ibn İsmail əd-Dabbi əl-Muhamili, İbn Yəhya əl-Beyinin rəvayət, əl-Məktəbətul-İslamiyyə, Dar İbn Qeyyim, 1-ci nəşr, 1912.
- "əl-Əmru bil-Məruf vən-Nəhyu anil-Munkər", Əbu Bəkr Əhməd əl-Xəllal, Darul-İtisam.
- "əl-Ənvarul-Kaşifə", Abdur-Rəhman ibn Yəhya əl-Müəllimi.
- "əl-Əzkar ən-Nəvəviyyə", Muhyiddin Əbu Zəkəriyya Yəhya ibn Şərəf ən-Nəvəvi əş-Şafii.
- "Feydul-Qədir Şərhul-Camiis-Səğir", Zeynuddin Muhəmməd ibn Tac əl-Arifin ibn Əli əl-Munavi, Darul-Kutubil-İlmiyyə, 1-ci nəşr, 1994.
- "Fəthul-Bari bi Şərh Səhih əl-Buxari", Şihabuddin Əhməd ibn Əli ibn Həcər əl-Əsqəlani, Darul-Fikr, 1996.

- “Fəthul-Qədir əl-Cami beynə Fənneyir-Rivayəti vəd-Dirayəti min İlmit-Təfsir” Muhəmməd ibn Əli Muhəmməd əş-Şovkani, Darul-Hərreyn, 1-ci nəşr, 1993.
- “Fəthul-Məcid Şərh Kitabit-Tovhid”, Abdur-Rəhman ibn Həsən Aliş-Şeyx.
- “Fəthul-Muğis Şərh Əlfiyyətil-Hədis”, Şəmsuddin Muhəmməd ibn Abdurrəhman əs-Səxavi, Darul-Kutubil-İlmiyyə.
- “Fiqhus-Sira”, Muhəmməd əl-Ğəzali, təhqiq: Muhəmməd Nasirəddin əl-Albani, Darul-Qələm, 7-ci nəşr, 1998.
- “əl-Furusiyyə”, Muhəmməd ibn Əbu Bəkr Əyyub əz-Zəri Əbu Abdullah ibn Qeyyim əl-Covziyyə, Darul-Əndəlus, 1-ci nəşr, 1993.
- “Ğayatul-Məram fi Təxrici Əhadisil-Həlal vəl-Həram”, Muhəmməd Nasirəddin əl-Albani, əl-Məktəbul-İslami, 3-cü nəşr, 1983.
- “Hilyətul-Övliya və Təbəqatul-Əsfiya”, Əbu Nueym Əhməd ibn Abdullah əl-İsbəhani, Darus-Səadə, 1974.
- “Xalqu Əfalil-İbad”, Əbu Abdullah Muhəmməd ibn İsmail ibn İbrahim əl-Buxari, Darul-Məarif.
- “əl-İbanə an Şəriətil-Firqətin-Naciyə və Mucanəbitil-Firəqil-Məzmumə”, Əbu Abdullah Ubeydullah ibn Muhəmməd ibn Batta, Darur-Rayə, 2-ci nəşr, 1994.
- “İkmalul Mulim Şərh Səhih Muslim”, Əbul-Fədl əl-Qadı İyad əl-Yəhsubi.
- “İkmal Təhzib əl-Kəmal fi Əsmair-Rical”, Əbu Abdullah Əlaəddin Muğlutay ibn Quleyc ibn Abdullah əl-Bəkcəri, Darul-Faruq, 2001.

- "İğasətul-Ləhfan min Məsaidiş-Şeytan", Muhəmməd ibn Əbu Bəkr Əyyub əz-Zəri Əbu Abdullah ibn Qeyyim əl-Covziyyə, əl-Məktəbul-İslami, 1-ci nəşr, 1987.
- "İlamul-Muvaqqiin an Rabbil-Aləmin", Muhəmməd ibn Əbu Bəkr Əyyub əz-Zəri Əbu Abdullah ibn Qeyyim əl-Covziyyə, Darul-Cil, 1973.
- "İləl əl-Mutənahiyə fil-Əhadisil-Vahiyə", Abdur-Rəhman ibn Əli ibnul-Covzi, Dar əl-Kutubul-İlmiyyə, 1-ci nəşr, 1983.
- "əl-İmanul-Ovsat", Şeyxul-İslam Əhməd ibn Abdul-Həlim ibn Teymiyyə, Darut-Teybə, 3-cü nəşr, 2002.
- "əl-İstiyab fi Mərifətil-Əshab", İbn Abdul-Bərr əl-Qurtubi.
- "İrşadus-Sari li-Şərhi Səhih əl-Buxari", Şihabuddin Əhməd ibn Muhəmməd ibn Əbu Bəkr əl-Qastillani, Mətbəə əl-Kubra əl-Əmiriyyə, 7-ci nəşr.
- "İrvaul-Ğəlil fi Təxric Əhadis Mənar əs-Səbil", Muhəmməd Nasirəddin əl-Albani, Məktəbətul-İslami, 1985.
- "əl-İsabə fi Təmyizis-Səhabə", Şihabud-Din Əhməd ibn Əli ibn Həcər əl-Əsqəlani əş-Şafii, Darul-Ceyl, 1-ci nəşr, 1992.
- "əl-İstizkar əl-Cami Liməzahib Fuqəhail-Əmsar və Uləmail-Əqtar", İbn Abdul-Bərr əl-Qurtubi.
- "Kəlimut-Tayyib", Şeyxul-İslam Əhməd ibn Abdul-Həlim ibn Teymiyyə, Məktəbətul-İslami, 3-cü nəşr, 1977.
- "əl-Kamil fi Duafə ər-Rical", Əbu Əhməd Abdullah ibn Adiy əl-Corcani, Darul-Kutubil-İlmiyyə, 1997.

- “əl-Kaşif fi Mərifəti mən ləhu Rivayətun fil-Kutub əs-Sittə”, Şəmsuddin Əbu Abdullah Muhəmməd ibn Əhməd əz-Zəhəbi əd-Diməşqi, Darul-Qiblə.
- “əl-Kəbair”, Muhəmməd ibn Osman əz-Zəhəbi, Darun-Nədva əl-Cədidə.
- “Kəşful-Əstar an Zəvaid əl-Bəzzar aləl-Kitab vəs-Sunnə”, Nuruddin Əli ibn Əbu Bəkr əl-Heysəmi.
- “əl-Kunə vəl-Əsma”, Əbu Bişr Muhəmməd ibn Əhməd ibn Həmmad əd-Dolabi, Dar İbn Həzm, 2000.
- “Qaidətu-Cəliyyə fit-Təvəssul vəl-Vəsilə”, Şeyxul-İslam Əhməd ibn Abdul-Həlim ibn Teymiyyə, Məktəbətul-Furqan, 2001.
- “Qissətul-Məsihid-Dəccal və Nuzul İsa aleyhissəlatu vəssəlam”, Muhəmməd Nasirəddin əl-Albani, Məktəbətul-İslamiyyə.
- “Qovl əl-Mufid alə Kitabit-Tövhid”, Muhəmməd ibn Saleh əl-Useymin, Dar İbnul-Cövziyyə.
- “əl-Qovl əl-Muqtədab fi Hukmil-Ğina və Əlatut-Tarəb”, Suleyman ibn Muhəmməd əş-Şitvi, Darul-Qasim.
- “Məaricul-Qəbul bi-Şərh Səlmil-Vusul ilə Elmil-Usul fit-Tovhid”, Hafiz ibn Əhməd Həkəmi, Məktəbətul-Muhəmmədiyyə.
- “əl-Məcmu Şərh əş-Şirazi”, Əbu Zəkəriyya Muhyiddin Yəhya ibn Şərəf ən-Nəvəvi.
- “Məcmuə Fətəva”, Şeyxul-İslam Əhməd ibn Abdul-Həlim ibn Teymiyyə, Mucamma Məlik Fəhd, 1995.
- “Məcmuə Fətavə vər-Rəsail” Muhəmməd ibn Saleh əl-Useymin, Darul-Vətən, 1993.

- “Məcməuz-Zəvaid və Mənbəul-Fəvaid”, Nuruddin Əli ibn Əbu Bəkr əl-Heysəmi, Darul-Fikr, 1992.
- “Mədaric əs-Salikin beynə Mənazili İyyakə Nəbudu və İyyakə Nəstəin”, Muhəmməd ibn Əbu Bəkr ibn Qeyyim əl-Covziyyə, Darul-Kutubul-Ərəbi, 1973.
- “Mənasikul-Həcc vəl-Umrə fil-Kitabi vəs-Sunnəti və Əsaris-Sələf, və Sərdi mə Əlhəqən-Nasu bihə minəl-Bidəi”, Muhəmməd Nasirəddin əl-Albani, əl-Məktəbətul-İslamiyyə, 1987.
- “Mərifətus-Səhabə”, Əbu Nueym Əhməd ibn Abdullah ibn Əhməd əl-İsbəhani, Darul-Vətən, 1998.
- “Məsabihut-Tənvir aləl-Cami əs-Səğir”, (Muxtəsər Feydul-Qədir Şərh əl-Cami əs-Səğir) Muhəmməd Nasirəddin əl-Albani.
- “Məsailul-İmam Əhməd ibn Hənbəl Rivayətu İbn Əbul-Fədl Saleh”, Əbul-Fədl Saleh, Darul-İlmiyyə, 1988.
- “əl-Mətalibul-Aliyə bi-Zəvaidil-Məsanidis-Səmaniyə”, İbn Həcər əl-Əsqəlani, 1-ci nəşr, 1998.
- “Mətləul-Bədrəyn fimən yutə Əcruhu Mərrəteyn” Abdur-Rəhman ibn Əbu Bəkr əs-Suyuti.
- “Miratul-Məfatih Şərh Mişkatul-Məsabih”, Əbul-Həsən Ubeydullah ibn Muhəmməd Abdus-Səlam əl-Mubarəkfuri, İdarətul-Buhusil-İlmiyyə, 3-cü nəşr, 1984.
- “Mişkatul-Məsabih”, Muhəmməd ibn Abdullah əl-Xətib, Təhqiq edən: Muhəmməd Nasirəddin əl-Albani, Məktəbul-İslami, 1985.
- “Mizan əl-İtidal fi Nəqdir-Rical”, Şəmsuddin Əbu Abdullah Muhəmməd ibn Əhməd əz-Zəhəbi.

- "Mocəm əl-Kəbir", Əbu Qasim Suleyman ibn Əhməd ət-Təbərani, Muəssəsətul-Kutubis-Səqafiyyə, 2-ci nəşr, 1986.
- "Mocəm əl-Ovsat", Əbu Qasim Suleyman ibn Əhməd ət-Təbərani, Darul-Hərəmeyn, 2-ci nəşr, 1995.
- "Mocəm əs-Səğir", Əbu Qasim Suleyman ibn Əhməd ət-Təbərani, Muəssəsətul-Kutubus-Səqafiyyə, 1-ci nəşr, 1986.
- "əl-Muğni fi Fiqhil-İmam Əhməd ibn Hənbəl əş-Şeybani", Əbu Muhəmməd Abdullah ibn Əhməd ibn Qudamə əl-Məqdisi, Darul-Fikr, 1-ci nəşr, 1985.
- "Muxtəsər əş-Şəmail əl-Muhəmmədiyyə", müəllif: ət-Tirmizi, ixtisar edən: Muhəmməd Nasirəddin əl-Albani, Məktəbətul-İslamiyyə.
- "Muxtəsər Zəvaid Musnəd əl-Bəzzar", İbn Həcər əl-Əsqəlani, Muəssəsətul-Kutubis-Səqafiyyə, 1-ci nəşr, 1992.
- "əl-Muntəxəb min Musnəd Abd ibn Humeyd", Əbu Muhəmməd Abd ibn Humeyd ibn Nəsr əl-Kissi, Aləmul-Kutub.
- "Musənnəf Abdur-Rəzzaq", Əbu Bəkr Abdur-Rəzzaq ibn Himam əs-Sənani, əl-Məktəbul-İslami, 2-ci nəşr, 1983.
- "Musnəd əl-Bəzzar" və ya "əl-Bəhruz-Zəxxar", Əbu Bəkr Əhməd ibn Amr ibn Abdul-Xaliq əl-Bəzzar, Məktəbətul-Ulum vəl-Hikəm, 1-ci nəşr, 2009.
- "Musnəd Əbu Əvanə", Əbu Əvanə Yəqub ibn İshaq əl-İsfiraini, Darul-Mərifə.
- "Musnəd Əbu Davud ət-Təyalisi", Suleyman ibn Davud, Darul-Mərifə.

- "Musnəd Əbu Yə'la əl-Movsuli", Əhməd ibn Əli ibn əl-Musənnə ət-Təmimi, Darul-Məmun, 1-ci nəşr, 1984.
- "Musnəd İmam Əhməd", İmam Əhməd ibn Hənbəl əş-Şeybani, əl-Məktəbul-İslami, 5-ci nəşr, 1985.
- "Musnəd İshaq ibn Rahuyə", İshaq ibn İbrahim ibn Məxləd ibn Rahuyə əl-Hənzəli, Məktəbətul-İman, 1-ci nəşr, 1991.
- "Musnəd əş-Şafii", Əbu Abdullah Muhəmməd ibn İdris əş-Şafii, Dar əl-Kutub əl-İlmiyyə.
- "Musnəd əş-Şamiyyin", Suleyman ibn Əhməd ibn Əyyub Əbul-Qasim ət-Təbərani, Muəssəsətur-Risalə, 1984.
- "Mustədrək aləs-Səhiheyn", Əbu Abdullah əl-Hakim ən-Nisaburi, Darul-Mərifə.
- "Muşkilul-Əsar", Əbu Cəfər Əhməd ibn Muhəmməd ibn Sələmə ət-Təhavi əl-Əzdi.
- "Muvatta", İmam Malik ibn Ənəs, Daru İhyaut-Turas, 1985.
- "Neylul-Ovtar Şərh Muntəqal-Əxbar", Muhəmməd ibn Əli ibn Muhəmməd əş-Şovkani, Darul-Hədis, 1-ci nəşr, 1993.
- "ən-Nihayə fi Ğəribil-Hədis vəl-Əsər", Əbu Səadət əl-Mubarək ibn Muhəmməd əl-Cəzəri, Məktəbətul-İlmiyyə, 1979.
- "Nukət alə Kitabi İbnus-Səlah", Əbul-Fədl, Əhməd ibn Əli ibn Həcər əl-Əsqəlani, İmadətul-Bəhsil-İlmi, 1-ci nəşr, 1984.
- "Nuzhətul-Əlbab fil-Əlqab", İbn Həcər əl-Əsqəlani, Əhməd ibn Əli ibn Muhəmməd, Məktəbətur-Ruşd, 1989.
- "Nuzhətul-Əsma fi Məsələtis-Sima" İbn Rəcəb əl-Hənbəli, Darul-Asimə, 1-ci nəşr, 1987.

- "Rovdətul-Uqəla və Nuzhətul-Fudəla", Əbu Hatim Muhəmməd ibn Hibban əbn Əhməd ət-Təmimi əl-Busti, Darul-Kutubil-İlmiyyə, 1977.
- "Ruhul-Məani fi Təfsiril-Quranil-Azim vəs-Səbil-Məsani", Məhmud əl-Əlusi, Darul-Fikr.
- "əs-Samt və Adabul-Lisan", Əbu Bəkr Abdullah ibn Muhəmməd ibn Ubeydullah ibn Əbud-Dunya, Dar əl-Kutub əl-Ərəbi, 1-ci nəşr, 1990.
- "Səhih əl-Buxari", Əbu Abdullah Muhəmməd ibn İsmail əl-Buxari, Mətbəətul-Hindi.
- "Səhih Əbu Davud", Muhəmməd Nasirəddin əl-Albani, Muəssəsətu Ğiras, 1-ci nəşr, 2002.
- "Səhih əl-Ədəbul-Mufrad", Muhəmməd Nasirəddin əl-Albani, Darus-Siddiq, 2-ci nəşr, 1994.
- "Səhih və Daiful-Cami", Muhəmməd Nasirəddin əl-Albani.
- "Səhih İbn Hibban bi-Tərtib İbn Bəlban", Əbu Hatim əd-Darimi əl-Busti Muhəmməd ibn Hibban ibn Əhməd, Muəssəsətur-Risalə, 2-ci nəşr, 1993.
- "Səhih İbn Macə", Muhəmməd Nasirəddin əl-Albani.
- "Səhih Muslim", Əbul-Hüseyn Muslim ibn Həccac əl-Qurəşi ən-Nisaburi, Dar İhyaut-Turas.
- "Səhih və Daif Sunən ət-Tirmizi", Muhəmməd Nasirəddin əl-Albani, Məktəbətul-Məarif.
- "Səhih İbn Xuzeymə", Əbu Bəkr Muhəmməd ibn İshaq ibn Xuzeymə ən-Nisaburi, Məktəbul-İslami, 1970.

- “Səhih ət-Tərğib vət-Tərhib”, Muhəmməd Nasirəddin əl-Albani, Məktəbətul-Məarif, 5-ci nəşr.
- “əs-Səmrul-Mustətab”, Muhəmməd Nasirəddin əl-Albani 1-ci nəşr.
- “əs-Səvaiqul-Mursələ aləl-Cəhmiyyə vəl-Muattilə”, Muhəmməd ibn Əbu Bəkr ibn Qeyyim əl-Covziyyə, Darul-Kitabil-Arabi, 3-cü nəşr, 1998.
- “Sifətu Səlatin-Nəbi”, Muhəmməd Nasirəddin əl-Albani, Məktəbul-Məarif, 1-ci nəşr, 2006.
- “əs-Siqat” Əbu Hatim Muhəmməd ibn Hibban əbn Əhməd ət-Təmimi əl-Busti, Darul-Fikr, 1975.
- “Silsilətul-Əhadisis-Səhihə”, Muhəmməd Nasirəddin əl-Albani, Məktəbətul-Məarif.
- “Silsilətul-Əhadisid-Daifə”, Muhəmməd Nasirəddin əl-Albani, Məktəbətul-Məarif.
- “Siratun-Nəbəviyyə, İmam Əbul-Fida İsmail ibn Kəsir, Darul-Mərifə, 1971.
- “Siyər Əlam ən-Nubələ”, Şəmsuddin Əbu Abdullah Muhəmməd ibn Əhməd əz-Zəhəbi.
- “Subulus-Səlam”, Muhəmməd ibn İsmail əs-Sənani, Məktəbətu Mustafa əl-Babi əl-Hələbi, 4-cü nəşr, 1960.
- “Sunən əl-Beyhəqi əl-Kubra”, Əhməd ibnul-Hüseyn ibn Əli Musa Əbu Bəkr əl-Beyhəqi, Məktəbu Darul-Baz, 1994.
- “Sunən Əbu Davud” İmam Əbu Davud Suleyman ibn Əşəs əs-Sicistani əl-Əzdi, Dar İbn Həzm, 1-ci nəşr.

- "Sunən əd-Darimi", İmam Əbu Muhəmməd ibn Abdur-Rəhman ibn Fədl əd-Darimi, Darur-Rəyyan, 1987.
- "Sunən əd-Daraqutni", Əbul-Həsən Əli ibn Ömər əd-Daraqutni, Muəssəsətur-Risalə.
- "Sunən İbn Macə" İmam Əbu Abdullah Muhəmməd ibn Yezid əl-Qəzvini, Darul-Mərifə, 1-ci nəşr, 1996.
- "əs-Sunən əl-Kubra", İmam Əbu Abdur-Rəhman Əhməd ibn Şueyb ibn Əli ən-Nəsai, Darul-Kutubul-İlmiyyə, 1-ci nəşr, 1991.
- "Sunən Səid ibn Mənsur", Əbu Osman Səid ibn Mənsur ibn Şobə əl-Covzəcani, Darul-Useymi, 1-ci nəşr, 1994.
- "əs-Sunən əs-Suğra", İmam Əbu Abdurrəhman Əhməd ibn Şueyb ən-Nəsai, Darul-Bəşairul-İslamiyyə, 2-ci nəşr, 1986.
- "Sunən ət-Tirmizi", İmam Əbu İsa Muhəmməd ibn İsa ibn Sovrə ət-Tirmizi, Mətbəətul-Vətəniyyə.
- "əş-Şəmail əl-Muhəmmədiyyə vəl-Xəsail əl-Mustəfəviyyə", Əbu İsa Muhəmməd ibn İsa ibn Sovra ət-Tirmizi, Muəssəstul-Kutubis-Səqafiyyə, 1992.
- "Şərh Əbu Davud", Əbu Muhəmməd Məhmud ibn Əhməd ibn Musa Bədruddin əl-Ayni, Məktəbətur-Ruşd, 1-ci nəşr, 1999.
- "Şərh Əqidətu əs-Səffariniyyə" Muhəmmd ibn Saleh ibn Muhəmməd əl-Useymin.
- "Şərh Lumatul-İtiqad əl-Hadi ilə Səbilir-Rəşad", Muhəmməd ibn Saleh ibn Muhəmməd əl-Useymin.
- "Şərhul-Mumti alə Zadil-Mustəqnə", Muhəmməd ibn Saleh ibn Muhəmməd əl-Useymin, Muəssəsətu Əsam, 2-ci nəşr, 1995.

- "Şərh Muşkilul-Əsar" Əbu Cəfər Əhməd ibn Muhəmməd ibn Sələmə ət-Təhavi, Muəssəsətur-Risalə, 1-ci nəşr, 1994.
- "Şərh Riyadus-Salihin", Muhəmməd ibn Saleh ibn Muhəmməd əl-Useymin.
- "Şərh Səhih Muslim", Muhyiddin Əbu Zəkəriyya Yəhya ibn Şərəf ən-Nəvəvi əş-Şafii, Darul-Qələm.
- "Səhih Sirə ən-Nəbəviyyə", Muhəmməd Nasirəddin əl-Albani, əl-Məktəbətul-İslamiyyə, 1-ci nəşr.
- "Şərh əs-Sunnə", Hüseyn ibn Məsud əl-Bəğəvi, Məktəbul-İslami, 2-ci nəşr, 1983.
- "Şərh Usul İtiqad Əhlis-Sunnə vəl-Cəmaə minəl-Kitab vəs-Sunnə və İcmais-Səhabə", Hibətullah ibnul-Həsən ibn Mənsur əl-Lalakai, Darut-Teybə, 1982.
- "Şərəfu Əshabul-Hədis", Xətib əl-Bəğdadi.
- "Şoəbul-İman", Əbu Bəkr Əhməd ibn Hüseyn ibn Əli əl-Beyhəqi, Darul-Kutubul-İlmiyyə, 1-ci nəşr, 1990.
- "Tarix Bəğdad", Əhməd ibn Əli Əbu Bəkr əl-Xətib əl-Bəğdadi, Darul-Kutubil-İlmiyyə.
- "Tarix Corcan", Həmzə ibn Yusuf Əbul Qasim əl-Corcani, Aləmul-Kutub, 3-cü nəşr, 1981.
- "Tarix əl-İslam və Vəfəyatul-Məşahir vəl-Əlam", Şəmsuddin Muhəmməd ibn Əhməd ibn Osman əz-Zəhəbi, Darun-Nəşr, 1-ci nəşr, 1987.
- "Tarix əl-Kəbir", Muhəmməd ibn İsmail əl-Buxari.
- "Tarix Vasit", Bəhşəl, Əhməd ibn Səhl ər-Rəzzaz əl-Vasiti.

- "ət-Təbəqat əl-Kubra", Əbu Abdullah Muhəmməd ibn Səd əl-Bəsri, Dar-Sadir, 1-ci nəşr, 1968.
- "Tədribur-Ravi və Şərh Təqribin-Nəvəvi", Abdurrəhman ibn Əbu Bəkr əs-Suyuti, Məktəbətu-Riyad.
- "Təfsir əl-Bəhrul-Muhit", Əbu Heyyan əl-Əndəlusi, Darul-Fikr.
- "Təfsir Ğərib mə fis-Səhiheyn əl-Buxari və Muslim", Muhəm-məd ibn Əbu Nəsr Futuh ibn Abdullah ibn Humeyd əl-Əzdi əl-Humeydi, Məktəbətus-Sunnə, 1-ci nəşr, 1995.
- "Təfsir İbn Əbu Hatim", Əbu Muhəmməd Abdur-Rəhman ibn Əbu Hatim ər-Razi, əl-Məktəbətul-Asriyya – Saydə.
- "Təfsir əl-Quran", Əbul-Muzəffər Mənsur ibn Muhəmməd ibn Abdul-Cəbbar əs-Səmani, Darul-Vətən, 1997.
- "Təfsir əl-Quran əl-Azim", İmadəddin Əbul-Fida İsmail ibn Ömər ibn Kəsir əl-Qurəşi əd-Diməşqi, Darut-Teybə, 1-ci nəşr, 1998.
- "Təfsir əs-Si'di", Adbur-Rəhman ibn Nasir ibn Abdullah əs-Si'di Muəssəstur-Risalə, 1-ci nəşr, 2001.
- "Təhrim Alətut-Tarb", Muhəmməd Nasirəddin əl-Albani, Məktəbətud-Dəlil, 1-ci nəşr, 1996.
- "Təhrimun-Nərd vəş-Şətranc vəl-Məlahi", əl-Acurri, Darul-Buxari, 2-ci nəşr, 1997.
- "Təhzib əl-Kəmal", Yusuf ibn Zəki Abdurrəhman Əbul-Həc-cac əl-Mizzi, Muəssəsətur-Risalə, 1980.

- "Təhzib ət-Təhzib", Şihabud-Din Əhməd ibn Əli ibn Həcər əl-Əsqəlani əş-Şafii, Darul-Mərifə, 1996.
- "ət-Təkmil fil-Cərh vət-Tədil və Mərifətis-Siqat vəd-Duafə vəl-Məcahil", Əbil-Fida İsmail ibn Ömər ibn Kəsir əl-Qurəşi əd-Diməşqi, Mərkəz ən-Nomən, 1-ci nəşr, 2011.
- "Təqribut-Təhzib", Şihabud-Din Əhməd ibn Əli ibn Həcər əl-Əsqəlani əş-Şafii, Muəssəsətur-Risalə, 1996.
- "Təlbis İblis", Əbul-Fərəc İbnul-Covzi, Darul-Kutub əl-İlmiyyə.
- "Təlxis Əhkamul-Cənaiz", Muhəmməd Nasirəddin əl-Albani, Məktəbul-Məarif, 3-cü nəşr, 1990.
- "ət-Təmhid limə fil-Muvatta minəl-Məani vəl-Əsanid", İbn Abdul-Bərr əl-Qurtubi, 1977.
- "ət-Təvəssül Ənvauhu və Əhkamuhu", Muhəmməd Nasirəd-din əl-Albani, Məktəbətul-İslami, 3-cü nəşr.
- "Təysirul-Azizil-Həmid fi Şərh Kitabit-Tovhid", Suleyman ibn Abdullah ibn Muhəmməd ibn Abdul-Vəhhab, Məktəbətur-Riyad.
- "Təysirul-Mustələhil-Hədis", Məhmud ət-Təhhan, Məktəbə-tul-Məarif.
- "Tohvətul-Əhvəzi bi Şərhi Camiut-Tirmizi", Əbul-Əla Mu-həmməd ibn Abdurrəhman, Darul-Kutubil-İlmiyyə.
- "Tohfətul-Movdud bi-Əhkamil-Movlud", Muhəmməd ibn Əbu Bəkr ibn Qeyyim əl-Covziyyə, Darul-Bəyan, 1971.
- "Umdətul-Qari Şərh Səhih əl-Buxari", Bədruddin əl-Ayni əl-Hənəfi, 2006.

- “Vabilus-Sayyib”, Muhəmməd ibn Əbu Bəkr ibn Qeyyim əl-Covziyyə, Darul-Kitabil-Arabi, 1-ci nəşr, 1985.
- “Vəfəyatul-Əyan və Ənbau Əbnaiz-Zaman”, Əbul-Abbas Şəmsuddin Əhməd ibn Muhəmməd ibn Xəlkan, Dar Sadir, 1994.
- “Zadul-Məad fi Hədyi Xeyril-İbad”, Muhəmməd ibn Əbu Bəkr ibn Qeyyim əl-Covziyyə, Muəssəsətur-Risalə, 2-ci nəşr, 1994.
- “Zadul-Məsir”, Əbul-Fərəc Cəmaluddin ibn Abdur-Rəhman əl-Covzi, əl-Məktəbu-İslami, 3-cü nəşr, 1984.
- “Zəmmul-Məlahi”, İbn Əbud-Dunya, Darul-İtisam.
- “əz-Zəvacir an İqtirafil-Kəbair”, Əhməd ibn Muhəmməd ibn Həcər əl-Məkki əl-Heytəmi.
- “Zilalul-Cənnə fi Təxricis-Sunnə li-İbn Əbu Asim”, Muhəmməd Nasirəddin əl-Albani, Məktəbətul-İslami, 3-cü nəşr, 1993.
- “Zuhd”, Əbu Abdullah Abdullah ibn Mubarək ibn Vadih əl-Mərvəzi, Darul-Kutubil-İlmiyyə.
- “əz-Zuhd”, İmam Əhməd ibn Hənbəl əş-Şeybani.
- “Zuhd”, Hənnad ibn əs-Sirri əl-Kufi, Darul-Xuləfa, 1-ci nəşr, 1986.

## *Tərcüməçinin tərcümə etdiyi, yazdığı və məsləhət gördüyü kitablar və kitabçalar*

1. “Qurani Kərim və Azərbaycan dilində mənaca tərcüməsi”
2. “Allaha şükür”
3. “Böyük günahlar”
4. “Camaatla qılınan sübh namazının on faydası”
5. “Cənnətlə müjdələnənlər”
6. “Elmin fəziləti”
7. “Ey Sunnə əhli, bir-birinizlə mehriban davranın!”
8. “Əbədi həyata hazırlıq”
9. “Gündəlik dualar”
10. “Hər bir müsəlmanın əqidəsi”
11. “Hikmətli dəvət”
12. “Hökmlərin əsası”
13. “Xata-baladan qorunmaq üçün oxunan dualar”
14. “Sünnə alimlərinin İxvanul-Muslimin camaatı barədə söylədikləri”
15. “İmam Hüseyn ibn Əli رضي الله عنهما”
16. “Əmirul-Muminin Əli ibn Əbu Talib رضي الله عنه”
17. “İmanın Əsasları”
18. “İman ağacı”
19. “İman və küfr məsələlərinin icmalı”
20. “Qadınlarla əlaqəli bəzi şəriət hökmləri”
21. “Qadınlara münasibət”
22. “Quranı öyrənmək üçün qızıl qaydalar”
23. “Quran və Sünnə işığında gündəlik zikrlər”
24. “Qurbanlığa aid məsələlər”
25. “Qəriblər”
26. “Məryəm oğlu İsa عليهما السلام”
27. “Məscidin ədəbləri”

28. "Müxtəsər səhih əl-Buxari"
29. "Müsafirin cib kitabı"
30. "Müsəlmanın qalası"
31. "Müstəcəb dualar"
32. "Namazın təlimi"
33. "Növbəti dəfə, ey Sunnə əhli, bir-birinizlə mehriban davranın!"
34. "On haqq"
35. "Övlad sevgisi"
36. "Özünü hesaba çək"
37. "Peyğəmbər ﷺ belə həcc etmişdir"
38. "Peyğəmbərin ﷺ xislətləri"
39. "Peyğəmbərin ﷺ orucu"
40. "Peyğəmbəri ﷺ sevmək"
41. "Ramazan fitvaları"
42. "Raşidi xəlifələr"
43. "Səhih Muslim və şərhi"
44. "Səhih müsnəd"
45. "Siqaret və onun zərərləri"
46. "Siqaret çəkməyin hökmü barədə fitva"
47. "əs-Siddiq və əs-Sadiq"
48. "Şəriət risaləsi"
49. "Sünnənin İslamda yeri"
50. "Təkfir fitnəsi"
51. "Üç sual"
52. "Valideynlərə münasibət"
53. "Vətənə münasibət"
54. "Yemək ədəbləri"
55. "140 xeyir qapısı"
56. "Zəvvarın cib kitabı"
57. "Zina"

58. “Kur'ân ve Sünnete göre en faziletli zikirler”
59. “Keşke...”
60. “10 Hak”
61. “Ömrü uzatan 50 salih amel”
62. “Helal Rızık kazanmayın 17 yolu”
63. “Vatanı koruyan aslanlar”
64. “Десять обязанностей”
65. “Имам Хусейн ибн Али ﵄”
66. “Лучшие из слов поминания Аллаха в свете Корана и Сунны”
67. “Мудрый призыв к Аллаху”
68. “Нравственность Пророка ﷺ”
69. “Обрадованные вестью о Рае”
70. “Обучение намазу”
71. “Повседневные молитвы”
72. “Прелюбодеяние”
73. “Три вопроса”
74. “Чужестранцы”

**Aşağıdakı ünvandan bu kitabların elektron variantını yükləyə bilərsiniz**

**www.burhan.az**

# Mündəricat


291-ci fəsil. Peyğəmbərin ﷺ duaları ... 5
292-ci fəsil. Sıxıntı üz verdikdə edilən dua ... 21
293-cü fəsil. İstixarə etmək istədikdə oxunan dua ... 26
294-cü fəsil. Sultanın (zülmündən) qorxduqda edilən dua ... 33
295-ci fəsil. Dua edən adam üçün hazırlanmış mükafat və savab ... 37
296-cı fəsil. Duanın fəziləti ... 39
297-ci fəsil. Külək əsərkən edilən dua ... 44
298-ci fəsil. Küləyi söyməyin ... 46
299-cu fəsil. İldırım çaxanda edilən dua ... 48
300-cü fəsil. Göy gurultusu eşitdikdə oxunan dua ... 49
301-ci fəsil. Allahdan salamatlıq diləyən kimsə ... 50
302-ci fəsil. Bəla diləməyin bəyənilməməsi ... 54
303-cü fəsil. Dözülməz bəladan Allaha sığınan kimsə ... 56
304-cü fəsil. Bir adamı qınamaq istədikdə, onun sözünü təkrar etmək ... 57
305-ci fəsil. ... 58
306-cı fəsil. Qeybət və Allahın ﷻ "Bir-birinizin qeybətini qırmayın" sözü ... 60
307-ci fəsil. Ölmüş adamın qeybətini qırmaq ... 62
308-ci fəsil. Uşağın atasının yanında onun başını sığallamaq və onun üçün bərəkət diləmək ... 63
309-cu fəsil. Müsəlmanların bir-birilərinə olan isti münasibəti ... 64
310-cu fəsil. Qonağa ehtiram göstərmək və onun xidmətində durmaq ... 65
311-ci fəsil. Qonağa bəxşiş vermək ... 68
312-ci fəsil. Qonaq saxlamağın (müddəti) üç gündür ... 69

313-cü fəsil. Ev sahibinə əziyyət verənə qədər onun yanında qalmaq olmaz ........ 70
314-cü fəsil. Adamın həyətinə (müsafir) gəldiyi zaman (o nə etməlidir?) ........ 71
315-ci fəsil. Qonaq (öz haqqından) məhrum qaldıqda (nə etməlidir?) ........ 72
316-cı fəsil. Ev yiyəsinin özünün qonağın xidmətində durması ........ 73
317-ci fəsil. Qonağına yemək verdikdən sonra qalxıb namaz qılan adam ........ 74
318-ci fəsil. Adamın (öz malından) ailəsinə xərcləməsi ........ 78
319-cu fəsil. (Adamın xərclədiyi) hər şeydə, hətta, həyat yoldaşının ağzına qoyduğu loxmada belə savab vardır ........ 81
320-ci fəsil. Gecənin (son) üçdə birində edilən dua ........ 82
321-ci fəsil. Adamın bir kimsənin qeybətini qırmaq deyil, sadəcə olaraq, onu tanıtmaq üçün "Filankəs qıvrımsaçdır, zəncidir, yaxud hündürboydur, alçaqboydur" deməsi (caizdir) ........ 84
322-ci fəsil. Bir hadisəni danışmağ ayıb saymayan kimsə ........ 88
323-cü fəsil. Müsəlmanın eybini örtən kimsə (haqqında) ........ 89
324-cü fəsil. Adamın: "İnsanlar həlak oldu!" deməsi ........ 90
325-ci fəsil. Münafiqə: "Seyid" deyilməz ........ 91
326-cı fəsil. Adam tərif olunduğu zaman nə deməlidir ........ 92
327-ci fəsil. İnsan (yəqin) bilmədiyi bir şeyə: "Allah onu bilir" deməməlidir ........ 95
328-ci fəsil. Quzəh qurşağı ........ 96
329-cu fəsil. Ağ yol ........ 97
330-cu fəsil. "Allahım, məni Öz rəhmətinin qərar tutduğu yerə yerləşdir"– deyilməsini bəyənməyən kimsə ........ 98
331-ci fəsil. Dəhri söyməyin ........ 100

332-ci fəsil. Adamın qardaşı dönüb getdiyi zaman o, ona kəskin baxışla baxmamalıdır ........ 102
333-cü fəsil. Bir adamın başqa birisinə: "Vay sənin halına!"– deməsi ........ 103
334-cü fəsil. Tikililər ........ 109
335-ci fəsil. Adamın: "Atan haqqı!"– deməsi ........ 111
336-cı fəsil. İnsan istədiyi zaman az istəməli və xahiş etdiyi şəxsi tərifləməməlidir ........ 112
337-ci fəsil. Adamın (başqa birisinə): "Düşmənin sağ qalmasın!"– deməsi ........ 114
338-ci fəsil. Adam: "Allah və filankəs" deməməlidir ........ 116
339-cu fəsil. Adamın *birisinə*: "Allah və sən istəsən!"– deməsi ........ 117
340-cı fəsil. Musiqi və əyləncə ........ 118
341-ci fəsil. Düz yolla getmək və gözəl görünüşlü olmaq ........ 122
342-ci fəsil. "Sənə xəbər gətirər təmin etmədiyin kəs" ........ 125
343-cü fəsil. Təmənna edilənlər arasında bəyənilməyən şeylər ........ 126
344-cü fəsil. Üzümə "kərm" deməyin ........ 127
345-ci fəsil. Bir adamın (başqa birisinə): "Vay sənin halına!"– deməsi ........ 128
346-cı fəsil. Adamın (qadına): "Ay qız!"– deməsi ........ 129
347-ci fəsil. Adamın: "Həvəsim yoxdur"– deməsi ........ 132
348-ci fəsil. Tənbəllikdən Allaha sığınan kimsə ........ 133
349-cu fəsil. Adamın (birisinə): "Canım sənə qurban!"– deməsi ........ 134
350-ci fəsil. Adamın (birisinə): "Atam-anam sənə fəda olsun!"– deməsi ........ 137
351-ci fəsil. Adamın, atası müsəlman olmamış birisinə "oğlum" deməsi ........ 139
352-ci fəsil. Adam: "Nəfsim alçaldı" deməməlidir ........ 141

353-cü fəsil. Əbul-Həkəm kunyəsi ........ 142
354-cü fəsil. Gözəl ad Peyğəmbərin ﷺ xoşuna gələrdi ........ 145
355-ci fəsil. Tez-tez yerimək ........ 146
356-cı fəsil. Allahın ﷻ ən çox sevdiyi adlar ........ 147
357-ci fəsil. Bir adı başqa bir adla dəyişmək ........ 149
358-ci fəsil. Allahın ﷻ ən çox nifrət etdiyi adlar ........ 151
359-cu fəsil. Birisini onun kiçildilmiş adı ilə çağıran kimsə ........ 152
360-cı fəsil. Adamı onun ən çox sevdiyi adla çağırmaq ........ 156
361-ci fəsil. Asiyə adını dəyişdirmək ........ 157
362-ci fəsil. Sarm adı ........ 159
363-cü fəsil. Ğurab adı ........ 161
364-cü fəsil. Şihab adı ........ 162
365-ci fəsil. əl-As adı ........ 163
366-cı fəsil. Dostunun adından bir şey azaldıb qısaldaraq onu çağıran kimsə ........ 164
367-ci fəsil. Zəhm adı ........ 167
368-ci fəsil. Bərra adı ........ 169
369-cu fəsil. Əfləh adı ........ 170
370-ci fəsil. Rəbah adı ........ 172
371-ci fəsil. Peyğəmbərlərin adları ........ 175
372-ci fəsil. Həzn adı ........ 179
373-cü fəsil. Peyğəmbərin ﷺ adı və kunyəsi ........ 181
374-cü fəsil. Müşrikə kunyə verilirmi? ........ 184
375-ci fəsil. Uşağa kunyə vermək ........ 186
376-cı fəsil. Adamın övladı olmamışdan əvvəl ona kunyə vermək ... 187
377-ci fəsil. Qadınların kunyəsi ........ 188
378-ci fəsil. Adamın özünə aid olan bir şeylə, yaxud hər hansı birindən ona kunyə verən şəxs ........ 190

379-cu fəsil. Böyüklərlə və fəzilətli adamlarla yol gedərkən nəyə riayət edilməlidir? 192

380-ci fəsil. 193

381-ci fəsil. Şeirdən bir qismi hikmətdir 194

382-ci fəsil. Şeirin yaxşısı yaxşı söz kimidir; həmçinin şeirin pis olanı da vardır 199

383-cü fəsil. Şeir oxutduran kimsə 201

384-cü fəsil. Şeir düşkünü olan kimsəyə pis baxan kimsə 202

385-ci fəsil. "Gözəl nitqlərdən bəzisi sehrdir"– deyən kəs 203

386-cı fəsil. Məkruh sayılan şeir 204

387-ci fəsil. Çox danışmaq 205

388-ci fəsil. Təmənna etmək 208

389-cu fəsil. Bir adama yaxud bir şeyə yaxud bir ata: "O, dərya-dır"– demək 209

390-cı fəsil. (Adamı) sözü yanlış ifadə etdiyinə görə vurmaq 210

391-ci fəsil. Adamın (bir kəsin və ya bir şeyin) haqq olmadığını qəsd edərək: "Bir şey deyil"– deməsi 211

392-ci fəsil. Eyhamla danışmaq 213

393-cü fəsil. Sirri yaymaq 215

394-cü fəsil. Lağa qoymaq. Uca Allahın ﷻ **"Bir camaat digərini məsxərəyə qoymasın!"** sözü 217

395-ci fəsil. İşlərdə tələsməmək 219

396-cı fəsil. (Birisinə) küçə və yaxud bir yol göstərən adam 220

397-ci fəsil. Kor adamı yoldan azdıran kimsə 221

398-ci fəsil. Təcavüz etmək 222

399-cu fəsil. Təcavüz etməyin cəzası 224

400-cü fəsil. Əsil-nəcabətli olmaq 225

401-ci fəsil. Ruhlar bir toplum əsgərdir ... 228

402-ci fəsil. Adamın təəccübləndiyi zaman: "Subhanəllah!"– deməsi ... 230

403-cü fəsil. Əli yerə sürtmək ... 233

404-cü fəsil. Daş atmaq ... 234

405-ci fəsil. Küləyi söyməyin ... 235

406-cı fəsil. Adamın: "Filan və filan ulduz sayəsində bizə yağış yağdı"– deməsi ... 236

407-ci fəsil. Adam bulud gördükdə nə deməlidir ... 238

408-ci fəsil. Uğursuzluğa yozma ... 241

409-cu fəsil. (Əlamətləri) uğursuzluğa yozmayanın fəziləti ... 242

410-cu fəsil. Cinlər (xüsusunda) bədbinlik etmək ... 245

411-ci fəsil. Fəl ... 246

412-ci fəsil. Gözəl adla (Allahdan) bərəkət diləmək ... 248

413-ü fəsil. Atdakı uğursuzluq ... 250

414-cü fəsil. Asqırmaq ... 253

415-ci fəsil. Adam asqırdığı zaman nə deməlidir ... 255

416-cı fəsil. Asqıran adama rəhmət diləmək ... 257

417-ci fəsil. Asqıraq səsi eşidən kəs: "Əlhəmdulilləh!" deməlidir ... 262

418-ci fəsil. Asqırmanı eşidən adam necə rəhmət diləməlidir ... 263

419-cu fəsil. Asqırıb, Allaha həmd etməyən kimsəyə rəhmət dilənməz ... 265

420-ci fəsil. Asqıran adam hansı sözlə başlayır ... 267

421-ci fəsil. "Əgər Allaha həmd etdinsə, Allah sənə rəhmət eləsin!"– deyən kimsə ... 269

422-ci fəsil. Kimsə (asqırdıqda): "Əb" deməsin ... 270

423-cü fəsil. Adam bir neçə dəfə asqırdığı zaman (ona "Yərhəmukəllah!" deyilirmi) ... 271

424-cü fəsil. Yəhudi asqırdıqda (ona “Yərhəmukəllah!” deyilirmi?) ... 273
425-ci fəsil. Kişinin qadına rəhmət diləməsi ... 274
426-cı fəsil. Əsnəmək ... 276
427-ci fəsil. Cavab verdikdə: “Buyur!”– deyən kimsə ... 277
428-ci fəsil. Adamın öz qardaşı üçün ayağa qalxması ... 279
429-cu fəsil. Adamın oturan adam üçün ayağa qalxması ... 292
430-cu fəsil. (Adam) əsnədikdə əlini ağzına tutmalıdır ... 294
431-ci fəsil. Bir adam əl barmaqlarıyla başqa birisinin başını təmizləyə bilərmi? ... 296
432-ci fəsil. Təəccübləndikdə, başı tərpətmək və dodaqları dişləmək ... 301
433-cü fəsil. Təəccübləndikdə adamın əlini buduna və ya bir şeyə vurması ... 302
434-cü fəsil. Adamın öz dostuna pislik etmək məqsədi olmadan əlini onun buduna vurması ... 305
435-ci fəsil. Özü oturmuş ikən, camaatın onun üçün ayaq üstə durmasını bəyənməyən adam ... 311
436-cı fəsil ... 314
437-ci fəsil. Adamın ayağı keyləşdikdə nə deməlidir ... 317
438-ci fəsil ... 318
439-cu fəsil. Uşaqlarla əl verərək görüşmək ... 320
440-cı fəsil. Əl verərək görüşmək ... 321
441-ci fəsil. Qadının uşağın başını sığallaması ... 325
442-ci fəsil. Qucaqlaşmaq ... 326
443-cü fəsil. Kişinin öz qızını öpməsi ... 329
444-cü fəsil. Əli öpmək ... 330

445-ci fəsil. Ayağı öpmək....333

446-cı fəsil. Bir adamın başqa birisini əzəmətləşdirmək məqsədilə onun üçün ayağa qalxması....334

447-ci fəsil. Salamın başlanğıcı....335

448-ci fəsil. Salamı yaymaq....336

449-cu fəsil. Öncə salam verən kimsə....339

450-ci fəsil. Salamın fəziləti....342

451-ci fəsil. əs-Səlam Allahın ﷻ adlarından biridir....345

452-ci fəsil. Müsəlmanın müsəlman üzərində haqqı, onunla rastlaşdıqda ona salam verməsidir....349

453-cü fəsil. Gedən oturana salam verməlidir....350

454-cü fəsil. Minikdə olan oturana salam verməlidir....352

455-ci fəsil. Piyada minikdə olana salam verməlidirmi?....353

456-cı fəsil. Azlıq çoxluğa salam verir....354

457-ci fəsil. Kiçik böyüyə salam verir....355

458-ci fəsil. Salamın hüdudu....356

459-cu fəsil. İşarə ilə salam verən kimsə....357

460-cı fəsil. (Adam) salam verdikdə onu eşitdirməlidir....359

461-ci fəsil. Salam vermək, həm də verilən salamı eşitmək (məqsədilə camaat arasına) çıxan kəs....360

462-ci fəsil. Məclisə gəldikdə salam vermək....362

463-cü fəsil. Məclisdən qalxdıqda salam vermək....363

464-cü fəsil. Məclisdən qalxdıqda salam verən kimsənin haqqı....364

465-ci fəsil. Əl verib görüşmək məqsədilə əlinə ətir vuran kəs....367

466-cı fəsil. Tanıdığına və tanımadığına salam vermək....368

467-ci fəsil....369

468-ci fəsil. Fasiqə salam verilmir....372

469-cu fəsil. Günahkara və ətir vurana salam verməyi tərk edən kimsə....374
470-ci fəsil. Əmirə salam vermək....378
471-ci fəsil. Yatan adama salam vermək....384
472-ci fəsil. (Birisinə) “Həyyakəllah!” (demək)....385
473-cü fəsil. (Birisinə) “Mərhəba!” (demək)....387
474-cü fəsil. Salamı necə almalı?....388
475-ci fəsil. Salamı almayan kimsə....394
476-cı fəsil. Salam verməyə xəsislik edən kimsə....396
477-ci fəsil. Uşaqlara salam vermək....399
478-ci fəsil. Qadınların kişilərə salam verməsi....400
479-cu fəsil. Qadınlara salam vermək....402
480-ci fəsil. Xüsusi olaraq bir adama salam verməyi bəyənməyən kimsə....404
481-ci fəsil. Hicab ayəsi necə nazil olmuşdur?....407
482-ci fəsil. Üç övrət vaxtı....410
483-cü fəsil. Kişinin öz həyat yoldaşı ilə yemək yeməsi....412
484-cü fəsil. Yaşayış olmayan evə girdikdə (nə deyilməlidir?)....416
485-ci fəsil. **“Sahib olduğunuz kölələr *yanınıza girmək istədikdə,* qoy, sizdən izin istəsinlər”**....418
486-cı fəsil. Allahın ﷻ: **“Sizin uşaqlar da həddi-büluğa çatanda...”** kəlamı....419
487-ci fəsil. Adam anasının yanına daxil olmaq üçün izin istəməlidir....420
488-ci fəsil. Adam atasının yanına daxil olmaq üçün izin istəməlidir....421
489-cu fəsil. Adam atasının və övladının yanına daxil olmaq üçün izin istəməlidir....422

490-cu fəsil. Adam bacısının yanına daxil olmaq üçün izin istəməlidir ... 423

491-ci fəsil. Adam qardaşının yanına daxil olmaq üçün izin istəməlidir ... 425

492-ci fəsil. (Otağa daxil olmaq üçün) üç dəfə izin istənilməlidir ... 426

493-cü fəsil. İzin istəmək salamdan əlavədir ... 429

494-cü fəsil. İzin almadan (başqasının evinin içinə) baxan adamın gözü çıxarılmalıdır ... 430

495-ci fəsil. Baxmaq üçün izin istəmək ... 431

496-cı fəsil. Adamın başqa birisinə onun evində salam verməsi ... 433

497-ci fəsil. Adamı (evə) dəvət etmək ona (içəri girmək üçün) izin vermək deməkdir ... 436

498-ci fəsil. Adam qapının yanında necə durmalıdır? ... 440

499-cu fəsil. İzin istəyən adama: "Mən çıxanadək gözlə"– deyilsə, harada oturub gözləməlidir ... 441

500-ci fəsil. Qapını döymək ... 442

501-ci fəsil. (Adam) izin almamış içəri girmişsə, (nə etməlidir?) ... 443

502-ci fəsil. (Adam): "İçəri girə bilərəmmi?"– deyib salam verməyibsə, (nə etməlidir?) ... 445

503-cü fəsil. İzin necə istənilməlidir? ... 450

504-cü fəsil. "Kimdir"– deyənə, "Mənəm"– deyən kimsə ... 451

505-ci fəsil. İzin istədikdə: "Salamatlıqla içəri gir!"– deyilərsə ... 453

506-cı fəsil. Evlərə baxmaq ... 454

507-ci fəsil. Salam verərək öz evinə girən kimsənin fəziləti ... 458

508-ci fəsil. Adam evə girdiyi zaman Allahı zikr etməsə, o evdə şeytan gecələyər ... 460

509-cu fəsil. İzin istənilməyən yerlər ... 462

510-cu fəsil. Bazardakı dükanlara girmək üçün izin istəmək .............463
511-ci fəsil. Əcəmlərdən necə izin istənilməlidir?................................464
512-ci fəsil. Zimmi məktub yazıb salam verdikdə, ona cavab verilir.........................................................................................................466
513-cü fəsil. Zimmilərə birinci salam verilmir......................................467
514-cü fəsil. Zimmiyə işarə ilə salam verən kimsə ...............................468
515-ci fəsil. Zimmilərdən salamı necə almaq lazımdır?.......................469
516-cı fəsil. Müsəlman və müşrik olan məclisə necə salam verilməlidir?..................................................................................................470
517-ci fəsil. Kitab əhlinə məktub necə yazılmalıdır? ............................471
518-ci fəsil. Kitab əhli: "Əssamu aleykum"– desə, (ona nə deyilməlidir) ....................................................................................................474
519-cu fəsil. Yol getdikdə Kitab əhli yolun ən dar yerinə sıxışdırılmalıdır ........................................................................................................475
520-ci fəsil. Zimmi üçün necə dua etməli?............................................476
521-ci fəsil. Bir adamın nəsrani olduğunu bilmədən ona salam verən kimsə (nə etməlidir?)......................................................................478
522-ci fəsil. Bir adam (sənə): "Filankəs sənə salam söyləyir"– desə, (buna necə cavab verməlisən?) ......................................................479
523-cü fəsil. Məktuba cavab vermək......................................................480
524-cü fəsil. Qadınlara məktub yazmaq və onların məktubuna cavab vermək ...........................................................................................481
525-ci fəsil. Məktubun əvvəli necə yazılır? ............................................483
526-cı fəsil. "Əmma bəd..." (sözü).........................................................485
527-ci fəsil. Məktubları "Bismillahir-Rəhmanir-Rəhim" *sözü* ilə başlamaq ......................................................................................................486
528-ci fəsil. Məktub yazdıqda ilk əvvəl kimin adı yazılmalıdır?........488

529-cu fəsil. Sabaha necə çıxdın? ........ 490
530-cu fəsil. Məktubun sonunda: "Əssəlamu aleykum və rahmətullah", habelə, "Yazdı: filankəsin oğlu filankəs, ayın sonuna on gün qalmış" yazan kimsə ........ 492
531-ci fəsil. (Birisinə) "Necəsən?"– (demək) ........ 494
532-ci fəsil. Bir kəsə: "Sabaha necə çıxdın?"deyildikdə, nə cavab verməlidir? ........ 495
533-cü fəsil. Məclislərin ən xeyirlisi – ən geniş olanıdır ........ 498
534-cü fəsil. Qibləyə tərəf yönəlmək ........ 499
535-ci fəsil. Adam yerindən qalxıb (gedib), sonra da yerinə qayıdıbsa ........ 500
536-cı fəsil. Yolda oturmaq ........ 501
537-ci fəsil. Məclisdə *bir-birinə* yer vermək ........ 503
538-ci fəsil. Adam çatdığı yerdə oturmalıdır ........ 504
539-cu fəsil. İki nəfərin arasına girmək olmaz ........ 505
540-cı fəsil. Məclisin sahibinə doğru addımlamaq ........ 506
541-ci fəsil. Adam üçün ən hörmətli adam, onun oturub-durduğu adamdır ........ 510
542-ci fəsil. Adam oturub-durduğu kimsənin qarşısında ayaqlarını uzada bilərmi? ........ 511
543-cü fəsil. Camaat arasında olan kimsənin tüpürməsi ........ 512
544-cü fəsil. Yollarda oturmaq ........ 515
545-ci fəsil. (Quyunun başında) oturub ayaqlarınıquyuya sallayan və qıçlarının üstünü açan kimsə ........ 517
546-cı fəsil. Adam bir kimsə üçün yerindən qalxdığı zaman, o kimsə onun yerində oturmamalıdır ........ 522
547-ci fəsil. Əmanət ........ 523
548-ci fəsil. (Peyğəmbər ﷺ birinə tərəf) döndüyü zaman, tam (vücudu) ilə dönərdi ........ 525

549-cu fəsil. (Adam) birisini bir iş dalınca göndərdiyi zaman ona xəbər verməməlidir ....... 527
550-ci fəsil. Adam: "Haradan gəlmisən?"– deyə bilərmi? ....... 528
551-ci fəsil. İstəmədikləri halda bir camaatın söhbətinə qulaq asmaq istəyən adam ....... 530
552-ci fəsil. Taxt üzərində oturmaq ....... 535
553-cü fəsil. Adam bir toplumun gizlin söhbət etdiyini gördüyü zaman onların arasına girməsin ....... 542
554-cü fəsil. İki nəfər üçüncü adamın yanında öz aralarında pıçıldaşmasınlar ....... 544
555-ci fəsil. Dörd nəfər bir yerdə olduğu zaman (onlardan ikisi öz aralarında pıçıldaşa bilərmi?) ....... 546
556-cı fəsil. Bir adam başqa birisinin yanında oturarsa, qoy, qalxıb getmək istədikdə ondan izin istəsin ....... 548
557-ci fəsil. Günəş şüalarının qurtaracağında oturmamaq ....... 549
558-ci fəsil. Yerdə oturulu halda paltarın içində dizləri qatlayıb əllər ilə onu qucaqlamaq ....... 550
559-cu fəsil. Özünə döşəkcə verilmiş kimsə ....... 551
560-cı fəsil. Qurfusa ....... 553
561-ci fəsil. Bardaş qurmaq ....... 554
562-ci fəsil. İhtiba ....... 555
563-cü fəsil. Dizləri üstə çökən kimsə ....... 559
564-cü fəsil. Arxası üstə uzanmaq ....... 562
565-ci fəsil. Üzüqoylu uzanmaq ....... 563
566-cı fəsil. Adam ancaq sağ əli ilə almalı və sağ əli ilə verməlidir ....... 565
567-ci fəsil. Adam oturduqda ayaqqabılarını hara qoymalıdır? ....... 566
568-ci fəsil. Şeytan ağac parçasını, yaxud buna bənzər bir şeyi gətirib çarpayının üstünə atar ....... 567

569-cu fəsil. Örtüyü olmayan bir dam üstə yatan kimsə ..................... 568
570-ci fəsil. Adam oturduğu zaman ayaqlarını aşağı sallaya bilərmi? ..................... 570
571-ci fəsil. Adam iş dalınca evdən çıxdıqda nə deməlidir ..................... 571
572-ci fəsil. Adam öz dostlarının önündə ayaqlarını qabağa uzada bilərmi, onların qabağında dirsəklənə bilərmi? ..................... 573
573-cü fəsil. Adam səhərə çıxdıqda nə deməlidir ..................... 577
574-cü fəsil. Adam axşama çıxdıqda nə deməlidir ..................... 581
575-ci fəsil. Adam yatağına uzandıqda nə deməlidir ..................... 584
576-cı fəsil. Yatmazdan qabaq dua etməyin fəziləti ..................... 592
577-ci fəsil. Adam əlini yanağının altına qoyar ..................... 595
578-ci fəsil. ..................... 596
579-cu fəsil. Yatağından qalxıb sonra (yatmaq üçün) yerinə qayıtdıqda onu çırpmaq ..................... 598
580-ci fəsil. Adam gecə oyandıqda nə deməlidir ..................... 599
581-ci fəsil. Əli yağlı olduğu halda yatan kimsə ..................... 601
582-ci fəsil. Lampanı söndürmək ..................... 602
583-cü fəsil. İnsanlar yatdıqları zaman evdə odu yana-yana saxlamamalıdırlar ..................... 605
584-cü fəsil. Yağış vasitəsilə xeyir-bərəkət diləmək ..................... 608
585-ci fəsil. Evdə qamçı asmaq ..................... 609
586-cı fəsil. Gecə vaxtı qapını kilidləmək ..................... 610
587-ci fəsil. Zülmət çökdüyü zaman uşaqları bayıra buraxmamaq ... 611
588-ci fəsil. Heyvanları vuruşdurmaq ..................... 612
589-cu fəsil. İtin hürməsi və eşşəyin anqırmağı ..................... 613
590-cı fəsil. (Adam) Xoruzun banladığını eşitdikdə (nə deməlidir?) ..................... 615

591-ci fəsil. Birəni söyməyin ... 616
592-ci fəsil. Günortaüstü dincəlmək ... 617
593-cü fəsil. Gündüzün sonunda yatmaq ... 621
594-cü fəsil. Ziyafət vermək ... 622
595-ci fəsil. Sünnət etmək ... 624
596-cı fəsil. (Qız uşağını) sünnət etmək ... 625
597-ci fəsil. Sünnətə dəvət etmək ... 626
598-ci fəsil. Sünnətdə əylənmək ... 627
599-cu fəsil. Zimminin dəvətini qəbul etmək (yaxud zimmini qonaq dəvət etmək) ... 628
600-ci fəsil. Kənizi sünnət etmək ... 629
601-ci fəsil. Yaşlı adamı sünnət etmək ... 630
602-ci fəsil. Uşaq doğulduqda dəvət etmək ... 633
603-cü fəsil. Xurmanı əzib uşağın damağına sürtmək ... 634
604-cü fəsil. Uşaq doğulduqda dua etmək ... 635
605-ci fəsil. Uşaq salamat doğulduqda, onun oğlan və ya qız uşağı olduğuna əhəmiyyət vermədən, Allaha həmd edən kimsə ... 636
606-cı fəsil. Qasığı qırxmaq ... 637
607-ci fəsil. (Qasıqdakı tükləri) qırxmağın vaxtı ... 639
608-ci fəsil. Qumar ... 640
609-cu fəsil. Xoruz qumarı ... 642
610-cu fəsil. Dostuna: "Gəl qumar oynayaq"– deyən kimsə ... 643
611-ci fəsil. Göyərçin qumarı ... 645
612-ci fəsil. Qadınlar üçün zümzümə ilə şeir demək ... 646
613-cü fəsil. Musiqi ... 647
614-cü fəsil. Nərd oynayanlara salam verməyən kimsə ... 651
615-ci fəsil. Nərd oynayanın günahı ... 652

616-cı fəsil. (İtaətində olanları) tərbiyə etmək, nərd oynayanları və batil əhlini bayıra çıxartmaq ........ 655

617-ci fəsil. Mömin bir yuvadan iki dəfə sancılmaz ........ 658

618-ci fəsil. Gecə vaxtı (ox, nizə və s.) atmaq ........ 659

619-cu fəsil. Allah (dilədiyi) bir yerdə qulunun canını almaq istədiyi zaman, həmin yerdə o qul üçün onun ehtiyacı olduğu şeyləri yaradır ........ 661

620-ci fəsil. Burnunu paltarına silən kimsə ........ 662

621-ci fəsil. Vəsvəsə ........ 664

622-ci fəsil. Zənn ........ 668

623-cü fəsil. Cariyənin və qadının öz həyat yoldaşının (saçlarını və s.) qırxması ........ 671

624-cü fəsil. Qoltuqaltı tükləri qopartmaq ........ 672

625-ci fəsil. Gözəl əhd ........ 673

626-cı fəsil. Tanışlıq ........ 675

627-ci fəsil. Uşaqların qozla oynaması ........ 676

628-ci fəsil. Göyərçin kəsmək ........ 678

629-cu fəsil. Bir adamın başqa birisinə işi düşdüyü zaman özünün onun yanına getməsi gərəkdir ........ 680

630-cu fəsil. Camaat yanında bəlğəm tüpürmək ........ 681

631-ci fəsil. Adam camaata xitab etdikdə bir nəfərə üz tutmamalıdır ........ 682

632-ci fəsil. Lüzumsuz baxmaq ........ 683

633-cü fəsil. Artıq söz ........ 686

634-cü fəsil. İkiüzlü adam ........ 688

635-ci fəsil. İkiüzlü adamın günahı ........ 689

636-cı fəsil. İnsanların ən pisi alçaq hərəkətlərindən ehtiyat edilən adamdır ........ 690

637-ci fəsil. Həyalı olmaq ........ 691
638-ci fəsil. Kobudluq etmək ........ 693
639-cu fəsil. Utanmırsansa, istədiyini et ........ 694
640-cı fəsil. Qəzəblənmək ........ 695
641-ci fəsil. Adam qəzəbləndikdə nə deməlidir ........ 697
642-ci fəsil. İnsan qəzəbləndikdə susmalıdır ........ 698
643-cü fəsil. Dostunu, öz ehtiyatını gözləyərək sev ........ 699
644-cü fəsil. Qoy, nifrətin məhvə gətirib çıxarmasın ........ 700
Son söz ........ 701
Xülasə ........ 707
Bəzi hədis terminlərinin izahlı lüğəti ........ 709
İstifadə edilmiş ədəbiyyat ........ 715
Tərcüməçinin tərcümə etdiyi, yazdığı və məsləhət gördüyü kitablar və kitabçalar ........ 731
Mündəricat ........ 734

# Qeydlər